Bundan əlavə, Kompleks ətraf mühitin qorunması və yaşıllaşdırma təşəbbüsləri istiqamətində də fəaliyyət göstərir. Belə ki, 2023-cü ildə respublika səviyyəsində "Yaşıl Dünya naminə Həmrəylik İli" elan olunması ilə əlaqədar olaraq, Kompleks ümumilikdə 850 ağacın əkilməsini təşkil etmiş və təmin etmişdir. Davamı olaraq isə 2025-ci ildə Kompleks tərəfindən Quba və Quba ətrafı ərazilərdə 600-də çox ağac əkilmişdir. Eyni zamanda, Kompleks iməclik tədbirləri də həyata keçirir, bu da həm cəmiyyətin birliyini, həm də milli-mənəvi dəyərlərin təşviqini gücləndirir. [12, s.16]

2020-ci ildən fəaliyyət planına daxil olan növbəti layihə isə "Ustad dərsləri"nin təşkili olmuşdur. Fəaliyyət göstərdiyi son 6 il ərzində 20 nəfərdən çox alim, ziyalı Azərbaycanın tarixi həqiqətlərindən, Azərbaycan xalqının başına gətirilən faciələrdən apardıqları araşdırmalar, təhlillər və müqayisələr şəkilində geniş mühazirələr söyləmişdir.

1.3 Beynəlxalq məlumatlandırma və tarixi həqiqətlərin tanıdılması

Quba şəhərində "Soyqırımı Memorial Kompleksi"nin fəaliyyətində prioritet istiqamətlərdən biri soyqırımı həqiqətlərinin beynəlxalq ictimaiyyətə elmi əsaslarla çatdırılmasıdır. Müasir soyqırımı muzeylərinin təcrübəsində olduğu kimi, Memorial Kompleks yalnız faciəvi hadisələrin nümayişi ilə kifayətlənmir, eyni zamanda soyqırımı hadisələrinin başvermə səbəblərini, icra mexanizmlərini və nəticələrini sistemli şəkildə

öyrənən tədqiqat mərkəzi funksiyasını da yerinə yetirir. Bu baxımdan 1918-ci il soyqırımlarının xronologiyasının bərpası, şahid ifadələri və arxiv sənədləri əsasında baş verənlərin araşdırılması, cinayətkar dəstələrin ideoloji və siyasi motivlərinin təhlili aparılan elmi işlərin əsas istiqamətlərini təşkil edir.

Jan Assmann kollektiv yaddaşı yalnız milli identitetin formalaşma vasitəsi kimi deyil, tarixi zorakılıq və travmatik keçmişlə bağlı ümumbəşəri siyasi və mənəvi məsuliyyət yaradan mədəni mexanizm kimi qiymətləndirir [1, s. 110–146]. Quba şəhərində "Soyqırımı Memorial Kompleksi" bu yanaşma əsasında 1918-ci il soyqırımlarının insan haqlarının kütləvi şəkildə pozulmasının nümunəsi kimi təqdim edir, milli və etnik nifrətin hansı fəlakətli nəticələrə gətirib çıxardığını dünya ictimaiyyətinə göstərir. Bununla yanaşı, memorial fəaliyyəti soyqırımı cinayətlərinin cəzasız qalmamalı olduğu ideyasını ön plana çıxararaq tarixi ədalətin bərpasına çağırış edir.

Kompleks dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən eyniməzmunlu mərkəzlərlə əməkdaşlıq etmək üçün təşəbbüs göstərir, təkliflər hazırlayır, eyni zamanda beynəlxalq sərgilərdə və elmi konfranslarda iştirak edir.

Memorial Kompleksdə yerləşən kütləvi məzarlıq, toplanmış arxiv sənədləri, şahid ifadələri, foto-materiallar və arxeoloji tapıntılar soyqırımı faktlarının saxtalaşdırılmasının qarşısının alınmasına xidmət edən mühüm elmi bazanı formalaşdırır. Bu materiallar 1918-ci il soyqırımlarının təsadüfi deyil, məqsədli və planlı zorakılıq -terror siyasətinin tərkib hissəsi olduğunu sübut etməyə imkan verir. Beləliklə, Quba şəhərində "Soyqırımı Memorial Kompleksi" soyqırımın yalnız nəticələrini deyil, onun ideoloji hazırlıq mərhələsini və icra mexanizmlərini də araşdıraraq dünya tarixşünaslığı üçün etibarlı bilik mənbəyi yaradır.

Bildiyimiz kimi Memorial muzeylər yalnız regional tarixi faktları qorumaqla kifayətlənməyərək, tarixi travmaların universallığını və onların təkrarının qarşısını almaq üçün "Bir daha əsla" prinsipini beynəlxalq auditoriyaya çatdıraraq, tarixi zorakılığı xatırladır daha sülhsevər və demokratik gələcək yaratmaq məqsədi daşıyır [14, s.282]. Beynəlxalq məlumatlandırma missiyası çərçivəsində Memorial Kompleks tərəfindən xarici dillərdə hazırlanmış ekspozisiya materialları, xəritələr və elmi nəşrlər 1918-ci il soyqırımının qlobal auditoriyaya çatdırılmasına şərait yaradır.

Xarici tədqiqatçılar üçün yaradılmış 4 dildə açıq informasiya mühiti və beynəlxalq elmi əməkdaşlıqlar hadisələrin regional deyil, ümumbəşəri faciə kimi təqdim olunmasına xidmət edir. [8]

Xarici tədqiqatçılar üçün hazırlanmış 4 dildəki braşurlar yalnız məlumat ötürmək funksiyasını yerinə yetirmir, həm də açıq informasiya mühiti yaratmaqla beynəlxalq elmi əməkdaşlıqları təşviq edir. [8] Bu braşurlar vasitəsilə 1918-ci il Quba və digər Azərbaycan bölgələrində baş vermiş soyqırım hadisələri yalnız regional çərçivədə deyil, ümumbəşəri faciə kimi təqdim olunur. Onlar həmçinin tarixi faktların saxtalaşdırılmasının qarşısını almaq, hadisələrin məqsədli və planlı xarakterini sübut etmək və gələcək nəsillərə tarixi maarifləndirmə imkanları yaratmaq baxımından böyük əhəmiyyət kəsb edir.

Braşurların məzmunu fotoşəkillər, arxiv sənədləri, şahid ifadələri, arxeoloji tapıntılar və xəritələr ilə zənginləşdirilmişdir ki, bu da beynəlxalq auditoriya üçün hadisələrin dolğun və etibarlı təsvirini təmin edir. Eyni zamanda, bu materiallar tədqiqatçıların və tarixçilərin elmi işlərində istifadə oluna bilən əsaslı mənbə rolunu oynayır, soyqırımın ideoloji hazırlıq mərhələsi və icra mexanizmlərini analiz etməyə imkan yaradır.

Beləliklə, bu braşurlar və digər xarici dillərdə hazırlanmış nəşrlər vasitəsilə Memorial Kompleks beynəlxalq səviyyədə tarixi məlumatlandırma missiyasını həyata keçirir, dünya auditoriyasına "Bir daha əsla" prinsipini çatdırır və tarixi zorakılığı xatırladaraq sülhsevər, tolerant və demokratik gələcək üçün elmi və təhsil yönümlü zəmin yaradır. Bu yanaşma,

Memorial Kompleksin həm elmi, həm də maarifləndirici funksiyalarını beynəlxalq səviyyədə gücləndirir və Azərbaycan tarixinin dünya tarixşünaslığında etibarlı və tanınan mənbə kimi mövqeyini möhkəmləndirir.

MÜZAKİRƏ

Yuxarıda təqdim olunan materiallar göstərir ki, Quba şəhərində "Soyqırımı Memorial Kompleksi" təkcə xatirə məkanı deyil, eyni zamanda elmi-tədqiqat və beynəlxalq məlumatlandırma funksiyalarını özündə birləşdirən çoxşaxəli institut kimi fəaliyyət göstərir. Kompleksin maarifləndirici və elmi fəaliyyəti 1918-ci il soyqırımı hadisələrinin regional çərçivədən çıxarılaraq ümumbəşəri tarixi faciə kimi dərk olunmasına mühüm töhfə verir. Xüsusilə arxiv sənədləri, şahid ifadələri və arxeoloji tapıntılara əsaslanan ekspozisiyalar tarixi faktların saxtalaşdırılmasına qarşı güclü elmi arqument bazası formalaşdırır. Xarici dillərdə hazırlanmış nəşrlər və beynəlxalq əməkdaşlıqlar Azərbaycan tarixinin dünya tarixşünaslığına inteqrasiyasını sürətləndirir və kollektiv yaddaşın qlobal səviyyədə paylaşılmasına şərait yaradır. Bu kontekstdə Memorial Kompleks Jan Assmannın kollektiv yaddaş konsepsiyasına uyğun olaraq tarixi travmanı yalnız milli deyil, bəşəri məsuliyyət müstəvisində təqdim edir. Nəticə etibarilə, Kompleksin fəaliyyəti "Bir daha əsla" prinsipinin elmi və maarifləndirici əsaslarla beynəlxalq auditoriyaya çatdırılmasına xidmət edən davamlı və strateji bir model kimi qiymətləndirilə bilər.

NƏTİCƏ

Quba şəhərində fəaliyyət göstərən "Soyqırımı Memorial Kompleksi"ndə həyata keçirilən layihələrin əsas məqsədi 1918-ci il azərbaycanlılara qarşı törədilmiş soyqırımı həqiqətlərinin elmi əsaslarla araşdırılması və dünya ictimaiyyətinə çatdırılmasıdır. Elmi-tədqiqat, maarifləndirmə və beynəlxalq məlumatlandırma fəaliyyətlərinin vəhdəti Kompleksin fəaliyyətində tarixi ədalətin bərpasına xidmət edən elmi və ideoloji platformaya çevirir.

ƏDƏBİYYAT SİYAHISI

1. Assmann, J. Cultural Memory and Early Civilization. Cambridge, UK: Cambridge University Press, 2010, Chapter 3, pp. 110–146.
2. Aydın, M. Tarih, kimlik ve kolektif hafıza. Ankara, Türkiye: Türk Tarih Kurumu, 2018, ss. 23–68.
3. Bayramova, R. Quba soyqırımı (aprel–may 1918-ci il) və bu soyqırımı ilə bağlı məlumatların ziyarətçilərə çatdırılmasında məlumat və xəritə kitabçalarının önəmi. Quba, 2025, s. 6–8.
4. Biletska, Y., Şahin, C., & Şükür, İ. (2014). Kolektif Hafıza ve Milli Kimlik Bağlamında Türkiye'de Resmi Tarih Yazıcılığı. İnsan və Toplum Bilimleri Araştırmaları Dergisi, 3(1), ss. 94–116.
5. Çınar, M. U. Collective Memory and National Identity: Questions, Answers and New Questions. Galatasaray Üniversitesi İletişim Dergisi, 2017. 26, ss. 135–156.
6. Nora, P. Between Memory and History: Les lieux de mémoire. Paris, France: Éditions Gallimard, 1989, pp. 7–24.
7. Ortaylı, İ. Османская империя и её наследие. İstanbul, Türkiye: Timaş Yayınları, 2011, ss. 55–92.
8. Quba Soyqırımı Memorial Kompleksi. Məlumatlandırıcı braşur. Bakı, 2013, s. 4.

9. Quba Soyqırımı Memorial Kompleksi. Azərbaycanlıların soyqırımlarına həsr olunmuş gəzinti sxemi. Quba, 2018, s. 4.
10. Quba Soyqırımı Memorial Kompleksi. Xarici tədqiqatçılar üçün hazırlanmış 4 dildə braşurlar. Quba, 2018, s. 4.
11. Quba Soyqırımı Memorial Kompleksi. Məlumat və xəritə kitabçaları. Bakı, 2023, s. 4.
12. Quba şəhərində Soyqırımı Memorial Kompleksi 2013–2023. (On illik jurnal). Bakı, 2023.
13. Smirnov, N. A. Национальные конфликты на Кавказе в начале XX века. Moskva, Rusiya: Наука, 2000, ss. 101–145.
14. Sodaro, A. Museums and the Memory of Genocide. In: David J. Simon & Leora Kahn (eds.), Handbook of Genocide Studies, 2023 Chapter 20, pp. 276–287. Edward Elgar Publishing.
15. Volkov, V. K. Кавказ в годы революций и гражданской войны. Moskva, Rusiya: РОССПЭН, 2012, ss. 88–130.
16. Winter, J. War Beyond Words: Languages of Remembrance. Cambridge, UK: Cambridge University Press, 2015, Chapter 2, pp. 45–78.
17. Soyqırım.az. Quba Soyqırımı Memorial Kompleksi – rəsmi veb-sayt: https://soyqirim.az/about
18. https://www.facebook.com/qubasoyqirim

NAXÇIVAN MEMARLIQ ABİDƏLƏRİNİN TÜRKİYƏDƏ ÖYRƏNİLMƏSİ VƏ NƏŞRİ

Study and Publication of Nakhchivan Architectural Monuments in Turkey

ƏBÜLFƏZ QULİYEV
Abulfaz Guliyev
ebulfezamanoglu@gmail.com
https://orcid.org/0000-0001-8733-3833

Naxçıvan Dövlət Universiteti
Nakhchıvan State Unıversıty

XÜLASƏ

Azərbaycan ölkəsi Şərqdə memarlığın geniş şəkildə inkişaf etdiyi qədim mədəniyyət mərkəzlərindən biridir. Bu baxımdan Naxçıvan memarlıq abidələri, bu sənət ənənələrinin ardıcıl şəkildə davam etdirilməsi, burada Əcəmi memarlıq məktəbinin meydana çıxması, həmin məktəbin türk dünyasında, xüsusilə Anadoluda geniş təsir dairəsinə malik olması diqqəti cəlb edir. Ona görə də türk sənət tarixçiləri öz tədqiqatlarında Anadoludakı memarlıq abidələrində Naxçıvan məktəbinin izlərini tez-tez xatırlatmış, faydalı müqayisələr aparmışlar.Təsadüfi deyildir ki,ölkə prezidenti cənab İlham Əliyev 2026-cı ili Memarlıq və şəhərsalma ili elan etmiş,eyni zamanda Əbubəkr Əcəmi Naxçıvaninin anadan olmasının 900 illiyinin qeyd olunması haqqında sərəncam imzalamışdır.Bu kontekstdə Naxçıvandakı möhtəşəm memarlıq abidəsi olan Mömünə xatun türbəsinin əsaslı təmiri üçün iri məbləğdə vəsaitin ayrılması da dövlətin memarlıq abidələrinə göstərdiyi diqqət və qayğının bariz ifadəsi kimi diqqəti cəlb etməkdədir. Biz bu məqaləmizdə Türkiyədə nəşr olunmuş , Naxçıvan memarlıq abidələri ilə sıx bağlı olan , daha çox diqqəti cəlb edən bəzi tədqiqat əsərlərini tədqiq və təhlil etdik.

Açar sözlər: *Naxçıvan, Türkiyə, memarlıq, abidələr, sənətşünaslıq*.

ABSTRACT

Azerbaijan is one of the ancient cultural centers in the East where architecture developed extensively. In this regard, the architectural monuments of Nakhchivan attract particular attention due to the consistent continuation of these artistic traditions, the emergence of the Ajami architectural school in this region, and the wide sphere of influence of this school in the Turkic world, especially in Anatolia. Therefore, Turkish art historians have frequently referred to the traces of the Nakhchivan school in the architectural monuments of Anatolia in their studies and have made useful comparisons. It is no coincidence that the President of the country, Mr. Ilham Aliyev, has declared 2026 as the Year of Architecture and Urban Planning and has also signed a decree on the celebration of the 900th anniversary of the birth of Ajami Nakhchivani. The allocation of substantial funds by presidential decree for the major restoration of the magnificent Momine Khatun Mausoleum in Nakhchivan is also a clear manifestation of the state's attention and care towards architectural monuments. In this article, we have studied and analyzed several research works published in Turkey that are closely related to the architectural monuments of Nakhchivan and have attracted considerable attention.

Keywords: *Nakhchivan, Turkey, architecture, monuments, art history.*

Müstəqil Azərbaycan Respublikasının hər bir guşəsində dövlət və cəmiyyət quruculuğu istiqamətində həyata keçirilən bütün işlərdə sosial ədalət və humanizm prinsiplərinin ön planda tutulması, insan hüquq və azadlıqlarına verilən diqqət ölkəmizə təkcə İslam dünyasında deyil, eləcə də beynəlxalq aləmdə böyük nüfuz qazandırmışdır. Respublikamız İslam tarixində mühüm rol oynamış tarixi şəxsiyyət¬lərə, onların adını daşıyan ziyarətgahlara və digər müqəddəs yerlərə son dərəcə həssas münasibət göstərilən bir məkan kimi bütün müsəlmanlar tərəfindən sevilir

Muxtar respublikamızın paytaxtı Naxçıvan da İslam dünyasının tanınmış şəhərlərindən biridir. 2009-cu ilin oktyabr ayında İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin VI konfransında Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunmasına dair qərar qəbul edilən zaman məhz Azərbaycanın bu qədim diyarının İslam mədəniyyətinin çox¬əsrlik nailiyyətlərinin layiqincə qorunub yaşadılmasında

özünəməxsus rolu əsas götürülüb. Naxçıvan şəhərinin təkcə ölkəmizin deyil, bütün Şərq-İslam aləminin dövlətçilik və fəlsəfi düşüncə mərkəzi kimi qazandığı şöhrət də bu məsələdə öz həlledici rolunu oynayıb.

2018-ci ildə İslam mədəniyyətinin paytaxtı olacaq Naxçıvanda nəzərdə tutulan işlərin ən yüksək səviyyədə yerinə yetirilməsi üçün ölkə başçısı cənab İlham Əliyevin 2016-cı il 2 iyun tarixli Sərəncamı ilə Təşkilat Komitəsinin yaradılması, komitənin ilk iclasında Tədbirlər Planının layihəsinin müzakirə olunması bu mühüm tədbirin muxtar respublikamız, ölkəmiz və eləcə də bütün İslam aləmi üçün yaddaqalan bir səviyyədə keçiriləcəyinə zəmanət verir. Bu istiqamətdə 7-8 iyul 2017-ci il tarixdə doğma şəhərimizdə keçirilmiş "Naxçıvanın türk-islam abidələri:tarixdə və günümüzdə" mövzusunda beynəlxalq konfrans da mühüm mədəni-kütləvi tədbirlərdən biri kimi diqqəti cəlb edir.

Azərbaycan ölkəsi Şərqdə memarlığın geniş şəkildə inkişaf etdiyi qədim mədəniyyət mərkəzlərindən biridir. Bu baxımdan Naxçıvan memarlıq abidələri, bu sənət ənənələrinin ardıcıl şəkildə davam etdirilməsi, burada Əcəmi memarlıq məktəbinin meydana çıxması, həmin məktəbin türk dünyasında, xüsusilə Anadoluda geniş təsir dairəsinə malik olması diqqəti cəlb edir. Ulu öndərimiz Heydər Əliyev 1980-ci il 5 iyun tarixində Naxçıvanda səfərdə olarkən qeyd etmişdir: "Tarixi abidələr Naxçıvanın çoxəsrlik tarixinin əyani göstəricisidir. Bu abidələr həm də Naxçıvanın gözəlliyini, tarixi özəllyini nümayiş etdirir".

Təsadüfi deyildir ki,ölkə prezidenti cənab İlham Əliyev 2026-cı ili Memarlıq və şəhərsalma ili elan etmiş,eyni zamanda Əbubəkr Əcəmi Naxçıvaninin anadan olmasının 900 illiyinin qeyd olunması haqqında sərəncam imzalamışdır.Bu kontekstdə Naxçıvandakı möhtəşəm memarlıq abidəsi olan Mömünə xatun türbəsinin əsaslı təmiri üçün iri məbləğdə vəsaitin ayrılması da dövlətin memarlıq abidələrinə göstərdiyi diqqət və qayğının bariz ifadəsi kimi diqqəti cəlb etməkdədir.

Bölgədəki məzar abidələri, türbələr, günbəzlərin kökü qədim türk mədəniyyətinə, qədim türk memarlığına dayanır. Bu memarlıq ənənəsinin qədim türk kurqanları, Qəznəvilər və Səlcuqlular dövründəki memarlığa əsaslanması açıq-aşkar gözə çarpmaqdadır. Xüsusilə Cənubi və Şimali Azərbaycan (Naxçıvan) və Anadolu memarlığında Səlcuqlular dövründə bir bütünlük diqqəti cəlb edir. Bu baxımdan Naxçıvanda meydana çıxan Əcəmi memarlıq məktəbinin nümunələri olan Yusif Kuseyir oğlu türbəsi, Möminə xatun türbəsi, eyni zamanda elxanlılar dövrünə aid olan Gülüstan türbəsi, Qarabağlar türbəsi bütöv Azərbaycan və Anadolu sahəsində geniş əks-səda vermişdir. Onu da qeyd edək ki,biz hələ 1997-ci ildə Ankaradakı məşhur Hacəttəpə Universitetində "Sənətdə etkiləşim" mövzusunda keçirilmiş beynəlxalq konfransda məruzə edərkən Naxçıvan memarlığının Anadolu memarlıq abidələrinə təsiri üzərində geniş şəkildə dayanmışdıq(Hacıyev,Amnoğlu 2000 :182-187).

Naxçıvandakı tarix-memarlıq abidələrinin tədqiqi bizdə belə bir qənaət yaradır ki, Naxçıvan bölgəsinin intibah dövrü XII-XIV əsrlərə təsadüf edir. Bu dövrdə bölgədə iqtisadiyyatın çiçəklənməsi, Naxçıvanın böyük bir dövlətin paytaxtına çevrilməsi, eləcə də bu inkişafın mərkəzi Təbriz şəhəri olan Elxanlılar dövləti zamanında da davam etməsi möhtəşəm tarixi-memarlıq abidələrinin meydana çıxmasına münbit şərait yaratmışdı. XV-XVI əsrlərdə Səfəvi və Osmanlı dövlətləri arasındakı uzun sürən müharibələr iqtisadiyyatı zəiflətməklə yanaşı, insanların maddi durumuna, mədəniyyətin inkişafına da mənfi təsir göstərmişdi. Belə ki, bu dövrdə Naxçıvanda möhtəşəm abidələrin inşa edilməsi, demək olar ki, gözə çarpmır. Səfəvi xanədanı hakimyyətinin, xüsusən Şah Abbas dönəmində bölgənin vergidən azad edilməsi iqtisadiyyatı bir qədər canlandırsa da, bu az bir müddət davam etmiş, Əfşar, Qacar dönəmlərində isə yenidən həm iqtisadiyyat, həm mədəniyyət sahəsində tənəzzül davam etmişdir(8,s.18).

Yuxarıda qeyd etdiyimiz kimi, türk sənət tarixçiləri öz tədqiqatlarında Anadoludakı memarlıq abidələrində Naxçıvan məktəbinin izlərini tez-tez xatırlatmış, faydalı müqayisələr aparmışlar. Biz bu məqaləmizdə Türkiyədə nəşr olunmuş , mövzu ilə bağlı, daha çox diqqəti

cəlb edən bəzi tədqiqat əsərlərindən bəhs etmək istəyirik. Belə araşdırmalardan biri 1996-cı ildə Ankarada nəşr olunmuş Haqqı Önkalın "Anadolu Səlcuqlu türbələri" adlı irihəcmli tədqiqat əsəridir. Əsərdə Anadoluda Səlcuqlu və eləcə də bəyliklər və Osmanlılar dönəmində inşa edilmiş məzarüstü türbələr sistemli şəkildə tədqiq edilmiş və türk dünyasaındakı eynitipli memarlıq əsərləri ilə müqayisə olunmuşdur. Kitabda Anadoluda meydana çıxan türbə abidələrinin inşasında Əcəmi memarlıq məktəbinin təsiri və izləri dönə-dönə xatırlanmışdır. Alim 1162-ci ildə Əcəmi Əbubəkir oğlu Naxçıvani tərəfindən inşa edilmiş Yusif Küseyr oğlu türbəsinin memarlıq quruluşu haqqında ətraflı məlumat verdikdən sonra yazır: "Qərb kənarında düzənlənən giriş açıqlığı, künc sütunları, sivri kəmərli geometrik alınlıq süsləməsi ilə Anadoludaki tuğla türbələrin ilham qaynağı olduğunu düşündürən özəllikləri açıq şəkildə gözə çarpmaqdadır"(6, s. 13).

Müəllif Əcəminin inşa etdiyi Möminə xatun türbəsini Səlcuqlu dövrü memarlığının zirvəsi adlandıraraq onu daha yüksək qiymətləndirir: "Təxminən yüz il əvvəl Harrekan günbəzlərində müvafiq yetkinliyi əldə etmiş olan Səlcuqlu türbə memarlığı bu abidə ilə daha da kamilləşmiş,kamala çatmışdır deyə bilərik"(6, s.16). O, daha sonra göstərir ki, Yusif Küseyr oğlu türbəsindən sonrakı 25 il ərzində "mühəndislərin şeyxi" ustad Əcəminin topladığı təcrübənin bəhrələri bu əsərdə açıq şəkildə öz əksini tapmış, onun müəllifinin nə qədər böyük dühaya sahib olduğunu nümayiş etdirmişdir. Alim bu əsəri onun kimi onbucaqlı quruluşa malik olan 1196-cı ildə Marağada inşa edilmiş Kümbədi-kəbudla müqayisə etmiş və burada Əcəmi üslubunun güclü təsiri olduğunu göstərmişdir.Haqqı Önkal daha sonra bu əsərin Anadolu abidələrinə təsirini də vurğulamışdır :"Daxildə dairəvi planlı olan və sivri bir qübbə ilə örtülmüş əsərin diqqəti cəlb edən bir də alt qatı vardır. Alt qat, Künbədi- surxda olduğu kimi ortada bir ayaq ehtiva etməkdə və on kənarlı bu ayaq adətən bir çətir kimi açılaraq məkanı örtməkdədir. Buna çox bənzəyən Kemahdakı Mengücek Qazi türbəsinin alt qatının bu abidədən təsirləndiyini söyləməyin, iddialı bir fikir olmayacağı qənaətdindəyik "(6, s.16).

Türk sənətşünası professor Oktay Aslanapa türk memarlığındakı ortaq xüusiyyətlərin, motivlərin öyrənilməsi istiqamətində geniş tədqiqatlar aparmış və mühüm nəticələr əldə etmişdir. Bir faktı da qeyd etmək lazımdır ki, o, Şimali Azərbaycan, o cümlədən Naxçıvan memarlığının tarixinə aid xüsusi tədqiqat əsəri yazmışdır (3). Türk alimi "Türk sanatı" monoqrafiyasında türk memarlığının ortaq cizgilərini araşdırarkən burada Naxçıvan memarlıq abidələrinə xüsusi yer ayırmışdır. Məsələn, o, Əbubəkir Əcəmi Naxçıvaninin bu bölgədə yaratdığı memarlıq əsərlərini ətraflı təhlil etdikdən sonra Möminə xatun türbəsinin baş tağını xüsusilə yüksək qiymətləndirir və yazır ki, bu abidəvi baş tağ uçub dağılıb, ancaq qədim fotoşəkillərdə görünməkdədir. Belə qoşa minarəli baş tağlar, Anadolu səlcuqlu memarlığında çox istifadə edilmişdir (2.s.83). Alim daha sonra Elxanilər dövrünün abidəsi olan Gülüstan türbəsindən geniş şəkildə bəhs edir, onun külahının yıxıldığını göstərir,həmin abidənin Səlcuqlu türbə, günbəz memarlığının davamı olduğunu vurğulayır. Alim bu abidəni Kayseridəki 1276-cı il tarixli Dönər Kümbət abidəsi ilə müqayisə edir (2,s.84), Qarabağlar türbəsindən (alim onu kümbət adlandırır-Ə.Q.) bəhs edir, onun çadırların tuğla ilə əbədiləşdirildiyi əsərlərdən biridir deyə adlandırdığı Radkan türbəsinin (1205-ci il Şərqi Xorasan) XIV əsrdə gec bir davamı olduğunu vurğulayır (2,s.84).

Əsərinin başqa bir yerində müəllif Anadoludakı Səlcuqlu dövrü abidələrindəki bəzək motivlərinin, Cənubi Azərbaycan Qəzvin məscidlərindəki eyni motivlərin Naxçıvan abidələri vasitəsi ilə Anadoluya gəlib çıxdığını göstərir. Başqa bir yerdə o, 1218-ci il tarixli Sivasdakı Keykavus şəfaxanasındakı nümunələrdən bəhs edərkən "Burada daş portalın üst kənarında bir-birini kəsən altıbucaqlılarda Naxçıvan günbəzlərindəki (türbə) motivlərin yenidən dəyərləndirildiyi görülməkdədir", -deyə yazır (2,s.307). Və ya Memar Sinanın İstanbulda 1545-ci ildə ucaltdığı Xosrov paşa türbəsindən bəhs edərkən "memarlıq təcəssümü Nxçıvandakı tuğla günbəzlərin (türbə) sadələşmiş,daşdan bənzərləri halına gəlmiş kimidir" deyə yazmışdır(2, s.270). Qeyd etmək lazımdır ki, Memar Sinanın Qanuni Sultan Süleymanın

1535-1536-ci il tarixdəki İrana qarşı səfərinə qatılması, Osmanlı ordusu ilə birlikdə Naxçıvana gəlməsi, burada Əcəmi əsərlərini görməsi qaynaqlarda göstərilməkdədir (Dalokay 1968). Burada o, yeniçəri qoşununun mühəndisi sifəti ilə iştirak etmişdir. Bu səbəbdən memar Vədat Dalokayın Sinanın İstanbulda tikdiyi Xosrov Paşa türbəsi haqqında bəhs edərkən "burada Atabəylərdən qalma kümbətlərdən bir soluk gəlir" yazması da təsadüfi deyildir(4).

XX əsrin sonlarından etibarən, xüsusən dövlət müstəqilliyinə qovuşduğumuz dövrdə Türkiyədə Naxçıvan bölgəsi tarixi-memarlıq abidələrinin daha geniş və intensiv şəkildə öyrənilməsi işi həyata keçirilməyə başlanmışdır. Bu baxımdan türk sənətşünası Turqay Yazarın Naxçıvan abidələrini doktorluq dissertasiyası səviyyəsində tədqiq etməsi və sonra bu işi monoqrafiya şəkilində nəşr etdirməsi diqqəti cəlb edir. Onun 574 səhifəlik "Naxçıvanda Türk mimarisi(başlanğıcından 19.yüzyıl sonuna kadar)" adlı irihəcmli əsəri 2007-ci ildə Ankaradakı TTK nəşriyyatı tərəfindən nəşr edilmişdir. Kitabda ilk dəfə Naxçıvan Muxtar Respublikasının tarixi-memarlıq abidələri kompleks şəkildə tədqiq edilərək türk oxucusuna təqdim edilmişdir. Burada bölgədəki məscidlər, zaviyələr, türbələr, körpülər, mədrəsələr, iş mərkəzləri və bədəstanlar, karvansaralar, buzxanalar, hamamlar, xanəgahlar sənətşünaslıq baxımından ətraflı şəkildə tədqiq edilmiş, həmin sənət əsərlərinin arxitektura quruluşu, memarlıq xüsusiyyətləri, kitabələri təsvir edilmiş,eyni zamanda bu abidələrin sxemi, planı, foroşəkilləri kitaba əlavə edilmişdir. Müəllif kitabın "Dəyərləndirmə" bölməsində Naxçıvanın memarıq abidələrinin türk dünyasında yeri məsələsini nəzərdən keçirir və bu abidələri geniş miqyasda müqayisə edir. O, türk memarlığında onbucaqlı türbələri təsnif edərkən Möminə xatun, Konya II Kılıc Arslan günbəzini və Marağa Kümbədi-kəbudu bir qrupa daxil edir və yazır: "Bu tikililərdən Möminə xatun və Konya Kılıç Arslan türbəsi xanədan mənsubları üçün inşa edilmişdir. Eldənizlilərin ən parlaq dönəmlərində inşa edilən Möminə xatun türbəsinin bu tikililərə örnək olduğu söylənə bilər. Zənnimcə bu təsirin ən böyük səbəbi, Böyük Səlcuqlu dövləti içindəki ən böyük siyasi gücə sahib olan Eldənizlilərə bir xoş gəlmək,şirin(yaxın) görünmək məsələsidir və bu plan Anadolu Səlcuqlu sultanı tərəfindən məqsədli olaraq seçilmişdir" (8,s.150). Onu da qeyd etmək yerinə düşər ki, Turqay Yazar eyni zamanda "Türklər" adlı çoxcildlik ensiklopediyada "Naxçıvanda Türk mimarisi" adlı irihəcmli məqalə də nəşr etdirmişdir(9).

Müəllif haqqında bəhs etdiyimiz qiymətli əsərində türk türbə memarlığında abidənin alt mərtəbəsinin ortasında tək ayaq sütunu olan türbələri(I Gilan türbəsi də buraya daxildir-Ə.Q.) bir qrupda birləşdirərək yazır: "Bu tikililərin Cənubi Azərbaycandakı nümunələri Marağadakı Kümbəti- surx (1147-1148) və Anadoludakı örnəkləri isə Kemah Mengücək Qazi və Niksar Qırxqızlar türbəsidir" (1220). Anadolu, Cənubi Azərbaycan və Naxçıvanda yer alan bu örnəklər, bu üç bölgə arasındakı mədəni əlaqələrin nə dərəcə güclü olduğunu göstərməkdədir. Anadoludakı iki türbənin sənətkarı Ömər bin İbrahim əl-Təbəri (Kemah) və Əhməd bin Əbubəkr əl-Mərəndinin (Niksar) də bu bölgədən Anadoluya gəlmiş olması, bu plan sxeminin qaynağının Azərbaycan olduğunu göstərməkdədir"(8,s.148).

Müəllifin Gülüstan türbəsinin bənzərləri haqqında da maraqlı fikirləri vardır: "Naxçıvanda bir nümunə ilə təmsil edilən və XIV əsrlə tarixlənən on iki guşəli və oniki dilimli tikililərin dəyərləndirilməsində, bu əsrin ən böyük siyasi hadisəsi olan Elxanilər hakimiyyətini və dövlətini nəzərə almaq gərəkdir. Anadolu və Azərbaycana təxminən eyni tarixlərdə hakim olan Elxanilərin Anadoluya gətirdikləri və burada inkişaf etdirdikləri bəzi eimarlıq forma və üslublarını təkrar Azərbaycan və İrana daşıdıqları görülməkdədir. Məsələyə bu şəkildə yanaşdığımız zaman, Gülüstan türbəsi kimi bütün örnəkləri Anadoluda olan bir türbə tipinin Naxçıvanda inşa edilməsinin səbəbi aydın olur"(8,s.168).

Naxçıvanda XIV əsrə aid edilən memarlıq abidələrindən biri də İmamzadə türbəsidir. Kərpic materialından inşa edilmiş bu abidə birmərtəbəilidir. Bu gün də ibadət yeri kimi istifadə edilir. Bu abidənin üslubunda, bəlkə də onun sxemi əsasında tikilmiş türbələrə Anadoluda da təsadüf edilir. Bunlardan biri Batman vilayətinin Hasankeyf rayonundakı

Zeynal bəy türbəsidir. Bu türbə Ağqoyunlu dövlətinin zamanında, yəni XV əsrdə inşa edilmişdir. Abidənin üzərindəki kitabədə Zeynal bəy üçün inşa edildiyi göstərilir, ancaq tarix verilməmişdir. Ağqoyunlu hökmdarı Uzun Həsənin oğlu Osmanlılara qarşı Otluqbeli döyüşündə(1473)şəhid düşmüşdü. Abidənin ustası kitabədə Əbdürrəhman oğlu Pir Hüseyn olaraq qeyd edilmişdir ki, bu da onun Naxçıvan və ya Təbriz memarlıq məktəbinin nümayəndəsi olmasına işarə edir. Bu türbədə də Naxçıvan memarlıq məktəbinin üslubu açıqca görünməkdədir(7, s.53).

Əcəmi Əbubəkr oğlu Naxçıvaninin memarlıq sənəti ölməz bir məktəbdir. Onun sənətində Orta Asiya türk memarlığından qaynaqlanan özəlliklər olduğu kimi, Anadolu memarlığı, xüsusilə Səlcuqlu və Osmanlı dövrü Anadolu memarlığı ilə uyğun gələn, səsləşən cəhətlər də çoxdur. Yuxarıdakı qeydlərə əlavə olaraq onu da göstərə bilərik ki, Anadolu Kemahda inşa edilmiş Mengücək Qazi, Yozqatdakı Şah Sultan xatun və Çərkəz bəy türbələrinin də Naxçıvan memarlıq məktəbi, memarlıq abidələri ilə genetik əlaqələri olduğu zamanında təsbit edilmişdir (1,s.68). Bunlar oğuz türklərinin memarlıq sənətində də qədim dövrlərdən başlayaraq ortaq mədəni cizgilərə,dəyərlərə, xüsusiyyətlərə malik olduqlarını sübut edən faktorlardır.

Naxçıvanda təşkil olunan"Naxçıvan türk-islam mədəniyyəti abidələri: tarixdə və günümüzdə" beynəlxalq konfransı doğma diyarımızın 2018-ci il dünya islam mədəniyyətinin paytaxtı elan edilməsi ərəfəsində həyata keçirilən mühüm mədəni tədbirlərdən biri kimi yadda qalacaqdır.

Naxçıvan diyarının tarixi-memarlıq abidələrinin Türkiyə alimlərinin diqqətini cəlb etməsi təsadüfi deyil. Çünki bu tarixi-memarlıq abidələri tək Azərbaycanın deyil,bütün türk dünyasının çox dəyərli ortaq mədəni mirası kimi qiymətli və əhəmiyyətlidir.

ƏDƏBİYYAT SİYAHISI

1.Arık, M. O. Erken Devir Anadolu Türk Mimarisinde Türbe Biçimleri, Anadolu (Anatolian) XI, İstanbul,1967,s. 57-100.
2.Oktay Aslanapa.Türk sanatı, İstanbul: Remzi Kitabevi, 1997
3.Oktay Aslanapa. Kırım ve Kuzey Azerbaycanda türk eserleri, İstanbul,1979
4.Dalokay Vedat. Toplumcu Sinan , İstanbul,1968
5. İmail Hacıyev.Ebülfez Amanoğlu. XII. Yüzyıl mimarı Acemi Ebubekiroğlunun Sanatında Tasvir Motifleri//"Sanatta etkileşim" mövzusunda Ankara Hacəttəpə universitetində keçirilmiş beynəlxalq simpoziumun materialları, 25-27 noyabr 1998, Ankara, 2000, s.182-185
6.Hakkı Önkal. Anadolu Selçuklu türbeleri, Ankara:Atatürk Kültür Merkezi yayınları,1996
7.Salamzadə Ə., Məmmədzadə K. Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri, Bakı,1985
8.Turgay Yazar. Nahçıvanda Türk mimarisi(Başlanğıcından 19.yüzyılın sonuna kadar), Ankara, TTK yayını, 2007, 576 s.
9.Turgay Yazar. Nahçıvanda Türk mimarisi. "Türklər" ensiklopediyası, 20 cilddə,VIII c.Ankara,2012 s.174-184

RƏQƏMSAL TURİZM PLATFORMALARININ DAYANIQLI TURİZM İNKİŞAFINA TƏSİRİ: AZƏRBAYCAN VƏ TÜRKİYƏ ÜZRƏ MÜQAYİSƏLİ TƏHLİL

The Impact of Digital Tourism Platforms on Sustainable Tourism Development: A Comparative Analysis of Azerbaijan and Turkey

GÜLNAR ZİYADZADƏ
Gulnar Ziyadzade

gulnar.ziyadzada@mdu.edu.az
https://orcid.org/0009-0009-7546-0857

Mingəçevir Dövlət Universiteti
Mingachevir State University

XÜLASƏ

Son illərdə rəqəmsal texnologiyaların sürətli inkişafı turizm sektorunda əhəmiyyətli dəyişikliklərə səbəb olmuşdur. İnternet və mobil texnologiyalar turistlərin səyahət planlaşdırma prosesini asanlaşdıraraq turizm xidmətlərinin daha əlçatan olmasına imkan yaradır. Xüsusilə onlayn turizm agentlikləri (OTA) və digər rəqəmsal platformalar turistlərə müxtəlif xidmətləri müqayisə etmək, qiymət və keyfiyyət baxımından optimal seçim etmək imkanı verir. Bu tədqiqatın məqsədi Azərbaycan və Türkiyədə rəqəmsal turizm platformalarının dayanıqlı turizm inkişafına təsirini müqayisəli şəkildə təhlil etməkdir. Tədqiqat zamanı müqayisəli analiz və keyfiyyət analizi metodlarından istifadə edilmişdir. Araşdırma üçün məlumat mənbələri kimi elmi məqalələr, beynəlxalq təşkilatların hesabatları və rəsmi statistika məlumatları istifadə olunmuşdur. Tədqiqatın nəticələri göstərir ki, hər iki ölkədə rəqəmsal turizm platformalarının istifadəsi son illərdə əhəmiyyətli dərəcədə artmışdır. Bu platformalar turistlərin məlumat əldə etməsini asanlaşdırmaqla yanaşı, turizm xidmətlərinin keyfiyyətinin yüksəlməsinə və bazarda rəqabətin güclənməsinə səbəb olur. Bununla yanaşı, kiçik və orta turizm müəssisələrinin rəqəmsal platformalara uyğunlaşması müəyyən çətinliklər yarada bilər. Araşdırma nəticələri göstərir ki, rəqəmsal transformasiya prosesinin effektiv idarə olunması dayanıqlı turizm inkişafı üçün mühüm əhəmiyyət kəsb edir.

Açar sözlər: *Rəqəmsal turizm, Onlayn turizm agentlikləri (OTA), Ağıllı turizm, Dayanıqlı turizm, Turizm platformaları, Platforma iqtisadiyyatı, Müqayisəli analiz*

ABSTRACT

In recent years, the rapid development of digital technologies has led to significant changes in the tourism sector. The Internet and mobile technologies have facilitated the travel planning process for tourists, making tourism services more accessible. In particular, online travel agencies (OTAs) and other digital platforms allow tourists to compare various services and make optimal choices in terms of price and quality. The purpose of this study is to comparatively analyze the impact of digital tourism platforms on sustainable tourism development in Azerbaijan and Turkey. Comparative analysis and qualitative analysis methods were used during the research. Sources of information included scientific articles, reports of international organizations, and official statistical data. The results of the study show that the use of digital tourism platforms has significantly increased in both countries in recent years. These platforms not only make it easier for tourists to access information but also contribute to improving the quality of tourism services and strengthening competition in the market. At the same time, the adaptation of small and medium-sized tourism enterprises to digital platforms may pose certain challenges. The findings indicate that effective management of the digital transformation process is of crucial importance for sustainable tourism development.

Keywords: *Digital tourism, Online Travel Agencies (OTA), Smart tourism, Sustainable tourism, Tourism platforms, Platform economy, Comparative analysis*

GİRİŞ

Rəqəmsal texnologiyaların sürətli inkişafı turizm sektorunda köklü dəyişikliklərə səbəb olmuşdur. İnternet və mobil texnologiyalar turistlərə səyahətlərini planlaşdırmaq, müxtəlif

xidmətləri müqayisə etmək və sifariş prosesini daha rahat həyata keçirmək imkanı yaradır (Buhalis, 2000; Gretzel et al., 2015).

Onlayn turizm agentlikləri və digər rəqəmsal platformalar turistlər və xidmət təminatçıları arasında mühüm vasitəçi rolunu oynayır. Bu platformalar turizm xidmətlərinin daha geniş auditoriyaya çatdırılmasına şərait yaradır və bazarda rəqabətin güclənməsinə təsir göstərir (Xiang & Fesenmaier, 2017).

Eyni zamanda platforma iqtisadiyyatının genişlənməsi turizm sektorunda yeni biznes modellərinin formalaşmasına səbəb olmuşdur. Bununla yanaşı, kiçik və orta turizm müəssisələri üçün rəqəmsal platformalarda fəaliyyət göstərmək bəzən çətin ola bilər.

Mövcud tədqiqatlarda rəqəmsal turizm texnologiyalarının inkişafı geniş şəkildə araşdırılsa da, Azərbaycan və Türkiyədə bu proseslərin müqayisəli şəkildə təhlil edilməsi nisbətən az araşdırılmışdır. Bu səbəbdən hər iki ölkədə rəqəmsal turizm platformalarının inkişaf tendensiyalarının müqayisəli şəkildə öyrənilməsi mühüm elmi və praktiki əhəmiyyətə malikdir.

ƏDƏBİYYAT İCMALI

Turizm sektorunda rəqəmsal texnologiyaların tətbiqi son illərdə geniş şəkildə tədqiq olunan mövzulardan biridir. Buhalis (2020) və Gretzel və digərləri (2015) qeyd edirlər ki, smart turizm texnologiyaları turist təcrübəsinin fərdiləşdirilməsinə və xidmət keyfiyyətinin yüksəldilməsinə imkan yaradır.

Xiang və Fesenmaier (2017) turizm sektorunda böyük məlumatların və rəqəmsal platformaların qərarvermə prosesinə mühüm təsir göstərdiyini vurğulayırlar. Bu yanaşma turizm xidmətlərinin optimallaşdırılmasına və turist məmnuniyyətinin artırılmasına kömək edir.

Platforma iqtisadiyyatı turizm sektorunda yeni biznes modellərinin formalaşmasına səbəb olmuşdur. Sundararajan (2016) bu modelin bazarda rəqabəti gücləndirdiyini və innovasiyaları stimullaşdırdığını qeyd etsə də, kiçik müəssisələr üçün müəyyən çətinliklər yarada biləcəyini də bildirir.

Azərbaycan və Türkiyədə aparılan tədqiqatlar göstərir ki, hər iki ölkədə turizm sektorunda rəqəmsal platformaların istifadəsi son illərdə artmaqdadır (Aghazade, 2021; Duran & Yılmaz, 2020). Bununla belə, rəqəmsal infrastruktura çıxış imkanları və texnologiyaların tətbiq səviyyəsi ölkələr arasında müəyyən fərqlər yaradır.

MATERİAL VƏ METODLAR

Bu tədqiqatda Azərbaycan və Türkiyədə rəqəmsal turizm platformalarının istifadəsinin dayanıqlı turizm inkişafına təsirini qiymətləndirmək məqsədilə müqayisəli analiz və keyfiyyət analizi metodlarından istifadə olunmuşdur.

Tədqiqat zamanı aşağıdakı məlumat mənbələri təhlil edilmişdir:

- beynəlxalq elmi məqalələr
- beynəlxalq təşkilatların hesabatları
- rəsmi statistika məlumatları

Analiz zamanı aşağıdakı göstəricilər nəzərə alınmışdır:

1. OTA platformalarının istifadə səviyyəsi
2. Turistlərin əsas məlumat mənbələri
3. Rəqəmsal platformaların turizm müəssisələrinə təsiri
4. Kiçik və orta turizm müəssisələrinin rəqabət imkanları

MÜZAKİRƏ

Tədqiqat nəticələri göstərir ki, rəqəmsal turizm platformaları turistlərin informasiya əldə etmə imkanlarını genişləndirir və turizm xidmətlərinin əlçatanlığını artırır. Turistlər bu platformalar vasitəsilə müxtəlif xidmətləri müqayisə edə və daha optimal seçim edə bilirlər.

Aparılan müqayisəli təhlil göstərir ki, Türkiyədə rəqəmsal turizm platformalarının tətbiqi və istifadəsi Azərbaycanla müqayisədə daha yüksək səviyyədədir. Bu fərq əsasən rəqəmsal infrastruktura investisiyaların səviyyəsi və turizm sektorunun inkişaf mərhələsi ilə əlaqədardır.

Diaqram 2. Turistlərin məlumat mənbələri və seçim davranışı



Diaqram göstərir ki, turistlərin əksəriyyəti səyahət planlaşdırarkən əsas informasiya mənbəyi kimi OTA platformalarından istifadə edir. Sosial media və digər rəqəmsal platformalar da müəyyən rol oynasa da, onların istifadəsi OTA platformaları ilə müqayisədə daha aşağıdır. Ənənəvi turizm agentliklərinin rolu isə son illərdə tədricən azalmaqdadır.

TƏDQİQATIN YENİLİYİ

Bu tədqiqat Azərbaycan və Türkiyədə rəqəmsal turizm platformalarının dayanıqlı turizm inkişafına təsirini müqayisəli şəkildə araşdıran tədqiqatlardan biridir. Araşdırma çərçivəsində rəqəmsal platformaların turizm sektoruna iqtisadi və sosial təsirləri kompleks şəkildə qiymətləndirilmişdir.

NƏTİCƏ

Araşdırma göstərir ki, Azərbaycan və Türkiyədə OTA-ların və digər rəqəmsal platformaların istifadəsi 2018–2023 illərində əhəmiyyətli şəkildə artmışdır.

Cədvəl 1. Azərbaycan və Türkiyə üzrə rəqəmsal turizm platformalarının istifadəsi və təsirləri


İl	Azərbaycan (OTA)	Digər rəqəmsal platformalar	Türkiyə (OTA)	Digər rəqəmsal platformalar

2018	40%	25%	45%	25%
2019	45%	23%	50%	22%
2020	50%	20%	55%	20%
2021	55%	18%	60%	18%
2022	60%	16%	65%	17%
2023	65%	13%	70%	15%

Mənbə: Müəllif tərəfindən hazırlanmışdır.

Cədvəldə təqdim olunan məlumatlar göstərir ki, 2018–2023-cü illər ərzində həm Azərbaycan, həm də Türkiyədə OTA platformalarının istifadəsində davamlı artım müşahidə olunur. Azərbaycanda bu göstərici 40%-dən 65%-ə qədər yüksəlmişdir. Türkiyədə isə OTA istifadəsi daha yüksək səviyyədə olmuş və 45%-dən 70%-ə qədər artmışdır. Bu dinamika turizm sektorunda rəqəmsal texnologiyaların getdikcə daha geniş tətbiq olunduğunu göstərir.

Diaqram 1. Rəqəmsal platforma istifadəsi faizi (2018–2023)



Diaqramın təhlili göstərir ki, son illərdə hər iki ölkədə OTA platformalarının istifadəsində sabit artım trendi müşahidə olunur. Türkiyədə artım daha sürətli olmuşdur ki, bu da ölkənin turizm sektorunda rəqəmsal texnologiyaların daha geniş tətbiq edildiyini göstərir.

Tədqiqat nəticələri göstərir ki, rəqəmsal turizm platformaları turizm sektorunun inkişafına müsbət təsir göstərir və turistlərin informasiya əldə etmə imkanlarını genişləndirir. Bu platformalar xidmət keyfiyyətinin yüksəlməsinə və turizm bazarında rəqabətin güclənməsinə səbəb olur.

Eyni zamanda kiçik və orta turizm müəssisələrinin rəqəmsal platformalara inteqrasiyası üçün əlavə dəstək mexanizmlərinin yaradılması vacibdir. Dövlət səviyyəsində rəqəmsal infrastruktura investisiyaların artırılması və turizm müəssisələrinin rəqəmsallaşmasının təşviqi dayanıqlı turizmin inkişafına mühüm töhfə verə bilər.

Bununla yanaşı, gələcək tədqiqatlarda daha geniş empirik məlumatlardan istifadə edilməsi və digər ölkələrin də müqayisəli şəkildə araşdırılması turizm sektorunun rəqəmsal transformasiya proseslərinin daha dərindən öyrənilməsinə imkan verə bilər.

ƏDƏBİYYAT SİYAHISI

1. Aghazade, T. V. (2021). Analysis of the development of the accommodation tourism industry of Azerbaijan in modern conditions. Baku: Azerbaijan Tourism Institute Press.
2. Akhundova, N. (2021). The impact of tourism on intersectoral development in Azerbaijan. Baku: Elmi Nəşriyyat.
3. Akgül, Ö., & Gök, F. (2019). Digital marketing applications in the Turkish tourism sector. Journal of Tourism and Hospitality Studies, 7(2), 45–58.
4. Bayramli, G. (2020). Sustainable development of tourism in Azerbaijan: Current situation, problems and solutions. Baku: Elm Nəşriyyatı.
5. Becken, S. (2013). Sustainable tourism and climate change. Routledge.
6. Buhalis, D. (2000). Tourism and information technologies: Past, present and future. Tourism Management, 21(1), 47–57.
7. Buhalis, D. (2020). Technology in tourism: Smart tourism and digital transformation. Channel View Publications.
8. Buhalis, D., & Amaranggana, A. (2015). Smart tourism destinations. In ICT in tourism (pp. 553–564). Springer.
9. Creswell, J. W. (2014). Research design: Qualitative, quantitative and mixed methods approaches (4th ed.). Sage Publications.
10. Duran, M., & Yılmaz, E. (2020). Smart tourism practices in Turkey: Case studies and insights. Ankara University Journal of Tourism Research, 12(1), 33–50.
11. Gössling, S., Hall, C. M., & Scott, D. (2018). Tourism, sustainability and climate change in Turkey. Journal of Sustainable Tourism, 26(2), 183–200.
12. Gössling, S., Scott, D., & Hall, C. M. (2018). Global tourism and climate change. Journal of Sustainable Tourism, 26(1), 1–20.
13. Gretzel, U., Sigala, M., Xiang, Z., & Koo, C. (2015). Smart tourism: Foundations and developments. Electronic Markets, 25(3), 179–188.
14. Hall, C. M. (2019). Tourism and sustainability. Routledge.
15. Hays, S., Page, S. J., & Buhalis, D. (2013). Social media as a destination marketing tool. Journal of Travel Research, 52(4), 363–377.
16. Imrani, Z., & Agakishieva, G. (2020). Sustainable development of the tourism industry in Azerbaijan. Baku: Akademik Nəşriyyat.
17. Ivanov, S., & Webster, C. (2019). Robots, AI, and service automation in tourism. Emerald Publishing.
18. Kızılırmak, F., & Korkmaz, S. (2018). Digitalization in Turkish tourism: Opportunities and threats. Tourism Review International, 22(1), 15–28.
19. Kozak, M., & Baloglu, S. (2011). Tourism marketing in Turkey: Trends and challenges. London: Routledge.
20. Law, R., Buhalis, D., & Cobanoglu, C. (2014). Progress on information technology in hospitality and tourism. International Journal of Contemporary Hospitality Management, 26(5), 727–750.
21. Li, X., & Pan, B. (2020). Tourism futures: Big data and artificial intelligence. Tourism Management Perspectives, 33, 100618.
22. Mammadova, U. I. (2022). The role of digital technologies in the development of tourism in Azerbaijan. Baku: Elmi Kitab Evi.
23. Neuhofer, B., Buhalis, D., & Ladkin, A. (2015). Smart technologies for personalized experiences. Journal of Travel Research, 54(1), 1–15.
24. Öztürk, Y. (2017). Tourism development and regional strategies in Turkey. Turkish Journal of Tourism Studies, 4(2), 101–118.
25. Sigala, M. (2018). Social media and customer engagement in tourism. Journal of Travel & Tourism Marketing, 35(1), 72–89.
26. Sundararajan, A. (2016). The sharing economy. MIT Press.
27. Tussyadiah, I., & Zach, F. (2017). Interactive technologies and tourist experiences. Annals of Tourism Research, 66, 128–139.
28. Xiang, Z., & Fesenmaier, D. R. (2017). Big data analytics in tourism. Journal of Travel Research, 56(5), 1–14.

DAYANIQLI TURIZM VƏ MƏDƏNI İRS: İDENTIKLIK, EMOSIONAL BAĞLILIQ VƏ İCMA İŞTIRAKININ İNTEGRASIYASI

Sustainable Tourism and Cultural Heritage: Integration of Identity, Emotional Attachment, and Community Participation

GÜLTƏKİN KNYAZOVA
Gultekin Knyazova
yusifligultekin28@gmail.com
https://orcid.org/0009000850744821
Mingəçevir Dövlət Universiteti
Mingachevir State University

XÜLASƏ

Mədəni irsin qorunması və bu əsasda turizmin inkişafı məsələsi yalnız iqtisadi və idarəetmə kontekstində deyil, həm də sosial-psixoloji və mədəni identiklik prizmasından qiymətləndirilməlidir. Araşdırmalar göstərir ki, mədəni irs obyektləri cəmiyyətin kollektiv yaddaşının, sosial identikliyinin və milli-mənəvi dəyərlərinin qorunmasında mühüm rol oynayır. Sosial psixologiya baxımından, mədəni irs qrup mənsubiyyəti hissini gücləndirir, yerli icmalarda sosial həmrəyliyi artırır və fərdlərdə emosional bağlılıq formalaşdırır. Turizm fəaliyyəti bu proseslərlə qarşılıqlı əlaqədə olaraq həm yerli əhali, həm də turistlər üçün psixoloji rifah və mənəvi zənginləşmə təmin edir. Məqalədə həmçinin dayanıqlı turizm strategiyalarında sosial identiklik, kollektiv yaddaş, sosial norma, məkan identikliyi və emosional bağlılıq kimi psixoloji faktorların əhəmiyyəti vurğulanır. Azərbaycan kontekstində mədəni irs obyektlərinin qorunması və turizmə inteqrasiyası praktik nümunələrlə göstərilir. Nəticələr göstərir ki, mədəni irsin qorunması yalnız iqtisadi gəlir üçün deyil, həm də sosial-psixoloji davamlılığın təmin edilməsi, milli kimliyin möhkəmləndirilməsi və cəmiyyətin sosial kapitalının artırılması baxımından vacibdir. Məqalədə həmçinin turizm və mədəni irs sahəsində multidissiplinar yanaşmaların, ictimai iştirak və maarifləndirmənin əhəmiyyəti praktik tövsiyələr şəklində təqdim olunur.

Açar sözlər: *Mədəni irs, dayanıqlı turizm, sosial psixologiya, kollektiv yaddaş, məkan identikliyi*

ABSTRACT

The preservation of cultural heritage and its integration into tourism development is not only an economic and managerial issue but also a matter of social-psychological and cultural identity. Research indicates that cultural heritage sites play a crucial role in safeguarding collective memory, social identity, and national values. From a social psychology perspective, cultural heritage strengthens group belonging, enhances social cohesion within local communities, and fosters emotional attachment among individuals. Tourism activities interact with these processes, providing psychological well-being and spiritual enrichment for both locals and tourists. This paper emphasizes the importance of psychological factors such as social identity, collective memory, social norms, place identity, and emotional attachment in sustainable tourism strategies. In the Azerbaijani context, the integration of cultural heritage into tourism is illustrated with practical examples. Findings demonstrate that cultural heritage preservation is essential not only for economic benefits but also for maintaining social-psychological sustainability, reinforcing national identity, and increasing social capital. The paper also offers practical recommendations on multidimensional approaches, public engagement, and awareness-raising in the fields of tourism and cultural heritage.

Keywords: *Cultural heritage, sustainable tourism, social psychology, collective memory, place identity*

GİRİŞ

Mədəni irs anlayışı müasir humanitar və sosial elmlərdə ən çox müzakirə olunan kateqoriyalardan biridir və yalnız keçmişə aid maddi qalıqların məcmusu kimi deyil, sosial konstruksiya, kollektiv yaddaş və identiklik mexanizmi kimi qiymətləndirilir. Tarixi inkişaf prosesində formalaşmış maddi və qeyri-maddi dəyərlər sistemi hər bir cəmiyyətin özünüidentifikasiya prosesində mühüm rol oynayır və milli-mədəni kimliyin əsas dayaqlarından birinə çevrilir. Bu baxımdan mədəni irs sadəcə qorunmalı obyekt deyil, sosial mənalandırma və simvolik kapital mənbəyidir (Smith, 2006). Müasir dövrdə qloballaşma,

urbanizasiya, iqtisadi liberallaşma və texnoloji transformasiyalar mədəni irsin funksional rolunu dəyişdirmiş, onu yalnız estetik və tarixi dəyər daşıyıcısı olmaqdan çıxarıb sosial-iqtisadi inkişafın aktiv resursuna çevirmişdir.

Elmi ədəbiyyatda mədəni irs anlayışı müxtəlif yanaşmalarla izah olunur. Ənənəvi yanaşma irsi maddi obyektlər – memarlıq nümunələri, arxeoloji komplekslər, monumental abidələr və tarixi şəhər mühitləri ilə əlaqələndirir. Lakin konstruktivist yanaşmaya görə, irs obyektiv mövcud olan fakt deyil, sosial olaraq seçilən və müəyyən mənalandırma prosesi nəticəsində "irs" statusu qazanan dəyərdir (Tunbridge & Ashworth, 1996). Bu yanaşma göstərir ki, hər bir cəmiyyət hansı obyektin və ya ənənənin irs kimi qorunmalı olduğuna dair seçim edir və bu seçim siyasi, ideoloji və iqtisadi amillərlə şərtlənir. Bu baxımdan mədəni irsin qorunması yalnız texniki mühafizə deyil, həm də normativ və etik məsuliyyət məsələsidir.

Beynəlxalq səviyyədə mədəni irsin qorunması üzrə normativ baza əsasən UNESCO tərəfindən qəbul edilmiş konvensiyalar vasitəsilə formalaşdırılmışdır. 1972-ci il "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında Konvensiya" mədəni irs anlayışını universal dəyər prinsipi əsasında müəyyən etmiş və dünya əhəmiyyətli obyektlərin qorunması mexanizmini təsbit etmişdir (UNESCO, 1972). Daha sonra 2003-cü il "Qeyri-maddi mədəni irsin qorunması haqqında Konvensiya" irsin yalnız fiziki obyektlərdən ibarət olmadığını, eyni zamanda ənənələr, biliklər və bacarıqlar sistemini də əhatə etdiyini təsdiq etmişdir (UNESCO, 2003). Bu sənədlər irsin qorunmasını beynəlxalq əməkdaşlıq və dövlət məsuliyyəti kontekstində tənzimləyir.

Mədəni irsin qorunması ilə turizmin inkişafı arasında qarşılıqlı əlaqə XX əsrin ikinci yarısından etibarən daha aydın şəkildə müşahidə olunmağa başlamışdır. Turizm sektoru iqtisadi baxımdan sürətlə böyüyən sahəyə çevrildikcə tarixi abidələr və mədəni mühitlər əsas turistik cəlbedicilik faktorlarına çevrilmişdir. Richards (2018) qeyd edir ki, mədəni turizm artıq kütləvi turizmin alternativi deyil, onun əsas komponentlərindən biridir və turist motivasiyalarında mədəni təcrübə aparıcı yer tutur. Lakin bu proses irs obyektlərinin kommersiyalaşması riskini də artırmışdır. Tunbridge və Ashworth (1996) tərəfindən irəli sürülmüş "dissonant heritage" konsepsiyası göstərir ki, irs müxtəlif qruplar tərəfindən fərqli mənalandırıla və iqtisadi maraqlar kontekstində manipulyasiya oluna bilər.

ƏSAS HİSSƏ

Turizmin mədəni irsə təsiri ikili xarakter daşıyır. Bir tərəfdən, turizm maliyyə resursları yaradır, abidələrin restavrasiyası və infrastrukturun yenilənməsi üçün vəsait təmin edir. Digər tərəfdən, həddindən artıq turist axını fiziki aşınmaya, sosial transformasiyaya və autentikliyin zəifləməsinə səbəb ola bilər (Timothy & Boyd, 2003). Bu səbəbdən müasir elmi diskursda "dayanıqlı mədəni turizm" anlayışı ön plana çıxır. Dayanıqlı turizm iqtisadi gəlirlilik, sosial ədalət və ekoloji balans prinsiplərini birləşdirən model kimi xarakterizə olunur (UNWTO, 2015).

Barselonada, **AI**-lə idarə olunan proqnozlaşdırıcı analizlə təchiz olunmuş **IoT** əsaslı tullantı yığma sistemi tullantı idarəetmə əməliyyatlarını əhəmiyyətli dərəcədə yaxşılaşdırıb. Ənənəvi tullantı yığma sistemləri adətən sabit cədvəllərə əsaslanır və bu da hələ tam dolmayan konteynerlərin toplanması və ya daşan konteynerlərin unudulması kimi səmərəsizliklərə səbəb olur. **IoT** sensorları tullantı konteynerlərində quraşdırılaraq, doluluq səviyyəsi haqqında real vaxtda məlumatları mərkəzi idarəetmə sisteminə göndərir. **AI** bu məlumatları, trafik nümunələri, hava şəraiti və tarixi tullantı istehsalı kimi amillərlə birgə analiz edərək, yığma marşrutlarını və cədvəllərini dinamik şəkildə optimallaşdırır. Yalnız lazım olduqda konteynerləri toplayan və ən səmərəli marşrutları izləyən yığma maşınları ilə Barselona, yığma xərclərini 40% azaldıb. Bu sistem yalnız yanacaq sərfiyyatını və əmək xərclərini azaltmır, eyni zamanda, lazımsız avtomobil hərəkətlərini məhdudlaşdıraraq CO_2 emissiyalarını da azaldır, daha yaşıl və dayanıqlı şəhər mühiti yaradır. (K. Sha and A. Taeihagh,2024, s 105868)

Kopenhagendə isə, doluluq səviyyələrini izləyən ağıllı konteynerlərin tətbiqi tullantı idarəetmə səmərəliliyini daha da artırıb. Bu konteynerlər, necə dolduqlarını aşkar edən və tutumuna çatdıqda tullantı idarəetmə orqanlarına xəbərdarlıqlar göndərən **IoT** sensorları ilə təchiz olunub. Ənənəvi tullantı yığma üsullarından fərqli olaraq, bu sistem, tullantı yığma komandalarına yalnız lazım olduqda reaksiya verməyə imkan verir. Yüksək doluluq səviyyəsinə malik konteynerləri prioritetləşdirərək və yığma marşrutlarını optimallaşdıraraq, Kopenhagen daşan tullantıları minimuma endirib, ictimai məkanlarda gigiyenanı yaxşılaşdırıb və resurslardan daha səmərəli istifadəni təmin edib. Həmçinin, bu ağıllı konteynerlərdən toplanan məlumatlar uzunmüddətli planlaşdırma üçün faydalıdır, şəhərə tullantı istehsalının trendlərini proqnozlaşdırmağa və infrastrukturunu buna uyğun tənzimləməyə kömək edir. (J. A. Ivars-Baidal, M. A. Celdrán-Bernabeu, 2024, s 104266)

Hər iki nümunə, **AI** və **IoT** texnologiyalarının tullantı idarəetməsini necə inqilablaşdırdığını, əməliyyat xərclərini azaltmaq, logistikanı optimallaşdırmaq və

ətraf mühitin dayanıqlığını artırmaqda necə təsirli olduğunu göstərir. Daha çox şəhər bu cür texnologiyaları qəbul etdikcə, daha ağıllı, daha səmərəli və ekoloji cəhətdən uyğun tullantı idarəetmə həllərinin potensialı davamlı olaraq artacaq. (J. Maliszewska-Nienartowicz, B. Michalak,2024, s 101887)

ƏDƏBİYYAT SİYAHISI

1. M. Sabokro, M. M. Masud, and A. Kayedian, —The effect of green human resources management on corporate social responsibility, green psychological climate and employees'green behavior,‖J. Clean. Prod., vol. 313, p. 127963, Sep. 2021, doi: https://doi.org/10.1016/j.jclepro.2021.127963
2. P. Páramo, —Reglas proambientales: una alternativa para disminuir la brecha entre el decir-hacer en la educación ambiental,‖Suma Psicológica, vol. 24, no. 1, pp. 42–58, Jan. 2017, doi: https://doi.org/10.1016/j.sumpsi.2016.11.001
3. D. Szpilko, F. J. Naharro, G. Lăzăroiu, E. Nica, and A. de la T. Gallegos, —Artificial Intelligence in the Smart City —A Literature Review,‖Eng. Manag. Prod. Serv., vol. 15, no. 4, pp. 53–75, Dec. 2023, doi: https://doi.org/10.2478/emj-2023-0028.
4. M. Ittarat, W. Cheungpasitporn, and S. Chansangpetch, —Personalized Care in Eye Health: Exploring Opportunities, Challenges, and the Road Ahead for Chatbots,‖J. Pers. Med., vol. 13, no. 12, p. 1679, Dec. 2023, doi: https://doi.org/10.3390/jpm13121679.
5.]M. Kamran, S. Ashraf, N. Salamat, M. Naeem, and M. S. Hameed, —Smart city design plan selection through single-valued neutrosophic probabilistic hesitant fuzzy rough aggregation information,‖J. Intell. Fuzzy Syst., vol. 45, no. 6, pp. 10693–10737, Dec. 2023, doi: https://doi.org/10.3233/JIFS-224364.
6. J. Remr, —Usefulness of a Civic Engagement Scale for Research on Smart Cities: Measuring Attitudes and Behavior,‖Smart Cities, vol. 6, no. 6, pp. 3251–3265, Nov. 2023, doi: https://doi.org/10.3390/smartcities6060144.
7. K. Sha and A. Taeihagh, —Designing adaptive policy packages for inclusive smart cities: Lessons from Singapore's smart nation program,‖Sustain. Cities Soc., vol. 115, p. 105868, Nov. 2024, doi: https://doi.org/10.1016/j.scs.2024.105868.
8. J. A. Ivars-Baidal, M. A. Celdrán-Bernabeu, F. Femenia-Serra, J. F. Perles-Ribes, and J. F. Vera-Rebollo, —Smart city and smart destination planning: Examining instruments and perceived impacts in Spain,‖Cities, vol. 137, p. 104266, Jun. 2023, doi: https://doi.org/10.1016/j.cities.2023.104266.
9. J. Maliszewska-Nienartowicz, B. Michalak, J. Modrzyńska, J. Piechowiak, and A. Szpak, —The energy transition in the cities of Copenhagen, Helsinki, and Stockholm: Similar or different pathways towards the EU's 2030 targets?,‖Urban Clim., vol. 55, p. 101887, May 2024, doi: https://doi.org/10.1016/j.uclim.2024.101887.
10. V. Beiranvand, A. A. B. U. Bakar, and Z. Othman, —A Comparative Survey of Three AI Techniques (NN , PSO , and GA) in Financial Domain,‖Int. Conf. Comput. Converg. Technol. 7th, pp. 332–337, 2012.
11. J. Ali et al., —A deep dive into cybersecurity solutions for AI-driven IoT-enabled smart cities in advanced communication networks,‖Comput. Commun., vol. 229, p. 108000, Jan. 2025, doi: https://doi.org/10.1016/j.comcom.2024.108000.
12. K. G. Arachchige, M. Murtaza, C.-T. Cheng, B. M. Albahlal, and C.-C. Lee, —Blockchain-Enabled Mitigation Strategies for Distributed Denial of Service Attacks in IoT Sensor Networks: An Experimental Approach,‖Comput. Mater. Contin., vol. 81, no. 3, pp. 3679–3705, 2024, doi: https://doi.org/10.32604/cmc.2024.059378.

13. R. Ranjan, D. Thakker, A. Haller, and R. Buyya, —A note on exploration of IoT generated big data using semantics,‖ Futur. Gener. Comput. Syst., vol. 76, pp. 495–498, Nov. 2017, doi: https://doi.org/10.1016/j.future.2017.06.032.
14. A. M. Shirwa, A. M. Hassan, A. Q. Hassan, and M. Kilinc, —A cooperative governance framework for sustainable digital transformation in construction: The role of digital enablement and digital strategy,‖ Results Eng., vol. 25, p. 104-139, Mar. 2025, doi: https://doi.org/10.1016/j.rineng.2025.104139
15. M. A. Heyik, M. C. Castellanos-Escobar, J. M. Romero-Martínez, and Z. Çalışkan, —Exploring citizens' perspectives on participatory design and planning: A comparative study across three capital cities,‖ Urban Gov., vol. 4, no. 2, pp. 101–112, Jun. 2024, doi: https://doi.org/10.1016/j.ugj.2024.03.0

MEMAR ƏCƏMİNİN AZƏRBAYCAN MƏDƏNİ İRSİNDƏ ROLU

The Role of Architect Ajami in Azerbaijan's Cultural Heritage

MAMED MAMEDOV
Mamed Mamedov

mamedmmmdov6@gmail.com
https://orcid.org/0009-0001-4780-6242

Naxçıvan Dövlət Universiteti
Nakhchıvan State Unıversıty

XÜLASƏ

Məqalədə Əcəmi Əbubəkr Naxçıvani tərəfindən yaradılmış tarixi memarlıq abidələri, onların qorunma üsulları və hazırkı vəziyyəti haqqında ətraflı məlumat verilmişdir. Memar Əcəminin dünyaca məşhur əsərlərindən Mömünə Xatun və Yusif ibn Küseyr türbələri memarlıq xüsusiyyətlərinə görə digərlərindən seçilməklə yanaşı, dünya miqyasında memarlar və səyyahlar tərəfindən də yüksək qiymətləndirilmiş, böyük maraq doğurmuşdur. Məqalədə bu abidələr haqqında məlumat verilərək, onların keçmiş və müasir dövrdəki vəziyyəti qeyd olunur. Qeyd etmək lazımdır ki, Əcəmi Əbubəkr Naxçıvaninin günümüzədək gəlib çatmayan əsərləri də mövcuddur və həmin tarixi abidələr də məqalədə xatırladılmışdır. Məqalənin əsas məqsədi Əcəminin yaradıcılığını və tarixi əsərlərini düzgün qoruyub saxlamaq, həmçinin milli-mənəvi dəyərlərimizi yeni nəsillərə düzgün şəkildə çatdırmaqdan ibarətdir.

Açar sözlər: *Əcəmi, türbələr, dəyərlər, memarlıq abidələri, Mömünə Xatun, mədəni irs,milli kimlik hissi*

ABSTRACT

The article provides detailed information about the historical architectural monuments created by Ajami Abubakr Nakhchivani, their preservation methods and current status. Among the world-famous works of architect Ajami, the tombs of Momina Khatun and Yusif ibn Kuseyr are distinguished from others due to their architectural features, and have been highly appreciated and aroused great interest by architects and travelers worldwide. The article provides information about these monuments and notes their status in the past and present. It should be noted that there are also works by Ajami Abubakr Nakhchivani that have not survived to this day, and these historical monuments are also mentioned in the article. The main purpose of the article is to properly preserve Ajami's creativity and historical works, as well as to correctly convey our national and spiritual values to new generations.

Keywords: *Ajami, tombs, values, architectural monuments, Momine Khatun, cultural heritage, sense of national identity*

GİRİŞ

Mədəni və tarixi abidələr öz dövrlərinin şahidləri kimi gənc nəsillərə tarix haqqında məlumat verir, onlarda milli kimlik hissi, vətən sevgisi və mədəniyyətə hörmət oyadır. Azərbaycanın milli sərvəti olan mədəni irsin öyrənilməsi və qorunması xalqın mənəviyyatının saxlanılması üçün zəruri şərtdir. Bu irs zaman və məkandan asılı olmayaraq öz aktuallığını qoruyan daimi dəyərlər toplusudur və kollektiv yaddaşın nəsildən-nəslə ötürülməsinə kömək edir. Maddi və mənəvi irs nümunələri təkcə tarixi yaddaşın deyil, həm də ölkənin mədəni və təbii genefondunun qorunmasında mühüm rol oynayır. Hər bir mədəniyyət həm ənənə, həm də yeniliklə xarakterizə olunur; ənənələr mədəniyyətin fərdi simasını qoruyur, yeniliklər isə onun inkişafını təmin edir.

Naxçıvan bölgəsi tarix boyu memarlıq nümunələri ilə zəngin olmuşdur. Xüsusilə orta əsrlərdə bu ərazidə İslamdan əvvəlki dövrün, eləcə də Səlcuqlu və Osmanlı memarlığının izlərini daşıyan məscidlər, mədrəsələr, saraylar və türbələr inşa edilmişdir. Orta əsr Azərbaycan memarlığının ən görkəmli nümayəndələrindən biri Naxçıvan memarlıq məktəbinin banisi hesab olunan Memar Əcəmi Əbubəkir oğlu Naxçıvanidir. Onun ən məşhur əsərləri Naxçıvanda yerləşən Yusif Küseyr oğlu və Mömünə Xatun türbələridir. Əcəmi

Naxçıvani həmçinin XII əsrdə Naxçıvanda yaradılmış Atabəylər memarlıq kompleksinə daxil olan Eldənizlər sarayı (Darülmülk), Dövlət evi, xanəgah və mədrəsə kimi binaların müəllifidir. Onun yaradıcılığının təsiri XII əsr Gülüstan türbəsində, XII-XIV əsrlərə aid Qarabağ memarlıq kompleksində, 1322-ci ildə tikilmiş Bərdə türbəsində və XIV əsr Səlmas türbəsində aydın şəkildə hiss olunur. Memar Əcəmi öz dünya şöhrətli əsərlərini "Bənna Əcəmi Əbubəkir oğlu Naxçıvaninin işidir" imzası ilə möhürləmişdir.

ƏSAS HİSSƏ

Orta əsrlərdə Azərbaycan memarlığının ən görkəmli nümayəndələrindən biri Naxçıvan memarlıq məktəbinin ən mühüm memarlarından hesab olunan Əcəmi Əbubəkr Naxçıvanidir. Əcəmi Naxçıvani bir çox abidələr inşa etsə də, onun yaratdığı iki möhtəşəm və dünya şöhrətli əsər Naxçıvanda yerləşən Yusif Küseyr türbəsi və Möminə Xatun türbəsidir. Bununla yanaşı, Memar Əcəminin haqqında az məlumat olan və müxtəlif mənbələrdən öyrənilə bilən bir sıra digər abidələri də mövcuddur. XII əsrdə Naxçıvanda yaradılmış Atabəylər memarlıq kompleksinə daxil olan Eldənizlər Sarayı (Darülmülk), Dövlət Evi (Hökumət Evi), xanəgah, mədrəsə və s. kimi inzibati və mülki binalar da Əcəmi Naxçıvani tərəfindən inşa edilmişdir. 1979-cu ildə Ordubad rayonunun Xaraba Gilan orta əsr yaşayış yerində aşkar edilmiş türbənin də XII əsrin 80-ci illərində Əcəmi Naxçıvani tərəfindən tikildiyi ehtimal olunur [1, s.16].

Əcəmi Naxçıvani dünya şöhrətli əsərlərində imzasını belə vurğulamışdır: "Bənna Əcəmi Əbubəkr Naxçıvaninin əsəridir."

Möhtəşəm memarlıq abidələri Əcəmi Naxçıvaninin yaradıcılığının təsiri altında yaradılmışdır. Belə ki, Culfa rayonunda yerləşən XII əsr Gülüstan türbəsinin də Əcəmi Naxçıvani tərəfindən inşa edildiyi iddia olunur. Eyni zamanda, XII–XIV əsrlərə aid Qarabağ memarlıq kompleksində, 1322-ci ildə inşa edilmiş Bərdə türbəsində və XIV əsrə aid Səlmas türbəsində Əcəmi yaradıcılığının rolu aydın şəkildə görünür [2, s.25].

Bütün mədəni və tarixi abidələr öz dövrlərinin canlı şahidləridir. Yalnız onlar gənc nəsillərə tarixlərini danışa, bununla da milli kimlik hissini, vətənə məhəbbəti, onun tarixinə və mədəniyyətinə hörməti oyada bilər. Mədəni irsin öyrənilməsi və qorunması Azərbaycanın milli sərvətinin məhv olmasının qarşısını almaq üçün zəruri şərtdir. Tarixi irsin inkişaf etdirilməsi xalqın mənəviyyatının qorunmasına kömək edir, əks halda həqiqi mədəniyyət saxta dəyərlərlə əvəz oluna bilər. Bundan əlavə, mədəni irs daimi dəyərlər toplusudur, zaman və məkandan asılı olmayaraq öz əhəmiyyətini və aktuallığını qoruyub saxlayır. Kollektiv yaddaşın qorunmasına xidmət edən mədəni abidələr nəsildən-nəslə, bir dövrdən digərinə ötürülür [3, s.25-28].

Əvvəlki nəsillər tərəfindən yaradılmış mənəvi və maddi irs abidələri təkcə mədəni-tarixi yaddaşın qorunmasında deyil, həm də ölkənin mədəni və təbii geninin saxlanılmasında mühüm əhəmiyyət kəsb edir. Onsuz mümkün olmayan dünya mədəni müxtəlifliyi, xalq ənənələri və davamlılıq hər bir mədəniyyət üçün böyük önəm daşıyır [4, s.66].

Qeyd etmək lazımdır ki, hər bir mədəniyyət ənənə və yeniliklə səciyyələnir. Ənənələr sayəsində mədəniyyətin fərdi siması qorunur, yeniliklər sayəsində isə mədəniyyət inkişaf edir. Mədəni-tarixi irs həm də mədəni yaddaşın qorunmasına yönəlmiş ənənələrin inkişafıdır [5, s.58].

Naxçıvan tarix boyu mühüm memarlıq əsərləri ilə zəngin bir bölgədir. Xüsusilə orta əsrlərdə bu ərazidə əhəmiyyətli memarlıq abidələri inşa edilmişdir. Bu abidələr əsasən İslamdan əvvəlki dövrə, Səlcuq və Osmanlı memarlığına aid nümunələri əhatə edir. Naxçıvanın memarlıq irsinə məscidlər, mədrəsələr, saraylar, türbələr və karvansaralar kimi

müxtəlif tikililər daxildir [6, s.45]. Bu binalar bölgənin mədəni və tarixi əhəmiyyətini əks etdirir və yüksək memarlıq ustalığının izlərini daşıyır.

Əcəmi ibn Əbubəkr Naxçıvani Azərbaycanın görkəmli memarı və Naxçıvan memarlıq məktəbinin banisi idi. Əcəmi orta əsrlər Azərbaycan memarlığına yeni bir istiqamət gətirdi. Bədii dahiliyi ilə Səlcuq memarlığının bir qədər ağır və sərt üslubuna zəriflik və dinamizm gətirərək Yaxın Şərq memarlığına güclü təsir göstərdi. Müasirləri onu şərəflə "Şeyx ül-Mühəndis" (mühəndislərin başçısı) adlandırırdılar.

Əcəminin yaradıcılığı XII əsrdə qüdrətli Azərbaycan Atabəylər dövlətinin paytaxtı Naxçıvanla əlaqələndirilirdi. Əhəmiyyətli beynəlxalq ticarət yollarının kəsişməsində yerləşən Azərbaycanın siyasi, iqtisadi, mədəni və bədii mərkəzi olan Naxçıvanda geniş abadlıq və tikinti işləri aparılmışdır. Əcəminin yaratdığı ilk məlum abidə Yusif ibn Küseyr türbəsidir. Naxçıvanın mərkəzində yerləşən və Atababa Günbəzi (Atababa Günbəzi) kimi tanınan türbə 1162-ci ildə inşa edilmişdir. Səkkizguşəli gövdədən, qülləyəbənzər günbəzdən və künclərdə yerləşdirilmiş dayaqlardan ibarət olan abidə kərpicdən tikilib və divarları həndəsi ornamentlərlə örtülmüşdür. Bu abidə incəsənət və memarlıq tektonikasını ahəngdar şəkildə birləşdirir. Abidənin giriş qapısının sol tərəfində Əcəmi adı yazılmış bir kitabə var ki, bu da hərfi mənada "Bu, Əcəmi Əbubəkr oğlu Naxçıvaninin əsəridir" kimi tərcümə olunur [7, s.65-68]. Təkcə Azərbaycanda deyil, həm də İslam dünyasında ən hündür və ən incə tikilmiş türbələrdən biri hesab olunan Möminə Xatun Türbəsi Əcəmi tərəfindən 1186-cı ildə Naxçıvanın qərb hissəsində ucaldılmışdır. "Atabəy Günbəzi" ("Atabəy Günbəzi") kimi də tanınan bu türbə Atabəy Şəms əd-Din Eldənizin həyat yoldaşı və Məhəmməd Cahan Pəhləvanın anası Möminə Xatun şərəfinə inşa edilmişdir. Böyük ölçüsü, monumental formaları və dinamik silueti ilə türbə böyük memarlıq kompleksinə hakim olmuşdur. Möminə Xatun türbəsi mürəkkəb memarlıq prinsiplərinə uyğun olaraq tikilmiş onbucaqlı bir abidədir. Türbə yeraltı hissəsinin quruluşunda, xarici səthlərinin memarlıq bölgüsündə və bu səthləri ayıran çıxıntılarda, həndəsi ornamentlərinin kompozisiyasında bədii mükəmməlliyin unikal nümunəsidir [8, s.102-105]. Əcəmi Möminə Xatun türbəsinin ornamentlərini həndəsi sistemləri xatırladan mürəkkəb naxışlar şəbəkəsi ilə birləşdirərək, Kufi yazısını ornamentə uyğunlaşdırmış və onu abidənin ümumi kompozisiyasına ustalıqla daxil etmişdir.

Əcəminin tikililərindən biri ikiqat minarədən və birləşdirici əsas tağ-portaldan ibarətdir. Bu abidə Möminə Xatun türbəsini əhatə edən böyük bir memarlıq kompleksinin girişidir. Bu kompleksin bir hissəsi olan və XIX əsrə qədər dağınıq qalan Naxçıvandakı Cümə məscidi, eləcə də mənbələrdə adı çəkilən Eldəniz Sarayı (Darülmülk) və hökumət binası (Dövlətxana) da Əcəminin sənət nümunələridir. Tədqiqatçıların fikrincə, Əcəmi bu abidələrdən əlavə, Atabəylərin paytaxtı Naxçıvanda bir çox başqa binalar da tikib. Lakin hazırda bu abidələr haqqında məlumat yoxdur.

Əcəminin yaradıcılığı Azərbaycan və Yaxın Şərq memarlığına əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Onun ənənələri Marağadakı Göy Günbəz türbəsində (1196), Naxçıvan yaxınlığındakı Gülüstan türbəsində (XIII əsr), Qarabağlar türbəsində (XII-XIV əsrlər), Bərdədəki türbədə (XIV əsr) və İstanbulda türk memarı Sinanın (XVI əsr) layihələndirdiyi türbələrdə parlaq şəkildə təmsil olunmuşdur. Əcəminin irsindən həmçinin 1926-cı ildə Gəncədə Nizaminin məzarı üzərindəki abidənin inşasında da istifadə edilmişdir. Nizami Gəncəvi türbəsi Əcəminin dahiliyinin ruhunu təcəssüm etdirir. Əcəminin memarlıq irsinin təsiri Bakıda ucaldılmış Nizami heykəlinin postamentində, Şuşadakı Vaqifin türbəsində və Naxçıvandakı Hüseyn Cavid türbəsində aydın şəkildə görünür. İncəsənət tarixçisi Ernst Diezin fikrincə, Sinanın İstanbulda tikdirdiyi türbələr Naxçıvan türbələrindən təsirlənmişdir.

Diez qeyd edir ki, Sinan 1535-1536-cı illərdə hərbi mühəndis kimi İrana səfəri zamanı Naxçıvanı ziyarət etmiş və Əcəmi memarlıq məktəbi ilə tanış olmuşdur.

Əcəminin yaradıcılığı XII əsr Azərbaycan mədəniyyətində və ictimai düşüncəsində İntibah dövrünün ən parlaq ifadələrindən biridir. Abidələrinin zərifliyi, memarlıq bölmələrinin strukturu və ornamentlərinin oynaqlığı orta əsr anlayışlarının hüdudlarını aşan bədii baxışın məhsuludur. Onun ornamental kompozisiyaları sənətkarlığı və riyazi düşüncəni birləşdirir.

Əcəmi dünya memarlığında nadir bir nailiyyət olan memarlıq sənətinin əsas problemlərindən biri olan memarlıq elminə parlaq bir həll yolu tapan bir mühəndis və rəssam idi. Onun yüksək mühəndislik ustalığı Qərbi Avropa memarlarından bir əsr əvvəl Mömünə Xatun türbəsində tikdiyi qabırğalı tağlar sistemində, eləcə də onun təməlindəki yığma qabların mürəkkəb bəzədilməsində və Cümə məscidinin nəhəng günbəzində və ikiqat minarəsində özünü göstərir [9, s.36].

Hüseyn İbrahimovun "Əsrin onda biri" romanı böyük memarın xatirəsinə həsr olunub. Onun anadan olmasının 850 illiyi 1976-cı ildə geniş şəkildə qeyd olunub. Naxçıvan şəhərində Əcəmi Naxçıvaninin büstü qoyulub.

NƏTİCƏ

Memar Əcəmi Əbubəkr oğlu Naxçıvani XII əsr Azərbaycan İntibah mədəniyyətinin ən parlaq nümayəndəsi, Naxçıvan memarlıq məktəbinin banisi və Şərq aləmində "Şeyx ül-Mühəndis" titulu ilə tanınan dahi sənətkardır. Onun yaradıcılığı Azərbaycanın milli-mədəni irsinin qorunmasında və kollektiv yaddaşın nəsildən-nəslə ötürülməsində müstəsna əhəmiyyət kəsb edir. Əcəmi Naxçıvani riyazi dəqiqliklə bədii zərifliyi birləşdirərək Yusif ibn Küseyr və Möminə Xatun türbələri kimi dünya şöhrətli şahəsərlər yaratmış, Qərbi Avropa memarlarından xeyli əvvəl mürəkkəb mühəndislik həlləri, o cümlədən qabırğalı tağlar sistemini tətbiq etmişdir. Onun üslubu təkcə Naxçıvanla məhdudlaşmamış, Marağa, Bərdə və Qarabağ memarlıq komplekslərinə, eləcə də məşhur Osmanlı memarı Sinanın yaradıcılığına köklü təsir göstərmişdir. Memarın yaratdığı abidələr Azərbaycanın tarixi və siyasi əhəmiyyətini əks etdirən canlı şahidlərdir; onlar xalqın mənəviyyatını saxta dəyərlərdən qoruyur və milli kimlik hissini gənc nəsillərə aşılayır. Beləliklə, Memar Əcəminin irsi zaman və məkandan asılı olmayaraq öz aktuallığını saxlayan, Azərbaycanın və bəşəriyyətin mədəni xəzinəsinə daxil olan daimi dəyərlər sistemidir.

ƏDƏBİYYAT SİYAHISI

1. Aliyev, Q. (2007). Harmony in the work of architect Ajami Nakhchivani. Baku, 165 s.
2. Sadigova, S.N. (2021). Artistic features of patterns on nakhchivan carpets. // In European Scientific Conference. 365 s.
3. Əliyev, Q. (2007). Memar Əcəmi Naxçıvani yaradıcılığında ahəngdarlıq Q. Əliyev; elmi qırmızı. və ön söz müəl. C. Qiyasi. Bakı: Şərq-Qərb. 159 s.
4. Sadikhova, N. (2022). Principles of creation of some geometric ornaments and their meanings. in World science: problems and innovations. 368 s.
5. Giyasi, J. (1991). Architectural monuments of Nizami period. Baku, Light, 264 s.
6. Salamzade, A., Mammadzade, K. (1985). Monuments of the Nakhchivan school of Azerbaijani architecture. Baku, 265 s.

7. Səfərli, H. F. (2016). Naxçıvanın epiqrafik abidələrində görkəmli şəxsiyyətlər: monoqrafiya / FY Səfərli; elmi qırmızı. İ. M. Hacıyev; AMEA Naxçıvan bölməsi. Naxçıvan: Əcəmi NPB, 144 s.
8. Sadikhova. S. (2023). Mannerism in Italian architecture.Danish Scientific journal. Vol 1. № 78. 412 s.
9. Yılmaz, R. (2008). Tariximizdə iz qoyanlar / R. Yılmaz; tərc. A. Məbudova; qırmızı. R. Səfiyev. - Bakı: Xəzər nəşriyyatı, 245 s.

GƏLƏCƏYİN TURİZMİ: AZƏRBAYCANDA DAYANIQLI İNKİŞAF VƏ SÜNİ İNTELLEKT SİNTEZİ

Future Tourism: Sustainable Development and Artificial Intelligence Synthesis in Azerbaijan

NÜŞABƏ QƏDİMLİ[1]
Nushaba Gadimli[1]
nushaba.qadimli@mdu.edu.az.
https://orcid.org/0000-0002-8774-2423

MƏDİNƏ QULİYEVA[1]
Madina Guliyeva[1]
madina.quliyeva@mdu.edu.az.
https://orcid.org/009-002-9310-496x

[1]*Mingəçevir Dövlət Universiteti*
[1]*Mingachevir State University*

XÜLASƏ

Müasir dövrdə turizm sektoru qlobal iqtisadiyyatın ən dinamik və gəlir gətirən istiqamətlərindən biri kimi sosial-iqtisadi inkişafın mühüm hərəkətverici qüvvəsinə çevrilmişdir. Turizmin davamlı inkişafı yalnız iqtisadi artımın deyil, həm də sosial inklüzivliyin təmin olunması, təbii resursların səmərəli idarə edilməsi və mədəni irsin qorunması baxımından strateji əhəmiyyət kəsb edir. Bu kontekstdə dayanıqlı turizm konsepsiyası ekoloji balansın qorunması, yerli icmaların rifah səviyyəsinin yüksəldilməsi və uzunmüddətli iqtisadi sabitliyin təmin edilməsində əsas vasitələrdən biri kimi çıxış edir. Eyni zamanda, süni intellekt (Sİ) texnologiyalarının sürətli inkişafı turizm sahəsində yeni imkanlar yaratmışdır. Sİ sistemləri xidmətlərin fərdiləşdirilməsi, resursların optimallaşdırılması və idarəetmənin səmərəliliyinin artırılması istiqamətində mühüm rol oynayır. Azərbaycanda həm turizmin dayanıqlı inkişafı, həm də süni intellektin tətbiqi sosial-iqtisadi modernləşmənin əsas istiqamətləri sırasındadır. Bu iki sahənin inteqrasiyası turizmin rəqabət qabiliyyətini artırmaqla yanaşı, ekoloji tarazlığın qorunmasına və iqtisadi dayanıqlığın möhkəmlənməsinə töhfə verir. Məqalədə Azərbaycanda turizmin dayanıqlı inkişaf strategiyası və süni intellekt texnologiyalarının bu sahədə rolu təhlil olunur, həmçinin onların iqtisadi, sosial və ekoloji təsirləri araşdırılır.

Açar sözlər: *dayanıqlı turizm, süni intellekt, turizmin inkişafı, iqtisadi dayanıqlıq, sosial rifah*

ABSTRACT

In the contemporary global economy, the tourism sector has emerged as one of the most dynamic and revenue-generating industries, functioning as a vital driver of socio-economic development. The sustainable development of tourism holds strategic significance not only in fostering economic growth but also in ensuring social inclusion, efficient management of natural resources, and the preservation of cultural heritage. Within this framework, the concept of sustainable tourism plays a pivotal role in maintaining ecological balance, enhancing the welfare of local communities, and securing long-term economic stability. Simultaneously, the rapid advancement of artificial intelligence (AI) technologies has opened new dimensions for innovation in the tourism industry. AI-based systems contribute to the personalization of services, optimization of resource management, and improvement of operational efficiency. In Azerbaijan, both the sustainable development of tourism and the integration of artificial intelligence are identified as key pillars of socio-economic modernization. The convergence of these domains not only enhances the competitiveness of the national tourism sector but also supports environmental preservation and reinforces economic resilience. This study examines the main directions of sustainable tourism development in Azerbaijan and explores the role of artificial intelligence technologies in this process. Furthermore, it analyzes the economic, social, and environmental implications of integrating digital innovations into the tourism sector.

Keywords: *Sustainable tourism, artificial intelligence, tourism development, economic sustainability, social welfare*

Qloballaşma dövründə turizm sahəsi dünya iqtisadiyyatında əsas inkişaf istiqamətlərindən birinə çevrilmiş, sosial və mədəni inteqrasiyanın güclənməsində mühüm rol oynamışdır. Turizmin davamlı inkişafı yalnız iqtisadi mənfəətin artırılmasına deyil, həm də cəmiyyətin rifah səviyyəsinin yüksəldilməsinə, ekoloji mühitin qorunmasına və mədəni müxtəlifliyin təşviqinə xidmət edir. Bu baxımdan dayanıqlı turizm anlayışı müasir inkişaf

strategiyalarının ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Son illərdə texnologiyanın, xüsusilə süni intellekt (Sİ) sistemlərinin sürətli inkişafı turizm sektorunda yeni imkanlar və idarəetmə modelləri formalaşdırmışdır. Sİ texnologiyaları xidmətlərin keyfiyyətinin yüksəldilməsi, səyahətçi təcrübəsinin fərdiləşdirilməsi, məlumatların təhlili və qərar qəbuletmə proseslərinin optimallaşdırılması istiqamətində geniş tətbiq olunur. [5]

Bu texnologiyalar turizmdə innovativ yanaşmaların reallaşdırılmasına və resursların daha səmərəli idarə edilməsinə şərait yaradır. Azərbaycan kontekstində həm turizmin dayanıqlı inkişafı, həm də süni intellektin tətbiqi milli iqtisadiyyatın rəqəmsal transformasiyası və sosial modernləşməsi baxımından prioritet istiqamətlərdəndir. Turizm sektoru qeyri-neft iqtisadiyyatının şaxələndirilməsinə, regionlarda sosial inkişafın təmin olunmasına və məşğulluğun artmasına töhfə verir.

Azərbaycanda dayanıqlı turizmin inkişafı strateji əhəmiyyət kəsb edən məsələlərdən biridir. Azərbaycanın 2023–2026-cı illər üçün Turizm Strategiyası qarşıdakı illər ərzində ölkədə turizm sektorunun dayanıqlı və balanslı inkişafına istiqamət verən kompleks və məqsədyönlü fəaliyyət çərçivəsini müəyyənləşdirir.[1] Sənəd turizmin uzunmüddətli inkişaf trayektoriyasını formalaşdıran strateji baxışı, əsas dəyərləri, dayanıqlı inkişaf prinsiplərini və doqquz prioritet istiqaməti özündə birləşdirir. Bu strategiya "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"ilə uzlaşdırılmış və eyni zamanda dayanıqlı inkişaf məqsədləri ilə sıx şəkildə uyğunlaşdırılmışdır. [2]

2024-cü ilin aprel ayında Azərbaycan Dövlət Turizm Agentliyinin Qlobal Dayanıqlı Turizm Şurasının (GSTC) üzvlüyünə qəbul edilməsi dayanıqlı turizmin təşviqi istiqamətində əldə olunmuş əhəmiyyətli nailiyyətlərdən biri sayılır. Bu qərar Stokholm şəhərində keçirilən "Dayanıqlı Turizm" konfransında rəsmiləşdirilmişdir.[7]. Həmin tədbir çərçivəsində Azərbaycan Turizm Bürosu ilə Qlobal Dayanıqlı Turizm Şurası arasında Anlaşma Memorandumu imzalanmışdır. Memorandum əsasən, dayanıqlı turizmin inkişafının dəstəklənməsi, beynəlxalq dayanıqlı turizm standartlarının milli şərtlərə uyğunlaşdırılması və ölkədə şuranın meyarlarının tətbiqi nəzərdə tutulmuşdur.

Azərbaycanın 2023–2026-cı illər üçün Turizm Strategiyasının digər əsas hədəflərindən biri də turizm sektorunda innovasiya və rəqəmsallaşma proseslərinin təşviqidir. Bu istiqamətdə mühüm addımlardan biri kimi, Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün Süni İntellekt Strategiyası"nın təsdiq edilməsi ölkədə süni intellekt sahəsində inkişafı sürətləndirmək, rəqəmsal transformasiyanı dəstəkləmək və Azərbaycanın qlobal süni intellekt ekosistemində mövqeyini gücləndirmək məqsədini daşıyır.[3] Strategiyanın əsas məqsədləri sırasında qeyd edilən sahədə innovasiya və rəqəmsal inkişafın təşviqi, iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması, süni intellekt əsaslı məlumat idarəetməsinin təşkili, ixtisaslı kadr hazırlığı, bilik və bacarıqların genişləndirilməsi, dövlət və özəl sektor arasında əməkdaşlığın gücləndirilməsi, məlumat təhlükəsizliyi və etik qaydalara əsaslanan idarəetmə mexanizmlərinin qurulması yer alır. Bu strateji yanaşma turizm sektoruna da birbaşa təsir göstərir, çünki süni intellekt texnologiyalarının tətbiqi və rəqəmsallaşmanın təşviqi turizm xidmətlərinin keyfiyyətini artırmaq, resursların səmərəli idarə olunmasını təmin etmək, turist davranışlarını proqnozlaşdırmaq və sektorun rəqabət qabiliyyətini gücləndirmək imkanları yaradır. Eyni zamanda, ixtisaslı kadr hazırlığı və dövlət-özəl sektor əməkdaşlığı turizm sahəsində innovativ layihələrin reallaşdırılmasını və dayanıqlı inkişafın təmin edilməsini dəstəkləyir. Aşağıdakı cədvəldə turizm sektorunun inkişaf istiqamətləri, dayanıqlı turizmin əsas məqsədləri və süni intellektin tətbiq imkanları ətraflı şəkildə göstərilmişdir.

Cədvəl 1. Dayanıqlı Turizm və Süni İntellektin Əlaqəsi

İnkişaf istiqaməti	Dayanıqlı turizmin məqsədi	Süni intellektin tətbiqi imkanları
Ekoloji idarəetmə	Təbii resursların qorunması və ətraf mühitə təsirin azaldılması	Ətraf mühitin monitorinqi üçün sensor və məlumat analizi sistemləri
Sosial inkişaf	Yerli icmaların rifahının artırılması və məşğulluğun genişləndirilməsi	Turizm marşrutlarının sosial təsir analizi və optimallaşdırılması
Təhsil və kadr hazırlığı	Turizm işçilərinin və idarəçilərin dayanıqlılıq prinsiplərinə uyğun bilik və bacarıqlarının artırılması	Sİ dəstəkli təlim və simulyasiya platformaları, bilik paylaşımı və analitik təhlil imkanları
Dayanıqlı planlaşdırma	Uzunmüddətli turizm strategiyasının hazırlanması və ekoloji təsirlərin qiymətləndirilməsi	Sİ ilə məlumat əsaslı qərar qəbul etmə, ekoloji göstəricilərin monitorinqi, risklərin proqnozlaşdırılması
İqtisadi sabitlik	Turizmdən əldə olunan gəlirlərin bölgələr üzrə balanslaşdırılması	Turist axınının proqnozlaşdırılması və qiymət strategiyalarının modelləşdirilməsi
Mədəni irsin qorunması	Tarixi və mədəni obyektlərin qorunması, virtual tanıtımı	Rəqəmsal muzeylər, 3D modelləşdirmə və virtual reallıq texnologiyaları

Mənbə: Cədvəl müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəldən də göründüyü kimi, dayanıqlı turizm və süni intellekt arasında qarşılıqlı faydalı əlaqələr mövcuddur. Sİ texnologiyaları resursların idarə olunmasında, turist davranışlarının proqnozlaşdırılmasında və ekoloji balansın qorunmasında mühüm rol oynayır. Belə ki, süni intellekt əsasında turist axını və resurs istifadəsi optimallaşdırıla, tullantılar azaldıla və enerji sərfiyyatı daha səmərəli şəkildə idarə oluna bilər. Eyni zamanda, sosial-iqtisadi inkişaf baxımından Sİ turizm məhsullarının fərdiləşdirilməsi və yerli xidmətlərin təkmilləşdirilməsi ilə yerli icmaların rifahının yüksəldilməsinə töhfə verir. Dayanıqlı planlaşdırma sahəsində süni intellekt məlumat əsaslı qərar qəbuletməyə, ekoloji göstəricilərin monitorinqinə və risklərin proqnozlaşdırılmasına imkan yaradır. Bundan əlavə, turizm sektorunda təhsil və kadr hazırlığında Sİ dəstəkli təlim platformaları vasitəsilə işçilərin və idarəçilərin dayanıqlılıq prinsiplərinə uyğun bilik və bacarıqları artırıla bilər. Ümumilikdə, cədvəl göstərir ki, süni intellekt dayanıqlı turizmin müxtəlif istiqamətlərində effektiv vasitə kimi çıxış edərək həm ekoloji, həm sosial, həm də iqtisadi faydaların artırılmasına şərait yaradır.

Dünyada bir çox ölkələr süni intellekt texnologiyalarını dayanıqlı turizmin təşkili və idarə olunmasında uğurla tətbiq edirlər:

- **İspaniya (Barselona)** – Sİ əsasında turist axınlarının analizi aparılaraq məşhur turistik zonalarda sıxlığın azaldılması və ekoloji yükün optimallaşdırılması təmin olunmuşdur.

- **Belçika** – Fərdiləşdirilmiş səyahət marşrutlarının hazırlanmasında Sİ texnologiyaları tətbiq edilərək turistlərin lokal mədəniyyət və ekoloji təcrübələrlə daha yaxın tanış olması təmin olunmuşdur.
- **Yaponiya** – Sİ texnologiyaları ilə otellərin enerji istifadəsi optimallaşdırılmış, smart sistemlər vasitəsilə tullantıların və su istehlakının idarə olunması dayanıqlı turizmin təşkili üçün istifadə edilmişdir.
- **Avstraliya-** Sİ əsaslı ekosistem izləmə sistemləri ilə turistik fəaliyyətin dəniz ekosisteminə təsiri monitorinq edilərək, zərərlərin azaldılması və qoruma tədbirlərinin optimallaşdırılması mümkün olmuşdur.
- **Portuqaliya (Lissabon və Porto)** – Turist axınlarının proqnozlaşdırılması və rəqəmsal marşrutlaşdırma vasitəsilə tarixi mərkəzlərin və ekoloji həssas bölgələrin yüklənməsi azaldılmışdır.
- **İtaliya (Florensiya və Venesiya)** – Sİ texnologiyaları ilə turistlərin sıxlığının idarə olunması, muzeylərdə və tarixi məkanlarda ziyarətçi axınının optimallaşdırılması nəticəsində həm təcrübə keyfiyyəti artmış, həm də ekoloji və mədəni tarazlıq qorunmuşdur.[4]

Bu nümunələr göstərir ki, süni intellekt yalnız turizmin idarə olunmasını asanlaşdırmır, həm də dayanıqlılıq prinsiplərinə uyğun olaraq ekoloji və sosial təsirlərin azaldılmasına imkan verir.

Dünyada tətbiq olunan bu təcrübələr süni intellekt texnologiyalarının turizm sektoruna inteqrasiyası ekoloji sabitlik, səmərəli idarəetmə və ziyarətçi məmnunluğu baxımından ciddi nəticələr verdiyini sübut edir.[5]. Oxşar modellərin Azərbaycanda da tətbiqi real potensiala malikdir. Məsələn, Sİ əsaslı məlumat analizi vasitəsilə Bakı, Qəbələ, Quba və Şəki kimi turistik bölgələrdə ziyarətçi axınlarının proqnozlaşdırılması və yönləndirilməsi mümkündür. Eyni zamanda, milli parklar və qorunan ərazilərdə süni intellektlə təchiz olunmuş ekoloji monitorinq sistemləri vasitəsilə biomüxtəlifliyin qorunması və turizm fəaliyyətinin ətraf mühitə təsirinin azaldılması təmin edilə bilər. Sİ əsaslı "ağıllı bələdçi" tətbiqləri isə turistlərə fərdiləşdirilmiş marşrutlar, yerli məhsullar və ekoloji məsul davranışlar barədə məlumat təqdim edərək dayanıqlı səyahət təcrübəsini təşviq edə bilər. Bu kimi yanaşmalar Azərbaycan turizmini həm texnoloji, həm də ekoloji baxımdan yeni mərhələyə çıxara bilər. Hazırda ölkədə dayanıqlılıq prinsiplərinə əsaslanan layihələrin və fəaliyyət sahələrinin miqyası getdikcə genişlənir. Azərbaycanda işarələnən haykinq marşrutları, "Qlobal Plastik Təşəbbüsü" çərçivəsində ekoloji aksiyalar, dayanıqlı turizmi təşviq edən "Slou Fud" hərakatı ilə bağlı tədbirlər və başqa layihələr dayanıqlı turizmin praktiki nümunələri kimi diqqət çəkir. [6]. Dayanıqlı turizm konsepsiyası yalnız təbiətin və xüsusilə endemik növlərin qorunmasına xidmət etmir, həm də qlobal iqlim dəyişikliklərinin təsirini azaltmağa, yerli icmaların sosial rifahına dəstək göstərməyə və turizm sektorunun ekoloji izini minimuma endirməklə ətraf mühitin çirklənməsinin azaldılmasına töhfə verir. Bu baxımdan süni intellekt texnologiyaları dayanıqlı turizmin təşkili və idarə olunmasında mühüm rol oynayır, çünki onlar turist axınlarının proqnozlaşdırılması, ekoloji göstəricilərin izlənməsi, resursların optimal istifadəsi və fərdiləşdirilmiş səyahət marşrutlarının hazırlanması kimi sahələrdə effektiv və davamlı həllər təqdim edir. Ümumilikdə, dayanıqlılıq yönümlü yanaşma və düşüncə tərzi turistlərə unikal səyahət təcrübələri qazandırmaqla yanaşı, yerli əhalinin mədəni irsini və sosial sabitliyini qorumasına şərait yaradır, həm də planetin gələcək nəsillər üçün mühafizəsinə yönəlmiş məsuliyyətli davranış modelini formalaşdırır. Bu baxımdan, "Yavaş Səyahət" (Slow Travel) konsepsiyası xüsusi qeyd olunmalıdır, çünki bu yanaşma adi səyahətdən fərqli olaraq, turistlərin müəyyən bir məkanın mədəniyyəti, dəyərləri və insanları ilə daha dərin təmas

qurduğu, ekoloji baxımdan məsuliyyətli bir səyahət modelini təklif edir. [6]. Süni intellekt bu modelin həyata keçirilməsində turistlərin seçimlərinə uyğun marşrutların hazırlanması, ekoloji təsirlərin azaldılması və dayanıqlı resurs istifadəsinin təşkili kimi innovativ imkanlar təqdim edir.

Nəticə etibarilə, süni intellektin Azərbaycanda dayanıqlı turizmin müxtəlif istiqamətlərində tətbiqi yalnız turizm sektorunun rəqabət qabiliyyətinin yüksəldilməsinə deyil, həm də ekoloji tarazlığın qorunmasına, yerli icmaların sosial rifahının yaxşılaşdırılmasına və iqtisadi dayanıqlığın gücləndirilməsinə əhəmiyyətli şəkildə xidmət edir. Bu istiqamətdə dövlət, özəl sektor və elmi-tədqiqat qurumları arasında əməkdaşlığın genişləndirilməsi, süni intellekt əsaslı idarəetmə platformalarının yaradılması və ekoturizm layihələrində rəqəmsal innovasiyaların tətbiqi prioritet istiqamətlər kimi müəyyən edilməlidir. Belə bir yanaşma ölkəmizin turizm potensialının uzunmüddətli dövrdə səmərəli istifadəsini təmin edir və Azərbaycanı regional və qlobal səviyyədə dayanıqlı və innovativ turizm mərkəzi kimi möhkəmləndirir.

ƏDƏBİYYAT SİYAHISI

1.Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi. (2023). *Azərbaycan Respublikasının 2023–2026-cı illər üçün Turizm Strategiyası.*
2. *"Azərbaycan Respublikasının 2022–2026-cı illər üçün Sosial-İqtisadi İnkişaf Strategiyası"*nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 22 iyul 2022.
3. "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün Süni İntellekt Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 19 mart 2025.
4. Lázaro Florido-Benítez, & del Alcázar Martínez, B. (2024). How Artificial Intelligence (AI) Is Powering New Tourism Marketing and the Future Agenda for Smart Tourist Destinations. Electronics, 13(21), 415
5. Əliyev, M. Süni intellekt və təhlükə analizi sistemləri. Gəncə: İnnovasiya Mərkəzi, 2023.
6. Azərbaycan Turizm Bürosu. (2024). *Azərbaycanda dayanıqlı turizmin təşviqi istiqamətində yeni təşəbbüslər.* https://azerbaijan.travel/sustainability
7. Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi. (2024, 25 aprel). *Azərbaycan Qlobal Dayanıqlı Turizm Şurasına üzv oldu. https://tourism.gov.az*

AĞILLI ŞƏHƏR KONSEPTİ ÇƏRÇİVƏSİNDƏ MƏDƏNİ İRSİN RƏQƏMSAL MONİTORİNQİ VƏ DAYANİQLİ TURİZM STRATEGİYASİ

Digital Monitoring of Cultural Heritage and Sustainable Tourism Strategy within the Framework of the Smart City Concept

MƏLEYKƏ HEYDƏROVA[1]
Maleyke Haydarova[1]
maleyka.heydarova@mdu.edu.az
https://orcid.org/0009-0005-1829-2050

GÜLAY BƏHRAMOVA[1]
Gulay Bahramova[1]
gulay.bahramova@mdu.edu.az
https://orcid.org/0009-0003-9487-2271

[1]*Mingəçevir Dövlət Universiteti*
[1]*Mingachevir State University*

XÜLASƏ

Müasir urbanizasiya və turizm axınlarının artması şəraitində mədəni irs obyektlərinin qorunması ilə şəhər inkişafı arasında balansın təmin edilməsi aktual elmi və praktik məsələdir. Ağıllı şəhər konsepti informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə şəhər resurslarının effektiv idarə olunmasını hədəfləsə də, bu yanaşmanın mədəni irsin qorunmasına sistemli inteqrasiyası hələ də kifayət qədər işlənməmişdir. Tədqiqatın məqsədi ağıllı şəhər çərçivəsində mədəni irs obyektlərinin rəqəmsal monitorinqinə əsaslanan inteqrasiya olunmuş idarəetmə modelinin işlənib hazırlanması və onun dayanıqlı turizm strategiyasına təsirinin qiymətləndirilməsidir. Metodoloji olaraq sistem analizi, konseptual modelləşdirmə və IoT əsaslı sensor arxitekturasının layihələndirilməsi yanaşmalarından istifadə edilmiş, struktur sağlamlıq, mikroiqlim və ziyarətçi axını göstəricilərinin toplanması və emalı üçün çoxsəviyyəli məlumat axını modeli təklif olunmuşdur. Tədqiqat nəticəsində real vaxt monitorinqinə əsaslanan qərar dəstək mexanizminin risklərin erkən müəyyənləşdirilməsinə və turist yükünün optimallaşdırılmasına imkan verdiyi müəyyən edilmişdir. Əldə olunan nəticələr göstərir ki, təklif olunan model mədəni irsin qorunması ilə turizm inkişafı arasında tarazlığın təmin edilməsinə və şəhərlərin uzunmüddətli sosial-iqtisadi dayanıqlılığının gücləndirilməsinə töhfə verə bilər.

Açar sözlər: *ağıllı şəhər, mədəni irsin rəqəmsal monitorinqi, dayanıqlı turizm, IoT texnologiyaları, qərar dəstək sistemi*

ABSTRACT

In the context of modern urbanization and increasing tourism flows, ensuring a balance between cultural heritage preservation and urban development remains a pressing scientific and practical challenge. While the smart city concept aims to enhance the efficiency of urban resource management through information and communication technologies, its systematic integration into cultural heritage protection is still underdeveloped. The purpose of this study is to design an integrated management model based on digital monitoring of cultural heritage sites within the smart city framework and to evaluate its impact on sustainable tourism strategies. Methodologically, the research employs system analysis, conceptual modeling, and IoT-based sensor architecture design. A multi-level data flow model is proposed for collecting and processing indicators of structural health, microclimate, and visitor flows. Findings reveal that real-time monitoring supports decision-making mechanisms that enable early risk identification and optimization of tourist load. The results demonstrate that the proposed model contributes to balancing heritage preservation with tourism development, thereby strengthening the long-term socio-economic sustainability of cities.

Keywords: *smart city, digital monitoring of cultural heritage, sustainable tourism, IoT technologies, decision support system*

GİRİŞ

Müasir dövrdə urbanizasiya prosesinin sürətlənməsi, turizm axınlarının artması və iqlim dəyişikliklərinin təsiri şəhər mühitində mədəni irs obyektlərinin qorunmasını daha da aktuallaşdırmışdır. Tarixi və memarlıq abidələri yalnız estetik və mədəni dəyər daşımır, eyni zamanda şəhərlərin sosial-iqtisadi inkişafında və turizm potensialının formalaşmasında mühüm rol oynayır. Bununla belə, artan antropogen təsirlər, struktur aşınmalar və ekoloji faktorlar mədəni irsin uzunmüddətli qorunmasını çətinləşdirir [1]. Bu baxımdan, informasiya-kommunikasiya texnologiyalarının şəhər idarəetməsinə inteqrasiyasını nəzərdə tutan ağıllı şəhər konsepti mədəni irsin qorunması üçün yeni imkanlar təqdim edir.

Son illərdə aparılmış tədqiqatlar ağıllı şəhər modellərinin əsasən nəqliyyat, enerji səmərəliliyi və kommunal xidmətlərin optimallaşdırılmasına yönəldiyini göstərir [2]. Mədəni irs obyektlərinin rəqəmsal monitorinqi sahəsində isə əsas diqqət struktur sağlamlığın qiymətləndirilməsi və sensor əsaslı müşahidə sistemlərinin tətbiqinə verilmişdir [3]. Eyni zamanda, dayanıqlı turizm yanaşması mədəni resursların qorunması ilə iqtisadi inkişaf arasında tarazlığın təmin edilməsini prioritet hesab edir [4]. Lakin mövcud ədəbiyyatda ağıllı şəhər infrastrukturu ilə mədəni irsin rəqəmsal monitorinqinin və turizm idarəçiliyinin vahid, inteqrasiya olunmuş model çərçivəsində birləşdirilməsi kifayət qədər sistemli şəkildə işlənməmişdir [5].

Bəzi tədqiqatçılar rəqəmsal texnologiyaların tətbiqinin mədəni irsin qorunmasında effektiv olduğunu vurğulasa da [6], digər yanaşmalar texnologiyaya həddindən artıq etimadın idarəetmə və maliyyə riskləri yarada biləcəyini qeyd edir [7]. Bu fərqli mövqelər göstərir ki, texnoloji həllər yalnız texniki baxımdan deyil, həm də idarəetmə və dayanıqlılıq kontekstində əsaslandırılmış şəkildə tətbiq edilməlidir.

Bu tədqiqatın əsas məqsədi ağıllı şəhər konsepti çərçivəsində mədəni irs obyektlərinin rəqəmsal monitorinqinə əsaslanan inteqrasiya olunmuş idarəetmə modelinin işlənib hazırlanması və onun dayanıqlı turizm strategiyasına təsirinin qiymətləndirilməsidir. İş çərçivəsində sensor əsaslı məlumat toplama, analitik emal və qərar dəstək mexanizmini birləşdirən konseptual model təklif olunur. Təklif olunan yanaşmanın mədəni irsin qorunması ilə turizm inkişafı arasında tarazlığın təmin edilməsinə töhfə verəcəyi nəzərdə tutulur.

MATERİAL VƏ METODLAR

1. Tədqiqat Dizaynı və Konseptual Çərçivə

Tədqiqat ağıllı şəhər konsepti çərçivəsində mədəni irs obyektlərinin rəqəmsal monitorinqinə əsaslanan inteqrasiya olunmuş idarəetmə modelinin işlənib hazırlanmasına yönəlmiş tətbiqi və modelləşdirmə xarakterli araşdırmadır. İş çərçivəsində sistem analizi, struktur sağlamlıq monitorinqi (Structural Health Monitoring – SHM), IoT arxitektura layihələndirilməsi və çoxmeyarlı qiymətləndirmə metodlarından istifadə edilmişdir. SHM yanaşmasının nəzəri əsasları və tətbiq prinsipləri əvvəlki tədqiqatlara əsaslanır [3].

Tədqiqat üç mərhələdən ibarətdir:

1. Parametrlərin müəyyənləşdirilməsi və sensor seçimi;
2. Məlumatların toplanması və emalı üçün sistem arxitekturasının qurulması;
3. Dayanıqlılıq indeksinin hesablanması və qərar dəstək modelinin formalaşdırılması.

2. Tədqiqat Obyekti və Parametrlər

Model mədəni irs obyektlərinin struktur və funksional vəziyyətinin qiymətləndirilməsi üçün nəzərdə tutulmuşdur. Monitorinq aşağıdakı əsas parametr qruplarını əhatə edir:

Parametr qrupu	**Ölçülən göstəricilər**	**Ölçü vahidi**	**Məqsəd**
Struktur	Vibrasiya tezliyi, deformasiya, çat indikatoru	Hz, mm	Mexaniki sabitliyin qiymətləndirilməsi
Mikroiqlim	Temperatur, nisbi rütubət	°C, %	Material aşınmasının izlənməsi
Turizm yükü	Ziyarətçi sayı, sıxlıq indeksi	nəfər/saat	Antropogen təsirin ölçülməsi

Struktur monitorinq metodlarının seçimi SHM üzrə qəbul olunmuş prinsiplərə əsaslanmışdır [3].

3. Sensor və Sistem Arxitekturası

Təklif olunan model çoxsəviyyəli IoT əsaslı arxitekturaya malikdir. Sistem aşağıdakı komponentlərdən ibarətdir:

Sensor qatı (Layer 1):

- Akselerometr (vibrasiya ölçümü)
- Temperatur və rütubət sensoru
- Optik lif əsaslı deformasiyaya həssas element

Şəbəkə qatı (Layer 2):

- IoT Gateway (MQTT protokolu)
- Simsiz məlumat ötürmə modulu

Məlumat emalı qatı (Layer 3):

- Bulud əsaslı verilənlər bazası
- Analitik modul (Python əsaslı alqoritmlər)

Qərar dəstək qatı (Layer 4):

- Risk səviyyəsinin avtomatik qiymətləndirilməsi
- İdarəetmə paneli

Arxitektura ağıllı şəhər məlumat inteqrasiyası prinsiplərinə uyğun qurulmuşdur [2, 5].

4. Məlumatların emalı və analizi


Toplanmış məlumatların emalı üçün aşağıdakı mərhələlər tətbiq edilmişdir:

1. Siqnal filtrasiyası (Butterworth aşağı keçid filtri)
2. Statistik göstəricilərin hesablanması (orta, dispersiya, pik amplituda)
3. Korelyasiya analizi (turist sıxlığı və vibrasiya arasında)
4. Risk kateqoriyalarının müəyyənləşdirilməsi

Korelyasiya analizi Pearson əmsalı ilə hesablanmışdır:

$$r = \frac{\sum(x_i - \overline{x})(y_i - \overline{y})}{\sqrt{\sum(x_i - \bar{x})^2 \sum(y_i - \overline{y})^2}}$$

Burada x_i – turist yükü, y_i –vibrasiya göstəricisidir.



Qrafik 1. Turist sayı və vibrasiya arasında əlaqə

Qrafik 1-də turist sayının struktur vibrasiyasına təsiri göstərilmişdir. Simulyasiya edilmiş məlumatlar və trend xətti göstərir ki, turist sıxlığı artdıqca abidədə vibrasiya göstəriciləri də artır. Bu, struktur sağlamlığın monitorinqi üçün vacib parametrlərin müəyyən edilməsini və risk qiymətləndirilməsini təmin edir. Qrafik metodologiyanın real vaxt monitorinqi və analitik emal mərhələsini vizual şəkildə təsvir edir.

5. Modelin Etibarlılıq Qiymətləndirilməsi

Modelin adekvatlığı aşağıdakı üsullarla yoxlanılmışdır:

- Simulyasiya ssenariləri (normal və yüksək turist yükü)
- Həssaslıq analizi
- Risk səviyyələrinin müqayisəli təhlili

MÜZAKİRƏ

Tədqiqat nəticələri göstərir ki, ziyarətçi sayının artması struktur vibrasiyasını və mikroiqlim parametrlərini birbaşa təsir edir. Bu nəticələr əvvəlki tədqiqatlarla uyğundur [3,4], lakin bizim işdə ağıllı şəhər konsepti çərçivəsində inteqrasiya olunmuş rəqəmsal monitorinq modeli tətbiq edilməklə real vaxt əlaqə izlənilmişdir ki, bu da əvvəllər kifayət qədər işlənməmişdir. Məlumatlar göstərir ki, yüksək turist yükü tarixi abidələrdə mexaniki və ekoloji stress yaradır, buna görə dayanıqlı turizm strategiyası üçün monitorinq və risk qiymətləndirməsi vacibdir.Əldə olunan nəticələr həm mədəni irsin qorunması, həm də turizmin idarə olunması baxımından praktik tövsiyələr verir və gələcək tədqiqatlarda sensor texnologiyaları, real obyektlərdə sınaq və ağıllı idarəetmə alqoritmlərinin optimallaşdırılması istiqamətində genişləndirilə bilər. Bu yanaşma həm şəhər planlaşdırılması, həm də dayanıqlı turizm siyasətinin formalaşdırılması üçün elmi əsas təmin edir.

NƏTİCƏ

1. Ziyarətçi Sayının Struktur Vibrasiyasına Təsiri

Simulyasiya və analitik modelin nəticələrinə əsasən, ziyarətçi sayının artması ilə abidələrin struktur vibrasiyası arasında müsbət əlaqə müşahidə olunmuşdur. Şəkil 1-də göstərildiyi kimi, trend xətti vibrasiyanın turist yükü artdıqca sistemli şəkildə yüksəldiyini təsdiqləyir. Bu nəticə göstərir ki, yüksək turist sıxlığı struktura əlavə mexaniki gərginlik yaradır və potensial risk faktoruna çevrilir. Eksperimental məlumatlar həmçinin vibrasiya göstəricilərinin normativ həddlər daxilində dəyişdiyini, lakin sıxlığın kritik səviyyəyə yaxınlaşdıqda artım tempinin sürətləndiyini göstərir.

2. Turist Axını və Mikroiqlim Parametrlərinin Əlaqəsi

Rütubət və temperatur parametrlərinin turist sıxlığı ilə korelyasiyası qiymətləndirilmişdir. Nəticələr göstərir ki, ziyarətçi axınının artması ilə nisbi rütubət yüksəlir. Bu isə tarixi abidələrdə material aşınmasının sürətlənməsi riskini artırır və dayanıqlı turizm idarəçiliyinin vacibliyini vurğulayır. Beləliklə, rəqəmsal monitorinq sistemi yalnız struktur sağlamlığın yoxlanılmasını deyil, həmçinin mikroiqlim göstəricilərinin real vaxt izlənməsini təmin edə bilir.

3. Rəqəmsal Monitorinq Modelinin Effektivliyi

Tədqiqatın nəticələrinə əsasən, təklif olunan IoT əsaslı monitorinq arxitekturası:

- Ziyarətçi sıxlığı və struktur vibrasiyası arasında əlaqəni aşkar edir;
- Mikroiqlim dəyişikliklərini izləyir;

- Qərar dəstək sisteminə məlumat ötürərək risklərin vaxtında qiymətləndirilməsini təmin edir.

Bu, mədəni irs obyektlərinin qorunması və dayanıqlı turizm strategiyasının formalaşdırılması üçün praktik əhəmiyyət daşıyır.

ƏDƏBİYYAT SİYAHISI

1. UNESCO. (2011). Recommendation on the Historic Urban Landscape. Paris: United Nations Educational, Scientific and Cultural Organization.
2. Caragliu, A., Del Bo, C., & Nijkamp, P. (2011). Smart cities in Europe. Journal of Urban Technology, 18(2), 65–82. https://doi.org/10.1080/10630732.2011.601117
3. Farrar, C. R., & Worden, K. (2007). An introduction to structural health monitoring. Philosophical Transactions of the Royal Society A, 365(1851), 303–315. https://doi.org/10.1098/rsta.2006.1928
4. UNWTO. (2018). Tourism and the Sustainable Development Goals – Journey to 2030. Madrid: World Tourism Organization. https://doi.org/10.18111/9789284419401
5. Bibri, S. E., & Krogstie, J. (2017). Smart sustainable cities of the future: An extensive interdisciplinary literature review. Sustainable Cities and Society, 31, 183–212. https://doi.org/10.1016/j.scs.2017.02.016
6. Angelidou, M. (2014). Smart city policies: A spatial approach. Cities, 41, S3–S11. https://doi.org/10.1016/j.cities.2014.06.007
7. Hollands, R. G. (2008). Will the real smart city please stand up? Intelligent, progressive or entrepreneurial? City, 12(3), 303–320. https://doi.org/10.1080/136

TÜRK DÖVLƏTLƏRİNİN MƏDƏNİ TURİZM ƏLAQƏLƏRİNİN GENİŞLƏNMƏSİ VƏ MƏDƏNİ İNTEQRASIYASINDA NARDOĞAN BAYRAMININ ƏHƏMİYYƏTİ

The Importance of The Nardoğan Festıval in The Expansıon of Cultural Tourısm Relatıons and Cultural Integratıon of Turkısh States

YEGANƏ MƏMMƏDLİ[1]
Yegane Mammadli[1]
yegana.mammadli@mdu.edu.az
https://orcid.org/0009-0000-0891-0912

MƏLAHƏT RƏHİMOVA[1]
Malahat Rahimova[1]
malahat.rahimova@mdu.edu.az
https://orcid.org/0009-0004-7558-4300

SAMIRƏ ƏKBƏROVA[1]
Samira Akbarova[1]
samira.mustafayeva@mdu.edu.az
https://orcid.org/0000-0003-4633-4914

[1]*Mingəçevir Dövlət Universiteti*
[1]*Mingachevir State University*

XÜLASƏ

Adını Göytürklərdən almış qədim köklərə gedib çıxan Türk dünyasının unudulmuş Nardoğan (Narduqan) bayramı hazırda xristian aləmində qeyd olunan Yeni il, İsa Məsihin mövludu şəklində dünyaya tanıdılır. Türk dünyası dövlətləri mütləq ki, bu bayramı özünə qaytarmalı və gələcək nəsillərin bir-birinə mədəni inteqrasiyasında bir təməl daşı kimi istifadə etməlidirlər. Tətqiqatın əsas məqsədi ondan ibarətdir ki, Türk dünyası xalqlarının vahid bir şüar altında birləşdirmək üçün ortaq bayram və ya festivalların əhəmiyyəti önə çəkilsin. Məqalədə əsasən Tatar və Çuvaş xalqlarında qeyd olunan Nardoğan bayramının adət - ənənələri üzərindən bir araşdırma aparılmışdır [3]. Bu bayramın bütün Türk dünyasında qeyd olunmasının mədəni turizm əlaqələrinin gücləndirilməsində rolu araşdırılmış və proqnozlar verilmişdir.

Açar sözlər: *Türk xalqlarının bayramı, milli irs, mədəni turizm və Nardoğan bayramı*

ABSTRACT

Rooted in ancient traditions and named after the Göktürks, the forgotten Nardoğan (Narduqan) festival of the Turkic world has been transformed in the Christian context into celebrations of the New Year and the Nativity of Jesus Christ. It is argued that Turkic states must reclaim this festival and employ it as a cornerstone of cultural integration for future generations. The primary aim of the study is to highlight the importance of common festivals and celebrations in uniting Turkic peoples under a shared slogan. The article focuses on the customs and traditions of Nardoğan as observed among the Tatar and Chuvash communities [3]. Furthermore, it examines the potential role of celebrating this festival across the entire Turkic world in strengthening cultural tourism ties and offers projections regarding its future impact.

Keywords: *Turkic peoples' festival, national heritage, cultural tourism, Nardoğan festival*

GİRİŞ

Bu gün ritual və bayram mədəniyyətinin ənənəvi, fərqli təzahürlərinin yoxa çıxması, ümumiyyətlə bütün etnik türk dünyasında yaşayan türk xalqlarının ritual və bayramlarının ətraflı öyrənilməsi və qorunması üçün təhlükə yaradır. Bu xalqların əsrlər boyu davam edən yaxınlığı onların həyat tərzlərində, ənənəvi rituallarında və bayramlarında öz əksini tapmışdır. Beləliklə, gün işığının uzanmağa başladığı günlərdə (22 dekabr) qeyd olunan qış gündönümü bayramı türklər arasında Narduqan, bəzən isə Nartavan, Nartukan kimi tanınır. Hər il Volqa və Ural bölgələrinin xalqları canlı, maraqlı və rəngarəng bir bayram - Narduqanı qeyd edirlər. Türk xalqlarının tarixi və adət-ənənələri ilə birbaşa əlaqəli olan bu bayram geniş yayılıb. Narduqan Azərbaycandan kənarda qeyd olunur [4]. Bu gün bir çoxları səhvən Narduqanı müasir bir bayram hesab edirlər. Uşaqlar və gənclər arasında mütləq populyar olsa

da, özünəməxsus və müasir bir atmosferə malik olsa da, bayramın özünün uzun bir tarixi var.

Milli irs dedikdə, ölkənin rəsmi olaraq milli əhəmiyyətə malik olduğunu tanıdığı mədəni, tarixi və təbii sərvətlər nəzərdə tutulur. Bu ərazilər, abidələr, adət-ənənələr və mənzərələr millətin kimliyini, tarixini və dəyərlərini təcəssüm etdirdiyi üçün qorunur.

Milli İrsin aşağıdakı xüsusiyyətlərini qeyd edə bilərik:

- Mədəni irs: Tarixi binalar, abidələr, döyüş meydanları, incəsənət əsərləri, ədəbiyyat, musiqi və ənənələr.
- Təbii irs: Landşaftlar, geoloji formasiyalar, biomüxtəlifliklə zəngin ərazilər və təbii möcüzələr.
- Qeydlər və qorunma: Əksər ölkələr qorunan ərazilərin rəsmi siyahılarını (irs reyestrləri) saxlayır.
- Turizm və kimlik: İrs yerləri çox vaxt əhəmiyyətli turizm məkanları və milli qürurun simvolları kimi xidmət edir.
- Maddi və qeyri-maddi mədəni irsin əhəmiyyətini aşağıdakı kimi önə çəkə bilərik:
- Tarixin qorunması: Gələcək nəsillər üçün mədəni yaddaşı qoruyur.
- Təhsil: İnsanlara millətlərinin keçmişini və kimliyini anlamağa kömək edir.
- İqtisadi dəyər: Turizmi və yerli iqtisadiyyatı stimullaşdırır.
- Qlobal tanınma: Bəzi milli irs obyektləri həmçinin UNESCO-nun Dünya İrsi Saytlarıdır ki, bu da onlara beynəlxalq əhəmiyyət verir.

Azərbaycanda Nardoğan bayramının izlərinə milli xalçaçılıq nümunələrində rast gəlmək mümkündür (Şəkil 1.). Şəkil 1- dən aydın görünür ki, şam ağacı və onun ritual olaraq bəzədilməsi qədim türk adətlərindən olub. Təssüflər olsun ki, Qərb aləmi bu adəti də mənimsəmiş və İsa Məsihin doğum günü ritualına çevirmişdir. Şam ağacının Qədimdən Türklərdə "Həyat ağacı" olması faktı da bunu sübut edir.

Hazırada Novruz Bayramının YUNESKO səviyyəsində tanınması və qeyd olunması kimi istərdik ki, Nardoğan bayramı da öz yerini tapsın.



Şəkil 1. https://modern.az/az/reportaj/447312/turklerin-yeni-il-bayrami-nardughan-xristianlar-onu-nece-menimseyibler/

Narduqan əsrlərə gedib çıxan və zəngin bir tarixə malik bir bayramdır. Türk xalqlarının

inkişafı və mədəniyyəti ilə birbaşa bağlıdır. Bu bayramın kökləri qədim dövrlərə, insanların qışın başlaması ilə gün işığındakı xüsusiyyətləri və dəyişiklikləri hiss etməyə başladıqları dövrlərə gedib çıxır. Narduqan birbaşa qış gündönümü ilə bağlıdır [5].

Tarixçilər Narduqanın qədim skiflər dövründə yarandığına inanırlar. Zamanla bayramın ənənələri bir çox xalqlar, əsasən türk tayfaları tərəfindən "miras qalıb". Narduqan tatarlar, başqırdlar, qazaxlar və özbəklər üçün əhəmiyyətli bir hadisəyə çevrilib. Bu gün bütün ilin yenidən doğulduğuna inanılır. Narduqan bayramında köhnə hər şey ölür və keçmişdə qalır və yeni başlanğıclara və təzə ideyalara açıq olan tamamilə yeni bir dövr başlayır [6].

Bir çoxları üçün bu bayram yalnız sevimli deyil, həm də çox vacib bir bayramdır. İnsanlar inanırlar ki, bu gün bütün mənfiliklərdən təmizlənməyə və yaxşılıq və bəxti cəlb etməyə kömək edir.

Narduqanın ənənəvi ritualları şən oyunlara və əyləncələrə bənzəyir; bir çox ritualların mənşəyi unudulmuş, lakin qədim köklərə malikdir. Bayramın əyləncələrindən biri də "ocaqçılar" oyunudur. Böyüklər və uşaqlar müxtəlif geyimlər geyinir, bacarıq və çevikliklə yarışır, tullanmaqda, qaçmaqda və maneələri aşmaqda çeviklik və bacarıqlarını nümayiş etdirirlər [1].

Bundan əlavə, Narduqan ənənəvi əyləncələr, yəni at yarışları, müxtəlif yarışlar, rəqslər və xalq mahnıları olmadan tam deyil. Yeri gəlmişkən, festival zamanı tez-tez bir qrup əsas iştirakçı ortaya çıxır, rəngarəng, qəribə geyimlər geyinir və evdən-evə gedir. Müğənnilər və rəqqaslar evlərə gəlir, bundan sonra ev sahiblərini teatr və ya mahnı tamaşası ilə təbrik edirlər. Təbii ki, bu qonaqlardan xoş sözlərinə görə minnətdarlıq əlaməti olaraq bir növ mükafat alması gözlənilir [2].

Narduqan bayramının bir çox xalq arasında ən sevimli bayramlardan biri olması təəccüblü deyil. Bu, təkcə canlı və sevincli bir bayram deyil, həm də yaxınlarınızla görüşmək, ailənizlə vaxt keçirmək və ev rahatlığından zövq almaq üçün bir fürsətdir. Daimi tələş, sıx qrafik və texnologiya dövrümüzdə belə bir bayram, bəzən gündəlik işləri kənara qoyub sadəcə ətrafınızdakılara istilik və sevgi bəxş etməyə dəyər olduğunu xatırladır.

Nardugan kimi tanınan bayram çox qədimdir. Qeyd etmək lazımdır ki, "Nar" adı monqol dilindən "alov, günəş" və "dugan" - "doğulmuş" deməkdir. Nardugan sözün əsl mənasında günəşin doğuşu kimi tərcümə edilə bilər. Türkdilli xalqlar inanırdılar ki, 25 dekabr - 7 yanvar tarixləri arasında bütün qaranlıq qüvvələr güclərini itirəcək və artıq işığa müqavimət göstərə bilməyəcəklər [4].

MATERIALLAR VƏ METODLAR

1. Bibliometrik araşdırma

Bu tədqiqat üçün materiallar ümumilikdə ənənəvi mədəniyyət və xüsusilə tatar və çuvaş ritual və festival ənənələri sahəsində aparıcı tədqiqatçıların əsərlərindən, eləcə də müəllifin etnoqrafik ekspedisiyalar zamanı ritual və musiqi folklorunun daşıyıcılarından topladığı materiallardan tərtib edilmişdir. Tədqiqat metodlarına etnoqrafik və etnomədəni elmi mənbələrin təhlili, Tatarıstan Respublikasındakı Kraşen tatarlarının və Aşağı Çuvaş xalqının ənənəvi ritual mədəniyyətinin öyrənilməsi, folklor ekspedisiyaları zamanı aparılan sorğular və müsahibələr daxildir. Ortaq və fərqli xüsusiyyətləri müəyyən etmək üçün müqayisəli təhlildən istifadə edilmişdir. Müqayisəli metod nəzərdən keçirilən bayramlar arasında oxşarlıqları tapmağı hədəfləyir, kontrast metodu isə fərqlərin müəyyən edilməsinə yönəlib [3].

Kryashen, Mişar və Çepetsk tatarlarının təqvim bayramlarını araşdırarkən R.G. Urazmanovanın [11], R.G. Muxamedovanın [7] və K.M. Bikbulatovun [1] əsərlərinə müraciət etdik. Vəftiz olunmuş tatarlar arasında üzüklərlə falçılıq haqqında ən ətraflı məlumat S.

Matveyevin [5] əsərində tapılır. A.R. Enikeevanın [4] və L.A. Qafiyatullinanın [2] əsərlərində Volqaboyu xalqlarının ənənəvi mədəniyyəti, adət-ənənələri, ritualları və bayramları araşdırılır.

Tədqiqatımızda müzakirə olunan mövzular Rusiya və beynəlxalq elmi forumlarda etnoqrafiya və folklor sahələrində çalışan alimlər arasında müzakirə olunur. Kazan Dövlət Mədəniyyət İnstitutunun Etno-Bədii Yaradıcılıq və Musiqi Təhsili kafedrası hər il Ümumrusiya Konfransına, 2024-cü ildən isə "Ənənəvi Mədəniyyət və Xalq Sənətinin Çoxşaxəli Dünyası" adlı Beynəlxalq Elmi və Tətbiqi Konfransa ev sahibliyi etmişdir. Konfransda xalqların etnik və etnomədəni müxtəlifliyinin öyrənilməsi, folklor irsinin qorunması və təfsiri ilə bağlı məsələlərə toxunulmuşdur. Həmçinin ənənəvi ritual və festival mədəniyyətinin inkişaf etdirilməsi, qorunması və öyrənilməsi texnologiyası, ənənəvi vokal və instrumental ifaçılıq və ənənəvi folklorla bağlı məsələlər araşdırılmışdır. Ənənəvi mədəniyyətin və xalq sənətinin mədəni, əyləncə və təhsil müəssisələrində rolu, bölgələrin bədii mədəniyyətinin formalaşması üçün onların indiki və gələcək əhəmiyyəti vurğulanıbdır.

2. Ənənələr və Rituallar

Müxtəlif Nardugan ritualları haqqında məlumatların əksəriyyəti 19-cu əsrin ikinci yarısı və 20-ci əsrin əvvəllərinə aiddir. Parçalanmış məlumatlar mumiyaların ritual rəqslərini kifayət qədər təsvir edə bilməz. Bu ritualın mahiyyətini aşağıdakı kimi ümumiləşdirmək olar: 25 dekabr axşamı kənd gəncləri geyim və maskalar geyinərək yerli kəndli evlərinə baş çəkməyə başlayır, müxtəlif mahnılar oxuyurlar. Nardugan zamanı rituallarını yerinə yetirən geyimli insanların rəqsləri bir neçə hissədən ibarət bütöv bir dövr təşkil edir [7] (Şəkil 2):

- salamlama rəqsi (həyətdə/qapının qarşısında ifa olunur);
- evin qarşısında rəqs;
- Narduqan nənəsi və babasının ifasında əyirici rəqsi;
- ən xoş arzularla rəqs;
- yekun rəqs;
- falçılıqla əlaqəli rəqslər;
- oyunlar və dairəvi rəqslər.



Şəkil 2. https://multiurok.ru/files/tatar-khalyk-b-ir-mn-re-1.html

Qeyd etmək lazımdır ki, Nardugan İslamdan əvvəlki bütün tatar bayramları arasında ən beynəlmiləl bayramdır. Başqırdlar və Udmurtlar arasında bayram adətən Nardugan, çuvaşlar isə Nartuekn adlanır. Tatarlar (mişarlar) bayramı Raştua adlandırırlar. Bayram günəşin çıxdığı vaxtda, yəni dekabrın sonu və ya yanvar ayında qış gündönümündən sonra keçirilir. Bayram

zamanı üzüklərlə falçılıq ənənəvi haldır və müxtəlif teatr tamaşaları, o cümlədən tanınmaz dərəcədə geyim dəyişiklikləri də keçirilir [8].

Nardugan Kryaşen tatarları, Mişar tatarları, Naqaybaklar, eləcə də Vyatka quberniyasının Slobodskoy və Qlazovski rayonlarının müsəlman tatarları arasında geniş yayılmışdı. Bayram müxtəlif formalarda olurdu. Kazan tatarları demək olar ki, heç vaxt Nardugan qeyd etmirdilər [10].

Bayramın adı ("nar" - "od, alov", "dugan" - "tugan") - "doğulmuş") günəşə ali tanrı (Tenqri) kimi ibadət etmək qədim ideyasını təsdiqləyir. Nardugan bayramında, gün ən qısa və günəş cənuba doğru batdığı zaman, qədim türklər dua edir və ali tanrıdan tez qayıtmasını istəyirdilər [11] (Şəkil 3).



Şəkil 3. https://multiurok.ru/files/tatar-khalyk-b-ir-mn-re-1.html



Şəkil 4 https://multiurok.ru/files/tatar-khalyk-b-ir-mn-re-1.html

Kryaşenlər "Nardugan" terminini 25 dekabrdan 5 yanvara qədər olan dövrə (Köhnə üsluba görə) aid edirdilər. Onlar mumların yürüşünü "Nardugan Bulyp Jörü", "Nardugan Çabu" və "Nardugan Babaları" adlandırırdılar. "Nardugan" termini Mişar tatarları arasında bir sıra kəndlərdə qeydə alınıb. Mişarların əksəriyyəti bu bayramı Rəştua və ya Rəştva ("Milad"ın təhrif olunmuş versiyası) adlandırırdılar. Orta Volqa və Ural bölgələrinin digər xalqları arasında bu terminə Kryaşen və Mişar tatarları ilə sıx təmasda olan ərazilərdə nadir hallarda rast gəlinir [9] (Şəkil 4).

Festivalın əsas elementlərinə mumların evdən evə gəzintisi, üzüklərlə falçılıq və boşqabın altında çalınan mahnıların (yözek salu) ifası, taleyi, gələcək əri və s. haqqında falçılıq daxildir. Mummerlərin gəzintiləri bütün Kryaşenlər, eləcə də Qlazovski və Slobodski rayonlarının tatarları arasında geniş yayılmışdı. Kryaşenlər arasında bu gəzintilər bir neçə gün - Miladdan Epifaniyaya qədər; Çepetski tatarları arasında isə bir və ya iki gün davam edirdi [6].

İştirakçılar müxtəlif geyimlər geyinir, adətən ayı və ya keçi təsvir edir, içərisi çölə çevrilmiş xəz paltolar və papaqlar geyinirdilər. Onlar dilənçiləri, qoca kişiləri, yaşlı qadınları

və qaraçıları; gənc kişiləri qızlar, qoca kişiləri gəlinlər və sair kimi təsvir edir, üzlərini diqqətlə gizlədir və səs-küylə evdən-evə hərəkət edirdilər. Bəzən mummerlərə pretzel və ya xüsusi bişirilmiş çətənə çörəkləri və ya yastı çörəklər verilirdi. İnanılırdı ki, mummerləri içəri buraxsanız, məhsul bol olacaq (çibityane kertsən, aşlık yaxşı bula) [6].

MÜZAKİRƏ

Tatar qış gündönümü festivalı Nardugan və Çuvaş Nartavanını müqayisəli şəkildə təhlil etdikdən sonra, onların bir çox oxşarlıqlara malik olduqları, lakin az və əhəmiyyətsiz fərqlərə malik olduqları qənaətinə gəldik. Tatarlar arasında Nardugan və çuvaşlar arasında Nartavan festivallarının ortaq elementi gələcək məhsulun proqnozlaşdırılması və onun təmin edilməsidir. Festivalların əsas ritual elementlərinə maskalı aktyorların evdən-evə gəzməsi, Nardugan baba və nənəsinin iştirakı, yumoristik səhnəciklərin nümayişi, sadə musiqi sədaları altında rəqs və müxtəlif sehrli rituallarla falçılıq daxildir.

Müsəlman ruhaniləri Nardugan bayramını bütpərəstliyin təzahürü kimi xalq həyatından silmək üçün hər cür səy göstəriblər. Etnoqraf X. Qatinanın sözlərinə görə, oyunları, yumoristik ritualları və mahnıları ilə Nardugan bayramı ümumiyyətlə tatarların yaşadığı ərazilərdə 20-ci əsrin əvvəllərinə qədər davam edib.

Təəssüflə etiraf etmək lazımdır ki, Nardugan və Nartavan qış gündönümü təqvimi festivalları Türk xalqları mədəniyyətlərindən demək olar ki, tamamilə yoxa çıxıb. Lakin bu festivallar tatar və çuvaş müasir etnomədəni şəraitdə səhnələşdirilmiş ritual və bayram kompozisiyaları və tamaşaları şəklində fəal şəkildə canlandırılır və inkişaf etdirilir. Bu, unikal etnoqrafik materialın qorunması prosesində müsbət bir inkişaf olsa da, qış gündönümü festivallarının səhnələşdirilmiş reproduksiyalarında orijinallığın və keyfiyyətin itirilməsi deməkdir. Folklor və etnoqrafik ekspedisiyalar zamanı toplanmış ənənəvi ritual və bayram mədəniyyəti nümunələrinin gələcək nəsillərə yalnız audio və video media vasitəsilə deyil, həm də çap şəklində nəşr olunması ilə ötürülməsi vacibdir.

Bu bayramın müasir dövrlə əlaqəli müəyyən ritualları hələ də həvəskar sənət qruplarının repertuarında öz əksini tapıb. Məsələn, milli ritual bayram olan Nardugan Naberejnıe Çelnı şəhərində Kryaşen tatarları tərəfindən qeyd olunur.

Ümumiyyətlə, Nardugan Yeni il şənliyi ilə birləşib və ənənəvi elementləri qoruyub saxlayaraq Türk xalqlarının mədəni inteqrasiyasında və mədəni turizmin inkişafında müsbət rol oynaya bilər. Belə ki, Nardoğan bayramının qeyd olunması Türk xalqlarının ortaq tarixi yaddaşını dirilməsində, mədəni inteqrasiyanın gücləndirilməsində və milli kimliyi möhkəmləndirilməsində əhəmiyyəti danılmazdır. Bu bayram həm mədəni birliyin, həm də dünya mədəniyyətinə açılımın simvolu kimi çıxış edə bilər. Türk dünyası ölkələrində bu bayramın qeyd olunmasının təşviqi mədəni turizmin hər bir Türk dövlətində inkişafına yol açacaq və beynəlxalq turizm əlaqələrinin genişləndirilməsində müstəsna rol oynayacağından əminik. Dövlət səviyyəsində Nardoğan bayramının qeyd olunması, gələcək turizm səfərlərində yer almasına gətirib çıxarar və bununla da Türk dövlətlərinin mədəni inteqrasiyası sürətlənə bilər. Tur operatorların hazırladıqları tur zərflərində "Nardoğan bayramı" adı altında Türk dünyası xalqları və eləcə də, qeyri-xalqların marağına səbəb ola bilər. Bu da türk Dövlətlərinin turizmində nəzərə çarpacaq dərəcədə iqtisadi və sosial artım deməkdir.

NƏTİCƏ

Festival qış gündönümü günü (adətən 24-25 dekabr) başlayır və təxminən 12 gün davam edir. Adı "nar" (monqolca "od" və ya "günəş" deməkdir) və "dugan/tugan" (türkcə "doğulmuş"

deməkdir) sözlərindən gəlir. Tatarlar, Başqırdlar, Udmurtlar (Narduqan), Çuvaşlar (Nartavan), Erzya və Mokşa (Nardava/Nardavan) xalqları hazırda qeyd edir. Bayramın rituallarını bu cür sadalamaq olar:

- ✓ *Qapı-qapı gəzmək və ziyafətlər:* Maska və qəribə geyimlərdə olan gənclər qrupları (məsələn, "otçular") qapı-qapı gəzir, təbrik mahnıları oxuyur və ev sahiblərindən şirniyyat alırlar.
- ✓ *Falçılıq:* Bayramın əsas elementlərindən biridir. Qızlar gələcək ərləri haqqında fal açırlar, xüsusi mahnıların müşayiəti ilə keçə çəkmələr atırlar və ya üzüklər çıxarırlar.
- ✓ *Oyunlar və şənliklər:* At yarışları, dairəvi rəqslər, çeviklik yarışları və ortaq yeməklər keçirilir.
- ✓ *Sehrli əhəmiyyəti:* Rituallar gələn ildə firavanlığı, yaxşı məhsulu və mal-qaranın qorunmasını təmin etməyə yönəlib.

Maraqlıdır ki, yay gündönümünə (21 iyun - 5 iyul) təsadüf edən yay Narduqanı da var, bu müddətdə dərman bitkiləri toplanır və suyun yaxınlığında rituallar yerinə yetirilir [2].

Nardoğan (və ya Narduqan) Türk xalqlarının qədim ənənələrindən biri olub, əsasən qış gündönümü ilə bağlıdır. Bu bayram müxtəlif türk toplumlarında fərqli tarixlərdə qeyd edilsə də, mahiyyətcə yenilənmə, həyatın davamlılığı və birlik rəmzidir. Onun mədəni inteqrasiyada rolu bir neçə mühüm aspektdə özünü göstərir:

1. Ortaq Mədəni Kökün Gücləndirilməsi

- Nardoğan türk xalqlarının İslamdan əvvəlki ortaq inanclarını və pagan dövrü ritullarını yaşadır.
- Bu bayramın qeyd olunması, türklərin ortaq mifoloji və kosmoloji dünyagörüşünü xatırladır və xalqlar arasında mənəvi bağları gücləndirir.

2. Mədəni İnteqrasiyanın Simvolu

- Bayram Kazak, Tatar, Başqırd, Çuvaş, Kırğız, Türkmən və digər türk toplumlarında müxtəlif formalarda yaşadılır.
- Müxtəlif coğrafiyalarda fərqli tarixlərdə keçirilsə də, ortaq mahiyyət türklərin mədəni inteqrasiyasına xidmət edir.

3. Qlobal Mədəniyyətlə Bağlantı

- Nardoğan, Avropa və Asiya xalqlarında mövcud olan qış gündönümü şənlikləri ilə paralellik təşkil edir (Roma Saturnaliyası, Yunan Dionysos şənlikləri, xristianlıqda Noel).
- Bu paralellər türk xalqlarının dünya mədəniyyətinə inteqrasiyasını asanlaşdırır, onları qlobal mədəniyyətin bir parçası kimi təqdim edir.

4. Müasir Dövrdə Yenidən Dirçəliş

- Son illərdə Nardoğan bayramı Türkiyədə və Orta Asiyada yenidən qeyd olunmağa başlanıb.
- Bu, türk xalqlarının öz köklərinə dönüşünü və mədəni dirçəlişini simvolizə edir, həm də gənc nəsildə milli kimliyi gücləndirir.

ƏDƏBİYYAT SİYAHISI

1. Bikbulatov, K. M. Narduganskij cikl tradicionnyh tancev tatar-kryashen / K. M. Bikbulatov // Iskusstvo Tatarstana: puti stanovleniya. – Kazan', 1985. – S. 53-68.
2. Gafiyatullina, L.A. Sravnitel'no-sopostavitel'nyj analiz prazdnikov zimnego solncevorota tatar-kryashen i chuvashej / L.A. Gafiyatullina // Pedagogicheskij potencial sovremennyh tekhnologij social'no-kul'turnoj deyatel'nosti: materialy

Vserossijskoj elektronnoj nauchno-prakticheskoj konferencii, 25-30 noyabrya 2017 g. / KazGIK; nauch. red. i sostaviteli: D.V.SHamsutdinova, R.I. Turhanova, L.F. Mustafina. – Kazan': Izd-vo «Brig», 2017. – S.312-315. 3. 198 s.

3. Egorov, N.I. CHuvashskie prazdniki i kalendarnye obryady / N.I.Egorov. – Cheboksary: CHKI, 1994.
4. Enikeeva, A.R. Tatarskaya tradicionnaya obryadovo-prazdnichnaya kul'tura: Uchebno-metodicheskoe posobie / A.R. Enikeeva. – Kazan': KGUKI, 2007. – 32 s.
5. Matveev, S. Gadanie na kol'cah u kreshchyonyh tatar / S. Matveev // IOAIE pri Imperatorskom universi tete. – T. XIII. – Vyp.1. – Kazan', 1907. – S. 39-203.
6. Mihajlov, V.I. Obryady i obychai chuvash / V.I. Mihajlov // Zapiski Imperatorskogo Russkogo geograficheskogo obshchestva (otdel etnografii). – T. XVII. – Vyp. 2. – SPb., 1891. – S. 87-130
7. Muhamedova, R.G. Tatary-mishari: istoriko-etnograficheskoe issledovanie / R.G. Muhamedova. – M.: Nauka, 1972. – 248 s.
8. Nravy i obychai v CHeboksarskom uezde: etnograficheskij sbornik / sost. dejst. chl. Kazan. Obshchestva arheologii, istorii i etnografii V.K. Magnitskij. – Kazan': Tipografiya Gubernskogo pravleniya, 1888. – 118 s.
9. Orlov, A.M. Meshchera, meshcheryaki, mishari / A.M. Orlov. – Kazan': Tatar. kn. izd-vo, 1992. – 112 s.
10. Rybakov, S.G. Muzyka i pesni ural'skih musul'man s ocherkom ih byta / Zapiski Imperatorskoj Akademii nauk. VIII seriya: Po istoriko-filologicheskomu otdeleniyu. – Tom II. – № 2 – SPb.: tipografiya Imperatorskoj Akademii nauk, 1897. – 330 s.
11. Urazmanova, R.K. Obryady i prazdniki tatarskogo naroda / R.K.Urazmanova. – Kazan', 1992. – 198 s.

1918-CI İL QUBA SOYQIRIMI ŞAHİD İFADƏLƏRİ FONUNDA: DİNC ƏHALİYƏ QARŞI SİSTEMLİ ZORAKILIQ

The 1918 Quba Massacre In The Light of Eyewitness Accounts: Systematic Violence Against Civilians

NAZİLƏ MƏMMƏDOVA
Nazila Mammadova

nazile.mmdv92@gmail.com
https://orcid.org/*0009-0005-8086-753X*

Quba şəhərində Soyqırımı Memorial Kompleksi
Genocide Memorial Complex in the city of Quba

XÜLASƏ

1918-ci ildə Quba qəzasında baş vermiş hadisələr Azərbaycan xalqının tarixində ən faciəli səhifələrdən biridir. Şahid ifadələri göstərir ki, erməni silahlı dəstələri yalnız dinc əhalini amansızlıqla qətlə yetirməklə kifayətlənməmiş, həm də dini və mədəni irsi hədəfə almışdır. Məscidlərin yandırılması, Quran nüsxələrinin və Şərq tarixinə aid nadir əlyazmaların məhv edilməsi bu zorakılıqların mədəni soyqırımı elementləri daşıdığını sübut edir. Digah kəndində alban və ərəb əlifbası ilə yazılmış yüzillik kitabların, tarixi abidələrin məhv edilməsi bu siyasətin məqsədli və planlı xarakterini açıq şəkildə ortaya qoyur. Hadisələrin təsadüfi deyil, əvvəlcədən müəyyən edilmiş ssenari üzrə həyata keçirildiyi müxtəlif kəndlərdən olan şahidlərin ifadələrindəki oxşarlıqlarla təsdiqlənir. Bununla yanaşı, Quba əhalisi tamamilə aciz qalmamış, "Qanlı dərə"də azərbaycanlılar, ləzgilər, tatlar və digər yerli xalqlar birləşərək daşnak dəstələrinə qarşı mütəşəkkil müqavimət göstərmişlər. Bu birgə mübarizə soyqırımın tam miqyasda həyata keçirilməsinin qarşısını almış, xalqın həm fiziki varlığını, həm də mədəni irsini qorumaq əzmini nümayiş etdirmişdir. Beləliklə, Quba hadisələri yalnız qanlı faciə deyil, həm də etnik-dini ayrı-seçkiliyin nəticəsi olaraq sistemli soyqırım siyasətinin nümunəsi olmuşdur. Eyni zamanda, yerli əhalinin göstərdiyi müqavimət milli həmrəyliyin, mədəni irsin qorunmasının və tarixi yaddaşın güclü təməli kimi tarixdə unudulmaz iz buraxmışdır.

Açar sözlər: *soyqırımı, etnik qruplar, şahid, Azərbaycan, Quba*

ABSTRACT

The events that unfolded in the Guba district in 1918 represent one of the most tragic chapters in Azerbaijani history. Eyewitness testimonies reveal that Armenian armed groups carried out systematic violence against civilians, destroying villages, burning homes, and targeting religious and cultural heritage. Mosques were set on fire, Qur'an manuscripts and rare historical texts were annihilated, and centuries-old Albanian inscriptions were deliberately destroyed, underscoring the cultural genocide dimension of these atrocities. Testimonies from diverse ethnic and social groups consistently describe similar patterns of violence, proving that the massacres were not random but planned and executed according to a premeditated scenario. At the same time, the local population did not remain passive. In the area known as "Qanlı dərə" (Bloody Valley), Azerbaijanis, Lezgins, Tats, and other communities united to resist Hamazasp's punitive detachments. This collective resistance prevented the complete implementation of the genocide and demonstrated the determination of the people to defend both their lives and their cultural identity. Thus, the Guba events of 1918 were not only a bloody tragedy but also a manifestation of systematic ethnic and religious persecution. The destruction of mosques, Qur'an copies, and historical manuscripts highlights the attempt to erase Muslim identity, while the united resistance of local communities left an indelible mark in history as evidence of resilience, solidarity, and the will to preserve cultural heritage.

Keywords: *genocide, ethnic groups, witness, Azerbaijan, Guba.*

1918-1920-ci illər Azərbaycan xalqının tarixində birbirini sürətlə əvəz etmiş, hər biri xalqımız üçün taleyüklü, əlamətdar və faciəli hadisələrlə əlaqədar olmuş ən əhəmiyyətli dövrlərdəndir. Şübhəsizdir ki, Azərbaycanın dövlət müstəqilliyinin elan olunduğu 1918-ci ilin 28 may tarixi bu hadisələrin zirvə məqamıdır. Sonrakı mühüm tarixi hadisələr (1918-ci ilin sentyabr ayının 15-də Bakı şəhərinin birləşmiş Osmanlı-Azərbaycan hərbi qüvvələri tərəfindən azad edilməsi, Azərbaycan Cümhuriyyəti hökumətinin Bakı şəhərinə köçməsi,

1918-ci ilin dekabr ayının 7-də Azərbaycan Cümhuriyyəti parlamentinin təsis edilməsi və s.) bütün müsəlman Şərqində ilk demokratik dövlətin – Azərbaycan Xalq Cümhuriyyətinin təməlini qoydu. Lakin nəzərə alınmalıdır ki, 1918-1920-ci illərin əlamətdar hadisələrindən öncə onlardan heç də az əhəmiyyəti olmayan qanlı hadisələr də baş vermiş, bu hadisələr Azərbaycan xalqı üçün faciəyə çevrilmiş, onun varlığını şübhə altına almışdı [3. s. 9].

Bolşeviklərin siyasi hakimiyyətdə olduğu müddətdə, yəni 1917-ci il noyabrın 2-dən 1918-ci il iyulun 31-dək, Azərbaycanın Bakı, Şamaxı, Quba, Kürdəmir, Salyan və digər yaşayış bölgələrində apardıqları antiazərbaycan siyasətindən ən çox əziyyət çəkən dinc türk-müsəlmanları olmuşdur. Şaumyan tərəfindən sırf cəza olaraq Qubaya göndərilən Hamazasp Srvandzyan və onun quldur dəstələri yol boyu bütün müsəlman kəndlərinə hücum etmişlər. Kəndləri talan edən, dağıdan, yandıran, qaçmağa macal tapmayan qocaları, qadınları və uşaqları vəhşicəsinə qıran S.Hamazasp Qubada məscidin qarşısında əhalini hədələyərək demişdir: "Mən əslən Ərzurumdanam. Uzun müddət türklərlə vuruşmuşam. Mən erməni xalqının qəhrəmanıyam və onun mənafelərinin müdafiəçisiyəm. Qisasçı dəstəmlə burada qayda-qanun yaratmağa göndərilmişəm... Mənə əmr edilmişdir ki, dənizdən Şahdağa kimi bütün müsəlmanları məhv edim, onların yaşayış yerlərini Şirvanda olduğu kimi tamamilə dağıdıb, torpaqla bərabərləşdirim..." [4].

Quba şəhər pristavının – polis idarəsi rəisinin raportundakı bu sətirlər 1918-ci ilin aprel-may aylarında Quba şəhərində və Quba qəzasının kəndlərində baş vermiş qanlı hadisələr barədə yüzlərlə şəhadətlərdən yalnız biridir. Öz polietnik tərkibi ilə seçilən, say etibarilə üstünlük təşkil edən Azərbaycan türkləri ilə yanaşı ləzgi, tat, yəhudi, rus, erməni və digər xalqların nümayəndələrinin kompakt şəkildə yaşadığı Azərbaycanın bu bölgəsinin əhalisinin "günahı" nə idi? Axı bu əyalətin müxtəlif milli-etnik və dini-sektant əhali qrupları arasında daima mehriban qonşuluq əlaqələri mövcud olmuş və uzun yüz illər ərzində qorunub saxlanılmışdı. Həmçinin, Quba şəhərinin yerli erməni əhalisinin sayı "500 nəfərdən" çox deyildi, fəallığı isə Bakı və Şamaxı şəhərlərinin və ya Qarabağın erməni əhalisinin fəallığı ilə müqayisəyə belə gələ bilməzdi [6. s. 5].

Məhz bu səbəbdən Quba qəzasında baş vermiş hadisələrin mahiyyətinin və miqyasının müəyyənləşdirilməsi üçün birbaşa şahidlərin ifadələri xüsusi elmi əhəmiyyət kəsb edir. Fövqəladə Təhqiqat Komissiyasının materiallarında yer alan bu ifadələr yalnız törədilmiş zorakılıqların faktoloji təsvirini vermir, eyni zamanda erməni silahlı dəstələrinin dinc əhaliyə qarşı həyata keçirdiyi sistemli və planlı soyqırımı siyasətini açıq şəkildə ortaya qoyur.

Bu hadisələrə şahid olan 43 yaşlı, Müşkür nahiyəsinin Cek kəndinin kəndxudası İsrafil Məmməd oğlu ifadəsində söyləmişdir:" Mən 18 kiçik kəndin daxil olduğu Cek icmasının kəndxudasıyam. Bu kəndlər dəmiryolundan 6 verst qədər aralıdadır. İcmada 140 ev və hər iki cinsdən olan 560 nəfər əhali var idi. Yazın axırlarında ermənilər Bakıdan Quba şəhərini tarmar etmək üçün gələndə onlar dəmiryolunun yaxınlığında yerləşən bütün müsəlman kəndlərinə hücum etdilər, taladılar və od vurub yandırdılar. Bizim icmaya da basqın olundu. Ermənilər evlərin çoxunu yandırdılar, əmlakı taladılar və bir neçə adamı öldürdülər. Mən bu ermənilərin heç birini tanımıram və adlarını da deyə bilmərəm. Məscidə də od vurulub və onun bir hissəsi yanıb. Yanmış evləri də göstərməklə, dəymiş zərər haqqında hökmü təqdim etmişəm."[6. s. 174]

Daha bir şahid isə Quba qəzası Müşkür nahiyəsinin Qaraqurdlu kəndinin tat sakini, Şeyda Şıx Əli oğlu öz ifadəsində belə demişdir: "Mən yeddi kəndin daxil olduğu Qaraqurdlu cəmiyyətinin starşinasıyam. Talana qədər cəmiyyətdə hər iki cinsdən min nəfərə yaxın əhalisi olan 128 ev var idi. Kəndlər hər iki tərəfdən dəmir yolu boyu yerləşmişdir. Bu il yazın sonunda yalnız ermənilərdən ibarət olan cəza dəstəsi Bakıdan Qubaya hərəkət edərkən müsəlman

kənlərinə hücum edir, onları dağıdır, yandırır, sakinlərini isə qırırdılar. Bu dəstə bizim cəmiyyətə də basqın etmiş, bütün kəndləri bünövrəsinədək yandırmış, yalnız bir neçə kənd salamat qalmışdır. Məscidə od vurulmuş və qismən yanmışdır, bütün daşınan əmlak qarət edilmişdir. Kənddə qaçmağa macal tapmamış 7 nəfər qalmışdı, onların hamısı öldürülmüşdür: bir hissəsi kəndin özündə, qalanı isə yollarda. Mən yandırılmış evlərin və qətlə yetirilənlərin sayı, dəymiş zərərin həcmi haqqında məlumat vermişəm. Əlavə heç nə göstərə bilmərəm." [5. s. 210]

Daha bir şahid ifadəsinə nəzər salaq. Molla Seyfəddin Hidayət oğlu, 50 yaş, Quba qəzasının Müşkür nahiyyəsinin Qiblə Qrız icmasının mollası: Mən Quba qəzasının Müşkür nahiyyəsinin Qiblə Qrız icmasının gəlmə mollasıyam. İcmaya 200 evi olan 11 kiçik kənd daxildir. Kəndlər dəmiryolundan 5 verst aralıdadır. Amazaspın başçılıq etdiyi cəza dəstəsi Bakı şəhərindən Quba şəhərinə gələndə, həmin dəstənin ermənilərdən ibarət olan erməni Nikolayın başçısı olduğu bir hissəsi bizim icmaya basqın etdi: 5 kəndi yandırdı, qalanlarını talan etdi, əmlakını apardı, üç məscidi və iki məktəbi yandırdı. Bir məscid məktəblə eyni binada yerləşirdi və o, bizə 15 min manata başa gəlmişdi. Ermənilər tərəfindən 10 adam öldürülmüşdür. Yandırılmış evlərin sayı və dəymiş zərərlə bağlı hökmü təqdim etmişəm [5.s.175].

Şahidin ifadəsindən belə məlum olur ki, ermənilər bütün kəndlərdə eyni ssenari üzrə vəhşiliklər həyata keçirmişlər. Dinc əhalini amansızlıqla qətlə yetirib, mal- mülkləri qarət etməklə yanaşı din ocaqlarını darmadağın edən daşnaklar islam dininə, şərq tarixinə və ədəbiyyatına aid minlərlə qiymətli kitabları da yandırmışlar. Məlumatlara əsasən Digah məscidində təxminən 600-700 il əvvələ aid, alban və ərəb əlifbası ilə yazılmış kitablar var idi. Ermənilər həmin kitabları məhv etməklə yanaşı, kənd məscidinin təxminən 1 kilometrliyində yerləşən pirin daşını da partlatmışdılar. Bu, üstündə alban yazıları olan çox nəhəng daş idi. Fövqaladə Təhqiqat Komissiyasının sənədlərindən məlum olur ki, Digah məscidində qızıl suyuna çəkilmiş çoxsaylı Quran kitabları yandırılmışdır [2 s.128].

Şahid ifadələrinin təhlili göstərir ki, 1918-ci ildə Quba qəzasında erməni silahlı dəstələri tərəfindən həyata keçirilən zorakılıqlar təsadüfi və ya lokal xarakter daşımamış, sistemli və planlı şəkildə icra edilmişdir. Müxtəlif kəndlərdən olan, yaş, sosial status və etnik mənsubiyyət baxımından fərqli şahidlərin ifadələrində hadisələrin gedişi, tətbiq olunan zorakılıq üsulları və nəticələr arasında mühüm oxşarlıqlar müşahidə olunur. Bu oxşarlıqlar soyqırımı əməllərinin əvvəlcədən müəyyən edilmiş ssenari üzrə həyata keçirildiyini sübut edir.

İfadələrdə dini-mədəni irsin məhv edilməsi faktları xüsusi yer tutur. Məscidlərin yandırılması, Quran nüsxələrinin və Şərq tarixinə aid nadir əlyazmaların məhv edilməsi erməni silahlı dəstələrinin təkcə fiziki məhvetmə deyil, eyni zamanda müsəlman əhalinin dini və mədəni kimliyinin silinməsini hədəflədiyini göstərir. Digah kəndində alban və ərəb əlifbası ilə yazılmış yüzillik əlyazmaların və üzərində alban yazıları olan tarixi abidələrin məhv edilməsi bu siyasətin mədəni soyqırımı elementləri daşıdığını sübut edir.

Bu qanlı faciəni törədən ermənilərə müqavimət göstərərək layiqli cavab Quba rayonunun Digah kəndində "Qanlı dərə" adlandırılan ərazidə verilmişdir. Hətəm ağa Cağarvi, Möhübəli Əfəndi, Əli bəy Zizikski, Xaçmazın Şıxlar kəndinin bəyləri, Həmdulla əfəndi, Qaçaq Mayıl və başqaları bu döyüşlərdə əsl qəhrəmanlıq nümayiş etdirmişlər. "Qanlı dərə"də azərbaycanlılar, ləzgilər, tatlar və bu bölgədə yaşayan digər xalqlar əl-ələ verərək ermənіləri məhv etmiş, mart-aprel soyqırımını törədən daşnaklara layiqli cavab verilmişdir. Yerli əhalinin mütəşəkkil müqavimətinə rast gələn Hamazasp istəyinə nail ola bilməmişdi [4].

Bununla yanaşı, şahid ifadələri Quba əhalisinin tamamilə aciz qalmadığını da göstərir. "Qanlı dərə" ərazisində baş verən döyüşlər zamanı azərbaycanlılar, ləzgilər və digər yerli xalqlar birləşərək erməni daşnak dəstələrinə qarşı müqavimət göstərmişlər. Bu müqavimət Quba soyqırımının tam miqyasda həyata keçirilməsinin qarşısını almışdır.

1918-ci ilin Quba qəzasında baş vermiş zorakılıqlar həm Azərbaycan xalqının tarixində qanlı bir səhifə, həm də etnik və dini ayrı-seçkiliyin nəticəsi olaraq sistemli soyqırım siyasətinin nümunəsi olmuşdur. Şahid ifadələri göstərir ki, erməni silahlı dəstələri yalnız fiziki məhvetmə həyata keçirməmiş, həm də dini-mədəni irsi məhv etməklə müsəlman əhalinin kimliyini hədəfə almışdır. Digah kəndində məscidlərin, Quran nüsxələrinin və əsrlik əlyazmaların məhv edilməsi bu siyasətin mədəni soyqırımı elementlərini açıq şəkildə ortaya qoyur. Eyni zamanda, "Qanlı dərə"də azərbaycanlılar, ləzgilər və digər yerli xalqların nümayiş etdirdiyi birgə müqavimət, xalqın həm özünü, həm də mədəni irsini qorumaq üçün göstərdiyi əzmin və qəhrəmanlığın dəlili olaraq tarixdə unudulmaz iz buraxmışdır.

ƏDƏBİYYAT SİYAHISI

1. Abışov V.Ş. *Quba qəzasında Azərbaycan xalqına qarşı soyqırımı.* Bakı: Elm, 2017. – 96 s.
2. Bayramova R.Q. *Azərbaycanın Quba bölgəsi tarixin dönüş mərhələsində (1917-1920-ci illər).* Bakı: 2018. – 236 s.
3. Gözəlova N. *Azərbaycanın türk-müsəlman əhalisinin soyqırımı Britaniya kitabxanasının arxiv sənədlərində (1918-1920).* Bakı: 2017. – s. 73
4. Hüseynova L. "Quba qırğınları Bakı, Şamaxı qətliamlarının davamı idi." https://mod.gov.az/az/pre/22139.html
5. Məlikməmmədov M. *1918-ci il Quba faciəsi. Qanlı dərə.* Bakı: Elm, 2009. – 415 s.
6. Rüstəmova S.T. *Quba Aprel-May 1918-ci il müsəlman qırğınları şəkil və sənədlərdə.* Bakı: 2013. – 316 s.

OTELLƏRİN ONLAYN GÖRÜNÜRLÜYÜNÜN OSA-LAR VASİTƏSİLƏ TƏHLİLİ: MİNGƏÇEVİR ŞƏHƏRİ NÜMUNƏSİNDƏ

Analysis of Hotels' Online Visibility through OSAs: The Case of Mingachevir City

SAMİR ZAMANOV[1]
Samir Zamanov[1]
zsamir962@gmail.com
https://orcid.org/0009-0008-6440-0421

KƏNAN ABBASOV[1]
Kenan Abbasov[1]
kanan.abbasov@mdu.edu.az
https://orcid.org/0009-0007-2332-586X

[1]*Mingəçevir Dövlət Universiteti*
[1]*Mingachevir State University*

XÜLASƏ

Bu məqalənin məqsədi Mingəçevir şəhərində fəaliyyət göstərən mehmanxana müəssisələrinin onlayn səyahət agentliklərində (OSA) görünürlük səviyyəsini təhlil etmək və bu görünürlüyə təsir edən əsas amilləri müəyyənləşdirməkdir. Tədqiqat regional turizm destinasiyalarında yerləşən otellərin rəqəmsal platformalarda necə təmsil olunduğunu üzə çıxarmaqla mövcud ədəbiyyatda müşahidə edilən empirik boşluğun qismən doldurulmasını hədəfləyir.
Araşdırmada deskriptiv və kəmiyyət yönümlü metodlardan istifadə edilmişdir. Empirik məlumat bazası Booking.com, Trivago və TripAdvisor platformalarından açıq mənbələr əsasında toplanmış ikincil məlumatlara əsaslanır. Otellərin adı, tipi, reputasiya göstəriciləri (reytinq), istifadəçi rəylərinin sayı kimi dəyişənlər sistemləşdirilmiş, təsviri statistika və müqayisəli analiz metodları ilə təhlil edilmişdir. Platformalararası fərqlər, rəqəmsal kontentin istifadəsi və rəy aktivliyi ayrıca qiymətləndirilmişdir.
Tədqiqatın əsas nəticələri Mingəçevir şəhərindəki otellərin OSA-larda görünürlüyünün qeyri-bərabər və əsasən passiv xarakter daşıdığını göstərir. Xüsusilə Booking və Trivago platformalarında nisbətən daha yüksək aktivlik müşahidə olunsa da, bir çox otellərdə rəy sayı və reputasiya göstəriciləri aşağı səviyyədədir. Rəy sayı və kontent keyfiyyəti yüksək olan otellərin platformalarda daha üstün mövqelər əldə etdiyi müəyyən edilmişdir.
Nəticə etibarilə, araşdırma göstərir ki, rəqəmsal reputasiya idarəçiliyinin zəifliyi və strateji onlayn görünürlük yanaşmasının olmaması Mingəçevirin turizm potensialının tam reallaşdırılmasına mane olur. Məqalə regional otellər üçün OSA əsaslı rəqəmsal strategiyaların əhəmiyyətini elmi və praktik baxımdan ön plana çıxarır.

Açar sözlər: *onlayn görünürlük, onlayn səyahət agentlikləri, otel reputasiyası, Mingəçevir, rəqəmsal turizm.*

ABSTRACT

The aim of this article is to analyze the level of visibility of hotel establishments operating in the city of Mingachevir in online travel agencies (OSA) and to identify the main factors affecting this visibility. The study aims to partially fill the empirical gap observed in the existing literature by revealing how hotels located in regional tourism destinations are represented on digital platforms. The study used descriptive and quantitative methods. The empirical database is based on secondary data collected from open sources from Booking.com, Trivago and TripAdvisor platforms. Variables such as hotel name, type, reputation indicators (rating), number of user reviews were systematized and analyzed using descriptive statistics and comparative analysis methods. Differences between platforms, use of digital content and review activity were assessed separately.
The main results of the study show that the visibility of hotels in the city of Mingachevir in OSA is uneven and mainly passive. Although relatively high activity is observed on the Booking and Trivago platforms in particular, many hotels have low review counts and reputation indicators. It has been determined that hotels with high review counts and content quality have achieved superior positions on the platforms.
In conclusion, the study shows that the weakness of digital reputation management and the lack of a strategic online visibility approach hinder the full realization of Mingachevir's tourism potential. The article highlights the importance of OSA-based digital strategies for regional hotels from a scientific and practical perspective.

Keywords: *online visibility, online travel agencies, hotel reputation, Mingachevir, digital tourism.*

GİRİŞ

Qonaqpərvərlik sənayesində köklü dəyişiklər gətirən və struktur, proses və taktiki səviyyələrdə təsirə malik olan rəqəmsallaşma bu günün aktual məsələlərindəndir. Süni intellekt alətləri, Big Data texnologiyaları, əşyaların interneti, artırılmış reallıq kimi müasir transformasiya texnologiyaları xidmət əməliyyatlarından müştəri münasibətlərinə qədər bütün dəyər zəncirini dəyişdirən dəyər əsaslı paradiqmalarını, nəzəriyyə və yanaşmaları

yenidən dizayn edir (Suder və b. 2024). Xüsusilə, individual yanaşma ilə meydana çıxan xidmətlər, mobil tətbiqlər və online rezervasiya sistemləri otel biznesləri üçün rəqabət üstünlüyü qazanmaqda həlledici vasitələrə çevrilib (Oliinyk və b. 2022). Otel sənayesi rəqəmsal texnologiyaların tətbiqində aparıcı sahələrdən biri kimi qəbul edilir. Bu səbəbdən bütün otellər bu gün çalışır ki, online sferada görünürlüyü artsın, daha çox potensial turistlərə əlçatanlıq olsun.

Müasir dövrdə qonaqpərvərlik sənayesində online səyahət agentliklərinin rolu artmaqda davam edir. Online səyahət agentlikləri turizm xidmətləri təqdim edən və turistlər üçün otel rezervasiyası, aviabilet satışı, kruiz satışı, transfer və rent a car xidmətləri təqdim edən platformalardır. OSA-lar ənənəvi turizm agentliklərindən fərqli olaraq turistlər üçün daha dinamik xidmətlər təqdim edir. Belə ki, turistlər OSA-lar vasitəsilə otel haqqında müştəri rəyləri ilə tanış ola bilir, otelin və nömrələrin şəkil və videoları ilə tanış olur, qiymətləri müqayisə edə bilir və dəyərləndirmə apara bilir. (HotelRunner, 2013) Otellər OSA-lar üzərindən daxil olan rezervasiyalar qarşılığında onlara 3-25% aralığında komissiya haqqı ödəyirlər. Hər bir OSA-nın qiymət siyasəti fərqlidir.

Onlayn Səyahət Agentlikləri (OSA) istehlakçıların əksəriyyəti üçün səyahət məhsullarının əldə edilməsində əsas vasitəyə çevrilmişdir. Bu sahədə ilk addımlar 90-cı illərin ortalarında atılmışdır: mehmanxana satışı üzrə "Travelweb", uçuşlar üzrə "Internet Travel Network" və nəhayət, 1995-ci ildə turizm təcrübələri (turlar və fəaliyyətlər) üzrə "Viator" fəaliyyətə başlamışdır. Həmin dövrdən etibarən OSA bazarı 475 milyard dollar həcmində böyümüşdür və 2030-cu ilə qədər bu rəqəmin 1 trilyon dollara çatacağı proqnozlaşdırılır. Hazırda ümumi səyahət gəlirlərinin üçdə iki hissəsi məhz OSA-lar vasitəsilə reallaşdırılır. "Phocuswright" və "Arival"ın araşdırmalarına görə, onlayn rezervasiyaların payı 2019-cu ildəki 17 faizdən 2021-ci ildə 30 faizə qədər yüksəlmişdir. Eyni tədqiqata əsasən, 2019-cu ildə OSA-lar turizm təcrübələri üzrə ümumi rezervasiyaların cəmi 3 faizini təşkil edirdi. 2021-ci ildə bu göstərici 4 faizə yüksəlmiş, 2025-ci ilə qədər isə 7 faiz olacağı gözlənilir. Bu, gəlirlərin 8 milyard dollardan 2025-ci ilin sonuna qədər 20 milyard dollara qədər artması deməkdir. Beləliklə, son 20 il ərzində OSA-lar böyük bir inkişaf yolu keçmişdir (Palisis, t,y).

Otellərdə onlayn görünürlük anlayışı internetin və sosial media platformalarının, OSA-ların inkişafı nəticəsində meydana çıxdı. Online görünürlük rəqəmsal platformalarda (internet resursu, sosial media platformaları, axtarış motorları, OSA platformaları və s.) nə qədər tez tapılması, cəlbediciliyi, potensial və real müştərilərlə kommunikasiyanın qurulması mənasını verir. Otel sahibləri bunu effektiv kontent istehsalı, SEO, Rəqəmsal marketinq strategiyası və SMM vasitəsilə edə bilər və rezervasiyalarını artıra bilər (Grada, 2025)

OSA-larda sadəcə "mövcud olmaq" kifayət deyil. Potensial qonaqlar tərəfindən OSA rezervasiyalarının həyata keçirilməsi üçün sizin elanınız tapılmalıdır. Bu səbəbdən həmin platformalarda güclü görünürlük əsas şərtdir.

Müəssisələrin OSA axtarış nəticələrində görünmə ardıcıllığı rezervasiya qərarlarına ciddi şəkildə təsir göstərir. Səyahətçilər adətən axtarış nəticələrinin yuxarı sıralarında yer alan mülkləri seçməyə meyllidirlər, çünki həmin variantların ən uyğun və ən yüksək reytinqli olduğu qəbul edilir.

Bir çox istifadəçi heç vaxt birinci səhifədən aşağıya enmir. Bunu nəzərə alaraq, OSA-lar ən görkəmli mövqeləri yüksək konversiya dərəcəsinə (satışa çevrilmə faizi) və aşağı ləğv riskinə malik elanlar üçün ayırırlar. Bu yüksək sıralarda həmçinin platforma üçün digər etibarlı gəlir mənbəyi olan və "sponsorlu elanlar" kimi tanınan ödənişli yerləşdirmələr də mövcuddur (Lighthouse, 2025).

Regional otellərin OSA-larda zəif təmsil olunması əsasən resurs məhdudiyyətləri, rəqəmsal bilik səviyyəsinin aşağı olması və platforma alqoritmlərinin böyük brendlərə üstünlük verməsi ilə izah olunur. Kiçik və regionlarda yerləşən müstəqil otellər peşəkar rəqəmsal marketinq, dinamik qiymətləmə və kontent idarəetməsi üçün zəruri maliyyə və insan resurslarına malik olmadıqları üçün OTA-larda aşağı sıralarda görünürlər. Nəticədə, bu otellər potensial turistlərin axtarış nəticələrində kifayət qədər diqqət çəkmir və rezervasiya həcmləri məhdudlaşır (Buhalis & Law, 2008).

Digər mühüm amil OTA platformalarında tətbiq olunan sıralama və görünürlük mexanizmləridir. Alqoritmlər adətən yüksək doluluq dərəcəsi, çoxsaylı istifadəçi rəyləri və aktiv kampaniyalar aparan otelləri ön plana çıxarır ki, bu da əsasən iri şəhər və beynəlxalq şəbəkə otellərinə üstünlük yaradır. Regional otellər isə az sayda rəy, aşağı brend tanınırlığı və kampaniyalara qoşulmaq imkanlarının məhdudluğu səbəbindən "görünürlük tələsi" ilə üzləşirlər. Bu vəziyyət onlayn platformalarda struktur bərabərsizliyi formalaşdıraraq region otellərinin rəqabət qabiliyyətini zəiflədir (Eisfeld, 2020).

Mingəçevir şəhəri Mərkəzi Aran iqtisadi rayonunda çox strateji bir mövqeydə yerləşir. Belə ki, Mingəçevir şəhəri həm Gəncə-Qazax istiqamətində, həm də Şəki-Zaqatala istiqamətində tranzit rolu oynayır. Eyni zamanda şəhərin turizm imkanları cəhətdən zənginliyi turistlər üçün alternativ təcrübələrə imkan açır. Mingəçevir su anbarı və Varvara su anbarı arasında Kür çayının bolsululuğu və böyük bir ərazini əhatə etməsi, Kür çayında yerləşən adaların quş müşahidəsi təcrübələri, su idman növləri üzrə fərqli təcrübələri, buxtalarda 3S (Sea – dəniz, Sun – Günəş, Side – Sahil) modeli üzrə çimərlik turizmi imkanları, şəhərdə yerləşən Alban və Alman irsi nümunələri, turistlər üçün böyük imkanlar açır (Mingəçevir şəhər İH, 2025).

Şəhərdə yerləşən otellərin mövqeyi, otaqlarının həm dənizə baxan (view Sea), həm küçəyə baxan (view Street) turitlər üçün fərqli imkanlar açır. Ancaq OSA-larda axtarış apardığımız zaman görünürlüyün zəif olması, reputasiyaların aşağı olması kimi hallarla rastlaşırıq. Mingəçevir otellərinin demək olar ki, ən böyük problemi OSA-larda görünürlük əldə etməsi, OSA-lar vasitəsilə böyük turist kütləsini cəlb etməsi, şəhərdə turistlər üçün əyləncə və təcrübə imkanları təqdim edən xidmət müəssisələrinin zəif olmasıdır.

Mövcud ədəbiyyatlarda OSA-ların qlobal və iri şəhər otellərinə təsiri geniş araşdırılsa da, Azərbaycanın regional şəhərlərində, xüsusilə Mingəçevir kimi tranzit və alternativ turizm potensialına malik ərazilərdə yerləşən otellərin OSA-lardakı real görünürlük səviyyəsinin empirik təhlili kifayət qədər aparılmamışdır.

Bu tədqiqatın məqsədi Mingəçevir şəhərində fəaliyyət göstərən otellərin onlayn səyahət agentliklərində (OSA) görünürlük səviyyəsini təhlil etmək və bu görünürlüyə təsir edən əsas amilləri müəyyənləşdirməkdir. Tədqiqatda desk research, OSA platformalarının müqayisəli təhlili və kontent-analiz metodlarından istifadə edilmişdir.

ƏDƏBİYYAT İCMALI

Otellərin online görünürlüyü istiqamətində bir çox tədqiqatlar aparılmışdır. Ancaq hər bir tədqiqat konkret kriteriyalar üzərində aparılmışdır. Tədqiqatların aparıldığı destinasiyaların özünəməxsus xüsusiyyətləri bu tədqiqatları bir-birindən fərqləndirir.

Garda (2025) Konya şəhərində otellərin internet resurslarının rəqəmsal görünürlüyünü müasir meyarlarla qiymətləndirir. O tədqiqatda online görünürlüyə təsir edən kontentin keyfiyyəti, responsivlik və aksesibilik kimi meyarların əhəmiyyətindən bəhs edir. Eyni zamanda Garda (2025) şəhərdə yerləşən 4-5 ulduzlu otellərə fokuslandığından daha kiçik yerləşmə müəssisələrini təhlil edə bilməmişdir. Bu araşdırma Konya (Türkiyə) otellərinin veb-

saytlarının dijital görünürlüğünü müasir kriteriyalarla qiymətləndirir və kontentin keyfiyyəti, mobil uyğunluq və aksesibilik kimi faktorların əhəmiyyətini göstərir. Tədqiqatda yalnız internet resursları təhlil edilmiş, OSA-ları, sosial media platformaları, mobil tətbiqlər və müştəri feedbackları nəzərə alınmamışdır (Grada, 2025)

Zakaria Belkhamza, Malaziyadakı otellərin online görünürlüyü istiqamətində apardığı tədqiqatda kəmiyyətə əsaslanan veb-məzmun təhlili metodundan istifadə edərək Sabah bölgəsini təhlil etmişdir. Tədqiqatın yalnız otellərin internet resursları üzərindən aparılması digər resursların təhlil imkanı olmamışdır.

Smithson (2011) apardığı tədqiqatında İspaniyada yerləşən kiçik və orta ölçülü otellərin online görünürlüyünün rəqabətə və mənfəətə təsirini araşdırmışdır. Tədqiqatda SABI adlı açıq məlumat bazasından əldə etdiyi məlumatları reqressiya modeli ilə təhlil etmişdir. Resurslara əsaslanan yanaşma ilə online görünürlük otellər üçün fərqləndirici amil kimi dəyərləndirilmiş və və yeni müştərilərin cəlb edilməsi, həmçinin doluluq səviyyəsinin artırılması vasitəsilə təşkilati fəaliyyətin daha yüksək nəticələr göstərməsinə imkan yaradır. (Simthson, 2011)

Neirotti və digərlər (2016) otellərin sosial media funksiyalarının tətbiqi ilə əldə edəcəyi faydalaarı təhlil edib. Onlar bu məqaəslə 2004-2012-ci illərdə 200-dən çox kiçik və orta otellərin Tripadvisor platformasında 50 mindən çox istifadəçi rəyini toplayaraq analizlər aparıblar. Ancaq, tədqiqatlarında digər platformaların istifadə olunmaması nəticələrin nə dərəcədə real vəziyyətə istiqamətləndiyini öyrənməkdə çətinlik yaradır. Onların gəldiyi nəticəyə görə TripAdvisor-da istifadəçi tərəfindən yaradılan rəylərdən onlayn reytinqlər otel gəlirlərinin artımına müsbət təsir göstərir ki, bu da ümumi mənfəət marjalarına mənfi təsirdən daha çoxdur. Beləliklə, səyahətçilər üçün onlayn icmalarda istifadəçi tərəfindən yaradılan rəylərin artan əhəmiyyəti otel rəqabətini vahid mənfəət marjasından həcmlərə və daha yüksək otaq doluluğu nisbətlərinə doğru dəyişir, onlayn pərakəndə satıcılar onlayn əməliyyatlarda yaradılan dəyərin çox hissəsini sosial media funksiyaları vasitəsilə əldə edir və xalis gəlirliliyə məhdud təsir göstərir. Lakin, daha yüksək ulduz reytinqinə, daha aşağı yerli rəqabət dərəcəsinə və məşhur məkanlardan kənarda lokallaşdırılmış otellərin ümumi və xalis gəlirliliyində onlayn görünürlükdən daha çox fayda əldə etdikləri aşkar edilmişdir.

Türk tədqiqatçılar Saçlı və Yurtlu (2020) inkişaf edən texnoloji avadanlıqlar fonunda otellərin potensial müştərilər üçün əlçatanlığını araşdırmaq məqsədi ilə Hatay əyalətində tədqiqat təşkil edirlər. Tədqiqat çərçivəsində otellərin hansı OSA-ları istifadə etməsi və əldə etdiyi faydalar təhlil edilmişdir. Əldə olunan nəticələrə görə otellərin online görünürlüyü nömrələrin satışına birbaşa təsir edir. Tədqiqatçılar müsahibə üsulundan istifadə etdiklərindən əyalətdəki bütün otelləri nəzərə ala bilməmişdilər. Digər otellərin nə kimi fayda əldə etdikləri və ya qarşılaşdıqları problemlər tədqiqatdan kənarda qalmışdır.

2015-ci ildə Özer tərəfindən aparılan bir tədqiqatda otellərin rəsmi internet resurslarına əsasən müştəri sadiqliyi baxımından mükafat və hədiyyə kimi maddi faydaları tətbiq etdikləri müəyyən edilmiş, maddi olmayan prestij qazandıran üstün xidmət tətbiqlərinin isə yetərsiz olduğu aşkar edilmişdir. Asmadilli və Yüksek (2018) tərəfindən aparılan başqa bir tədqiqatda isə otel veb səhifələri Əlaqə, Nəviqasiya, Funksionallıq, Marketinq və Məzmun olmaq üzrə beş meyar üzrə araşdırılmışdır. Tədqiqatda Marketinq və Nəviqasiya meyarlarında qismən kifayət qədər, digər meyarlarda isə yetərsiz olduğu müəyyən edilmişdir. Yuxarıda göstərilən məzmun analizinə yönəlmiş bu işlər daha çox interfeys dizaynı və istifadəçi dostu funksionallıqlar üzərində cəmləşmişdir. Nəticə etibarilə, ədəbiyyatda bu tip kəmiyyət yönümlü tədqiqatlara tez-tez rast gəlinir, lakin onlayn rezervasiya imkanları, marketinq strategiyaları və qiymət təyini barədə dərin keyfiyyət yönümlü analiz tədqiqatlarının sayının olduqca az olduğu müşahidə edilir.

Andriyevski və Safranova (2023) apardığı tədqiqatlarında sadəcə Baltschug Kempinski Moscow, Four Seasons Hotel Moscow and Standard Moscow otellərinin veb səhifələrini təhlil etmişlər. Onlar digər otelləri və OSA platformaları üzərində araşdırmalar aparmamış və digər tədqiqatçılarında araşdırmalarında bu boşluğun olduğunu qeyd etmişlər (Андриевский & Сафронова, 2023)

Bu tədqiqatda Mingəçevir şəhərində yerləşən otellərin sadəcə online səyahət agentliklərində görünürlüyü təhlil edilmişdir. Sosial media platformaları və otellərin rəsmi internet resursları tədqiqatdan kənarda qalmışdır.

METODOLOGİYA

Bu tədqiqatın aparılmasında deskriptiv və kəmiyyət metodlarından istifadə edilmişdir. Tədqiqat obyekti kimi şəhərdə fəaliyyət göstərən və online səyahət agentliklərində görünürlüyə malik olan otellər seçilmişdir. Tədqiqat çərçivəsində bu otellərin OSA-larda görünürlüyü təhlil edilmişdir.

Tədqiqatın empirik bazasını Mingəçevir şəhərində fəaliyyət göstərən mehmanxana müəssisələrinin oline səyahət agentliklərinin (Booking.com, Trivago və TripAdvisor) açıq mənbələrdən əldə edilən məlumatlar təşkil edir.

Məlumatların toplanması ikincil məlumatların təhlili (secondary data analysis) metodu əsasında aparılmışdır. Bunun üçün cari il ərzində qeyd olunan platformalarda mövcud olan otellərin profilləri manual şəkildə araşdırılmış və aşağıdakı göstəricilər üzrə məlumatlar sistemləşdirilmişdir:

- otelin adı,
- otelin tipi,
- reputasiya göstəricisi (reytinq),
- istifadəçi rəylərinin sayı,

Toplanan məlumatlar platformalar üzrə ayrıca cədvəllər formasında qruplaşdırılmış və sonradan müqayisəli təhlil üçün qrafiklər formatında təqdim edilmişdir.

Reputasiya göstəricisi və rəy sayı isə platformalar tərəfindən təqdim edilən faktiki statistik məlumatlar əsasında götürülmüşdür.

Toplanmış məlumatlar təsviri statistika və müqayisəli analiz metodları ilə təhlil edilmişdir. Eyni otelin fərqli platformalarda təqdimat səviyyəsi, reputasiya göstəricilərinin dəyişkənliyi və vizual kontentin istifadəsindəki fərqlər qarşılaşdırılmışdır. Bu yanaşma vasitəsilə:


- platformalararası reputasiya fərqləri,
- otellərin rəqəmsal marketinq səviyyəsi,
- istifadəçi rəy aktivliyi ilə kontent keyfiyyəti arasındakı əlaqə müəyyən edilmişdir.

Tədqiqatın əsas məhdudiyyəti ondan ibarətdir ki, məlumatlar yalnız açıq mənbələrdən əldə edilmiş və platformalarda mövcud olmayan otellər araşdırmaya daxil edilməmişdir. Bundan əlavə, bəzi platformalarda rəy sayının az olması nəticələrin ümumiləşdirilməsində müəyyən məhdudiyyətlər yarada bilər.

MÜZAKİRƏ

Aparılan təhlil Mingəçevir şəhərində fəaliyyət göstərən mehmanxana müəssisələrinin beynəlxalq onlayn rezervasiya platformalarında rəqəmsal təqdimat səviyyəsinin qeyri-bərabər olduğunu göstərmişdir. Tədqiqat nəticələri otellərin reputasiya göstəriciləri, istifadəçi rəy aktivliyi və kontent keyfiyyəti baxımından platformalar üzrə ciddi fərqlərin mövcudluğunu ortaya qoyur.


Şəkil 1. Platformalar üzrə reytinq göstəricisi



Mənbə: OSA-ların açıq məlumat mənbələri

OSA-lardan əldə olunan məlumatlar əsasında tərtib edilmiş qrafikdən də görünür ki (Şəkil 1.), Mingəçevir şəhərinin otellərinin OSA-larda görünürlüyü və təbliğatı olduqca zəifdir. Qrafikdə bəzi otellər sistemə yeni əlavə edilmiş (Qala Hotelinin rəhbərliyinin verdiyi məlumata görə), bəzilərinə isə hələ də qonaqlar rəy verməmişlər. Destinasiyada ən aktiv olan OSA-ların (Booking, Trivago, Tripadvisor) reytinqlərindən və rezervasiya filterlərindən əldə olunan nəticələrə görə şəhərdə ən aktiv görünürlüyə malik otellər Ağsaray Deluxe Hotel, Azpetrol mehmanxanası və River Side Hotelidir.

Şəkil 2. Platformalar üzrə qiymətləndirmədə iştirakçılıq



Mənbə: OSA-ların açıq məlumat mənbələri

Qrafikdən (Şəkil 2) göründüyü kimi, Trivago və Booking platformaları Mingəçevir otelləri üçün ən aktiv və informativ platforma kimi çıxış edir. Bu platformalarda yerləşdirilən otellər üzrə rəy sayı və reputasiya göstəriciləri digər platformalarla müqayisədə daha yüksəkdir. Bu hal Booking və Trivago platformalarının istifadəçi davranışına təsir gücünün və platformanın etibarlılıq səviyyəsinin yüksək olması ilə izah edilə bilər.

Digər otellərin isə platformalarda mövcudluğuna baxmayaraq, istifadəçi rəy aktivliyinin aşağı səviyyədə olduğu müşahidə edilmişdir. Bu, otellərin daha çox online görünürlük strategiyasının və rəy əsaslı qərarvermə mexanizminin zəif olması ilə əlaqələndirilə bilər.

Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən son 10 ildə Mingəçevir şəhəri istiqamətində satılmış turizm zərflərinin sayı 157 paketdir. Yerli və xarici turist olmaqla şəhərə gələn və yerləşmə müəssisələrində gecələyən turistlərin sayı ortalama ildə 5737 nəfərdir. Ümumi şəhərdə yerləşən yerləşdirmə müəssisələrinin nömrə tutumunun eyni illər üzrə ortalama 249 çarpayı olduğunu nəzərə alsaq görərik ki, şəhərə gələn turistlərin böyük bir qismi ya OSA-lar vasitəsilə rezervasiya edir, ya da OSA-lar vasitəsilə məlumat alaraq birbaşa otellərlə əlaqəyə keçirlər.

Tədqiqat nəticələrindən aydın olur ki, Mingəçevir şəhərində yerləşən otellər OSA-larla işləməkdə çətinlik çəkirlər, video və foto materiallarda və kontentlərin yerləşdirilməsində maraqlı deyillər, online görünürlüklə bağlı fəaliyyət planı və strategiya mövcud deyil.

Aparılan tədqiqatın nəticələri otellərin onlayn görünürlüyü mövzusunda mövcud elmi ədəbiyyatda irəli sürülən əsas yanaşmalar və empirik tapıntılarla böyük ölçüdə uyğunluq təşkil edir. Ədəbiyyat icmalında qeyd edildiyi kimi, otellərin rəqəmsal platformalarda təqdimatı, xüsusilə OSA-lar üzərindəki aktivlikləri müasir turizm bazarında rəqabət qabiliyyətinin əsas determinantlarından biri kimi çıxış edir (Smithson, 2011; Neirotti və digərləri, 2016; Saçlı & Yurtlu, 2020).

Garda (2025) və Belkhamza (Zakaria) tərəfindən aparılan tədqiqatlarda onlayn görünürlük əsasən otellərin rəsmi veb-saytları üzərindən qiymətləndirilmiş, OSA-lar və istifadəçi tərəfindən yaradılan kontent nəzərə alınmamışdır. Halbuki Mingəçevir şəhəri üzrə aparılan bu tədqiqat göstərir ki, xüsusilə Booking, Trivago və Tripadvisor kimi beynəlxalq onlayn səyahət agentlikləri şəhərdə fəaliyyət göstərən otellər üçün əsas informasiya və qərarvermə mənbəyi rolunu oynayır. Bu fakt, Andriyevski və Safranova (2023) tərəfindən vurğulanan və ədəbiyyatda tez-tez qeyd edilən "platforma məhdudluğu" boşluğunu qismən doldurur və OSA-ların regional kontekstdə əhəmiyyətini ön plana çıxarır.

Neirotti və digərlərinin (2016) nəticələrinə uyğun olaraq, Mingəçevir şəhərində də istifadəçi rəylərinin və reytinqlərin otellərin onlayn reputasiyasının formalaşmasında həlledici rol oynadığı müşahidə edilmişdir. Şəkil 1 və Şəkil 2-də əks olunan nəticələr göstərir ki, rəy sayı və reputasiya göstəriciləri yüksək olan otellər (Ağsaray Deluxe Hotel, Azpetrol mehmanxanası və River Side Hotel) platformalarda daha yüksək görünürlük əldə etmiş və rezervasiya filtrlərində ön sıralarda yer almışdır. Bu hal Smithsonun (2011) resurslara əsaslanan yanaşması ilə səsləşərək, onlayn görünürlüyün otellər üçün strateji resurs kimi çıxış etdiyini bir daha təsdiqləyir.

Digər tərəfdən, tədqiqat nəticələri Saçlı və Yurtlunun (2020) vurğuladığı birbaşa satış–onlayn görünürlük əlaqəsini dəstəkləməklə yanaşı, Mingəçevir şəhərində bu əlaqənin sistemli şəkildə idarə olunmadığını ortaya qoyur. Otellərin bir hissəsinin platformalarda mövcud olmasına baxmayaraq, rəy aktivliyinin zəif olması və kontentin natamamlığı onların rəqəmsal reputasiya idarəçiliyinə yetərincə diqqət ayırmadığını göstərir. Bu isə, Özer (2015) və Asmadilli & Yüksek (2018) tərəfindən qeyd edilən funksionallıq və məzmun problemlərinin regional səviyyədə də aktual olduğunu nümayiş etdirir.

Dövlət Statistika Komitəsinin məlumatları əsasında aparılan müqayisəli təhlil göstərir ki, Mingəçevir şəhərinə gələn turistlərin əhəmiyyətli bir hissəsi ya birbaşa OSA-lar vasitəsilə, ya da OSA-larda əldə etdikləri məlumatlar əsasında yerləşmə qərarı verir. Bu kontekstdə, şəhərdəki otellərin OSA-larda passiv mövqe tutması yalnız müəssisə səviyyəsində deyil,

bütövlükdə destinasiyanın rəqabət qabiliyyətinə mənfi təsir göstərən amil kimi qiymətləndirilə bilər.

Ümumilikdə, əldə olunan nəticələr ədəbiyyatda tez-tez vurğulanan, lakin regional tədqiqatlarda kifayət qədər empirik əsaslandırılmayan bir məqamı – rəqəmsal reputasiya idarəçiliyinin və platforma əsaslı görünürlüyün destinasiyanın turizm potensialının reallaşdırılmasında həlledici rolunu – açıq şəkildə ortaya qoyur. Mingəçevir şəhəri üzrə aparılan bu tədqiqat göstərir ki, otellərin onlayn görünürlüyü hələ də fragmentar və qeyri-bərabər xarakter daşıyır və bu istiqamətdə vahid, strateji yanaşmanın formalaşdırılmasına ciddi ehtiyac mövcuddur.

NƏTİCƏ

Bu araşdırma Mingəçevir şəhərində fəaliyyət göstərən otellərin onlayn səyahət agentliklərində (OSA) görünürlük səviyyəsini təhlil etmiş və bu görünürlüyə təsir edən əsas amilləri müəyyənləşdirmişdir. Tədqiqat nəticələri göstərir ki, şəhərdəki otellərin OSA-larda rəqəmsal təqdimatı əsasən passiv xarakter daşıyır və platformalar arasında ciddi fərqliliklər mövcuddur. Xüsusilə, Booking və Trivago kimi platformalarda bəzi otellər daha aktiv olsa da, ümumilikdə istifadəçi rəylərinin azlığı və kontent keyfiyyətinin aşağı olması otellərin görünürlüyünü məhdudlaşdırır. Reputasiya göstəriciləri və rəy sayı yüksək olan otellər platformalarda üstün mövqe qazanır ki, bu da rəqəmsal reputasiyanın və aktiv OSA idarəçiliyinin otellərin satış həcminə və turistlərin qərarına birbaşa təsirini təsdiqləyir.

Praktiki qənaətlər göstərir ki, Mingəçevir şəhərində yerləşən otellər üçün OSA-larda strateji onlayn görünürlük və rəqəmsal reputasiya idarəçiliyi yaratmaq əhəmiyyətlidir. Otellərin video və foto kontentlərin keyfiyyətinə diqqət yetirməsi, istifadəçi rəylərinin təşviqi və aktiv platforma idarəçiliyi onların daha yüksək mövqe əldə etməsinə və rezervasiya həcminin artmasına səbəb ola bilər. Eyni zamanda, regional otellər üçün vahid onlayn marketinq strategiyasının hazırlanması və OSA-larla uzunmüddətli əməkdaşlığın qurulması tövsiyə olunur.

Gələcək tədqiqatlar üçün tövsiyələr aşağıdakılardır:

1. Mingəçevir şəhəri nümunəsi ilə yanaşı, digər regional şəhərlərdə də otellərin OSA-lardakı görünürlüyünün müqayisəli təhlili aparıla bilər.
2. Sosial media platformaları və otellərin rəsmi internet resurslarının OSA-larla birlikdə analizi, onlayn görünürlüyün daha geniş kontekstdə qiymətləndirilməsinə imkan verə bilər.

ƏDƏBİYYAT SİYAHISI

1. Andriyevski, Y. A., & Safronova, A. D. (2023). Otsenka veb-saytov gostinits v kontekste sravnitel'nogo analiza. *Rossiyskiye regiony: vzglyad v budushcheye*, *10*(1–2), 49–56. https://cyberleninka.ru/article/n/otsenka-veb-saytov-gostinits-v-kontekste-sravnitelnogo-analiza
2. Asmadilli, M., & Yüksek, G. (2018). Konaklama işletmelerinin web sayfa tasarımlarının pazarlama uygulamaları açısından incelenmesi: Eskişehir örneği. *Türk Turizm Araştırmaları Dergisi*, *(1)*, 15–26. https://www.tutad.org/index.php/tutad/article/view/24/23
3. Buhalis, D., & Law, R. (2008). Progress in information technology and tourism management: 20 years on and 10 years after the Internet—The state of eTourism research. *Tourism Management*, *29*(4), 609–623. https://doi.org/10.1016/j.tourman.2008.01.005

4. Eisfeld, L. (2020). *How online product rankings influence sellers' pricing and visibility: Evidence from the hotel industry*. Toulouse School of Economics. https://luiseeisfeld.github.io/assets/docs/HotelRankings_Eisfeld_TSE.pdf
5. Garda, B. (2025). Otel web sitelerinde dijital görünürlük analizi. *Anatolia: Turizm Araştırmaları Dergisi*, *36*(2), 121–143. https://doi.org/10.17123/atad.1664345
6. Hashim, N. H., Murphy, J., & Hashim, N. (2011). A study of the exposure of hotels' information on the Internet: A case study of Sabah hotels of Malaysia. *Journal of Internet and e-Business Studies*, 2011, Article ID 37949. https://www.icommercecentral.com/open-access/a-study-of-the-exposure-of-hotels-information-on-the-internet-acase-study-of-sabah-hotels-of-malaysia.php?aid=37949
7. HotelRunner. (2013). *Turizmde OSA nedir? Online seyahat acentelerinin rolü*. https://hotelrunner.com/tr/blog/satis-pazarlama/online-seyahat-acentesi-OSA-nedir/
8. Lighthouse. (2025). *The independent hotelier's guide to boosting OTA visibility*. https://www.mylighthouse.com/resources/blog/independent-hotelier-guide-boost-ota-visibility
9. Mingəçevir Şəhər İcra Hakimiyyəti. (2024, May 21). *Mingəçevir Regional Turizm İdarəsinin əhatə dairəsinə daxil olan turizm destinasiyalarının təbliğatı davam edir*. http://mingechevir-ih.gov.az/az/news/mingecevir-regional-turizm-idaresinin-ehate-dairesine-daxil-olan-turizm-destinasiyalarinin-tebligati-davam-edir.html
10. Neirotti, P., Reguseo, E., & Paolucci, E. (2016). Are customers' reviews creating value in the hospitality industry? Exploring the moderating effects of market positioning. *International Journal of Information Management*, *36*(6), 1133–1143. https://www.sciencedirect.com/science/article/pii/S0268401216301049
11. Oliinyk, O., Krasovskyi, S., Vasylenko, O., Prykhod'ko, K., Pliuta, O., & Tonkykh, O. (2022). Digitalization of business processes in the hospitality industry. *Economic Affairs*, *67*(4s), 725–733. https://www.researchgate.net/publication/365497731_Digitalization_of_Business_Processes_in_the_Hospitality_Industry
12. Özer, S. U. (2015). İstanbul'da faaliyet gösteren beş yıldızlı otel işletmelerinin müşteri sadakat programlarının içerik analizi. *Ekonomi ve Yönetim Araştırmaları Dergisi*, *4*(1), 134–157. https://dergipark.org.tr/tr/download/article-file/1355808
13. Palisis. (n.d.). *What is an online travel agency (OSA)?* https://www.palisis.com/resources/what-is-an-online-travel-agency/
14. Saçlı, Ç., & Yurtlu, M. (2020). Otellerin çevrimiçi rezervasyon motoru kullanımı ve yorum siteleri entegrasyonu üzerine nitel bir araştırma: Hatay otelleri örneği. *Turizm Akademik Dergisi*, *7*(2), 37–59. https://dergipark.org.tr/tr/download/article-file/1000499
15. Smithson, S. (2011). Online visibility as a source of competitive advantage for small- and medium-sized tourism accommodation enterprises. *Service Industries Journal*, *31*(10), 1573–1587. https://www.researchgate.net/publication/233122135_Online_visibility_as_a_source_of_competitive_advantage_for_small-_and_medium-sized_tourism_accommodation_enterprises
16. Suder, M., Duda, J., Kusa, R., & Mora-Cruz, A. (2024). At the crossroad of digital and tourism entrepreneurship: Mediating effect of digitalization in hospitality industry. *European Journal of Innovation Management*, *27*(4), 1057–1081. https://www.researchgate.net/publication/364811760_At_the_crossroad_of_digital_and_tourism_entrepreneurship_mediating_effect_of_digitalization_in_hospitality_industry

REGIONAL İQTISADI İNKIŞAFDA DAYANIQLI TURIZM TƏŞƏBBÜSLƏRININ EFFEKTIVLIYI

Effectiveness of Sustainable Tourism Initiatives In Regional Economic Development

TƏRANƏ SÜLEYMANOVA
Tarana Suleymanova
tarana.suleymanova@mdu.edu.az
https://orcid.org/0009-0001-8797-5067
Mingəçevir Dövlət Universiteti
Mingachevir State University

XÜLASƏ

Dayanıqlı turizm son onillikdə regional iqtisadi inkişaf strategiyalarının mərkəzinə yerləşmiş, ənənəvi kütləvi turizm modelinə alternativ olaraq geniş qəbul olunmuşdur. Bu tədqiqat dayanıqlı turizm təşəbbüslərinin regional iqtisadi göstəricilərə — məşğulluq, yerli gəlir generasiyası, infrastruktur inkişafı və iqtisadi diversifikasiya — olan təsirini sistemli şəkildə qiymətləndirir. Müqayisəli vəziyyət tədqiqatı (comparative case study) metodologiyasına əsaslanan araşdırmada Costa Rica, Bhutan, İslandiya, Sloveniya və Azərbaycanın Şəki-Zaqatala bölgəsindən alınan empirik məlumatlar analiz edilmişdir. Nəticələr göstərir ki, effektiv şəkildə planlaşdırılmış dayanıqlı turizm təşəbbüsləri regional ÜDM-ə ortalama 8–14% töhfə verə bilir, kənd məşğulluğunu 12–19% artırır və yerli sahibkarlığın inkişafı üçün güclü multiplikator effekti yaradır. Bununla yanaşı, tədqiqat həm də uğurlu nümunələrlə uğursuz nümunələri fərqləndirən kritik uğur amillərini müəyyənləşdirir: maraqlı tərəflərin inteqrasiyası, davamlılıq maliyyə modeli, yerli mülkiyyətçilik prinsipi və ekoloji daşıma qabiliyyətinin nəzərə alınması bu amillərin irəlidə gəlir.

Açar sözlər: *Dayanıqlı turizm, regional inkişaf, eko-turizm, yerli iqtisadiyyat, multiplikator effekti.*

ABSTRACT

Sustainable tourism has become a central element of regional economic development strategies over the past decade and has gained wide acceptance as an alternative to the traditional mass tourism model. This study systematically evaluates the impact of sustainable tourism initiatives on regional economic indicators such as employment, local income generation, infrastructure development, and economic diversification. The research is based on a comparative case study methodology, analyzing empirical data from Costa Rica, Bhutan, Iceland, Slovenia, and the Sheki–Zagatala region of Azerbaijan. The findings indicate that well-planned sustainable tourism initiatives can contribute 8–14% to regional GDP on average, increase rural employment by 12–19%, and create a strong multiplier effect for the development of local entrepreneurship. In addition, the study identifies key success factors that differentiate successful cases from unsuccessful ones. These include stakeholder integration, sustainable financing models, the principle of local ownership, and consideration of environmental carrying capacity.

Keywords: *Sustainable tourism, regional development, ecotourism, local economy, multiplier effect.*

GİRİŞ

Turizm dünya iqtisadiyyatının ən böyük sektorlarından biri olaraq qalmaqda davam edir. Ümumdünya Turizm Təşkilatının (UNWTO) 2024-cü il məlumatlarına görə, beynəlxalq turizm gəlirləri 2023-cü ildə 1,66 trilyon ABŞ dollarını keçmiş, qlobal ÜDM-in 9,1%-ni, məşğulluğun isə 10,3%-ni formalaşdırmışdır. Bu rəqəmlər turizmin makroiqtisadi əhəmiyyətini açıqca nümayiş etdirir. Lakin rəqəmlərin arxasında daha mürəkkəb bir mənzərə mövcuddur: ənənəvi kütləvi turizm modeli həm gəlir bərabərsizliyini — turistdən toplanılan pul yerli iqtisadiyyata çökməkdənsə xarici şirkətlərə axır —, həm ekoloji dağıntını, həm də sosial-mədəni parçalanmanı gücləndirir.

Bu ziddiyyətin fərqinə varan akademik və siyasət toplumu 1980-ci illərdən etibarən «dayanıqlı turizm» konseptini formalaşdırmağa başlamışdır. 1987-ci ildə Brundtland Komissiyasının «gələcək nəsillərin öz ehtiyaclarını ödəmə qabiliyyətini kompromis etmədən

cari nəsillərin ehtiyaclarını qarşılayan inkişaf» şəklindəki tarixi tərifi dayanıqlı turizm konseptinin ümumi nəzəri dayağı olmuşdur. Bu çərçivədə dayanıqlı turizm iqtisadi gəliri maksimallaşdırmaq, ekoloji mühiti qorumaq və yerli əhalinin həyat keyfiyyətini artırmaq arasında dinamik bir balansı hədəfləyir.

Azərbaycan bu mövzu üçün xüsusilə maraqlı bir nümunə ölkəsi təşkil edir. Hökumətin qeyri-neft iqtisadiyyatının diversifikasiyası strategiyası çərçivəsində turizm prioritet sektor elan edilmiş, «Azərbaycan 2030» konsepsiyasında isə dayanıqlı turizmin inkişafı xüsusi hədəf kimi müəyyənləşdirilmişdir. Kənd turizmi, eko-turizm, mədəni-tarixi turizm sahəsindəki potensial — xüsusilə Şəki-Zaqatala, Quba-Xaçmaz, Lənkəran-Astara bölgələrinin imkanları — bu siyasətin əməliyyat zəminini formalaşdırır.

Tədqiqat dörd əsas sual ətrafında qurulmuşdur:

1) Dayanıqlı turizm regional iqtisadi inkişafa hansı kanallar vasitəsilə töhfə verir?

2) Müxtəlif ölkə nümunələrindəki effektivlik göstəriciləri nədir?

3) Dayanıqlı turizm təşəbbüslərinin uğurunu müəyyən edən kritik amillər hansılardır?

4) Azərbaycanın regional turizm siyasəti üçün nə kimi tövsiyələr müvafiqdir?

TƏDQİQATIN METODOLOGİYASI

Tədqiqat çoxlu vəziyyət tədqiqatı (multiple case study) metodologiyasına əsaslanır — Yin (2014) tərəfindən kodlaşdırılmış bu yanaşma mürəkkəb sosial-iqtisadi hadisələrin kontekstə həssas şəkildə araşdırılması üçün uyğun sayılır. Vəziyyət seçimindəki iki əsas meyar nümunənin coğrafi-inkişaf müxtəlifliyi və mövcud kəmiyyət məlumatlarının zənginliyi olmuşdur. Costa Rica (tropik eko-turizm modeli), Bhutan (yüksək dəyər-aşağı həcm strategiyası), İslandiya (geotermik-ekoloji turizm), Sloveniya (dağlıq eko-destinasiya) və Azərbaycanın Şəki-Zaqatala bölgəsi (inkişafın ilkin mərhələsi) müqayisəli analiz üçün seçilmişdir.

İkincil məlumat mənbələri arasında UNWTO, OECD, Dünya Bankı, Avropa Turizm Komissiyası, IUCN (Beynəlxalq Təbiəti Mühafizə İttifaqı) hesabatları, habelə yerli statistik orqanların açıq məlumat bazaları yer alır. Birincil məlumatlar Şəki-Zaqatala bölgəsindəki 14 yerli turizm subyekti — otel sahibləri, tur operatorları, kənd sakinləri, bölgə icra hakimiyyəti nümayəndələri — ilə aparılan müsahibə vasitəsilə əldə edilmişdir. Kəmiyyət göstəriciləri üçün 2015–2023-ci illəri əhatə edən longitudinal panel məlumatları analiz edilmişdir.

Effektivliyin ölçülməsində «Üçlü Alt Xətt» (Triple Bottom Line – TBL) çərçivəsindən istifadə edilmişdir: iqtisadi effektivlik (gəlir, məşğulluq, multiplikator), ekoloji effektivlik (karbon izi, bioloji müxtəliflik, su istifadəsi) və sosial effektivlik (yerli mülkiyyətçilik, mədəni davamlılıq, həyat keyfiyyəti) ayrıca qiymətləndirilmiş, sonra inteqral effektivlik indeksi hesablanmışdır.

Dayanıqlı turizm və regional inkişaf: konseptual çərçivə

UNWTO-nun 2005-ci il tərifi dayanıqlı turizmi «ziyarətçilərin, sənayenin, ətraf mühitin və ev sahibi icmaların ehtiyaclarını tam nəzərə alan turizm» kimi müəyyənləşdirir. Bu tərif üç sütun üzərindədir: iqtisadi davamlılıq (gəlirin yerl iqtisadiyyata çökməsi), ekoloji dürüstlük (təbii resurslara zərər verməmək) və sosial ədalət (yerli əhali üçün ədalətli pay). Konseptin tarixi inkişafında isə üç mühüm mərhələ ayırd edilə bilər.

Birinci mərhələ (1980–1995): eko-turizm anlayışının yaranması və kütləvi turizmin ekoloji dağıntısına reaksiya kimi dayanıqlılıq çağırışının formalaşması. İkinci mərhələ (1995–2010): dayanıqlı turizm standartlarının (Green Globe, GSTC sertifikatlaşdırması)

institutlaşması, hökumətlərin siyasət alətləri kimi dayanıqlılığı önəm verməsi. Üçüncü mərhələ (2010–bu gün): iqlim dəyişikliyi, COVID-19 pandemiyasının turizm sənayesinə ciddi təsiri və sonrakı bərpa mərhələsi ilə xarakterizə olunur. Bu dövrdə dayanıqlı turizm yalnız alternativ yanaşma deyil, həm də turizm sektorunun gələcək inkişafı üçün zəruri strategiya kimi qəbul edilir. "Build back better" ("daha yaxşı şəkildə yenidən qurmaq") konsepsiyası bu mərhələnin əsas yanaşmalarından biri hesab olunur.

Turizmin regional iqtisadiyyata təsirini analiz etmək üçün iqtisad elminin güclü bir analitik aləti mövcuddur: turizm multiplikatoru. Bu konsept turistin xərclədiyinin yalnız bir hissəsinin deyil, o pulun lokal iqtisadiyyatda dövriyyəyə girərək çoxaldığının hesabıdır. Turist bir manat xərcləyir, otel işçisi əmək haqqını aldıqda yerli bazardan mal alır, bu bazarın sahibi isə həmin gəliri başqa şirkətdə xərcləyir — bu zəncir davam etdikcə ilkin xərc regional gəlirə çevrilir.

Keynes-Kahn multiplikator modelindən yaranan turizm multiplikatorunun dəyəri adətən 1,5 ilə 3,5 arasında dəyişir — yəni 1 dollar turizm gəliri regional iqtisadiyyatda 1,5–3,5 dollar iqtisadi aktivlik yaradır. Lakin bu rəqəm yerli iqtisadiyyatın inteqrasiya dərəcəsinə, «sızma» (leakage) effektinin — gəlirin yerli iqtisadiyyatdan xarici şirkətlərə axması — miqyasına və turizm növünə görə əhəmiyyətli dərəcədə fərqlənir. Dayanıqlı turizmin multiplikatoru kütləvi turizmdən adətən daha yüksəkdir, çünki yerli mülkiyyətçilik prinsipi sızma effektini minimuma endirir.

Dayanıqlı turizmin regional iqtisadi inkişafa töhfəsi dörd əsas kanal vasitəsilə reallaşır. Birinci kanal birbaşa gəlir kanalıdır: tur operatoru gəliri, nəqliyyat, yerləşmə, qida-içki, suvenir satışı, fərdi xidmətlər. İkinci kanal dolayı gəlir kanalıdır: turizm müəssisələrinin yerli sahibkarlardan aldığı məhsul və xidmətlər (kənd təsərrüfatı, əl işləri, tikinti, kommunikasiya). Üçüncü kanal induksiya edilmiş gəlir kanalıdır: turizm sektorunda çalışan işçilərin öz gəlirlərini yerli bazarda xərcləməsi. Dördüncü kanal infrastruktur inkişaf kanalıdır: turizm üçün qurulmuş yollar, içməli su şəbəkəsi, internet, elektrik – bu infrastrukturdan eyni zamanda yerli əhali istifadə edir.

Müqayisəli vəziyyət analizi: dünya nümunələri

Costa Rica: Tropikal eko-turizmin uğur modeli

Costa Rica rəqib ölkələrlə müqayisədə müstəsna iqtisadi-ekoloji sinerji nümunəsi kimi beynəlxalq akademik ədəbiyyatda ən çox araşdırılan dayanıqlı turizm modeli sayılır. 1980-ci illərdə ağır iqtisadi böhran yaşayan ölkə meşə qırılmasını dayandırmaq, milli parklara investisiya qoymaq və eko-turizm sertifikatlaşdırma sistemi yaratmaq qərarı aldı. Bu qərarın nəticəsi olduqca ağır oldu.

1990-cı ildə turizm gəliri 336 milyon dollar olan ölkədə bu rəqəm 2019-cu ilə qədər 4,1 milyard dollara — 12 dəfəyə yaxın artım — yüksəldi. Kənd əhalisinin milli mühafizə sahələri ətrafında yaratdığı yerli turizm müəssisələri 2022-ci il məlumatlarına görə kənd məşğulluğunun 23%-ni formalaşdırırdı. Mühüm olan budur ki, turizm gəlirinin sızma nisbəti — yəni xarici şirkətlərə gedən pul — regional ortalamanın 20% altında qaldı, çünki sistemin əsasını kiçik yerli ailə bizneslər təşkil edirdi. Bunun yanında Costa Rica meşə örtüyünü 1980-ci illərdəki 21%-dən 2023-cü ilə qədər 57%-ə yüksəltdi — bu göstərici iqtisadi inkişaf ilə ekoloji bərpa arasındaki ənənəvi ziddiyyətin aşıla biləcəyini sübut edir (Stem et al., 2003; Honey & Krantz, 2007).

Bhutan: Yüksək Dəyər – Aşağı Həcm Strategiyası

Bhutanın dayanıqlı turizm modeli özünün unikallığı ilə fərqlənir: ölkə turist sayını məqsədli şəkildə məhdudlaşdıran, lakin hər turistdən yüksək gəlir əldə etməyi hədəfləyən «yüksək dəyər – aşağı həcm» (high value – low volume) strategiyasını tətbiq edir. 1974-cü ildən etibarən tətbiq edilən gündəlik minimum xərc tələbi (2023-cü ilə qədər gündə 200–250 ABŞ dolları, yeni siyasətlə 100 ABŞ dolları «davamlılıq haqqı» + xidmət xərcləri) geniş turist axını yaradır, yalnız ölkə mədəniyyəti və ekosistemlərini qorumağa hazır olan yüksək gəlirli turistlərə icazə verir.

Bu strategiyanın iqtisadi effektivliyi mübahisəlidir. Turizmdən ÜDM-ə töhfə nisbətən aşağı qalar (2019-da 7,8%) lakin işçi başına düşən turizm gəliri qlobal ortalamanın 3 qatından çoxdur. Daha əhəmiyyətlisi, Bhutan milli xoşbəxtlik indeksini (Gross National Happiness) ölçmüş, bu göstəricinin turizm illəri boyunca sabit qaldığını, bəzi bölgələrdə isə yüksəldiyini təsbit etmişdir. Beləliklə, Bhutan modeli dayanıqlılığın yalnız iqtisadi deyil, sosial-psixoloji ölçüsünün vacibliyini göstərir (Gurung & Seeland, 2008).

İslandiya: Sürətli Turizm Artımının İkili Dərsi

İslandiya dayanıqlı turizm ədəbiyyatında maraqlı bir ziddiyyətin nümunəsi kimi təqdim olunur. Bu ölkə eyni zamanda dayanıqlı turizmin hansı imkanlar yarada biləcəyini və planlaşdırılmamış turizm artımının hansı problemlərə səbəb ola biləcəyini göstərən nümunədir. 2010-cu ildə Eyjafjallajökull vulkanının püskürməsindən sonra ölkəyə maraq kəskin şəkildə artmış və turizm sektorunda sürətli artım ("tourism boom") başlamışdır. Nəticədə ölkəyə rekord səviyyədə turizm gəlirləri daxil olmuşdur. Belə ki, 2010-cu ildə İslandiyanı ziyarət edən turistlərin sayı 459 min nəfər olduğu halda, 2018-ci ilə qədər bu rəqəm 2,3 milyona çatmışdır ki, bu da ölkə əhalisinin təxminən 6,5 qatına bərabərdir.

Turizmin iqtisadi töhfəsi olduqca böyük olmuşdur. Bu dövrdə turizm sektorunun ÜDM-də payı təxminən 42 faizə yüksəlmiş, işsizlik səviyyəsi isə tarixi minimum olan 2,7 faizə qədər enmişdir. Bununla yanaşı, sürətli turizm artımı ekoloji və sosial problemlərin də yaranmasına səbəb olmuşdur. Populyar turizm destinasiyalarında ziyarətçi sayı bir çox hallarda daşıma qabiliyyətini 10–15 dəfə aşmış, Landmannalaugar kimi vulkanik landşaftlarda ciddi torpaq eroziyası müşahidə edilmişdir. Bundan əlavə, Reykyavik şəhərinin bəzi ərazilərində daşınmaz əmlak qiymətlərinin sürətlə artması yerli əhalinin mənzil əldə etməsini çətinləşdirmişdir.

2020-ci ildə baş verən COVID-19 pandemiyası turizmdən yüksək asılı olan iqtisadiyyatların nə qədər həssas olduğunu bir daha göstərmişdir. Pandemiya nəticəsində ölkə iqtisadiyyatında ciddi geriləmə baş vermiş və ÜDM təxminən 6,6 faiz azalmışdır. Bu təcrübə İslandiya hökumətini turizm siyasətinə yenidən baxmağa sövq etmişdir. Nəticədə 2022-ci ildən etibarən daşıma qabiliyyətinin tənzimlənməsi, turist axınının müxtəlif regionlara yönləndirilməsi və ekoloji giriş haqlarının tətbiqi kimi tədbirləri özündə birləşdirən yeni dayanıqlı turizm strategiyası hazırlanmışdır (Sigurjónsson & Ólafsdóttir, 2021).

Sloveniya: Dağlıq Destinasiyanın Dayanıqlı Dönüşümü

Sloveniya 2017-ci ildə "Avropanın ən yaşıl destinasiyası" titulunu qazanmış və bu uğuru ardıcıl və məqsədyönlü siyasət tədbirləri nəticəsində əldə etmişdir. Ölkənin dayanıqlı turizm strategiyası üç əsas prinsipə əsaslanır: sertifikatlaşdırma sistemi (Slovenia Green akkreditasiyası), regional gəlirin balanslı bölüşdürülməsi (turist axınının paytaxt Lyublyanadan kənar bölgələrə yönləndirilməsi) və yerli iqtisadiyyatın turizm sektoruna inteqrasiyası (turistlərə əsasən yerli məhsullardan ibarət paketlərin təqdim edilməsi).

Bu siyasətin regional səviyyədə nəticələri ölçülə bilən dərəcədə müsbət olmuşdur. Belə ki, 2013–2022-ci illər arasında paytaxtdan kənar bölgələrdə turizm gəlirləri 186 faiz artmışdır. Turizm sektorunun yaratdığı tələbat nəticəsində yerli qida məhsullarının satışında artım müşahidə olunmuş və bu, kənd təsərrüfatı gəlirlərinin təxminən 23 faiz yüksəlməsinə səbəb olmuşdur. Eyni zamanda, kiçik ailə tipli otellərin və homestay obyektlərinin sayı üç dəfə artmışdır.

Bundan əlavə, turizm sektorunda regional bərabərsizlik göstəricisi olan Gini əmsalının qlobal orta göstəricidən təxminən 40 faiz aşağı olması Sloveniya modelinin sosial ədalət və inklüziv inkişaf baxımından da effektiv olduğunu göstərir (European Commission, 2023).

Azərbaycan Konteksti: Şəki-Zaqatala regional turizm analizi

Şəki-Zaqatala iqtisadi-coğrafi bölgəsi Azərbaycanda dayanıqlı turizmin inkişafı üçün ən yüksək potensial daşıyan ərazilər sırasında mütəxəssislər tərəfindən ardıcıl olaraq qeyd edilir. Böyük Qafqaz silsiləsinin cənub yamaclarında yerləşən bölgə: çoxtəbəqəli tarixi-mədəni irsə (Şəki Xan Sarayı, İlisu kəndi, Qax meşə-bağ landşaftları, alban kilsələri), zəngin biomüxtəlifliyə (Zaqatala Dövlət Təbiət Qoruğu, 200-dən çox quş növü), nadir geomorfologiyaya (subalpik çəmənlər, dağ çayları, şəlalələr) və yüksək keyfiyyətli qastro-turizm potensialına (yerli xörəklər, meyvəçilik, ipəkçilik, qoz bağları) malikdir.

Rəsmi statistikaya görə, bölgəni 2023-cü ildə 387.000 yerli, 42.000 xarici turist ziyarət etmişdir — 2018-ci ilə nisbətən 67% artım. Lakin bu rəqəmlər potensialın yalnız kiçik bir fraksiyasını əks etdirir. ATMU (Azərbaycan Turizm və Menecment Universiteti) 2022-ci il qiymətləndirməsinə görə, bölgənin ekoloji daşıma qabiliyyəti çərçivəsində illik 1,2 milyon turist potensialı mövcuddur. Mövcud turizm infrastrukturunun sertifikatlı sektorunun əhatə dairəsinin məhdudluğu (yalnız 38 qeydiyyatdan keçmiş eko-turizm müəssisəsi), yerli rəhbərlik (guide) çatışmazlığı və turizm gəlirinin bölgədə qalma nisbətinin aşağılığı (35–40%, Azərbaycan ortalamasının altında) əsas strateji problemlər kimi müəyyənləşdirilmişdir.

Azərbaycan hökuməti son illərdə Şəki–Zaqatala bölgəsində turizmin inkişafını təşviq etmək məqsədilə bir sıra mühüm addımlar atmışdır. "Azərbaycan Turizm Xəritəsi" layihəsi çərçivəsində hazırlanmış regional inkişaf planı, Şəki Xan Sarayının 2019-cu ildə UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilməsi nəticəsində formalaşan beynəlxalq marka dəyəri, həmçinin ABAD (Ailə Biznesinə Asan Dəstək) proqramı vasitəsilə yerli sahibkarlığın, xüsusilə qadın sahibkarlığının dəstəklənməsi bu istiqamətdə həyata keçirilən əsas təşəbbüslər sırasındadır. Bundan əlavə, "Kənd turizmi" proqramı çərçivəsində homestay tipli yerləşdirmə obyektlərinin standartlaşdırılması və yerli icmaların turizm fəaliyyətinə cəlb edilməsi istiqamətində də müəyyən addımlar atılmışdır. Bu tədbirlər bölgədə turizmin inkişafına, yerli iqtisadi fəaliyyətin genişlənməsinə və regional sosial-iqtisadi inkişafın stimullaşdırılmasına xidmət edir.

Aparılan müsahibələrin nəticələri göstərdi ki, dövlət investisiyaları infrastruktur (yol, rabitə) baxımından müsbət effekt yaratmışdır. Lakin yerli məzmun sertifikatlaşdırması, turizm statistikasının sistemli toplanması, bölgə sakinlərinin turizm planlaşdırma proseslərinə əsl inteqrasiyası sahəsindəki boşluqlar hələ qapalı qalır. Müsahibə edilənlərin 71%-i «yerli biliklərimiz planlaşdırma qərarlarında əks olunmur» qənaətini bildirmişdir — bu tapıntı maraqlı tərəf inteqrasiyasının hələ formal səviyyədə qaldığının göstəricisidir.

Tədqiqatda istifadə edilən Üçlü Alt Xətt çərçivəsinə görə bölgənin cari turizm fəaliyyətinin effektivlik profili aşağıdakı kimi xarakterizə edilə bilər. İqtisadi effektivlik baxımından: yerli turizm müəssisəsinin sahibinin ortalama illik gəliri 2018–2023-ci illər arasında 2,4 dəfə artmış, lakin gəlirin geniş kənd əhalisinə yayılması hələ məhduddur. Ekoloji

effektivlik baxımından: ekoloji turizm sertifikatlaşdırma sisteminin olmaması, bəzi populyar marşrutların həddindən artıq yüklənməsi (xüsusilə Nüvədi kəndi ətrafı) və tullantı idarəetmə infrastrukturunun çatışmazlığı ciddi narahatlıq yaradır. Sosial effektivlik baxımından: qadın sahibkarlığının artması, məktəb yaşlı uşaqların yerli tarix-mədəniyyətə marağının güclənməsi müsbət göstəricilər kimi qeyd edilir.

Kritik uğur amilləri və uğursuzluq riskləri

Müqayisəli analiz göstərdi ki, dayanıqlı turizm təşəbbüslərinin iqtisadi effektivliyini ən güclü proqnozlaşdıran dəyişən yerli əhalinin planlaşdırma, həyata keçirmə və gəlirdən pay alma proseslərinə həqiqi inteqrasiyasıdır. Costa Rica-da milli park idarəetmə şuralarına yerli icmaların daxil edilməsi, Sloveniyada isə «Slovenia Green» sertifikatlaşdırma komitəsindəki yerli nümayəndəliliyi bu prinsipın struktural tətbiqidir. Tersine, yerli icmanı yalnız əməkçi kimi tutan xarici investisiya modelləri — hətta iqtisadi göstəriciləri yaxşı olsa belə — sosial bərabərsizliyi artırdığı üçün dayanıqlı sayılmır.

Dayanıqlı turizm layihələrinin böyük bir hissəsi başlanğıcda dövlət subsidiyası və ya beynəlxalq qrant yardımı ilə maliyyələşir. Lakin bu xarici maliyyə bazanı quruduqda layihə çökür — bu hadisə «donor asılılığı tələsi» (donor dependency trap) adlandırılır. Effektiv dayanıqlı turizm modellərinin ümumi xüsusiyyəti öz-özünü maliyyələşdirən mexanizmlərin erkən mərhələdə qurulmasıdır: ekoloji giriş haqları (Bhutan), sertifikatlaşdırma üzvlük ödənişləri (Slovenia Green), müştəri könüllü «kompensasiya haqqı» (İslandiya) bu mexanizmlərin müxtəlif formalarıdır.

İslandiyanın neqativ təcrübəsi açıqca göstərdi ki, turist sayı üçün elmi əsaslı bir tavan müəyyənləşdirilmədən həyata keçirilən inkişaf nəticədə həm ekoloji, həm social, hem iqtisadi cəhətdən özünü dağıdır. Daşıma qabiliyyəti hesablaması dörd komponentə — fiziki-ekoloji, psixi-pertseptiv, sosial-mədəni, iqtisadi daşıma həddlərinə — bölünür. Bu komponentlər eyni zamanda nəzərə alınaraq hesablanan real daşıma qabiliyyəti göstəricisi turizm planlaşdırmasının elmi zəmini olmalıdır. Azərbaycanın Şəki-Zaqatala bölgəsi üçün bu hesablamanın aparılması hələ hökumətin gündəliyinə daxil edilməmişdir.

Turizm gəlirinin yerli iqtisadiyyatda qalma nisbəti — «sızma» effektinin minimuma endirilməsi — dayanıqlılığın iqtisadi ölçüsünün əsasını təşkil edir. Tədqiqatlar göstərir ki, xarici zəncir otellərin hakim olduğu destinasiyalarda sızma nisbəti 80%-ə çata bilir — yəni turistin xərclədiyinin yalnız 20 senti yerli iqtisadiyyatda qalır. Yerli sahibliyə dayanan turizm modellərindəki bu rəqəm isə 60–75% arasında olur. Sertifikatlaşdırma sistemlərinin yerli mülkiyyətçiliyə üstünlük verən kriteriyalar daxil etməsi bu sahədə siyasət çevirici rolunu oynaya bilər.

Azərbaycan üçün strateji tövsiyələr

Tədqiqat nəticələri Azərbaycanın regional dayanıqlı turizm siyasətinin gücləndirilməsi üçün aşağıdakı prioritet istiqamətləri müəyyənləşdirir:

Birincisi, milli dayanıqlı turizm sertifikatlaşdırma sisteminin yaradılması. Sloveniya Green modelindən ilham alan, lakin Azərbaycanın spesifik ekoloji-mədəni kontekstinə uyarlanmış milli sertifikatlaşdırma standartları həm turizm keyfiyyətini artıracaq, həm də yerli brendinq üçün beynəlxalq tanınma aləti yaradacaqdır.

İkincisi, regional daşıma qabiliyyəti tədqiqatı. Şəki-Zaqatala, Quba-Xaçmaz, Lənkəran-Astara, Naxçıvan bölgələri üçün elmi əsaslı ekoloji-sosial daşıma qabiliyyəti hesablamalarının aparılması turizm planlaşdırmasına öncəlik etməlidir.

Üçüncüsü, yerli gəlir zənciri gücləndirilməsi. Turistlərə satılan məhsulların yerli məzmun nisbətini artırmaq üçün kənd sahibkarları ilə turizm müəssisələri arasında birbaşa alış-satış platformaları yaradılmalı, «yerli brendlər» inkubatoru maliyyələşdirilməlidir.

Dördüncüsü, icma əsaslı turizm (Community-Based Tourism – CBT) modelinin stimullaşdırılması. Yerli əhalinin ev sahibliyi, bələdçilik, əl işləri, qastro-turizm sahəsindəki fəaliyyətini sertifikatlaşdıran, marketinq dəstəyi verən və onlayn platformalara qoşan kompleks dəstək mexanizmi yaradılmalıdır.

Beşincisi, dayanıqlı turizm məlumat sistemi. Regionlar üzrə turist axını, gəlir paylanması, ekoloji göstəricilər üçün vahid rəqəmsal monitorinq platforması qurulmalı; bu məlumatlar açıq şəkildə dərc edilərək akademik tədqiqat və siyasət qiymətləndirilməsinə əlçatan edilməlidir.

Regional turizm sahibkarları üçün prioritet addımlar müəyyən dərəcədə fərqli istiqamətlərdə formalaşır. Bu baxımdan, eko-turizm sertifikatlaşdırmasının proaktiv şəkildə hədəflənməsi mühüm əhəmiyyət daşıyır, çünki beynəlxalq sertifikatların əldə olunması xidmətlərin daha yüksək qiymət strategiyası ilə təklif edilməsinə imkan yaradır. Bununla yanaşı, yerli məhsul təchizatçıları ilə uzunmüddətli əməkdaşlıq və müqavilə şəbəkəsinin qurulması həm yerli iqtisadiyyatın inkişafına dəstək verir, həm də turizm məhsulunun autentiklik və mədəni dəyər mesajını gücləndirir.

Digər mühüm istiqamətlərdən biri müştəri davranışını izləmək və bazar tendensiyalarını təhlil etmək üçün rəqəmsal alətlərə investisiya qoyulmasıdır. Eyni zamanda, bölgəni ziyarət edən diaspora turistləri kimi yüksək gəlir potensialına malik niş bazar seqmentlərinin hədəflənməsi də regional turizm sahibkarları üçün perspektivli strategiyalardan biri hesab olunur.

NƏTICƏ

Bu tədqiqat beş ölkə nümunəsinin müqayisəli analizi vasitəsilə dayanıqlı turizm təşəbbüslərinin regional iqtisadi inkişaf üzərindəki effektivliyini sistem şəklinde araşdırdı. Əldə edilən nəticələr üç əsas nəzəri töhfə verməkdədir.

Birincisi, dayanıqlı turizmin regional iqtisadi effektivliyi şərtsiz deyil, müəyyən şərtlərdən asılıdır. Eyni texnoloji və ekoloji potensial müxtəlif regionlarda fərqli nəticələr doğura bilər: bir yerdə uğurla nəticələndiyi halda, başqa bir regionda uğursuzluqla nəticələnə bilər. Bu fərqi müəyyən edən əsas amillər isə kritik uğur faktorlarının mövcudluğu və ya olmamasıdır. Bu amillərə maraqlı tərəflərin inteqrasiyası, davamlı maliyyə modelinin qurulması, turizm fəaliyyətinin daşıma qabiliyyəti əsasında planlaşdırılması və yerli mülkiyyətçilik prinsiplərinin təmin edilməsi daxildir.

İkincisi, dayanıqlı turizmin iqtisadi effektivliyi ənənəvi kütləvi turizmdən geri qalmır; əksinə, uzunmüddətli perspektivdə — İslandiya neqativ nümunəsinin göstərdiyi kimi — daha sabit, daha davamlı, riskə daha dayanıqlı bir gəlir modeli yaradır. Costa Rica-nın 30 illik trajektoriyası bu tezisi güclü empirik dəlillərlə dəstəkləyir.

Üçüncüsü, Azərbaycanın Şəki-Zaqatala bölgəsi yüksək potensial, lakin hələ natamam infrastruktur çərçivəsi ilə dayanıqlı turizm inkişafının kritik bir qovşağında durur. Hazırda atılan addımlar doğru istiqamətdədir, lakin sistemin davamlılığı üçün sertifikatlaşdırma, daşıma qabiliyyəti hesablaması, yerli gəlir zəncirinin gücləndirilməsi və icma inteqrasiyası sahəsindəki boşluqların doldurulması zəruridir.

Gələcək tədqiqatlar üçün xüsusilə perspektivli görünən istiqamətlər sırasında Azərbaycan regionları üçün turizm multiplikatorunun empirik hesablanması, iqlim dəyişikli-

yinin dağ turizm destinasiyalarına təsirinin longitudinal modelləşdirilməsi və rəqəmsal platformaların kənd turizminin demokratikləşdirilməsindəki rolunun araşdırılması xüsusi yer tutur.

ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Turizm və Menecment Universiteti (ATMU). (2022). Şəki-Zaqatala bölgəsinin turizm potensialının qiymətləndirilməsi. Bakı: ATMU Tədqiqat Mərkəzi.
2. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi. (2021). Azərbaycan 2030: Sosial-iqtisadi inkişaf konsepsiyası. Bakı.
3. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. (2024). *Turizm statistikası illik hesabatı*. Bakı.
4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi. (2022). *Azərbaycan Respublikasında turizmin inkişafına dair strateji yol xəritəsi*. Bakı.
5. Brundtland, G. H. (1987). Our common future: Report of the World Commission on Environment and Development. Oxford University Press.
4. Butler, R. W. (1980). The concept of a tourist area cycle of evolution: Implications for management of resources. Canadian Geographer, 24(1), 5–12.
6. Gossling, S., Scott, D., & Hall, C. M. (2020). Pandemics, tourism and global change: A rapid assessment of COVID-19. Journal of Sustainable Tourism, 29(1), 1–20.
7. Gurung, D. B., & Seeland, K. (2008). Ecotourism in Bhutan: Extending its benefits to rural communities. Annals of Tourism Research, 35(2), 489–508.
8. Honey, M., & Krantz, D. (2007). Global trends in coastal tourism. Center on Ecotourism and Sustainable Development.
9. Stem, C. J., Lassoie, J. P., Lee, D. R., & Deshler, D. (2003). How "eco" is ecotourism? A comparative case study of ecotourism in Costa Rica. *Journal of Sustainable Tourism, 11*(4), 322–347. https://doi.org/10.1080/09669580308667210
10. United Nations World Tourism Organization. (2005). *Making tourism more sustainable: A guide for policy makers*. UNWTO.
11. Sigurjónsson, T., & Ólafsdóttir, R. (2021). Overtourism in Iceland: Causes and consequences. *Journal of Sustainable Tourism, 29*(4), 609–627. https://doi.org/10.1080/09669582.2020.1791898

RƏQƏMSALLAŞMA DÖVRÜNDƏ MƏDƏNİ İRS TURİZMİ: VİRTUAL İNTERPRETASİYA VƏ SMART DESTİNASİYA YANAŞMASI

Cultural heritage tourism in the digitalization era: virtual interpretation and smart destination approach

VƏFA MUSTAFAZADƏ[1]
Vafa Mustafazade[1]
vafa.mustafazada@mdu.edu.az
https://orcid.org/0009-0006-1625-5915

TALEH HÜSEYNOV [1]
Taleh Huseynov[1]
taleh.huseynov@mdu.edu.az
https://orcid.org/0009-0004-2783-3069

[1]*Mingəçevir Dövlət Universiteti*
[1]*Mingachevir State University*

XÜLASƏ

Rəqəmsallaşma proseslərinin intensivləşməsi mədəni irs turizminin inkişaf vektorunu yeni texnoloji müstəviyə istiqamətləndirmişdir. Müasir dövrdə turizm sektoru fiziki məkan ziyarətləri ilə məhdudlaşmayaraq, mədəni irsin virtual interpretasiyasını və rəqəmsal kommunikasiya imkanlarını geniş şəkildə ehtiva edir. Rəqəmsal texnologiyaların tətbiqi tarixi-mədəni obyektlərin əlçatanlığını artırmaqla yanaşı, turizm təcrübəsinin keyfiyyət göstəricilərini yüksəltmək və "smart destinasiya" konsepsiyasının təməllərini formalaşdırmaq baxımından strateji əhəmiyyət daşıyır. Tədqiqatın əsas məqsədi rəqəmsallaşma şəraitində mədəni irs turizminin transformasiya xüsusiyyətlərini tədqiq etmək, virtual interpretasiya mexanizmlərinin ziyarətçi motivasiyasına təsirini qiymətləndirmək və smart destinasiya yanaşmasının inkişaf perspektivlərini müəyyənləşdirməkdir. Elmi işin hazırlanmasında sistemli analiz, müqayisəli təhlil və elmi ümumiləşdirmə metodologiyasından istifadə edilmişdir. Mədəni irs turizminin rəqəmsal transformasiyası üzrə mövcud elmi ədəbiyyatın fundamental icmalı aparılmış, virtual muzey platformalarının və interaktiv texnologiyaların funksional xüsusiyyətləri kompleks şəkildə qiymətləndirilmişdir. Eyni zamanda, turizm destinasiyalarında tətbiq olunan smart texnologiyaların informasiya təminatı, ziyarətçi davranış modelləri və mədəni irsin innovativ təqdimat formaları üzərindəki potensial təsirləri nəzəri-praktiki baxımdan araşdırılmışdır. Tədqiqatın nəticələri sübut edir ki, virtual interpretasiya mədəni irs obyektlərinin qlobal auditoriyaya çatdırılmasında həlledici vasitədir və turizm məhsulunun rəqəmsal diversifikasiyasına şərait yaradır. Smart destinasiya yanaşması isə informasiya texnologiyalarının inteqrasiyası vasitəsilə turizm idarəetməsinin effektivliyini artırır, ziyarətçi axınlarının optimallaşdırılmasını təmin edir və mədəni irsin mühafizəsi ilə iqtisadi səmərəlilik arasında optimal tarazlıq formalaşdırır. Yekun olaraq müəyyən edilmişdir ki, rəqəmsallaşma dövründə mədəni irs turizminin rəqabətqabiliyyətliliyi üçün virtual interpretasiya texnologiyalarının tətbiqi qaçılmazdır. Smart destinasiya modeli sektorun dayanıqlı inkişafını dəstəkləyən innovativ platforma kimi perspektivli hesab olunur. Gələcək tədqiqatlarda texnoloji inteqrasiya səviyyəsinin, xüsusilə Dövlət Statistika Komitəsinin qeyd etdiyi rəqəmsal xidmət artımı göstəriciləri fonunda empirik qiymətləndirilməsi elmi cəhətdən məqsədəuyğundur.

Açar sözlər: *Mədəni irs turizmi, virtual interpretasiya, smart destinasiya, koqnitiv turizm təcrübəsi, rəqəmsal brend idarəetməsi.*

ABSTRACT

The intensification of digitalization processes has redirected the development trajectory of cultural heritage tourism toward a new technological dimension. In the modern era, tourism extends beyond physical site visits, encompassing virtual interpretation and digital communication opportunities. The application of digital technologies enhances the accessibility of historical and cultural sites, improves the quality of tourism experiences, and establishes the foundations of the "smart destination" concept. The main objective of this study is to investigate the transformation features of cultural heritage tourism under digitalization, to evaluate the impact of virtual interpretation mechanisms on visitor motivation, and to determine the development prospects of the smart destination approach. Methodologically, the research employs systematic analysis, comparative evaluation, and scientific generalization. A comprehensive review of existing literature on digital transformation in heritage tourism was conducted, alongside an assessment of virtual museum platforms and interactive technologies. The findings confirm that virtual interpretation is a decisive tool for delivering cultural heritage to global audiences and diversifying tourism products. The smart destination model, through the integration of information technologies, enhances management efficiency, optimizes visitor flows, and balances heritage preservation with economic sustainability. Future research should empirically assess the level of technological integration, particularly in light of statistical indicators of digital service growth.

Keywords: *Cultural heritage tourism, virtual interpretation, smart destination, cognitive tourism experience, digital brand management.*

olunmuşdur. Bununla belə, mövcud vəziyyət göstərir ki, əldə olunan inkişaf göstəricilərinə baxmayaraq, sektor hələ də bir sıra struktur və institusional problemlərlə üzləşir. Xüsusilə turizm fəaliyyətinin regionlar üzrə qeyri-bərabər paylanması, bəzi ərazilərdə infrastrukturun yetərincə inkişaf etməməsi və xidmət keyfiyyətində fərqlərin mövcudluğu sektorun ümumi effektivliyini məhdudlaşdırır. Bundan əlavə, turizm bazarlarının məhdud sayda ölkələrdən asılı olması sektorun xarici risklərə qarşı həssaslığını artırır və bu, diversifikasiya siyasətinin daha da gücləndirilməsini zəruri edir. Bu baxımdan, turizm sektorunun davamlı inkişafının təmin olunması üçün dövlət siyasətinin daha da təkmilləşdirilməsi, yeni turizm bazarlarının cəlb edilməsi, infrastruktur layihələrinin genişləndirilməsi və institusional mexanizmlərin gücləndirilməsi vacib istiqamətlər kimi çıxış edir [1], [2].



Şəkil 1. Azərbaycanda turistlərin sayı (2015–2025)

Şəkil 1-dən göründüyü kimi, 2015–2019-cu illər ərzində Azərbaycanda turist axınında davamlı artım müşahidə olunmuşdur. Lakin 2020-ci ildə COVID-19 pandemiyasının təsiri ilə turistlərin sayında kəskin azalma baş vermişdir. Sonrakı illərdə isə bərpa prosesi müşahidə olunmuş və 2023–2024-cü illərdə turist sayı yenidən artım tendensiyasına daxil olmuşdur. 2025-ci ildə isə sektorun sabitləşmə mərhələsinə keçdiyi müşahidə edilir ki, bu da dövlət tərəfindən həyata keçirilən turizm siyasətinin və təşviq mexanizmlərinin müəyyən dərəcədə effektivliyini göstərir.



Şəkil 2. Azərbaycanda turizm gəlirləri (2015–2025)

Şəkil 2-dən göründüyü kimi, 2015–2019-cu illər ərzində Azərbaycanda turizm gəlirlərində davamlı artım müşahidə olunmuşdur ki, bu da turist axınının artması ilə birbaşa əlaqəlidir. 2020-ci ildə pandemiyanın təsiri nəticəsində gəlirlərdə kəskin azalma baş vermişdir. Lakin sonrakı illərdə turizm sektorunda bərpa prosesi ilə paralel olaraq gəlirlərdə də artım müşahidə olunmuşdur. 2023–2024-cü illərdə gəlirlərin yenidən yüksəlməsi sektorun bərpa olunduğunu göstərir, 2025-ci ildə isə müəyyən sabitləşmə müşahidə olunur ki, bu da turizm sektorunun daha dayanıqlı inkişaf mərhələsinə keçdiyini göstərir.



Şəkil 3. Azərbaycanda turizm göstəriciləri (2015–2025)

Şəkil 3-də Azərbaycanda turist sayı ilə turizm gəlirləri arasındakı dinamik əlaqə aydın şəkildə müşahidə olunur. 2015–2019-cu illər ərzində hər iki göstəricidə paralel artım tendensiyası müşahidə edilmişdir ki, bu da turizm sektorunun genişlənməsi və iqtisadi effektivliyinin artması ilə izah olunur. 2020-ci ildə COVID-19 pandemiyasının təsiri ilə həm turist axınında, həm də gəlirlərdə kəskin azalma baş vermişdir. Lakin sonrakı illərdə hər iki göstəricidə bərpa prosesi müşahidə olunmuş və 2023–2024-cü illərdə artım yenidən davam etmişdir. Bu paralel dinamika göstərir ki, turizm gəlirləri birbaşa turist sayından asılı olmaqla yanaşı, sektorun ümumi iqtisadi performansının əsas indikatorlarından biri kimi çıxış edir.

MÜZAKİRƏ

Aparılmış təhlillər göstərir ki, Azərbaycan Respublikasında turizm sektorunun inkişaf dinamikası həm qlobal iqtisadi proseslərin, həm də daxili dövlət siyasətinin təsiri altında formalaşmışdır. 2015–2019-cu illərdə müşahidə olunan artım tendensiyası turizm sektorunun inkişafı üçün əlverişli institusional mühitin yaradılması, dövlət tərəfindən həyata keçirilən təşviq tədbirləri və infrastruktur layihələrinin genişləndirilməsi ilə izah oluna bilər. Bu nəticə elmi ədəbiyyatda qeyd olunan yanaşmalarla uyğunluq təşkil edir; belə ki, turizm sektorunun inkişafında dövlət siyasəti və institusional faktorların həlledici rol oynadığı vurğulanır [4], [6]. Eyni zamanda, Azərbaycanın bu dövrdə beynəlxalq turizm bazarında mövqeyinin möhkəmlənməsi turizmin iqtisadi diversifikasiya aləti kimi əhəmiyyətini daha da artırmışdır.

Pandemiya dövründə müşahidə olunan kəskin azalma turizm sektorunun xarici şoklara qarşı yüksək həssaslığını bir daha təsdiq edir. Bu vəziyyət beynəlxalq təcrübədə də geniş

şəkildə qeyd olunur və turizmin qlobal risklərdən asılı sahələrdən biri olduğunu göstərir [7], [10]. Bununla yanaşı, Azərbaycan nümunəsi göstərir ki, dövlət tərəfindən həyata keçirilən dəstək tədbirləri və təşviq mexanizmləri sektorun daha sürətli bərpasına imkan yaradır. 2022-ci ildən sonra müşahidə olunan bərpa prosesi bu baxımdan dövlət siyasətinin effektivliyini göstərən əsas göstəricilərdən biri kimi qiymətləndirilə bilər. Lakin əldə olunan nəticələr onu da göstərir ki, turizm sektorunun inkişafı yalnız dövlət dəstəyi ilə deyil, eyni zamanda bazarların diversifikasiyası və xidmət keyfiyyətinin artırılması ilə də sıx bağlıdır.

Müzakirə nəticəsində müəyyən edilir ki, turizm sektorunda müşahidə olunan artım tendensiyası ilə yanaşı, bir sıra struktur problemlər də mövcuddur. Xüsusilə turist axınının müəyyən regionlardan asılı olması sektorun dayanıqlılığı baxımından risk yaradır. Bu hal beynəlxalq ədəbiyyatda da qeyd olunan "market dependency" probleminə uyğun gəlir [4]. Bununla yanaşı, regionlar üzrə inkişafın qeyri-bərabər olması və infrastruktur fərqləri turizm sektorunun potensialının tam reallaşdırılmasına mane olur. Bu baxımdan, dövlət siyasətinin daha çox regionlara yönəldilməsi və alternativ turizm istiqamətlərinin inkişaf etdirilməsi zəruri hesab olunur.

Ümumilikdə, aparılan müzakirə göstərir ki, Azərbaycan Respublikasında turizm sektorunun inkişafı üçün mövcud institusional baza və dövlət dəstəyi mühüm rol oynasa da, sektorun uzunmüddətli və dayanıqlı inkişafı üçün əlavə tədbirlərin həyata keçirilməsi tələb olunur. Xüsusilə dövlət-özəl sektor əməkdaşlığının gücləndirilməsi, turizm bazarlarının genişləndirilməsi və xidmət keyfiyyətinin artırılması sektorun rəqabət qabiliyyətinin yüksəldilməsi baxımından əsas istiqamətlər kimi çıxış edir. Bu nəticələr həm nəzəri yanaşmalarla, həm də beynəlxalq təcrübə ilə uyğunluq təşkil edir və Azərbaycan turizm sektorunun gələcək inkişaf strategiyasının formalaşdırılmasında nəzərə alınmalıdır.

NƏTİCƏ

Aparılan təhlillər və statistik məlumatların araşdırılması nəticəsində müəyyən edilmişdir ki, 2015–2025-ci illər ərzində Azərbaycan Respublikasında turizm sektoru müxtəlif inkişaf mərhələlərindən keçmişdir. Bu dövrdə turistlərin sayında davamlı yüksəliş müşahidə edilmiş və bu artım dövlət tərəfindən həyata keçirilən təşviq siyasətləri, infrastruktur layihələrinin genişləndirilməsi və beynəlxalq turizm bazarlarında Azərbaycanın mövqeyinin gücləndirilməsi ilə izah olunur [1], [2].

2020–2021-ci illərdə isə turizm sektorunda kəskin azalma müşahidə edilmişdir ki, bu da əsasən COVID-19 pandemiyasının yaratdığı qlobal məhdudiyyətlərlə bağlıdır. Bu dövrdə beynəlxalq səyahətlərin məhdudlaşdırılması nəticəsində turist axını minimum səviyyəyə enmiş və turizm gəlirlərində əhəmiyyətli azalma baş vermişdir. Bu nəticə turizm sektorunun xarici şoklara qarşı yüksək həssaslığını göstərməklə yanaşı, sektorun dayanıqlılığının artırılmasının vacibliyini də ortaya qoyur [2], [10].

2022-ci ildən etibarən turizm sektorunda bərpa mərhələsi başlamış və bu tendensiya 2023–2024-cü illərdə daha da güclənmişdir. Turist sayında müşahidə olunan artım beynəlxalq səyahətlərin bərpası, dövlət tərəfindən həyata keçirilən təşviq tədbirləri və turizm infrastrukturunun inkişafı ilə bağlıdır. 2025-ci ildə isə sektorun sabitləşmə mərhələsinə daxil olduğu müşahidə olunur. Bu mərhələdə artım tempinin nisbətən sabitləşməsi turizm sektorunun daha balanslı inkişaf modelinə keçdiyini göstərir. Eyni zamanda, turist başına düşən gəlir göstəricilərinin təhlili göstərir ki, sektorun effektivliyi yalnız turist sayının artması ilə deyil, həm də xidmət keyfiyyətinin və turist xərclərinin artması ilə müəyyən olunur.

Ümumilikdə əldə olunan nəticələr göstərir ki, Azərbaycan Respublikasında turizm sektorunun inkişafı mərhələli xarakter daşıyır və bu inkişaf dövlət siyasəti, qlobal iqtisadi

faktorlar və institusional mühitin keyfiyyəti ilə sıx bağlıdır. Bu baxımdan, sektorun gələcək inkişafı üçün yalnız turist sayının artırılması deyil, həm də turizm xidmətlərinin keyfiyyətinin yüksəldilməsi və bazarların diversifikasiyası əsas prioritet istiqamətlər kimi çıxış etməlidir.

ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Turizm statistikası. Bakı, 2024.
2. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi. Azərbaycan Respublikasında turizmin inkişafına dair strateji yol xəritəsi. Bakı, 2023.
3. Azərbaycan Respublikasının Mərkəzi Bankı. Ödəniş balansı və xidmət ixracı üzrə hesabat. Bakı, 2024.
4. Dwyer, L., & Kim, C. Destination competitiveness: Determinants and indicators. Current Issues in Tourism, 2003, 6(5), pp. 369–414.
5. Goeldner, C. R., & Ritchie, J. R. B. Tourism: Principles, practices, philosophies. 12th ed., Wiley, 2012.
6. Hall, C. M. Tourism planning: Policies, processes and relationships. 2nd ed., Pearson, 2008.
7. OECD. Tourism policy responses to COVID-19. Paris, 2020.
8. UNWTO. International tourism highlights. Madrid, 2019.
9. UNWTO. Tourism recovery report. Madrid, 2022.
10. World Bank. Rebuilding tourism competitiveness. Washington DC, 2020.
11. World Bank. World development indicators. Washington DC, 2023.

TURIZM SƏNAYESINDƏ RƏQƏMSAL INNOVASIYALAR: METAVERSE TURIZMININ INKIŞAF ISTIQAMƏTLƏRI

Digital innovations in the tourism industry: Development directions of Metaverse tourism

ELÇİN ƏLİBƏYLİ
Elchin Alibeyli
elchinelibeyli@ndu.edu.az
https://orcid.org/*0009-0005-0656-3001*

TÜRKAN ƏLİBƏYLİ
Turkan Alibeyli
turkanelibeyli@ndu.edu.az
https://orcid.org/*0009-0000-6709-6770*

Naxçıvan Dövlət Universiteti
Nakhchıvan State Unıversıty

XÜLASƏ

As the global tourism environment continues to develop, the recognition of technology's multifaceted role in unlocking the full potential of destinations has gained increasing importance. The concept of smart tourism has emerged in response to rapid advances in information and communication technologies and the growing demand for sustainability. This approach is based on the integration of hardware, software, and network technologies to ensure real-time awareness of the environment. Advanced analytical methods further enable individuals to make more informed decisions among alternatives and allow businesses to optimize processes. Such technologies stimulate innovation, support sustainable development, and enhance competitive advantage. Virtual reality (VR) and augmented reality (AR) technologies are emphasized as transformative tools, offering tourists the opportunity to explore destinations virtually before visiting and to visualize environments in advance. Interactive maps, 360-degree videos, and live-streaming features enrich these experiences, creating new forms of engagement with tourism spaces. The study also investigates the impact of the metaverse on tourism, where simulations of renowned destinations transcend geographical boundaries, enabling cultural and visual experiences without physical travel. Minimizing spatial and temporal constraints and creating borderless travel opportunities are identified as key advantages of metaverse tourism. However, fully realizing these benefits requires the establishment of robust technological infrastructure and the resolution of legal and ethical challenges. The article also explores future development prospects, new employment opportunities, economic outcomes, and ecological implications of metaverse tourism. Overall, VR, AR, and metaverse platforms are positioned as drivers of immersive travel experiences and as strategic tools for sustainable tourism transformation.

Açar sözlər: *metaverse, immersiv səyahət, turizm, texnoloji infrastuktur*

ABSTRACT

As the global tourism landscape evolves, the role of technology in unlocking the full potential of destinations has become increasingly critical. The concept of smart tourism has emerged in response to rapid advances in information and communication technologies and the growing demand for sustainability. This approach integrates hardware systems, software applications, and network technologies to ensure real-time awareness of the physical environment. Advanced analytical methods further enable individuals to make informed decisions among alternatives and allow businesses to optimize processes. Such technologies stimulate innovation, support sustainable development, and enhance competitive advantage. Virtual reality (VR) and augmented reality (AR) technologies are highlighted as transformative tools, offering tourists the ability to explore destinations virtually before visiting and to visualize environments in advance. Interactive maps, 360-degree videos, and live-streaming features enrich these experiences, creating new forms of engagement with tourism spaces. The study also examines the impact of the metaverse on tourism, where simulations of renowned destinations transcend geographical boundaries, enabling cultural and visual experiences without physical travel. Minimizing spatial and temporal constraints and creating borderless travel opportunities are identified as key advantages of metaverse tourism. Nevertheless, fully realizing these benefits requires robust technological infrastructure and the resolution of legal and ethical challenges. The article also explores future development prospects, new employment opportunities, economic outcomes, and ecological implications of metaverse tourism. Overall, VR, AR, and metaverse platforms are positioned as driving forces of immersive travel experiences and as strategic tools for transforming tourism in line with sustainability and innovation goals.

Keywords: *Metaverse, immersive travel, tourism, technological infrastructure*

İnformasiya texnologiyalarının inkişafı və iqtisadiyyatda tətbiqi turizm sahəsində əhəmiyyətli dəyişikliklərə səbəb oldu. Ənənəvi turizm xidmətlərindən fərqli olaraq informasiya texnologiyalarının tətbiqi ilə turizm xidmətləri, turizm idarəetmə sistemləri yenidən formalaşdırlır. Rəqəmsal inkişafın dərinləşməsi turizm sektorunu qlobal bazar dəyişkənliyinə uyğunlaşmağa və turizm bazarında təklif olunan xidmətlərin xüsusiyyətlərinin dəyişilməsinə məcbur etdi. Texnologiyaların sürətlə inkişaf etdiyi və mobil tətbiq istifadəçilərin sayının artdığı bir mühitdə turizm təbliğatının çap olunmuş braşuralar və ya kağız daşıyıcılarla aparılması məqsədəuyğun hesab edilmir. Rabitə vasitələrinin, lokal və qlobal şəbəkələrin inkişafı istənilən yerdən e-marketinqi aparmağa və rahat məhsul satmağa imkan yaradır. Turizm sektoru istifadəçiləri və ya istehlakçıları digital platformalardan istifadə etməklə həm e-marketinqlə daha yaxın olur, həm də istehlak etmək istədiyi məhsulları daha ətraflı analiz etmək imkanına malik olurlar.

Onlayn rezervasiya, mobil tətbiqlər, virtual reallıq (VR) və artırılmış reallıq (AR) kimi texnologiyalar turizm sektoruna başqa bir pəncərədən baxmağa vadar edir. Belə ki, əvvəllər turistlər rezervasiya və səyahət planlaşdırılmasını turizm agentlikləri vasitəsilə edirdilər, lakin müasir dövrdə turistlər az bir vaxt sərf etməklə və onlayn xidmətlərlə daha keyfiyyətli xidmət əldə etmək imkanına malik olurlar.

Son dövrdə süni intellekt (AI) texnologiyaların sürətli inkişafı və turizm sektorunda tətbiqi turizm bazarında mühüm irəliləyişlərə səbəb olmuşdur. Süni intellekt texnologiyalarına əsaslanan sistemlər turist xidmətlərinin avtomatlaşdırılması, xidmətlərin operativliyinin artırılmasında istifadə edilir. Belə ki, süni intellekt (AI) sistemlər turizm obyektlərində, hava limanlarında, nəqliyyat xidmətlərində müştərilərin və ya istifadəçilərin sorğularına anında cavab verməklə xidmət keyfiyyətinin artmasına və xidmət personalının iş yükünün yüngülləşməsinə səbəb olur. Eyni zamanda, AI əsaslı xidmət sistemləri istifadəçilərin fərdi tələblərini nəzərə alaraq onlara məsləhətlər verir, davranışlarına və maraqlarına uyğun turlar təklif edir.

Texnologiyaların sürətli inkişafı turizmin bərpasında və turistlərin dəyişən ehtiyaclarına uyğunlaşmasında həlledici rol oynayır. Turizm məhsulunun maddi və qeyri-maddi komponentləri birləşdirən heterojen təbiəti səbəbindən turizm sənayesindəki yenilikləri öyrənmək çətindir. Çünki, turist gözləntiləri və meylləri tez-tez dəyişir və müəyyən dövr üçün qüvvədə olan tələb strukturu əksik qalır. İnnovativ texnologiyaların tətbiqi turizm müəssisələrinin, ilk növbədə sənayenin və müvafiq olaraq iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin və səmərəliliyinin artırılması üçün müəyyən edici amildir. Turizmdə istifadə edilən texnologiyaların öyrənilməsində əsas götürülən anlayışlar əvvəlcədən müəyyən edilməli və aydınlaşdırılmalıdır.

Müasir rəqabət şəraitində texnologiyaya əsaslanan innovasiyalar otellərdə turistlərin gözləntilərini qarşılamaq və rəqabət üstünlüyü əldə etmək üçün yeni fürsətlər təqdim edir. Bir çox otel dünya təcrübəsində istifadə edilən innovativ konsepsiyaları mənimsəyir. İnnovasiya yeni və ya fərqli bir şey ola bilər. Məsələn, yeni ideya, üsul və ya məhsul. Davamlı innovasiya mürəkkəb bir proses olduğundan, otellər rəqiblərinin kopyalaması çətin olan, uzunmüddətli ideyaları müəyyən etməlidir. Otellər o zaman turistləri məmnunluğunu təmin edə bilər ki, bənzərsiz və yeni xidmətlər təklif etsin. Bu zaman texnologiyaya əsaslanan xidmət innovasiyaları tətbiq edilir. Bu tətbiqlər nəticəsində əməliyyatlar tənzimlənir və gəlir səviyyəsi artır. Misal olaraq, Marriott İnternational tərəfindən təklif olunan Marriott Bonvoy tətbiqini göstərə bilərik. Bu tətbiq otellər ilə əlaqəli xidmətləri asanlaşdırır. Otellərdə otaq sifariş etmək, giriş və çıxış prosedurlarını sürətləndirmək, açar kimi mobil cihazdan istifadə etmək kimi məsələləələri həll etməklə yanaşı tətbiqdə xüsusi endirim və təkliflər də təqdim edilir. Bu və

bunun kimi tətbiqlər həm Android, həm də İOS dəstəkli cihazlar üçün alçatandır və qlobal miqyasda otellər şəbəkəsi ilə bağlı xidmətlərdən faydalanmağa imkan verir. Ağıllı televizorlar və səsli köməkçilər kimi otaqdaxili texnologiya da getdikcə populyarlaşır. İntercontinental Hotel Group tərəfindən qonaq xidməti robotları sınaqdan keçirilir. Qonaq təcrübəsini müasirləşdirmək və təkmilləşdirmək, ehtiyacları daha sürətli və effektiv şəkildə qarşılamaq üçün nəzərdə tutulan bu robotlar həm də insan resurlarını optimallaşdırılmasına kömək edir. İHG robotları müasir texnologiyanın otel sənayesində daha çox yer aldığını və bunu qonaqlar üçün innovativ bir təcrübə kimi təqdim etdiyini göstərir. Həmçinin robotlar Covid-19 pandemiyası dövründə təmasların azaldılmasına köməklik etdi. Qeyd edilən texnologiyalar turislərə daha fərdiləşdirilmiş və xoş təcrübə təqdim etməklə yanaşı, həm də otellərin daha səmərəli və sərfəli şəkildə işləməsinə şərait yaratdı.

Turizm informasiya texnologiyalarından çox asılı olduğundan son illərdə bu texnologiyalar səyahət təcrübəsinin və turizm məhsulunun idarə olunmasının strukturuna çox möhkəm bağlanmışdır. Ağıllı turizm informasiya texnologiyalarının təkamülündən təsirlənən turizmin inkişafının hazırkı mərhələsini təsvir edir. Texnologiya istiqamətləri müasir səyahətçilərlə rezonans doğuran immersiv məzmun və təcrübələr təklif etməyə imkan verir. Virtual reallıq (VR) və genişlənmiş reallıq (AR) texnologiyaları səyahətçilərə məkanları virtual olaraq kəşf etməyə imkan verir və çatdıqdan sonra onları nə gözləyə biləcəyinə dair ön baxış təqdim edir. İnteraktiv xəritələr, 360 dərəcə videolar və canlı yayım imkanları səyahətçilərin təcrübəsini daha da artırır və onlara yeni və maraqlı üsullarla təyinat yerləri ilə əlaqə saxlamağa imkan verir. Daha sonra texnologiya istiqamətləri səyahətçi seçimləri, davranışları və tendensiyaları ilə bağlı dəyərli məlumatlarla təmin edir. VR və AR müasir dövrün ən çox dəyişən texnologiyaları hesab olunur və bir çox məqsəd üçün 3D interaktiv vizual təcrübələr yaratmaq üçün istifadə olunur. 2017-ci ildə Avropa sərgisində bir neçə turizm texnologiyası provayderi VR və AR məzmununu nümayiş etdirərək, turistik yerləri və məkanda attraksionları nümayiş etdirib. Bu simulyasiyalar tam virtual mühit yaradır (VE) yaradır və VR sistemi real dünya ilə interfeys yaratmaq üçün istifadə edilir. AR real dünya ilə virtual aləmin inteqrasiyasıdır və məqsədi virtual aləmdə nümayiş etdirilən məlumatlarla real dünyada olan bir şey haqqında məlumat verməkdir. Bu texnologiya eyni zamanda müxtəlif yerlərdən interaktiv və sadə formada tətil səyahəti və istiqamətləri ilə bağlı məkana əsaslanan məlumatların planlaşdırılması, önizlənməsi və əldə edilməsini mümkün etməklə turizm təcrübəsində inqilab edir.

Ənənəvi təcrübə kimi internet insanlara əsasən, şəkil və mətn əsaslı məlumatlar vermişdir, amma 1992-ci ildə N.Stephensonun "Snow Crash" romanında istifadə olunan "Metaverse" anlayışı ilə üç ölçülü (3D) dünyaların AR və VR texnolologiyanın sintezi ilə istifadəçilərə daha immersiv təcrübə təqdim edilir. Bu anlayış 3D virtual məkanlarda insanların interaktiv təcrübələr yaşamasını ifadə edir. Metaverse, internetin və texnologiyanın son məhsullarından biri kimi insanlar arasında həm iqtisadi, həm də sosial əlaqə qurmasına imkan verən və məhdudiyətləri aşan bir platforma kimi görülür.

Rəqəmsal səyahətdə innovasiyalar və yeni imkanlara Metaverse ilə yeni qapılar açılır. İnsanlar fiziki olaraq yerini dəyişmədən yeni və fərqli məkanları virtual olaraq səyahət edib görə bilərlər. Virtual səyahət artıq müxtəlif formalarda muzeylərdə, tarixi və turistik məkanlarda qarşımıza çıxır. Məsələn, Louvre Muzeyi, Misir Piramidaları kimi bir çox yerdə VR texnologiyası vasitəsilə daxil olmaq mümkündür.

Metaverse maddi çətinlik baryerlərini də aradan qaldırmağa imkan yaradır. Fiziki olaraq səyahət maddi çətinliklərlə qarşılaşırsa, virtual səyahətlə heç bir yerə getmədən dünyanın müxtəlif məkanlarını araşdıra, onların mühiti və təbiəti ilə tanış ola bilər, gələcəkdə səyahət

etmək istədikləri məkanları bir tur bələdçisi kimi planlaşdıra bilərlər. Həmçinin Metaverse turizm sənayesində ortaya çıxan və ətraf mühitdə yaranan ekoloji problemləri də aradan qaldırmaq üçün vasitə kimi istifadə oluna bilər. Çünki rəqəmsal səyahət az enerji və resurs tələb etdiyindən ətraf mühitin qorunması istiqamətində innovativ bir yanaşma kimi qəbul edilə bilər.

Metaverse və rəqəmsal səyahət çoxlu potensial imkanlar açmasına və faydalarına baxmayaraq, bu texnoloji yanaşmanın və imkanların qarşısında bəzi problemlər mövcuddur. İlk olaraq bu problemlər texnologiyadan istifadə ilə bağlıdır. Rəqəmsal səyahətdən faydalanmaq üçün yeni texnoloji cihazlar (AR və VR cihazları) və yüksək sürətli internetə çıxış tələb olunur ki, bunların təmin olunması dünyanın bir çox yerlərində qeyri-bərabər formada özünü göstərir. Dünyanın əksər hissəsində bu texnologiyalardan istifədə və sürətli internetə çıxış imkanları məhduddur. Bu da öz növbəsində rəqəmsal bərabərsizliyin təzahürüdür.

Digər bir problem sosial və psixoloji təsir kimi, rəqəmsal dünyada həddindən artıq səyahət cəmiyyətdən təcrid olunmaya səbəb ola bilər. Metaverse-də səyahət real səyahətdə olduğu kimi insanların yaşadıqları hissləri, emosiyaları və toxunuşları əvəz edə bilmir. Çünki real səyahət zamanı səyahətçilər qarşılıqlı əlaqələr qurmağa, fiziki və emosional hissləri yaşamağa çalışırlar. Rəqəmsal səyahət bunların bir qismini təmin etsə də, fiziki və real təcrübəni tam əvəz edə bilməz.

Bütün promlemlərin olmasına baxmayaraq Metaverse ilə rəqəmsal səyahətin gələcəyi olduqca parlaq görünür. Metaverse və rəqəmsal səyahət anlayışları texnoloji inkişafın yeni imkanlarını və kəşf etmək hisslərimizi daha fərqli yaşamağımıza imkan yaradır. Bu inkişaf turizm sektorunda həyata keçirilən xidmətlərə yeni bir yön verəcəkdir. VR və AR texnologiyaların inkişafı sayəsində gələcək zamanda insanların rəqəmsal dünyada tamamilə yeni məkanlar, şəhərlər, ölkələr yarada biləcəyi və hətta real və rəqəmsal dünya arasındakı sərhədləri daha da aşaraq tam immersiv təcrübələr əldə edə biləcəyi gözlənilir.

ƏDƏBİYYAT SİYAHISI

1. Buhalis, D., & Law, R. (2008). Progress in information technology and tourism management: 20 years on and 10 years after the Internet—The state of e-Tourism research. Tourism Management, 29(4), 609-623.
2. Gretzel, U., Sigala, M., Xiang, Z., & Koo, C. (2015). Smart tourism: Foundations and developments. Electronic Markets, 25(3), 179–188
3. Gretzel, U., Werthner, H., Koo, C., & Lamsfus, C. (2015). Conceptual foundations for understanding smart tourism ecosystems. Computers in Human Behavior, 50, 558-563.
4. Neuhofer, B., Buhalis, D., & Ladkin, A. (2015). Technology as a catalyst of change: Enablers and barriers of the tourist experience and their consequences. In Information and Communication Technologies in Tourism 2015 (pp. 789-802). Springer, Cham.
5. Wang, D., Park, S., & Fesenmaier, D. R. (2012). The role of smartphones in mediating the touristic experience. Journal of Travel Research, 51(4), 371-387.

TURİZMDƏ DAYANIQLILIK VƏ REGİONAL İQTİSADİ İNKİŞAF: AZƏRBAYCAN MODELİ

Sustainability In Tourism And Regional Economic Development: The Azerbaijan Model

EMİLİYA HÜSEYNOVA

Emiliya Huseynova

emiliya.huseynova@mdu.edu.az

https://orcid.org/0009-0004-0676-3209

Mingəçevir Dövlət Universiteti

Mingachevir State University

XÜLASƏ

Bu məqalə Azərbaycanda dayanıqlı turizmin inkişafı ilə regional iqtisadi artım arasındakı əlaqəni, xüsusilə post-neft dövründə həyata keçirilən dövlət yönümlü diversifikasiya strategiyaları kontekstində təhlil edir. Azərbaycan iqtisadiyyatı tarixən karbohidrogen gəlirlərindən asılı olmuş, bu gəlirlər 2010-cu ildə ixrac gəlirlərinin təxminən 92,5%-ni və dövlət büdcəsi daxilolmalarının 67%-ni təşkil etmişdir. Resurs asılılığının yaratdığı riskləri nəzərə alan hökumət 2014–2018-ci illəri əhatə edən Regionların Sosial-İqtisadi İnkişafı Dövlət Proqramını, eləcə də 2016-cı ildə Turizmin İnkişafına dair Strateji Yol Xəritəsini qəbul edərək turizmi prioritet qeyri-neft sektoru kimi müəyyən etmişdir. 2015–2019-cu illər ərzində ölkəyə gələn beynəlxalq turistlərin sayı 1,8 milyondan 3,2 milyona yüksəlmiş, turizm gəlirləri isə 3,0 milyard ABŞ dollarına çataraq dörd il ərzində 67% artım göstərmişdir. COVID-19 pandemiyası nəticəsində 2020-ci ildə turist axını kəskin azalaraq təxminən 0,7 milyon nəfərə düşmüşdür. Lakin sonrakı dövrdə sürətli bərpa müşahidə olunmuş və 2023-cü ildə 4,1 milyon turist qeydə alınaraq pandemiyadan əvvəlki səviyyə üstələnmişdir. Regional səviyyədə Quba-Xaçmaz bölgəsində Şahdağ Dağ Turizm Kompleksi, Naftalan müalicə turizmi klasteri və Qax rayonunda İlisu turizm kəndi kimi təşəbbüslər investisiyaların paytaxtdan kənar ərazilərə yönləndirilməsinə, kənd yerlərində məşğulluğun artmasına və yerli təchizat zəncirlərinin inkişafına təkan vermişdir. Məqalədə bu təsirlərin qiymətləndirilməsi üçün regional iqtisadi multiplikator yanaşması tətbiq edilir və göstərilir ki, dayanıqlılıq prinsiplərinə əsaslanan turizm siyasəti uyğun dövlət strategiyaları ilə inteqrasiya olunduqda balanslı ərazi inkişafı üçün effektiv alətə çevrilə bilər. Əsas nəticələr göstərir ki, regional turizm infrastrukturuna yatırılan hər 1 milyon ABŞ dolları təxminən 38 birbaşa və dolayı iş yeri yaradır və regional ÜDM-ə 2,3 milyon ABŞ dolları həcmində töhfə verir. Məqalə ətraf mühit idarəçiliyinin gücləndirilməsi, icma iştirakının artırılması və uğurlu regional turizm modellərinin genişləndirilməsi istiqamətində siyasət tövsiyələri ilə yekunlaşır.

Açar sözlər: *Dayanıqlı turizm, regional inkişaf, iqtisadi diversifikasiya, ekoturizm, Azərbaycan*

ABSTRACT

This article examines the relationship between sustainable tourism development and regional economic growth in Azerbaijan, with particular attention to state-led diversification strategies implemented in the post-oil era. Azerbaijan's economy has historically been dominated by hydrocarbon revenues, which accounted for approximately 92.5% of export earnings and 67% of state budget revenues in 2010. Recognizing the risks of resource dependency, the government launched the State Programme on Socio-Economic Development of Regions (2014–2018) alongside the Strategic Roadmap for the Development of Tourism in 2016, establishing tourism as a priority non-oil sector. Between 2015 and 2019, international tourist arrivals grew from 1.8 million to 3.2 million, generating $3.0 billion in tourism revenue — a 67% increase over four years. The COVID-19 pandemic caused a sharp contraction, with arrivals declining to approximately 0.7 million in 2020; however, recovery has been rapid, with 4.1 million visitors recorded in 2023, surpassing pre-pandemic levels. Regionally, initiatives such as the Shahdag Mountain Resort Complex in Quba-Khachmaz, the Naftalan therapeutic tourism cluster, and the Ilisu tourism village in Qax have redirected investment to non-capital zones, creating rural employment and stimulating local supply chains. The article applies a regional economic multiplier framework to assess these outcomes and argues that sustainability-oriented tourism, when embedded in coherent public policy, can serve as a viable instrument for balanced territorial development. Key findings indicate that each $1 million invested in regional tourism infrastructure generates approximately 38 direct and indirect jobs and contributes $2.3 million to regional GDP. The article concludes with policy recommendations for strengthening environmental governance, enhancing community participation, and scaling successful regional tourism models.

Keywords: *Sustainable tourism, regional development, economic diversification, ecotourism, Azerbaijan*

GİRİŞ

Turizm sektoru qlobal iqtisadiyyatda mühüm yer tutan, eyni zamanda regional inkişaf potensialı yüksək olan sahələrdən biri hesab edilir. BMT Turizm Təşkilatının (UN Tourism) məlumatlarına görə, turizm sektoru 2019-cu ildə dünya ÜDM-inin 10,4%-ni, qlobal məşğulluğun isə 10%-dən çoxunu təşkil etmişdir (UN Tourism, 2023, s. 8). Lakin ənənəvi turizm modeli çox vaxt iqtisadi gəlirlerin mərkəzləşməsi, ətraf mühitin deqradasiyası və yerli icmaların marjinallaşması kimi neqativ nəticələrə gətirib çıxarır. Məhz bu ziddiyyəti aradan qaldırmaq üçün dayanıqlı turizm konsepsiyası 1980-ci illərdən etibarən akademik və siyasət müzakirələrinin mərkəzinə keçmişdir.

Azərbaycan neft-qaz ixracından asılı olan inkişaf modeli ilə uzun illər tanınmışdır. 2010-cu ildə neft gəlirləri ölkənin ixracının 92,5%-ni, dövlət büdcəsinin isə 67%-ni təşkil etmişdir (Dövlət Statistika Komitəsi, 2022, s. 47). Belə bir monostrukturlu iqtisadiyyatın əmtəə qiymətlərindəki dalğalanmalara qarşı həssaslığını azaltmaq məqsədilə hökumət qeyri-neft sektorunun inkişafını strateji prioritet kimi müəyyən etmişdir. Turizm bu kontekstdə xüsusi əhəmiyyət kəsb edir: zəngin təbii-landşaft ehtiyatları, UNESCO-nun Qeyri-Maddi Mədəni İrs siyahısına daxil edilmiş ənənələr və müxtəlif tarixi-memarlıq abidələri Azərbaycanı rəqabətqabiliyyətli bir turizm destinasiyasına çevirməyə imkan yaradır.

Bu məqalənin məqsədi Azərbaycanda dayanıqlı turizm siyasəti ilə regional iqtisadi inkişaf arasındakı əlaqəni empirik göstəricilər əsasında araşdırmaq, mövcud regional turizm klasterlərinin iqtisadi multiplier effektini qiymətləndirmək və gələcək siyasət tövsiyələri formalaşdırmaqdır.

Nəzəri çərçivə: dayanıqlı turizm və regıonal inkişaf

Dayanıqlı turizm konsepsiyasının nəzəri əsasları Brundtland Komissiyasının (1987) «Bizim ümumi gələcəyimiz» hesabatında qoyulmuşdur: turizm «mövcud turistlərin və ev sahibi regionların ehtiyaclarını ödəyərkən gələcək nəsillərin ehtiyaclarını da nəzərə alan bir inkişaf forması» kimi xarakterizə edilir (UNWTO, 2019, s. 14). Bu konsepsiya üç əsas sütun üzərində qurulur: iqtisadi canlılıq, sosial ədalət və ekoloji tamlıq.

Regional inkişaf nəzəriyyəsi baxımından turizm sektoru müxtəlif kanallar vasitəsilə ərazinin sosioiqtisadi inkişafına töhfə verir. Birincisi, birbaşa məşğulluq effekti — mehmanxanalar, restoranlar, nəqliyyat xidmətləri kimi turizmlə birbaşa əlaqəli sahələrdə iş yerlərinin yaradılması. İkincisi, multiplikasiya effekti — turizm xərclərinin yerli iqtisadiyyatda dövran etməsi sayəsində əlavə gəlir yaranması. Üçüncüsü, infrastruktur inkişafı — turistik məqsədli yol, kommunikasiya və kommunal şəbəkələrinin genişləndirilməsi digər iqtisadi sektorlara da xidmət edir. Əgər bu investisiyalar kənar bölgələrə yönəldilirsə, onlar ərazi iqtisadi bərabərsizliyini azaltmağın effektiv vasitəsinə çevrilə bilər (Tosun, 2001, s. 289).

Azərbaycanda turizm siyasətinin inkişaf dinamikası

Azərbaycanda müasir turizm siyasətinin formalaşması 2000-ci illərin ortalarına təsadüf edir. Turizm haqqında Qanun (1999) və ardınca qəbul edilmiş bir sıra dövlət proqramları sektorun institusional bazasını yaratmışdır. 2016-cı ildə təsdiq edilmiş «Azərbaycan Respublikasında turizm sektorunun inkişafına dair Strateji Yol Xəritəsi» turizm infrastrukturuna investisiyaların artırılmasını, beynəlxalq marketinqin gücləndirilməsini və regional turizm klasterlərinin yaradılmasını hədəfləyir (Azərbaycan Respublikasının Prezidenti, 2016, s. 3).

Kəmiyyət göstəriciləri baxımından 2015-ci ildə 1,8 milyon olan beynəlxalq turist sayı

2019-cu ildə 3,2 milyona çatmış, turizm gəlirləri isə həmin dövrdə 1,8 mlrd ABŞ dollarından 3,0 mlrd dollara yüksəlmişdir — dörd ildə 67%-lik artım (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2022, s. 112). COVID-19 pandemiyası 2020-ci ildə turist axınını 0,7 milyona qədər azaltmışdır. Bununla belə, bərpa prosesi sürətli olmuş: 2023-cü ildə 4,1 milyon turist Azərbaycanı ziyarət etmiş, bu rəqəm pandemiyaöncəsi tarixi maksimumu keçmişdir (UN Tourism, 2024, s. 22). Turizmin ümumi ÜDM-dəki payı 2019-cu ildə 4,8%-ə çatmış, bu isə 2010-cu ildəki 2,1% göstərici ilə müqayisədə əhəmiyyətli artımı əks etdirir.

Regional turizm klasterlərının iqtisadi multiplier analizi

Regional baxımdan Azərbaycanda bir sıra ixtisaslaşmış turizm klasterləri formalaşmışdır. Şahdag Dağ-Xizək Turizm Kompleksi (Quba-Xaçmaz iqtisadi rayonu) 2013-cü ildə istifadəyə verilmişdir. Kompleksin tikintisi üçün dövlət büdcəsindən 400 milyon ABŞ dollarından artıq vəsait ayrılmış, bu ərazi turist axınını 2013–2022-ci illər ərzində üç dəfə artırmış — 120 mindən 370 minə çatdırmışdır. Sahə üzrə birbaşa məşğulluq 2200 iş yerindən ibarətdir; dolayı iş yerləri isə region üzrə 5800-dən çoxdur (Azərturizm, 2023, s. 17).

Naftalan Terapevtik Turizm Klasteri (Gəncə-Dağlıq iqtisadi rayonu) unikal neft mənşəli müalicəvi resursuna — naftalana — əsaslanan ixtisaslaşmış sağlamlıq turizmi modeli nümunəsidir. 2010–2022-ci illər ərzində şəhərdəki sanatoriya yerləri 1.400-dən 3.200-ə artmış, orta qalma müddəti isə 7,3 günə çatmışdır ki, bu da milli ortalamadan (2,1 gün) üç dəfə yüksəkdir. Turist başına ortalama xərc 520 ABŞ dolları təşkil edir (Naftalan Şəhər İcra Hakimiyyəti, 2023, s. 8).

Qax-İlisu Ekoturizm Kəndi (Şəki-Zaqatala iqtisadi rayonu) 2018-ci ildə ekoturizm infrastrukturunun inkişafı üçün 12 milyon manatlıq dövlət investisiyası almışdır. 2022-ci ildə İlisuya edilən turların sayı 2018-ci illə müqayisədə 4,2 dəfə artmış, yerli əhalinin turizm gəlirlərindən əldə etdiyi pay isə ortalama aylıq gəlirlərinin 34%-nə çatmışdır.

Regional iqtisadi multiplikator metodologiyasına görə aparılan hesablamalar göstərir ki, turizm infrastrukturuna hər 1 milyon ABŞ dolları investisiya regionda təxminən 38 birbaşa və dolayı iş yeri yaradır və regional ÜDM-ə 2,3 milyon dollar töhfə verir. Bu multiplikator əmsalı (2,3) Cənub Qafqaz ölkələrinin ortalamasından (1,7) nəzərəçarpacaq dərəcədə yüksəkdir (Həsənov, 2022, s. 156).

Dayanıqlılıq problemləri və institusional boşluqlar

Bütün bu müsbət dinamikaya baxmayaraq, Azərbaycanda dayanıqlı turizmin qarşısında bir sıra ciddi maneələr mövcuddur. Birincisi, ekoloji idarəetmə boşluqları: Böyük Qafqaz meşə ekosistemlərini əhatə edən ekoturizm ərazilərinin 60%-dən çoxunda lisenziyalı ekoloji monitorinq mexanizmi mövcud deyil (UNEP, 2021, s. 44). İkincisi, turizm gəlirlərinin coğrafi baxımdan qeyri-bərabər paylanması: ölkəyə daxil olan turizm gəlirlərinin 72%-i Bakı şəhərinin payına düşür, yalnız 28%-i regional destinasiyalar arasında bölüşdürülür (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2022, s. 118).

Üçüncü problem kimi yerli sahibkarlığın məhdud iştirakını qeyd etmək lazımdır: Regional turizm klasterlərindəki müəssisələrin 41%-i kənar investorların nəzarətindədir ki, bu da yerli iqtisadi tutumu azaldır. Dördüncüsü, ixtisaslı insan kapitalının çatışmazlığı: Regional turizm müəssisələrindəki işçilərin yalnız 18%-i peşəkar turizm ixtisası üzrə diplom sahibidir (Azərbaycan Turizm İnstitutu, 2023, s. 31).

NƏTİCƏ

Apardığımız analiz göstərir ki, Azərbaycan neft gəlirlərindən turizm sektoruna uğurlu

diversifikasiya keçidi nümunəsi ortaya qoyur. Regional turizm klasterləri — Şahdag, Naftalan, İlisu — ərazi iqtisadi bərabərliyin artırılmasında real töhfə vermişdir. Bununla belə, dayanıqlılığın institutsional baxımdan möhkəmləndirilməsi üçün aşağıdakı siyasət tədbirləri tövsiyə edilir:

Birincisi, ekoloji standartların tətbiqi: Bütün turizm layihələri üçün ətraf mühitin qiymətləndirilməsi (EQQ) prosedurlarının məcburi edilməsi.

İkincisi, yerli sahibkarlıq kvotaları: Regional klasterlərə daxil olan müəssisələrin ən azı 60%-inin yerli sahibkarlara məxsus olmasının tələb edilməsi.

Üçüncüsü, gəlirlərin yenidən bölüşdürülməsi mexanizmi: Turizm vergilərinin bir hissəsinin regional infrastruktur fonduna yönəldilməsi.

Dördüncüsü, kadr hazırlığı proqramları: Regionlarda turizm peşəkar təhsil mərkəzlərinin açılması, o cümlədən icma əsaslı təlim proqramlarının genişləndirilməsi.

Nəticə etibarilə, Azərbaycan modeli göstərir ki, dövlət rəhbərliyi altında həyata keçirilən dayanıqlı turizm strategiyaları həm iqtisadi diversifikasiya, həm də regional inkişaf baxımından ciddi potensial daşıyır. Lakin bu potensialın tam realizasiyası üçün institutsional çərçivənin gücləndirilməsi, ekoloji idarəetmənin təkmilləşdirilməsi və icma iştirakının artırılması zərurəti qalmaqdadır.

ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikasının Prezidenti. (2016). Azərbaycan Respublikasında turizm sektorunun inkişafına dair Strateji Yol Xəritəsi. Bakı: Azərbaycan Respublikasının Prezident Administrasiyası.
2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. (2022). Azərbaycan statistik göstəriciləri: Turizm. Bakı: DSK.
3. Azərturizm. (2023). Şahdag Turizm Kompleksi: İllik hesabat 2022. Bakı: Azərbaycan Turizm Agentliyi.
4. Azərbaycan Turizm İnstitutu. (2023). Azərbaycanda turizm kadrlarının hazırlanması: Mövcud vəziyyət və perspektivlər. Bakı: ATİ.
5. Həsənov, R. T. (2022). Azərbaycanda qeyri-neft sektorunun inkişafı: Turizmin regional iqtisadi effekti. İqtisadiyyat Məsələləri, 14(3), 145–168.
6. Naftalan Şəhər İcra Hakimiyyəti. (2023). Naftalan terapevtik turizm klasteri: Statistik məlumat toplusu. Naftalan: NŞİH.
7. Tosun, C. (2001). Challenges of sustainable tourism development in the developing world: The case of Turkey. Tourism Management, 22(3), 289–303.
8. UN Tourism. (2023). Tourism highlights: 2022 edition. Madrid: World Tourism Organization.
9. UN Tourism. (2024). World tourism barometer, volume 22. Madrid: World Tourism Organization.
10. UNEP. (2021). Making peace with nature: A scientific blueprint to tackle the climate, biodiversity and pollution emergencies. Nairobi: United Nations Environment Programme.
11. UNWTO. (2019). Global report on sustainable tourism: Destination success stories. Madrid: World Tourism Organization.

NAXÇIVAN TURİZM MARŞRUTLARININ RƏQƏMSAL PLATFORMALAR VASİTƏSİLƏ OPTİMALLAŞDIRILMASI

Optimization of Nakhvan Tourism Routes Through Digital Platforms

FATMA ƏLİYEVA[1]
Fatma Aliyeva[1]
fatma.aliyeva@mdu.edu.az
https://orcid.org/0009-0009-8340-9402

MƏHSƏTİ ƏLİYEVA[1]
Mashati Aliyeva[1]
mahsati.aliyeva@mdu.edu.az
https://orcid.org/0009-0009-9348-3235

[1]*Mingəçevir Dövlət Universiteti*
[1]*Mingachevir State University*

XÜLASƏ

Rəqəmsal texnologiyaların turizm sektoruna inteqrasiyası turizm marşrutlarının planlaşdırılması, resursların səmərəli istifadəsi və regional turizm potensialının idarə olunması baxımından yeni imkanlar yaradır. Naxçıvan Muxtar Respublikası zəngin mədəni irs obyektləri, təbii landşaftları və müxtəlif turizm istiqamətləri ilə seçildiyindən marşrutların sistemli təşkili və optimallaşdırılması xüsusi aktuallıq kəsb edir. Tədqiqatın məqsədi Naxçıvan turizm marşrutlarının rəqəmsal platformalar vasitəsilə optimallaşdırılması imkanlarının müəyyənləşdirilməsi və bu istiqamətdə tətbiq oluna biləcək yanaşmaların təhlil edilməsindən ibarətdir. Araşdırmada analitik təhlil, müqayisəli yanaşma, məzmun təhlili və rəqəmsal xəritələşdirmə üsullarından istifadə edilmiş, regionun əsas turizm məkanları üzrə məlumatlar sistemləşdirilmişdir.
Təhlil nəticələri göstərir ki, rəqəmsal platformaların tətbiqi turizm obyektləri arasında məsafələrin optimallaşdırılmasına, marşrutların ardıcıllığının müəyyən edilməsinə və turistlər üçün informasiya əlçatanlığının genişləndirilməsinə şərait yaradır. Bununla yanaşı, interaktiv xəritələr və mobil turizm tətbiqləri vasitəsilə marşrutların planlaşdırılması səyahət müddətinin səmərəli bölüşdürülməsinə, turizm axınının tənzimlənməsinə və xidmət keyfiyyətinin yüksəldilməsinə imkan verir. Nəticə olaraq, Naxçıvan turizm marşrutlarının rəqəmsal platformalar əsasında optimallaşdırılması regionun turizm potensialının daha səmərəli istifadəsinə, dayanıqlı turizm prinsiplərinin tətbiqinə və müasir turizm idarəetmə mexanizmlərinin formalaşmasına töhfə verən mühüm istiqamət kimi qiymətləndirilir.

Açar sözlər: *Naxçıvan, turizm marşrutları, rəqəmsal platformalar, rəqəmsal turizm, dayanıqlı turizm*

ABSTRACT

The integration of digital technologies into the tourism sector creates new opportunities for route planning, efficient resource utilization, and management of regional tourism potential. The Nakhchivan Autonomous Republic, distinguished by its rich cultural heritage sites, natural landscapes, and diverse tourism directions, requires systematic organization and optimization of routes. The aim of the study is to identify the possibilities of optimizing Nakhchivan's tourism routes through digital platforms and to analyze applicable approaches in this direction. Analytical review, comparative analysis, content evaluation, and digital mapping methods were employed, and data on the region's main tourism destinations were systematized. The findings demonstrate that the use of digital platforms facilitates optimization of distances between tourism sites, determination of route sequences, and expansion of information accessibility for tourists. Moreover, interactive maps and mobile tourism applications enable efficient distribution of travel time, regulation of tourist flows, and improvement of service quality. Consequently, the optimization of Nakhchivan's tourism routes through digital platforms is assessed as a significant direction contributing to more effective utilization of tourism potential, application of sustainable tourism principles, and formation of modern tourism management mechanisms.

Keywords: *Nakhchivan, tourism routes, digital platforms, digital tourism, sustainable tourism*

GİRİŞ

Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı turizm sektorunda yeni idarəetmə yanaşmalarının formalaşmasına səbəb olmuşdur. Rəqəmsal platformaların tətbiqi turizm marşrutlarının planlaşdırılması, resursların səmərəli istifadəsi və turistlər üçün informasiya əlçatanlığının artırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Xüsusilə regional turizm potensialına malik ərazilərdə rəqəmsal alətlərdən istifadə marşrutların optimallaşdırılmasına, turizm axınının balanslaşdırılmasına və mədəni irs

obyektlərinin daha səmərəli tanıdılmasına imkan yaradır. Müasir tədqiqatlarda rəqəmsal turizm platformalarının tətbiqinin turizm idarəetməsində effektivliyin artırılmasına, səyahət planlaşdırmasının avtomatlaşdırılmasına və dayanıqlı turizm modelinin formalaşmasına töhfə verdiyi qeyd olunur [1,2]. Bu baxımdan turizm marşrutlarının rəqəmsal texnologiyalar əsasında optimallaşdırılması aktual elmi-tədqiqat istiqamətlərindən biri kimi çıxış edir.

Naxçıvan Muxtar Respublikası zəngin tarixi-mədəni irsə, təbii landşaftlara və müxtəlif turizm resurslarına malik regionlardan biridir. Bölgədə yerləşən memarlıq abidələri, dini turizm obyektləri, təbiət marşrutları və sağlamlıq turizmi imkanları turizm marşrutlarının sistemli şəkildə təşkili zərurətini artırır. Lakin turizm obyektlərinin coğrafi baxımdan müxtəlif ərazilərdə yerləşməsi, marşrutların vahid sistem üzrə planlaşdırılmaması və rəqəmsal informasiya bazasının məhdudluğu turizm potensialından tam istifadə olunmasına müəyyən maneələr yaradır. Bu baxımdan rəqəmsal platformalar vasitəsilə turizm marşrutlarının optimallaşdırılması regionun turizm imkanlarının səmərəli istifadəsinə şərait yaradan mühüm amil kimi qiymətləndirilir. Elmi ədəbiyyatda qeyd olunur ki, GIS texnologiyaları, mobil tətbiqlər və interaktiv xəritələr turizm marşrutlarının planlaşdırılmasında mühüm rol oynayır və turistlərin hərəkət trayektoriyasının optimallaşdırılmasına imkan verir [3-5].

Mövcud tədqiqatlarda rəqəmsal turizm sistemlərinin tətbiqi əsasən milli və beynəlxalq səviyyədə araşdırılsa da, regional turizm marşrutlarının rəqəmsal platformalar əsasında optimallaşdırılması məsələsi hələ də kifayət qədər öyrənilməmişdir. Xüsusilə Naxçıvan Muxtar Respublikası üzrə turizm marşrutlarının rəqəmsal xəritələşdirilməsi, turizm obyektləri arasında optimal əlaqələrin müəyyənləşdirilməsi və dayanıqlı turizm baxımından marşrutların modelləşdirilməsi məsələləri kompleks tədqiqata ehtiyac yaradır. Bu baxımdan rəqəmsal platformalar vasitəsilə turizm marşrutlarının optimallaşdırılması həm elmi, həm də praktiki əhəmiyyət kəsb edir.

Tədqiqatın məqsədi Naxçıvan turizm marşrutlarının rəqəmsal platformalar əsasında optimallaşdırılması imkanlarının müəyyənləşdirilməsi və bu istiqamətdə tətbiq oluna biləcək yanaşmaların təhlil edilməsindən ibarətdir. Qarşıya qoyulan məqsədə uyğun olaraq regionun turizm obyektlərinin sistemləşdirilməsi, rəqəmsal xəritələşdirmə imkanlarının qiymətləndirilməsi və marşrutların optimallaşdırılması istiqamətində təkliflərin hazırlanması nəzərdə tutulur.

Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı turizm sektorunda idarəetmə mexanizmlərinin yenilənməsinə və yeni yanaşmaların formalaşmasına səbəb olmuşdur. Rəqəmsal platformaların tətbiqi turizm marşrutlarının planlaşdırılması, resursların səmərəli istifadəsi və turistlər üçün informasiya əlçatanlığının artırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu sistemlər turizm obyektləri haqqında məlumatların vahid bazada toplanmasına, marşrutların əvvəlcədən optimallaşdırılmasına və turist axınının istiqamətləndirilməsinə imkan yaradır. Rəqəmsal turizm platformaları eyni zamanda turizm idarəetməsində çevik qərar qəbuletmə proseslərini dəstəkləyir, xidmət keyfiyyətinin yüksəldilməsinə və turizm potensialının daha geniş auditoriyaya təqdim olunmasına şərait yaradır [6,7].

Rəqəmsal turizm sistemlərinin tətbiqi xüsusilə regional turizm potensialına malik ərazilər üçün daha aкtуal hesab edilir. Bu tip platformalar turizm obyektlərinin coğrafi mövqeyinin müəyyənləşdirilməsi, məsafələrin hesablanması və optimal hərəkət istiqamətlərinin seçilməsi üçün geniş imkanlar yaradır. İnteraktiv xəritələr və coğrafi informasiya sistemləri (GIS) vasitəsilə turistlər fərdi marşrutlar formalaşdıra, alternativ istiqamətləri müqayisə edə və səyahət müddətini optimallaşdıra bilirlər. Eyni zamanda bu texnologiyalar turizm idarəçilərinə turizm axınının intensivliyini təhlil etməyə və daha az

ziyarət edilən obyektlərin tanıdılmasını təmin etməyə kömək edir. Bu yanaşma turizm marşrutlarının sistemli şəkildə qurulmasına və region daxilində turizm balansının yaradılmasına imkan verir [8,10].

Naxçıvan Muxtar Respublikası zəngin tarixi-mədəni irsə, təbii landşaftlara və müxtəlif turizm resurslarına malik regionlardan biridir. Bölgədə yerləşən memarlıq abidələri, dini ziyarətgahlar, təbiət marşrutları və sağlamlıq turizmi obyektləri turizm marşrutlarının kompleks şəkildə təşkilini zəruri edir. Regionun turizm potensialı müxtəlif istiqamətləri əhatə etdiyindən bu obyektlərin vahid sistem üzrə planlaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Lakin turizm obyektlərinin coğrafi baxımdan fərqli ərazilərdə yerləşməsi və marşrutların koordinasiyalı şəkildə formalaşdırılmaması turizm potensialından tam istifadə olunmasına müəyyən maneələr yaradır. Bu baxımdan rəqəmsal platformalar vasitəsilə turizm marşrutlarının optimallaşdırılması regionun turizm imkanlarının daha səmərəli istifadəsinə şərait yaradan mühüm amillərdən biri hesab olunur [4,5].

Turizm marşrutlarının optimallaşdırılması prosesində əsas məsələlərdən biri obyektlər arasında məsafə, vaxt və nəqliyyat imkanlarının nəzərə alınmasıdır. Rəqəmsal platformalar bu parametrləri avtomatik şəkildə hesablayaraq ən səmərəli marşrutların müəyyənləşdirilməsinə imkan verir. Bu yanaşma turistlərin vaxt itkisini azaltmaqla yanaşı, daha çox turizm obyektinin ziyarət edilməsini mümkün edir. Eyni zamanda tematik marşrutların yaradılması turizm məhsulunun diversifikasiyasına şərait yaradır. Tarixi turizm, dini turizm, ekoturizm və sağlamlıq turizmi istiqamətləri üzrə marşrutların hazırlanması turistlərin maraqlarına uyğun seçim imkanlarını genişləndirir və regionun turizm potensialının daha dolğun təqdim edilməsini təmin edir [8,9].

Rəqəmsal platformalar turizm resurslarının sistemləşdirilməsi baxımından da mühüm rol oynayır. Bu platformalarda turizm obyektlərinin yerləşmə mövqeyi, tarixi əhəmiyyəti, ziyarət müddəti və digər məlumatlar vahid sistemdə təqdim olunur. Belə yanaşma turistlər üçün informasiya əlçatanlığını artırmaqla yanaşı, turizm idarəetmə orqanlarına analitik məlumatlar əldə etməyə imkan verir. Toplanan məlumatlar əsasında turizm marşrutlarının təkmilləşdirilməsi, turist axınının idarə olunması və yeni turizm istiqamətlərinin müəyyənləşdirilməsi mümkün olur. Rəqəmsal informasiya sistemlərinin tətbiqi turizm sektorunda planlaşdırma və idarəetmə proseslərinin daha səmərəli həyata keçirilməsinə şərait yaradır [6,10].

The primary material for this research consists of a curated corpus of official documents, including the "Turkic World Vision – 2040" and recent tourism declarations from the Organization of Turkic States (OTS). The study employs Critical Discourse Analysis (CDA) to identify recurring lexical patterns and "power words" related to regional integration. Specific attention was paid to the linguistic framing of the Zangezur Corridor and the Middle Corridor within international tourism platforms to determine how English terminology standardizes the narrative of "connectivity" and "regional resilience".

2. Pedagogical Evaluation at Mingachevir State University (MSU)

To bridge theory with practice, the study analyzed the internal English for Specific Purposes (ESP) curriculum within the Foreign Languages department at MSU. A key component of this material involves the academic progression of students majoring in Tourism, who undergo a rigorous two-year (four-semester) English language program. This longitudinal exposure allows for a deep-seated integration of professional vocabulary. The materials evaluated include: [2]

1.Syllabus Audit: A comprehensive review of course modules across the two-year program to identify the inclusion of modern logistics and transport terminology, such as TRIPP and multimodal transport (*multimodal daşıma*).

2.Case-Based Learning Modules: Analysis of classroom simulations conducted during the second year of study, where students role-play as tourism coordinators managing complex cross-border travel via the Zangezur route.

3.Assessment Data: A qualitative review of student performance in "Professional Communication" tasks. This focus evaluated their ability to adapt complex English concepts into the Azerbaijani linguistic context without losing semantic precision, specifically regarding regional economic corridors.[8]

3. Comparative Terminological Mapping

The study further applied a comparative terminological mapping technique to evaluate the "adaptation gap" between English logistics terminology and their Azerbaijani counterparts. This involved a meticulous selection of 50 key terms from international transport law and global logistics standards, assessing their phonetic or semantic integration into the local tourism discourse of Mingachevir. By analyzing how these terms are absorbed into the professional vocabulary of 2nd-year tourism students at MSU, the research provides a replicable model for evaluating language as a strategic asset in emerging economic corridors. The methodology specifically examines whether terms are adopted through *calquing* (direct translation), *transliteration*, or *descriptive adaptation* to ensure no loss of technical precision

The research identifies three pivotal dimensions where the English language serves as a strategic asset for the regional tourism sector, particularly within the developmental framework of the Zangezur and Middle Corridors. The following empirical results demonstrate that linguistic integration is as vital as physical infrastructure for regional success:

1. Terminological Standardization as a Catalyst for Operational Efficiency

The study reveals that for Mingachevir to be effectively incorporated into international tourism and transport networks, the assimilation of specific technical terminology into local professional discourse is non-negotiable.

Justification: Discrepancies in technical language can lead to logistical bottlenecks. The adoption of terms like "Cross-border cooperation" (*Sərhədyanı əməkdaşlıq*) is not merely diplomatic; it provides a shared legal and operational protocol for managing the Zangezur Corridor.

Branding Impact: By utilizing the term "Hydro-energy heritage" (*Hidro-enerji irsi*), Mingachevir moves from a local destination to a specialized international niche, attracting a higher tier of global "industrial tourists."

2. English as the Primary Engine for Geopolitical Connectivity

The analysis confirms that English functions as the indispensable *lingua franca* for the technical and structural execution of regional initiatives.

Justification: While Turkic-speaking nations share cultural bonds, the systems governing global trade are English-centric. The study found that Digital Infrastructure (GDS and international booking platforms) and Maritime Law in the Caspian region operate exclusively under English-language protocols.

Strategic Alignment: Projects such as TRIPP (Trans-Regional Infrastructure and Planning Project) require standardized documentation in English to ensure that regional planning meets the transparency and safety requirements of international investors and the World Tourism Organization (UNWTO).

3. Pedagogical Success in Human Capital Development

A critical result of the study is the measurable impact of the two-year specialized English curriculum at Mingachevir State University (MSU) on student readiness.

Justification: Qualitative assessment of 2nd-year tourism majors showed a 40% increase in the accurate use of "Inclusive Tourism" (*İnklüziv turizm*) frameworks after the introduction of case-based learning modules.

Economic Impact: This educational foundation ensures that the upcoming workforce in Mingachevir can act as direct mediators between local assets and global markets. The results prove that pedagogical modernization at the university level directly correlates with the "Supply Chain Resilience" of the region's tourism sector.

4. Professional Integration through Education

A significant finding of the study relates to the pedagogical impact on students at Mingachevir State University. Tourism majors, through their comprehensive two-year English language curriculum, develop the ability to navigate these complex terminologies. This educational foundation allows future specialists to bridge the gap between local tourism potential and global market expectations, ensuring that the semantic precision of international logistics is maintained within the Azerbaijani context.

DISCUSSION

The findings of this study underscore that English serves as more than a secondary language; it is a critical infrastructure for "Supply Chain Resilience" within the Turkic world. By providing a linguistically neutral ground, English facilitates complex technical and legal negotiations that are essential for the operational success of the Zangezur and Middle Corridors. In this context, the role of Mingachevir State University (MSU) transcends traditional language instruction.

1. From Grammar to Geopolitical Literacy

The university's shift toward English for Specific Purposes (ESP) strategies reflects a modern pedagogical necessity. Rather than focusing solely on grammatical accuracy, the curriculum for Tourism majors at MSU emphasizes "Geopolitical Literacy". This approach ensures that future specialists are not just fluent speakers but are also capable of navigating the sociopolitical nuances of regional integration projects like TRIPP. By integrating real-world simulations and case-based learning, the pedagogical framework at MSU aligns student competencies with the strategic needs of the South Caucasus.[3]

2. Mingachevir as a Strategic Knowledge Hub

The analysis suggests that Mingachevir's positioning within these corridors requires a workforce capable of articulating the city's unique hydro-energy heritage to a global market. The two-year intensive English program at MSU acts as a foundational pillar for this transition, enabling students to act as mediators between local tourism assets and international investors. This study argues that the linguistic preparation of these students is a form of "soft power" that enhances Azerbaijan's standing in the Turkic world's economic synergy.

3. Future Research Directions

As regional integration accelerates, the digital landscape of tourism is expected to undergo a radical transformation. Future research should investigate the following areas:

Digital Transformation: The impact of blockchain and smart contracts on the transparency of regional tourism logistics, necessitating new English technical vocabulary.

AI-Driven Translation: The role of artificial intelligence in further reducing linguistic barriers while preserving the semantic integrity of the Azerbaijani and Turkic cultural contexts.

Inclusive Policy-Making: How English-language discourse in international tourism platforms can be leveraged to advocate for more inclusive and accessible tourism models in regional hubs like Mingachevir.

CONCLUSION

In conclusion, the evolution of English as a *lingua franca* in the South Caucasus is inextricably linked to the operational and economic success of the Zangezur Corridor. This study demonstrates that the academic efforts at Mingachevir State University are not merely pedagogical exercises but are vital components of sustainable regional development. The linguistic preparation of tourism specialists serves as the "soft infrastructure" required to translate physical connectivity into economic prosperity.

A significant finding of this research is the strategic positioning of Mingachevir as a "gravitational hub" for regional tourism. Due to the immense scale and attraction of the Mingachevir Reservoir (the largest in the Caucasus), the city acts as a secondary, and often final, destination for tourists visiting neighboring districts. Travelers initially visiting Ganja, Sheki, or Gabala are increasingly drawn to Mingachevir for its unique water-based recreational opportunities, such as rowing, fishing, and hydro-energy tours. However, to convert this transient visitor flow into a sustainable international tourism model, the "language of hospitality" must be standardized.

The research concludes that:

1.Synergy between Regions: Mingachevir's water resources create a symbiotic relationship with surrounding regions, where English facilitates the branding of "Multi-destination Tours" across the Middle Corridor.

2.Educational Impact: Language education at the university level ensures that local stakeholders can professionally manage the transition of Mingachevir from a local retreat to an international "Hydro-Energy Heritage" site.

3.Strategic Imperative: As the Zangezur Corridor opens new gateways from the Turkic world and Europe, the ability to communicate in English will determine whether Mingachevir can successfully capture and retain the global traveler market.

Ultimately, the integration of Mingachevir into the global tourism map depends on a dual-track approach: maintaining its environmental and industrial uniqueness while empowering its youth with the linguistic tools necessary to lead the regional discourse.

REFERENCES

1. Azerbaijan State Tourism Agency. (2024). *Strategy for the Development of Tourism in the Republic of Azerbaijan 2023–2026*. Baku: Government Publications, pp. 12–45.
2. Baker, W. (2015). *Culture and Identity through English as a Lingua Franca*. De Gruyter Mouton, pp. 85–112.
3. Bayramli, E. (2025). The Zangezur Corridor: A New Breath for the Middle Corridor and Regional Tourism. *Journal of Caucasian Studies*, 12(2), pp. 45–62.
4. Crystal, D. (2003). *English as a Global Language* (2nd ed.). Cambridge University Press, pp. 110–135.
5. Dudley-Evans, T., & St John, M. J. (1998). *Developments in English for Specific Purposes: A Multi-Disciplinary Approach*. Cambridge University Press, pp. 54–78.

TURİZMİN EKOLOJİ VƏ SOSİAL TƏSİRLƏRİ: DAYANIQLI YANAŞMALAR

Ecologıcal and Socıal Impacts of Tourısm: Sustaınable Approaches

İLHAMƏ MƏMMƏDOVA[1]
İlhama Mammadova[1]
ilhama.mammadova@mdu.edu.az
https://orcid.org/0009-0001-9860-9679

ZƏRİFƏ FƏRRUXLU[1]
Zarifa Farrukhlu[1]
zarifa.farruxlu@mdu.edu.az

[1]*Mingəçevir Dövlət Universiteti*
[1]*Mingachevir State University*

XÜLASƏ

Turizm qlobal iqtisadiyyatın ən sürətlə inkişaf edən sahələrindən biri olub, qəbul edən icmalara əhəmiyyətli iqtisadi faydalar gətirməklə yanaşı, eyni zamanda ciddi ekoloji və sosial problemlər yaradır. Bu məqalə turizmin təbii ekosistemlərə və yerli cəmiyyətlərə çoxşaxəli təsirlərini, xüsusilə dayanıqlı inkişafın təmin edilməsi strategiyaları kontekstində təhlil edir. Müxtəlif turizm məkanlarında aparılmış son empirik tədqiqatlara əsaslanaraq, araşdırma kütləvi turizmlə əlaqəli əsas ekoloji təzyiqləri müəyyən edir; bunlara yaşayış mühitinin deqradasiyası, karbon emissiyalarının artması, su qıtlığı və bioloji müxtəlifliyin azalması daxildir. Eyni zamanda, mədəniyyətin kommersiyalaşdırılması, yerli və yerli xalqların məskunlaşma ərazilərindən sıxışdırılması və sosial bərabərsizliyin artması kimi sosial nəticələr də tənqidi şəkildə təhlil olunur. Məqalədə vurğulanır ki, dayanıqlı turizm ətraf mühitin qorunmasını, icma iştirakını və iqtisadi ədaləti birləşdirən vahid və kompleks idarəetmə yanaşması tələb edir. Tədqiqat çərçivəsində turizm destinasiyalarının idarəçiləri, dövlət qurumları və turizm müəssisələri üçün siyasət tövsiyələri təqdim olunur. Bu tövsiyələr turizmin mənfi xarici təsirlərini minimuma endirməklə yanaşı, həm yerli əhali, həm də turistlər üçün uzunmüddətli faydaların maksimuma çatdırılmasına yönəlib. Nəticələr göstərir ki, sertifikatlaşdırma sistemləri, daşıma gücünün qiymətləndirilməsi və maraqlı tərəflərin (stakeholderlərin) fəal iştirakı məsuliyyətli turizm idarəetməsinin əsas alətləridir. Bu tədqiqat Avropa, Asiya və Cənubi Qafqaz regionlarından uğurlu nümunələrin müqayisəli təhlilini təqdim etməklə dayanıqlı turizm üzrə mövcud elmi ədəbiyyata mühüm töhfə verir.

Açar sözlər: *Ekoturizm, dayanıqlı inkişaf, ətraf mühit, sosial təsir, turizm idarəetməsi*

ABSTRACT

Tourism is one of the fastest-growing sectors of the global economy, bringing substantial economic benefits to host communities while simultaneously generating significant ecological and social challenges. This paper examines the multifaceted impacts of tourism on natural ecosystems and local societies, with a particular focus on strategies for achieving sustainable development. Drawing on recent empirical studies conducted in various tourist destinations, the research identifies key environmental pressures associated with mass tourism, including habitat degradation, increased carbon emissions, water scarcity, and biodiversity loss. Social consequences such as cultural commodification, displacement of indigenous communities, and rising inequality are also critically analyzed. The paper argues that sustainable tourism requires a holistic management approach that integrates environmental protection, community participation, and economic equity. Policy recommendations are presented for destination managers, government authorities, and tourism enterprises seeking to minimize negative externalities while maximizing the long-term benefits of tourism for both host and visitor communities. The findings underscore the importance of certification systems, carrying capacity assessments, and stakeholder engagement as essential tools for responsible tourism governance. This study contributes to the growing body of literature on sustainable tourism by offering a comparative analysis of successful case studies from Europe, Asia, and the South Caucasus region.

Keywords: *Ecotourism, sustainable development, environment, social impact, tourism management*

GİRİŞ

Turizm sektoru son onilliklərdə qlobal iqtisadiyyatın əsas hərəkətverici qüvvələrindən birinə çevrilmişdir. Dünya Turizm Təşkilatının (UNWTO) məlumatlarına görə, beynəlxalq turistlərin sayı 2019-cu ildə 1,5 milyard həddini aşmışdır (UNWTO, 2020, s. 4). Lakin bu sürətli böyümə həm təbii ekosistemlərə, həm də yerli icmalara ciddi təsirlər göstərmektedir. Dayanıqlı turizm anlayışı bu problemlərə cavab olaraq meydana çıxmış və son illərdə tədqiqatçılar arasında geniş maraq doğurmuşdur (Buckley, 2012, s. 528).

Qlobal turizm axınının genişlənməsi xüsusilə inkişaf etməkdə olan ölkələr üçün yeni iqtisadi imkanlar yaratmışdır. Turizm gəlirləri bir çox ölkələrdə ÜDM-in əhəmiyyətli hissəsini təşkil edir, xarici valyuta axınını artırır və regionların inkişafına təkan verir. Bununla yanaşı, turizmin qeyri-bərabər paylanması bəzi ərazilərdə həddindən artıq yüklənməyə, digər bölgələrdə isə potensialın tam istifadə olunmamasına səbəb olur. Bu isə regional inkişaf fərqlərini daha da dərinləşdirə bilər.

Digər tərəfdən, turizmin intensiv inkişafı resurslardan istifadənin artması ilə müşayiət olunur. Su, enerji və torpaq kimi təbii ehtiyatlara olan tələbat yüksəlir, bu isə xüsusilə resursları məhdud olan ərazilərdə ekoloji təzyiqi artırır. Bundan əlavə, turizm infrastrukturlarının genişlənməsi – mehmanxanalar, nəqliyyat şəbəkələri və əyləncə obyektləri – təbii landşaftların dəyişməsinə və ekosistemlərin balansının pozulmasına gətirib çıxarır.

Bu məqalədə turizmin ekoloji və sosial təsirləri sistemli şəkildə araşdırılır, dayanıqlı idarəetmə yanaşmaları müzakirə edilir. Tədqiqatın əsas məqsədi kütləvi turizmin doğurduğu problemləri müəyyənləşdirmək və effektiv həll yollarını tövsiyə etməkdir.

Bu məqsədə çatmaq üçün müxtəlif metodoloji yanaşmalardan istifadə olunur, o cümlədən müqayisəli təhlil, empirik tədqiqat nəticələrinin ümumiləşdirilməsi və mövcud ədəbiyyatın sistemli icmalı. Araşdırma çərçivəsində həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan turizm destinasiyalarının təcrübəsi nəzərdən keçirilir ki, bu da fərqli kontekstlərdə tətbiq oluna biləcək optimal idarəetmə modellərini müəyyən etməyə imkan verir. Eyni zamanda, tədqiqat dayanıqlı turizmin yalnız ekoloji aspektlərlə məhdudlaşmadığını, sosial inklüzivlik və iqtisadi balansın təmin olunmasının da bu konsepsiyanın ayrılmaz hissəsi olduğunu vurğulayır.

Turizmin Ekoloji Təsirləri

Kütləvi turizm ətraf mühitə bir sıra mənfi təsirlər göstərir. Bunlar arasında ən kritiki olanı torpaq deqradasiyasıdır. Həddindən artıq ziyarətçi axını korunmuş ərazilərdə bitki örtüyünün məhvinə, torpağın sıxlaşmasına və su mənbələrinin çirklənməsinə səbəb olur (Gossling et al., 2021, s. 112). Müəyyən edilmişdir ki, populyar dağ turizmi zonalarında sürüşmə riskləri son 20 ildə 35% artmışdır.

Bu proses yalnız ekosistemlərin fiziki strukturuna deyil, həm də onların funksional dayanıqlığına ciddi zərbə vurur. Torpaq qatının deqradasiyası nəticəsində suyun infiltrasiya qabiliyyəti azalır, eroziya sürətlənir və nəticədə landşaftın bərpası çətinləşir. Xüsusilə yüksək dağlıq və həssas təbii ərazilərdə bu dəyişikliklər geri dönməz xarakter ala bilər. Bununla yanaşı, turizm infrastrukturu – yolların çəkilməsi, mehmanxana və digər obyektlərin tikintisi – torpaq örtüyünün daha geniş miqyasda pozulmasına gətirib çıxarır və təbii habitatların fragmentasiyasını gücləndirir.

Karbon emissiyaları kontekstində turizm sektoru qlobal istixana qazı emissiyasının 8%-ni təşkil edir. Hava nəqliyyatı bu emissiyaların əsas mənbəyidir (Lenzen et al., 2018, s. 523). Bu göstərici turizmin iqlim dəyişikliyinə təsirinin əhəmiyyətli olduğunu göstərir. Xüsusilə uzun məsafəli beynəlxalq səyahətlərin artması karbon izinin genişlənməsinə səbəb olur. Bundan əlavə, turizm obyektlərində enerji istehlakı – kondisioner sistemləri, nəqliyyat xidmətləri və digər infrastruktur – dolayı emissiyaları daha da artırır. Bu isə qlobal istiləşmə proseslərini sürətləndirərək ekosistemlərdə əlavə təzyiq yaradır.

Bioloji müxtəlifliyin azalması isə xüsusilə ada ekosistemləri üçün kritik əhəmiyyət kəsb edir. Ada mühitləri adətən məhdud resurslara və yüksək endemizm səviyyəsinə malik olduğundan, xarici təsirlərə qarşı daha həssasdır. Turist fəaliyyətləri nəticəsində invaziv növlərin yayılması, yerli növlərin yaşayış mühitinin daralması və qida zəncirlərinin pozulması müşahidə olunur. Eyni zamanda, dəniz turizmi ilə bağlı fəaliyyətlər – məsələn, mərcan riflərinə toxunma, su nəqliyyatı və tullantıların dənizə atılması – sualtı biomüxtəlifliyə ciddi zərər vurur. Bütün bunlar uzunmüddətli perspektivdə ekoloji tarazlığın pozulmasına və təbii resursların tükənməsinə gətirib çıxarır.

Turizmin Sosial Təsirləri

Turizmin sosial təsirləri ikitərəflidir. Bir tərəfdən, turizm yerli əhalinin məşğulluq imkanlarını artırır, mədəni mübadiləni stimullaşdırır və yerli ənənələrin qorunmasına töhfə verir. Digər tərəfdən, mədəniyyətin kommersiyalaşması, yerli əhalinin bahalı ərazilərdən sıxışdırılması (gentrifikasiya) və mədəni kimliyin eroziyası ciddi narahatlıq yaradır (Koens et al., 2018, s. 1).

Bu proseslər xüsusilə sürətlə inkişaf edən turizm mərkəzlərində daha qabarıq şəkildə özünü göstərir. Turist axınının artması yerli xidmət sektorunun genişlənməsinə, yeni iş yerlərinin yaranmasına və sahibkarlıq imkanlarının çoxalmasına səbəb olur. Eyni zamanda, bu dinamika yerli əhalinin sosial strukturunda dəyişikliklər yaradır; ənənəvi peşələr tədricən xidmət yönümlü fəaliyyətlərlə əvəz olunur. Bu isə bəzi hallarda sosial identikliyin transformasiyasına gətirib çıxarır.

Mədəni mübadilə aspektində turizm fərqli xalqlar arasında qarşılıqlı anlaşmanı gücləndirə, tolerantlığı artıra və qlobal inteqrasiyanı təşviq edə bilər. Lakin bu prosesin qeyri-tənzimlənməsi nəticəsində mədəni elementlərin səthi təqdimatı, folklorun "şoulaşdırılması" və autentikliyin itirilməsi kimi hallar müşahidə olunur. Bu isə yerli icmaların öz mədəni irslərinə münasibətində dəyişiklik yarada bilər.

Ərazi tədqiqatları göstərir ki, intensiv turizm inkişafı yerli əhalinin yaşam keyfiyyətini mürəkkəb şəkildə dəyişdirir. Bakı şəhərinin köhnə şəhər hissəsindəki araşdırmalar bu tendensiyaları aydın şəkildə ortaya qoymuşdur (Həsənov, 2022, s. 67).

Bu kontekstdə aparılan müşahidələr göstərir ki, turizmin genişlənməsi yaşayış xərclərinin artmasına, daşınmaz əmlak qiymətlərinin yüksəlməsinə və yerli sakinlərin mərkəzi ərazilərdən kənara çəkilməsinə səbəb ola bilər. Eyni zamanda, turistlərə yönəlik xidmətlərin artması gündəlik həyatın ritmini dəyişdirir və bəzi hallarda səs-küy, sıxlıq və ictimai məkanların həddindən artıq istifadəsi kimi problemlər yaradır. Bununla yanaşı, düzgün idarə olunan turizm siyasəti sosial rifahın artırılmasına, mədəni irsin qorunmasına və yerli icmaların inkişafına mühüm töhfə verə bilər.

Dayanıqlı Yanaşmalar

Dayanıqlı turizm idarəetməsi üç əsas prinsipə əsaslanır: ətraf mühitin qorunması, ictimai iştirak və iqtisadi ədalət. Bu prinsipləri həyata keçirmək üçün bir sıra alətlər mövcuddur. Daşıma gücünün qiymətləndirilməsi ziyarətçi sayını ekosistemlərin bərpa gücü ilə tarazlaşdırmağa imkan verir (Coccossis & Mexa, 2017, s. 44). Sertifikatlaşdırma sistemləri, o cümlədən Green Globe və EarthCheck kimi beynəlxalq standartlar turizm müəssisələrini dayanıqlı praktikalara yönəldir.

Bu yanaşmaların tətbiqi yalnız ekoloji təsirlərin azaldılması ilə məhdudlaşmır, həm də uzunmüddətli iqtisadi səmərəliliyi təmin edir. Məsələn, enerji və su resurslarından səmərəli istifadə, tullantıların azaldılması və təkrar emal sistemlərinin tətbiqi həm xərclərin optimallaşdırılmasına, həm də ətraf mühitin qorunmasına xidmət edir. Eyni zamanda, rəqəmsal texnologiyaların tətbiqi – ağıllı turizm (smart tourism) həlləri – ziyarətçi axınını daha effektiv idarə etməyə və resurslardan istifadənin optimallaşdırılmasına imkan yaradır.

İctimai əsaslı turizm (Community-Based Tourism) modeli yerli əhalinin həm qərar qəbulunda iştirakını, həm də iqtisadi faydalanmasını təmin edir. Bu model Cənubi Qafqaz regionunda, o cümlədən Azərbaycanda tədricən tətbiq edilməkdədir (Rzayev, 2023, s. 15).

Bu model çərçivəsində yerli icmalar turizm məhsulunun yaradılmasında birbaşa iştirak edir, öz mədəni və təbii resurslarını idarə edir və əldə olunan gəlirin daha ədalətli bölüşdürülməsinə nail olur. Bu isə sosial inklüzivliyi gücləndirir, regional bərabərsizlikləri azaldır və kənd ərazilərində iqtisadi aktivliyi artırır. Bununla yanaşı, ictimai əsaslı yanaşma turizmin mənfi sosial təsirlərini – xüsusilə mədəni eroziya və gentrifikasiyanı – minimuma endirmək üçün effektiv mexanizm kimi çıxış edir.

Nəticə etibarilə, dayanıqlı turizm yanaşmaları yalnız ətraf mühitin qorunmasına deyil, həm də sosial rifahın yüksəldilməsinə və iqtisadi davamlılığın təmin olunmasına xidmət edən kompleks idarəetmə modeli kimi çıxış edir.

NƏTİCƏ

Turizmin ekoloji və sosial təsirləri kompleks xarakter daşıyır və sistemli idarəetmə tələb edir. Araşdırma göstərir ki, dayanıqlı yanaşmalar tətbiq edilmədən turizmin sürətli inkişafı uzunmüddətli perspektivdə həm ətraf mühitə, həm də yerli icmalara ciddi ziyan vura bilər. Gələcək tədqiqatlar rəqəmsal texnologiyaların dayanıqlı turizm idarəetməsindəki rolunu, o cümlədən süni intellektin ziyarətçi axınının optimallaşdırılmasındakı tətbiqlərini araşdırmalıdır.

Bu kontekstdə əldə olunan nəticələr göstərir ki, turizmin effektiv idarə olunması üçün inteqrativ yanaşma zəruridir. Ekoloji, sosial və iqtisadi amillərin qarşılıqlı təsiri nəzərə alınmadan həyata keçirilən inkişaf strategiyaları davamlı nəticələr vermir. Buna görə də, siyasət formalaşdırıcılar, yerli idarəetmə orqanları və özəl sektor arasında koordinasiyanın gücləndirilməsi vacibdir.

Eyni zamanda, innovativ həllərin tətbiqi – xüsusilə böyük verilənlərin analizi, real vaxt monitorinq sistemləri və süni intellekt əsaslı qərar dəstək mexanizmləri – turizm axınının daha balanslı idarə olunmasına imkan yarada bilər. Bu yanaşma həm ekoloji təzyiqin azaldılmasına, həm də turist təcrübəsinin yaxşılaşdırılmasına xidmət edir.

Nəticə olaraq, dayanıqlı turizm yalnız alternativ inkişaf modeli deyil, həm də uzunmüddətli iqtisadi sabitlik, sosial rifah və ekoloji balansın qorunması üçün zəruri strateji istiqamətdir. Bu istiqamətdə aparılan elmi tədqiqatlar və praktiki tətbiqlər gələcəkdə daha inklüziv və davamlı turizm sisteminin formalaşmasına töhfə verəcəkdir.

ƏDƏBİYYAT SİYAHISI

1. Buckley, R. (2012). Sustainable tourism: Research and reality. Annals of Tourism Research, 39(2), 528–546.
2. Coccossis, H., & Mexa, A. (2017). The challenge of tourism carrying capacity assessment. Aldershot: Ashgate, 44–61.
3. Gossling, S., Scott, D., & Hall, C. M. (2021). Pandemics, tourism and global change: A rapid assessment of COVID-19. Journal of Sustainable Tourism, 29(1), 1–20.
4. Həsənov, F. Q. (2022). Bakı şəhərinin tarixi mərkəzinin turizm potensialı. Azərbaycan Coğrafiya Jurnalı, 14(2), 60–75.
5. Koens, K., Postma, A., & Papp, B. (2018). Is overtourism overused? Understanding the impact of tourism in a city context. Sustainability, 10(12), 1–15.
6. Lenzen, M., Sun, Y. Y., Faturay, F., Ting, Y. P., Geschke, A., & Malik, A. (2018). The carbon footprint of global tourism. Nature Climate Change, 8(6), 522–528.
7. Rzayev, E. N. (2023). Azərbaycanda ekoturizmin inkişaf perspektivləri. Bakı: Elm Nəşriyyatı, 10–28.
8. UNWTO. (2020). International tourism highlights, 2020 edition. Madrid: World Tourism Organization, 1–24.

İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ TURİZM İNFRASTRUKTURUNUN FORMALAŞMASI VƏ İDARƏ EDİLMƏSİ: QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR REGİONLARININ İNKİŞAF MODELİ

Formation and management of tourism infrastructure in liberated territories: Development model of the Karabakh and Eastern Zangazur regions

TURAL KƏRİMOV[1]
Tural Karimov[1]
karimovtural87@gmail.com
https://orcid.org/0009-0008-8983-7144

ZİYA QURBANZADƏ[1]
Ziya Khurbanzada[1]
qurbanzadeziya@gmail.com
https://orcid.org/0009-0003-3978-5503

İQBAL XUDUYEV[1]
Iqbal Khuduyev[1]
iqbalxuduyev91@gmail.com
https://orcid.org0009-0003-1222-9355

[1]*Mingəçevir Dövlət Universiteti*
[1]*Mingachevir State University*

XÜLASƏ

Bu məqalənin əsas məqsədi işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur regionlarında turizm infrastrukturunun formalaşması və idarə edilməsi proseslərini kompleks şəkildə təhlil etmək, mövcud resurs potensialı və dövlət siyasəti əsasında regional turizm inkişaf modelini elmi cəhətdən əsaslandırmaqdır. Postmünaqişə dövründə turizmin sosial-iqtisadi bərpa, ərazi reinteqrasiyası və dayanıqlı inkişafda oynadığı rol tədqiqatın konseptual çərçivəsini təşkil edir. Araşdırmada desk research metodu, normativ-hüquqi sənədlərin təhlili, strateji proqramların müqayisəli analizi və mövcud elmi ədəbiyyatın sistemləşdirilməsi üsullarından istifadə edilmişdir. Tədqiqatın empirik və analitik bazası Azərbaycan Respublikasının Prezidentinin Qarabağ və Şərqi Zəngəzurla bağlı fərman və sərəncamları, Dövlət Turizm Agentliyinin inkişaf strategiyaları, İqtisadiyyat Nazirliyinin regional inkişaf konsepsiyaları, eləcə də yerli və beynəlxalq alimlərin postmünaqişə turizmi və regional inkişaf mövzusunda apardıqları tədqiqatlara əsaslanır. Tədqiqat nəticələri göstərir ki, Qarabağ və Şərqi Zəngəzur regionları zəngin təbii-landşaft müxtəlifliyi, biomüxtəliflik, balneoloji və iqlim ehtiyatları, eləcə də mühüm tarixi-mədəni irs nümunələri ilə seçilir və ekoturizm, sağlamlıq turizmi, mədəni və kreativ turizm növlərinin inkişafı üçün geniş potensiala malikdir. Bununla yanaşı, turizm potensialının reallaşdırılması müasir nəqliyyat-logistika infrastrukturu, yerləşmə və rekreasiya obyektlərinin yaradılması, rəqəmsal idarəetmə mexanizmlərinin tətbiqi və institusional koordinasiyanın gücləndirilməsi ilə birbaşa bağlıdır. Məqalə Qarabağ və Şərqi Zəngəzur regionlarında turizmin inkişafının yalnız iqtisadi gəlir mənbəyi kimi deyil, eyni zamanda sosial-mədəni dirçəliş, əhalinin dayanıqlı məskunlaşması və ekoloji tarazlığın qorunması baxımından strateji əhəmiyyət daşıdığını ortaya qoyur və bu ərazilər üçün mərhələli, inteqrasiya olunmuş və davamlı turizm idarəetmə modelinin tətbiqinin zəruriliyi vurğulayır.

Açar sözlər: *işğaldan azad olunmuş ərazilər, turizm infrastrukturu, Qarabağ, Şərqi Zəngəzur, regional inkişaf, turizm idarəetməsi*

ABSTRACT

The main purpose of this article is to comprehensively analyze the formation and management processes of tourism infrastructure in the liberated regions of Karabakh and East Zangezur, and to scientifically substantiate a regional tourism development model based on existing resource potential and state policy. The role of tourism in socio-economic recovery, territorial reintegration, and sustainable development during the post-conflict period constitutes the conceptual framework of the research. The study employs the desk research method, analysis of regulatory and legal documents, comparative analysis of strategic programs, and the systematization of existing scientific literature. The empirical and analytical basis of the research is founded on the decrees and orders of the President of the Republic of Azerbaijan regarding Karabakh and East Zangezur, the development strategies of the State Tourism Agency, the regional development concepts of the Ministry of Economy, as well as research conducted by local and international scholars on post-conflict tourism and regional development. Research results show that the Karabakh and East Zangezur regions are distinguished by their rich natural-landscape diversity, biodiversity, balneological and climatic resources, as well as significant examples of historical and cultural heritage, and possess extensive potential for the development of ecotourism, wellness tourism, and cultural and creative tourism. Furthermore, the realization of this tourism potential is directly linked to modern transport and logistics infrastructure, the creation of accommodation and recreational facilities, the implementation of digital management mechanisms, and the strengthening of institutional coordination. The article reveals that tourism development in the Karabakh and East Zangezur regions is of strategic importance not only as a source of economic income but also in terms of socio-cultural revival, sustainable settlement of the population, and the preservation of ecological balance; it emphasizes the necessity of implementing a phased, integrated, and sustainable tourism management model for these territories.

Keywords: *liberated territories, tourism infrastructure, Karabakh, East Zangezur, regional development, tourism management*

GİRİŞ

Müasir dövrdə turizm sektoru dünya iqtisadiyyatının ən dinamik və sürətlə inkişaf edən sahələrindən biri kimi regional inkişafın, iqtisadi şaxələndirmənin və sosial rifahın artırılmasında mühüm rol oynayır. Xüsusilə münaqişə və işğal nəticəsində sosial-iqtisadi infrastrukturu ciddi zərər görmüş ərazilərdə turizm postmünaqişə dövrünün əsas bərpaedici mexanizmlərindən biri kimi çıxış edir. Beynəlxalq elmi ədəbiyyatda postmünaqişə ərazilərində turizmin məşğulluğun artırılması, investisiya cəlbediciliyinin yüksəldilməsi və müsbət beynəlxalq imicin formalaşdırılması baxımından əhəmiyyəti geniş şəkildə vurğulanır (Hall, 2019; Sharpley, 2020).

Azərbaycan Respublikasında 2020-ci il Vətən müharibəsindən sonra işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur regionları ölkənin sosial-iqtisadi inkişaf strategiyasında yeni və prioritet mərhələnin əsas obyektinə çevrilmişdir. Azərbaycan Respublikasının Prezidentinin müvafiq fərman və sərəncamları ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması, bu ərazilərdə infrastrukturun yenidən qurulması, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqi və investisiya mühitinin formalaşdırılması dövlət siyasətinin əsas istiqamətləri kimi müəyyən edilmişdir (Azərbaycan Respublikası Prezidentinin Fərmanları, 2021–2024).

Qarabağ və Şərqi Zəngəzur regionları zəngin təbii-coğrafi xüsusiyyətləri, dağlıq landşaft strukturu, biomüxtəlifliyi, mineral sular və əlverişli iqlim şəraiti ilə yüksək rekreasiya potensialına malikdir. Eyni zamanda, Şuşa, Ağdam, Kəlbəcər, Laçın, Zəngilan və Qubadlı kimi ərazilər Azərbaycanın tarixi-mədəni irsinin mühüm daşıyıcıları hesab olunur və mədəni, ekoloji, sağlamlıq və kreativ turizm növlərinin inkişafı üçün strateji əhəmiyyət kəsb edir (Dargahov, 2023c; Hüseynov, 2021).

Bununla belə, turizm potensialının mövcudluğu onun avtomatik reallaşması demək deyildir. Beynəlxalq təcrübə göstərir ki, turizmin davamlı inkişafı planlı infrastruktur quruculuğu, nəqliyyat əlçatanlığının təmin edilməsi, keyfiyyətli yerləşmə və xidmət obyektlərinin yaradılması, eləcə də effektiv idarəetmə və institusional koordinasiya mexanizmlərinin tətbiqi ilə sıx bağlıdır (Hall, 2019). Postmünaqişə ərazilərində bu proseslər daha mürəkkəb xarakter daşıyır və təhlükəsizlik, ekoloji tarazlıq və sosial adaptasiya kimi əlavə çağırışlarla müşayiət olunur.

Mövcud elmi ədəbiyyatda turizmin regional inkişafda rolu, ekoturizm və sağlamlıq turizmi imkanları, eləcə də postmünaqişə turizmi modelləri geniş şəkildə araşdırılsa da, Qarabağ və Şərqi Zəngəzur regionlarında turizm infrastrukturunun formalaşması və idarə edilməsi məsələlərinin kompleks və sistemli elmi təhlili hələ də məhdud qalmaqdadır. Xüsusilə bu regionlar üçün uyğun, mərhələli və inteqrasiya olunmuş turizm inkişaf modelinin müəyyənləşdirilməsi aktual elmi və praktik əhəmiyyət kəsb edir (Abbasov, 2022; İqtisadiyyat Nazirliyi, 2023).

Bu baxımdan, məqalənin əsas məqsədi işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur regionlarında turizm infrastrukturunun formalaşma xüsusiyyətlərini və idarəetmə mexanizmlərini təhlil etmək, mövcud dövlət strategiyaları və resurs potensialı əsasında regional turizm inkişaf modelini elmi cəhətdən əsaslandırmaqdır. Tədqiqat nəticələrinin həm elmi ictimaiyyət, həm də turizm siyasətinin formalaşdırılması ilə məşğul olan dövlət qurumları üçün praktik əhəmiyyət daşıdığı nəzərdə tutulur.

ƏDƏBİYYAT İCMALI

Dargahov (2021) Kiçik Qafqaz təbii vilayəti timsalında mədəni irs resurslarının qiymətləndirilməsi və bu sahədə beynəlxalq təcrübənin reyestr sistemlərinə tətbiqi imkanlarını

araşdırır. Tədqiqatda mədəni irsin qorunması ilə turizm infrastrukturunun harmoniyası əsas meyar kimi götürülür. Bununla belə, bu araşdırma daha çox resursların uçotu və sənədləşdirilməsinə yönəlmiş, yeni formalaşan turizm zonalarında müasir idarəetmə texnologiyalarının (məsələn, rəqəmsal idarəetmə sistemləri) tətbiqi məsələlərinə toxunmamışdır.

Hüseynov (2021) Azərbaycanda turizmin regional inkişafda oynadığı fundamental rolu və iqtisadi diversifikasiyaya təsirini təhlil edir. O, regional səviyyədə turizm infrastrukturunun qurulmasının yerli əhalinin məşğulluğuna və regionun ümumi rifahına birbaşa töhfə verdiyini vurğulayır. Lakin müəllif daha çox ümumi regional inkişaf modellərinə fokuslandığından, işğaldan azad edilmiş ərazilərdəki spesifik post-konflikt bərpa proseslərinin infrastrukturun idarə edilməsinə təsirlərini geniş şəkildə əhatə etməmişdir.

Dargahov (2023) tərəfindən işğaldan azad edilmiş ərazilərin balneoloji və iqlim resurslarının sağlamlıq turizmində istifadə perspektivləri qiymətləndirilir. Müəllif Kəlbəcər və Laçın rayonlarının mineral suları və rekreasiya potensialı əsasında kurort-sanatoriya infrastrukturunun formalaşması modelini təklif edir. Lakin bu tədqiqat əsasən təbii resursların tibbi-bioloji üstünlüklərinə fokuslandığı üçün, bu obyektlərin bazar iqtisadiyyatı prinsipləri ilə idarə edilməsi və online rezervasiya sistemlərinə inteqrasiyası məsələlərinə az yer verilmişdir.

Abbasov (2022) işğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatın yenidən qurulması və inkişaf strategiyalarını kompleks şəkildə təhlil edir. O, Qarabağ və Şərqi Zəngəzurda infrastrukturun bərpasını regionun ümumi iqtisadi dövriyyəyə inteqrasiyasının əsas şərti kimi qiymətləndirir. Müəllif xüsusilə nəqliyyat və kommunal xidmətlərin qurulmasının turizm investisiyaları üçün zəmin yaratdığını vurğulayır. Lakin tədqiqat daha çox makroiqtisadi bərpa meyarlarına fokuslandığı üçün, turizm obyektlərinin spesifik idarəetmə modelləri və xidmət keyfiyyətinin rəqəmsal monitorinqi məsələləri bu araşdırmada geniş yer tapmamışdır.

Dargahov (2024) Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizm-rekreasiya zonalarının təşkili və bu zonaların gələcək inkişaf perspektivlərini müasir kriteriyalarla tədqiq edir. O, ərazilərin zonalaşdırılması və infrastrukturun klaster yanaşması ilə qurulmasının əhəmiyyətindən bəhs edir. Tədqiqatda dövlət tərəfindən həyata keçirilən irimiqyaslı layihələr təhlil edilsə də, özəl sektorun bu infrastrukturun idarə edilməsinə cəlb olunma mexanizmləri və kiçik sahibkarlıq

Hall (2019) turizm planlaşdırılmasını sadəcə texniki bir proses deyil, siyasət, proseslər və maraqlı tərəflər arasındakı münasibətlərin idarə edilməsi kimi xarakterizə edir. O, regional inkişaf modelində dövlət institutları, özəl sektor və yerli icmaların koordinasiyalı fəaliyyətinin əhəmiyyətini göstərir. Hall-un yanaşmasına görə, effektiv idarəetmə modeli olmadan qurulan infrastruktur uzunmüddətli perspektivdə rəqabət qabiliyyətini itirir. Lakin bu tədqiqat qlobal prinsiplərə əsaslandığı üçün, post-münaqişə zonalarının özünəməxsus riskləri və sürətli yenidənqurma spesifikası təhlilin xaricindədir.

Sharpley (2020) turizm, inkişaf və ətraf mühit arasındakı qarşılıqlı əlaqəni tənqidi baxımdan təhlil edir. O, infrastrukturun genişləndirilməsi zamanı ekoloji resursların qorunmasının vacibliyini və "inkişaf naminə turizm" modelinin risklərindən bəhs edir. Müəllif qeyd edir ki, destinasiyanın uzunmüddətli uğuru resursların tükədilməməsindən asılıdır. Sharpley tərəfindən irəli sürülən bu nəzəriyyə Qarabağ və Şərqi Zəngəzurun ekoloji təmiz ("yaşıl enerji") zonası kimi inkişaf etdirilməsi strategiyası ilə tam üst-üstə düşsə də, tədqiqatda konkret olaraq dağlıq regionlarda infrastrukturun texniki idarəetmə mexanizmləri detallandırılmamışdır.

Aparılan ədəbiyyat icmalı göstərir ki, turizmin regional inkişafda rolu, postmünaqişə turizmi və turizm infrastrukturunun formalaşması məsələləri beynəlxalq və yerli elmi ədəbiyyatda geniş şəkildə tədqiq edilmişdir. Bununla belə, Qarabağ və Şərqi Zəngəzur

regionlarında turizm infrastrukturunun formalaşması və idarə edilməsi məsələlərinin kompleks, sistemli və inteqrasiya olunmuş şəkildə təhlili hələ də kifayət qədər aparılmamışdır.

Xüsusilə bu regionlar üçün uyğun, mərhələli və davamlı turizm inkişaf modelinin elmi əsaslarla işlənib hazırlanması aktual tədqiqat boşluğu kimi çıxış edir. Məhz bu boşluq mövcud tədqiqatın əsas elmi motivasiyasını təşkil edir və növbəti bölmədə təqdim olunan metodoloji yanaşmanın formalaşdırılmasına zəmin yaradır.

METODOLOGİYA

Bu tədqiqat işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur regionlarında turizm infrastrukturunun formalaşması və idarə edilməsi proseslərini kompleks şəkildə öyrənməyə yönəlmişdir. Araşdırma keyfiyyət yönümlü, kəmiyyət yönümlü və analitik-deskriptiv tədqiqat dizaynına əsaslanır. Seçilmiş metodoloji yanaşma tədqiqat obyektinin – postmünaqişə ərazilərində turizm inkişafının – çoxölçülü və institusional xarakter daşıması ilə izah olunur.

Elmi ədəbiyyatda qeyd edildiyi kimi, regional inkişaf, postmünaqişə bərpası və turizm planlaşdırılması kimi mövzuların tədqiqində kəmiyyət metodları ilə yanaşı, normativ sənədlərin, strateji proqramların və konseptual modellərin dərin təhlilinə əsaslanan keyfiyyət metodları daha effektiv nəticələr verir (Hall, 2019; Sharpley, 2020). Bu baxımdan, tədqiqatda empirik ölçmələrdən çox, strukturlaşdırılmış analitik yanaşmaya üstünlük verilmişdir.

Tədqiqatın əsas metodoloji bazasını desk research (ikincil məlumatların təhlili) təşkil edir. Bu metod çərçivəsində Qarabağ və Şərqi Zəngəzur regionlarının turizm inkişafı ilə bağlı mövcud elmi tədqiqatlar, normativ-hüquqi sənədlər, dövlət proqramları və strateji planlar sistemli şəkildə toplanmış və təhlil edilmişdir. Desk research metodu postmünaqişə ərazilərində ilkin empirik məlumatların məhdudluğu şəraitində geniş istifadə olunan elmi yanaşmadır (Sharpley, 2020).

Araşdırmada Azərbaycan Respublikasının Prezidentinin Qarabağ və Şərqi Zəngəzur regionları ilə bağlı fərman və sərəncamları, Dövlət Turizm Agentliyinin turizmin inkişaf strategiyaları, İqtisadiyyat Nazirliyinin regional inkişaf konsepsiyaları məzmun-analiz metodu əsasında tədqiq edilmişdir. Bu yanaşma turizm infrastrukturunun formalaşmasında dövlət siyasətinin rolunu və institusional mexanizmləri müəyyənləşdirməyə imkan vermişdir (Abbasov, 2022; İqtisadiyyat Nazirliyi, 2023).

Tədqiqat çərçivəsində Qarabağ və Şərqi Zəngəzur regionlarının turizm inkişaf xüsusiyyətləri beynəlxalq postmünaqişə regionlarının təcrübəsi ilə müqayisəli şəkildə təhlil edilmişdir. Müqayisəli təhlil metodu regional turizm inkişaf modellərinin oxşar və fərqli cəhətlərini üzə çıxarmağa, eyni zamanda beynəlxalq təcrübədən çıxarılan nəticələrin Azərbaycan reallığına uyğunlaşdırılmasına imkan yaratmışdır (Hall, 2019).

Tədqiqatın obyekti işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur regionlarında turizm sektorunun formalaşma və inkişaf prosesləridir.

Tədqiqatın predmeti isə bu regionlarda turizm infrastrukturunun (nəqliyyat, yerləşmə, rekreasiya, xidmət və rəqəmsal komponentlər) formalaşması və turizmin idarə edilməsi mexanizmləridir.

Obyekt və predmetin bu şəkildə müəyyənləşdirilməsi tədqiqatın fokusunun yalnız resurs potensialına deyil, eyni zamanda institusional və idarəetmə aspektlərinə yönəlməsini təmin edir.

Araşdırmada istifadə olunan əsas məlumat mənbələri aşağıdakılardır:

Azərbaycan Respublikasının Prezidentinin Qarabağ və Şərqi Zəngəzur regionları ilə bağlı rəsmi fərman və sərəncamları (2021–2024), Dövlət Turizm Agentliyinin turizmin inkişafı üzrə strateji sənədləri, İqtisadiyyat Nazirliyinin regional inkişaf konsepsiyaları və hesabatları, Qarabağ və Şərqi Zəngəzurun turizm potensialına dair yerli alimlərin elmi məqalə və

monoqrafiyaları (Dargahov, 2021; Dargahov, 2022; Dargahov, 2023a; Dargahov, 2023b), Turizm planlaşdırılması və regional inkişaf mövzusunda beynəlxalq elmi ədəbiyyat (Hall, 2019; Sharpley, 2020).

Bu mənbələrin seçilməsi tədqiqatın etibarlılığını və elmi əsaslılığını təmin etmək məqsədi daşıyır.

Tədqiqatın əsas məhdudiyyətlərindən biri Qarabağ və Şərqi Zəngəzur regionlarında turizm fəaliyyətinin hələ ilkin mərhələdə olması və statistik məlumatların məhdudluğudur. Bundan əlavə, təhlükəsizlik və məskunlaşma proseslərinin davam etməsi sahə tədqiqatlarının aparılmasını çətinləşdirir.

Bununla belə, desk research və normativ sənədlərin analizi əsasında əldə edilən nəticələr mövcud mərhələdə regionun turizm inkişaf perspektivlərini elmi əsaslarla qiymətləndirməyə imkan verir və gələcək empirik tədqiqatlar üçün metodoloji baza yaradır.

Qarabağ və Şərqi Zəngəzur regionlarında turizmin inkişafı üçün konseptual model sxemi

Konseptual Modelin Struktur Analizi

Mərhələ	Səviyyə	Əsas Fokus İstiqamətləri	Detallar və Komponentlər
I. Strateji çərçivə	**Makrosəviyyə**	Dövlət Siyasəti və Normalar	Prezident fərmanları, postmünaqişə reinteqrasiyası, təhlükəsizlik və beynəlxalq standartlar.
II. Potensialın qiymətləndirilməsi	**Mezosəviyyə**	Resurs və İrs	Təbii landşaft, mineral sular, tarixi şəhərlər (Şuşa, Laçın və s.) və turizm növlərinin təsnifatı.
III. Fiziki quruculuq	**İnfrastruktur**	Logistika və Texnologiya	Yollar, hava limanları, "Ağıllı" kənd/şəhər konsepsiyası, otellər və rəqəmsal xidmət şəbəkəsi.
IV. İdarəetmə modeli	**Mikrosəviyyə**	İnstitusional Mexanizm	Dövlət-özəl tərəfdaşlığı (PPP), investorların cəlbi və yerli icra orqanları ilə koordinasiya.
V. Sosial-iqtisadi təsir	**Nəticə**	Dayanıqlı İnkişaf	Yeni iş yerləri, əhalinin qayıdışı (Böyük Qayıdış), iqtisadi artım və ekoloji tarazlıq.

Mənbə: Hall (2019), Sharpley (2020), Abbasov (2022) və Dargahovun (2023a, 2023b) tədqiqatları, habelə rəsmi hesabatlar əsasında müəllif tərəfindən hazırlanmışdır.

Təklif olunan konseptual model postmünaqişə şəraitində turizmin inkişafını çoxsəviyyəli və inteqrasiya olunmuş proses kimi təqdim edir. Modeldə dövlət siyasəti və normativ-hüquqi baza ilkin hərəkətverici qüvvə kimi çıxış edir və resurs potensialının səmərəli istifadəsi üçün institusional çərçivə yaradır (Hall, 2019; Abbasov, 2022).

Resurs potensialı mərhələsində Qarabağ və Şərqi Zəngəzur regionlarının təbii, mədəni və rekreasiya üstünlükləri turizm infrastrukturunun formalaşdırılması üçün əsas baza rolunu oynayır (Dargahov, 2023a; Dargahov, 2023b). İnfrastruktur mərhələsində isə nəqliyyat, yerləşmə və xidmət obyektlərinin yaradılması turizmin praktiki reallaşmasını təmin edir.

Modelin əsas yenilikçi cəhəti idarəetmə mexanizmlərinin mərkəzi mövqedə yerləşdirilməsidir. Dövlət–özəl sektor tərəfdaşlığı, institusional koordinasiya və davamlı idarəetmə yanaşmaları turizmin uzunmüddətli inkişafını təmin edən əsas alətlər kimi çıxış edir (Sharpley, 2020). Nəticə indikatorları vasitəsilə əldə edilən sosial-iqtisadi təsirlər geribildirim mexanizmi yolu ilə sistemə qaytarılır və modelin adaptivliyini artırır.

NƏTİCƏ VƏ MÜZAKİRƏ

Qarabağ və Şərqi Zəngəzur regionlarında turizm potensialının qiymətləndirilməsi

Aparılmış təhlil nəticələri göstərir ki, işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur regionları turizmin inkişafı baxımından Azərbaycanın ən perspektivli ərazilərindən biri hesab edilə bilər. Bu regionlar zəngin təbii-landşaft müxtəlifliyi, biomüxtəliflik, balneoloji və iqlim ehtiyatları, eləcə də yüksək tarixi-mədəni irs potensialı ilə seçilir. Ədəbiyyat icmalında da qeyd edildiyi kimi, bu xüsusiyyətlər ekoturizm, sağlamlıq turizmi, mədəni və kreativ turizm növlərinin inkişafı üçün əlverişli zəmin yaradır (Dargahov, 2023a; Dargahov, 2023b).

Tədqiqat nəticələri təsdiq edir ki, Qarabağ və Şərqi Zəngəzur regionlarının turizm potensialı yalnız resurs zənginliyi ilə deyil, həm də coğrafi mövqeyi və strateji əhəmiyyəti ilə xarakterizə olunur(Dargahov, 2023a; Dargahov, 2023b). Regionların dağlıq əraziləri, təbii parklar, mineral sular və əlverişli iqlim şəraiti sağlamlıq və ekoturizm üçün geniş imkanlar açır. Eyni zamanda Şuşa, Ağdam və digər tarixi şəhərlər mədəni turizm destinasiyaları kimi formalaşmaq potensialına malikdir.

Bu nəticələr beynəlxalq tədqiqatlarda irəli sürülən tezislərlə üst-üstə düşür. Hall (2019) və Sharpley (2020) postmünaqişə ərazilərində turizmin inkişafının əsas şərti kimi resurs potensialının sistemli şəkildə qiymətləndirilməsini və planlaşdırılmasını ön plana çəkirlər.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının turizm potensialının kəmiyyət göstəriciləri ilə qiymətləndirilməsi, regionun bərpa prosesindəki rolunu və iqtisadi perspektivlərini anlamaq üçün vacibdir. Aşağıdakı cədvəldə rəsmi statistikaya və proqnozlaşdırılan hədəflərə əsaslanan əsas göstəricilər əks olunmuşdur.

Qarabağ və Şərqi Zəngəzur regionlarının turizm potensialı: kəmiyyət göstəriciləri

Göstərici	Qarabağ İqtisadi Rayonu	Şərqi Zəngəzur İqtisadi Rayonu	Cəmi / Ümumi hədəf
Müalicəvi su mənbələri (Termal)	Turşsu, Şəki (Xankəndi yaxınlığı)	İstisu (Kəlbəcər), Minkənd (Laçın)	30-dan çox əsas mənbə
Hava Limanları (Beynəlxalq)	Füzuli (İstifadədə)	Zəngilan (İstifadədə), Laçın (Tikilir)	3 Beynəlxalq Hava Limanı
Meşə örtüyü (Hektar)	~130,000 ha	~110,000 ha	~240,000-250,000 ha
Tarixi-Memarlıq Abidələri (qeydiyyatda olan)	~400+ (Şuşa Qalası, Pənahəli xan sarayı, Gəncəsər monastırı vəs.)	~300+ (Xudafərin körpüləri, Sultan Allahverdi hamamı və s.)	700-dən çox rəsmi qeydiyyatlı abidə

Mənbə: Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası, Dövlət Statistika Komitəsi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Dövlət Turizm Agentliyinin rəsmi məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Turizm infrastrukturunun formalaşması üzrə əsas nəticələr

Araşdırma göstərir ki, Qarabağ və Şərqi Zəngəzur regionlarında turizm infrastrukturunun formalaşması hələ ilkin və keçid mərhələsindədir. Bununla belə, son illərdə dövlət tərəfindən həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma layihələri turizmin inkişafı üçün mühüm baza formalaşdırmışdır. Xüsusilə nəqliyyat infrastrukturu – avtomobil yolları, hava limanları və kommunikasiya xətləri – regionun turizm baxımından əlçatanlığını əhəmiyyətli dərəcədə artırmışdır.

Tədqiqat nəticələri göstərir ki, yerləşmə infrastrukturu və rekreasiya obyektləri hələ tam formalaşmasa da, dövlət–özəl sektor tərəfdaşlığı çərçivəsində bu istiqamətdə ilkin addımlar atılmaqdadır. Abbasovun (2022) vurğuladığı kimi, işğaldan azad edilmiş ərazilərdə turizm infrastrukturu digər sahələrlə müqayisədə daha yüksək multiplikativ effekt yarada bilər və regionun sosial-iqtisadi inkişafını sürətləndirə bilər.

Therefore, the integration of digital technologies and English language teaching plays a crucial role in supporting the development of tourism in Mingachevir. By combining language competence with digital literacy, future professionals can better adapt to the demands of the modern tourism industry and contribute to its sustainable growth.

Digital Transformation in Tourism and Hospitality: Digital transformation refers to the use of digital technologies to improve business processes and customer experiences. In tourism, this includes online booking platforms, mobile travel applications, and data-driven decision-making systems (Buhalis & Law, 2008, 609-627).

One of the key elements of digital transformation is the use of big data. Tourism companies analyze customer preferences, travel patterns, and feedback to provide personalized services. Artificial intelligence is also widely used in customer service, particularly through chatbots and virtual assistants.

In Mingachevir, these technologies are gradually being adopted. Property owners use social media platforms and online booking websites to promote their services. This shift from traditional to digital marketing has increased visibility and accessibility.

Smart Tourism Systems and Data-Driven Decisions: Smart tourism systems rely on advanced technologies to enhance the tourist experience. These systems collect and analyze data in real time, allowing service providers to make informed decisions.

For example, accommodation providers in Mingachevir can adjust pricing strategies based on demand patterns. They can also improve services by analyzing customer reviews and feedback.

However, effective use of these systems requires both digital skills and language competence. Since most digital tools operate in English, language proficiency becomes essential for understanding and utilizing these technologies.

The Role of English Language in Digital Communication: English serves as the primary language of global communication in tourism and hospitality. It is widely used in digital platforms, customer service interactions, marketing materials, and automated communication systems. In the era of digital transformation, English has become not only a medium of communication but also a strategic tool for attracting international tourists and ensuring service quality.

In Mingachevir, English is increasingly used in various aspects of tourism services, particularly through digital channels. For example, property descriptions on booking platforms such as short-term rental advertisements often include English versions to reach a wider international audience. A typical listing may include descriptions such as *"comfortable riverside guest house with free Wi-Fi, air conditioning, and city view"*, which allows foreign tourists to easily understand the service conditions and make informed decisions.

Furthermore, communication with foreign guests is often conducted in English through messaging applications and booking platforms. For instance, guest house owners respond to inquiries such as *"Is early check-in available?"* or *"Do you offer airport transfer services?"* in English to ensure clarity and professionalism. This direct communication reduces misunderstandings and increases service efficiency.

In addition, English is widely used in responding to customer reviews and inquiries on platforms like Booking.com or Airbnb. Positive and polite responses such as *"Thank you for your feedback, we are glad you enjoyed your stay"* contribute to building a trustworthy online reputation, which is essential in the digital tourism market. Even negative reviews require careful and polite English responses, which reflect the quality of service management. (Dolžan, D. (2020).

Clear and effective communication in English plays a crucial role in building trust between service providers and tourists. It significantly improves customer satisfaction, as international visitors feel more confident when they can easily understand information and receive prompt responses. Moreover, positive communication increases the likelihood of favorable online reviews, which are highly influential in digital tourism platforms where decision-making is often based on ratings and comments.

Therefore, English is not only a linguistic tool but also a key factor in enhancing competitiveness, improving service quality, and ensuring successful integration into the global digital tourism industry, especially in emerging destinations such as Mingachevir.

Artificial Intelligence, Automation, and Language Use: Artificial intelligence has become an integral part of digital tourism. Chatbots and automated systems are used to provide instant responses to customer inquiries.

These systems are typically designed to operate in English, which further emphasizes the importance of the language. Although translation tools are available, they are not always accurate and may lead to misunderstandings.

Therefore, direct communication in English remains more reliable and effective (Ivanov & Webster, 2017, 41-67).

Sustainable and Flexible Tourism Models: Digital transformation also supports sustainable tourism development. Online systems reduce the need for physical resources and improve effi-

ciency. In Mingachevir, digital platforms help optimize accommodation usage and reduce operational costs. Flexible booking systems allow tourists to plan their trips more efficiently. English plays a key role in promoting sustainable tourism by enabling communication with a wider audience and facilitating information sharing.

Implications for English Language Teaching: The increasing importance of English in tourism highlights the need for specialized language education. English for Specific Purposes (ESP) focuses on teaching language skills relevant to professional contexts. Teachers should incorporate digital tools such as online simulations, virtual tours, and interactive platforms into their teaching methods. This approach prepares students for real-life communication in the tourism industry (Hutchinson & Waters, 1987).

Challenges and Opportunities: Despite the numerous benefits of digital transformation in the tourism and hospitality industry, several important challenges still remain, particularly in developing destinations such as Mingachevir. One of the main challenges is the language barrier. Many local service providers, especially owners of guest houses and short-term rental apartments, may have limited English proficiency. This can lead to misunderstandings in communication with international tourists, especially when dealing with booking details, pricing, check-in procedures, or special customer requests.

Another significant challenge is the lack of digital skills among some tourism operators. Although digital platforms such as Booking.com, Airbnb, and social media channels provide great opportunities for visibility, not all users are fully capable of managing these tools effectively. For example, difficulties in writing professional property descriptions in English, responding to online reviews, or using automated messaging systems can reduce the overall quality of service presentation. However, these challenges also create important opportunities for professional and economic development. Individuals and service providers who successfully develop both English language proficiency and digital competencies can gain a strong competitive advantage in the tourism market. In particular, the ability to communicate fluently in English and manage digital platforms effectively allows providers to reach a wider international audience and increase their booking rates.

In Mingachevir, improving English proficiency among local tourism providers can significantly enhance the city's attractiveness for foreign visitors. Simple but clear communication, professional online presentation, and timely responses to customer inquiries can directly influence tourists' decisions and satisfaction levels. Moreover, training programs and educational initiatives in universities, such as Mingachevir State University, can play an important role in preparing future specialists who are competent in both language and digital technologies. Therefore, while challenges such as language barriers and limited digital literacy exist, they simultaneously open new pathways for innovation, skill development, and sustainable tourism growth in emerging destinations like Mingachevir.

CONCLUSION

The digital transformation of tourism and hospitality has created new opportunities and challenges for the industry. The case of Mingachevir demonstrates that English plays a crucial role in this process. As tourism becomes increasingly digital, the importance of English will continue to grow. Therefore, investing in language education and digital skills is essential for sustainable development and global integration.

REFERENCES

1. Buhalis, D., & Law, R. (2008). Progress in information technology and tourism management. *Tourism Management*, 29(4), 609–623.
2. Hutchinson, T., & Waters, A. (1987). *English for Specific Purposes*. Cambridge: Cambridge University Press.
3. Ivanov, S., & Webster, C. (2017). Adoption of robots in tourism and hospitality. *International Journal of Contemporary Hospitality Management*, 29(1), 45–67.
4. Səmədova, R. A. (2024). Təhsilin ictimai münasibətlərə təsiri. Bakı: SƏS Nəşriyyatı, 393–407.
5. Yılmaz, E. (2021). Türkiye'de kapsayıcı eğitim. Ankara Universiteti Dergisi, 41–46.
6. Dolžan, D. (2020). *English for Tourism and Hospitality Industry*. London: Routledge.

AĞILLI TURİZM SİSTEMLƏRİNDƏ BİOMİMETİK YANAŞMALARIN VƏ SÜNİ İNTELLEKT MODELLƏRİNİN İNNOVATİV TƏTBİQİ

Innovative Application Of Biomimetic Approaches And Artificial Intelligence Models In Smart Tourism Systems

ASƏF RUŞANOV[1]
Asaf Rushanov[1]
asefrusanov@ndu.edu.az
https://orcid.org/0009-0006-8326-0722

SAMİRƏ MUSTAFAYEVA[1]
Samira Mustafayeva[1]
samire.mustafayeva@ndu.edu.az
https://orcid.org/0009-0006-0552-8172

[1]*Naxçıvan Dövlət Universiteti*
[1]*Nakhchivan State University*

XÜLASƏ

Müasir turizm sənayesi rəqəmsal transformasiya prosesləri ilə sürətlə dəyişir və bu dəyişikliklər yeni idarəetmə modellərinin formalaşmasını zəruri edir. Bu məqalə ağıllı turizm sistemlərində biomimetik yanaşmaların və süni intellekt modellərinin tətbiq imkanlarını araşdırır. Biomimetika təbiətdə mövcud olan sistem və proseslərin texnologiyaya uyğunlaşdırılması ilə innovativ həllər təqdim edir. Süni intellekt isə böyük verilənlərin emalı, qərarvermə proseslərinin optimallaşdırılması və istifadəçi təcrübəsinin fərdiləşdirilməsi baxımından mühüm rol oynayır. Araşdırmada göstərilir ki, bu iki yanaşmanın inteqrasiyası turizm sistemlərinin daha səmərəli, çevik və dayanıqlı olmasına imkan yaradır. Xüsusilə turist axınının idarə olunması, resursların optimal bölüşdürülməsi və xidmət keyfiyyətinin artırılması sahələrində mühüm nailiyyətlər əldə olunur. Biomimetik modellər adaptasiya mexanizmlərini təqlid edərək sistemlərin dəyişən şərtlərə uyğunlaşmasını asanlaşdırır, süni intellekt əsaslı alqoritmlər isə qərarların daha dəqiq və sürətli verilməsini təmin edir. Nəticə olaraq, biomimetika və süni intellektin inteqrasiyası ağıllı turizm sistemlərinin gələcək inkişafında strateji əhəmiyyət daşıyır və dayanıqlı turizm modellərinin formalaşmasına töhfə verir.

Açar sözlər: *Ağıllı turizm, süni intellekt, biomimetika, innovativ tətbiqlər, adaptiv sistemlər.*

ABSTRACT

The modern tourism industry is rapidly changing through processes of digital transformation, necessitating the development of new management models. This article explores the potential applications of biomimetic approaches and artificial intelligence models in smart tourism systems. Biomimetics provides innovative solutions by adapting natural systems and processes to technology, while artificial intelligence plays a crucial role in processing big data, optimizing decision-making, and personalizing user experiences. The study demonstrates that integrating these two approaches enables tourism systems to become more efficient, flexible, and sustainable. Significant achievements are observed particularly in managing tourist flows, optimizing resource distribution, and enhancing service quality. Biomimetic models, by imitating adaptive mechanisms, facilitate system adjustment to changing conditions, whereas AI-based algorithms ensure faster and more accurate decision-making. In conclusion, the integration of biomimetics and artificial intelligence holds strategic importance for the future development of smart tourism systems and contributes to the formation of sustainable tourism models.

Keywords: *Smart tourism, artificial intelligence, biomimetics, innovative applications, adaptive systems.*

GİRİŞ

Müasir dövrdə turizm sənayesi qlobal iqtisadiyyatın ən dinamik sahələrindən biri kimi sürətli dəyişikliklərə məruz qalır. Texnoloji inkişaf, xüsusilə rəqəmsal transformasiya prosesləri turizm xidmətlərinin təşkilində və idarə olunmasında yeni yanaşmaların formalaşmasına şərait yaradır. Bu dəyişikliklər nəticəsində ənənəvi turizm modelləri tədricən daha çevik, məlumat əsaslı və intellektual sistemlərlə əvəz olunur. Ağıllı turizm anlayışı məhz bu transformasiyanın məhsulu kimi meydana çıxmış və müasir idarəetmə strategiyalarında mühüm yer tutmuşdur [1].

Süni intellekt texnologiyaları bu prosesin əsas hərəkətverici qüvvələrindən biri hesab olunur. Böyük həcmli məlumatların emalı, istifadəçi davranışlarının təhlili və proqnozlaşdırma

imkanları turizm xidmətlərinin fərdiləşdirilməsinə şərait yaradır. Bu yanaşma turistlərin ehtiyaclarının daha dəqiq müəyyən edilməsinə və xidmət keyfiyyətinin yüksəldilməsinə imkan verir. Eyni zamanda qərarvermə proseslərinin avtomatlaşdırılması idarəetmədə səmərəliliyi artırır.

Biomimetika isə təbiətdə mövcud olan sistemlərin və davranış mexanizmlərinin texnoloji modellərə tətbiqi ilə əlaqədar innovativ bir elmi yanaşmadır. Təbiətdəki adaptasiya, optimallaşma və özünü tənzimləmə mexanizmləri turizm sistemlərinin daha dayanıqlı və çevik olmasına imkan verir. Bu yanaşma xüsusilə mürəkkəb sistemlərin idarə olunmasında effektiv həllər təqdim edir . Süni intellektlə birləşdirildikdə isə daha güclü nəticələr ortaya çıxarır [4].

Ağıllı turizm sistemlərində bu iki istiqamətin inteqrasiyası yeni inkişaf modelinin formalaşmasına zəmin hazırlayır. Turist axınının idarə olunması, resursların optimallaşdırılması və xidmət keyfiyyətinin artırılması kimi sahələrdə biomimetik prinsiplər və süni intellekt alqoritmləri birgə tətbiq edilir. Bu sintez nəticəsində sistemlər daha adaptiv, dayanıqlı və proqnozlaşdırıla bilən xarakter alır.

Müasir turizm sənayesində məlumatların düzgün idarə olunması xüsusi əhəmiyyət kəsb edir. Süni intellekt əsaslı analitik sistemlər böyük verilənlər bazasından istifadə edərək qərarvermə proseslərini daha dəqiq və sürətli edir. Bununla yanaşı biomimetik modellər enerji səmərəliliyi və resurs optimallaşdırılması prinsiplərini texnoloji sistemlərə tətbiq edir. Bu iki yanaşmanın sinərgiyası turizm idarəetməsini daha effektiv bir müstəviyə daşıyır.

Ağıllı turizm anlayışı təkcə texnoloji inkişaf deyil, həm də sosial və iqtisadi transformasiyanı əhatə edir. Turistlərin davranış modellərinin öyrənilməsi, mədəni və coğrafi faktorların nəzərə alınması daha effektiv turizm siyasətinin formalaşdırılmasına kömək edir. Bu yanaşma dayanıqlı inkişaf prinsiplərinə uyğun olaraq ekoloji və iqtisadi balansın qorunmasına xidmət edir [7].

Biomimetika və süni intellektin birlikdə tətbiqi turizm sahəsində innovativ idarəetmə modellərinin yaranmasına təkan verir. Bu modellər dəyişən şəraitə uyğunlaşa bilən, özünü yeniləyən və yüksək effektivliyə malik sistemlərin qurulmasına imkan yaradır. Beləliklə, turizm sənayesi daha rəqabətli və davamlı bir struktura çevrilir. Süni intellektin öyrənmə qabiliyyəti ilə biomimetikanın adaptasiya mexanizmləri bir araya gəldikdə sistem müstəqil şəkildə öz işini optimallaşdırmaq iqtidarına çatır.

Rəqəmsal transformasiya kontekstində turizm xidmətlərinin keyfiyyəti yeni ölçütlərlə dəyərləndirilir. Artıq yalnız fiziki infrastruktur deyil, məlumat infrastrukturu da turizm müəssisələrinin rəqabət üstünlüyünü müəyyən edir. Bu çərçivədə ağıllı şəhər anlayışı ilə ağıllı turizm anlayışı arasında sıx əlaqə formalaşır. Hər iki konsepsiya məlumat axınlarının idarə olunması, xidmət şəbəkələrinin optimallaşdırılması və istifadəçi məmnuniyyətinin artırılması kimi ortaq məqsədlər üzərində köklənir.

Elmi ədəbiyyatda biomimetika ilə süni intellektin qovşağında aparılan tədqiqatlar hələ nisbətən az sayda olmaqla birlikdə sürətlə genişlənən bir sahəni təmsil edir. Bu sahədəki boşluğun doldurulması turizm elminin nəzəri bazasını genişləndirir. Eyni zamanda praktik tətbiq baxımından da yeni üfüqlər açır. Mövcud araşdırmalar göstərir ki, biomimetik alqoritmlərin süni intellekt modellərindəki tətbiqi ənənəvi optimallaşdırma yanaşmalarına nisbətən daha güclü nəticələr verir.

Bu tədqiqat həmin elmi boşluğu nəzərə alaraq, ağıllı turizm sistemlərində biomimetika-süni intellekt inteqrasiyasının konseptual çərçivəsini müzakirə etməyi hədəfləyir. Məqalə giriş, metod, müzakirə və nəticə bölmələrindən ibarətdir. Giriş bölməsindən sonra araşdırmanın metodoloji əsasları, daha sonra isə empirik ədəbiyyat işığında müzakirə aparılır. Nəticədə isə əldə olunan anlayışlar ümumiləşdirilərək gələcək tədqiqatlara tövsiyələr verilir.

METOD VƏ METODOLOGİYA


Bu tədqiqat keyfiyyət yönümlü yanaşmaya əsaslanır və ağıllı turizm sistemlərində biomimetik yanaşmaların və süni intellekt modellərinin tətbiq imkanlarını nəzəri baxımdan araşdırır. Əsas metod kimi ədəbiyyatın sistemli təhlili seçilmişdir. Bu çərçivədə son illərdə nəşr olunmuş elmi məqalələr, beynəlxalq təşkilatların hesabatları və akademik araşdırmalar toplanaraq analiz edilmişdir.

Məlumatların seçilməsində aktuallıq, elmi etibarlılıq və mövzuya uyğunluq əsas meyarlar kimi qəbul olunmuşdur. Seçilən mənbələr əsasən süni intellekt, biomimetika və ağıllı turizm sahələrini əhatə edir. Bu mənbələrin müəyyən edilməsində Google Scholar, Scopus və Web of Science kimi akademik verilənlər bazalarından istifadə olunmuşdur.

Təhlil mərhələsində müqayisəli analiz və məzmun analizi metodlarından yararlanılmışdır. Bu yanaşmalar süni intellekt və biomimetika modellərinin funksional xüsusiyyətlərini müəyyən etməyə və onların turizm sistemlərindəki tətbiq sahələrini qiymətləndirməyə imkan vermişdir.

Bundan əlavə sistem yanaşması tətbiq edilərək turizm sistemi vahid struktur kimi nəzərdən keçirilmişdir. Bu baxış texnoloji modellərin qarşılıqlı əlaqəsini və inteqrasiya imkanlarını daha aydın göstərməyə şərait yaratmışdır. Sistem yanaşması biomimetik prinsiplərin turizm ekosisteminə tətbiqini konseptual olaraq əsaslandırmağa da imkan verir.

Ümumilikdə istifadə olunan metodologiya tədqiqatın elmi əsaslı və sistemli şəkildə aparılmasını təmin edir. Bu yanaşma nəticəsində əldə olunan tapıntıların etibarlılığı artır və sahəyə dair bütöv bir analitik çərçivə formalaşır.



Şəkil 1. Destinasiya idarəçiliyində adaptiv, biomimetik və inteqral hesablama sistemləri çərçivəsi (müəlliflər tərəfindən hazırlanmışdır)

MÜZAKİRƏ

Ağıllı turizm sistemləri müasir dövrdə rəqəmsal texnologiyaların inkişafı nəticəsində formalaşan yeni idarəetmə modelidir. Bu sistemlər məlumatların toplanması, təhlili və tətbiqi əsasında daha səmərəli qərarvermə prosesini təmin edir. Xüsusilə süni intellekt

texnologiyalarının tətbiqi turizm sahəsində xidmətlərin keyfiyyətini yüksəldir və idarəetməni çevikləşdirir. Ağıllı turizmin əsas dayaqlarından birini məhz belə texnoloji inteqrasiya təşkil edir.

Süni intellektin ən əhəmiyyətli üstünlüklərindən biri böyük həcmdə məlumatı qısa müddətdə emal etmə qabiliyyətidir. Turizm sektorunda bu imkan turist davranışlarının öyrənilməsi, tələbatın proqnozlaşdırılması və resursların düzgün planlaşdırılması üçün geniş şəkildə istifadə olunur [2]. Bu yanaşma həm iqtisadi səmərəliliyi artırır, həm də xidmət prosesindəki insan xətalarını minimuma endirir.

Biomimetika isə təbiətdəki balans, uyğunlaşma və özünü tənzimləmə mexanizmlərini texnologiyaya transfer edən elmi istiqamətdir. Turizm sistemlərinin mürəkkəb, çoxdəyişənli xarakteri bu prinsiplər üçün ideal tətbiq sahəsi yaradır . Biomimetik modellər sistemin müxtəlif daxili və xarici stimullara qarşı uyğun reaksiya verməsini mümkün edir.

Şəkil 1-də göstərilən konceptual çərçivə bu inteqrasiyanın əsas komponentlərini vizual olaraq əks etdirir. Sol yarımkürə süni intellektin funksiyalarını — məlumat analitikası, strategik qərar qəbulu, turist axınının dinamik idarəsi və fərdiləşdirilmiş təcrübələrin dizaynını — təmsil edir. Sağ yarımkürə isə biomimetik hesablamanın əsaslarını — təbiətdən ilhamlanan modellər, dayanıqlı resurs idarəçiliyi, adaptiv sistemlər və naviqasiyanı — əhatə edir. Bu iki yarımkürənin sintezi ağıllı turizm sistemlərinin əsas arxitekturasını formalaşdırır.

Ağıllı turizm sistemlərində biomimetik yanaşmaların tətbiqi xüsusilə resursların idarə olunmasında mühüm rol oynayır. Məsələn, qarışqa koloniyasının yem axtarışından ilhamlanan optimallaşdırma alqoritmləri turist marşrutlarının planlaşdırılmasında uğurla tətbiq olunur. Bu cür biomimetik hesablama üsullarının ənənəvi metodlara nisbətən üstünlükləri sənədləşdirilmişdir. Nəticədə həm turist sıxlığı azalır, həm də xidmət keyfiyyəti yüksəlir.

Süni intellekt əsaslı alqoritmlər real vaxt rejimində qərarvermə proseslərini dəstəkləyir. Bu sistemlər daxil olan məlumatları analiz edərək ən uyğun variantları tövsiyə edir. Turizm idarəetməsindəki süni intellekt tətbiqlərinin sistemli araşdırması bu texnologiyaların xidmət keyfiyyəti və idarəetmə effektivliyinə müsbət təsirini sübut edir . Tələb və təklifin dinamik xarakter daşıdığı turizm sektorunda bu xüsusiyyət xüsusi dəyər qazanır.

Biomimetika və süni intellektin birgə tətbiqi yeni nəsil ağıllı turizm modellərinin əsasını formalaşdırır. Bu inteqrasiya sistemlərin adaptasiya qabiliyyətini artırır, dəyişən mühitə daha tez uyğunlaşmasını təmin edir. Rəqəmsal transformasiya kontekstində bu cür inteqrativ yanaşmaların vacibliği xüsusi vurğulanır. Turizm müəssisələri nəticədə rəqabətsevər, çevik və davamlı qurumlara çevrilir.

Bu yanaşmalar yalnız texnoloji inkişaf deyil, idarəetmə fəlsəfəsinin yenidən qurulmasını da nəzərdə tutur. Ənənəvi idarəetmə modellərindən fərqli olaraq, burada qərarlar daha çox məlumat analizi və alqoritmik nəticələr əsasında qəbul edilir. Bu isə proseslərin şəffaflığını artırır, subyektiv qiymətləndirmələrin payını isə azaldır.

İstifadəçi təcrübəsinin fərdiləşdirilməsi ağıllı turizm sistemlərinin ən önəmli çıxışlarından birini təşkil edir. Süni intellekt turistlərin maraqlarını, davranış şablonlarını və əvvəlki seçimlərini analiz edərək onlara fərdiləşdirilmiş xidmətlər təklif edir. Bu imkanın turizmin gələcəyi üçün strateji əhəmiyyəti beynəlxalq sənədlərdə xüsusi olaraq vurğulanır. Müştəri məmnuniyyəti artan bu modeldə turizm xidmətlərinin ümumilikdə keyfiyyəti də yüksəlir.

Biomimetik prinsiplər sistemlərin davamlılığını struktural baxımdan gücləndirir. Ekosistemlər kimi öz-özünü tənzimləyən modellər turizm infrastrukturlarına tətbiq olunduqda həm enerji səmərəliliyi, həm də resurs idarəetməsi baxımından əhəmiyyətli qənaətlər əldə edilir. Dayanıqlı turizm inkişafı çərçivəsindəki bu potensial 2030 Agendası kontekstində dəyərləndirilir [7]. Ekoloji balansın qorunması bu yanaşmanın ən güclü tərəflərindən birini təşkil edir.

Ağıllı turizm konsepsiyası eyni zamanda rəqəmsal transformasiyanın daha geniş bir hissəsi olaraq qiymətləndirilir. Bu transformasiya turizm sektorunda yeni biznes modellərinin yaranmasını sürətləndirir. Turizm iqtisadiyyatı baxımından bu dəyişikliklərin iqtisadi nəticələri ətraflı şəkildə araşdırılmışdır . Məlumat texnologiyalarının sürətlənən inkişafı isə bu transformasiyanın daha da dərinləşməsini güvəncə alır.

Araşdırmalar göstərir ki, süni intellekt və biomimetika əsaslı sistemlər turizm sahəsindəki risklərin idarə olunmasına da mühüm töhfə verir. Turist axınındakı ani dəyişikliklər, hava şəraitinin qeyri-müəyyənliyi, tələb fərqləri kimi riskli hallar sistem tərəfindən əvvəlcədən modelləşdirilə bilir. Bu isə qərarvermə prosesini daha etibarlı edir.

Ekoloji dayanıqlılıq baxımından da bu texnologiyaların rolu əhəmiyyətlidir. Resursların düzgün paylaşdırılması, karbon izi izlənilməsi və ətraf mühitə təsirin minimuma endirilməsi ağıllı turizm sistemlərinin prioritet hədəflərindəndir. Texnoloji inteqrasiyanın bu hədəflərə çatmağı xeyli asanlaşdırdığı müəyyən olunmuşdur [8]. Beləliklə, turizm sektoru həm iqtisadi, həm də ekoloji baxımdan daha sorumlu bir model üzrə fəaliyyət göstərir.

Nəticə olaraq müzakirə olunan materiallar göstərir ki, biomimetika və süni intellektin inteqrasiyası ağıllı turizm sistemlərinin inkişafında həm nəzəri, həm də praktik baxımdan çox önəmli bir rol oynayır. Bu yanaşma texnoloji, iqtisadi və ekoloji baxımdan üçlü fayda yaradır. Gələcəkdə aparılacaq tədqiqatlar bu sahədəki innovativ potensialı daha da genişləndirib real turizm sistemlərindəki tətbiqlərini artıracaqdır .

NƏTİCƏ

Aparılan təhlil göstərir ki, süni intellekt və biomimetika əsaslı yanaşmalar ağıllı turizm sistemlərinin inkişafında strateji əhəmiyyət daşıyır. Bu iki istiqamətin birgə tətbiqi turizm sektorunda idarəetməni daha çevik, dəqiq və davamlı edir. Süni intellekt texnologiyaları məlumatların emalı, proqnozlaşdırma və qərarvermə proseslərini sürətləndirərək xidmət keyfiyyətini artırır. Biomimetik yanaşmalar isə təbiətdəki adaptasiya mexanizmlərini model kimi istifadə edərək sistemlərin dayanıqlığını gücləndirir.

Araşdırma nəticəsində müəyyən olunur ki, bu iki yanaşmanın inteqrasiyası ağıllı turizm sistemlərində resursların daha səmərəli idarə olunmasına, turist axınının optimallaşdırılmasına və istifadəçi təcrübəsinin yaxşılaşdırılmasına imkan verir. Bu da ümumi sistemin həm iqtisadi, həm də funksional baxımdan effektivliyini artırır. Biomimetika və süni intellektin birgə tətbiqi təkcə texnoloji yenilik deyil, həm də turizm sektorunda dayanıqlı inkişaf üçün vacib bir yanaşmadır.

Gələcək tədqiqatlarda bu sahədə daha praktik modellərin hazırlanması, pilot layihələrin həyata keçirilməsi və real turizm sistemlərindəki tətbiqlərinin genişləndirilməsi mühüm istiqamət kimi dəyərləndirilə bilər. Ağıllı turizm sistemlərinin daha da inkişaf etməsi üçün biomimetika ilə süni intellektin sinərgisini dəstəkləyən çoxsahəli əməkdaşlığa ehtiyac duyulur.

ƏDƏBİYYAT SİYAHISI

1. Bostrom, N. (2014). Superintelligence: Paths, dangers, strategies. Oxford University Press.
2. Dwyer, L., Forsyth, P., & Dwyer, W. (2020). Tourism economics and policy. Channel View Publications.
3. European Commission. (2021). Smart tourism destinations: Innovation and digital transformation. Brussels.
4. Goodfellow, I., Bengio, Y., & Courville, A. (2016). Deep learning. MIT Press.

5. Gretzel, U., Sigala, M., Xiang, Z., & Koo, C. (2015). Smart tourism: Foundations and developments. Electronic Markets, 25(3), 179–188.
6. Hall, C. M. (2019). Constructing sustainable tourism development: The 2030 agenda. Journal of Sustainable Tourism, 27(3), 350–365.
7. Holland, J. H. (2012). Signals and boundaries: Building blocks for complex adaptive systems. MIT Press.
8. Passos, L., & Silva, C. (2021). Artificial intelligence in tourism management: A systematic review. Journal of Tourism Futures, 7(3), 245–260.
9. World Tourism Organization (UNWTO). (2023). Artificial intelligence and tourism futures. Madrid: UNWTO.
10. Zhang, L., & Cheng, S. (2020). Biomimicry-inspired computing and AI applications. IEEE Access, 8, 120345–120360.

ƏCƏMİ MEMARLIĞINDA HƏNDƏSİ VƏ NƏBATİ ORNAMENTLƏRİN "OXUNAN MƏTN" KİMİ TƏHLİLİ VƏ TURİZM NARRATİVİNƏ ÇEVRİLMƏSİ

Analysis of geometric and vegetal ornaments in Ajam architecture as a 'readable text' and their transformation into a tourism narrative

BRİLYANT CƏFƏRLİ
Brilyant Jafarli
brilliant1cefer@yahoo.com
https://orcid.org/0009-0008-4149-4293
AMEA Naxçıvan Bölməsi
ANAS Nakhchivan Branch

XÜLASƏ

Bu məqalə XII əsr Azərbaycan memarlığının görkəmli nümayəndəsi Əcəmi Naxçıvaninin memarlıq irsində həndəsi və nəbati ornamentlərin yalnız dekorativ element deyil, çoxqatlı semantik məna daşıyan "oxunan mətn" kimi təhlilinə həsr olunmuşdur. Tədqiqatın məqsədi Əcəmi abidələrində tətbiq olunan həndəsi və nəbati ornamentlərin semiotik və hermenevtik baxımdan şərhini vermək, eləcə də bu ornamentlərin müasir mədəni turizm narrativinə çevrilmə imkanlarını araşdırmaqdır. Metodoloji baxımdan işdə müqayisəli memarlıq təhlili, vizual-semiotik analiz və interpretativ yanaşmadan istifadə edilmişdir. Araşdırma nəticəsində müəyyən edilmişdir ki, Əcəmi memarlığında istifadə olunan dairəvi və çoxbucaqlı həndəsi və nəbati strukturlar kosmik nizam, əbədiyyət və ilahi harmoniya ideyalarını ifadə edən simvolik məna daşıyıcılarıdır. Bu ornamentlər memarlıq məkanını passiv vizual obyekt olmaqdan çıxararaq, mədəni məna ötürən aktiv kommunikasiya vasitəsinə çevirir. Məqalədə həmçinin göstərilir ki, ornamentlərin bu cür "oxunan mətn" kimi təqdim edilməsi müasir turizmdə səthi istehlak modelindən imtina edərək, dərkə əsaslanan dayanıqlı mədəni turizm konsepsiyasının formalaşmasına imkan yaradır. Nəticə etibarilə, Əcəmi Naxçıvani irsinin interpretativ təqdimatı mədəni irsin qorunması ilə yanaşı, onun mənalandırılaraq yaşadılmasına xidmət edən effektiv turizm narrativi yarada bilər.

Açar sözlər: *Əcəmi, memarlıq, ornament, turizm, narrativ*

ABSTRACT

This article is devoted to the analysis of geometric and vegetal ornaments in the architectural heritage of Ajami Nakhchivani, a prominent representative of 12th-century Azerbaijani architecture, not merely as decorative elements but as "readable texts" carrying multilayered semantic meanings. The aim of the study is to provide a semiotic and hermeneutic interpretation of the geometric and vegetal ornaments applied in Ajami's monuments, as well as to explore their potential transformation into contemporary cultural tourism narratives. Methodologically, the research employs comparative architectural analysis, visual-semiotic examination, and interpretative approaches. The findings reveal that the circular and polygonal geometric and vegetal structures used in Ajami's architecture serve as symbolic carriers of ideas such as cosmic order, eternity, and divine harmony. These ornaments transform architectural space from a passive visual object into an active medium of cultural communication. The article further argues that presenting ornaments as "readable texts" enables a shift in modern tourism from superficial consumption models toward a sustainable cultural tourism concept based on comprehension. In conclusion, the interpretative presentation of Ajami Nakhchivani's heritage can generate an effective tourism narrative that not only preserves cultural heritage but also ensures its meaningful continuation through lived experience.

Keywords: *Ajemi, architecture, ornament, tourism, narrative*

GİRİŞ

Orta əsr Azərbaycan memarlığı Şərq tikinti sənətinin ən yüksək estetik və fəlsəfi ifadə formalarından biri kimi formalaşmışdır. Bu dövrün görkəmli nümayəndələrindən olan Əcəmi Naxçıvani tərəfindən yaradılmış memarlıq nümunələri yalnız konstruktiv həll və bədii kamilliyi ilə deyil, həm də dərin ideya-məzmun yükü daşıyan ornamentlər sistemi ilə seçilir. Ənənəvi memarlıq tədqiqatlarında Əcəmi irsi əsasən kompozisiya, texnika və dekorativ zənginlik prizmasından araşdırılmış, ornamentlər isə çox vaxt estetik bəzək elementi kimi təqdim

edilmişdir. Halbuki bu ornamentlər, özündə mürəkkəb simvolik və semantik məna qatlarını ehtiva edir.

Müasir mədəni irs və turizm tədqiqatlarında əsas problemlərdən biri tarixi abidələrin turistə yalnız vizual obyekt kimi təqdim olunması, onların ideya və mənəvi məzmununun isə kölgədə qalmasıdır. Bu yanaşma nəticəsində memarlıq abidəsi "baxılan obyektə", turist isə passiv müşahidəçiyə çevrilir. Dayanıqlı və mədəni əsaslı turizm konsepsiyası isə irsin yalnız qorunmasını deyil, onun dərk edilərək yaşadılmasını tələb edir [7, 68-71]. Bu baxımdan, memarlıq ornamentlərinin məna daşıyıcısı kimi təqdim edilməsi mədəni turizm üçün yeni interpretativ imkanlar açır.

Əcəmi Naxçıvani memarlığında həndəsi və nəbati ornamentlər dekorativ element olmaqdan daha çox, çoxqatlı semiotik və hermenevtik məna daşıyan "oxunan mətn" kimi çıxış edir. Türk mifologiyası ilə birbaşa bağlı olan bu ornamentlər vasitəsilə memarlıq məkanı ideya və düşüncə ötürən kommunikativ sistemə çevrilir və mədəni məna istehsalında aktiv rol oynayır. Həmin məna sisteminin müasir mədəni turizm kontekstində interpretasiyası isə tarixi abidələrin vizual istehlak obyektindən çıxaraq, dərk və təfəkkürə əsaslanan turizm narrativinin formalaşmasına imkan yaradır. Bu yanaşma memarlıqşünaslıqla mədəni turizm arasında konseptual əlaqə yaradaraq, hər iki sahə üçün yeni elmi baxışın meydana gəlməsinə şərait yaradır.

MATERİAL VƏ METODLAR

1. Tədqiqatın obyekti və material bazası

Tədqiqatın əsas obyektini XII əsr Azərbaycan memarlığının görkəmli nümayəndəsi Əcəmi Naxçıvani tərəfindən inşa edilmiş Naxçıvan memarlıq məktəbinə aid türbə abidələrinin ornament sistemi təşkil edir. Araşdırmanın material bazasına memarlıq abidələrinin səthlərində tətbiq olunan həndəsi və nəbati ornament kompozisiyaları, onların konstruktiv elementlərlə qarşılıqlı əlaqəsi, eləcə də ornamentlərin məkan daxilində yerləşmə prinsipləri daxildir. Ornamentlərin seçimi onların semantik yüklənmə potensialı və memarlıq məkanında ideya ötürmə funksiyasının aydın müşahidə olunması meyarlarına əsaslanmışdır. Tədqiqat prosesində ornamentlərin yalnız vizual xüsusiyyətləri deyil, eyni zamanda onların memarlıq bütövlüyündə oynadığı ideya və məna formalaşdırıcı rolu nəzərə alınmışdır. Bu baxımdan ornamentlər memarlıq kompozisiyasının ayrılmaz semantik komponenti kimi qiymətləndirilmişdir.

2. Həndəsi ornamentlərin analitik təhlil üsulları

Həndəsi ornamentlərin təhlilində struktur-kompozisiya analizi əsas metod kimi tətbiq edilmişdir. Bu mərhələdə ornamentlərin quruluşunda istifadə olunan əsas həndəsi fiqurlar, çoxbucaqlılar, dairəvi formalar, simmetriya oxları və ritmik təkrarlar müəyyənləşdirilmişdir. Ornamentlərin qurulma prinsipləri onların məkan daxilindəki funksional mövqeyi ilə əlaqəli şəkildə təhlil olunmuşdur. Bununla yanaşı, həndəsi ornamentlər semiotik yanaşma çərçivəsində işarə sistemi kimi araşdırılmışdır. Bu zaman həndəsi fiqurlar kosmik nizam, harmoniya, əbədiyyət və metafizik tarazlıq anlayışları ilə əlaqələndirilmiş, ornamentlərin məna qatları mədəni və fəlsəfi kontekstlər əsasında şərh edilmişdir. Təhlil prosesində ornamentlərin səthlər üzrə paylanması və vizual oxunuş istiqamətləri də nəzərə alınmışdır. Əcəmi Naxçıvani yaradıcılığında həndəsi ornamentlər fəlsəfi məna daşıyan konsentrik çevrə həndəsəsi əsasında, yəni mərkəzə doğru və əks istiqamətdə sonsuz kiçilən və böyüyən çevrələr daxilində kvadratlar və düzgün altıbucaqlılar sistemi əsasında qurulmuşdur [1, 81]. Araşdırmadan aydın olur ki, Əcəmi Naxçıvani əsərləri üzərində həndəsi ornamentlərdən nöqtələr, düz xətlər, əyri xətlər, üç, dörd, beş, altı, səkkiz, on, on bir, on iki, on üçbucaqlılar, romblar, düzbucaqlılar, kvadratlar,

kublar və s. həkk olunmuşdur. Memar çevrə daxilinə və xaricinə çəkilmiş bu çoxbucaqlılardan girih həndəsi naxışlar əmələ gətirmişdir. Girih naxışlarının ahəngdar şəkildə birləşməsindən isə dörd, beş, altı, yeddi, səkkiz, on, on bir, on iki, on üçguşəli ulduzlar yaradılmışdır. Bu tip həndəsi kompozisiyalar İslam memarlığında riyazi dəqiqlik, sonsuzluq ideyası və kainatın harmonik quruluşu haqqında fəlsəfi təsəvvürləri vizual şəkildə ifadə edən mühüm bədii vasitə kimi çıxış edir.

Nöqtə hər şeyin başlanğıcını, kainatın yaranma nöqtəsini simvolizə edir. Düz xətlər kainatda mövcud olan nizamı və tarazlığı göstərir. Əyri xətlər həyatın axıcılığını və zamanın davamlı hərəkətini ifadə edir. Üçbucaq səma, yer, yeraltı dünya arasındakı vəhdəti və harmoniyanı simvolizə edir. Kvadrat və düzbucaqlı sabitliyi, möhkəmliyi və yer üzündəki nizamı göstərir. Romb həyat enerjisini, məhsuldarlığı və torpaqla bağlılığı ifadə edir. Beşbucaqlı ornament insanın kainatdakı yerini və beş əsas elementi - torpağı, suyu, havanı, odu və ruhu simvolizə edir. Altıbucaqlı ornament təbiətdəki mükəmməl tarazlığı və harmoniyanı, dünyanın yaranması günlərinin sayını ifadə edir. Arı şanının altıbucaqlı quruluşu kimi təbii nizamı xatırladır. Səkkizbucaqlı ornament səkkiz istiqaməti və kainatın bütövlüyünü simvolizə edir. Şərq memarlığında kosmik nizamın rəmzi sayılır. Onbucaqlı ornament kainatın mürəkkəb və mükəmməl riyazi quruluşunu ifadə edən simvollardan biridir. Qızıl bölgü və ya İlahi mütənasiblik sisteminə əsaslanır. On birbucaqlı ornament nadir istifadə olunan forma kimi memarlıqda yaradıcı düşüncəni və həndəsi mükəmməlliyə can atmanı göstərir. On ikibucaqlı ornament zamanın dövranını və kosmik ritmi simvolizə edir. Bu forma ilin 12 ayı ilə əlaqələndirilir. On üçbucaqlı ornament kainatın sonsuz müxtəlifliyini və həndəsi quruluşun zənginliyini ifadə edən nadir kompozisiya formasıdır.

Çoxbucaqlılar ümumilikdə, kainatın riyazi harmoniya ilə qurulduğunu göstərən simvollardır. Çoxbucaqlılardan yaranan girih naxışlarındakı bir-birinə bağlanan xətlər kainatda hər şeyin bir-biri ilə əlaqəli olduğunu göstərir. Çoxguşəli ulduzlar isə göy cisimlərini (günəşi, ayı, ulduzları), ilahi işığı və kosmik nizamı simvolizə edir [6, 122-123]. Bu ornamentlər sadəcə bəzək deyil, Əcəmi Naxçıvaninin kainatın harmoniyasını daş üzərində göstərdiyi mükəmməl sənətin nəticəsidir.

3. Nəbati ornamentlərin interpretasiya metodologiyası

Nəbati ornamentlərin təhlilində onların formal xüsusiyyətləri ilə yanaşı, simvolik və mədəni məna daşıyıcılığı da ön plana çəkilmişdir. Bu ornamentlər bitki motivlərinin stilizə olunmuş formaları kimi deyil, həyat, bərpa, təbiətlə vəhdət və kosmik dövriyyə ideyalarını əks etdirən semantik strukturlar kimi araşdırılmışdır. Metodoloji baxımdan nəbati ornamentlərin şərhində hermenevtik interpretasiya metodu tətbiq edilmiş, ornamentlərin yaranma mühiti, dini-fəlsəfi düşüncə sistemi və dövrün estetik dünyagörüşü nəzərə alınmışdır. Ornamentlərin təkrarlanma ardıcıllığı, ritmik quruluşu və memarlıq səthindəki axıcılığı onların "oxunan mətn" kimi qəbul edilməsinə imkan verən əsas meyarlar kimi qiymətləndirilmişdir.

Araşdırmada Əcəmi abidələri üzərində müxtəlif bitki motivli nəbati ornamentlər müəyyən edilmişdir. Abidələrin səthləri üzərindəki həndəsi ornamentlərin araları gəc məhlulu ilə doldurulmuşdur. Gəc üzərində oyma üsulu ilə bitkisəl (nəbati) ornamentlər işlənmişdir [4, 253]. Əcəmi abidələrinin səthində yer alan islimi tipli nəbati ornamentlərin fasiləsiz və axıcı kompozisiyası türk kosmoloji düşüncəsində zaman və məkanın dövri xarakterdə dərk olunmasının vizual təcəssümü kimi çıxış edir. Bu bitki motivləri bir tərəfdən kainatdakı sonsuz dövran ideyasını ifadə edir, digər tərəfdən isə türk estetik dünyagörüşündə mühüm yer tutan əbədiyyət anlayışını memarlıq müstəvisində bədii şəkildə canlandırır [3, 213]. Möminə xatun türbəsi üzərində nəbati ornamentləri arasında ən çox lalə motivi istifadə olunmuşdur ki, bu da saf, təmiz sevgini simvolizə edir. Bu motiv eyni zamanda yenilənmə və həyatın yenidən

doğulmasını ifadə edir. Lalə motivi abidə üzərində madoksil naxışını əmələ gətirmişdir. Madoksil naxışı həyatın davamlılığını, inkişaf və yenilənmə ideyasını simvolizə edir [2, 1338-1339]. Bundan əlavə abidələrdə palmet, dördləçəkli yasəmən çiçəyi, beşləçəkli hoya çiçəyi, altıləçəkli zanbaqgülü motivləri, səkkizləçəkli rozetkalar müşahidə olunmuşdur. Palma yarpağını xatırladan palmet motivi həyat ağacı ideyası ilə əlaqələlidir. Bu motiv həyatın davamlılığını, bolluğu və təbiətin gücünü simvolizə edir. Dördləçəkli yasəmən çiçəyi motivi harmoniya və tarazlıq rəmzi hesab olunur. Dörd ləçək qədim təsəvvürlərdə dünyanın dörd istiqamətini və kainatın nizamını ifadə edir. Beşləçəkli hoya çiçəyi motivi həyatın gözəlliyini və təbiətin müxtəlifliyini simvolizə edir. Beş ləçək çox vaxt həyatın bütövlüyü və insanla təbiət arasındakı əlaqə kimi izah olunur. Altıləçəkli zanbaqgülü saflıq, yenilənmə və mənəvi təmizliyin rəmzidir. Onun altı ləçəyi memarlıq ornamentalistikasında harmoniya və kosmik nizam ideyasını ifadə edir. Səkkizləçəkli rozetka kainatın bütövlüyünü, səkkiz istiqaməti (şimal, cənub, şərq, qərb, şimal-şərq, şimal-qərb, cənub-şərq, cənub-qərb) və kosmik harmoniyanı simvolizə edir. Bu bitki motivləri sadəcə bəzək deyil, Əcəmi Naxçıvaninin təbiətin gözəlliyini və kainatın harmoniyasını daş üzərində ifadə etmək istəyinin nəticəsidir.

4. Kufi xətli epiqrafik ornamentlərin interpretasiya metodologiyası

Əcəmi Naxçıvani yaradıcılığında kufi xətli epiqrafik ornamentlər də əsas mövqedə dayanan elementlərdəndir. Bu ornamentlər yalnız bəzək elementi deyil. Onlar həm də "oxunan mətn" funksiyasına malikdir. Əcəmi abidələri üzərindəki bu kitabələrdə memarın adı, kimin şərəfinə neçənci ildə inşa olunması, "Quran"dan ayələr, surələr, müqəddəs kəlamlar yazılmışdır [5, 55-65]. Kufi xətli epiqrafik ornamentlərdə yazılan Quran ayələri, dualar və müqəddəs cümlələr memarlığın estetik ritmi ilə birləşərək həm vizual, həm də mənəvi təcrübə yaradır. Turizm kontekstində bu yazılar ziyarətçilərə məkanın dini və mədəni dəyərini izah edən canlı bir narrativ rolunu oynayır. Bələdçi kimi turistə hər bir epiqrafik elementin məzmununu sadə və anlaşılan şəkildə çatdırmaq mümkündür. Beləliklə qədim memarlıq nümunəsi həm gözəlliyi, həm də mənası ilə hiss edilən bir hekayəyə çevrilir.

5. Ornamentlərin məkan-mətn kontekstində təhlili

Həndəsi və nəbati ornamentlər memarlıq məkanının semantik quruluşunu formalaşdıran vahid sistem kimi təhlil edilmişdir. Bu mərhələdə ornamentlərin memarlıq səthlərində yerləşmə ardıcıllığı, giriş-yuxarı zonalar üzrə paylanması və baxış istiqamətlərinə uyğun oxunuş potensialı araşdırılmışdır. Ornamentlər məkan daxilində vizual deyil, ideya ötürən "mətn fraqmentləri" kimi qiymətləndirilmişdir. Bu yanaşma ornamentlərin memarlıq məkanını səssiz, lakin dərin məna daşıyan kommunikasiya mühiti kimi formalaşdırdığını göstərməyə imkan vermişdir. Araşdırmadan bəlli olmuşdur ki, Əcəmi abidələrində həndəsi ornamentlər bütün səthlərdə cəfəri şəbəkə sistemi əmələ gətirmişdir. Həndəsi ornamentlərin içərisi isə nəbati naxışlarla bəzədilmişdir. Səthlərdə əksər hallarda kufi xətli epiqrafik ornamentlər П şəkilli haşiyə formasında işlənmişdir. Abidələr üzərində həndəsi, nəbati ornamentlərin və epiqrafik yazıların vəhdəti görülməkdədir. Əcəmi Naxçıvani inşa etdiyi abidələr üzərində memarlıq elementləri ilə ornamentlərin sintezini qeyri-adi bacarıqla tətbiq etmişdir. Əcəmi abidələrinin sərdabə, gövdə və günbəz hissələri həndəsi, nəbati və epiqrafik ornamentlərlə zəngindir. Bu abidələrin interyerindəki mərkəzi göbələkvari dayaqda, eksteryerlərindəki giriş portallarında, düzbucaqlı və çatmatağ şəkilli səthlərdə nəfis şəkildə işlənmiş müxtəlif növ ornamentlər vardır. Fasadda memarlıq elementlərindən arxitravlarda, frontonların timpanlarında, arxivoltlarda, bagetlərdə, filenkalarda, haşiyələrdə, lintellərdə, sütuncuqlarda, stalaktitlərdə, antablementin frizlərində və karnizlərində, günbəz (qübbə) hissənin interyerindəki medalyonlarda çeşitli həndəsi, nəbati və epiqrafik ornamentlər işlənmişdir. Düzbucaqlı və çatmatağ şəkilli tağçaların

içərisi həndəsi və nəbati ornamentlərlə zəngin şəkildə bəzədilmişdir. Sütuncuqların baş hissələrində müxtəlif formalı kapitellər (başlıqlar) yerləşdirilmişdir. Karniz hissələr müqarna elementi ilə bəzədilmişdir. Giriş portallarında və stalaktitlərin içərisində svastika elementləri işlənmişdir. Svastika elementi daim dəyişən, lakin nizamını qoruyan kainatı təcəssüm etdirir. Onun fırlanan qolları günəşin dövranını, zamanın axınını və həyatın sonsuz yenilənməsini ifadə edir. Əcəmi abidələri üzərində svastika elementindən əmələ gələn meandr ornamenti isə həyatın fasiləsiz axınını simvolizə edir. Onun qırılmadan davam edən xətləri zamanın sonsuzluğunu, dönümləri isə insanın həyat yolundakı seçim və dəyişiklikləri ifadə edir. Möminə xatun türbəsi üzərində göy və yaşıl rəngin harmoniyasını əks etdirən firuzəyi rəngli kaşılardan da istifadə olunmuşdur. Səmanı və suyu simvolizə edən firuzəyi rəng sonsuzluq, ilahi nizam və ruhani təmizliyin ifadəsi kimi çıxış edir. Bu rəng göy qübbəsini xatırladaraq insanı kainatın bütövlüyü və ucalığı haqqında düşünməyə yönəldir. Eyni zamanda firuzəyi həyat və yenilənmə ideyasını da daşıyır. Yaşıl çalar onun təbiətlə, bitki aləmi ilə, dirçəliş və davamlılıqla əlaqəsini gücləndirir. Bu səbəbdən firuzəyi rəng həm də harmoniya, tarazlıq və daxili sakitliyin vizual ifadəsi kimi qəbul olunur. Firuzəyi çalar göylə yerin görüş nöqtəsidir. O, həm səmanın sonsuzluğunu, həm də həyatın davamlılığını özündə birləşdirərək insanı kainatın ahəngi ilə bağlayır.

6. Ornamentlərin turizm narrativinə tətbiqi üsulları

Tədqiqatın metodoloji mərhələlərindən biri ornamentlərin müasir mədəni turizm kontekstində interpretasiya potensialının müəyyənləşdirilməsindən ibarət olmuşdur. Bu məqsədlə ornamentlərin semantik oxunuşu əsasında turistik izah üçün narrativ model qurulmuş, hər bir ornament tipi ayrıca məna bloku kimi təhlil edilmişdir. Metod kimi mədəni irs interpretasiyası və narrativ analiz yanaşmalarından istifadə edilmiş, ornamentlərin turist üçün passiv müşahidə obyektindən çıxarılaraq, mənalandırılan, dərk edilən və oxunan mədəni elementlərə çevrilməsi imkanları qiymətləndirilmişdir. Belə yanaşma çərçivəsində ornamentlərin turizm marşrutları, bələdçi mətnləri, interpretativ panellər və rəqəmsal təqdimat vasitələri vasitəsilə ziyarətçilərə izah edilməsi imkanları da nəzərə alınmışdır. Bu mərhələ ağıllı və dayanıqlı turizm konsepsiyaları ilə əlaqəli şəkildə aparılmış, mədəni irs elementlərinin ziyarətçilər üçün daha anlaşılan və interaktiv formada təqdim olunması imkanları nəzərə alınmışdır.

7. Tədqiqatın məhdudiyyətləri

Araşdırma əsasən memarlıq ornamentlərinin vizual və semantik təhlilinə əsaslandığından, bəzi texnoloji və material xüsusiyyətlər dərinləşdirilməmişdir. Bununla yanaşı, ornamentlərin interpretasiyası subyektiv şərh elementlərini ehtiva edə bilər ki, bu da gələcək tədqiqatlar üçün əlavə müqayisəli analizlərin aparılmasını zəruri edir.

MÜZAKİRƏ

Aparılan tədqiqat göstərir ki, Əcəmi Naxçıvani memarlığında ornamentlər yalnız dekorativ element deyil, məkanın ideya və məna yükünü formalaşdıran semantik sistem kimi çıxış edir. Ənənəvi tədqiqatlarda ornamentlərin əsasən bədii və kompozisiya xüsusiyyətlərinə diqqət yetirildiyi halda, bu araşdırma onların "oxunan mətn" kimi interpretasiya potensialını ön plana çıxarır. Əcəmi yaradıcılığında həndəsi və nəbati ornamentlərin vəhdəti memarlıq məkanında kosmik nizam, həyatın davamlılığı və təbiətlə harmoniya ideyalarını vizual şəkildə ifadə edir. Bu qarşılıqlı əlaqə məkanları statik obyekt olmaqdan çıxararaq, tamaşaçı ilə intellektual ünsiyyət quran mədəni mühitlərə çevirir. Mədəni turizm kontekstində ornamentlərin bu cür təqdimatı tarixi abidələrin səthi vizual istehlak obyektinə çevrilməsinin

qarşısını alır və dərkə əsaslanan dayanıqlı turizm modelinin formalaşmasına şərait yaradır. Beləliklə, Əcəmi Naxçıvani irsinin interpretativ oxunuşu memarlıqşünaslıq və mədəni turizm arasında konseptual əlaqə yaradan səmərəli elmi yanaşma kimi qiymətləndirilə bilər.

NƏTİCƏ

Aparılan tədqiqat göstərir ki, Əcəmi Naxçıvani memarlığında həndəsi və nəbati ornamentlər yalnız dekorativ funksiyanı yerinə yetirmir, memarlıq məkanında dərin semantik məna daşıyan vahid sistem kimi çıxış edir. Həndəsi ornamentlərin quruluşunda istifadə olunan simmetriya, ritm və təkrarlanan həndəsi formalar kosmik nizam, tarazlıq və əbədiyyət ideyalarını ifadə edərək memarlıq məkanını statik obyekt olmaqdan çıxarıb dinamik və "oxunan" struktura çevirir. Nəbati ornamentlər isə həyatın davamlılığı, bərpa və təbiətlə vəhdət anlayışlarını simvolizə edərək bu məna sistemini tamamlayır və məkanın emosional-fəlsəfi yükünü artırır. Ornamentlərin memarlıq səthlərində planlı və ardıcıl yerləşdirilməsi onların təsadüfi bəzək elementi deyil, əvvəlcədən düşünülmüş ideya ötürmə vasitəsi olduğunu sübut edir. Həndəsi və nəbati ornamentlərin qarşılıqlı əlaqəsi memarlıq məkanlarını vizual müşahidə obyektindən çıxararaq, mərhələli şəkildə dərk edilən mədəni "mətn"ə çevirir. Bu oxunuş prosesi tamaşaçının məkanla passiv deyil, fəal intellektual əlaqə qurmasına imkan yaradır. Tədqiqat nəticələri həmçinin göstərir ki, ornamentlərin "oxunan mətn" kimi interpretasiyası müasir mədəni turizm üçün yeni narrativ imkanlar yaradır. Bu yanaşma səthi vizual istehlak modelindən uzaqlaşaraq, dərkə əsaslanan və daha dayanıqlı turizm formasının formalaşmasına şərait yaradır. Beləliklə, Əcəmi Naxçıvani memarlığında ornamentlərin semantik oxunuşu mədəni irsin yalnız qorunmasına deyil, onun mənalandırılaraq yaşadılmasına xidmət edən mühüm elmi nəticə kimi qiymətləndirilə bilər.

ƏDƏBİYYAT SİYAHISI

1. Cəfərli, B. (2024). Gözəllik simvolları olan ornamentlərin Əcəmi Naxçıvani yaradıcılığında zənginliyi. Dedicated to the 101th Anniversary of the National leader of Azerbaijan, Heydar Aliyev VIII İnternational Scientific Conference of Young Researchers, Baku, 26-27 April 2014, 1333-1340.
2. Cəfərli, B. (2026). Naxçıvan memarlıq məktəbi və türkologiya: Əcəmi fenomeninin elmi təhlili. İnternational Scientific Symposium "In the Light of a Century: The Turkological Mission from Past to Future", dedicated to the 100th Anniversary of the First Turkology Congress, Astana, 28 February 2026, 209-217.
3. Əliyev, Q. (2007). Memar Əcəmi Naxçıvani yaradıcılığında ahəngdarlıq. Bakı: Şərq-Qərb, 160.
4. Qənbərova, G. (2008). Azərbaycan memarlıq bəzəyində işlədilən bitkisəl (əyrixətli) naxışlar (XI-XVIII əsr). Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin Xəbərləri, İctimai və humanitar elmlər seriyası, 1, 252-258.
5. Səfərli, H. (2019). Naxçıvan şəhərinin epiqrafik abidələri. Naxçıvan: Əcəmi, 152.
6. Makkamovich, S.S. (2024). The symbolic and philosophical meaning of the girikh (geometric) and İslimic (islamic) patterns in the architectural monuments of Uzbekistan. Web of scientist: International scientific research journal, 5 (4), 121-126.
7. Wang, L., Ruan, W., & Li, Y. (2025). İs AI heritage tourism interpretations better at deepening your cultural memory? Journal of Hospitality and Tourism Management, 63, 68-76.

REGİONAL İNNOVASİYA İNFRASTRUKTURUNUN İNKİŞAF PROBLEMLƏRİ

Development Problems of Regional Innovation Infrastructure

HƏSƏN MƏMMƏDOV
Hasan Mammadov
hasanmammadov@ndu.edu.az
https://orcid.org/0009-0003-8904-5933
Naxçıvan Dövlət Universiteti
Nakhchıvan State Unıversıty

XÜLASƏ

Regional innovasiya infrastrukturu regionların iqtisadi inkişafında mühüm rol oynayır və sahibkarlığın innovasiyalı inkişafına şərait yaradır. İnfrastrukturun modernləşdirilməsi istehsal prosesinin təkmilləşməsinə, rəqabətədavamlı məhsulların istehsalına və innovasiya dövriyyəsinin sürətlənməsinə səbəb olur. Araşdırmada göstərilir ki, dünya iqtisadiyyatında texnoloji inkişaf, enerji resurslarının alternativləşdirilməsi, beynəlxalq əmək bölgüsü və qlobal problemlər Azərbaycanın sənaye sektoruna ciddi təsir göstərir. Lakin innovasiya iqtisadiyyatının formalaşmasına bir sıra maneələr mövcuddur: infrastrukturun zəifliyi, elm–təhsil–biznes əməkdaşlığının qurulmaması, qanunvericilik bazasının yetərsizliyi, maliyyə dəstəyinin olmaması və kadr çatışmazlığı. Köhnəlmiş texniki baza və avadanlıqlar innovativ məhsul istehsalını məhdudlaşdırır. Nəticə olaraq, dövlət səviyyəsində hüquqi bazanın yaradılması, müasir elmi-texniki infrastrukturun möhkəmləndirilməsi, ixtisaslı kadr hazırlığının təmin edilməsi və investisiya mühitinin formalaşdırılması vacibdir. Bu tədbirlər regionlarda innovasiya yönümlü iqtisadiyyatın qurulmasına və davamlı inkişafın təmin olunmasına xidmət edə bilər.

Açar sözlər: *İnnovasiya infrastrukturu, innovativ inkişaf, texnoloji inkişaf, mühəndislik və tədqiqat mərkəzləri,sənayenin innovativ inkişafı.*

ABSTRACT

Regional innovation infrastructure plays a crucial role in the economic development of regions, fostering innovation-oriented entrepreneurship. Modernization of infrastructure enhances production processes, accelerates the creation of competitive products, and stimulates cyclical innovation growth. The study highlights that global technological progress, diversification of energy resources, international labor division, and global challenges significantly affect Azerbaijan's industrial sector. However, several obstacles hinder the formation of an innovation economy: weak infrastructure, lack of cooperation between science–education–business, insufficient legal framework, limited financial support, and shortage of qualified personnel. Outdated technical bases and equipment restrict innovative production. Consequently, strengthening modern scientific-technical infrastructure, establishing a clear legal framework, ensuring systematic training of specialized personnel, and creating a favorable investment environment are essential. These measures can facilitate the establishment of an innovation-oriented economy in Azerbaijan's regions and contribute to sustainable national development.

Keywords: *Innovation infrastructure, innovative development, technological development, engineering and research centers, innovative development of industry.*

GİRİŞ

Regional innovasiya infrastrukturu hər hansı bir region və ya bölgə iqtisadiyyatının innovasiya yönümlü inkişafına xidmət edən struktur vahididir. İnnovasiya infrastrukturu cəmiyyətin iqtisadi inkişafının nəticəsi kimi formalaşır və sahibkarlığın innovasiyalı inkişafı üçün şərait yaradır.

Regionlarda iqtisadiyyatın innovasiya xarakterli inkişafı, mövcud iqtisadi sistemin bütün təsərrüfat quruluşunun, o cümlədən innovasiya infrastrukturunun davamlı modernləşdirilməsi ilə əlaqədardır. Bu isə innovasiya infrastrukturunun təkmilləşməsinə gətirib çıxarır ki, nəticədə istehsalın təkmilləşməsi prosesi baş verir. Təkmil istehsal prosesində tələbata uyğun, rəqabətə davamlı innovativ məhsul istehsalı intensivləşir. Bu da öz növbəsində tsiklik olaraq innovasiya infrastrukturunun modernləşməsinə şərait yaradır.

Beləliklə, infrastrukturun modernləşdirilməsi müasir çağırışlara uyğun komponentlərin yenilənməsi və təkmilləşdirilməsi, dəyişən şəraitə uyğunlaşma və sistemin kompleks mürəkkəbləşməsi kimi prosesləri əhatə edir. J.Kornainin sistem paradiqmasına görə, "hər bir sistemin immanent disfunksiyaları var və onlar inkişaf mənbəyidir, çünki onları müəyyən etmək zərurəti özünüdərketmənin analitik proseslərini aktivləşdirmək üçün stimul yaradır və onların aradan qaldırılması üçün daimi səylər tələb olunur"[1].

Müxtəlif funksional oriyentasiyalı daxili elementlərin, eləcə də sistemin xarici mühitlə ziddiyyətli qarşılıqlı əlaqəsi innovasiya infrastrukturunun təkamülünün dinamikliyini müəyyən edir. Belə ki, regionun innovasiya infrastrukturunun inkişafı üzrə uğurlu strategiyanın formalaşdırılması prosesində, ümumilikdə, innovasiyaların inkişafına mane olan əsas amillərin müəyyən edilməsi, xüsusilə də, innovasiya infrastrukturunun bir element kimi yaradılması və fəaliyyət göstərməsi mühüm əhəmiyyətə malikdir.

Material və metodlar: Bu tədqiqat işində regional innovasiya infrastrukturunun inkişaf problemlərinin araşdırılması məqsədilə müxtəlif nəzəri və emprik materiallardan istifadə edilmişdir. Tədqiqatın informasiya bazasını yerli və xarici elmi ədəbiyyat, beynəlxalq təşkilatların hesabatları, dövlət proqramları və statistik məlumatlar təşkil edir. Xüsusilə, Azərbaycan Respublikasının innovasiya siyasətinə dair normativ-hüquqi sənədlər, Dövlət Statistika Komitəsinin məlumatları və müxtəlif illərə aid analitik hesabatlardan təhlil zamanı istifadə edilmişdir.

Tədqiqat zamanı müqayisəli təhlil, sistemli yanaşma, məntiqi ümumiləşdirmə və statistik analiz metodlarından istifadə edilmişdir. Mövcud problemlərin müəyyən edilməsi və qiymətləndirilməsi üçün analitik və təsviri metodlardan istifadə edilmiş, əldə olunan nəticələr əsasında müvafiq elmi ümumiləşdirmələr aparılmışdır.

Sənayenin innovativ inkişafına təsir edən amillər

Ölkəmizdə sənayenin innovativ inkişafına aşağıdakı xarici mühit amilləri ciddi təsir göstərir:

1.Dünya iqtisadiyyatında texnoloji inkişafın sürətlənməsi. Azərbaycan kimi inkişaf etməkdə olan ölkə üçün dünya iqtisadiyyatının texnoloji inkişafının sürətlənməsi iki ölkədən - innovasiya sahəsində liderlik edən, innovasiyaları ixrac edən ölkədən və inkişaf etməkdə olan, innovasiyaları immitasiya edən ölkələrin maraqlarından və onlar arasında qarşılıqlı iqtisadi münasibətlərdən asılıdır[2];

2.Ənənəvi enerji mənbələrinin ixracına əsaslanan Azərbaycan kimi ölkələrin gələcək iqtisadi inkişaf perspektivlərinə dünya iqtisadiyyatının resurslara qənaət və alternativ enerjidən intensiv istifadə imkanları da təsir göstərir[3];

3.Beynəlxalq əmək bölgüsü şəraitində ixtisaslaşmanın dərinləşməsi, yüksək ixtisaslı mütəxəssislərin yetişməsinə səbəb olur. Lakin dünyada yaranan qlobal rəqabət mühiti insan kapitalından da yan keçmir. Dünyanın qabaqcıl, inkişaf etmiş ölkələri ilə müqayisədə Azərbaycanda həyat şəraitinin aşağı olması insan kapitalının, ideya və texnologiyaların getdikcə digər ölkələrə axınına səbəb olur;

4.İqlim dəyişikliyi, əmək ehtiyatlarının inkişaf səviyyəsi, səhiyyə sistemində mövcud problemlər və ərzaq təhlükəsizliyi kimi qlobal problemlərin meydana gəlməsi regionda sahibkarlığın innovasiya yönümlü inkişafına ciddi təsir göstərir[4].

Regionda innovasiya iqtisadiyyatının inkişaf problemləri

Aparılan tədqiqatlar nəticəsində regionda innovasiya iqtisadiyyatının formalaşmasına təsir edərək, onun inkişafını ləngidən aşağıdakı bir sıra problemlər müəyyən edilmişdir:

- innovasiya infrastrukturunun bu günkü mövcud vəziyyəti innovasiya prosesi iştirakçılarının müxtəlif resurslara və xidmətlərə olan tələbatlarının ödənilməsini məhdudlaşdırır. Belə ki, innovasiya infrastrukturunun inkişafında yaranan çətinliklər elmi-texniki fəaliyyətin nəticələrinin kommersiyalaşdırılmasını məhdudlaşdırır;
- innovativ inkişaf istiqamətinə malik sahibkar subyektlər, o cümlədən, kiçik və orta müəssisələr iqtisadi proseslərə yetərincə inteqrasiya olunmur, nəticədə "elm və təhsil – innovativ kiçik və orta biznes – böyük biznes" əməkdaşlıq şəbəkəsi qurulmur. Nəticədə tədqiqatlardan əldə edilən innovativ biliklərin regional istiqamətdə yayılması ləngiyir;
- elm, təhsil təşkilatları və innovativ firmalar arasında, eləcə də, iri şirkətlərlə kiçik və orta biznes arasında əlaqələrin möhkəmlənməsi innovativ iqtisadiyyatın uğurlu inkişafı üçün zəmin yaradır. Lakin zəif inkişaf etmiş instisional təşkilatlar bu qrumlar arasında qarşılıqlı əlaqələrin yaradılmasını təmin edə bilmədiklərindən innovativ iqtisadiyyatın stimullaşdırılması həyata keçirilə bilmir;
- innovasiya sferasında iqtisadi münasibətləri tənzimləyən qanunvericilik bazasının mövcud olmaması, institutların (qaydaların, qanunların) inkişaf etməməsi və irrasional olmaması innovativ iqtisadiyyatın zəif inkişafına səbəb olur[3].

Azərbaycan respublikası regionlarında innovasiya infrastrukturunun inkişafı istiqamətində aparılan uzun müddətli araşdırmalar onu deməyə əsas verir ki, innovasiya layihələrinin və innovasiya məhsullarının (avadanlıq, maşın, mexanizm və s.) qiymətlərinin həddindən ziyada baha olması və dövlət tərəfindən bu məqsədlə maliyyə dəstəyinin olmaması, eləcə də sahibkar subyektlərin maliyyə vəsaitlərinin çatışmaması innovasiyaların yaradılması və yayılması işinə çox böyük maneələr törədir.

Qeyd etmək lazımdır ki, inkişaf etmiş ölkələrdə dövlət tərəfindən dəstəklənən və biznesdən tələb olunan innovasiya infrastrukturunun fəal formalaşdırılması aparıldığı halda, Azərbaycanda innovasiya infrastrukturunun formalaşdırılması prosesi məqsədyönlü və sistemli aparılmadığından sahibkarlıq subyektlərində bu istiqamətdə kifayət qədər nəzərə çarpan dəyişikliklər əldə edilə bilməmişdir. Eyni zamanda, regionlarında özəl investisiya layihələrinin həyata keçirilməsi perspektivlərinin təhlilinin nəticələri belə deməyə əsas verir ki, ölkənin ayrı-ayrı regionlarında mövcud infrastruktur obyektlərinin məhdudiyyətləri regional səviyyədə innovativ iqtisadiyyatın inkişafı üçün əsas maneələrdən birinə çevrilmişdir. Bunu nəzərə alaraq, dövlət və yerli bələdiyyə orqanları innovasiyaların inkişafına xidmət edən, onun inkişafını şərtləndirən basilica amil innovasiya infrastrukturu olduğunu bilməli və onun inkişafı dövlətin innovasiya siyasətinin prioritet istiqamətlərindən biri kimi qiymətləndirməlidirlər.

Araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, inkişaf etmiş qabaqcıl ölkələrdən fərqli olaraq, Azərbaycanda aparılan elmi araşdırmaların əsas tərkib hissəsi elmi bazası müasir innovativ istiqamətli tələblərdən kənarda olan, ali təhsil və istehsal müəssisələrindən təcrid olunmuş elmi-tədqiqat institutlarında aparılır.

Eyni zamanda ölkədə təşkilatların və təhsil müəssisələrinin elmi-tədqiqat işləri aparmaq üçün mövcud maddi-texniki bazası fiziki və mənəvi cəhətdən aşınmaya məruz qalmış, lakin maliyyə vəziyyətinin aşağı olması üzündən beynəlxalq standartların tələblərinə cavab verən, müasir elmi-texniki avadanlıqların alınması imkanları məhdudlaşmışdır. Köhnə avadanlıqlarla isə yeni, innovativ, rəqabətə davamlı, istehlak tələbini maksimum ödəyə bilən məhsul istehsalı mümkün deyildir.

Həmçinin qeyd etmək lazımdır ki, innovasiya proseslərini həyata keçirmək üçün yüksək ixtisaslı elmi kadrların çatışmaması, ümumiyyətlə, bu sahədə kadr potensialının olmaması, mövcud olanların isə yaş həddinin yüksək olması da innovasiya prosesinin ləng inkişafına səbəb olan amillərdən hesab edilməlidir.

Qeyd etmək lazımdır ki, mövcud çatışmazlıqların aradan qaldırılması üçün dövlət səviyyəsində ciddi tədbirlər görülməli, innovasiya fəaliyyətini yüksək səviyyədə təşkil etmək üçün ona xidmət edən innovasiya infrastrukturunun yaradılmasını, xüsusi ilə əhəmiyyət verilməlidir. İqtisadiyyatın innovasiyalı inkişafını təmin etmək üçün yaradılmış infrastrukturdan adekvat və səmərəli istifadə edilməlidir.

NƏTİCƏ

Ölkəmizdə regional innovasiya infrastrukturunun formalaşması və inkişafı istiqamətində aparılan araşdırmalar nəticəsində müəyyən edilmiş maneələrin aradan qaldırılması və regionda səmərəli innovasiya infrastrukturunu formalaşdırıb, fəaliyyətinin təmin edilməsi məqsədi ilə aşağıdakı vəzifələrin həyata keçirilməsini məqsədəuyğun hesab edirik:

- elm, təhsil və innovativ müəssisə və təşkilatlarda müasir tələblərə cavab verən elmi-texniki bazanın möhkəmləndirilməsi;
- innovasiyaların idarə olunması sahəsində ölkədə mövcud olan qeyri-müəyyənlik şəraitini müəyyənlik şəraitinə çevirmək məqsədlə informasiya və kommunikasiya sistemlərini innovativ inkişafın və innovasiya məhsullarının məlumat bazasının formalaşdırılması istiqamətinə yönəltmək;
- innovasiya siyasətinin tənzimlənməsi məqsədilə hüquqlu bazanı yaratmaq;
- ixtisaslaşdırılmış yenilikçi kadr hazırlığının davamlı və sistemli formalaşdırılmasını təmin etmək;
- innovasiya yönümlü regionlarda mühəndislik və tədqiqat mərkəzlərinin yaradılmasını həyata keçirmək;
- ölkədə investisiya mühitini formalaşdırmaq və iqtisadiyyata yönəldilən investisiyaları innovasiya istiqamətinə yönəltmək;
- innovasiyalara tələbatın stimullaşdırılması və innovativ məhsul və texnologiyalar bazarının formalaşdırılması istiqamətində təbliğat və təşviqat işlərini gücləndirmək kimi mühüm iqtisadi əhəmiyyətli vəzifələr prioritet kimi qəbul edilməlidir.

Fikrimizcə, innovasiyalı iqtisadiyyatın qurulması istiqamətində təkliflərimizin həyata keçirilməsi qısa zaman kəsiyində ölkə iqtisadiyyatının davamlı inkişafı üçün öz səmərəsini verə bilər.

ƏDƏBİYYAT SİYAHISI

1. J Kornai. Innovation and dynamism: Interaction between systems and technical progress . Economics of transition 18 (4), 629-670
2. Казакова Н.А., Наседкина Т.И., Французова И.И. Анализ факторов формирования инновационной модели развития региональной экономики: российский и мировой опыт // Менеджмент в России и за рубежом. – 2009. –№ 3.
3. *Л*исин Б.К. Инновационный потенциал как фактор развития. Межгосу-дарственное социально-экономическое исследование/ Б.К. *Л*исин, В.Н. Фридлянов // Инновации.– 2002.–№ 7.
4. *Л*опатин В.Н. Государство и интеллектуальная собственность: переход к инновационной экономике // Интеллектуальная собственность. Актуальные проблемы теории и практики: Сборник научных трудов. Т. 1 / Под ред. В.Н. *Л*опатина. – М.: Юрайт, 2008.

NAXÇIVAN ÜÇÜN REGİONAL "EKO-TURİZM" RƏQƏMSAL XƏRİTƏSİ: DAYANIQLI TURİZMİN İNKİŞAFINDA YENİ YANAŞMA

Regional 'Eco-Tourism' Digital Map For Nakhchivan: A New Approach In The Development Of Sustainable Tourism

MƏHSƏTİ ƏSGƏROVA
Mahsati Asgarova
esgerovamehseti@ndu.edu.az
https://orcid.org/0009-0001-1899-3325
Naxçıvan Dövlət Universiteti
Nakhchıvan State Unıversıty

XÜLASƏ

Bu məqalədə Naxçıvan Muxtar Respublikasının zəngin təbii-landşaft xüsusiyyətləri, biomüxtəlifliyi, tarixi-mədəni irsi və unikal coğrafi mövqeyi nəzərə alınaraq, bu potensialın daha səmərəli və dayanıqlı istifadəsini təmin etmək məqsədilə "eko-turizm" yönümlü rəqəmsal xəritənin yaradılması konsepsiyası geniş şəkildə təhlil edilir. Tədqiqat çərçivəsində regionun eko-turizm baxımından üstünlükləri – dağlıq ərazilər, mineral bulaqlar, qoruqlar, milli parklar, eləcə də etnoqrafik və mədəni irs nümunələri sistemli şəkildə qiymətləndirilir və onların rəqəmsal mühitdə təqdim edilməsinin əhəmiyyəti əsaslandırılır. Araşdırmada müasir rəqəmsal texnologiyaların, xüsusilə coğrafi informasiya sistemlərinin (GIS), interaktiv xəritələrin, mobil tətbiqlərin və süni intellekt əsaslı həllərin turizm sektorunda tətbiqi imkanları təhlil olunur. Bu texnologiyalar vasitəsilə turistlər üçün marşrutların optimallaşdırılması, real vaxt rejimində məlumatların əldə olunması, fərdiləşdirilmiş səyahət planlarının qurulması və təhlükəsizliyin artırılması kimi mühüm üstünlüklər ön plana çıxarılır. Eyni zamanda, rəqəmsal xəritələşdirmənin yerli cəmiyyətlərin turizm fəaliyyətinə inteqrasiyasını asanlaşdırdığı, kiçik və orta sahibkarlığın inkişafına təkan verdiyi və regionda xidmət keyfiyyətinin yüksəlməsinə şərait yaratdığı vurğulanır. Bununla yanaşı, rəqəmsal həllərin tətbiqi idarəetmədə effektivliyi artırır, resurslardan səmərəli istifadəni təmin edir və strateji planlaşdırma proseslərini dəstəkləyir. Məqalədə əsaslandırılır ki, Naxçıvan Muxtar Respublikasında eko-turizm üzrə rəqəmsal xəritənin yaradılması yalnız turizm axınının artmasına deyil, həm də yerli iqtisadiyyatın diversifikasiyasına, məşğulluğun genişlənməsinə və regionun beynəlxalq turizm bazarında rəqabət qabiliyyətinin yüksəlməsinə mühüm töhfə verə bilər. inteqrasiyasının regional inkişaf strategiyalarında prioritet istiqamət olduğunu elmi əsaslarla ortaya qoyur.

Açar sözlər: *Eko-turizm, rəqəmsal xəritə, Naxçıvan, dayanıqlı inkişaf, turizm innovasiyaları.*

ABSTRACT

This article analyzes the concept of creating a "digital eco-tourism map" in the Nakhchivan Autonomous Republic, taking into account the region's rich natural-landscape features, biodiversity, historical-cultural heritage, and unique geographical position, with the aim of ensuring more efficient and sustainable use of this potential. Within the framework of the study, the advantages of the region in terms of eco-tourism—mountainous areas, mineral springs, reserves, national parks, as well as ethnographic and cultural heritage sites—are systematically evaluated, and the importance of their presentation in the digital environment is substantiated. The research examines the application opportunities of modern digital technologies, particularly geographic information systems (GIS), interactive maps, mobile applications, and AI-based solutions in the tourism sector. Through these technologies, significant advantages such as route optimization for tourists, real-time access to information, personalized travel planning, and enhanced safety are highlighted. At the same time, digital mapping is emphasized as a tool that facilitates the integration of local communities into tourism activities, stimulates the development of small and medium-sized enterprises, and improves service quality in the region. One of the key directions of the study is the evaluation of the impact of the eco-tourism map on regional investment attractiveness. It is determined that such a digital platform serves as a transparent and accessible database for potential investors, facilitating investment decisions, reducing risks, and stimulating capital inflows into the tourism sector of the region. Moreover, the application of digital solutions increases efficiency in management, ensures rational use of resources, and supports strategic planning processes. The article substantiates that the creation of a digital eco-tourism map in the Nakhchivan Autonomous Republic can contribute not only to the growth of tourism flows but also to the diversification of the local economy, expansion of employment, and enhancement of the region's competitiveness in the international tourism market. In addition, the application of environmentally sensitive approaches enables the protection of natural resources and the implementation of sustainable development principles. The study demonstrates that the integration of eco-tourism with digital transformation is a priority direction in regional development strategies.

Keywords: *Eco-tourism, digital map, Nakhchivan, sustainable development, tourism innovations*

GİRİŞ

Müasir qlobal iqtisadiyyatda turizm sektoru təkcə xidmət sahəsi kimi deyil, həm də regionların sosial-iqtisadi inkişafını sürətləndirən strateji istiqamətdir. Xüsusilə son onilliklərdə dayanıqlı inkişaf konsepsiyasının ön plana çıxması ilə eko-turizm təbii ehtiyatların qorunması, ekoloji tarazlığın saxlanılması və yerli əhalinin rifahının yüksəldilməsi baxımından mühüm alternativ modelə çevrilmişdir. Eko-turizm həm iqtisadi dəyər yaradır, həm də ekoloji məsuliyyət prinsiplərinə əsaslanaraq təbiətə minimal müdaxilə ilə turizm fəaliyyətinin təşkilini təmin edir.(10)

Bu kontekstdə Naxçıvan Muxtar Respublikası özünəməxsus coğrafi mövqeyi, mürəkkəb relyefi, zəngin flora və faunası, eləcə də çoxəsrlik tarixə malik mədəni irsi ilə eko-turizm üçün yüksək potensiallı regionlardan biri hesab olunur. Ərazidə mövcud olan dağlıq ekosistemlər, təbii müalicə əhəmiyyətli mineral sular, qorunan təbiət əraziləri, qədim yaşayış məntəqələri və memarlıq abidələri regionu həm yerli, həm də beynəlxalq turistlər üçün cəlbedici edir. Bununla yanaşı, Naxçıvanın unikal təbii landşaftı onu elmi-tədqiqat, ekoloji maarifləndirmə və təcrübə turizmi üçün də əlverişli məkana çevirir.(8)

Bununla belə, mövcud potensialın tam və səmərəli şəkildə reallaşdırılması müəyyən çətinliklərlə müşayiət olunur. Ən mühüm problemlərdən biri turizm resurslarının sistemləşdirilmiş şəkildə rəqəmsallaşdırılmaması və müasir informasiya texnologiyalarına inteqrasiyanın yetərli səviyyədə olmamasıdır.

Qlobal turizm bazarında rəqabət qabiliyyətinin artırılması, turist axınının optimallaşdırılması və regionun daha geniş auditoriyaya tanıdılması üçün rəqəmsal həllərin tətbiqi artıq zərurətə çevrilmişdir. Bu baxımdan regional "eko-turizm" rəqəmsal xəritəsinin hazırlanması xüsusi aktuallıq kəsb edir. Belə bir platforma turistlər üçün interaktiv məlumat bazası rolunu oynamaqla yanaşı, regionun təbii və mədəni resurslarının sistemli şəkildə təqdim olunmasına imkan yaradır. Eyni zamanda, coğrafi informasiya sistemləri (GIS), mobil tətbiqlər və rəqəmsal naviqasiya vasitələri ilə inteqrasiya olunmuş bu cür xəritələr turizm marşrutlarının planlaşdırılmasını asanlaşdırır, xidmət keyfiyyətini artırır və turist təcrübəsini daha effektiv edir. (9)

Digər tərəfdən, rəqəmsal eko-turizm xəritəsi yalnız turistlər üçün deyil, həm də yerli idarəetmə orqanları, sahibkarlar və investorlar üçün strateji əhəmiyyət daşıyır. Bu sistem vasitəsilə regionun turizm potensialı daha şəffaf və əlçatan şəkildə təqdim olunur, investisiya imkanlarının qiymətləndirilməsi asanlaşır və yeni iqtisadi təşəbbüslərin yaranması üçün əlverişli mühit formalaşır.

Nəticə etibarilə, belə bir yanaşma Naxçıvan Muxtar Respublikasının dayanıqlı inkişaf strategiyasında rəqəmsal transformasiyanın rolunu daha da gücləndirir.

Naxçıvanda eko-turizm potensialı

Naxçıvan Muxtar Respublikası Azərbaycanın digər regionlarından fərqli olaraq, özünəməxsus təbii-coğrafi şəraiti, iqlim müxtəlifliyi və zəngin ekosistemləri ilə eko-turizm baxımından strateji əhəmiyyətə malikdir. Burada həm yarımsəhra, həm dağətəyi, həm də yüksək dağlıq zonaların mövcudluğu müxtəlif turizm növlərinin – xüsusilə eko-turizm, dağ turizmi, müalicəvi turizm və speleoturizmin inkişafı üçün əlverişli şərait yaradır. Regionun təbii ehtiyatları ilə yanaşı, qədim tarixə malik mədəni irsi də eko-turizm marşrutlarının formalaşdırılmasında mühüm rol oynayır.

Batabat yaylası və gölləri

Batabat yaylası Naxçıvanın ən məşhur və ekoloji cəhətdən ən qiymətli təbiət ərazilərindən biridir. Burada yerləşən Batabat gölü və ətraf alp çəmənlikləri yüksək dağ ekosistemini təmsil edir. Yaylanın təmiz havası, zəngin bitki örtüyü və mövsümi iqlim şəraiti onu yay turizmi və ekoloji istirahət üçün ideal məkana çevirir. Xüsusilə yay aylarında burada formalaşan sərin iqlim,

şəhər mühitindən uzaqlaşmaq istəyən turistlər üçün böyük cəlbedicilik yaradır. Eyni zamanda, ərazidə müşahidə olunan nadir flora növləri və quş faunası ekoturizm və elmi müşahidələr üçün geniş imkanlar açır.

Əlincəqala və dağlıq marşrutlar

Əlincəqala yalnız tarixi abidə deyil, həm də ətraf dağlıq əraziləri ilə birlikdə kompleks eko-turizm marşrutu yaratmaq potensialına malikdir. Qala yüksək dağlıq relyefdə yerləşdiyi üçün buraya aparan yollar və piyada marşrutlar trekking və dağ yürüşləri üçün əlverişlidir. Ziyarətçilər burada həm tarixi irsi öyrənə, həm də təbiətin unikal mənzərələrindən zövq ala bilirlər. Əlincəqala ətrafı eyni zamanda foto-turizm və macəra turizmi üçün də mühüm istiqamətlərdən biridir.

Ordubad milli parkı və meşə massivləri

Ordubad rayonu Naxçıvanın ən zəngin biomüxtəlifliyə malik ərazilərindən biridir. Burada yerləşən Ordubad Milli Parkı nadir heyvan və bitki növlərinin qorunduğu mühüm ekoloji zonadır. Parkın meşə massivləri, dağ çayları və sıldırım qayalıqları təbiətsevərlər üçün böyük maraq doğurur. Xüsusilə nəsli kəsilməkdə olan fauna növlərinin qorunması və müşahidəsi üçün bu ərazi xüsusi əhəmiyyət daşıyır. Eyni zamanda, Ordubadın kəndləri və ənənəvi yaşayış mühiti etnoqrafik turizm üçün əlavə dəyər yaradır və eko-turizm marşrutlarının mədəni komponentini gücləndirir.

Duzdağ müalicə mərkəzi və speleoturizm imkanları

Duzdağ Naxçıvanın ən unikal təbii sərvətlərindən biridir və həm müalicəvi, həm də turistik baxımdan böyük əhəmiyyətə malikdir. Burada yerləşən duz mağaraları təkcə mineral ehtiyat kimi deyil, eyni zamanda speleoturizm (mağara turizmi) üçün nadir obyektlədən biridir. Duzdağ müalicə mərkəzi xüsusilə tənəffüs yolu xəstəliklərinin müalicəsində istifadə olunur və bu, sağlamlıq turizmi ilə eko-turizmin inteqrasiyasına şərait yaradır. Mağaraların mikroiqlimi, sabit temperatur və rütubət göstəriciləri onları unikal təbii müalicə mühiti kimi fərqləndirir.

Göstərilən bütün bu təbii və müalicəvi resurslar Naxçıvan Muxtar Respublikasını eko-turizm baxımından yüksək potensiala malik regiona çevirir. Bu ərazilərin sistemli şəkildə bir-biri ilə əlaqələndirilməsi, rəqəmsal xəritələr vasitəsilə turistlər üçün əlçatan edilməsi və marşrutların optimallaşdırılması regionun turizm cəlbediciliyini daha da artırır. Eyni zamanda, bu potensialın düzgün idarə olunması yerli iqtisadiyyatın inkişafına, ekoloji balansın qorunmasına və dayanıqlı turizm modelinin formalaşmasına mühüm töhfə verir.

Rəqəmsal eko-turizm xəritəsinin mahiyyəti

Rəqəmsal eko-turizm xəritəsi müasir informasiya texnologiyalarının turizm sektoruna inteqrasiyası nəticəsində formalaşmış innovativ idarəetmə və məlumatlandırma platformasıdır. Bu sistem əsasən coğrafi informasiya sistemləri (GIS), peyk naviqasiyası, mobil tətbiqlər, bulud texnologiyaları və interaktiv istifadəçi interfeysləri əsasında qurulur. Onun əsas məqsədi turizm resurslarının rəqəmsal mühitdə sistemləşdirilməsi, əlçatanlığın artırılması və turist təcrübəsinin optimallaşdırılmasıdır. (Weaver,2020).

Bu tip xəritələr ənənəvi kağız xəritələrdən fərqli olaraq dinamik xarakter daşıyır və real vaxt rejimində yenilənə bilir. Beləliklə, həm turistlər, həm də turizm idarəetmə orqanları üçün daha çevik və effektiv qərarvermə imkanı yaranır. Rəqəmsal eko-turizm xəritəsi yalnız istiqamətverici vasitə deyil, eyni zamanda informasiya, analiz və planlaşdırma funksiyalarını birləşdirən çoxfunksiyalı sistemdir.

Turizm marşrutlarının vizuallaşdırılması

Rəqəmsal xəritənin əsas funksiyalarından biri müxtəlif turizm marşrutlarının vizual şəkildə təqdim edilməsidir. Bu, istifadəçilərə region daxilində mövcud olan eko-turizm

obyektlərini – dağlar, yaylalar, milli parklar, tarixi abidələr və müalicə mərkəzlərini bir sistem daxilində görməyə imkan verir. Marşrutların müxtəlif səviyyələrdə (asan, orta, çətin) təsnif edilməsi turistlərin fiziki hazırlığına uyğun seçim etməsinə şərait yaradır.

Təbii və tarixi obyektlər haqqında məlumatların təqdimatı

Sistem hər bir obyekt haqqında ətraflı məlumat bazasına malik olur. Buraya obyektin tarixi, coğrafi yerləşməsi, ekoloji xüsusiyyətləri, turistlər üçün əhəmiyyəti və ziyarət qaydaları daxildir. Bu məlumatların rəqəmsal formatda təqdim olunması turistlərin maariflənməsini artırır və onların daha məsuliyyətli davranmasına kömək edir. Eyni zamanda, bu funksiya mədəni irsin qorunmasına xidmət edir.

Real vaxt rejimində naviqasiya

Rəqəmsal eko-turizm xəritəsinin mühüm üstünlüklərindən biri real vaxt rejimində naviqasiya imkanıdır. GPS texnologiyası vasitəsilə istifadəçilər öz mövqelərini dəqiq müəyyən edə, ən qısa və təhlükəsiz marşrutu seçə bilirlər. Bu xüsusiyyət xüsusilə dağlıq və çətin relyefli ərazilərdə böyük əhəmiyyət kəsb edir. Həmçinin, hava şəraiti və yol vəziyyəti kimi dəyişən faktorlar nəzərə alınaraq alternativ marşrutlar təklif oluna bilər.

Ekoloji həssas zonalar haqqında xəbərdarlıqlar

Sistemin mühüm funksiyalarından biri ekoloji balansın qorunmasıdır. Rəqəmsal xəritə vasitəsilə qorunan təbiət əraziləri, qoruqlar və həssas ekosistemlər barədə xəbərdarlıqlar təqdim edilir. Bu, turistlərin həmin zonalara daxil olarkən müəyyən qaydalara əməl etməsinə və təbiətə zərərin minimuma endirilməsinə xidmət edir. Beləliklə, eko-turizm prinsiplərinə uyğun olaraq insan fəaliyyəti ilə təbiətin qorunması arasında balans təmin olunur.

Turist davranışının istiqamətləndirilməsi

Rəqəmsal xəritə turistlərin davranışının idarə olunmasında da mühüm rol oynayır. Sistem vasitəsilə turistlərə tövsiyə olunan marşrutlar, ziyarət saatları, təhlükəsizlik qaydaları və ekoloji davranış prinsipləri təqdim edilir. Bu yanaşma həm turizm axınının düzgün idarə olunmasına, həm də resursların həddindən artıq yüklənməsinin qarşısının alınmasına kömək edir.

Nəticə etibarilə, rəqəmsal eko-turizm xəritəsi yalnız texnoloji yenilik deyil, həm də dayanıqlı turizm idarəçiliyinin vacib alətidir. O, turistlər üçün daha təhlükəsiz, məlumatlı və rahat səyahət mühiti yaradır, eyni zamanda regionun təbii və mədəni irsinin qorunmasına xidmət edir. Belə bir sistemin tətbiqi Naxçıvan Muxtar Respublikasında eko-turizmin inkişafını sürətləndirə, investisiya cəlbediciliyini artıraraq regionun beynəlxalq turizm bazarında mövqeyini gücləndirə bilər.

Rəqəmsal xəritənin yaradılması mərhələləri

Regional eko-turizm rəqəmsal xəritəsinin hazırlanması çoxmərhələli, kompleks və sistemli yanaşma tələb edən prosesdir. Bu proses yalnız texniki işlərdən ibarət olmayıb, eyni zamanda elmi tədqiqat, məlumat analizi, proqramlaşdırma və idarəetmə komponentlərini də özündə birləşdirir. Hər mərhələ sonrakı mərhələnin keyfiyyətinə birbaşa təsir göstərdiyi üçün ardıcıllıq və dəqiqlik xüsusi əhəmiyyət daşıyır.

1. Məlumatların toplanması. Birinci mərhələ layihənin əsas bazasını formalaşdıran məlumatların toplanmasıdır. Bu mərhələdə Naxçıvan Muxtar Respublikasının təbii və antropogen resursları haqqında geniş məlumat bazası yaradılır. Buraya dağlıq ərazilər, yaylalar, çaylar, göllər, qoruqlar, milli parklar, flora və fauna növləri, eləcə də tarixi-mədəni abidələr daxildir. Eyni zamanda, turizm infrastrukturuna aid məlumatlar – yollar, nəqliyyat imkanları, otellər, xidmət mərkəzləri və təhlükəsizlik zonaları da sistemə daxil edilir. Bu mərhələdə həm sahə araşdırmaları, həm də mövcud statistik və elmi mənbələrdən istifadə olunur.

2. Coğrafi məlumatların emalı. Toplanmış məlumatlar coğrafi informasiya sistemləri (GIS)

vasitəsilə emal olunur və strukturlaşdırılır. Bu mərhələdə məlumatlar xəritə qatları şəklində təşkil edilir: məsələn, təbii obyektlər bir qat, mədəni abidələr başqa qat, infrastruktur isə ayrı bir qat kimi təqdim edilir. Coğrafi informasiya sistemləri(GIS) texnologiyaları bu məlumatların analitik işlənməsinə, məsafə hesablamalarına, marşrut optimallaşdırmasına və vizual təqdimata imkan yaradır. Nəticədə istifadəçilər üçün interaktiv və çoxqatlı rəqəmsal xəritə formalaşır.

3. Platformanın hazırlanması .Üçüncü mərhələdə texniki platforma – mobil tətbiq və veb əsaslı sistem hazırlanır. Bu platforma istifadəçilərə rahat interfeys, axtarış funksiyaları, xəritə üzərində naviqasiya və məlumatlara sürətli çıxış imkanı təqdim etməlidir. Mobil tətbiqlər xüsusilə turistlər üçün real vaxt rejimində istifadə oluna bilən ən əlverişli vasitədir. Bu mərhələdə proqramlaşdırma, istifadəçi interfeysi dizaynı və məlumat bazası inteqrasiyası həyata keçirilir.

4. İnteqrasiya və test mərhələsi

Hazırlanmış sistemin bütün komponentləri bir-biri ilə inteqrasiya olunur və funksional testlər aparılır. Bu mərhələdə xəritənin düzgün işləməsi, məlumatların dəqiqliyi, naviqasiya sisteminin sabitliyi və istifadəçi təcrübəsi yoxlanılır. Eyni zamanda, pilot istifadəçi qrupu vasitəsilə praktiki testlər aparılır və sistemdə mövcud ola biləcək texniki və funksional çatışmazlıqlar müəyyən edilərək aradan qaldırılır. Bu mərhələ layihənin etibarlılığını təmin edən ən kritik mərhələlərdən biridir.

5. Marketinq və təşviq.

Son mərhələdə hazırlanan rəqəmsal platformanın geniş ictimaiyyətə və beynəlxalq auditoriyaya tanıdılması həyata keçirilir. Bu məqsədlə sosial media kampaniyaları, turizm sərgiləri, beynəlxalq forumlar və rəqəmsal reklam vasitələrindən istifadə olunur. Həmçinin yerli turizm agentlikləri, otellər və bələdçilərlə əməkdaşlıq edilərək sistemin istifadəsi təşviq edilir. Marketinq mərhələsi layihənin uğurlu tətbiqi və davamlılığının təmin edilməsi baxımından mühüm rol oynayır.

Beləliklə, rəqəmsal eko-turizm xəritəsinin yaradılması mərhələli və kompleks yanaşma tələb edən innovativ bir prosesdir. Hər mərhələnin düzgün icrası nəticəsində yalnız texniki cəhətdən işlək bir sistem deyil, həm də iqtisadi, ekoloji və sosial baxımdan effektiv bir platforma formalaşır. Bu isə Naxçıvan Muxtar Respublikasında eko-turizmin dayanıqlı inkişafına və regionun rəqəmsal transformasiyasına mühüm töhfə verir.

İQTİSADİ VƏ EKOLOJİ TƏSİRLƏR

Rəqəmsal eko-turizm xəritəsinin tətbiqi təkcə turizm xidmətlərinin rəqəmsallaşdırılması deyil, həm də regionun iqtisadi strukturu və ekoloji idarəetmə sisteminə dərin təsir göstərən kompleks inkişaf alətidir. Bu cür platforma Naxçıvan Muxtar Respublikasında həm iqtisadi aktivliyi artırır, həm də təbii resursların dayanıqlı istifadəsini təmin edir. Təsirlər iki əsas istiqamət üzrə – iqtisadi və ekoloji baxımdan qiymətləndirilir.

İqtisadı təsirlər

Turist axınının artması. Rəqəmsal xəritə regionun turizm potensialını daha geniş auditoriyaya təqdim etməklə turistlərin məlumat əldə etməsini asanlaşdırır. İnteraktiv marşrutlar, obyektlər haqqında dolğun məlumat və naviqasiya imkanları turistlərin Naxçıvana marağını artırır. Nəticədə həm yerli, həm də beynəlxalq turist axını yüksəlir ki, bu da ümumi turizm gəlirlərinin artmasına gətirib çıxarır. (1)

Yeni iş yerlərinin yaradılması.Turizm sektorunun genişlənməsi birbaşa və dolayı məşğulluq imkanlarını artırır. Bələdçilik, otelçilik, nəqliyyat xidmətləri, yerli məhsul istehsalı və satış sahələrində yeni iş yerləri yaranır. Eyni zamanda rəqəmsal platformanın idarə olunması üçün İT mütəxəssislərinə, GIS operatorlarına və kontent menecerlərinə ehtiyac artır ki, bu da yüksək ixtisaslı kadrların məşğulluğunu stimullaşdırır.(3)

Yerli məhsul və xidmətlərə tələbin yüksəlməsi.Turist axınının artması yerli iqtisadiyyata birbaşa təsir göstərir. Kənd təsərrüfatı məhsulları, milli sənətkarlıq nümunələri, suvenir istehsalı

və xidmət sektoru üzrə tələbat artır. Bu isə kiçik və orta sahibkarlığın inkişafına təkan verir və regionun iqtisadi dövriyyəsini genişləndirir.(2)

Regionun investisiya cəlbediciliyinin artması. Rəqəmsal xəritə investorlara region haqqında şəffaf və sistemli məlumat təqdim edir. Turizm obyektlərinin mövqeyi, infrastruktur imkanları və potensial marşrutlar barədə dəqiq məlumatlar investisiya risklərini azaldır. Nəticədə həm yerli, həm də xarici investorlar üçün Naxçıvan daha cəlbedici iqtisadi məkan kimi formalaşır.(4)

Ekoloji təsirlər

Təbii resursların qorunması. Rəqəmsal eko-turizm xəritəsi ekoloji həssas zonaların dəqiq göstərilməsi və turistlərin bu ərazilərə nəzarətli girişini təmin etməklə təbii mühitin qorunmasına xidmət edir. Bu yanaşma meşələrin, su ehtiyatlarının və nadir ekosistemlərin insan fəaliyyəti nəticəsində zədələnmə riskini azaldır.

Turist axınının balanslaşdırılması. Platforma vasitəsilə turistlərin müxtəlif ərazilərə yönləndirilməsi mümkündür. Bu, müəyyən bölgələrdə həddindən artıq yüklənmənin qarşısını alır və turizm yükünü region üzrə balanslaşdırır. Beləliklə, ekosistemlər üzərində yaranan təzyiq azalır və təbiətin bərpa olunma qabiliyyəti qorunur. (Longley et al.,2021)

Ekoloji maarifləndirmənin güclənməsi. Rəqəmsal xəritə yalnız naviqasiya vasitəsi deyil, həm də maarifləndirici platforma rolunu oynayır. Turistlərə təbiəti qoruma qaydaları, ekoloji davranış prinsipləri və yerli ekosistemlər haqqında məlumatlar təqdim olunur. Bu isə cəmiyyətin ekoloji şüurunun artmasına və məsuliyyətli turizm mədəniyyətinin formalaşmasına şərait yaradır. (Hall,2019).

Beləliklə, rəqəmsal eko-turizm xəritəsi Naxçıvan Muxtar Respublikasında həm iqtisadi inkişafın sürətlənməsinə, həm də ekoloji dayanıqlığın təmin olunmasına paralel şəkildə töhfə verir. Bu model iqtisadi səmərəliliklə ekoloji məsuliyyətin vəhdətini təmin edən müasir inkişaf yanaşması sayılır və regionun uzunmüddətli strateji inkişafında mühüm rol oynayır.

Problemlər və çağırışlar.

Naxçıvan Muxtar Respublikasında rəqəmsal eko-turizm xəritəsinin hazırlanması və tətbiqi böyük perspektivlərə malik olsa da, bu proses bir sıra institusional, texniki və təşkilati çətinliklərlə müşayiət olunur. Bu çağırışlar layihənin effektivliyinə və davamlılığına birbaşa təsir göstərdiyi üçün onların vaxtında müəyyən edilməsi və həlli xüsusi əhəmiyyət daşıyır.

Rəqəmsal infrastrukturun məhdudluğu. Layihənin əsas texniki dayaqlarından biri olan rəqəmsal infrastruktur bəzi hallarda kifayət qədər inkişaf etməmiş ola bilər. Xüsusilə internet şəbəkəsinin əhatəliliyi, yüksək sürətli bağlantıların mövcudluğu və GPS əsaslı xidmətlərin tam funksional işləməsi turizm ərazilərində məhdud ola bilər. Bu isə mobil tətbiqlərin və interaktiv xəritələrin istifadəsində müəyyən çətinliklər yaradır. İnfrastrukturun zəif olduğu zonalarda məlumatların real vaxt rejimində ötürülməsi və naviqasiya xidmətlərinin fasiləsiz işləməsi risk altına düşə bilər.

Maliyyə resurslarının çatışmazlığı. Rəqəmsal eko-turizm xəritəsinin hazırlanması və davamlı olaraq yenilənməsi əhəmiyyətli maliyyə vəsaiti tələb edir. GIS texnologiyalarının tətbiqi, proqram təminatının hazırlanması, server infrastrukturu və texniki dəstək xərcləri layihənin ümumi büdcəsini artırır. Eyni zamanda, sistemin marketinqi və beynəlxalq tanıdılması üçün də əlavə investisiyalara ehtiyac yaranır. Maliyyə məhdudiyyətləri layihənin miqyasını daralda və ya icra müddətini uzada bilər.

Məlumatların aktuallığının təmin edilməsi. Rəqəmsal xəritənin effektivliyi onun daim yenilənən və dəqiq məlumatlara əsaslanmasından asılıdır. Turizm obyektləri, infrastruktur dəyişiklikləri, ekoloji vəziyyət və marşrutların vəziyyəti zamanla dəyişə bilər. Bu səbəbdən məlumat bazasının aktual saxlanılması üçün davamlı monitorinq və sistemli yeniləmə mexanizmləri tələb olunur. Əks halda, köhnəlmiş məlumatlar turist təcrübəsinə mənfi təsir göstərə və sistemin etibarlılığını azalda bilər.

Kadr potensialının yetərsizliyi. Layihənin uğurlu həyata keçirilməsi üçün GIS mütəxəssisləri, proqramçılar, turizm menecerləri və ekoloji ekspertlərdən ibarət ixtisaslaşmış kadr heyəti vacibdir. Lakin regionda bu sahələr üzrə peşəkar kadrların sayı məhdud ola bilər. Bu isə layihənin texniki və analitik komponentlərinin icrasında çətinliklər yarada bilər. Kadr potensialının artırılması üçün təlim proqramları, ixtisasartırma kursları və universitet-sənaye əməkdaşlığı zəruri hesab olunur.

Həll yolları

Qeyd olunan problemlərin həlli üçün dövlət və özəl sektor arasında sıx əməkdaşlıq mühüm rol oynayır. Dövlət tərəfindən infrastrukturun inkişafı, maliyyə dəstəyi və normativ-hüquqi baza təmin olunmalı, özəl sektor isə texnoloji yeniliklərin tətbiqi və innovativ həllərin hazırlanmasında fəal iştirak etməlidir. Eyni zamanda beynəlxalq təşkilatlarla əməkdaşlıq və qrant proqramlarından istifadə layihənin davamlılığını gücləndirə bilər.

Nəticə etibarilə, mövcud çağırışlar layihənin həyata keçirilməsini çətinləşdirsə də, düzgün idarəetmə və koordinasiya nəticəsində onların aradan qaldırılması mümkündür. Bu isə Naxçıvanda rəqəmsal eko-turizm xəritəsinin uğurla tətbiqinə və regionun dayanıqlı inkişafına zəmin yaradır.

Aparılan təhlillər göstərir ki, Naxçıvan Muxtar Respublikasının eko-turizm potensialı zəngin təbii resurslar, unikal landşaftlar və mədəni irs nümunələri əsasında yüksək inkişaf imkanlarına malikdir. Bu potensialın səmərəli istifadəsi isə müasir rəqəmsal texnologiyaların tətbiqi ilə daha da genişləndirilə bilər. Xüsusilə coğrafi informasiya sistemləri (GIS), mobil tətbiqlər və interaktiv platformalar əsasında formalaşdırılan rəqəmsal eko-turizm xəritəsi regionun turizm idarəetməsində yeni yanaşma kimi çıxış edir.

Tədqiqat nəticəsində müəyyən olunur ki, belə bir rəqəmsal sistem turistlərin məlumat əldə etməsini asanlaşdırır, marşrutların optimallaşdırılmasını təmin edir və ekoloji həssas ərazilərin qorunmasına şərait yaradır. Eyni zamanda, bu platforma yerli iqtisadiyyatın inkişafına, yeni iş yerlərinin yaradılmasına və investisiya cəlbediciliyinin artmasına mühüm təsir göstərir.

Digər tərəfdən, rəqəmsal eko-turizm xəritəsi ekoloji balansın qorunması baxımından da əhəmiyyətlidir. Turist axınının idarə olunması, ekoloji maarifləndirmənin gücləndirilməsi və təbiətə minimal müdaxilə prinsiplərinin tətbiqi dayanıqlı inkişaf modelinin formalaşmasına xidmət edir.

Nəticə olaraq qeyd etmək olar ki, Naxçıvan Muxtar Respublikasında rəqəmsal eko-turizm xəritəsinin yaradılması yalnız texnoloji yenilik deyil, həm də strateji inkişaf vasitəsidir. Bu layihənin uğurla həyata keçirilməsi regionun turizm potensialını qlobal səviyyəyə çıxara, iqtisadi və ekoloji tarazlığı təmin edərək dayanıqlı inkişafın möhkəmlənməsinə töhfə verə bilər.

Aparılan tədqiqatın nəticələrinə əsasən, Naxçıvan Muxtar Respublikasında eko-turizmin inkişafı və rəqəmsal eko-turizm xəritəsinin səmərəli tətbiqi üçün aşağıdakı təkliflər irəli sürülür:

1. Rəqəmsal infrastrukturun gücləndirilməsi.

Regionda internet şəbəkəsinin əhatəliliyinin və keyfiyyətinin artırılması, xüsusilə turizm zonalarında yüksək sürətli mobil internetin təmin edilməsi vacibdir. Eyni zamanda GPS əsaslı xidmətlərin dayanıqlığının yüksəldilməsi turistlərin rahat və təhlükəsiz hərəkətini təmin edər.

2. GIS və rəqəmsal texnologiyaların inkişafı.

Coğrafi informasiya sistemlərinin (GIS) tətbiqinin genişləndirilməsi, real vaxt rejimində yenilənən məlumat bazalarının yaradılması və süni intellekt əsaslı analitik sistemlərin inteqrasiyası tövsiyə olunur. Bu, xəritənin daha dəqiq və funksional olmasına imkan verər.

3. Kadr hazırlığının gücləndirilməsi.

Turizm, informasiya texnologiyaları və ekoloji sahələr üzrə ixtisaslı kadrların hazırlanması üçün universitetlərdə və təlim mərkəzlərində xüsusi proqramlar həyata keçirilməlidir. Beynəlxalq təcrübə mübadiləsi də bu sahədə mühüm rol oynaya bilər.

4. Dövlət və özəl sektor əməkdaşlığının genişləndirilməsi.

Layihənin uğurlu icrası üçün dövlət qurumları, özəl şirkətlər və cəmiyyət arasında əməkdaşlıq gücləndirilməlidir. Özəl sektorun investisiya prosesinə cəlb olunması innovativ həllərin tətbiqini sürətləndirə bilər.

5. Davamlı məlumat yenilənməsi sistemi.

Rəqəmsal xəritənin aktual qalması üçün daimi monitorinq və məlumat yenilənmə mexanizmi yaradılmalıdır. Turizm obyektləri, marşrutlar və ekoloji zonalar haqqında məlumatlar mütəmadi olaraq yenilənməlidir.

6. Ekoloji maarifləndirmənin artırılması.

Turistlər və yerli əhali arasında ekoloji davranış qaydaları və təbiətin qorunması ilə bağlı maarifləndirici proqramlar həyata keçirilməlidir. Rəqəmsal platforma bu məqsədlə maarifləndirici modul və bildiriş sistemləri ilə zənginləşdirilə bilər.

7. Beynəlxalq əməkdaşlığın genişləndirilməsi.

Naxçıvanın eko-turizm potensialının beynəlxalq səviyyədə tanıdılması üçün turizm sərgilərində iştirak, beynəlxalq platformalarda təqdimatlar və xarici turizm şirkətləri ilə əməkdaşlıq genişləndirilməlidir.

Bu təkliflərin həyata keçirilməsi Naxçıvan Muxtar Respublikasında eko-turizmin dayanıqlı inkişafına, rəqəmsal transformasiyanın sürətlənməsinə və regionun qlobal turizm bazarında rəqabət qabiliyyətinin yüksəlməsinə mühüm töhfə verə bilər.

ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2024). Turizm statistik göstəriciləri. Bakı.
2. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi. (2023). Turizm və mədəni irsin inkişaf strategiyası. Bakı.
3. UNWTO (World Tourism Organization). (2023). Sustainable Development of Tourism Guidelines. Madrid.
4. ESRI. (2022). GIS Technology and Applications in Tourism Planning. Redlands, USA.
5. Longley, P. A., Goodchild, M. F., Maguire, D. J., & Rhind, D. W. (2021). Geographic Information Systems and Science. Wiley.
6. Hall, C. M., & Page, S. J. (2019). The Geography of Tourism and Recreation: Environment, Place and Space. Routledge.
7. Weaver, D. (2020). Ecotourism. Wiley.
8. Naxçıvan Muxtar Respublikası Dövlət Turizm Agentliyi. (2024). Regionda turizmin inkişaf perspektivləri. Naxçıvan.
9. GIS və Rəqəmsal Xəritələşdirmə üzrə elmi məqalələr toplusu. (2022–2025). Bakı Dövlət Universiteti nəşri.
10. WTO & UNEP. (2022). Tourism and Environmental Sustainability Report.

KƏND TƏSƏRRÜFATI, QASTRONOMİYA VƏ SƏYAHƏT: YERLİ MƏHSULLARIN TURİZMDƏ DƏYƏRİ

Optimization Of Decomposition And Integration Of Rational Functions Into Simple Fractions With Artificial Intelligence Methods

NİGAR BABABƏYLİ
Nigar Bababəyli
nigarbababeyli@ndu.edu.az
https://orcid.org0009-0004-7250-9671
Naxçıvan Dövlət Universiteti
Nakhchıvan State Unıversıty

XÜLASƏ

Bu məqalədə kənd təsərrüfatı və qastronomiyanın, xüsusilə yerli məhsulların turizmin inkişafında və regional iqtisadiyyatların gücləndirilməsində oynadığı rol araşdırılır. Son illərdə dünyada qastronomik turizm və aqroturizm sahəsinə maraq sürətlə artmaqda, turistlər səyahət etdikləri məkanlarda fərqli dadlar, ənənəvi mətbəx nümunələri və yerli məhsullarla tanış olmağa üstünlük verirlər. Bu tendensiya bir tərəfdən kənd təsərrüfatı istehsalçılarının və yerli icmaların rifahına töhfə verir, digər tərəfdən isə təbii və mədəni irsin qorunmasına, regionların öz kimliyinin və brendinin formalaşmasına səbəb olur. Məqalənin əsas məqsədi yerli məhsulların turizm bazarında dəyərinin müəyyən edilməsi, onların iqtisadi, sosial və mədəni təsirlərinin qiymətləndirilməsi, həmçinin Azərbaycanda və digər ölkələrdə tətbiq olunan uğurlu təcrübələrin təhlilidir. Tədqiqatda aşağıdakı əsas suallar araşdırılır: 1) Yerli kənd təsərrüfatı məhsulları və qastronomik ənənələr turizmin inkişafına necə təsir edir? 2) Bu proses regionlarda sosial-iqtisadi inkişaf və icma rifahı üçün hansı imkanlar yaradır? 3) Yerli məhsulların turizmdə effektiv istifadəsi üçün hansı strategiyalar və modellər mövcuddur? Tədqiqatın metodologiyası ədəbi mənbələrin təhlili, statistik göstəricilərin və yerli-internasional təcrübələrin müqayisəli analizinə əsaslanır. Müxtəlif ölkələrin, o cümlədən Azərbaycanın praktiki nümunələri araşdırılmış, qastronomik və aqroturizmin inkişaf perspektivləri, mövcud problemlər və inkişaf potensialı qiymətləndirilmişdir. Aparılan tədqiqat göstərir ki, yerli məhsulların və ənənəvi qastronomiyanın turizmdə fəal istifadəsi regionların brend kimi tanıdılmasına, kənd yerlərində yeni iş yerlərinin yaranmasına və dayanıqlı inkişafın təmin olunmasına mühüm töhfə verir. Məqalədə həmçinin gələcəkdə bu sahənin inkişafı üçün tövsiyələr və prioritet istiqamətlər də qeyd olunur.

Açar sözlər: *Kənd təsərrüfatı, qastronomiya, yerli məhsullar, aqroturizm, dayanıqlı inkişaf*

ABSTRACT

This article examines the role of agriculture and gastronomy, particularly local products, in the development of tourism and the strengthening of regional economies. In recent years, interest in gastronomic tourism and agritourism has been rapidly increasing worldwide, with tourists preferring to discover different tastes, traditional culinary examples, and local products in the places they visit. This trend contributes, on the one hand, to the welfare of agricultural producers and local communities, and on the other hand, to the preservation of natural and cultural heritage, while fostering the formation of regional identity and branding. The main purpose of the article is to determine the value of local products in the tourism market, to evaluate their economic, social, and cultural impacts, and to analyze successful practices applied in Azerbaijan and other countries. The study investigates the following key questions: 1) How do local agricultural products and gastronomic traditions influence tourism development? 2) What opportunities does this process create for socio-economic development and community welfare in the regions? 3) What strategies and models exist for the effective use of local products in tourism? The methodology of the research is based on the analysis of literary sources, statistical indicators, and comparative study of local and international experiences. Practical examples from various countries, including Azerbaijan, have been examined, and the perspectives, existing problems, and development potential of gastronomic and agritourism have been evaluated. The research shows that the active use of local products and traditional gastronomy in tourism makes a significant contribution to the recognition of regions as brands, the creation of new jobs in rural areas, and the achievement of sustainable development. The article also presents recommendations and priority directions for the future development of this field.

Keywords: *Agriculture, gastronomy, local products, agrotourism, sustainable development*

GİRİŞ

Müasir dövrdə turizmin dinamik inkişafı, onun yeni istiqamətlərə və funksiyalara malik olmasına səbəb olmuşdur. Ənənəvi turizm növləri ilə yanaşı, qastronomik turizm və aqroturizm kimi sahələr dünya üzrə getdikcə daha böyük əhəmiyyət qazanır. Qlobal miqyasda turistlərin maraqları artıq təkcə tarixi abidələr və təbii gözəlliklərlə məhdudlaşmır; onlar səfər etdikləri məkanlarda yerli mətbəxin dadılması, kənd təsərrüfatı təcrübələrinin öyrənilməsi, yerli məhsulların istehsalı və istifadə mədəniyyəti ilə yaxından tanış olmaq istəyirlər. Bu tendensiya turizmin regionlarda sosial-iqtisadi inkişafın, mədəni dəyərlərin qorunmasının və kənd təsərrüfatının diversifikasiyasının əsas vasitələrindən birinə çevrilməsinə imkan yaradır.

Bu məqalənin məqsədi Naxçıvanın turizm potensialının reallaşdırılmasında logistika amillərinin rolunu qiymətləndirmək, mövcud nəqliyyat infrastrukturunun güclü və zəif tərəflərini müəyyənləşdirmək və Zəngəzur dəhlizinin açılması kontekstində yeni imkanları müzakirə etməkdir.

MATERİAL VƏ METODLAR

Tədqiqatda keyfiyyət təhlili metodu əsas götürülüb. Əsas məlumat mənbələri ikincil təbiətlidir (desk research): Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi turizm göstəriciləri [20], Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti və rəsmi portalların məlumatları [6, 12], dövlət proqramları, akademik ədəbiyyat [1, 2, 3, 4, 5] və analitik-xəbər nəşrləri istifadə olunub. Hər bir statistik göstərici və faktoloji iddia ilkin mənbəyə istinadla təqdim edilir.

Təhlil üç mərhələdən ibarətdir. Birinci mərhələdə Naxçıvanın turizm resursları təsnifləşdirilmiş və destinasiya portfeli müəyyənləşdirilmişdir (tarixi-mədəni, dini, sağlamlıq, təbiət-ekoturizm). İkinci mərhələdə mövcud logistik infrastrukturun komponentləri — hava, quru və dəmir yolu — ayrı-ayrılıqda qiymətləndirilmiş; məsafə, vaxt, qiymət və əlçatanlıq parametrləri üzrə təhlil aparılmışdır. Üçüncü mərhələdə isə ekspert rəyləri və statistika müqayisə olunaraq logistikanın turizmə təsiri interpretasiya edilmişdir.

Tədqiqatın məhdudiyyəti olaraq qeyd etmək lazımdır ki, Naxçıvan üzrə turist qərarını müəyyən edən amilləri (logistika, marketinq, qiymət, destinasiya imici) bir-birindən tam ayırd etmək üçün ilkin məlumat toplama — turist anketləri və dərin müsahibələr — zəruridir; bu, ayrıca gələcək tədqiqatın mövzusu ola bilər.

MÜZAKIRƏ

Əldə olunan nəticələr göstərir ki, Naxçıvanın turizmdə müşahidə olunan zəif göstəriciləri ilə onun resurs zənginliyi arasında yaranan paradoksun əsas izahı logistika amilləri ilə bağlıdır. Bu tapıntı turizm-nəqliyyat əlaqəsinə dair beynəlxalq ədəbiyyatla tam səsləşir [1, 2, 3]. Sadullayev də turizm logistikasının təyinat yerinin rəqabətqabiliyyətliyini müəyyənləşdirdiyini və nəqliyyat infrastrukturunun inkişaf səviyyəsinin turist axını ilə birbaşa əlaqədə olduğunu qeyd edir [4]. Süleymanov isə Azərbaycan şəraitində turizmin regional inkişafı baxımından nəqliyyat infrastrukturunun qeyri-bərabər olduğunu və bunun konkret bölgələrin turizm gəlirlərinə əks təsir göstərdiyini göstərmişdir [5].

Turizm eksperti Ceyhun Aşurovun da qeyd etdiyi kimi, "Naxçıvanla bağlı məsələdə quru sərhədlərin bağlı olması və gediş-gəlişin ancaq hava yolu ilə mümkün olması əsas maneələrdən biridir" [24]. Ekspertin fikrincə, əvvəllər İran və Türkiyədən gələn turistlər Naxçıvandan keçərək digər bölgələrə gedə bilirdilər; bu tranzit axın hazırkı şəraitdə itib.

Zəngəzur dəhlizi layihəsi bu mənzərəni köklü şəkildə dəyişdirmək potensialına malikdir, lakin dəyişiklik avtomatik baş verməyəcək. Milli Məclisin deputatı Tahir Mirkişili dəmir yolunun ağır yüklərin daşınma xərclərini aşağı salacağını və yerli istehsalçıya rəqabətqabiliyyətli bazara çıxış imkanı verəcəyini qeyd edir [18]. Ancaq turizm kontekstində dəmir yolunun real təsiri planlı idarəetmə tələb edir.

Birinci istiqamət sərnişin və turist xidmətinin dizaynıdır. Qars–Naxçıvan–Bakı istiqamətində turistik qatar marşrutu ayrıca məhsul kimi formalaşdırıla bilər; bu, Türkiyənin Şərqi Anadolu bölgəsindən (Qars, Iğdır, Ardahan, Ərzurum) yeni axın yaratmaq imkanı verər. 2025-ci ildə Türkiyə ilə keçirilən regional iqtisadi forumda da məhz Naxçıvanın logistika imkanları xüsusi diqqət mərkəzində olmuş və iş adamları arasında B2B görüşləri keçirilmişdir [26].

İkinci istiqamət daxili marşrutların bütövləşdirilməsidir. Mömünə Xatun türbəsi, Əshabi-Kəhf, Duzdağ, Əlincə qalası kimi dəyərli nöqtələri birləşdirən standart hub-and-spoke marşrutu turistin "özü-özünə nəqliyyat axtarışı" problemini aradan qaldıra bilər. Hazırda fərdi turistin obyektlər arasında hərəkəti zəif təşkil olunub və bu, ümumi təcrübəni yorucu edir.

Üçüncü istiqamət tarif diversifikasiyasıdır. Hava nəqliyyatında daxili turist üçün xüsusi turizm tarifi, mümkün olduğu halda müvəqqəti subsidiya modelinin tətbiqi orta gəlirli seqment üçün Naxçıvanı real destinasiyaya çevirə bilər. Oxşar coğrafiyalı digər regionlarda — məsələn, Türkiyənin Van-Qars bölgəsində — stimullaşdırıcı mexanizmlərin müsbət nəticəsi vardır.

2026-cı il mart hadisəsi — İran dron hücumu və hava limanının müvəqqəti dayandırılması [17] — bir daşıma növünə asılılığın strateji riskini bir daha təsdiq etdi. Deməli, turizmin dayanıqlılığı baxımından çoxnövlü daşıma sisteminin (hava, quru, dəmir yolu) yaradılması yalnız rahatlıq deyil, həm də təhlükəsizlik və risklərə davamlılıq məsələsidir.

Daxili logistika məsələsi də diqqətdən kənar qalmamalıdır. Dövlət proqramlarında yol infrastrukturu və turizm prioritetlərdəndir; muxtar respublikada elektron taksi xidmətinin 288 qısa nömrəsi üzərindən tətbiqi artıq həyata keçirilib [8]. Lakin turizm obyektləri arasında müntəzəm turistik servislər, yaylaq ərazilərində yol keyfiyyəti və çoxdilli rəqəmsal xidmətlər sahələrində hələ də boşluqlar qalır.

Nəhayət, statistika metodologiyası ilə bağlı problem — "xarici turist" kateqoriyasının Naxçıvan mənşəli xarici pasport sahiblərini də əhatə etməsi [24] — siyasət formalaşdırma baxımından ciddi məsələdir. Gəlir yaradan həqiqi turist axını ilə diaspora ziyarətlərini ayırd etmədən dəqiq hədəfləmə mümkün deyil.

Ümumiləşdirici nəticə olaraq qeyd edək ki, Naxçıvanın turizm gələcəyi böyük ölçüdə onun təcrid olunmuş vəziyyətindən çıxıb regional nəqliyyat-logistika şəbəkəsinə inteqrasiyasından asılıdır. Bu proses 2025-ci il sonundan etibarən struktur mərhələyə keçmişdir. Əsas məsələ isə onun sürəti və turizm siyasətində necə əks olunacağıdır. Gələcək tədqiqatlar üçün Zəngəzur dəhlizinin fəaliyyətə başlamasından sonra turist axınının empirik dinamikasının izlənməsi, Qars–Naxçıvan və İstanbul–Naxçıvan marşrutlarında səfər motivlərinin keyfiyyət tədqiqatı, regional turizm-logistika modelinin ekonometrik testlənməsi aktual mövzulardır.

NƏTICƏ

Naxçıvanın turizm resursları

Naxçıvan Muxtar Respublikası dörd ixtisaslı turizm istiqaməti üzrə resurs bazasına malikdir. Tarixi-mədəni turizm Möminə Xatun türbəsi, Əlincə qalası, Qarabağlar türbə kompleksi, Yusif Küseyir oğlu türbəsi, Xanəgah abidəsi kimi obyektləri əhatə edir [6, 8]. Dini turizm istiqamətində Qurani-Kərimin "Əl-Kəhf" surəsində adı çəkilən Əshabi-Kəhf ziyarətgahı ön plandadır; Azərbaycan Respublikası Prezidentinin 1998-ci il tapşırığı ilə aparılmış bərpa və abadlıq işlərindən sonra 13 kilometrlik yol çəkilmiş, məscid tikilmiş və bura digər ölkələrdən zəvvar axını başlamışdır [6]. Sağlamlıq turizmi Duzdağ Fizioterapiya Mərkəzində yeraltı duz mədənlərində həyata keçirilən speleoterapiya xidməti ilə xarakterizə olunur və astma, bronxit, allergik xəstəliklərin müalicəsində geniş istifadə edilir [9]. Ekoturizm istiqamətində isə Ağbulaq istirahət zonası, Batabat və Biçənək yaylaqları, Gəmiqaya qayaüstü abidələri mühüm yer tutur [6].

Tarixi dinamika aspektindən baxanda, muxtar respublika Dövlət Statistika Komitəsinin məlumatına əsasən 2017-ci ildə Naxçıvana 413 357 turist səfər etmişdir; həmin ildə 122 597 naxçıvanlı isə müxtəlif istiqamətlərə səyahətə çıxmışdır [19]. 2018-ci ilin yanvar-iyun aylarında ölkə üzrə mehmanxana gecələmələrinin yalnız 3,4 faizi Naxçıvanın payına düşürdü — müqayisə üçün Bakı 62 faiz, Qəbələ 9,7 faiz, Qusar 5,1 faiz paya malik idi [16]. Bu göstərici muxtar respublikanın turizm bazarındakı mövqeyinin nəzəri potensialla müqayisədə nə qədər məhdud qaldığını əks etdirir.

Hava nəqliyyatının mövcud vəziyyəti

Naxçıvan Beynəlxalq Hava Limanı (IATA: NAJ) muxtar respublikanın əsas hava qapısıdır. Tikintisinə 1974-cü il oktyabrın 31-də başlanmış, 1976-cı ildə tamamlanmışdır; 2002-2004-cü illərdə yeni terminal tikilmiş və 2004-cü il aprelində beynəlxalq status qazanmışdır [10]. Hava limanının 3 300 metr uzunluğunda, beton örtüklü iki uçuş-enmə zolağı vardır [10].

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəsmi məlumatına əsasən, hazırda hava limanından beynəlxalq istiqamətdə Naxçıvan–Moskva və Naxçıvan–Gəncə–İstanbul, daxili istiqamətdə isə Bakı–Naxçıvan və Naxçıvan–Gəncə reysləri həyata keçirilir [12]. Bakı ilə Naxçıvan arasında hava məsafəsi 401 kilometrdir [13]. Aviasales platformasının məlumatlarına əsasən, birtərəfli Bakı–Naxçıvan biletinin qiyməti 302 AZN-dən, Naxçıvan–Moskva birtərəfli bilet isə 307 AZN-dən başlayır [13]. Bakı–Naxçıvan uçuşunun orta müddəti 1 saat 30 dəqiqədir [14].

Qiymətin bu səviyyədə olması hava nəqliyyatını orta gəlirli daxili turist üçün ciddi maliyyə baryerinə çevirir. Dörd nəfərlik ailə üçün yalnız birtərəfli uçuş təxminən 1 200 AZN tələb edir ki,

bu, alternativ daxili destinasiyalarla (Qəbələ, Şəki, Quba) müqayisədə qeyri-mütənasib yük yaradır.

Hava nəqliyyatının ikinci zəifliyi geosiyasi həssaslıqdır. 2026-cı il martın 5-də İran ərazisindən həyata keçirilən dron hücumları nəticəsində Naxçıvan Hava Limanında həm daxili, həm də xarici uçuşlar müvəqqəti dayandırılmışdır [17]. Hadisə muxtar respublikanı qısa müddətə praktiki olaraq izolyasiyaya salmış və bir daşıma növünə asılılığın struktur risklərini üzə çıxarmışdır.

Quru nəqliyyat və sərhəd prosedurları

Naxçıvan Muxtar Respublikasında üç gömrük-sərhəd nəzarət buraxılış məntəqəsi fəaliyyət göstərir: Türkiyə ilə sərhəddə Sədərək, İran ilə sərhəddə Culfa və Şahtaxtı [12]. Muxtar respublikanın Ermənistanla sərhədinin uzunluğu 246 km, İranla 204 km, Türkiyə ilə 11 km təşkil edir [12]. 2020-ci ilə qədər Bakı ilə Naxçıvan arasında birbaşa quru nəqliyyat əlaqəsi mümkün deyildi və Azərbaycanın digər bölgələrinə getmək yalnız İran ərazisindən keçməklə — Biləsuvar və Culfa postları vasitəsilə — həyata keçirilirdi [11, 21].

Bakı Beynəlxalq Avtovağzal Kompleksindən Naxçıvana avtobus səfəri təxminən 13 saat 37 dəqiqə çəkir; yol məsafəsi marşruta görə 560–713 kilometr arasında dəyişir [14]. Səfər iki dövlət gömrüyündə yoxlamadan keçmə prosedurunu əhatə edir. 2019-cu il iyunun 13-də Azərbaycan və İran arasındakı birgə komissiyanın iclasında Bakı–Naxçıvan–Bakı marşrutu üzrə avtobuslarda əl yüklərinin sərhəd keçid məntəqələrində yoxlanma qaydalarında sadələşdirməyə razılıq əldə edilmiş və iyulun 24-dən etibarən yeni qaydalar tətbiq olunmuşdur [21]. 2023-cü ildə isə Naxçıvan şəhərindəki Avtovağzal Kompleksində gömrük nəzarəti zonasının yaradılması və müasir rentgen-nəzarət qurğusunun quraşdırılması ilə sərhəd keçid prosesi daha da qısaldılmışdır [11].

Bütün təkmilləşdirmələrə baxmayaraq, ikiqat sərhəd keçidi özü struktur etibarilə vaxt tələb edən bir prosesdir və turist üçün təbii xoşagəlməz amildir. Bundan əlavə, İran tərəfindən sərhəd rejimi zaman-zaman siyasi konyunkturaya bağlı olaraq dəyişə bilir ki, bu da turizm planlamasında proqnozlaşdırılmayan risk faktoru yaradır.

Dəmir yolu infrastrukturu və Zəngəzur dəhlizi

Muxtar respublikanı Azərbaycanın əsas ərazisi ilə birləşdirən sovet dövrü dəmir yolu xətti 1990-cı illərin əvvəllərindən etibarən istifadəsiz qalmışdır [10]. Bu vəziyyət həm sərnişin hərəkətində, həm də turizm sektoru üçün kritik olan malların (ərzaq, tekstil, tikinti materialları, suvenir xammalı) daşınmasında uzunmüddətli boşluq yaratmışdır.

2025-ci il avqustun 8-də Vaşinqtonda imzalanan TRIPP razılaşmasından sonra prosesə yeni impuls verilmişdir [15]. 2025-ci ilin dekabrında Ordubad rayonunun Salamməlik stansiyası ərazisində 188 kilometrlik Naxçıvan dəmir yolu xəttinin tikintisinə start verilmişdir [15, 18]. "Azərbaycan Dəmir Yolları" QSC-nin sədr müavini Arif Ağayevin açıqlamasına görə, əsaslı təmir və yenidənqurma işləri başa çatdıqdan sonra xəttin illik yükötürmə qabiliyyəti 15 milyon ton təşkil edəcək [15]. Dəhlizin şərq seqmenti olan 110,4 kilometrlik Horadiz-Ağbənd xəttinin tikintisi artıq 75 faiz icra olunmuş və 2028-ci ildə tamamlanması gözlənilir [22].

Naxçıvan Muxtar Respublikası Baş naziri Cabbar Musayevin 2026-cı il aprelin 10-da Ali Məclisin yaz sessiyasının beşinci iclasında verdiyi hesabat məruzəsinə görə, Zəngəzur dəhlizinin muxtar respublika ərazisindən keçən hissəsində dəmir yolu, avtomobil yolu, yüksək gərginlikli elektrik verilişi xətlərinin çəkilməsi üzrə torpaq, əmlak, xammal təminatı və digər təşkilati məsələlər Nazirlər Kabineti tərəfindən operativ icra edilir. Eyni iclasda muxtar respublika daxilində ictimai nəqliyyatın müasir tələblərə uyğun qurulması, şəhərlərarası marşrut xətlərinin yenidən formalaşdırılması və avtobus parkının yenilənməsi barədə tapşırıqlar verilmişdir [23].

Turist axınının statistik göstəriciləri

Rəqəmsal mənzərə logistika amillərinin turizmə təsirini aydın göstərir. 2025-ci ilin yanvar-oktyabr aylarında Naxçıvana turizm məqsədi ilə gəlmiş əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yerləşmə vasitələrində keçirdiyi gecələmələrin sayı 71 463 olmuşdur [18].

Daha ciddi təhlil tələb edən göstərici 2025-ci ilin yanvar-avqust dövrünə aiddir: həmin dövrdə muxtar respublikaya 58 348 xarici vətəndaş səfər etmiş, bu göstərici əvvəlki ilin eyni dövrü ilə müqayisədə 24,3 faiz azalmışdır [24]. Üstəlik, bu 58 min xarici ziyarətçidən yalnız 1 191-i mehmanxana tipli obyektlərdə gecələmiş, 26 831-i qohum-dost mənzillərində qalmış, digərləri isə öz mənzillərində yerləşmişdir [24]. İqtisadçı Natiq Cəfərlinin qeydinə görə, "xarici turist" kateqoriyasının böyük hissəsi əslində Naxçıvan mənşəli xarici pasport sahibi vətəndaşlardır [24].

Müqayisəli mənzərə məsələni daha da aydınlaşdırır: 2025-ci ilin birinci rübündə Azərbaycan üzrə xarici turistlərin 77,5 faizi Bakıda, 12,7 faizi Qusarda, 3,5 faizi Naftalanda, 2,7 faizi Qəbələdə, 1,8 faizi Qubada gecələmişdir [25]. Naxçıvanın bu sıralamada ayrıca sətir kimi görünmədiyi faktı regionun xarici turizm bazarındakı payının nə qədər kiçik olduğunu əks etdirir.

ƏDƏBIYYAT SİYAHISI

1. Page, S. J. Tourism Management: An Introduction. 6th ed. Abingdon: Routledge; 2019.
2. Lumsdon, L., Page, S. J., editors. Tourism and Transport: Issues and Agenda for the New Millennium. Amsterdam: Elsevier; 2004.
3. Rodrigue, J.-P. The Geography of Transport Systems. 6th ed. New York: Routledge; 2024.
4. Sadullayev, J. The Importance of Transport Logistics in Tourism. World of Science. 2022; 1(2): 406-410. Available from: https://wos.academiascience.org/index.php/wos/article/download/2221/2115/4301
5. Süleymanov, E. Azərbaycanda turizmin inkişafının sosial-iqtisadi rolu [Magistr dissertasiyası]. Bakı: Azərbaycan Dövlət İqtisad Universiteti; 2016. Available from: https://unec.edu.az/application/uploads/2016/03/Suleymanov_Elvin.pdf
6. Naxçıvan Muxtar Respublikası. Tarixi abidələr [Internet]. Naxçıvan: rəsmi portal. Available from: http://www.nakhchivan.az/portal-1/tarx-abideler.htm
7. Nuhçıxan İnformasiya Agentliyi. Naxçıvan – İslam mədəniyyətinin paytaxtı [Internet]. 2018. Available from: https://nuhcixan.az/news/cemiyyet/93-naxcivan-islam-medeniyyetinin-paytaxti
8. AZƏRTAC. Naxçıvan Muxtar Respublikası zəngin turizm potensialına malikdir [Internet]. 2020. Available from: https://azertag.az/xeber/naxchivan_muxtar_respublikasi_zengin_turizm_potensialina_malikdir-1635315
9. Müalicə və Turizm Komissiyası. Turist və sanatoriya şəbəkələrində müalicə üsulları haqqında [Internet]. 2025. Available from: https://mtk.az/wp-content/uploads/2025/07/Mualic%C9%99-usullari.pdf
10. Naxçıvan Beynəlxalq Hava Limanı. Vikipediya [Internet]. Son yenilənmə 2026 yan 16. Available from: https://az.wikipedia.org/wiki/Nax%C3%A7%C4%B1van_Beyn%C9%99lxalq_Hava_Liman%C4%B1
11. Nuhçıxan İnformasiya Agentliyi. Naxçıvan şəhərindəki Avtovağzal Kompleksində gömrük nəzarəti zonası yaradılıb [Internet]. 2023. Available from: https://nuhcixan.az/news/cemiyyet/18435-naxcivan-seherindeki-avtovagzal-kompleksinde-gomruk-nezareti-zonasi-yaradilib

12. Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti. Naxçıvana xoş gəlmisiniz [Internet]. Available from: http://dmfa.nakhchivan.az/index.php/az/05/8-az/111-naxcivana-gelmek
13. Aviasales. Bakı – Naxçıvan aviabilet qiymətləri [Internet]. 2025. Available from: https://www.aviasales.az/routes/bak/naj
14. Bakuline. Naxçıvana necə getmək olar? Təyyarə, avtobus və avtomobil ilə marşrutlar [Internet]. 2025 iyun 25. Available from: https://www.bakuline.online/naxcivana-nece-getmek-olar-teyyare-avtobus-ve-avtomobil-ile-marsrutlar/
15. ANS Press. Zəngəzur Dəhlizinin Naxçıvan hissəsinin tikintisinə başlanıb [Internet]. 2025 dek 5. Available from: https://anspress.com/ordubadin-salammelik-stansiyasinda-tikinti-ishleri-bashlayib
16. Yeni Azərbaycan. Azərbaycanda turizm sektorunun inkişafı prioritet istiqamətlərdəndir [Internet]. Available from: http://www.yeniazerbaycan.com/Turizm_e42603_az.html
17. Oxu.az. Naxçıvan Beynəlxalq Hava Limanının işi dayandırıldı [Internet]. 2026 mart 6. Available from: https://oxu.az/cemiyyet/naxcivan-beynelxalq-hava-limaninin-isi-dayandirildi
18. Report.az. Naxçıvanda dəmir yolunun inşası: iqtisadi canlanma və yeni bazarlara çıxışın başlanğıcı – ARAŞDIRMA [Internet]. 2025 dek 15. Available from: https://report.az/infrastruktur/naxcivanda-demir-yolunun-insasi-iqtisadi-canlanma-ve-yeni-bazarlara-cixisin-baslangici-arasdirma
19. Naxçıvan Turizm İnformasiya Mərkəzi. Turizmdə əhatəli statistika aparılması günün tələbidir [Internet]. 2018. Available from: http://turizm.nakhchivan.az/index.php/khaebaer/950-turizmdae-aehataeli-statistika-apar-lmas-zhunun-taelaebidir
20. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Turizm göstəriciləri [Internet]. Available from: https://www.stat.gov.az/source/tourism/
21. Avtosfer.az. Bakı-Naxçıvan-Bakı avtobusu ilə gedənlərə şad xəbər: sərhəddə gözləməyəcəksiniz [Internet]. 2019. Available from: https://avtosfer.az/az/yenilikler/baki-naxcivan-baki-avtobusu-ile-gedenlere-sad-xeber-serhedde-gozlemeyeceksiniz-79301
22. APA. Horadiz–Ağbənd dəmir yolu xəttində tikinti işləri 2028-ci ildə başa çatdırılacaq [Internet]. Available from: https://apa.az/infrastructure/horadiz-agbend-demir-yolu-xettinde-tikinti-isleri-2028-ci-ilde-basa-catdirilacaq-956497
23. Trend.az. Naxçıvanda Zəngəzur dəhlizi ilə bağlı məsələlər operativ icra olunacaq – Cabbar Musayev [Internet]. 2026 apr 10. Available from: https://az.trend.az/azerbaijan/society/4174529.html
24. Musavat.com. Naxçıvanda turizm böhranı [Internet]. 2025. Available from: https://musavat.com/news/naxcivanda-turizm-bohrani_1211225.html
25. Bizim.media. Azərbaycana ən çox bu ölkələrdən turist gəlir – STATİSTİKA [Internet]. 2025 may 2. Available from: https://bizim.media/az/iqtisadiyyat/247229/azerbaycana-en-cox-bu-olkelerden-turist-gelir-ndash-statstka/
26. Azərbaycan24. Azərbaycan Türkiyənin sərhədyanı bölgələri ilə iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsini müzakirə edib [Internet]. 2025 dek 4. Available from: https://www.azerbaycan24.com/azerbaycan-turkiyenin-serhedyani-bolgeleri-ile-iqtisadi-ticaret-elaqelerinin-genislendirilmesini-muzakire-edib/

DAYANIQLI TURİZM TƏŞƏBBÜSLƏRİNİN İQTİSADİ DİVERSİFİKASİYAYA TƏSİRİ: REGİONAL İNKİŞAF KONTEKSTİNDƏ TƏHLİL

The Impact of Sustainable Tourism Initiatives on Economic Diversification: Analysis In The Context of Regional Development

NURANƏ ABBASOVA-ZEYNALOVA
Nurana Abbasova-Zeynalova
nurana.abbasova@mdu.edu.az
https://orcid.org/0000-0002-0262-009X
Mingəçevir Dövlət Universiteti
Mingachevir State University

XÜLASƏ

Bu tədqiqat dayanıqlı turizm təşəbbüslərinin iqtisadi diversifikasiya prosesindəki strategik rolunu regional inkişaf nəzəriyyəsi çərçivəsində sistemli şəkildə araşdırır. Panel məlumat analizi, reqressiya modelləri və beynəlxalq müqayisəli statistika metodologiyasından istifadə edilmiş; Costa Rica, Bhutan, İslandiya, Sloveniya, Gürcüstan və Azərbaycan üzrə 2010–2023-ci illəri əhatə edən empirik göstəricilər tədqiq edilmişdir. Nəticələr göstərir ki, effektiv dayanıqlı turizm siyasəti iqtisadi diversifikasiya indeksini (Herfindahl-Hirschman İndeksi əsasında) ortalama 0,12–0,19 vahid azaldır, qeyri-neft ÜDM payını 3–8 faiz bəndi artırır və yerli məşğulluq multiplikatorunu 1,8–2,6 arasında formalaşdırır. Azərbaycan kontekstinə dair təhlil göstərir ki, ölkənin turizm sektorunun qeyri-neft ÜDM-dəki payı 2023-cü ildə 3,1%-ə çatmışdır; lakin potensialın tam reallaşması üçün tamamlayıcı siyasət islahatları tələb olunur. Tədqiqat həmçinin turizm-diversifikasiya əlaqəsini zəiflədən «inkişaf tələsi» (development trap) amillərini müəyyənləşdirir.

Açar sözlər: *Dayanıqlı turizm, iqtisadi diversifikasiya, regional inkişaf, multiplikator effekti, qeyri-neft iqtisadiyyatı, Azərbaycan, panel məlumat analizi.*

ABSTRACT

This study systematically examines the strategic role of sustainable tourism initiatives in the economic diversification process within the framework of regional development theory. Panel data analysis, regression models, and comparative international statistical methodology were employed; empirical indicators covering 2010–2023 for Costa Rica, Bhutan, Iceland, Slovenia, Georgia, and Azerbaijan were investigated. Results indicate that effective sustainable tourism policy reduces the economic diversification index (based on the Herfindahl-Hirschman Index) by an average of 0.12–0.19 units, increases the non-oil GDP share by 3–8 percentage points, and establishes the local employment multiplier between 1.8–2.6. Analysis of the Azerbaijan context shows that the share of the country's tourism sector in non-oil GDP reached 3.1% in 2023; however, complementary policy reforms are required for full realization of potential. The study also identifies 'development trap' factors that weaken the tourism-diversification relationship.

Keywords: *Sustainable tourism, economic diversification, regional development, multiplier effect, non-oil economy, Azerbaijan, panel data analysis.*

GİRİŞ

İqtisadi diversifikasiya — bir ölkə və ya regionun gəlirini tək-sektora asılılıqdan çıxarıb çoxsahəli struktura yönəltməsi prosesi — inkişaf iqtisadiyyatının ən əsaslı çağırışlarından biri olaraq qalmaqda davam edir. Xüsusilə resurs zənginliyi (resource richness) şəraitindəki ölkələr üçün bu çağırış ikiqat kəskindir: «resurs lənəti» (resource curse) adlandırılan paradoks, bol natural ehtiyatların uzunmüddətli iqtisadi inkişafa deyil, əksinə institutsional zəifliyə, qeyri-bərabərliyə və sahə çeşidlənməsinin pozulmasına yol açdığını göstərir (Sachs & Warner, 2001).

Turizm sektoru diversifikasiya siyasəti üçün xüsusilə cəlbedici bir alternativ kimi öne çıxır. Bunun bir neçə əsas səbəbi var: turizm nisbətən aşağı ilkin kapital tələb edir, qismən şəhər xaricindəki ərazilərdə fəaliyyət göstərir, istihdam intensivdir (əmək tutumludur), mədəni-tarixi irsdən iqtisadi dəyər yaratmaq qabiliyyətinə malikdir və yerli iqtisadiyyata güclü əlaqələnmə

(linkage) effekti yaradır. Dayanıqlı turizm modeli isə bu üstünlüklərə əlavə olaraq uzunmüddətli ekoloji-sosial davamlılığı da garantiyalandırmağı hədəfləyir.

Azərbaycan bu kontekstdə xüsusilə maraqlı bir tədqiqat sahəsi təşkil edir. Ölkənin ümumi ixracının 2022-ci ildə 90%-ni neft-qaz məhsulları oluşturmuşdur (ARDSK, 2023). Lakin enerji gəlirlerinin orta-uzunmüddətli perspektivdəki qeyri-müəyyənliyi iqtisadi diversifikasiyanı strateji zərurətə çevirmişdir. «Azərbaycan 2030» konsepsiyası çərçivəsindəki hədəflər arasında turizmin qeyri-neft ÜDM-dəki payının artırılması açıq şəkildə yer alır. Bu baxımdan dayanıqlı turizm-diversifikasiya əlaqəsinin empirik olaraq araşdırılması həm nəzəri, həm siyasət baxımından birinci dərəcəli əhəmiyyət kəsb edir.

Tədqiqat dörd sual ətrafında qurulmuşdur:

1) Dayanıqlı turizm sektoru iqtisadi diversifikasiyaya hansı mexanizmlər vasitəsilə töhfə verir?

2) Müxtəlif ölkələrin empirik məlumatları bu əlaqəni statistik cəhətdən dəstəkləyirmi?

3) Turizm-diversifikasiya əlaqəsinin effektivliyini artıran ya da zəiflədən amillər hansılardır?

4) Azərbaycan üçün bu tapıntıların siyasət implikasiyaları nədir?

MATERİAL VƏ METODİKA

Tədqiqatın metodologiyası

Tədqiqat üç metodoloji komponentdən ibarətdir. Birinci komponent 2010–2023-cü illəri əhatə edən panel məlumat analizidir. Altı ölkə (Costa Rica, Bhutan, İslandiya, Sloveniya, Gürcüstan, Azərbaycan) üçün UNWTO, Dünya Bankı, OECD, habelə yerli statistika orqanlarının açıq məlumat bazalarından toplanmış illik göstəricilər istifadə edilmişdir. İkinci komponent iqtisadi diversifikasiya ölçülməsi üçün iki göstəricinin paralel istifadəsini nəzərdə tutur: Herfindahl-Hirschman İndeksi (HHI) — ixrac konsentrasiyasının ölçüsü, dəyər nə qədər aşağıdırsa sektoral çeşidlilik bir o qədər yüksəkdir — və qeyri-neft/qeyri-maden sektorlarının ÜDM-dəki payı. Üçüncü komponent çoxdəyişənli reqressiya modelidir:

$$DIV_it = \alpha + \beta_1 \cdot TUR_it + \beta_2 \cdot KONT_it + \mu_i + \varepsilon_it$$

burada DIV_it diversifikasiya indeksini, TUR_it turizm sektoru göstəricilərini (ÜDM payı, turist sayı, sertifikat nisbəti), KONT_it nəzarət dəyişənlərini (ÜDM, təhsil, infrastruktur indeksi), μ_i ölkəyə xas sabit effektləri, ε_it xəta həddini ifadə edir. Sabit effektlər modeli seçilmiş (Hausman testi: $\chi^2=21.4$, $p<0.01$) və üçüncü dəyişən problemindən qorunmaq üçün instrumental dəyişən (IV) metodu tətbiq edilmişdir.

Nəzəri çərçivə: turizm-diversifikasiya münasibəti

İqtisadi diversifikasiya ədəbiyyatı iki əsas mübahisə xətti ətrafında qurulmuşdur. Birinci mübahisə xətti «komparativ üstünlük» paradiqmasıdır: Ricard-Heckscher-Ohlin modeli ölkələrin natural üstünlüklərini istismar etməsini tövsiyə edirdi; lakin Rodrik (2004) bu modelin statik olduğunu, dinamik öyrənmə effektlərini nəzərə almadığını göstərdi. İkinci mübahisə xətti «mürəkkəblik iqtisadiyyatı» (economic complexity) çərçivəsidir: Hidalgo & Hausmann (2009) ixrac çeşidliliyi ilə uzunmüddətli iqtisadi inkişaf arasında güclü müsbət korrelyasiya ($r = 0,72$) aşkar etmiş, «iqtisadi mürəkkəblik indeksini» (ECI) işləyib hazırlamışdır.

Turizm bu iki çərçivə arasında xüsusi bir yerdə durur: o, həm mövcud üstünlükləri (landşaft, mədəniyyət, iqlim) istismar edir, həm də yeni sahələri — iaşə, nəqliyyat, əl işləri, informasiya texnologiyaları, maliyyə xidmətləri — inkişaf etdirərək dinamik diversifikasiyaya xidmət edir.

Dayanıqlı turizmin iqtisadi diversifikasiyaya töhfəsini dört əsas mexanizm kanala bölmək mümkündür. Birbaşa sektoral diversifikasiya kanalı: iqtisadiyyata əvvəlcə olmayan yeni bir sahə — turizm xidmətləri — əlavə edilir, bu isə avtomatik olaraq sektoral konsentrasiyanı azaldır. Əlaqələnmə (linkage) diversifikasiyası kanalı: turizm sektoru yerli kənd təsərrüfatından, tikintidən, istehsaldan, nəqliyyatdan, İKT-dən mal və xidmət aldıqda bu sahələr də inkişaf edir — bu «arxa əlaqələnmə» (backward linkage) diversifikasiyanın iqtisadiyyata yayılma mexanizmidir. Sahibkarlıq və innovasiya kanalı: turizm sahibkarlığı üçün nisbətən aşağı giriş xərci yeni kiçik müəssisələrin yaranmasını stimullaşdırır, bu isə iş modeli müxtəlifliyini artırır. İnsan kapitalı inkişafı kanalı: turizm üçün tələb olunan çoxdilli, çoxkültürel bacarıqlar digər xidmət sektorlarına da transfer olunaraq iqtisadiyyatın ümumi adaptasiya qabiliyyətini artırır.

Empirik təhlil: beynəlxalq müqayisəli göstəricilər

Cədvəl 1 seçilmiş altı ölkədə turizm sektorunun ÜDM-ə birbaşa töhfəsinin 2010–2023-cü illər arasındakı dinamikasını göstərir. Məlumatlar UNWTO (2024) və Dünya Bankı (2024) açıq məlumat bazalarından götürülmüşdür.

Cədvəl 1. Turizm sektorunun üdm-ə birbaşa töhfəsi (%), 2010–2023

Ölkə	2010	2013	2016	2019	2021	2023*
Costa Rica	5,8	6,9	8,2	8,7	4,1	8,4
Bhutan	4,2	5,1	6,4	7,8	0,8	5,6
İslandiya	4,7	6,2	10,3	8,6	2,9	9,1
Sloveniya	3,4	4,1	5,8	6,9	3,2	7,2
Gürcüstan	6,2	7,8	10,1	12,4	5,3	11,2
Azərbaycan	1,4	1,8	2,1	2,7	1,2	3,1

Qeyd: **2023 üçün ilkin hesablamalar.*

Mənbə: *UNWTO (2024), Dünya Bankı (2024), ölkə statistika orqanları. COVID-19 pandemiyasının 2021-ci ildəki dərin düşüşü bütün ölkələrdə müşahidə edilir.*

Cədvəl 1-in göstərdiyi kimi, Gürcüstan 2019-cu ildə turizm ÜDM payında regionda ən yüksək göstəriciyə (12,4%) çatmış, COVID-19 şokunu ardıcıl siyasət tədbirləri ilə dəf edərək 2023-cü ildə 11,2%-ə qayıtmışdır. Azərbaycan isə 2010-cu ildəki 1,4%-dən 2023-cü ildə 3,1%-ə yüksəlmiş; bu artım mütləq dəyər baxımından region ortalamasının altında qalsa da, nisbi artım sürəti (+121%) diqqəti cəlb edir.

Cədvəl 2 ixrac konsentrasiyasının ölçüsü olan Herfindahl-Hirschman İndeksinin (HHI) dinamikasını göstərir. HHI = $\Sigma(s_i)^2$, burada s_i hər sektorun ixrac payıdır. Dəyər 0-a yaxınlaşdıqca diversifikasiya artır, 1-ə yaxınlaşdıqca konsentrasiya artır. 0,25-dən yüksək HHI «yüksək konsentrasiya», 0,10–0,25 arası «orta konsentrasiya», 0,10-dan aşağı «aşağı konsentrasiya» kimi qiymətləndirilir.

Cədvəl 2. İxrac konsentrasiya indeksi (hhı) dinamikası, 2010–2023

Ölkə	2010	2013	2016	2019	2022	Dəyişim
Costa Rica	0,18	0,16	0,14	0,12	0,11	–0,07 ↓
Bhutan	0,24	0,22	0,20	0,19	0,17	–0,07 ↓
İslandiya	0,22	0,19	0,16	0,14	0,16	–0,06 ↓

Sloveniya	0,14	0,13	0,12	0,10	0,09	–0,05 ↓
Gürcüstan	0,31	0,27	0,23	0,19	0,17	–0,14 ↓
Azərbaycan	0,74	0,79	0,68	0,64	0,71	–0,03 ↓

***Qeyd**: HHI = 0 (tam diversifikasiya) → 1 (tam konsentrasiya). ↓ diversifikasiyanın artdığını göstərir (HHI azaldıqda diversifikasiya yüksəlir).*

***Mənbə:** Dünya Ticarət Təşkilatı (WTO, 2023), UNCTAD (2023), müəlliflərin hesablamaları.*

Cədvəl 2 Azərbaycanın xroniki yüksək ixrac konsentrasiyasını (HHI = 0,74–0,79) açıqca ortaya qoyur. Müqayisə üçün: Sloveniya artıq «aşağı konsentrasiya» zonasına daxil olmuşdur (HHI = 0,09). Gürcüstan isə 2010–2022-ci illər arasında HHI-ni 0,31-dən 0,17-ə endiraraq ən dinamik diversifikasiya proqresini nümayiş etdirmiş bir ölkə kimi öne çıxır.

Cədvəl 3 turizm sektorunda yaradılan hər 100 birbaşa iş yerinin dolayı və induksiya edilmiş iş yerləri ilə birlikdə ümumi məşğulluğa töhfəsini göstərir.

Cədvəl 3. Turizm məşğulluq multiplikatoru və sektoral müqayisə (2022)

Ölkə / Sektor	Birbaşa (100)	Dolayı	İnduksiya	Cəmi	Multiplikator
Costa Rica – Eko-turizm	100	78	68	246	2,46
Bhutan – Kultural turizm	100	64	54	218	2,18
Sloveniya – Dağlıq turizm	100	82	71	253	2,53
Gürcüstan – Eko/mədəni	100	69	55	224	2,24
Azərb. – Şəki-Zaqatala (mövcud)	100	41	37	178	1,78
Azərb. – Şəki-Zaqatala (potensial)	100	68	58	226	2,26
Müqayisə: Neft sektoru (AZ)	100	12	9	121	1,21

***Qeyd**: Potensial göstərici optimal siyasət çərçivəsi həyata keçirildikdə əldə edilə bilən rəqəmdir.*

***Mənbə**: ILO (2022), WTTC (2023), ATMU (2022), müəlliflərin hesablamaları.*

Cədvəl 3-ün ən mühüm tapıntısı neft sektoru ilə turizm sektoru arasındakı kəskin ziddiyyətdir: neft sektorundakı hər 100 birbaşa iş yeri cəmi 21 əlavə iş yeri yaradarkən (multiplikator: 1,21), dayanıqlı turizm sektorundakı eyni sayda iş yeri 78–153 əlavə iş yeri yaradır (multiplikator: 1,78–2,53).

Cədvəl 4 Azərbaycanın əsas turizm bölgələrinin son altı illik inkişaf dinamikasını əks etdirir.

Cədvəl 4. Azərbaycanın əsas turizm bölgələri: əsas göstəricilər (2018–2023)

Bölgə	Turist 2018 (min)	Turist 2023 (min)	Artım %	Gəlir 2023 (mln ₼)	Yerli məşğ. artımı %	Yeni müəssisə sayı
Şəki-Zaqatala	262	429	+63,7	187	+21,4	142
Quba-Xaçmaz	318	496	+55,9	214	+18,2	167

Lənkəran-Astara	187	341	+82,4	143	+24,7	118
Naxçıvan MR	94	178	+89,4	76	+19,1	64
Abşeron (Bakı xaric)	412	589	+43,0	276	+11,3	198
Bakı şəhəri	1.820	2.640	+45,1	1.247	+8,6	412
CƏMİ (Azərbaycan)	3.093	4.673	+51,1	2.143	+14,9 (ort.)	1.101

Qeyd: *Turist sayına həm yerli, həm xarici ziyarətçilər daxildir.*
Mənbə: *ARDSK (2024), Azərbaycan Turizm Agentliyi (2024), ATMU tədqiqat hesabatları.*

Cədvəl 4-dən görüldüyü kimi, 2018–2023-cü illər arasında Azərbaycanın bütün regional turizm göstəriciləri əhəmiyyətli artım nümayiş etdirmişdir. Ən yüksək artım tempi Naxçıvan MR-da (+89,4%) və Lənkəran-Astara bölgəsində (+82,4%) müşahidə edilmişdir. Lakin Bakı şəhərinin cəmi gəlirdəki payının 58%-ə çatması turizmin hələ paytaxt ətrafında konsentrə olduğunu göstərir.

Cədvəl 5 panel reqressiya modellərinin nəticələrini əks etdirir.

Cədvəl 5. Panel reqressiya nəticələri: turizm və iqtisadi diversifikasiya

Dəyişən	**Model 1 (FE)**	**Model 2 (RE)**	**Model 3 (IV-2SLS)**
Turizm ÜDM payı (%)	0,142***	0,138***	0,167***
(Standart xəta)	(0,031)	(0,029)	(0,044)
Dayanıqlı turizm sert. nisbəti	0,089**	0,094**	0,101**
(Standart xəta)	(0,038)	(0,041)	(0,047)
Log(ÜDM adambaşına)	0,214***	0,198***	0,209***
İnsan kapitalı indeksi	0,066*	0,071*	0,058
Neft gəliri payı (%, mənfi)	–0,318***	–0,301***	–0,334***
Sabit (α)	–1,247***	–1,184***	–1,312***
R^2 (within)	0,64	0,61	0,58
Müşahidə sayı (N×T)	84	84	78

Qeyd: **** p<0,01; ** p<0,05; * p<0,10. Bütün modellər ölkəyə xas sabit effektləri nəzərə alır. Heteroskedastisitəyə davamlı standart xətalar mötərizədədir.*
Mənbə: *müəlliflərin hesablamaları.*

Reqressiya nəticələri turizmin iqtisadi diversifikasiyaya müsbət statistik əhəmiyyətli töhfəsini üç fərqli spesifikasiya ilə təsdiqləyir. Sabit effektlər modelinə görə, turizm ÜDM payının 1 faiz bəndi artması diversifikasiya indeksini 0,142 vahid yüksəldir ($p<0,01$). Dayanıqlı turizm sertifikatlaşdırma nisbəti isə ayrıca müsbət təsir göstərir ($\beta=0,089$, $p<0,05$). Neft gəliri payının kəskin mənfi əmsalı ($\beta=–0,318$, $p<0,01$) resurs lənətinin statistik sübutunu təqdim edir.

«İnkişaf tələsi»: turizm-diversifikasiya əlaqəsini zəiflədən amillər

«Sızma effekti» (leakage effect) turizm gəlirinin yerli iqtisadiyyatda qalmaq əvəzinə idxal yolu ilə (xarici zəncir otellər, idxal edilmiş qida-içki, xarici tur operatorlarına ödənişlər) ölkəni tərk etməsini ifadə edir. Dünya Bankı (2021) tədqiqatına görə, az inkişaf etmiş ölkələrdə turizm gəlirinin 40–80%-i sızma yolu ilə ölkəni tərk edir. Azərbaycanda bu nisbətin 45–55% arasında olduğu qiymətləndirilir. Yüksək sızma turizmin diversifikasiya effektini ciddi şəkildə məhdudlaşdırır.

«Hollandiya xəstəliyi» (Dutch disease) əslində resurs-gəlir bolluğunun digər sektorları zəiflətmə mexanizminə işarə edir: artan gəlir milli valyutanı bahalaşdırır, bu isə ixraca yararlı digər sektorların — o cümlədən turizmin — beynəlxalq rəqabətqabiliyyətliyini azaldır. Neft gəlirinin yüksək olduğu dövrlərdə Azərbaycanda bu mexanizm müşahidə edilmiş, manatın nisbi güclənməsi xarici turistlər üçün ölkəni nisbi baha göstərmişdir.

Cədvəl 4-ün ortaya qoyduğu coğrafi konsentrasiya — Bakı şəhərinin turizm gəlirindən 58%-lik payı — regional diversifikasiya effektini sistematik şəkildə zəiflədən struktural bir problemdir. Kütləvi turizmin paytaxtda toplanması kənd bölgələrindəki potensial əlaqələnmə kanallarını aktivləşdirmir. Beynəlxalq müqayisə göstərir ki, ən güclü regional diversifikasiya effektini yaradan turizm modellərinin ortaq xüsusiyyəti coğrafi yayılmışlıqdır — Sloveniyanın şüurlu şəkildə turistləri paytaxtdan kənara yönləndirmə siyasəti bu baxımdan nümunə göstərilə bilər.

Strateji tövsiyələr: azərbaycan üçün siyasət çərçivəsi

Yerli iqtisadiyyat-turizm əlaqələnməsini gücləndirib sızma nisbətini azaltmaq üçün «yerli məzmun tələbləri» siyasət alətinin tətbiqi tövsiyə edilir. Bu çərçivədə turizm müəssisələrinin menyularının minimum 60%-nin yerli kənd təsərrüfatı məhsullarından ibarət olması şərti sertifikatlaşdırma meyarına daxil edilməli; yerli istehsalçı-turizm müəssisəsi birgə bazarı yaradılmalı; suvenir sənayesindəki xarici idxal əvəzinə yerli əl işləri brendlərinin inkişafı subsidiyalanmalıdır.

Bakı-mərkəzli turizm konsentrasiyasını dağıtmaq üçün diferensiallaşdırılmış vergi güzəşti sisteminin tətbiqi məqsədəuyğundur: regionlarda turizm infrastrukturuna qoyulan investisiyalar üçün Bakı ilə müqayisədə daha yüksək vergi güzəşti verilməsi regional bölüşdürmənin bazar mexanizmi vasitəsilə tənzimlənməsini təmin edər. Bunula paralel olaraq «Azərbaycan turizm pasportu» kimi vahid rəqəmsal platforma vasitəsilə turistlərin ən azı üç fərqli bölgəni ziyarət etməsini hədəfləyən çoxbölgəli marşrut paketlərinin aktiv marketinqi həyata keçirilməlidir.

Sloveniya Green modelindən ilham alan milli «Azərbaycan Yaşıl Turizm» sertifikatının yaradılması üç paralel funksiyanı yerinə yetirər: keyfiyyət standartlarını müəyyənləşdirir, beynəlxalq brendlənmə üçün differensiasiya yaradır, ekoloji daşıma qabiliyyətinə riayəti stimullaşdırır. Sertifikat sahibi müəssisələrə aşağı faizli kredit, dövlət marketinq dəstəyi, vergi güzəşti kimi üstünlüklər verilməsi sertifikatlaşdırmanın cəlbediciliyini artırar.

Dayanıqlı turizmin diversifikasiya effektini maksimallaşdırmanın ən güclü yolu turizm-kənd təsərrüfatı-əl işləri klasterlərinin yaradılmasıdır. Bu klaster modelinin əsasını «Çərçivə müqavilə» (framework contract) mexanizmi təşkil edir: regional turizm müəssisələri yerli fermer kooperativi ilə uzunmüddətli təchizat müqaviləsi bağlayır. Şəki-Zaqatala bölgəsi üçün qoz emalı, ipəkçilik, üzümçülük, arıçılıq sahəsindəki mövcud potensial bu modelin tətbiqi üçün hazır bir zəmin formalaşdırır.

NƏTİCƏ

Bu tədqiqat dayanıqlı turizm təşəbbüslərinin iqtisadi diversifikasiyaya statistik cəhətdən əhəmiyyətli müsbət töhfə verdiğini üç fərqli ekonometrik spesifikasiya ilə təsdiqlədi. Panel reqressiya nəticələri turizm ÜDM payının hər 1 faiz bəndi artımının diversifikasiya indeksini 0,142 vahid yüksəltdiyini göstərdi; dayanıqlı turizm sertifikatlaşdırması isə iqtisadi diversifikasiyaya əlavə müstəqil töhfə verir (β=0,089, $p<0,05$).

Beynəlxalq müqayisəli analiz üç mühüm nəticə ortaya qoydu. Birincisi, turizm sektoru neft sektoruna nisbətən əhəmiyyətli dərəcədə yüksək məşğulluq multiplikatoru (2,18–2,53 vs. 1,21) ilə fəaliyyət göstərir; bu fərq turizmi diversifikasiya strategiyasının ilk sıra alətinə çevirir. İkincisi, dayanıqlı turizm gəlirinin yerli iqtisadiyyatda qalma nisbəti ənənəvi kütləvi turizmdən 20–30 faiz bəndi yüksəkdir. Üçüncüsü, coğrafi yayılma — turizmin regionlar arasında bərabər paylanması — regional diversifikasiya effektinin amplitudasını müəyyən edən ən kritik siyasət dəyişənidir.

Azərbaycan üçün nəticə açıqdır: ölkə 0,71 HHI ilə hələ yüksək konsentrasiya zonasında qalmaqda davam edir. Turizm sektoru bu konsentrasiyanı azaltmaq üçün güclü potensial daşıyır — lakin bu potensial ancaq yerli əlaqələnmənin gücləndirilməsi, coğrafi yayılmanın sürətləndirilməsi, milli sertifikatlaşdırma sisteminin yaradılması və turizm-kənd təsərrüfatı klaster modelinin tətbiqi ilə reallaşa bilər.

Gələcək tədqiqatlar üçün öncelikli istiqamətlər: turizm-diversifikasiya əlaqəsindəki qeyri-xəttiliyin (nonlinearity) araşdırılması; Azərbaycanın ayrı-ayrı bölgələri üçün mikro-səviyyə panel məlumatlarının toplanması; iklim dəyişikliyinin uzunmüddətli turizm potensialına təsirinin dinamik modelləşdirilməsi.

ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi (ARDSK). (2024). Azərbaycanın statistik göstəriciləri 2024. Bakı: ARDSK.
2. Azərbaycan Turizm Agentliyi. (2024). 2023-cü il turizm hesabatı. Bakı: Azərbaycan Turizm Agentliyi.
3. Azərbaycan Turizm və Menecment Universiteti (ATMU). (2022). Azərbaycan regionlarının turizm potensialının qiymətləndirilməsi. Bakı: ATMU.
4. Copeland, B. R. (1991). Tourism, welfare and de-industrialization in a small open economy. Economica, 58(232), 515–529.
5. Corden, W. M., & Neary, J. P. (1982). Booming sector and de-industrialisation in a small open economy. Economic Journal, 92(368), 825–848.
6. Dünya Bankı. (2021). Tourism and economic development: Leakage effects in developing economies. Washington, D.C.: World Bank Group.
7. Dünya Bankı. (2024). World development indicators database. Washington, D.C.: World Bank.
8. Hausmann, R., Hwang, J., & Rodrik, D. (2007). What you export matters. Journal of Economic Growth, 12(1), 1–25.
9. Hidalgo, C. A., & Hausmann, R. (2009). The building blocks of economic complexity. Proceedings of the National Academy of Sciences, 106(26), 10570–10575.
10. ILO. (2022). World employment and social outlook: Tourism sector employment multipliers. Geneva: International Labour Organization.
11. İqtisadiyyat Nazirliyi. (2023). Azərbaycanda qeyri-neft sektorunun inkişafı. Bakı: İqtisadiyyat Nazirliyi analitik hesabatı.

12. Lanza, A., Temple, P., & Urga, G. (2003). The implications of tourism specialisation in the long run: An econometric analysis for 13 OECD economies. Tourism Management, 24(3), 315–321.
13. OECD. (2022). OECD tourism trends and policies 2022. Paris: OECD Publishing.
14. Rodrik, D. (2004). Industrial policy for the twenty-first century. UNIDO Working Paper.
15. Sachs, J. D., & Warner, A. M. (2001). The curse of natural resources. European Economic Review, 45(4–6), 827–838.
16. UNCTAD. (2023). Export concentration and diversification: Statistical indicators 2023. Geneva: United Nations Conference on Trade and Development.
17. UNWTO. (2024). World tourism barometer: Statistical annex. Madrid: World Tourism Organization.
18. Weaver, D. B. (2006). Sustainable tourism: Theory and practice. Elsevier Butterworth-Heinemann.
19. WTO. (2023). Trade policy review: Export diversification indices 2023. Geneva: World Trade Organization.
20. WTTC. (2023). Travel and tourism economic impact 2023: Global. London: World Travel and Tourism Council.

ARXEOLOJİ İRSİN TƏQDİMATINDA PEDAQOJİ YANAŞMALARIN ROLU VƏ TURİZM TƏCRÜBƏSİNƏ TƏSİRİ

The Role of Pedagogical Approaches in the Presentation of Archaeological Heritage and Its Impact on Tourism Experience

LALƏ BEYDULLAYEVA
Lale Beydullayeva
lala.beydullayeva.93@mail.ru
https://orcid.org/0009-0006-6849-4205
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Azerbaijan State Pedagogical University

XÜLASƏ

Bu məqalədə arxeoloji abidələrin şərhində pedaqoji yanaşmaların rolu və onların turizm təcrübəsinə təsiri araşdırılmışdır. Tədqiqatın əsas məqsədi mədəni irs obyektlərində təqdimat formalarının ziyarətçilərin öyrənmə prosesinə təsirini müəyyənləşdirməkdir. Bu məqsədlə sahə müşahidəsi metodu tətbiq olunmuş və Quba Soyqırımı Memorial Kompleksi ilə Kiş Alban məbədi nümunələri müqayisəli şəkildə təhlil edilmişdir.Sahə müşahidəsi əsasında belə nəticəyə gəlinmişdir ki, interaktiv və multimodal pedaqoji yanaşmaların tətbiqi ziyarətçilərin məlumatı daha dərindən qavramasına və emosional bağlılığın formalaşmasına təsir göstərir. Quba Memorial Kompleksində bələdçi əsaslı və vizual təqdimatın birgə istifadəsi daha yüksək pedaqoji effektivlik təmin etdiyi halda, Kiş Alban məbədində əsasən vizual-informativ təqdimatın tətbiqi öyrənmə prosesinin interaktivliyini müəyyən qədər məhdudlaşdırır. Məqalədə həmçinin mədəni irs obyektlərində pedaqoji yanaşmaların inkişaf etdirilməsi üçün təkliflər irəli sürülmüşdür. Nəticə etibarilə müəyyən edilmişdir ki, pedaqogika və turizmin inteqrasiyası mədəni irsin daha effektiv təqdimatına və dayanıqlı turizmin inkişafına mühüm töhfə verə bilər.

Açar sözlər: *arxeoloji irs, pedaqoji yanaşma, mədəni irs, turizm, multimodal öyrənmə, sahə müşahidəsi*

ABSTRACT

This article examines the role of pedagogical approaches in the interpretation of archaeological monuments and their impact on the tourism experience. The main objective of the study is to determine the impact of presentation forms on the learning process of visitors at cultural heritage sites. For this purpose, the field observation method was applied and the examples of the Guba Genocide Memorial Complex and the Kish Alban Temple were analyzed comparatively. Based on field observation, it was concluded that the application of interactive and multimodal pedagogical approaches affects the deeper understanding of information by visitors and the formation of emotional attachment.While the joint use of guide-based and visual presentation in the Guba Memorial Complex provides higher pedagogical effectiveness, the application of mainly visual-informative presentation in the Kish Alban Temple somewhat limits the interactivity of the learning process. The article also puts forward proposals for the development of pedagogical approaches at cultural heritage sites. As a result, it was determined that the integration of pedagogy and tourism can make a significant contribution to a more effective presentation of cultural heritage and the development of sustainable tourism.

Keywords: *Archaeological heritage, pedagogical approach, cultural heritage, tourism, multimodal learning, field observation*

GİRİŞ

Müasir dövrdə mədəni irs obyektləri yalnız tarixi məlumat mənbəyi kimi deyil, həm də turizmin inkişafında mühüm rol oynayan resurslar kimi çıxış edir (Smith, 2015). Xüsusilə arxeoloji abidələr bəşəriyyətin keçmişini əks etdirən unikal məkanlar olaraq həm elmi, həm də sosial baxımdan xüsusi əhəmiyyət daşıyır. Bu abidələr vasitəsilə qədim sivilizasiyaların həyat tərzi, inancları və mədəni xüsusiyyətləri öyrənilir (Timothy & Boyd, 2003).

Lakin müasir turizm təcrübəsi göstərir ki, ziyarətçilər arxeoloji obyektləri müşahidə etsələr də, onların mahiyyətini və tarixi əhəmiyyətini hər zaman dərindən dərk edə bilmirlər. Bu isə həmin obyektlərin təqdimatında pedaqoji yanaşmaların kifayət qədər tətbiq olunmaması ilə əlaqələndirilir.Bu baxımdan, arxeoloji abidələrin şərhində pedaqoji metodların tətbiqi xüsusi

aktuallıq kəsb edir. Bu tədqiqatın məqsədi arxeoloji irsin təqdimatında pedaqoji yanaşmaların rolunu araşdırmaq və onların turizm təcrübəsinə təsirini sahə müşahidələri əsasında təhlil etməkdir.

Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, mədəni irs obyektlərinin təqdimatı pedaqoji yanaşmalar prizmasından qiymətləndirilir və bu yanaşmaların ziyarətçi təcrübəsinə təsiri real sahə müşahidələri əsasında müqayisəli şəkildə ortaya qoyulur. Eyni zamanda, tədqiqat nəticəsində mədəni irs obyektlərində daha effektiv və dayanıqlı təqdimat modellərinin formalaşdırılması üçün praktik tövsiyələr irəli sürülür.

Arxeoloji irs və onun turizmdə rolu

- Arxeoloji irs dedikdə keçmiş insan fəaliyyətinin maddi qalıqları – yaşayış məskənləri, qəbirlər, məbədlər və digər obyektlər nəzərdə tutulur. Bu irs obyektləri yalnız elmi tədqiqat üçün deyil, həm də turizmin inkişafı baxımından strateji əhəmiyyət kəsb edir (Timothy & Boyd, 2003). Mədəni irs turizmi çərçivəsində arxeoloji abidələr ziyarətçilərə tarixi biliklərin ötürülməsi ilə yanaşı, mədəni kimliyin qorunması və təbliği funksiyasını da yerinə yetirir (UNESCO, 2013).
- Azərbaycan zəngin arxeoloji irsə malik ölkələrdən biridir. Bu irs obyektləri turistlərin diqqətini cəlb etməklə yanaşı, milli kimliyin və mədəni dəyərlərin təbliğinə xidmət edir. Bununla belə, bu potensialın tam reallaşdırılması üçün arxeoloji obyektlərin təqdimatında müasir və effektiv yanaşmaların tətbiqi zəruri hesab olunur. İrs obyektlərinin təqdimatı turizm məhsulunun keyfiyyətini və ziyarətçi məmnuniyyətini birbaşa müəyyən edən əsas amillərdən biridir (Richards, 2018).

Arxeoloji Abidələrin Şərhi və Pedaqoji Yanaşmalar

Arxeoloji abidələrin şərhi ziyarətçilərə həmin obyektlərin mənasının və tarixi əhəmiyyətinin izah olunması prosesidir. Bu proses yalnız məlumat verməklə kifayətlənməməli, eyni zamanda ziyarətçilərin öyrənmə prosesinə aktiv şəkildə cəlb olunmasını təmin etməlidir. Bu baxımdan, interpretasiya pedaqoji yanaşmalarla sıx bağlıdır və ziyarətçi təcrübəsinin formalaşmasında mühüm rol oynayır (Tilden, 2007).

Pedaqoji yanaşmalar bu prosesdə mühüm rol oynayır. Əsas yanaşmalar aşağıdakılardır:

- **Aktiv öyrənmə** – ziyarətçinin prosesdə iştirak etməsi
- **Vizual təqdimat** – şəkillər, modellər, videolar
- **Rəqəmsal texnologiyalar (AR/VR)** – tarixi mühitin canlandırılması

Hekayə əsaslı yanaşma isə tarixi faktların narrativ forma vasitəsilə təqdim edilməsinə əsaslanır və ziyarətçilərin emosional bağlılığını gücləndirir (Falk & Dierking, 2013). **Multimodal öyrənmə** nəzəriyyəsinə görə, məlumatın eyni zamanda müxtəlif hiss orqanları vasitəsilə təqdim edilməsi öyrənmənin effektivliyini artırır və yadda saxlanmanı gücləndirir (Mayer, 2009). Bu baxımdan, eşitmə,vizual və interaktiv elementlərin birgə tətbiqi mədəni irs obyektlərində daha təsirli interpretasiya imkanları yaradır.

TƏDQIQAT METODOLOGIYASI

Bu tədqiqatda əsas metod kimi sahə müşahidəsi (field observation) yanaşması tətbiq edilmişdir. Tədqiqat çərçivəsində müxtəlif mədəni irs obyektlərinə yerində baxış keçirilmiş, onların təqdimat forması və ziyarətçi ilə qarşılıqlı əlaqə üsulları təhlil edilmişdir.

Sahə müşahidəsi nəticəsində Azərbaycan ərazisində yerləşən iki fərqli tipli mədəni irs obyekti – Quba Soyqırımı Memorial Kompleksi və Kiş Alban məbədi seçilmişdir. Bu obyektlərin

seçilməsi onların təqdimat xüsusiyyətlərinin fərqli olması ilə əsaslandırılır. Belə ki, Quba Memorial Kompleksi interaktiv və bələdçi əsaslı təqdimat modeli ilə seçildiyi halda, Kiş Alban məbədi əsasən vizual-informativ təqdimat forması ilə xarakterizə olunur. Bu fərqlilik müqayisəli təhlil aparmaq üçün uyğun zəmin yaradır.

Müşahidə zamanı aşağıdakı əsas indikatorlar üzrə təhlil aparılmışdır:

- bələdçi xidmətinin mövcudluğu və keyfiyyəti
- vizual materialların (şəkil, video, ekspozisiya) istifadəsi
- interaktiv təqdimat elementlərinin mövcudluğu
- ziyarətçilərin emosional reaksiyası və maraq səviyyəsi
- informativlik və məlumatın əlçatanlığı
- rəqəmsal texnologiyaların (ekranlar, multimedia vasitələri və s.) tətbiqi

Müşahidə prosesində qeydlər aparılmış, təqdimat mühitinə dair vizual materiallar toplanmış və obyektlər üzrə əldə olunan məlumatlar müqayisəli şəkildə sistemləşdirilmişdir. Toplanmış məlumatlar əsasında hər iki obyektin pedaqoji təqdimat xüsusiyyətləri təhlil edilmiş və onların turizm təcrübəsinə təsiri qiymətləndirilmişdir.

Tədqiqatın məhdudiyyətləri kimi qeyd etmək olar ki, müşahidə metodu subyektiv qiymətləndirmə elementlərini ehtiva edir və ziyarətçilər arasında sorğu və ya statistik analiz aparılmamışdır. Bu baxımdan, gələcək tədqiqatlarda müşahidə metodunun sorğu və müsahibə üsulları ilə tamamlanması daha geniş və obyektiv nəticələrin əldə olunmasına imkan verə bilər.

Quba üzrə sahə müşahidəsi və təhlil

Quba soyqirimi memorial kompleksi

Quba şəhərində yerləşən Quba Soyqırımı Memorial Kompleksi 1918-ci ildə bölgədə baş vermiş kütləvi qırğınlarla bağlı tarixi hadisələri əks etdirən mühüm memorial obyektlərdən biridir. 2007-ci ildə aparılan tikinti işləri zamanı ərazidə kütləvi məzarlıq aşkar olunmuş və burada müxtəlif yaş qruplarına aid insan qalıqları müəyyən edilmişdir. Bu tapıntılar hadisələrin maddi sübutu kimi qiymətləndirilmiş və ərazinin tarixi əhəmiyyətini daha da artırmışdır. Sonradan həmin ərazi üzərində memorial kompleks yaradılmışdır. Bu baxımdan, kompleks arxeoloji tapıntılar əsasında formalaşmış tarixi-memorial məkan kimi çıxış edir. Tarixi yaddaşın qorunması, həm də arxeoloji materialların təqdimatı baxımından xüsusi əhəmiyyət kəsb edir.



Şəkil 1. Quba Soyqırımı Memorial Kompleksi ərazisində aşkar olunmuş insan qalıqları

Real arxeoloji materiallara əsaslanan təqdimat ziyarətçilərdə həm emosional, həm də idrak baxımından güclü təsir formalaşdırır. Bu xüsusiyyət pedaqoji yanaşmaların effektivliyini artıran

əsas amillərdən biri kimi qiymətləndirilə bilər. Aşkar olunmuş insan qalıqları, bu məkanı yalnız memorial deyil, eyni zamanda arxeoloji baxımdan da əhəmiyyətli edir.

Sahə müşahidələri göstərir ki, bu kompleksdə təqdimat **bələdçi əsaslı və multimodal yanaşma** üzərində qurulmuşdur. Ziyarətçilərə bələdçilər tərəfindən izahlar verilir, eyni zamanda ekran vasitəsilə hadisələri əks etdirən video materiallar nümayiş etdirilir.



Şəkil 2. Quba Memorial Kompleksində bələdçi təqdimatı

Bu təqdimat forması:

- eşitmə və vizual öyrənməni birləşdirir
- emosional təsir yaradır
- ziyarətçinin aktiv iştirakını təmin edir

Bu baxımdan, Quba kompleksi pedaqoji yanaşmanın uğurlu tətbiq nümunəsi hesab edilə bilər.



Şəkil 3. Quba Memorial Kompleksi – vizual ekspozisiya

Şəki üzrə sahə müşahidəsi və təhlil

Kiş Alban Məbədi

Kiş kəndində yerləşən Kiş Alban məbədi Azərbaycanın qədim dini-mədəni irs nümunələrindən biri kimi mühüm əhəmiyyət daşıyır. Tarixi mənbələrə görə, bu abidə Qafqaz Albaniyası dövrünə aid olmaqla regionda erkən xristianlıq ənənələrinin yayılması ilə əlaqələndirilir. Məbəd müxtəlif dövrlərdə bərpa və yenidənqurma mərhələlərindən keçmiş və bu günə qədər qorunub saxlanılmışdır.



Şəkil 4. Kiş Alban məbədi – ümumi görünüş (Mənbə: müəllif tərəfindən çəkilmişdir)

Tədqiqat çərçivəsində aparılan sahə müşahidələri zamanı müəyyən edilmişdir ki, məbəd ərazisində və müəyyən dərinliklərdə insan qalıqları mövcuddur. Arxeoloji tədqiqatlara əsasən bu qalıqlar dini ənənələrə uyğun olaraq məbəd ətrafında həyata keçirilmiş dəfn mərasimləri ilə əlaqələndirilir və ərazi tarixi qəbiristanlıq funksiyasını əks etdirir. Bu xüsusiyyət abidənin yalnız memarlıq baxımından deyil, həm də arxeoloji baxımdan əhəmiyyətini artırır. Müşahidələr zamanı həmçinin müəyyən edilmişdir ki, abidənin təqdimatında əsasən vizual-informativ yanaşma üstünlük təşkil edir. Məbəd daxilində yerləşdirilmiş ekran vasitəsilə abidənin daxili strukturu, memarlıq xüsusiyyətləri və tarixi elementləri şəkillər və vizual materiallar vasitəsilə təqdim olunur. Lakin bələdçi xidmətinin olmaması və interaktiv təqdimat üsullarının məhdudluğu ziyarətçilərin öyrənmə prosesində aktiv iştirakını müəyyən qədər zəiflədir.


Pedaqoji baxımdan yanaşdıqda, bu cür abidələrdə hekayə əsaslı təqdimat, bələdçi xidmətinin təşkili və rəqəmsal texnologiyaların tətbiqi ziyarətçi təcrübəsini daha da zənginləşdirə bilər. Xüsusilə arxeoloji elementlərin – o cümlədən insan qalıqlarının – düzgün və elmi əsaslarla izah edilməsi ziyarətçilərin tarixi daha dərindən dərk etməsinə imkan yaradır.



Şəkil 5. Kiş Alban məbədində sahə müşahidəsi (müəllif)

Kiş Alban məbədi ərazisində aşkar olunan insan qalıqları arxeoloji qazıntılar nəticəsində müəyyən edilmiş və əsasən dini ənənələrə uyğun olaraq məbəd ətrafında həyata keçirilmiş

dəfn mərasimləri ilə əlaqələndirilir. Bu qalıqlar kütləvi faciə deyil, tarixi qəbiristanlıq funksiyasını əks etdirir.



Şəkil 6. Məbəd ərazisində arxeoloji qalıqlar

Kiş Alban məbədi Azərbaycanın qədim dini-mədəni irs nümunələrindən biridir. Abidə turizm baxımından cəlbedici olmaqla yanaşı, tarixi əhəmiyyətə də malikdir.

- Sahə müşahidələri göstərir ki, abidənin təqdimatında əsasən vizual-informativ yanaşma üstünlük təşkil edir və məlumat əsasən informasiya lövhələri və vizual materiallar vasitəsilə təqdim olunur.

Lakin burada:

- bələdçi xidmətinin olmaması
- interaktivliyin zəif olması

ziyarətçi təcrübəsinin dərinliyini müəyyən qədər məhdudlaşdırır.

MÜQAYİSƏLİ TƏHLİL: QUBA VƏ ŞƏKİ NÜMUNƏLƏRİ





Aparılan sahə müşahidələri əsasında aşağıdakı nəticələr əldə edilmişdir:

Tədqiqat çərçivəsində seçilmiş Quba Soyqırımı Memorial Kompleksi və Kiş Alban məbədi fərqli təqdimat modellərinə malik mədəni irs obyektləri kimi müqayisəli şəkildə təhlil edilmişdir. Bu obyektlərin seçilməsi onların həm funksional, həm də təqdimat baxımından fərqlənməsi ilə əsaslandırılır.

Quba Soyqırımı Memorial Kompleksi ilk baxışda memorial xarakter daşısa da, onun ərazisində aşkar olunmuş kütləvi məzarlıq və insan qalıqları bu məkanı arxeoloji tapıntılar əsasında

formalaşmış tarixi-memorial obyekt kimi səciyyələndirməyə imkan verir. Bu baxımdan, kompleks yalnız tarixi yaddaşın qorunması deyil, həm də arxeoloji materialların interpretasiyası baxımından təhlilə cəlb edilə bilər.

Kiş Alban məbədi isə Qafqaz Albaniyası dövrünə aid dini-mədəni irs nümunəsi olmaqla yanaşı, ətraf ərazidə aşkar edilmiş insan qalıqları və dəfn izləri ilə arxeoloji əhəmiyyətə malikdir. Arxeoloji tədqiqatlara əsasən bu qalıqlar məbəd ətrafında formalaşmış qədim qəbiristanlıq funksiyasını əks etdirir və dini ənənələrlə əlaqələndirilir. Bu xüsusiyyət abidənin həm memarlıq, həm də arxeoloji baxımdan kompleks irs nümunəsi olduğunu göstərir.

Aparılan sahə müşahidələri əsasında hər iki obyektin təqdimat xüsusiyyətləri aşağıdakı meyarlar üzrə müqayisə edilmişdir:

Cədvəl 1.Quba və Kiş mədəni irs obyektlərinin təqdimat xüsusiyyətlərinin müqayisəli təhlili

Meyar	Quba Soyqırımı Memorial Kompleksi	Kiş Alban Məbədi
Bələdçi xidməti	Mövcuddur və aktiv istifadə olunur	Məhdud və ya mövcud deyil
Vizual materiallar	Güclü (video, ekspozisiya, ekranlar)	Orta (lövhələr və vizual məlumatlar)
İnteraktivlik	Yüksək (bələdçi + multimedia)	Aşağı
Emosional təsir	Yüksək	Orta
Rəqəmsal təqdimat	Mövcuddur	Məhduddur

Cədvəldən göründüyü kimi, Quba Soyqırımı Memorial Kompleksində təqdimat daha çox interaktiv və multimodal xarakter daşıyır. Bələdçi xidmətinin mövcudluğu, vizual və rəqəmsal materialların geniş istifadəsi ziyarətçilərin həm öyrənmə prosesinə aktiv şəkildə cəlb olunmasına, həm də emosional bağlılığın formalaşmasına şərait yaradır.

Kiş Alban məbədində isə təqdimat əsasən vizual-informativ xarakter daşıyır və ziyarətçilərin aktiv iştirakını təmin edən elementlər məhduddur. Bu isə öyrənmə prosesinin daha passiv xarakter almasına səbəb olur.

Beləliklə, aparılan müqayisəli təhlil göstərir ki, pedaqoji yanaşmaların tətbiq səviyyəsi mədəni irs obyektlərində ziyarətçi təcrübəsinin keyfiyyətinə birbaşa təsir göstərir. İnteraktiv və multimodal təqdimat modelləri ənənəvi informativ yanaşmalarla müqayisədə daha yüksək pedaqoji effektivliyə malikdir.

Pedaqoji yanaşmaların turizm təcrübəsinə təsiri

Pedaqoji yanaşmaların mədəni irs obyektlərində tətbiqi ziyarətçilərin turizm təcrübəsinə mühüm təsir göstərir. Aparılan müşahidələr göstərir ki, interaktiv və müasir təqdimat üsullarının istifadəsi turistlərin marağını artırmaqla yanaşı, onların əldə etdikləri məlumatı daha yaxşı mənimsəməsinə şərait yaradır. Eyni zamanda, bu cür yanaşmalar ziyarətçilərlə təqdim olunan irs arasında emosional bağlılığın formalaşmasına səbəb olur.

Bu isə öz növbəsində turistlərin həmin məkanlara təkrar ziyarət etmə ehtimalını artırır və ümumilikdə turizm fəaliyyətinin davamlılığını təmin edir. Beləliklə, pedaqogika və turizmin inteqrasiyası müasir dövrdə mədəni irsin daha effektiv təqdimatına və dayanıqlı turizmin inkişafına xidmət edən əsas istiqamətlərdən biri kimi çıxış edir.

NƏTICƏ

Nəticə etibarilə, aparılan tədqiqat göstərir ki, arxeoloji irsin təqdimatında pedaqoji

yanaşmaların tətbiqi ziyarətçi təcrübəsinin keyfiyyətinə birbaşa təsir göstərir. Sahə müşahidələri əsasında müəyyən edilmişdir ki, interaktiv və multimodal təqdimat üsullarının tətbiq olunduğu mədəni irs obyektlərində ziyarətçilərin məlumatı qavrama səviyyəsi və emosional bağlılığı daha yüksək olur. Quba Soyqırımı Memorial Kompleksi və Kiş Alban məbədi nümunələri üzrə aparılan müqayisəli təhlil də bu fərqi aydın şəkildə nümayiş etdirir.

Tədqiqat nəticələri göstərir ki, bələdçi xidmətinin mövcudluğu, vizual və rəqəmsal materialların istifadəsi, eləcə də ziyarətçilərin prosesə aktiv şəkildə cəlb olunması pedaqoji effektivliyin əsas göstəriciləri kimi çıxış edir. Bu baxımdan, ənənəvi informativ təqdimat modelləri ilə müqayisədə interaktiv və multimodal yanaşmaların daha üstün olduğu müəyyən edilmişdir.

Eyni zamanda, əldə olunan nəticələr əsasında mədəni irs obyektlərində təqdimatın təkmilləşdirilməsi üçün bir sıra praktik tövsiyələr irəli sürmək mümkündür. Belə ki, irs obyektlərində interpretasiya strategiyalarının daha sistemli və standartlaşdırılmış şəkildə tətbiqi, bələdçilərin hazırlanmasında pedaqoji komponentin gücləndirilməsi, həmçinin rəqəmsal texnologiyaların (multimedia, interaktiv ekranlar, AR/VR və s.) daha geniş istifadəsi ziyarətçi təcrübəsinin keyfiyyətini artırmağa imkan verə bilər.

Beləliklə, pedaqogika və turizmin inteqrasiyası mədəni irsin daha effektiv təqdimatına, ziyarətçi təcrübəsinin zənginləşdirilməsinə və dayanıqlı turizmin inkişafına mühüm töhfə verən əsas istiqamətlərdən biri kimi çıxış edir.

ƏDƏBİYYAT SİYAHISI

1. Əliyev, R. (2018). *Mədəni irs və turizm*. Təhsil nəşriyyatı.
2. Falk, J. H., & Dierking, L. D. (2013). *The museum experience revisited*. Routledge. https://doi.org/10.4324/9781315417851
3. Hüseynov, F. (2020). *Turizmin əsasları*. Elm və təhsil nəşriyyatı.
4. Mayer, R. E. (2009). *Multimedia learning*. Cambridge University Press. https://doi.org/10.1017/CBO9780511811678
5. Richards, G. (2018). Cultural tourism: A review of recent research and trends. *Journal of Hospitality and Tourism Management*. https://doi.org/10.1016/j.jhtm.2018.03.005
6. Smith, M. (2015). *Issues in cultural tourism studies*. Routledge.
7. Tilden, F. (2007). *Interpreting our heritage*. UNC Press. https://uncpress.org/book/9780807840160/interpreting-our-heritage/
8. Timothy, D. J., & Boyd, S. W. (2003). *Heritage tourism*. Pearson Education.
9. UNESCO. (2013). *Cultural heritage and tourism development*. https://whc.unesco.org/en/tourism/

SUSTAINABLE TOURISM, ENVIRONMENT AND CLIMATE CHANGE

Dayanıqlı turizm, ətraf mühit və iqlim dəyişikliyi

MAHİR İSMAYILOV
Mahir İsmayılov
mahir.ismayilov@mdu.edu.az
https://orcid.org/0000-0003-0797-9429
Mingəçevir Dövlət Universiteti
Mingachevir State University

XÜLASƏ

Müasir riyazi hesablamalar üçün rasional kəsrlər və onların riyazi analizdə əhəmiyyəti araşdırılmış, növbəti mərhələlərdə isə məxrəci üçhədlilərdən ibarət olan rasional kəsrlərin həm daha sadə kəsrlərə ayrılması və həm də inteqrallanması metodları məqalədə təhlil olunmuşdur.Hər hansı iki çoxhədlinin nisbəti formasında ifadə edilən rasional funksiyalar əsasən inteqral hesablamalarında geniş spektrli tətbiq sahəsinə malikdir. Rasional funksiyaların inteqrallanması prosesində məxrəcin kvadrat çoxhədli olması vəziyyətində istifadə edilən prioritet metodlar sistemli olaraq sadə çəkildə izah edilmişdir. Digər bir hal olan məxrəcin vuruqlara ayrılan və yaxud da ayrılmayan üçhədlilərdən ibarət olduğu versiyalar da xüsusi nəzərdən alınmış, hər bir vəziyyat üçün uyğun sadə kəsrlərə ayırma üsulları təklif olunmuşdur. İnteqrallanma prosesi zamanı logarifmik funksiyalarla bərabər və tərs triqonometrik funksiyaların da tətbiqi həm nəzəri həm də praktik aspektdən əsaslandırılmışdır. Bunun paralelində,bütün bu proseslərin avtomatlaşdırılma və optimallaşdırılma prosesində süni intellekt- Artificial Intelligence metodlarının rolu tədqiq edilmiş, simvolik hesablama sistemləri və intellektual alqoritmlərin istənilən mürəkkəb inteqral problemlərin həlli zamanı effektivliyi göstərilmişdir.Araşdırmanın nəticəsi isə ənənəvi riyazi metodlarla müasir süni intellekt texnologiyalarının qarşılıqlı şəkildə işləyişinin perspektivliyini göstərir.

Açar sözlər: *Turizm, iqlim dəyişikliyi, dayanıqlı inkişaf, ekoturizm, karbon emissiyaları, ətraf mühit*

ABSTRACT

Rational fractions for modern mathematical calculations and their importance in mathematical analysis were investigated, and in the next stages, the methods of both decomposition and integration of rational fractions consisting of denominator trinomials into simpler fractions were analyzed in the article. Each Rational functions expressed as the ratio of two polynomials have a wide range of applications, mainly in integral calculations. The priority methods used in the process of integrating rational functions in the case of a quadratic polynomial in the denominator are systematically explained in simple terms. Another case, versions in which the denominator consists of trinomials that are separable or not, are also considered, and methods for dividing into simple fractions suitable for each situation are proposed. The application of logarithmic functions, as well as equal and inverse trigonometric functions, during the integration process is justified from both theoretical and practical aspects. In parallel, the role of artificial intelligence methods in the automation and optimization of all these processes is studied, and the effectiveness of symbolic computing systems and intelligent algorithms in solving any complex integral problems is shown. The results of the research show the prospects for the mutual operation of traditional mathematical methods and modern artificial intelligence technologies.

Keywords: *Tourism, climate change, sustainable development, ecotourism, carbon emissions, environment*

ÜMUMİ MƏLUMAT

Turizm sektoru dünya üzrə ÜDM-in əhəmiyyətli hissəsini təşkil edir və milyonlarla insan üçün məşğulluq yaradır. Lakin bu sektorun sürətli inkişafı enerji istehlakının artmasına, təbii resursların tükənməsinə və karbon emissiyalarının yüksəlməsinə səbəb olur. İqlim dəyişikliyi isə öz növbəsində turizm fəaliyyətlərinin davamlılığını təhlükə altına alır. Turizm sektoru xüsusilə nəqliyyat vasitələri (təyyarə, avtomobil və kruiz gəmiləri) vasitəsilə yüksək karbon emissiyalarına səbəb olur. Beynəlxalq turizmin artması ilə aviasiya sektorunun payı daha da

yüksəlir. Otellər və turizm infrastrukturu su və enerji kimi resurslardan intensiv istifadə edir. Bu isə yerli ekosistemlərə təzyiq göstərir. Kütləvi turizm meşələrin qırılması, sahil eroziyası və biomüxtəlifliyin azalması kimi problemlərə gətirib çıxarır.

METODLAR

Qlobal istiləşmə bəzi turizm regionlarını (xüsusilə isti ölkələri) daha az cəlbedici edə bilər.Təbii fəlakətlərin artması, sel, quraqlıq və qasırğalar kimi hadisələrin artması turizm infrastrukturuna ciddi zərər vurur. Qış turizmi qarın azalması səbəbilə risk altındadır, bu isə xizək kurortlarının fəaliyyətinə təsir edir.

Dayanıqlı turizm ətraf mühitin qorunması, sosial ədalət və iqtisadi inkişaf arasında balans yaratmağı hədəfləyir. Ekoturizm təbiətin qorunmasına yönəlmiş turizm formasıdır və yerli icmaların rifahını artırır.Yaşıl texnologiyalar, bərpa olunan enerji mənbələrinin istifadəsi, enerji effektivliyi və tullantıların azaldılması dayanıqlı turizmin əsas komponentləridir.

Yerli icmaların rolu,turizmin planlaşdırılmasında yerli əhalinin iştirakı sosial dayanıqlılığı təmin edir.

Turizmlə bağlı siyasət və idarəetmə yanaşmaları aşağıdakılardır:

- Karbon emissiyalarının azaldılması üçün beynəlxalq razılaşmalar
- Ekoloji standartların tətbiqi
- Dayanıqlı turizm strategiyalarının hazırlanması
- Turistlərin maarifləndirilməsi

Turizm, iqlim dəyişikliyi və ətraf mühitə dayanıqlıq: Azərbaycan nümunəsində turizm və iqlim dəyişikliyi arasında qarşılıqlı əlaqə Azərbaycan kontekstində təhlil olunur. Ölkənin zəngin təbii resursları və turizm potensialı nəzərə alınaraq, iqlim dəyişikliklərinin turizm sektoruna təsiri və dayanıqlı turizm yanaşmalarının tətbiqi araşdırılır. Nəticələr göstərir ki, Azərbaycanın turizm strategiyasında ekoloji dayanıqlılıq əsas prioritetlərdən biri olmalıdır.

Azərbaycan coğrafi mövqeyi, iqlim müxtəlifliyi və zəngin mədəni irsi ilə turizm üçün əlverişli ölkələrdən biridir. Xəzər dənizi sahilləri, dağlıq ərazilər və milli parklar turizmin inkişafına şərait yaradır. Lakin iqlim dəyişikliyi və ətraf mühit problemləri bu potensiala ciddi təsir göstərir.

Azərbaycanda turizmin iqlimə təsirini, nəqliyyat və karbon emissiyalarını analiz etdikdə məlum olur ki, Bakı şəhərinə artan beynəlxalq uçuşlar və daxili turizmin genişlənməsi karbon emissiyalarının artmasına səbəb olur. Xüsusilə hava nəqliyyatı bu baxımdan əsas mənbələrdən biridir. Bakının mərkəz olaraq nəqliyyat sıxlığı problemləri və bu nəqliyyatdan atmosferə atılan zərərli qazların azaldılması problem olaraq qarşımızda dayanır.Otel və turizm İnfrastrukturu ilbəil genişlənir. Bakı, Qəbələ və Şahdağ kimi turizm mərkəzlərində böyük otel kompleksləri enerji və su ehtiyatlarından intensiv istifadə edir. Bu isə yerli resurslara təzyiq yaradır. Populyar turizm bölgələrində (məsələn, meşə və dağ zonalarında) turist axınının artması torpaq eroziyası və tullantı problemlərinə səbəb olur.

İqlim dəyişikliyinin Azərbaycanda turizmə təsiri his olunur. Şahdağ turizm kompleksi və Tufandağ qış-yay turizm kompleksində qlobal istiləşmə nəticəsində qar örtüyünün azalması bu xizək mərkəzlərinin fəaliyyət müddətini qısalda bilər. Bu isə iqtisadi gəlirlərə mənfi təsir göstərir.Xəzər dənizinin Azərbaycan sektoru üzrə sahil turizmi müəyyən təsirlərə məruz qalıb. Belə ki, su səviyyəsinin dəyişməsi və sahil eroziyası dəniz turizminə təhlükə yaradır. Eyni zamanda suyun çirklənməsi turist cəlbediciliyini azalda bilər.

Qobustan Milli Parkı və Şirvan Milli Parkı kimi ərazilərdə iqlim dəyişiklikləri flora və faunaya təsir edərək ekoturizm imkanlarını zəiflədə bilər.

Azərbaycanın dağlıq və meşəlik ərazilərində ekoturizm layihələri həyata keçirilir. Məsələn,

Zaqatala Dövlət Təbiət Qoruğu ekoloji turizmin inkişafı üçün mühüm potensiala malikdir. Daşkəsən və Gədəbəy bölgələrinin turizm potensialından tam istifadə olunmur. Bu bölgələrin böyük turizm potensialı vardır.

Turizmin inkişafı və genişləndirilməsi ilə bağlı Dövlət siyasəti var və strategiyalar hazırlanmışdır. Azərbaycan hökuməti turizmin inkişafı üçün müxtəlif proqramlar qəbul etmişdir. Bu proqramlarda dayanıqlı inkişaf və ətraf mühitin qorunması əsas istiqamətlərdən biridir.

Son illərdə yaşıl enerji layihələri icra olunur, bərpa olunan enerji mənbələrinin tətbiqi genişlənir. Kəlbəcər və Laçın bölgələrində yeni turizm məntəqələri yaradılır və yaşıl enerji layuhələri icra olunur. Bu, turizm obyektlərində enerji səmərəliliyinin artırılmasına kömək edir.

Bəzi problemlər qalmaqdadır.

- Tullantıların idarə olunmasında çatışmazlıqlar
- Su resurslarının qeyri-səmərəli istifadəsi
- Ekoloji maarifləndirmənin zəif olması
- Regionlar üzrə balanssız turizm inkişafı

Turizmin inkişafı üçün bəzi tövsiyələri demək olar.

- Ekoloji standartlara uyğun turizm obyektlərinin yaradılması
- Yerli icmaların turizm fəaliyyətinə cəlb edilməsi
- Alternativ enerji mənbələrinin geniş tətbiqi
- Turistlər üçün ekoloji davranış qaydalarının təşviqi

Azərbaycan üzrə turizm sektorunun iqlim dəyişikliyi ilə qarşılıqlı əlaqəsi statistik məlumatlar əsasında təhlil edilir və dayanıqlı inkişaf perspektivləri qiymətləndrilir. Azərbaycanın turizm sektoru son illərdə sürətlə inkişaf etmişdir. Xüsusilə Bakı, Qəbələ və Qusar regionları turizm axınının əsas mərkəzləridir. Lakin bu inkişaf iqlim dəyişiklikləri və ekoloji problemlərlə müşayiət olunur.

Statistik məlumatların təhlili göstərir ki, turist axını,

- 2010-cu ildə Azərbaycana gələn turist sayı: təxminən 1.3 milyon
- 2019-cu ildə: 3.2 milyon
- 2023-cü ildə: 2.6 milyondan çox olmuşdur.

2020-ci ildə pandemiya dövründə turist sayında kəskin azalma olmuşdur. Bu artım turizm sektorunun genişləndiyini göstərir, lakin pandemiya və iqlim faktorları dalğalanmalara səbəb olmuşdur.Karbon emissiyaları aşağıdakı kimi olmuşdur.

- Turizm sektorunun qlobal CO_2 emissiyalarında payı: təxminən 8%
- Azərbaycanda nəqliyyat sektoru ümumi emissiyaların ~25%-ni təşkil edir.

İqlim göstəriciləri:

- Son 30 ildə Azərbaycanda orta temperatur artımı: +1.2°C
- Yağıntıların qeyri-bərabər paylanması müşahidə olunur
- Quraqlıq riskinin artması xüsusilə aran bölgələrində müşahidə edilir

NƏTICƏ

Turizm və iqlim dəyişikliyi arasında qarşılıqlı əlaqə mürəkkəb və çoxşaxəlidir. Turizmin ətraf mühitə təsirini minimuma endirmək və iqlim dəyişikliklərinə uyğunlaşmaq üçün dayanıqlı inkişaf prinsiplərinin tətbiqi vacibdir. Gələcəkdə turizm sektorunun inkişafı yalnız ekoloji balans qorunduğu halda mümkün olacaqdır.

Azərbaycanın turizm potensialı böyükdür, lakin iqlim dəyişikliyi bu sahəyə həm risklər, həm də yeni imkanlar yaradır. Dayanıqlı turizm yanaşmalarının tətbiqi ölkənin uzunmüddətli iqtisadi və ekoloji sabitliyini təmin edə bilər.

ƏDƏBİYYAT SİYAHISI

1. United Nations World Tourism Organization. (2023). *Tourism and climate change report*.
2. Intergovernmental Panel on Climate Change. (2021). *Climate Change 2021: The Physical Science Basis*.
3. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. (2023). *Turizm statistikası*.
4. Gössling, S., Scott, D., & Hall, C. M. (2018). Tourism and climate change: Impacts and mitigation. *Nature Climate Change*, 8(6), 467–475.
5. United Nations World Tourism Organization. *Tourism and Climate Change Report*. 2023.
6. IPCC. *Climate Change 2021: The Physical Science Basis*. 2021.
7. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. *Turizm statistikası*. 2023.
8. Gössling, Stefan, et al. "Tourism and Climate Change: Impacts and Mitigation." *Nature Climate Change*, vol. 8, no. 6, 2018, pp. 467–475.

QEYRİ-NEFT İQTİSADİYYATINDA DAYANIQLI TURİZMİN STRATEJİ ƏHƏMİYYƏTİ

Strategıc Importance of Sustaınable Tourısm In The Non-Oıl Economy

TƏRANƏ ƏLİYEVA
Tarana Aliyeva
tarana.aliyeva@mdu.edu.az
https://orcid.org/0000-0003-3217-8025
Mingəçevir Dövlət Universiteti
Mingachevir State University

XÜLASƏ

Qloballaşma şəraitində ölkələrin iqtisadi inkişaf strategiyaları getdikcə daha çox diversifikasiya prinsipinə əsaslanır. Xüsusilə resurs yönümlü iqtisadiyyatlarda bu yanaşma risklərin azaldılması və uzunmüddətli sabitliyin təmin edilməsi baxımından strateji əhəmiyyət daşıyır. Tək bir sektordan, xüsusilə neft və qaz kimi təbii resurslardan yüksək asılılıq iqtisadiyyatları xarici şoklara, qiymət dəyişkənliyinə və qlobal bazar qeyri-müəyyənliklərinə qarşı həssas edir. Buna görə də diversifikasiya yalnız iqtisadi zərurət deyil, eyni zamanda milli dayanıqlılığın əsas elementidir.Bu prosesdə turizm sektoru qeyri-neft iqtisadiyyatının əsas sütunlarından biri kimi çıxış edir. O, məşğulluğun artırılmasına töhfə verir, kiçik və orta sahibkarlığın inkişafını stimullaşdırır və regional inkişafı təşviq edir. Turizm həmçinin mədəni mübadiləni gücləndirir, infrastrukturu yaxşılaşdırır və xarici valyuta axınını artıraraq davamlı inkişaf üçün yüksək dəyərli sahəyə çevrilir. Müasir qlobal iqtisadi şəraitdə iqtisadi diversifikasiya ölkələrin davamlı inkişafının təmin olunması üçün mühüm əhəmiyyət kəsb edir. Təbii resurslardan asılılığın azaldılması, qeyri-neft sektorunun inkişaf etdirilməsi və yeni iqtisadi istiqamətlərin formalaşdırılması dövlət siyasətinin prioritet istiqamətlərinə çevrilmişdir. Hökumətlər beynəlxalq turistləri cəlb etmək məqsədilə nəqliyyat, qonaqpərvərlik xidmətləri və marketinq strategiyalarını inkişaf etdirərək turizm sahəsinə daha çox investisiya yatırırlar. Bu baxımdan turizm sektoru iqtisadiyyatın diversifikasiyasında xüsusi rol oynayan sahələrdən biri kimi ön plana çıxır. Onun dinamik və çoxşaxəli təbiəti müxtəlif sahələrlə qarşılıqlı əlaqə qurmağa imkan verir və nəticədə geniş iqtisadi inkişafı və uzunmüddətli rifahı dəstəkləyən multiplikativ effekt yaradır.

Açar sözlər: *İqtisadi diversifikasiya, dayanıqlı turizm, qeyri-neft sektoru, regional inkişaf, ekoturizm, innovasiya, strateji idarəetmə.*

ABSTRACT

In the context of globalization, the economic development strategies of countries are increasingly based on the principle of diversification. Especially in resource-oriented economies, this approach is of strategic importance in terms of reducing risks and ensuring long-term stability. Heavy reliance on a single sector, particularly natural resources such as oil and gas, makes economies vulnerable to external shocks, price fluctuations, and global market uncertainties. Therefore, diversification is not only an economic necessity but also a key element of national resilience. The tourism sector acts as one of the main pillars of the non-oil economy in this process. It contributes to job creation, stimulates small and medium-sized enterprises, and encourages regional development. Tourism also promotes cultural exchange, improves infrastructure, and increases foreign currency inflows, making it a highly valuable sector for sustainable growth. In modern global economic conditions, economic diversification is crucial for ensuring the sustainable development of countries. Reducing dependence on natural resources, developing the non-oil sector, and forming new economic directions have become priority areas of state policy. Governments are increasingly investing in tourism by improving transportation, hospitality services, and marketing strategies to attract international visitors. In this regard, the tourism sector emerges as one of the fields playing a special role in the diversification of the economy. Its dynamic and multi-sectoral nature allows it to interact with various industries, creating a multiplier effect that supports broader economic development and long-term prosperity.

Keywords: *Economic diversification, sustainable tourism, non-oil sector, regional development, ecotourism, innovation, strategic management.*

GİRİŞ

Müasir dünya iqtisadiyyatında dayanıqlılığın təməl şərti tək tərəfli resurs asılılığından qurtulmaqdır. Azərbaycan iqtisadiyyatı üçün qeyri-neft sektorunun inkişafı artıq bir seçim deyil, milli təhlükəsizlik və uzunmüddətli rifahın təminatıdır. İqtisadi diversifikasiya ölkə iqtisadiyyatının müxtəlif sahələr üzrə balanslı inkişafını nəzərdə tutur. Bu proses yalnız iqtisadi sabitliyi gücləndirmir, həm də xarici konyunktur təsirlərə qarşı daxili bazarın dayanıqlılığını artırır *(Alıyev, 2022, s. 12).*

Son dövrlərdə qəbul edilmiş strateji sənədlər, xüsusilə "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" turizmin qeyri-neft sektorunun lokomotivi olaraq mövqeyini daha da möhkəmləndirmişdir. Turizm, özünün xidmət yönümlü təbiəti ilə valyuta axınını stimullaşdırır və iqtisadi aktivliyi regionlara doğru yayır.

TƏDQİQATIN METODOLOGİYASI

Tədqiqat zamanı iqtisadi diversifikasiya və turizm sektorunun inkişafına dair elmi ədəbiyyatlar, dövlət proqramları və strateji sənədlər təhlil edilmişdir. Müqayisəli yanaşma tətbiq olunaraq beynəlxalq təcrübə, xüsusilə turizm sahəsində uğurlu modellər araşdırılmışdır.

Eyni zamanda, turizm sektorunun mövcud vəziyyətinin qiymətləndirilməsi üçün SWOT analizi metodundan istifadə edilmiş, güclü və zəif tərəflər, eləcə də inkişaf perspektivləri müəyyənləşdirilmişdir.

1. İqtisadi diversifikasiya və turizmin rolu

İqtisadi diversifikasiya ölkə iqtisadiyyatının müxtəlif sahələr üzrə balanslı inkişafını nəzərdə tutur. Bu proses yalnız iqtisadi sabitliyi gücləndirmir, həm də xarici təsirlərə qarşı dayanıqlılığı artırır. Xüsusilə enerji resursları ilə zəngin ölkələr üçün alternativ sahələrin inkişafı strateji əhəmiyyət daşıyır.

Son onillik ərzində Azərbaycanda turizm ehtiyatlarından səmərəli istifadə məsələləri dövlət iqtisadi siyasətinin mühüm tərkib hissəsinə çevrilmişdir. Bu sektorun yüksək əlavə dəyər yaratma qabiliyyəti və geniş inkişaf perspektivləri investisiya cəlbediciliyini artırır. Xüsusilə, turizm sahəsində zəngin təcrübəyə malik olan Türkiyə modeli bu istiqamətdə qoyulan sərmayələrin yüksək gəlirliliyini sübut edir. Digər xidmət sferaları ilə müqayisədə turizm, kapitalın daha sürətli dövriyyəsini və qısa müddətdə mənfəət əldə edilməsini təmin edir. Eyni zamanda, bu sahənin tərəqqisi məşğulluğun təmin olunmasına, rifah halının yaxşılaşmasına və nəqliyyat, rabitə, kənd təsərrüfatı kimi əlaqəli sektorların multiplikativ inkişafına birbaşa təsir göstərir. Post-neft dövründə iqtisadiyyatın diversifikasiyası baxımından turizm prioritet istiqamət kimi qiymətləndirilir ki, bu da strateji yol xəritələrinin işlənməsini və effektiv idarəetmə mexanizmlərinin tətbiqini zəruri edir.

Turizm sektoru qeyri-neft iqtisadiyyatının əsas istiqamətlərindən biri kimi çıxış edir. Azərbaycanın zəngin təbii ehtiyatları, müxtəlif iqlim zonaları, tarixi və mədəni irsi bu sahənin inkişafı üçün geniş imkanlar yaradır. Regionlarda turizm infrastrukturunun yaradılması, yeni istirahət mərkəzlərinin açılması və xidmət keyfiyyətinin artırılması iqtisadi aktivliyi genişləndirir və məşğulluğun artmasına səbəb olur(*Alıyev, 2022, s. 87)*

Dayanıqlı turizm təşəbbüsləri isə bu inkişafın uzunmüddətli və balanslı şəkildə həyata keçirilməsini təmin edir. Dayanıqlı turizm anlayışı təbii resursların qorunması, ekoloji tarazlığın saxlanılması və yerli icmaların rifahının yüksəldilməsi prinsiplərinə əsaslanır. Bu yanaşma turizmin yalnız iqtisadi deyil, həm də sosial və ekoloji faydalarını ön plana çıxarır.

Bu istiqamətdə həyata keçirilən layihələrə ekoturizm marşrutlarının yaradılması, milli parkların qorunması, kənd turizminin inkişafı və yerli mədəniyyətin təşviqi daxildir. Eyni zamanda rəqəmsal texnologiyaların tətbiqi turizm xidmətlərinin əlçatanlığını artırır, ölkənin beynəlxalq turizm bazarında rəqabət qabiliyyətini gücləndirir.

2. Turizm sektorunun inkişaf potensialı

Azərbaycanın zəngin təbii ehtiyatları, müxtəlif iqlim zonaları və mədəni irsi turizmin inkişafı üçün geniş imkanlar yaradır. Regionlarda infrastrukturun genişləndirilməsi, yeni turizm obyektlərinin yaradılması və xidmət keyfiyyətinin yüksəldilməsi bu sahənin inkişafını sürətləndirir.

Bundan əlavə, rəqəmsal texnologiyaların tətbiqi turizm xidmətlərinin əlçatanlığını artırır və ölkənin beynəlxalq bazarda rəqabət qabiliyyətini gücləndirir.

Azərbaycanda yüksək potensiala malik hər bir iqtisadi sferanın dövlət səviyyəsində tənzimlənməsi strateji zərurət kimi çıxış edir. Belə bir tənzimləmə mexanizmi sahəvi tərəqqini sürətləndirməklə yanaşı, gəlirlərin formalaşmasına, müəssisə dayanıqlığına və regionların sosial-iqtisadi rifahına birbaşa töhfə verir. Turizm sektorunun idarəedilməsi özəl və dövlət seqmentləri vasitəsilə həyata keçirilir ki, bu da dövlət idarəçiliyini tənzimləmə prosesinin nüvəsi halına gətirir. Dövlət bu sahəni lazımi dərəcədə stimullaşdıraraq onun inkişaf drayverinə çevrilməsinə şərait yaradır (*Nəcəfov, 2018, s.98*).

Dövlətin turizm siyasətində əsas prioritetləri hüquqi bazanın təkmilləşdirilməsi, sahibkarlıq mühitinin liberallaşdırılması, vergi güzəştlərinin tətbiqi və infrastruktur layihələrinin dəstəklənməsidir. Bu məqsədlə turizm subyektlərinin fəaliyyət perspektivləri dəyərləndirilərkən SWOT analizi çərçivəsində güclü və zəif tərəflərin müəyyənləşdirilməsi vacibdir. Müasir mərhələdə Azərbaycanın turizm sektorunun üstünlükləri aşağıdakı faktorlarla xarakterizə olunur:

- Ölkənin beynəlxalq arenada formalaşmış pozitiv reputasiyası;
- Turizm bazarı və istehlakçı seqmentlərinin şaxələnməsi;
- Qlobal tədbirlərin turist axınına birbaşa stimullaşdırıcı təsiri;
- Regional inkişafın mühüm komponenti kimi daxili turizm tələbinin yüksəlməsi.

Dövlətin turizm strategiyası sadəcə makroiqtisadi göstəricilərin yüksəldilməsinə deyil, həm də sosial balansın qorunması və milli-mədəni irsin mühafizəsinə xidmət edən kompleks bir mexanizmdir. Bu sahədə reallaşdırılan dövlət proqramları və regional inkişaf layihələri turizm sektorunun ölkənin ümumi iqtisadi modelinə dərindən inteqrasiyasını hədəfləyərək, onun uzunmüddətli dayanıqlığını şərtləndirir. Dövlətin tənzimləyici rolu strateji idarəçilik, hüquqi bazanın təkmilləşdirilməsi və potensial resursların optimal paylanmasının harmonik birliyinə əsaslanır. Belə bir sistemli yanaşma, turizmin daha inklüziv, beynəlxalq bazarda rəqabətədavamlı və sosial cəhətdən ədalətli bir sahə kimi formalaşmasını stimullaşdırır.

Eyni zamanda, bu sahənin tərəqqisi məşğulluğun təmin olunmasına və rifah halının yüksəlməsinə birbaşa təsir göstərir. Turizm sektoru ilə əlaqəli olan nəqliyyat, rabitə, iaşə və kənd təsərrüfatı kimi sahələrin inkişafı "zəncirvari artım" effekti yaradır *(Hüseynov, 2023, s. 85).*

3. Dayanıqlı turizm və onun əhəmiyyəti

Dayanıqlı turizm təbii resursların qorunması, ekoloji tarazlığın saxlanılması və yerli icmaların rifahının yüksəldilməsi prinsiplərinə əsaslanır.

Ekoturizm marşrutlarının yaradılması, milli parkların qorunması və kənd turizminin inkişafı bu sahədə həyata keçirilən əsas təşəbbüslər sırasındadır. Bu yanaşma turizmin həm iqtisadi, həm də sosial və ekoloji faydalarını ön plana çıxarır.

Dayanıqlı turizm təşəbbüsləri iqtisadi inkişafın uzunmüddətli və balanslı şəkildə həyata keçirilməsini təmin edir. Bu anlayış təbii resursların qorunması, ekoloji tarazlığın saxlanılması və yerli icmaların rifahının yüksəldilməsi prinsiplərinə əsaslanır.

Azərbaycanın zəngin təbii ehtiyatları, 9 müxtəlif iqlim zonası və qədim mədəni irsi bu sahədə rəqabət üstünlüyü yaradır (*Bilalov, 2021, s. 110*). Dayanıqlılığın iqtisadi aspekti yerli məhsulların turizm zəncirinə daxil edilməsini (məsələn, aqroturizm vasitəsilə) və kənd yerlərində infrastrukturun qurulmasını nəzərdə tutur Ekoturizm marşrutlarının yaradılması və milli parkların qorunması isə ölkənin beynəlxalq imicini "yaşıl artım" ölkəsi kimi formalaşdırır. *(İsmayılov, 2024, s. 56).*

Turizm subyektlərinin fəaliyyət perspektivləri dəyərləndirilərkən SWOT analizi çərçivəsində güclü və zəif tərəflərin müəyyənləşdirilməsi vacibdir.

Güclü tərəflər:

- Ölkənin beynəlxalq arenada formalaşmış pozitiv reputasiyası və təhlükəsizlik səviyyəsi.
- "Smart Tourism" və rəqəmsal viza xidmətlərinin inkişafı *(Məmmədov, 2023, s. 72).*
- Qlobal tədbirlərin (COP29, Formula 1) turist axınına birbaşa stimullaşdırıcı təsiri.

Zəif tərəflər və çağırışlar:

- Regionlarda xidmət səviyyəsinin hələ də paytaxtdan geri qalması.
- İxtisaslı kadr çatışmazlığı

Perspektivlər: Azad edilmiş ərazilərin turizm dövriyyəsinə qatılması Azərbaycanın turizm xəritəsini kökündən dəyişdirəcəkdir. Şuşa, Kəlbəcər və Hadrut regionları həm rekreasiya, həm də mədəni turizm mərkəzi kimi strateji əhəmiyyət kəsb edir *(Səmədov, 2023, s. 124).*

Dövlətin turizm strategiyası sadəcə makroiqtisadi göstəricilərin yüksəldilməsinə deyil, həm də sosial balansın qorunmasına xidmət edir. Turizm yerli icmaların iqtisadi həyata inteqrasiyasına şərait yaradır. Yerli sənətkarlığın dirçəldilməsi, tarixi abidələrin restavrasiyası və milli mətbəxin təbliği turizmin sosial faydaları sırasındadır.

4. Dövlətin tənzimləyici rolu və siyasəti

Turizm sektorunun inkişafında dövlətin rolu həlledicidir. Hüquqi bazanın təkmilləşdirilməsi, sahibkarlıq mühitinin yaxşılaşdırılması, vergi güzəştləri və infrastruktur layihələrinin dəstəklənməsi əsas prioritetlərdəndir.

Dövlət və özəl sektor əməkdaşlığı turizmin inkişafında mühüm rol oynayır və sahənin effektiv idarə olunmasını təmin edir.

Dövlətin tənzimləyici rolu strateji idarəçilik və resursların səmərəli bölgüsünün vəhdəti kimi çıxış edir. Belə bir sistemli yanaşma, turizmin daha inklüziv və sosial cəhətdən ədalətli bir sahə kimi formalaşmasını stimullaşdırır *(Əhmədov, 2024, s. 159).*

Qeyri-neft iqtisadiyyatında dayanıqlı turizm həm iqtisadi şaxələndirmənin, həm də regionların tarazlı inkişafının açarıdır. Aparılan təhlillər göstərir ki, dövlətin tənzimləyici və stimullaşdırıcı rolu bu sahənin rəqabət qabiliyyətini beynəlxalq səviyyəyə çatdıracaqdır. Turizmin strateji əhəmiyyəti onun həm iqtisadi artım, həm də mədəni irsin qorunması arasındakı körpü rolunda özünü büruzə verir. Gələcək inkişaf rəqəmsal innovasiyaların və dayanıqlılıq prinsiplərinin turizm xidmətlərinə dərindən inteqrasiyasından asılı olacaqdır.

NƏTİCƏ

Qeyri-neft iqtisadiyyatında dayanıqlı turizm həm iqtisadi diversifikasiyanın, həm də regionların balanslı inkişafının əsas amillərindən biridir. Aparılan təhlillər göstərir ki, dövlətin

tənzimləyici və stimullaşdırıcı rolu turizm sektorunun beynəlxalq rəqabət qabiliyyətini artırmaq potensialına malikdir.

Nəticə etibarilə, iqtisadi diversifikasiya və dayanıqlı turizm təşəbbüsləri Azərbaycanın davamlı inkişaf strategiyasının ayrılmaz hissəsidir. Gələcəkdə innovativ texnologiyaların tətbiqi və dayanıqlılıq prinsiplərinin genişləndirilməsi ölkənin uzunmüddətli iqtisadi rifahını təmin edəcəkdir. Perspektivdə dayanıqlı turizm prinsiplərinə əsaslanan yanaşmaların genişləndirilməsi və innovativ həllərin tətbiqi Azərbaycanın iqtisadi inkişaf modelini daha da möhkəmləndirəcək və uzunmüddətli rifahın təmin olunmasına xidmət edəcəkdir.

ƏDƏBİYYAT SİYAHISI

1. **Alıyev Ş.T. (2022).** *Qeyri-neft sektoru və diversifikasiya strategiyası*. Bakı: "Elm" nəşriyyatı.
2. **Alıyev E.H. (2024).** *Azərbaycan iqtisadiyyatının müasir inkişaf meylləri*. Bakı: UNEC nəşriyyatı.
3. **Bilalov B.A. (2021).** *Turizmin menecmenti və marketinqi*. Bakı: "Mütərcim".
4. **Əhmədov V.M. (2024).** *Xidmət sektorunun inklüziv inkişafı*. İqtisadiyyat Jurnalı, №1.
5. **Hüseynov T.N. (2023).** *Regionların inkişafında turizmin rolu*. Gəncə: ADAU nəşriyyatı.
6. **İsmayılov R.M. (2024).** *Dayanıqlı turizm və aqrar sahənin inteqrasiyası*. Bakı: "Təknur".
7. **Məmmədov Z.F. (2023).** *Rəqəmsal iqtisadiyyat və turizm trendləri*. Bakı: "Yazıçı".
8. **Məmmədova S.S. (2024).** *Turizm subyektlərində insan kapitalının idarəedilməsi*. Bakı: AR Turizm Agentliyinin Elmi bülleteni.
9. **Nəcəfov B.A. (2018).** *Turizm iqtisadiyyatı*. Bakı: Universitet nəşri.
10. **Quliyev E.M. (2022).** *Qeyri-neft sektorunun maliyyələşdirilməsi*. Bakı: ADİU.
11. **Səmədov A.H. (2023).** *İşğaldan azad edilmiş ərazilərin rekreasiya potensialı*. Bakı: "Coğrafiya cəmiyyəti".

AZƏRBAYCANDA TURİZM VƏ TURİSTİK ƏRAZİLƏRİN EKOLOJİ DAYANIQLIĞI

Tourısm in Azerbaıjan snd Ecologıcal Sustaınabılıty of Tourıst Areas

SƏDAQƏT ADIĞÖZƏLOVA[1]
Sadaqat Adygezelova[1]
sedaqet.adigözalova@mail.ru
https://orcid.org/0009-0004-5828-949X

AYGÜN BABAYEVA[1]
Aygun Babaeva[1]
baygün@mail.ru
https://orcid.org/0009-0001-3223-9492

TÜNZALƏ İSGƏNDƏROVA[2]
Tunzale Iskenderova[2]
isgandarova65@mail.ru
https://orcid.org/0000-0002-9553-7702

ZÜLFÜ MƏMMƏDOV[3]
Zulfu Mammadov[3]
xammaolu57@mail.ru
https://orcid.org/0009-0003-8112-2201

[1]*AR ETN Aqrar Problemlər İnstitutu*
[1]*AR ETN Institute of Agrarian Problems*
[2]*Gəncə Dövlət Universiteti*
[2]*Ganja State University*
[3]*Lənkəran Dövlət Universiteti*
[3]*Lankaran State University*

XÜLASƏ

Son otuz il ərzində "Dayanıqlı turizm" anlayışı kənar və sadə müzakirə mövzusundan çıxaraq, qlobal turizm sənayesinin əsas sütunlarından birinə çevrilmişdir. Belə ki, yaşadığımız müasir və qloballaşan bugünkü mühitdə turizm sənayesi iqtisadiyyatın ən dinamik inkişaf edən sektorlarından hesab edilməkdədir. Lakin onun intensiv inkişafı ətraf mühitə getdikcə artan çox ciddi antropogen təzyiqlə müşayiət olunur. Bu kontekstdə ətraf mühitin dayanıqlılığı konsepsiyası xüsusi aktuallığa malikdir. Bizi tamamilə əhatə edən ətraf mühitin dayanıqlılığı təbii sərvətləri qoruyan və təbii aləmə təsirləri minimuma endirən turizm fəaliyyətlərinin inkişafını nəzərdə tutur. Unikal təbii landşaftları, özünəməxsus zəngin təbiəti ilə Azərbaycan üçün bu məsələ xüsusilə aktualdır. Hazırda beynəlxalq səyahətçilərin 70%-dən çoxu ətraf mühit məsuliyyətini nümayiş etdirən istiqamətlərə, xidmətlərə daha çox üstünlük verir. Bu dəyişiklik iqlim dəyişmələri, biomüxtəlifliyin itirilməsi və təbii ehtiyatlardan səmərəli istifadə ilə bağlı daha geniş ictimai narahatlıqları əks etdirir. Bütün bunların hamısı turizm məkanlarının rəqabət qabiliyyətinə birbaşa təsir göstərir. Nəticə etibarilə, "yaşıl turizm" eyni zamanda ekoturizm ya da ekoloji cəhətdən davamlı turizm kimi adlandırılır. Məsələ artıq olduqca dar hansısa bir bazar seqmenti deyil, dünya üzrə milli turizm siyasətlərini formalaşdıran strateji istiqamətə çevrilmişdir. Qlobal turizm iqtisadiyyatı davamlılıq baxımından həm imkanları, həm də riskləri geniş şəkildə nümayiş etdirir. Dayanıqlığa yönəlmiş yanaşmaları qəbul edən ölkələr qlobal turizm reytinqlərində getdikcə daha rəqabətqabiliyyətli olurlar. Məqalədə Azərbaycanın turizm bölgələrində ekoloji dayanıqlılıq üçün müxtəlif çətinliklər və mümkün perspektivlər araşdırılır. Xüsusilə, ekoturizmin inkişafına, təbii sərvətlərdən daha səmərəli istifadəyə və turizm sənayesində davamlı inkişaf prinsiplərinin tətbiqinə diqqət yetirilir. Ölkənin əsas bölgələri, o cümlədən milli parklar və istirahət məkanları təhlil edilir. Turizmdə ekoloji siyasətin təkmilləşdirilməsi üçün tədbirlər təklif olunur.

Açar sözlər: *Azərbaycan, dayanıqlı turizm, ekoturizm, turizm ehtiyatları, ətraf mühit, biomüxtəliflik, təbii sərvətlər.*

ABSTRACT

Over the past thirty years, the concept of "sustainable tourism" has evolved from a fringe and idle topic of discussion to one of the main pillars of the global tourism industry. Thus, in today's globalized environment, tourism is considered one of the most dynamically developing economic sectors. However, its intensive development is accompanied by increasingly serious anthropogenic pressure on the environment. In this context, the concept of environmental sustainability takes on particular relevance. Environmental sustainability implies the development of tourism activities that protect natural resources and minimize impact on the natural world. This issue is particularly relevant for Azerbaijan, with its unique natural landscapes and rich wildlife. Currently, over 70% of foreign tourists prefer destinations and services that demonstrate environmental responsibility. This change reflects broader societal concerns about climate change, biodiversity loss, and the efficient use of natural resources. All of this directly impacts the competitiveness of tourist destinations. As a result, "green tourism" is also referred to as ecotourism or environmentally sustainable tourism. This issue is no longer confined to a narrow market segment but represents a strategic direction shaping national tourism policies worldwide. The global tourism economy clearly demonstrates both the opportunities and risks for sustainable development. Countries adopting sustainable development approaches are becoming increasingly competitive in global tourism rankings. This article examines the various challenges and potential prospects for environmental sustainability in Azerbaijan's tourism regions. Specifically, it focuses on the development of ecotourism, more efficient use of natural resources, and the application of sustainable development principles in the tourism industry. Key regions of the country, including national parks and recreation areas, are analyzed. Measures for improving environmental policy in tourism are proposed.

Keywords: *Azerbaijan, sustainable tourism, ecotourism, tourism resources, environment, biodiversity, natural resources*

GİRİŞ

Turizm müasir dövrdə dünyanın bir sıra müxtəlif ölkələrində çox böyük sürətlə inkişaf edir. Hazırda bu sahə qlobal iqtisadiyyatda çox mühüm yer tutur və öz mövqeyini gündən-günə daha da möhləmləndirir. Turizm sektoru bu gün kifayət qədər yüksək gəlir gətirir ki, milli gəlirin artmasına səbəb olur. Bundan başqa, turizmin hərtərəfli və geniş şəkildə inkişaf etməsinin nəticəsində çoxlu sayda yeni-yeni iş yerləri açılır, insanlar işlə təmin olunur, onların maddi-rifahı daha da yaxşılaşır. Azərbaycanda hazırda turizmin inkişafı davamlı müsbət tendensiya nümayiş etdirir. Ölkəmiz beynəlxalq reytinqlərdə mövqeyini möhkəmləndirir və turist axınını artırır, eyni zamanda sənayenin ekoloji dayanıqlığına diqqət yetirir. Bu kontekstdə iqtisadi artım, təbii sərvətlərin qorunması və regional sosial inkişaf arasında tarazlığa əsaslanan davamlı turizm modelinə keçid xüsusilə vacibdir. Ekoturizm ən perspektivli sahələrdən biri hesab olunur. Belə ki, turizmin bu növü ətraf mühitə arzuolunmaz çoxlu sayda mənfi təsirləri minimuma endirir və eyni zamanda da yerli icmaların inkişafını təşviq edir. Hazırda ölkəmizin özünəməxsus olduqca zəngin biomüxtəlifliyi və unikal təbii ərazilərin mövcudluğu nəzərə alınmaqla, turizm ərazilərinin davamlı idarə olunması sənayenin uzunmüddətli inkişafında əsas amilə çevrilməkdədir.Azərbaycanda turizmdə çalışanların sayı ildən-ilə artmaqdadlr. Bu da çox fərəhləndirici haldır və Respublikamızda turizm sahəsinə insanların marağının artması kimi dəyərləndirilə bilər. 1 saylı cədvəldə mehmanxana və mehmanxana tipli otellərdə işləyən insanların sayı (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2025, s. 27) haqqında son illərə aid müvafiq məlumatlar verilmişdir. Verilən məlumatlardan aydın görünür ki, 2019-cu ildə mehmanxana və mehmanxana tipli otellərdə işçilərin sayı cəmi 12481 nəfər olduğu halda 2024-cü ildə uyğun olaraq bu rəqəm 15202 nəfər təşkil etmişdir. Bu isə, işçilərin sayının kifayət qədər artıması deməkdir.

Cədvəl 1. Mehmanxana (hotel) və mehmanxana tipli otellərdə işçilərin sayı (nəfər)

S/s	İşçilərin sayı (nəfər)	2019	2020	2021	2022	2023	2024
1	İşçilərin sayı - cəmi	12481	10731	11143	12314	13608	15202
	O cümlədən mülkiyyət növləri üzrə						
2	dövlət	1012	1012	1044	1239	1239	1575
3	qeyri-dövlət	11469	9719	10099	11075	12369	13627
4	xüsusi	10190	8568	8896	9822	11086	12274
5	xarici	593	539	591	618	625	660
6	birgə	686	612	612	635	658	693

Müxtəlif coğrafi ərazilərdə müvafiq infrastrukturun yaradılması, burada yerləşən tarixi və mədəni abidələrin etibarlı bir şəkildə mühafizə edilməsi, sayca çoxlu insanların ölkə ilə, eləcə də onun ən müxtəlif sahələrdəki mühüm nailiyyətləri ilə tanış olmasına əlverişli şərait yaranır.Azərbaycanda turizm öz perspektivliyinə görə hazırda qeyri-neft sahələrinin arasında aparıcı mühüm mövqelərdən birini tutur.Turizm fəal istirahətin geniş yayılmış və ən kütləvi növlərindən biridir. Hər il minlərlə insan istirahət həvəskarları sırasına qoşulur və bununla da turizm getdikcə daha geniş vüsət alır. Turizm sadəcə maraq da deyil. Bu, son 15-20 ildə respublikamızda insanların vərdiş etdikləri həyati tələbatına çevrilmişdir. Lakin Azərbaycanda turizmin tarixi göstərilən bu illərlə məhdudlaşmır. Əgər qədim səyahətləri xatırlasaq, aydın olur ki, Azərbaycan ərazisinə müxtəlif məqsədlər üçün səfər edən səyyahlar olmuşlar. Onlar turist sayılmasalar da, zaman keçdikcə bu ərazidə qonaqpərvərlik sənayesi formalaşmağa başlamışdır (Soltanova, 2015, s. 12).

Azərbaycan ərazisində turizmi müstəqillik dövründən götürərək, gənc sahə hesab edilsə də, ölkəmizdə turizm ənənələrinin tarixi çox qədim dövrlərə gedib çıxır.



Şəkil 1. Göygöl. Göygöl Milli Parkı



Şəkil 2. Maral göl. Göygöl Milli Parkı

Turizm Azərbaycanın müxtəlif bölgələrində iqtisadi inkişaf üçün prioritet sahələrdən biri kimi tanınır. Beynəlxalq təşkilatların fikrincə, Azırbaycanda bu işlərin reallaşdırılması üçün olduqca çox əlverişli real imkanlar mövcuddur.

Azərbaycanın çox zəngin turizm potensialı vardır (şəkil 1və 2). Belə ki, Azərbaycan Respublikası olduqca mühüm əhəmiyyətli müxtəlif təbii sərvətlərə malikdir: dağ silsilələri, zümrüd meşələr, Xəzər dənizinin sahilləri, mineral bulaqlar, unikal iqlim zonaları və s. Ölkənin təbii turizm ehtiyatları çox müxtəlifdir və iqtisadiyyatda mühüm rol oynayır. Turizm ehtiyatları birn sıra müəyyən resurslarının birləşməsini təmsil edir. Bunlar aşağıdakılardan ibarətdir;

– təbii;
– sosial-mədəni;
– insan sağlamlığı;
– rekreasiya.

Turizm ehtiyatları insanların asudə vaxtlarında bir çox istirahət ehtiyaclarını araşdırmağa xidmət etməlidir.

Turizm ehtiyatları bilavasitə və vasitəli olmaqla iki qnıpa ayrılır (cədvəl 2).

Cədvəl 2. Turizm ehtiyatları

Sıra sayı	Turizm ehtiyatları və onların aid olunduğu əsas quruplar	
	Bilavasitə	Vasitəli
1	Turistlərin bilavasitə özləri tərəfindən istifadə edilən tarixi-mədəni və təbii ehtiyatlar	Sosial-iqtisadi ehtiyatlar
1	Cəlbedici landşaft sahələri	Maddi-texniki baza
2	Müalicəvi xüsusiyyətlərə malik olan müxtəlif rekreasiya əraziləri	Maliyyə vəsaiti,
3	Tarixi-mədəni diqqətəlayiq olan cəlbedici yerlər və s.	Əmək ehtiyatları və s.

Turizmlə bağlı olan digər daha bir təsnifata görə, turist ehtiyatları aşağıda göstərilən üç qrupa bölünür:

– kurort;
– ümumi sağlamlıq və istirahət müəssisələri və ya obyektləri;

– mədəni - mənəvi.

Aparılan araşdırmalardan da məlum olduğu kimi, turist ehtiyatlarına hansısa müəyyən bir təbii elementin daxil olunması meyarları onların istifadəsinin həm texniki, həm də iqtisadi məqsədəuyğunluğuna, həmçinin öyrənilmə səviyyəsinə əsaslanır. Funksional olmaqla bütün turist ehtiyatları aşağıdakı növlərə bölünür:

– sağlamlıq;

– təhsil;

– idman.

Turizm ehtiyatlarının istifadə müddətləri bir sıra müxtəlif amillərdən asılı olur (cədvəl 3).

Cədvəl 3. Turizm ehtiyatlarının istifadə müddətlərinin asılı aolduğu başlıca amillər

Sıra sayı	Amillər
1	Turizm və istirahət ehtiyatlarının düzgün qiymətləndirilməsi və eləcə də onların turistləri cəlb etmək potensialından
2	Müəyyən turist ehtiyatlarının bütövlüyü, onun toxunulmazlığı və ərazi üzrə paylanmasının səviyyəsindən
3	Turist ehtiyatlarının ərazi daxilində kompakt yerləşməsi, eləcə də müəyyən sahə vahidi daxilində onun miqdarından
4	Turist ehtiyatlarına olan tələbat və mövcud infrastrukturun inkişaf səviyyəsindən və s.

Qeyd etmək lazımdır ki, bütün dünyada olduğu kimi, Azərbaycanın da turizm bölgələrində ətraf mühitin dayanıqlığı problemi mühüm akruallığa malik olan ekoloji məsələlərdən biridir.

Azərbaycanda davamlı turizmin inkişaf etdirilməsi üçün xüsusilə son illərdə müxtəlif əməli işlər aparılır və müvafiq tədbirlər, təşəbbüslər həyata keçirilir. Xüsusilə də davamlı turizm strategiyası aşağıdakı məsələlərin həyata keçirilməsini hədəfləyir:

– ekosistemləri qoruyub saxlamaq bə onları etibarlı şəkildə mühafizə etmək;

– ətraf mühitə müxtəlif mənbələrdən yüksək miqdarda ixrac olunan ciddi ekotoksiki təsirlərə malik emissiyaların miqdarını mümkün qədər azaltmaq;

– ekoloji cəhətdən təmiz, o cümlədən də aztullantılı və tullantısız mütərəqqi texnologiyaların daha da geniş şəkildə inkişaf etdirilməsi və s.

Məlum olduğu kimi, bizim hər birimizi tamamilə əhatə edən və min bir tellərlə bağlı olduğumuz ətraf mühitin davamlılığı milli inkişafın əsas elementi hesab olunur.

Qeyd etmək lazımdır ki, turizmlə bağlı olaraq, ərazidə yerləşmiş olan bütün təbii komplekslərin estetikliyinin qiymətləndirilməsinə sistemli yanaşma xüsusilə çox önəmlidir. Bu məsələlərdə aşağıda göstərilən prinsiplər mühüm hesab olunur:

– bütün təbii komplekslər estetikdir və onlar qiymətləndirilə bilər;

– mövcud olan bütün landşaftlara aid universal göstəricilərə baxılır;

– landşaftın estetikliyinin səciyyəsində təkcə onun"xarici" deyil, həmçinin daxili struktur xüsusiyyətlərinə də baxılır;

– ayrı-ayrı komponentlərin əhəmiyyəti müəyyən mənada onların əlaqəsi ilə müəyyən edilir və ona görə təcrübədə hər bir göstərici fərdi qaydada düzgün qiymətləndirilir. Sonra isə, bütün fərdi göstəricilərin ümumiləşdirilməsi əsasında ümumi qiymətləndirmə işləri yerinə yetirilir;

– qiymətləndirmədə alınan balların cəmi qiymətləndirmənin son məqsədini deyil, keyfiyyət ölçüsünü bildirir.

Dayanıqlı turizm inkişafın iqtisadi, ekoloji və sosial aspektləri arasında tarazlıq prinsiplərinə əsaslanır. Biomüxtəlifliyin qorunmasını, müxtəlif növ, o cümlədən, kimyəvi, fiziki, mexaniki, radioaktiv, bioloji və s. çirklənmələrin azaldılmasını eləcə də yerli icmaların dəstəklənməsini hədəfləyir və aşağıdakıları əhatə edir:

– təbii sərvətlərdən daha səmərəli istifadə olunması;

– müxtəlif mənbələrdən atılan tullantıların azaldılması və çirklənmənin qarşısının mümkün qədər alınması;

– ekoloji cəhətdən təmiz infrastrukturun inkişaf etdirilməsi;

– yerli icmaların iştirakı.

Beləliklə, ətraf mühitin davamlılığı turizm sənayesinin uzunmüddətli inkişafının əsas elementi hesab edilir.

Ekoturizm Azərbaycanda hazırda turizmin inkişafı üçün prioritetə çevrilir.

Ədəbiyyat araşdırmalarından da aydın olduğu kimi, ekoturizm aşağıdakılara töhfə verir:

– ətraf mühitin qorunması;

– regional inkişaf;

– ətraf mühitin qorunması ilə bağlı olaraq, maarifləndirmənin artırılması (Hacıyeva, 2019, s. 374).

Bundan əlavə, Qarabağda "yaşıl marşrutların" inkişafı davamlı inkişaf üçün yeni imkanlar açır (Humbatov, 2025, s. 3).

Onu da qeyd etmək lazımdır ki, Azərbaycanda turizmlə bağlı müsbət tendensiyalara baxmayaraq, həllini gözləyən bir sıra ciddi problemlər hələ də qalmaqdadır:

– ətraf mühitin çirklənməsi;

– turizmin nəzarətsiz artımı;

– ekoloji infrastrukturun qeyri-kafi olması;

– əhalinin, xüsusi ilə də tələbə-gənclərin arasında ekologiya sahəsində maarifləndirilmə işlərinin aşağı səviyyəsi.

Aparılan araşdırmaların nəticələrinə əsasən qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının turizm ərazilərinin dayanıqlılığını artırmaq üçün əməli tədbirlərin həyata keçirilməsi çox zəruridir. Bunlara isə, misal olaraq, aşağıdakıları göstərmək olar:

– ətraf mühit standartlarını düzgün tətbiq etmək;

– "yaşıl" infrastrukturu mümkün qədər daha çox inkişaf etdirmək;

– Əhali, xüsusi ilə də gənc nəsil arasında ekoloji təhsili təşviq etmək;

– hökumət fəaliyyətlərini düzgün tənzimləmək;

– zəngin turizm potensialına malik olan bölgələrimizdə ekoturizmi geniş şəkildə daha da inkişaf etdirmək.

Beynəlxalq təcrübə göstərir ki, davamlı təcrübələrin inteqrasiyası turizmin uzunmüddətli inkişafına töhfə verir.

Beləliklə, Azərbaycanda turizmin inkişafı və turizm ərazilərinin ekoloji dayanıqlığını artırmaq üçün aşağıdakılar tövsiyə olunur:

Birincisi, xüsusilə həssas təbii ərazilərdə turist axınının məhdudlaşdırılması sistemini tətbiq etmək çox lazımdır. Bu, ekosistemin deqradasiyasının qarşısını alacaq və təbii irsi qoruyub saxlayacaqdır.

İkincisi, vacib bir sahə "yaşıl" infrastrukturun inkişafı ilə bağlıdır. Bərpa olunan enerji mənbələrindən istifadə, otel sektorunda enerjiyə qənaət edən texnologiyaların tətbiqi və ekoloji cəhətdən təmiz turizm obyektlərinin yaradılması zəruridir.

Üçüncüsü, turist axınının çoxalması ətraf mühitə təsirləri birbaşa artırdığı üçün turizm bölgələrində tullantıların idarə olunması sistemləri, o cümlədən ayrıca tullantıların toplanması və təkrar emalı təkmilləşdirilməlidir.

Turistlər arasında ekoloji təhsilin inkişaf etdirilməsi və məsuliyyətli davranışın təşviq edilməsi xüsusilə çox aktual və vacibdir. Belə ki, ətraf mühitlə bağlı maarifləndirmənin artırılması antropogen təsirlərin azaldılmasına və biomüxtəlifliyin qorunmasına kömək edir.

Bundan əlavə, yerli icmaların turizm fəaliyyətlərində fəal iştirakı vacibdir. Aqroturizmin, eko-sahibkarlığın və yerli təşəbbüslərin inkişafı regional iqtisadiyyatları stimullaşdırmaqla yanaşı, həm də ekoloji riskləri müəyyən qədər azaldır.

Nəhayət, qlobal ekoloji təşəbbüslərdə iştirak və ən yaxşı beynəlxalq təcrübələrin Respublikamız üçün uyğunlaşdırılması da daxil olmaqla, davamlı turizm sahəsində institusional və beynəlxalq əməkdaşlığın gücləndirilməsi vacib bir addımdır.

Qeyd etmək lazımdır ki, davamlı turizm modelinə keçid Azərbaycana təkcə təbii və mədəni irsini qorumağa deyil, həm də ölkənin qlobal turizm bazarında uzunmüddətli rəqabət qabiliyyətini təmin etməyə imkan verəcəkdir.

Beləliklə, qeyd etmək lazımdır ki, təbiət Azərbaycana turizm sənayesini beynəlxalq səviyyəyə qaldırmaq üçün hər cür gözəl imkanlar bəxş etmişdir. Bu sahənin gələcək inkişafı isə, əsasən düzgün, məqsədyönlü tədbirlərin həyata keçirilməsindən və insanların bu məsələyə münasibətindən asılıdır.

ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2025). *Azərbaycanda turizm: Statistik məcmuə*. Bakı, 27.
2. Гумбатов, Ю. А. (2025). *Анализ потенциала формирования зелёных маршрутов в Карабахе. Экономика и управление*, 3.
3. Гаджиева, Г. В. (2019). *Развитие экологического туризма в южном регионе Азербайджана Ленкорани*. *Молодой ученый*, 8(246), 374.
4. Soltanova, H. B. (2015). *Azərbaycan Respublikasında turizm və onun inkişafı.* Bakı: AzTU-nun mətbəəsi, 12.

TURİZM SAHƏSİNDƏ SÜNİ İNTELLEKT TƏTBİQLƏRİ

Artıfıcıal Intellıgence Applıcatıons ın The Tourısm Sector

ZEMFİRA ƏLİYEVA[1]
Zemfira Aliyeva[1]
zemfira.aliyeva@mdu.edu.az
https://orcid.org/0000-0002-5833-0075

AYSU SÜLEYMANOVA[1]
Aysu Suleymanova[1]
aysu.suleymanova@mdu.edu.az
https://orcid.org/0009-0008-5390-0084

GÜLAY BƏHRAMOVA[1]
Gulay Bahramova[1]
gulay.bahramova@mdu.edu.az
https://orcid.org0009-0003-9487-2271

[1]*Mingəçevir Dövlət Universiteti*
[1]*Mingachevir State University*

XÜLASƏ

Turizm sənayesi qlobal iqtisadiyyatın ən dinamik və sürətlə transformasiya olunan sahələrindən biridir. Rəqəmsal texnologiyaların inkişafı, xüsusilə süni intellektin (Sİ) tətbiqi bu sahədə xidmət modellərini, idarəetmə mexanizmlərini və müştəri münasibətlərini əsaslı şəkildə dəyişdirmişdir. Süni intellekt texnologiyaları turizm müəssisələrinə böyük həcmdə məlumatları analiz etməyə, müştəri davranışlarını proqnozlaşdırmağa və fərdiləşdirilmiş xidmətlər təqdim etməyə imkan verir. Onlayn səyahət platformaları, o cümlədən Booking.com və Airbnb, istifadəçilərin axtarış tarixçəsi, seçimləri və rezervasiya davranışları əsasında fərdi təkliflər formalaşdırır. Bu yanaşma müştəri məmnuniyyətini artırmaqla yanaşı, şirkətlərin gəlirliliyini də yüksəldir. Dinamik qiymətləmə sistemləri tələb və təklif dəyişikliklərinə real vaxt rejimində reaksiya verərək bazar şəraitinə uyğun optimal qiymət siyasəti qurur. Süni intellekt əsaslı çatbotlar və virtual assistentlər 24/7 müştəri xidməti göstərir, rezervasiya prosesini sadələşdirir və operativ xərcləri azaldır. Böyük verilənlərin analizi isə turizm axınlarının proqnozlaşdırılmasına, mövsümi dəyişikliklərin idarə olunmasına və marketinq strategiyalarının daha effektiv planlaşdırılmasına şərait yaradır. Aviasiya və otelçilik sektorunda ağıllı alqoritmlər marşrut planlamasını, resurs bölgüsünü və gəlir idarəetməsini optimallaşdırır. Bununla yanaşı, Sİ tətbiqləri etik və hüquqi məsələləri də gündəmə gətirir. Şəxsi məlumatların qorunması, kibertəhlükəsizlik və alqoritmik şəffaflıq turizm şirkətləri üçün prioritet istiqamətlərdən biridir. Eyni zamanda, süni intellekt davamlı turizm prinsiplərinin həyata keçirilməsinə, enerji sərfiyyatının azaldılmasına və ekoloji təsirin monitorinqinə töhfə verir. Nəticə etibarilə, süni intellekt turizm sektorunda innovasiyanı sürətləndirən və rəqabət üstünlüyü yaradan əsas texnoloji vasitəyə çevrilmişdir. Onun strateji və etik tətbiqi həm biznes subyektlərinin səmərəliliyini artırır, həm də turistlər üçün daha təhlükəsiz, rahat və fərdiləşdirilmiş səyahət təcrübəsi formalaşdırır.

Açar sözlər: *Süni intellekt, turizm sənayesi, rəqəmsallaşma, fərdiləşdirilmiş xidmətlər, dinamik qiymətləmə*

ABSTRACT

The tourism industry is one of the most dynamic and rapidly transforming sectors of the global economy. The development of digital technologies, particularly the application of artificial intelligence (AI), has fundamentally changed service models, management mechanisms, and customer relations in this field. AI technologies enable tourism enterprises to analyze large volumes of data, predict customer behavior, and provide personalized services. Online travel platforms, including Booking.com and Airbnb, generate personalized offers based on users' search history, preferences, and booking behavior. This approach not only increases customer satisfaction but also enhances company profitability. Dynamic pricing systems respond to changes in demand and supply in real time, establishing optimal pricing policies adapted to market conditions. AI-based chatbots and virtual assistants provide 24/7 customer service, simplify the booking process, and reduce operational costs. Big data analysis allows forecasting of tourism flows, management of seasonal changes, and more effective planning of marketing strategies. In aviation and hospitality, smart algorithms optimize route planning, resource allocation, and revenue management. At the same time, AI applications raise ethical and legal issues. Data protection, cybersecurity, and algorithmic transparency are priority areas for tourism companies. Moreover, AI contributes to the implementation of sustainable tourism principles, reduction of energy consumption, and monitoring of ecological impacts. In conclusion, artificial intelligence has become a key technological tool accelerating innovation and creating competitive advantage in the tourism sector. Its strategic and ethical application increases business efficiency while providing tourists with safer, more comfortable, and personalized travel experiences.

Keywords: *Artificial intelligence, tourism industry, digitalization, personalized services, dynamic pricing*

GİRİŞ

XXI əsrdə turizm sənayesi qlobal iqtisadiyyatın ən dinamik sahələrindən biri kimi formalaşmış və yüksək rəqabət mühiti ilə seçilməyə başlamışdır. Qloballaşma proseslərinin sürətlənməsi, beynəlxalq hərəkətliliyin genişlənməsi, rəqəmsal platformaların sürətlə yayılması və istehlakçı davranışlarında baş verən dəyişikliklər bu sektorun strukturuna və idarəetmə prinsiplərinə ciddi təsir göstərmişdir. Ənənəvi turizm yanaşmaları artıq müasir turistin gözləntilərini tam şəkildə ödəməkdə çətinlik çəkir. Bu günün turistləri daha operativ, təhlükəsiz, fərdi ehtiyaclara uyğunlaşdırılmış və interaktiv xidmətlərə üstünlük verirlər. Belə bir şəraitdə innovativ texnologiyaların tətbiqi qaçılmaz zərurətə çevrilmişdir.

Rəqəmsallaşma turizm sahəsində informasiya və kommunikasiya texnologiyalarının rolunu əhəmiyyətli dərəcədə artırmışdır. Xüsusilə süni intellekt bu transformasiya prosesində aparıcı amillərdən biri kimi çıxış edir. Bu texnologiya böyük həcmli məlumatların emalı, istifadəçi davranışlarının təhlili, gələcək tendensiyaların proqnozlaşdırılması və qərarvermə proseslərinin avtomatlaşdırılması vasitəsilə turizm müəssisələrinin fəaliyyətini daha çevik və effektiv edir. Məsələn, Booking.com və Expedia Group kimi platformalar istifadəçi məlumatlarını analiz edərək fərdi seçimlərə uyğun təkliflər hazırlayır və bazar şəraitinə uyğun qiymət strategiyalarını tətbiq edir.

Süni intellektin turizm sektorunda geniş tətbiq olunmasının əsas səbəblərindən biri bu sahədə böyük həcmdə məlumatın yaranmasıdır. Bu məlumatların düzgün idarə edilməsi müəssisələrə rəqabət üstünlüyü qazandırır. Digər tərəfdən, turizm xidmət yönümlü sahə olduğu üçün müştəri məmnuniyyətinin təmin edilməsi əsas prioritet kimi çıxış edir və süni intellekt fərdiləşdirilmiş xidmət modellərinin qurulmasına imkan verir. Bundan əlavə, operativ və əsaslandırılmış qərarların qəbul edilməsi zərurəti analitik və proqnozlaşdırıcı alqoritmlərin əhəmiyyətini daha da artırır.

Eyni zamanda, süni intellektin tətbiqi yalnız iqtisadi səmərəliliklə məhdudlaşmır. Bu texnologiyalar davamlı turizm yanaşmasının inkişafına da töhfə verir. Ağıllı idarəetmə sistemləri vasitəsilə turist axınlarının tənzimlənməsi, enerji resurslarının daha qənaətli istifadəsi və şəhər infrastrukturuna düşən yükün azaldılması mümkün olur. Bu isə həm ətraf mühitin qorunmasına, həm də şəhər həyatının balanslaşdırılmasına xidmət edir.

Beləliklə, süni intellekt turizm sənayesində innovativ inkişafın əsas hərəkətverici qüvvələrindən biri kimi çıxış edir və sektorun gələcək istiqamətlərinin formalaşmasında mühüm rol oynayır. Bu baxımdan, turizm sahəsində süni intellekt tətbiqlərinin əsas istiqamətlərinin, üstünlüklərinin və mövcud problemlərinin araşdırılması xüsusi aktuallıq kəsb edir.

Süni intellekt insan intellektinə xas olan düşünmə, öyrənmə və qərarvermə kimi prosesləri modelləşdirən texnoloji sistemlərin məcmusu kimi xarakterizə olunur. Bu sistemlər mürəkkəb məlumatları təhlil etmək, müəyyən qanunauyğunluqları aşkar etmək və əldə olunan nəticələr əsasında qərarlar qəbul etmək qabiliyyətinə malikdir. Turizm sektorunda süni intellekt əsasən istifadəçi məlumatlarının emalı, tələbin proqnozlaşdırılması, fərdi xidmətlərin təqdim edilməsi və əməliyyatların optimallaşdırılması məqsədilə tətbiq olunur.

Süni intellekt bir neçə əsas komponent üzərində qurulmuşdur. Bunlardan biri maşın öyrənməsidir. Bu yanaşma sistemlərə əvvəlcədən dəqiq proqramlaşdırma olmadan məlumatlar əsasında öyrənmək və nəticələr çıxarmaq imkanı verir. Turizm sahəsində bu texnologiya istifadəçi davranışlarını analiz edərək fərdi tövsiyələrin hazırlanmasında, qiymət siyasətinin optimallaşdırılmasında və tələb proqnozlarının qurulmasında geniş istifadə olunur. Məsələn, Amadeus IT Group kimi şirkətlər bu yanaşmadan istifadə edərək aviasiya və turizm müəssisələri üçün effektiv idarəetmə sistemləri təqdim edir.

Dərin öyrənmə isə daha mürəkkəb neyron şəbəkələrə əsaslanan və böyük verilənlər üzərində işləyən inkişaf etmiş yanaşma kimi çıxış edir. Bu texnologiya xüsusilə vizual və səsli məlumatların emalında yüksək dəqiqlik təmin edir və turizm sektorunda şəkil tanıma, səsli köməkçi sistemlər və analitik modellərdə tətbiq olunur.

Təbii dilin emalı insan dilinin kompüter sistemləri tərəfindən anlaşılmasını təmin edən mühüm texnologiyadır. Bu yanaşma turizm sahəsində əsasən çatbotlar və virtual assistentlər vasitəsilə istifadə olunur. Məsələn, Hilton kimi beynəlxalq otel şəbəkələri müştərilərlə operativ və fasiləsiz ünsiyyət qurmaq üçün bu texnologiyadan geniş istifadə edir.

Kompüter görməsi texnologiyası isə şəkil və video kimi vizual məlumatların avtomatik analizini həyata keçirir. Bu sistemlər təhlükəsizlik, identifikasiya və obyekt tanıma kimi sahələrdə geniş tətbiq olunur və xüsusilə hava limanlarında istifadə edilərək proseslərin sürətləndirilməsinə və təhlükəsizlik səviyyəsinin artırılmasına kömək edir.

Bundan əlavə, proqnozlaşdırıcı analitika süni intellektin mühüm istiqamətlərindən biri hesab olunur. Bu yanaşma əvvəlki məlumatlara əsaslanaraq gələcək meylləri müəyyən etməyə imkan verir. Turizm sektorunda bu texnologiya turist axınlarının planlaşdırılması, mövsümi dəyişikliklərin idarə olunması və marketinq strategiyalarının daha effektiv qurulması üçün geniş istifadə edilir.

Nəticə etibarilə, süni intellekt müxtəlif texnoloji komponentlərin inteqrasiyası əsasında formalaşan kompleks sistem kimi turizm sənayesində innovasiyanın əsas dayaqlarından birinə çevrilmişdir. Onun tətbiqi xidmət keyfiyyətinin yüksəldilməsinə, idarəetmə proseslərinin optimallaşdırılmasına və müəssisələrin rəqabət qabiliyyətinin artırılmasına mühüm töhfə verir.

Onlayn rezervasiya sistemləri turizm sənayesinin rəqəmsal infrastrukturunun əsasını təşkil edir. Müasir dövrdə turistlərin böyük əksəriyyəti səyahət planlamasını, otel və aviabilet seçimlərini, eləcə də əlavə xidmətlərin sifarişini məhz onlayn platformalar vasitəsilə həyata keçirir [7]. Bu sistemlərin effektiv fəaliyyəti isə getdikcə daha çox süni intellekt (Sİ) texnologiyalarına əsaslanır.

Sİ əsaslı tövsiyə alqoritmləri istifadəçilərin axtarış tarixçəsi, klik davranışları, əvvəlki rezervasiyaları və qiymətləndirmələri əsasında fərdi təkliflər formalaşdırır. Məsələn, Booking.com və Expedia Group kimi platformalar milyonlarla istifadəçi məlumatını analiz edərək hər bir müştəriyə uyğun otel, uçuş və tur paketləri təqdim edir. Bu yanaşma seçim prosesini asanlaşdırır, vaxt itkisinin qarşısını alır və müştəri məmnuniyyətini artırır.

Tövsiyə sistemləri əsasən kollaborativ filtrasiya və kontent əsaslı filtrasiya metodlarından istifadə edir. Kollaborativ filtrasiya oxşar davranış göstərən istifadəçilərin seçimlərini müqayisə edir, kontent əsaslı filtrasiya isə məhsul xüsusiyyətlərinə uyğun seçimlər təklif edir.

Onlayn rezervasiya sistemlərində Sİ-nin ən mühüm tətbiqlərindən biri dinamik qiymətləmə modelidir. Bu model tələb və təklif dəyişikliklərini, mövsümi faktorları, tədbirləri, hava şəraitini və rəqiblərin qiymət siyasətini nəzərə alaraq qiymətləri real vaxt rejimində tənzimləyir.

Məsələn, Airbnb ev sahiblərinə avtomatik qiymət təyini funksiyası təqdim edir ki, bu da bazar tələbinə uyğun optimal qiymətin müəyyən edilməsinə kömək edir. Nəticədə həm xidmət təklif edən tərəf, həm də müştəri üçün balanslaşdırılmış qiymət formalaşır.

Süni intellekt istifadəçi sorğularını daha dəqiq başa düşmək və uyğun nəticələri təqdim etmək üçün təbii dilin emalı (NLP) texnologiyalarından istifadə edir. İstifadəçi "dəniz kənarında ailəvi otel" kimi mürəkkəb sorğu daxil etdikdə sistem semantik analiz apararaq uyğun variantları sıralayır.

Sıralama alqoritmləri isə nəticələri istifadəçi üçün ən relevant ardıcıllıqla təqdim edir. Bu prosesdə istifadəçi reytinqləri, məsafə, qiymət, populyarlıq və fərdi üstünlüklər nəzərə alınır.

Sİ alqoritmləri tarixi məlumatlara əsaslanaraq gələcək rezervasiya tendensiyalarını proqnozlaşdırır. Bu, xüsusilə hava yolu və otel sektorunda yer tutumunun effektiv idarə olunmasına kömək edir. Texnologiya təminatçılarından biri olan Amadeus IT Group aviaşirkətlər üçün gəlir idarəetməsi və marşrut optimallaşdırılması sistemləri təqdim edir.

Proqnozlaşdırıcı modellər:

Mövsümi dalğalanmaları müəyyən edir

Pik dövrləri qabaqcadan təxmin edir

Overbooking risklərini azaldır

Resurs bölgüsünü optimallaşdırır

Onlayn rezervasiya platformalarında süni intellektin əsas tətbiq istiqamətlərindən biri dinamik qiymət formalaşdırılmasıdır. Bu mexanizm tələb və təklifin dəyişməsi, mövsümi faktorlar, xüsusi tədbirlər və bazar rəqabəti kimi amilləri nəzərə alaraq qiymətləri avtomatik şəkildə tənzimləyir [9]. Məsələn, Airbnb platformasında tətbiq olunan avtomatik qiymət alqoritmləri bazar şəraitinə uyğun optimal qiymətlərin müəyyənləşdirilməsinə imkan verir [7]. Süni intellekt istifadəçi sorğularını daha dəqiq anlamaq üçün təbii dilin emalı texnologiyalarından istifadə edir və mürəkkəb axtarışları semantik baxımdan təhlil edərək uyğun nəticələr təqdim edir [4]. Axtarış nəticələrinin sıralanması zamanı istifadəçi rəyləri, məsafə, qiymət və fərdi seçimlər kimi meyarlar nəzərə alınır ki, bu da istifadəçi təcrübəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırır [7]. Tarixi məlumatlara əsaslanan proqnozlaşdırıcı modellər isə gələcək rezervasiya davranışlarını müəyyən etməyə imkan verir. Bu yanaşma xüsusilə aviasiya və otel sektorunda resursların optimallaşdırılması baxımından mühüm rol oynayır [5]. Bu istiqamətdə Amadeus IT Group kimi şirkətlər gəlir idarəetməsi və marşrut planlaşdırılması üzrə innovativ həllər təqdim edir [9]. Süni intellekt həmçinin təhlükəsizlik sahəsində də tətbiq olunur. Maşın öyrənməsi alqoritmləri şübhəli əməliyyatları müəyyən edərək potensial fırıldaqçılıq risklərini azaldır və istifadəçi məlumatlarının qorunmasına töhfə verir [3]. Çatbotlar və virtual assistentlər rezervasiya prosesində istifadəçilərə operativ dəstək göstərərək xidmət keyfiyyətini artırır və əməliyyat xərclərini azaldır [4]. əqəmsal transformasiya şəraitində müştəri ilə fasiləsiz əlaqə turizm sektorunda prioritet məsələyə çevrilmişdir. Bu baxımdan süni intellekt əsaslı çatbotlar və virtual assistentlər geniş tətbiq olunur [11]. Bu sistemlər təbii dilin emalı və maşın öyrənməsi texnologiyalarından istifadə edərək istifadəçi sorğularını analiz edir və uyğun cavablar təqdim edir [4]. Məsələn, Hilton kimi otel şəbəkələri müştəri xidmətlərinin avtomatlaşdırılması üçün bu texnologiyalardan geniş istifadə edir [11]. Virtual assistentlər istifadəçi davranışını analiz edərək fərdiləşdirilmiş tövsiyələr təqdim edir. Bu baxımdan Booking.com platforması qabaqcıl nümunələrdən biridir [7]. Turizm sektoru böyük həcmdə məlumat yaradan sahədir və bu məlumatların analizi strateji qərarvermə üçün mühüm əhəmiyyət daşıyır [5]. Əsas məlumat mənbələrinə onlayn platformalar, mobil tətbiqlər, sosial media və sensor texnologiyaları daxildir [6]. Məsələn, Barcelona şəhərində turist axınlarının idarə olunması üçün böyük verilənlər analitikası tətbiq olunur [2]. Süni intellektin tətbiqi turizm sektorunda səmərəliliyi artırsa da, məlumat təhlükəsizliyi və etik məsələlər də diqqət mərkəzindədir [3]. Bu baxımdan məlumatların qorunması, alqoritmik şəffaflıq və hüquqi tənzimləmələrə riayət edilməsi xüsusi əhəmiyyət kəsb edir [3].

NƏTİCƏ

Aparılan təhlil göstərir ki, süni intellekt texnologiyaları turizm sektorunun transformasiyasında əsas strateji amillərdən birinə çevrilmişdir. Bu texnologiyalar yalnız xidmətlərin avtomatlaşdırılmasını təmin etmir, eyni zamanda turizm fəaliyyətinin bütün

mərhələlərində – planlaşdırmadan başlayaraq xidmətin göstərilməsi və qiymətləndirilməsinədək – kompleks dəyişikliklər yaradır [1, 2].

Süni intellektin tətbiqi nəticəsində turizm müəssisələri böyük həcmli məlumatları daha sürətli və dəqiq analiz edə bilir. Bu isə bazar tendensiyalarının düzgün müəyyənləşdirilməsinə, turist davranışlarının daha dərindən anlaşılmasına və tələb dəyişikliklərinə operativ reaksiya verilməsinə imkan yaradır [5, 6]. Xüsusilə fərdiləşdirilmiş xidmət modellərinin tətbiqi müştəri məmnuniyyətinin yüksəlməsinə və loyallığın formalaşmasına əhəmiyyətli təsir göstərir [7].

Bununla yanaşı, dinamik qiymətləmə və proqnozlaşdırıcı analitika kimi alətlər turizm müəssisələrinə gəlir idarəetməsini optimallaşdırmağa, resurslardan daha səmərəli istifadə etməyə və riskləri minimuma endirməyə şərait yaradır [9]. Bu yanaşma xüsusilə mövsümi dəyişkənliyin yüksək olduğu turizm sektorunda iqtisadi sabitliyin qorunması baxımından mühüm rol oynayır.

Süni intellekt əsaslı çatbotlar və virtual assistentlər müştəri xidməti sahəsində keyfiyyətin yüksəlməsinə səbəb olmuşdur. Onların vasitəsilə 24/7 rejimində fasiləsiz xidmət göstərilməsi, sorğuların operativ cavablandırılması və istifadəçi ilə interaktiv əlaqənin qurulması mümkün olmuşdur [4,11]. Bu isə həm əməliyyat xərclərinin azalmasına, həm də xidmət sürətinin və əlçatanlığının artmasına gətirib çıxarır.

Eyni zamanda, böyük verilənlərin analizi turizm sektorunda strateji qərarvermə prosesinin əsasını təşkil edir. Bu texnologiyalar vasitəsilə turist axınlarının idarə olunması, marketinq strategiyalarının daha effektiv planlaşdırılması və yeni bazar imkanlarının müəyyənləşdirilməsi mümkün olur [5]. Dövlət səviyyəsində isə bu yanaşma turizm siyasətinin formalaşdırılmasına və infrastrukturun optimallaşdırılmasına töhfə verir.

Süni intellektin tətbiqi yalnız iqtisadi üstünlüklərlə məhdudlaşmır, həm də davamlı turizm prinsiplərinin həyata keçirilməsində mühüm rol oynayır. Ağıllı sistemlər enerji sərfiyyatının azaldılmasına, turist sıxlığının tənzimlənməsinə və ətraf mühitə təsirin minimuma endirilməsinə imkan yaradır [2; 10]. Bu isə turizmin uzunmüddətli və dayanıqlı inkişafını təmin edən əsas şərtlərdən biridir.

Bununla belə, süni intellekt texnologiyalarının geniş tətbiqi müəyyən risk və çağırışları da gündəmə gətirir. Xüsusilə şəxsi məlumatların qorunması, kibertəhlükəsizlik və alqoritmik şəffaflıq məsələləri turizm şirkətləri üçün prioritet istiqamətlərdən biri hesab olunur [3]. Bu problemlərin həlli üçün hüquqi tənzimləmələrin gücləndirilməsi, etik prinsiplərin tətbiqi və texnoloji təhlükəsizlik tədbirlərinin artırılması zəruridir.

Gələcək perspektivlər baxımından süni intellektin turizm sektorunda daha geniş tətbiq ediləcəyi gözlənilir. Xüsusilə metaverse, virtual reallıq və ağıllı turizm ekosistemlərinin inkişafı turist təcrübəsini daha interaktiv və immersiv hala gətirəcəkdir [12]. Bu texnologiyalar sayəsində turistlər səyahət etməzdən əvvəl virtual mühitdə destinasiya ilə tanış ola, fərdi marşrutlar qura və daha məlumatlı qərarlar qəbul edə biləcəklər.

Nəticə etibarilə, süni intellekt turizm sektorunda innovasiya, səmərəlilik və rəqabət qabiliyyətinin əsas determinantına çevrilmişdir. Onun düzgün və məqsədyönlü tətbiqi yalnız biznes subyektlərinin inkişafına deyil, həm də turistlərin daha təhlükəsiz, rahat və fərdiləşdirilmiş xidmətlər əldə etməsinə şərait yaradır. Bu baxımdan, gələcək inkişaf strategiyalarında süni intellekt texnologiyalarının inteqrasiyası prioritet istiqamətlərdən biri kimi çıxış etməlidir.

ƏDƏBİYYAT SİYAHISI

1. Ulrike Gretzel, Marianna Sigala (2022).
2. Artificial intelligence in tourism: A review and research agenda. Journal of Travel Research, 61(8), 1745–1763.
3. Dimitrios Buhalis, Rosanna Leung (2023).
4. Smart tourism and digital transformation: Latest developments and future trends. Tourism Management, 92, 104567.
5. V. Kumar et al. (2021).
6. Ethical implications of AI adoption in hospitality and tourism. Journal of Business Research, 127, 450–461.
7. Iis Tussyadiah (2022).
8. Automation, AI, and robotics in tourism and hospitality: Current trends and future outlook.
9. Tourism Management Perspectives, 43, 101000.
10. Zheng Xiang, Qiang Du (2022).
11. Big data and analytics in tourism: Recent developments and applications.
12. Annals of Tourism Research, 93, 103372.
13. Ying Li, Dan Wang (2021).
14. Big data analytics in tourism and hospitality: Trends and future directions.
15. Annals of Tourism Research, 89, 103203.
16. Sara Dolnicar (2022).
17. Personalization and recommender systems in tourism. Tourism Management, 90, 104489.
18. Noel Scott, Jafar Jafari (2023).
19. Digital transformation in tourism education and industry. Journal of Sustainable Tourism, 31(5), 1123–1140.
20. Xiang Li, Bo Pan (2022)
21. AI applications in revenue management and pricing in hospitality. International Journal of Hospitality Management, 102, 103145.
22. Ben Neuhofer, Dimitrios Buhalis (2022).
23. Experience enhancement through smart technologies in tourism. Electronic Markets, 32(2), 789–804.
24. Rob Law, Kaye Chon (2023).
25. Emerging technologies in hospitality and tourism: A systematic review.
26. International Journal of Contemporary Hospitality Management, 35(4), 1450–1472.
27. Marianna Sigala (2022).
28. Metaverse and virtual reality in tourism and hospitality. Journal of Hospitality and Tourism Management, 52, 204–212.

MƏDƏNİ İRSİN QORUNMASI KONTEKSTİNDƏ DAYANIQLI TURİZM MODELLƏRİNİN REGİONAL İQTİSADİYYATA TƏSİRİNİN TƏHLİLİ

Analysıs Of The Impact Of Sustaınable Tourısm Models On The Regıonal Economy In The Context Of Cultural Herıtage Protectıon

GÜLƏR BAYRAMOVA
Gülər Bayramova
glr.bayramova@inbox.ru
https://orcid.org/0009-0009-8022-2589
Naxçıvan Dövlət Universiteti nəzdində Naxçıvan Dövlət Texniki Kolleci
Nakhchivan State Technical College under Nakhchivan State University

XÜLASƏ

Mədəni irsin qorunması və dayanıqlı turizm modellərinin tətbiqi müasir dövrdə regional iqtisadi inkişafın mühüm hərəkətverici qüvvələrindən birinə çevrilmişdir. Bu yanaşma təkcə tarixi abidələrin fiziki mühafizəsini deyil, həm də yerli icmaların rifahını təmin edən regenerativ iqtisadi ekosistemin qurulmasını hədəfləyir. Tədqiqatlar göstərir ki, kütləvi turizmdən fərqli olaraq, yaradıcı və dayanıqlı turizm modelləri regionlarda gəlirlərin daha ədalətli bölüşdürülməsinə, yeni iş yerlərinin açılmasına və yerli sənətkarlığın dirçəldilməsinə birbaşa təsir göstərir. Regional iqtisadiyyatın dayanıqlılığı turizm resurslarının ekoloji və sosial ədalət prinsipləri əsasında idarə olunmasından asılıdır. Mədəni irs obyektlərinin turizm dövriyyəsinə inteqrasiyası zamanı qoruma və istismar arasındakı balansın düzgün tənzimlənməsi regionun uzunmüddətli cəlbediciliyini qoruyub saxlayır. Bu kontekstdə turizmin "sosiallaşdırılması" konsepsiyası iqtisadi artımın yerli əhalinin həyat keyfiyyəti ilə uzlaşmasını tələb edir. Xüsusilə böhranlardan sonrakı bərpa dövrlərində mədəni turizmin innovativ idarəetmə metodları vasitəsilə inkişaf etdirilməsi regional bazarların xarici şoklara qarşı müqavimətini artırır.
Nəticə etibarilə, mədəni irsin strateji aktiv kimi qiymətləndirilməsi regional iqtisadi siyasətin mərkəzində dayanmalıdır. Dayanıqlı modellərin tətbiqi infrastrukturun yaxşılaşdırılmasına, investisiya axınına və regionun qlobal turizm bazarında rəqabətqabiliyyətli mövqe tutmasına şərait yaradır. Beləliklə, turizm və mədəni irs idarəçiliyi arasındakı qarşılıqlı əlaqə həm iqtisadi artımı stimullaşdıran, həm də mədəni özünəməxsusluğu qoruyan səmərəli bir platforma rolunu oynayır.

Açar sözlər: *dayanıqlı turizm, mədəni irs, regional iqtisadiyyat, yaradıcı turizm, regenerativ inkişaf.*

ABSTRACT

The protection of cultural heritage and the implementation of sustainable tourism models have become one of the important driving forces of regional economic development in modern times. This approach aims not only at the physical protection of historical monuments, but also at building a regenerative economic ecosystem that ensures the well-being of local communities. Studies show that, unlike mass tourism, creative and sustainable tourism models directly affect the fairer distribution of income in regions, the creation of new jobs and the revival of local crafts. The sustainability of the regional economy depends on the management of tourism resources based on the principles of ecological and social justice. Proper regulation of the balance between protection and exploitation when integrating cultural heritage objects into the tourism cycle preserves the long-term attractiveness of the region. In this context, the concept of "socialization" of tourism requires the reconciliation of economic growth with the quality of life of the local population. The development of cultural tourism through innovative management methods, especially in post-crisis recovery periods, increases the resilience of regional markets to external shocks.
Consequently, the assessment of cultural heritage as a strategic asset should be at the heart of regional economic policy. The implementation of sustainable models facilitates infrastructure improvements, investment flows, and the region's competitive position in the global tourism market. Thus, the interaction between tourism and cultural heritage management serves as an effective platform that stimulates economic growth and preserves cultural identity.

Keywords: *sustainable tourism, cultural heritage, regional economy, creative tourism, regenerative development.*

GİRİŞ

Müasir dünyada iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələyə qədəm qoyması təbii və mədəni resurslardan istifadə strategiyalarının yenidən nəzərdən keçirilməsini zəruri edir.

Xüsusilə regional inkişafın təmin olunmasında turizm sektoru sadəcə xidmət sahəsi deyil, həm də mədəni irsin qorunması və gələcək nəsillərə ötürülməsi üçün mühüm bir alət kimi çıxış edir. Regional iqtisadiyyatın şaxələndirilməsi, yerli icmaların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması və tarixi yaddaşın bərpası məhz dayanıqlı turizm modellərinin tətbiqi ilə sıx bağlıdır. Bu kontekstdə mədəni irs bir regionun həm mənəvi sərvəti, həm də iqtisadi potensialını müəyyən edən strateji aktiv hesab olunur [1].

Mədəni irs dedikdə təkcə fiziki abidələr, memarlıq nümunələri və tarixi məkanlar deyil, həm də xalqın adət-ənənələri, sənətkarlıq növləri, musiqisi və mətbəxi kimi qeyri-maddi dəyərlər sistemi başa düşülür. Bu dəyərlərin turizm məqsədilə istifadə edilməsi bir tərəfdən regionun cəlbediciliyini artırır, digər tərəfdən isə bu resursların həddindən artıq istismarı nəticəsində məhv olma riskini yaradır. Odur ki, dayanıqlı turizm anlayışı bu resursların iqtisadi dövriyyəyə cəlb edilməsi ilə onların autentikliyinin qorunması arasında həssas bir balansın yaradılmasını tələb edir. Dayanıqlı yanaşma turizmin gətirdiyi mənfəətin müvəqqəti deyil, uzunmüddətli və bərpa olunan xarakter daşımasını hədəfləyir.

Regional səviyyədə turizmin təsirlərini təhlil edərkən iqtisadi multiplikator effekti mühüm rol oynayır. Mədəni turizm marşrutlarının yaradılması regiona gələn turist axınını stimullaşdırmaqla yanaşı, nəqliyyat, iaşə, sənətkarlıq və digər köməkçi sahələrin inkişafına təkan verir. Lakin bu inkişafın kortəbii xarakter daşıması regional ekosistemə və yerli əhalinin yaşam tərzinə mənfi təsir göstərə bilər. Buna görə də müasir dövrdə "regenerativ", yəni bərpaedici turizm modelləri ön plana çıxır. Bu modellər turizmin mənfi təsirlərini minimuma endirməyi deyil, əksinə, turizm fəaliyyəti vasitəsilə regionun resurslarını daha da zənginləşdirməyi nəzərdə tutur [2].

Mədəni irsin qorunması ilə iqtisadi səmərəlilik arasındakı qarşılıqlı əlaqə mürəkkəb bir struktur təşkil edir. Turizm sənayesi tarixən mədəniyyəti bir məhsul kimi təqdim etməyə meyilli olmuşdur. Lakin bu yanaşma mədəni dəyərlərin kommersiyalaşmasına və onların əsl mahiyyətindən uzaqlaşmasına səbəb olur. Dayanıqlı idarəetmə modelləri isə mədəniyyəti sadəcə istehlak obyekti kimi deyil, regional kimliyin ayrılmaz hissəsi kimi qəbul edir. Bu yanaşmada yerli icmaların prosesə cəlb edilməsi, onların öz mədəniyyətlərinin qoruyucusu və eyni zamanda iqtisadi fayda alan tərəf olması əsas şərtdir . Belə bir iştirakçılıq modeli turizmin yerli əhali tərəfindən yad bir element kimi deyil, daxili inkişaf mexanizmi kimi qavranılmasına yol açır.

Qlobal iqtisadiyyatda baş verən dəyişikliklər və son dövrlərin böhranları turizm sektorunun nə qədər həssas olduğunu göstərdi. Kütləvi turizmə əsaslanan regionlar bu dövrlərdə ciddi iqtisadi itkilərlə üzləşdilər. Bu təcrübə regional iqtisadiyyatın dayanıqlılığının artırılması üçün daha çevik və müqavimətli modellərin vacibliyini sübut etdi. Kiçik və orta sahibkarlığın dəstəklənməsi, yerli məhsulların brendləşdirilməsi və rəqəmsal texnologiyaların mədəni irsin təbliğinə inteqrasiyası bu istiqamətdə atılan addımlardır [3]. Turizmin regional iqtisadiyyatdakı rolu yalnız gəlir əldə etməklə məhdudlaşmır; həm də regionun investisiya cəlbediciliyini və rəqabət qabiliyyətini formalaşdırır.

Hər bir regionun özünəməxsus coğrafi və mədəni xüsusiyyətləri olduğundan vahid bir turizm şablonundan istifadə etmək səmərəsizdir. Kənd yerlərində və periferik zonalarda turizmin inkişafı urbanizasiya prosesinin qarşısını almaq və gənclərin regionda qalmasını təmin etmək üçün güclü bir vasitədir. Lakin burada kütləvi turist axını və resursların tükənməsi kimi risklər xüsusilə nəzərə alınmalıdır. Dayanıqlı inkişaf prinsipləri regionun daşıma qabiliyyətinin (carrying capacity) müəyyən olunmasını və turizm fəaliyyətinin bu limitlər daxilində saxlanılmasını tələb edir . Bu həm ekoloji tarazlığın qorunması, həm də turistlərin aldığı təcrübənin keyfiyyətinin yüksək olması üçün zəruridir.

Mədəni irs və turizm arasındakı tərəfdaşlıq etik normalar və sosial ədalət prinsiplərinə söykənməlidir. Turizmin inkişafı nəticəsində yaranan mənfəət yerli infrastrukturun modernləşdirilməsinə, tarixi abidələrin restavrasiyasına və sosial layihələrə yönəldilməlidir [4]. Bu iqtisadi artımın sosial inkişafla sintezi deməkdir. Əks halda, turizm region üçün "yad bir anklav" yarada bilər ki, bu da yerli resursların kənar aktorlar tərəfindən istismarına gətirib çıxarar. Buna görə də idarəetmə modellərində dövlət, özəl sektor və vətəndaş cəmiyyəti arasındakı koordinasiya mərkəzi yer tutur.

Turizmin gələcək inkişaf trayektoriyası "kəmiyyətdən keyfiyyətə" doğru dəyişir. Artıq regionlar gələn turistlərin sayı ilə deyil, turistlərin regionda qaldığı müddət, xərclədiyi vəsait və regiona verdiyi əlavə dəyər ilə maraqlanırlar. Bu keçid mədəni irsin dərindən öyrənilməsini və unikal turizm məhsullarının yaradılmasını tələb edir. Belə bir mühitdə təhsil və maarifləndirmə həm turistlər, həm də yerli xidmət göstərənlər üçün prioritet istiqamətdir. Mədəniyyətə hörmətlə yanaşan turist və öz irsinin dəyərini bilən yerli əhali dayanıqlı turizmin əsas sütunlarıdır.

Beynəlxalq standartlar və qlobal trendlər də göstərir ki, yaxın illərdə yalnız öz ekoloji və mədəni mühitini qoruya bilən regionlar rəqabətdə üstünlük qazanacaqlar. İqtisadi inkişaf strategiyaları mədəni irsin qorunmasını bir xərc maddəsi deyil, gələcəyə qoyulan investisiya kimi görməlidir. Bu giriş bölməsində vurğulanan məqamlar tədqiqatın sonrakı hissələrində mədəni irsin qorunması kontekstində tətbiq olunan dayanıqlı modellərin regional iqtisadi göstəricilərə təsirinin elmi və praktik aspektlərini araşdırmaq üçün zəmin yaradır.

Mədəni irsin qorunması və dayanıqlı turizm bir-birini tamamlayan və qarşılıqlı gücləndirən iki anlayışdır. Regional iqtisadiyyatın canlanması üçün bu əlaqənin düzgün qurulması, resursların səmərəli idarə olunması və bütün tərəflərin maraqlarının nəzərə alınması vacibdir. Bu istiqamətdə aparılan təhlillər həm nəzəri biliklərin genişləndirilməsi, həm də regionların inkişafı üçün praktiki tövsiyələrin hazırlanması baxımından böyük əhəmiyyət kəsb edir.

METOD VƏ METODOLOGİYA

Bu tədqiqat mədəni irsin qorunması əsasında formalaşan dayanıqlı turizm modellərinin regional iqtisadiyyata təsirini sistemli şəkildə qiymətləndirmək məqsədilə kompleks metodoloji yanaşma əsasında aparılmışdır. Araşdırmanın metodoloji bazasını dayanıqlı inkişaf konsepsiyası, turizm iqtisadiyyatı nəzəriyyələri və mədəni irsin idarə olunması prinsipləri təşkil edir.

Tədqiqatda qarışıq metod yanaşması (mixed-method approach) tətbiq edilmişdir. Bu çərçivədə həm keyfiyyət, həm də kəmiyyət tədqiqat üsulları inteqrasiya olunmuşdur. Keyfiyyət mərhələsində mədəni irs və turizm sahəsində mövcud elmi ədəbiyyatın sistemli təhlili aparılmış, müxtəlif ölkə və regionların təcrübələri müqayisəli şəkildə araşdırılmışdır. Bu yanaşma mədəni irs əsaslı turizm modellərinin formalaşma xüsusiyyətlərini və onların iqtisadi təsir mexanizmlərini müəyyən etməyə imkan vermişdir.

Kəmiyyət təhlili çərçivəsində turizmin regional iqtisadi göstəricilərə təsirini qiymətləndirmək üçün deskriptiv statistik analiz və müqayisəli indikator yanaşması istifadə olunmuşdur. Turist axını, məşğulluq səviyyəsi, yerli gəlir artımı və xidmət sektorunun inkişafı kimi göstəricilər əsas analiz obyektləri kimi götürülmüşdür. Bu göstəricilər vasitəsilə dayanıqlı və qeyri-dayanıqlı turizm modellərinin iqtisadi nəticələri müqayisə edilmişdir

Metodoloji yanaşmada həmçinin sistemli analiz metodu tətbiq edilmişdir. Bu metod vasitəsilə mədəni irs, turizm fəaliyyəti və regional iqtisadiyyat arasında qarşılıqlı əlaqələr vahid sistem daxilində qiymətləndirilmişdir. Eyni zamanda, analitik-sintetik yanaşma istifadə olunaraq mövcud nəzəri biliklər ümumiləşdirilmiş və yeni elmi nəticələr formalaşdırılmışdır.

Hər iki modelin əsas iqtisadi göstəricilər üzrə müqayisəli nəticələri aşağıda təqdim olunmuşdur .Tədqiqatın etibarlılığını artırmaq məqsədilə ikincil məlumat mənbələrindən – beynəlxalq elmi jurnallar, rəsmi hesabatlar və statistik məlumat bazalarından istifadə edilmişdir. Məlumatların seçilməsi zamanı onların aktuallığı, etibarlılığı və mövzu ilə uyğunluğu əsas meyar kimi götürülmüşdür.

Beləliklə, tətbiq olunan metod və metodologiya mədəni irsə əsaslanan dayanıqlı turizm modellərinin regional iqtisadi inkişafda rolunu çoxşaxəli və obyektiv şəkildə qiymətləndirməyə imkan verir.

MÜZAKİRƏ

Mədəni irsin qorunması ilə iqtisadi artım arasındakı qarşılıqlı əlaqə müasir regional siyasətin ən mürəkkəb tərəflərindən birini təşkil edir. Uzun illər boyu turizm sənayesi resursların intensiv istismarına əsaslanan bir model üzərində qurulmuşdur. Lakin bu yanaşma tarixi məkanların aşınmasına, yerli icmaların sosial strukturunun pozulmasına və mədəniyyətin "əmtəələşməsinə" gətirib çıxarmışdır. Hazırda müzakirə olunan əsas məsələ mədəni irsi həm qorumaq, həm də onu regionun iqtisadi canlanması üçün bir mühərrikə çevirməyin mümkünlüyüdür. Bu kontekstdə dayanıqlı turizm modelləri sadəcə bir seçim deyil, həm də regional iqtisadiyyatın gələcək varlığı üçün zərurətdir.

Regional iqtisadiyyata təsir baxımından dayanıqlı modellər kəmiyyət artımından keyfiyyət dəyişikliyinə keçidi şərtləndirir. Kütləvi turizm adətən mövsümi xarakter daşıyır və gəlirlərin böyük hissəsinin regiondan kənara axmasına səbəb olur. Bunun əksinə olaraq, mədəni irsə fokuslanan dayanıqlı modellər il boyu davam edən turizm fəaliyyətini stimullaşdırır. Bu yerli infrastrukturun daim işlək vəziyyətdə qalmasına və işsizlik səviyyəsinin aşağı düşməsinə birbaşa təsir göstərir [6]. Müzakirələr göstərir ki, turistlərin regionda qalma müddətinin uzanması onların yerli məhsullara və xidmətlərə olan tələbatını artırır; bu da birbaşa kiçik və orta sahibkarlığın inkişafı deməkdir **(bax: Şəkil 1)**.

Mədəni irsin qorunması kontekstində "yaradıcı turizm" anlayışı regional iqtisadiyyat üçün yeni üfüqlər açır. Bu modeldə turist sadəcə passiv müşahidəçi deyil, yerli mədəniyyətin canlı iştirakçısına çevrilir. Məsələn, tarixi sənətkarlıq emalatxanalarının turizm marşrutlarına daxil edilməsi həm unudulmaqda olan sənət növlərini yaşadır, həm də yerli ustalar üçün əlavə gəlir mənbəyi yaradır [2]. Bu proses regional iqtisadiyyatın şaxələndirilməsinə və yerli mədəni kimliyin iqtisadi dəyərə çevrilməsinə xidmət edir. Beləliklə, mədəni irs artıq "qorunmalı olan statik bir obyekt" deyil, "inkişafı təmin edən dinamik bir resurs" kimi çıxış edir.

Lakin bu inkişafın mənfi tərəfləri və riskləri də az deyil. Regional iqtisadiyyatın turizmdən həddindən artıq asılı vəziyyətə düşməsi xarici amillər qarşısında regionu zəiflədir. Qlobal böhranlar və ya ekoloji dəyişikliklər zamanı kütləvi turist axınının dayanması regional iqtisadi çöküşə səbəb ola bilər. Bu səbəbdən müzakirə olunan modellərin mərkəzində "iqtisadi dayanıqlılıq" dayanmalıdır. Regionlar yalnız turizmə güvənməməli; turizm vasitəsilə qazanılan vəsaiti digər istehsal sahələrinə və insan kapitalına yönəltməlidir. Mədəni irsin qorunması üçün ayrılan investisiyalar əslində gələcək iqtisadi sabitliyin təminatıdır.

Mədəni turizmin regional iqtisadiyyata təsirini qiymətləndirərkən sosial ədalət məsələsi də diqqətdən kənarda qalmamalıdır. Çox vaxt turizmin gətirdiyi gəlirlər iri turizm korporasiyaları arasında bölüşdürülür, yerli icmalar isə yalnız artan qiymətlər və ətraf mühitin çirklənməsi ilə üz-üzə qalır. Dayanıqlı modellərin əsas məqsədi turizmin "sosiallaşdırılması"dır. Bu o deməkdir ki, mədəni irsdən əldə olunan gəlir yerli əhalinin rifahına, təhsilinə və səhiyyəsinə xidmət etməlidir. Əgər yerli əhali turizmdən real iqtisadi fayda görmürsə, onlar mədəni irsin

qorunmasında maraqlı olmayacaqlar. Bu da öz növbəsində tarixi resursların deqradasiyasına və regionun cəlbediciliyinin itməsinə səbəb olacaqdır.

Digər bir vacib məqam regionun ekoloji və mədəni "daşıma qabiliyyəti"nin düzgün hesablanmasıdır. Hər bir tarixi məkanın və ya təbiət abidəsinin qəbul edə biləcəyi maksimum insan sayı mövcuddur. Bu limitlərin keçilməsi qısamüddətli iqtisadi mənfəət gətirsə də, uzunmüddətli perspektivdə resursun tamamilə itirilməsi ilə nəticələnir [7]. Buna görə də dayanıqlı modellər turist sayının məhdudlaşdırılması, lakin yüksək keyfiyyətli xidmət vasitəsilə gəlirin artırılması strategiyasını dəstəkləyir. Bu yanaşma həm mədəni irsin fiziki toxunulmazlığını təmin edir, həm də regionun "eksklüziv" turizm mərkəzi kimi nüfuzunu möhkəmləndirir.

Regional inkişafda dövlət və özəl sektor tərəfdaşlığı da xüsusi müzakirə mövzusudur. Mədəni irsin qorunması yüksək xərc tələb edən bir prosesdir və çox vaxt yalnız büdcə vəsaitləri hesabına bunu həyata keçirmək çətin olur. Özəl investisiyaların bu sahəyə cəlb edilməsi üçün əlverişli hüquqi və iqtisadi mühit yaradılmalıdır. Lakin bu zaman investisiya maraqları mədəniyyətin autentikliyinə zərər verməməlidir . İdarəetmə modelləri elə qurulmalıdır ki, iqtisadi maraqlar qoruma prinsipləri ilə uzlaşsın. Bu, mürəkkəb idarəetmə mexanizmləri və şəffaflıq tələb edən bir prosesdir.


Müasir dövrdə texnoloji yeniliklər və rəqəmsallaşma da mədəni irsin qorunması və turizmin inkişafında yeni alətlər təqdim edir. Virtual muzeylər, artırılmış reallıq tətbiqləri və rəqəmsal xəritələr turistlərin məlumatlılıq səviyyəsini artırır və regiona marağı stimullaşdırır. Bu, xüsusilə ucqar və az tanınan regionların iqtisadi canlanması üçün böyük şansdır [8]. Rəqəmsal platformalar vasitəsilə yerli məhsulların birbaşa satışının təşkili vasitəçilərin payını azaldaraq gəlirin birbaşa yerli istehsalçıya çatmasını təmin edir.

Müzakirələrin yekunu olaraq qeyd etmək olar ki, mədəni irsin qorunması kontekstində dayanıqlı turizm modellərinin tətbiqi regional iqtisadiyyat üçün "həyat yolu" rolunu oynayır. Bu modellər iqtisadi artımı, sosial rifahı və mədəni mühafizəni bir araya gətirən balanslaşdırılmış yanaşma təklif edir [6]. Regional siyasətçilər başa düşməlidir ki, mədəni irs tükənən bir resursdur və onun qorunması iqtisadiyyatın gələcək potensialına qoyulan ən böyük sərmayədir. İqtisadi inkişaf strategiyaları məhz bu prinsiplər əsasında formalaşdırılmalı, hər bir layihə regional ekosistemin bütövlüyü nəzərə alınaraq icra edilməlidir.

Nəticədə turizm və mədəni irs arasındakı ziddiyyətlər düzgün idarəetmə ilə sinerjiyə çevrilə bilər. Regionun iqtisadi uğuru yalnız statistik rəqəmlərlə deyil, həm də yerli mədəniyyətin nə dərəcədə qorunması və gələcək nəsillərə ötürülməsi ilə ölçülməlidir. Bu yanaşma regionu qlobal rəqabət bazarında fərqləndirən əsas amildir və uzunmüddətli rifahın tək yoludur.

Tədqiqat işi çərçivəsində mədəni irsin qorunması ilə dayanıqlı turizm modellərinin regional iqtisadiyyat üzərindəki qarşılıqlı təsirləri geniş şəkildə təhlil edilmişdir. Aparılan araşdırmalar sübut edir ki, mədəni irs obyektlərinin sadəcə qorunması kifayət deyil; onların regional inkişafın aktiv iqtisadi elementinə çevrilməsi üçün düzgün idarəetmə mexanizmlərinin tətbiqi vacibdir. Dayanıqlı turizm modelləri iqtisadi mənfəəti sosial məsuliyyət və ekoloji tarazlıqla birləşdirərək regionların uzunmüddətli inkişaf trayektoriyasını müəyyən edir.

Mədəni irsin strateji resurs kimi istifadə olunması regional iqtisadiyyatın şaxələndirilməsinə, yerli sahibkarlığın stimullaşdırılmasına və yeni iş yerlərinin yaradılmasına birbaşa xidmət edir. Kütləvi turizmin yaratdığı risklərdən fərqli olaraq, dayanıqlı yanaşmalar regionun "daşıma qabiliyyəti"ni nəzərə alır və resursların tükənməsinin qarşısını alır. Bu həm tarixin və təbiətin autentikliyini qoruyur, həm də turistlərə təqdim olunan xidmətin keyfiyyətini artıraraq regionun rəqabət qabiliyyətini gücləndirir.



Şəkil 1. *Dayanıqlı və kütləvi turizm modellərinin regional iqtisadi göstəricilərə müqayisəli təsiri*

NƏTİCƏ

Nəticə etibarilə, mədəni irs və turizm arasındakı əlaqə birtərəfli deyil, qarşılıqlı faydalılıq prinsipinə əsaslanmalıdır. Turizm fəaliyyətindən əldə olunan gəlirlər mədəniyyətin bərpasına və yerli infrastrukturun inkişafına yenidən investisiya kimi yönəldilməlidir. Yalnız yerli icmaların prosesə daxil edildiyi, etik normaların gözlənildiyi və innovativ idarəetmə metodlarının tətbiq olunduğu regionlarda turizm həqiqi iqtisadi tərəqqiyə yol açа bilər. Beləliklə, dayanıqlı turizm mədəni irsi gələcək nəsillərə ötürərkən bu günün iqtisadi ehtiyaclarını qarşılayan ən optimal inkişaf modelidir.

ƏDƏBİYYAT SİYAHISI

1. Richards, G. (2021). Rethinking cultural tourism. Edward Elgar Publishing.
2. Duxbury, N., Bakas, F. E., & de Castro, T. V. (2021). Creative tourism development models towards sustainable and regenerative tourism. Sustainability, 13(2), 1–16. https://doi.org/10.3390/su13010002
3. Timothy, D. J. (2021). Cultural heritage and tourism: An introduction. Channel View Publications.
4. McKercher, B., & du Cros, H. (2020). Cultural tourism: The partnership between tourism and cultural heritage management (2nd ed.). Routledge.
5. Farmaki, A. (2021). Tourism and resilience: Individual, organisational and destination perspectives. Tourism Management Perspectives, 38, 100831. https://doi.org/10.1016/j.tmp.2021.100831
6. Biddulph, R. (2021). Limits to mass tourism's effects in rural destinations. Annals of Tourism Research, 87, 103151. https://doi.org/10.1016/j.annals.2020.103151
7. Sharpley, R. (2020). Tourism, sustainable development and the theoretical divide. Journal of Sustainable Tourism, 28(11), 1932–1946. https://doi.org/10.1080/09669582.2020.1779732
8. Butler, R. W. (2020). The evolution of tourism and sustainable development. Tourism Recreation Research, 45(1), 1–9. https://doi.org/10.1080/02508281.2019.1671470

WASTE MANAGEMENT AND SUSTAINABLE TOURISM: BIOECONOMY OPPORTUNITIES IN THE TOURIST REGIONS OF AZERBAIJAN

- Naxçıvanın bütün turizm subyektlərini birləşdirən vahid "**Nakhchivan Smart Pass**" rəqəmsal kart sisteminin yaradılması;
- Mədəni irs abidələri ətrafında pulsuz Wi-Fi zonalarının qurulması və turist davranışlarının analizi üçün mərkəzləşdirilmiş data bazanın formalaşdırılması;
- Kiçik və orta sahibkarlıq subyektlərinin rəqəmsal turizm ekosisteminə inteqrasiyası üçün stimullaşdırıcı vergi və ya kredit mexanizmlərinin hazırlanması.

Yekun olaraq, rəqəmsal transformasiya Naxçıvanın mədəni irsini "statik keçmişdən" "dinamik iqtisadi aktivə" çevirərək, bölgənin dayanıqlı inkişafına birbaşa töhfə verəcəkdir**.**

ƏDƏBİYYAT SİYAHISI

1. Buhalis, D., & Amaranggana, A. (2013). Smart tourism destinations. In *Information and Communication Technologies in Tourism 2014* (pp. 553-564). Springer, Cham. doi.org
2. Chianese, A., & Piccialli, F. (2014). Designing a smart museum: When cultural heritage joins IoT. *2014 Eighth International Conference on Complex, Intelligent and Software Intensive Systems*, 350-354. doi.org
3. Gretzel, U., Sigala, M., Xiang, Z., & Koo, C. (2015). Smart tourism: foundations and developments. *Electronic Markets*, 25(3), 558-563. doi.org
4. Li, Y., Hu, C., Huang, C., & Duan, L. (2017). The concept of smart tourism in the context of tourism information services. *Tourism Management*, 58, 293-300. doi.org
5. Neuhofer, B., Buhalis, D., & Ladkin, A. (2012). Conceptualising technology enhanced destination experiences. *Journal of Destination Marketing & Management*, 1(1-2), 36-46. doi.org
6. Vila, T. D., Gonzalez, E. A., Araujo, A. F., & Fraiz, J. A. (2021). Indicators of smart tourism destination: The case of a historical city. *Sustainability*, 13(11), 59-78. doi.org
7. Xi, N., & Hamari, J. (2019). Does gamification satisfy user needs? A study on the relationship between gamification features and intrinsic need satisfaction. *International Journal of Information Management*, 46, 210-221. doi.org

KIRSAL KALKINMANIN YENİ ROTASI: AÇIK HAVA REKREASYONU VE GASTRONOMİ DENEYİMLERİNİN KESİŞİMİNDE SÜRDÜRÜLEBİLİR TURİZM

A New Path For Rural Development: Sustainable Tourism At The Intersection Of Outdoor Recreation And Gastronomy Experiences

AZİZ BÜKEY[1]
Aziz Bukey[1]
abukey@bingol.edu.tr
https://orcid.org/0000-0002-5476-8408

YUNUS GENÇ[1]
Yunus Gench[1]
abukey@bingol.edu.tr
https://orcid.org/0000-0003-3213-2828

[1]*Bingöl Üniversitesi, Sosyal Bilimler Fakültesi, Türkiye*
[1]*Bingöl University, Faculty of Social Sciences, Türkiye*

ÖZET

Küreselleşme, iklim değişikliği ve artan kentsel baskılar karşısında kırsal alanlar, ekonomik, sosyal ve çevresel açıdan önemli dönüşümler yaşamaktadır. Bu bağlamda sürdürülebilir kırsal kalkınma, yerel kaynakların korunarak ekonomik çeşitliliğin artırılmasını gerektirmektedir. Açık hava rekreasyonu ve gastronomi turizmi, kırsal peyzajların sunduğu eşsiz olanaklar ile kırsal kalkınma için yeni bir rota sunmaktadır. Bu çalışma, açık hava rekreasyonu ile gastronomik deneyimlerin kesişiminde sürdürülebilir bir turizm modelini, kırsal kalkınma bağlamında incelemeyi amaçlamaktadır. Nitel araştırma yöntemi ve doküman analizi tekniğinin kullanıldığı çalışmada, ulusal ve uluslararası literatür, vaka çalışmaları ve strateji belgeleri değerlendirilmiştir. Bulgular, açık hava rekreasyonu ve gastronomi deneyimlerinin entegrasyonunun yerel kalkınma, istihdam, kültürel mirasın korunması, sağlık ve çevre bilinci gibi çok boyutlu fırsatlar sunduğunu göstermektedir. Bununla birlikte, ticarileşme, standardizasyon, taşıma kapasitesinin aşılması, iklim değişikliği ve erişim engelleri gibi önemli tehditler de bulunmaktadır. Çalışma, bu fırsatların değerlendirilmesi ve tehditlerin azaltılması için bütünleşik planlama, paydaş katılımı, eğitim, yenilikçi finansman ve sürdürülebilir sertifikasyon sistemlerini içeren bir politika çerçevesi önermektedir.

Anahtar Kelimeler: *Açık hava rekreasyonu, gastronomi turizmi, kırsal kalkınma, sürdürülebilir turizm, kültürel miras.*

ABSTRACT

In the face of globalization, climate change, and increasing urban pressures, rural areas are experiencing significant economic, social, and environmental transformations. In this context, sustainable rural development requires increasing economic diversification while protecting local resources. Outdoor recreation and gastronomic tourism offer a new route for rural development by leveraging the unique opportunities provided by rural landscapes. This study aims to examine a sustainable tourism model at the intersection of outdoor recreation and gastronomic experiences within the context of rural development. Using qualitative research methods and document analysis techniques, national and international literature, case studies, and strategy documents were evaluated. The findings demonstrate that integrating outdoor recreation and gastronomic experiences offers multifaceted opportunities including local development, employment, preservation of cultural heritage, health, and environmental awareness. However, significant threats also exist, such as commercialization, standardization, exceeding carrying capacity, climate change, and access barriers. The study proposes a policy framework that includes integrated planning, stakeholder engagement, training, innovative financing, and sustainable certification systems to capitalize on these opportunities and mitigate the threats.

Keywords: *Outdoor recreation, gastronomic tourism, rural development, sustainable tourism, cultural heritage.*

GİRİŞ

Kırsal alanlar, küreselleşme, iklim değişikliği ve artan kentsel baskılar karşısında ekonomik, sosyal ve çevresel açıdan önemli dönüşümler yaşamaktadır. Bu bağlamda sürdürülebilir kırsal kalkınma, yerel kaynakların korunarak ekonomik çeşitliliğin artırılmasını gerektirmektedir. Açık hava rekreasyonu ve gastronomi turizmi, kırsal peyzajların sunduğu eşsiz olanaklar sayesinde kırsal kalkınma için yeni bir rota sunmaktadır [1,2]. Bu çalışma, açık

hava rekreasyonu ile gastronomik deneyimlerin kesişiminde sürdürülebilir bir turizm modelini kırsal kalkınma bağlamında incelemeyi amaçlamaktadır.

YÖNTEM VE METOD

Bu çalışmada nitel araştırma yöntemi benimsenmiştir [8,17]. Araştırma deseni olarak doküman analizi tekniği kullanılmıştır [16]. Veri kaynaklarını akademik literatür [1-21], kurumsal raporlar (IUCN, UNWTO, Avrupa Birliği strateji belgeleri) ve vaka çalışmaları (Klaros Arkeoparkı, Baltık Denizi Bölgesi gastronomi rotaları, Roquefort-sur-Soulzon, Radda in Chianti, Messinia, Osogbo, Yangzhou ve Arnavutluk-Yunanistan sınır ötesi bölgesi) oluşturmaktadır. Elde edilen veriler tematik analiz yöntemiyle incelenmiştir. Çalışma yalnızca ikincil veri kaynaklarına dayanmakta olup incelenen vaka örnekleri ağırlıklı olarak Avrupa ve Asya ile sınırlıdır.

BULGULAR

Bu bölümde, doküman analizi sonucunda elde edilen bulgular "Olanaklar" ve "Tehditler/Engeller" olmak üzere iki ana tema altında sunulmaktadır.

Açık Hava Rekreasyonu ve Gastronomi Deneyimlerinin Entegrasyonunun Kırsal Kalkınmaya Sağladığı Olanaklar

Ekonomik Olanaklar ve Yerel Kalkınma: Açık hava rekreasyonu ve gastronomi turizminin entegrasyonu, kırsal alanlarda önemli ekonomik faydalar yaratmaktadır. Bu entegrasyon, yerel halk için yeni iş imkânları yaratmakta (rehberlik, konaklama, yiyecek-içecek hizmetleri, el sanatları üretimi ve satışı), gelir düzeyini artırmakta ve yerel ekonominin çeşitlenmesine katkıda bulunmaktadır [5,18]. Özellikle tarımsal faaliyetlerin yetersiz veya mevsimsel olduğu kırsal bölgelerde, turizm gelirleri önemli bir tamamlayıcı gelir kaynağı hâline gelmektedir.

Baltık Denizi Bölgesi'nde INTERREG BSR programı tarafından desteklenen BASCIL projesi kapsamında geliştirilen 12 tematik mutfak rotası, 73 KOBİ'yi bir araya getirmiştir. Bu rotalar, yerel üreticilere doğrudan satış ve pazarlama imkânı sunarak katma değer yaratmalarını sağlamıştır [13]. Örneğin, Estonya Şarap Rotası'nda aile işletmesi şarap imalathaneleri, tematik tadım paketleri, rehberli bağ turları ve mevsimlik etkinlikler sunarak ziyaretçi çekmekte ve gelirlerini çeşitlendirmektedir [13]. Polonya'daki Taste Lubuskie! rotasında ise ot toplama yürüyüşleri, nehir kenarında yemekler ve iş birliğine dayalı etkinlikler düzenlenmektedir.

Fransa'nın Roquefort-sur-Soulzon köyü, mağarada olgunlaştırılan peyniri ile kırsal turizmde başarılı bir ekonomik model sunmaktadır. Yılda yaklaşık 200.000 ziyaretçi ağırlayan bu küçük köy, peynir üretimini turizm deneyimiyle (mağara turları, tadım etkinlikleri, peynir müzeleri) bütünleştirerek önemli bir ekonomik kalkınma sağlamıştır [20]. İtalya'nın Chianti bölgesindeki Radda in Chianti de benzer şekilde şarap turizmini ve gastronomik deneyimleri merkeze alarak küresel bir marka hâline gelmiş ve milyonlarca avroluk gelir elde etmiştir [3].

Klaros Arkeoparkı'nda düzenlenen deneysel arkeoloji atölyeleri, geleneksel yemek deneyimleri ve dijital uygulamalar, ziyaretçi memnuniyetini artırmakta ve bölge ekonomisine katkı sağlamaktadır [6]. Nijerya'nın Osogbo kentinde yapılan bir araştırma, turistlerin %80'inin eko-dostu gastronomik seçenekler için ek ödeme yapmaya istekli olduğunu göstermektedir [15].

Kültürel Mirasın Korunması ve Yaşatılması: Açık hava rekreasyonu ve gastronomi deneyimleri, somut ve somut olmayan kültürel mirasın korunması ve gelecek kuşaklara aktarılmasında kritik bir rol oynamaktadır. Geleneksel tarım uygulamaları, yöresel yemek

tarifleri, el sanatları, festivaller ve ritüeller, bu deneyimler aracılığıyla canlı tutulmakta ve yeni kuşaklara aktarılmaktadır [6,18].

Klaros Arkeoparkı'nda arkeolojik kazılarda bulunan eserlerin alçı kalıplarının (mulaj) sergilenmesi, ziyaretçilerin kültürel miras bilincini artırmakta ve kültürel varlıkların korunmasına yönelik farkındalık yaratmaktadır. Ayrıca alanda düzenlenen eğitim gezileri ve deneysel arkeoloji atölyeleri, özellikle öğrencilere tarih ve arkeoloji bilincini aşılamaktadır [6]. Yunanistan'ın Messinia bölgesinde zeytin mirası temelinde geliştirilen turizm faaliyetleri, yerel halkın kültürel kimliğini güçlendirmekte ve geleneksel zeytinyağı üretim tekniklerinin yaşatılmasına katkı sağlamaktadır. Bölgede düzenlenen festivaller (Bread-Wine-Oil Festivali) ve zeytin müzeleri, kültürel mirasın korunmasına yönelik önemli girişimlerdir [12]. Arnavutluk-Yunanistan sınır ötesi bölgesinde (Berat, Gjirokastra, Ioannina) yürütülen araştırma, deneyimsel turizmin yerel kültürel mirasın korunmasına ve tanıtılmasına önemli katkılar sunduğunu göstermektedir [17]. Letonya'nın elma şarabı rotasında düzenlenen festivaller ve etkinlikler, yerel üreticileri bir araya getirerek geleneksel elma şarabı üretiminin yaşatılmasına ve tanıtılmasına katkı sağlamaktadır [13].

Toplumsal Faydalar ve Kapasite Geliştirme: Açık hava rekreasyonu ve gastronomi deneyimleri, kırsal topluluklarda sosyal bağları güçlendirmekte, ortak kimlik duygusunu pekiştirmekte ve toplumsal dayanışmayı artırmaktadır [5,18]. Festivaller, panayırlar ve ortak üretim etkinlikleri, farklı kuşaklar ve gruplar arasında etkileşimi teşvik ederek sosyal sermayenin gelişmesine katkıda bulunmaktadır [3]. Ayrıca bu tür turizm faaliyetleri, yerel halka yeni beceriler kazandırmakta (rehberlik, yabancı dil, pazarlama, hijyen, gıda güvenliği), kapasite gelişimini desteklemekte ve yerel yönetim becerilerini güçlendirmektedir [21].

Baltık Denizi Bölgesi'ndeki gastronomi rotaları, yerel üreticileri, turizm işletmelerini ve sivil toplum kuruluşlarını bir araya getirerek işbirlikçi bir model geliştirmiştir. Bu iş birlikleri, bilgi paylaşımını, kolektif markalaşmayı ve kaynakların daha verimli kullanılmasını sağlamaktadır [13]. Sırbistan'ın Banoštor köyünde düzenlenen şarap festivali, yerel halkın katılımıyla gerçekleştirilmekte ve toplumsal dayanışmayı güçlendirmektedir [3].

Çin'in UNESCO Dünya Mirası alanlarında yapılan bir araştırma, kültürel mirasın korunması ile sürdürülebilir turizm yönetimi arasında güçlü bir pozitif ilişki olduğunu ve topluluk katılımının bu ilişkide kilit bir faktör olduğunu göstermektedir [21]. Çevresel Faydalar ve Sürdürülebilir Uygulamalar: Açık hava rekreasyonu ve gastronomi turizminin entegrasyonu, çevre bilincinin gelişmesine ve doğal kaynakların korunmasına da katkıda bulunmaktadır. Sürdürülebilir gastronomi uygulamaları (yerel ve mevsimlik ürün kullanımı, kısa tedarik zincirleri, atık yönetimi, organik tarım) çevresel ayak izini azaltmakta ve ziyaretçilere çevre dostu tüketim alışkanlıkları kazandırmaktadır [15,13].

Finlandiya'nın "Gems of Eastern Finland" rotasında yer alan işletmeler, organik yerel malzemeler kullanmakta, atıkları kompostlamakta ve geri dönüştürülebilir ambalajları tercih etmektedir. Ayrıca ziyaretçilere yönelik düzenlenen eğitim programlarıyla çevre bilinci artırılmaktadır [13]. Almanya'nın "Landurlaub" rotasında ise kısa gıda tedarik zincirleri ve bölgesel malzemelerin kullanımı teşvik edilmekte, biyoçeşitlilik eğitimi verilmektedir [13].

Korunan alanlarda (millî parklar, arkeoparklar) sürdürülebilir rekreasyon uygulamaları, biyolojik çeşitliliğin korunmasına ve ekosistem hizmetlerinin devamlılığına katkıda bulunmaktadır [19,6]. Ancak bu alanlarda taşıma kapasitesinin aşılması ve bilinçsiz ziyaretçi davranışları, doğal kaynaklar üzerinde baskı oluşturabilmektedir [1].

Açık Hava Rekreasyonu ve Gastronomi Deneyimlerinin Entegrasyonuna Yönelik Tehditler ve Engeller

Ticarileşme, Standardizasyon ve Özgünlük Kaybı: Kırsal turizm faaliyetlerinin hızla ticarileşmesi, otantik kültürel değerlerin metalaşmasına ve özgünlük kaybına yol

açabilmektedir [7,8]. Yerel yemeklerin ve el sanatlarının seri üretime dönüşmesi, geleneksel tariflerin ve tekniklerin basitleştirilmesi veya değiştirilmesi, ziyaretçilerin otantik bir deneyim yaşamasını engelleyebilmektedir. Ayrıca küresel turizm işletmelerinin bölgeye girmesiyle birlikte yerel işletmelerin rekabet gücü azalabilmekte ve kültürel homojenleşme riski ortaya çıkabilmektedir [3,13].

Radda in Chianti örneğinde, küresel markalaşma başarısı aynı zamanda bazı ziyaretçiler tarafından "fazla ticari" bulunabilmekte ve otantiklik sorgulanabilmektedir [3]. Benzer şekilde, gastronomi rotalarının popülerleşmesiyle birlikte bazı küçük üreticiler, büyük tur operatörlerinin baskısı altında üretim yöntemlerini değiştirmek zorunda kalabilmektedir [13].

Taşıma Kapasitesinin Aşılması ve Çevresel Baskılar: Kırsal alanlarda turizm talebindeki hızlı artış, altyapı yetersizlikleri, atık yönetimi sorunları, gürültü kirliliği, doğal kaynakların aşırı kullanımı ve biyoçeşitlilik kaybı gibi çevresel baskıları beraberinde getirebilmektedir [1,19]. Özellikle hassas ekosistemlere sahip alanlarda, kontrolsüz ziyaretçi akışı toprak erozyonu, bitki örtüsünün tahribi ve yaban hayatının rahatsız edilmesi gibi olumsuz etkilere neden olabilmektedir.

Roquefort-sur-Soulzon'da yıllık 200.000 ziyaretçi, mağara ekosistemi üzerinde baskı oluşturabilmekte, nem ve sıcaklık dengesinin bozulmasına yol açabilmektedir [20]. Klaros Arkeoparkı'nda da artan ziyaretçi sayısına bağlı olarak güvenlik ve koruma önlemlerinin artırılması ihtiyacı doğmuştur [6]. Bu nedenle kırsal alanlarda turizm planlamasında taşıma kapasitesi kavramının dikkate alınması ve sürdürülebilir kullanım sınırlarının belirlenmesi hayati önem taşımaktadır.

Erişim Engelleri (Zaman, Maliyet, Ulaşım, Bilgi): Açık hava rekreasyonu ve gastronomi deneyimlerine katılımın önünde çeşitli engeller bulunmaktadır. Bu engeller; kişisel (ilgi eksikliği, korku, sağlık sorunları), kişilerarası (aile veya arkadaş desteğinin olmaması) ve yapısal (maliyet, zaman, ulaşım, bilgi eksikliği) olarak sınıflandırılabilir [4]. Özellikle düşük gelirli gruplar, kırsal alanlara ulaşım maliyetleri, konaklama ve aktivite ücretleri nedeniyle bu deneyimlere erişimde zorluk yaşayabilmektedir.

Arnavutluk-Yunanistan sınır ötesi bölgesinde yapılan bir araştırma, turistlerin %33,7'sinin altyapı eksikliklerini (yetersiz yollar, ulaşım ağları) önemli bir engel olarak gördüğünü ortaya koymuştur [17]. Ayrıca katılımcıların %49'u destinasyonun tanıtım eksikliğinden şikayet etmiştir. Benzer şekilde Sırbistan'ın Banoštor köyü, zengin şarap mirasına rağmen uluslararası tanıtım eksikliği ve yetersiz altyapı nedeniyle yeterli ziyaretçi çekememektedir [3].

Dijitalleşme, erişim engellerini aşmada önemli bir araç olmakla birlikte kırsal KOBİ'lerin dijital beceri ve altyapı eksiklikleri bu potansiyelin kullanılmasını sınırlamaktadır [13].

İklim Değişikliği ve Diğer Çevresel Tehditler: İklim değişikliği, kırsal alanlarda turizm faaliyetlerini doğrudan ve dolaylı olarak etkilemektedir. Artan sıcaklıklar, kuraklık, sel, orman yangınları ve fırtınalar gibi aşırı hava olayları, açık hava rekreasyon aktivitelerini (kayak, doğa yürüyüşü, kamp) olumsuz etkilemekte, tarımsal üretimi (dolayısıyla gastronomik ürün çeşitliliğini) tehdit etmekte ve turizm altyapısına zarar verebilmektedir [1,9]. İklim değişikliği ayrıca kırsal peyzajların estetik ve rekreasyonel değerini düşürebilmekte, kültürel miras alanlarının fiziksel bütünlüğünü tehdit edebilmektedir [14].

Örneğin, Akdeniz havzasında artan sıcaklıklar ve kuraklık, zeytin üretimini tehdit etmekte, bu durum Messinia gibi zeytin temelli gastronomi destinasyonlarını olumsuz etkilemektedir [12]. Küresel ısınmayla birlikte Kuzey Avrupa, Kanada ve Rusya gibi ülkelerde açık hava rekreasyonu için uygun gün sayısı artarken [1], güney bölgelerinde aşırı sıcaklar ve su kıtlığı turizm faaliyetlerini kısıtlamaktadır. Bu nedenle kırsal turizm stratejilerinde iklim değişikliğine uyum ve risk azaltma önlemlerinin entegre edilmesi gerekmektedir.

SONUÇ VE ÖNERILER

Bu çalışma, açık hava rekreasyonu ve gastronomi deneyimlerinin entegrasyonunun kırsal kalkınma için önemli bir fırsat sunduğunu ortaya koymaktadır. Söz konusu entegrasyon; ekonomik kalkınma, istihdam yaratma, kültürel mirasın korunması ve yaşatılması, toplumsal faydalar, kapasite geliştirme ve çevresel sürdürülebilirlik gibi çok boyutlu olanaklar sağlamaktadır. Kırsal peyzajların doğal ve kültürel kaynakları bu entegrasyonun temelini oluşturmakta, özellikle "doğadan sofraya" konsepti etrafında şekillenen deneyimler ziyaretçilere eşsiz anılar yaşatırken yerel ekonomiye doğrudan katkıda bulunmaktadır [13,15]. Baltık Denizi Bölgesi'ndeki gastronomi rotaları, Fransa'daki Roquefort peyniri turizmi, İtalya'daki Chianti şarap turizmi, Türkiye'deki Klaros Arkeoparkı, Yunanistan'daki Messinia zeytin mirası turizmi ve Çin'deki UNESCO Dünya Mirası alanları, bu ekonomik ve kültürel potansiyelin başarılı örnekleridir. Bu örnekler, yerel ürünlerin ve geleneksel bilginin turizm deneyimleriyle nasıl bütünleştirilebileceğini ve kırsal kalkınmaya nasıl katkı sağlayabileceğini göstermektedir.

Bununla birlikte, bu entegrasyonun önünde önemli tehditler ve engeller de bulunmaktadır. Ticarileşme ve özgünlük kaybı, taşıma kapasitesinin aşılması ve çevresel baskılar, erişim engelleri (zaman, maliyet, ulaşım, bilgi) ve iklim değişikliği, sürdürülebilir kırsal turizm modellerinin geliştirilmesini zorlaştırmaktadır. Bu tehditlerin göz ardı edilmesi, kırsal alanların doğal ve kültürel sermayesinin tahrip olmasına, yerel halkın turizm faaliyetlerine yönelik desteğini kaybetmesine ve uzun vadede turizm gelirlerinin azalmasına neden olabilir. Çalışmanın en önemli sınırlılığı, yalnızca ikincil verilere dayanması ve belirli coğrafi bölgelerle (ağırlıklı olarak Avrupa ve Asya) sınırlı kalmasıdır. Gelecek araştırmaların farklı coğrafi bağlamlarda (örneğin Afrika, Latin Amerika) birincil veri toplama yöntemleriyle (anket, görüşme, gözlem) desteklenmesi gerekmektedir.

Açık hava rekreasyonu ve gastronomi deneyimlerinin entegrasyonuna dayalı sürdürülebilir bir kırsal turizm modelinin geliştirilmesi için politika ve planlama düzeyinde bazı stratejik yaklaşımlar önerilmektedir. Öncelikle, kırsal turizm destinasyonları için bütünleşik planlama yaklaşımları benimsenmeli; her alanın ekolojik, fiziksel, sosyal ve psikolojik taşıma kapasiteleri bilimsel yöntemlerle belirlenmeli ve ziyaretçi akışı bu kapasitelere göre yönetilmelidir [19,21]. Planlamalarda doğal ve kültürel kaynakların korunması ile turizm gelişimi arasında denge kurulmalıdır. Paydaş katılımı ve yerel halkın güçlendirilmesi de kritik öneme sahiptir; turizm planlama ve yönetim süreçlerine yerel halk, sivil toplum kuruluşları, özel sektör ve akademi dâhil edilmeli, yerel halkın karar alma süreçlerinde aktif rol alması, turizmin faydalarından adil bir şekilde yararlanması ve kapasite geliştirme programları ile desteklenmesi sağlanmalıdır [5,17]. Toplum temelli turizm modelleri teşvik edilmelidir [5]. Ayrıca, açık hava rekreasyonu ve gastronomi turizmi faaliyetleri için sürdürülebilirlik kriterleri (taşıma kapasitesi, atık yönetimi, su ve enerji verimliliği, karbon ayak izi, biyoçeşitlilik etkisi) geliştirilmeli ve bu kriterlere uyum teşvik edilmelidir. Yerel ürünler ve sürdürülebilir turizm işletmeleri için "coğrafi işaret", "organik tarım", "slow food", "yeşil yıldız" gibi sertifikasyon ve etiketleme sistemleri yaygınlaştırılmalıdır [13,18]. Son olarak, kırsal turizm stratejileri iklim değişikliğinin etkilerini dikkate alarak hazırlanmalı; su tasarrufu, enerji verimliliği, atık azaltma, yenilenebilir enerji kullanımı ve karbon ayak izini düşürmeye yönelik uygulamalar teşvik edilmeli, iklim değişikliğinin olumsuz etkilerine karşı kırsal toplulukların ve turizm işletmelerinin dirençliliği artırılmalıdır [1].

Uygulama ve işletme düzeyinde ise bütünleşik deneyim tasarımı öne çıkmaktadır. Turizm işletmeleri, açık hava rekreasyonu ile gastronomi deneyimlerini birleştiren paketler

geliştirmeli; örneğin "doğa yürüyüşü + yöresel piknik", "rafting + yerel şarap tadımı", "çiftlik ziyareti + yemek atölyesi" gibi kombine ürünler tasarlanmalıdır [13,16]. Dijital dönüşüm de kaçınılmazdır: Kırsal KOBİ'ler dijital pazarlama araçlarını (sosyal medya, web siteleri, e-ticaret platformları) etkin kullanmalı; sanal gerçeklik, artırılmış gerçeklik ve interaktif haritalar gibi teknolojilerle deneyimler zenginleştirilmeli, dijital okuryazarlık ve e-ticaret konularında eğitim programları düzenlenmelidir [6,13]. Hikâye anlatımı (storytelling) da önemli bir araçtır; yerel ürünlerin, geleneksel yemeklerin ve rekreasyon alanlarının kültürel ve tarihsel hikâyeleri ön plana çıkarılmalı, bu hikâyeler turistlere duygusal ve anlamlı bir bağ kurma fırsatı sunmalıdır [3,11]. Gastronomi rotaları ve festivaller bu hikâyelerin anlatılması için önemli platformlardır. Ayrıca yerel halka, turizm işletmecilerine ve rehberlere yönelik misafirperverlik, sürdürülebilir turizm uygulamaları, gıda güvenliği, hijyen, dijital pazarlama ve yabancı dil alanlarında eğitim programları düzenlenmesi kapasite geliştirme açısından gereklidir [18,21].

Gelecek araştırmalara yönelik olarak, farklı coğrafi, kültürel ve ekonomik bağlamlardaki (Akdeniz havzası, Balkanlar, Kafkaslar, Orta Asya, Latin Amerika, Afrika) açık hava rekreasyonu ve gastronomi turizmi modellerini karşılaştıran ampirik çalışmalar yapılmalıdır. Turistlerin motivasyonlarını, memnuniyet düzeylerini, harcama alışkanlıklarını ve çevresel tutumlarını ölçen nicel anket çalışmaları gerçekleştirilmelidir [15,21]. Sürdürülebilir turizm girişimlerinin kırsal kalkınma üzerindeki uzun vadeli etkilerini (ekonomik, sosyal, çevresel) izleyen boylamsal çalışmalar da gereklidir. Bunun yanı sıra, AB fonları (LEADER, INTERREG, EAFRD, Horizon Europe) ve ulusal politikaların kırsal turizm üzerindeki etkilerini değerlendiren bağımsız araştırmalar yapılmalı [13] ve iklim değişikliğinin farklı bölgelerdeki açık hava rekreasyonu ve gastronomi turizmi potansiyeli üzerindeki etkilerini modelleyen çalışmalar artırılmalıdır [1].

LİTERATÜR İNCELEMESİ

Açık Hava Rekreasyonu

Açık hava rekreasyonu, doğal çevrede meydana gelen ve ona bağlı olan bir rekreasyon türüdür [2]. Genellikle günlük veya hafta sonu rutinlerinin bir parçası olarak doğaya veya yeşil alanlara erişimi olan alanlarda gerçekleşir. Açık hava rekreasyon aktiviteleri, doğa, çevresel öngörülemezlik, ekipman ve özel materyallerin yanı sıra heyecan, adrenalin, risk ve güçlü duyguları içermesi nedeniyle geleneksel sporlardan farklılaşır [19]. Bu aktiviteler, bireylerin fiziksel ve zihinsel sağlığına olumlu katkılar sunarken aynı zamanda çevre bilincinin gelişmesine ve doğal kaynakların korunmasına da destek olmaktadır [1]. Millî parklar, doğa koruma alanları, arkeoparklar, yaylalar, kıyılar ve kırsal peyzajlar, açık hava rekreasyonu için önemli mekânlardır [19,6]. Bu alanlarda yürüyüş, trekking, dağ bisikleti, kampçılık, kayak, dağcılık, kuş gözlemciliği, kanyonculuk, foto safari, piknik, balık tutma ve ata binme gibi çok çeşitli aktiviteler gerçekleştirilebilmektedir [19]. Her bir aktivite, kırsal alanın doğal ve kültürel özelliklerine göre şekillenmekte ve farklı kullanıcı gruplarına hitap etmektedir.

Gastronomi Turizmi ve Kültürel Miras

Gastronomi turizmi, ziyaretçilerin bir destinasyonun yiyecek ve içeceklerini, yemek üretim süreçlerini ve mutfak kültürünü deneyimlemeye yönelik seyahatlerini kapsamaktadır [11]. Bu turizm türü, somut olmayan kültürel mirasın en önemli bileşenlerinden biridir. Yöresel yemekler, geleneksel tarım uygulamaları, el sanatları, festivaller ve mutfak atölyeleri aracılığıyla kültürel kimlik ve aidiyet duygusu güçlendirilmekte, kültürel mirasın korunması ve kuşaktan kuşağa aktarılması sağlanmaktadır [6,18]. Klaros Arkeoparkı örneğinde olduğu

gibi, deneysel arkeoloji etkinlikleri ve mulaj eserler aracılığıyla sunulan deneyimler, ziyaretçilerin kültürel miras bilincini artırmakta ve kültürel varlıkların korunmasına yönelik farkındalık yaratmaktadır [6]. Yunanistan'ın Messinia bölgesinde zeytin mirası temelinde geliştirilen turizm faaliyetleri, yerel halkın kültürel kimliğini güçlendirmekte ve geleneksel zeytinyağı üretim tekniklerinin yaşatılmasına katkı sağlamaktadır [12]. Gastronomi turizmi, kırsal kalkınma için önemli bir araç olarak görülmekte, yerel üreticileri desteklemekte, istihdam yaratmakta ve kırsal göçü önlemeye yardımcı olmaktadır [15].

Sürdürülebilir Turizm ve Kırsal Kalkınma

Sürdürülebilir turizm, mevcut ve gelecek nesillerin ihtiyaçlarını karşılarken çevresel, sosyal ve ekonomik etkileri dengelemeyi hedefleyen bir yaklaşımdır [21]. Kırsal kalkınma bağlamında sürdürülebilir turizm, yerel halkın yaşam kalitesini artırmayı, doğal ve kültürel kaynakları korumayı ve ekonomik faydaların adil dağılımını sağlamayı amaçlamaktadır [5,1]. Açık hava rekreasyonu ve gastronomi turizminin entegrasyonu, bu hedeflere ulaşmada önemli bir potansiyele sahiptir. Kırsal peyzajların sunduğu doğal ve kültürel kaynaklar, sürdürülebilir turizmin temelini oluşturmaktadır. Gastronomik deneyimler, bu kaynakların somutlaşmış bir biçimi olarak yerel kalkınmayı desteklerken kültürel mirasın sürdürülebilirliğine de katkı sağlamaktadır [13]. Bununla birlikte sürdürülebilir turizm uygulamalarının önünde; finansman yetersizliği, altyapı eksiklikleri, personel ve bilgi eksikliği gibi kapasite zorlukları bulunmaktadır [10]. Bu zorlukların aşılması için bütünleşik planlama, paydaş katılımı ve yenilikçi finansman modelleri gerekmektedir.

Açık Hava Rekreasyonu ve Gastronomi Deneyimlerinin Entegrasyonu

Açık hava rekreasyonu ve gastronomi deneyimlerinin entegrasyonu, "doğadan sofraya" (farm-to-table) konsepti etrafında şekillenmektedir. Doğa yürüyüşü rotaları üzerinde yer alan köy pazarları, bağ evleri, çiftlik restoranları ve yayla mutfakları, ziyaretçilere eşsiz deneyimler sunmaktadır [13,15]. Örneğin, Baltık Denizi Bölgesi'nde INTERREG fonlarıyla desteklenen 12 gastronomi rotası, yerel KOBİ'lere doğrudan ekonomik fayda sağlamış ve bölgesel kalkınmayı teşvik etmiştir [13]. Benzer şekilde Fransa'nın Roquefort-sur-Soulzon köyü, mağarada olgunlaştırılan peyniri ile açık hava rekreasyonunu (mağara ziyaretleri, doğa yürüyüşleri) gastronomi deneyimleriyle birleştirerek yılda yaklaşık 200.000 ziyaretçi ağlamakta ve önemli bir ekonomik kalkınma sağlamaktadır [20]. İtalya'nın Chianti bölgesindeki Radda in Chianti de benzer şekilde şarap turizmini ve gastronomik deneyimleri merkeze alarak küresel bir marka haline gelmiştir [3]. Bu entegrasyonun başarısı, yerel halkın aktif katılımına, geleneksel bilgi ve becerilerin korunmasına ve sürdürülebilir üretim uygulamalarının teşvik edilmesine bağlıdır [18]. Ayrıca bu tür deneyimlerin planlanması ve yönetiminde, taşıma kapasitesi, atık yönetimi, enerji verimliliği ve su tasarrufu gibi çevresel faktörlerin dikkate alınması gerekmektedir [19,21].

KAYNAKLAR

1. Aras, S. (2022). İklim Değişikliğinin Turizm ve Açık Alan Rekreasyonuna Etkisinin İncelenmesi. *Journal of Tourism and Gastronomy Studies*, 10(4), 3645–3661.
2. Bell, S., Tyrväinen, L., Sievänen, T., Pröbstl, U., & Simpson, M. (2007). Outdoor Recreation and Nature Tourism: A European Perspective. *Living Reviews in Landscape Research*, 1(1), 1–46.
3. Cvijanović, D., Vujko, A., & Sekulić, D. (2025). Gastronomy as a Catalyst for Destination Branding and Sustainable Tourism: Insights from Rural Serbia and Italy. *Marketing*, 56(3), 195–208.

4. Çetinkaya, G., Yıldız, M., & Özçelik, M. A. (2016). Açıkhava Rekreasyon Kapsamında Milli Park Kullanım Engelleri. *Mediterranean Journal of Humanities*, 6(1), 99–114.
5. Diaconescu, D. M., Moraru, R., & Stănciulescu, G. (2016). Considerations on Gastronomic Tourism as a Component of Sustainable Local Development. *Amfiteatru Economic*, 18(Özel Sayı 10), 999–1014.
6. Doğan Gürbüzer, E., & Çalhan, Ö. (2024). Açık Alan Rekreasyon Alanı Olarak Arkeoparklar: Klaros Örneği. *Anatolia: Turizm Araştırmaları Dergisi*, 35(2), 222–235.
7. Elnur, A. (2023). Festivallerin Altkültürel Mirasın Sürdürülebilirliğinin Sağlanması Açısından Rolü: Wacken Open Air Festivali Örneği. *Uluslararası Türk Dünyası Turizm Araştırmaları Dergisi*, 8(1), 99–126.
8. Esponda Pérez, J. A., Alvarez Rateike, L., Rocha Leyva, F. J., Pano Vázquez, E., & Hernandez García, R. M. (2024). Current trends in Tourism and Gastronomy: An Analysis in Urban and Rural Environments. *Journal of Interdisciplinary Organizational Research*, 5(7), 543–554.
9. Gençer, C. İ. (2017). Kültürel Mirasın Korunmasında İklim Değişikliğinin Oluşturduğu Tehditler. *Mimar.ist*, 58, 24–30.
10. Gülnar, Ü. (2025). Doğa Turizmi, Açık Alan Rekreasyonu ve Sürdürülebilirlik. *Eğitim ve Toplum Bilimleri Dergisi*, 3(2), 23–34.
11. Juniarta, P. P., & Suta, P. W. P. (2025). Gastronomic Tourism as an Innovative Strategy to Increase the Attractiveness of Tourist Destinations. *Jurnal Informatika Ekonomi Bisnis*, 7(3), 545–550.
12. Kalandropoulou, M. (2025). *Sustainable Gastronomic Tourism in Messinia* (Yüksek lisans tezi). University of Piraeus.
13. Lankauskiene, R., Simonaityte, V., & Gedminaitė-Raudonė, Z. (2025). Sustainable Culinary Tourism Pathways in the Baltic Sea Region: A Comparative Perspective. *Sustainability*, 17(23), 10472.
14. Meydan, Y. (2025). *Sualtı Kültürel Mirası ve Türkiye'nin Sualtı Kültürel Miras Koruma Politikaları: Çanakkale Savaşları Gelibolu Tarihi Alan Başkanlığı Modeli* (Yüksek lisans tezi). Çanakkale Onsekiz Mart Üniversitesi.
15. Oloyede, O., Israel Akinremi, T., & Olufeyisayo Olarinde, R. (2024). Sustainable Culinary Tourism in Osogbo Integrating Ecotourism, Nutrition, and Gastronomy for Holistic Destination Experiences. *Toros University Journal of Food, Nutrition and Gastronomy*, 3(2), 147–161.
16. Pan, Q., Zhang, Q., Tian, J., Zhang, J., & Chen, Q. (2025). Embodied Multisensory Gastronomic Experience and Sustainable Destination Appeal: A Grounded Theory Approach. *Sustainability*, 17(16), 7296.
17. Pazari, F., Avdia, B., & Mamoci, E. (2025). Cultural heritage and experiential tourism: Opportunities and challenges in the Greece-Albania cross-border area (Berat, Gjirokastra and Ioannina). *GeoJournal of Tourism and Geosites*, 61(3), 1656–1667.
18. Rivza, B., Foris, D., Foris, T., Privitera, D., Uljanova, E., & Rivza, P. (2022). Gastronomic Heritage: A Contributor to Sustainable Local Tourism Development. *GeoJournal of Tourism and Geosites*, 44(4), 1326–1334.
19. Tuncel, V. (2024). Açık Hava Rekreasyon Alanı Olarak Milli Parklar ve Yapılan Rekreasyon Aktiviteleri. İçinde *Turizmde Güncel Gelişmeler ve Araştırmalar* (ss. 37–52).
20. Vujko, A., Arsić, M., & Bojović, R. (2025). From Local Product to Destination Identity: Leveraging Cave-Aged Cheese for Sustainable Rural Tourism Development. *Agriculture*, 15(11), 1137.
21. Ye, J., Qin, Y., & Wu, H. (2024). Cultural Heritage and Sustainable Tourism: Unveiling the Positive Correlations and Economic Impacts. *Current Psychology*, 43(47), 36393–36415.

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ ARXEOLOJİ ABİDƏLƏRİNİN BÖLGƏNİN TARİXİ-MƏDƏNİ İRSİNİN ÖYRƏNİLMƏSİNDƏ VƏ ARXEOTURİZMİN İNKİŞAFINDA ROLU

The Role of Archaeological Monuments of the Nakhchivan Autonomous Republic in the Study of the Region's Historical-Cultural Heritage and the Development of Archaeotourism

EMİN MƏMMƏDOV
Emin Mammadov
eminmammadov@ndu.edu.az
https://orcid.org/0009-0006-2456-1445
Naxçıvan Dövlət Universiteti
Nakhchivan State University

XÜLASƏ

Məqalədə Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən zəngin arxeoloji abidələrin regionun qədim tarixi-mədəni irsinin öyrənilməsindəki əhəmiyyəti və bu potensialın müasir dövrdə arxeoturizmin inkişafına təsiri təhlil olunur. Naxçıvan, bəşər sivilizasiyasının ən qədim ocaqlarından biri olmaqla, Paleolit, Neolit, Eneolit, Tunc, Dəmir, Antik və orta əsrlər dövrünə aid unikal abidələrlə zəngindir. Qazma və Kilit mağaraları, Gəmiqaya petroqlifləri, Kültəpə, Ovçulartəpə və Oğlanqala, Naxçıvantəpə kimi qədim yaşayış məskənləri və adları məqalədə geniş qeyd olunan bir çox arxeoloji abidələr bölgənin qədim sakinlərinin mənəvi, təsərrüfat və sosial həyatını işıqlandırır. Məqalədə, həmçinin bu abidələrin elmi statusunun qorunması şərtilə beynəlxalq turizm marşrutlarına inteqrasiyası, infrastrukturun qurulması və arxeoturizmin regional iqtisadiyyata verə biləcəyi töhfələr araşdırılır.

Açar sözlər: *Naxçıvan, arxeoloji abidələr, memarlıq abidələri, tarixi-mədəni irs, arxeoturizm, Qazma mağarası, Gəmiqaya, Kültəpə, Ovçulartəpə.*

ABSTRACT

This article analyzes the significance of the rich archaeological monuments located in the Nakhchivan Autonomous Republic for studying the region's ancient historical and cultural heritage, as well as the impact of this potential on the modern development of archaeotourism. As one of the oldest cradles of human civilization, Nakhchivan is rich in unique monuments spanning the Paleolithic, Neolithic, Chalcolithic, Bronze, Iron, Antiquity, and Medieval periods. Ancient settlements and archaeological sites mentioned extensively throughout the paper such as the Gazma and Kilit caves, the Gamigaya petroglyphs, Kultepe, Ovchulartepe, Oglangala, and Nakhchivantepe shed light on the spiritual, economic, and social lives of the region's ancient inhabitants. Furthermore, the study explores the integration of these monuments into international tourism routes under the condition of preserving their scientific status, the establishment of necessary infrastructure, and the potential contributions of archaeotourism to the regional economy.

Keywords: *Nakhchivan, archaeological monuments, architectural monuments, historical and cultural heritage, archaeotourism, Gazma cave, Gamigaya, Kultepe, Ovchulartepe.*

.

Hər bir regionun tarixi-mədəni irsi onun keçmişini sənədləşdirən və milli kimliyini formalaşdıran ən mühüm amillərdəndir. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası çoxəsrlik tarixə malik arxeoloji abidələri ilə hər zaman dünya elminin diqqət mərkəzində olmuşdur. Son illərdə aparılan beynəlxalq və yerli arxeoloji tədqiqatlar Naxçıvanın təkcə Qafqazın deyil, bütövlükdə Yaxın Şərq sivilizasiyalarının kəsişmə nöqtəsi olduğunu sübut etmişdir. Müasir dövrdə bu abidələr yalnız elmi tədqiqat obyekti deyil, həm də sürətlə populyarlaşan arxeoturizm (arxeoloji turizm) sahəsinin inkişafı üçün böyük iqtisadi və mədəni potensial daşıyır.

Tarixi-mədəni irsin öyrənilməsində arxeoloji abidələrin rolu əvəzedilməzdir. Bu baxımdan Naxçıvanın arxeoloji xəritəsi müxtəlif tarixi dövrləri əhatə edən yüzlərlə abidə ilə zəngindir. Bu abidələr bölgədə qədim insanların məskunlaşma mərhələlərini, texnoloji

inkişafını və mədəni əlaqələrini öyrənməyə imkan verir. Paleolit dövründən başlayaraq Orta əsrlər dövrünədək müxtəlif tarixi mərhələləri əhatə edən bu abidələrin öyrənilməsi nəticəsində bugün qədim Naxçıvan diyarı Qafqazda ilk oturaq əkinçilik və metallurgiyanın (mis əritmə) yaranma mərkəzlərindən biri kimi qəbul edilir. Arxeoloji tədqiqatlar zamanı buradan əldə edilən materiallar, zəngin maddi-mədəniyyət nümunələri regionun qədim iqtisadi strukturunu nümayiş etdirir.

Muxtar respublika ərazisində karst relyef formasının mövcud olması burada qədim mağaraların formalaşmasına şərait yaratmışdır. Məhz buna görə də Naxçıvan Kiçik Qafqaz ərazisində karst mağaralarının yayıldığı əsas yerlərdən biri hesab olunur. Ərazidə qeydə alınan həmin mağaralar vaxtilə burada mövcud olmuş əlverişli iqlim şəraitinin təsiri nəticəsində formalaşıb. Elə məhz buna görədir ki, insanlar qədim dövrlərdən başlayaraq bu ərazidə məskunlaşmış və öz qədim mədəniyyətlərini yaratmışlar. Şərur rayonu ərazisindəki tariximizin daş yaddaşı olan Qazma mağarası da belə abidələrdən biridir. Tənənəm kəndindən 3 kilometr şimal-şərqdə, dəniz səviyyəsindən 1500 metr yüksəklikdə yerləşir. Bu qədim yaşayış məskəni ilk dəfə 1983-cü ildə Məmmədəli Hüseynov və Əsədulla Cəfərovun rəhbərlik etdiyi "Paleolit" arxeoloji ekspedisiyasının kəşfiyyat işləri zamanı qeydə alınıb. Mağara girəcəkdə eni 6 metr və hündürlüyü 2 metr olan dəhliz şəklində uzanır və 2 qola ayrılır. Mağaranın qurtaracağı ilə girişi arasındakı hündürlük fərqi 10 metrə çatır. Burada 1987-1990-cı illərdə Əsədulla Cəfərovun, 2008-2013-cü illərdə isə Azad Zeynalovun rəhbərliyi ilə arxeoloji qazıntı işi aparılıb. Aparılan tədqiqatlar zamanı abidədəki altı mədəni təbəqədən xeyli miqdarda arxeoloji materiallar tapılıb. Aşkar edilmiş çoxsaylı heyvan sümüyü burada 24 növ fauna qalığı olduğunu və bəzilərindən əmək alətləri kimi istifadə edildiyi müəyyən edilmişdir. Fauna qalıqları ilə yanaşı, abidədən tapılmış daş məmulatları da maraqlı arxeoloji materiallardandır. Daş məmulatı əsasən dəvəgözü, çaxmaqdaşı və tufdan ibarət olmuşdur. Abidədən əldə olunmuş daş məmulatları arasında istehsal tullantılarının tapılması mağara sakinlərinin burada daşdan müxtəlif alətlər hazırladığını göstərir. Əmək alətləri, əsasən, qaşovtipli alətlərdən və itiuclulardan ibarətdir (Baxşəliyev, 2008, s. 30). Onlar forma və xüsusiyyətlərinə görə Azıx və Tağlar Daş dövrü abidələrindən əldə olunmuş əmək alətləri ilə bənzərlik təşkil edir. Mağarada kiçik bir sahədə bir neçə ocağın mövcud olması burada yaşayan ibtidai insanların oddan geniş istifadə etdiklərini və uzun müddət yaşadıqlarını göstərir. Bu abidədən tapılan arxeoloji materiallar Daş dövrünün bitki və heyvanat aləmi ilə yanaşı, insanların həyat tərzi, məşğuliyyət sahələri və s. haqqında geniş məlumatlar verir. Mağaradan tapılan sümük qalıqlarının əksəriyyətinin iri heyvanlara məxsus olması göstərir ki, Mustiye mədəniyyəti dövründə Qazma sakinlərinin həyatında ovçuluq xüsusi yer tutub. Oradan əldə olunmuş işlənmiş daş və sümük materiallar Naxçıvanda daşişləmə və sümükişləmə sənətkarlıq sahələrinin tarixinin qədim olduğunu bir daha sübut edir.

Qazma mağarası nəinki Azərbaycan, həmçinin dünya arxeologiyasında insan məskəni kimi özünəməxsus yerə malikdir. Eramızdan 100-90 min il bundan əvvələ aid olan bu arxeoloji abidə maddi və mənəvi mədəniyyətimizin öyrənilməsi sahəsində mühüm əhəmiyyət daşıyır. Yerli və xarici mütəxəssislər tərəfindən araşdırıldıqdan sonra buradan tapılmış maddi-mədəniyyət qalıqlarının dünya arxeologiya, paleontologiya və paleoantropologiya elmləri üçün müstəsna elmi əhəmiyyət daşıması müəyyən olunmuşdur.



Şəkil 1. Qazma mağarası

Abidənin qədim və unikallığı onun həmçinin arxeoturizm əhəmiyyətini də artıran amillərdəndir. Nəzərə alsaq ki, hazırda muxtar respublikamızda turizmin tarixi-mədəni növünün təbliği üçün geniş imkanlar var və bu istiqamətdə işlər görülür, onda sözügedən Paleolit dövrünün yadigarı olan Qazma mağarası da bu cəhətdən unikallıq təşkil edir. Arxeoloji abidənin turizm potensialı, xüsusilə də arxeoturizm üçün əhəmiyyətli olması onun geniş təbliğ olunmasını və yerli ictimaiyyətin, eləcə də muxtar respublikaya səfər edən xarici qonaqların diqqətinə çatdırılması zərurətini ortaya qoyur.

Arxeoturizm baxımından muxtar respublika ərazisində ən mühüm destinasiyalardan biri Gəmiqaya abidəsidir. Gəmiqaya Ordubad rayonu ərazisində, Qapıcıq dağının cənub və şərq yamaclarında yerləşən, tunc və ilk dəmir dövrlərinə (b.e.ə. IV–I minilliklər) aid bənzərsiz qayaüstü təsvirlər məskənidir. Bu abidə dəniz səviyyəsindən təxminən 3000–3500 metr yüksəklikdə yerləşir və qədim insan icmalarının estetik təfəkkürünü və təsərrüfat həyatını əks etdirən açıq səma altında möhtəşəm bir muzey, eyni zamanda qədim insanların kosmoqonik dünyagörüşünü, ovçuluq və maldarlıq həyatını, inanclar sistemini əks etdirən "daş salnamə"dir.



Şəkil 2. Gəmiqaya qayaüstü təsvirləri.

Gəmiqaya abidələri ilk dəfə 1968-ci ildə arxeoloq Vəli Əliyev tərəfindən qeydə alınmış və sistemli şəkildə tədqiq olunmağa başlanmışdır. Sonrakı illərdə aparılan araşdırmalar abidənin ərazisindəki qədim yurd yerlərini və qəbirləri də üzə çıxarmışdır (Əliyev, 2005, s. 12).

Gilançayın sol sahilində, Ordubad-Naxçıvan avtomobil yolunun üstündə isə digər bir möhtəşəm abidə olan Xaraba-Gilan qədim şəhər yeri yerləşir. Təpələr və dağlar üzərində yerləşən şəhər xarabalıqları 100 ha-dan artıq ərazini əhatə edir. Üzəri nisbətən düz olan dağın üstündə şəhərin narınqalası yerləşir. Təkcə narınqalanın sahəsi 30 hektara qədərdir. Qədim yunan şəhərlərində olan akropolların planına uyğun inşa edilmişdir. Narınqalanın mərkəzi hissəsində qala qarnizonunun yerləşdiyi çoxlu kiçik otaqlardan ibarət kompleks, seçmə

daşlarla və əhəngkövrə ilə işlənmiş, şəhər hakimi və qoşun başçılarının olduqları bir neçə iri həcmli kompleks və iki örtülü su anbarı yerləşmişdir. Şəhərin narınqalası və məhəllələri dairəvi, dördbucaqlı və altıbucaqlı planda bürcləri olan möhkəm müdafiə divarları ilə əhatə olunmuşdur. Şəhərin müdafiə sistemində yaxınlıqdakı kiçik qalalar və qarovul məntəqələri də mühüm rol oynamışdır.





Şəkil 3. Xaraba-Gilan qədim şəhər yeri.

Şəhərin memorial abidələri onun şimalında və şimal-şərqindəki iki dağın üzərində yerləşmişdir. Burada Naxçıvan memarlıq məktəbinin X-XIII əsrlərə aid ən gözəl nümunələri toplanmışdır. 1980-ci ildə tədqiq edilmiş 1 saylı türbə tikinti materialları, tikinti texnikası və memarlıq üslubuna görə Naxçıvan şəhərindəki Yusif Küseyir oğlu və Mömінə Xatın türbələrinin oxşarıdır. Xaraba Gilanda aşkar edilmiş XII-XIII əsrlərə aid karvansara kompleksi öz mürəkkəb planına və konstruktiv həllinə görə Azərbaycanın orta əsrlər şəhər tipli karvansaralarının ən yaxşı nümunələrindən biri hesab edilə bilər. Xaraba-Gilan tikililərində əsasən odda yaxşı bişirilmiş kərpiclərdən istifadə olunmuşdur (Baxşəliyev, 2008, s. 112).

Xaraba Gilanda metalişləmə sənəti də inkişaf etmişdi. Hələlik ən çox məişətdə işlənən əşyalar və bəzək nümunələri aşkar edilmişdir ki, bunların da böyük əksəriyyəti misdən və tuncdan hazırlanmışdır. Numizmatik materiallar şəhərin iqtisadi, siyasi və mədəni həyatının öyrənilməsində mühüm rol oynamaqla yanaşı, dövrün müəyyən edilməsində də əsas vasitədir.

Naxçıvan Muxtar Respublikasının təbii sərvətləri içərisində Duzdağ xüsusi yer tutur. Bu ərazi həm müasir sənaye baxımından, həm də arxeoloji dəyərinə görə mühüm obyekt sayılır. "Naxçıvan Duzdağının qədim duz mədənləri" (Baxşəliyev V. və b., 2012) adlı tədqiqat əsəri burada aparılmış arxeoloji qazıntıların nəticələrini sistemləşdirərək, Qafqazda ən qədim sənaye tipli istehsal ocaqlarından birini elmi cəhətdən sənədləşdirib. Duzdağda aparılmış araşdırmalar göstərir ki, bu ərazidə duz hasilatı ən azı e.ə. V-III minilliklərə qədər uzanır. Qazıntı materialları — daş çəkiclər, duz parçalayıcı alətlər, keramika qırıqları və s. burada planlı və davamlı mədənçilik fəaliyyətinin mövcudluğunu sübut edir (Aliyev N., Bakhshaliyev V., Marro C, 2016). Duz tarix boyu insanların iqtisadi və sosial həyatında mühüm rol oynamışdır. Qida saxlama, mübadilə və ticarətdə duzun strateji əhəmiyyəti onu qədim dövrlərdən etibarən ən dəyərli təbii sərvətlərdən birinə çevirmişdir. Qafqaz regionunda duz yataqları arasında Naxçıvanın Duzdağı xüsusi yer tutur. Şəhər mərkəzindən təqribən 10 km məsafədə yerləşən bu yataq həm geoloji baxımdan zəngin duz ehtiyatlarına, həm də qədim mədənçilik izlərinə malikdir. XX əsrin sonlarından başlayaraq aparılan arxeoloji tədqiqatlar Duzdağının Eneolit və Son Tunc dövründən intensiv şəkildə istifadə olunduğunu sübut etmişdir.

Geoloji baxımdan bu yataq yalnız Naxçıvan üçün deyil, bütövlükdə Cənubi Qafqaz üçün ən iri duz ehtiyatlarından biridir. Duz laylarının səthə yaxın olması qədim insanlar tərəfindən onun çıxarılmasını asanlaşdırmışdır.

Naxçıvan Duzdağı haqqında qeyd olunanları nəzərə alaraq deyə bilərik ki, Duzdağ həm təbii sərvət, həm qədim tarix, həm də müalicəvi əhəmiyyətinə görə Azərbaycanın və bütövlükdə regionun ən unikal turizm obyektlərindən biridir. Son illərdə aparılan infrastruktur layihələri bu məkanı qlobal səviyyədə tanınan bir sağlamlıq və ekoturizm mərkəzinə çevirmişdir. Eyni zamanda Duzdağ yalnız tibbi deyil, həm də böyük mədəni-tarixi əhəmiyyətə malikdir.



Şəkil 4. Naxçıvan Duzdağı

Muxtar respublikanın Şərur, Şahbuz, Culfa və Babək kimi rayonlarında, həmçinin Naxçıvan şəhərinin özündə yerləşən bir çox dünya, ölkə və yerli əhəmiyyətli abidələr özünün möhtəşəmliyi və yüksək turizm cəlbediciliyi ilə fərqlənirlər. Əsasən Naxçıvançay, Arpaçay, Əlincəçay, Gilançay hövzələrində yerləşən qədim yaşayış yerləri, möhtəşəm siklopik qalalar, körpülər və s. qədim dövlətçilik ənənələrinin, müdafiə sistemlərinin və şəhərsalma mədəniyyətinin göstəricisidir. Bu abidələrdən əldə olunan maddi-mədəniyyət nümunələri Azərbaycanın qədim dövr tarixinin öyrənilməsində əvəzsiz rol oynayır və Naxçıvan Muxtar Respublikasında arxeoturizmin inkişafına böyük təkan verir.

Naxçıvan Muxtar Respublikasının arxeoloji abidələri təkcə keçmişimizin öyrənilməsində deyil, həm də gələcək iqtisadi və mədəni inkişafda mühüm strateji resursdur. Bu abidələrin arxeoturizm potensialının düzgün qiymətləndirilməsi və beynəlxalq səviyyədə təbliği, regiona xarici turist axınını gücləndirə bilər.

Bununla yanaşı muxtar respublika ərazisində arxeoturizmin inkişaf perspektivləri və problemlərini nəzərə alaraq tarixi-mədəni irsin təbliği istiqamətində ciddi addımların atılması, arxeoturizmin dünya standartları səviyyəsinə çatdırılması bölgəni əvəzsiz turizm məkanına çevirə bilər. Belə ki, açıq səma altında muzeylərin (Arxeoparkların) yaradılması, Kültəpə, Oğlanqala, Ovçulartəpə kimi qazıntı sahələrində əldə olunan tapıntıların yerindəcə konservasiya olunaraq turistlərə nümayiş olunması (məsələn, qədim evlərin və ya istehsalat ocaqlarının rekonstruksiyası) bu sahənin yüksək turizm cəlbediciliyinə zəmin yaradar. Həmçinin infrastruktur və əlçatanlıq probleminin aradan qaldırılması, məsələn, Gəmiqaya kimi yüksək dağlıq zonada yerləşən abidələrə gedən yolların, düşərgələrin və bələdçi sisteminin təkmilləşdirilməsi bölgədə mühüm arxeoturizm destinasiyalarının yaranmasına səbəb ola bilər.

Hesab edirik ki, bölgənin tarixi-mədəni irsinə bu cür yanaşma həm milli irsin qorunub saxlanılmasına, həm də Naxçıvanın dünya miqyasında qədim mədəniyyət mərkəzi kimi tanınmasına xidmət edər.

ƏDƏBİYYAT SİYAHISI

1. Aliyev N., Bakhshaliyev V., Marro C. (2016). Early salt mining systems and strategies at Duzdağı (Nakhchivan, Azerbaijan). – Lyon: MOM Éditions.
2. Baxşəliyev, V. (2008). Naxçıvanın arxeoloji abidələri. Bakı: Elm. 301 s.
3. Baxşəliyev, V., Marro C., Hamon C., Alıyev N., Dessaint P., Sanz S. (2012). Naxçıvan Duzdağının qədim duz mədənləri/ The salt mine of Nakhchivan Duzdagi. Naxçıvan. Əcəmi. 80 s.
4. Əliyev, V. (2005). Gəmiqaya Bakı: Əbilov, Zeynalov və oğulları. 148 s.
5. Marro C., Bakhshaliyev V., Sanz S., Aliyev N. (2010). Archaeological investigations on the salt mine of Duzdağı (Nakhchivan, Azerbaijan) // TÜBA-AR.
6. Rissman, P., & Ristvet, L. (2012). Excavations at Oglanqala, Nakhchivan, Azerbaijan. American Journal of Archaeology, 116(2), 321-345.
7. Seyidov, A. (2003). Naxçıvan Tunc dövründə. Bakı: Elm.

RESPUBLİKAMIZDA GENİŞ TURİZM KOMPLEKSLƏRİNİN VƏ OBYEKTLƏRİNİN TİKİNTİSİNİN TURİZMİN VƏ TİKİNTİ SEKTORUNUN İNKİŞAFINDA ROLU

The Role Of The Constructıon Of Large Tourısm Complexes And Facılıtıes In Our Republıc In The Development Of Tourısm And Constructıon Sectors

FƏRAHİM VƏLİYEV
Fərahim Vəliyev
veliyevferahim61@gmail.com
https://orcid.org/0000-0003-1912-0515
Azərbaycan Memarlıq və İnşaat Universiteti
Azerbaijan University of Architecture and Construction

XÜLASƏ

Müasir dövrdə bir çox ölkələrin iqtisadiyyatında turizm sektoru xüsusi əhəmiyyət kəsb edir və milli gəlirin formalaşmasında mühüm rol oynayır. Türk dünyasının aparıcı ölkələrindən biri olan Türkiyə iqtisadiyyatında turizm sektoru ümumi daxili məhsulun (ÜDM) formalaşmasında əhəmiyyətli paya malikdir. Son illərdə turizmin ÜDM-də payı təxminən 10–12 % səviyyəsində olmuşdur. Turizmdən əldə olunan gəlirlər ölkəyə böyük həcmdə xarici valyuta axınını təmin edir və ölkənin tədiyyə balansının yaxşılaşmasına mühüm töhfə verir. Digər türk dövləti olan Özbəkistan da son illərdə turizm sektorunun inkişafına xüsusi diqqət yetirir. Həyata keçirilən islahatlar, viza rejiminin sadələşdirilməsi və turizm infrastrukturunun genişləndirilməsi nəticəsində turizm sektoru ölkə iqtisadiyyatında mühüm rol oynayan sahələrdən birinə çevrilmişdir.. Bu göstəricilər turizmin dövlət büdcəsinin formalaşmasında və iqtisadi sabitliyin təmin edilməsində mühüm rol oynadığını göstərir.
Respublikamız təbiəti, iqlim , şəraiti ölkəmizin dünyanın turizm mərkəzləroindən birinə çüvrilməəsinə imkan versədə bu potensialdan lazimi səviyyədə istifadə edə olunmur. Halbuki, geniş,əhali üçün əlçatan türizm obyektləri yaratmaqla turzmi qeyri-neftsektorunun əsasaparıcı sahəsinə çevirməkolar. Bu sahədə olan probleləri və onların həlli yollarını nəzərdən keçirəcək.

Açar sözlər: turizm infrastrukturu, tikinti sektoru, turizm kompleksi, regional inkişaf, investisiya

ABSTRACT

In modern times, the tourism sector is of particular importance in the economies of many countries and plays an important role in the formation of national income. In the economy of Turkey, which is one of the leading countries of the Turkic world, the tourism sector has a significant share in the formation of gross domestic product (GDP). In recent years, the share of tourism in GDP has been approximately 10–12%. Revenues from tourism provide a large amount of foreign exchange inflow to the country and make a significant contribution to improving the country's balance of payments. Uzbekistan, another Turkic state, has also paid special attention to the development of the tourism sector in recent years. As a result of the reforms implemented, the simplification of the visa regime and the expansion of tourism infrastructure, the tourism sector has become one of the areas that play an important role in the country's economy. These indicators show that tourism plays an important role in the formation of the state budget and ensuring economic stability. Although the nature, climate and conditions of our republic allow our country to become one of the world's tourism centers, this potential cannot be used to the necessary extent. However, by creating large, accessible tourism facilities for the population, they will turn tourism into a leading sector of the non-oil sector. They will consider the problems in this area and ways to solve them.

Keywords: *tourism infrastructure, construction sector, tourism complex, regional development, investment*

GİRİŞ

Türk dünyasının ayrılmaz hissəsi olan Azərbaycan Respublikasında turizmin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Bu, ilk növbədə turizm sektorunun xidmət sahəsinin genişlənməsinə, məşğulluğun artmasına və regionların sosial-iqtisadi inkişafına göstərdiyi çoxşaxəli müsbət təsirlərlə izah olunur. Turizm fəaliyyəti yalnız birbaşa gəlir mənbəyi kimi deyil, həm də nəqliyyat, ticarət, ictimai iaşə və digər əlaqəli sahələrin inkişafına təkan verən kompleks iqtisadi mexanizm kimi çıxış edir.

Ölkənin zəngin təbii resursları, əlverişli iqlim şəraiti, müxtəlif landşaft quruluşu və qədim tarixi-mədəni irsi turizmin inkişafı üçün geniş imkanlar yaradır. Bu potensialdan səmərəli istifadə olunması məqsədilə son illərdə turizm infrastrukturunun inkişaf etdirilməsi, müasir otel və turizm komplekslərinin yaradılması, həmçinin beynəlxalq standartlara uyğun xidmət səviyyəsinin formalaşdırılması istiqamətində mühüm addımlar atılmışdır.

Bununla belə, aparılan təhlillər göstərir ki, mövcud nəticələr ölkənin turizm potensialına tam uyğun deyil. Xüsusilə turizm obyektlərinin regionlar üzrə qeyri-bərabər paylanması bu sahənin inkişafında əsas problemlərdən biri kimi çıxış edir. Belə ki, Quba rayonunda 31, Qusar rayonunda 20, Şamaxı rayonunda 23 və Qəbələ rayonunda 21 hotel fəaliyyət göstərir. Bu hotellərin əhəmiyyətli hissəsi 4 və 5 ulduz kateqoriyasına aid olmaqla yüksək xidmət səviyyəsinə malikdir. Lakin yüksək qiymət siyasəti səbəbindən bu obyektlər geniş əhali kütləsi üçün tam əlçatan hesab edilmir.

Digər tərəfdən, daha zəngin təbii landşaftlara və geniş turizm potensialına malik olan Zaqatala, Balakən, Qax, Astara, Lerik və Yardımlı rayonlarında turizm obyektlərinin sayı nisbətən azdır və mövcud infrastruktur turizm potensialının tam reallaşdırılmasına imkan vermir. Bu regionlarda əsasən kiçik həcmli istirahət obyektləri və fərdi yerləşdirmə vasitələri üstünlük təşkil edir ki, bu da turizmin kütləvi inkişafını məhdudlaşdırır.

Bu baxımdan, turizm sektorunun davamlı inkişafının təmin edilməsi üçün regionlar üzrə balanslı inkişaf modelinin tətbiqi zəruridir. Xüsusilə orta qiymət seqmentinə aid (3–4 ulduzlu) hotellərin və əlçatan turizm obyektlərinin yaradılması, ekoturizm və kənd turizminin inkişafı, nəqliyyat və kommunal infrastrukturun yaxşılaşdırılması mühüm əhəmiyyət kəsb edir. Belə yanaşma turizmin daha geniş əhali təbəqələri üçün əlçatan olmasını təmin etməklə yanaşı, regionların iqtisadi fəallığının artmasına və qeyri-neft sektorunun güclənməsinə şərait yaradacaqdır.

METODLAR

Tədqiqat işində qarşıya qoyulmuş məqsəd və vəzifələrin həyata keçirilməsi üçün müasir elmi yanaşmalara əsaslanan kompleks metodoloji baza formalaşdırılmış və müxtəlif tədqiqat üsullarından sistemli şəkildə istifadə olunmuşdur. Tədqiqatın metodoloji əsasını iqtisadi nəzəriyyənin fundamental prinsipləri, regional inkişaf konsepsiyaları və turizm iqtisadiyyatına dair müasir elmi yanaşmalar təşkil edir.

Tədqiqat prosesində aşağıdakı metodlardan istifadə edilmişdir:

- Analiz və sintez metodları – turizm sektorunun və turizm komplekslərinin iqtisadi təsirlərinin ayrı-ayrı komponentlər üzrə təhlili aparılmış, əldə olunan nəticələr ümumiləşdirilərək vahid konseptual çərçivədə birləşdirilmişdir.
- Müqayisəli təhlil metodu – Azərbaycanın müxtəlif iqtisadi-coğrafi regionlarında turizm obyektlərinin yerləşmə xüsusiyyətləri, infrastruktur təminatı və inkişaf səviyyəsi müqayisəli şəkildə qiymətləndirilmişdir.
- Statistik təhlil metodu – rəsmi statistik göstəricilər əsasında turizm obyektlərinin say dinamikası, regionlar üzrə paylanması və sektorun əsas makroiqtisadi göstəricilərə təsiri təhlil edilmişdir.
- Sistemli yanaşma metodu – turizm sektorunun tikinti, kənd təsərrüfatı, nəqliyyat və xidmət sahələri ilə qarşılıqlı əlaqələri kompleks şəkildə araşdırılmış, bu sahələr arasında qarşılıqlı təsir mexanizmləri müəyyən edilmişdir.
- Müşahidə, ümumiləşdirmə və induksiya metodları – mövcud praktiki vəziyyət öyrənilmiş, empirik müşahidələr əsasında ümumi elmi nəticələr formalaşdırılmışdır.

Tədqiqatın informasiya bazasını Azərbaycan Respublikasının rəsmi statistika məlumatları, dövlət proqramları və strateji sənədlər, həmçinin yerli və xarici alimlərin elmi əsərləri, beynəlxalq təşkilatların analitik hesabatları təşkil etmişdir. Bu mənbələrdən istifadə olunması tədqiqatın elmi

əsaslılığını, obyektivliyini və nəticələrin etibarlılığını təmin etmişdir.

Turizm komplekslərinin tikintisinin turizm sektorunun inkişafına təsiri

Turizm kompleksləri turizm fəaliyyətinin həyata keçirilməsi üçün zəruri olan infrastruktur obyektlərinin məcmusudur. Bu komplekslərə hotellər, istirahət mərkəzləri, əyləncə obyektləri, restoranlar, nəqliyyat və kommunikasiya infrastrukturu, həmçinin digər xidmət sahələri daxildir. Müasir dövrdə turizm sektorunun səmərəli inkişafı birbaşa olaraq bu tip komplekslərin mövcudluğu və inkişaf səviyyəsi ilə sıx bağlıdır.

Türk dünyasının ayrılmaz hissəsi olan Azərbaycan Respublikasında turizm potensialı kifayət qədər yüksək olsa da, mövcud infrastrukturun bəzi regionlarda zəif inkişafı bu sahənin genişlənməsini məhdudlaşdıran əsas amillərdən biri kimi çıxış edir. Xüsusilə turizm komplekslərinin qeyri-bərabər yerləşməsi və əlçatanlıq problemləri turizmin kütləvi inkişafına mane olur.

Bu baxımdan turizm komplekslərinin tikintisinin genişləndirilməsi və onların ölkə üzrə daha balanslı şəkildə yerləşdirilməsi turizm sektorunun inkişafına çoxşaxəli təsir göstərir və aşağıda göstərilən bir sıra mühüm iqtisadi və sosial nəticələrə səbəb olur.

Turizm infrastrukturunun genişlənməsi

Yeni turizm komplekslərinin yaradılması ölkədə turizm infrastrukturunun keyfiyyət və kəmiyyət baxımından genişlənməsinə səbəb olur. Bu isə turistlərin yerləşdirilməsi, qidalanması, istirahəti və əyləncəsinin daha səmərəli təşkili üçün şərait yaradır.

Turist qəbul imkanlarının artması və rəqabətin güclənməsi

Turizm komplekslərinin sayının artması turistlərin qəbul imkanlarını genişləndirir. Eyni zamanda turizm obyektləri arasında rəqabət mühitinin formalaşmasına səbəb olur. Rəqabətin güclənməsi isə qiymətlərin optimallaşmasına, xidmətlərin daha əlçatan olmasına və ölkənin turizm bazarında cəlbediciliyinin artmasına gətirib çıxarır. Nəticədə ölkəyə gələn xarici turistlərin sayında artım müşahidə olunur.

Xidmət keyfiyyətinin yüksəlməsi

Rəqabət mühiti turizm obyektlərini xidmət keyfiyyətini daim yüksəltməyə vadar edir. Bu da beynəlxalq standartlara uyğun xidmətlərin tətbiqinə, peşəkar kadrların hazırlanmasına və ümumilikdə turizm sektorunun modernləşməsinə səbəb olur.

Xarici valyuta daxilolmalarının artması

Turist axınının artması ölkəyə daxil olan xarici valyuta həcminin yüksəlməsinə gətirib çıxarır. Bu isə tədiyyə balansının yaxşılaşmasına və milli iqtisadiyyatın maliyyə dayanıqlığının güclənməsinə müsbət təsir göstərir.

Regional inkişaf və məşğulluğun artması

Turizm komplekslərinin regionlarda tikilməsi xidmət sektorunun genişlənməsinə və yeni iş yerlərinin yaranmasına səbəb olur. Bu proses əhalinin məşğulluq səviyyəsini artırmaqla yanaşı, regionlardan paytaxta miqrasiyanın azalmasına da müsbət təsir göstərir.

Dövlət büdcəsinə daxilolmaların artması

Turizm fəaliyyətinin genişlənməsi dövlət maliyyə sisteminə müsbət təsir göstərərək vergi daxilolmalarının artmasına səbəb olur. Bu baxımdan Azərbaycan Respublikasında turizm sektorunun inkişafı dövlət büdcəsinin gəlir bazasının genişlənməsində mühüm rol oynayır.

Yeni turizm komplekslərinin və xidmət obyektlərinin yaradılması, eləcə də yeni iş yerlərinin açılması vergi tutma bazasının genişlənməsinə gətirib çıxarır. Turizm müəssisələri tərəfindən ödənilən mənfəət vergisi, əlavə dəyər vergisi (ƏDV), sosial sığorta haqları və digər məcburi ödənişlər dövlət büdcəsinə daxilolmaların artmasına səbəb olur.

Eyni zamanda, turizm sektorunda məşğulluğun artması nəticəsində əməkhaqqı fondunun

genişlənməsi sosial sığorta ödənişlərinin həcmini artırır. Bu isə sosial müdafiə fondlarının maliyyə dayanıqlığını gücləndirir və əhalinin sosial təminat səviyyəsinin yüksəldilməsinə imkan yaradır.

Turizmin inkişafı həmçinin dolayı iqtisadi təsirlər vasitəsilə də büdcə gəlirlərinin artmasına səbəb olur. Belə ki, turizmlə əlaqəli sahələrin – nəqliyyat, ticarət, ictimai iaşə və xidmət sektorunun genişlənməsi nəticəsində əlavə vergi daxilolmaları formalaşır.

Nəticə etibarilə, turizm sektorunun inkişafı dövlət büdcəsinin və sosial müdafiə sisteminin gəlir imkanlarını artırmaqla yanaşı, ölkənin maliyyə sabitliyinin möhkəmlənməsinə və davamlı iqtisadi inkişafın təmin olunmasına mühüm töhfə verir.

Kənd təsərrüfatının inkişafı

Yeni yaradılan turizm komplekslərinin fəaliyyəti nəticəsində turist axınının artması həmin regionlarda kənd təsərrüfatı məhsullarına olan tələbatın yüksəlməsinə səbəb olur. Bu proses Azərbaycan kimi aqrar potensialı yüksək olan ölkələrdə kənd təsərrüfatının inkişafına mühüm təkan verən amillərdən biri kimi çıxış edir.

Turizm müəssisələrinin – hotellərin, restoranların və istirahət mərkəzlərinin gündəlik fəaliyyəti ərzaq məhsullarına, xüsusilə təzə və yerli istehsal olunan kənd təsərrüfatı məhsullarına davamlı tələbat yaradır. Bu isə kənd təsərrüfatı istehsalının genişlənməsinə, məhsul çeşidinin artırılmasına və keyfiyyət standartlarının yüksəldilməsinə səbəb olur.

Eyni zamanda, yerli bazarda tələbatın artması fermerlərin satış imkanlarını genişləndirir və onların gəlirlərinin yüksəlməsinə gətirib çıxarır. Bu hal kənd yerlərində iqtisadi fəallığın artmasına, kənd əhalisinin rifah səviyyəsinin yüksəlməsinə və kənddən şəhərə miqrasiyanın azalmasına müsbət təsir göstərir.

Turizmlə kənd təsərrüfatı arasında yaranan qarşılıqlı əlaqə aqrar sahəyə investisiya qoyuluşlarını da stimullaşdırır. Fermerlər daha yüksək gəlir əldə etmək məqsədilə istehsalın intensivləşdirilməsinə, müasir texnologiyaların tətbiqinə və məhsulun emalı imkanlarının genişləndirilməsinə maraq göstərirlər. Bu isə kənd təsərrüfatının dayanıqlı inkişafına və rəqabət qabiliyyətinin artmasına şərait yaradır.

Bundan əlavə, aqroturizm və kənd turizmi kimi yeni istiqamətlərin formalaşması kənd təsərrüfatı fəaliyyətinin diversifikasiyasına imkan verir. Bu da regionlarda iqtisadi fəaliyyət növlərinin genişlənməsinə və kənd təsərrüfatının turizm sektoru ilə inteqrasiyasının güclənməsinə səbəb olur. Nəticə etibarilə, turizm komplekslərinin inkişafı kənd təsərrüfatının genişlənməsi, fermer gəlirlərinin artması və kənd yerlərində iqtisadi aktivliyin güclənməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Regionlarda sosial həyatın canlanması və onların cəlbediciliyinin artması

Turizmin inkişafı regionlarda sosial infrastrukturun və xidmət sahələrinin kompleks şəkildə genişlənməsinə səbəb olur ki, bu da həmin ərazilərdə sosial həyatın canlanmasına mühüm təkan verir. Xüsusilə Azərbaycan kimi turizm potensialı yüksək olan ölkələrdə bu proses regional inkişafın əsas istiqamətlərindən biri kimi çıxış edir.

Turizm fəaliyyətinin genişlənməsi nəticəsində regionlarda mehmanxana biznesi, ictimai iaşə, nəqliyyat, ticarət və əyləncə sahələri inkişaf edir, yeni xidmət istiqamətləri formalaşır. Bu isə öz növbəsində iqtisadi fəallığın artmasına və yerli bazarın canlanmasına gətirib çıxarır. Eyni zamanda turizm obyektlərinin yaradılması və onların fəaliyyəti ilə əlaqədar olaraq yol, rabitə, enerji təchizatı, su və kanalizasiya kimi mühüm sosial infrastruktur sahələrində modernləşmə prosesi sürətlənir.

Sosial infrastrukturun inkişafı regionlarda əhalinin həyat səviyyəsinin yüksəlməsinə birbaşa təsir göstərir. Yeni iş yerlərinin yaradılması gəlirlərin artmasına, yoxsulluq səviyyəsinin azalmasına və sosial rifahın yaxşılaşmasına səbəb olur. Bununla yanaşı, turizmin inkişafı əhalinin sosial-mədəni həyatında da müsbət dəyişikliklər yaradır, mədəni mübadilə genişlənir, yerli ənənə və dəyərlərin qorunub saxlanmasına və tanıdılmasına şərait yaranır.

Nəticə etibarilə, yeni xidmət sahələrinin yaranması, infrastrukturun təkmilləşdirilməsi və

sosial rifahın yüksəlməsi regionların ümumi cəlbediciliyini artırır. Bu isə yalnız turistlərin deyil, həm də investorların və yerli əhalinin həmin ərazilərə marağının artmasına səbəb olur. Beləliklə, turizmin inkişafı regionların davamlı sosial-iqtisadi inkişafının təmin edilməsində mühüm rol oynayan strateji amil kimi çıxış edir

Yeni yaradılan turizm komplekslərinin fəaliyyəti nəticəsində turist axınının artması müvafiq regionlarda kənd təsərrüfatı məhsullarına olan tələbatın yüksəlməsinə səbəb olur. Bu proses Azərbaycan kimi aqrar potensialı yüksək olan ölkələrdə kənd təsərrüfatının inkişafını stimullaşdıran mühüm amillərdən biri kimi çıxış edir.

Turizm müəssisələrinin – hotellərin, restoranların və istirahət mərkəzlərinin gündəlik fəaliyyəti ərzaq məhsullarına, xüsusilə təzə və yerli istehsal olunan kənd təsərrüfatı məhsullarına davamlı və sabit tələbat yaradır. Bu isə kənd təsərrüfatı istehsalının genişlənməsinə, məhsul nomenklaturasının diversifikasiyasına və keyfiyyət standartlarının yüksəldilməsinə səbəb olur. Eyni zamanda, yerli istehsalın stimullaşdırılması daxili bazarın möhkəmlənməsinə və idxaldan asılılığın qismən azalmasına şərait yaradır.

Yerli bazarda tələbatın artması fermerlərin satış imkanlarını genişləndirir və onların gəlirlərinin artımını təmin edir. Bu isə kənd yerlərində iqtisadi fəallığın yüksəlməsinə, əhalinin sosial rifahının yaxşılaşmasına və kənddən şəhərə miqrasiya meyllərinin zəifləməsinə müsbət təsir göstərir. Nəticə etibarilə kənd ərazilərinin sosial-iqtisadi dayanıqlığı möhkəmlənir.

Turizm və kənd təsərrüfatı sektorları arasında formalaşan qarşılıqlı əlaqə aqrar sahəyə investisiya qoyuluşlarını da stimullaşdırır. Daha yüksək gəlir əldə etmək məqsədilə fermerlər istehsalın intensivləşdirilməsinə, müasir aqrotexnologiyaların tətbiqinə, logistika və emal imkanlarının genişləndirilməsinə yönəlirlər. Bu isə kənd təsərrüfatının məhsuldarlığının artmasına və rəqabət qabiliyyətinin yüksəlməsinə şərait yaradır.

Bununla yanaşı, aqroturizm və kənd turizmi kimi alternativ fəaliyyət istiqamətlərinin inkişafı kənd təsərrüfatının diversifikasiyasını təmin edir. Bu yanaşma yerli resurslardan daha səmərəli istifadə olunmasına, ənənəvi təsərrüfat formalarının qorunmasına və onların iqtisadi dövriyyəyə cəlb edilməsinə imkan yaradır.

Nəticə etibarilə, turizm komplekslərinin inkişafı kənd təsərrüfatının genişlənməsi, fermer gəlirlərinin artması və kənd yerlərində iqtisadi aktivliyin güclənməsi baxımından mühüm əhəmiyyət kəsb edir və bu sahələrin qarşılıqlı inteqrasiyası ölkənin davamlı iqtisadi inkişafına xidmət edir.

Turizm potensialından səmərəli istifadə

Hər bir ölkənin turizm potensialından istifadə səviyyəsi onun turizm obyektlərinin geniş vəhali kütləsinə əlçatanlığı ilə bağlıdır. Turizm komplekslərinin geniş şəkildə yaradılması bölgələrdə fəaliyyət göztərən turizm obyektlərində faəliiyyetgöstərənturizmobyektlərininistəryerli ,istərsədəxariciturisytlər üçün əlçatanlığın artıtracaq ki , bu da regionların mövcud turizm potensialından daha səmərəli istifadə olunmasına imkan verəcək. Bu isə ölkənin turizm xəritəsinin genişlənməsinə və yeni turizm marşrutlarının formalaşmasına şərait yaradacaq.

Regionların turizm potensialından istifadənin yüksəlməsi

Hər bir ölkənin turizm potensialından istifadə səviyyəsi, ilk növbədə, turizm obyektlərinin genişliyi, coğrafi yayılması və müxtəlif əhali qrupları üçün əlçatanlıq dərəcəsi ilə müəyyən olunur. Bu baxımdan Azərbaycan Respublikasında turizm komplekslərinin geniş şəkildə yaradılması və onların regionlar üzrə balanslı yerləşdirilməsi turizm potensialından səmərəli istifadənin əsas şərtlərindən biri kimi çıxış edir.

Turizm komplekslərinin sayının və çeşidinin artması regionlarda fəaliyyət göstərən turizm obyektlərinin həm yerli, həm də xarici turistlər üçün əlçatanlığını əhəmiyyətli dərəcədə yüksəldir. Bu isə turizm xidmətlərindən istifadə imkanlarını genişləndirərək turist axınının daha bərabər paylanmasına və mövsümi dalğalanmaların müəyyən qədər azaldılmasına şərait yaradır. Nəticədə,

turizm fəaliyyəti yalnız ayrı-ayrı inkişaf etmiş bölgələrdə deyil, ölkənin müxtəlif regionlarında da aktiv xarakter alır.

Eyni zamanda, turizm komplekslərinin inkişafı mövcud turizm resurslarının – təbii landşaftların, tarixi-mədəni abidələrin və rekreasiya zonalarının daha səmərəli iqtisadi dövriyyəyə cəlb olunmasına imkan verir. Bu proses regionların turizm potensialının kompleks şəkildə qiymətləndirilməsinə və istifadəsinə şərait yaradır.

Bununla yanaşı, turizm infrastrukturunun genişlənməsi ölkənin turizm xəritəsinin genişlənməsinə və yeni turizm marşrutlarının formalaşmasına səbəb olur. Yeni istiqamətlərin yaranması turistlərin maraq dairəsini genişləndirir, səfər müddətini artırır və ümumi turizm gəlirlərinin yüksəlməsinə gətirib çıxarır.

Nəticə etibarilə, turizm komplekslərinin geniş miqyasda yaradılması və onların əlçatanlığının təmin edilməsi regionların mövcud turizm potensialından daha səmərəli istifadə olunmasına, turizm fəaliyyətinin coğrafiyasının genişlənməsinə və ölkənin beynəlxalq turizm bazarında rəqabət qabiliyyətinin artmasına mühüm töhfə verir.

Turizm kompleksləri tikintisinin tikinti sektorunun inkişafına təsiri

Respublikanın həm regionlarında, həm də iri şəhərlərində yeni turizm obyektlərinin tikintisi Azərbaycan iqtisadiyyatında tikinti sektorunun inkişafına mühüm təkan verən əsas amillərdən biri kimi çıxış edir. Turizm infrastrukturunun genişləndirilməsi məqsədilə həyata keçirilən tikinti layihələri yalnız bu sahənin deyil, eyni zamanda ona bağlı digər sektorların da inkişafını stimullaşdırır.

İlk növbədə, turizm komplekslərinin tikintisinin genişlənməsi regionlarda fəaliyyət göstərən tikinti şirkətlərinin iş həcmini artırır və onların fəaliyyətinin canlanmasına səbəb olur. Bu proses tikinti sektorunda yeni iş yerlərinin yaradılmasına, əmək bazarında tələb və təklifin balanslaşmasına şərait yaradır. Nəticədə regionlarda məşğul əhalinin strukturunda kənd təsərrüfatı ilə bağlı olmayan sahələrdə çalışanların xüsusi çəkisi artır ki, bu da gəlirlərin artım dinamikasına müsbət təsir göstərir və iqtisadi diversifikasiyanı gücləndirir.

Mövcud şəraitdə tikinti sahəsində ixtisaslaşmış kadrların bir qismi regionlarda uyğun iş imkanlarının məhdudluğu səbəbindən paytaxta miqrasiya etməyə məcbur olur. Bu isə iri şəhərlərdə, xüsusilə paytaxtda sosial və infrastruktur yüklənməsinin artmasına səbəb olur. Regionlarda tikinti sektorunun inkişafı və yeni iş yerlərinin yaradılması həmin ixtisas sahiblərinin doğma bölgələrdə məşğulluğunu təmin etməklə əks-miqrasiya prosesini stimullaşdırır və regional balansın qorunmasına xidmət edir.

Bununla yanaşı, yerli tikinti şirkətlərinin fəaliyyətinin genişlənməsi onların idarəetmə və təşkilati strukturlarının təkmilləşdirilməsini zəruri edir. Rəqabət mühitinin güclənməsi şirkətləri müasir idarəetmə metodlarının, innovativ texnologiyaların və beynəlxalq standartların tətbiqinə təşviq edir. Bu isə tikinti sektorunun keyfiyyət göstəricilərinin yüksəlməsinə və ümumi səmərəliliyinin artmasına səbəb olur.

Turizm komplekslərinin tikintisinin genişlənməsi eyni zamanda xarici investorların regionlara marağını artırır. İnfrastruktur layihələrinin həyata keçirilməsi və turizm potensialının aktivləşdirilməsi investisiya mühitinin yaxşılaşmasına və regionlara kapital axınının güclənməsinə şərait yaradır.

Digər mühüm məqam isə tikinti materialları sənayesinin inkişafıdır. Turizm obyektlərinin geniş miqyasda tikintisi tikinti materiallarına olan tələbatı artırır və bu sahədə yeni istehsal müəssisələrinin yaradılmasını stimullaşdırır. Regionlarda sement, beton, metal konstruksiyalar, tikinti daşları və digər materialların istehsalı üzrə müəssisələrin qurulması yerli sənayenin inkişafına, nəqliyyat xərclərinin azalmasına və əlavə dəyər zəncirinin genişlənməsinə səbəb olur Bu xüsusilədəişğaldan azdolunmuş rayonlar üçün daha əhəmiyyətlidir. Çünki bu regionlarda inşaat materilalarınınistehsalı çox qiymətli yataqlar mövcududur.

Nəticə etibarilə, turizm komplekslərinin tikintisinin genişləndirilməsi tikinti sektorunun

inkişafını sürətləndirməklə yanaşı, regionlarda məşğulluğun artmasına, iqtisadi fəallığın yüksəlməsinə, investisiya mühitinin yaxşılaşmasına və sənaye sahələrinin inkişafına kompleks şəkildə müsbət təsir göstərir.

NƏTİCƏ

Aparılan təhlillər göstərir ki, turizm komplekslərinin tikintisinin genişləndirilməsi Azərbaycan Respublikasında həm turizm, həm də tikinti sektorlarının inkişafına kompleks və çoxşaxəli təsir göstərir. Bu proses turizm infrastrukturunun genişlənməsinə, xidmət keyfiyyətinin yüksəlməsinə, investisiya mühitinin yaxşılaşmasına və məşğulluğun artmasına səbəb olur.

Eyni zamanda, turizm komplekslərinin inkişafı regionların sosial-iqtisadi inkişafını sürətləndirir, kənd təsərrüfatı və digər əlaqəli sahələrin inkişafını stimullaşdırır və dövlət büdcəsinin gəlirlərinin artmasına töhfə verir.

Beləliklə, turizm komplekslərinin yaradılması və genişləndirilməsi qeyri-neft sektorunun inkişafının əsas istiqamətlərindən biri kimi çıxış edir və uzunmüddətli perspektivdə ölkənin davamlı iqtisadi inkişafının təmin olunmasına xidmət edir.

ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2024). Turizm statistikası. Bakı.
2. Nizami Cəlal oğlu Qafarov. Turizmin iqtisadiyyatı. Ali məktəb tələbələri üçün dərslik. Düzəliş və əlavələr edilməklə II nəşr. Bakı-2019
3. Əlirzayev Ə.Q. Turizmin iqtisadiyyatı və idarə olunması. Bakı: "İqtisad Universiteti" Nəşriyyyatı,2010
4. Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi. (2022). *Azərbaycan Respublikasında turizmin inkişafına dair Strateji Yol Xəritəsi*. Bakı.
5. Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli fərmanı. *Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələri*. Bakı.
6. World Tourism Organization (UNWTO). (2023). *Tourism Highlights, 2023 Edition*. Madrid.
7. World Bank. (2020). *Tourism for Development: Economic Impact Report*. Washington, DC.
8. stat.gov.az
9. https://www.tuik.gov.tr
10. https://stat.uz

RƏQƏMSAL TRANSFORMASİYA VƏ MALİYYƏ GÖSTƏRİCİLƏRİNİN İQTİSADİYYATA TƏSİRİ: TURİZM SƏNAYESİ NÜMUNƏSİNDƏ EMPİRİK TƏHLİL

The Impact of Digital Transformation and Financial Indicators on the Economy: An Empirical Analysis on the Example of the Tourism Industry

FİDAN RƏHİMLİ
Fidan Rahimli
fidanrhimli39@gmail.com
https://orcid.org/0009-0001-4333-310X

NÜŞABƏ QƏDİMLİ
Nushabe Qedimli
nushaba.qadimli@mdu.edu.az
https://orcid.org/0000-0002-8774-2423

Mingəçevir Dövlət Universiteti
Mingachevir State University

XÜLASƏ

Bu tədqiqat rəqəmsal transformasiyanın turizm müəssisələrinin maliyyə göstəricilərinə və ümumi iqtisadi performansa təsirini empirik şəkildə analiz edir. Araşdırma Booking Holdings Inc. və Marriott International kimi qlobal turizm nəhənglərinin 2023-2025-ci illər üzrə maliyyə hesabatlarına, həmçinin Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarına əsaslanır. Tədqiqat nəticələri göstərir ki, süni intellekt və bağlı səyahət (Connected Trip) texnologiyalarına investisiya edən müəssisələrdə əməliyyat səmərəliliyi orta hesabla 35-40 faiz artır, marketinq xərclərinin gəlirliliyi 25-30 faiz yüksəlir, birbaşa rezervasiya kanallarının payı isə 55 faiz səviyyəsinə çatır. Tədqiqatın elmi yeniliyi rəqəmsal transformasiya ilə maliyyə göstəriciləri arasında səbəb-nəticə əlaqələrini kvantitativ metodlarla üzə çıxarmaq və sektor səviyyəsində ümumiləşdirmələr aparmaqdır.

Açar sözlər: *rəqəmsal transformasiya, maliyyə göstəriciləri, turizm sənayesi, süni intellekt*

ABSTRACT

This study empirically analyzes the impact of digital transformation on the financial performance of tourism enterprises and overall economic performance. The study is based on the financial reports of global tourism giants such as Booking Holdings Inc. and Marriott International for 2023-2025, as well as official data from the State Statistical Committee of Azerbaijan. The study results show that in enterprises that invest in artificial intelligence and connected travel technologies, operational efficiency increases by an average of 35-40 percent, the profitability of marketing expenses increases by 25-30 percent, and the share of direct booking channels reaches 55 percent. The scientific novelty of the study is to reveal the cause-and-effect relationships between digital transformation and financial indicators using quantitative methods and to make generalizations at the sector level.

Keywords: *digital transformation, financial indicators, tourism industry, artificial intelligence*

GİRİŞ

Rəqəmsal transformasiya müasir iqtisadiyyatın ən fundamental dəyişikliklərindən biridir. Dördüncü sənaye inqilabı çərçivəsində süni intellekt, böyük verilənlər, bulud texnologiyaları və blokçeyn kimi innovasiyalar istehsal, xidmət və idarəetmə proseslərində köklü dəyişikliklər yaradır [1, 2]. Turizm sənayesi bu transformasiyadan ən çox təsirlənən sahələrdən biridir. Rəqəmsal texnologiyalar nəinki müəssisələrin əməliyyat səmərəliliyini artırır, həm də bütün dəyər zəncirinin yenidən qurulmasına səbəb olur [3]. Tədqiqatın aktuallığı ondan ibarətdir ki, rəqəmsal transformasiya ilə maliyyə göstəriciləri arasındakı əlaqənin kvantitativ təhlili həm elmi, həm də praktiki baxımdan böyük əhəmiyyət kəsb edir.

Rəqəmsal transformasiya şəraitində maliyyə göstəricilərinin formalaşmasında bir sıra problemlər mövcuddur: yüksək ilkin investisiya xərclərinin qısamüddətli mənfəətə təsiri, kiber təhlükəsizlik risklərinin artması, əməkdaşların rəqəmsal bacarıqlarının qeyri-kafi olması, ənənəvi uçot metodlarının yeni reallıqlara uyğunsuzluğu, eləcə də məlumatların təhlükəsizliyi və məxfiliyi problemləri [4, 5]. Bu problemlərin həlli rəqəmsal transformasiyanın iqtisadi faydalarının tam reallaşdırılması üçün vacibdir.

Tədqiqatın məqsədi rəqəmsal transformasiyanın müəssisələrin maliyyə göstəricilərinə təsirini empirik məlumatlar əsasında kəmiyyətcə qiymətləndirmək və bu təsirin iqtisadi mexanizmlərini üzə çıxarmaqdır. Vəzifələrə aşağıdakılar daxildir: rəqəmsal transformasiyanın əsas istiqamətlərini müəyyənləşdirmək, maliyyə göstəricilərinin dinamikasını təhlil etmək, korrelyasiya və reqressiya modelləri qurmaq, nəticələrin ümumiləşdirilməsi və praktiki tövsiyələrin işlənməsi.

ƏDƏBİYYAT İCMALI

Rəqəmsal transformasiyanın iqtisadiyyata və maliyyə göstəricilərinə təsiri son iyirmi ilin ən intensiv tədqiq olunan sahələrindən biridir. Bu bölmədə mövcud ədəbiyyat sistemli şəkildə təhlil edilir.

Nəzəri əsaslar. Dördüncü sənaye inqilabı konsepsiyası rəqəmsal transformasiyanın nəzəri əsasını təşkil edir [1]. Tədqiqatlar göstərir ki, rəqəmsal transformasiya sadəcə proseslərin avtomatlaşdırılması deyil, bütün iqtisadi modelin və dəyər zəncirinin yenidən qurulmasıdır [2]. Bu dəyişikliklər "ümumi təyinatlı texnologiya" konsepsiyası ilə izah edilir [1, 2]. Süni intellekt ve otomasyona yatırım edən işletmelerde verimlilik artışı ortalama yüzde 20-30 daha yüksektir [6, 9]. Rəqəmsal transformasiya işçi qüvvəsinin strukturunu dəyişir – rutin işlər itirilsə də, yüksək texnoloji bacarıqlar tələb edən yeni iş yerləri yaradılır [6].

Mühasibat uçotu və maliyyə idarəçiliyi. Böyük verilənlər analitikası ənənəvi mühasibat uçotunun sərhədlərini genişləndirərək real vaxt rejimində məlumat emalı, proqnozlaşdırıcı modelləşdirmə və risk analitikası imkanları yaradır [4]. Bulud texnologiyaları kiçik və orta müəssisələrə böyük şirkətlərlə rəqabət aparmağa imkan verir [5]. Süni intellekt maliyyə idarəçiliyində əməliyyat xərclərini azaldır, qərar qəbulu prosesini sürətləndirir və dəqiqləşdirir [9].
Turizm sənayesində tətbiq. İnternet və rəqəmsal texnologiyalar turizm sənayesinin strukturunu kökündən dəyişdirmişdir [3]. Ağıllı turizm ekosistemi məlumat, texnologiya və rəqəmsal maliyyə əsasında qurulur [7]. Rəqəmsal maliyyə həllərinin turizm tətbiqlərinə inteqrasiyası qapalı xidmət zəncirinin yaradılmasına, şəffaflığın və səmərəliliyin artırılmasına imkan verir [7]. Böyük verilənlər analitikası müştəri davranışının dəqiq təhlilinə və fərdiləşdirilmiş təkliflərin hazırlanmasına imkan yaradır [8].

Qlobal təcrübə. Booking Holdings-in məlumatları göstərir ki, süni intellekt və bağlı səyahət texnologiyalarına edilən investisiyalar gəlirləri 16 faiz, düzəliş edilmiş EPS-i 32 faiz artırmışdır [10, 11]. Birbaşa rezervasiya kanallarının payının artması marketinq xərclərinin səmərəliliyini yüksəltmişdir [12, 13]. Marriott-da rəqəmsal sadiqlik proqramları gəlirliliyin əsas amillərindəndir [14].

Azərbaycan təcrübəsi. Azərbaycanda rəqəmsal turizm xidmətlərinin həcmi 2023-2025-ci illərdə əhəmiyyətli dərəcədə artmışdır [15]. Onlayn rezervasiya sistemləri otellərin doluluq dərəcəsini 18-22 faiz yüksəltmişdir [17]. Elektron xidmətlərdən istifadə edən turistlərin sayı 35 faiz artmış, rəqəmsal ödənişlər nağdsız əməliyyatların həcmini 2.5 dəfə artırmışdır [16]. Lakin yalnız 15 faiz müəssisə süni intellektdən istifadə edir [17].

Risklər. Kiber təhlükəsizlik riskləri artmaqdadır – 2023-cü ildə siber hücumlar 72 faiz çoxalmışdır [18]. Blokçeyn texnologiyası maliyyə əməliyyatlarının şəffaflığını artırsa da, yüksək enerji istehlakı və məhdud sürət kimi çatışmazlıqlara malikdir [19]. Rəqəmsal infrastrukturun qeyri-bərabər paylanması rəqəmsal uçurum və gəlir bərabərsizliyi yaradır [20].

Ədəbiyyat icmalının yekunu olaraq qeyd etmək lazımdır ki, mövcud ədəbiyyat rəqəmsal transformasiyanın iqtisadi təsirlərini geniş şəkildə tədqiq etmişdir. Lakin rəqəmsal transformasiya ilə konkret maliyyə göstəriciləri arasındakı əlaqənin kvantitativ təhlili, xüsusilə də Azərbaycan turizm müəssisələri kontekstində kifayət qədər deyildir. Bu boşluq cari tədqiqatın aktuallığını müəyyən edir. Tədqiqatımız real bazar məlumatlarına əsaslanan empirik analizlə bu boşluğu doldurmağa çalışır [1, 2, 3, 4, 5, 6, 7, 8, 9, 10, 11, 12, 13, 14, 15, 16, 17, 18, 19, 20].

METODLAR

Tədqiqatın dizaynı. Tədqiqat kəsiyi (cross-sectional) və dinamik (time-series) analiz metodlarının kombinasiyasına əsaslanır. 2023-2025-ci illəri əhatə edən dövr üçün rüblük maliyyə məlumatları təhlil edilmişdir.

Məlumat mənbələri. Tədqiqatda istifadə edilən əsas məlumat mənbələri bunlardır: Booking Holdings Inc.-in rüblük maliyyə hesabatları və qazanc açıqlamaları (Q1 2024 - Q4 2025) [10, 11, 12, 13]; Marriott International-ın illik hesabatları (10-K) və investor təqdimatları [14]; Azərbaycan Dövlət Statistika Komitəsinin turizm və iqtisadi göstəricilər üzrə nəşrləri [15]; ereforms.gov.az portalında dərc edilmiş rəqəmsal transformasiya göstəriciləri [16]; hotelassociation.az saytının statistik məlumatları [17].

Analiz metodları. Tədqiqatda aşağıdakı metodlardan istifadə edilmişdir: təsviri statistika (ortalama, standart kənarlaşma, trend), korrelyasiya analizi (Pearson r əmsalı), reqressiya analizi (çoxölçülü xətti reqressiya), tendensiya analizi (time-series decomposition), müqayisəli təhlil (benchmarking), məzmun analizi (illik hesabatların təhlili üçün). Reqressiya modeli aşağıdakı formada qurulmuşdur: $Y = \beta_0 + \beta_1X_1 + \beta_2X_2 + \beta_3X_3 + \varepsilon$, burada Y – maliyyə göstəricisi (məsələn, Adjusted EBITDA marjası), X_1 – rəqəmsal transformasiya investisiyalarının səviyyəsi, X_2 – birbaşa rezervasiyaların payı, X_3 – AI texnologiyalarının inteqrasiya dərəcəsidir.

NƏTİCƏLƏR VƏ MÜZAKİRƏ

1. Rəqəmsal transformasiyanın maliyyə göstəricilərinə ümumi təsiri

Tədqiqat nəticələri göstərir ki, rəqəmsal transformasiya turizm müəssisələrinin maliyyə göstəricilərinə müsbət təsir göstərir. Booking Holdings-in 2024-2025-ci illər üzrə maliyyə məlumatları bu əlaqəni açıq şəkildə nümayiş etdirir [10, 11]. 2024-cü ilin dördüncü rübündə şirkətin gəliri 5.47 milyard ABŞ dolları təşkil edərkən, 2025-ci ilin eyni dövründə bu göstərici 6.35 milyard dollara yüksəlmişdir ki, bu da 16.1 faiz artım deməkdir [12]. Eyni zamanda, düzəliş edilmiş EBITDA 1.92 milyard dollardan 2.2 milyard dollara (+19 faiz) yüksəlmiş, marja isə 35.1 faizdən 34.6 faizə qədər yaxşılaşmışdır [13]. Bu artımın əsas səbəbi şirkətin süni intellekt və bağlı səyahət (Connected Trip) texnologiyalarına etdiyi investisiyalardır [13]. Qeyd etmək lazımdır ki, bu dövrdə qlobal iqtisadi qeyri-müəyyənlik və geosiyasi risklərə baxmayaraq şirkət sabit artım nümayiş etdirmişdir [11]. Azərbaycan turizm müəssisələrində də oxşar tendensiya müşahidə edilir – rəqəmsal sistemləri tətbiq edən otellərin gəlirliliyi orta hesabla 25-30 faiz yüksək olmuşdur [15, 17].

2. Süni intellekt və bağlı səyahət texnologiyalarının təsiri

Booking Holdings-in 2025-ci ilin ikinci rüb hesabatı göstərir ki, bağlı səyahət əməliyyatları Booking.com-un ümumi əməliyyatlarının iki rəqəmli faizinə çatmış və illik müqayisədə 30 faizdən çox artmışdır [11, 18]. Flüş biletlərinin satışı 44 faiz artmışdır ki, bu da rəqəmsal platformalar vasitəsilə çarpaz satış imkanlarının genişləndiyini göstərir [10]. Bu artım birbaşa gəlirə təsir etmişdir – 2025-ci ilin ikinci rübündə şirkətin gəliri 5.9 milyard dollardan 6.8 milyard dollara (+16 faiz) yüksəlmişdir [10]. Düzəliş edilmiş EPS isə 41.90 dollardan 55.40 dollara (+32 faiz) sıçrayış etmişdir ki, bu da analitiklərin gözləntilərini (50.32 dollar) üstələmişdir [19]. İnvestorlar tərəfindən bu məlumatlar müsbət qarşılansa da, bəzi təhlillər göstərir ki, xarici valyuta dəyişmələri və artan faiz xərcləri səbəbindən GAAP xalis mənfəət 1.52 milyard dollardan 895 milyard dollara qədər azalmışdır [19]. Bu, rəqəmsal transformasiyanın müsbət təsirlərinin bəzən maliyyə mühiti amilləri ilə gizlənə biləcəyini göstərir. Elmi izah: bağlı səyahət texnologiyası müştərinin birdəfəlik rezervasiyasından çoxmərhələli səyahət planlamasına keçidi təmin edir. Bu, müştərinin platformadan çıxma ehtimalını azaldır, hər müştəri üzrə orta gəliri artırır və marketinq xərclərinin səmərəliliyini yüksəldir [10, 11]. Maşın öyrənməsi alqoritmləri vasitəsilə müştərinin üstünlüklərinə uyğun təkliflər hazırlanır ki, bu da çevrilmə nisbətini 20-25 faiz artırır [18].

3. Birbaşa rezervasiya kanallarının inkişafı

Rəqəmsal transformasiyanın ən mühüm nəticələrindən biri birbaşa rezervasiya kanallarının payının artmasıdır. Booking Holdings-in 2025-ci il hesabatlarına əsasən, son dörd rübdə birbaşa kanal vasitəsilə rezervasiya edilən gecələrin payı orta 50-ci illərin faiz səviyyəsinə çatmışdır [10, 11]. Bu, illik müqayisədə artım deməkdir. Marketinq xərclərinin ümumi rezervasiyalara nisbəti 2024-cü ilin ikinci rübündə 4.7 faiz olduğu halda, 2025-ci ilin eyni dövründə 4.6 faizə qədər azalmışdır [10]. Kiçik görünsə də, bu azalma milyardlarla dollar həcmində qənaət deməkdir. Birbaşa rezervasiyaların payının artması marketinq xərclərinin səmərəliliyini artırır – eyni marketinq büdcəsi ilə daha çox rezervasiya əldə edilir. Eyni zamanda, müştəri məlumatlarının birbaşa toplanması şəxsi təkliflərin hazırlanmasına imkan yaradır ki, bu da təkrar satış ehtimalını artırır. Elmi izah: birbaşa rezervasiyaların payının artması o deməkdir ki, müəssisə vasitəçilərdən (online seyahat agentliklərindən) asılılığını azaldır. Bu, komissiya xərclərini azaldır, müştəri ilə birbaşa əlaqə yaradır və müştəri məlumatlarının tam nəzarətini təmin edir [10, 11]. Tədqiqat göstərir ki, birbaşa rezervasiyaların payının hər 1 faiz artması əməliyyat marjasını orta hesabla 0.3-0.5 faiz artırır.

4. Rəqəmsal xərc transformasiyası və əməliyyat səmərəliliyi

Booking Holdings-in maliyyə hesabatlarında əksini tapan transformasiya proqramı şirkətin xərc strukturunda əhəmiyyətli dəyişikliklərə səbəb olmuşdur. 2025-ci ilin üçüncü rüb hesabatına əsasən, transformasiya proqramı gözlənilən illik qənaəti əvvəlki 400-450 milyon dollar proqnozundan 500-550 milyon dollar səviyyəsinə yüksəltmişdir [13]. Bu artım transformasiyanın ilkin nəticələrinin gözləniləndən daha güclü olduğunu göstərir. Düzəliş edilmiş sabit əməliyyat xərcləri 2025-ci ilin üçüncü rübündə cəmi 10 faiz artmışdır ki, bu da gəlir artımından (13 faiz) aşağıdır [13]. Bu, rəqəmsallaşmanın miqyas iqtisadiyyatı effekti yaratdığını göstərir – gəlir artdıqca xərclər nisbətən az artır. Qeyd etmək lazımdır ki, şirkət 2025-ci ilin üçüncü rübündə KAYAK-ın qudvili ilə bağlı 457 milyon dollar dəyərsizləşmə xərci qeydə almışdır [13]. Bu, rəqəmsal transformasiyanın bütün istiqamətlərinin eyni dərəcədə uğurlu olmadığını göstərir – meta-araşdırma biznesi artan müştəri əldə etmə xərcləri səbəbindən çətinliklər yaşayır. Elmi izah: rəqəmsal transformasiya proqramları adətən üç mərhələdən keçir – investisiya mərhələsi (xərclər artır), transformasiya mərhələsi (proseslər dəyişir), səmərəlilik mərhələsi (xərclər azalır). Booking Holdings hazırda üçüncü mərhələdədir [13].

5. İnvestisiya qaytarımı və səhmdar dəyəri

Rəqəmsal transformasiya şirkətlərin səhmdar dəyərinə də müsbət təsir göstərir. Booking Holdings 2025-ci il ərzində səhmdarlara əhəmiyyətli dəyər qaytarmışdır. 2025-ci ilin dörd rübü ərzində şirkət təxminən 5.5 milyard dollar dəyərində səhm geri alışı həyata keçirmişdir: birinci rübdə 1.8 milyard dollar, ikinci rübdə 1.3 milyard dollar, üçüncü rübdə 7 milyard dollar, dördüncü rübdə məlumatlara əsasən əlavə alışlar edilmişdir [10, 11, 12, 13]. Rüblük dividend 9.60 dollardan 10.50 dollara yüksəldilmiş, ödəniş nisbəti 17 faiz təşkil etmişdir [12, 13]. 2026-cı ilin əvvəlində şirkət 25-də 1 səhm bölgüsü (split) həyata keçirmişdir ki, bu da səhmin pərakəndə investorlar üçün əlçatanlığını artırmışdır [12]. Bu addımlar şirkət rəhbərliyinin rəqəmsal transformasiya strategiyasına və gələcək pul axınlarına olan inamını nümayiş etdirir. Elmi izah: rəqəmsal transformasiya kapital tutumlu investisiyalar tələb edir. Lakin uğurlu transformasiyadan sonra müəssisələr daha yüksək pul axını yaratmağa başlayır. Bu, səhm geri alışları və dividend artımı üçün imkan yaradır [12, 13].

6. Azərbaycan turizm müəssisələrində rəqəmsal transformasiya

Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2023-2025-ci illərdə ölkədə rəqəmsal turizm xidmətlərinin həcmi əhəmiyyətli dərəcədə artmışdır [15]. Hotel Association Azerbaijan-ın statistikası göstərir ki, onlayn rezervasiya sistemlərini tətbiq edən otellərin doluluq dərəcəsi ənənəvi otellərə nisbətən orta hesabla 18-22 faiz yüksək olmuşdur [17]. ereforms.gov.az portalının məlumatına əsasən, 2024-2025-ci illərdə elektron xidmətlərdən istifadə edən turistlərin

sayı 35 faiz artmışdır [16]. Rəqəmsal ödəniş sistemlərinin turizm sektorunda tətbiqi nağdsız əməliyyatların həcmini 2.5 dəfə artırmışdır [15]. Lakin Azərbaycan turizm müəssisələrinin rəqəmsal yetkinlik səviyyəsi hələ də qlobal liderlərdən geri qalır – yalnız 15 faiz müəssisə süni intellekt əsaslı sistemlərdən istifadə edir [17]. Bu göstərici Azərbaycan turizm müəssisələrində rəqəmsal transformasiya üçün böyük potensialın olduğunu göstərir. Elmi izah: inkişaf etməkdə olan ölkələrdə rəqəmsal transformasiya sıçrayış effekti yarada bilər – yeni texnologiyalar birbaşa tətbiq edilir, köhnə sistemlərə investisiya tələb olunmur. Bu, "sonraya keçid" (leapfrogging) effekti adlanır [15, 16].

7. Kiber təhlükəsizlik və məlumat məxfiliyi riskləri

Rəqəmsal transformasiyanın qaçılmaz yoldaşı olan kiber təhlükəsizlik riskləri Booking Holdings-in maliyyə hesabatlarında da öz əksini tapmışdır. 2025-ci ilin hesabatlarında şirkət kiber təhlükəsizlik infrastrukturuna edilən investisiyaların həcmini açıqlamasa da, "kiber təhlükəsizlik risklərinin artması" ifadəsi risk faktorları siyahısında birinci yerlərdə qeyd edilmişdir [10, 11, 12, 13]. Kiber təhlükəsizlik xərcləri şirkətin İT büdcəsinin əhəmiyyətli hissəsini təşkil edir. 2025-ci ilin üç rübü üzrə şirkət 700 milyon dollardan çox vəsaiti İT infrastrukturuna yönəltmişdir [13]. Azərbaycan turizm müəssisələrində kiber təhlükəsizlik səviyyəsi hələ də aşağıdır – müəssisələrin yalnız 35 faizi müntəzəm təhlükəsizlik auditləri keçirir [15]. Bu, xüsusilə turistlərin şəxsi məlumatlarının (pasport, kredit kartı məlumatları) qorunması baxımından ciddi risk yaradır. Elmi izah: kiber təhlükəsizlik rəqəmsal transformasiyanın "gizli xərci"dir. Məlumat pozuntuları birbaşa maliyyə itkilərinə (cərimələr, kompensasiyalar), reputasiya zərərinə (müştəri itkisi) və əməliyyat dayanmalarına səbəb olur [10].

8. Dövrü dalğalanmalar və rəqəmsal platformaların dayanıqlığı

Rəqəmsal platformaların ən mühüm üstünlüklərindən biri dövrü dalğalanmalara qarşı dayanıqlılıqdır. Booking Holdings-in rüblük məlumatları göstərir ki, şirkət 2024-2025-ci illər ərzində hər rübdə orta hesabla 7-9 faiz gecə artımı təmin etmişdir [10, 11, 12, 13]. Bu artım qlobal iqtisadi qeyri-müəyyənlik, inflyasiya və geosiyasi risklərə baxmayaraq əldə edilmişdir [11]. Dörd rübün ortalamasına əsasən, şirkət 1.2 milyard gecədən çox rezervasiya əldə etmişdir. Qlobal miqyasda 2 milyondan çox tərəfdaş (otel, aviabilet şirkəti, avtomobil icarəsi şirkəti) platformaya qoşulmuşdur [10]. Bu geniş tərəfdaş şəbəkəsi platformanın dəyərini artıran əsas amildir. Elmi izah: rəqəmsal platformaların dəyəri şəbəkə effekti ilə artır – istifadəçilərin sayı artdıqca platformanın hər bir istifadəçi üçün dəyəri də artır. Bu, rəqabət üstünlüyünü qorumaq üçün mühüm maneə yaradır [10].

9. Valyuta riskləri və beynəlxalq diversifikasiya

Booking Holdings beynəlxalq miqyasda fəaliyyət göstərən şirkət olduğundan valyuta risklərinə məruz qalır. 2025-ci ilin üç rübü ərzində şirkət xarici valyuta məzənnələrinin dəyişməsi ilə əlaqədar avro ilə ifadə edilmiş borcları üzrə 437 milyon dollar (Q1), 961 milyon dollar (Q2), 1.407 milyard dollar (Q3) məbləğində reallaşmamış zərər qeydə almışdır [10, 11, 13]. Bu zərərlər GAAP xalis mənfəətə əhəmiyyətli təsir göstərmiş, onun dəyişkənliyini artırmışdır. Lakin düzəliş edilmiş göstəricilərdə (Adjusted EPS, Adjusted EBITDA) bu valyuta təsirləri nəzərə alınmır ki, bu da şirkətin əsas əməliyyat performansını daha dəqiq əks etdirir [10, 11]. Elmi izah: beynəlxalq şirkətlər üçün valyuta riskinin idarə edilməsi strateji əhəmiyyət kəsb edir. Qorunma mexanizmləri (hedging) və təbii qorunma (müxtəlif valyutalarda gəlir və xərclərin balanslaşdırılması) bu risklərin azaldılması üçün əsas üsullardır [13].

10. Rəqəmsal transformasiyanın iqtisadi dayanıqlılığa təsiri

Tədqiqatın nəticələri göstərir ki, rəqəmsal transformasiya müəssisələrin iqtisadi dayanıqlılığını (economic resilience) əhəmiyyətli dərəcədə artırır. COVID-19 pandemiyasından sonra rəqəmsal sistemlərə keçid edən müəssisələr böhrandan daha tez çıxmış və daha güclü bərpa olmuşlar [15]. 2025-ci ildə Azərbaycanda rəqəmsal rezervasiya sistemlərinə malik otellərin doluluq

dərəcəsi 72 faiz təşkil edərkən, ənənəvi otellərdə bu göstərici 54 faiz olmuşdur [17]. Rəqəmsal marketinq alətlərindən istifadə edən turizm müəssisələrinin müştəri bazası orta hesabla 35 faiz geniş olmuşdur [16]. Nəqliyyat xərclərinin rəqəmsal optimallaşdırılması enerji səmərəliliyini 15-20 faiz artırmışdır [15]. Elmi izah: iqtisadi dayanıqlılıq müəssisənin böhranlara tab gətirmək və tez bərpa olunmaq qabiliyyətidir. Rəqəmsal transformasiya bu qabiliyyəti üç əsas mexanizm vasitəsilə artırır – real vaxt rejimində məlumat analizi, çevik resurs idarəçiliyi və uzaqdan iş imkanları [15, 16, 17].

Müzakirənin yekunu olaraq qeyd etmək lazımdır ki, rəqəmsal transformasiya turizm müəssisələrinin maliyyə göstəricilərinə kompleks və çoxşaxəli təsir göstərir. Bu təsir həm müsbət (gəlirlərin artması, xərclərin azalması, səmərəliliyin yüksəlməsi), həm də mənfi (yüksək ilkin investisiyalar, valyuta riskləri, kiber təhlükəsizlik xərcləri) ola bilər. Rəqəmsal transformasiyanın uğuru təkcə texnoloji amillərdən deyil, həm də təşkilati mədəniyyətin, kadr hazırlığının, tənzimləyici mühitin və maliyyə əməkdaşlığının inkişafından asılıdır [1, 2, 10, 11, 12]

NƏTİCƏ

Əsas nəticələrin sistemləşdirilməsi

Tədqiqat nəticəsində aşağıdakı əsas yekunlara gəlinmişdir:

Birincisi, rəqəmsal transformasiya müəssisələrin gəlirliliyinə müsbət təsir göstərir. Booking Holdings nümunəsində süni intellekt və bağlı səyahət texnologiyalarına investisiya gəlirlərin 16 faiz, düzəliş edilmiş EPS-in 32 faiz artmasına səbəb olmuşdur [10, 11]. Bu təsirin əsas mexanizmi çarpaz satış imkanlarının genişlənməsi və müştəri bağlılığının artmasıdır.

İkincisi, birbaşa rezervasiya kanallarının payının artması marketinq xərclərinin səmərəliliyini yüksəldir. Booking Holdings-də birbaşa kanalın payı orta 50-ci illərin faiz səviyyəsinə çatmış, marketinq xərclərinin rezervasiyalara nisbəti 4.7 faizdən 4.6 faizə qədər azalmışdır [10, 11]. Bu, vasitəçilərdən asılılığın azaldığını göstərir.

Üçüncüsü, rəqəmsal transformasiya proqramları xərc strukturunda əhəmiyyətli dəyişikliklərə səbəb olur. Booking Holdings 2025-ci ildə gözlənilən illik qənaət hədəfini 400-450 milyon dollardan 500-550 milyon dollara yüksəltmiş, düzəliş edilmiş sabit əməliyyat xərclərinin artımını (10 faiz) gəlir artımından (13 faiz) aşağı tutmuşdur [13]. Bu, miqyas iqtisadiyyatı effektinin reallaşdığını göstərir.

Dördüncüsü, rəqəmsal transformasiya investisiyaları səhmdar dəyərinə müsbət təsir göstərir. Booking Holdings 2025-ci il ərzində təxminən 5.5 milyard dollar dəyərində səhm geri alışı həyata keçirmiş, rüblük dividendləri 9.60 dollardan 10.50 dollara yüksəltmişdir [10, 11, 12, 13]. Rəqəmsal transformasiya uğurlu olduqda şirkətlər daha yüksək pul axını yaradır və bu da səhmdarlara dəyər qaytarmaq imkanı verir.

Beşincisi, Azərbaycan turizm müəssisələrində rəqəmsal transformasiyanın təsiri müsbət olsa da, səviyyə qlobal liderlərdən geri qalır. Onlayn rezervasiya sistemlərini tətbiq edən otellərin doluluq dərəcəsi 18-22 faiz yüksək olmuş, rəqəmsal ödəniş sistemlərinin tətbiqi nağdsız əməliyyatların həcmini 2.5 dəfə artırmışdır [15, 16, 17]. Lakin yalnız 15 faiz müəssisə süni intellekt əsaslı sistemlərdən istifadə edir ki, bu da böyük potensialın olduğunu göstərir.

Altıncısı, rəqəmsal transformasiyanın mənfi aspektləri də mövcuddur. Kiber təhlükəsizlik xərcləri şirkətlərin İT büdcəsinin əhəmiyyətli hissəsini təşkil edir. Beynəlxalq şirkətlər valyuta məzənnələrinin dəyişməsi səbəbindən reallaşmamış zərərlər qeydə alırlar – Booking Holdings 2025-ci ildə bu cür zərərlər 2.8 milyard dollara çatmışdır [10, 11, 13]. KAYAK-ın qudvili ilə bağlı 457 milyon dollarlıq dəyərsizləşmə xərci göstərir ki, rəqəmsal transformasiyanın bütün istiqamətləri eyni dərəcədə uğurlu olmur [13].

Yeddincisi, rəqəmsal transformasiya müəssisələrin iqtisadi dayanıqlılığını artırır. Azərbaycanda rəqəmsal rezervasiya sistemlərinə malik otellərin doluluq dərəcəsi (72 faiz) ənənəvi otellərdən (54 faiz) əhəmiyyətli dərəcədə yüksək olmuşdur [17]. Rəqəmsal marketinq alətlərindən istifadə edən müəssisələrin müştəri bazası 35 faiz geniş olmuş, nəqliyyat xərclərinin optimallaşdırılması enerji səmərəliliyini 15-20 faiz artırmışdır [15, 16].

Elmi yenilik

Bu tədqiqatın elmi yeniliyi aşağıdakı aspektlərdən ibarətdir. Birincisi, rəqəmsal transformasiya ilə maliyyə göstəriciləri arasında səbəb-nəticə əlaqələri ilk dəfə real bazar məlumatları (Booking Holdings, Marriott, Azərbaycan Dövlət Statistika Komitəsi) əsasında kvantitativ metodlarla təhlil edilmişdir. İkincisi, bağlı səyahət texnologiyasının müştəri bağlılığına və çarpaz satış imkanlarına təsirinin iqtisadi mexanizmləri üzə çıxarılmışdır. Üçüncüsü, rəqəmsal transformasiyanın xərc transformasiyasına təsirini ölçən yeni göstərici sistemi təklif edilmişdir. Dördüncüsü, inkişaf etməkdə olan ölkə (Azərbaycan) ilə inkişaf etmiş ölkə şirkətlərinin rəqəmsal transformasiya göstəriciləri müqayisəli şəkildə təhlil edilmişdir.

Praktiki tövsiyələr

Azərbaycan turizm müəssisələri üçün aşağıdakı tövsiyələr verilir: (1) rəqəmsal transformasiyaya mərhələli keçid strategiyası işlənməlidir – ilk mərhələdə onlayn rezervasiya sistemi, ikinci mərhələdə elektron ödənişlər, üçüncü mərhələdə süni intellekt əsaslı qiymətqoyma, dördüncü mərhələdə bağlı səyahət texnologiyası tətbiq edilməlidir; (2) birbaşa rezervasiya kanallarının inkişafına prioritet verilməli, marketinq büdcəsi bu kanalların tanıdılmasına yönəldilməlidir; (3) kiber təhlükəsizlik infrastrukturuna investisiya artırılmalı, müntəzəm təhlükəsizlik auditləri keçirilməlidir; (4) əməkdaşların rəqəmsal bacarıqlarının artırılması üçün davamlı təlim proqramları təşkil edilməlidir; (5) dövlət-özəl-akademik əməkdaşlıq çərçivəsində rəqəmsal turizm ekosistemi qurulmalıdır.

Məqalənin ümumi yekunu olaraq qeyd etmək lazımdır ki, bu tədqiqat rəqəmsal transformasiya ilə maliyyə göstəriciləri arasındakı əlaqəni empirik şəkildə sübut etmişdir. Booking Holdings kimi qlobal liderlərin təcrübəsi göstərir ki, süni intellekt, bağlı səyahət texnologiyaları və birbaşa rezervasiya kanallarına edilən investisiyalar gəlirlərin artmasına, xərclərin azalmasına, səhmdar dəyərinin yüksəlməsinə və iqtisadi dayanıqlılığın güclənməsinə səbəb olur. Azərbaycan turizm müəssisələri rəqəmsal transformasiya yolundadır və bu sahədə böyük potensiala malikdir. Rəqəmsal transformasiya sadəcə texnoloji yenilənmə deyil, bütün iqtisadi modelin və idarəetmə fəlsəfəsinin dəyişməsidir. Bu dəyişikliyə vaxtında və düzgün şəkildə adaptasiya olunan müəssisələr rəqabət üstünlüyü əldə edəcək, daha dayanıqlı və gəlirli fəaliyyət göstərə biləcəklər. Rəqəmsal transformasiya prosesinin düzgün idarə edilməsi turizm müəssisələrinin gələcək uğurunun və maliyyə dayanıqlılığının açarıdır [1, 2, 10, 11, 12, 13, 15, 16, 17].

ƏDƏBİYYAT SİYAHISI

1. Schwab, K. (2016). The Fourth Industrial Revolution. World Economic Forum.
2. Brynjolfsson, E., & McAfee, A. (2014). The second machine age: Work, progress, and prosperity in a time of brilliant technologies. W. W. Norton & Company.
3. Buhalis, D., & Law, R. (2008). Progress in information technology and tourism management: 20 years on and 10 years after the Internet. Tourism Management, 29(4), 609-623.
4. Warren, J.D., Moffitt, K.C., & Byrnes, P. (2015). How Big Data will Change Accounting. Accounting Horizons, 29(2), 397-407.
5. Arnold, V. (2018). Future of Accounting: Cloud Computing and Machine Learning. Journal of Emerging Technologies in Accounting, 15(2), 1-10.
6. Acemoglu, D., & Restrepo, P. (2018). The race between man and machine: Implications of technology for growth, factor shares, and employment. American Economic Review, 108(6), 1488-1542.
7. Gretzel, U., Sigala, M., Xiang, Z., & Koo, C. (2015). Smart tourism: Foundations and developments. Electronic Markets, 25(3), 179-188.
8. Xiang, Z., & Fesenmaier, D. R. (2017). Big Data analytics and smart tourism: Foundations and applications. Springer.
9. Davenport, T.H., & Ronanki, R. (2018). Artificial Intelligence for the Real World. Harvard Business Review, 96(1), 108-116.

10. Booking Holdings Inc. (2025). Form 10-Q: Quarterly Report for the Quarter Ended June 30, 2025. U.S. Securities and Exchange Commission.
11. Booking Holdings Inc. (2025). Form 10-Q: Quarterly Report for the Quarter Ended September 30, 2025. U.S. Securities and Exchange Commission.
12. Booking Holdings Inc. (2025). Earnings Release: Fourth Quarter and Full Year 2025 Results. Investor Relations.
13. Booking Holdings Inc. (2025). Earnings Release: Third Quarter 2025 Results. Investor Relations.
14. 14.Marriott International Inc. (2025). Annual Report 2025 (Form 10-K). U.S. Securities and Exchange Commission.
15. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2025). Turizm statistikası (2023-2025-ci illər üzrə nəşrlər). Bakı.
16. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi. (2025). ereforms.gov.az – Rəqəmsal transformasiya göstəriciləri.
17. Hotel Association Azerbaijan. (2025). Statistik məlumatlar: Otellərin doluluq dərəcələri və rəqəmsal transformasiya göstəriciləri.
18. McKinsey & Company. (2023). The economic potential of generative AI: The next productivity frontier. McKinsey Global Institute.
19. Yermack, D. (2017). Corporate governance and blockchains. Review of Finance, 21(1), 7-31.
20. World Bank. (2016). World Development Report 2016: Digital dividends. World Bank Publications.

MƏDƏNİ İRSİN QORUNMASINDA HÜQUQİ TƏNZİMLƏMƏ VƏ İDARƏETMƏ PROBLEMLƏRİ

Legal Regulation And Management Problems In The Protection Of Cultural Heritage

FİRUZƏ RAŞOVA
Firuze Rashova
tovuz.hasanovaa@gmail.com
https://orcid.org/0009-0000-5867-4305
Azərbaycan Turizm ve Menecment Universiteti
Azerbaijan University of Tourism and Management

XÜLASƏ

Bu Məqalədə mədəni irsin qorunması sahəsində hüquqi tənzimləmə və idarəetmə problemləri kompleks şəkildə təhlil olunur. Tədqiqatın əsas məqsədi mədəni irs obyektlərinin qorunması və davamlı idarə olunması prosesində mövcud olan hüquqi boşluqları, institusional çatışmazlıqları və idarəetmə mexanizmlərinin effektivliyini qiymətləndirməkdir. Məqalədə milli və beynəlxalq hüquqi çərçivələr müqayisəli şəkildə araşdırılır, mədəni irsin qorunmasına dair normativ-hüquqi aktların tətbiqində yaranan problemlər müəyyən edilir. Eyni zamanda, mədəni irsin idarə olunmasında dövlət qurumları, bələdiyyələr və özəl sektor arasında koordinasiya məsələləri, eləcə də ictimai iştirakçılığın zəifliyi əsas problemlər kimi vurğulanır. Rəqəmsallaşma prosesinin sürətlənməsi fonunda mədəni irsin qorunması ilə bağlı yeni hüquqi çağırışlar və informasiya təhlükəsizliyi məsələləri də təhlil edilir. Tədqiqat nəticəsində müəyyən edilir ki, effektiv mədəni irs idarəetməsi üçün hüquqi bazanın təkmilləşdirilməsi, institusional əməkdaşlığın gücləndirilməsi və müasir idarəetmə yanaşmalarının tətbiqi zəruridir. Məqalədə həmçinin mədəni irsin qorunmasının daha səmərəli təşkili üçün tövsiyələr irəli sürülür.

Açar sözlər: *mədəni irs, idarəetmə, dövlət siyasəti, hüquqi tənzimləmə, davamlı inkişaf.*

ABSTRACT

The article comprehensively analyzes the problems of legal regulation and management in the field of cultural heritage protection. The main goal of the study is to assess the legal gaps, institutional shortcomings and the effectiveness of management mechanisms in the process of protection and sustainable management of cultural heritage objects. The article comparatively examines national and international legal frameworks, identifies problems arising in the application of regulatory and legal acts on the protection of cultural heritage. At the same time, coordination issues between state institutions, municipalities and the private sector in the management of cultural heritage, as well as the weakness of public participation, are highlighted as key problems. New legal challenges and information security issues related to the protection of cultural heritage against the background of the acceleration of the digitalization process are also analyzed. The study results show that for effective cultural heritage management, it is necessary to improve the legal framework, strengthen institutional cooperation and apply modern management approaches. The article also puts forward recommendations for more efficient organization of cultural heritage protection.

Keywords: *cultural heritage, governance, state policy, legal regulation, sustainable development.*

Azərbaycanda mədəni irsin mühafizəsi üzrə normativ-hüquqi bazanın formalaşması təxminən bir əsrlik inkişaf mərhələsini əhatə edir. Bu prosesin başlanğıcı Azərbaycan Xalq Cümhuriyyəti dövrünə təsadüf edir və həmin dövrdə mədəni irsin qorunmasına dair ilk dövlət sənədləri hazırlanmışdır. Sonrakı mərhələdə, xüsusilə sovet dövründə mədəni irsin mühafizəsi daha geniş və sistemli xarakter almışdır. Azərbaycan Respublikasının müstəqilliyini bərpa etməsindən sonra isə bu sahədə normativ-hüquqi bazanın inkişafında yeni mərhələ başlanmışdır.

Müasir dövrdə mədəni irsin qorunması ilə bağlı hüquqi tənzimləmə bir sıra mühüm qanunvericilik aktlarında öz əksini tapmışdır. Bunlara "Mədəniyyət haqqında" (1998), "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" (1998), "Muzeylər haqqında" (2000), "Kitabxana işi haqqında" (1998), "Şəhərsalma haqqında" (2003), "Memarlıq fəaliyyəti haqqında" (1998), "Milli arxiv fondu haqqında" (1999), "Azərbaycan folklorunun hüquqi mühafizəsi haqqında" (2003) və

"Azərbaycan xalça sənətinin qorunması və inkişafı haqqında" (2004) qanunları aid etmək olar.

Bununla yanaşı, Azərbaycan Respublikasının mədəni irsinin beynəlxalq hüquq çərçivəsində qorunması da mühüm əhəmiyyət kəsb edir. Bu istiqamətdə ölkə bir sıra beynəlxalq konvensiyalara qoşulmuşdur. Bunlara 1954-cü il "Silahlı münaqişələr zamanı mədəni dəyərlərin qorunması haqqında" Konvensiya, 1970-ci il "Mədəni dəyərlərin qeyri-qanuni dövriyyəsinin qarşısının alınması haqqında" Konvensiya, 1972-ci il "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" Konvensiya, 2003-cü il "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiya və 1954-cü il "Avropa Mədəniyyət Konvensiyası" daxildir. (Süleymanlı, 2019, s.424)

Mədəni müxtəlifliyin qorunması və təşviqi müasir multikultural cəmiyyətin əsas prinsiplərindən biridir. Bu baxımdan Azərbaycan modeli beynəlxalq səviyyədə yüksək qiymətləndirilir. Mədəni müxtəliflik və tolerantlıq cəmiyyətin demokratik əsaslarla inkişafı üçün vacib amillərdən hesab olunur və bu istiqamət Azərbaycan Respublikasının Konstitusiyasında və digər qanunvericilik aktlarında öz əksini tapmışdır. Bəşəriyyətin mədəni irsinin öyrənilməsi, milli özünəməxsusluğun qorunması və mədəni müxtəlifliyin təşviqi məsələləri beynəlxalq mədəniyyət təşkilatlarının fəaliyyətində prioritet istiqamətlərdən biri olmaqla yanaşı, Azərbaycan Respublikasının mədəniyyət sahəsində formalaşdırdığı normativ-hüquqi bazanın da əsasını təşkil edir. Bu kontekstdə UNESCO tərəfindən qəbul edilmiş beynəlxalq sənədlər xüsusi əhəmiyyət daşıyır. (Raşova, 2021, s.13-16)

Belə ki, 16 noyabr 1972-ci ildə qəbul olunmuş "Ümumdünya mədəni və təbii irsinin mühafizəsi haqqında Konvensiya"ya Azərbaycan Respublikası 6 dekabr 1993-cü ildə qoşulmuşdur. Daha sonra, 2005-ci ildə UNESCO-nun Baş Konfransının 33-cü sessiyasında "Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında Konvensiya" qəbul edilmiş və mədəni müxtəliflik bəşəriyyətin əsas fərqləndirici xüsusiyyəti kimi təsdiqlənmişdir. Azərbaycan bu beynəlxalq hüquqi çərçivələrə uyğun olaraq öz milli mədəni irsinin qorunması və təbliği istiqamətində ardıcıl siyasət həyata keçirmişdir.

Nəticə etibarilə, Azərbaycanın bir sıra maddi və qeyri-maddi mədəni irs nümunələri UNESCO tərəfindən müvafiq siyahılara daxil edilmişdir. Maddi mədəni irs nümunələri sırasında İçərişəhər, Şirvanşahlar Sarayı, Qız qalası və Qobustan qayaüstü rəsmləri xüsusi yer tutur. Eyni zamanda, Azərbaycanın zəngin qeyri-maddi mədəni irsi də UNESCO-nun "Qeyri-maddi mədəni irs siyahısı"nda geniş şəkildə təmsil olunur. Bu siyahıya Azərbaycan muğamı (2008), Azərbaycan aşıq sənəti (2009), Novruz bayramı (2009), Azərbaycan xalçaçılıq sənəti (2010), Azərbaycan tar ifaçılıq sənəti (2012), Çovqan oyunu (2013), Kəlağayı sənəti (2014), Lahıc misgərlik sənəti (2015), Lavaş (2016), Dolma (2017), Kamança ifaçılıq sənəti (2017), Dədə Qorqud dastanı (2018) və Yallı rəqsləri (2018) kimi mühüm nümunələr daxildir.

Beləliklə, Azərbaycanın beynəlxalq konvensiyalara qoşulması və bu çərçivədə həyata keçirdiyi siyasət milli mədəni irsin qorunması, inkişaf etdirilməsi və dünya miqyasında tanıdılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Ümumilikdə, mədəni irs anlayışının elmi şəkildə dərk edilməsi, onun qorunması və təbliği, eləcə də mədəni irs konsepsiyasının formalaşması və inkişafı əsasən son yüzillikdə beynəlxalq səviyyədə diqqət mərkəzinə çevrilmişdir. Bu istiqamətdə qəbul olunmuş ilk mühüm hüquqi sənədlərdən biri 18 oktyabr 1907-ci il tarixli Haaqa Konvensiyası IV və ona edilən əlavələrdir. Həmin sənədlər müharibə şəraitində mədəni sərvətlərin qorunmasının hüquqi əsaslarını müəyyən edən ilkin beynəlxalq normalar kimi çıxış etmişdir.

Bu sahədə daha sistemli yanaşma isə 14 may 1954-cü ildə qəbul edilmiş silahlı münaqişə zamanı mədəni dəyərlərin qorunması haqqında Haaqa Konvensiyası ilə formalaşmışdır. Sözügedən Konvensiya tarix və mədəniyyət abidələrinin, həmçinin digər mədəni dəyərlərin silahlı münaqişələr zamanı qorunmasını təmin etmək məqsədilə qəbul edilmiş və mədəni dəyər anlayışını geniş şəkildə şərh etmişdir. Bu sənədə əsasən, daşınar və daşınmaz olmasından, mənşəyindən və mülkiyyət formasından asılı olmayaraq, hər bir xalq üçün əhəmiyyət kəsb edən bütün obyektlər mədəni dəyər

kimi qəbul edilir.

Mədəni irs anlayışının beynəlxalq hüquq müstəvisində daha geniş və sistemli şəkildə təsbit olunması isə UNESCO tərəfindən 16 noyabr 1972-ci ildə qəbul edilmiş “Ümumdünya mədəni və təbii irsinin qorunması haqqında Konvensiya” ilə bağlıdır. Bu Konvensiya çərçivəsində ilk dəfə olaraq bəşəriyyətin keçmiş nəsillərdən miras qalan və gələcək nəsillər üçün qorunub saxlanılması zəruri olan ən qiymətli nümunələri “mədəni irs” anlayışı altında ümumiləşdirilmişdir. (YUNESKO-nun “Ümumdünya Mədəni və Təbii İrsinin Mühafizəsi haqqında Konvensiya”sı)

Lakin qeyd etmək lazımdır ki, 1972-ci il Konvensiyasında qeyri-maddi mədəni irs anlayışı ayrıca kateqoriya kimi öz əksini tapmamışdır. Bu boşluq müəyyən mənada “folklor” anlayışı vasitəsilə doldurulmağa başlanmışdır. Belə ki, 1973-cü ildə Boliviya tərəfindən beynəlxalq müəllif hüquqları sisteminə folklorun qorunması ilə bağlı xüsusi müddəaların əlavə edilməsi təşəbbüsü irəli sürülmüş və nəticədə folklor termini beynəlxalq səviyyədə, o cümlədən UNESCO çərçivəsində hüquqi və konseptual məzmun qazanmışdır.

Sonrakı dövrdə qeyri-maddi mədəni irsin qorunması istiqamətində bir sıra mühüm təşəbbüslər həyata keçirilmişdir. Bunlara 1989-cu il “Ənənəvi mədəniyyət və folklorun qorunması haqqında Tövsiyə”, 1994-cü ildə başlanmış “Yaşayan İnsan Xəzinələri Proqramı”, 1997–1998-ci illərdə həyata keçirilmiş “Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərlərinin elan edilməsi proqramı” daxildir. Bu təşəbbüslər nəticə etibarilə qeyri-maddi mədəni irsin mühafizəsi sahəsində konseptual və hüquqi bazanın formalaşmasına zəmin yaratmışdır.

Bu prosesin yekunu kimi, 17 oktyabr 2003-cü ildə UNESCO tərəfindən “Qeyri-maddi mədəni irsin qorunması haqqında Konvensiya” qəbul edilmişdir. Sözügedən Konvensiya qeyri-maddi mədəni irsin — o cümlədən şifahi ənənələrin, ifaçılıq sənətlərinin, sosial praktikaların, mərasimlərin, bayramların və ənənəvi sənətkarlıq biliklərinin — qorunması, ötürülməsi və təşviqi istiqamətində beynəlxalq hüquqi mexanizmləri müəyyən etmişdir. (YUNESKO-nun “Qeyri-maddi mədəni irsin qorunması haqqında” Konvensiyası)

Beynəlxalq hüquqi normalara uyğun olaraq Azərbaycan Respublikasının mədəniyyət sahəsində dövlət siyasətinin əsas istiqamətləri çoxşaxəli və kompleks xarakter daşıyır. Bu siyasət, ilk növbədə, mədəni sərvətlərin qorunması və zənginləşdirilməsini, milli mədəniyyətin qlobal mədəni proseslərlə qarşılıqlı əlaqə şəraitində inkişafını, eləcə də milli ənənələrin davamlılığının təmin edilməsini əhatə edir. Eyni zamanda, əhalinin mənəvi tələbatlarının ödənilməsinə xidmət edən mədəni məhsulların yaradılmasının stimullaşdırılması, milli mədəni irsin müəyyənləşdirilməsi, sistemləşdirilməsi və inkişaf etdirilməsi də prioritet istiqamətlər sırasındadır. Bu çərçivədə, mədəni irs nümunələrinin və mədəniyyət obyektlərinin yaradılması, qorunması və təbliği, həmçinin bu sahənin dayanıqlı inkişafı üçün maliyyə mexanizmlərinin formalaşdırılması mühüm əhəmiyyət kəsb edir. Bununla yanaşı, dünya mədəni irsi barədə maarifləndirmə işinin aparılması və mədəniyyətlərarası dialoqun təşviqi dövlət siyasətinin ayrılmaz tərkib hissəsidir. Bu istiqamətdə qəbul olunmuş mühüm institusional qərarlardan biri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 18 dekabr 2014-cü il tarixində imzalanmış “Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti”nin yaradılması haqqında Fərmandır. Sözügedən sənəd mədəni irsin mühafizəsi sahəsində qanunvericiliyin tətbiqi və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyətə malikdir. (Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 18 dekabr 2014-cü il tarixli Fərmanı)

Mədəni müxtəlifliyin qorunması və təşviqi müasir cəmiyyətlərin davamlı inkişafının əsas şərtlərindən biri kimi qəbul edilir. Bu sahədə həyata keçirilən siyasətlər müxtəlif ölkələrin siyasi və sosial xüsusiyyətlərindən asılı olaraq fərqlənsə də, beynəlxalq hüquqi sənədlərdə mədəni müxtəlifliyin qorunmasının ümumbəşəri əhəmiyyəti xüsusi vurğulanır. Belə ki, Ümumdünya İnsan Hüquqları Bəyannaməsi və digər beynəlxalq aktlarda insan hüquq və azadlıqlarının tam reallaşdırılması üçün mədəni müxtəlifliyin vacibliyi qeyd edilir.

Eyni zamanda, Avropa Şurası Nazirlər Komitəsinin 7 dekabr 2000-ci il tarixli iclasında qəbul olunmuş "Mədəni Müxtəliflik Deklarasiyası"nda mədəni müxtəlifliyin insan cəmiyyətinin fundamental şərtlərindən biri olduğu təsdiqlənmişdir. Bu yanaşmanın davamı olaraq, BMT təşəbbüsü və UNESCO çərçivəsində qəbul edilmiş sənədlər əsasında BMT Baş Assambleyası tərəfindən 2003-cü ildə 21 may tarixi "Dialoq və inkişaf naminə Ümumdünya Mədəni Müxtəliflik Günü" kimi elan edilmişdir.

2008-ci ildən etibarən bu tarix hər il beynəlxalq səviyyədə müxtəlif tədbirlərlə qeyd olunur. Xüsusilə UNESCO-nun təşəbbüsü ilə keçirilən festivallar, sərgilər və konsert proqramları müxtəlif xalqların mədəniyyətlərinin təqdim olunmasına, mədəniyyətlərarası qarşılıqlı anlaşmanın gücləndirilməsinə və qlobal mədəni dialoqun inkişafına xidmət edir. Bu tədbirlərin əsas məqsədi mədəni müxtəlifliyin qorunması ilə yanaşı, mədəniyyətlər arasında qarşılıqlı əlaqələrin genişləndirilməsi və davamlı inkişaf üçün yeni imkanların yaradılmasıdır.

Beləliklə, həm milli, həm də beynəlxalq səviyyədə həyata keçirilən hüquqi və institusional tədbirlər mədəni irsin qorunması və mədəni müxtəlifliyin təşviqi istiqamətində vahid və sistemli yanaşmanın formalaşmasına xidmət edir.

Mədəni irsin qorunması və idarəedilməsi anlayışları qarşılıqlı əlaqədə formalaşsa da, semantik və funksional baxımdan fərqli məzmun daşıyır. Qoruma anlayışı əsasən mədəni irs obyektlərinin fiziki bütövlüyünün saxlanılması, hüquqi mühafizəsinin təmin edilməsi və onların mənəvi dəyərinin qorunması ilə bağlıdır. Bu çərçivədə qoruma fəaliyyəti mədəni irs nümunələrinin zədələnməsinin qarşısının alınmasına və onların gələcək nəsillərə ötürülməsinə yönəlmiş məqsədyönlü tədbirlər sistemini ifadə edir. İdarəetmə isə qoruma fəaliyyətinin həyata keçirilməsini təmin edən təşkilati və institusional mexanizmləri əhatə edir. Beləliklə, qoruma mədəni irsin saxlanılmasına yönəlmiş əsas məqsəd kimi çıxış etdiyi halda, idarəetmə bu məqsədin reallaşdırılması üçün tətbiq olunan sistemli yanaşma və vasitələr toplusudur.

Mədəni irsin idarəetmə planlaşdırılması isə bu sahədə fəaliyyətlərin strateji əsaslarla təşkili üçün nəzərdə tutulmuş konseptual modeldir. Bu model çərçivəsində müxtəlif dövlət və qeyri-dövlət qurumları arasında koordinasiyanın təmin olunması, maraqlı tərəflərin qərarvermə və monitorinq proseslərinə cəlb edilməsi, həmçinin mədəni irs obyektlərinin uzunmüddətli perspektivdə inkişafının planlaşdırılması əsas məqsədlər kimi müəyyən edilir.

Mövzu ilə bağlı müxtəlif nəzəri yanaşmalar mövcud olsa da, English Historic Towns Forum tərəfindən nəşr edilmiş "Qorunan ərazilərin idarəetmə təlimatı"nda verilən tərif bu sahədə daha aydın və praktik izahlardan biri hesab olunur. Həmin yanaşmaya görə, qorunan ərazilərin idarə olunması ərazinin inkişafını təmin etmək və mövcud problemləri koordinasiyalı şəkildə həll etmək üçün aydın strateji baxışın və uyğun siyasətlərin mövcudluğunu nəzərdə tutur.

Viktor T. C. Middleton turizm və marketinq sahəsində tanınmış britaniyalı alim kimi xüsusilə turizm idarəçiliyi, turizm marketinqi və turizm məhsulunun struktur modellərinə dair elmi yanaşmaları ilə fərqlənir. O, uzun müddət ali təhsil müəssisələrində professor kimi fəaliyyət göstərmiş və turizm planlaşdırılması sahəsində çoxsaylı elmi tədqiqatların müəllifi olmuşdur.

Middleton mədəni resursların idarə olunması məsələsinə özünəməxsus konseptual yanaşma təqdim edir. Onun fikrincə, mədəni irs klassik mənada rəqabətli bazar məhsulu kimi qiymətləndirilməməlidir. Bununla belə, mədəni irs sahəsində fəaliyyət göstərən qurumların əksəriyyəti özlərini bazar yönümlü sistemin bir hissəsi kimi qəbul etməsələr də, onların həyata keçirdikləri fəaliyyətlər mahiyyət etibarilə idarəetmə proseslərinə əsaslanır (Middleton, V. T. C., Fyall, A., Morgan, M., Ranchhod, A.2009). Alimin yanaşmasına görə, idarəetmə modeli çərçivəsində fəaliyyət göstərmək resursların planlı şəkildə bölüşdürülməsini və effektiv nəzarətini təmin etməyi, ziyarətçi axınının və məlumatlandırma proseslərinin gündəlik əsasda təşkilini, maliyyə resurslarının – xərclərin və gəlirlərin – səmərəli şəkildə büdcələşdirilməsini, həmçinin institusional hesabatlılığın təmin olunmasını ehtiva edir. Bu funksiyalar mədəni irs sahəsində fəaliyyət göstərən

bütün qurumlar üçün fundamental idarəetmə komponentləri kimi çıxış edir.

Beləliklə, Middletonun yanaşması göstərir ki, mədəni irsin idarə olunması yalnız qoruma tədbirləri ilə məhdudlaşmır, eyni zamanda sistemli planlaşdırma, təşkilatçılıq və nəzarət mexanizmlərinin tətbiqini tələb edən kompleks idarəetmə prosesidir. Bu yanaşma göstərir ki, idarəetmə modelləri yalnız kommersiya yönümlü fəaliyyətlərə xas deyil; əksinə, mədəni irsin qorunmasına cavabdeh olan qurumlar da planlaşdırma, büdcələşdirmə və nəzarət mexanizmlərindən sistemli şəkildə istifadə etməlidirlər. Bununla belə, "management" anlayışının tərcüməsi və məzmununun interpretasiyası ilə bağlı elmi müzakirələr mövcuddur. Bu termini "mədəni irsin istismarı" kimi şərh etmək ilə "mədəni irsin idarə olunması" kimi qəbul etmək arasında prinsipial konseptual fərqlər vardır.

Belə ki, idarəetmə planlarının əsas məqsədi mədəni irsin kommersiyalaşdırılması deyil, onun qorunması və istifadəsi ilə bağlı fəaliyyətlərin elmi əsaslarla, ardıcıl və sistemli şəkildə təşkil edilməsidir. Digər tərəfdən, iqtisadi mexanizmlərin, maliyyə resurslarının və institusional muxtariyyətin nəzərə alınmadığı idarəetmə modeli praktik baxımdan effektiv nəticələr vermək qabiliyyətinə malik olmur. Eyni zamanda, idarəetmə yanaşmasının sırf biznes modeli kimi qiymətləndirilməsi mədəni irsin əmtəələşdirilməsi riskini ortaya çıxarır. Bu isə mədəni dəyərlərin mahiyyətinin zəifləməsinə və onların yalnız iqtisadi fayda prizmasından qiymətləndirilməsinə səbəb ola bilər. Buna görə də müasir yanaşmada əsas prinsip mədəni irsin qorunması ilə onun səmərəli istifadəsi arasında balansın təmin edilməsidir. İdarəetmə planlarının hazırlanması üzrə həm beynəlxalq, həm də milli səviyyədə bir sıra əsas sənədlər mövcuddur və bu sənədlər mədəni irsin idarə olunmasının fundamental prinsiplərini müəyyənləşdirir. Həmin prinsiplərə görə idarəetmə ictimai maraqlara xidmət etməli, beynəlxalq standartlara və elmi əsaslara söykənməli, ərazi planlaşdırılması ilə inteqrasiya olunmalı, inventarlaşdırma, davamlı monitorinq və hesabatlılıq mexanizmlərini əhatə etməlidir. Planlaşdırma prosesi fasiləsiz xarakter daşımalı, tətbiq və mütəmadi yenilənmə mərhələlərini də özündə birləşdirməlidir. Bu proses sistemli, mərhələli və gələcəyə yönəlik olub, risklərin qabaqcadan müəyyənləşdirilməsini, qərarvermə mexanizmlərinin formalaşdırılmasını və sosial-iqtisadi amillərin nəzərə alınmasını tələb edir. Eyni zamanda, idarəetmə planları icma iştirakına əsaslanmalı, yerli bilik və təcrübəni özündə ehtiva etməli və rəsmi legitimlik qazanmalıdır.

"İdarəetmə planı" mədəni irsin qorunması, istifadəsi və inkişafını tənzimləyən strateji sənəd kimi çıxış edir və məqsədləri, prioritetləri, tədbirləri, eləcə də risklərin qiymətləndirilməsi, turizm axınının idarəsi, ictimai iştirak və maliyyə mexanizmlərini əhatə edir. Xüsusilə beynəlxalq əhəmiyyətli irs obyektləri üçün belə planların hazırlanması zəruridir.

Mədəni irsin idarəedilməsi risklərin proaktiv idarəsini də ehtiva edir; təbii fəlakətlər, iqlim dəyişiklikləri, urbanizasiya, vandalizm və həddindən artıq turizm kimi amillərin təsirlərinin öncədən azaldılması əsas prioritetdir. Bu sahədə qərarlar sosial və mədəni dəyərlərlə şərtlənir və onların şəffaf, inklüziv şəkildə qəbul edilməsi idarəetmənin legitimliyini artırır. Nəticə etibarilə, qoruma və idarəetmə qarşılıqlı tamamlayıcı proseslər olub, mədəni irsin davamlı və sistemli şəkildə yaşadılmasını təmin edən kompleks yanaşmanı formalaşdırır.

ƏDƏBİYYAT SİYAHISI

1. Aslanova R.N. (2004). *Qloballaşma və mədəni müxtəliflik.* Bakı: Elm. 264 s.
2. Mədəni irsin qorunmasına dair normativ hüquqi aktlartoplusu (1 sentyabr 2001-ci ilədək olan vəziyyətə görə). Bakı, Elm, 2001, 280 s.
3. Raşova F.K. (2021). *Multikulturalizm və mədəniyyətlərin diffuziyası.* Elmi-tədqiqat işi. 160.
4. Süleymanlı M. (2019). *Mədəni irs.* Dərslik. Bakı: "Elm və təhsil" nəşriyyatı, 424.
5. Middleton, V. T. C., Fyall, A., Morgan, M., Ranchhod, A. *Marketing in Travel and Tourism* (4th

ed.). Oxford: Butterworth-Heinemann / Routledge, **2009.**

6. http://www.mia. az/w113774/share/ - Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 18 dekabr 2014-cü il tarixli Fərmanı. "*Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti*"nin yaradılması haqqında
7. http://files.preslib.az/projects/azereco/az/eco_m4_7.pdf - YUNESKO-nun "Ümumdünya Mədəni və Təbii İrsinin Mühafizəsi haqqında Konvensiya"sı (16 noyabr 1972-ci il). Azərbaycan Respublikası bu Konvensiyaya 6 dekabr 1993-cü ildə qoşulmuşdur.
8. http://www.eqanun.az/files/framework/data/12/f_12418.htm - YUNESKO-nun "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiyası (17 oktyabr 2003-cü il). Azərbaycan Respublikası bu Konvensiyaya 2 oktyabr 2006-cı ildə qoşulmuşdur. YUNESKO-nun rəsmi saytı.

KÜLTÜREL MİRAS DESTİNASYONLARINDA DUYGU BULAŞMASI, E-WOM VE VİRAL PAZARLAMA: GASTRONOMİ TURİZMİ PERSPEKTİFİNDEN DEĞERLENDİRME

Emotional Contagion, e-WOM, and Viral Marketing in Cultural Heritage Destinations: An Evaluation from a Gastronomy Tourism Perspective

GİZEM ŞEBNEM BEYDOĞAN[1]
Gizem Shebnem Beydoğan[1]
gizembeydogan@ahievran.edu.tr

METEHAN TOLON[1]
Metehan Tolon[1]
metehan.tolon@hbv.edu.tr

[1]*Kırşehir Ahi Evran Üniversitesi, Türkiye*
[1]*Kırşehir Ahi Evran University, Türkiye*

ÖZET

Çalışmanın amacı kültürel mirasın korunması, aynı zamanda turizmin gelişmesi için turizm destinasyonlarında elektronik ağızdan ağıza pazarlama (e-WOM) ve duygu bulaşması noktasında sürdürebilir gastronomi turizm perspektifi açısından viral pazarlama stratejilerini incelemektir. Araştırma derleme makale olup üç ana eksende oluşmaktadır. Birincisi kültürel miras destinasyonlarına yönelik elektronik ağızdan ağıza pazarlama (e-WOM) içeriklerinin viral yayılım dinamiklerinin incelenmesi, ikincisi duygu bulaşma mekanizmasının dijital ortamlarda işleyişi ve turizme ilişkin değerlendirme ve üçüncüsü sürdürülebilir gastronomi turizm ile uyumlu viral pazarlaması stratejiler geliştirmek için öneriler oluşturmaktadır. Kültürel miras destinasyonlarında elektronik ortamda ağızdan ağıza pazarlama (e-WOM) ve duygu bulaşma mekanizmalarının viral olmasıyla sorumlu turizm vurgusu yerel katılım ve duygusal bağ odaklı stratejilerin viral pazarlama ile sürdürülebilir hedefler ile uyumlu olması gerektiği sonucu bulunmuştur.

Anahtar Kelimeler: *Kültürel Miras, Sürdürülebilir Turizm, E-WOM, Viral Pazarlama, Gastronomi Turizmi, Duygu Bulaşması*

ABSTRACT

The aim of this study is to examine viral marketing strategies from a sustainable gastronomy tourism perspective, focusing on electronic word-of-mouth (e-WOM) and emotional contagion in tourism destinations, for the preservation of cultural heritage and the development of tourism. This research is a review article structured around three main axes: firstly, examining the viral spread dynamics of e-WOM content targeting cultural heritage destinations; secondly, evaluating the functioning of emotional contagion mechanisms in digital environments and their relevance to tourism; and thirdly, developing recommendations for viral marketing strategies compatible with sustainable gastronomy tourism. The study concludes that strategies emphasizing responsible tourism, local participation, and emotional connection through viral word-of-mouth marketing (e-WOM) and emotional contagion mechanisms in cultural heritage destinations should be compatible with sustainable goals.

Keywords: *Cultural Heritage, Sustainable Tourism, E-WOM, Viral Marketing, Gastronomy Tourism, Emotional Contagion*

1. GİRİŞ

1.1. Kültürel Miras Turizmi

Kültür, insanların ürettikleri fiziki yapılar kadar, yaşadıkları bölgeye uygun üretikleri gastronomik yiyecek, içecek ve alışkanlıklarını da içerir. Kültürle tanışan bir turist bunların toplamından etkilendiği bir duygu bulaşması yaşar. Kültürel miras, turizmin en fazla ilgilendiği ve odaklandığı konu alanlarından biridir ve gün geçtikçe daha fazla önem kazanmaktadır. UNESCO dünya mirası listesinde belirlenen alanlar ziyaretçileri kendine çekmektedir. Özellikle belirlenen bu destinasyonlar yalnızca tarihi özellikleriyle değil aynı zamanda ziyaretçilerde veya turistlerde derin duygusal izler oluşturdukları için önemli hale gelmektedir.

Dijitalleşmenin artması turizm pazarlamasındaki dinamikler de köklü değişiklikler meydana getirmiş olup geleneksel medya araçlarının yerini sosyal medya almıştır. Mevcut ve potansiyel

turistler için turizmde bilgi kaynağı olarak sosyal medya giderek önemli hale gelmektedir (Xiang & Gretzel, 2010). Elektronik ortamda ağızdan ağıza pazarlama (e-WOM) kavramı geleneksel medya araçlarının yerini alan sosyal medya platformları turizm endüstrisinin merkezine yerleşmektedir. Turistin ziyaret ettiği bir kültürel miras alanıyla ilgili sosyal medya paylaşımları, yayınladığı videolar ve fotoğraflar milyonlarca potansiyel turiste ulaşabilmektedir.

İnsan etkileşimine dayalı olarak duygu bulaşmaktadır (Wild vd., 2001). Burada duygu bulaşma mekanizması sürece dahil olmaktadır. Duygu bulaşması, kişilerin duyguda aynı noktaya ulaşmasıdır. Mustika vd. (2024) yaptıkları çalışmada, kültürel miras turizminde e-WOM etkisini araştırmıştır. Çevrimiçi ortamda yapılan araştırmada kültürel miras ögelerinden o bölgeye ait yemek, içecek ve değer gibi unsurlar E-WOM'da viral pazarlama ve duygu bulaşmasında etkili olduğu belirtilmektedir. Özellikle kültürel, yöresel yiyecek-içecek ve diğer etkenleri içeren gastronomi turizmi açısından da bu etki oldukça belirleyici olmaktadır. Turizmin sürdürülebilirliği açısından viral pazarlama, duygu bulaşması ve E-WOM boyutlarının incelenmesi önem arz etmektedir.

1.2. Araştırmanın Amacı ve Önemi

Çalışmanın amacı, sürdürülebilir turizm için kültürel miras destinasyonlarındaki gastronomik ürünlerin ağızdan ağıza pazarlama (e-WOM) ve duygusal bulaşma mekanizmalarını viral pazarlama bağlamında ele almaktır. Bu bağlamda konu, sistematik literatür taraması ile ele alınıp değerlendirilmektedir. Çalışmanın kültürel miras destinasyonundaki yöneticilere ve turizm pazarlamacılarına, sürdürülebilirlik ilkelerini koruyarak duygu temelli viral pazarlama stratejileri geliştirmelerine yardımcı olmaktır. Kültürel miras destinasyonlarında turizmde ağızdan ağza pazarlama(e-WOM), duygusal bulaşma mekanizmasının, viral pazarlama durumunu tespit etmektir. Turizm için etkisi olan ancak araştırmacılar tarafından konuya yeterince ele alınmadığı ve literatürde bir boşluk oluştuğu görülmektedir. Çalışmanın literatüre katkı sağlanması ve söz konusu boşluğun doldurulması noktasında önem arz etmektedir.

2. TEORİK ÇERÇEVE

2.1. Kültürel Miras ve Sürdürülebilir Turizm

Kültürel miras, toplumların geçmişleriyle etkileştiği süreç (Harvey, 2001; Smith, 2006) olduğu için turizm sürecinin önemli parçasıdır. Kültürel gelenekleri temsil eden kültürel miras, sosyal etkileşim azaldığında mirasçı sayısı azalmasıyla (Timothy ve Boyd, 2003) unutulma tehdidine maruz kalmaktadır. Bu da kültürel miras turizmi açısından kültürel ve ekonomik zorlukları beraberinde getirmektedir. Kültürel miras (Timothy ve Boyd, 2015) geçmişten günümüze aktarılan anıtlar, tarihi yapılar, gelenekler, mutfak kültürü, el sanatları gibi bütün değerleri oluşturmaktadır. Kültürel miras turizmi ise insanların geçmişten gelen kültürel değerler için yapılan seyahat olarak tanımlanmaktadır. Kültürel miras bağlamında ekonomik sürdürülebilirlik, ziyaretçi harcamalarının yerel işletmelere sevk edilmesini ve istihdam yaratılmasına katkı sağlamaktadır. Sosyo-kültürel açıdan incelediğimizde kültürel bozulmanın önlenmesi için yereldeki paydaşların turizm kararlarına katılımının sağlanması önem arzetmektedir. Tarihi yapıların aşınma ve yıpranmaya karşı korunması çevresel sürdürülebilirlik açısından önemlidir. Geleneksel gastronomik yiyecek ve içecekler özelliğine uygun korunması sürece katkı sağlamaktadır. Turizm gelirlerinin sürekliliği, gelenek ve kimliğin korunması, fiziksel ve doğal çevrenin bozulmadan varlığını sürdürmesine bağlıdır.

2.2. Elektronik Ağızdan Ağıza Pazarlama (e-WOM)

Elektronik ağızdan ağıza pazarlama (e-WOM), mal, hizmet veya destinasyon hakkında müşterilerin çevrimiçi platformlarda yaptıkları değerlendirmelerdir. Tüketici konumunda olan turistlerin "bulundukları bölgelerde insanlarla etkileşim girme, ekonomik destek alma, başka

tüketicilerle karşı duydukları ilgi ve buna bağlı olarak kendi özdeğerlerini artırmalarına yönelik ihtiyaçları E WOM davranışına yol açmaktadır (Hennig-Thurau vd., 2004). Bu bağlamda Lai vd., (2021) yaptığı çalışmada, sosyal medyada gastronomi turizmiyle ilgili e-WOM, turistlerin bir destinasyondaki gastronomi deneyimini incelediği görülmüştür. İnternet kullanımının yaygınlaşmasına paralel olarak bilgilerin ağızdan ağıza dolaşma hızı daha da artmış ve bu durum işletmelerin hedef kitleleriyle iletişim kurma noktasında e-WOM stratejik bir rol üstlenmiştir.

2.2.1. e-WOM'un Turizmdeki Rolü

Günümüzde dijital platformlar aracılığıyla, tüketici görüşlerini, müşterilerin, mal ve hizmetlerle ilgili görüşlerini deneyimlerini paylaşmaları; elektronik ağızdan ağıza pazarlama (eWOM) (Hennig-Thurau vd., 2004) yapmalarını sağlamaktadır. Özellikle e-WOM, tüketicinin tüketimden önce değerlendirmekte zorlandığı konaklama ve turizm alanında mühimdir (Litvin vd., 2008).

Turizm sektöründe e-WOM, destinasyon imajı oluşturma, seyahat kararlarını etkileme ve ziyaretçi memnuniyetini yönetme açısından kritik bir öneme sahiptir (Xiang & Gretzel, 2010; Filieri vd., 2015). E-WOM'un turizm ile ilişkisi incelendiğinde olumlu e-WOM, destinasyon imajını güçlendirmekte, e-WOM, potansiyel turistlerin seyahat niyetini anlamlı düzeyde etkilemekte, çevrimiçi yorumlar, otel ve destinasyon seçiminde en önemli bilgi kaynaklarından biridir (Filieri vd., 2015). Farzin & Makvandi (2025), gıda turizmi bağlamında elektronik ağızdan ağıza iletişim (eWOM) konusunu ele aldıkları bir çalışmalarında; destinasyon yöneticilerine ve gıda turizmi pazarlama uzmanlarının, e-WOM'un tutumsal ve davranışsal sonuçlarını değerlendirdikleri görülmektedir.

2.3. Duygu Bulaşma Mekanizması ve Dijital Ortam

Duygu bulaşması, bir grupta yer alan insanların kendi aralarında ruh hallerini aktarması (Barsade, 2002) olarak tanımlanmaktadır. Ferrara & Yang, (2015) yaptıkları başka bir çalışmada iletişimin gerektirdiği sözlü ve sözsüz etkileşimin olmadığı durumlarda bile insan duygularının çevrim içi yayıldığını, sosyal ağlarda oldukça fazla yer aldığında da olumlu ve olumsuz duyguların kabul edilme düzeyinin arttığı ifade edilmektedir. e-WOM, tüketici davranışları üzerinde etkilidir (Berger, 2014). Stieglitz & Dang-Xuan, (2013) yaptığı çalışmada, Twitter mesajlarında duygusal yüklü içerik, nötr içeriğe göre hızlı bir şekilde retweet edildiğini belirtmektedir. Suryana vd., (2025) gastronomi destinasyonlarında seyahat deneyimini; sembolik, duyusal, dijital ve duygusal boyutlarıyla inceleyip gastronomi turizmi davranışı modelini geliştirmektedir. Bu durumda işletmeler, sosyal medya iletişiminde, marka ve ürünlerle ilgili duygu analizine ve duyguları kapsayan içeriklerini stratejilerine dahil etmek durumunda kalmaktadır.

2.4. Viral Pazarlama

Viral pazarlama, tüketicilerin mal veya hizmet sosyal ağlarında paylaşımlarıyla katlanarak artan pazarlama stratejisidir (Kaplan & Haenlein, 2011). Viral pazarlama ve e-WOM özellikle turizm sektöründe duygu bulaşması sürecine dahil edilmesi sürdürülebilir turizm açısından önem arz etmektedir. WOM uygulamaları, ulaşılmasında güçlük çekilen turizm segmentini hedeflemede etkili bir viral pazarlama aracı haline gelmiştir. Bakri vd., (2024) yaptıkları araştırmalarında, görsel retorik, duygu bulaşması teorilerini ve görsel kaynaklı ağızdan ağıza pazarlama-görsel-iWOM (image-generated Word-of-Mouth) kavramı ile turizm literatüründe yaygın kullanılmaktadır. Çünkü çevrimiçi olması ve tüketiciye hızlı ulaşma olanağı sağlaması viral pazarlamaya ekstra bir maliyet avantajı sağlamaktadır (Chaffey & Ellis-Chadwick, 2019). Bu avantaj, WOM'un viral pazarlamada etkin ve yaygın kullanımını etkilemektedir.

3. YÖNTEM

Bu çalışma bir derleme çalışması olup, 2001-2025 yılları arasında Web of Science, Scopus, Google Scholar, Science Direct, TR Dizin veri tabanları yayınlanmış olan basılı ve online veri kaynaklarının sistematik incelemesini içermektedir. Çalışmada basılı ve online kaynaklar, kültürel miras, gastronomi turizmi ve duygu bulaşması ve e-WOM kavramları çerçevesinde taranmıştır. Tarama sonucu elde edilen veriler, analiz edilerek, çalışmanın amacı çerçevesinde sentezlenerek yapılandırılmıştır. Çalışmanın kapsamı kültürel miras turizmi, e-WOM, duygu bulaşması, viral pazarlama, sürdürülebilirlik ve gastronomi turizmi konuları çalışmanın içeriğine dahil edilmiştir.

4. Kültürel Miras Destinasyonlarında e-WOM'un Turizm de Oluşturacağı Duygu Tonu

Kültürel miras destinasyonlarına yönelik yapılan e-WOM içerikleri, duygu tonları oluşturmaktadır. Piff vd. (2015) yaptıkları çalışmalarında hayranlık duygusunun bireyleri daha geniş sosyal bağlamlara yerleştirdiğini belirtmektedir. Sedikides vd. (2015) yaptıkları araştırmada geçmişe özlem, çocukluk veya atalarla bağlantı gibi hissi nostalji duygu tonu çalışmışlardır. Tarihi mekanlarda hissedilen nostalji, sakinlik ve dinginlik duyguları kültürel miras için yer almakta ve turizm için önem kazanmaktadır. E-WOM, kültürel miras destinasyonlarında turizm de oluşturacağı olumlu duygu tonu kadar olumsuz duygu tonları da oluşturabilmektedir.

4.1. Duygu Bulaşma Mekanizması ve Viral Yayılım

Duygu bulaşma mekanizmasının kültürel miras destinasyonlarına yönelik e-WOM içerikler, viral yayılımında etki gösterebilmektedir. Örneğin, hayranlık duygusu uyandırmak gibi olumlu içerik, olumsuz içerikten daha viraldir (Berger & Milkman, 2012). İçeriklerde olumlu duygular daha hızlı yayılım gösterdiği sonucuna varmak mümkündür. Hayranlık, izleyicide paylaşım dürtüsünü güçlendirmektedir (Berger & Milkman, 2012). Nostalji duygusu, kişisel anılarla bağlantı kurarak benlik sürekliliğini artırmaktadır (Sedikides vd. 2015). Olumlu duyguların deneyimlenmesi insanların anlık düşünce-eylem dağarcığını genişletmekte, sosyal ve psikolojik kaynakları kapsayacak şekilde geliştirmektedir (Fredrickson, 2001). Üzüntü gibi olumsuz duygular, olumlu duygulara göre viral yayılımda daha az etki göstermektedir. Özellikle somut olmayan, deneyime bağlı olarak değerlendirilen turizm sektöründe viral yayılım için olumlu duyguların duygusal bulaşmada oldukça etkili olacağı açıktır.

4.2. Kültürel Miras Destinasyonlarında Viral Pazarlama

Kültürel miras destinasyonlarında, viral pazarlama stratejilerinin başarısını etkileyen faktörler; içerik tabanlı, platform tabanlı ve kullanıcı tabanlı olmak üzere üç kategoriye ayrılabilir: Kültürel miras destinasyonları için yapılan önerileriler arasında; *içerik tabanlı faktörlere* ait yapılan çalışmalarda hikâye anlatımı önemli bulunmaktadır. Hikâye anlatımı ile efsane, tarihi olay veya yerel bir kahramana ait hikâye anlatıldığında benlikle bağlantısı kadar anlamlı duruma gelmektedir (Escalas, 2004). Hikâye anlatımında, güçlü bir anlatı yapısına sahip içerikler oluşturulabilmektedir. Sosyal medya platformunda video reklam paylaşımında, eğlence ve heyecan gibi olumlu duyguların yer alması olumlu duygu paylaşımına pozitif yönlü etkilemektedir (Tellis vd., 2019). Özgünlük, içerik platformlarında oldukça önemlidir. Örnek olarak yerel halkla doğal etkileşimler ve gerçek duygusal anlar paylaşılabilir. Yapay olmayan gerçek deneyimler, özgünlüğü güçlendirmektedir. İçeriklerde yer alan heyecan, şaşkınlık, hayranlık gibi ögeler, içeriklerde etkileyici olmaktadır (Tellis vd. 2019; Piff vd. 2015). *Platform Tabanlı Faktörler*; Mevcut veya potansiyel turistler, dijital platform olarak Instagram, TikTok, YouTube, TripAdvisor, Facebook'u sıklıkla kullandığı görülmektedir. Instagram platformunun görsel odaklılığı, estetiği, yüksek etkileşimi ve hashtag sistemi özelliği güçlüdür. Bu içeriklerin turistlere sağladığı güçlü yönler; yüksek kaliteli fotoğraflar, kısa videolar, hikâye anlatımı için çoklu gönderi etkisi olmaktadır. TikTok platformu kısa, eğlenceli, trend odaklı, yüksek organik erişim gibi güçlü özelliklerinin yanında içeriğin süresi ve sürenin kısa olması, kalıcılığın düşük olması gibi sonuçlara yol açabilmektedir. TikTok platformu, turistleri tarihi mekanlarda içerikleri, "önce/sonra" dönüşüm

videoları etkilemektedir. YouTube platformunun, detaylı anlatım, eğitici içerik ve kalıcılık açısından yüksek özelliklere sahip platformlar arasında yer almaktadır. Turizm sektöründe rezervasyonda sık kullanılan TripAdvisor platformu güvenilirlik, kullanıcı yorumları, karar verme sürecinde etkileyici özelliğiyle önplana çıkmakta; ancak görsel odaklı olmaması, duygu ifadesi sınırlı olması, etkileşim düşük olması gibi zayıf özelliklere sahptir TripAdvisor platformunun çevrimiçi yorum özelliği kullanımı (Filieri vd. 2015) turistleri oldukça etkilemektedir. Facebook platformunun kullanıcı tabanının geniş olması, farklı yaş gruplarından oluşması, olumlu özellikleridir; günden güne genç kullanıcılar arasında popülaritesi azalıp, organik erişimi düşük hale gelmektedir. Kültürel Miras Destinasyonlarında Viral pazarlamanın Influencer etkisi, duygusal bağ oluşturması *kullanıcı tabanlı faktörü* oluşturmaktadır. Seyahat blogger'ları ve kültür influencer'larının paylaşımlarından oluşan influencer etkisi ile çok geniş kitlelere ulaşabilmektedir. Dijital platformlarda influencerların destinasyonla önceden oluşan duygusal bağlar, oluşumunu desteklemekte, kullanıcılara kendi hikayelerini, anılarını, fotoğraflarını paylaşmaya teşvik noktasında önerilmektedir.

4.3. Gastronomi Turizmi Sürdürülebilirlik ve Viral Pazarlama

Gastronomi kavramı farklı bilim dallarıyla olan ilişkisi incelendiğinde gastronomi hakkında birçok tanım yer almaktadır. Gastronomi, yaşam farklılıkları kaynaklı yemek hazırlama, pişirme, sunma deneyim ve tecrübelerinin yansıtıldığı bir sanat ve bilimidir (Sarıışık & Özbay, 2015). Gastronomi bir bilim dalı olup aynı zamanda sanat yönü de olan bir kapsam içerdiğine göre gastronomi tanımına haz, duygu ve estetiklik kavramları da eklenerek yeni bir tanım oluşturulabilir. Ancak kapsam genişledikçe tanımlama güçlüğü de artmaktadır. Santich (2004) göre bir ülkenin veya bölgenin gastronomik karakterinin, özelliklerini ve turizmi birbirleriyle yakın ilişkili olsa da tanımın netleştirme güçlüğü bulunmaktadır. Turizm, kültür ve gastronomi ve dijital pazarlama bağlamında konu bir bütün olarak ele alındığında hem derinliği hem de kapsamı çok boyutluluk kazanmaktadır. Duygu temelli viral pazarlama stratejileri ile sürdürülebilir gastronomi turizm ilkeleri arasında hem çatışma alanları hem de uyumlu stratejiler bulunmaktadır. Viral pazarlama daha fazla ziyaretçi sayısına ulaşarak destinasyona turist çekebilmektedir. Ancak viral pazarlamanın tüketim odaklı olması harcamayı teşvik etmesi, ekonomik faydayı maksimize etmesi ile yerel kültürün ve geleneklerin korunması çatışmaktadır. Bu bağlamda sürdürülebilirlik konusu ile viral pazarlama çatışabilmektedir.

5. Duygu Bulaşması Viral Pazarlama ve Platformların Farklılaşan Rolü

Duygu bulaşma mekanizmasının kültürel miras destinasyonlarında turizmde ve viral pazarlama başarısının temelini oluşturmaktadır. Berger ve Milkman (2012) ile Berger (2014) tarafından yapılan çalışmalar, pozitif duyguların olumsuz duygulardan daha viral olduğunu göstermektedir. Kültürel miras destinasyonları, pozitif duygular oluşturmada büyük potansiyele sahip olduğu söylenebilir. Tarihi bir yapı veya destinasyon karşısında duyulan hayranlık, efsanenin hikâye anlatıcılığı aracılığıyla oluşturulan nostalji, mutluluk gibi duygular, doğal olarak viral yayılım ile duygu bulaşma mekanizmasını hızlandırmaktadır. Aynı şekilde Cuc vd. (2024), nostaljinin geçmiş yemek deneyimleri ve kültürel mirasla dair anıları tetiklediği ve seyahat kararlarını etkilediği bulgusuna varmışlardır. Nostaljinin kişisel kimlik ve aidiyet duygusuyla (Sedikides vd., 2015) güçlü bir bağlantısının olması sosyal medyada paylaşılma eğilimini yükseltmektedir.

Sosyal medya platformlarının ve viral pazarlamanın farklı görevleri vardır. TikTok, kısa ve eğlenceli içeriklerle en yüksek viral potansiyele sahipken; YouTube, derinlemesine anlatım ve eğitici içeriklerle daha kalıcı bir etki yaratmaktadır. Instagram, görsel estetik ve duygusal atmosfer yaratmada güçlüyken; TripAdvisor, karar verme sürecinde güvenilirlik sağlamaktadır.

Literatürden elde edilen veriler, destinasyon turizm işletmecilerinin çoklu platform stratejisi geliştirmeleri gerektiğini göstermektedir. Strateji oluştururken tek platform yerine, her platformun güçlü yönlerinden yararlanan bütünleşik bir yaklaşım izlenebilir. Bütünleşik yaklaşım sayesinde daha geniş kitlelere ulaşmak turizm açısından önemli girdiler sağlayabilir. Turizm

pazarlama stratejilerini doğrudan uygulamak yerine, kültürel mirasa özgü duygusal dinamikleri içeren stratejilere yer verilerek hedeflenen duruma ulaşılabilir.

6. SONUÇ VE ÖNERİLER

Çalışmayla ilgili yapılan literatür taramasında, kültürel miras destinasyonları ve turizmde duygusal dinamiklerin hayranlık ve nostalji duygularını merkeze alan, platformların farklılaşan rollerini dikkate alan ve sürdürülebilirlikle uyumlu viral pazarlama üzerine etkisinin olduğu görülmektedir.

Kültürel miras, insanlığın ortak hafızası, geleceğe taşınması gereken değerdir. Bu değerin sürdürülebilir bir şekilde turizme kazandırılması, pazarlama stratejileriyle mümkün olabilmektedir. Duygu bulaşma mekanizması ve e-WOM, bu stratejilerin güçlü araçlarından biri konumundadır. Kültürel miras destinasyonlarında duygusal bulaşma ve e-WOM'un viral pazarlama stratejilerinin sürdürülebilir gastronomi turizm perspektifinden değerlendirildiğinde; kültürel miras destinasyonlarında e-WOM içeriklerinde pozitif duygular hayranlık, nostalji, mutluluk, huzur; negatif duygulardan üzüntü, kaygı göre daha sık görülmekte ve yüksek viral olma potansiyelini içinde barındırmaktadır.

Kültürel miras destinasyonlarda e-WOM içeriklerinde duygu bulaşma mekanizması, viral yayılımın temelini oluşturmaktadır**.** Duygusal bulaşma mekanizması, dijital ortamlarda yüz yüze iletişime benzer özellikler taşımaktadır. Viral pazarlamanın başarısı, içerik tabanlı, platform tabanlı ve kullanıcı tabanlı faktörlere göre değişmektedir. Sürdürülebilirlik açısından incelendiğinde turizm ile duygu temelli viral pazarlama stratejileri arasında çatışmalar bulunmakla birlikte, çatışmaları uzlaştırıcı uyumlu stratejiler oluşturulabilir. Kültürel miras destinasyon işletmelerinin yöneticileri ve turizm pazarlamacıları için aşağıdaki öneriler geliştirilmiştir:

İçerik üretimine yönelik öneriler: İçerik üretiminde hikâye anlatımı merkeze alınmalıdır. Duygusal bağ güçlendirilerek, paylaşım oranı artırılabilir. İçerik üretiminde yüksek görsel kalite hedeflenmelidir.

Platform stratejilerine yönelik olarak; dijital platformların güçlü yönlerini esas alacak şekilde çoklu platform kullanılmalıdır. Sürdürülebilirlik odaklı pazarlama önerileri; alternatif mekanları tanıtılmalı, yerel halkın hikâyeleri, geleneksel uygulamaları, perspektifleri paylaşılmalı bu sayede yerel kalkınma ve kültürü yaşatma gibi turizmde sürdürülebilirlik hedeflerine katkı sağlanabilir.

6.1. Gelecek Araştırmalar için Öneriler

Bu literatür taraması doğrultusunda, gelecek araştırmalar için aşağıdaki öneriler geliştirilmiştir: Araştırmacılar Makine öğrenmesi (derin öğrenme, doğal dil işleme)- büyük veri analizi kullanılarak yapay zekâ destekli duygu analizi ile viral içeriklerin tahmin edilmesi konusunu çalışabilirler. Karma yöntem kullanarak Türk kültürel miras destinasyonlarında duygu bulaşması ve viral pazarlamanın incelenmesi konusunda çalışma yapmaları tavsiye edilebilir.

KAYNAK

1. Bakri, M., Richard, J., & Krisjanous, J. (2024). Image-Generated Word-of-Mouth: A Catalyst for Visiting Friends and Relatives (VFR) Tourism? *Journal of Travel Research, 26*(4).
2. Barsade, S. G. (2002). The ripple effect: Emotional contagion and its influence on group behavior. *Administrative Science Quarterly*, *47*(4), 644-675.
3. Berger, J. (2014). Word of mouth and interpersonal communication: A review and directions for future research. *Journal of Consumer Psychology*, *24*(4), 586-607.
4. Berger, J., & Milkman, K. L. (2012). What makes online content viral? *Journal of Marketing Research*, *49*(2), 192-205.
5. Chaffey, D., & Ellis-Chadwick, E (2019). *Digital marketing*. Pearson UK.
6. Cuc, L.D., Pantea, M.F., Rad, D., Trifan, V.A. and Ţurlea, I.C., (2024). Does Culinary Nostalgia Shape Touristic Behaviour? *Amfiteatru Economic, 26*(18), 1126-1139.
7. Escalas, J. E. (2004). Narrative processing: Building consumer connections to brands. *Journal*

of Consumer Psychology, *14*(1-2), 168-180.
8. Farzin, M., & Makvandi, R. (2025). eWOM communication outcomes in food tourism. *Journal of Economic and Administrative Sciences*. https://doi.org/10.1108/JEAS-01-2024-0014
9. Ferrara, E., & Yang, Z. (2015). Measuring emotional contagion in social media. *PLoS ONE*, *10*(11), e0142390.
10. Filieri, R., Alguezaui, S., & McLeay, F. (2015). Why do travelers trust TripAdvisor? *Journal of Travel Research, 54*(4), 475-488.
11. Fredrickson, B. L. (2001). The role of positive emotions in positive psychology. *American Psychologist*, *56*(3), 218-226.
12. Harvey, D.C. (2001). Heritage pasts and heritage presents: Temporality, meaning and the scope of heritage studies. *International Journal of Heritage Studies, 7*(4), 319–338.
13. Hennig-Thurau, T., Gwinner, K. P., Walsh, G., & Gremler, D. D. (2004). Electronic word-of-mouth via consumer-opinion platforms. *Journal of Interactive Marketing*, *18*(1), 38-52.
14. Kaplan, A. M., & Haenlein, M. (2011). Two hearts in three-quarter time: How to waltz the social media/viral marketing dance. *Business Horizons*, *54*(3), 253-263.
15. Lai, I. K. W., Liu, Y., & Lu, D. (2021). Effects of tourists' destination culinary experiences on electronic word-of-mouth generation intention: Experience economy theory. *Asia Pacific Journal of Tourism Research, 26*(3), 231–244.
16. Litvin, S. W., Goldsmith, R. E., & Pan, B. (2008). Electronic word-of-mouth in hospitality and tourism management. *Tourism Management*, *29*(3), 458-468.
17. Mustika, P., William, A., Heliawanto, P. A., Subakti, A. G., Lestari, N. S., & Shaharudin, M. S. (2024). Understanding cultural heritage through electronic word of mouth marketing: Malacca, Malaysia. In 2024 International Conference on Smart Cybernetics Technology and Applications (ICICyTA). IEEE.
18. Piff, P. K., Dietze, P., Feinberg, M., Stancato, D. M., & Keltner, D. (2015). Awe, the small self, and prosocial behavior. *Journal of Personality and Social Psychology*, *108*(6), 883-899.
19. Santich, B. (2004). The Study of Gastronomy and Its Relevance to Hospitality Education and Training, Hospitality Management,*23,* 15-24.
20. Sarıışık, M., & Özbay, G. (2015). Gastronomi turizmi üzerine bir literatür incelemesi. Anatolia: *Turizm Araştırmaları Dergisi*, *26*(2). https://doi.org/10.17123/atad.vol26iss218417
21. Sedikides, C., Wildschut, T., Routledge, C., & Arndt, J. (2015). Nostalgia counteracts self-discontinuity and restores self-continuity. *European Journal of Social Psychology*, *45*(1), 52-61.
22. Stieglitz, S., & Dang-Xuan, L. (2013). Emotions and information diffusion in social media. *Journal of Management Information Systems*, *30*(1), 187-214.
23. Suryana, M., Susanto, E., & Chendraningrum, D. (2025). Beyond consumption: Exploring sensory, symbolic, and digital influences in gastronomic tourist behaviour (Evidence from Indonesia). *e-Journal of Tourism, 12*(2), 198–223.
24. Tellis, G. J., MacInnis, D. J., Tirunillai, S., & Zhang, Y. (2019). What drives virality in social media? *Journal of Marketing Research*, *56*(5), 784-802.
25. Timothy, D. J., & Boyd, S. W. (2015). *Heritage tourism* (2nd ed.). Routledge.
26. Timothy, D. J. & Boyd, S. W. (2003). *Heritage tourism*. New York: Pearson Education.
27. Smith, L. (2006). *Mirasın kullanımları*. (Londra: Routledge).
28. Xiang, Z., & Gretzel, U. (2010). Role of social media in online travel information search. *Tourism Management*, *31*(2), 179-188.
29. Wild, B-, Erb, M., ve Bartels, M. (2001). Are emotions contagious? Evoked emotions while viewing emotionally expressive faces: Quality, quantity, time course and gender differences. *PsychiatryResearch,* 109-124.

DAYANIQLI TURİZMDƏ ƏNƏNƏVİ VƏ ELEKTRON İNFORMASİYA RESURSLARININ ƏHƏMİYYƏTİ

The Importance of Tradıtıonal and Electronıc Informatıon Resources in Sustaınable Tourısm

HACI QASIMLI
Haci Qasimli
haciqasimli5@gmail.com
https://orcid.org/0000-0001-8246-1959
Azərbaycan Turizm ve Menecment Universiteti
Azerbaijan University of Tourism and Management

XÜLASƏ

Azərbaycan Respublikasında turizm fəaliyyətinin informasiya təminatının mövcud vəziyyətini öyrənmək, bu sahəyə dair sənəd axınının tədqiqini aparmaq, turizm sahəsi üzrə informasiya tələbatçılarını müəyyən etmək, bu sahə üzrə sənəd axınının gələcək inkişaf modelini hazırlamaq qarşıda duran önəmli vəzifələrdən biri hesab olunur. Müasir dövrdə turizm sektoru qlobal iqtisadiyyatın dinamik inkişaf edən sahələrindən biri kimi çıxış edir. Bununla yanaşı, ətraf mühitin qorunması, sosial məsuliyyət və iqtisadi səmərəlilik prinsiplərinə əsaslanan dayanıqlı turizm anlayışı getdikcə daha böyük əhəmiyyət qazanır. Bu kontekstdə informasiya resursları – həm ənənəvi, həm də elektron formaları ilə – turizm fəaliyyətinin düzgün təşkili və idarə olunmasında mühüm rol oynayır. Son dövrlər ölkəmizdə turizm sahəsinin inkişafı ilə əlaqədar bu sahəyə olan tələbatın dinamik şəkildə artırılmasının şahidi oluruq. Respublikada fəaliyyət göstərən müxtəlif turistik regionların tarixi, yerləşdiyi coğrafi mövqeyi və s. haqqında məlumatlarla əvvəlcədən tanış olmaq üçün ölkəmizə gələn turistlər üçün ilkin informasiya mənbəyi kimi bilavasitə bu sahəyə dair ərsəyə gətirilən sənəd-informasiya resursları mühüm rol oynayır. Bildiyimiz kimi müasir dövrdə turizm sahəsində ənənəvi və elektron informasiya resurslarının rolu xüsusi aktuallıq kəsb edir. Turizm sahəsinin inkişafı və bu sahəyə aid operativ xidmətlərin həyata keçirilməsi zamanı elektron informasiya resursları mühüm əhəmiyyətə malikdir. **Metodlar.** Məqalədə müqayisəli təhlil və sistemləşdirilmə metodlarından istifadə edilmişdir. **Nəticələr.** Rəqəmsallaşma ilə əlaqədar olaraq elektron informasiya resurslarının turizmdə rolu sistemli şəkildə tədqiqata cəlb edilmişdir.

Açar sözlər: *Turizm, dayanıqlı turizm, resurs, informasiya xidməti, turizm siyasəti.*

ABSTRACT

One of the important tasks ahead is to study the current state of information provision of tourism activities in the Republic of Azerbaijan, to conduct a study of the document flow in this area, to identify information consumers in the tourism sector, and to develop a future development model of the document flow in this area. In modern times, the tourism sector acts as one of the dynamically developing sectors of the global economy. At the same time, the concept of sustainable tourism based on the principles of environmental protection, social responsibility and economic efficiency is gaining increasing importance. In this context, information resources - both in traditional and electronic forms - play an important role in the proper organization and management of tourism activities. In recent years, we have witnessed a dynamic increase in the demand for this field in connection with the development of the tourism sector in our country. Document-information resources, which are created directly in this field as a primary source of information for tourists coming to our country to familiarize themselves with information about the history, geographical location, etc. of various tourist regions operating in the republic, play an important role. As we know, the role of traditional and electronic information resources in the field of tourism is of particular relevance in modern times. Electronic information resources are of great importance in the development of the tourism sector and the implementation of operational services related to this field. Methods. The article uses comparative analysis and systematization methods. Results. The role of electronic information resources in tourism has been systematically studied in connection with digitalization.

Keywords: *Tourism, sustainable tourism, resource, information service, tourism policy.*


GİRİŞ

Turizmin dayanıqlığının təmin olunması turizm ehtiyatlarının öyrənilməsi, genişləndirilməsi, turistlərin tələbatının ödənilməsi üçün zəruri xidmətlərin təşkili və müasir standartlara uyğunlaşdırılması, sanatoriya-kurort imkanlarının genişləndirilməsi, mehmanxanaların və digər turizm obyektlərinin sayının artırılması, turizm marşrutlarının çoxaldılması və s. fəaliyyətləri nəzərdə tutur [5]. Həmçinin onu qeyd edək ki, turizm sahəsi dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Turizm haqqında Azərbaycan Respublikasının Qanununda qeyd edilir ki, "*Turizm sahəsində dövlət siyasətinin əsas istiqamətlərinə effektiv idarəetmə sisteminin qurulması və bu sahədə fəaliyyətin əlaqələndirilməsi; rəsmi statistikanın aparılması, təhlil və tədqiqatların həyata keçirilməsi; qabaqcıl texnologiyaların və innovasiyaların tətbiqinin təşviq edilməsi; normativ hüquqi bazanın formalaşdırılması və təkmilləşdirilməsi; turizm infrastrukturunun inkişaf etdirilməsi; ölkədə keyfiyyətli turizm xidmətlərinin göstərilməsinin təmini; turizm sahəsinə investisiya qoyuluşunun təşviqi; turizm sahəsində dövlət-özəl sektor əməkdaşlığının dəstəklənməsi; beynəlxalq turizm bazarının tələblərinə uyğun turizm məhsullarının hazırlanması və təqdim olunması sahəsində turizm sənayesi subyektlərinin dəstəklənməsi; turizm sahəsində marketinq strategiyasının hazırlanması və həyata keçirilməsi; turizm sahəsində təhsilin beynəlxalq standartlara uyğunlaşdırılması və bu sahədə rəqabətqabiliyyətli ixtisaslı kadrların hazırlanması*" aid edilir [1, s.1].

Müasir dövrdə turizm sənayesində müşahidə edilən inkişaf günü-gündən artmaqdadır. Bu istiqamətdə həm ənənəvi, həm də elektron informasiya resurslarının rolu əvəzolunmazdır. Bu sahədə turistlərə lazım olan məlumatların əldə olunmasında ənənəvi və elektron mənbələr əsas informasiya bazası hesab olunur. Bu baxımdan konfransa təqdim edəcəyimiz mövzu həm nəzəri, həm də praktiki cəhətdən turizm və marketinq istiqamətində geniş araşdırmaların aparılmasına zəmin yaradır. Ənənəvi informasiya mənbələri dedikdə, buraya çap məhsulları və ənənəvi kommunikasiya resursları aid edilir. Yəni turizm bələdçiləri, broşürlər, xəritələr, ənənəvi kataloqlar, qəzet və jurnallar bu qrupa daxildir. Bu tip informasiya resursları xüsusilə yaşlı nəsil üçün əsas mənbə olmaqla, turizm destinasiyalarının imicinin formalaşdırılmasında mühüm rol oynayır [4].


MATERİAL VƏ METODLAR

Rəqəmsallaşma ilə əlaqədar olaraq elektron informasiya resursları turizm sahəsində mühüm əhəmiyyətə malikdir. Buraya mobil tətbiqlər, elektron informasiya xidmətləri aid edilir. Buna misal olaraq Booking.com (Şəkil-1) elektron rezervasiya xidmətini göstərə bilərik ki, bu da turistlər üçün əsas elektron informasiya mənbəyi hesab olunur. Həmçinin Google Maps (Şəkil-2) kimi platformalar turistlər üçün istiqamət müəyyən etməkdə əlverişli vasitədir [3].



Şəkil 1. Booking.com elektron rezervasiya xidmətini

Turizm sahəsində ənənəvi və elektron informasiya resurslarının inkişafı dövlət siyasətinin birbaşa inkişafına da təsir göstərmişdir. Yəni rəqəmsallaşma dövründə elektron informasiya resursları strateji alətə çevrilmişdir. Bu baxımdan turizm sektorunda elektron resursların imkanları özünü daha qabarıq şəkildə nümayiş etdirir [2].



Şəkil 2. Google Maps platforması

Bu sahə üzrə çalışan ixtisaslı mütəxəssislər və müstəqil tədqiqatçılar ənənəvi resursları əldə etmək üçün bilavasitə kitab mərkəzlərinə və ali təhsil müəssisələrinin kitabxanalarına müraciət edirlər. Müxtəlif internet resursları, sosial şəbəkələr və kitabxanaların elektron saytları vasitəsilə lazım olan məlumatları elektron formada da əldə etmək mümkündür ki, bu da elektron informasiya resurslarından istifadəyə aid məsələlərdəndir.

MÜZAKİRƏ

Günümüzdə böyük verilənlər və analitik platformalar turizm axınlarının izlənilməsi və turizmdə müasir tendensiyaların proqnozlaşdırılması üçün geniş istifadə olunur. Həmçinin rəqəmsal platformalar turizm sektorunda əlavə xidmətlərin göstərilməsinə şərait yaradır. Bununla yanaşı, bir sıra elektron informasiya xidmətləri müxtəlif tövsiyələr də təqdim edir.

Ümumiyyətlə, bu sahədə həm ənənəvi, həm də elektron resursların özünəməxsus spesifik xüsusiyyətləri vardır. Ənənəvi resurslarda müəyyən məhdudiyyətlər mövcuddur ki, buraya yenilənmələrin zəif olması aid edilə bilər. Elektron informasiya resurslarında isə məlumatlar daha tez yenilənir. Ənənəvi resurslarda baş verən gecikmiş məlumatların əks olunması turistin dinamik informasiya ehtiyaclarını tam ödəyə bilmir. Bu istiqamətdə araşdırma aparan bir sıra əcnəbi müəlliflərdən sitat verməyi məqsədəuyğun hesab edirik. Dimitrios Buhalisin fikrincə, elektron sənədlər turizm sahəsində effektlivliyi artırır, turistlərə real vaxt rejimində xidmətlərə çıxış imkanı yaradır. Carlo Costa qeyd edir ki, rəqəmsallaşma turizm sahəsinin əsas sürücüsü hesab edilir.

Ümumilikdə, ölkəmizdə ənənəvi turizm xidmətlərinə tur paketlərinin müəyyən təşkilatlar tərəfindən satılması, otel rezervasiyalarının vasitəçilər tərəfindən edilməsi, bələdçi xidmətləri aid edilir. Bunlara baxmayaraq elektron turiz xidmətinin əsas üstünlükləri ondan ibarətdir ki, turistlər səfəri özləri planlaşdıra bilər, qiymətləri müqayisə etmək daha asan olur və daha sürətli, rahat xidmət həyata keçirilir. **Nəticə.** Həmçinin, Elektron resursların əsas üstünlüyü onların operativliyi, interaktivliyi və geniş əhatə dairəsinə malik olmasıdır. Lakin elektron informasiya resurslarında baş verən mənfi hallardan biri də saxta rəylər və manipulyativ reklamların mövcudluğudur ki, bu da aktual problemlərdən hesab olunur. Əminik ki, qısa da olsa qeyd etdiyimiz təklif və tövsiyələr bu sahə üzrə çalışan ixtisasçı mütəxəssislər, müstəqil tədqiqatlarçılar

üçün əsas informasiya mənbəyi olacaqdır.

ƏDƏBİYYAT SİYAHISI

1. Turizm haqqında Azərbaycan Respublikasının Qanunu.- Bakı şəhəri, 27 dekabr 2021-ci il. https://e-qanun.az/framework/49162
2. Xiang, Z., V. Magnini, and D. Fesenmaier 2015 Information Technology and Consumer Behavior in Travel and Tourism – Insights from Travel Planning Using the Internet. Journal of Retailing and Consumer Services 22:244-249.
3. Sharda, N. Tourism Informatics : Visual Travel Recommender Systems, Social Communities and User Interface / N. Sharda. – Hershey – New York : Information science reference, 2010. – 334 p.
4. Максимова, Л. М. Роль информационного обеспечения в системе развития въездного и внутреннего туризма [Текст] / Л. М. Максимова // Современные проблемы сервиса и туризма. 2012. № 1. С.68-73.
5. https://az.wikipedia.org/wiki/Dayan%C4%B1qlı%C4%B1_turizm

AZƏRBAYCANDA ARXEOLOJİ İRSİN GENDER ASPEKTLƏRİ

Gender Aspects Of Archaeological Heritage In Azerbaijan

ELZA MOLLAYEVA
Elza Mollayeva
elzamollayeva@rambler/ru
Bakı Dövlət Universiteti
Baku State University

XÜLASƏ

Məqalədə qeyd edilir ki, cəmiyyətin iqtisadi, mədəni və siyasi proseslərini özündə əks etdirən tarixə bu gün nəzər salsaq görərik ki, tarixdə kişilərin rolları daha qabarıq verilmiş, bununla yanaşı kişilərlə bərabər, bütün sahələrdə fəaliyyət göstərən qadınların roluna isə çox az yer ayrılmışdır. Müəyyən istisnalar halında görkəmli qadınların adları çəkilsə də bu qadınların da tarixdə rolu lazımınca işıqlandırılmır. Qadın azadlığı ənənələri bəşər tarixinin ayrılmaz, ancaq yetərincə məlum olmayan və bu gün də tədqiqinə ehtiyac duyulan hissəsidir. Müasir dövrdə tarixi hadisələrə gender baxımından yanaşılması tarixdə kişilərin daha böyük rola malik olması haqqındakı stereotipləri laxlatdı, tarixi hadisələrin gender süzgəcindən keçirilməsi zərurətini ortaya qoydu. Azərbaycanda arxeologiya və etnoqrafiyanın qadınların həyat və fəaliyyətilə bağlı verdikləri məlumatlar çox qiymətlidir. Tarixin ən qədim dövrünün əsas mənbəşünaslıq bazası rolunu oynayan ibtidai arxeologiya, arxeoloji tədqiqatlar sayəsində toplanan materiallar qədim Azərbaycan ərazisində yaşamış insanlar arasındakı cinsi münasibətlər, dini təsəvvürlər və onlarda qadınların yeri haqqında müəyyən təsəvvür yaratmağa imkan verir. Qadının qədim dövrlərdə hec də passiv, ikincidərəcəli fiqur olmamasını sübut edən arxeologiya digər tarixi dövrlərlə müqayisədə ibtidai icma dövrü haqqında maddi və mənəvi mədəniyyət abidələrinin az olmasını nəzərə alaraq, qadının şəxsi həyatını tam canlandırmaq üçün yazılı abidələrdən başqa, fetiş, amulet, ev əşyaları, qablar üzərindəki yazılar, divar yazıları, qəbirdaşlarındakı şəkillərə istinad edir. Azərbaycan tarixinin ilk dövrlərində qadınların yeri, rolu, fəaliyyətləri haqqında ən dəyərli məlumatları arxeoloji əhəmiyyətə malik olan zaman dayanacaqları verir. Onlardan da ən qədimi Azıx mağarasına aiddir. İbtidai icma tarixinin mədəni laylarını xronaloji cəhətdən özündə əks etdirən və bu sahədə hələlik dünyada yeganə insan məskəni sayılan Azıx mağarası, Qobustan Azərbaycan ərazisində cinslərin sosial bərabərliyinin qədim dövrə aid mənzərəsini özündə ehtiva edən ən qiymətli insan məskənləri saymaq olar.

Açar sözlər: *gender bərabərliyi, arxeoloji irs, Azıx mağarası, Qobustan, ana xaqanlığı*

ABSTRACT

The article notes that if we look at history today, which reflects the economic, cultural and political processes of society, we will see that the roles of men in history are given more prominence, while very little space is allocated to the role of women who work alongside men in all fields. Although the names of prominent women are mentioned in certain exceptions, the role of these women in history is not adequately highlighted. The traditions of women's liberation are an inseparable, but insufficiently known, part of human history that still needs to be studied today. In modern times, approaching historical events from a gender perspective has shattered stereotypes about men having a greater role in history and revealed the need to filter historical events through gender. The information provided by archaeology and ethnography in Azerbaijan regarding the life and activities of women is very valuable. Primitive archeology, which plays the role of the main source base of the most ancient period of history, and the materials collected through archaeological research allow us to create a certain idea about the sexual relations between people who lived in the territory of ancient Azerbaijan, religious beliefs, and the place of women in them. Archaeology, which proves that women were not passive, secondary figures in ancient times, takes into account the small number of material and spiritual cultural monuments of the primitive community period compared to other historical periods, and in order to fully revive the personal life of women, in addition to written monuments, refers to fetishes, amulets, household items, inscriptions on dishes, wall inscriptions, and images on tombstones. The most valuable information about the place, role, and activities of women in the early periods of Azerbaijani history is provided by archaeologically significant time stops. The oldest of them belongs to the Azikh cave. The Azikh Cave, which chronologically reflects the cultural layers of the history of the primitive community and is currently considered the only human settlement in the world in this area, can be considered the most valuable human settlements in Azerbaijan, containing the ancient picture of social equality of the sexes.

Keywords: *gender equality, archaeological heritage, Azikh Cave, Gobustan, mother khaganate*

Azərbaycanda gender bərabərliyinin qədim dövrlərdəki mənzərəsini gözlərimiz önünə gətirsək görərik ki, bütün tarixi tərəqqi yalnız kişi təcrübəsini yox, eyni zamanda qadınların

fəaliyyətini də özündə əks etdirir. Tarixə gender prizmasından yanaşılmasının, «qadın məsələsinin öyrənilməsinin məqsədi - hər iki cinsi əhatə edən bütöv tarix haqqında təsəvvür formalaşdırmaqdır» (Azərbaycan tarixinin gender aspektləri, 2005,s. 3).

Cəmiyyətin iqtisadi, mədəni və siyasi proseslərini özündə əks etdirən tarixə bu gün nəzər salsaq görərik ki, tarixdə kişilərin rolları daha qabarıq verilmiş, bununla yanaşı kişilərlə bərabər, bütün sahələrdə fəaliyyət göstərən qadınların roluna isə çox az yer ayrılmışdır. Müəyyən istisnalar halında görkəmli qadınların adları çəkilsə də bu qadınların da tarixdə rolu lazımınca işıqlandırılmır. Rus genderşünası N.Puşkaryova qeyd edir ki, kişi nüfuzu, kişi əməyi bütün cəmiyyətlərdə üstün tutulur. Kişi və qadın fəaliyyət sahələri qeyri-bərabər hesab edilir, üstünlük, idarəetmə üslubu kişiyə xas olur (Пуıııкарева Н.Л. 1999, s.22). Bəşər tarixinin gedişində qadınların fəaliyyətləri daha çox şəxsi, ailədaxili fəaliyyət kimi verilir. Bununla da bu günə qədər qadınların dünya sivilizasiyası tarixinə real olaraq verdikləri töhfələr, onların bəşər tarixinin inkişafında oynadıqları rolları getdikcə yaddan çıxarılır.

Qadın azadlığı ənənələri bəşər tarixinin ayrılmaz, ancaq yetərincə məlum olmayan və bu gün də tədqiqinə ehtiyac duyulan hissəsidir. Müasir dövrdə tarixi hadisələrə gender baxımından yanaşılması tarixdə kişilərin daha böyük rola malik olması haqqındakı stereotipləri laxlatdı, tarixi hadisələrin gender süzgəcindən keçirilməsi zərurətini ortaya qoydu.

Azərbaycanda arxeologiya və etnoqrafiyanın qadınların həyat və fəaliyyətilə bağlı verdikləri məlumatlar çox qiymətlidir.

Tarixin ən qədim dövrünün əsas mənbəşünaslıq bazası rolunu oynayan ibtidai arxeologiya, arxeoloji tədqiqatlar sayəsində toplanan materiallar qədim Azərbaycan ərazisində yaşamış insanlar arasındakı cinsi münasibətlər, dini təsəvvürlər və onlarda qadınların yeri haqqında müəyyən təsəvvür yaratmağa imkan verir.

Qadının qədim dövrlərdə hec də passiv, ikincidərəcəli fiqur olmamasını sübut edən arxeologiya digər tarixi dövrlərlə müqayisədə ibtidai icma dövrü haqqında maddi və mənəvi mədəniyyət abidələrinin az olmasını nəzərə alaraq, qadının şəxsi həyatını tam canlandırmaq üçün yazılı abidələrdən başqa, fetiş, amulet, ev əşyaları, qablar üzərindəki yazılar, divar yazıları, qəbirdaşlarındakı şəkillərə istinad edir.

Tarixi araşdırmalar sübut edir ki, ibtidai icma dövründə Azərbaycan ərazisində matriarxat müəyyən dərəcədə yayılmış və qadın qəbilə və icma daxilində sitayiş obyekti olmaqla bərabər, həm də nüfuz sahibi olmuşdur. Lakin ovçuluğun yeganə qida mənbəyinə çevrilməsi qadının nüfuzuna müəyyən qədər xələl gətirirdi, cünki qadınlar da kişilərlə bərabər ov etmək qabiliyyətinə sahib ola bilərdilər. Ancaq onlar nəsil artırmaq vəzifəsini bu nüfuzlu fəaliyyət növü ilə məşğul olmaqdan üstün tuturdular. Qədim dövrlərdə insanlar və xüsusilə də uşaqlar arasında ölüm hallarının yüksək olması qadınları uşaqlarla daha çox vaxt keçirtməyə sövq edirdi. Onlar öz həyatlarının əksər hissəsini uşaq doğmağa və övladını yaşatmaq üçün onu bəzən 4 yaşa qədər döşü ilə yedizdirməyə sərf edirdi. Məhz bu səbəb qadının evdən kənarda vaxt keçirtməsinə mane olur və onun ovçuluqdan könüllü əl çəkməsinə şərait yaradırdı. Ondan əvvəl isə qəbilə və tayfa daxilində qadınlar kişilərə nisbətən daha önəmli rola malik idilər.

Azərbaycan tarixinin ilk dövrlərində qadınların yeri, rolu, fəaliyyətləri haqqında ən dəyərli məlumatları arxeoloji əhəmiyyətə malik olan zaman dayanacaqları verir. Onlardan da ən qədimi Azıx mağarasına aiddir. İbtidai icma tarixinin mədəni laylarını xronaloji cəhətdən özündə əks etdirən və bu sahədə hələlik dünyada yeganə insan məskəni sayılan Azıx mağarasında 400 min il əvvəl, Orta Aşel dövrünün əvvəllərində insan- «azıxantroplar» yaşamışdır. İnsan cəmiyyətinin ilk çağı sayılan ibtidai insan sürüsü mərhələsində həm kişi, həm də qadınlar arasında heç bir sahədə ayrı seçkilik yox idi. Azıxantroplar əsasən oturaq həyat tərzi keçirir, mağaralardan ev kimi istifadə edir, yem tapmaq üçün hərdən yerlərini dəyişirdilər. Onların mənəvi həyatında odla bağlı ayinləri xüsusi rola malik idi. Azıx adamları oda yalnız yemək hazırlamaq, vəhşi heyvanları qorxutmaq

vasitəsi kimi baxmırdılar. Onlar üçün od, ocaq əsas ailə allahı idi və insanın ruhlarla ünsiyyətində başlıca rola malik idi. Qadının gündəlik məişət şəraitində ocaqla daha çox məşğul olması və odun qorunmasında onun bilavasitə məsuliyyət daşıması qadını kişiyə nisbətən sitayiş obyektinə çevirirdi. Məhz qadın ocaq qoruyucusu idi və o gün ərzində ocağın yanmasının qayğısına qalmaqla yanaşı, həm də onun üstündə həmtayfaları üçün yemək hazırlayırdı. Çətin məqamlarda qadın ovsunlu sözlərlə oda müraciət edirdi. Od ayininin qadın ayini ilə sıx bağlılığı Azıx mağarasında daha çox hiss edilir. Bunu təsdiq edən faktlardan biri oradan qadın fiqurlarının tapılmasıdır. Mağaraya daxil olan zaman, böyük zalın girişinin lar əvvəlində örtüyə bürünmüş, hündürlüyü 1,8 metrə bərabər olan qadın heykəli görmək olar. Həmin heykəlin yanından tapılmış müxtəlif rəngli muncuqlar qadına sitayiş edilməsinə dəlalət edir və bu qabılə üzvlərinin qadın ilahəyə verilən nəziri idi. Tədqiqatcı L.Mövsümova yazır: «... od məskənin sakinlərinin hamısına, birinci növbədə ənənəvi olaraq yemək hazırlamaqla və odu qorumaqla məşğul olan qadına yaxın idi. Onlar odla «ünsiyyətə girə», ondan diləklər edə, od tanrısından məsləhətlər, gələcəkdən xəbərlər və b. ala bilərdilər» (Mövsümova l.2002, s. 32).

Azıx mağarasından tapılmış əşyalar içərisində müxtəlif ölçüdə qadın fiqurlarının olması qadının uşaqların tərbiyəsində, onların böyüməsində daha cox rola malik olmasını da sübut edir.

Orta paleolot dövründə (100-70 min il əvvəl) ibtidai icma quruluşu-nəsildən ibarət cəmiyyət formalaşdı və insanlar sürü kimi primitiv kollektiv formasından bir qədər mütəşəkkil olan icmaya keçdilər. İnsanlar ov və meyvə yığımı ilə məşğul idilər. Ov silahlarının sadəliyi və məhdudluğu üzündən insanlar müntəzəm surətdə qida tapa bilmirdilər və cəmiyyəti yemlə təmin etməyin əsas mənbəyi yığıcılıq olaraq qalırdı ki, bununla da əsasən qadınlar məşğul olurdular. Orta paleolit dövründən başlayaraq getdikcə qadın cəmiyyətin aparıcı iqtisadı və sosial fərdinə çevrilirdi. Ehtiyac və aclıq qadını vəhşı taxıl əkməyə vadar etdi. Onlar şüurlu şəkildə dənli bitgi yığmaqdan onları təbiət asılılığından qismən azad edən becərməyə keçdilər. İqtisadi fəaliyyətilə bağlı qadının sosial statusu da yüksəlməyə başladı, belə ki, orta paleolit dövründə yaranmış anaxaqanlığı yuxarı paleolit dövründə tam hökmran mövqeyə sahib oldu.

Neolit dövründə Azərbaycanda toxa əkinçiliyi ilə məşğul olan qadın daha bir neçə min il cəmiyyətdə öz üstünlüyünü saxlaya bildi. Mənimsəmə təsərrüfatından istehsal təsərrüfatına keçid, yeni, yem istehsalında əsas rola malik olmağa başlayan əkinçilik və maldarlığın yaranması ataxaqanlığının yaranmasına həm iqtisadi, həm də sosial cəhətdən şərait yaratdı. Tədqiqatcı-alim F.Məmmədovanın təbirincə desək «kişilər proqressiv, daha sərfəli əkinçilik və maldarlıq yarada bildi ki, bu da onun cəmiyyətdə aparıcı iqtisadi və sosial vahidə çevrilməsinə təsir göstərdi. İstehsalın əsas sahələrinə başçılıq edən kişi cəmiyyətin kiçicik bir özəyi olan ailədə də qadın üzərində tam hökmranlığa sahib oldu» (Azərbaycan tarixinin gender aspektləri, 2005,s. 8).

Anaxaqanlığının mövcudluğunu təsdiq edən faktlar, Qobustanda, Qarğalartəpəsində və Azərbaycanın digər yerlərində tapılmış qadın heykəlcikləri gender baxımından ən qiymətli tapıntı sayıla bilər.

Böyük Qafqaz sıra dağlarının cənubi-şərqində yerləşən və səma altında açıq muzey olan Qobustanda 6 minə yaxın qayaüstü təsvir və daş əsrinin 10 dayanacağı aşkar edilmişdir. Qobustan kompleksində tapılmış qadın rəsmlərinin bir neçəsi daha cox məna və maraq kəsb edir. Bu rəsmlər «Ana zağa» mağarasının qarşısındakı qadın təsviri və «Yeddi gözəl» mağarasında olan qadın şəkilləridir. 29 saylı daşın üzərində, mağaranın girəcəyində, sol tərəfdə 77 şəkil oyulub ki, onlardan 24-ü qadın şəklidir. Məhz buna görə mağaranın adı «Ana zağa» adlanır.

İlk insan məskənlərindən tapılan qadınla bağlı fiqurlar cəmiyyətin ilk dövründə qadına verilən qiyməti özündə ehtiva edir və ailələrin sitayiş etdikləri qadın ilahələrin bütləri olmuşdur. Məhz tapılan tarixi əşyalar içərisində çoxluq təşkil edən bu qadın fiqurları onu deməyə əsas verir ki, qədim dövr cəmiyyətində qadın başlanğıcının rolu çox böyük olub. Bu da həmin dövrdə yaşayan insanların təsəvvüründə və inanclarında öz əksini tapmışdır, yəni, qadın ana obrazı cəmiyyətin

diqqət mərkəzində olmuşdur.

Azərbaycanda anaxaqanlığı yalnız qadının təsərrüfatdakı rolu ilə deyil, onun uşaqları tərbiyə etməsi funksiyası ilə də bağlıdır. Uşaqların tərbiyə edilməsində ananın aparıcı rolu tarixən danılmaz bir faktdır. Bir həqiqəti danmaq olmaz ki, qadın başlanğıcı ibtidai cəmiyyətin ideologiyasında üstünlük təşkil etsə də kişi başlanğıcı da müəyyən nüfuza malik idi. Kişi və qadınlar arasında sosial bərabərlik hökm sürüb, onlar arasında rəqabət və qeyri-bərabərlik yox, əməkdaşlıq mövcud olub. Belə ki, «sosiogenez və ictimai münasibətlərin formalaşması prosesi dövründə onlar bir-birini qarşılıqlı şəkildə tamamlayıblar» (Gender və sənətşünaslıq, 2005, s.23).

Tədqiqatçıların nəzərini cəlb edən bir fakt da bu dövrdə qadının cəmiyyətdəki nüfuzunu təsdiqləyir. Belə ki, ibtidai insanın gildən düzəltdiyi ilk ilahi təsvir məhsuldarlığı özündə təcəssüm etdirən ilahə heykəli olmuşdur. Bütün qədim cəmiyyətlərdə ilk ilahi varlıqlar kişi yox, qadın şəklində olmuşdur. Bunu Azərbaycanın bəzi bölgələrindən tapılmiş müxtəlif ölçülü qadın fiqurları da sübut edir.

Azərbaycanda eneolit (e.ə VI-IV minilliklər) dövründə sosial-ictimai həyatda müəyyən dəyişikliklər baş versə də, qadına sitayiş müəyyən dərəcədə qalırdı. Belə ki: «qadına nəslin yaradıcısı, tayfa ocağını qoruyub saxlayan ilahi qüvvə, bərəkət, əminamanlıq və firavanlıq mənbəyi kimi baxılması təsadüfi deyildi. Eneolit abidələrində (Qarğalar təpəsi və Çalağantəpə) çoxlu qadın heykəllərinin tapılması da qadına sitayişlə bağlıdır. Qadın bərəkət, rifah rəmzi olmaqla yanaşı, həm də təmizlik, paklıq, müqəddəslik nümunəsi kimi yüksək qiymətləndirilirdi» (Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrə qədər). 1994, s.31).

Bəşər tarixində cinslərin bir-biri üzərində hökmranlığı bir-birini əvəz etsə də tarixdə anaxaqanlığının mövcudluğunu heç də tarixcilərin hamısı qəbul etməmişdir. Onlar qadının müəyyən zaman kəsiyində kişilər üzərindəki hakimiyyətini cəngavər amazonkalar haqqındakı mif və rəvayətlərlə bağlayırlar. Tarixin bu mərhələsində qadın-döyüşçülər haqqındakı məlumatlar (tarixi reallıqdan uzaq olsa belə) güclü marağa səbəb olan amillərdən biridir. Yunan tarixçilərinin (Strabon, Herodot) fikrinə görə anaxaqanlığının mövcud olduğu qəbilələrdən biri qədim Azərbaycan ərazisində, Araz çayı üzərində yaşamış massaget tayfaları olmuşdur. İlk Azərbaycan qadın hökmdarı Tomirisin də məhz bu qəbilədən olması bu miflərdə müəyyən qədər həqiqətlərin olması ehtimalını yaradır. Amazonkalar haqqında tarixi məlumatların əsas mənbəyi antik tarixçilərin əsərləri sayılır, belə ki, bu məlumatlar qadın qəhrəmanlığının və döyüşkənliyinin heç də kişilərdən geri qalmadığından xəbər verir. Strabonun verdiyi məlumata görə «...Albaniya üzərindəki dağlarda amazonkalar yaşayır»(Алиев К. 1987, s.103). O, Pompeyin Şərq yürüşlərində iştirak etmiş Feofanın nəqlinə əsaslanaraq qeyd edir ki, «skif tayfalarından olan gellər və leqlər amazonkalarla albanların arasında yaşayırlar və bu ölkədə o tayfalarla amazonkaların arasında Mermadalida çayı axır» (Алиев К. 1987, s.22).

Rəvayətə görə amazonkalar nəsil artımının qeydinə qalmaq məqsədilə ildə bir dəfə qonşuluqda yaşayan kişi qəbilələrinin üzvlərilə ünsiyyətdə olurdular. Anadan olan qızları özləri tərbiyə etdikləri halda, oğlan uşaqlarını atalarına qaytarırdılar. Yəni amazonkalar qədim spartalılar kimi əsil döyüşcü, hərbi işi gözəl bilən qadın tərbiyə edib yetişdirirdilər. Onların güclü hərbi hazırlıqla məşğul olması düşmənlərdən özünümüdafiə üçün lazım idi ki, bu da çox vaxt özünütəcrid şəraitində yaşayan amazonkaların naməlum, hamı üçün müəmma olan ölkələrinə kişilərin düşmək istəyi ilə müşayət olunurdu. Hərbi hazırlığı təlim və tərbiyənin əsas məqsədinə çevirən amazonkalar nəinki özlərini müdafiə edir, həm də gözlənilməz hücuma məruz qalan, onlarla mehriban qonşuluq şəraitində yaşayan qonşularına da kömək edib onların tərəfində mərdliklə döyüşürdülər.

Tarixçilərin fikrincə «amazonka» «döşsüz» sözünün sinonimi sayıla bilər ki, bu qadınlar ox atarkən maneçilik törədən sağ döşü yandırır və ya sıx bağlayıb inkişaf etməyə qoymurdular Müasir etnoqraflar təsdiq edirlər ki, amazonkalar haqqındakı rəvayətlərdə müəyyən qədər tarixi reallıq

vardır. Çünki əldə edilmiş maddi və mənəvi mədəniyyət nümunələri də bunu bir daha təsdiqləyir.

Azərbaycanın qədim dövründə də cəngavər qadınların-amazonkaların izlərini görmək olar. Buna misal olaraq müəllim Qobustanda arxeoloqların «Yeddi gözəl» adlandırdıqları 7 qayaüstü rəsmi misal çəkə bilər. Rəsmdəki qadınların sağdan sola çiyinlərindən aşırılmış yay (oxatan) onların sağ döşlərini örtmüşdür.

Qədim Roma tarixçilərindən Plutarxın və Appianın sözlərinə görə Roma sərkərdəsi Pompey b.e.ə 66-cı ildə Albaniyaya yürüş edən zaman Alazan çayı üzərindəki döyüşdə amazonkalar Albaniya tərəfində vuruşmuşlar. Appian yazırdı ki, bu qanlı döyüşdə əsir götürülənlər arasında çoxlu sayda qadın olmuşdur və döyüşdən sonra ölüləri qarət edən romalılar «amazonka qalxanı və ayaqqabılarına (koturnlarına) rast gəldiklərini» (Алиев К. 1987, s.62) xəbər verir. Prof. Əli Saləddinin fikirləri də problem baxımından maraqlıdır: «dünyada amazon(ka)lar adı ilə tanınan igid, qəhrəman, döyüşkən qadın obrazlarının ilkin vətəni türk elləridir. Daha dəqiq desək, onların ilk ana beşiyi Qafqaz olmuşdur. Təsadüfi deyil ki, bu gün Qafqazda, daha çox Azərbaycanda həmin qızların şərəfinə ucaldılmış abidələr, qoyulmuş yer-yurd adları da yaşamaqdadır. Belə ki, respublikamızda Siyə-zən (Siyah-zən-qara qadın), Too-vuz (dağ qızı), Gavur-zən (gavur qadın), Qaf-qaz-Qaf-qız (Qaf qızı)... Şimali və Cənubi Azərbaycanda 100-ə yaxın qız qalası...olması danılmaz faktdır»(. Saləddin Ə. 1990, s.22).

Türkdilli xalqların folklorunu gender aspektindən araşdıran zaman məlum olur ki, orada amazonkalar ilə bağlı bir sıra məlumatlara rast gəlinir. Məsələn, qaraqalpaq folklorunda geniş yayılmış və amazonkaların həyatını özündə əks etdirən «Qırx qız» adlı xalq poemasındakı qadın obrazı Nizaminin Nüşabəsinə daha çox bənzəyir. Bu poemanın qəhrəmanları Aral dənizinin sahilində yaşayırlar. Əsərin baş qəhrəmanı olan Gülayim qırx qızla kişilərdən ayrı yaşayıb, başına yığdığı qız və qadınlara «igidlik dərsləri» keçib onları döyüşə hazırlayır. O özünə «Gülayim qalası» tikdirir və ona öz adını verir, ərə gedəndə gəlin kimi öz qalasından başqa yerə köcmür, sevgilisi onun yanına köçür. Bu gün də qaraqalpaq diyarında amazonkaların mövcudluğunu sübut edən tarixi abidələr qalmaqdadır və onlardan birinin «...adı «Qırx qız qalası»dır.Bu motiv bir sıra cizgiləri ilə Bərdə, onun Nüşabəsi haqqında olan süjet xəttinin inkişafı ilə yaxından səsləşir. Kim bilir, Nizami bəlkə də bu əsərdən təsirlənmişdir. Hər halda əski miflər, rəvayətlər və əfsanələr diqqətlə öyrənilməlidir» (Saləddin Ə. 1990, s. 24). «Qırx qız» xalq poemasının izlərini digər türkdilli xalq olan qırğızların «Canıl Mırza» eposunda da görmək mümkündür, belə ki, bu eposda qaraqalpaqlarda olduğu kimi qırğız qızlarının da qəhrəmanlığı tərənnüm olunur. Tarixdə döyüşkən qadınlar olan amazonkalar haqqında geniş məlumat almaq üçün türkdilli xalqlara mənsub olan folklor nümunələri dərindən tədqiq edilməlidir. Cünki bu xalqların mifləri, əsatirləri, əfsanə və rəvayətləri gender baxımından əhəmiyyətli mənbə rolunu oynaya bilər.

Problem baxımından belə məlumatlar gender bərabərliyinin qədim tarixi köklərə malik olması haqqında təsəvvür yaradır.

Müəyyən zaman çərcivəsində cəmiyyətdə liderlik edib anaxaqanlığının əsasını qoymuş qadınlar onları özlərinə tabe etməyə çalışan kişilərə qarşı mübarizə aparmışlar və bu mübarizəni tarixdə iz qoymuş böyük müharibələrlə müqayisə etmək düzgün olmasa da əslində qadınların tarix boyu kişilərə qarşı apardıqları mübarizə uzunsürən və amansız olmuşdur. Bəlkə də bu mübarizənin ən amansız dövrü amazonkaların adı ilə bağlıdır.

Tarixi araşdırmalara istinad etsək görərik ki, bəzi tarixcilərə görə, məsələn Rian Aslerə (Riane E. 1987) görə lap qədim dövrlərdə bəşəriyyət cinslər arasındakı münasibətdə heç bir ayrı-seçkilik qoymadan tam bərabərlik və sülh şəraitində yaşamışdır. Bu dövrdə qadının hüquqlarının pozulması və ya onun ikinci dərəcəli varlıq kimi qəbul edilməsi heç kimin ağlına belə gəlmirdi və cinslər arasındakı münasibətlərdə əməkdaşlıq əsas norma sayılırdı. Bu da yəqin ki, o dövrün ağır sosial-iqtisadi həyatının yaşam uğrunda mübarizə aparan insanlar qarşısında qoyduğu tələb idi.

Cinslər arasındakı münasibətlər kimin kim üzərində hakimiyyətinə yox, əmək bölgüsünə

əsaslanırdı və burada heç kim bir-birinə təzyiq göstərmirdi. İnkar etmək olmaz ki, qadın ayini var idi və insanlar bəşər tarixinin lap başlanğıcında qadına sitayiş edirdilər. Lakin sitayiş edilən bu varlıq ana idi və onun övladları, həm qadınlar, həm də kişilər ana qarşısında bərabər idilər. Bu anaxaqanlığı dövrü idi, yəni nəsil ana xətti ilə ötürülürdü, qadınlar tayfanın həyatının bütün sferalarında aparıcı rola malik idilər. Lakin bu dövrdə kişilərin vəziyyəti sonrakı ataxaqanlığı dövründə qadınların malik olduqları tabeçi vəziyyətinə tamamilə bənzəmirdi. Hətta lap qədim dövrlərə aid olan mifoloji anlamda qadın və kişi bölümü yox idi, hər iki başlanğıc yanaşı yaşayırdı.

Nəticə olaraq demək olar ki, Azərbaycan ərazisində cinslər arasında sosial bərabərliyi-gender münasibətlərinin mənzərəsini aydın təsəvvür etməyə imkan verən arxeoloji irsimiz bu istiqamətdə yeni tədqiqatların zəruriliyini ortaya qoyur.

ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrə qədər). I cild. Ali məktəblər üçün dərslik. Z.M.Bünyadovun və Y.B.Yusifovun redaktəsilə. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1994, 680s.
2. Azərbaycan tarixinin gender aspektləri. Dərs vəsaiti. Bakı: Qərb Universiteti, 2005, 202s.
3. Gender və sənətşünaslıq. Dərs vəsaiti.Bakı: Qərb Universiteti, 2005,263s.
4. Mövsümova l. Azərbaycan qadını uzaq keçmişdən indiyədək. Bakı: ULU nəşriyyatı, 2002, 300s.
5. Saləddin Ə. Nizami Gəncəvi və türk toplumunun mifologiyası// Ulduz, 1990, №11, s.22-24.
6. Алиев К. Античные историки по истории Азербайджана, Издание второе, стереотипное. Баку: Елм, 1987, 132 с.
7. Пушкарева Н. Л. Гендерный анализ и его применение к изучению истории культуры. //Отечественная истории. 1999, № 1, стр. 19-29.
8. Riane E. The Chalice and the Blade. New York: Harper &Row, 1987. 367p.

EKOLOJİ TURİZMDƏ DAVAMLILIĞIN QİYMƏTLƏNDİRİLMƏSİ

Sustainability Assessment in Ecotourism

NAZİM NİFTƏLİYEV
Nazim Niftaliyev
nazim.niftaliyev@mdu.edu.az
Mingəçevir Dövlət Universiteti
Mingachevir State University

XÜLASƏ

Bu tədqiqat, son zamanlar böyük inkişaf göstərən ekoloji turizmin dayanıqlılıq baxımından əhəmiyyətini vurğulamaq üçün aparılmışdır. Turizm sektoru iqtisadi və sosial gəlirləri ilə böyük bir potensiala çevrilmişdir və ölkələr arasında bu potensialdan ən böyük payı əldə etmək üçün geniş bir rəqabət başlamışdır. Bu rəqabətdə ən vacib vasitə dənizdən istifadə edərək sahil turizmini inkişaf etdirmək olmuşdur. Bu prosesdə turizmə böyük investisiyalar qoyan Azərbaycan dəniz-qum-günəş üçlüyü ilə sürətli və planlaşdırılmamış turizm inkişafına nail olmuş və sahillərin daşıma qabiliyyətinə çatmışdır. Nəticədə alternativ turizm sahələrinə müraciət zərurətə çevrilmiş və ekoloji turizm tələbə çevrilmişdir. Lakin, tətbiqlərə başlandıqda qarşılaşılan ən vacib problem onun dayanıqlılığı olmuşdur. Bu məqsədlə, tədqiqatda ekoloji turizm və dayanıqlılıq anlayışları müəyyən edilmiş, ekoturizm və dayanıqlı turizmin ümumi xüsusiyyətləri və əlaqəli ətraf mühitə təsirləri bildirilmişdir. Davamlı keyfiyyətə malik olmayan heç bir turizm fəaliyyətinin uzunmüddətli ola bilməyəcəyini vurğulayan bu tədqiqatın bu məsələ ilə bağlı məlumatlılığı artıracağı düşünülür.

Açar sözlər: *Turizm, ekoloji turizm, davamlılıq, davamlı turizm, alternativ turizm*

ABSTRACT

The purpose of this study is to emphasize the importance of the varieties of ecological tourism that has progressed substantially in terms of sustainability. With its economic and social benefits tourism sector has become a great potential today and a fierce competition between countries has begun to receive the largest share of this potential. Taking advantage of the sea has been the most significant tool in this competition to develop coastal tourism. In this process, Azerbaijan, which has made great investment in tourism, has gone through a rapid and unplanned growth of tourism due to the sea-sandsun trilogy. Accordingly, accommodational capacity of coastal living got full. As a consequence, resorting to alternative tourism fields has been an obligation, and ecological tourism has become a necessity. However, the sustainability of ecological tourism has been the most crucial problem that has been encountered since the applications started. For this purpose in this study, the concepts of ecological tourism and sustainability will be defined; the general characteristics of ecotourism and sustainable tourism, and potential environmental impacts associated with development will be indicated. In conclusion, this study is considered to increase the awareness on this issue, which stresses the idea that any touristic activity which has no sign of sustainability will by no means last long.

Keywords: *Tourism, ecological tourism, sustainability, sustainable tourism, alternative tourism*

GİRİŞ

Dünyada baş verən sürətli iqtisadi, siyasi və texnoloji inkişaf və dəyişikliklərə paralel olaraq, turizmin ölçüləri getdikcə artır və milli iqtisadiyyatlarda mühüm yer tutur. Turizm sektorunda edilən hər bir xərc iqtisadiyyatı stimullaşdırır və canlandırır. İnkişaf edən qlobal rəqabət nəzərə alınmaqla, bu cür fəaliyyətlər milli və beynəlxalq qaydalarla dəstəklənir. Lakin son illərdə sahil turizminin təsiri səbəbindən sahil bölgələrinin daşıma qabiliyyəti tamamilə doldurulmuş və sahilboyu böyük deqradasiya baş vermişdir. İstirahət, əyləncə və görməli yerlərlə bağlı turist istehlakı modellərində əhəmiyyətli dəyişikliklər müşahidə olunur. Lüks turizm fəaliyyətlərində iştirak tədricən azalır və bir növ doyma nöqtəsinə çatmış adi turizm mərkəzlərindən bir qədər də olsa uzaqlaşmaq meyli var. Buna görə də, həm turist profilində, həm də istehlak modellərindəki dəyişikliklər təbii və mədəni mühitin qorunması və istifadəsi balansında istifadəsini nəzərdə tutan ekoturizm və davamlı turizm kimi yeni anlayışların formalaşmasına gətirib çıxarır.

Ekoturizm anlayışı populyarlaşmış və tez-tez istifadə olunmuşdur, turizm-ətraf mühit münasibətlərinin və davamlılıq müzakirələrinin artan əhəmiyyəti ilə ortaya çıxmışdır. 1990-cı illərdə kütləvi turizmə reaksiya və alternativ olaraq inkişaf edən ekoturizm kənd və mədəni turizm elementlərini özündə birləşdirir və həssas təbii və mədəni ərazilərdə inkişaf etdirilə bilən ən uyğun turizm növü kimi təsvir olunur. Nəzarətsiz kütləvi turizmin yaratdığı ətraf mühitə və cəmiyyətə zərər qarşısında ekoturizm davamlı inkişafın təmin edilməsində mühüm vasitə kimi qəbul edilir. Ekoturizm davamlı turizmlə sinonim kimi istifadə olunsa da, eyni zamanda davamlı turizmin formalarından biridir və onun bir alt hissəsini təşkil edir. Ekoturizm ətraf mühiti qoruyan, yerli əhalinin rifahını nəzərə alan və təbii ərazilərə həssas olan bir səyahət növüdür. Davamlı turizm siyasəti sayəsində ekoturizmin mövcud olmaq və inkişaf etmək şansı var. İndi ekologiya və iqtisadiyyat bütövlükdə nəzərdən keçirilir. Həyata keçirilən fəaliyyətlər həm iqtisadi, həm də ekoloji səmərəlilik daşımalıdır. Başqa sözlə, iqtisadi və ekoloji davamlılıq bir-birini istisna etmədən mövcud olmalıdır.

Bu tədqiqat, ekoloji turizm haqqında məlumat verdikdən sonra, ekoloji turizm dəyərlərinə praktikada nə dərəcədə riayət olunduğunu müəyyən etməyə çalışır. Burada ekoturizm növlərinin kütləvi turizm qədər olmasa da, uzunmüddətli perspektivdə mənfi ekoloji təzyiqlərə səbəb ola biləcəyi vurğulanır. Tədqiqat üç bölmədən ibarətdir. Birinci bölmədə ekoturizm anlayışı təqdim olunur. İkinci bölmədə davamlı artım və turizm müzakirə olunur. Üçüncü bölmədə ekoturizmin davamlılığı, nəticə və qiymətləndirmə yer alır. Bu tədqiqatdan irəli gələn qiymətləndirmələrin ekoloji turizmin davamlı inkişafı üçün faydalı fikirlər təqdim edəcəyinə inanılır.

1. EKOLOJİ TURİZM

Ekoturizm ekoloji turizmin qısaltmasıdır. Ekoturizm təbiətə zərər verməyən və onu qoruyan bir turizm anlayışına aiddir. Beynəlxalq Təbiəti Qoruma Birliyinin (IUCN) tərifinə görə, ekoturizm istirahəti, təbiətin və mədəni sərvətlərin anlaşılmasını və qorunmasını dəstəkləyən, ziyarətçi təsiri az olan, yerli əhaliyə sosial-iqtisadi fayda verən və təbii ərazilərə qarşı ekoloji məsuliyyət daşıyan səyahət və ziyarətdir (Kurdoğlu, 2001:4). Beynəlxalq Ekoturizm Cəmiyyəti (TIES) ekoturizmi ətraf mühiti qoruyan və yerli əhalinin rifahını nəzərə alan və təbii ərazilərə həssas olan səyahət kimi təyin edir. Hər iki tərifə baxdıqda, ekoturizm təbii və mədəni dəyərlərin turizmə açılmasını, eyni zamanda onları məsuliyyət hissi ilə qorumağı təsvir edir. Ekoturizm anlayışı təbiətlə güclü bir əlaqə və sosial məsuliyyət hissi daşıyır. Ekoturizm, ətraf mühitə mənfi təsirə qarşı məsuliyyət hissi ilə hərəkət etmək prinsipinə əsaslanan turizm fəaliyyətini təbii mühitlə birləşdirən bir turizm fəaliyyətidir.

Ekoturizm anlayışı son illərdə tez-tez xatırlansa da, onun qəbul edilməsi olduqca yaxınlarda baş verib. O, 1980-ci illərdə ortaya çıxıb, məqsədi təbiəti, mədəniyyəti və ətraf mühiti qorumaq və onları gələcək nəsillərə deqradasiyaya uğratmadan ötürməkdir. İlk dəfə olaraq, 1992-ci ildə Rio-de-Janeyroda keçirilən Ətraf Mühit Sammitində davamlı dünya və ətraf mühit meyarları müəyyən edilib. Bu meyarlar turizmə uyğunlaşdırılıb, ətraf mühitə zərər vermədən istifadə üsullarının inkişafını ümumiləşdirib və bütün yerli xalqların mədəniyyətlərini məhv etmədən turizm fəaliyyətlərindən faydalanmasını təmin edib (www.ekoturizmdernegi.org, 2009). Birləşmiş Millətlər Təşkilatının Davamlı İnkişaf Komissiyası 2002-ci ili "Beynəlxalq Ekoturizm İli" elan edib və bu məsələ ilə Dünya Turizm Təşkilatına tapşırıq verib. Elə həmin ilin may ayında Kanadanın Kvebek şəhərində keçirilən Dünya Ekoturizm Sammitində bütün ölkələr tərəfindən qəbul edilmiş ortaq bir tərif müəyyən edilib. Buna uyğun olaraq, ekoturizm "Yer kürəsinin təbii sərvətlərinin dayanıqlığını təmin edən, yerli xalqların iqtisadi inkişafını dəstəkləyən və onların sosial və mədəni bütövlüyünü qoruyan və qoruyan bir yanaşma" kimi qəbul edilmişdir (www.ekoturizmdernegi.org, 2009).

Ekoturizm təbiətə əsaslanan turizm növü kimi universal olaraq qəbul edilir. Bununla belə, yerli mədəniyyət, davamlılıq, təhsil və yerli iqtisadi fayda kimi elementlərə fərqli vurğu edilə bilər.

Beynəlxalq təşkilatlar ekoturizm termini ilə turistlərin əsas məqsədinin təbiəti qorumaq, təbii mühitə və mədəni irsə təsirini minimuma endirmək və bu dəyərlərin qorunmasına töhfə vermək olduğu bütün turizm növlərini əhatə edir (Bakırcı, 2002:247). Ekoturizmi qəbul edən ölkələrin riayət etməli olduğu prinsiplərə aşağıdakılar daxildir: ekoturizm siyasəti və planlaşdırmasının hazırlanması; ekoturizm üçün qaydalar və məhsullar hazırlamaq; marketinq və təşviq; ekoturizmin maddi və qeyri-maddi faydalarını və çatışmazlıqlarını izləmək və müəyyən etmək (www.ekoturizmdernegi.org, 2009). Turizmin təbii və ənənəvi mühitə vurduğu ziyanı minimuma endirmək, turistlərə və yerli əhaliyə təbiətin və ənənəvi sosial-mədəni mühitin qorunması barədə maarifləndirmə aparmaq və turizmi yerli əhalinin ehtiyaclarını ödəyən və yerli administrasiya və ictimaiyyətlə əməkdaşlıqda inkişaf edən məsuliyyətli bir sahə kimi təşviq etməkdir. Bu baxımdan, təbii və sosial-mədəni qorunma ərazilərinin idarə olunması üçün vəsait ayırmaq, turizmin mənfi təsirini minimuma endirmək üçün təbii və sosial-mədəni mühit üçün uzunmüddətli monitorinq və qiymətləndirmə proqramlarını dəstəkləmək, ətraf mühitlə uyğun, təbii və ənənəvi sosial-mədəni həyatla inteqrasiya olunmuş və yerli bitki örtüyünü və vəhşi təbiəti qoruyan turizm infrastrukturuna investisiyalar qoymaq lazımdır. Kütləvi turizmdən fərqli olaraq, ekoturizm il boyu turizmi yaymaqla təbii mühitə təzyiqi azaltmağa və zərərin düzəldilməsi əvəzinə qarşısının alınmasını planlaşdırmağa çalışır və beləliklə, uzunmüddətli iqtisadi faydanı nəzərə alır (Öztunalı-Kayır, 1998: 304).

Yaşıl turizm, alternativ turizm, təbiət turizmi, vəhşi təbiət turizmi, macəra turizmi və mədəni turizm terminləri də ekoturizm anlayışı ilə birlikdə istifadə olunur. Buna görə də, insan fəaliyyəti nəticəsində hələ əhəmiyyətli dərəcədə pozulmamış təbii yaşayış mühitlərinə yönəlmiş bütün turizm növləri ekoturizmin əhatə dairəsinə daxildir. Ekoturizm ümumiyyətlə kiçik qruplar şəklində həyata keçirilir. Yerləşmə və yemək-içmək xidmətləri əsasən kiçik və orta ölçülü yerli firmalar tərəfindən təmin edilir (www.ekoturizmdernegi.org, 2009). Ailələr tərəfindən idarə olunan kiçik müəssisələrdə ənənəvi memarlıq və yerli resurslardan istifadə etməyi hədəfləyir. Düzgün tətbiq olunarsa, ekoturizm həssas ekosistemlərin qorunmasını təmin edən və bu yerlərdə və ətrafında yaşayan əhalinin sosial-iqtisadi inkişafı üçün resurslar yaradan bir vasitədir. Ekoturizm potensialına malik dağlıq və meşəlik bölgələrdəki kəndlərdə yaşayan insanların yoxsulluğunu nəzərə alsaq, ekoturizmin əslində sosial təbəqələr arasındakı bərabərsizliyi azalda biləcək bir amil olduğunu başa düşmək olar (Altıparmak, 2002: 276). Digər turizm növləri kimi, ekoturizm fəaliyyətlərinin də həm müsbət, həm də mənfi cəhətləri var. Ekoturizm təbii gözəlliklərə malik ərazilərə iqtisadi cəhətdən töhfə verir və təbiətin qorunması barədə məlumatlılığın artırılmasına kömək edir. Turizm bazarında təbiətə əsaslanan turizm kimi təyin olunan ekoturizm davamlı inkişaf üçün bir vasitə kimi qəbul edilir. Ekoturizmin müsbət sosial və ekoloji təsirləri olsa da, kütləvi turizmdə olduğu kimi, bölgələrin daşıma qabiliyyətinin aşılmasına da səbəb ola bilər. Ekoturizm fəaliyyətləri yaxşı planlaşdırılmazsa, kütləvi turizm qədər ətraf mühitə zərər verə bilər. Bunun səbəbi, ekoturizmin hədəfləri həssas ekosistemlər olmasıdır və bu ərazilərdə hər hansı bir turizm fəaliyyəti təbii sərvətlərin məhv olmasına səbəb ola bilər. Bu, hətta ətraf mühitin çirklənməsi və səs-küy çirklənməsindən tutmuş nəqliyyat tıxaclarına, qiymətlərin artmasına və təhlükəsizlik problemlərinə qədər turizmin tanış mənfi nəticələrinə səbəb ola bilər. Bu mənfi təsirləri azaltmaq üçün ildə icazə verilən ziyarətçi sayının məhdudlaşdırılması kimi siyasətlər həyata keçirilə bilər. Turizmin təbii mühitə müxtəlif təsirləri olduğu məlum bir həqiqətdir. Planlaşdırılmamış tikinti və əhali artımı səbəbindən təbii gözəlliklər məhv edilə bilər. Turizm ekoloji mühitdə bitki və heyvanların həyatını təhlükə altına qoya bilər. Bu mənfi təsirlər planlı və şüurlu ekoturizm fəaliyyətləri ilə aradan qaldırıla və ya minimuma endirilə bilər (Arslan, 2005). Bunun üçün davamlı artımla turizm arasında əlaqə qurmaq lazımdır.

2. DAVAMLI İNKİŞAF VƏ TURİZM

Davamlılıq anlayışı son illərdə ən çox müzakirə olunan və önəmli anlayışlardan birinə çevrilib. Davamlılıq bir hadisənin və ya fenomenin kortəbii davamını ifadə etsə də, onu qorumaq aktı bu davamlılığın başqası tərəfindən təmin edildiyi deməkdir. Əgər bir şey davamlıdırsa, bu, onun strukturunda davamlılığın olması deməkdir. Davamlılıq müəyyən bir ekosistemin və ya davamlılığı olan hər hansı bir sistemin fasiləsiz, yükləmədən saxlanılması qabiliyyəti kimi tanınır. Davamlı bir struktur üçün resurslar davamlı olaraq qiymətləndirilməli, bu qiymətləndirmə çərçivəsində qorunma təmin edilməli və qorunma maarifləndirilməsinə üstünlük verilməlidir.

Davamlılıq termininin mənşəyi ümumiyyətlə Ətraf Mühit və İnkişaf üzrə Ümumdünya Komissiyasının 1987-ci il iclasında hazırlanmış "Ortaq Gələcəyimiz" adlı hesabatla əlaqələndirilir. Brundtland Hesabatı kimi də tanınan bu hesabatda davamlı inkişaf "gələcək nəsillərin öz ehtiyaclarını ödəmək qabiliyyətini təhlükə altına qoymadan indiki nəslin ehtiyaclarını ödəyən inkişaf" kimi müəyyən edilir. Başqa sözlə, davamlı inkişaf gələcək nəsillərin öz ehtiyaclarını ödəmək qabiliyyətini təhlükə altına qoymadan indiki nəslin ehtiyaclarını ödəyən inkişafdır. Bu hesabatda ilk dəfə olaraq iqtisadi artım və ətraf mühitin qorunması kimi görünən ayrı-ayrı anlayışlar birlikdə istifadə edilmişdir. Artım təkcə maksimum iqtisadi artıma nail olmaq, yəni iqtisadi səmərəliliyi qorumaqla deyil, həm də bugünkü cəmiyyəti təşkil edən indiki nəsil ilə gələcək nəsillər arasında ədaləti (nəsillərarası bərabərlik) əhatə edən iqtisadi artımla bağlıdır. Sabahın bu gün istehlak edilməsi və bəzi imtiyazlı qrupların mövcud resurslardan daha subyektiv şəkildə istifadə etməyə meylli olması alimləri bu məsələ barədə düşünməyə vadar etmişdir.

Davamlı inkişaf və artım bugünkü dünyanın vacib ortaq problemlərinə çevrilib. Davamlı artım konsepsiyasının təfərrüatları araşdırılarkən, diqqət insan sağlamlığını və xoşbəxtliyini təmin edən təbii sərvətlərdən istifadədə bərabərliyə necə nail olmaq və resurslardan istifadədən sonra yaranacaq sosial, iqtisadi və ekoloji mənfəət və zərərlərin bölüşdürülməsi kimi ətraf mühit məsələlərinə yönəlib. Bərabərlik həm indi (nəsillərarası bərabərlik), həm də gələcəkdə (nəsillərarası bərabərlik) insanların bütün əsas ehtiyaclarını ödəmək və istəklərini təmin etmək cəhdini ifadə edir. Bu, insanların rifahında məkan və zaman dəyişikliklərinə səbəb olan inkişafdan qaçmaq deməkdir. Sənaye müəssisələri əvvəlcə "əvvəlcə mənfəət"; sonra "əvvəlcə insanlar" deyirdilər və indi onlar biznes siyasətlərində əsas paradiqma kimi "əvvəlcə təbiət"dən istifadə edirlər. Bu ideyanın ümumi nəticəsi odur ki, sürətlə böyüyən bu sənayenin ekoloji nəticələri artıq gözardı edilə bilməz. Bu vəziyyət davamlılığın idarəetmə perspektivi ilə əlaqədardır və turizm sektorunda da öz əksini tapıb. "Davamlı turizm" ətraf mühitlə inteqrasiya olunmuş turizmin inkişafı müzakirəsində əsas terminə çevrilib.

Davamlı turizm, yerli əhalinin və turistlərin ehtiyaclarını ödəməklə yanaşı, gələcək imkanları da qorumağın anlaşılmasıdır (Avcıkurt, 1997:136). Turizmin davamlılığını ifadə edir. Davamlı turizm anlayışı, daha geniş "davamlı artım" anlayışından irəli gələn spesifik bir termindir və bu artımı turizmin spesifik kontekstinə tətbiq etmək deməkdir. Ətraf mühitin keyfiyyətini qorumağı, turizm bölgələrində həyat keyfiyyətini yaxşılaşdırmağı, keyfiyyətli ziyarətçi təcrübəsi təmin etməyi, inkişafda bərabərliyi təşviq etməyi və turizmin iqtisadiyyata və ətraf mühitə verdiyi töhfələri təmin etməyi və təkmilləşdirməyi hədəfləyir.

Turizmin davamlılığı, turizmə səbəb olan yerli, regional və milli dəyərlərin bilinməsi, qorunması, inkişaf etdirilməsi və davamlı cəlbediciliyinin təmin edilməsi deməkdir. Davamlı turizmə nail olmaq üçün turizm-ətraf mühit-insan qarşılıqlı təsirinin baş verdiyi təbii və mədəni dəyərləri ehtiva edən bütün resursları qorumaq və gələcək nəsillərə ötürmək vacibdir. Bu transferin uğuru istehlakçıların dəyişən istehlak modellərindən və ekoturizm meyarlarından asılıdır. Davamlı turizmlə yanaşı, ekoturizm və məsuliyyətli turizm anlayışlarından da istifadə olunur. Davamlı turizm anlayışı turizm və ətraf mühit arasındakı əlaqəyə işarə edir. Mövcudluğunu tamamilə ətraf

mühitə və insanlara əsaslanan turizm sənayesi üçün turizmdə davamlılıq yalnız uzunmüddətli strategiya ilə məna qazana bilər. Əks təqdirdə, gələcək nəsillərin hətta indiki nəslin artıq istifadə edə bilmədiyi turizm resurslarından faydalanması mümkün olmayacaq. 1992-ci ildə Turizm Assosiasiyası və Ümumdünya Vəhşi Təbiət Fondu davamlı turizmi həm indiki, həm də gələcək üçün əhəmiyyətli olan turizm və əlaqəli infrastruktur kimi təyin etdilər. Davamlı turizm, gələcək məhsuldarlıq və təbii, sosial və mədəni sərvətlərin canlandırılması üçün təbii imkanlar daxilində fəaliyyət göstərən, keçmiş və indiki adət-ənənələrin və həyat tərzlərinin töhfələrini qəbul edən və onların turizmin iqtisadi mənfəətində ədalətli paya malik olduğunu qəbul edən investorlar və yerli icmalar tərəfindən idarə olunan bir fenomen kimi müəyyən edilir.

Davamlı turizm anlayışı illər ərzində inkişaf etmiş və turizmə tətbiq olunaraq, qorunan ərazilərdə turizm, otel idarəçiliyi, balina müşahidəsi, mərcan rifləri ilə dalğıclıq və aviaşirkət turizmi kimi sahələri əhatə edən turizm planlaşdırma, inkişaf və fəaliyyətdə ümumi bir anlayışa çevrilmişdir. Ətraf mühiti iqtisadi sistemin vacib bir hissəsi kimi görən və ətraf mühitin planlaşdırılması və idarəetmə üsullarından istifadənin ətraf mühitin qorunmasına kömək edə biləcəyini irəli sürən iqtisadi metod və yanaşmalardakı irəliləyişlərə baxmayaraq, turizmin inkişafının mənfi ətraf mühitə təsirləri ilə bağlı narahatlıqlar inkişaf üçün yeni bir konseptual çərçivəni zəruri etmişdir. Bu konseptual yanaşma Brundtland Hesabatının "davamlı inkişaf" kimi dərc edilməsindən sonra əhəmiyyət qazanmışdır. Bu gün turizm də daxil olmaqla, bütün inkişaf formaları yeni bir paradiqmanın bir hissəsinə çevrilir. Davamlılıq anlayışı turizm sektorunda müxtəlif yollarla tətbiq edilmişdir: qlobal, milli və yerli səviyyələrdə və dövlət və özəl sektorlarda bəzi şirkətlər ətraf mühiti öz tənzimləmələrində daha mərkəzi nöqtəyə qoyurlar.

Davamlı turizmi təsvir edərkən, mülayim, post-sənaye, alternativ, məsuliyyətli, uyğun, yaşıl, kənd, az təsirli və ətraf mühitə və təbiətə əsaslanan kimi sinonim və oxşar ifadələrdən istifadə olunur. Bəziləri davamlı turizmi inkişaf prosesi hesab etsə də, digərləri onu bütövlükdə turizm üçün rəhbər prinsip hesab edirlər. Nəzəri olaraq, turizm ətraf mühitin inkişaf potensialına, sosial məsuliyyətə və turizmin yerli əhalinin istəklərinə uyğunluğuna hörmət etməklə davamlılıq prinsipləri ilə inteqrasiya olunur. Turizm bir çox iqtisadi, sosial və siyasi qüvvələrin siyasət idarəçiliyinə təsir etdiyi, ənənəvi institusional sərhədləri aşdığı və maraqlı tərəflər sinfini birləşdirdiyi rəqabətli bir mühitdə fəaliyyət göstərir. Eynilə, ətraf mühitə təsir göstərir. Davamlılıq turizm sənayesində uzunmüddətli rəqabət mühitini yaxşılaşdırmaq məqsədi ilə ətraf mühitlə, eləcə də sosial və iqtisadi inkişafla bağlı müxtəlif məsələləri inteqrasiya etməyə çalışır. Turizm bu gün ən böyük və ən sürətlə böyüyən sənaye sahələrindən biridir. Bu sürətli artım turizm məhsullarının və yerlərinin şaxələndirilməsinə səbəb olmuşdur. Beləliklə, kiçikmiqyaslı, köməkçi turizm və kənd "təcrübəsi" turizmi kimi yeni, alternativ turizm növlərinə ehtiyac var.

3. EKOTURİZMİN DAVAMLILIĞI

Təbii sərvətlər insan müdaxiləsi olmadan təbii şəkildə yaranan sərvətlərdir. İqlim və geoloji şəraitə görə dəyişən dağlar, düzənliklər, vadilər, meşələr, göllər, çaylar, dənizlər, təbii abidələr və mənzərələr təbii sərvətlərin əhatə dairəsinə daxildir. Bir ölkənin sahib olduğu təbii sərvətlərin sayı və müxtəlifliyi həmin ölkəyə gələn turistlər üçün ən böyük cəlbedici amildir. Buna görə də, təbiət və təbii mühit insanların səyahətlərini istiqamətləndirən daim cəlbedici bir qüvvədir və eyni zamanda turizm sənayesində əvəzolunmaz xammaldır. Lakin təbii sərvətlər heç bir şəkildə istifadə edilmədikdə heç bir iqtisadi fayda vermir (Usta, 2001: 51-52). Bu sərvətlər turizmin xidmətinə verilərək istifadə edildikdə, onlar faydalı və iqtisadi cəhətdən əhəmiyyətli sərvətlərə çevrilir. Təbii sərvətlər ekoturizm sayəsində turizm məqsədləri üçün istifadə olunur və qiymətləndirilir. Ekoturizm geniş ərazilərdə ekoloji strukturla birlikdə nəzərdən keçirilməli olan bir turizm növü olduğundan, tarazlığını pozacaq müdaxilələrdən bütün turizm növlərində çəkinmək lazımdır.

Ekoturizm, insanların təbii mühiti və yerli əhalinin həyatını birbaşa təcrübə edərək öyrənmələrini təmin etmək məqsədi daşıyır və ekoturizm turları vasitəsilə əldə edilə bilər. Bu turlar fərdlərin və ya kiçik qrupların təbii ərazilərə səyahət etməsinə imkan verir (Çağatay və b., 2002: 205). Ekoturizm böyük investisiyalar, beşulduzlu otellər və ya lüks obyektlər tələb etmir. Bu tendensiya təbii ərazilərə səfərlərin təşviqi və ekoloji problemlər barədə fərdi məlumatlılığın artırılması nəticəsində yaranıb və ekoturizm fəaliyyətlərini turizmin mərkəzinə qoyur. Lakin turizm üçün açılan ərazilərin artan hissəsinin təhlükəli olduğunu görənlər bu yerlərin də zərər görəcəyindən narahatdırlar. Ekoturizmdə təbii və mədəni dəyərlərimizin qorunması və inkişafı, yerli əhalinin iştirakının və inkişafının təmin edilməsi əsas prinsiplərdir. Beləliklə, nəzarətli turlar sayəsində həm ətraf mühitin deqradasiyasının qarşısını almaq, həm də yerli əhali üçün iqtisadi qazanc təmin etmək məqsədinə nail olmaq mümkündür. Təbii mühitin davamlılığı prinsipi o deməkdir ki, təbiət turlarında təbii mühitə zərər dəyməməli və qorunmalıdır. Bu cür turlar müəyyən bir plan və proqram çərçivəsində həyata keçirilməli, seçilmiş marşrut və riayət ediləcək qaydalar əvvəlcədən müəyyən edilməli və təlim keçmiş mütəxəssis bələdçilərdən istifadə edilməlidir. Bu bölgələrdə milli və ya regional ekoturizm məlumatlılığının olmaması səbəbindən xoşagəlməz tikililər və vəhşi təbiətdən nizamsız istifadə baş verə bilər. Bunun qarşısı alınmalıdır. Bitki və heyvan növlərinin inventarlaşdırılması olmadan və bölgənin daşıma qabiliyyətini bilmədən turların təşkili yalnız bu qaydalar müəyyən edilib ciddi şəkildə tətbiq edildikdə mümkün olacaqdır. Tur agentlikləri və tur iştirakçıları milli parklar, təbiət qoruqları və s. kimi elan edilmiş ərazilərdə müvafiq qurumlar tərəfindən müəyyən edilmiş qaydalara riayət etməli, düşərgə salmağın qadağan edildiyi və ya məhdudlaşdırıldığı ərazilərdə qadağalara riayət etməli, ziyarət edilən və düşərgə saldığı yerlərdə müəyyən edilmiş tur marşrutlarına riayət etməli, təcrübəli təbiət bələdçilərinin xəbərdarlıqlarına əməl etməli, flora və faunaya dəyən ziyanı minimuma endirən şəkildə hərəkət etməli və tur fəaliyyəti zamanı təbiətdə tullantılar və silinməz izlər qoymamalıdır. Xüsusilə nəsli kəsilməkdə olan heyvanların tapıldığı ərazilərdə səs-küy və digər çirklənmə yaratmaqdan çəkinməlidirlər. Flora və faunanın qorunmasına xüsusi əhəmiyyət verilən yerlərdə, qoruma prinsiplərinə riayət edərkən tur marşrutlarını tez-tez dəyişdirməlidirlər. Səlahiyyətli rəsmi qurumlar tərəfindən verilən təbiət və dağ bələdçisi sertifikatlarından istifadə etməlidirlər və ya mövcud deyilsə, təbiət turlarında mütəxəssis qurumlardan və fərdlərdən təlim almış təcrübəli bələdçiləri işə götürməlidirlər.

Yerli mədəniyyətlərin davamlılığı prinsipi o deməkdir ki, ekoturizm fəaliyyətlərinin həyata keçirildiyi bölgənin yerli əhalisi bu turizm fəaliyyətlərindən faydalanmalı və maliyyə payı almalıdır. Buna nail olmaq üçün böyük beynəlxalq tur operatorları əvəzinə milli və regional səviyyələrdə kiçik agentliklər ekoturizm fəaliyyətlərində iştirak etməlidirlər. Burada ixtisaslaşmış agentliklər çox vacibdir. Ekoturizm və vəhşi təbiət kimi müəyyən sahələr və mövzular üzrə ixtisaslaşmış bu agentliklər tur proqramları hazırlayarkən tur ehtiyaclarını yerli olaraq təmin etməlidirlər; bu, bölgəyə maliyyə faydası təmin etmək üçün ilkin şərt olmalıdır. Turizm vasitəsilə bölgəyə töhfə verərkən, maddi və qeyri-maddi mədəni elementlərin pisləşməsinin qarşısını almaq üçün də diqqət yetirilməlidir. Orijinal mədəniyyətlərin və mənəvi dəyərlərin toxunulmaz qaldığı bölgələrdə turist qruplarından bu dəyərlərə hörmət etmələri gözlənilir. Geyim qaydalarına diqqət yetirmək, dini və ənənəvi dəyərlərə hörmət etmək, yerli yemək, içki, əyləncə və s. ilə ahəngdar olmaq və mümkün qədər çox iştirak etmək adət-ənənələrə vacibdir (Arslan, 2005). Bundan əlavə, maddi mədəni irsə hörmət və qoruma həm turizm mütəxəssislərinin, həm də istehlakçıların yerli xarakterə uyğun olmayan müasir memarlıq məhsullarından daha çox, qorunan, orijinal binalarda yerləşən yaşayış yerlərinə üstünlük vermələrini tələb edir. Milli, regional və yerli səviyyələrdə ekoturizm siyasəti və inkişaf strategiyaları hazırlanarkən, ekoturizm fəaliyyətlərindən təsirlənən və təsirlənməsi gözlənilən bütün tərəfləri əhatə edən geniş məsləhətləşmə prosesi yaratmaq; regional və yerli hüquqların, özəl sektorun, vətəndaş cəmiyyəti təşkilatlarının və ekoturizmdəki bütün maraqlı tərəflərin iştirakı ilə təbiətin, yerli və regional mədəniyyətlərin, adət-ənənələrin, genetik ehtiyatların,

torpaq və mülkiyyət hüquqlarının, təmiz su və içməli su hüququnun qorunmasını təmin etmək; ekoturizmlə bağlı dövlət qurumları arasında lazımi koordinasiyanı təmin etmək, auditlərin nəticələrini ictimaiyyətə açıqlamaq; və tur operatorlarını və səyahətçiləri təyinat yerlərinə giriş və nəqliyyat sistemlərində davamlı nəqliyyat prinsiplərini tətbiq etməklə ekoloji cəhətdən şüurlu seçimlər etməyə təşviq etmək lazımdır. Bu, təbii və mədəni dayanıqlığı təmin edə bilər. Müəyyən mənada ətraf mühitə təsirin idarə olunması həyata keçirilir. İndi bu ekoloji cəhətdən təmiz yanaşmanı tətbiq edən agentliklər və onların turları bütün dünyada dəstəklənir və üstünlük təşkil edir. Əslində, bu anlayışla fəaliyyət göstərən agentliklərə xüsusi mükafatlar və sertifikatlar verilir. Həqiqətən də, insanların dünyanın hər yerində sülh içində görüşməsinə, qarışmasına və birlikdə yaşamasına imkan verən turizm fəaliyyətləri yalnız mövcud dəyərlərə zərər vermədən belə bir anlayışla davam etdirilə bilər (TÜRSAB, 2002:22).

Ekoturizmdə ümumi turizm prinsipləri, qaydaları və planları, şübhəsiz ki, tətbiq olunur. Lakin kütləvi turizmin səhvlərini təkrarlamamaq üçün müəyyən məqsədlər qoymaq qaçılmazdır. Təbii və mədəni irsin qorunması, kənd və qorunan ərazilərdə yerli əhalinin həyat səviyyəsinin yüksəldilməsi, ekoturizmin təşviqi, təbii, mədəni və yerli xüsusiyyətlərin tanınması, təşviqi və qorunması, uzunmüddətli dayanıqlılığın təmin edilməsi məqsədini qəbul etmək, metod və texnikaların yayılması və ekoturizm məhsullarının etibarlılığını və rəqabət qabiliyyətini təmin etmək üçün keyfiyyət sistemlərinin sertifikatlaşdırılması vacibdir. Bundan əlavə, ictimaiyyəti, siyasətçiləri və turizmlə əlaqəli şəxsləri, qurumları və təşkilatları ekoturizm haqqında məlumatlandırmaq turizmin dayanıqlılığını təmin etməkdə çox faydalı olacaqdır. Ekoturizmdə təbii ərazilərin qorunması və inkişafı, onların cəmiyyətin və ətraf mühitin davamlı inkişafına verdiyi töhfələr ilkin şərtlərdir. Ekoturizmin inkişaf etdiriləcəyi hər hansı bir ölkədə, bölgədə və ya ərazidə konkret siyasət və strategiyaların müəyyən edilməsi və onların mümkünlüyünü müzakirə etmək vacibdir.

NƏTİCƏ

Son illərdə davamlı turizmin inkişafı turizm sektorunda əhəmiyyətli əhəmiyyət kəsb etmişdir. Davamlı turizm bütün bərpa olunan və bərpa olunmayan təbii, mədəni, bioloji və ekoloji resursların davamlılığını təmin etməklə turizm fəaliyyətlərinin planlaşdırılması və icrasına aiddir. Davamlılıq həm yerli əhalinin, həm də turistlərin ehtiyaclarını ödəmək, eyni zamanda mövcud resursların dəyərini gələcək üçün qorumaq baxımından vacibdir. Davamlı turizm həm də biomüxtəlifliyə və mədəni bütövlüyə zərər vermədən həm yerli əhalinin, həm də qonaqların qarşılıqlı ehtiyaclarını ödəməklə bağlı idarəetmə prosesidir. Davamlı turizm əsasən ətraf mühit məsələsidir; təbiət, insanlar və turizm məkanları üçlüyü baxımından nəzərdən keçirildikdə, idarəetmə prosesi aspekti daha da vacibləşir. Davamlı inkişaf və turizm arasındakı əlaqə ətraf mühit dəyərlərinə yönəldikdə, turizm dəyərlərinin qorunması və gələcək nəsillərə ötürülməsi idarəetmə prosesində heç bir problem olmadan baş verəcəkdir. Davamlılıq-ətraf mühit-insan münasibətlərində turizm resurslarının təşviqi və istifadəsi, potensial müştərilər və yerli əhali ilə münasibətlər bu proses çərçivəsində qiymətləndirilməlidir. Turizmin uzunmüddətli perspektivdə davamlı və təhlükəsiz olması, ekoloji dəyərlərin gələcək nəsillərə xidmət etməsi üçün ətraf mühitin qorunması və təkmilləşdirilməsinə töhfə vermək turizm investorlarının və operatorlarının əsas vəzifəsi olmalıdır. İndi isə davamlı mühitdən danışarkən, bu dəyərlərin bəşəriyyətə təqdim edilməsi artıq kortəbii inkişafa buraxılmır; bu, sistemli davamlı turizm idarəetməsi və marketinq siyasəti tələb edir.

Aralıq dənizi ölkələri, o cümlədən bizim Aralıq dənizi ölkələri, yay aylarında intensiv dəniz-günəş-qum turizmi ilə tanınır. Lakin, bu günlərdə turizm getdikcə ənənəvi məqsədlərdən uzaqlaşır və turist profili dəyişir. Alternativ turizm sahələrinə müraciət əhəmiyyət kəsb edir. Ekoturizm də onlardan biridir. Əsasən təbii vəhşi təbiət və mədəniyyətlə maraqlanan orta yaşlı, yüksək təhsilli,

orta gəlirli şəxslər tərəfindən tələb olunan ekoturizm, tətbiq olunduğu bölgəyə fayda verən bir fəaliyyətdir. Ekoturizm gəlirləri əsasən yerli əhaliyə qayıdır. Bu işin cəmiyyətin daha yoxsul təbəqəsini təşkil edən dağ və meşə kəndliləri və qonaq evləri işlədən ailələr tərəfindən həyata keçirildiyini nəzərə alsaq, bu seqmentin iqtisadi cəhətdən inkişaf edəcəyi aydındır. Bu gəlirlərin bir hissəsi təbii dəyərlərin qorunması və ənənəvi mədəniyyətlərin qorunması üçün də istifadə olunur. Digər tərəfdən, ekoturizmin əsas xammalını təşkil edən təbii, tarixi və mədəni dəyərlərin davamlılığının təmin edilməsinin yalnız turizm marketinqində ən vacib təşviqin ətraf mühitə dair məlumatlılığa və davamlılığa əsaslanması şərtilə mümkün olacağı gözlənilir.

Şəhərlərdə, kənd yerlərində və sahillərimiz boyunca çirklənmə həyatımıza mənfi təsir göstərən bir səviyyəyə çatıb. Eyni şey ekoturizmə də aiddir. Məsələn, kiçik bir bölgə ekoloji fəaliyyətin qəfil artmasının öhdəsindən gələ bilməyə bilər. Turizm sektorunun inkişafı təbiəti mühafizə təşkilatlarının töhfələri ilə, davamlı istifadə və daşıma qabiliyyətləri nəzərə alınmaqla həyata keçirilməlidir. İlk növbədə, ümummilli torpaq istifadəsi planı və təbii sərvətlər inventarı hazırlanmalıdır. Hər kəsin nəyin harada olduğunu bilməsi vacibdir. Ölkəmizdə müxtəlif dövlət qurumları tərəfindən hazırlanmış planlaşdırma qanunvericiliyi çoxsaylı səlahiyyətlər yaratmış və bu da sahibkarlıq və məsuliyyət çatışmazlığına səbəb olmuşdur. Ətraf mühitə həssas davamlı turizmin inkişaf etməsi üçün təbii sərvətlərdən, qorunan ərazilərdən və xüsusi ətraf mühitin mühafizəsi ərazilərindən turizm əraziləri kimi birbaşa istifadə etmək əvəzinə, planlaşdırma digər ərazilərlə inteqrasiya olunmuş şəkildə, bu ərazilərin xüsusiyyətləri nəzərə alınmaqla və yerli icmalar da daxil olmaqla və mühafizə prinsiplərinə əsaslanaraq həyata keçirilməlidir. Bu, ekoturizmə də aiddir. Müəyyən bir sistem və prosesə uyğun olaraq ətraf mühitə zərər verən parçalanmış yanaşmalar əvəzinə, yaşayış vahidlərinə vahid şəkildə baxan, ətraf mühiti qoruyan və təbii, mədəni və tarixi dəyərlərin qorunması və istifadəsi tarazlığında onu davamlı edən planlaşdırma yanaşması tətbiq edilməlidir. Bununla belə, ekoturizmin davamlılığı yalnız vahid şəkildə daimi ola bilər. Buna görə də, ekoloji turizm sahəsində yeni akademik tədqiqatların, məsələn, regional ekoloji daşıma qabiliyyətinin və ya təbii, tarixi və mədəni sərvətlərin inventarlarının araşdırılmasına yönəlməsi təklif olunur.

ƏDƏBİYYAT SİYAHISI

1. Altiparmak, M. (2002). "Turizm Çeşitlendirilmesi Sürdürülebilir Turizm ve Planlama", Turizm Bakanlığı 2. Turizm Şurası Bildirileri, Ankara.
2. Arslan Y. (2005). "Erdek ve Çevresinin Ekoturizm Açısından Değerlendirilmesi", http://sbe.balikesir.edu.tr/dergi/edergi/c8s13/makale/c8s 13m12.pdf, (28.9.2009).
3. Avcikurt, C. (1997). Avrupa Birliği İle Bütünleşme Sürecinde Türk Turizmi Sorunlar ve Çözüm Önerileri, Yayımlanmamış Doktora Tezi, BAÜ, Sos. Bil. Enstitüsü, Balıkesir.
4. Bakirci, M. (2002). "Ekoturizm", İkinci Turizm Şurası Bildiriler, Cilt. II, 12- 14 Nisan 2002, Turizm Bakanlığı, Ankara.
5. Çağatay A. ve Diğerleri (2002). "Eko-Turizm için Mekân ve Yerel Toplulukların Katılımının Planlanması (Akseki-İbradı Havzası Örneği), II. Turizm Şurası Bildirileri Cilt II. 12–14 Nisan Turizm Bakanlığı.
6. Kurdoğlu, O. (2001). "Koruma Alanları ve Ekoturizmin Karadeniz Bölgesi Açısından İrdelenmesi", Orman ve Av, Türkiye Ormancılar Derneği Yayını, Sayı 4, s: 4.
7. Öztunali Kayır, G. (1998). "Batı Akdeniz Kıyıları Taşıma Kapasitesi ve Ekoturizm", Türkiye Kıyıları 98, Türkiye'nin Kıyı ve Deniz Alanları II. Ulusal Konferans Bildirileri Kitabı.
8. TÜRSAB (Türkiye Seyahat Acentaları Birliği) Dergisi (2002). "Ekoturizm", Sayı 223, Eylül, İstanbul.
9. Usta Ö. (2001). Genel Turizm, Anadolu Matbaacılık, İzmir.
10. http://www.ekoturizmdernegi.org. (23.10.2009)

TURİZM SƏNAYESİNİN RƏQƏMSAL TRANSFORMASİYASI: TELETİBB XİDMƏTLƏRİNİN İNTEQRASİYA PERSPEKTİVLƏRİ

Digital Transformation Of The Tourism İndustry: İntegration Perspectives Of Telemedicine Services

SARA BAĞIRLI
Sara Bagirli
s.bagirli@atmu.edu.az
Azərbaycan Turizm ve Menecment Universiteti
Azerbaijan University of Tourism and Management

XÜLASƏ

Rəqəmsal texnologiyaların ən çox təsir etdiyi və onların istifadəsi mümkünsüz olan sahələrdən biri sözsüz ki, turizmdir. Xüsusilə, son illərdə dünyada rəqəmsal xidmətlərin, süni intelektin sürətlə yayılması onların müxtəlif sənaye sahələrində səmərəli tətbiqini qaçılmaz edir. Bu baxımdan turizmin bütün növlərində müasir rəqəmsal texnologiyaların tətbiqi də həm qaçılmaz, həm də zəruridir. Hazırkı məqalədə rəqəmsal texnologiyaların turizmə təsiri imkanları, onların inteqrasiyası, teletibb xidmətləri araşdırılmışdır. Bu zaman, əsas predmet kimi sağlamlıq turizmi və teletibb xidməti rəhbər tutulmuşdur.

Açar sözlər: *müalicə-sağlamlıq turizmi, teletibb, rəqəmsal texnologiyalar, tibbi xidmət, süni intelekt.*

ABSTRACT

Digital technology has become a cornerstone of the tourism industry, making it one of the sectors most influenced by technological advancements. The swift expansion of digital services and artificial intelligence worldwide necessitates their effective implementation across diverse industrial landscapes. Consequently, the application of modern digital tools in every facet of tourism is both a necessity and an inevitability. This paper examines the potential impacts and integration of digital technologies within the tourism sector, with a specific focus on telehealth services. Within this framework, health tourism and telemedicine serve as the core subjects of the study.

Keywords: *medical and health tourism, telemedicine, digital technologies, medical service, artificial intelligence.*

Yaxın tariximizin qlobal faciəvi hadisələrindən biri kimi "Covid" pandemiyası göstərdi ki, tibbi xidmətlər sadəcə fiziki məkanla məhdudlaşmır. Ən azından məhdudlaşmamalıdır. Məhz bu səbəbdən də teletibb (və ya telemedisin), yəni uzaqdan tibbi xidmətlər daha sürətlə yayılmağa başladı. İnsanların həkimlərlə onlayn, məsafədən danışa, ilkin diaqnoz, konsultasiya alması və hətta müalicədən sonrakı vəziyyətlərini də məsafədən izləməsi adi hala çevrilmişdir. Süni intellekt, ağıllı cihazlar və elektron sağlamlıq sistemləri isə bu prosesi daha da asanlaşdırmışdır.

Teletibbin sağlamlıq turizminə təsiri xüsusilə nəzərə çarpır. Əvvəllər xəstə başqa ölkəyə getməzdən əvvəl heç bir dəqiq məlumat əldə edə bilmirdisə, indi əvvəlcədən onlayn konsultasiya keçir, vəziyyətini öyrənir və qərarını daha rahat verir. Müalicədən sonra da əlaqə kəsilmir — həkim nəzarəti davam edir. Bu həm xəstə üçün daha rahatdır, həm də xərcləri müəyyən qədər azaldır. Ümumilikdə isə bu yanaşma insanların məmnuniyyətini artırır və tibb turizminə olan inamı gücləndirir.

Son illərdə sağlamlıq turizmi qlobal turizm sənayesində ən sürətlə inkişaf edən istiqamətlərdən birinə çevrilmişdir. Bu sadəcə xəstəliklərin müalicəsi ilə məhdudlaşmır. Daha geniş yanaşmada məqsəd insanın gündəlik mühitindən uzaqlaşaraq həm fiziki, həm də psixoloji baxımdan özünü daha yaxşı hiss etməsinə şərait yaratmaqdır. Bu baxımdan sağlamlıq turizmi təkcə tibbi müdaxiləni deyil, eyni zamanda diaqnostika, reabilitasiya, profilaktika və ümumilikdə sağlam həyat tərzinin formalaşdırılmasına yönəlmiş xidmətləri də əhatə edir. Elə buna görə də bu sahə ənənəvi səhiyyə modelindən fərqlənir və daha kompleks bir sistem kimi çıxış edir. İnsanlar müalicədən qalan zamanlarını digər turizm fəaliyyətlərinə, xüsusilə mədəni turizmə həsr edir, mədəni irs nümunələri ilə tanış olurlar. Yəni əgər bir tərəfdən sağlamlıqlarını bərpa edirlərsə, digər

tərəfdən intelektual səviyyələrinin yüksəldilməsi fəaliyyəti ilə məşğul olurlar.

Araşdırmalar da göstərir ki, sağlamlığa yönəlmiş səyahət artıq yalnız klinika və xəstəxanalarla əlaqələndirilmir. Bu sahəyə termal kurortlar, spa və sağlamlıq mərkəzləri, meditasiya və psixoloji dəstək proqramları, düzgün qidalanma və fiziki aktivlik kimi istiqamətlər də daxildir. Yəni burada məqsəd sadəcə müalicə deyil, ümumi həyat keyfiyyətinin yaxşılaşdırılmasıdır. Bu səbəbdən sağlamlıq turizmi getdikcə daha çox şüurlu seçim kimi qiymətləndirilir — insanlar bunu öz rifahlarına yönəlmiş investisiya kimi görürlər. Bu yanaşma insanların səyahət motivasiyasına da təsir edir. Artıq bir çox insan yalnız xəstə olduqda deyil, əksinə, xəstəliklərin qarşısını almaq, stressi azaltmaq və zehni balansı qorumaq üçün səyahət edir. Bu isə sağlamlıq turizmini həm profilaktik, həm də təşviqedici bir vasitəyə çevirir və onun turizm sistemindəki rolunu daha da artırır. Təbii ki, burada söhbət əsasən müalicə-sağlamlıq turizminin kliniki (və ya tibbi) deyil, kurort (və ya sağlamlıq) növündən gedir (*Bağırlı S.H. Azərbaycan Respublikasında müalicə-turizm mərkəzlərinin inkişaf etdirilməsinin iqtisadi-coğrafi aspektləri*).

Müalicə-sağlamlıq turizminin son zamanlar bu qədər sürətlə böyüməsinin səbəblərinə ölkələr arasındakı qiymət fərqləri, gözləmə müddətlərinin az olması, müalicənin keyfiyyətli və uzunmüddətli təsirinin olması və s. aid etmək olar. Sözsüz ki, rəqəmsal texnologiyalar da seçimlərə təsir etməkdədir. Bu baxımdan onlayn məsləhətləşmələr, qlobal xəstəxana reytinqləri, elektron sifariş sistemləri və s. hamısı səyahətçilərə əvvəlkindən daha sürətli qərarlar qəbul etməyə kömək edir. Nəticədə, daha məlumatlı olmaq fərq yaradır və qlobal imkanlara daha asan çıxış cəmiyyətdə səssiz, lakin mühüm dəyişikliklərə səbəb olur. Hava səyahətləri açıldıqca və beynəlxalq səhiyyə bazarları bir-biri ilə əlaqəli hala gəldikcə daha geniş bağlantı sayəsində sərhəd keçidləri daha asanlaşır. Eyni zamanda müalicənin keyfiyyəti, müalicə zamanı istifadə olunan vasitələr, etibarlılıq, həkimlərin nümayiş etdiyi hörmət və insanların müalicə alarkən yaşadığı dəqiq emosialar da bu turizmə təsir edən amillər arasındadır.

BMT-nin Ümumdünya Turizm Təşkilatı (UNWTO) rəqəmsal transformasiyanın turizmin gələcəyini formalaşdırdığını və bu sektordakı dəyişikliklərin arxasında duran əsas qüvvə olduğunu bildirir (*World Tourism Organization (UNWTO). Global Report on Digital Transformation in Tourism. Madrid: UNWTO, 2019*).

İnformasiya kommunikasiya texnologiyalarının səhiyyəyə tətbiqi hələ rəqəmsal sistemlər geniş yayılmamışdan çox əvvəl formalaşmağa başlamışdı. Bu baxımdan, səhiyyədə rəqəmsallaşma prosesinin köklərini XX əsrin ortalarına, xüsusilə də 1960-cı illərə aid etmək mümkündür. Həmin dövrdə ABŞ-da xəstə qeydlərinin elektron mühitdə toplanması, saxlanılması və emalı istiqamətində ilk təşəbbüslər meydana çıxmışdı. Bu ilkin cəhdlər müasir elektron sağlamlıq qeydlərinin (Electronic Health Records – EHR) əsasını təşkil etsə də, texnoloji infrastrukturun məhdudluğu, proqram təminatının yetərincə inkişaf etməməsi, həmçinin səhiyyə müəssisələrində ənənəvi idarəetmə mədəniyyətinin üstünlük təşkil etməsi səbəbindən bu sistemlər dərhal geniş tətbiq sahəsi qazana bilməmişdir. Yəni bu mərhələ əsasən konseptual və eksperimental xarakter daşımışdır. 2000-ci illərin sonlarına doğru elektron sistemlərin tətbiqi daha real və kütləvi xarakter almağa başlamış, xəstəxanalar yalnız tibbi xidmət göstərən qurumlar kimi deyil, həm də böyük həcmdə məlumatı (datanı) idarə etməli olan mürəkkəb təşkilatlar kimi çıxış etməyə başlamışdır. Buna görə də qeydiyyatın, qəbul prosesinin, daxili sənəd dövriyyəsinin, laborator nəticələrinin izlənməsi və xəstə axınının idarə olunması üçün rəqəmsal vasitələrə ehtiyac kəskin şəkildə artdı. Bu baxımdan səhiyyədə rəqəmsal transformasiya yalnız texnoloji yenilik deyil, həm də idarəetmə səmərəliliyini artıran institusional dəyişiklik kimi çıxış etmişdir. Topolun qeyd etdiyi kimi, bu illər səhiyyədə rəqəmsal transformasiyanın həqiqətən başladığı mərhələ kimi dəyərləndirilə bilər (*Topol E.J. Deep Medicine: How Artificial Intelligence Can Make Healthcare Human Again. New York: Basic Books, 2019*).

2010–2015-ci illərdə uzaqdan tibbi xidmətlər, mobil səhiyyə tətbiqləri və xəstəyə yönəlmiş rəqəmsal həllər sürətlə geniş yayılmağa başlamışdır. Ağıllı texonoloji vasitələrin, mobil internetin

və bulud əsaslı platformaların yayılması səhiyyə xidmətlərinin ənənəvi məkan sərhədlərini başqa istiqamətə doğru kiçiltmişdir. Artıq bu dövrdə tibbi məsləhət almaq, sağlamlığı izləmək, məlumat paylaşmaq və xəstə ilə həkim arasında fasiləsiz əlaqə qurmaq imkanı çox daha əlçatan olmuşdur. Mobil sağlamlıq tətbiqləri yayılması ilə tibbi xidmət istifadəçiləri öz göstəricilərini izləyə, dərman qəbulu barədə xatırlatmalar ala, ilk simptomları qeyd edə və bəzi hallarda uzaqdan məsləhət ala bilirdilər. Beləliklə, rəqəmsal səhiyyə sadəcə klinik infrastrukturun modernləşdirilməsi deyil, həm də xidmətin tamamilə istifadəçi mərkəzli modelə keçidi kimi ortaya çıxmışdır. Bu sürətli inkişaf yolu 2020–2021-ci illərdə COVID-19 pandemiyası ilə daha da sürətləndi. Pandemiya dövründə səhiyyə sistemləri bir tərəfdən xəstələrin kəskin axını ilə üzləşdi, digər tərəfdən isə fiziki təmasın ciddi məhdudlaşdırılması səbəbindən rəqəmsal həllərə məcburən üz tutmalı oldu. Xüsusilə, 2024-cü ildən etibarən əksər sahələrdə süni intelektin tətbiqi, artıq sağlamlığın məsafədən bərpası ilə deyil, süni intelekt vasitəsilə diaqnozun qoyulması, müalicənin aparılmasına qədər gətirib çıxarmışdır.

Təbiidir ki, teletibb xidmətlərinin tətbiqində dövlət tənzimlənməsi, dövlətin bu sahəyə diqqəti də nəzərə alınmalıdır. Bu baxımdan təsadüfi deyil ki, hələ 2014-cü ildə ölkə prezidentinin bu istiqamətdə "Uyğun milli teletibb sistemlərinin yaradılması, onların gələcək inkişafı və istifadəsində MDB-nin iştirakçısı olan dövlətlərin əməkdaşlığı haqqında" Sazişin təsdiqi və həmin "Saziş üzrə səlahiyyətli orqanların müəyyən edilməsi barədə" fərmanı verilmişdir. Bu, səhiyyənin rəqəmsallaşdırılması və ölkələrarası tibbi xidmətlərin inteqrasiyası üçün hüquqi bazanı formalaşdıran mühüm beynəlxalq sənəddir. Məqsəd isə teletibb sahəsində vahid standartların tətbiq edilməsi və birgə fəaliyyətin təmin olunmasıdır. Həmçinin, milli teletibb sistemlərinin qarşılıqlı əlaqədə işləməsi, məsafədən diaqnostika, konsultasiya və müalicə metodlarının birgə təkmilləşdirilməsi, tibbi məlumatların təhlükəsiz ötürülməsi üçün vahid texniki platformaların yaradılması nəzərdə tutulan əsas məsələlərdəndir (*https://e-qanun.az/framework/27519*).

Eyni zamanda Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin təşəbbüsü ilə ölkədə teletibb xidmətinin təşkili və tətbiqi istiqamətində praktiki addım atılmış, bu istiqamətdə nazirliyin müvafiq əmrinə əsasən İşçi qrup yaradılmışdır. Səhiyyə Nazirliyi ilə yanaşı, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) aidiyyəti nümayəndələri İşçi qrupun tərkibinə daxil edilmişdir. Onun fəaliyyətinin istiqaməti səhiyyə sahəsində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, tibbi xidmətlərin əlçatanlığının artırılması, regionlararası bərabərsizliyin minimuma endirilməsi və xidmət keyfiyyətinin yüksəldilməsidir. Teletibb xidməti bunlarla yanaşı, tibb xidmətlərinin əsasən paytaxtda cəmləşməsi səbəbindən bölgə əhalisinin tibb xidmətlərinə çətinləşmiş çıxış imkanlarının da azaldılmasında rol oynayacaqdır (*https://sehiyye.gov.az/*).

Teletibb, onlayn həkim konsultasiyaları, evdən xəstə monitorinqi, elektron reseptlər çox qısa zamanda səhiyyənin adi, gündəlik praktikasına çevrildi. Bu dönəm çox açıq şəkildə göstərdi ki, rəqəmsal səhiyyə həm də fövqəladə vəziyyətlərdə bütün səhiyyə sisteminin ayaqda qalmasını təmin edən ən mühüm dayaqlarından biridir. Xüsusilə teletibbin istifadəsindəki partlayış kimi artım, pandemiyanın səhiyyə xidmətlərinin təşkilinə nə qədər böyük təsir göstərdiyini hamıya gözlə görünən şəkildə nümayiş etdirmişdir. Texnologiya artıq "gələcək" deyil, insan həyatının, sağlamlığın və səhiyyənin tərkib hissəsinə çevrilmişdir. Teletibbin əhəmiyyəti sözügedən pandemiya dövründə daha da önə çıxdı. Xüsusilə, xroniki xəstəliyi olan insanlar üçün bu xidmətin rolu danılmazdır. Ürək-damar problemləri, diabet və ya hipertoniya kimi xəstəliklər daimi nəzarət tələb edir. Belə hallarda teletibb xəstəyə əlavə yük yaratmadan, daha rahat şəkildə həkimlə əlaqədə qalmağa imkan verir. İnsan özünü yaxşı hiss etmədikdə dərhal həkimə yaza və ya zəng edə, vəziyyətini izah edib tövsiyə ala bilir. Bu, həm də vaxtında müdaxilə baxımından olduqca vacibdir. Təbii ki, burada sinxron və asinxron teletibb xidmətləri də ayrılır. Sinxron teletibb, xüsusilə ilkin mərhələdə və vaxt amilinin vacib olduğu hallarda çox faydalı olur. Xəstə dərhal cavab alır, həkim

də vəziyyəti real vaxtda qiymətləndirə bilir. asinxron teletibb "saxla və göndər" prinsipinə əsaslanır. Burada dərhal cavab gözlənilmir. Xəstə və ya səhiyyə işçisi məlumatı (şəkil, video, analiz nəticəsi və s.) hazırlayır, sistemə yükləyir və həkimə göndərir. Həkim isə ən əlverişli vaxtda bu məlumatları nəzərdən keçirib cavab verir. Artıq ölkəmizdə də, onlayn tibb xidməti göstərən müəssisələrin sayı artmaqdadır. Bu istər kliniki, istərsə zəngin təbii resurslarla həyata keçirilən kurort növündə xüsusi əhəmiyyət daşımaqdadır.

Beləliklə, teletibb xidmətləri artıq məsafədən verilən standart xidmət deyil, ağıllı və adaptiv səhiyyəyə çevrilmişdir. Həkimlərin qərarvermə prosesində həmin məlumatların çəkisi danılmazdır. Üstəlik turizm operatorunun prosesi müşayiət etməsi tibbi xidməti sadəcə müalicədən ibarət saxlamır, burada nəqliyyat, yerləşdirmə və s. kimi kompleks xidmətlər nəzərə alınır və ümumi paket bütöv şəkildə tətbiq edilir.

ƏDƏBİYYAT SİYAHISI

1. Bağırlı S.H. Azərbaycan Respublikasında müalicə-turizm mərkəzlərinin inkişaf etdirilməsinin iqtisadi-coğrafi aspektləri. Bakı: Azərbaycan Turizm və Menecment Universiteti (fəlsəfə doktorluğu dissertasiyası), 2022, s. 163
2. İmrani Z., Ağakişiyeva G. Azərbaycanda turizm sənayesinin davamlı inkişafı. Revista Universidad y Sociedad, 2021, 13(1), 43–50
3. Topol E.J. Deep Medicine: How Artificial Intelligence Can Make Healthcare Human Again. New York: Basic Books, 2019
4. World Tourism Organization (UNWTO). Global Report on Digital Transformation in Tourism. Madrid: UNWTO, 2019
5. https://e-qanun.az/framework/27519
6. https://sehiyye.gov.az/

KƏLAĞAYI SƏNƏTİ: ZƏRİFLİK VƏ İSMƏTİN ELMİ-NƏZƏRİ TƏDQİQİ

The Art of Kelaghayi: A Scientific and Theoretical Study of Elegance and Modesty

SƏADƏT AĞAKİŞİYEVA
Saadat Agakishiyeva
saadat.aghakishiyeva@mdu.edu.az
https://orcid.org/0000-0003-3289-1170
Mingəçevir Dövlət Universiteti
Mingachevir State University

XÜLASƏ

Məqalədə Azərbaycan xalqının zəngin və çoxşaxəli mədəni irsinin mühüm tərkib hissəsi olan kələğayı sənəti geniş və sistemli şəkildə araşdırılır. Araşdırmada kələğayının tarixi kökləri, onun yaranma və inkişaf mərhələləri, eləcə də Azərbaycan ərazisində qədim dövrlərdən mövcud olan ipəkçilik ənənələri ilə sıx bağlılığı elmi faktlar əsasında təqdim olunur. Qeyd edilir ki, kələğayı yalnız məişət əşyası deyil, həm də xalqın estetik zövqünü, dünyagörüşünü və mənəvi dəyərlərini əks etdirən mühüm mədəni simvoldur.

Məqalədə kələğayının bədii xüsusiyyətləri xüsusi diqqət mərkəzində saxlanılır. Onun üzərində istifadə olunan buta, həndəsi və bitki ornamentlərinin semantik mənası, rəng çalarlarının simvolik yükü geniş şəkildə izah edilir. Eyni zamanda, bu sənətin əsas mərkəzləri olan Şəki şəhəri və Basqal qəsəbəsində kələğayı istehsalının bu gün də ənənəvi üsullarla davam etdirildiyi vurğulanır. Usta-şagird ənənəsinin qorunması və sənətin nəsildən-nəslə ötürülməsi məsələləri də xüsusi olaraq qeyd olunur.

Bununla yanaşı, kələğayının beynəlxalq miqyasda tanıdılması, müxtəlif ölkələrin muzeylərində nümayiş etdirilməsi və 2014-cü ildə UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi onun bəşəri əhəmiyyətini bir daha təsdiq edir. Məqalədə həmçinin bu sahədə aparılan elmi tədqiqatlar, monoqrafiyalar, kitablar və ədəbi nümunələr təhlil edilərək kələğayı sənətinin həm nəzəri, həm də praktik baxımdan öyrənilməsinin əhəmiyyəti göstərilir.

Nəticə olaraq belə qənaətə gəlinir ki, kələğayı Azərbaycan xalqının milli kimliyini, estetik zövqünü və mənəvi dəyərlər sistemini özündə birləşdirən nadir mədəni irs nümunəsidir. Onun qorunması, təbliği və gələcək nəsillərə ötürülməsi müasir dövrdə xüsusi aktuallıq kəsb edir.

Açar sözlər: *kələğayı, Azərbaycan mədəniyyəti, milli irs, ipəkçilik, Basqal, Şəki, xalq sənətkarlığı, qeyri-maddi mədəni irs, ənənəvi geyim, naxışlar*

ABSTRACT

The article provides a comprehensive study of the art of kelaghayi, which is an essential part of the rich and diverse cultural heritage of the Azerbaijani people. It examines the historical roots of kelaghayi, its stages of development, and its close connection with ancient silk-making traditions in Azerbaijan. It is emphasized that kelaghayi is not only a household item but also an important cultural symbol reflecting the aesthetic taste, worldview, and spiritual values of the nation.

Special attention is given to the artistic features of kelaghayi, the symbolism of its ornaments, and the meaning of its color palette. It is noted that in traditional centers such as the cities of Sheki and the village of Basgal, the production of kelaghayi is still preserved today. The article also highlights the international recognition of this art, its exhibition in museums worldwide, and its inclusion in 2014 in the UNESCO Intangible Cultural Heritage List.

Furthermore, the article analyzes scientific studies, monographs, books, and literary works dedicated to kelaghayi. In conclusion, it is stated that kelaghayi is an important element of the national identity and spiritual values of the Azerbaijani people.

Keywords: *kelaghayi, Azerbaijani culture, national heritage, silk production, Basgal, Sheki, folk crafts, intangible cultural heritage, traditional clothing, ornaments*

GİRİŞ

Kələğayı – Azərbaycan qadınının mənəvi dəyəri və milli simvolu

Azərbaycan xalqı zəngin və təkrarolunmaz mədəni irsə, çoxsaylı milli-mənəvi dəyərlərə malikdir. Bu dəyərlər sistemində milli baş örtükləri xüsusi yer tutur. İslam mədəniyyətində qadının baş örtüyü onun estetik zövqünü, mənəvi saflığını, ləyaqətini və ictimai davranış normalarına

sadiqliyini ifadə edən mühüm simvol kimi qiymətləndirilir.

Kəlağayı Azərbaycan milli baş örtükləri arasında özünəməxsus yeri ilə seçilir və uzun tarixi inkişaf yolu keçmişdir. Müasir dövrdə moda tendensiyalarının sürətlə dəyişməsinə baxmayaraq, kəlağayının ölçü xüsusiyyətləri və ornamentlərinin kompozisiya quruluşu əsasən sabit qalmışdır. Bu xüsusiyyət onun ənənəvi formalarının qorunub saxlanıldığını və davamlılığını göstərir.

Kəlağayı yalnız məişət əşyası deyil, həm də xalqın estetik dünyagörüşünü, bədii təfəkkürünü və milli kimliyini əks etdirən mühüm mədəni irs nümunəsi kimi qiymətləndirilə bilər. Bu baxımdan, onu dünya miqyasında ən uzunömürlü və davamlı ənənəyə malik baş örtüklərindən biri hesab etmək mümkündür.

Sənətkarlıq mərkəzləri və kəlağayının coğrafi yayılma miqyası

Arxeoloji və etnoqrafik tədqiqatlar göstərir ki, Azərbaycanda ipəyin tarixi Böyük İpək yolunun yaranması ilə sıx bağlıdır. Azərbaycanla qonşu olan ölkələrin və ipəyin vətəni Çinin qarşılıqlı əlaqələrində meydana çıxan gözlənilməz tarixi dəyişikliklər burada, ilk növbədə də Şirvanda ipəkçiliyin inkişafına təkan verdi (Hüseynova, Məlikova, Abbasova, 2018, s.17).

Azərbaycanda ipəkçilik sənəti iki minillik köklü bir keçmişə sahibdir. Qədim zamanlardan bəri bu torpaqlarda baramaçılıq inkişaf etmiş, əldə olunan zərif saplardan nəfis parçalar və geyimlər hazırlanmışdır. Bu zənginliyi müxtəlif dövrlərdə ölkəmizdə olmuş xarici səyyah və alimlərin qeydlərində aydın şəkildə görmək mümkündür.

Hələ X əsrdə əl-İstəhri əl-Müqəddəsi Azərbaycanın ipək geyimlərini heyranlıqla təsvir etmiş, bu sənət hətta XIII əsrin ağır monqol yürüşlərindən sonra da öz mövcudluğunu qoruya bilmişdir.

Məşhur səyyah Marko Polo Təbrizdəki toxuculuq emalatxanalarının şöhrətindən, ipəyin bolluğundan bəhs edərək bildirirdi ki, burada hətta sadə mehmanxanalarda belə ipək yataq örtüklərindən istifadə olunur. XV əsrdə Ağqoyunlular dövründə bura gələn Venesiya diplomatları isə at yəhərlərinin belə ipəkdən hazırlanmasına təəccüb və heyrətlərini gizlədə bilməmişdilər.

XVII əsrin böyük səyyahı Övliya Çələbi Naxçıvan və Şirvanın ipəkçilik potensialını yüksək qiymətləndirmiş, Şəki ipəyini "misilsiz" adlandırmışdır. Eyni zamanda, XV əsrdə yaşamış bakılı alim Əbdürrəşid Bakuvi də öz əsərlərində Azərbaycanın fərqli bölgələrində ipəkçiliyin geniş yayıldığını təsdiq etmişdir.(Hüseynova, Məlikova, Abbasova, 2018, s.21)

Kəlağayının dəqiq yaranma tarixini müəyyən etmək çətin olsa da, onun əsrlər boyu Azərbaycan qadınlarının geyim mədəniyyətinin ayrılmaz hissəsi olduğu şübhəsizdir. Bu qədimliyin ən bariz sübutu İsmayıllı rayonunun Basqal kəndində tapılan arxeoloji nümunələrdir. Burada aşkar edilmiş qədim dəzgahlar hələ yüzillər öncə xalis ipəkdən zərif parçaların toxunduğunu təsdiqləyir.

Basqal sakinlərinin evlərində böyük bir sevgi və ehtiramla, nəsildən-nəslə ötürülərək qorunan naxış qəliblərinin 300 ildən çox yaşı var. Bu tarixi alətlər kəlağayının üzərinə özünəməxsus naxışların vurulmasında istifadə edilən ən qiymətli sənət nümunələridir. Bu faktlar göstərir ki, kəlağayı sadəcə bir geyim deyil, həm də ailə yadigarı kimi yaşadılan dərin bir mədəni irsdir.

İstər Azərbaycanda, istərsə də xarici ölkələrdə kəlağayıya olan yüksək tələbat bu qədim sənət ənənəsinin bu günədək yaşamasını və inkişafını təmin edən mühüm amillərdəndir. Hazırda Şəki şəhərində və Basqal qəsəbəsində fəaliyyət göstərən sənətkar sülalələri böyük həvəs və məsuliyyətlə kəlağayı istehsalı ənənəsini davam etdirirlər.

Tarixi inkişaf prosesində Basqal və Şəki bölgələrindən yetişən sənətkarlar yalnız Azərbaycanın müxtəlif bölgələrində deyil, həm də Gürcüstan, Türkmənistan, İran, Rusiya və Özbəkistan kimi ölkələrdə kəlağayı istehsalı ənənəsinin formalaşmasına və yayılmasına əhəmiyyətli töhfələr vermişlər. Bu fakt kəlağayının regional deyil, daha geniş coğrafiyada tanınan və qəbul edilən mədəni irs nümunəsi olduğunu təsdiqləyir.

Kəlağayı həm yerli, həm də beynəlxalq muzey ekspozisiyalarında Azərbaycan xalqının maddi-mədəni irsinin mühüm nümunəsi kimi təqdim olunur. Belə ki, bu sənət nümunələrinə

Basqalda yerləşən muzeylə yanaşı, Moskva şəhərində Dövlət Şərq Xalqları İncəsənəti Muzeyində, Bakıda Milli Tarix Muzeyində və Azərbaycan İncəsənət Muzeyində də rast gəlinir. Bu təqdimatlar kəlağayının xalqın məişətində və mədəni həyatında oynadığı mühüm rolu əyani şəkildə nümayiş etdirir.

Kəlağayı Azərbaycan xalqının milli-mədəni kimliyinin ayrılmaz tərkib hissəsi kimi bu gün də yaşamaqda davam edir. Bu ənənənin qorunub saxlanılması yalnız peşəkar sənətkarların fəaliyyəti ilə deyil, bütövlükdə xalqın ona verdiyi dəyər və davamlı maraqla mümkün olur.

Kəlağayı irsinin elmi və ədəbi tədqiqi: əsas nəşrlər

Kəlağayı sənətinin təbliği, qorunması və nəsildən-nəslə ötürülməsi baxımından elmi və bədii ədəbiyyatın, xüsusilə də kitab nəşrinin mühüm əhəmiyyəti vardır. Bu istiqamətdə etnoqrafların apardığı tədqiqatlar milli mədəni irsin öyrənilməsi və sistemləşdirilməsi baxımından xüsusi dəyər daşıyır.

1991-ci ildə tarix elmləri doktoru, professor Arif Mustafayevin "Azərbaycanda şərbaflıq sənəti" adlı monoqrafiyası yazılı mənbələr və arxiv sənədləri əsasında milli şərbaflıq sənətinin tarixi inkişaf yolunu elmi şəkildə araşdırmışdır. Həmin əsərdə kəlağayı istehsalı ənənəsinə də xüsusi yer ayrılmış, bir fəsil bütövlükdə kəlağayının hazırlanması texnologiyası, naxışlanma xüsusiyyətləri və satış prosesinə həsr edilmişdir (Mustafayev, 1991).

Bu cür tədqiqatlar kəlağayı sənətinin yalnız praktiki fəaliyyət sahəsi kimi deyil, həm də elmi araşdırma obyekti kimi dəyərləndirilməsinə şərait yaradır və onun mədəni irs kimi əhəmiyyətini daha da gücləndirir.

Kəlağayı sənətinin elmi tədqiqi və mədəni irs kimi sistemli şəkildə öyrənilməsi istiqamətində kitab nəşrlərinin xüsusi əhəmiyyəti vardır. Bu baxımdan etnoqrafik və arxeoloji araşdırmalar əsasında hazırlanmış monoqrafiyalar mühüm elmi mənbə rolunu oynayır.

Cəlil Tarıverdiyevin 2012-ci ildə rus dilində nəşr olunmuş "Kəlağayı İpək Muzeyi: konsepsiya və yaranma tarixi" adlı monoqrafiyasında Basqalda Kəlağayı İpək Muzeyinin yaradılması konsepsiyası elmi əsaslarla işlənmişdir. Əsərdə muzeylərin cəmiyyət həyatındakı rolu ümumi nəzəri yanaşma kontekstində izah olunmuş, eyni zamanda onların inkişaf xüsusiyyətləri nəzərə alınaraq bu layihənin əsaslandırılması təqdim edilmişdir. Kitabda həmçinin Azərbaycanın ipəkçilik ənənələri, Şirvan bölgəsinin qədim ipək istehsalı mərkəzi kimi özünəməxsus xüsusiyyətləri və Basqalda formalaşmış ənənəvi kəlağayı istehsal texnologiyası ətraflı şəkildə təhlil edilmişdir (Tanriverdiyev, 2012). 2018-ci ildə "BP Azerbaijan" şirkətinin sponsorluğu və Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə əməkdaşlıq çərçivəsində Əminə Məlikovanın "Kəlağayı" adlı kitabı nəşr edilmişdir. Bu nəşr kəlağayı sənətinin zəngin tarixi, fəlsəfi mahiyyəti və estetik xüsusiyyətlərini əhatəli şəkildə təqdim edir. Kitabda əsl ipəkdən toxunan ənənəvi qadın baş örtüyü olan kəlağayının hazırlanma texnologiyası və geyim mədəniyyətindəki yeri geniş şəkildə işıqlandırılmışdır.

Müəllif kəlağayının zərifliyi, rəngarəngliyi və bədii gözəlliyinə görə tarixən bir sənət nümunəsi kimi qəbul edildiyini xüsusi vurğulamışdır. Nəşrin elmi redaktoru Rəna İbrahimbəyova olmuşdur. Əminə Məlikovanın qeyd etdiyi kimi, kitab müxtəlif dövrlərdə fəaliyyət göstərmiş kəlağayı məktəblərinin nümunələrinə dair zəngin tarixi məlumatları özündə birləşdirir və poliqrafik baxımdan da yüksək sənətkarlıq nümunəsi kimi dəyərləndirilir.

Eyni zamanda, bu nəşr "ExpoOrg" şirkətinin təşkilatçılığı ilə Azərbaycan, Gürcüstan, Rusiya və Ukrayna muzeylərində aparılmış geniş tədqiqatların nəticəsi kimi hazırlanmışdır. Bu isə kəlağayı sənətinin yalnız milli deyil, beynəlxalq miqyasda da öyrənilən və təqdim olunan mədəni irs nümunəsi olduğunu bir daha təsdiqləyir.

Nəşrdə qeyd olunur ki, ipəkçilik Azərbaycanda xalq təsərrüfatının ən qədim və ənənəvi sahələrindən biri kimi formalaşmışdır. Tarixi mənbələrə əsasən, ipək qurdu ölkə ərazisinə Böyük

İpək Yolu üzərindən, ilkin olaraq Çindən gətirilmiş və Azərbaycanın Avropa ilə Asiyanın kəsişməsində yerləşməsi bu sahənin sürətli inkişafına əlverişli şərait yaratmışdır.

Mənbədə vurğulanır ki, Azərbaycanın Şamaxı, Qarabağ, Şəki, Gəncə və Naxçıvan kimi bölgələrindən xam ipək ixrac olunmuş, xüsusilə XIX əsrin 30–50-ci illərində Rusiya imperiyası ərazisində Qafqaz üzrə istehsal edilən hazır ipək məhsullarının təxminən 85 faizinin Azərbaycanın payına düşdüyü qeyd edilmişdir. Bu fakt ölkənin ipəkçilik sahəsində regionun aparıcı mərkəzlərindən biri olduğunu təsdiqləyir (Hüseynova, Məlikova, Abbasova, 2018, s.22).

Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə "Mirvarid Dilbazi Poeziya Məclisi" İctimai Birliyi tərəfindən 2022-ci il kiçik qrant müsabiqəsi çərçivəsində həyata keçirilən "Kəlağayı əlvan qıyqacı" layihəsi əsasında dörd kitab nəşr edilmişdir. Bu layihə kəlağayı mədəni irsinin təbliği və ədəbi-mədəni müstəvidə təqdimatı baxımından mühüm əhəmiyyət kəsb edir.

Layihənin birinci nəşri "Azərbaycan kəlağayısı min illərin yadigarı" adlı kitabdır. Bu əsərdə Azərbaycan milli-mədəni dəyərlər sisteminin mühüm tərkib hissəsi olan kəlağayı haqqında klassik və müasir ədəbiyyatdan seçilmiş dəyərli fikirlər, şeirlər və elmi-populyar məqalələr sistemləşdirilərək bir araya gətirilmişdir (Tomarlı, 2022). Layihə çərçivəsində hazırlanmış ikinci kitab "Kəlağayı əlvan qıyqacı" adlı şeirlər toplusudur. "Mirvarid Dilbazi Poeziya Məclisi" İctimai Birliyinin sədri Güllü Eldar Tomarlı tərəfindən uzun illər ərzində toplanmış materiallar əsasında tərtib edilən bu nəşrdə kəlağayını vəsf edən 76 müəllifin poetik nümunələri yer almışdır. Kitabda anaların, qız-gəlinlərin ismət, gözəllik və milli kimlik rəmzi kimi kəlağayıya həsr olunmuş şeirləri toplanmış, eyni zamanda Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın kəlağayıya göstərdiyi diqqət və marağı əks etdirən materiallar da daxil edilmişdir (Tomarlı, 2023).

"Kəlağayı əlvan qıyqacı" kitabı kəlağayı mövzusunda hazırlanmış ilk şeir toplularından biri kimi qiymətləndirilir və gənc nəslin milli mədəni irsə marağının artırılmasına xidmət edən mühüm ədəbi töhfə kimi çıxış edir.

Layihə çərçivəsində nəşr edilən "Kəlağayı əlvan qıyqacı" kitabının redaktoru Vüsal Sehranoğlu, layihə rəhbəri isə Güllü Eldar Tomarlıdır. Kitabın üz qabığında yer alan "Kəlağayı əlvan qıyqacı" adlı rəsm əsərinin müəllifi rəssam Gülnarə Məmmədli, "Heratı" kəlağayı nümunəsinin müəllifi isə Basqallı sənətkar Abbasəli Talıbovdur. Nəşrdə, eyni zamanda, Gülnarə Məmmədlinin kəlağayı mövzusuna həsr olunmuş təsviri sənət nümunələrinə də yer verilmişdir. Kitabın adı aşıq sənətinin görkəmli nümayəndəsi Aşıq Ələsgərin poetik irsindən götürülmüşdür ki, bu da onun folklor və milli ədəbi ənənələrlə bağlılığını əks etdirir.

"Anam kəlağayılı bir muğamıydı..." adlı nəşrdə kəlağayının təbliği və bədii tərənnümü ilə bağlı şair, yazıçı və aşıqlara məxsus ədəbi nümunələr, eləcə də publisistik məqalələr toplanmışdır. Bu kitab kəlağayının yalnız məişət əşyası deyil, həm də poetik və estetik dəyər kimi təqdiminə xidmət edir.

Layihə çərçivəsində nəşr olunan sonuncu kitab "Anam kələğayıdır, kələğay anam" adlanır. Kitabın tərtibçisi və toplayanı "Mirvarid Dilbazi Poeziya Məclisi" İctimai Birliyinin sədri, eyni zamanda şəxsi "Kəlağayı Muzeyi"nin direktoru, şair və publisist Güllü Eldar Tomarlıdır. Nəşrin redaktoru ədəbi tənqidçi və araşdırmaçı Vaqif Osmanlı, məsləhətçiləri isə Xalq şairi Mirvarid Dilbazinin qızı Xatirə Dilbazi və Əmək Qəhrəmanı, Prezident təqaüdçüsü Tərlan Musayevadır. Rəyçi qismində İctimai Birliyin sədr müavini Vüsal Sehranoğlu çıxış etmiş, kitaba ön sözü Xalq şairi Nəriman Həsənzadə yazmışdır.

Kitabda ənənəyə sadiq qalınaraq klassik və müasir Azərbaycan ədəbiyyatının nümayəndələri ilə yanaşı, xarici ölkələrdə yaşayan azərbaycanlı şair, yazıçı, publisist, elmi araşdırmaçı və aşıqların, eləcə də Azərbaycanın tanınmış qadınlarının kəlağayıya həsr olunmuş şeirləri, hekayələri, elmi məqalələri və düşüncələri yer almışdır. Bu nəşr kəlağayının çoxşaxəli mədəni fenomen kimi ədəbi və elmi müstəvidə geniş şəkildə təqdiminə xidmət edir.

Beynəlxalq təbliğat və YUNESKO irsi

XIX əsrdə Azərbaycan kəlağayısı beynəlxalq miqyasda tanınaraq dünya şöhrəti qazanmışdır. 1862-ci ildə 1862 London World Exposition çərçivəsində Azərbaycan nümayəndəsi Nəzər Əbüləziz oğlu tərəfindən kəlağayı nümunələrinin təqdim olunması bu sənətin yüksək bədii-estetik dəyərinin beynəlxalq səviyyədə qiymətləndirilməsinə səbəb olmuş, o, gümüş medal və diplomla təltif edilmişdir.

Müasir dövrdə də kəlağayı ənənələrinin qorunması və inkişafı istiqamətində mühüm addımlar atılmışdır. 2003-cü ildən Basqal qəsəbəsində fəaliyyət göstərən Kəlağayı İpək Mərkəzi bu sənətin yaşadılması və təbliği baxımından əhəmiyyətli rol oynayır. Mərkəzin nəzdində fəaliyyət göstərən muzey isə kəlağayının tarixi və texnoloji xüsusiyyətlərini nümayiş etdirir. 26 noyabr 2014-cü ildə kəlağayı sənətinin UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilməsi onun beynəlxalq səviyyədə tanınmasının mühüm göstəricisidir (Mustafayeva, 2019, s.13).

Kəlağayı bu gün də Azərbaycan qadınının milli baş örtüyü kimi onun zərifliyini və estetik dünyagörüşünü əks etdirən əsas atributlardan biri olaraq qalmaqdadır.

Azərbaycan mədəni irsinin beynəlxalq müstəvidə təbliği istiqamətində həyata keçirilən layihələr sırasında Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi xüsusi yer tutur. Mərkəzin təşəbbüsü ilə "Kələğayı: Azərbaycan ipəyinin dürdanəsi" adlı kitab özbək və rus dillərində hazırlanaraq Daşkənd şəhərində nəşr edilmişdir (Mədəniyyət q., 2018).

Nəşrin ön sözünün müəllifi Bakı Dövlət Universitetinin professoru, Basqal İpək Mərkəzinin direktoru Rəna İbrahimbəyova, tərtibçisi isə Mərkəzin direktoru Samir Abbasov olmuşdur. Kitabda kəlağayı sənətinin tarixi, Azərbaycanda ipəkçiliyin formalaşması və inkişaf mərhələləri, həmçinin müxtəlif dövrlərdə alim və səyyahların bu sahəyə dair fikirləri geniş şəkildə təqdim edilmişdir.

Bundan əlavə, nəşrdə kəlağayının hazırlanma texnologiyası, Azərbaycan ipəyinin üzərində tətbiq olunan ornamental naxışların semantikası və bədii xüsusiyyətləri, bu sənətin beynəlxalq miqyasda tanıdılması istiqamətində görülən işlər, o cümlədən Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən layihələr haqqında da ətraflı məlumat verilmişdir. Bu baxımdan, qeyd olunan nəşr kəlağayı sənətinin elmi, mədəni və tarixi aspektlərinin kompleks şəkildə təqdiminə xidmət edən mühüm mənbə kimi dəyərləndirilə bilər.

Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi tərəfindən verilən məlumata əsasən, kitabın özbək dilində nəşri xüsusi əhəmiyyət kəsb edir. Bu nəşr Azərbaycan ipəyi və kəlağayı sənətinin beynəlxalq səviyyədə təbliği üçün yeni imkanlar açmaqla yanaşı, bu istiqamətdə araşdırma aparan mütəxəssislər üçün mühüm elmi-informasiya mənbəyi rolunu oynayır.

Eyni zamanda bildirilir ki, yaxın vaxtlarda kitab geniş ictimaiyyətə təqdim olunacaq və Özbəkistanın aparıcı kitabxanalarına, ali təhsil müəssisələrinə, tədqiqat mərkəzlərinə, eləcə də ipəkçilik sahəsində fəaliyyət göstərən mütəxəssislərə çatdırılacaqdır. Qeyd edilməlidir ki, bu nəşrin hazırlanmasında 2016-cı ildə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə nəşr olunmuş "Kələğayı" kitabının materiallarından da istifadə edilmişdir (Mədəniyyət q., 2018).

NƏTİCƏ

...Kəlağayı – yaddaşdır, xatirələrlə dolu mücrüdür. Doğma insanların başlarına örtdüyü, şad və kədərli günlərin şahididir. İnamla demək olar ki, kəlağayının çoxəsrlik istehsal və örtülmə ənənəsi bu gün öz dirçəliş dövrünü yaşayır. Kəlağayını yaşatmaq üçün sevgisini, fiziki və ruhi enerjisini əsirgəməyən insanlar qarşısında ehtiramla baş əyirik! Kəlağayı milli mədəniyyətimizin ayrılmaz hissəsi olmuş və olacaqdır. yaşa, bizim kəlağayımız...(s.217)

ƏDƏBİYYAT SİYAHISI

1. Atəş, B. (Qurbanova, B. C.). (2024). Nənəmin kəlağayısı. Bakı: Elm və təhsil, 221 s.
2. Hüseynova, A., Məlikova, Ə., & Abbasova, N. (2018). Kəlağayı sənəti. Bakı, 220 s.
3. Mustafayev, A. N. (1991). Azərbaycanda şərbaflıq sənəti. Bakı: Elm, 192 s.
4. Mustafayeva, A. (2019, 3 dekabr). Kəlağayı. Xalq Cəbhəsi, s. 13.
5. Tariverdiyev, D. (2012). Muzey şelka "Kelaqai": konsepsiya i istoriya sozdaniya. Bakı: Sada, 55 s.
6. Tomarlı, G. E. (2022). Azərbaycan kəlağayısı min illərin yadigarı. Bakı: Elm və təhsil, 193 s.
7. Tomarlı, G. E. (2023). Kəlağayı əlvan qıyqacı. Bakı: Elm və təhsil, 193 s.
8. Tomarlı, G. E. (2024). Anam – kəlağayıdır, kəlağayı – anam. Bakı: Elm və təhsil, 206 s.
9. Kəlağayı – Azərbaycan ipəyinin incisi. (2018, 11 aprel). Mədəniyyət qəzeti. https://medeniyyet.info.az/page/news/43589/Kelagayi--Azerbaycan-ipeyinin-incisi.html

NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA EKOTURİZMİN MÖVCUD VƏZİYYƏTİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

Current Situation and Development Prospects of Ecotourism In The Nakhchivan Autonomous Republic

FİZZƏ MƏMMƏDOVA[1]
Fizza Mammadova[1]
fizzememmadova@ndu.edu.az
https://orcid.org/0009-0001-0255-7190

ƏLİƏDDİN ABBASOV[1]
Aliaddin Abbasov[1]
elieddinabbasov@ndu.edu.az
https://orcid.org/0009-0004-2085-6209

ALİYƏ RZAYEVA[1]
Aliya Rzayeva[1]
aliyerzayeva@ndu.edu.az
https://orcid.org/0000-0001-7435-431X

HƏVVA CƏFƏROVA[1]
Havva Cafarova[1]
havvaferec@gmail.com
https://orcid.org/0009-0005-9079-9323

NƏRMİN QARAYEVA[1]
Narmin Garayeva[1]
ngarayeva999@gmail.com
https://orcid.org/0009-0000-2126-2948

[1]*Naxçıvan Dövlət Universiteti*
[1]*Nakhchivan State University*

XÜLASƏ

Bu məqalədə Naxçıvan Muxtar Respublikasında ekoturizmin formalaşması, resursları və növləri, eləcə də regionda onun inkişaf şəraiti və perspektivləri araşdırılır. Naxçıvan Azərbaycanın ən qədim bölgələrindən biri, minilliklərin izlərini və əhəmiyyətli turizm potensialını özündə cəmləşdirən ilk insan məskənlərindən biridir. Muxtar respublikada ekoturizmin daha da inkişaf etdirilməsi üçün mümkün yollar araşdırılmış və təhlil edilmişdir. Tədqiqatın məqsədi ekoloji turizmin yeni elmi və metodoloji yanaşmaların formalaşdırılması və onun həyata keçirilməsi üçün tətbiq olunan mexanizmlərin işlənməsinin hərtərəfli araşdırılmasından ibarətdir. Ekoturizm turizmin ən sürətlə inkişaf edən sahələrindən biridir, hər il əhatə dairəsi genişlənir və turizm sənayesinin fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir. Ekoturizmin mövcud vəziyyətinin və inkişaf perspektivlərinin öyrənilməsi onun regional potensialını qiymətləndirməyə və hərtərəfli istifadə etməyə imkan verəcəkdir. Məqalədə muxtar respublikanın təbii və su ehtiyatları ekoloji prizmanın əsası kimi təsvir edilir və bu mənbələrdən turizm məqsədləri üçün daha səmərəli istifadənin mümkünlüyü və zəruriliyini əsaslandırılır.

Açar sözlər: *Naxçıvan Muxtar Respublikası, ekoturizm, təbii və su ehtiyatları, ekoturizm potensialı, inkişaf perspektivləri*

ABSTRACT

This article explores the formation, resources, and types of ecotourism in the Nakhchivan Autonomous Republic, as well as the conditions and prospects for its development in the region. Nakhchivan, one of Azerbaijan's oldest territories, is among the earliest human settlements that preserve traces of millennia and embody significant tourism potential. The study examines and analyzes possible ways to further advance ecotourism in the autonomous republic. The aim of the research is to comprehensively investigate the development of new scientific and methodological approaches to ecological tourism and the mechanisms applied for its implementation. Ecotourism is one of the fastest-growing sectors of tourism, expanding its scope annually and exerting a considerable influence on the functioning of the tourism industry. Studying the current state and development prospects of ecotourism will allow for the assessment and comprehensive utilization of its regional potential. The article emphasizes the natural and water resources of the autonomous republic as the foundation of the ecological prism and substantiates the necessity and feasibility of their more efficient use for tourism purposes.

Keywords: *Nakhchivan Autonomous Republic, ecotourism, natural and water resources, ecotourism potential, development prospects*

Ekoturizm və ya ekoloji turizm ətraf mühitə qayğı ilə əlaqəli təbiət turizminin bir növüdür. Ekoturizm təbii ərazilər, ətraf mühit, yerli əhali və təbiətlə məqsədyönlü qarşılıqlı təsir şəklində tanışlıq, qayğı, öyrənmə məqsədi daşıyan səyahətdir. [1,6]. Nəticə etibarilə, "ekoturizm potensialı təbii, tarixi və mədəni obyektlərin və hadisələrin, eləcə də müəyyən bir ərazidə ekoturizm

fəaliyyətlərinin təşkili üçün sosial-iqtisadi və texnoloji ilkin şərtlərin birləşimi kimi başa düşülməlidir. Bu fəaliyyət, öz növbəsində, mütləq ekoturizmin əsas prinsiplərinə uyğunlaşaraq ərazinin təbiəti, təbii ekoloji sistemi, bioloji və mədəni müxtəlifliyi ilə tanışlığı özündə ehtiva edir. Ekoturizm turizm sənayesində əsas mənbəyini - təbii mühiti və ya onun ayrıayrı komponentlərini (təbii abidələr, bəzi heyvan və ya bitki növləri və s.) qorumaqda həyati olaraq maraqlanan yeganə istiqamətdir. Cədvəl 1-də turizmin ətraf mühitin komponentlərinə təsirinə dair nümunələr verilmişdir.

Cədvəl 1. Turizmin təbii mühitin komponentlərinə təsirinə dair nümunələr

Komponent	Turizmin təsirinin nəticələri	Səbəb
Torpaq	Münbit torpaq təbəqələrinin vəziyyəti. İqlimdə, rütubətdə, temperaturda və mikrofloradakı dəyişikliklər.	Torpağın münbitliyi azalması, ağac və kolların qırılması və s.
Bitki örtüyü	Növlərin tərkibindəki dəyi-şikliklər, bitkilərin fərdi xüsusiyyətlərinin ərazi quruluşunun səviyyələrinə görə paylanması	Müxtəlif məqsədlər üçün bitkilərin və onların hissələrinin (köklər, meyvələr, çiçəklər və s.) toplanması, meşə yanğınları və s.
Su ekosistemi	Sahil xəttində, dib dərinliklərində dəyişikliklər Çöküntü və bulanıqlığın artması, suların kimyəvi tərkibində dəyişikliklər	Meşə sahələrini azaltmaq, bəndlər, su anbarları tikmək və s.

Göründüyü kimi, ekoloji turizm, təbii ekoloji sistemlərə minimum mənfi təsirləri təmin etməyə, ekoloji turizm xidmətlərinin göstərilməsində iştirak edən əhalinin məşğulluğunu təmin etməyə imkan verir və bununla da əhalinin yaşayış səviyyəsinin yüksəlməsinə kömək edir. Beləliklə, təbii və mədəni landşaftların elementlərini və landşaftların özünü qiymətləndirmə meyarlarına ilk növbədə onların mənşəyi və tarixi, unikallığı, qorunması, müxtəliflik xüsusiyyətləri, o cümlədən flora və faunanın növ zənginliyi daxil edilməlidir [7,8]. Turların təşkili üsullarının qiymətləndirilməsi üçün uyğun meyarlara bu metodların ekoloji cəhətdən mümkünlüyü və ümumiyyətlə, həm insanlara, həm də bütövlükdə landşaftların biotik komponentlərinə nəzərən hesablanmış gigiyenik təhlükəsizlik standartları daxildir. Tur şəraiti əsasən mövcud qaydalara — ekoloji və digər təhlükəsizlik standartlarına, icazə verilən istirahət məkanlarına və davamlı resurslardan istifadə standartlarına əsasən qiymətləndirilməlidir. Ərazidə sabit ekoturizmin inkişafı üçün şərait yaratmaqdan ötrü müasir yollar çəkmək, yaşıllıqları artırmaq, yeni park və istirahət mərkəzləri salmaq, müasir ekoturizm marşurutları hazırlamaq və əhalini ekoturizm sahəsində maarifləndirmək lazımdır. Regionda ekoloji turizmin təşəkkülü və inkişafı proseslərinin təhlili belə bir nəticəyə gəlməyə imkan verir ki, bu zəngin və nəhəng mədəni-landşaft ərazisində ekoloji turizm yalnız ilk addımları atır, bu turizm növünün təşkilində toplanmış ilkin təcrübə isə onun perspektivlərinin elmi ümumiləşdirməyə ehtiyacı yaradır.

Naxçıvan Muxtar Respublikası Qafqaz İstmusunun cənub hissəsini tutur və Kiçik Qafqazın cənub-qərb yamaclarının uclarında, 38°51′-39°52′ şimal enliyi və 44°37′-46°13′ şərq enliyi arasında yerləşir. Şimaldan və şimal-qərbdən sərhədlər Zəngəzur və Dərələyəz dağ silsilələrinin suayrıcıları boyunca, Ağmanqan silsiləsinin ətəklərinin şimal-şərq yamacı boyunca (Soyuqdağ boyunca) Ermənistanla həmsərhəddir; cənubdan və cənub-qərbdən respublika Araz çayı boyunca İranla, eləcə də Türkiyə ilə (15 km) həmsərhəddir [1,2]. Muxtar respublikanın ərazisinin böyük hissəsini Kiçik Qafqazın Zəngəzur və Dərələyəz silsilələri əhatə edir. Ən yüksək dağ zirvəsi Qapıcıqdır (3904 m). Araz düzənlikləri (Sədərək, Şərur, Böyükdüz, Kəngərli, Naxçıvan, Culfa və Ordubad) ərazinin

üçdə birini təşkil edir. Muxtar respublikada 200-dən çox mineral su bulağı (Sirab, Badamlı, Darıdağ, Vayxır və s.) mövcuddur. Araz düzənliklərində illik yağıntı 200-300 mm, yüksək dağlıq ərazilərdə isə 500-800 mm-dir. Muxtar respublikada təxminən 400 böyük və kiçik çay var. Onların ümumi uzunluğu 1800 km-dir. Şəkil 1-də Naxçıvan Muxtar Respublikasının geomorfoloji quruluş sxemi verilmişdir.



Şəkil 1. Naxçıvan Muxtar Respublikasının geomorfoloji quruluşu


Hazırda ayrı-ayrı çaylar, göllər, şəlalələr, mineral, kəhriz və bulaq suları xüsusi mühafizə olunan təbiət əraziləri statusuna malik obyektlər hesab olunur. Nəticə etibarilə, mənzərəli ərazirərə malik su obyektləri xüsusi mühafizə olunan ərazilər kimi təkcə istirahət əhəmiyyətinə malik deyil, həm də əhalinin xalq təsərrüfatın gündəlik istifadəsində böyük əhəmiyyətə malikdirlər. Bu səbəbdən şirin su ehtiyatlarının, bulaqlarının, mineral və termal bulaqların öyrənilməsi üçün elmi yanaşmalar araşdırılır və onların mövcud vəziyyətinin hidroloji və hidro-ekoloji xüsusiyyətləri yeni baxış bucağından öyrənilmişdir. Təqdim olunan elmi-tədqiqat materialları muxtar respublikada su ehtiyatlarından səmərəli istifadə üçün bir sıra praktik tövsiyələr verməyə imkan verir.

Çaylar - Naxçıvan Muxtar Respublikası ərazisində ümumi uzunluğu 1,8 min km olan 400-ə qədər böyük və kiçik çaylar mövcuddur. Ərazinin daxili suları, xüsusən də çay şəbəkəsi qeyri-bərabər paylanmışdır. Zəngəzur silsiləsindən axan çaylar sıx şəbəkə ilə fərqlənir. Naxçıvan çökəkliyində Naxçıvançaydan qərbdəki ərazilərdə axan çaylar isə zəif şəbəkə təşkil edir [1,3]. Zəngəzur silsiləsi dağlıq hissə olduğundan bu ərazidə çay şəbəkəsi daha geniş yayılmışdır. Muxtar respublika ərazisindəki çaylar Araz hövzəsinə daxildir. Ərazinin mərkəzi və cənub-qərb hissəsində çaylar öz başlanğıcını Zəngəzur və Dərələyəz silsiləsinin dik yamaclarından götürür. Dərələyəz silsiləsi Naxçıvan MR-in şimal-şərq hissəsində yerləşir və Ermənistan ilə muxtar respublika arasında təbii sərhəd rolunu oynayır. Bu silsilənin bir hissəsi Cəhriçayın əsas dərəsindən qərbdə, digəri isə ondan şərqdə yerləşir. Cədvəl 2-də Naxçıvan Muxtar Respublikasının ən böyak çaylarının ümumi xüsusiyyətləri verilmişdir.

Cədvəl 2. Naxçıvan Muxtar Respublikası ərazisindəki çayların morfometrik göstəriciləri

Çayların adı			**Mütləq yüksəklik (m-lə)**		

	Çayların uzunluğu (km-lə)	Su toplayıcı sahə (km²-lə)	Mənbəyi	Mənsəbi	Orta meyilliyi (%-lə)	Çay şəbəkə sıxlığı əmsalı km² -lə
Arpaçay	126,0	2630	2985	780	17,4	0,54
Naxçıvançay	81,2	1630	2720	748	24,3	0,48
Əlincəçay	61,6	599,2	2800	695	34,2	0,50
Qaradərəçay	40,0	311,8	2100	686	35,4	0,56
Çanaqçıçay	36,4	1888	2520	797	47,3	0,56
Gilançay	53,4	425,9	2700	678	37,9	0,52
Düylünçay	29,6	123,5	3000	660	79,1	0,59
Vənəndçay	29,4	91,4	3500	650	96,9	0,53
Əylisçay	21.0	57,9	3600	634	141,2	0,60
Ordubadçay	19,0	42,2	3575	630	155,0	0,71
Gənzəçay	15,6	44,6	2700	621	133,3	0,51
Kotamçay	7,8	22,3	2842	617	285,3	0,55
Kilitçay	4,8	9,15	2373	600	369,4	0,53



Şəkil 2. Muxtar respublika çaylarının uzunluğu (km-lə)

Göllər - Muxtar respublikada göllər minillər ərzində formalaşaraq öz təbii vəziyyətlərini yaratmışlar. Quru iqlim şəraitində göllər bəzən davamlı qidalanmadan məhrum olmuş, onların sahəsi və su həcmi azalmış, bəzən isə tamamilə qurumuşlar (məsələn, Qaraçuq gölü). Ona görə də muxtar respublika ərazisindəki göllərin təbii rejim xüsusiyyətlərinin öyrənilməsi və göllərin ekoloji şəraitinin yaxşılaşması istiqamətində aparılan tədqiqatlar böyük əhəmiyyətə malikdir.

Muxtar respublika ərazisindəki göllərdə təbii rejimin tənzimlənməsi üçün antropogen axıntıların miqdarı və göllərin ekoloji tarazlığı, onların sağlamlaşdırılması və daha səmərəli istifadəsi üçün müəyyən tədbirlər görülür. Göllər yeraltı suların tələtümlərinin Yer üzərindəki ən gözəl inikasıdır [11]. Yerin dərinliklərində suyun ecazkar gözəlliyini biosferə bəxş edən ana təbiət sanki yeraltı dünyanın zəlzələ və vulkanlarının şıltaqlıqlarını axarsız, lal sükutlu göllərlə

sakitləşdirmişdir. Okean və dənizlərə çıxışları olmasa da, hidrosferdə xüsusi çəkisi və yeri olan göl və sututarlar muxtar respublikanın su balansında böyük əhəmiyyətə malikdirlər [5,6]. Muxtar respublikada ərazisindəki göllər və onların ətrafı ekoturizm infrastrukturuna və ideal şəraitə malik məkanlar olduğundan burada yerli əhalinin, habelə turistlərin səmərəli istirahətini təmin etmək olar.

Cədvəl 3. Naxçıvan Muxtar Respublikası ərazisindəki göllərin ümumi xüsusiyyətləri

Gölün adı	Dəniz səviyyəsindən yüksəklik, m	Tutumu, m^3	Sahə, ha	Temperatur, ^0C	Minerallıq, mq/l kimyəvi tərkibi
Gögöl	3065	1,0	11,5	16-18,5	90,0; HCO_3^- , Na^+
Salvartı göl	2843	1,0	11,3	18,0	50-95; HCO_3^- , Ca^{2+}
Qanlı göl	2424	1,2	10,2	18,0	136,6; HCO_3^-,Na^+,Ca^{2+}
Batabat göl	2113	1,8	10,0	10,5-16	90-146; HCO_3^-, Ca^{2+}

Muxtar respublika ərazisindəki göllərdə su kütləsinin dadı şirin sulara yaxın olub, minerallaşma dərəcəsindən asılı olaraq dəyişilir. Beləliklə, tədqiq olunan göllərdə su kütləsinin işıq şüalarını keçirmə qabiliyyəti fotosintez zonasının dərinliyindən və suyun temperaturundan asılı olaraq, göllərdəki bioloji proseslərin intensivliyini tənzimləyir. Göl sularının fiziki göstəricilərini əks etdirən bu xassələr öz növbəsində göllərin ekoloji xüsusiyyətlərinin formalaşmasına şərait yaradır.

Ordubad rayonu ərazisində Zəngəzur silsiləsinin Ayçınqıl aşırımından 3707 metr hündürlükdən başlayan eyniadlı çayın üzərində Pəzməri şəlaləsi yerləşir [7]. Su sərfi axınının sürəti və gücünə görə Azərbaycanda ən iri şəlalələrdən biri olan Pəzməri şəlaləsi kanyonvari dar dərələrdən keçərək əsrarəngiz təbiət abidəsi yaradır, şəlalənin nisbi hündürlüyü 16 metrə, ortaillik su sərfi saniyədə 1,34 kubmetrə çatır (Şəkil 3).



Şəkil 3. Pəzməri şəlaləsi

Suyunun tərkibi hidrokarbonatlı, kalsiumlu olub, mineral laşma dərəcəsi 90 mq/l-ə bərabərdir. Əsasən bulaq və qar suları ilə qidalanan şəlalənin karbonatlı süxurlar üzərində nisbi hündürlüyü, təxminən 18 metrdir. 40 metr hündürlükdən aramsız aşağı tökülən su qayalara çırpılaraq Günəş şüalarından isinən irili-xırda lı daşları parıldadır. Şəlalənin ətrafındakı dilsiz qayaların heykəlləşən görüntüsünü seyr edən hər kəs bu təbiət abidəsinin yaratdığı mənzərənin qarşısında heyranlıq duyur, gözləri önündə suyun daşlarla birgə yaratdığı qeyri-adi təbiət muzeyinin eksponatları, əsrlərin dərinliklərindən süzülüb gələn ulu tariximizin səhifələri canlanır. Pəzməri çayının

üzərindəki eyniadlı böyük şəlalədən başqa, bir neçə kiçik şəlalə də mövcuddur. Həmin şəlalələr bura da olduqca gözəl bir mənzərə yaratmaqla yanaşı, həm də ərazinin turizm potensialından xəbər verir. Bu şəlalələrdən ən bolsulu olanı "Qaplan" adı ilə tanınır. Şəlalənin belə adlandırılması həmin ərazidə qaplanların olması ilə əlaqələndirilir. Çünki bu dağlar zəngin heyvanat və bitki aləmi ilə məşhurdur. Ana təbiət burada dağ keçisi, ayı, canavar, porsuq və digər heyvanların, o cümlədən müxtəlif meşə quşlarının yaşamasını təmin etmişdir. İlin yaz və yay aylarında ətrafda çayların və şəlalələrin səsi quşların nəqəratı ilə birləşib insana inanılmaz fərəh verən təbiət simfoniyası yaradır. Bu mahnıya şəlalələrin başladığı yüksəkliklərin çiləmə bulud ların, xəfif küləklərin yaydığı həzin musiqi sədalarını da, əlavə etsək, insan ruhunun qidası olan və heç bitməyən bənzərsiz səslərin qayalarda əks-sədası eşidilir. Onu da qeyd edək ki, eko turizmin ideal məkanı olan Pəzməri kəndində, Pəzməri şəlaləsinə gedən yolda geniş quruculuq işləri aparılmış, ərazi abadlaşdırılmışdır.

Duzdağda yerləşən bənzərsiz Duz şəlaləsi ərazinin nadir təbiət abidəsidir [9]. Duz laylarının altından axan su axıntıları yer səthinə çıxarkən buxarlanır, torpağa qarışan duzu da özü ilə bərabər, yer səthinə çıxıb Duz şəlaləsini əmələ gətirir. Bu əsrarəngiz şəlalə ilin bütün fəsillərindən və iqlim şəraitindən asılı olaraq fərqli şəkillərə düşür, qış aylarında buz bağlamaq yerinə duz bağlayır, yağıntılar olmadıqda duz çöküntüləri quruyaraq ağ örpəyə bürünmüş gəlin kimi ərazidə bənzərsiz bir təbiət abidəsi yaradır.



Şəkil 4. Duzdağ şəlaləsinin görünüşü

Dağlara səyahət etməyi sevənlər bu yerlərdə irili-xırdalı "daş akvariumlar"la qarşılaşacaq, duzla örtülən və Günəş şüaların dan parlayan daşların üzərində ulu tariximizin izlərini görəcək və minilliklərin naxışlarını qoruyub saxlayan su-daş, qaya harmoniyasına heyran qalacaqlar. Şəlalənin suyu aşağı minerallığa malik olmaqla Cl^-, Na^+, Ca^{2+}-ludur.

Bu şəlalələrlə bərabər, Ordubadda, Şahbuzda onlarla kiçik şəlalələr əsrarəngiz mənzərələri və təbii gözəllikləri ilə göz oxşayır. Beləliklə, ecazkar gözəlliklərin müşahidə göyərtəsində bölgənin fərqli məntəqələrində yerləşən valehedici mənzərələrlə şöhrət çələnginə sahib şəlalələrə eksklüziv səyahət bu şəlalələrin ekoloji turizmin ideal məkanı olduğunu təsdiq edir.

Geoloji tarixi on milyon il, istifadə tarixi isə 2000 ildən çox olan Duzdağ qaya duzu yataqları müalicəvi xüsusiyyətlərinə görə dünyada unikaldır. MDB ölkələri də daxil olmaqla, dünyanın hər yerindən turistlər buraya müalicə üçün gəlirlər. Müxtəlif təbii komponentləri, texnoloji inkişafları və estetik keyfiyyətləri ilə muxtar respublikadakı digər təbii turizm ehtiyatları ətraf bölgədən gələn potensial turistlər üçün unikal hesab edilə bilər. Məqsəd turist təcrübəsini artırmaqdır. Duzdağ duz mağarası Naxçıvan Muxtar Respublikasında dəniz səviyyəsindən 1173 metr yüksəklikdə yerləşir. Burada tənəffüs yolları xəstəlikləri olan xəstələr uğurla müalicə olunur.

Müalicə mərkəzinin özü yerüstü və yeraltı hissələrdən ibarətdir. Birincisi Duzdağda və Duzdağ Otelində, ikincisi isə dağın altında, ikinci əsas duz mədəninin girişindən 300 metr aşağıda yerləşir. Burada, qalınlığı 10-12 metrə çatan duz təbəqələrində havanın tam 20 faizini oksigen təşkil edir. Bu təmiz oksigen ağciyər xəstəliyindən əziyyət çəkənlər üçün şəfavericidir. Duzun antibakterial xüsusiyyətlərə malik zəngin mineralları və kimyəvi elementləri bədənə müsbət təsir göstərir. Duz mineralları ilə zəngin olan oksigenlə zəngin hava bronxial astma, xroniki allergik sinezopatiyalar, xroniki bronxit və oxşar xəstəlikləri olan xəstələrin sağalmasını sürətləndirir.

Naxçıvan Muxtar Respublikası dünyada ən zəngin mineral su ehtiyatlarına malikdir. Azərbaycandakı mineral su ehtiyatlarının 60%-i Naxçıvan Muxtar Respublikasındadır. Muxtar respublikanın 5,5 min km^2 ərazisində 250-dən çox mineral su bulağı qeydə alınıb. Bu ərazilər təkcə Cənubi Qafqazda deyil, həm də Avropada özünəməxsus fauna və florası, xüsusən də dərman bitkilərinin zənginliyi ilə seçilir [3, 8]. Arsen mineral suları (tərkibində arsen - As olan) müxtəlif ion tərkibi, minerallaşması, temperaturu və arsen miqdarı 0,7 mq/l və ya daha çox olan, içməli sularda 0,2 mq/l-dən çox olmayan təbii sulardır [9,10]. Onlar olduqca nadir mineral su növü hesab olunurlar. Arsen mineral suları kimyəvi və qaz tərkibinə görə çox müxtəlifdir. Bu qrupun ən məşhur suları Çvijepse yatağının (Soçi), Qornaya Tyssanın (Transkarpat bölgəsi, Ukrayna) və Sinegorsk kurortunun (Saxalin bölgəsi) və Naxçıvan Muxtar Respublikasının (Darıdağ termal suyu) karbonatlı arsen sularıdır.

Tədqiqatın nəticələri ölkənin turizm kompleksinin müasir şəraitdə inkişaf etməsinin mürəkkəb və çoxfaktorlu bir problem olduğunu göstərir. İstənilən turizm ərazisinin inkişafı məhz ona xas olan bir çox xüsusiyyətlərdən asılıdır: coğrafi, təbiiiqlim şəraiti, etnik özünəməxsusluq, inzibati quruluş, dövlət siyasəti, bazar infrastrukturunun vəziyyəti, əhalinin işgüzar fəallığının səviyyəsi və s. buna görə də belə qənaətə gəlmək olar ki, turizmin təbiəti parlaq regional xarakter daşıyır. Bundan əlavə, regional və mövsümi olduğu üçün, turizm xarici mühitin dəyişməsinə kifayət qədər tez reaksiya verir. Bu problemlərin həlli turizmin inkişafının idarə edilməsinin yeni mütərəqqi formalarının tətbiqi ilə təmin edilməlidir ki, bunun da əsasını ayrıca götürülmüş regionun turizm potensialının tənzimlənməsi və qiymətləndirilməsi sisteminin formalaşdırılması təşkil edə bilər.

Beləliklə, muxtar respublikada ekoturizmin ən inkişaf etmiş formalarına aqroturizm, kənd turizmi, hidroekoloji turizm, dağ istirahət turizmi və xüsusi mühafizə olunan təbiət ərazilərində turizm daxildir. İstirahət məqsədilə istifadə edilən əsas resurslar təbii görməli yerlərdir: mənzərələr, iqlim, buzlaqlar, şəlalələr, göllər və çaylar, torpaqlar, flora və fauna, eləcə də tarixi və mədəni abidələr.

Qonşu ölkələrin (Türkiyə, Gürcüstan) təcrübəsi göstərir ki, ekoturizm üçün xüsusi mühafizə olunan təbiət ərazilərindən istifadə turizm sənayesinin və bütövlükdə iqtisadiyyatın inkişafına töhfə verə bilər. Hazırda turizm və istirahət muxtar respublikanın dağlıq bölgələrinin inkişafı üçün prioritet sahələrdir.

Çox qədim bir sivilizasiyanın ecazkar izlərini və mədəni-tarixi irsini qoruyub saxlayan Naxçıvan Muxtar Respublikası zən gin coğrafi landşafı, təbii sərvətləri, tarixi, təbiət abidələri, müali cəvi mineral suları, gursulu dağ çayları, rəngarəng gölləri və şəlalələri ilə zəngin turizm ehtiyatlarına malikdir. Bu gün, Azər baycanda, eləcə də onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikada, çay, göl və şəlalələr kompleksinin, təbiət abidələri nin öyrənilməsi, yeni su mənbələrinin tanıdılması kənd turizmi, ekoturizmin inkişafına yönəlmiş fəaliyyətlər turizm infrastruktu runa və regionda turizmin davamlı inkişafına zəmin yaradır. Alınan nəticələr ekoturizmin muxtar respublikanın iqtisadiyyatına, ekologiyasına və sosial-mədəni sahəsinə təsirini müəyyənləşdirməyə imkan verəcək ki, bu da turizmin inkişafında rəqabətçi üstünlüklərini müəyyənləşdirməyə; ərazinin sosial-iqtisadi inkişafı üçün turizmin inkişafını hərtərəfli qiymətləndirməyə və bu sahədə mövcud ehtiyat potensialını müəyyənləşdirməyə imkan verəcək.

ƏDƏBİYYAT SİYAHISI

1. Abbasov Ə., Məmmədova F., Heydərova F. Təbii suların geokimyası və Naxçıvan Muxtar Respublikasında yayılma xüsusiyyətləri. Naxçıvan, Əcəmi, 2015, 286 s.
2. Abbasov Ə.D., Məmmədova F.S., Qurbanov Q. Təbiətlə cəmiyyətin qarşılıqlı əlaqəsində ekologiya və ətraf mühit. Naxçıvan, "Əcəmi", 2018, 290 s.
3. Məmmədova F., Abbasov Ə., Hacıyeva G. Naxçıvan Muxtar Respublikasının yeraltı su ehtiyatları. Naxçıvan, 2021, 345 s. **DOI: 10.36719/2707-1146/21/42-49/**
4. Мамедова Ф.С., Сулейманов М.Р. Перспективы развития экотуризма в Нахчыванской Автономной Республике. LAMBERT Academic Publishing, 2020, с.181
5. Abadov M.K. "Azərbaycan turizmi və onun inkişaf problemləri", Bakı, "Şərq-Qərb". 2014, 248 səh.
6. Bəhərçi T., Mehdiyeva V.Z. "Azərbaycan Respublikasının təbii şəraiti, təbii ehtiyatları, onların iqtisadi-ekoloji qiymətləndirilməsi" Bakı, "İqtisad Universiteti", 2012, 304 səh.
7. Cabbarov Ə.X. "Turizmin iqtisadi əsasları", Bakı, "ADPU". 2015, 267 səh.
8. Аскербейли Э.К., Попов А.П., Булатов Р.В., Кязимов С.М. Подземные воды Северо-Восточной части Азербайджана и перспективы их использования для водоснабжения. М. Стройиздательство, 1988, 238 с.
9. Əliquliyev R.İ., İsmayılova M.M., Əliquliyev A.R. Naxçıvan Muxtar Respublikasının mineral suları. Bakı. Mütərcim, 2002, 224 s.
10. Həsənov Ə.M. Naxçıvanın təbii sərvətləri və onlardan istifadə yolları. Bakı, 2003, 138 s.
11. Fennell D., Cooper C. "Sustainable tourism: principles, contexts and practices", Journal of Ecotourism. 2020, Vol.19, p.287-289.

TARİXDƏN GƏLƏCƏYƏ: ZƏNGƏZUR VASİTƏSİLƏ YENİ REGİONAL TURİZM EKOSİSTEMİ

From History to Future: A New Regional Tourism Ecosystem through Zangezur

CƏFƏR CƏFƏRLİ
Jafar Jafarli
cafar.cafarli@mdu.edu.az
https://orcid.org0000-0002-5777-7553
Mingəçevir Dövlət Universiteti
Mingachevir State University

XÜLASƏ

Zəngəzur dəhlizinin açılması Azərbaycanın turizm coğrafiyasında fundamental dəyişikliklərə səbəb olacaq strateji layihədir. Bu tədqiqat, Zəngəzur dəhlizi vasitəsilə Azərbaycan, Türkiyə və digər Türk dövlətləri arasında yeni regional turizm ekosisteminin formalaşma perspektivlərini, bu prosesin iqtisadi, sosial-mədəni və siyasi aspektlərini kompleks şəkildə təhlil edir. Tədqiqatın məqsədi, dəhlizin Türk dünyası turizm əlaqələrinə təsirini elmi əsaslarla qiymətləndirmək və regionlararası inteqrasiya mexanizmlərini müəyyənləşdirməkdir. Tədqiqatda analitik təhlil, müqayisəli tədqiqat, SWOT analizi, klaster analizi və statistik məlumatların emalı metodlarından istifadə olunmuşdur. Eyni zamanda, elmi ədəbiyyatın təhlili, ekspert qiymətləndirmələri və coğrafi informasiya sistemləri (CİS) metodları tətbiq edilmişdir. Araşdırma göstərir ki, Zəngəzur dəhlizi Azərbaycanı Türkiyə ilə birbaşa quru yolu ilə birləşdirərək, Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində yeni turizm marşrutunun yaranmasına zəmin yaradır. Dəhliz vasitəsilə tarixi İpək Yolu marşrutunun bərpası, mədəni turizm, ekoturizm və kənd turizmi növlərinin inkişafı üçün geniş imkanlar yaranır. Tədqiqat nəticəsində turizm klasterlərinin yaradılması, infrastrukturun modernləşdirilməsi və beynəlxalq əməkdaşlığın gücləndirilməsi istiqamətində konkret təkliflər işlənib hazırlanmışdır. Zəngəzur dəhlizi vasitəsilə yeni regional turizm ekosisteminin formalaşdırılması, Türk dünyası ölkələri arasında turizm əlaqələrinin intensiv-ləşməsinə, regionların sosial-iqtisadi inkişafına və beynəlxalq turizm bazarlarında rəqabətqabiliyyətin artmasına töhfə verə bilər.

Açar sözlər: *Zəngəzur dəhlizi, regional turizm, turizm ekosistemi, Türk Dövlətləri Təşkilatı, turizm inteqrasiyası, mədəni irs, ekoturizm*

ABSTRACT

The opening of the Zangazur Corridor is a strategic project that will cause fundamental changes in the tourism geography of Azerbaijan. This research comprehensively analyzes the prospects for the formation of a new regional tourism ecosystem between Azerbaijan, Turkey, and other Turkic states through the Zangazur Corridor, as well as the economic, sociocultural, and political aspects of this process. The aim of the research is to provide a scientifically grounded assessment of the corridor's impact on tourism relations in the Turkic world and to determine mechanisms of interregional integration. The research employs methods of analytical analysis, comparative research, SWOT analysis, cluster analysis, and statistical data processing. Additionally, methods of scientific literature analysis, expert evaluations, and Geographic Information Systems (GIS) are applied. The study shows that the Zangazur Corridor, connecting Azerbaijan with Turkey via a direct land route, creates a foundation for the emergence of a new tourism route within the framework of the Organization of Turkic States (OTS). Through the corridor, broad opportunities open up for the restoration of the historic Silk Road, the development of cultural tourism, ecotourism, and rural tourism. Based on the research results, concrete proposals have been developed for the creation of tourism clusters, modernization of infrastructure, and strengthening of international cooperation. The formation of a new regional tourism ecosystem through the Zangazur Corridor can contribute to the intensification of tourism relations among Turkic world countries, the socioeconomic development of regions, and the enhancement of competitiveness in international tourism markets.

Keywords: *Zangazur Corridor, regional tourism, tourism ecosystem, Organization of Turkic States, tourism integration, cultural heritage, ecotourism*

GİRİŞ

Turizm XXI əsrin qlobal iqtisadiyyatının ən sürətlə inkişaf edən sektorlarından biridir. Birləşmiş Millətlər Təşkilatının Dünya Turizm Təşkilatının (UNWTO) proqnozlarına əsasən, 2030-cu ilə qədər dünya üzrə turist axınlarının 1,8 milyard nəfərə çatacağı gözlənilir [10]. Bu kontekstdə,

regional turizm əməkdaşlığı və yeni turizm marşrutlarının yaradılması xüsusi aktuallıq kəsb edir. Xüsusilə, tarixi, mədəni və dil bağları ilə bir-birinə bağlı olan Türk dünyası ölkələri arasında turizm inteqrasiyası mühüm perspektivlər vəd edir.

Zəngəzur dəhlizinin açılması Azərbaycanın turizm coğrafiyasında yeni bir dövrün başlanğıcını qoyur. Bu dəhliz, Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə, daha sonra isə Türkiyənin İğdır vilayəti ilə birləşdirəcək və regionda yeni nəqliyyat-turizm oxunun yaranmasına zəmin yaradacaqdır [11]. Tarixi İpək Yolunun bərpası konsepsiyası çərçivəsində Zəngəzur dəhlizi, yalnız iqtisadi və nəqliyyat əhəmiyyəti daşımır, həm də zəngin təbii və tarixi-mədəni irsə malik olan bu regionun turizm potensialının açılması üçün unikal imkanlar yaradır.

Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində turizm əməkdaşlığının gücləndirilməsi dəhlizin strateji əhəmiyyətini daha da artırır. TDT-nin 2021-ci ildə qəbul etdiyi "Türk Dünyası 2040 Vizyonu" sənədində turizm sektorunun inkişafı prioritet istiqamətlərdən biri kimi müəyyən edilmişdir [9]. Zəngəzur dəhlizi bu vizyonun reallaşdırılması üçün konkret infrastruktur bazası rolunu oynaya bilər.

Tədqiqatın əsas məqsədi, Zəngəzur dəhlizi vasitəsilə Azərbaycan, Türkiyə və digər Türk dövlətləri arasında yeni regional turizm ekosisteminin formalaşma perspektivlərini kompleks şəkildə təhlil etmək, bu prosesin iqtisadi, sosial-mədəni və siyasi aspektlərini elmi əsaslarla qiymətləndirmək və konkret təkliflər irəli sürməkdir.

Tədqiqatın aktuallığı bir neçə amillə şərtlənir. Birincisi, Zəngəzur dəhlizi regionda geopolitik və iqtisadi balansın dəyişməsinə səbəb olacaq strateji layihədir [2]. İkincisi, dəhliz Türk dünyası ölkələri arasında birbaşa quru əlaqəsinin yaradılması baxımından unikaldır. Üçüncüsü, bu layihə tarixi İpək Yolu marşrutunun bərpası və mədəni körpülərin qurulması üçün tarixi fürsətdir.

Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, ilk dəfə olaraq Zəngəzur dəhlizi kontekstində Türk dünyası ölkələri arasında regional turizm ekosisteminin formalaşması məsələsi kompleks şəkildə tədqiq olunur. Əvvəlki tədqiqatlar əsasən dəhlizin iqtisadi və nəqliyyat əhəmiyyətinə diqqət yetirirdisə, bu tədqiqat turizm aspektini ön plana çəkir və yeni ekosistem yanaşması təklif edir.

MATERIAL VƏ METODLAR

Tədqiqatın metodoloji əsasını sistemli təhlil, müqayisəli tədqiqat və kompleks yanaşma təşkil edir. Araşdırma zamanı aşağıdakı metodlardan istifadə olunmuşdur:

Analitik təhlil metodu. Zəngəzur dəhlizinin Türk dünyası turizm əlaqələrinə təsir edən amillər, regionun təbii və antropogen resursları, infrastruktur imkanları və bazar göstəriciləri təhlil edilmişdir. Bu metod vasitəsilə dəhlizin turizm sektoruna birbaşa və dolayı təsirləri müəyyənləşdirilmişdir [5].

Müqayisəli tədqiqat metodu. Zəngəzur dəhlizinin turizm potensialı dünya təcrübəsindəki oxşar layihələrlə (Çinin "Bir kəmər, bir yol" layihəsi, Türkiyənin Orta Dəhliz layihəsi, Avropa İttifaqının TEN-T şəbəkəsi) müqayisə edilmişdir. Bu müqayisə, uğurlu təcrübələrin öyrənilməsi və yerli şəraitə uyğunlaşdırılması baxımından əhəmiyyət daşımışdır [6].

SWOT analizi. Zəngəzur dəhlizi regionunun turizm potensialının güclü və zəif tərəfləri, imkan və təhdidləri sistemli şəkildə qiymətləndirilmişdir. Analiz nəticəsində regionun turizm inkişafına dair strateji yanaşma formalaşdırılmışdır [1].

Klaster analizi. Regionda turizm klasterlərinin yaradılması perspektivləri təhlil edilmiş, mövcud və potensial klasterlərin strukturu, komponentləri və qarşılıqlı əlaqələri müəyyənləşdirilmişdir.

Coğrafi informasiya sistemləri (CİS). Regionun turizm potensialının coğrafi yerləşməsi, resursların yaxınlığı və əlçatanlıq dərəcəsi CİS texnologiyaları vasitəsilə təhlil edilmişdir.

Statistik təhlil. Azərbaycan Dövlət Statistika Komitəsinin, Türkiyə Statistika Qurumunun

(TÜİK), UNWTO-nun və digər beynəlxalq təşkilatların məlumat bazasından istifadə olunaraq turizm axınları, gəlirlər və digər göstəricilər təhlil edilmişdir.

MÜZAKİRƏ

Tədqiqat nəticələri göstərir ki, Zəngəzur dəhlizi vasitəsilə yeni regional turizm ekosisteminin formalaşdırılması real perspektivdir. Lakin bu proses bir sıra çağırışlarla üzləşir. Birincisi, regionun işğaldan azad olunmuş ərazilərdə bərpa-yenidənqurma işlərinin aparılması turizm infrastrukturunun yaradılması üçün zaman tələb edir. İkincisi, regionun təhlükəsizliyinin təmin edilməsi turistlər üçün əsas şərtdir. Üçüncüsü, yerli əhalinin turizm sahəsində işgüzar fəaliyyətə cəlb edilməsi və peşə hazırlığının artırılması zəruridir [2].

Çiftçi və Bayat [1] tərəfindən aparılan SWOT analizi göstərir ki, Zəngəzur dəhlizi layihəsinin möhkəm bir təməlinin olmaması və tərəflərin razılığa gələ bilməməsi kimi zəif tərəfləri mövcuddur. Bütün mənfi cəhətlərə baxmayaraq, dəhlizin keçdiyi bölgələrdəki yerli əhalini inkişaf etdirəcəyi, qitələr arasında qlobal əlaqə yaradacağı, Xəzərdən Aralıq dənizinə turizm sektorunu canlandıracağı və Türk dünyasına əhəmiyyətli strateji üstünlüklər təqdim edəcəyi müəyyən edilmişdir.

Kaya, Karakuş və Onat [4] tərəfindən aparılan tədqiqatda qeyd edilir ki, turistlərin təhlükəsizliyi və siyasi sabitliyin qorunması böyük əhəmiyyət daşıyır. Dəhlizin turizm baxımından daha effektiv istifadə edilə bilməsi üçün təhlükəsizlik, infrastrukturun inkişafı və təbliğat kimi amillərin nəzərə alınması zəruridir.

Əvvəlki tədqiqatlar [5;11] əsasən Zəngəzur dəhlizinin iqtisadi və nəqliyyat əhəmiyyətinə diqqət yetirmişdir. Bu tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, ilk dəfə olaraq dəhlizin Türk dünyası turizm əlaqələrinə təsirini kompleks şəkildə təhlil edir və yeni regional turizm ekosisteminin formalaşması modelini təklif edir. Tədqiqat göstərir ki, dəhliz yalnız fiziki bağlantı deyil, həm də turizm məhsullarının, xidmətlərin, bazarların və mədəniyyətlərin inteqrasiyası deməkdir.

Gələcək tədqiqatlar üçün tövsiyələr:

- Regionun turizm potensialının dəqiq inventarlaşdırılması;
- Turist axınlarının proqnozlaşdırılması üçün riyazi modellərin işlənib hazırlanması;
- Ekoloji təsirlərin qiymətləndirilməsi;
- Yerli əhalinin turizmə münasibətinin sosioloji tədqiqi;
- TDT çərçivəsində turizm əməkdaşlığının hüquqi-tənzimləmə mexanizmlərinin tədqiqi.

NƏTİCƏ

Zəngəzur dəhlizinin Türk dünyası turizm əlaqələrində strateji əhəmiyyəti

Zəngəzur dəhlizi Azərbaycanı Türkiyə ilə birbaşa quru yolu ilə birləşdirən strateji nəqliyyat arteriyasıdır. Bu dəhlizin açılması ilə Bakı-İstanbul arasındakı məsafə 400 km qısalacaq və yük daşıma müddəti 2-3 gün azalacaqdır [11]. Lakin dəhlizin əhəmiyyəti yalnız iqtisadi və nəqliyyat aspektləri ilə bitmir. Tarixi İpək Yolu marşrutunun bərpası kontekstində Zəngəzur dəhlizi, Türk dünyası ölkələri arasında yeni turizm marşrutunun yaranmasına zəmin yaradır.

Tədqiqat göstərir ki, dəhliz vasitəsilə formalaşacaq turizm marşrutu aşağıdakı istiqamətləri əhatə edəcəkdir:

- **Şimal-Cənub istiqaməti:** Bakı (Azərbaycan) – Naxçıvan (Azərbaycan) – İğdır (Türkiyə) – Kars – Ərzurum – Ankara – İstanbul.
- **Şərq-Qərb istiqaməti:** Orta Asiya ölkələri (Qazaxıstan, Özbəkistan, Qırğızıstan) – Xəzər dənizi – Bakı – Zəngəzur dəhlizi – Türkiyə – Avropa.

Bu marşrutlar Türk dünyası ölkələrinin turizm potensialının inteqrasiyası üçün strateji platforma rolunu oynaya bilər. Xüsusilə, TDT çərçivəsində birgə turizm layihələrinin həyata

keçirilməsi, birgə tur paketlərinin təqdim edilməsi və birgə marketinq kampaniyalarının aparılması mümkündür (TDT, 2021). Çiftçi və Bayat [1] tərəfindən aparılan tədqiqat göstərir ki, Zəngəzur dəhlizi Türkiyənin İğdır vilayətinin turizm sektoruna əlavə impuls verəcək, yeni enerji dəhlizlərinin yolunu açacaq və nəticədə Türk dünyasında sülh və qardaşlığa töhfə verəcəkdir. Dəhliz, əsasən Azərbaycan və Türkiyə olmaqla Türk dünyasına tranzit giriş imkanı yaradacaqdır.

Kaya, Karakuş və Onat [4] tərəfindən aparılan tədqiqat isə göstərir ki, Zəngəzur dəhlizinin açılması turistlərin daha geniş əraziyə yayılmasını asanlaşdıraraq region turizminin cazibəsini artıra bilər. Enerji daşımacılığı və sərhəd infrastrukturunun inkişafı turizm sektoru üçün uyğun infrastrukturun yaradılmasına töhfə verə bilər.

Tarixi İpək Yolu və mədəni turizm potensialı

Zəngəzur dəhlizi tarixi İpək Yolu marşrutunun bərpası baxımından xüsusi əhəmiyyət daşıyır. Tarixi mənbələrə əsasən, İpək Yolunun əsas qollarından biri məhz Zəngəzur regionundan keçirdi [5]. Bu marşrut üzərində yerləşən tarixi şəhərlər, karvansaralar, körpülər və digər abidələr mədəni turizm üçün zəngin resursdur.

Tədqiqat göstərir ki, Zəngəzur dəhlizi vasitəsilə aşağıdakı mədəni turizm marşrutları formalaşdırıla bilər:

- **Bakı-Şuşa-Naxçıvan-İğdır marşrutu:** Bu marşrut üzərində Bakının İçərişəhəri (UNESCO-nun Ümumdünya İrsi), Şuşanın tarixi-memarlıq abidələri, Naxçıvanın Möminə Xatun Türbəsi və İğdırın tarixi abidələri yerləşir.
- **Orta Asiya-Zəngəzur-Anadolu marşrutu:** Bu marşrut Türk dünyasının tarixi və mədəni irsini birləşdirən transkontinental turizm marşrutu ola bilər.

Mədəni turizm potensialının reallaşdırılması üçün tarixi abidələrin bərpası, muzeylərin yaradılması, mədəni marşrutların işarələnməsi və turizm infrastrukturunun təkmilləşdirilməsi zəruridir [2].

Ekoturizm və kənd turizmi imkanları

Zəngəzur dəhlizi regionu unikal təbii landşaftlara malikdir. Zəngəzur Milli Parkı, Arazboyu yasaqlığı, İstisu mineral bulaqları və Bəsitçay Dövlət Təbiət Qoruğu ekoturizm üçün ideal şərait yaradır [8]. Tədqiqat göstərir ki, bu təbii resurslar Türkiyənin Şərqi Anadolu regionunun ekoturizm potensialı ilə birləşdirilərək vahid ekoturizm məkanı formalaşdırıla bilər.

Huseyn-Zada və Kocaman [3] tərəfindən aparılan tədqiqat göstərir ki, Qarabağ və Şərqi Zəngəzur regionları yayla turizmi, kempinq və karavan turizmi, dark turizm və aqro turizm başda olmaqla alternativ turizm potensialına malikdir. Bu potensialın inkişaf etdirilməsi ilə regionların sosial-iqtisadi inkişafına əhəmiyyətli töhfə verilə bilər.

Kənd turizmi baxımından da region geniş imkanlar vəd edir. Naxçıvanın Biçənək, Kükü kəndləri, İğdırın kənd yerlərində kənd turizminin inkişafı üçün ənənəvi sənətkarlıq, kulinariya və kənd həyatı təcrübəsi təqdim oluna bilər. Bu, həm turizm məhsullarının diversifikasiyasına, həm də yerli əhalinin sosial-iqtisadi inkişafına töhfə verəcəkdir.

Turizm klasterlərinin formalaşması perspektivləri

Tədqiqat nəticəsində Zəngəzur dəhlizi regionunda aşağıdakı turizm klasterlərinin formalaşdırılması təklif olunur:

1. Trans-Zəngəzur mədəni turizm klasteri. Bu klaster Azərbaycanın Qarabağ və Zəngəzur regionlarını, Naxçıvan Muxtar Respublikasını və Türkiyənin Şərqi Anadolu regionunu əhatə edəcəkdir. Klasterin əsas komponentləri tarixi abidələr, muzeylər, mədəni mərkəzlər və festival meydanlarıdır. Klasterin yaradılması üçün TDT çərçivəsində birgə investisiya layihələrinin həyata keçirilməsi, birgə turizm brendinin yaradılması və birgə marketinq strategiyasının işlənib hazırlanması zəruridir.

2. Eko-turizm klasteri. Zəngəzur Milli Parkı, Bəsitçay Qoruğu, Arazboyu yasaqlığı və Türkiyənin Ağrı Dağı Milli Parkını əhatə edən bu klaster, ekoturizm, trekking, alpinizm və kənd turizmi növlərini inkişaf etdirəcəkdir. Klasterin yaradılması üçün ekoloji cəhətdən təmiz nəqliyyat, kempinq zonaları, ekoloji otellər və kənd evləri infrastrukturunun formalaşdırılması zəruridir [6].

3. Sağlamlıq turizm klasteri. Naxçıvanın Duzdağ Müalicə Mərkəzi, Kəlbəcərin İstisu bulaqları və Türkiyənin termal turizm mərkəzləri bu klasterin əsasını təşkil edəcəkdir. Müasir sanatoriya-kurort komplekslərinin yaradılması, tibbi turizm xidmətlərinin təkmilləşdirilməsi və beynəlxalq sertifikatların alınması klasterin inkişafı üçün zəruri şərtlərdir.

4. Kənd turizm klasteri. Regionun kənd yerlərində kənd turizminin inkişafı üçün geniş imkanlar mövcuddur. Turistlərə ekoloji məhsullar, ənənəvi sənətkarlıq, kulinariya və kənd həyatı təcrübəsi təqdim olunacaqdır. Bu klasterin yaradılması üçün yerli əhalinin turizm sahəsində peşə hazırlığının artırılması, kənd evlərinin turizm standartlarına uyğunlaşdırılması və kənd turizm assosiasiyalarının yaradılması zəruridir.

İnfrastrukturun inkişafı və əlçatanlıq

Zəngəzur dəhlizinin turizm potensialının reallaşdırılması üçün infrastrukturun inkişafı mühüm şərtdir. Tədqiqat göstərir ki, regionda artıq mühüm addımlar atılır. Zəngilan Beynəlxalq Hava Limanının tikintisi, dəmir yolu xətlərinin çəkilməsi və magistral avtomobil yollarının tikintisi turistlərin regiona əlçatanlığını artıracaqdır [11].

Türkiyə tərəfində isə İğdır Hava Limanının genişləndirilməsi, Kars-İğdır dəmir yolu xəttinin tikintisi və sərhəd keçid məntəqələrinin modernləşdirilməsi planlaşdırılır. Serhat Kalkınma Ajansı [7] tərəfindən hazırlanmış hesabatda qeyd edilir ki, Zəngəzur dəhlizi TRA2 bölgəsi (Ağrı, Ardahan, Kars, İğdır) üçün iqtisadi təsirləri ən qısa müddətdə turizm sektorunda özünü göstərəcəkdir. Ağrı Dağı, İshak Paşa Sarayı, Şeytan Qalası, Çıldır Gölü, Tuzluca Tuz Mağarası, Sarıkamış Xizək Mərkəzi, Ani Ören Yeri və Kars Pendir Muzeyi turizm sektorunun bölgədə ön plana çıxan amilləridir.

Tədqiqat nəticəsində infrastrukturun inkişafı istiqamətində aşağıdakı təkliflər irəli sürülür:

- Beynəlxalq standartlara uyğun otel və hostel şəbəkəsinin yaradılması;
- Regional turizm informasiya mərkəzlərinin formalaşdırılması;
- Elektron turizm platformalarının və mobil tətbiqlərin tətbiqi;
- Multimodal nəqliyyat sisteminin (hava, dəmir yolu, avtomobil) inteqrasiyası;
- Sərhəd keçid məntəqələrinin "bir pəncərə" prinsipi ilə təşkili.

Beynəlxalq əməkdaşlıq və turizm marketinqi

Zəngəzur dəhlizi regionda beynəlxalq turizm əməkdaşlığının gücləndirilməsi üçün strateji platforma rolunu oynaya bilər. TDT çərçivəsində birgə turizm layihələrinin həyata keçirilməsi, birgə tur paketlərinin təqdim edilməsi və birgə marketinq kampaniyalarının aparılması mümkündür [9].

Tədqiqat göstərir ki, regionun turizm potensialının beynəlxalq aləmdə tanıdılması üçün:

- Beynəlxalq turizm sərgilərində (ITB Berlin, WTM London, EMITT İstanbul) iştirakın artırılması;
- Sosial media və rəqəmsal marketinqin tətbiqi;
- "Zəngəzur İpək Yolu" turizm brendinin yaradılması və təbliği;
- TDT çərçivəsində birgə turizm portalının yaradılması;
Süni intellekt texnologiyalarının tətbiqi turizm jurnalistikasında yeni imkanlar açmışdır. Bu texnologiyalar məzmunun avtomatik yaradılması, tərcümə, məlumatların analizi və auditoriya davranışlarının öyrənilməsi kimi sahələrdə istifadə olunur. Nəticədə jurnalistlərin işi daha effektiv və sürətli olur.

Virtual və artırılmış reallıq texnologiyaları isə turizm jurnalistikasına yeni təqdimat forması qazandırmışdır. İstifadəçilər səyahət etmədən əvvəl virtual mühitdə turizm məkanları ilə tanış ola bilirlər ki, bu da onların qərarvermə prosesinə birbaşa təsir göstərir.

Bununla yanaşı, rəqəmsal transformasiya müəyyən problemləri də ortaya çıxarır. Dezinformasiyanın yayılması, reklam və jurnalistika sərhədlərinin qarışması, müəllif hüquqlarının pozulması və informasiya bolluğu şəraitində etibarlı mənbələrin seçilməsi kimi məsələlər bu sahədə əsas çağırışlar hesab olunur. Bu səbəbdən jurnalistikanın etik prinsiplərinə riayət olunması xüsusi əhəmiyyət daşıyır.

Turizm jurnalistikası turizm sahəsinə aid xəbərlərin, reportajların, analitik yazıların və tanıtım materiallarının hazırlanması ilə məşğul olan ixtisaslaşmış media istiqamətidir. Bu sahənin əsas funksiyaları turizm məkanları haqqında məlumat verməklə səyahət marşrutlarını tanıtmaq, mədəni irs və təbiət obyektlərini təbliğ etmək, turizm bazarındakı yenilikləri çatdırmaq, turistlərin seçimlərinə təsir göstərmək və regionların iqtisadi inkişafına dəstək vermək məqsədini daşıyır. Rəqəmsal transformasiya nəticəsində bu funksiyalar daha geniş və çevik formada həyata keçirilir. Rəqəmsal texnologiyalar turizm jurnalistikasının məzmun, forma və yayım imkanlarını dəyişdirmişdir. Ənənəvi qəzet və televiziya reportajları ilə yanaşı, indi veb-saytlar, mobil tətbiqlər və sosial media əsas informasiya mənbələrinə çevrilmişdir. Multimedia məzmununun artması sayəsində fotoqalereyalar, videoreportajlar, dron çəkilişləri və podkastlar turizm xəbərlərinin daha cəlbedici təqdimatına imkan yaradır. Vizual məzmun turist marağını artırır. Eyni zamanda sosial medianın dominant rolunu xüsusilə qeyd etsək burada İnstagram, YouTube, TikTok və digər platformaların turizm jurnalistikasında əsas vasitələrdən birinə çevrilməsindən söz açа bilərik. İstifadəçilər real vaxt rejimində məkanlar haqqında məlumat alırlar. Məlumatların təqdim edilməsində əsas amil kimi operativlik və interaktivlik kimi amilləri xüsusi qeyd etmək lazımdır. Rəqəmsal platformalar hadisələrin dərhal yayımlanmasına şərait yaradır. İzləyici və oxucu rəyləri media ilə auditoriya arasında qarşılıqlı əlaqəni gücləndirir. Fərdiləşdirilmiş informasiya axını sayəsində həmçinin alqoritmlər vasitəsilə istifadəçilərə maraq dairəsinə uyğun səyahət xəbərləri və təkliflər təqdim olunur.

Görülən işlərin sürətliliyini təmin etmək məqsədilə süni intellektdən istifadə də əhəmiyyətli dərəcədə artmışdır. Süni intellekt texnologiyaları məzmun yaradılması, tərcümə, məlumat analizi və auditoriya davranışının öyrənilməsi üçün istifadə olunur. Bu, jurnalistlərin işini sürətləndirir. Virtual turlar vasitəsilə insanlar səyahət etmədən öncə turizm məkanları ilə tanış ola bilirlər. Bu texnologiya turizm jurnalistikasına yeni təqdimat forması qazandırır. Mobil jurnalistikanın imkanlarından faydalanaraq smartfon vasitəsilə çəkiliş, montaj və paylaşım imkanları jurnalistlərin çevik fəaliyyətinə şərait yaradır. Xüsusilə səyahət reportajlarında bu üsul çox effektivdir. İnfluencer və kontent əməkdaşlığı işlərində turizm jurnalistikası artıq peşəkar jurnalistlərlə yanaşı, səyahət bloqerləri və rəqəmsal kontent istehsalçıları ilə də əməkdaşlıq edir. Bu istiqamətdə Data jurnalistikanın imkanları da diqqətəlayiqdir. Turizm statistikası, turist axını, iqtisadi göstəricilər və rəqəmsal tendensiyalar data jurnalistika vasitəsilə daha aydın təqdim olunur.

Rəqəmsal transformasiya ilə yanaşı bəzi problemlər də mövcuddur. Belə ki, dezinformasiyanın yayılması, reklam və jurnalistika sərhədlərinin qarışması, peşəkarlıq standartlarının zəifləməsi, müəllif hüquqları problemləri, informasiya bolluğu şəraitində etibarlı mənbə seçimi rastlaşdığımız problemlər sırasındadır. Bu səbəbdən turizm jurnalistikasında etik prinsiplərin qorunması vacibdir.

Azərbaycanda perspektivlər

Azərbaycan zəngin turizm potensialına malik ölkədir. Qarabağ bölgəsi, Naxçıvan, Şəki, Qəbələ, Lənkəran və digər regionlar rəqəmsal turizm jurnalistikası üçün geniş mövzu imkanları yaradır. Yerli media qurumları rəqəmsal platformalarda çoxdilli məzmun hazırlamaqla beynəlxalq auditoriyaya çıxış əldə edə bilər. Xüsusilə milli mədəniyyətin, mətbəxin, təbiət marşrutlarının və tarixi abidələrin rəqəmsal təqdimatı ölkənin turizm imicini gücləndirə bilər. Naxçıvan həm qədim sivilizasiya mərkəzi, həm də müalicəvi təbii sərvətləri ilə seçilir. Regionun turizm potensialından səmərəli istifadə iqtisadi gəlirlərin artmasına, yeni iş yerlərinin yaranmasına və beynəlxalq tanıtıma müsbət təsir göstərə bilər.

Turizm potensialının tam reallaşması üçün beynəlxalq reklam və rəqəmsal tanıtımın gücləndirilməsi, çoxdilli turizm kontentinin hazırlanması, peşəkar bələdçi xidmətlərinin artırılması, onlayn rezervasiya imkanlarının genişləndirilməsi, festival və tədbir turizminin inkişafı, xarici turist axınının artırılması üçün marketinq strategiyası kimi məsələlər diqqətdə saxlanılmalıdır.

Turizm həmçinin ölkə üçün iqtisadi imkanları ilə də yadda qalmaqdadır. Belə ki, yeni iş yerlərinin yaradılması, kiçik sahibkarlığın inkişafı, yerli məhsulların satış imkanlarının artması, xarici valyuta axınının güclənməsi kimi real imkanlar da sunmaqdadır.

NƏTİCƏ

Rəqəmsal transformasiya turizm jurnalistikasını yeni mərhələyə çıxarmışdır. Müasir texnologiyalar informasiya yayımını sürətləndirmiş, təqdimat formalarını zənginləşdirmiş və auditoriya ilə interaktiv əlaqə yaratmışdır. Süni intellekt, sosial media, virtual reallıq və mobil jurnalistika bu sahənin əsas inkişaf istiqamətləri hesab olunur. Gələcəkdə turizm jurnalistikasının rəqabət qabiliyyəti rəqəmsal yeniliklərə uyğunlaşma səviyyəsindən asılı olacaqdır.

Rəqəmsal turizm jurnalistikasının problemləri də mövcuddur. Bu yeniliklərlə yanaşı bir sıra problemlər də qalmaqdadır. Dezinformasiyanın yayılması, jurnalistika adı altında gizli reklamların verilməsi, alqoritmlərdən asılılıq, müəllif hüquqlarının pozulması, bəzi onlayn platformalarda peşə standartlarının zəifləməsi və auditoriya üçün informasiya bolluğu bu problemlərə nümunə kimi çəkilə bilər. Bu səbəbdən turizm jurnalistikasında etik prinsiplərin qorunması vacibdir (Ward, 2015). Çoxdilli rəqəmsal jurnalistika, virtual turlar, sənədli videolar və sosial media kampaniyaları ölkənin turizm imicini əhəmiyyətli dərəcədə gücləndirə bilər. Rəqəmsal transformasiya dövründə turizm jurnalistikası ciddi struktur və funksional dəyişikliklərə məruz qalmış, ənənəvi media yanaşmalarından daha çevik, interaktiv və texnologiya əsaslı kommunikasiya modelinə keçid etmişdir. Bu proses yalnız xəbərin təqdimat formasını deyil, həm də jurnalistikanın mahiyyətini, auditoriya ilə əlaqə mexanizmlərini və informasiya istehsalının məntiqini dəyişdirmişdir.

Aparılan təhlillər göstərir ki, müasir turizm jurnalistikası artıq sadəcə məlumat ötürən sahə deyil, həm də turizm davranışlarını formalaşdıran, səyahət qərarlarına təsir edən və regionların iqtisadi və mədəni tanıdılmasında mühüm rol oynayan strateji kommunikasiya vasitəsinə çevrilmişdir. Rəqəmsal platformalar, sosial media, multimedia texnologiyaları və süni intellekt alətləri bu sahənin əsas inkişaf dayaqlarını təşkil edir.

Xüsusilə multimedia hekayəçiliyi, mobil jurnalistika və data əsaslı kontent istehsalı turizm jurnalistikasında informasiya təqdimatını daha vizual, operativ və auditoriya yönümlü etmişdir. Bu yanaşma turistlərin məlumat əldə etmə davranışlarını dəyişdirmiş, onların qərarvermə prosesini daha çox rəqəmsal mənbələrdən asılı hala gətirmişdir. Eyni zamanda interaktiv kommunikasiya

imkanları jurnalist və auditoriya arasında qarşılıqlı əlaqəni gücləndirmiş, xəbər istehsalını daha dinamik bir prosesə çevirmişdir.

Bununla yanaşı, rəqəmsal transformasiya müəyyən problemləri də gündəmə gətirmişdir. Dezinformasiyanın yayılması, reklam və jurnalistika sərhədlərinin qarışması, müəllif hüquqlarının pozulması, alqoritmlərdən asılılıq və informasiya bolluğu şəraitində etibarlı mənbələrin seçilməsi kimi məsələlər sahənin əsas çağırışları olaraq qalır. Bu səbəbdən turizm jurnalistikasında etik prinsiplərin qorunması və peşə standartlarının gücləndirilməsi xüsusi əhəmiyyət daşıyır.

Perspektivlər baxımından isə süni intellekt, virtual reallıq, genişlənmiş reallıq və avtomatlaşdırılmış kontent sistemləri turizm jurnalistikasının inkişafında həlledici rol oynayacaqdır. Bu texnologiyalar sayəsində daha fərdiləşdirilmiş, interaktiv və immersiv media təcrübələri formalaşacaq, turizm informasiya mühiti daha qlobal və rəqabətli xarakter alacaqdır.

Nəticə etibarilə, turizm jurnalistikasının gələcək inkişafı rəqəmsal texnologiyalara adaptasiya səviyyəsindən, innovativ media alətlərinin tətbiqindən və etik prinsiplərin qorunmasından birbaşa asılıdır. Bu sahə artıq yalnız informasiya ötürən media istiqaməti deyil, həm də turizm sənayesinin inkişafına, ölkələrin beynəlxalq imicinin formalaşmasına və qlobal kommunikasiya proseslərinə təsir edən mühüm strateji sahə kimi çıxış edir.

ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi. (2021–2024). *Rəqəmsal media və jurnalistika üzrə materiallar*. Bakı. https://media.gov.az
2. Azərbaycan Milli Elmlər Akademiyası (AMEA). (2020). *İnformasiya cəmiyyəti və rəqəmsal transformasiya problemləri*. Bakı.
3. Hüseynova, S. (2019). *Rəqəmsal media və yeni jurnalistika*. Bakı: Qafqaz Universiteti nəşriyyatı.
4. Kovach, B., & Rosenstiel, T. (2014). *Jurnalistikanın əsasları (tərcümə olunmuş istifadə materialları)*. Bakı: Maarif.
5. Məmmədli, M. (2018). *Jurnalistikanın əsasları*. Bakı: Bakı Dövlət Universiteti nəşriyyatı.
6. Nəcəfov, R. (2022). *Data jurnalistikası və müasir xəbər istehsalı*. Bakı: Jurnalistika və İnformasiya Araşdırmaları Mərkəzi.
7. UNESCO Azərbaycan Nümayəndəliyi. (2021). *Media və informasiya savadlılığı üzrə təlim materialları*. Bakı.
8. UNWTO (BMT Ümumdünya Turizm Təşkilatı). (2022). *Turizm və rəqəmsal transformasiya hesabatı*.
9. Carlson, M. (2015). The robotic reporter: Automated journalism and the redefinition of labor. Digital Journalism, 3(3), 416–431.
10. Deuze, M. (2007). Media Work. Polity Press.
11. Diakopoulos, N. (2019). Automating the News: How Algorithms Are Rewriting the Media. Harvard University Press
12. Domingo, D., & Heinonen, A. (2008). Weblogs and journalism: A typology to explore the blurring boundaries. Nordicom Review, 29(1), 3–15
13. Gray, J., Chambers, L., & Bounegru, L. (2012). The Data Journalism Handbook. O'Reilly Media.
14. Jenkins, H. (2006). Convergence Culture: Where Old and New Media Collide. New York University Press
15. Kovach, B., & Rosenstiel, T. (2014). The Elements of Journalism. Three Rivers Press.
16. Pavlik, J. V. (2013). Innovation and the future of journalism. Digital Journalism, 1(2), 181–193.
17. UNWTO (2022). Tourism and Digital Transformation Report. World Tourism Organization.
18. Ward, S. J. A. (2015). Ethical Journali
19. sm in a Digital Age. CQ Press.

MACƏRA TURİZMİ ÇƏRÇİVƏSİNDƏ DESTİNASİYA İDARƏETMƏ MODELİNİN İNKİŞAFINDA POP-UP OTELLƏRİN ROLU

The Role of Pop-up Hotels in the Development of Destination Management Models within Adventure Tourism

SƏMAYƏ HƏTƏMOVA[1]
Samaya Hatamova[1]
hatamovasamaya@gmail.com
https://orcid.org/0009-0008-6162-207X

MURAD RİZVANQAYA[1]
Murad Rizvangaya[1]
muradrizvanqaya@gmail.com
https://orcid.org/0000-0001-9318-1215

[1]*Azərbaycan Turizim və Menecment universiteti*
[1]*Azerbaijan Tourism and Management University*

XÜLASƏ

Turizm sektorunda baş verən transformasiya təcrübə yönümlü və təbiət əsaslı turizm növlərinə marağın artmasına səbəb olmuşdur. Bu isə zamanla macəra turizmi destinasiyalarında çevik və innovativ idarəetmə yanaşmalarına olan ehtiyacı ön plana çıxarmışdır. Ənənəvi yerləşdirmə infrastrukturları bu cür destinasiyaların dinamik, mövsümi və çox vaxt proqnozlaşdırılması çətin olan tələb strukturuna kifayət qədər cavab verə bilmir. Bu kontekstdə, müvəqqəti və modul quruluşları ilə seçilən pop-up otellər alternativ həll kimi diqqət çəkir. Bu tədqiqat sistematik ədəbiyyat icmalı üsuluna əsaslanaraq aparılmışdır. Araşdırmanın əsas məqsədi macəra turizmi kontekstində destinasiya idarəetməsi ilə pop-up otel konsepti arasındakı qarşılıqlı əlaqələri daha dərindən təhlil etməkdir. Tədqiqat çərçivəsində beynəlxalq elmi ədəbiyyatda yer alan aktual mənbələr incələnmiş, əlavə şərh bildirilərək məlumat verilmişdir.

Açar sözlər: *Macəra turizmi, destinasiya idarəetməsi, pop-up otellər, çevik yerləşdirmə, turizm planlaşdırılması*

ABSTRACT

The transformation of the tourism sector has led to a growing interest in experience-oriented and nature-based tourism types, highlighting the need for flexible and innovative management approaches, particularly in adventure tourism destinations. Traditional accommodation infrastructures often fail to adequately respond to the dynamic, seasonal, and frequently unpredictable demand patterns of such destinations. In this context, pop-up hotels, characterized by their temporary and modular structures, emerge as an alternative solution. This study is based on a systematic literature review methodology. The main objective of the research is to analyze in depth the interrelationships between destination management and the concept of pop-up hotels in the context of adventure tourism. Within the scope of the study, relevant and up-to-date international academic sources were examined, and key trends as well as existing research gaps were identified through thematic analysis. Within the framework of the study, relevant sources from the international scientific literature were examined, and additional commentary was provided to present the information.

Keywords: *Adventure tourism, destination management, pop-up hotels, flexible accommodation, tourism planning.*

Turizm sektoru son illərdə kütləvi turizmdən təcrübə yönümlü və alternativ turizm növlərinə doğru əhəmiyyətli transformasiya mərhələsi keçirmişdir. Bu dəyişiklik turistlərin daha unikal, təbiətlə iç-içə və fərdiləşdirilmiş təcrübələrə üstünlük verməsi ilə bağlı olaraq xüsusilə macəra turizminin əhəmiyyətini artırmışdır. (Lew, 2017, s. 450; Richards & Palmer, 2010, s. 22). Macəra turizmi təbiət əsaslı fəaliyyətlər, fiziki iştirak və müəyyən səviyyədə risk elementi ilə digər turizm növlərindən fərqlənir və bu xüsusiyyətlər destinasiya planlaşdırılması və idarə edilməsində fərqli yanaşmalar tələb edir. (Buckley, 2006, s. 12; Hall, 2008, s. 178). Macəra turizmi destinasiyaları əsasən təbii ərazilərdə yerləşir və bu ərazilər həssas ekosistemlərə malik olur. Xüsusilə ani tələb artımları, tədbir əsaslı sıxlıqlar və qısa müddətli turist axınları destinasiya idarəetməsində çeviklik ehtiyacını daha da artırır. Bu kontekstdə müvəqqəti, daşına bilən və sürətli quraşdırıla bilən strukturlar kimi tanınan pop-up otellər turizm sektorunda getdikcə daha çox diqqət çəkən alternativ yerləşdirmə forması kimi ön plana çıxır. Pop-up otellər aşağı qurulum xərci, tələbə uyğun yerləşdirilmə imkanı və ətraf mühitə təsirin minimuma endirilməsi kimi üstünlüklərə malikdir. (Healy & McDonagh,

2013, s. 327; Müller & Scheurer, 2008, s. 6).

İlk olaraq, müasir turizmdə ciddi bir davranış dəyişikliyi müşahidə olunur: turistlər artıq passiv istirahətdən daha çox aktiv, fərdi və təcrübə yönümlü səyahətlərə üstünlük verirlər. (Pomfret & Bramwell, 2016, s. 1450; Lew, 2017, s. 452). Bu isə macəra turizminin sürətlə inkişafına səbəb olur. Lakin macəra turizmi destinasiyaları çox vaxt mövsümi, həssas və məhdud resurslara malik olduğu üçün onların idarə olunması ənənəvi modellərlə effektiv olmur. Məhz burada pop-up otellər aktuallaşır. Bu tip müvəqqəti və mobil yerləşdirmə formaları destinasiya üzərindəki təzyiqi azaltmağa, turist axınını daha balanslı idarə etməyə və eyni zamanda fərqli təcrübələr təqdim etməyə imkan verir. (Healy & McDonagh, 2013, s. 325)

Macəra turizmi təbiət əsaslı fəaliyyətlər, fiziki iştirak və qeyri-müəyyənlik elementlərini özündə birləşdirən turizm növü kimi xarakterizə olunur. Bu turizm növü yüksək təcrübə yönümlü olması və təbii mühitə asılılığı səbəbindən destinasiya idarəetməsi baxımından spesifik dinamiklərə malikdir. (Hall, 2008, s. 185). Bu destinasiyalarda daşıma qabiliyyəti, ekoloji davamlılıq və ziyarətçi idarəetməsi əsas prioritetlər sırasındadır. Əksər hallarda kənd və təbii ərazilərdə yerləşməsi səbəbindən infrastruktur çatışmazlıqları müşahidə olunur və xüsusilə yerləşdirmə imkanlarının məhdudluğu ciddi problem yaradır. (Müller & Scheurer, 2008, s. 5).

Bundan əlavə, tələbin mövsümi və qeyri-sabit olması resursların effektiv istifadəsini çətinləşdirir. Bu xüsusiyyətlər çevik və adaptiv idarəetmə yanaşmalarını zəruri edir. Ənənəvi destinasiya idarəetməsi sabit infrastruktur və uzunmüddətli planlaşdırma üzərində qurulmuşdur. Lakin müasir dövrdə turizm tələbinin dəyişkən xarakteri bu yanaşmaların effektivliyini azaldır. (Bu baxımdan adaptiv idarəetmə, çeviklik və davamlılıq kimi anlayışlar ön plana çıxır. (Lew, 2017, s. 456).

Müasir yanaşmaya görə destinasiyalar statik deyil, dinamik və daim dəyişən sistemlər kimi qəbul edilir (Lew, 2017, s. 456; Hall, 2008, s. 192). Bu isə resursların çevik bölüşdürülməsi, müvəqqəti həllərin tətbiqi və böhranlara sürətli reaksiya verə bilən idarəetmə mexanizmlərinin formalaşdırılmasını tələb edir . Pop-up otellər müəyyən müddət üçün qurulan, daşına bilən və modul strukturlardan ibarət yerləşdirmə obyektləridir. Bu modellər xüsusilə təbiət əsaslı turizm növlərində ənənəvi otellərə alternativ kimi istifadə olunur (Weaver, 2001, s. 155; Buckley, 2010, s. 40). Glamping, mobil otellər və modul yerləşdirmə sistemləri bu kateqoriyaya daxildir (Mutlu, 2022, s. 50). Bu strukturların əsas üstünlükləri aşağı investisiya xərcləri, sürətli quraşdırma, tələbə uyğun yerləşdirilmə və ətraf mühitə minimal təsirdir. Lakin ədəbiyyatda bu konsept daha çox təcrübə keyfiyyəti və davamlılıq baxımından araşdırılmış, destinasiya idarəetməsinin strateji aləti kimi rolu kifayət qədər tədqiq olunmamışdır (Mutlu, 2022, s. 60; Healy & McDonagh, 2013, s. 330).

Ümumilikdə ədəbiyyat göstərir ki, macəra turizmi, destinasiya idarəetməsi və pop-up otellər mövzuları əsasən ayrı-ayrılıqda araşdırılmış və bu anlayışlar arasında inteqrativ yanaşma zəif inkişaf etmişdir (Hall, 2008, s. 195; Lew, 2017, s. 460). Xüsusilə pop-up otellərin destinasiya idarəetməsinə necə daxil ediləcəyinə dair konseptual modellərin azlığı diqqət çəkir (Healy & McDonagh, 2013, s. 331). Bu tədqiqat məhz bu boşluğu doldurmağı hədəfləyir. Bu tədqiqat sistematik ədəbiyyat icmalı metoduna əsaslanır. Araşdırma çərçivəsində Web of Science, Scopus və Google Scholar bazalarında yerləşən elmi məqalələr təhlil edilmişdir. Axtarış zamanı "adventure tourism", "destination management", "pop-up hotels" və "temporary accommodation" açar sözlərindən istifadə olunmuşdur.

Bu tədqiqat sistematik ədəbiyyat icmalı metoduna əsaslanır. Tədqiqat göstərir ki, macəra turizmi destinasiyalarında çeviklik ehtiyacının qarşılanmasında pop-up otellər mühüm rol oynaya bilər .Təklif olunan model destinasiya idarəetməsi ədəbiyyatına yeni yanaşma təqdim edir və bu strukturların strateji əhəmiyyətini ortaya qoyur. Praktik baxımdan bu nəticələr destinasiya menecerləri və investorlar üçün çevik və davamlı yerləşdirmə həllərinin inkişafına istiqamət verir (Müller & Scheurer, 2008, s. 8). Gələcək tədqiqatlarda bu modelin empirik metodlarla yoxlanılması, müxtəlif destinasiyalarda tətbiqi və case study-lərlə dəstəklənməsi tövsiyə olunur (Hall, 2008, s. 198).

Macəra turizminin inkişafı bir sıra təkamülverici faktorlarla bağlıdır .Qlobal miqyasda turistlərin alternativ və qeyri-ənənəvi təcrübələrə marağı sürətlə artır (Lew, 2017, s. 453). İnsanlar artıq standart turizm formalarından daha çox autentik və unikal təcrübələr axtarırlar. Davamlılıq və ekoloji məsuliyyət turizm seçimlərində əsas meyara çevrilmişdir (Weaver, 2001, s. 148; Gössling, 2003, s. 75). Bu faktorlar macəra turizminin formalaşmasına və genişlənməsinə təkan verir. Destinasiya idarəetmə modeli turizm ərazilərinin sistemli şəkildə planlaşdırılmasını nəzərdə tutur Bu model təbii, mədəni və infrastruktur resurslarının balanslı idarə olunmasına əsaslanır. Turist təcrübəsinin keyfiyyətli şəkildə dizayn edilməsi modelin əsas məqsədlərindən biridir (Müller & Scheurer, 2008, s. 6).

Eyni zamanda müxtəlif maraqlı tərəflər arasında koordinasiya və əməkdaşlıq vacib rol oynayır (Richards & Palmer, 2010, s. 32). Bu yanaşma destinasiya rəqabət qabiliyyətini artırır və davamlı inkişafı təmin edir. Pop-up otellər turizm sektorunda innovativ yerləşmə həllərindən biridir (Healy & McDonagh, 2013, s. 324; Mutlu, 2022, s. 46). Onlar müvəqqəti və mobil struktura malik olmaqla çevik istifadə imkanı yaradır . Bu otellər xüsusilə təbii mühitə minimal müdaxilə prinsipi ilə seçilir. Ekoloji davamlılıq və resurslardan səmərəli istifadə onların əsas üstünlüklərindəndir. Pop-up otellər macəra turizmi təcrübəsini daha unikal və immersiv edir (Buckley, 2010, s. 41).

Pop-up otellərin destinasiya idarəetmə modelinə inteqrasiyası turizm axınının effektiv idarə olunmasını təmin edir (Hall, 2008, s. 205; Lew, 2017, s. 460). Bu proses yeni macəra marşrutlarının formalaşdırılmasına şərait yaradır. Pop-up otellərin müxtəlif məkanlarda tətbiqi turizm sisteminin çevikliyini artıraraq müvəqqəti tələb dalğalanmalarına effektiv cavab verir (Healy & McDonagh, 2013, s. 328). Mövsümi turist sıxlığının balanslaşdırılması inteqrasiyanın mühüm hissəsidir və bu model məhz həmin balansın təminində praktik alət kimi çıxış edir (Getz, 2010, s. 14). Eyni zamanda, yerli icmaların prosesə cəlb olunması həm sosial inteqrasiyanı gücləndirir, həm də iqtisadi faydaların bölgü üzrə daha ədalətli paylanmasına şərait yaradır (Richards & Palmer, 2010, s. 36). Cədvəl 1 pop-up otellərin müxtəlif məkanlarda tətbiqini və onların çoxşaxəli təsirlərini sistemli şəkildə təqdim edir.

Cədvəl 1 göstərir ki, pop-up otellər turizmdə çevik və tələbə uyğunlaşan yerləşmə formasıdır. Onlar əsasən müvəqqəti yüksək tələb olan məkanlarda qurularaq iqtisadi baxımdan gəlir və məşğulluq yaradır. Sosioloji aspektdə turist və yerli icma arasında qarşılıqlı əlaqəni gücləndirir, təcrübə yönümlü turizmi təşviq edir. Bununla yanaşı, ekoloji təsirlər kontekstdən asılı olaraq dəyişir: bəzi hallarda davamlılıq təmin olunur, digər hallarda isə resurslara təzyiq və tullantı problemi yaranır. Ümumilikdə, pop-up otellər müasir turizmdə innovativ və alternativ yerləşmə modeli kimi çıxış edir.

Macəra turizmi sürətlə dəyişən tələb strukturu və yüksək mövsümi sıxlıq səbəbilə destinasiya idarəetməsində çevik yanaşmalar tələb edir. Bu kontekstdə pop-up otellər yalnız yerləşmə həlli deyil, həm də idarəetmə prosesini dəstəkləyən strateji alət kimi çıxış edir. Aşağıdakı cədvəl 2 bu

otellərin destinasiya idarəetmə sistemindəki funksional rolunu ümumiləşdirir.

Cədvəl 1. **Pop-up otellərin məkan üzrə tətbiqi və iqtisadi, sosioloji və ekoloji təsirlərinin müqayisəli təhlili**

№	Məkan tipi	Xüsusiyyət	İqtisadi təsir	Sosioloji təsir	Ekoloji təsir	Konkret nümunə
1	Festival əraziləri	Qısa müddətli tələb pikləri	Yerli gəlir və məşğulluq artımı	Sosial inteqrasiya və mədəni mübadilə	Tullantı və səs çirkliliyi	Glastonbury Festival *(Getz, 2010)*
2	Səhralar	Ekzotik və macəra təcrübəsi	Yüksək gəlirli niş bazar	Təcrübə yönümlü turizm davranışı	Su və resurs istifadəsi riski	Sahara Desert *(Buckley, 2006)*
3	Dağ kurortları	Mövsümi turizm	Regional iqtisadi aktivlik	Yerli icma ilə qarşılıqlı əlaqə	Ekosistemə təsir	Zermatt *(Hudson, 2000)*
4	Sahil və ada əraziləri	Lüks istirahət	Gəlir diversifikasiyası	Sosial fərqlərin artması	Sahil eroziyası və çirklənmə	Maldives *(Gössling, 2003)*
5	Şəhər (urban boşluqlar)	Kreativ yerləşmə	Boş sahələrin iqtisadi istifadəsi	Alternativ həyat tərzi	Resursların yenidən istifadəsi	Berlin *(Richards & Palmer, 2010)*
6	İdman tədbirləri	Mega-event turizmi	Qısa müddətli yüksək gəlir	Kollektiv identiklik	Müvəqqəti tullantılar	FIFA World Cup *(Preuss, 2007)*
7	Milli parklar	Ekoturizm / glamping	Davamlı gəlir modeli	Ekoloji maarifləndirmə	Aşağı təsir (idarə edilərsə)	Serengeti National Park *(Weaver, 2001)*
8	Kənd əraziləri	Aqroturizm	Fermer gəlirlərinin artması	Rural həyatın qorunması	Torpaq istifadəsi riski	Tuscany *(Phillip et al., 2010)*
9	Buz və qar zonaları	Unikal təcrübə	Yüksək qiymətli bazar	Təcrübə motivasiyası	İqlim dəyişkənliyinə həssaslıq	Icehotel *(Hall & Saarinen, 2010)*
10	Böhran zonaları	Humanitar yerləşmə	Resursların optimallaşdırılması	Sosial təhlükəsizlik hissi	Minimal, lakin intensiv istifadə	COVID-19 müvəqqəti obyektlər *(UNWTO, 2020)*

Mənbə: Tədqiqatçılar tərəfindən hazırlanmışdır

Cədvəl 2 pop-up otellərin macəra turizmi kontekstində sadəcə yerləşmə vahidi deyil, eyni zamanda destinasiya idarəetməsinin aktiv bir aləti olduğunu göstərir. Onlar tələb yönümlü çevik yerləşmə və sürətli infrastruktur təmin etməklə turist axınının daha balanslı idarə olunmasına şərait yaradır. Eyni zamanda destinasiya brendinin formalaşmasına və fərqləndirilməsinə töhfə verir. Təcrübə əsaslı yanaşma isə turist məmnuniyyətini artıraraq məhsul dəyərini yüksəldir. Ümumilikdə, pop-up otellər destinasiya idarəetməsində strateji, operativ və marketinq səviyyələrində funksional rol oynayır.

Cədvəl 2. Macəra turizmi destinasiya idarəetməsində pop-up otellərin idarəetmə funksiyaları

№	Pop-up otelin idarəetmə funksiyası	Destinasiya idarəetmə mexanizmi	Turizm sisteminə töhfə	Tətbiq səviyyəsi	Nəticə
1	Tələb yönümlü çevik yerləşmə	Mövsümi planlama optimizasiyası *(Page, 2019)*	Overcrowding riskinin azaldılması	Strateji	Axın balansı
2	Sürətli yerləşmə infrastrukturu	Fövqəladə turizm adaptasiyası *(Hall, 2010)*	Qəfil tələbin qarşılanması	Operativ	Davamlı xidmət
3	Müvəqqəti brend mühiti	Destinasiya differensiasiyası *(Morgan et al., 2011)*	Yeni turizm imici yaradılması	Marketinq	Brend güclənməsi
4	Mobil yerləşmə sistemi	Coğrafi yayılmanın idarə olunması *(UNWTO, 2018)*	Turist axınının dispersiyası	Regional	Məkan yükünün azalması
5	Təcrübə dizayn platforması	Təcrübə əsaslı məhsul idarəetməsi *(Pine & Gilmore,*	Turist məmnuniyyətinin	Məhsul səviyyəsi	Yüksək dəyər

		1999)	artırılması		

Mənbə: Tədqiqatçılar tərəfindən hazırlanmışdır

Aparılan təhlil göstərir ki, pop-up otellər macəra turizmi çərçivəsində destinasiya idarəetməsinin çevik və adaptiv aləti kimi mühüm rol oynayır (Lew, 2017, s. 462; Hall, 2008, s. 205). Onlar yalnız müvəqqəti yerləşmə ehtiyacını qarşılamır, həm də turist axınının idarə olunması, təcrübə yönümlü məhsulun formalaşdırılması və destinasiya differensiasiyasının gücləndirilməsi kimi strateji funksiyaları yerinə yetirir (Healy & McDonagh, 2013, s. 329; Müller & Scheurer, 2008, s. 8). Bu model xüsusilə mövsümi və qeyri-bərabər tələb strukturuna malik ərazilərdə turizm sisteminin dayanıqlılığını artırır və resursların daha səmərəli istifadəsinə imkan yaradır. Eyni zamanda, pop-up otellər yerli icmaların prosesə inteqrasiyasını təmin edərək sosial-iqtisadi faydaların genişlənməsinə şərait yaradır. Bununla yanaşı, ekoloji balansın qorunması düzgün planlaşdırma və idarəetmə yanaşmalarından asılıdır (Weaver, 2001, s. 158; Gössling, 2003, s. 80). Ümumilikdə, pop-up otellər müasir turizm idarəetməsində innovativ, çevik və çoxölçülü bir həll modeli kimi çıxış edir və gələcək turizm inkişaf strategiyalarında daha geniş tətbiq potensialına malikdir (Healy & McDonagh, 2013, s. 331).

Nəticələr göstərir ki, pop-up otellər macəra turizmi çərçivəsində destinasiya idarəetməsinin çevikliyini artıran mühüm innovativ alət kimi çıxış edir (Buckley, 2010, s. 42; Lew, 2017, s. 463). Bu nəticə əvvəlki tədqiqatlarda qeyd olunan təcrübə yönümlü turizm və çevik yerləşmə sistemləri ilə uyğunluq təşkil edir. Xüsusilə, tələbin sürətlə dəyişdiyi macəra turizmi mühitlərində bu model turist axınının idarə olunmasında effektiv mexanizm kimi çıxış edir (Getz, 2010, s. 16). Eyni zamanda, pop-up otellərin destinasiya brendinqinə töhfə verməsi onların yalnız operativ deyil, həm də strateji marketinq vasitəsi olduğunu göstərir. Destinasiya fərqləndirilməsi və imic formalaşdırılması baxımından bu yanaşma müasir turizm idarəetməsində vacib yer tutur (Hall, 2008, s. 210). Bununla yanaşı, müvəqqəti yerləşmə strukturlarının coğrafi yayılmanı optimallaşdırması UNWTO tərəfindən də vurğulanan dayanıqlı turizm prinsipləri ilə uzlaşır (UNWTO, 2020, s. 12). Digər tərəfdən, ekoloji təsirlərin idarə olunması məsələsi hələ də kritik olaraq qalır (Weaver, 2001, s. 160). Tədqiqatlar göstərir ki, düzgün planlaşdırılmadıqda bu tip yerləşmələr ekosistemlərə əlavə yük yarada bilər . Buna görə də pop-up otellərin tətbiqi zamanı həm ekoloji, həm də sosial balansın qorunması vacib şərt kimi çıxış edir . Ümumilikdə, əldə olunan nəticələr göstərir ki, pop-up otellər macəra turizmi destinasiya idarəetməsində həm innovativ yerləşmə forması, həm də strateji idarəetmə mexanizmi kimi nəzəri və praktik əhəmiyyət daşıyır (Lew, 2017, s. 465).

ƏDƏBİYYAT SİYAHISI

1. Buckley, R. (2010). *Adventure tourism management*. Oxford: Elsevier.
2. Çetinkaya, G. (2014). Bir macera turizmi etkinliği olarak kaya tırmanış sporu ve Antalya-Geyikbayırı'nın potansiyeli. *Doğu Coğrafya Dergisi, 19*(31), 83–100.
3. Emir, O., & Turan, D. E. (2020). *Turizm ve güvenlik*.
4. Hall, C. M. (2008). *Tourism planning: Policies, processes and relationships*. Harlow: Pearson Education.
5. Healy, R., & McDonagh, J. (2013). Temporary structures and tourism development. *Tourism Planning & Development, 10*(3), 321–336.
6. Karagöz, İ. C. (2020). Turistlerin temalı konaklama tesislerindeki memnuniyet düzeyleri ve tekrar ziyaret etme niyetleri arasındaki ilişkinin tespiti: Antalya örneği. *Balıkesir University (Master's thesis).*
7. Kılıçarslan, E. (2023). Gençlik turizmi: 18–25 yaş arası gençlerin turizm faaliyetine yönelik algıları ve katılım eğilimleri. *Sakarya University (Master's thesis).*
8. Kılıçarslan, E., & Kaçmaz, M. (2025). 18-25 yaş arası gençlerin turizm faaliyetlerine yönelik

algı ve eğilimleri. *Journal of Anatolian Geography, 2*(1), 25–35.
9. Lew, A. A. (2017). Tourism planning and place making. *Tourism Geographies, 19*(3), 448–466.
10. Mancı, A. R. (2022). Turizmde risk yönetimi. *Turizm ve İşletme Bilimleri Dergisi, 2*(1), 89–92.
11. Mutlu, E. (2022). Bir tasarım stratejisi olarak "pop-up" ve mekansal uygulamaları. *Anadolu University (Master's thesis).*
12. Müller, H., & Scheurer, T. (2008). The role of accommodation in tourism experience. *Tourism Review, 63*(1), 4–13.
13. Oktay, E. M., & Özgür, E. (2008). Konaklama tesisleri etkinlik analizi. *Sosyal Bilimler Dergisi, 10*(1), 164.
14. Ören, D., & Ören, D. (t.y.). Konaklama işletmeleri eğilimleri.
15. Payam, M. M. (2020). Turizmde olası güvenlik riskleri: Etkin risk ve güvenlik yönetimi. *İktisadi ve İdari Bilimlerde Akademik Çalışmalar*, 231.
16. Pomfret, G., & Bramwell, B. (2016). The characteristics and motivations of outdoor adventure tourists. *Current Issues in Tourism, 19*(14), 1447–1478.
17. Buckley, R. (2006). *Adventure tourism*. CABI.
18. Getz, D. (2010). The nature and scope of festival studies. *International Journal of Event Management Research, 5*(1), 1–47.
19. Gössling, S. (2003). *Tourism and development in tropical islands: Political ecology perspectives*. Edward Elgar.
20. Hall, C. M., & Saarinen, J. (2010). Polar tourism: Definitions and dimensions. *Scandinavian Journal of Hospitality and Tourism, 10*(4), 448–467. https://doi.org/10.1080/15022250.2010.521686
21. Hudson, S. (2000). *Snow business: A study of the international ski industry*. Cengage Learning.
22. Phillip, S., Hunter, C., & Blackstock, K. (2010). A typology for agritourism. *Tourism Management, 31*(6), 754–758. https://doi.org/10.1016/j.tourman.2009.08.001
23. Preuss, H. (2007). The conceptualisation and measurement of mega sport event legacies. *Journal of Sport & Tourism, 12*(3–4), 207–228. https://doi.org/10.1080/14775080701736957
24. Richards, G., & Palmer, R. (2010). *Eventful cities: Cultural management and urban revitalisation*. Routledge.
25. UNWTO. (2020). *COVID-19 and tourism: Assessing the economic consequences*. World Tourism Organization.
26. Weaver, D. (2001). *Ecotourism*. Wiley.

TOURİSM-LED GROWTH AND CARBON İNTENSİTY İN AZERBAİJAN: A MULTİVARİATE ARDL APPROACH

Azərbaycan Respublikasında turizm əsaslı inkişaf və karbon intensivliyi: çoxözlü ARDL yanaşması

JOHN O. NGOWİ [1]
Con O. Nqovi[1]
johnonesmo33@gmail.com
https://orcid.org0009-0007-5260-6062

ƏBÜLFAZ SALMANOV[1]
Abulfaz Salmanov[1]
abulfaz.salmanov@ndu.edu.az
https://orcid.org0009-0003-6524-3396

HÜSEYN BAĞHİRSOYLU[1]
Huseyn Baghirsoylu[1]
huseynbaghirsoylu@ndu.edu.az
https://orcid.org0009-0009-1007-9414

[1]*Naxçıvan Dövlət Universiteti*
[1]*Nakhchıvan State Unıversıty*

ABSTRACT

This study utilizes a multivariate ARDI framework to investigate the relationship between tourism development, carbon intensity and economic growth in Azerbaijan from 1992 to 2024. The empirical results confirm a robust long-run cointegrated relationship, validating the tourism-led growth hypothesis through the significant positive impact of air passenger transport on real GDP per capita. Conversely, the findings reveal that high carbon intensity acts as a substantial structural effort on long-term expansion, highlighting a critical tension between traditional growth models and environmental sustainability. With a moderate short-run speed of adjustment of 42.4%, the economy demonstrates the resilience necessary to realign toward sustainable equilibria following any external shock or policy shock. These findings suggest that Azerbaijan's path to a diversified and high-income economy depends on decoupling growth from carbon emissions, specifically through the implementation of smart green aviation and the establishment of zero-emission cultural heritage corridors in regions like Nakhchivan

Keywords: *Tourism-Led Growth, Carbon Intensity, ARDL Approach, Azerbaijan, Sustainable Development, Cultural Heritage, Nakhchivan.*

XÜLASƏ

Bu tədqiqat 1992–2024-cü illər ərzində Azərbaycanda turizmin inkişafı, karbon intensivliyi və iqtisadi artım arasındakı əlaqəni araşdırmaq üçün çoxdəyişənli ARDL çərçivəsindən istifadə edir. Empirik nəticələr uzunmüddətli kointeqrasiyalı möhkəm əlaqəni təsdiqləyir və hava sərnişin daşımalarının real adambaşına ÜDM-ə əhəmiyyətli müsbət təsiri vasitəsilə turizməsaslı artım hipotezini doğrulayır. Əksinə, tapıntılar göstərir ki, yüksək karbon intensivliyi uzunmüddətli genişlənməyə ciddi struktur maneə kimi çıxış edir və ənənəvi artım modelləri ilə ekoloji dayanıqlılıq arasında kritik gərginliyi önə çəkir. Qısamüddətli tənzimlənmə sürətinin 42,4% olması iqtisadiyyatın hər hansı xarici və ya siyasət şokundan sonra dayanıqlı tarazlığa yönəlmək üçün zəruri möhkəmliyə malik olduğunu göstərir. Bu nəticələr Azərbaycanın diversifikasiya olunmuş və yüksək gəlirli iqtisadiyyata aparan yolunun karbon emissiyalarından ayrılmasından, xüsusilə ağıllı yaşıl aviasiyanın tətbiqi və Naxçıvan kimi bölgələrdə sıfır emissiyalı mədəni irs dəhlizlərinin yaradılmasından asılı olduğunu göstərir.

Açar sözlər: *Turizməsaslı artım, Karbon intensivliyi, ARDL yanaşması, Azərbaycan, Dayanıqlı inkişaf, Mədəni irs, Naxçıvan*

CONTRİBUTİON AND ORİGİNALİTY

The study establishes an original quantitative benchmark for resource-rich transition economies by empirically verifying Azerbaijan's structural hierarchy within the tourism-environment-growth relationship. Through quantifying the specific trade-offs between air transport infrastructure, carbon intensity and economic expansion over three decades, the research bridges the gap between theoretical sustainable development models and longitudinal policy evaluation.

Furthermore, by calculating a precise 42.4% annual speed of adjustment, the study provides a unique functional timeline for the absorption of external shocks or policy shocks, offering a strategic roadmap for decoupling growth from emissions in a post-pandemic new normal context.

INTRODUCTİON

The pursuit of sustainable development has become a defining challenge for modern economies, particularly those rich in cultural and historical capital. As the global community commemorates the 900th anniversary of the birth of Architect Ajami Nakhchivani, a figure whose legacy represents the architectural and cultural brilliance of the Turkic world, which the Republic of Azerbaijan finds itself at a critical crossroads. The imperative to preserve such profound cultural heritage must now be reconciled with the dynamics of rapid economic modernization and the burgeoning tourism sector. In this context, tourism-led growth (TLG) has emerged as a vital strategy for diversification, yet its environmental implications, specifically regarding carbon intensity, remain a subject of intense academic and policy debate.

Azerbaijan's strategic geographic location and its commitment to uniting the common values of the countries of the Turkic world have positioned it as a rising hub for international tourism. However, the expansion of tourism infrastructure, particularly the growth in air transport, is inherently energy-intensive. As noted by the World Bank (2023), the challenge for emerging economies lies in disconnecting economic expansion from environmental degradation. For Azerbaijan, this means ensuring that the rise in GDP per capita driven by increased visitor arrivals does not come at the cost of a surge in CO2 emissions intensity. Sustainable tourism, therefore, is not merely a hospitality management goal but a macroeconomic necessity that encompasses environmental sustainability and climate change mitigation.

Despite the increase in number of studies on the TLG hypothesis, there is a notable research gap concerning the multivariate relationship between transport expansion, capital formation, and carbon intensity within the specific economic framework of Azerbaijan. Current literature often overlooks the tones of the macroeconomic policy mix, such as exchange rate stability and inflation management which are essential for fostering a smart tourism ecosystem. Furthermore, the interplay between fixed capital investment and environmental quality is crucial for determining whether tourism development supports the preservation of cultural sites or contributes to their long-term ecological risk.

This study contributes to the conference theme of tourism, climate change, and environmental sustainability by providing a rigorous econometric analysis of these variables. Utilizing a multivariate autoregressive distributed lag (ARDL) approach for the period between 1995 to 2024, the research evaluates the long-run and short-run dynamics between tourism-led growth and carbon intensity in Azerbaijan. By accounting for structural breaks and diagnostic stability, this paper offers a quantitative foundation for developing tourism policies that honor the heritage of the past while safeguarding the environmental future of the region.

2. LİTERATURE REVİEW AND HYPOTHESİS

2.1. Theoretical framework

The theoretical underpinning of this research is rooted in the Tourism-Led Growth (TLG) Hypothesis, which posits that tourism acts as a significant catalyst for economic expansion through various channels, including foreign exchange earnings, infrastructure development, and the stimulation of related industries such as transport and hospitality (Balaguer & Cantavella-Jordá, 2002). Within the specific context of Azerbaijan, this theory is extended to account for the Environmental Kuznets Curve (EKC) framework. The EKC suggests an inverted U-shaped

relationship between economic growth and environmental degradation, where initial stages of development lead to increased pollution, but subsequent technological advancements and smart tourism innovations eventually reduce environmental intensity (Grossman & Krueger, 1995).

Furthermore, the study incorporates Endogenous Growth Theory, which emphasizes the role of fixed capital formation and human capital in fostering long-term prosperity. In the modern era, this includes smart tourism initiatives, through the integration of ICT and sustainable practices into the tourism value chain as a means to enhance competitiveness while mitigating the carbon footprint of air transport and infrastructure development (Buhalis & Amaranggana, 2013).

2.2. Previous studies

Empirical investigations into the tourism-environment-growth connection have yielded diverse results. In a broad panel study of emerging economies, (Eyuboglu & Eyuboglu, 2020) identified that while tourism significantly bolsters GDP in the Turkic Republics, the reliance on traditional energy-intensive transport modes often leads to a rise in carbon emissions. Similarly, (Katircioglu, 2014) observed that for small island states and emerging hubs, the ecological footprint of tourism tends to expand alongside arrivals, highlighting the urgent need for decoupling strategies.

In the case of Azerbaijan, recent literature has focused heavily on the resource-curse paradox and fiscal policy (Kalbiyev & Seyfullali, 2024), but fewer studies have examined the specific multivariate relationship between air passenger traffic and carbon intensity. While international transport is a primary driver of the hospitality sector, it remains one of the largest contributors to CO2 emissions. Recent data from the World Bank (2023) suggests that Azerbaijan has made steps in reducing the CO2 intensity of its GDP; however, whether this trend holds true for the tourism sector specifically remains an under-researched area. By utilizing the ARDL approach, this study addresses the limitations of previous linear models, allowing for the observation of asymmetric long-run and short-run dynamics that characterize the Azerbaijani transition economy.

3.3. Hypothesis

Based on the previous mentioned theoretical frameworks and the unique structural characteristics of the Azerbaijani economy, the following hypotheses are proposed:

- H_1: There exists a significant long-run cointegrated relationship between tourism development, economic growth, and carbon intensity in Azerbaijan.
- H_2: Tourism-led growth proxied by air passenger traffic, has a positive and significant impact on GDP per capita in the long run.
- H_3: Increased economic growth and tourism expansion significantly influence the carbon intensity of the economy, suggesting a need for sustainable policy intervention.
- H_4: Macroeconomic policy variables, specifically inflation and exchange rates, act as significant moderators in the tourism-growth relationship.

3. EMPİRİCAL FRAMEWORK

3.1. Data

This study utilizes annual time-series data for Azerbaijan covering the period of 33 years from 1992 to 2024. To examine the tourism-environment-growth connection, we employ the natural log of real GDP per capita as the dependent variable. The core explanatory variables include the natural log of air passenger transport as a proxy for tourism activity and the carbon intensity of the economy.

To maintain a robust multivariate framework, we incorporate several control variables, which includes the gross fixed capital formation, the natural log of the official exchange rate, and headline CPI inflation. Data are sourced from the World Bank Indicators (WBI) and the State Statistical

Committee of the Republic of Azerbaijan. All variables (except percentage-based indicators) are converted into natural logarithms to stabilize variance and allow for elasticity interpretations.

Table 3.1: Description of variables and data sources

Variables	Abbreviation	Description	Unit of measurement	Source
GDP Per Capita	GDP_CAPITA	GDP per capita of Azerbaijan citizen	Constant 2015 US dollar	WBI (2026)
Gross Fixed Capital Formation	FIXED_CAPT_GDP	Investment in physical assets	% of GDP	WBI (2026)
Carbon Intensity of Economy	CO2_GDP_INTENSITY	Emissions of carbon dioxide (CO2) per GDP	Kg CO2e per 2021 constant USD of GDP	WBI (2026)
Exchange Rate	EXCH_RATE	Official exchange rate	AZN per USD	WBI (2026)
Headline CPI Inflation	CPI_INFL	Headline inflation on consumer prices	Annual % growth	WBI (2026)
Air Transport Passengers	AIR_PAX	Passengers carried on air transport	Number of passengers	WBI & AzStat (2026)
Log of GDP Per Capita	LN_GDP_CAPITA	Log of GDP Per Capita	Natural log	Author's calculation
Log of Exchange Rate	LN_EXCH_RATE	Log of Exchange Rate	Natural log	Author's calculation
Log of Air Transport Passengers	LN_AIR_PAX	Log of Air Transport Passengers	Natural log	Author's calculation

Note: Author's own creation by using data from World Bank Indicators and State Statistical Committee of the Republic of Azerbaijan (2026)

3.2. METHODOLOGY

Given the relatively small sample size and the potential for mixed integration orders among the variables, we adopt the Autoregressive Distributed Lag (ARDL) Bounds Testing approach (Pesaran et al., 2001). Unlike traditional cointegration methods, the ARDL model is flexible regarding whether variables are I(0) or I(1), provided none are I(2).

The baseline unrestricted error correction model (UECM) is specified as follows:

$$\Delta LN_{GDP_{PC_t}} = \alpha_0 + \sum_{\{i=1\}}^{p} \beta_i \Delta LN_{GDP_{PC_{\{t-i\}}}} + \sum_{\{j=0\}}^{q} \gamma_j \Delta X_{\{t-j\}} + \delta_1 LN_{GDP_{PC_{\{t-1\}}}} + \delta_2 X_{\{t-1\}} + \epsilon_t$$

……. *Equation 1*

where Δ is the first-difference operator, p and q are the optimal lag lengths, and X represents the vector of independent variables. The long-run relationship is confirmed if the calculated F-statistic exceeds the upper bound critical values provided by (Narayan, 2005), which are specifically standardized for small samples.

3.3. EMPİRİCAL RESULTS

3.3.1. Preliminary data diagnostics

The descriptive statistics for the variables employed in this study are summarized in table 3.3.1. The average real GDP per capita for Azerbaijan during this period was approximately $3,679 with a maximum of $5,871 reflecting the country's transition and rapid growth phases. Carbon intensity averaged 1.497 kg per USD, though it exhibited a significant downward trend toward the latter

years, indicating a shift toward greater energy efficiency.

To ensure the absence of multicollinearity, the variance inflation factor (VIF) was calculated for all independent variables. As shown in the diagnostics, the VIF values range from 1.2 to 2.15, which is well below the conservative threshold of 10, hence confirming that the model does not suffer from high correlation among the regressors. Furthermore, the Jarque-Bera test for normality yielded a probability of 0.099 for the dependent variable, suggesting that the data follows a normal distribution, providing a robust foundation for parametric estimation.

Table 3.3.1: Descriptive statistics of the variables

Variables	Obs.	VIF	Mean	Median	Std. Dev	Min.	Max.	Skew-ness	Kurt-osis	JB	Prob.
GDP_CAPITA	33	-	3679.14	4778.13	1852.23	1120.31	5871.14	-0.272	1.248	4.626	0.099
FIXED_CAPT_GDP	33	1.20	25.85	22.88	9.99	12.01	57.71	1.616	5.596	23.630	0.000
CO2_GDP_INTENSITY	33	2.15	1.50	0.76	1.07	0.56	3.94	0.849	2.259	4.720	0.094
EXCH_RATE	33	-	1.02	0.89	0.47	0.01	1.72	0.049	2.649	0.183	0.913
CPI_INFL	33	1.66	101.96	4.03	347.50	-10.63	1662.22	3.691	15.573	292.300	0.000
AIR_PAX	33	-	1384394	1253400	724952	543800	3586435	1.015	3.842	6.644	0.036
LN_GDP_CAPITA	33	-	8.05	8.47	0.63	7.02	8.68	-0.467	1.481	4.374	0.112
LN_EXCH_RATE	33	1.47	-0.24	-0.11	1.09	-4.53	0.54	-3.022	11.744	155.400	0.000
LN_AIR_PAX	33	1.35	14.01	14.04	0.52	13.21	15.09	0.010	2.123	1.058	0.589

Source: *Author's own computation from STATA 17*

Before estimation, the variables were subjected to unit root testing and correlation analysis. The augmented dickey-fuller (ADF) and Phillips-perron (PP) tests confirm a mixed order of integration where log of exchange rate is stationary at level, while all other variables become stationary after the first difference. This mixture validates the choice of the ARDL framework.

Table 3.3.3: Unit Root Test Results

Variables	Augmented Dickey-Fuller (ADF) Test		Phillips-Perron (PP) Test		Order of Integration
	Level	First Difference	Level	First Difference	
LN_GDP_CAPITA	-0.143	-3.201**	-0.579	-3.163**	I(1)
FIXED_CAPT_GDP	-1.988	-3.932***	-2.219	-3.794***	I(1)
CO2_GDP_INTENSITY	-0.989	-4.135***	-1.037	-4.098***	I(1)
LN_EXCH_RATE	-6.179***	-	-6.770***	-	I(0)
CPI_INFL	-0.143	-6.149***	-2.910**	-6.559***	I(1)
LN_AIR_PAX	-1.736	-5.902***	-1.780	-5.956***	I(1)

Note: *The p-values are for the null hypothesis Ho: The series has a unit root. Significance at ***p < .01, **p < .05, *p < .10.*

The pairwise correlation matrix reveals a strong negative correlation between economic growth and carbon intensity (-0.952), suggesting that Azerbaijan's historical growth has been closely tied to shifts in carbon efficiency. Also, multicollinearity was ruled out as the variance inflation factor (VIF) for all variables remained well below the threshold of 10, as illustrated by the table 3.3.1.

Table 3.3.2: Pairwise Correlation Matrix

Variables	(1)	(2)	(3)	(4)	(5)	(6)
(1) LN_GDP_CAPITA	1.0000					

(2) FIXED_CAPT_GDP	-0.4242**	1.0000				
	(0.0139)					
(3) CO2_GDP_INTENSITY	-0.9520***	0.2416	1.0000			
	(0.0000)	(0.1755)				
(4) LN_EXCH_RATE	0.3675**	0.0203	-0.5118***	1.0000		
	(0.0354)	(0.9105)	(0.0023)			
(5) CPI_INFL	-0.3715**	-0.0826	0.5274***	-0.4530***	1.0000	
	(0.0333)	(0.6475)	(0.0016)	(0.0081)		
(6) LN_AIR_PAX	0.5374***	-0.3356*	-0.3626**	0.0656	0.0614	1.0000
	(0.0013)	(0.0562)	(0.0381)	(0.7169)	(0.7345)	

Notes: *Dependent variable: LN_GDP_CAPITA. (a) Values in brackets are p-values. (b) Asterisks: *, **, and *** indicate the rejection of the null hypothesis of no correlation at 10%, 5%, and 1% significance levels*

bölgede törensel unsur, farklı bir düzlemdeyse aidiyet ve kimlik göstergesi olarak kabul edilebilir [18]. Bu açıdan değerlendirildiğinde Türk mutfağına yönelik çalışmaların odağında sadece ürün değil, aynı zamanda bellek, ritüel, temsiliyet ve toplumsal işlev boyutları da dahil olacak şekilde genişletilmesi gerekmektedir. Özellikle son zamanlarda yemek kültürünün kimlik oluşturması, kültürün sürdürülebilirliği, mirasın yeniden yorumu ve göç sonrasındaki mutfak uygulamaları gibi beraber ele alınması, Türk mutfağına yönelik çalışmaları betimleyici düzeyin ötesine götürerek daha çözümleyici ve kuramsal bir çerçevede ele almaktadır. Bu yüzden Türk dünyası mutfaklarına yönelik farklılık ve benzerliklerin sistematik şekilde ele alınması, sadece gastronomik çeşitliliğin görünür kılınmasına değil, aynı zamanda Türk mutfak kültürünün tarihsel yayılımını, geçirdiği dönüşün aşamalarını ve kültürel sürekliliği daha sistematik biçimde değerlendirebilmesine olanak tanımaktadır.

Bunun yanında zaman içerisinde Türk mutfağı ile ilgili araştırmaların artış göstermesi, farklı coğrafya ve kültürel bağlamlarda ele alınması ve farklı temalar ekseninde yoğunlaşması, mevcut alan yazının kapsamlı ve bütüncül şekilde ele alınmasını gerekli kılmaktadır. Alan yazında görüldüğü üzere Türk mutfağına yönelik araştırmalar; gastronomi turizmi kültürel miras, coğrafi işaret, kimlik, sürdürülebilirlik, tüketici davranışları ve karşılaştırmalı mutfak incelemeleri gibi çeşitli temalar altında toplanmaktadır. Yalnız bu literatürün hangi dönemlerde yoğunlaştığı, hangi temalar etrafında toplandığı, hangi yazarlar tarafından hangi kurumlar ve ülkeler tarafından biçimlendirildiği bunun yanında hangi kavramların öne çıktığı çoğu zaman dağınık bir yapı sunmaktadır. Nitekim, Türk mutfağı yazınının sadece içerik açısından değil, aynı zamanda yapısal ve entelektüel özellikleri açısından da bütüncül biçimde ele alınmasını gerektirmektedir. Dolayısıyla bibliyometrik analiz, söz konusu alandaki akademik birikimin gelişim sürecini, etki kapasitesini, tematik dağılımını ve iş birliği ilişkilerini ortaya koyabilen güçlü bir yöntem olarak kabul edilmektedir. Bu doğrultuda Türk mutfağına yönelik çalışmaların Web of Science veri tabanı temelinde bibliyometrik açıdan incelenmesi, alan yazının mevcut durumunun ortaya çıkarılması, araştırma eğilimlerinin belirlenmesi ve gelecekteki çalışmalar için yol gösterici bir çerçeve sunulması açısından önemli görülmektedir.

YÖNTEM

Bu araştırma "Türk Mutfağı" ve "Türk Mutfak Kültürü" konularında yapılmış bir bibliyometrik çalışmadır. Bu bölümde araştırmanın veri toplama aracı ve veri analizi aşamaları yer almaktadır. Bu çalışmada insandan ve canlıdan herhangi bir veri toplama söz konusu olmadığından dolayısıyla çalışma etik kurul gerektiren çalışmalar arasında yer almadığından Etik Kurul'a başvurulmamıştır.

Veri Toplama Aracı

Bu araştırmada kapsamındaki veriler "Web of Since" (WOS) veri tabanından elde edilmiştir. Bu veri tabanının kullanılmasının gerekçesi dünyanın en önemli yayın platformlarından biri olması ve araştırmacılara çeşitli disiplinlerden geniş bir veri içeriği sağlamasıdır. Verileri elde etmek için "WOS" veri tabanının arama motoruna "Turkish cuisine", "Turkish culinary culture" kavramları yazılarak tarama yapılmıştır. Tarama sonucu Türk Mutfağı ve Türk Mutfak Kültürü ile ilgili toplam 29 adet çalışmaya ulaşılmıştır. Söz konusu çalışmaların türleri Tablo 1'de belirtilmiştir.

Verilerin Analizi

Araştırmada kullanılan veriler R Studio programı ile analiz edilmiştir. Veriler, Aria ve Cuccurullo (2017) [19] tarafından geliştirilen R Studio programının içindeki bibliometrix yazılımında yer alan biblioshiny uygulaması ile aşağıdaki değişkenlere göre sınıflandırılmıştır:

- Veriler hakkında temel bilgiler,

- Yıllık yayın sayısı,
- Yıllık atıf sayısı,
- Yazarların dergilere ve kullandıkları anahtar kelimelere göre dağılımı (Sankey Diyagramı)
- En çok yayın yapan dergiler,
- Yazarlara ait makale sayıları,
- Kurumlara göre yayın sayısı,
- Yazarlara göre atıf sayısı,
- En çok kullanılan anahtar kelimelerden oluşan kelime bulutu,
- Anahtar sözcüklerin eş birliktelik ağı,
- Tematik harita

BULGULAR


Bu bölümde Türk Mutfağı ve Türk Mutfak kültürü konularıyla ilgili uluslararası alanda yapılan yayınların bibliyometrik analizi sonucu elde edilen bulgular yer almaktadır.

Tablo 1. Veriler Hakkında Temel Bilgiler

Veriler Hakkında Temel Bilgiler


Zaman aralığı	2009:2026
Kaynaklar (Dergi, kitap vs.)	23
Belgeler (Makale, kitap bölümü vs.)	29
Kaynaklar	1406
Yazarların kullandığı anahtar kelimeler	95
Yazarlar	68
Tek yayın yapan yazarlar	6
Tek yazarlı yayınlar	6
Yayın Türleri	
Makale	19
Kitap bölümü	3
Makale; erken erişim	1
Bildiri	4
Derleme makale	2

Tablo 1'de Türk Mutfağı ve Türk Mutfak kültürü araştırmalarına yönelik WOS veri tabanında taranan dergilerde yayınlanmış çalışmalara ilişkin temel bilgiler yer almaktadır. Tablo incelendiğinde bu veri tabanında ilk çalışmanın 2009 yılında yayınlandığı, son çalışmanın ise 2026 yılında yayınlandığı görülmektedir. Yayın türleri ve sayıları incelendiğinde ise 19 adet makale, 3 adet kitap bölümü, 1 adet erken erişim makale, 4 adet bildiri ve 2 adet derleme makale olmak üzeri toplam 29 adet yayın yer almaktadır.




Şekil 1. Yıllık Yayın Sayısı

Şekil 1'de WOS veri tabanında taranan dergilerde Türk Mutfak Kültürü ile ilgili yayınlanan yayınların yıllara göre dağılımı verilmiştir. İlgili şekil incelendiğinde en fazla yayın yapılan yılın 5 yayınla 2025 yılı olduğu görülmektedir. 2025 yılını takip eden yıllar ise 3 yayınla 2019, 2021,2022, ve 2023 yıllarıdır. Yıl bazında yayın sayısı en az olan yıllar incelendiğinde ise bu kapsamda hiç yayın yapılmayan yılların 2010, 2011, 2014, 2015, 2016 yılları olduğu görülmektedir. Bu verilerden hareketle Türk Mutfak Kültürü ile ilgili yapılan çalışmaların son yıllarda artış gösterdiği söylenebilir.




Şekil 2. Yayınlara Yapılan Atıf Sayısı

Şekil 2'de yayınlara göre atıf sayıları verilmiştir. Bu sayılar incelendiğinde en fazla atıfın 2009 yılında yapılan yayına yapıldığı anlaşılmaktadır. Bunu 16 atıfla 2017 yılında yapılan yayın izlemektedir. Atıf sayıları değişkenlik gösterse de ilk yapılan yayınlara yapılan atıf sayılarının daha fazla olduğu söylenebilir.




Şekil 3. Yazarların Dergilere ve Kullandıkları Anahtar Kelimelere Göre Dağılımı (Sankey Diyagramı)

Şekil 3'te yazarların kullandıkları anahtar kelimelere ve yayın yapılan dergilere göre dağılımını gösteren bir diyagram yer almaktadır. Bu diyagramda sol tarafta yayın yapılan dergiler, ortada yazar isimleri ve sağ tarafta ise kullanılan anahtar kelimeler yer almaktadır. Ayrıca en fazla yayın yapan dergi, yazar ve en çok kullanılan anahtar kelimeler arasındaki ilişkiler de koyu olarak gösterilmiştir. Söz konusu diyagramda en fazla yayın yapan derginin "international journal of gastronomy and food science", en fazla yayın yapan yazarın Comert, M, en yaygın kullanılan anahtar kelimenin ise "Turkish cuisine" olduğu görülmektedir.




Şekil 4. En Çok Yayın Yapan Dergiler

Şekil 4'te en çok yayın yapan dergiler listelenmiştir. Bu anlamda "international journal of gastronomy and food science" adlı derginin 4 makaleyle en fazla yayın yaptığı anlaşılmaktdır.




Şekil 5. Yazarlara Ait Makale Sayıları

Şekil 5'te yazarlara ait makale sayıları verilmiştir. Bu anlamda Comert M. (Cömert, Menekşe) 3 yayınla en fazla yayın yapan yazar olarak ön plana çıkmaktadır. Onu 2 yayınla Ozturk B. (Öztürk, Betül) takip etmektedir. Buradan hareketle konuyla ilgili en fazla yayın yapan yazarların çalıştıkları kurumlar ve ait olduğu ülkeler incelendiğinde 1. Sırada Türkiye'den Ankara Hacı Bayram Veli Üniversitesi (Cömert, Menekşe), 2. Sırada ise yine Türkiye'den İzmir Ekonomi Üniversitesi'nden (Öztürk, Betül) olduğu ortaya çıkmıştır.



Şekil 6. Kurumlara Göre Yayın Sayısı

Şekil 6'da kurumlara göre yapılan yayın sayıları verilmiştir. Şekle göre en fazla yayın yapılan kurumun Gazi Üniversitesi olduğu görülmekte olup, bunu sırasıyla 4 yayınla Ankara Hacı Bayram Veli Üniversitesi, Babes Bolyai Üniversitesi, Bahçeşehir Üniversitesi, İstanbul Gelişim Üniversitesi, İstanbul Teknoloji Üniversitesi, İzmir Ekonomi Üniversitesi, Özyeğin Üniversitesi ve Yozgat Bozok Üniversitesi takip etmektedir.



Şekil 7. Yazarlara Göre Atıf Sayısı

Şekil 7'de yazarlara göre atıf sayıları verilmiştir. Şekle göre en fazla atıf alan yazarın 69 atıf ile Kılıç B. (Kılıç, Birol) olduğu görülmektedir. Onu 23 atıf ile Gunaydin D (Günaydın, Dorukhan), Hunkar, B. (Hünkâr, Beliz), Ongelen, C. (Öngelen, Cansu) ve Uctug, F. G. (Uçtuğ, Fehmi Görkem) takip etmektedir.




Şekil 8. En Çok Kullanılan Kelimeler

Şekil 8'de en çok kullanılan kelimeler görsel olarak yansıtılmıştır. En çok kullanılan kavramın büyük puntoyla gösterildiği görsele göre en çok "Turkish Cuisine" kelimesi kullanılırken, onu "food" ve "gastronomy" kelimeleri takip etmektedir.



Şekil 9. Anahtar Kavramların Eş Birliktelik Ağı

Şekil 9'da birlikte kullanılan kavramlar ağlarla gösterilmiştir. Bu ağa göre en diğer kavramlarla en fazla kullanılan kavramın "Turkish Cuisine" olduğu görülürken, bu kavramın en çok birlikte kullanıldığı kavramın ise "food" kavramı olduğu vurgulanmıştır. Bunu Gastronomy kavramı izlerken,"Food" ve "Gastronmy kavramları kadar olmasa da "Turkish Cuisine" kavramıyla birlikte kullanılan diğer kavramlardan "Tourism" ve "Turkish Culinary Culture" kavramları da dikkat çekmektedir.



Şekil 10. Tematik Harita

Şekil 10'da konuyla ilgili kullanılan anahtar kelimeler en temel olandan, trend olan ve modası geçen veya yeni kullanılmaya başlayan kelimeler şeklinde kümelenmiştir. Bu görsel haritaya göre "Türk Mutfak Kültürü" veya "Türk Mutfağı" konusuyla ilgili en temel kavramların "Turkish cuisine" ve "carbon foodprint" kavramları olduğu görülmektedir. Son yıllarda en çok kullanılan lokomotif niteliğinde olan kavramlar ise "gastronomy" ve "Turkish culinary culture" kavramlarıdır. Haritaya göre "deep learning" kavramının ise modası geçmiş ya da yeni yeni kullanılan kavramlar

grubunda yer aldığı görülmektedir. Öte yandan söz konusu konuyla ilgili az kullanılmış kavramların ise "culinary culture", "migration Turkish" olduğu söylenebilir.

SONUÇ

Dünyada farklı yönleriyle öne çıkan bir mutfak olan Türk mutfağı, yalnızca yemekleriyle değil; aynı zamanda kültürel kimliği, yaşam pratiklerini ve tüketici davranışlarını yansıtan çok boyutlu ve canlı bir kültürel yapıdır. Bu araştırmada Web of Science veri tabanında yer alan Türk mutfağı ve Türk mutfak kültürü temalı çalışmalar bibliyometrik açıdan incelenmiş ve alanın mevcut durumu ortaya konulmuştur. Bu bağlamda yapılan analize göre, Türk mutfağı alanına yönelik ilginin zaman içerisinde nasıl geliştiğini ve bu alanda gerçekleştirilen çalışmaların niceliksel ve niteliksel açıdan derinleştiği, ayrıca söz konusu araştırmaların giderek bağımsız bir çalışma alanına evrildiği anlaşılmaktadır.

Araştırma bulguları incelendiğinde, sayısal olarak sınırlı olan uluslararası yayınların, 2019 yılından sonra artış gösterdiği ve literatürün genel olarak "gastronomi ve gıda" ekseninde yoğunlaştığı görülmektedir. Gastronomi çalışmalarının küresel ölçekte de aynı dönemlerde önem kazandığı ve turizm literatüründe giderek daha fazla merkezi bir konuma geldiği vurgulanmaktadır [20] Bununla birlikte, çalışmaların karbon ayak izi gibi sürdürülebilirlik kavramlarıyla da ilişkilendirildiği dikkat çekmektedir.

Araştırma kapsamında yapılan yayınların International Journal of Gastronomy and Food Science dergisi ön plana çıkmaktadır. Gastronomi kavramının destinasyon çekiciliğinde ön planda olması ve stratejik bir unsur haline gelmesi mutfağın yalnızca kültürel bir unsur değil aynı zamanda deneyim ekonomisi, yiyecek bilimi ve destinasyon pazarlaması kavramlarıyla birlikte kullanıldığı görülmektedir [21].

Yapılan analiz doğrultusunda alanın büyük ölçüde Türkiye merkezli kurumlar ve yazarlar tarafından şekillendirildiğini göstermektedir. Bu noktada öne çıkan kurumların Gazi Üniversitesi ve Ankara Hacı Bayram Veli Üniversitesi olduğu; ayrıca öne çıkan yazarların ise Menekşe Çömert ve Betül Öztürk'ün olduğu anlaşılmaktadır. Bu noktada ortaya çıkan bir başka önemli sonuç ise uluslararası ortak yazarlı yayınların sınırlı düzeyde kalması, alanın küresel anlamda iş birliği potansiyelinin yeterince kullanılmadığı düşünülmektedir. Bibliyometrik çalışmaların bu eksikliği görme noktasında bir kılavuz olduğu ve etkiyi arttırıcı bir unsur olarak kullanıldığı bilinmektedir [22].

Yapılan analize göre literatürde anahtar kelime olarak "Turkish cuisine", "food" ve "gastronomy" kavramlarının merkezde yer aldığını göstermektedir. Bu durumda Türk mutfağı araştırmalarının yiyecek içecek tanıtımı ve ürün odaklı incelemesi özelinde yoğunlaştığı anlaşılmaktadır. Ayrıca tematik haritada "carbon footprint", "deep learning", "migration" gibi kavramların görülmesi, alanın sürdürülebilirlik, dijitalleşme ve göç çalışmalarıyla kesişmeye başladığını ortaya koymaktadır. Son yıllarda yapılan çalışmaların özellikle tüketim, karbon ayak izi gibi kavramların öne çıkması bu sonucu desteklemektedir [23].

Atıf analizine baktığımızda Türk mutfağı için erken dönem kabul edebileceğimiz 2009 yılında yapılan yayınların referans niteliğinde olduğu ve en çok atıf sayılarına ulaştığı görülmektedir. Bu durum bibliyometrik araştırmalarda sıklıkla görülen "erken dönem avantajı" ile açıklanabilir [24].

Bilindiği üzere Türk mutfak kültürü, yalnızca belirli sınırlar içerisinde değerlendirilemeyecek kadar çok katmanlıdır. Orta Asya'dan başlayarak Selçuklu, Osmanlı ve Cumhuriyet dönemlerini kapsayan süreçte; Kırım, Özbekistan, Azerbaycan ve Kırgızistan gibi geniş bir coğrafyaya yayılan ortak kültürel kodlar ve miraslar barındırmaktadır. Bu nedenle, gelecekte gerçekleştirilecek gastronomi temelli çalışmaların karşılaştırmalı mutfak incelemeleri biçiminde ele alınmasının hem dünya mutfakları hem de Türk mutfağı literatürüne önemli katkılar sağlayacağı düşünülmektedir.

Sonuç olarak, Türk mutfağı ve mutfak kültürüne yönelik gelecekte yapılacak çalışmalar, betimleyici ve yerel tanıtım düzeyinin ötesine geçmelidir. Araştırmaların odağına bellek, ritüel, kültürel sürdürülebilirlik, kimlik oluşturma ve göç hareketleri sonrasındaki mutfak uygulamaları gibi sosyolojik ve toplumsal işlev boyutlarının dâhil edilmesi; bu geniş yemek kültürü dünyasının tarihsel yayılımını ve sürekliliğini çok daha bütüncül bir biçimde kavramamıza olanak tanıyacaktır.

KAYNAKÇA

1. Ertaş, Y. , & Gezmen-Karadağ, M. (2013). Sağlıklı beslenmede Türk mutfak kültürünün yeri. *Gümüşhane Üniversitesi Sağlık Bilimleri Dergisi, 2*(1), 117–136.
2. Keleş, Y. , Akbaş, Y. Z. , & Canbolat, E. (2016). Gastronomi turizmi kapsamında Samsun mutfağına özgü turistik bir ürün: Bafra pidesi. *Journal of Tourism and Gastronomy Studies, 4*(4), 75–87. https://doi. org/10. 21325/jotags. 2016. 49
3. Şallı, G. (2025). Turkish cuisine: An ancient legacy from past to future. *Anemon Muş Alparslan Üniversitesi Sosyal Bilimler Dergisi, 13*(3), 2024–2060. https://doi. org/10. 18506/anemon. 1776031
4. Sarıkaya, E. (2019). Türk mutfak kültürünün şiire yansıması bağlamında Ravzî'nin Pilav Kasidesi. *RumeliDE Dil ve Edebiyat Araştırmaları Dergisi, 16*, 319–327. https://doi. org/10. 29000/rumelide. 618932
5. Varol, F. , & Nesimioğlu, İ. (2024). Somut olmayan kültürel miras (SOKÜM) kapsamında Türk kültürünün Türk mutfağına etkisi. *Kültürel Miras Araştırmaları, 5*(1), 32–39. https://doi. org/10. 59127/kulmira. 1526714
6. Yalçın, M. (2023). Türk yemek kültür mirasının coğrafyası, kaynağı ve evreleri. *Türk Tarihi Araştırmaları Dergisi, 8*(2), 128–142. https://doi. org/10. 56252/turktarars. 1317517
7. Bilge, B. , Demirbaş, N. , & Artukoğlu, M. (2019). Türkiye'de coğrafi işaretli gıda ürünlerinin gurme turizmi açısından önemi. *Tarım Ekonomisi Dergisi, 25*(1), 127–132. https://doi. org/10. 24181/tarekoder. 529715
8. Egresi, I. , & Buluç, M. (2016). Local gastronomy: A tasty tourist attraction in Turkey. In *Tourism and gastronomy* (pp. 229–246). https://doi. org/10. 1007/978-3-319-47537-0_14
9. Yılmaz, E. , Canbolat, C. , & Çilingir Ük, Z. (2021). Üreticilerin bakış açısından coğrafi işaretli bir yiyecek: Beypazarı kurusunun değerlendirilmesi. *İstanbul Gelişim Üniversitesi Sosyal Bilimler Dergisi, 8*(1), 145–166. https://doi. org/10. 17336/igusbd. 565312
10. Ademoğlu, A. (2024). Geçmişten günümüze tarhana: Türk mutfak kültürünün bir mirası. In *Küresel ekonomi ve işletmeler: Geleceğin trendleri*. Özgür Yayınları. https://doi. org/10. 58830/ozgur. pub565. c2526
11. Badem, A. , & Tuncer, A. (2021). Kırım Tatar mutfağının nitel olarak araştırılması: Cantık böreği örneği. *Journal of Tourism and Gastronomy Studies, 9*(5), 1–16. https://doi. org/10. 21325/jotags. 2021. 938
12. Özdemir, Ö. (2023). Tataristan mutfak kültürü. In A. Ademoğlu (Ed.), *Türk dünyası mutfak kültürü* (pp. 141–157). Nobel.
13. Solmaz, Y. , & Altıner, D. D. (2018). Türk mutfak kültürü ve beslenme alışkanlıkları üzerine bir değerlendirme. *Safran Kültür ve Turizm Araştırmaları Dergisi, 3*(1), 108–124.
14. Sormaz, Ü. , & Akturfan, M. (2024). Türk mutfağının gelişiminde coğrafi işaret alma özelliğinde olan geleneksel yemekler: Özbekistan örneği. *Artvin Çoruh Üniversitesi Uluslararası Sosyal Bilimler Dergisi*. https://doi. org/10. 22466/acusbd. 1529534
15. Irmak, Y. (2024). Türk kültüründe tören yemeklerine işlevsel bir yaklaşım. *Motif Akademi Halk Bilimi Dergisi*. https://doi. org/10. 12981/mahder. 1468557

16. Şimşek, A. , & Çelik Yeşil, S. (2022). Examining traditional winter preparations: The case of Bitlis cuisine. *Bitlis Eren Üniversitesi Sosyal Bilimler Dergisi, 11*(2), 277–288. https://doi. org/10. 47130/bitlissos. 1099555
17. Toraman, A. , & Yılmaz, A. (2025). Türkistan'dan Anadolu'ya Türk yemek kültüründe kurut. *Selçuklu Medeniyeti Araştırmaları Dergisi*. https://doi. org/10. 47702/sema. 2025. 60
18. Krasteva-Blagoeva, E. , & Bogueva, D. (2021). Balkan food cultures and traditions. In *Nutritional and health aspects of food in the Balkans* (pp. 21–33). Elsevier. https://doi. org/10. 1016/B978-0-12-820782-6. 00018-9
19. Aria, M. , & Cuccurullo, C. (2017). bibliometrix: An R-tool for comprehensive science mapping analysis. *Journal of Informetrics, 11*(4), 959–975. https://doi. org/10. 1016/j. joi. 2017. 08. 007
20. Okumus, B. , Kock, G. , Scantlebury, M. M. G. , & Okumus, F. (2013). Using local cuisines when promoting small Caribbean island destinations. *Journal of Travel & Tourism Marketing, 30*(4), 410–429.
21. Ellis, A. , Park, E. , Kim, S. , & Yeoman, I. (2018). What is food tourism? *Tourism Management, 68*, 250–263.
22. Donthu, N. , Kumar, S. , Mukherjee, D. , Pandey, N. , & Lim, W. M. (2021). How to conduct a bibliometric analysis: An overview and guidelines. *Journal of Business Research, 133*, 285–296.
23. Björk, P. , & Kauppinen-Räisänen, H. (2019). Destination foodscape: A stage for travelers' food experience. *Tourism Management, 71*, 466–475.
24. Zupic, I. , & Čater, T. (2015). Bibliometric methods in management and organization. *Organizational Research Methods, 18*(3), 429–472.

QLOBAL ÇAĞIRIŞLAR ŞƏRAİTİNDƏ DAVAMLİ TURİZM: İQTİSADİ VƏ GEOSİYASİ ROL

Sustainable Tourism in the Context of Global Challenges: Economic and Geopolitical Role

TƏHMİNƏ NƏSİBOVA
Tahmina Nasibova
tahmina. nasibova@mdu. edu. az
https://orcid. org/0009-0000-9756-984X
Mingəçevir Dövlət Universiteti
Mingachevir State University

XÜLASƏ

XXI əsrin ikinci onilliyindən etibarən qlobal iqtisadi böhranlar, pandemiyanın fəlakətli nəticələri, iqlim dəyişikliyinin güclənən təzahürləri və geosiyasi gərginliklər dünya turizm sektorunun fəaliyyət mühitini kökündən dəyişdirmişdir. Bu çoxşaxəli çağırışlar fonunda davamlı turizm anlayışı artıq yalnız ekoloji bir konsepsiya kimi deyil, həm iqtisadi inkişafın sürətləndirilməsi, həm də dövlətlərarası geosiyasi münasibətlərin yumşaldılması üçün strateji bir alət kimi tədqiqat mövzusuna çevrilmişdir. Metodlar: Tədqiqatda keyfiyyətli analitik metodologiyadan, müqayisəli ölkə araşdırmalarından (İspaniya, Tailand, Kostarika, Azərbaycan) və UNWTO, WEF, BMT-nin 2015-2024-cü illərə aid statistik məlumatlarının sistemli şəkildə nəzərdən keçirilməsindən istifadə edilmişdir. Geosiyasi aspektlər "yumşaq güc" (soft power) nəzəriyyəsi və "turizm diplomatiyası" çərçivəsindən qiymətləndiril-mişdir. Nəticələr: Araşdırma göstərir ki, davamlı turizm modelləri ənənəvi kütləvi turizmlə müqayisədə daha dayanıqlı, daha yüksək iqtisadi gəlir yaradan və yerli icmaları daha geniş şəkildə əhatə edən nəticələr verir. Eyni zamanda turizm, ikitərəfli diplomatik münasibətlərin gücləndirilməsində, regionlararası inteqrasiyanın sürətləndirilməsində və milli imic formalaşdırılmasında qiymətli bir vasitə rolunu oynayır. Nəticə: Davamlı turizm, qlobal çağırışlar şəraitində iqtisadi diversifikasiya və geosiyasi yumşalma üçün strateji bir platformadır. Azərbaycan bu sahədə mühüm potensial daşıyır; beynəlxalq standartlarla uyğunlaşdırılmış milli strategiyaların həyata keçirilməsi ölkənin turizm iqtisadiyyatını yeni keyfiyyət səviyyəsinə çıxara bilər.

Açar sözlər: *Davamlı turizm, geosiyasət, iqtisadi diversifikasiya, turizm diplomatiyası, qlobal çağırışlar.*

ABSTRACT

Since the second decade of the 21st century, global economic crises, the catastrophic consequences of the pandemic, the intensifying manifestations of climate change, and geopolitical tensions have fundamentally transformed the operating environment of the world tourism sector. Against the backdrop of these multifaceted challenges, the concept of sustainable tourism has evolved beyond being merely an ecological notion, becoming instead a strategic instrument for accelerating economic development and easing interstate geopolitical relations. The study employs qualitative analytical methodology, comparative country case studies (Spain, Thailand, Costa Rica, Azerbaijan), and a systematic review of statistical data from UNWTO, WEF, and the UN covering the years 2015–2024. Geopolitical aspects are assessed within the frameworks of "soft power" theory and "tourism diplomacy. "The research demonstrates that sustainable tourism models, compared to traditional mass tourism, yield more resilient outcomes, generate higher economic returns, and engage local communities more comprehensively. At the same time, tourism plays a valuable role in strengthening bilateral diplomatic relations, accelerating interregional integration, and shaping national image. Sustainable tourism represents a strategic platform for economic diversification and geopolitical easing under global challenges. Azerbaijan holds significant potential in this field; the implementation of national strategies aligned with international standards can elevate the country's tourism economy to a new qualitative level.

Keywords: *Sustainable Tourism, Geopolitics, Economic Diversification, Tourism Diplomacy, Global Challenges.*

GİRİŞ

Turizm sektoru son yarım əsr ərzində dünya iqtisadiyyatının ən dinamik sahələrindən biri kimi inkişaf etmişdir. UNWTO-nun məlumatlarına görə, 2019-cu ildə — yəni pandemiyadan əvvəlki pik nöqtədə — beynəlxalq turist sayı 1,5 milyard nəfərə çatmış, sektorun dünya ixracatındakı payı isə 7%-ə yüksəlmişdir [1]. Bu göstərici turizmi neft-qaz, kimya və avtomobil sektorlarından sonra dünyanın ən iri ixrac sektorlarından birinə çevirmişdir.

Lakin COVID-19 pandemiyası bu iqtisadi nəhəngi sarsıtdı. 2020-ci ildə beynəlxalq turist axını 74% azalmış, sektorun qlobal iqtisadiyyata zərəri 4,5 trilyon ABŞ dollarını keçmişdir [1]. Bu fəlakətin izi hələ də tam silinməmişdir; çünki pandemiya ilə paralel gedən geosiyasi gərginliklər, iqlim böhranı və enerji qiymətlərinin yüksəlişi sektoru yeni risklərə məruz qoymuşdur. Ukrayna-Rusiya münaqişəsinin ardından Avropanın turizm coğrafiyasında ciddi dəyişikliklər baş vermiş, enerji bahalaşması turizm xərclərini artırmışdır [2].

Bütün bu çağırışlar fonunda "davamlı turizm" (sustainable tourism) konsepsiyası yeni bir strateji əhəmiyyət kəsb etmişdir. Birləşmiş Millətlər Təşkilatının 2030-cu il üçün Dayanıqlı İnkişaf Məqsədlərinin (SDGs) bir neçəsi — xüsusilə 8-ci (Layiqli iş və iqtisadi artım), 11-ci (Davamlı şəhərlər və icmalar), 12-ci (Məsuliyyətli istehlak) və 14-cü (Su altındakı həyat) hədəflər — birbaşa turizm sektoru ilə əlaqəlidir [3]. Bu bağlantı göstərir ki, davamlı turizm yalnız bir sektor strategiyası deyil, daha geniş bir inkişaf modelinin ayrılmaz hissəsidir.

Geosiyasi baxımdan isə turizmin rolu son illərdə yenidən dəyərləndirilməyə başlanmışdır. Nay (2004) tərəfindən sistemləşdirilmiş "yumşaq güc" (soft power) nəzəriyyəsi çərçivəsindən baxıldıqda, turizm xalqlar arasında birbaşa mədəni əlaqə yaradan, stereotipləri dağıdan və ikitərəfli diplomatik münasibətlər üçün humanitar zəmin formalaşdıran bir mexanizmdir [4]. Bu xüsusilə geosiyasi gərginlik yaşayan bölgələrdə həlledici əhəmiyyət daşıyır.

Azərbaycan bu kontekstdə xüsusi bir tədqiqat predmeti kimi öne çıxır. Ölkə həm Şərq-Qərb, həm də Şimal-Cənub nəqliyyat-iqtisadi dəhlizlərinin kəsişdiyi strateji bir coğrafiyada yerləşir. 2022-2024-cü illər ərzində həyata keçirilən turizm islahatları, COP29-a ev sahibliyi (2024) və Şahdağ, İlham dağı kimi infrastruktur layihələri ölkənin turizm potensialını yeni bir səviyyəyə daşımışdır [5]. Bununla belə, bu potensialin tam reallaşması üçün sistemli bir strategiyaya ehtiyac duyulur.

Bu məqalənin məqsədi qlobal çağırışlar kontekstində davamlı turizmin iqtisadi və geosiyasi rolunu kompleks şəkildə araşdırmaq, müqayisəli ölkə təcrübələrini nəzərdən keçirmək və Azərbaycanın bu sahədəki imkanlarını qiymətləndirməkdir. Tədqiqat aşağıdakı əsas sualları əhatə edir: (1) Davamlı turizm modelləri iqtisadi sabitliyə necə töhfə verir? (2) Turizm geosiyasi gərginliklərin yumşaldılmasında hansı rolu oynayır? (3) Azərbaycan bu sahədə hansı strateji üstünlüklərə malikdir?

MATERİAL VƏ METODLAR

Bu tədqiqat keyfiyyətli (qualitative) araşdırma paradiqması üzərində qurulmuşdur. Davamlı turizmin iqtisadi və geosiyasi ölçülərinin mürəkkəbliyini əhatə etmək üçün seçilən bu yanaşma sənəd analizi, müqayisəli ölkə araşdırmaları və tematik sintez metodlarına söykənir. Araşdırmanın kəmiyyət bazasını formalaşdırmaq üçün UNWTO-nun 2015-2024-cü illər üzrə hesabatları, Dünya İqtisadi Forumunun (WEF) inkişaf indeksləri, BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri sənədləri, həmçinin Azərbaycan Dövlət Turizm Agentliyinin və Dünya Bankının 2010-2024-cü illəri əhatə edən statistik məlumatlarından istifadə edilmişdir. Keyfiyyət göstəriciləri üçün isə "Journal of Sustainable Tourism" və "Tourism Management" kimi nüfuzlu nəşrlərdəki elmi məqalələr və hökumət strategiyaları təhlil edilmişdir.

Müqayisəli analiz predmeti kimi dörd müxtəlif model seçilmişdir: Avropa təcrübəsini təmsil edən İspaniya, iqtisadi transformasiya nümunəsi kimi Tailand, ekoturizm üzrə qlobal lider

Kostarika və neftdən asılılığın azaldılması kontekstində Azərbaycan. Tədqiqatın nəzəri çərçivəsini geosiyasi aspektdən C. Nayın "yumşaq güc" və Salazarın "turizm diplomatiyası" konsepsiyaları, iqtisadi aspektdən isə R. Şarpleyin davamlı turizm iqtisadiyyatı modeli təşkil edir. Toplanmış məlumatlar tematik analiz metodu vasitəsilə sintez olunaraq deduktiv şəkildə qruplaşdırılmışdır.

Davamlı turizmin iqtisadi nəticələri: müqayisəli analiz

Tədqiqatın ilk əsas nəticəsi davamlı turizm modellərinin iqtisadi üstünlüyüdür. UNWTO məlumatlarına əsasən, eko-turizm və mədəni turizm sahəsindəki ziyarətçi xərclərinin orta göstəricisi kütləvi turizmlə müqayisədə 2,3-2,7 dəfə yüksəkdir [1]. Bu fərq yalnız həcm göstəricisi ilə izah edilmir; davamlı turizm modelləri eyni zamanda yerli sahibkarlığa, qida sistemlərinə, əl işləri sənayesinə və kənd turizminə daha çox pul axını yaradır.

Müqayisəli ölkə məlumatları aşağıdakı cədvəldə ümumiləşdirilmişdir:

Göstərici	İspaniya	Tailand	Kostarika	Azərbaycan
ÜDM-dəki turizm payı (%, 2023)	14,6	11,4	8,3	4,7
Beynəlxalq turist sayı (mln. , 2023)	85,1	28,1	3,3	3,1
Turizm gəlirləri (mlrd. $, 2023)	73,1	22,4	4,1	3,2
Turizm sektoru işçiləri (mln. nəfər)	2,8	4,3	0,3	0,2
Davamlı turizm siyasəti statusu	Qabaqcıl	İnkişaf mərhələsi	Qabaqcıl	İnkişafda
WEF TT Rəqabət İndeksi (2024, 100-dən)	87,4	72,1	65,8	58,3

Cədvəl 1. *Seçilmiş ölkələrdə turizm iqtisadi göstəriciləri (2023-cü il, UNWTO və WEF məlumatları əsasında)*

Cədvəldən göründüyü kimi, İspaniya kimi yüksək inkişaf etmiş turizm iqtisadiyyatlarında sektorun ÜDM-ə töhfəsi 14%-i keçir. Kostarika isə kiçik iqtisadiyyatına baxmayaraq davamlı turizm siyasəti sayəsində yüksək keyfiyyətli turizm gəliri əldə edir. Azərbaycanın 4,7%-lik göstəricisi isə sektorun hələ inkişaf potensialının tam reallaşmadığını göstərir.

İspaniyanın Bask ölkəsi modeli: davamlılıq-artım sintezi

İspaniyanın Bask ölkəsi regionu davamlı turizm siyasəti baxımından dünyada ən çox araşdırılan nümunələrdən biridir. 2010-2023-cü illər arasında həyata keçirilən "Basquetour Davamlı Turizm Strategiyası" çərçivəsində region turizmdən əldə etdiyi gəliri ÜDM-inin 18%-dən 27%-ə yüksəltmiş, eyni zamanda karbon emissiyasını 15% azaltmağa nail olmuşdur [11]. Bu nəticə iqtisadi artım ilə ekoloji davamlılığın bir-birini inkar etmədiyini, əksinə, bir-birini gücləndirilə bildiyini sübut edir.

Bask modelinin uğurunun arxasında bir neçə əsas faktor dayanır. Birincisi, yerli icmaların turizm planlamasına aktiv şəkildə cəlb edilməsi xidmət keyfiyyətini artırmış və "yerli autentiklik" brendinini qorumuşdur. İkincisi, gastroturizmin — xüsusilə "pintxos" mədəniyyəti ətrafında formalaşan qida turizminin — inkişafı məhsulların müxtəlifliyini artırmışdır. Üçüncüsü, turizm

infrastrukturunu enerjiyə qənaət edən texnologiyalarla inteqrasiyası iqtisadi rentabelliyi yüksəltmişdir.

Kostarikanın ekoturizm modeli

Kostarika, 5 milyon nüfusa malik kiçik bir Latın Amerikası ölkəsi olmasına baxmayaraq, qlobal ekoturizmin simvoluna çevrilmişdir. Ölkə dünya quru ərazisinin cəmi 0,03%-ni təşkil etdiyi halda, Yer kürəsinin bioloji müxtəlifliyinin təxminən 5%-inə ev sahibliyi edir [12]. Bu nadir ekoloji kapital dövlət tərəfindən sistemli şəkildə turizm aktivinə çevrilmişdir.

Kostarikanın turizm modelinin ən diqqətçəkici xüsusiyyəti onun ekoloji xidmətlər ödəmə sistemi (PES — Payment for Ecosystem Services) ilə turizm gəlirlərinin birləşdirilməsidir. Milli parklara daxilolma haqlarından əldə edilən gəlirin 50%-i birbaşa meşə qorunması fonduna yönəldilir. Bu mexanizm həm ekoloji davamlılığı, həm də uzunmüddətli turizm cəlbediciliyini eyni vaxtda qoruyur. Nəticədə ölkə 2023-cü ildə 3,3 milyon turist qəbul etmiş, turizm gəlirləri 4,1 mlrd. dollara çatmışdır [1].

Tədqiqatın ikinci əsas istiqaməti turizmin geosiyasi funksiyas ıdır. Turizm diplomatiyası nəzəriyyəsinə görə, xalqlar arasında birbaşa ünsiyyəti artıran turizm həm diplomatik gərginliklərin yumşaldılması, həm də ölkənin beynəlxalq imicininin gücləndirilməsi baxımından yumşaq güc alətinə çevrilə bilər [4,9]. Aşağıdakı cədvəl bu funksiyanın əsas mexanizmlərini ümumiləşdirir:

Geosiyasi funksiya	Mexanizm	Nümunə ölkə/hadisə
Diplomatik körpü yaratma	Humanitar əlaqələrin gücləndirilməsi	Azərbaycan-Gürcüstan turizm koridoru
Yumşaq güc proyeksiyası	Mədəniyyət və miras nümayişi	Fransa mədəni turizmi
İnteqrasiya katalizatoru	Regional iqtisadi birlik	ASEAN turizm zonası
Münaqişə sonrası bərpa	Turizm vasitəsilə normallaşma	Xorvatiya (1990-lar sonrası)
Beynəlxalq imicin formalaşması	Böyük tədbirlərin ev sahibliyi	Azərbaycan — COP29, Formula 1

Cədvəl 2. ***Turizmin geosiyasi funksiya mexanizmləri və nümunə hadisələr***

Cədvəldə göstərilən hallarda turizmin geosiyasi rolu birbaşa siyasi danışıqlardan fərqli olaraq, humanitar əlaqələr yoluyla həyata keçirilir. Bu yanaşmanın üstünlüyü ondan ibarətdir ki, o, resmi diplomatik proseslərə daha az həssasdır və uzunmüddətli sosial kapital yaradır.

Azərbaycanın turizm potensialı

Azərbaycan coğrafi, mədəni və tarixi cəhətdən son dərəcə zəngin bir turizm potensialına malikdir. Ölkənin ərazisindəki iqlim zonalarının müxtəlifliyindən (tropik subtropikdən Alp buzlaqlarına qədər 9 iqlim zonası), Qafqazın ən qədim mədəniyyət mərkəzlərindən olan Şirvanşahlar sarayından, UNESCO miras siyahısındakı Qobustan qaya rəsmlərindən, İpək Yolunun tarixi mərkəzlərindən hər biri özlüyündə turizm aktividir [5].

2022-2024-cü illər arasında AZTA-nın həyata keçirdiyi islahatlar çərçivəsində turizm iqtisadiyyatında bir sıra müsbət dəyişikliklər baş vermişdir: turizmdən ÜDM-ə töhfə 3,1%-dən 4,7%-ə yüksəlmiş, orta qalış müddəti 2,3 gecədən 3,1 gecəyə uzanmış, turizm sahəsindəki birbaşa istihdam 12% artmışdır [5]. Aşağıdakı cədvəl Azərbaycanın müxtəlif turizm növlərindəki mövcud vəziyyəti və potensialı ümumiləşdirir:

Turizm növü	Mövcud vəziyyət	Potensial	Strateji addım
Ekoturizm	İlkin mərhələ	Yüksək	Milli parkların inkişafı
Mədəni turizm	Orta inkişaf	Çox yüksək	UNESCO marşrutları
MICE turizmi	İnkişaf mərhələsi	Yüksək	Konqres infrastrukturu
Tibb turizmi	Zəif	Orta	Sanatoriya şəbəkəsi
Qış turizmi	Orta inkişaf	Yüksək	Şahdağ genişlənməsi
Qastroturizm	İlkin mərhələ	Yüksək	Milli mətbəx brendinqi

Cədvəl 3. ***Azərbaycanda turizm növlərinin mövcud vəziyyəti, potensialı və strateji inkişaf addımları***

Cədvəldən göründüyü kimi, Azərbaycanda ekoturizm, mədəni turizm, MICE turizmi və qış turizmi sahələrində yüksək potensial mövcuddur. Lakin bu potensialın reallaşması üçün kompleks siyasət tədbirləri, investisiya proqramları və beynəlxalq brend kommunikasiyası tələb olunur.

MÜZAKİRƏ

Davamlı turizm paradoksu: həm ən zərif, həm ən güclü

Tədqiqatın nəticələri ədəbiyyatda mövcud olan bir paradoksu açıq şəkildə ortaya qoyur: turizm böhranlardan ən çox zərər görən sektorlar arasında olduğu halda, bərpanın ön sıralarında da yenə turizm dayanır. 2008 qlobal maliyyə böhranından sonra İspaniyanın iqtisadi dirçəlişini turizm ihracatı əsasında qurması buna ən aydın nümunədir. Benidorm kimi kütləvi turizm mərkəzləri böhran dövründə iqtisadiyyatı ayaqda tutmuş, sonra isə davamlı turizm modelinə keçidin qıvılcımı olmuşdur [11].

Sharpley (2020) bu paradoksu "turizmin ikili xarakteri" adlandırır: sektor həm qlobal iqtisadi sistemin həssaslığını özündə əks etdirir, həm də bu sistemin bərpa dinamikasının lokomotivi funksiyasını yerinə yetirir [10]. Bizim araşdırmamız bu mövqeyi Azərbaycan kontekstinə şamil edərək genişləndirir: ölkənin qeyri-neft iqtisadiyyatı diversifikasiyasında turizmin artan payı bu paradoksun konstruktiv tərəfini reallaşdırmaq üçün ciddi bir fürsəti təmsil edir.

Geosiyasi yumşalmanın vasitəsi kimi turizm

Turizmin geosiyasi gərginliklərin azaldılmasındakı rolu ədəbiyyatda hələ kafi dərəcədə tədqiq edilməmişdir. Bu sahədəki ən əhəmiyyətli araşdırmalardan biri Pratt və Tolkach (2018)-in işidir: müəlliflər Cənub-Şərqi Asiya regionunda turizm axınları ilə ikitərəfli diplomatik münasibətlər arasında statistik cəhətdən mənalı müsbət korrelyasiya müəyyənləşdirmişlər [13]. Tailand-Myanma nümunəsi bunu nümayiş etdirir: ikiqat artım göstərən sərhəd turizmi hər iki ölkə vətəndaşları arasında mədəni yaxınlaşmanı sürətləndirmişdir.

Azərbaycan kontekstinə baxıldıqda isə ölkənin geosiyasi vəziyyəti turizm diplomatiyası üçün həm imkan, həm çağırış yaradır. Bir tərəfdən Azərbaycan Şərq-Qərb nəqliyyat dəhlizinin əsas qovşağında yerləşir; İpək Yolu turizminin canlandırılması regiona gələn turistləri çoxaldır, bu isə region haqqında müsbət imic formalaşdırır. Digər tərəfdən isə geosiyasi qeyri-sabitlik bölgəyə turizm axınını zəiflədə bilər. Bu ikili mövqeyin idarə edilməsi davamlı turizm strategiyasını hər zamankından daha vacib edir.

COP29-un turizm diplomatiyasına töhfəsi

Azərbaycanın 2024-cü ildə COP29-a ev sahibliyi etməsi ölkənin beynəlxalq turizm imicinə birbaşa müsbət təsir göstərmişdir. 190-dan çox ölkənin nümayəndələrini ağırlayan Azərbaycan, eyni zamanda ölkənin ekoloji davamlılıq öhdəliklərini dünyaya nümayiş etdirmişdir. Bu hadisə göstərir ki, böyük beynəlxalq tədbirlər yalnız birbaşa iqtisadi gəlir deyil, həm də uzunmüddətli turizm cəlbediciliyi baxımından strateji kapital yaradır [5].

Belə tədbirlərin turizm göstəricilərinə təsiri ölçmək üçün bir sıra tədqiqatlar aparılmışdır. Dwyer et al. (2009) böyük beynəlxalq tədbirlərin ev sahibi ölkənin turizm gəlirlərini orta hesabla hadisədən sonrakı 3-5 il ərzində 15-25% artırdığını müəyyənləşdirmişdir [14]. Bu tendensiya Azərbaycan üçün COP29-un uzunmüddətli turizm dividendini proqnozlaşdırmağa imkan verir.

"Turizm silahlanması" riski və davamlılıq

Müasir ədəbiyyatda turizmin geosiyasi alətin ötəsine keçərək bir "silaha" çevrilməsi riski də müzakirə olunur. Higgins-Desbiolles (2018) dövlətlərin turizmi geosiyasi nüfuz üçün instrumentallaşdırması hallalarını tənqid edir: bu cür yanaşma qısamüddətli geosiyasi qazanclar gətirsə də, uzunmüddətdə turizm sektoruna olan ictimai inamı sarsıdır [15]. "Overtourism" (həddindən artıq turizm) problemi isə bu riskdən birbaşa qaynaqlanır.

Lakin araşdırmamız göstərir ki, turizmin davamlı idarəedilməsi modeli bu riski əhəmiyyətli dərəcədə azaldır. Şəffaflıq, yerli icmaların qərar qəbuluna aktiv iştirakı, ekoloji yük daşıma həddinin (carrying capacity) ciddi nəzarəti və beynəlxalq davamlılıq sertifikatlara riayət — bu dörd prinsip turizm sektorunun siyasi manipulyasiyadan qorunmasının əsas vasitələridir. Kostarika bu baxımdan nümunəvi bir model təqdim edir: ölkə çox aktiv beynəlxalq geosiyasi mövqe tutmasına baxmayaraq, turizm siyasətini xarici geosiyasi məqsədlərden ayırmağa nail olmuşdur.

Azərbaycanın davamlı turizm strategiyasına dair tövsiyələr

Tədqiqatın nəticələri Azərbaycan üçün bir sıra strateji tövsiyəni ortaya qoyur. Birincisi, çoxşaxəli turizm portfelinin inkişafı prioritet olmalıdır: yalnız paytaxt mərkəzli turizmdən regionlar arası dağılmış turizm modelinə keçid həm iqtisadi effektin genişlənməsinə, həm də infrastruktur basqısının azalmasına kömək edər. İkincisi, rəqəmsallaşma turizmin bütün zəncirini — rezervasiyadan geri bildirimə qədər — əhatə etməlidir.

Üçüncüsü, Azərbaycanın İpək Yolu turizmi çərçivəsindəki regional əməkdaşlıq Gürcüstan və Ermənistan kimi qonşu ölkələri də əhatə etməklə genişləndirilə bilər; bu addım turizm diplomatiyasının ən konstruktiv formalarından biri olardı. Dördüncüsü, yerli icmaların turizm gəlirlərindən faydalanmasını artıran maliyyə mexanizmləri — vergi güzəştləri, mikrokreditlər, kooperativ modellər — davamlılığın sosial ölçüsünü gücləndirəcəkdir [10].

NƏTİCƏ

Bu tədqiqat, qlobal çağırışlar şəraitində davamlı turizmin iqtisadi və geosiyasi rolunu müqayisəli ölkə araşdırmaları əsasında kompleks şəkildə təhlil edərək bir sıra mühüm nəticələr ortaya qoymuşdur. Müəyyən edilmişdir ki, davamlı turizm modeli ənənəvi kütləvi turizmlə müqayisədə iqtisadi davamlılıq, yerli gəlir paylaşımı və uzunmüddətli brend dəyəri baxımından daha üstün nəticələr verir və xüsusilə xarici şoklar (iqlim, pandemiya, geosiyasi gərginlik) zamanı yüksək dözümlülük nümayiş etdirir. Eyni zamanda turizm, bir "yumşaq güc" mexanizmi kimi geosiyasi gərginliklərin yumşaldılmasına və milli imiclərin beynəlxalq miqyasda müsbət formalaşmasına strateji töhfə vermək iqtidarındadır.

Azərbaycanın yüksək turizm potensialı hələ tam reallaşmamışdır; bu sahədə ÜDM-ə töhfənin artırılması üçün regionların bərabər inkişafı və davamlılıq standartlarının tətbiqi zəruridir. Xüsusilə COP29 və Formula 1 kimi böyük beynəlxalq tədbirlər ölkənin turizm imicinə uzunmüddətli müsbət təsir göstərir ki, bu da hadisə əsaslı turizm strategiyasının inkişaf etdirilməsini şərtləndirir.

Baxmayaraq ki, turizmin "silahlanması" riski mövcuddur, şəffaflıq, icma iştirakı və yük daşıma normaları kimi davamlı idarəetmə prinsipləri bu riskləri minimuma endirməyə imkan verir. Gələcək tədqiqatlar üçün isə sosial kapital göstəricilərinin ölçülməsi, Cənubi Qafqazda turizm diplomatiyası və sektordakı qeyri-formal iqtisadiyyatın rəsmiləşdirilməsi istiqamətləri prioritet kimi tövsiyə olunur.

ƏDƏBİYYAT SİYAHISI

1. UNWTO. (2024). World Tourism Barometer. Vol. 22, Issue 1. Madrid: World Tourism Organization.
2. European Travel Commission. (2023). European Tourism 2022-2023: Trends & Prospects. Brussels: ETC.
3. United Nations. (2015). Transforming Our World: The 2030 Agenda for Sustainable Development (A/RES/70/1). New York: UN.
4. Nye, J. S. (2004). Soft Power: The Means to Success in World Politics. New York: Public Affairs.
5. Azərbaycan Dövlət Turizm Agentliyi (AZTA). (2024). 2023-cü il üzrə Azərbaycan Turizm Statistikası. Bakı: AZTA.
6. UNWTO. (2023). Tourism Highlights 2023 Edition. Madrid: World Tourism Organization.
7. World Economic Forum. (2024). Travel and Tourism Development Index 2024. Geneva: WEF.
8. World Bank. (2024). Azerbaijan Economic Update: Navigating Transition. Washington D. C. : World Bank Group.
9. Salazar, N. B. (2010). Tourism and cosmopolitanism: A view from below. International Journal of Tourism Anthropology, 1(1), 55–69.
10. Sharpley, R. (2020). Tourism, sustainable development and the theoretical divide: 20 years on. Journal of Sustainable Tourism, 28(11), 1932–1946.
11. Basquetour. (2023). Basque Country Sustainable Tourism Annual Report 2022-2023. Bilbao: Basque Tourism Board.
12. INBio – Instituto Nacional de Biodiversidad. (2022). Biodiversity in Costa Rica: Facts and Figures. San José: INBio.
13. Pratt, S. & Tolkach, D. (2018). The politics of tourism statistics. International Journal of Tourism Research, 20(3), 299–307.
14. Dwyer, L. , Forsyth, P. , & Spurr, R. (2009). Tourism's contribution to a state economy: A multi-regional general equilibrium analysis. Tourism Economics, 15(4), 785–803.
15. Higgins-Desbiolles, F. (2018). The potential for justice through tourism. Via Tourism Review, 13. https://doi. org/10. 4000/viatourism. 1476
16. Mbaiwa, J. E. (2011). The effects of tourism development on the sustainable utilisation of natural resources in the Okavango Delta, Botswana. Current Issues in Tourism, 14(3), 251–273.
17. Bramwell, B. & Lane, B. (2011). Critical research on the governance of tourism and sustainability. Journal of Sustainable Tourism, 19(4–5), 411–421.
18. Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi (SAM). (2024). COP29 sonrası Azərbaycanın beynəlxalq imic kapitalı: turizm perspektivi. Analitik hesabat. Bakı: SAM.

DAYANIQLI TURİZMİN FORMALAŞMASI VƏ İNKİŞAFININ İQTİSADİ MODELLƏRİ

Economic Models of the Formation and Development of Sustainable Tourism

QƏHRƏMAN BAYRAMOV[1]
Qahraman Bayramov[1]
Gahraman_Bayramov@unec. edu. az
https://orcid. org0000-0003-1328-6549

NƏRGİZ ƏLİYEVA[1]
Nargiz Aliyeva[1]
avesis. unec. edu. az/n. aliyeva/topics

[1]*Azərbaycan Dövlət İqtisad Universiteti*
[1]*Azerbaijan State University of Economics*

XÜLASƏ

Məqalədə dayanıqlı turizmin formalaşması və inkişafı iqtisadi modellər prizmasından araşdırılır. Tədqiqatın əsas məqsədi turizmin yalnız gəlir və məşğulluq yaradan sahə kimi deyil, həm də resurslardan səmərəli istifadəni, yerli icmaların rifahını, mədəni irsin qorunmasını və uzunmüddətli rəqabət qabiliyyətini birləşdirən kompleks iqtisadi sistem kimi izah edilməsidir. Bu məqsədlə yaşıl artım, dairəvi iqtisadiyyat, klaster yanaşması, inklüziv dəyər zənciri, platforma iqtisadiyyatı və regenerativ turizm modelləri müqayisəli şəkildə təhlil olunur. Məqalədə göstərilir ki, dayanıqlı turizm modelinin effektivliyi investisiya həcmi ilə yanaşı, idarəetmə keyfiyyətindən, statistik ölçmə sistemindən, yerli bizneslərin dəyər zəncirinə qoşulmasından və ekoloji xərclərin qiymət mexanizmlərinə daxil edilməsindən asılıdır. Rəsmi beynəlxalq mənbələrin məlumatları əsasında turizmin qlobal bərpası, iqtisadi töhfəsi və resurs təzyiqi vizual şəkildə təqdim edilir. Nəticə olaraq vurğulanır ki, dayanıqlı turizm üçün ən uyğun yanaşma vahid modelin mexaniki tətbiqi deyil, destinasiya xüsusiyyətlərinə uyğun hibrid iqtisadi modelin qurulmasıdır. Belə model dövlət siyasəti, özəl sektor təşəbbüsləri, icma maraqları və ölçülə bilən göstəricilər arasında tarazlıq yaratmalıdır. Araşdırma həm nəzəri, həm də praktik baxımdan turizm strategiyalarının hazırlanmasına töhfə verir, çünki iqtisadi səmərə ilə ekoloji məsuliyyətin eyni planlaşdırma çərçivəsində qiymətləndirilməsini əsaslandırır. Məqalənin nəticələri destinasiya menecerləri, sahibkarlar və siyasət qurucuları üçün tətbiqi əhəmiyyət daşıyır və qərar qəbulunu daha şəffaf, əsaslı, çevik, ölçüləbilən və nəticəyönlü edir, maliyyə dayanıqlığını strateji sistemli gücləndirir.

Açar sözlər: *Dayanıqlı turizm; yaşıl iqtisadiyyat; dairəvi model; klaster yanaşması; destinasiya idarəetməsi.*

ABSTRACT

The article examines the formation and development of sustainable tourism through the prism of economic models. The main purpose of the study is to explain tourism not only as a sector that generates income and employment, but also as a complex economic system that combines efficient use of resources, the welfare of local communities, the preservation of cultural heritage and long-term competitiveness. For this purpose, the models of green growth, the circular economy, the cluster approach, the inclusive value chain, the platform economy and regenerative tourism are comparatively analyzed. The article shows that the effectiveness of a sustainable tourism model depends not only on the volume of investment, but also on the quality of governance, the statistical measurement system, the integration of local businesses into the value chain and the inclusion of environmental costs in pricing mechanisms. Based on data from official international sources, the global recovery of tourism, its economic contribution and resource pressure are presented visually. As a result, it is emphasized that the most appropriate approach for sustainable tourism is not the mechanical application of a single model, but the construction of a hybrid economic model adapted to the characteristics of the destination. Such a model should create a balance among public policy, private sector initiatives, community interests and measurable indicators. The study contributes to the development of tourism strategies from both theoretical and practical perspectives, as it substantiates the assessment of economic efficiency and environmental responsibility within the same planning framework. The findings of the article have practical significance for destination managers, entrepreneurs and policymakers, making decision-making more transparent, evidence-based, flexible, measurable and results-oriented, while strategically and systematically strengthening financial sustainability.


Keywords: *sustainable tourism; green economy; circular model; cluster approach; destination management.*

GİRİŞ

Turizm XXI əsrdə xidmət ixracı, regional məşğulluq, mədəni irsin kommersiyalaşdırılması və ərazi inkişafı baxımından ən dinamik iqtisadi sahələrdən biridir. Pandemiyadan sonra beynəlxalq turist axınlarının sürətlə bərpa olunması göstərdi ki, sektor qlobal şoklara həssas olsa da, düzgün idarə edildikdə yenidən iqtisadi artım yarada bilir. UN Tourism məlumatlarına görə, 2024-cü ildə beynəlxalq turist gəlişləri 1,4 milyard nəfərə çatmış və 2019 səviyyəsinin təxminən 99 faizinə yaxınlaşmışdır (UN Tourism, 2025b, para. 1). Bu göstərici sektorun bərpa potensialını nümayiş etdirir, lakin destinasiya yükü, resurs istehlakı, karbon izi və yerli icmaların sosial balansı kimi məsələləri daha kəskin gündəmə gətirir.

Dayanıqlı turizm anlayışı yalnız ekoloji çağırışlara cavab vermək üçün formalaşmamışdır. O, iqtisadi səmərəlilik, sosial ədalət və mədəni davamlılıq arasında idarə olunan tarazlıq yaratmağa yönəlmiş inkişaf çərçivəsidir. UN Tourism-in yanaşmasına əsasən, dayanıqlı turizm indiki və gələcək iqtisadi, sosial və ekoloji təsirləri nəzərə almalı, ziyarətçilərin, sənayenin, ətraf mühitin və qəbul edən icmaların ehtiyaclarını uzlaşdırmalıdır (UN Tourism, 2025a, para. 1). Bu baxımdan mövzu xidmət iqtisadiyyatı, iqlim dəyişmələri və rəqəmsal transformasiya ilə birgə qiymətləndirilməlidir.

Tədqiqatın vacibliyi ondan ibarətdir ki, turizm çox vaxt qısa müddətli gəlir və turist sayı ilə ölçülür. Halbuki dayanıqlı inkişaf üçün əsas sual turist sayının nə qədər artması deyil, yaradılan dəyərin ərazidə necə bölüşdürülməsi, ekoloji xərclərin necə kompensasiya olunması və yerli iqtisadiyyatın bu prosesdən nə qədər faydalanmasıdır. Məqalədə müqayisəli təhlil və rəsmi mənbələrin interpretasiyası əsasında dayanıqlı turizmin iqtisadi modelləri sistemləşdirilir.



Qrafik 1. Qlobal beynəlxalq turist gəlişlərinin bərpa dinamikası, 2019-2025

Mənbə: *UN Tourism və World Bank məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir (UN Tourism, 2025b; World Bank, 2025).*

1. Dayanıqlı turizmin nəzəri-iqtisadi mahiyyəti

Dayanıqlı turizm turizm məhsulunun istehsalı və istehlakı prosesində yaranan iqtisadi faydanı uzunmüddətli sosial və ekoloji məhdudiyyətlərlə əlaqələndirir. Klassik yanaşmada turist sayı, gecələmə, otel doluluğu və xərcləmə həcmi əsas götürülürdüsə, müasir yanaşmada əlavə dəyərin lokal qalma dərəcəsi, mövsümilik riski, su və enerji tutumu, tullantı yükü, iş yerlərinin keyfiyyəti və mədəni irsin qorunması da vacibdir.

İqtisadi model dedikdə turizm resurslarının gəlirə çevrilməsi, gəlirin bölgüsü, xərclərin kompensasiyası və gələcək inkişaf üçün investisiya mənbələrinin yaradılması mexanizmi başa düşülür. Dayanıqlı modelin fərqi ondadır ki, o, yalnız bazar tələbinə deyil, daşıma qabiliyyətinə, ictimai rifaha və təbii kapitalın qorunmasına da əsaslanır.

Turizmin iqtisadi dayanıqlığı üç şərtdən asılıdır: gəlirlərin diversifikasiyası, yerli dəyər zəncirinin gücləndirilməsi və ekoloji xərclərin iqtisadi qərarlara daxil edilməsi. Əgər turizm yalnız bir bazardan və ya bir mövsümdən asılı qalırsa, xarici şoklar destinasiya gəlirlərini tez zəiflədir. Əgər yerli təchizatçılar prosesə qoşulmursa, turizm gəliri ərazidə kifayət qədər qalmır.

OECD-nin 2024-cü il turizm siyasəti icmalında vurğulanır ki, bərpa dövründən sonra sektorun əsas çağırışı daha davamlı, inklüziv və gələcəyə yönəlmiş siyasət mexanizmlərinin qurulmasıdır [4]. Bu yanaşma dayanıqlı turizmin yalnız biznes qərarı deyil, dövlət, bazar və icma arasında koordinasiya tələb edən iqtisadi idarəetmə sahəsi olduğunu göstərir.

1. Cədvəl 1. Dayanıqlı turizmin əsas iqtisadi modellərinin müqayisəsi

Model	İqtisadi məntiq	Üstünlük	Risk	Göstərici
Yaşıl artım	Enerji, su və tullantı xərclərinin azaldılması	Xərcləri azaldır, brendi gücləndirir	Yüksək ilkin investisiya	Enerji sərfi, karbon intensivliyi
Dairəvi iqtisadiyyat	Resursların yenidən istifadəsi və tullantının dəyərə çevrilməsi	Təchizatçılar arasında sinerji yaradır	Logistika və standart problemi	Təkrar emal, ərzaq itkisi
Klaster modeli	Biznes, təhsil, dövlət və icma aktorlarının əməkdaşlığı	Regional ixtisaslaşmanı artırır	Koordinasiya zəif ola bilər	Yerli məşğulluq, birgə layihələr
İnklüziv dəyər zənciri	Gəlirin kiçik sahibkarlara və icmalara ötürülməsi	Sosial legitimlik yaradır	Keyfiyyət standartı tələb edir	Yerli alış payı, icma gəliri
Regenerativ model	Təbii və mədəni kapitalın bərpası	Uzunmüddətli dayanıqlığı gücləndirir	Ölçülməsi mürəkkəbdir	Bərpa olunan ərazi, məmnunluq

Mənbə: UN Tourism (2025a), OECD (2024), UNEP (2018), Weaver (2006) və Sharpley (2009) əsasında müəllif tərəfindən tərtib edilmişdir.

2. Əsas iqtisadi modellər və tətbiq imkanları

Yaşıl artım modeli turizm sektorunda məhsuldarlığın ekoloji səmərəlilik hesabına artırılmasını nəzərdə tutur. Otellərdə enerji qənaəti, günəş panelləri, ağıllı isitmə-soyutma sistemləri və suya qənaət avadanlığı ilk mərhələdə xərc kimi görünür, lakin orta müddətdə əməliyyat xərclərini azaldır. Bu model ekoloji məsuliyyəti maliyyə səmərəsi ilə birləşdirdiyi üçün bazar yönümlü tətbiq potensialına malikdir.


Dairəvi iqtisadiyyat modeli turizm məhsulunun bütün həyat dövrünü nəzərə alır. Restoranlarda ərzaq itkisinin azaldılması, otellərdə plastik istehlakının məhdudlaşdırılması və yerli fermerlərlə geri qaytarılan qablaşdırma sistemləri bu modelin praktiki elementləridir. UNEP-in qiymətləndirməsinə görə, adi inkişaf ssenarisi davam edərsə, 2050-yə qədər turizmin enerji istehlakı, su istifadəsi və tullantı həcmi kəskin arta bilər (United Nations Environment Programme, 2018, para. 4).

Klaster modeli turizm iqtisadiyyatını ayrı-ayrı obyektlərin cəmi kimi deyil, qarşılıqlı əlaqədə olan müəssisələr sistemi kimi izah edir. Otellər, restoranlar, nəqliyyat şirkətləri, muzeylər, təhsil müəssisələri və bələdiyyələr eyni inkişaf gündəliyi ətrafında birləşdikdə xərclər azalır, məhsul çeşidi artır və innovasiya sürətlənir. Klaster yanaşmasının əsas üstünlüyü turizm gəlirlərinin ətraf sahələrə yayılmasıdır.

İnklüziv dəyər zənciri və platforma modeli sosial-iqtisadi iştirak məsələsini önə çıxarır. Yerli sakinlər yalnız aşağı maaşlı işçi kimi deyil, məhsul və xidmət yaradan tərəfdaş kimi iştirak etdikdə turizm gəlirinin ərazidə qalma faizi yüksəlir. Rəqəmsal platformalar isə tələbi real vaxtda izləməyə, qiymətləri çevik idarə etməyə və ziyarətçi axınını məkan üzrə bölməyə imkan verir. Bununla belə,

qısa müddətli kirayə bazarı kimi sahələr tənzimlənmədikdə sosial risk yarada bilər.

Regenerativ turizm modeli dayanıqlılığın daha iddialı mərhələsidir. Bu model zərəri azaltmaqla kifayətlənmir, destinasiya ekosisteminin və icma kapitalının bərpasını hədəfləyir. Turist vergisinin bir hissəsinin tarixi abidələrin bərpasına, dağ cığırlarının qorunmasına və yerli təlim proqramlarına yönəldilməsi regenerativ yanaşmanın praktik nümunəsi sayıla bilər.



Qrafik 2. Səyahət və turizmin qlobal ÜDM-ə töhfəsi, 2023-2025

Mənbə: *WTTC Economic Impact Research və Reuters məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir (Reuters, 2024; World Travel & Tourism Council, 2025).*

3. Ölçmə sistemi: göstəricilər, hesablılıq və qərarvermə

Dayanıqlı turizmin iqtisadi modelləri yalnız konseptual səviyyədə deyil, ölçmə sistemi ilə də əsaslandırılmalıdır. Ölçmə olmadıqda strategiya sənədləri ilə real nəticələr arasında boşluq yaranır. Buna görə turist gəlişləri və gəlir göstəriciləri ekoloji yük və sosial təsir indikatorları ilə tamamlanmalıdır.

BMT Statistika Komissiyası tərəfindən 2024-cü ildə dəstəklənmiş Measuring the Sustainability of Tourism çərçivəsi turizmin iqtisadi, sosial və ekoloji ölçülərinin rəsmi statistik sistemlərlə əlaqələndirilməsini nəzərdə tutur (UN Tourism, 2024, para. 2). Bu yanaşma dayanıqlı turizmi subyektiv qiymətləndirmədən çıxararaq müqayisə edilə bilən göstəricilər sisteminə daxil edir.

Turizm Direct GDP sektorun iqtisadi töhfəsini ölçmək üçün əhəmiyyətlidir, lakin təkbaşına dayanıqlılığı izah etmir. Eyni ÜDM töhfəsinə malik iki destinasiya fərqli ekoloji iz, əmək şəraiti və gəlir bölgüsü yarada bilər. Bu səbəbdən turist başına su istehlakı, gecələmə başına enerji sərfi, yerli təchizat payı və yerli sakinlərin məmnunluğu birlikdə izlənməlidir.

Ölçmə sisteminin iqtisadi funksiyası qərarverməni optimallaşdırmaqdır. Yüksək gəlir yaradan, lakin su çatışmazlığını dərinləşdirən məhsula limitsiz təşviq verilməsi düzgün deyil. Əksinə, az resurs tutumu ilə yüksək əlavə dəyər yaradan mədəni, sağlamlıq, təhsil və kənd turizmi məhsulları prioritetləşdirilə bilər.

Cədvəl 2. Dayanıqlı turizm modellərinin qiymətləndirilməsi üçün göstəricilər sistemi

Ölçü	Göstərici nümunələri	Funksiya	Şərh
İqtisadi nəticə	Tourism Direct GDP, orta xərcləmə, yerli təchizat payı	Ərazi iqtisadiyyatına real töhfəni göstərir	ÜDM yerli gəlir bölgüsü ilə şərh olunmalıdır
Ekoloji yük	Su istehlakı, enerji sərfi, tullantı həcmi, karbon izi	Resurs səmərəliliyini ölçür	Obyektlər üzrə məlumat toplamaq çətin ola bilər
Sosial təsir	Yerli məşğulluq, icma məmnunluğu,	Turizmin legitimli-yini göstərir	Sorğu metod-ologiyası standart

	mədəni irsin qorunması		olmalıdır
Məkan idarəetməsi	Daşıma qabiliyyəti, sıxlıq indeksi, mövsümilik	Overtourism riskini müəyyən edir	Real vaxt məlumatları tələb edir
İnnovasiya	Rəqəmsal satış payı, yeni məhsullar, kadr hazırlığı	Rəqabətliliyi qiymətləndirir	Nəticə gecikmə ilə görünə bilər

Mənbə: UN Tourism (2024), OECD (2024) və WTTC (2025) məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.



Qrafik 3. Business-as-usual ssenarisində turizmin resurs təzyiqi, 2050-yə qədər artım proqnozu

Mənbə: *UNEP-in turizm və resurs effektivliyi üzrə qiymətləndirməsi əsasında müəllif tərəfindən tərtib edilmişdir (United Nations Environment Programme, 2018, para. 4).*

4. Model seçiminə təsir edən iqtisadi amillər

Destinasiya üçün uyğun iqtisadi modelin seçilməsi onun təbii resurslarından, bazar mövqeyindən, infrastruktur səviyyəsindən, institusional gücündən və yerli icmanın iştirak imkanlarından asılıdır. Dağlıq ərazilərdə daşıma qabiliyyəti və ekosistem həssaslığı önə çıxdığı halda, şəhər destinasiyasında nəqliyyat, qısa müddətli kirayə və mədəni məkanların yüklənməsi daha mühüm ola bilər.

Maliyyə mexanizmləri model seçiminin mərkəzində dayanır. Yaşıl kreditlər, güzəştli lizinq, enerji səmərəliliyi subsidiyaları, turist vergisi, ekoloji rüsumlar və nəticəyə əsaslanan qrantlar dayanıqlı turizmin iqtisadi əsasını formalaşdıra bilər. Əgər stimul sistemi yalnız yataq sayı və turist axınına bağlıdırsa, bizneslər keyfiyyətdən çox həcm artımına üstünlük verəcək.

Qiymət mexanizmi dayanıqlılığın həssas alətlərindən biridir. Turizm məhsulunun qiymətində ekoloji və sosial xərclər nəzərə alınmadıqda, bazar həddindən artıq istehlakı təşviq edir. Buna görə diferensial tariflər, minimum ekoloji standartlar və sertifikatlaşdırma sistemləri bazar siqnallarını düzgün istiqamətə yönəltməlidir.

İnsan kapitalı və risklərin idarə edilməsi model seçiminə daxil edilməlidir. Turizm xidmətinin keyfiyyəti kadr hazırlığı, dil bilikləri, rəqəmsal bacarıqlar və qonaqpərvərlik standartları ilə bağlıdır. Pandemiya, geosiyasi gərginlik, enerji qiymətləri və iqlim hadisələri isə gəlirləri qısa müddətdə azalda bilər. Diversifikasiya və daxili turizm bazarının inkişafı bu riskləri yumşaldır.

Cədvəl 3. Dayanıqlı turizm üçün iqtisadi alətlər və uyğun modellər

Alət	İqtisadi təsir mexanizmi	Uyğun model	Tətbiq şərti
Turist vergisi	Yüksək axının yaratdığı yükü bərpa fonduna yönəldir	Regenerativ və yaşıl artım	Gəlir şəffaf xərclənməlidir
Yaşıl kredit	Enerji və su səmərəliliyi investisiyasını sürətləndirir	Yaşıl artım	Nəticəyə bağlı olmalıdır
Yerli təchizat təşviqi	Turizm xərcləməsini ərazidə saxlayır	İnklüziv dəyər zənciri	Keyfiyyət standartı qurulmalıdır
Klaster platforması	Biznes, təhsil, dövlət və icmanı əlaqələndirir	Klaster modeli	Liderlik və koordinasiya lazımdır
Rəqəmsal monitorinq	Ziyarətçi sıxlığını operativ idarə edir	Platforma modeli	Məlumat məxfiliyi qorunmalıdır
Sertifikatlaşdırma	Bazarda etibar siqnalı yaradır	Bütün modellər	Audit müstəqil olmalıdır

Mənbə: UN Tourism (2025a), OECD (2024), UNEP (2018), Weaver (2006) və Sharpley (2009) əsasında müəllif tərəfindən tərtib edilmişdir.

5. Müzakirə: hibrid modelin üstünlüyü

Praktik təhlil göstərir ki, dayanıqlı turizm üçün vahid universal iqtisadi model yoxdur. Hər destinasiya öz resurs bazasına, sosial strukturuna və bazar mövqeyinə uyğun kombinasiyadan istifadə etməlidir. Təbiət turizmi potensialı yüksək olan ərazi üçün yaşıl artım və regenerativ model, tarixi şəhərlər üçün isə axın idarəetməsi və mədəni irsin qorunması daha prioritet ola bilər.

Hibrid modelin üstünlüyü ondan ibarətdir ki, iqtisadi səmərə ilə məhdudiyyətləri eyni vaxtda nəzərə alır. Turist sayı artdıqca gəlir yüksələ bilər, lakin infrastruktur və ekoloji yük də artır. Bu ziddiyyət idarə olunan qiymət, investisiya və göstərici sistemi ilə həll edilə bilər.

Dövlətin rolu bazarı əvəz etmək deyil, bazar üçün düzgün qaydalar yaratmaqdır. Dövlət statistik sistem, infrastruktur, standartlar və təşviq mexanizmləri ilə çərçivə qurur; özəl sektor məhsul və investisiya ilə dəyər yaradır; yerli icmalar isə destinasiya kimliyinin və sosial legitimliyin daşıyıcısı kimi çıxış edir.

Turistə yalnız gözəl mənzərə və rahat xidmət deyil, məsuliyyətli seçim təklif edilməlidir. Sertifikatlı otellər, yerli məhsul menyuları, aşağı karbonlu nəqliyyat və icma əsaslı təcrübələr düzgün təqdim edildikdə turistin ödəmə istəyi artır. Bu isə dayanıqlılığı əlavə xərcdən rəqabət üstünlüyünə çevirir.

NƏTİCƏ

Dayanıqlı turizmin formalaşması və inkişafı yalnız ekoloji şüar kimi deyil, iqtisadi model məsələsi kimi dəyərləndirilməlidir. Məqalədə aparılan təhlil göstərir ki, yaşıl artım, dairəvi iqtisadiyyat, klaster yanaşması, inklüziv dəyər zənciri, platforma modeli və regenerativ turizm müxtəlif şəraitlərdə fərqli üstünlüklər yaradır. Lakin bu modellərin heç biri təkbaşına bütün destinasiya problemlərini həll etmir.

Əsas nəticə ondan ibarətdir ki, ən səmərəli yanaşma hibrid modeldir. Bu model iqtisadi gəliri yerli dəyər zəncirinə bağlamalı, ekoloji xərcləri qiymət və investisiya qərarlarına daxil etməli, icma

maraqlarını idarəetmə mexanizminə çevirməli və nəticələri rəsmi göstəricilər vasitəsilə ölçməlidir. Praktik olaraq resurs səmərəliliyinə bağlı maliyyə stimulları, yerli təchizatın gücləndirilməsi, rəqəmsal axın monitorinqi, peşə təlimləri və şəffaf bərpa fondları prioritet hesab olunmalıdır.

ƏDƏBİYYAT SİYAHISI

1. OECD. (2024). *OECD tourism trends and policies 2024*. OECD Publishing. https://www. oecd. org/en/publications/oecd-tourism-trends-and-policies-2024_80885d8b-en. html
2. Reuters. (2024, September 3). *Travel industry to contribute record $11 trillion to global GDP in 2024*. https://www. reuters. com/business/travel-industry-contribute-record-11-trillion-global-gdp-2024-2024-09-03/
3. Sharpley, R. (2009). *Tourism development and the environment: Beyond sustainability?* Earthscan.
4. UN Tourism. (2024). *Statistical framework for measuring the sustainability of tourism*. https://www. untourism. int/tourism-statistics/statistical-framework-for-measuring-the-sustainability-of-tourism
5. UN Tourism. (2025a). *Sustainable development: Tourism that takes full account of current and future economic, social and environmental impacts*. https://www. untourism. int/sustainable-development
6. UN Tourism. (2025b). *International tourism recovers pre-pandemic levels in 2024*. https://www. untourism. int/news/international-tourism-recovers-pre-pandemic-levels-in-2024
7. United Nations Environment Programme. (2018). *Tourism and resource efficiency: Responsible industry*. https://www. unep. org/explore-topics/resource-efficiency/what-we-do/responsible-industry/tourism
8. Weaver, D. (2006). *Sustainable tourism: Theory and practice*. Butterworth-Heinemann.
9. World Bank. (2025). *International tourism, number of arrivals*. World Bank Data. https://data. worldbank. org/indicator/ST. INT. ARVL
10. World Travel & Tourism Council. (2025). *Travel & tourism economic impact research*. https://wttc. org/research/economic-impact

TURİZMİN İNKİŞAFINDA RƏQƏMSAL PLATFORMALARIN ROLU

The Role of Digital Platforms in The Development of Tourism

VÜSALƏ MİRZƏYEVA
Vusala Mirzayeva
vusala. mirzayeva@mdu. edu. az
https://orcid. org/0009-0009-5288-3531
Mingəçevir Dövlət Universiteti
Mingachevir State University

XÜLASƏ

Tədqiqatda turizmin inkişafında rəqəmsal platformaların rolu və onların müasir turizm fəaliyyətinə təsiri araşdırılır. Son illərdə informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı turizm sektorunda ciddi struktur dəyişikliklərinə səbəb olmuşdur. Xüsusilə rəqəmsallaşma insanların səyahət davranışını və qərarvermə prosesini əhəmiyyətli dərəcədə dəyişmişdir. Hazırda turistlər səyahət planlamasında ənənəvi vasitələrdən daha çox onlayn platformalara üstünlük verirlər. Rəqəmsal platformalar istifadəçilərə geniş məlumat bazasına çıxış imkanı yaradır, müxtəlif turizm istiqamətlərini müqayisə etməyə şərait yaradır və seçim prosesini daha çevik və rahat edir. Sosial media platformaları, onlayn bronlaşdırma sistemləri və istifadəçi rəyləri turistlərin seçimlərinə birbaşa təsir göstərən əsas amillərdən hesab olunur. Bu vasitələr həm də turizm məhsullarının daha şəffaf şəkildə təqdim olunmasına imkan verir. Araşdırma nəticələri göstərir ki, rəqəmsal platformalar yalnız turistlər üçün deyil, eyni zamanda turizm müəssisələri üçün də geniş imkanlar açır. Şirkətlər rəqəmsal kanallar vasitəsilə daha geniş auditoriyaya çıxış əldə edir, marketinq fəaliyyətini daha səmərəli qurur və rəqabət qabiliyyətini artırır. Bununla yanaşı, rəqəmsal platformalar turizm sektorunda innovativ yanaşmaların formalaşmasına da təkan verir. Fərdiləşdirilmiş xidmətlər, real vaxt məlumat mübadiləsi və smart turizm modelləri bu prosesin əsas istiqamətlərindəndir. Nəticə olaraq, rəqəmsal platformaların turizmin inkişafında mühüm transformativ rol oynadığı və sektorun gələcək inkişaf istiqamətlərini müəyyənləşdirdiyi qənaətinə gəlmək mümkündür.

Açar sözlər: *Rəqəmsal platformalar, turizm inkişafı, onlayn bronlaşdırma, sosial media, smart turizm, turist davranışı.*

ABSTRACT

This study examines the role of digital platforms in the development of tourism and their impact on modern tourism activities. In recent years, the rapid advancement of information and communication technologies has led to significant structural changes in the tourism sector. Digitalization has notably transformed tourists' behavior and decision-making processes. Nowadays, travelers increasingly prefer online platforms over traditional methods when planning their trips. Digital platforms provide users with access to a wide range of information, enable the comparison of different destinations, and make the decision-making process faster and more convenient. Social media platforms, online booking systems, and user-generated reviews are among the key factors influencing tourist choices. These tools also ensure a more transparent presentation of tourism products and services. The findings of the study indicate that digital platforms create significant opportunities not only for tourists but also for tourism enterprises. Companies gain access to a broader audience through digital channels, implement marketing strategies more effectively, and enhance their competitiveness. Furthermore, digital platforms contribute to the emergence of innovative approaches in the tourism sector. Personalized services, real-time information exchange, and smart tourism models are among the main developments in this process. Overall, it can be concluded that digital platforms play a crucial transformative role in the development of tourism and shape the future direction of the industry.

Keywords: *Digital platforms, tourism development, online booking, social media, smart tourism, tourist behaviour.*

GİRİŞ

Turizmin inkişafında rəqəmsal platformaların rolu müasir dövrdə qlobal iqtisadi və sosial dəyişikliklərin ən mühüm istiqamətlərindən biri kimi çıxış edir. İnformasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı turizm sektorunun fəaliyyət mexanizmini əsaslı şəkildə dəyişmişdir. Ənənəvi turizm planlaşdırma üsulları tədricən rəqəmsal həllərlə əvəz olunmaqdadır.

Bu proses turistlərin məlumat əldə etmə imkanlarını genişləndirmiş və qərarvermə prosesini daha çevik etmişdir. Sosial media platformaları, onlayn bronlaşdırma sistemləri və rəqəmsal xəritə xidmətləri turizm davranışına birbaşa təsir göstərən əsas vasitələrə çevrilmişdir. Turistlər artıq səfər etməzdən əvvəl geniş məlumat toplaya bilir, müxtəlif seçimləri müqayisə edir və fərdi ehtiyaclarına uyğun qərar qəbul edirlər. Bu isə turizm xidmətlərinin daha şəffaf və rəqabətli olmasına şərait yaradır. Eyni zamanda, turizm müəssisələri rəqəmsal platformalar vasitəsilə daha geniş auditoriyaya çıxış əldə edir və marketinq fəaliyyətlərini daha səmərəli qururlar. Rəqəmsallaşma həm də regionların turizm potensialının daha geniş tanıdılmasına imkan verir. Xüsusilə kiçik və orta turizm müəssisələri üçün bu platformalar bazara çıxış baxımından mühüm üstünlüklər yaradır. Digər tərəfdən, rəqəmsal transformasiya turizm sektorunda yeni xidmət modellərinin yaranmasına səbəb olmuşdur. Fərdiləşdirilmiş təkliflər, real vaxt məlumat axını və süni intellekt əsaslı tövsiyə sistemləri bu dəyişimin əsas nümunələridir. Deməli, rəqəmsal platformalar turizmin inkişafında yalnız texnoloji vasitə deyil, eyni zamanda strateji inkişaf amili kimi çıxış edir. Turizmin inkişafında rəqəmsal platformaların rolu müasir elmi ədəbiyyatda rəqəmsal iqtisadiyyat və innovativ idarəetmə yanaşmaları kontekstində geniş şəkildə tədqiq olunur. Nəzəri baxımdan bu tədqiqat rəqəmsal transformasiya nəzəriyyəsi, şəbəkə iqtisadiyyatı yanaşması və istehlakçı davranışı modellərinə əsaslanır. Rəqəmsal transformasiya nəzəriyyəsinə görə, texnologiyalar yalnız mövcud prosesləri təkmilləşdirmir, eyni zamanda yeni dəyər yaratma modelləri formalaşdırır (Buhalis, 2020, s. 214). Turizm sektorunda bu proses xüsusilə platforma iqtisadiyyatı vasitəsilə özünü göstərir.

Metodoloji baxımdan tədqiqatda müqayisəli təhlil və sistemli ədəbiyyat icmalı metodlarından istifadə edilmişdir. Dünya təcrübəsində, xüsusilə Avropa İttifaqı ölkələrində və Asiya regionunda rəqəmsal platformaların turizmə inteqrasiyası geniş şəkildə tətbiq olunmuşdur. Məsələn, İspaniya və İtaliya kimi ölkələrdə "smart tourism destination" modelləri vasitəsilə turizm axınlarının idarə olunması və xidmət keyfiyyətinin artırılması müşahidə olunur (Gretzel et al. , 2015, s. 42). Eyni zamanda, Türkiyə təcrübəsində rəqəmsal platformaların xüsusilə mədəni turizm və şəhər turizmi sahəsində geniş tətbiqi diqqət çəkir (Yılmaz, 2021, s. 44).

Azərbaycan kontekstində isə rəqəmsal platformaların tətbiqi son illərdə sürətlə inkişaf edir. Xüsusilə regional turizm potensialının tanıdılması, onlayn rezervasiya sistemlərinin istifadəsi və rəqəmsal marketinq fəaliyyətləri bu sahədə əsas istiqamətlərdəndir. Lakin dünya təcrübəsi ilə müqayisədə hələ də bəzi institusional və texnoloji boşluqlar mövcuddur. Bu baxımdan, beynəlxalq təcrübənin öyrənilməsi və lokal şəraitə uyğunlaşdırılması mühüm əhəmiyyət daşıyır.

Tədqiqat göstərir ki, rəqəmsal platformalar turizm sektorunda həm nəzəri, həm də praktiki baxımdan transformasiyaedici rol oynayır və bu proses Azərbaycanın turizm strategiyasında da əsas inkişaf istiqamətlərindən biri kimi çıxış edir. Azərbaycanda turizm sektorunun inkişafında rəqəmsal platformaların rolu son illərdə nəzərəçarpacaq dərəcədə artmışdır. Əvvəllər turizm fəaliyyəti əsasən ənənəvi yanaşmalara söykənirdi və turistlər məlumatı turizm agentlikləri, çap materialları və şəxsi tövsiyələr vasitəsilə əldə edirdilər. Bu isə informasiya əlçatanlığını məhdudlaşdırır, seçim prosesini isə daha uzun və mürəkkəb edirdi.

Müasir dövrdə rəqəmsal platformaların tətbiqi bu vəziyyəti əsaslı şəkildə dəyişmişdir. Onlayn rezervasiya sistemləri, sosial media kanalları və rəqəmsal xəritə xidmətləri turistlərin qərarvermə prosesini daha çevik və səmərəli etmişdir. Artıq turistlər Azərbaycana səfər etməzdən əvvəl otel, nəqliyyat və turizm marşrutlarını rahatlıqla müqayisə edə bilirlər. Bu isə həm daxili, həm də xarici turizm axınının artmasına müsbət təsir göstərir.

Rəqəmsal platformalar ölkəmizdə turizm marketinqinin inkişafında da mühüm rol oynayır. Xüsusilə sosial media vasitəsilə Qarabağ, Naxçıvan, Şəki, Quba və digər regionların turizm potensialı daha geniş auditoriyaya çatdırılır. Bu yanaşma regionların tanıdılmasını sürətləndirir və yeni turizm istiqamətlərinin formalaşmasına şərait yaradır (UNWTO, 2022, s. 41).

Azərbaycanda "ASAN Visa" sistemi və müxtəlif onlayn xidmətlər turizmə çıxış prosesini sadələşdirərək ölkəyə giriş prosedurlarını daha rahat etmişdir. Bu da ölkənin beynəlxalq turizm bazarında rəqabət qabiliyyətini artırır. Bununla yanaşı, rəqəmsal platformaların tətbiqi turizm müəssisələrinin fəaliyyətinə də müsbət təsir göstərmişdir. Otellər və turizm şirkətləri sosial media və onlayn satış kanalları vasitəsilə daha geniş müştəri bazasına çıxış əldə edirlər. Lakin bəzi regionlarda rəqəmsal infrastruktur və rəqəmsal bacarıqların zəifliyi bu prosesin tam potensialını məhdudlaşdırır. Azərbaycanda rəqəmsal platformalar turizm sektorunun inkişafında mühüm rol oynayır və bu sahənin gələcək inkişafı daha çox rəqəmsal transformasiya və innovativ yanaşmalardan asılı olacaqdır.

Azərbaycanda turizm sektoru həm paytaxt Bakıda, həm də regionlarda rəqəmsal transformasiya sayəsində tamamilə yeni bir mərhələyə qədəm qoyub. Bu inkişafın mərkəzində dayanan rəqəmsal platformalar və texnologiyalar, turizmin coğrafi hüdudlarını genişləndirərək onu daha əlçatan və səmərəli edir.

Regionlarda turizm və rəqəmsal inkişaf. Əvvəllər turizm xərcləri və diqqət əsasən paytaxt Bakı və bir neçə böyük mərkəzdə cəmləşirdisə, rəqəmsallaşma bu tarazlığı regionların xeyrinə dəyişməyə başlayıb. Airbnb kimi paylaşma iqtisadiyyatı platformaları turist xərclərini ənənəvi "qaynar nöqtələrdən" kənara, kənd yerlərinə və kiçik yaşayış məntəqələrinə yönləndirir. Bu proses yerli icmaların və mikro-sahibkarların birbaşa turizm zəncirinə qoşulmasına imkan yaradır, nəticədə regionlarda məşğulluq artır və yeni turizm dəhlizləri yaranır. Regionlarda çalışan turizm işçiləri üçün rəqəmsal xidmətlər öz peşəkar bacarıqlarını nümayiş etdirmək və beynəlxalq bazara birbaşa çıxmaq üçün geniş imkanlar açır.

Paytaxtda turizm və ağıllı sistemlər Paytaxt Bakıda turizmin inkişafı daha çox "ağıllı turizm" (smart tourism) və yüksək texnoloji infrastruktur üzərində qurulub. Bakıdakı Hilton, Sheraton və Ramada kimi iri mehmanxana şəbəkələrində artıq bulud əsaslı idarəetmə sistemləri (Cloud PMS) və Əşyaların İnterneti (IoT) geniş tətbiq olunur. Turistlər mobil tətbiqlər vasitəsilə otaq qapılarını açа, temperaturu tənzimləyə və kontaktsız ödənişlər edə bilirlər. Bu texnologiyalar xidmət sürətini artırmaqla yanaşı, müasir turistin fərdiləşdirilmiş xidmət gözləntilərini də qarşılayır.

Rəqəmsal platformaların rolu və təsiri. Rəqəmsal platformaların Azərbaycan turizminə təsirini bir neçə əsas istiqamətdə qruplaşdırmaq olar:

1. Məlumat əlçatanlığı: İnternet və onlayn axtarış sistemləri turistlərin destinasiyalar haqqında sonsuz informasiya əldə etməsinə şərait yaradır, bu da onların qərar qəbul etmə prosesini asanlaşdırır.
2. Sosial medianın gücü: Araşdırmalar göstərir ki, turistlərin 75%-i səyahət qərarlarını sosial mediada (Instagram, TikTok, YouTube) gördükləri kontentlərə əsasən verirlər. Bu, Azərbaycanın təbiət və mədəniyyət abidələrinin regional miqyasda tanıdılması üçün ən effektiv vasitədir.
3. Süni intellekt (AI): 2026-cı ilə doğru süni intellektin səyahət planlaşdırmasında həlledici rol oynayacağı proqnozlaşdırılır. Bu məqsədlə turistlərin maraqlarına uyğun fərdi marşrutlar hazırlayır və ənənəvi turizm agentliklərinin funksiyalarını saniyələr ərzində yerinə yetirir.
4. Onlayn rezervasiya: Booking. com və Expedia kimi onlayn səyahət platformaları informasiya xərclərini kəskin azaldıb, qiymət şəffaflığını və rəqabəti artırıb.

Rəqəmsal platformalar Azərbaycan turizmini daha çevik, dayanıqlı və hər kəs üçün əlçatan bir ekosistemə çevirir. Lakin texnoloji inkişafa baxmayaraq, əsl qonaqpərvərliyin insan toxunuşundan və emosional bağlılıqdan qaynaqlandığı unudulmamalıdır.

Müasir turizm iqtisadiyyatında rəqəmsal platformalar sektorun strukturunu fundamental şəkildə dəyişərək "Turizm 4. 0" paradiqmasının əsas hərəkətverici qüvvəsinə çevrilmişdir. Akademik perspektivdən yanaşdıqda, konkret rəqəmsal platformaların oynadığı funksional rolları və onların yaratdığı iqtisadi-sosial təsirləri aşağıdakı şəkildə təsnif edə bilərik:

- Onlayn səyahət agentlikləri (OTA): Bazar şəffaflığı və məlumat asimmetriyası. Booking.com və Expedia kimi platformalar qlobal turizm bazarında məlumat asimmetriyasını minimuma endirərək, informasiya xərclərini əhəmiyyətli dərəcədə azaltmışdır. Bu platformalar vahid rəqəmsal pəncərə rolunu oynayaraq, istehlakçıya müxtəlif xidmət təminatçıları arasında real vaxt rejimində qiymət və keyfiyyət müqayisəsi aparmaq imkanı verir.
- Paylaşma iqtisadiyyatı: Boğrafi diversifikasiya və yerli inkişaf Airbnb və Uber platformaları turizmdə yeni bir innovasiya forması kimi çıxış edərək, fərdi resursların kommersiyalaşdırılmasını təmin edir. Airbnb-nin əsas rolu turist xərclərini ənənəvi otel mərkəzlərindən kənara — kənd yerlərinə və yerli icmalara yönləndirməklə turizmin coğrafi şaxələndirilməsini sürətləndirməkdir. Akademik araşdırmalar sübut edir ki, bu platformalar gizli tələbi aktivləşdirir; belə ki, Airbnb olmasaydı, turistlərin müəyyən bir qismi ümumiyyətlə səyahət etməyəcək və ya daha qısa müddət qalacaqdı.
- Sosial media və rəy portalları: Rəqəmsal reputasiya və qərar qəbuletmə. TripAdvisor, Instagram və TikTok kimi platformalar turizm marketinqində "rəqəmsal ağızdan-ağıza marketinq" (*digital word-of-mouth*) funksiyasını yerinə yetirir. İstehlakçıların 75%-i səyahət qərarlarını digər turistlərin onlayn rəyləri və vizual kontentləri əsasında verir. Bu, turizm müəssisələri üçün rəqəmsal reputasiyanın idarə olunmasını (ORM) strateji zərurətə çevirmişdir.
- Bulud texnologiyaları və "Ağıllı" idarəetmə sistemləri (PMS). Fidelio və Horison kimi bulud əsaslı idarəetmə sistemləri mehmanxanaların daxili əməliyyatlarını avtomatlaşdıraraq əməyin məhsuldarlığını artırır. Bu sistemlərin tətbiqi sayəsində müştərilər qəbulda vaxt itirmədən rəqəmsal qeydiyyatdan keçə və mobil cihazlarla otaq qapılarını aça bilirlər ki, bu da müştəri məmnuniyyətini birbaşa yüksəldir.
- Süni intellekt (ai): Fərdiləşdirmə və gələcəyin agentləri. 2026-cı ilə doğru süni intellekt və çatbotlar səyahət planlaşdırmasının mərkəzində dayanaraq fərdiləşdirilmiş marşrutlar hazırlamaq rolunu üzərinə götürür. AI turistlərin keçmiş davranışlarını analiz edərək onlara özəl təkliflər təqdim edir və saniyələr ərzində ənənəvi turizm agentlərinin funksiyalarını icra edir.

Deməli, rəqəmsal platformalar turizmi sadəcə texnoloji cəhətdən deyil, həm də iqtisadi və sosial baxımdan daha çevik, dayanıqlı və səmərəli bir ekosistemə çevirmişdir.

TƏKLİFLƏR

- Rəqəmsal bacarıqların artırılması: Regionlarda çalışan işçi qüvvəsinin və kiçik sahibkarların (KOM) rəqəmsal platformalardan istifadə bacarıqlarını artırmaq üçün təlim proqramları və qrantlar təşkil edilməlidir.
- Kibertəhlükəsizlik və məxfilik: Turistlərin böyük həcmdə toplanan şəxsi və biometrik məlumatlarının qorunması üçün yüksək standartlı kibertəhlükəsizlik infrastrukturuna investisiyalar artırılmalıdır.
- Tənzimləmə: Ədalətli rəqabəti təmin etmək üçün paylaşma iqtisadiyyatı platformaları ilə ənənəvi otel biznesi arasında proporsional hüquqi və vergi tənzimlənməsi həyata keçirilməlidir

NƏTİCƏ

Rəqəmsal transformasiya Azərbaycan turizm sənayesinin dəyər zəncirini əsaslı şəkildə yenidən quraraq sektoru yeni inkişaf trayektoriyasına çıxarmışdır. Onlayn səyahət platformaları və paylaşma iqtisadiyyatı alətləri (OTA, Airbnb) məlumat xərclərini azaldaraq bazarda şəffaflığı təmin

etmiş, turizm gəlirlərinin paytaxtdan regionlara doğru coğrafi şaxələndirilməsini və inklüziv inkişafı sürətləndirmişdir. Bulud əsaslı idarəetmə sistemləri və süni intellekt texnologiyaları əməliyyat səmərəliliyini artırmaqla yanaşı, fərdiləşdirilmiş təkliflər vasitəsilə müasir turistin fərdi ehtiyaclarını saniyələr ərzində qarşılayır. Yekun olaraq, rəqəmsallaşma turizmi daha çevik ekosistemə çevirsə də, texnoloji tərəqqinin emosional bağlılıqdan qaynaqlanan "insan toxunuşu" ilə balanslaşdırılması sektorun gələcək uğuru üçün strateji əhəmiyyət kəsb edir. Tədqiqat göstərir ki, rəqəmsal platformalar yalnız turistlər üçün yox, hə də turizm müəssisələri üçün də geniş imkanlar yaradır. Şirkətlər rəqəmsal kanallar vasitəsilə daha geniş auditoriyaya çıxış əldə edir, marketinq fəaliyyətini daha səmərəli qurur. Eyni zamanda rəqəmsal platformalar turizm sektorunda innovativ yanaşmaların formalaşmasına da təkan verir. Xüsusi xidmətlər, real vaxt məlumat mübadiləsi və smart turizm modelləri bu prosesin əsas istiqamətlərindəndir. Nəticədə, rəqəmsal platformaların turizmin inkişafında mühüm transformativ rol oynadığı və sektorun gələcək inkişaf istiqamətlərini müəyyənləşdirdiyi qənaətinə gəlmək mümkündür.

ƏDƏBİYYAT SİYAHISI

1. Mehdiyev, A. (2025). Rəqəmsal texnologiyaların turizm sənayesinə gətirdiyi innovasiyalar və iqtisadi təsirləri. *Elmi Xəbərlər*, № 3, 237-241.
2. Quluzadə, S. (2023). Turizm və qonaqpərvərlik biznesinin marketinqi və onun idarə edilməsində gələcək tendensiyalar. *İqtisadi İslahatlar*, № 2(7), 67-74.
3. Qasımov, A. F. (2020). Turizmin inkişafında rəqəmsal xidmətlər. *Azərbaycan Elm Mərkəzi*.
4. Turizmplus. az. (2026, Yanvar 2). Turizm şirkətləri üçün yeni təhlükə: süni intellekt səyahət bazarına daxil olur.
5. Çalhan, H. (2025). Turizm Sektöründe Dijital Dönüşüm ve Dijital İnovasyonlar Üzerine Kavramsal Bir Değerlendirme. *Girişimcilik İnovasyon ve Pazarlama Araştırmaları Dergisi*, 9(18), 65–85.
6. Mehdiyev, A. (2025). Rəqəmsal texnologiyaların turizm sənayesinə gətirdiyi innovasiyalar və iqtisadi təsirləri. *Elmi Xəbərlər*, № 3, 237-241.
7. Nəzirova, A. S. , & Ələkbərova, N. İ. (2024). *Rezervasiya sistemi modelinin konseptual əsasları* (Magistrlik dissertasiyası). Azərbaycan Texniki Universiteti, Bakı.
8. Quluzadə, S. (2023). Turizm və qonaqpərvərlik biznesinin marketinqi və onun idarə edilməsində gələcək tendensiyalar. *İqtisadi İslahatlar*, № 2(7), 67-74.
9. Turizmplus. az. (2026, Yanvar 2). Turizm şirkətləri üçün yeni təhlükə: süni intellekt səyahət bazarına daxil olur.
10. Mehdiyev, A. (2025). Rəqəmsal texnologiyaların turizm sənayesinə gətirdiyi innovasiyalar və iqtisadi təsirləri. *Elmi Xəbərlər*, № 3, 237-241.
11. Quluzadə, S. (2023). Turizm və qonaqpərvərlik biznesinin marketinqi və onun idarə edilməsində gələcək tendensiyalar. *İqtisadi İslahatlar*, № 2(7), 67-74.
12. Qasımov, A. F. (2020). Turizmin inkişafında rəqəmsal xidmətlər. *Azərbaycan Elm Mərkəzi*.
13. Turizmplus. az. (2026, Yanvar 2). Turizm şirkətləri üçün yeni təhlükə: süni intellekt səyahət bazarına daxil olur
14. Sigala, M. (2018). Social media and customer engagement in tourism. *Journal of Hospitality and Tourism Technology, 9*(2), 1–14.
15. UNWTO. (2022). *Tourism and digital transformation in destinations*. Madrid: World Tourism Organization.
16. Buhalis, D. , & Law, R. (2008). Progress in information technology and tourism management. *Tourism Management, 29*(4), 609–623.

REGİONAL İQTİSADİYYATIN DAYANIQLI İNKİŞAFINDA MƏDƏNİ İRS RESURSLARININ STRATEJİ İDARƏ OLUNMASI MODELLƏRİ: MEMAR ƏCƏMİ İRSİ KONTEKSTİNDƏ

Models of strategic management of cultural heritage resources in the sustainable development of the regional economy: in the context of the legacy of Architect Ajami

ZAMİN CƏFƏROV
Zamin Cafarov
zamin. cafarov@mdu. edu. az
https://orcid. org/0009-0003-0580-8260
Mingəçevir Dövlət Universiteti
Mingachevir State University

XÜLASƏ

Müasir mərhələdə regionların sosial-iqtisadi inkişafı ənənəvi maddi resurslardan daha geniş çərçivədə qiymətləndirilir, yerli mədəni-tarixi potensialın iqtisadi dövriyyəyə cəlb olunması isə əsas determinantlardan birinə çevrilir. Tədqiqatın məqsədi mədəni irs resurslarının regional iqtisadiyyatın dayanıqlı inkişafına təsir mexanizmlərini sistemli təhlil etmək və onların idarə olunması üçün elmi əsaslandırılmış yanaşmalar irəli sürməkdir. Memar Əcəmi Naxçıvaninin yaradıcılığı qeyri-maddi kapitalın əsas komponenti kimi qiymətləndirilmiş, onun iqtisadi potensialı çoxşaxəli aspektdə araşdırılmışdır. Müqayisəli analiz, sistemli yanaşma və iqtisadi modelləşdirmə metodları tətbiq olunmuş, "üçlü dayanıqlıq" – iqtisadi, sosial və ekoloji balans prinsipi analitik çərçivə kimi götürülmüşdür. Təhlillər göstərir ki, mədəni irs obyektlərinin iqtisadi dövriyyəyə daxil edilməsi regionun investisiya cəlbediciliyini artırır, yerli aktivliyi stimullaşdırır və turizmlə yanaşı tikinti, xidmət, sənətkarlıq və kreativ sənayelərdə multiplikativ effekt yaradır. Dövlət-özəl tərəfdaşlığı mexanizmləri mədəni irsin qorunması ilə iqtisadi səmərəliliyin uzlaşdırılması baxımından optimal modeldir. Yekunda regionda "mədəni-tarixi klaster" modelinin formalaşdırılması təklif olunur ki, bu da sahibkarlığı stimullaşdırmaqla dayanıqlı iqtisadi strukturun qurulmasına və regional asılılığın azalmasına xidmət edir.

Açar sözlər: *regional iqtisadiyyat, mədəni irs, dayanıqlı inkişaf, iqtisadi modelləşdirmə, Memar Əcəmi.*

ABSTRACT

At the modern stage, the socio-economic development of regions is assessed in a broader framework than traditional material resources, and the involvement of local cultural-historical potential in economic turnover is becoming one of the main determinants. The purpose of the study is to systematically analyze the mechanisms of influence of cultural heritage resources on the sustainable development of the regional economy and to put forward scientifically substantiated approaches for their management. The creativity of architect Ajami Nakhchivani was assessed as the main component of intangible capital, and its economic potential was investigated in a multifaceted aspect. Comparative analysis, systematic approach and economic modeling methods were applied, and the principle of "triple sustainability" - economic, social and ecological balance - was taken as an analytical framework. The analyses show that the inclusion of cultural heritage objects in economic turnover increases the investment attractiveness of the region, stimulates local activity and creates a multiplicative effect in construction, services, crafts and creative industries, along with tourism. Public-private partnership mechanisms are an optimal model in terms of reconciling the protection of cultural heritage with economic efficiency. Finally, it is proposed to form a "cultural-historical cluster" model in the region, which, by stimulating entrepreneurship, serves to build a sustainable economic structure and reduce regional dependence.

Keywords: *regional economy, cultural heritage, sustainable development, economic modeling, Architect Ajami.*

GİRİŞ

Müasir qlobal iqtisadi sistemdə regionların rəqabətqabiliyyətliliyi artıq yalnız torpaq, əmək və kapital kimi ənənəvi istehsal amilləri ilə məhdudlaşmır; bu göstərici getdikcə daha çox regionların özünəməxsus resurslarını necə "iqtisadi mənaya" çevirə bilməsi ilə müəyyən olunur. Bu baxımdan mədəni irs təkcə tarixi yaddaşın daşıyıcısı deyil, həm də yüksək əlavə dəyər yaradan

strateji resurs kimi çıxış edir. Müasir iqtisadi nəzəriyyədə bu fenomen "qeyri-maddi kapitalın iqtisadi funksionallaşdırılması" kimi izah olunur və regionların fərqləndirici üstünlüklərinin formalaşmasında əsas rol oynayır. Çünki qlobal bazarlarda standartlaşdırılmış məhsullarla rəqabət aparmaq çətinləşdikcə, unikal identiklik, autentiklik və mədəni dəyər elementləri iqtisadi üstünlüyə çevrilir.

Mədəni irsin iqtisadi dövriyyəyə daxil edilməsi prosesi isə sadə monetizasiya deyil; bu, çoxşaxəli və sistemli idarəetmə yanaşması tələb edən kompleks transformasiya prosesidir. Burada əsas məsələ irsin yalnız qorunması deyil, onun iqtisadi ekosistemə inteqrasiyasıdır. Dünya təcrübəsi göstərir ki, mədəni irsin effektiv idarə olunması turizm sektorundan kənara çıxaraq kreativ sənayelərin, dizayn düşüncəsinin, memarlıq innovasiyalarının və yerli brend ekosistemlərinin inkişafına təkan verir. Bu isə öz növbəsində regional iqtisadiyyatın şaxələndirilməsinə, daxili bazarın aktivləşməsinə və sosial rifahın yüksəlməsinə səbəb olur. Başqa sözlə, mədəni irs düzgün yanaşma ilə "passiv aktiv"dən "aktiv iqtisadi resurs"a çevrilir.

Azərbaycan kontekstində bu məsələ xüsusi aktuallıq kəsb edir. Ölkənin regionları zəngin mədəni-tarixi potensiala malik olsa da, bu resursların iqtisadi effektivliyə çevrilmə səviyyəsi hələ də tam realizə olunmayıb. Xüsusilə Naxçıvan Muxtar Respublikası həm coğrafi, həm də geosiyasi xüsusiyyətlərinə görə "endogen inkişaf modeli" üçün əlverişli laboratoriya rolunu oynayır. Bu modeldə əsas prinsip daxili resursların maksimum səfərbər olunmasıdır ki, burada mədəni irs aparıcı komponentlərdən biri kimi çıxış edir. Bu baxımdan Memar Əcəmi Naxçıvaninin irsi yalnız memarlıq abidələri toplusu deyil, həm də regionun vizual dili, estetik kodu və simvolik kapitalıdır. Onun yaratdığı memarlıq nümunələri regionun identifikasiyasını formalaşdırmaqla yanaşı, müasir dizayn və tikinti sektorları üçün ilham mənbəyi kimi çıxış edə bilər. Mövcud elmi yanaşmaların bir qismi mədəni irsin qorunmasını yüksək maliyyətli və iqtisadi baxımdan qeyri-effektiv fəaliyyət kimi qiymətləndirmişdir. Bu yanaşma daha çox qısamüddətli iqtisadi nəticələrə fokuslanır və irsin uzunmüddətli multiplikativ təsirini nəzərə almır. Halbuki müasir dayanıqlı inkişaf konsepsiyası göstərir ki, mədəni irsin qorunması və istifadəsi arasında balansın qurulması mümkündür və bu balans iqtisadi, sosial və mədəni faydaların sinerjisini yaradır. Bu kontekstdə irs yalnız qorunan obyekt deyil, həm də innovasiya platforması, sosial kapital generatoru və regional brendinq alətidir.

Hazırkı tədqiqat boşluğu da məhz bu nöqtədə ortaya çıxır. Regional idarəetmə modellərində mədəni irsin "kapitallaşdırılması" prosesi çox zaman sistemsiz və fragmentar xarakter daşıyır. Əksər hallarda bu resurslar yalnız turizm sektoruna yönəldilir ki, bu da onların real potensialının məhdud istifadəsinə səbəb olur. Halbuki daha geniş yanaşma tələb olunur: mədəni irs tikinti sektorunda yeni memarlıq həllərinin yaradılmasına, sənətkarlıq sahəsində məhsul diversifikasiyasına, təhsil və kreativ sənayelərdə yeni ideyaların formalaşmasına, xidmət sektorunda isə unikal təcrübə iqtisadiyyatının inkişafına təkan verə bilər. Bu isə öz növbəsində region daxilində dəyər zəncirinin dərinləşməsinə və iqtisadi dayanıqlığın artmasına xidmət edir. Xüsusilə Naxçıvan kimi blokada şəraitində olan region üçün bu yanaşma strateji əhəmiyyət daşıyır. Xarici resurslara çıxışın məhdud olduğu bir mühitdə daxili potensialın – o cümlədən mədəni irsin – iqtisadi aktivə çevrilməsi dayanıqlı inkişafın əsas şərtlərindən birinə çevrilir. Memar Əcəmi irsinin bu kontekstdə yenidən interpretasiyası və müasir iqtisadi sistemə inteqrasiyası region üçün yeni inkişaf trayektoriyası formalaşdıra bilər.

MATERİAL VƏ METODLAR

Tədqiqatın empirik bazasını Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin regional inkişaf göstəriciləri, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişaf proqramları (2021-2025) və UNESCO-nun mədəni irsin iqtisadi qiymətləndirilməsinə dair metodoloji sənədləri təşkil edir. Memar Əcəmi irsinin iqtisadi potensialını qiymətləndirmək üçün Naxçıvan şəhərində

yerləşən Mömінə Xatun və Yusif ibn Küseyr türbələri, eləcə də "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin fəaliyyət göstəriciləri əsas material kimi götürülmüşdür.

Tədqiqatda mədəni irsin kapitallaşdırılması prosesini təhlil etmək üçün "**Endogen Regional İnkişaf**" modeli tətbiq olunmuşdur. Bu model kənardan gələn investisiyalardan daha çox, regionun daxili mədəni və tarixi resurslarının iqtisadi canlanmaya səbəb olması fərziyyəsinə söykənir. Metodologiyanın mərkəzində dayanıqlı inkişafın üç sütunu — iqtisadi səmərəlilik, sosial inklüzivlik və mədəni bütövlük dayanır.

Tədqiqat prosesində aşağıdakı konkret metodlardan istifadə edilmişdir:

- **Məkan Analizi və Klasterləşdirmə:** Mədəni irs obyektlərinin yerləşdiyi ərazilərin iqtisadi infrastrukturla (xidmət, nəqliyyat, kiçik sahibkarlıq) qarşılıqlı əlaqəsi "Iqtisadi Klaster" metodu ilə təhlil edilmişdir.
- **Multiplikator Effektinin Qiymətləndirilməsi:** Mədəni irsə qoyulan hər bir vahid investisiyanın əlaqəli sahələrdə (məsələn, sənətkarlıq və yerli istehsal) yaratdığı artım dolayı təsirlər metodu ilə hesablanmışdır [7].
- **Müqayisəli Struktur Analizi:** Avropa Mədəni Marşrutları (European Cultural Routes) təcrübəsində tətbiq olunan idarəetmə modelləri ilə yerli idarəetmə mexanizmləri arasında müqayisələr aparılmışdır.
- **Keyfiyyət Analizi (SWOT):** Memar Əcəmi irsinin strateji aktiv kimi istifadəsi zamanı qarşıya çıxan institusional və maliyyə məhdudiyyətləri SWOT matrisi vasitəsilə qruplaşdırılmışdır.

Tədqiqatda istifadə olunan bütün statistik hesablamalar, model parametrləri və strukturlaşdırılmış cədvəllər açıq mənbələrə əsaslanır və elmi ictimaiyyət üçün əlçatandır. Metodoloji yanaşma digər tarixi regionların (məsələn, Şəki və ya Şuşa) dayanıqlı inkişaf modellərinin qurulması üçün də tətbiq oluna bilər.

Regional iqtisadiyyatın dayanıqlı inkişaf paradiqması müasir qlobal transformasiyalar fonunda yalnız təbii resurslara əsaslanan klassik modellərdən uzaqlaşaraq, bilik, innovasiya və qeyri-maddi aktivlərin ön plana çıxdığı yeni yanaşmaları zəruri edir. Bu kontekstdə mədəni-tarixi irs, xüsusilə də unikal memarlıq məktəbləri və estetik ənənələr, regionların rəqabət qabiliyyətinin formalaşmasında strateji resurs kimi çıxış edir. Memar Əcəmi Naxçıvaninin 900 illik irsi bu baxımdan yalnız tarixi-mədəni fenomen deyil, həm də iqtisadi dəyər yaradan kompleks sistem kimi qiymətləndirilməlidir. Onun yaratdığı memarlıq nümunələri – həm konstruktiv innovasiya, həm də estetik mükəmməllik baxımından – regionun iqtisadi identifikasiyasının formalaşmasına xidmət edən simvolik kapital rolunu oynayır.

Mədəni irsin iqtisadi dövriyyəyə inteqrasiyası prosesi, yəni onun kapitallaşdırılması, çoxşaxəli və sistemli yanaşma tələb edir. Bu proses təkcə abidələrin qorunması ilə məhdudlaşmır; eyni zamanda onların brendləşdirilməsi, rəqəmsallaşdırılması, turizm məhsuluna çevrilməsi və yaradıcı sənayelərlə inteqrasiyası kimi istiqamətləri də əhatə edir. Bu mənada Memar Əcəmi irsi, intellektual mülkiyyət obyektinə çevrilərək, region üçün əlavə dəyər yaradan iqtisadi aktiv kimi çıxış edə bilər. Xüsusilə müasir dövrdə "mədəniyyət iqtisadiyyatı" anlayışının genişlənməsi, bu cür irs nümunələrinin qlobal bazarlarda tanıdılmasını və kommersiya potensialının reallaşdırılmasını daha da aktuallaşdırır.

Naxçıvan Muxtar Respublikasının spesifik coğrafi və iqtisadi şəraiti bu irsin əhəmiyyətini daha da artırır. Regionun məhdud təbii resurs bazası və logistik çətinlikləri şəraitində mədəni irs, alternativ inkişaf vektoru kimi çıxış edərək iqtisadi diversifikasiyanı təmin edə bilər. Bu baxımdan Memar Əcəmi irsi "yumşaq güc" elementi kimi regionun investisiya cəlbediciliyini artırır, turizm axınını genişləndirir və beynəlxalq əməkdaşlıq imkanlarını gücləndirir. Belə yanaşma, eyni zamanda regionun imicinin formalaşdırılmasına və onun qlobal iqtisadi sistemdə mövqeyinin möhkəmlənməsinə xidmət edir. Dayanıqlı inkişafın mühüm komponentlərindən biri olan

multiplikator effekti mədəni irs üzərindən aydın şəkildə müşahidə olunur. Tarixi abidələrin bərpasına və konservasiyasına yönəldilən investisiyalar paralel olaraq bir sıra əlaqəli sahələrin inkişafını stimullaşdırır. Tikinti və restavrasiya sektoru ilə yanaşı, turizm, nəqliyyat, mehmanxana biznesi, ictimai iaşə, sənətkarlıq və yaradıcı sənayelər bu prosesdən birbaşa faydalanır. Memar Əcəmi məktəbinə xas olan həndəsi ornamentlər və konstruktiv həllər müasir dizayn və istehsal sahələrində tətbiq olunaraq innovativ məhsulların yaranmasına şərait yaradır. Bu isə yerli istehsalçıların məhsullarına əlavə dəyər qazandırır və onların beynəlxalq bazarlarda fərqlənmə strategiyasını gücləndirir.

Eyni zamanda, mədəni irsin iqtisadi resursa çevrilməsi idarəetmə mexanizmlərinin təkmilləşdirilməsini tələb edir. Bu istiqamətdə dövlət və özəl sektor arasında əməkdaşlıq – yəni dövlət-özəl tərəfdaşlığı modelləri – xüsusi əhəmiyyət kəsb edir. Belə modellər vasitəsilə tarixi abidələrin qorunması üçün maliyyə yükü optimallaşdırılır, eyni zamanda bu obyektlərin iqtisadi dövriyyəyə daxil edilməsi təmin olunur. Məsələn, tarixi binaların muzey, sərgi mərkəzi, butik otel və ya mədəniyyət mərkəzi kimi fəaliyyət göstərməsi onların özünü maliyyələşdirən iqtisadi vahidlərə çevrilməsinə imkan verir. Bu isə uzunmüddətli perspektivdə həm dövlət büdcəsinin yükünü azaldır, həm də mədəni irsin davamlı qorunmasını təmin edir.

Regional inkişafın sosial ölçüsü də mədəni irsin təsiri altında formalaşır. Yerli əhalinin bu irsi yalnız tarixi dəyər kimi deyil, həm də iqtisadi resurs kimi qəbul etməsi sosial kapitalın güclənməsinə səbəb olur. Bu proses, öz növbəsində, regionda sahibkarlıq təşəbbüslərinin artmasına, yeni iş yerlərinin yaradılmasına və miqrasiya səviyyəsinin azalmasına gətirib çıxarır. Mədəni irs ətrafında formalaşan iqtisadi klasterlər – xüsusilə kiçik və orta sahibkarlıq subyektləri üçün – əlverişli biznes mühiti yaradır. Belə klasterlərdə turizm xidmətləri, əl işləri, suvenir istehsalı, dizayn və marketinq fəaliyyətləri qarşılıqlı şəkildə inkişaf edərək sinerji effekti yaradır.

Bununla yanaşı, rəqəmsal texnologiyaların tətbiqi mədəni irsin iqtisadi potensialının reallaşdırılmasında yeni imkanlar açır. Virtual reallıq (VR), artırılmış reallıq (AR), 3D modelləşdirmə və rəqəmsal arxivləşdirmə kimi alətlər vasitəsilə Memar Əcəmi irsinin qlobal auditoriyaya təqdim edilməsi mümkündür. Bu yanaşma, xüsusilə fiziki olaraq regiona səfər edə bilməyən turistlər üçün alternativ təcrübə yaradaraq mədəni turizmin yeni formalarını inkişaf etdirir. Eyni zamanda, rəqəmsal platformalarda yaradılan kontent regionun beynəlxalq tanıtımına və brend dəyərinin artmasına xidmət edir.

Strateji baxımdan, Memar Əcəmi irsinin iqtisadi sistemə inteqrasiyası balanslaşdırılmış yanaşma tələb edir. Burada əsas məsələ mədəni irsin qorunması ilə onun kommersiya məqsədilə istifadəsi arasında optimal tarazlığın təmin edilməsidir. Həddindən artıq kommersiyalaşdırma irsin autentikliyinə zərər verə biləcəyi kimi, yalnız konservasiya yönümlü yanaşma da onun iqtisadi potensialının reallaşmasına mane ola bilər. Buna görə də, effektiv idarəetmə modeli həm mədəni dəyərlərin qorunmasını, həm də iqtisadi səmərəliliyin təmin olunmasını eyni vaxtda nəzərə almalıdır. Nəticə etibarilə, Memar Əcəmi Naxçıvaninin zəngin irsi regional inkişafın yeni iqtisadi modelinin formalaşdırılmasında strateji rol oynayır. Bu irsin iqtisadi dövriyyəyə inteqrasiyası, regionun həm tarixi köklərinə sadiqliyini qoruyur, həm də onu müasir qlobal bazar tələblərinə uyğunlaşdırır. Beləliklə, mədəni irsə əsaslanan inkişaf modeli yalnız iqtisadi artımı deyil, eyni zamanda sosial rifahı, mədəni identikliyi və uzunmüddətli dayanıqlılığı təmin edən kompleks və effektiv yanaşma kimi çıxış edir.

NƏTİCƏ

Mədəni irs resurslarının regional iqtisadiyyata təsiri müasir elmi yanaşmalarda yalnız simvolik və ya estetik dəyərlərlə məhdudlaşdırılmır; əksinə, bu resurslar iqtisadi dinamikanın formalaşdırılmasında aktiv faktor kimi çıxış edir. Aparılan tədqiqatlar göstərir ki, mədəni irs

obyektlərinin, xüsusilə Memar Əcəmi Naxçıvani irsinin iqtisadi dövriyyəyə inteqrasiyası region daxilində zəncirvari inkişaf proseslərini stimullaşdırır. Bu proses "multiplikator effekti" ilə xarakterizə olunur və ilkin investisiyanın bir neçə sektor üzrə genişlənərək əlavə dəyər yaratması ilə izah edilir. Empirik müşahidələr sübut edir ki, mədəni irsin qorunması, bərpası və təbliği istiqamətində yönəldilən hər bir maliyyə resursu əlaqəli sahələrdə – o cümlədən turizm, ictimai iaşə, nəqliyyat-logistika və yerli istehsal sektorlarında – daha yüksək həcmdə dolayı gəlir formalaşdırır. Bu isə mədəniyyət əsaslı iqtisadi modelin regional ümumi məhsulun artımına əhəmiyyətli töhfə verdiyini göstərir.

Xüsusilə qeyd edilməlidir ki, mədəni irs obyektlərinin yalnız konservasiya məqsədilə qorunması onların potensial iqtisadi effektini məhdudlaşdırır. Əksinə, bu obyektlərin aktiv iqtisadi subyekt kimi idarə olunması – yəni onların turizm marşrutlarına inteqrasiyası, kommersiya və yaradıcı fəaliyyətlər üçün istifadəsi – regionun maliyyə dayanıqlığını artırır və büdcədən asılılığını azaldır. Bu yanaşma, mədəni irsin passiv sərvətdən aktiv kapitala transformasiyasını təmin edən əsas mexanizmlərdən biri kimi çıxış edir.

Tədqiqat çərçivəsində əldə olunan digər mühüm nəticə mədəni-tarixi irs əsasında formalaşan klaster modelinin yüksək effektivliyidir. Müəyyən edilmişdir ki, Memar Əcəmi irsi ətrafında müxtəlif fəaliyyət sahələrinin – elm və təhsil müəssisələrinin, sənətkarlıq subyektlərinin, dizayn studiyalarının və biznes strukturlarının – inteqrasiya olunmuş şəkildə fəaliyyət göstərməsi sinerji effekti yaradır. Bu cür klaster yanaşması region daxilində innovasiya mühitini gücləndirir və biliklərin transferini sürətləndirir. Nəticədə, tarixi ornament və memarlıq elementlərinin müasir sənaye və dizayn sahələrinə tətbiqi genişlənir, bu isə yerli məhsulların fərqləndirici xüsusiyyətlərini gücləndirərək onların bazar dəyərini artırır.

Eyni zamanda, belə klasterlər ixtisaslı kadr potensialının formalaşmasına da mühüm təsir göstərir. Regional ali təhsil müəssisələrinin və peşə məktəblərinin mədəni irs menecmenti, restavrasiya texnologiyaları və yaradıcı sənayelər üzrə ixtisaslaşması insan kapitalının keyfiyyətini yüksəldir. Bu isə uzunmüddətli perspektivdə regionun innovativ inkişaf qabiliyyətini gücləndirir. Digər tərəfdən, vahid mədəni brendin formalaşdırılması – məsələn, Memar Əcəmi məktəbinin regional identitet kimi təqdim olunması – investorlar üçün etibarlı və tanınan iqtisadi mühit yaradır. Bu cür brend yanaşması investisiya risklərini azaldır və regionun beynəlxalq iqtisadi əlaqələrdə mövqeyini gücləndirir.

Mədəni irs obyektlərinin effektiv idarə olunması kontekstində dövlət və özəl sektor arasında əməkdaşlıq mexanizmləri xüsusi əhəmiyyət kəsb edir. Tədqiqat nəticələri göstərir ki, yalnız dövlət maliyyələşməsi hesabına mədəni irsin uzunmüddətli qorunmasını təmin etmək çətindir və bu, büdcə resurslarının qeyri-səmərəli istifadəsinə səbəb ola bilər. Bu baxımdan dövlət-özəl tərəfdaşlığı modelləri daha optimal həll kimi çıxış edir. Konsessiya, icarə-idarəetmə və birgə fəaliyyət kimi mexanizmlər vasitəsilə özəl sektorun bu sahəyə cəlb edilməsi həm maliyyə yükünü azaldır, həm də idarəetmədə çevikliyi artırır.

Belə əməkdaşlıq çərçivəsində tarixi obyektlərin funksionallığı qorunmaqla onların kommersiya potensialı reallaşdırılır. Məsələn, abidələrin sərgi salonu, mədəniyyət mərkəzi, kreativ sənaye məkanı və ya turizm obyektinə çevrilməsi onların iqtisadi dövriyyəyə daxil olmasını təmin edir. Bu isə yalnız həmin obyektlərin saxlanma xərclərini kompensasiya etmir, eyni zamanda region üzrə vergi daxilolmalarını artırır, yeni iş yerlərinin yaradılmasına şərait yaradır və iqtisadi aktivliyi genişləndirir.

Nəticə etibarilə, aparılan təhlillər göstərir ki, Memar Əcəmi irsi kimi mədəni-tarixi resursların iqtisadi sistemə inteqrasiyası çoxölçülü təsir mexanizmlərinə malikdir. Bu təsir həm multiplikator effekti vasitəsilə iqtisadi artımı stimullaşdırır, həm klaster yanaşması ilə innovasiya və sahibkarlıq mühitini gücləndirir, həm də dövlət-özəl tərəfdaşlığı vasitəsilə effektiv idarəetmə modelinin formalaşmasına imkan yaradır. Beləliklə, mədəni irsə əsaslanan inkişaf modeli regionun

uzunmüddətli dayanıqlığını təmin edən, iqtisadi, sosial və institusional komponentləri özündə birləşdirən kompleks strategiya kimi çıxış edir.

MÜZAKİRƏ

Tədqiqatın nəticələri göstərir ki, regional iqtisadiyyatın dayanıqlı inkişafında mədəni irs amili sadəcə estetik və ya tarixi faktor deyil, strateji iqtisadi resursdur. Memar Əcəmi Naxçıvaninin yaradıcılığı üzərində qurulan bu yanaşma, beynəlxalq ədəbiyyatda qəbul edilmiş "irsin iqtisadi səmərəsi" nəzəriyyələri [15] ilə tamamilə uzlaşır. Lakin bir çox əvvəlki tədqiqatlardan fərqli olaraq, biz irsi yalnız turizm gəliri kimi deyil, regionun daxili istehsal potensialını hərəkətə gətirən "multiplikator" kimi təqdim etdik. Bu, regional inkişafda resurs asılılığını azaldan və yerli innovasiyanı stimullaşdıran bir yanaşmadır.

Məqalədə irəli sürülən "Mədəni-tarixi klaster" modeli, Avropanın inkişaf etmiş regionlarında tətbiq olunan "yaradıcı sənaye" (creative industries) modelləri ilə oxşarlıq təşkil etsə də, Naxçıvanın spesifik coğrafi və iqtisadi şəraiti (blokada faktoru, daxili resurslara meyllilik) bu modelin daha çox "endogen inkişaf" xarakteri daşımasını zəruri edir. Əldə etdiyimiz nəticələr göstərir ki, Memar Əcəmi irsinin vizual və mühəndislik kodlarının müasir istehsala inteqrasiyası, regionun "Unique Selling Proposition" (Unikal Satış Təklifi) strategiyasının əsasını təşkil etməlidir.

Müzakirə olunmalı digər mühüm məqam, tarixi abidələrin qorunması ilə kommersiya səmərəliliyi arasındakı balansdır. Bəzi mühafizəkar yanaşmalar irsin iqtisadi dövriyyəyə cəlb olunmasını riskli hesab etsə də, bizim tədqiqatımız sübut edir ki, düzgün qurulmuş Dövlət-Özəl Tərəfdaşlığı (PPP) modeli həm abidənin bərpası üçün alternativ maliyyə mənbələri yaradır, həm də onu cəmiyyət üçün yaşayan bir struktura çevirir [16]. Gələcək tədqiqat istiqamətləri olaraq, mədəni irsin rəqəmsallaşdırılması (məsələn, abidələrin "metaverse" və ya rəqəmsal ekizlərinin yaradılması) və bunun regional iqtisadiyyata gətirə biləcəyi kripto-iqtisadi dividendlərin araşdırılması təklif oluna bilər. Bu, Memar Əcəmi irsini təkcə fiziki deyil, həm də qlobal rəqəmsal iqtisadiyyatın bir parçasına çevirəcəkdir.

ƏDƏBİYYAT SİYAHISI

1. Throsby, D. (2001). *Economics and Culture*. Cambridge University Press.
2. Graham, B. , & Howard, P. (2008). *The Heritage Reader*. Routledge.
3. Hosagrahar, J. (2017). *Cultural Heritage and Sustainable Development*. UNESCO Gazette.
4. Azərbaycan Respublikasının regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Bakı, 2019.
5. Licciardi, G. , & Amirtahmasebi, R. (2012). *The Economics of Uniqueness*. World Bank Publications.
6. Naxçıvan Muxtar Respublikasının 2024-2028-ci illər üzrə sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı.
7. Rizzo, I. , & Throsby, D. (2006). *Cultural Heritage: Economic Analysis and Public Policy*. Elsevier.
8. Memar Əcəmi Naxçıvani və Naxçıvan memarlıq məktəbi (Elmi konfrans materialları). NDU, 2021.
9. Greffe, X. (2004). *Is heritage an asset or a liability?* International Journal of Heritage Studies.
10. Macdonald, S. (2011). *Companion to Heritage Studies*. Wiley-Blackwell.
11. Towse, R. (2010). *A Textbook of Cultural Economics*. Cambridge University Press.
12. Frontiers in Sustainable Cities (2020). *Heritage and Sustainable Development Goals*.
13. Regional Development Models in the XXI Century: Challenges and Opportunities. Conference Materials, 2025.
14. European Union (2018). *Cultural Heritage as a Strategic Resource for a Sustainable Europe*.
15. Scott, A. J. (2000). *The Cultural Economy of Cities*. SAGE Publications.
16. World Heritage Centre (2023). *Managing Cultural World Heritage*. UNESCO

FESTİVAL VƏ TƏDBİRLƏRİN TURİZMƏ TƏSİRİ

The impact of festivals and events on tourism

AMİN ƏLİLİ
Amin Alili
aliliamin@ndu. edu. az
https://orcid. org/0009-0004-0188-8264
Naxçıvan Dövlət Universiteti
Nakhchıvan State Unıversıty

XÜLASƏ

Festival və tədbirlər turizmi müasir destinasiya inkişafında iqtisadi, sosial və mədəni təsirləri özündə birləşdirən, çoxşaxəli və mühüm bir mexanizm kimi çıxış edir. Bu sahə, həm yerli əhali, həm də xarici turistlər üçün cəlbedici imkanlar yaradır və regionların tanıdılması baxımından strateji əhəmiyyət daşıyır. Araşdırmalar göstərir ki, festivallar və tədbirlər yalnız turist axınının artmasına səbəb olmur, həm də regionların uzunmüddətli inkişafına, iqtisadi strukturun möhkəmlənməsinə və sosial rifahın yüksəlməsinə şərait yaradır. Eyni zamanda, bu fəaliyyətlər yerli sahibkarlığın inkişafına, investisiya axınının güclənməsinə və yeni iş yerlərinin yaradılmasına da təkan verir. Turist xərclərinin yerli iqtisadiyyata daxil olması əlavə gəlir və məşğulluq imkanları yaradır, lakin xarici asılılığın artması iqtisadi sızıntıları gücləndirə və yerli icmalar üçün faydanı azalda bilər. Sosial aspektdən yanaşdıqda, festivallar və tədbirlər yerli icmanın turizmdən əldə etdiyi faydaları artırmaqla yanaşı, onların bu sahəyə münasibətini və dəstəyini də gücləndirir. Bu tədbirlər, həmçinin mədəni irsin qorunmasına, sosial birliyin möhkəmləndirilməsinə və cəmiyyətin dayanıqlı inkişafına mühüm töhfə verir. Beynəlxalq standartlar və təşkilatlar isə turizmin ekoloji və sosial cəhətdən balanslı inkişafını təmin etməyə yönəlmişdir. Məsələn, Dünya Turizm Təşkilatı (UNWTO) və ISO 20121 standartı bu prosesin idarə olunmasına və davamlılığın qorunmasına xüsusi diqqət yetirir. Beləliklə, festival və tədbirlər turizmi təkcə iqtisadi artım mənbəyi deyil, həmçinin sosial inteqrasiya, mədəni irsin qorunması və dayanıqlı inkişaf üçün vacib strateji vasitə kimi çıxış edir. Bu yanaşma, destinasiya inkişafında kompleks və davamlı nəticələr əldə etməyə imkan verir, həmçinin yerli icmaların rifahının artırılmasına və milli mədəni dəyərlərin qorunmasına şərait yaradır.

Açar sözlər: *Festival turizmi, Dayanıqlı inkişaf, Destinasiya brendinqi, Şəhər regenerasiyası, Sosial mübadilə*

ABSTRACT

Festival and event tourism acts as a multifaceted and significant mechanism in modern destination development, encompassing economic, social, and cultural impacts. This sector creates attractive opportunities for both local residents and foreign tourists and holds strategic importance for the promotion of regions. Research shows that festivals and events not only increase tourist flows but also contribute to the long-term development of regions, strengthening economic structures and raising social welfare. At the same time, these activities stimulate the development of local entrepreneurship, strengthen investment inflows, and create new jobs. The inflow of tourist spending into the local economy generates additional income and employment opportunities, but increased external dependency can intensify economic leakage and reduce benefits for local communities. From a social perspective, festivals and events not only increase the benefits that local communities derive from tourism but also strengthen their attitude and support for this sector. These events also make significant contributions to the preservation of cultural heritage, the strengthening of social cohesion, and the sustainable development of society. International standards and organizations, meanwhile, are aimed at ensuring the balanced ecological and social development of tourism. For example, the World Tourism Organization (UNWTO) and the ISO 20121 standard pay special attention to managing this process and maintaining sustainability.

Thus, festival and event tourism is not only a source of economic growth but also an important strategic tool for social integration, the preservation of cultural heritage, and sustainable development. This approach enables complex and lasting results in destination development and also contributes to improving the welfare of local communities and preserving national cultural values.

Keywords: *Festival tourism, Sustainable development, Destination branding, Urban regeneration, Social exchange*

GİRİŞ

Müasir qlobal turizm bazarında davamlı dəyişikliklər müşahidə olunur. Əvvəllər, destinasiyaların cəlbediciliyi əsasən onların təbii və tarixi resurslarına əsaslanırdı. Lakin, indi turistlər daha çox fərqli və yaddaqalan təcrübələr yaşamağa üstünlük verirlər. Bu dəyişikliyi "təcrübə iqtisadiyyatı" adlandıran Pine və Gilmore (1999) vurğulayırlar ki, müasir insanlar məhsul və xidmət axtarmaqdan çox, unudulmaz təcrübələr əldə etməyə çalışırlar. Bu dəyişiklik fonunda, festival və tədbirlər turizmi destinasiyaların inkişafında əsas istiqamətlərdən birinə çevrilib. Tədbirlərin düzgün planlaşdırıldıqda bölgələrin iqtisadi fəallığını artırdığını və onların davamlı inkişafına müsbət təsir göstərdiyini Getz (2008) bildirir. Festivallar təkcə qısa müddətli turist axını yaratmır, həm də şəhər və regionların sosial-iqtisadi həyatında əhəmiyyətli dəyişikliklərə səbəb olur.

Böyük tədbirlərin şəhərlərin mədəni və iqtisadi inkişafında mühüm rol oynadığını Richards və Palmer (2010) qeyd edir. Tədbirlər turizmi turizm sektorunda mövsümilik problemini azaltmaq üçün effektiv vasitə sayılır.

Mövsümdənkənar təşkil olunan tədbirlərin turist axınını davamlı saxladığını və turizm müəssisələrinin il boyu fəaliyyətini dəstəklədiyini Getz (2008) vurğulayır. Turizmin iqtisadi təsiri baxımından turistlərin xərclərinin çoxalma effekti böyük əhəmiyyət kəsb edir. Turizmə qoyulan xərclərin yerli iqtisadiyyatda dövriyyəyə daxil olduğunu və birbaşa, dolayı faydalar gətirdiyini, xüsusən də məşğulluğun artmasına səbəb olduğunu Dünya Turizm Təşkilatının (UNWTO, 2023) məlumatı göstərir. Bundan başqa, festivallar destinasiya brendinqində vacib rol oynayır.

Uğurlu tədbirlərin bölgələrin beynəlxalq imicini gücləndirdiyini, onların rəqabət qabiliyyətini artırdığını və qlobal turizm bazarında fərqlənməyə imkan verdiyini Morgan, Pritchard və Pride (2011) qeyd edir. Bu tədqiqatın məqsədi, festival və tədbirlərin turizm destinasiyalarına iqtisadi, sosial və marketinq baxımından təsirini konkret mənbələr əsasında araşdırmaqdır. Araşdırmada festivalların qısa müddətli turizm artımına deyil, həm də uzunmüddətli dayanıqlı inkişafa təsiri qiymətləndirilir.

ƏSAS HİSSƏ

Tədbirlər turizmi destinasiya iqtisadiyyatına xarici maliyyə axını təmin edərək yerli xidmətlər zəncirində əlavə dəyər yaradır. Bu proses iqtisadi nəzəriyyədə Keynsin multiplikator modeli ilə izah olunur. Modelə əsasən, turizm fəaliyyəti üç səviyyəli iqtisadi təsir yaradır: birbaşa turist xərcləri, sahələrarası dolayı təsir və gəlirlərin yenidən xərclənməsi nəticəsində stimullaşdırılmış iqtisadi artım (12) yaranır.

Azərbaycanın regional təcrübəsi göstərir ki, festivallar qeyri-neft sektorunun inkişafında mühüm rol oynayır (13). Göyçay Nar Festivalı və Quba Alma Festivalı kimi tədbirlər aqrar istehsal ilə turizmi birləşdirərək yerli kiçik və orta sahibkarların bazar imkanlarını genişləndirir. Bu proses Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinin səkkizinci məqsədinə, yəni layiqli əmək və iqtisadi artımın təmin olunmasına uyğundur (14). Eyni zamanda, turizm gəlirlərinin region daxilində qalması iqtisadi sızıntı probleminin azaldılmasına kömək edir. Tədqiqatlar göstərir ki, festival çərçivəsində yerli istehsal və xidmətlərin istifadəsi maliyyə axınlarının regiondan çıxmasının qarşısını alır və iqtisadi dövriyyəni daxili bazarda saxlayır (15).

Festivallar şəhər inkişafında infrastrukturun yenilənməsinə katalizator rolunu oynayır (16). Bu təsir həm innovasiya yönümlü inkişaf, həm də dayanıqlı şəhər planlaşdırılması məqsədlərinə uyğundur (17).

Bakıda keçirilən Formula 1 Azərbaycan Qran Prisi və Avroviziya Mahnı Müsabiqəsi kimi beynəlxalq tədbirlər şəhərin nəqliyyat sisteminin, kommunikasiya şəbəkəsinin və ictimai məkanlarının müasirləşməsinə səbəb olmuşdur (18). Bu proses akademik ədəbiyyatda "tədbir sonrası miras effekti" kimi izah edilir və tədbirdən sonra da uzunmüddətli sosial və iqtisadi fayda

yaradır (19). Beynəlxalq tədbirlər zamanı tətbiq edilən rəqəmsal idarəetmə sistemləri və ağıllı şəhər texnologiyaları destinasiyanın texnoloji rəqabət qabiliyyətini artırır və şəhər idarəçiliyində innovativ yanaşmaların tətbiqini sürətləndirir (17). Sosial və mədəni sahədə festivallar yerli icmanın mədəni kapitalını iqtisadi dəyərə çevirir (20). Sosial mübadilə nəzəriyyəsinə görə, əgər yerli icma turizmin gətirdiyi faydanı mənfi təsirlərdən üstün hesab edərsə, turizmin davamlılığı təmin olunur (12). Azərbaycan nümunəsində Xarıbülbül Beynəlxalq Musiqi Festivalı və Qəbələ Beynəlxalq Musiqi Festivalı mədəni irsin qorunması və beynəlxalq səviyyədə tanıdılması baxımından əhəmiyyətli rol oynayır (13). Bu tədbirlər BMT-nin məsuliyyətli istehlak və istehsal prinsiplərinə uyğun olaraq mədəni davamlılığı dəstəkləyir (14). Müasir idarəetmədə festivalların ekoloji təsirlərinin azaldılması da mühüm əhəmiyyət kəsb edir. ISO 20121 standartı tədbirlərin dayanıqlı idarə olunmasını təmin edən beynəlxalq çərçivə kimi qəbul edilir, tullantıların azaldılması və resursların səmərəli istifadəsi kimi prinsipləri əhatə edir (15,16,17). Marketinq baxımından festivallar destinasiya brendinin formalaşmasında əsas vasitədir. Mövsümilik probleminin aradan qaldırılması üçün tədbirlər turizmi ən effektiv mexanizmlərdən biri hesab olunur (18). Şahdağ və Tufandağ kimi dağ kurortlarında keçirilən qış festivalları, eləcə də Xəzər sahilində təşkil olunan yay musiqi tədbirləri turizm infrastrukturunun ilboyu istifadəsini təmin edir və otellərin doluluq səviyyəsini artırır (19). Festivallar vasitəsilə formalaşan "festival şəhəri" imici destinasiyanın beynəlxalq mediada görünürlüyünü artırır və potensial turistlərdə uzunmüddətli psixoloji bağlılıq yaradır (20,12).

ƏDƏBİYYATLARA BAXIŞ

Festival və tədbirlər turizmi müasir akademik yanaşmalarda multidissiplinar xarakter daşıyır və bu sahə iqtisadiyyat, sosiologiya, marketinq və şəhər planlaşdırılması kimi elmi istiqamətlərin kəsişməsində formalaşır. Getz qeyd edir ki, festival turizmi təkcə müvəqqəti turizm axını yaradan bir fəaliyyət deyil, həm də destinasiya inkişafının struktur elementlərindən biri kimi çıxış edir və uzunmüddətli sosial-iqtisadi dəyişikliklərə təsir göstərir (2008). Bu kontekstdə, iqtisadi təsirlər üzrə aparılan tədqiqatlarda festivalların yaratdığı birbaşa və dolayı maliyyə axınlarına xüsusi diqqət yetirilir. Keynes tərəfindən irəli sürülən iqtisadi multiplikator nəzəriyyəsinə əsasən, turizm xərcləri yerli iqtisadiyyatda dövriyyəyə daxil olaraq əlavə gəlir və məşğulluq yaradır (1936). Archer bu yanaşmanı turizm sektoruna tətbiq edərək göstərir ki, turist xərclərinin hər vahidi iqtisadi sistemdə zəncirvari artım effekti yaradır (1982). Bununla yanaşı, Tosun vurğulayır ki, əgər turizm fəaliyyəti xarici resurslardan yüksək asılılıq yaradırsa, iqtisadi sızıntı effekti güclənir və multiplikator təsiri zəifləyir (2001). Sosial müstəvidə festival turizmi Sosial Mübadilə Nəzəriyyəsi çərçivəsində təhlil edilir. Ap qeyd edir ki, yerli icma turizmdən əldə etdiyi faydaları çəkilən sosial və ekoloji xərclərdən üstün qiymətləndirdikdə turizmə münasibət müsbət olur və bu, sektorun davamlı inkişafını təmin edir (1992). Eyni zamanda, Richards və Palmer göstərirlər ki, festivallar yerli icmanın sosial birliyini gücləndirir və mədəni irsin qorunmasına töhfə verir (2010). Marketinq və destinasiya idarəetməsi sahəsində festivallar destinasiya brendinqinin əsas alətlərindən biri kimi qiymətləndirilir. Morgan, Pritchard və Pride qeyd edirlər ki, festivallar destinasiya imicini formalaşdıran və qlobal mediada görünürlüğü artıran strateji vasitədir (2011). Bu proses nəticəsində yaranan müsbət reputasiya "halo effekti" yaradır və bütövlükdə regionun cəlbediciliyini artırır.

Son illərin tədqiqatlarında dayanıqlılıq məsələsinə xüsusi diqqət yetirilmişdir. Dünya Turizm Təşkilatı vurğulayır ki, turizm inkişafı yalnız iqtisadi artımla deyil, həm də ekoloji və sosial balansla ölçülməlidir (UNWTO, 2023). ISO 20121 standartı tədbirlərin dayanıqlı idarə olunması üçün beynəlxalq çərçivə təqdim edir və resursların səmərəli istifadəsini, tullantıların azaldılmasını və ekoloji təsirin minimuma endirilməsini tələb edir. Eyni zamanda, Butler tərəfindən irəli sürülən turizm daşıma gücü konsepsiyası göstərir ki, həddindən artıq turizm fəaliyyəti uzunmüddətli

dövrdə həm təbii, həm də sosial mühitə mənfi təsir göstərə bilər (1980). Bu nəzəri yanaşmalar göstərir ki, festival və tədbirlər turizmi yalnız iqtisadi artım mexanizmi deyil, həm də sosial strukturun formalaşması, mədəni identikliyin qorunması və dayanıqlı inkişafın təmin olunmasında kompleks rol oynayan multidissiplinar bir sahədir.

MATERİAL VƏ METODLAR

Bu tədqiqat festival və tədbirlər turizminin turizm destinasiyalarına təsirinin kompleks şəkildə qiymətləndirilməsi məqsədilə keyfiyyət yönümlü tədqiqat yanaşmasına əsaslanır. Tədqiqat çərçivəsində həm nəzəri, həm də empirik mənbələrdən istifadə edilmiş və mövcud elmi yanaşmalar sistemli şəkildə təhlil olunmuşdur. Creswell (2014) qeyd edir ki, keyfiyyət tədqiqatları sosial hadisələrin mahiyyətini dərindən anlamağa imkan verdiyi üçün turizm kimi çoxşaxəli sahələrin araşdırılmasında effektiv metodoloji yanaşma hesab olunur.

Tədqiqatın əsas material bazasını beynəlxalq elmi nəşrlər, monoqrafiyalar və institusional hesabatlar təşkil edir. Bu çərçivədə festival və tədbirlər turizmi sahəsində aparıcı tədqiqatçılardan olan Getz [2008], Richards və Palmer [2010], eləcə də Morgan, Pritchard və Pride [2011] tərəfindən təqdim olunan nəzəri yanaşmalar sistemləşdirilmiş və müqayisəli şəkildə təhlil edilmişdir. Bundan əlavə, Dünya Turizm Təşkilatının rəsmi hesabatları turizmin iqtisadi və sosial təsirlərinin qiymətləndirilməsi baxımından əsas empirik mənbə kimi istifadə olunmuşdur [UNWTO, 2023].

Metodoloji baxımdan tədqiqatda müqayisəli təhlil və nümunə araşdırması yanaşmaları tətbiq edilmişdir. Yin [2018] vurğulayır ki, nümunə araşdırması metodu konkret hadisələrin real kontekstdə dərindən öyrənilməsinə imkan verir və bu baxımdan turizm tədbirlərinin təsirinin analizində geniş istifadə olunur. Bu yanaşmaya əsaslanaraq, Azərbaycan kontekstində Göyçay Nar Festivalı, Qəbələ Musiqi Festivalı və Bakıda keçirilən beynəlxalq tədbirlər nümunə kimi seçilmiş və onların iqtisadi, sosial və marketinq təsirləri təhlil edilmişdir.

Tədqiqat zamanı məlumatların işlənməsi üçün analitik ümumiləşdirmə və məntiqi sintez metodlarından istifadə olunmuşdur. Bu yanaşma müxtəlif mənbələrdən əldə olunan nəticələrin vahid nəzəri çərçivədə birləşdirilməsinə imkan vermişdir. Eyni zamanda, deduktiv analiz metodu vasitəsilə mövcud nəzəriyyələrin konkret regional nümunələr üzərində tətbiqi həyata keçirilmişdir ki, bu da əldə olunan nəticələrin əsaslandırılmasını gücləndirmişdir [Bryman, 2016].

Beləliklə, istifadə olunan materiallar və tətbiq edilən metodlar festival və tədbirlər turizminin çoxşaxəli təsirlərinin sistemli və elmi əsaslandırılmış şəkildə təhlilinə imkan vermişdir.

MÜZAKİRƏ

Festival və tədbirlər turizminin destinasiya menecmentində rolu bir çox tədqiqatçı tərəfindən müsbət qiymətləndirilsə də, bu sahənin praktik tətbiqində müəyyən ziddiyyətli məqamlar ortaya çıxır. Getz qeyd edir ki, tədbirlər turizmi düzgün planlaşdırılmadıqda gözlənilən iqtisadi və sosial faydalar tam reallaşmaya bilər və bu, xüsusilə inkişaf etməkdə olan destinasiyalarda daha aydın müşahidə olunur (2008).

İqtisadi baxımdan, festivalların yaratdığı multiplikator effekti nəzəri olaraq yüksək qiymətləndirilsə də, onun real təsiri yerli iqtisadiyyatın struktur imkanlarından asılıdır. Turist xərcləri iqtisadi sistemdə zəncirvari artım yaradır (Keynes, 1936). Lakin tədbirlərin təşkili üçün tələb olunan resursların xaricdən təmin edilməsi, gəlirlərin əhəmiyyətli hissəsinin regiondan kənara çıxmasına səbəb olur və bu vəziyyət iqtisadi sızıntı effektini gücləndirir (Archer, 1982; Tosun, 2001). Azərbaycan təcrübəsində, bu fərq açıq şəkildə müşahidə olunur. Bakıda keçirilən Formula 1 Azərbaycan Qran Prisi kimi iri miqyaslı tədbirlər beynəlxalq səviyyədə yüksək görünürlük qazandırsa da, texniki və təşkilati baxımdan xarici asılılıq səbəbindən, iqtisadi faydanın bir hissəsi ölkə xaricinə yönəlir. Bunun əksinə olaraq, Qəbələ Musiqi Festivalı və Göyçay Nar Festivalı kimi

tədbirlər yerli istehsal və xidmət sektorlarını birbaşa iqtisadi dövriyyəyə cəlb edərək, daha dayanıqlı və daxili yönümlü təsir yaradır.

Sosial aspektdə, festivalların uğuru yerli icmanın münasibəti ilə birbaşa bağlıdır. Yerli əhali turizmin gətirdiyi iqtisadi və mədəni faydaları mənfi təsirlərdən üstün hesab etdikdə, bu sahəyə dəstək artır (Ap, 1992). Bununla yanaşı, turizm inkişafı nəzarətsiz şəkildə artdıqda, yerli icmanın münasibəti müsbət mərhələdən narazılıq mərhələsinə keçə bilər (Doxey, 1975). Azərbaycan kontekstində, festivallar çox vaxt mədəni dirçəliş və milli identiklik elementi kimi qəbul edilir. Şuşada keçirilən "Xarıbülbül" festivalı bu baxımdan nümunə təşkil edir və burada mənəvi fayda fiziki narahatlıqları üstələyir. Lakin şəhər mühitində sıxlıq, qiymət artımı və sosial gərginlik kimi problemlərin yaranması qaçılmaz olur, əgər daşıma gücü konsepsiyası nəzərə alınmazsa (Butler, 1980).

Dayanıqlılıq məsələsi müasir tədqiqatlarda xüsusi yer tutur. Turizm fəaliyyəti yalnız iqtisadi artım baxımından deyil, həm də ekoloji və sosial balans çərçivəsində qiymətləndirilməlidir (UNWTO, 2023). Kütləvi tədbirlər qısa müddətdə böyük həcmdə tullantı yarada bilər və bu, ekoloji yükü artırır (Mair və Laing, 2012). Bu baxımdan, tədbirlərin idarə olunmasında beynəlxalq standartların tətbiqi mühüm əhəmiyyət daşıyır. Resursların səmərəli istifadəsi, tullantıların azaldılması və ekoloji təsirin minimuma endirilməsi üçün əsas çərçivə ISO 20121 standartında təqdim olunur (ISO, 2012). Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin yaşıl enerji zonası kimi inkişaf etdirilməsi perspektivi, bu regionlarda keçiriləcək festivalların daha ekoloji yönümlü təşkilini zəruri edir və davamlı idarəetmə yanaşmalarını ön plana çıxarır.

Marketinq baxımından, festivallar destinasiya imicinin formalaşmasında mühüm rol oynayır. Uğurlu tədbirlər destinasiyanın beynəlxalq səviyyədə tanınmasını gücləndirir və uzunmüddətli reputasiya effekti yaradır (Morgan, Pritchard və Pride, 2011). Bu təsir nəticəsində formalaşan müsbət imic, gələcək turist axınını stimullaşdırır və destinasiyanın rəqabət qabiliyyətini artırır. Rəqəmsal platformalar vasitəsilə yayımlanan tədbirlər potensial turistlərdə maraq yaradır və onların gələcək səyahət qərarlarına təsir edir (Buhalis və Amaranggana, 2015). Azərbaycan nümunəsində, Bakı Caz Festivalı və Nəsimi Festivalı kimi tədbirlər rəqəmsal mühitdə geniş auditoriyaya çataraq, destinasiyanın mədəni imicini gücləndirir və gələcək turizm axınları üçün zəmin yaradır.

Beləliklə, mövcud tədqiqatların təhlili göstərir ki, festival və tədbirlər turizmi yalnız müsbət təsir yaradan mexanizm deyil, həm də düzgün idarə olunmadıqda, iqtisadi, sosial və ekoloji risklər yaradan kompleks bir sistemdir. Bu səbəbdən, onun effektivliyi yerli resurslardan istifadə səviyyəsi, icma ilə qarşılıqlı münasibət, ekoloji məsuliyyət və strateji planlaşdırma kimi amillərdən birbaşa asılıdır.

NƏTİCƏ

Festival və tədbirlər turizmi yalnız qısamüddətli cəlbedicilik deyil, həm də regionların sosial-iqtisadi inkişafını təmin edən strateji mexanizmdir. Düzgün idarə olunduqda, bu sahə uzunmüddətli iqtisadi, sosial və mədəni təsir yaradır (Getz, 2008).

Festival turizmi regionda iqtisadi dövriyyəni artırır və multiplikator effektini gücləndirir (Archer və Keynes, 1982; 1936). Xarici asılılıq yüksək olduqda bu təsir azalır (Tosun, 2001). Azərbaycanın festival nümunələri isə yerli resursların aktivliyini stimullaşdırır və davamlı iqtisadi artıma töhfə verir (BMT, 2015).

Festivallar infrastrukturun modernizasiyasını və şəhər inkişafını sürətləndirir, yaradılan infrastruktur uzunmüddətli iqtisadi dəyər yaradır (Butler və Getz, 1980; 2008). Bakıdakı beynəlxalq tədbirlər bunun nümunəsidir (BMT, 2015).

Festivallar sosial və mədəni baxımdan icma dəstəyini artırır, mədəni irsi qoruyur və ölkənin beynəlxalq imicini gücləndirir (Ap, 1992; Richards və Palmer, 2010).

Dördüncü istiqamət ekoloji və dayanıqlılıq məsələlərini əhatə edir. Dünya Turizm Təşkilatı vurğulayır ki (UNWTO, 2023), turizmin inkişafı yalnız iqtisadi deyil, həm də ekoloji balans nəzərə alınmaqla qiymətləndirilməlidir. Mair və Laing göstərir ki (2012), kütləvi tədbirlər ekoloji yük yaradır və bu təsirin idarə olunması zəruridir. ISO 20121 standartı bu sahədə beynəlxalq idarəetmə çərçivəsi təqdim edərək resursların səmərəli istifadəsini və tullantı

ların azaldılmasını tələb edir (ISO, 2012). Bu yanaşma Birləşmiş Millətlər Təşkilatının on ikinci Dayanıqlı İnkişaf Məqsədinə — məsuliyyətli istehlak və istehsala tam uyğun gəlir (BMT, 2015). Azərbaycanın gələcək "yaşıl turizm" strategiyası çərçivəsində festivalların ekoloji dayanıqlılıq prinsipləri əsasında təşkili həm təbiətin qorunmasına, həm də beynəlxalq imicin güclənməsinə xidmət edəcək.

Beləliklə, festival və tədbirlər turizmi iqtisadi, sosial, mədəni və ekoloji baxımdan əhəmiyyətlidir və yerli resurslardan səmərəli istifadə ilə dayanıqlı inkişaf üçün vacibdir.

ƏDƏBİYYAT SİYAHISI

1. Archer, B. H. (1982). The value of multipliers and their policy implications. Tourism Management, 3(4), 236–241. https://doi. org/10. 1177/004728758202000211
2. Bryman, A. (2016). Social research methods (5th ed.). Oxford University Press. https://global. oup. com/ukhe/product/social-research-methods-9780199689453
3. Buhalis, D. , & Amaranggana, A. (2015). Smart tourism destinations: Enhancing tourism experience through personalisation of services. In I. Tussyadiah & A. Inversini (Eds.), Information and communication technologies in tourism 2015 (pp. 377–389). Springer. https://doi. org/10. 1007/978-3-319-14343-9_12
4. Butler, R. W. (1980). The concept of a tourist area cycle of evolution: Implications for management of resources. Canadian Geographer, 24(1), 5–12. https://doi. org/10. 2307/2569346
5. Creswell, J. W. (2014). Research design: Qualitative, quantitative, and mixed methods approaches (4th ed.). SAGE Publications. https://us. sagepub. com/en-us/nam/research-design/book246125
6. Doxey, G. V. (1975). A causation theory of visitor–resident irritants: Methodology and research inferences. In The impact of tourism (pp. 195–198).
7. Mair, J. , & Laing, J. H. (2012). The greening of music festivals: Motivations, barriers and outcomes. Journal of Sustainable Tourism, 20(5), 683–700. https://doi. org/10. 1080/14766825. 2012. 634867
8. Pine, B. J. , & Gilmore, J. H. (1999). The experience economy: Work is theatre & every business a stage. Harvard Business Review Press. https://www. hbs. edu/faculty/Pages/item. aspx?num=25701
9. Richards, G. , & Palmer, R. (2010). Eventful cities: Cultural management and urban revitalisation. Routledge. https://www. routledge. com/Eventful-Cities-Cultural-Management-and-Urban-Revitalisation/Richards-Palmer/p/book/9780750669875
10. United Nations World Tourism Organization. (2023). Tourism statistics. https://www. unwto. org/statistics
11. Yin, R. K. (2018). Case study research and applications: Design and methods (6th ed.). SAGE Publications. https://us. sagepub. com/en-us/nam/case-study-research-and-applications/book250150

12. Ap, J. (1992). Residents' perceptions on tourism impacts. Tourism Management, 13(3), 206–214. https://doi. org/10. 1016/0261-5177(92)90041-8 [16]
13. Getz, D. (2008). Event tourism: Definition, evolution, and research. Tourism Management, 29(3), 403–428. https://doi. org/10. 1016/j. tourman. 2008. 01. 022 [19]
14. International Organization for Standardization. (2012). ISO 20121:2012 event sustainability management systems. https://www. iso. org/standard/50036. html [18]
15. Keynes, J. M. (1936). The general theory of employment, interest and money. Macmillan. https://www. macroeconomics. tu-dortmund. de/cms/en/Keynes_General_Theory. pdf [12]
16. Morgan, N. , Pritchard, A. , & Pride, R. (2011). Destination brands: Managing place reputation (3rd ed.). Routledge. https://www. routledge. com/Destination-Brands-Managing-Place-Reputation-3rd-Edition/Morgan-Pritchard-Pride/p/book/9780080969300 [20]
17. Tosun, C. (2001). Challenges of sustainable tourism development in the developing world: The case of Turkey. Tourism Management, 22(3), 289–303. https://doi. org/10. 1016/S0261-5177(00)00048-7 [14]
18. United Nations. (2015a). Sustainable consumption and production. https://sdgs. un. org/goals/goal12 [17]
19. United Nations. (2015b). Transforming our world: The 2030 agenda for sustainable development. https://sdgs. un. org/goals/goal8 [13]
20. UN-Habitat. (2020). World cities report: The value of sustainable urbanization. https://unhabitat. org/World-Cities-Report-2020 [15]

TURİZM SƏNAYESİNDƏ DAVAMLILIQ VƏ İQTİSADİ DAYANIQLILIQ ARASINDA ƏLAQƏ

The relationship between sustainability and economic resilience in the tourism industry

ASİF ABDULLAYEV
Asif Abdullayev
asifabdullayev@ndu. edu. az
https://orcid. org/0009-0002-2551-7797
Naxçıvan Dövlət Universiteti
Nakhchıvan State Unıversıty

XÜLASƏ

Bu məqalədə turizm sənayesində davamlılıq və iqtisadi dayanıqlılıq arasındakı qarşılıqlı əlaqənin təhlili aparılır. Müasir dövrdə turizm sektorunun sürətlə inkişaf etməsi, bu sahədə davamlılıq məsələlərinin aktuallaşmasına səbəb olmuşdur. Davamlı turizm, yalnız ətraf mühitin qorunması və mədəni irsin saxlanılması ilə məhdudlaşmır, həm də sosial və iqtisadi aspektləri ilə cəmiyyətlərin rifahına, regionların davamlı inkişafına töhfə verir. Məqalənin məqsədi, davamlılıq prinsiplərinin turizm sənayesində tətbiqinin iqtisadi dayanıqlılığa necə təsir etdiyini müəyyənləşdirmək və bu sahədə mövcud təcrübələri təhlil etməkdir. Tədqiqatda həm yerli, həm də xarici ədəbiyyat araşdırılmış, müxtəlif ölkələrin təcrübələri müqayisə olunmuşdur. Nəticələr göstərir ki, davamlılıq yanaşmaları tətbiq olunan regionlarda turizm gəlirlərinin sabitliyi və iqtisadi göstəricilərin müsbət dinamikası müşahidə olunur. Yerli icmaların prosesə cəlb olunması, ekoloji və sosial məsuliyyətin artırılması iqtisadi dayanıqlılığın əsasını təşkil edir. Məqalədə həmçinin, davamlı turizmin gələcək inkişaf perspektivləri, mövcud çağırışlar və bu istiqamətdə aparılan islahatlar da təhlil edilir. Ümumilikdə, davamlılıq prinsiplərinin turizm sektorunda geniş tətbiqi, uzunmüddətli iqtisadi sabitliyin və sosial rifahın təmin olunmasında mühüm rol oynayır. Bu nəticələr, siyasətçilər və sektor iştirakçıları üçün praktiki tövsiyələr təqdim edir və gələcək tədqiqatlar üçün möhkəm baza yaradır.

Açar sözlər: *davamlı turizm, iqtisadi dayanıqlılıq, turizm sənayesi, ekoturizm, yerli inkişaf*

ABSTRACT

This article analyses the interrelationship between sustainability and economic resilience in the tourism industry. The rapid development of the tourism sector in the modern era has made sustainability issues increasingly relevant in this field. Sustainable tourism is not limited to the protection of the environment and preservation of cultural heritage but also contributes to the welfare of societies and the sustainable development of regions through its social and economic aspects. The aim of the article is to determine how the application of sustainability principles in the tourism industry affects economic resilience and to analyse existing practices in this area. The research reviews both local and foreign literature and compares the experiences of different countries. The results show that in regions where sustainability approaches are implemented, there is stability in tourism revenues and positive dynamics in economic indicators. The involvement of local communities in the process and increased ecological and social responsibility form the basis of economic resilience. The article also examines the future development prospects of sustainable tourism, current challenges, and reforms carried out in this direction. Overall, the broad application of sustainability principles in the tourism sector plays a crucial role in ensuring long-term economic stability and social welfare. These findings provide practical recommendations for policymakers and sector participants and create a solid foundation for future research.

Keywords: *sustainable tourism, economic resilience, tourism industry, ecotourism, local development*

GİRİŞ

Müasir dünyada turizm sənayesi iqtisadiyyatın ən sürətlə inkişaf edən və dinamik sektorlarından biri kimi çıxış edir. Turizmin iqtisadiyyata verdiyi töhfə yalnız milli gəlirin və məşğulluğun artırılması ilə məhdudlaşmır, həmçinin regionların sosial-mədəni inkişafına, yerli icmaların rifahının yüksəldilməsinə, infrastrukturun yenilənməsinə və yeni biznes imkanlarının yaranmasına səbəb olur. Lakin turizm sənayesinin sürətli inkişafı ilə yanaşı, bu sahənin ətraf mühitə, mədəni irsə və yerli icmalara təsiri məsələsi də diqqət mərkəzinə çəkilmişdir. Bu kontekstdə davamlılıq anlayışı turizm sektorunda əsas prioritetlərdən birinə çevrilmişdir.

Davamlı turizm, BMT-nin Ümumdünya Turizm Təşkilatı (UNWTO) tərəfindən "indiki və gələcək nəsillərin iqtisadi, sosial və ekoloji ehtiyaclarını nəzərə alaraq resurslardan istifadə edən və bu ehtiyacların təmin olunmasını hədəfləyən" yanaşma kimi müəyyənləşdirilir (UNWTO, 2022). Bu konsepsiya yalnız ətraf mühitin qorunması ilə deyil, həm də iqtisadi və sosial sabitliyin təmin olunması ilə xarakterizə olunur. Davamlılıq prinsiplərinin turizmdə tətbiqi, sektorun uzunmüddətli inkişafını və rəqabətqabiliyyətliliyini təmin edir. Çünki davamlı turizm layihələri, təbii və mədəni resursların səmərəli idarə olunmasına, yerli icmaların maraqlarının qorunmasına və gəlir mənbələrinin şaxələnməsinə şərait yaradır (Gössling et al. , 2015; Weaver, 2012).

Azərbaycanda və ümumilikdə region ölkələrində turizmin davamlı inkişafı dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilmişdir. Burada məqsəd, təbiətə və mədəni irsə zərər vermədən iqtisadi inkişafı təşviq etmək və yerli sakinlərin həyat səviyyəsini yaxşılaşdırmaqdır (Əliyev, 2021). Davamlılıq və iqtisadi dayanıqlılıq arasındakı əlaqə isə, turizm fəaliyyətindən əldə olunan gəlirlərin davamlı və sabit olmasında, yeni iş yerlərinin yaradılmasında və yerli iqtisadiyyatların şaxələndirilməsində özünü göstərir. Xüsusilə ekoturizm, aqroturizm və mədəni turizm kimi istiqamətlər davamlılıq baxımından üstünlüklərə malikdir və iqtisadi dayanıqlılığın artırılmasına imkan verir. Xarici ölkələrin təcrübəsi də göstərir ki, davamlılıq prinsiplərinə əsaslanan turizm inkişafı, iqtisadi böhranlardan və digər qeyri-müəyyənliklərdən sektoru daha yaxşı qoruyur (Bramwell & Lane, 2011).

Bu məqalənin məqsədi, turizm sənayesində davamlılıq və iqtisadi dayanıqlılıq arasındakı əlaqəni araşdırmaq, mövcud yerli və xarici elmi ədəbiyyatları və praktiki təcrübələri təhlil etmək, əldə olunan nəticələr əsasında tövsiyələr təqdim etməkdir. Məqalədə həm nəzəri, həm də praktik yanaşmalar birgə təhlil ediləcək, davamlı turizm modelinin iqtisadi sabitliyə təsiri müxtəlif aspektlərdən qiymətləndiriləcəkdir.

METODOLOGIYA

Tədqiqatın aparılmasında əsasən deskriptiv (təsviri) və analitik metodlardan istifadə olunmuşdur. Əvvəlcə, davamlı turizm və iqtisadi dayanıqlılıq mövzusu üzrə mövcud yerli və xarici ədəbiyyatın sistemli icmalı həyata keçirilmişdir. Bu məqsədlə elmi məqalələr, monoqrafiyalar, beynəlxalq təşkilatların (BMT, UNWTO və s.) hesabatları, statistik məlumat bazaları və rəsmi dövlət qurumlarının analitik materialları təhlil olunmuşdur. Ədəbiyyat seçərkən son illərdə nəşr olunmuş, aktual tədqiqatlara və praktik nümunələrə üstünlük verilmişdir (Gössling et al. , 2015; Əliyev, 2021; Weaver, 2012).

Metodoloji yanaşmada, həm kəmiyyət, həm də keyfiyyət göstəriciləri nəzərə alınmışdır. Müxtəlif ölkələrin, xüsusilə Azərbaycan və Avropa dövlətlərinin turizm sektorunda tətbiq edilən davamlılıq tədbirləri və onların iqtisadi dayanıqlılığa təsiri müqayisəli şəkildə təhlil edilmişdir. Statistik məlumatlar əsasında turizm gəlirlərinin dinamikası, yeni iş yerlərinin yaradılması və yerli icmaların rifah səviyyəsində baş verən dəyişikliklər araşdırılmışdır.

Bundan əlavə, tədqiqatda müxtəlif tədqiqatçıların və təşkilatların apardığı araşdırmaların, həmçinin praktik layihələrin nəticələri nəzərə alınmış, davamlılıq prinsiplərinin iqtisadi sabitliyə təsiri üzrə ümumi tendensiyalar müəyyən edilmişdir. Məqalənin nəticələri elmi əsaslara söykənməklə yanaşı, real təcrübəyə əsaslanan praktiki tövsiyələrə də yer verir.

ƏDƏBİYYAT İCMALI

Mövcud ədəbiyyat davamlı turizmin iqtisadi dayanıqlılığa təsiri ilə bağlı çoxşaxəli yanaşmalar təqdim edir. UNWTO-nun (2022) hesabatında vurğulanır ki, davamlı turizm iqtisadi artım, sosial rifah və ətraf mühitin qorunması üçün əsas mexanizmlərdən biridir. Bu sənəddə qeyd olunur ki, davamlı turizm modelləri tətbiq olunan ölkələrdə regionların iqtisadi sabitliyi və yerli əhalinin

sosial rifahı daha yüksək səviyyədə təmin olunur. Gössling və həmkarlarının (2015) tədqiqatları isə turizm sektorunda su resurslarının idarə olunması, ekoturizmin inkişafı və yerli icmaların iştirakı məsələlərinə diqqət yetirir. Onların fikrincə, davamlılıq prinsiplərinin tətbiqi turizm sənayesinin uzunmüddətli iqtisadi sabitliyinə və rəqabətqabiliyyətliliyinə zəmin yaradır.

Azərbaycanda aparılan tədqiqatlarda (Əliyev, 2021; Quliyev, 2022; Məmmədov, 2020) davamlı turizmin inkişafı ilə yerli icmaların iqtisadi rifahı, yeni iş yerlərinin yaradılması və xidmət sektorunun genişlənməsi arasında birbaşa əlaqə vurğulanır. Həmçinin, bu tədqiqatlarda qeyd olunur ki, davamlı turizm təşəbbüsləri regionların sosial-iqtisadi inkişafını stimullaşdırmaqla yanaşı, ekoloji mühitin qorunmasına da töhfə verir.

Xarici mütəxəssislər isə davamlı turizm siyasətləri və onların iqtisadi dayanıqlıq baxımından effektivliyini müxtəlif aspektlərdən təhlil edirlər. Bramwell və Lane (2011) davamlı turizmin idarə olunması və sektorun hökumətlər və özəl sektor tərəfindən düzgün istiqamətləndirilməsinin əhəmiyyətini qeyd edirlər. Weaver (2012) davamlı turizmin kütləvi turizmlə də uyğunlaşdırıla biləcəyini və bunun iqtisadi dayanıqlılığa müsbət təsir göstərə biləcəyini önə çəkir. Digər tədqiqatlarda isə (Hunter, 1997; Saarinen, 2006; Liu, 2003) davamlı turizmin nəzəri modelləri, müxtəlif bölgələrdə tətbiqi və qarşılaşılan çətinliklər geniş şəkildə təhlil olunur.

TƏDQİQAT

Bu tədqiqat çərçivəsində davamlı turizm prinsiplərinin iqtisadi dayanıqlılığa təsiri Azərbaycan və bir neçə xarici ölkənin təcrübəsi əsasında təhlil edilmişdir. İlk mərhələdə Azərbaycan turizm sektorundakı davamlılıq strategiyaları və onların yerli iqtisadiyyata təsiri araşdırılmışdır. Yerli mənbələrdən (Əliyev, 2021; Quliyev, 2022) əldə olunan məlumatlar göstərir ki, son illərdə ölkədə ekoturizm və kənd turizminin inkişaf etdirilməsi istiqamətində müxtəlif layihələr həyata keçirilmiş, bu sahəyə dövlət dəstəyi artırılmışdır. Xüsusilə, yeni turist marşrutlarının açılması və təbiətə zərər verməyən turizm obyektlərinin yaradılması, kənd yerlərində yeni iş yerlərinin formalaşmasına və yerli icmaların gəlirlərinin artmasına şərait yaratmışdır. Statistik göstəricilərə görə, davamlı turizm prinsipləri tətbiq olunan regionlarda turizm gəlirlərində daha sabit artım, işsizlik səviyyəsində isə azalma müşahidə olunur (Məmmədov, 2020).

Araşdırmanın növbəti mərhələsində xarici ölkələrin, xüsusilə Avropa ölkələrinin davamlı turizm təcrübələri təhlil olunmuşdur. Gössling və həmkarlarının (2015), Bramwell və Lane-in (2011), Weaver-in (2012) araşdırmaları əsasında müəyyən edilmişdir ki, bu ölkələrdə davamlılıq siyasətləri uzunmüddətli iqtisadi sabitliyin formalaşmasında və turizm sektorunun risklərə qarşı davamlılığının artırılmasında əsas rol oynayır. Məsələn, Skandinaviya ölkələrində reallaşdırılan ekoturizm və təbiətə əsaslanan turizm layihələri, regionun iqtisadi gəlirlərinin şaxələndirilməsinə və yerli bizneslərin inkişafına şərait yaradır. Eyni zamanda, davamlılıq prinsiplərinin tətbiqi nəticəsində sosial məsuliyyət artır, ətraf mühitin qorunması və yerli mədəniyyətin təşviqi ön plana çıxır.

Tədqiqatda həmçinin, beynəlxalq təşkilatların (UNWTO, 2022) hesabatları və statistik məlumatları təhlil olunmuşdur. Bu məlumatlar əsasında müəyyənləşdirilmişdir ki, davamlı turizm strategiyalarının tətbiqi ölkələrin beynəlxalq turizm bazarında rəqabətqabiliyyətini gücləndirir və iqtisadi sabitliyi təmin edir. Keyfiyyətli infrastrukturun qurulması, ekoloji standartlara əməl olunması və yerli icmaların qərar qəbuletmə prosesində iştirakı iqtisadi dayanıqlılığın əsas amilləri kimi çıxış edir.

Sorğu və müsahibələrdən əldə olunan ilkin məlumatlar da tədqiqatın əsasını təşkil edir. Yerli turizm şirkətləri, icma nümayəndələri və turizm ekspertləri ilə keçirilən müsahibələrdə davamlılıq tədbirlərinin tətbiqinin iqtisadi faydaları, bu sahədə mövcud çağırışlar və inkişaf perspektivləri barədə fikirlər toplanmışdır. Respondentlərin əksəriyyəti qeyd edir ki, davamlı turizm

fəaliyyətlərinin genişlənməsi yerli sahibkarlar üçün yeni imkanlar yaradır, sosial rifahı artırır və uzunmüddətli iqtisadi sabitliyi təmin edir.

Ümumilikdə, tədqiqat nəticələri göstərir ki, həm yerli, həm də beynəlxalq səviyyədə davamlılıq prinsiplərinin tətbiqi turizm sənayesində iqtisadi dayanıqlılığın formalaşması üçün zəruri şərtdir. Davamlı turizmə yönəlik dövlət siyasətləri və icma təşəbbüsləri bu istiqamətdə real, ölçülə bilən nəticələr əldə etməyə imkan verir. Araşdırmanın nəticələri həm siyasətçilər, həm də turizm sənayesinin iştirakçıları üçün praktik tövsiyələr və gələcək strategiyaların müəyyənləşdirilməsi baxımından əhəmiyyətli əsas yaradır.

NƏTICƏ

Tədqiqatın nəticələri göstərir ki, turizm sənayesində davamlılıq prinsiplərinin tətbiqi iqtisadi dayanıqlılığın təmin olunmasında mühüm rol oynayır. Araşdırılan yerli və xarici təcrübələrdən aydın olur ki, davamlı turizm modelləri iqtisadi gəlirlərin sabitliyini və artımını təmin etməklə yanaşı, regionların sosial rifahına da müsbət təsir göstərir. Xüsusilə ekoturizm və yerli icmaların aktiv iştirakı ilə həyata keçirilən layihələr işsizlik səviyyəsinin azalmasına, yeni biznes imkanlarının yaranmasına və yerli məhsulların bazara çıxmasına şərait yaradır. Eyni zamanda, davamlılıq yanaşmaları ətraf mühitin qorunmasını təmin etməklə, uzunmüddətli iqtisadi sabitliyin əsasını möhkəmləndirir.

Tədqiqat həmçinin sübut edir ki, davamlı turizm siyasətlərinin formalaşdırılması və tətbiqi dövlət orqanları, özəl sektor və vətəndaş cəmiyyəti arasında effektiv əməkdaşlıq tələb edir. Dövlət tərəfindən ekoloji və sosial standartların yaradılması, infrastrukturun təkmilləşdirilməsi və maarifləndirmə tədbirlərinin həyata keçirilməsi iqtisadi dayanıqlılığın artırılmasına xidmət edir. Özəl sektor və yerli icmalar isə bu prosesdə təşəbbüskar rol oynayaraq, davamlı layihələrin həyata keçirilməsinə töhfə verirlər.

Nəticə etibarilə, davamlılıq prinsiplərinin geniş tətbiqi turizm sektorunun mövcud və gələcək çətinliklərə qarşı daha davamlı və dayanıqlı olmasını təmin edir. Bu, regionların iqtisadi potensialının tam reallaşmasına, sosial rifahın yüksəlməsinə və mədəni-tarixi irsin qorunmasına şərait yaradır. Gələcək tədqiqatlar üçün isə müxtəlif regionlarda davamlı turizmin uzunmüddətli təsirlərinin müqayisəli təhlili və bu sahədə innovativ yanaşmaların öyrənilməsi məqsədəuyğun hesab olunur. Bu nəticələr siyasətçilər, turizm sənayesinin iştirakçıları və tədqiqatçılar üçün praktik baza və strateji istiqamətlər təqdim edir.

ƏDƏBİYYAT SİYAHISI

1. Əliyev, R. (2021). Davamlı turizmin iqtisadi inkişafda rolu. Bakı: Elm.
2. Quliyev, A. (2022). Azərbaycan turizm sektorunda davamlılıq strategiyaları. Azərbaycan Turizm və Menecment Universiteti Jurnalı, 8(2), 45-58.
3. Məmmədov, E. (2020). Turizm və regional iqtisadiyyat: Azərbaycanda davamlı inkişaf. Bakı: İqtisadiyyat Nəşriyyatı.
4. Abasova, S. (2021). İqlim dəyişikliyi və davamlı turizmin perspektivləri. Ekologiya və Turizm, 5(1), 37-45.
5. Hacıyev, F. (2019). Yerli icmaların turizmdə rolu və davamlılıq. Bakı: Təhsil.
6. Gössling, S. , Scott, D. , & Hall, C. M. (2015). Tourism and Water: Interactions, Impacts and Challenges. Channel View Publications.
7. Bramwell, B. , & Lane, B. (2011). Critical research on the governance of tourism and sustainability. Journal of Sustainable Tourism, 19(4-5), 411-421.
8. Weaver, D. B. (2012). Organic, incremental and induced paths to sustainable mass tourism convergence. Tourism Management, 33(5), 1030-1037.

9. UNWTO. (2022). International Tourism Highlights. Madrid: World Tourism Organization.
10. Hall, C. M. (2011). Policy learning and policy failure in sustainable tourism governance: From first- and second-order to third-order change? Journal of Sustainable Tourism, 19(4-5), 649-671.
11. Saarinen, J. (2006). Traditions of sustainability in tourism studies. Annals of Tourism Research, 33(4), 1121-1140.
12. Hunter, W. C. (1997). Sustainable tourism as an adaptive paradigm. Annals of Tourism Research, 24(4), 850-867.
13. Mowforth, M. , & Munt, I. (2015). Tourism and Sustainability: Development, Globalisation and New Tourism in the Third World. Routledge.
14. Sharpley, R. (2009). Tourism development and the environment: Beyond sustainability? Earthscan.
15. Liu, Z. (2003). Sustainable tourism development: A critique. Journal of Sustainable Tourism, 11(6), 459-475.
16. Butler, R. W. (1999). Sustainable tourism: A state-of-the-art review. Tourism Geographies, 1(1), 7-25.

DAYANIQLI TURİZMDƏ İNSAN RESURSLARININ ROLU

The role of human resources in sustainable tourism

AYAN ABBASOVA
Ayan Abbasova
a. abbasova@atmu. edu. az
Azərbaycan Turizm və Menecment Universiteti
Azerbaijan University of Tourism and Management

XÜLASƏ

Bildiyimiz kimi, müasir dövrdə turizm sahəsi ən inkişaf etməkdə olan sahələrdən biridir. Turizm əslində bir fəaliyyət sahəsi olaraq, bütün elm və fəaliyyət sahələrdə özünü biruzə verməkdədir. Bu aspektdən məqalədə müasir dövrün tələblərinə cavab verən insan resurslarının idarə edilməsi strategiyalarının turizm sektorunda necə uyğunlaşdırıldığı təhlil olunur. Bu baxımdan, gücləndirmə anlayışı, onun əhəmiyyəti və davamlı inkişafdakı rolu, eləcə də turizm sənayesinin məqsədləri və iş məmnuniyyətini artırmaq, işdə innovasiya və yaradıcılıq, problemlərin həlli və s. vasitəsilə turist mühitində müştərilərin məmnuniyyətini qazanmaq araşdırılır. Həmçinin onu da qeyd edək ki, dünyanın bir çox iqtisadiyyatı böyük ölçüdə turizm sayəsində uğur qazanır. Turizm sənayesi məşğulluq imkanları yaradır və mədəni qarşılıqlı əlaqəyə töhfə verir. Dünyanın hər yerindən bir çox turist tibbi müalicə almaq, təhsil almaq, dil öyrənmək, işləmək və ya seminarlarda, görüşlərdə və ya konsertlərdə iştirak etmək üçün səyahət edir. Beləliklə, turizm yalnız əyləncə imkanları təmin etmir, həm də bir çox digər həyati əhəmiyyətli sahələrə də töhfə verir. 2025-ci ildə dünyada təxminən 235 milyon insan turizm sənayesində çalışır. Otellərdə turizm işçilərinin əksəriyyəti turizm diplomu olan insanlardan ibarətdir. Turizm işçiləri bütün turizm fəaliyyətləri ilə maraqlanırlar; bu, tur operatorlarından tutmuş otel məsləhətçilərinə, sərnişin hosteslərindən tutmuş otel aşpazlarına qədər geniş iş yeri təmin edən bir sahədir
Tədqiqatın nəticələri göstərdi ki, dünyanın hər yerində mövcud təşkilatlarda işçilərini səmərəliliyi artırmaq və iş sistemlərini təkmilləşdirmək üçün gücləndirmək üçün güclü bir meyl var. Məqalədə yerli və xarici alimlərin əsərlərindən istifadə olunaraq, təklif və tövsiyələr qeyd edilmişdir.

Açar sözlər. *Turizm, insan resursları, dayanıqlı inkişaf, idarəetmə, xidmət*

ABSTRACT

Yapay zekânın algılanan yetkinliğini ölçmeye yönelik ölçek oluşturulurken, bireylerin teknolojik sistemleri ne düzeyde yeterli, etkili ve işlevsel bulduklarını inceleyen araştırmalar temel alınmıştır. Bu kapsamda özellikle algılanan fayda ve performans beklentisi boyutlarına odaklanan Davis (1989) ile Venkatesh ve arkadaşlarının (2003) çalışmaları referans alınmıştır [14,15]. Ölçek maddelerinin uyarlanması sürecinde orijinal ifadelerin anlam bütünlüğünün korunmasına özen gösterilmiş, maddeler turist rehberliği bağlamına uygun hale getirilmiş ve yapay zekâ özelinde yeniden ifade edilmiştir. Böylece ölçek, yapay zekâ teknolojilerinin turist rehberliği alanındaki yeterliliği ve işlevsellik algısını ölçebilecek şekilde düzenlenmiştir. Oluşturulan ifadeler: "Yapay zekâ tabanlı rehberlik uygulamaları destinasyon bilgisi konusunda yeterlidir. " ve "Yapay zekâ sistemleri turistlere tatmin edici bilgi sunabilir. " şeklinde adapte edilmiştir.

Araştırmada iş kaybı algısını ölçmeye yönelik ifadeler ise teknoloji ve otomasyonun iş gücü üzerindeki etkilerine yer veren çalışmalardan uyarlanmıştır. Bu doğrultuda Frey ve Osborne (2017) ve Brougham ve Haar'ın (2018) çalışmaları temel alınmıştır [9,10]. Ölçek, yapay zekâ teknolojilerinin turist rehberliği mesleği açısından oluşturabileceği tehdit algısını, iş gücü ihtiyacında azalma düşüncesini, iş fırsatlarının daralmasına yönelik değerlendirmeleri ve geleceğe ilişkin mesleki endişeleri kapsayacak şekilde yapılandırılmıştır. Ölçek maddelerinin uyarlanması sürecinde kavramsal anlamın korunmasına dikkat edilmiş, ifadeler sektöre özgü bir biçimde yeniden düzenlenmiştir. Oluşturulan ifadeler: "Yapay zekâ teknolojileri mesleğim için tehdit oluşturmaktadır. ", "Gelecekte yapay zekâ nedeniyle rehberlik mesleğine olan ihtiyaç azalabilir. ", "Yapay zekâ yaygınlaştıkça iş bulma imkânım zorlaşabilir. " ve "Mesleğimin geleceği konusunda yapay zekâ nedeniyle endişe duyuyorum. " şeklinde adapte edilmiştir.

Araştırma kapsamında elde edilen veriler Jamovi istatistik programı kullanılarak analiz edilmiştir. Veri analizi sürecinde öncelikle katılımcıların yanıtlarına ilişkin genel eğilimleri ortaya koymak amacıyla tanımlayıcı istatistiklerden yararlanılmış; bu kapsamda ortalama ve standart sapma değerleri hesaplanmıştır. Ölçeklerin iç tutarlılığını belirlemek amacıyla Cronbach Alpha güvenirlik analizi uygulanmıştır. Değişkenler arasındaki ilişkinin yönünü ve düzeyini incelemek için Pearson korelasyon analizi kullanılmış, yapay zekânın algılanan yetkinliğinin iş kaybı algısı üzerindeki etkisini belirlemek amacıyla regresyon analizi gerçekleştirilmiştir. Araştırmada ayrıca katılımcıların demografik özelliklerine göre değişkenlerde anlamlı farklılık olup olmadığını belirlemek amacıyla bağımsız örneklemler t-testi ve tek yönlü varyans analizi uygulanmıştır. Normallik varsayımı, çarpıklık ve basıklık değerleri üzerinden değerlendirilmiştir. Bazı değişkenlerde normal dağılımdan kısmi sapmalar gözlenmesine rağmen, örneklem büyüklüğünün yeterli olması ve Merkezi Limit Teoremi dikkate alınarak parametrik testlerin uygulanması uygun görülmüştür.

BULGULAR

Demografik Bulgular

Araştırmaya katılan bireylerin demografik özellikleri incelendiğinde, katılımcıların %63. 3'ünün erkek, %36. 7'sinin ise kadın olduğu görülmektedir. Yaş dağılımı açısından değerlendirildiğinde, katılımcılarının büyük bir bölümünün %68,0 oranıyla 26–35 yaş aralığında yer

aldığı belirlenmiştir. Bu grubu %20,0 ile 36–45 yaş aralığındaki katılımcılar takip etmektedir. 18–25 yaş grubunda yer alan katılımcıların oranı %10,0 iken, 46 yaş ve üzerindeki katılımcıların oranının %2,0 ile oldukça düşük düzeyde olduğu görülmektedir.

Eğitim düzeylerine göre katılımcıların çoğunluk olarak lisans mezunu olduğu görülmektedir. Sahip oldukları yüzdeler: %86,0'ı lisans, %9,3'ü yüksek lisans ve %4,7'si ön lisans mezunudur. Bu bulgu, araştırma örnekleminin eğitim düzeyi açısından ağırlıklı olarak lisans mezunlarından oluştuğunu göstermektedir.

Mesleki deneyim açısından bakıldığında, katılımcıların önemli bir kısmının %65,3 oranıyla 4–7 yıl arasında mesleki deneyime sahip olduğu görülmektedir. Bunun yanında, 1–3 yıl deneyime sahip katılımcıların oranı %12,7, 1 yıldan az deneyime sahip olanların oranı ise %11,3'tür. 8–11 yıl arasında deneyime sahip katılımcılar %8,7 oranında temsil edilirken, 12 yıl ve üzeri deneyime sahip katılımcıların oranı %2,0 olarak belirlenmiştir. Bu sonuçlar, örneklemin büyük ölçüde orta düzeyde mesleki deneyime sahip turist rehberlerinden oluştuğunu ortaya koymaktadır. Katılımcıların çalışma biçimleri incelendiğinde ise %66,0'ının bağımsız olarak, %34,0'ının ise acenteye bağlı biçimde çalıştığı tespit edilmiştir.

Tablo 1. Araştırmaya Katılanların Demografik Özellikleri

Değişken	Grup	F	%
Cinsiyet	Kadın	55	36,7
	Erkek	95	63,3
Yaş	18-25	15	10,0
	26-35	102	68,0
	36-45	30	20,0
	46 ve üzeri	3	2,0
Eğitim	Ön Lisans	7	4,7
	Lisans	129	86,0
	Yüksek Lisans	14	9,3
Mesleki Deneyim	1 yıldan az	17	11,3
	1-3 yıl	19	12,7
	4-7 yıl	98	65,3
	8-11 yıl	13	8,7
	12 yıl ve üzeri	3	2,0
Çalışma Biçimi	Bağımsız	99	66,0
	Acenteye Bağlı	51	34,0

Ölçeklere Ait Güvenilirlik Analizi Bulguları

Yapılan güvenirlik analizi sonucunda, yapay zekânın algılanan yetkinliği ölçeğinde yer alan bazı maddelerin ölçek ile düşük uyum gösterdiği tespit edilmiştir. Özellikle "tur deneyimini yönetme" ifadesinin çıkarılması Cronbach Alpha değerini anlamlı düzeyde artırmıştır. Bu doğrultuda ölçek iki madde ile yeniden yapılandırılmış ve güvenilir bulunmuştur (α = 0. 775). Yapay zekânın algılanan yetkinliği ölçeğine ilişkin yapılan güvenirlik analizi sonucunda Cronbach Alpha katsayısı 0. 775 olarak bulunmuştur. Bu değer, ölçeğin iyi düzeyde güvenilir olduğunu göstermektedir. Analiz sürecinde ölçek ile düşük uyum gösteren maddeler çıkarılmış ve nihai ölçek iki maddeden oluşacak şekilde yapılandırılmıştır.

Tablo 2. Yapay Zekânın Algılanan Yetkinliği Ölçeğine Ait Güvenirlik Analizi

Ölçek	Madde	Alpha Katsayısı
Yapay Zekânın Algılanan Yetkinliği	2	0. 775

İş kaybı algısı ölçeğine ilişkin yapılan güvenirlik analizi sonucunda Cronbach Alpha katsayısı 0. 814 olarak bulunmuştur. Bu değer, ölçeğin yüksek düzeyde güvenilir olduğunu göstermektedir. Ayrıca madde-toplam korelasyonlarının 0. 60'ın üzerinde olduğu ve herhangi bir maddenin çıkarılmasının ölçek güvenirliğini artırmadığı tespit edilmiştir.

Tablo 3. İş Kaybı Algısı Ölçeğine Ait Güvenirlik Analizi

Ölçek	Madde	Alpha Katsayısı
İş Kaybı Algısı	4	0. 814

Araştırmada değişkenlere ilişkin tanımlayıcı istatistikler incelendiğinde, yapay zekânın algılanan yetkinliği ortalamasının düşük ($\bar{X}$ = 1. 92), iş kaybı algısının ise yüksek düzeyde olduğu ($\bar{X}$ = 4. 21) görülmüştür. Normallik varsayımı çarpıklık ve basıklık değerleri ile değerlendirilmiş olup, bazı değişkenlerde normal dağılımdan sapmalar gözlenmiştir. Ancak örneklem büyüklüğünün 150 olması nedeniyle Merkezi Limit Teoremi dikkate alınarak parametrik testlerin uygulanmasına karar verilmiştir.

Tablo 4. Ölçeklere Ait Tanımlayıcı İstatistikler

Ölçek	Ortalama	Standart Sapma	Çarpıklık	Basıklık
Yapay Zekânın Algılanan Yetkinliği	1. 92	0. 627	1. 12	2. 20
İş Kaybı Algısı	4. 21	0. 649	-2. 45	6. 99

Yapay zekânın algılanan yetkinliği ile iş kaybı algısı arasında negatif ve anlamlı bir ilişki tespit edilmiştir (r = -0. 290, p < . 001). Bu bulgu, yapay zekâ teknolojilerinin daha yetkin algılanmasının, iş kaybı algısını azalttığını göstermektedir.

Tablo 5. Yapay Zekânın Algılanan Yetkinliği ile İş Kaybı Algısı Arasındaki İlişki

Değişkenler	r	p
Yapay Zekânın Algılanan Yetkinliği – İş Kaybı Algısı	-0. 290	<. 001

Yapay zekânın algılanan yetkinliğinin iş kaybı algısı üzerindeki etkisini belirlemek amacıyla basit doğrusal regresyon analizi yapılmıştır. Analiz sonucunda modelin istatistiksel olarak anlamlı olduğu görülmüştür (p < . 001).

Yapay zekânın algılanan yetkinliğinin iş kaybı algısı üzerinde negatif ve anlamlı bir etkisi olduğu tespit edilmiştir (β = -0. 290, p < . 001). Bu bulgu, yapay zekâ teknolojilerinin daha yetkin algılanmasının, iş kaybı algısını azalttığını göstermektedir.

Modelin açıklayıcılık gücü incelendiğinde, yapay zekâ algısının iş kaybı algısındaki varyansın %8. 4'ünü açıkladığı görülmüştür (R^2 = 0. 084). Bu bulgu, iş kaybı algısının yalnızca yapay zekâ algısı ile değil, bireysel ve çevresel faktörlerinde bu algıyı şekillendirdiğini göstermektedir.

Tablo 6. Yapay Zekânın Algılanan Yetkinliğinin İş Kaybı Algısına Etkisi

Değişken	B	Beta	t	p
Sabit	4. 789		29. 14	<. 001
Yapay Zekânın Algılanan Yetkinliği	-0. 300	-0. 290	-3. 69	<. 001
R^2=0. 084				

FARKLILIK ANALİZLERİNE AİT BULGULAR

Cinsiyet ve Çalışma Biçimleri Değişkenine Göre T-Testi Farklılık Analizi

Cinsiyete göre iş kaybı algısında farklılık olup olmadığını belirlemek amacıyla bağımsız örneklemler t-testi yapılmıştır. Analiz sonucunda, cinsiyet grupları arasında istatistiksel olarak anlamlı bir fark olduğu tespit edilmiştir (t = -2. 66, p = . 009). Erkek katılımcıların iş kaybı algısının ($\bar{X}$ = 4. 32) kadın katılımcılara ($\bar{X}$ = 4. 03) göre daha yüksek olduğu grup ortalamalarının karşılaştırılması sonucunda görülmektedir. Etki büyüklüğü değerlendirildiğinde, farkın orta düzeyde olduğu belirlenmiştir (d = 0. 45). Ayrıca Levene testi sonucunda varyansların homojen olmadığı tespit edilmiştir (p < . 05). Bu nedenle sonuçlar bu durum dikkate alınarak yorumlanmıştır.

Tablo 7. Cinsiyete Göre Farklılık Analizi

Grup	Ortalama	t	p	Etki (d)
Kadın	4. 03	-2. 66	. 009	0. 45
Erkek	4. 32			

Katılımcıların çalışma biçimlerine göre iş kaybı algısında farklılık olup olmadığını belirlemek amacıyla bağımsız örneklemler t-testi yapılmıştır. Analiz sonucunda, gruplar arasında istatistiksel olarak anlamlı bir fark bulunmamıştır (t = -0. 496, p = . 621). Grup ortalamaları incelendiğinde, çalışma biçimlerine göre iş kaybı algısının benzer düzeylerde olduğu görülmektedir. Etki büyüklüğü değerlendirildiğinde, farkın oldukça düşük düzeyde olduğu belirlenmiştir (d = 0. 085). Ayrıca Levene testi sonucunda varyansların homojen olmadığı tespit edilmiştir (p < . 05), ancak bu durum sonuçların genel yorumunu etkilememektedir.

Eğitim, Mesleki Deneyim Süresi ve Yaş Değişkenine Göre ANOVA Analizi

Katılımcıların eğitim düzeylerine göre iş kaybı algısında farklılık olup olmadığını belirlemek amacıyla tek yönlü varyans analizi yapılmıştır. Levene testi sonucunda varyansların homojen olmadığı tespit edildiğinden (p < . 05), analizde Welch ANOVA sonuçları dikkate alınmıştır. Analiz sonucunda eğitim düzeylerine göre iş kaybı algısında istatistiksel olarak anlamlı bir farklılık olduğu belirlenmiştir (F = 4. 76, p = . 032).

Tablo 8. ANOVA Analizi Sonuçları

Değişken	F	P	Yorum
Yaş	2. 58	. 123	Anlamlı fark yok
Eğitim	4. 76	. 032	Anlamlı fark var
Deneyim	3. 75	. 035	Anlamlı fark var

Eğitim düzeylerine göre iş kaybı algısındaki farklılığın hangi gruplardan kaynaklandığını belirlemek amacıyla Games-Howell post hoc testi uygulanmıştır. Analiz sonucunda, gruplar arasındaki ikili karşılaştırmalarda istatistiksel olarak anlamlı bir farklılık tespit edilmemiştir (p > . 05). Bu durum, genel olarak eğitim düzeyine göre anlamlı bir farklılık bulunmasına rağmen, bu farkın belirli grup çiftleri arasında açık şekilde ortaya konulamadığını göstermektedir.

Katılımcıların mesleki deneyimlerine göre iş kaybı algısında farklılık olup olmadığını belirlemek amacıyla tek yönlü varyans analizi yapılmıştır. Levene testi sonucunda varyansların homojen olmadığı tespit edildiğinden (p < . 05), analizde Welch ANOVA sonuçları dikkate alınmıştır. Analiz sonucunda mesleki deneyime göre iş kaybı algısında istatistiksel olarak anlamlı bir farklılık olduğu belirlenmiştir (F = 3. 75, p = . 035).

Mesleki deneyime göre iş kaybı algısındaki farklılığın hangi gruplardan kaynaklandığını belirlemek amacıyla Games-Howell post hoc testi uygulanmıştır. Analiz sonucunda, 1 yıldan az

deneyime sahip rehberler ile 1–3 yıl deneyime sahip rehberler arasında (p = . 041) ve 1 yıldan az deneyime sahip rehberler ile 4–7 yıl deneyime sahip rehberler arasında (p = . 008) istatistiksel olarak anlamlı farklılıklar tespit edilmiştir. Elde edilen bulgular, daha az deneyime sahip rehberlerin iş kaybı algısının, orta düzey deneyime sahip rehberlere kıyasla daha düşük olduğunu göstermektedir.

Katılımcıların yaş gruplarına göre iş kaybı algısında farklılık olup olmadığını belirlemek amacıyla tek yönlü varyans analizi yapılmıştır. Levene testi sonucunda varyansların homojen olmadığı tespit edildiğinden (p < . 05), analizde Welch ANOVA sonuçları dikkate alınmıştır. Analiz sonucunda yaş grupları arasında iş kaybı algısı açısından istatistiksel olarak anlamlı bir farklılık bulunmamıştır (F = 2. 58, p = . 123). Bu bulguya göre, yaş değişkeninin iş kaybı algısı üzerinde anlamlı bir etkisinin olmadığı söylenebilir.

TARTIŞMA VE SONUÇ

Bu araştırmada, yapay zekâ tabanlı dijital rehberlik teknolojilerinin turist rehberlerinde iş kaybı algısı üzerindeki etkisi incelenmiştir. Elde edilen bulgular, literatürde sıklıkla dile getirilen "teknoloji kullanımının artmasıyla iş kaybı korkusunun da artacağı" yönündeki genel varsayımdan farklı ve dikkat çekici sonuçlar ortaya koymaktadır. Araştırmanın en önemli bulgularından biri, yapay zekânın algılanan yetkinliği ile iş kaybı algısı arasında negatif ve anlamlı bir ilişkinin tespit edilmesidir. Bu bulgu, yapay zekâ teknolojilerinin turist rehberleri tarafından daha yetkin ve işlevsel algılanmasının, iş kaybı korkusunu artırmak yerine azalttığını göstermektedir. Regresyon analizi sonuçları da bu durumu desteklemekte ve yapay zekânın algılanan yetkinliğinin iş kaybı algısını negatif yönde etkilediğini ortaya koymaktadır.

Başka bir ifadeyle, yapay zekâya ilişkin bilgi, farkındalık ve kullanım potansiyeli arttıkça, bu teknolojilerin mesleki bir tehditten ziyade mesleki süreci destekleyen bir araç olarak değerlendirilme olasılığı güçlenmektedir. Nitekim literatürde de bireylerin yeni teknolojilere yönelik algılarının, söz konusu teknolojileri tehdit ya da fırsat olarak değerlendirmelerinde önemli bir belirleyici olduğu vurgulanmaktadır [14,15]. Benzer şekilde, yapay zekâya ilişkin bilgi düzeyi ve algılanan yetkinlik arttıkça, bu teknolojilerin iş gücünü tamamen ikame eden bir unsur olarak değil, mesleki performansı destekleyen yardımcı bir araç olarak görülmesi daha olası hâle gelmektedir [16].

Bu bağlamda araştırma bulguları, "bilinmeyene yönelik korku" yaklaşımıyla da ilişkilendirilebilir. Yapay zekâ teknolojilerine ilişkin düşük bilgi düzeyi, bireylerde belirsizlik ve kontrol kaybı hissini artırarak iş kaybı korkusunu tetikleyebilir. Buna karşılık, yapay zekânın ne olduğu, nasıl çalıştığı ve turist rehberliği mesleğinde hangi sınırlar içinde kullanılabileceği konusunda farkındalığın artması, daha rasyonel bir değerlendirme sürecini beraberinde getirmektedir. Dolayısıyla yapay zekânın algılanan yetkinliği arttıkça, turist rehberlerinin bu teknolojileri mesleki varlıklarını tehdit eden bir unsur olarak değil, rehberlik hizmetlerinin niteliğini destekleyebilecek tamamlayıcı bir araç olarak değerlendirme eğilimi güçlenmektedir.

Cinsiyet değişkenine göre elde edilen bulgular, erkek turist rehberlerinin kadınlara kıyasla daha yüksek iş kaybı algısına sahip olduğunu göstermektedir. Bu durum, risk algısı ve mesleki rekabet algısının cinsiyete göre farklılaşabileceğini düşündürmektedir. Erkek katılımcıların mesleki tehditleri daha yüksek algılaması, sektördeki rekabetçi bakış açısıyla ilişkilendirilebilir. Bu bulgu, literatürde risk algısının bireysel özelliklere bağlı olarak farklılaşabileceğini ortaya koyan önceki araştırmalarla örtüşmektedir [17].

Çalışma biçimine göre yapılan analizlerde ise anlamlı bir farklılık bulunmamıştır. Bu bulgu, ister bağımsız ister acenteye bağlı çalışılsın, yapay zekâ kaynaklı iş kaybı algısının benzer düzeyde olduğunu göstermektedir. Bu durum, yapay zekâ tehdidinin bireysel çalışma koşullarından ziyade mesleğin genel geleceğine yönelik algılandığını ortaya koymaktadır.

Eğitim düzeyine göre yapılan analizlerde genel düzeyde anlamlı farklılık bulunmasına rağmen, post hoc analizlerde gruplar arasında anlamlı bir farkın belirlenememesi dikkat çekicidir. Bu durum, eğitim düzeyinin iş kaybı algısı üzerinde etkili olabileceğini ancak bu etkinin belirli gruplar arasında keskin şekilde ayrışmadığını göstermektedir.

Mesleki deneyim değişkenine ilişkin bulgular ise oldukça dikkat çekicidir. Orta düzey deneyime sahip rehberlerin (1–7 yıl arası), düşük deneyime sahip rehberlere göre daha yüksek iş kaybı algısına sahip olduğu belirlenmiştir. Bu bulgu, mesleki farkındalık artmasıyla birlikte tehdit algısının da arttığını göstermektedir. Ancak çok yüksek deneyim grubunda bu algının yeniden düşme eğilimi göstermesi, deneyim ile mesleki güven arasındaki ilişkiye işaret etmektedir. Bu bulguyu, literatürde "mesleki olgunluk" ve "algılanan kontrol" kavramları ile açıklayabilmek mümkündür. Bununla birlikte, çok yüksek deneyim düzeyine sahip bireylerde iş kaybı algısının görece daha düşük olması, mesleki güven ve deneyimin koruyucu bir faktör olabileceğini düşündürmektedir [18].

Yaş değişkenine göre ise anlamlı bir farklılık bulunmamıştır. Bu durum, iş kaybı algısının yaşa bağlı bir faktörden ziyade mesleki deneyim ve algısal faktörlerle daha fazla ilişkili olduğunu göstermektedir.

Genel olarak değerlendirildiğinde, araştırma bulguları yapay zekâya yönelik algının iş kaybı korkusunu artırmadığını, aksine belirli koşullar altında azalttığını ortaya koymaktadır. Bu sonuç, teknolojik dönüşümün tehditten ziyade dönüşüm ve uyum süreci olarak ele alınması gerektiğini göstermektedir.

Uygulayıcılara Yönelik Öneriler

- Turist rehberlerine yönelik yapay zekâ farkındalık eğitimleri düzenlenmelidir.
- Yapay zekâ teknolojilerinin rehberlik mesleğinde nasıl kullanılabileceğine yönelik uygulamalı eğitim programları geliştirilmelidir.
- Rehberlerin mesleki rollerini güçlendirmek amacıyla hikâye anlatıcılığı ve deneyim tasarımı becerileri ön plana çıkarılmalıdır.
- Yapay zekayı bir rakip olarak görmek yerine, bu teknolojilerin destekleyici bir araç olarak kullanımına ilişkin stratejiler benimsenmelidir.

Akademik Araştırmalara Yönelik Öneriler

- Gelecek çalışmalarda farklı ülkelerde karşılaştırmalı analizler yapılabilir.
- Nitel araştırmalar ile rehberlerin yapay zekâya yönelik algıları derinlemesine incelenebilir.
- Yapay zekâ kullanımının turist deneyimi üzerindeki etkileri araştırılabilir.
- Daha geniş örneklemlerle yapısal eşitlik modellemesi uygulanabilir.

Politika Yapıcılara Yönelik Öneriler

- Turist rehberliği mesleğinin geleceğine yönelik stratejik planlamalar yapılmalıdır.
- Dijital dönüşüm sürecinde rehberlerin desteklenmesi için mesleki uyum programları geliştirilmelidir.
- Yapay zekâ ve insan rehberliğini birlikte değerlendiren hibrit turizm modelleri teşvik edilmelidir.

KAYNAKÇA

1. Brynjolfsson, E. , & McAfee, A. (2014). *The second machine age: Work progress and prosperity in a time of brilliant technologies*. WW Norton & company.
2. Huang, M. -H. , & Rust, R. T. (2018). Artificial Intelligence in Service. Journal of Service Research, 21(2), 155-172. https://doi. org/10. 1177/1094670517752459

3. Tussyadiah, I. (2020). A review of research into automation in tourism: Launching the Annals of Tourism Research Curated Collection on Artificial Intelligence and Robotics in Tourism. *Annals of tourism research*, *81*, 102883. https://doi. org/10. 1016/j. annals. 2020. 102883
4. Ivanov, S. , & Webster, C. (Eds.). (2019). *Robots, artificial intelligence and service automation in travel, tourism and hospitality*. Emerald Group Publishing.
5. Buhalis, D. , & Law, R. (2008). Progress in information technology and tourism management: 20 years on and 10 years after the Internet—The state of eTourism research. *Tourism management*, *29*(4), 609-623. https://doi. org/10. 1016/j. tourman. 2008. 01. 005
6. Gretzel, U. , Sigala, M. , Xiang, Z. , & Koo, C. (2015). Smart tourism: foundations and developments. *Electronic markets*, *25*(3), 179-188. https://doi. org/10. 1007/s12525-015-0196-8
7. Cohen, E. (1985). The tourist guide: The origins, structure and dynamics of a role. *Annals of tourism research*, 12(1), 5-29. https://doi. org/10. 1016/0160-7383(85)90037-4
8. Ap, J. , & Wong, K. K. (2001). Case study on tour guiding: Professionalism, issues and problems. Tourism management, 22(5), 551-563. https://doi. org/10. 1016/S0261-5177(01)00013-9
9. Frey, C. B. , & Osborne, M. A. (2017). The future of employment: How susceptible are jobs to computerisation?. *Technological forecasting and social change*, 114, 254-280. https://doi. org/10. 1016/j. techfore. 2016. 08. 019
10. Brougham, D. , & Haar, J. (2018). Smart Technology, Artificial Intelligence, Robotics, and Algorithms (STARA): Employees' perceptions of our future workplace. *Journal of Management & Organization*, 24(2), 239–257. https://doi. org/10. 1017/jmo. 2016. 55
11. Li, J. J. , Bonn, M. A. , & Ye, B. H. (2019). Hotel employee's artificial intelligence and robotics awareness and its impact on turnover intention: The moderating roles of perceived organizational support and competitive psychological climate. *Tourism management*, 73, 172-181. https://doi. org/10. 1016/j. tourman. 2019. 02. 006
12. Nam, K. , Dutt, C. S. , Chathoth, P. , Daghfous, A. , & Khan, M. S. (2021). The adoption of artificial intelligence and robotics in the hotel industry: prospects and challenges. *Electron Markets* 31, 553–574. https://doi. org/10. 1007/s12525-020-00442-3
13. Karasar, N. (2012). *Bilimsel araştırma yöntemi [Scientific research methods] (23. baskı)*. Nobel Yayın Dağıtım.
14. Davis, F. D. (1989). Perceived usefulness, perceived ease of use, and user acceptance of information technology. *MIS quarterly*, 13(3), 319-340. https://doi. org/10. 2307/249008
15. Venkatesh, V. , Morris, M. G. , Davis, G. B. , & Davis, F. D. (2003). User acceptance of information technology: Toward a unified view1. *MIS quarterly*, 27(3), 425-478. https://doi. org/10. 2307/30036540
16. Jussupow, E. , Spohrer, K. , Heinzl, A. , & Gawlitza, J. (2021). Augmenting medical diagnosis decisions? An investigation into physicians' decision-making process with artificial intelligence. *Information Systems Research*, 32(3), 713-735. https://doi. org/10. 1287/isre. 2020. 0980
17. Byrnes, J. P. , Miller, D. C. , & Schafer, W. D. (1999). Gender differences in risk taking: A meta-analysis. *Psychological bulletin*, 125(3), 367-383. https://doi. org/10. 1037/0033-2909. 125. 3. 367
18. Ng, T. W. , & Feldman, D. C. (2010). The relationships of age with job attitudes: A meta-analysis. *Personnel psychology*, 63(3), 677-718. https://doi. org/10. 1111/j. 1744-6570. 2010. 01184. x

ARAZ ÇAYI HÖVZƏSİNİN NAXÇIVAN MUXTAR RESPUBLİKASI DAXİLİNDƏ YÜKSƏK DAĞLIĞIN REKREASİYA POTENSİALI

Recreational potential of the high mountains in the Araz river basin within the Naxçivan Autonom Republic

ETİQAT BEKTAŞİ[1]
Etıqat Bektaşı[1]
etiqatbektashi@ndu. edu. com

TÜRKANƏ ƏLİYEVA[1]
Turkan Alıyeva[1]
turkanaaliyeva044@gmail. com

ELNARƏ SEYIDOVA[1]
Elnarə Seyidova[1]
eli.seyid. 77@mail. ru

[1]*Naxçıvan Dövlət Universiteti*
[1]*Nakhchivan State University*

XÜLASƏ

Naxçıvan Muxtar Respublikasının Araz çayı hövzəsinə daxil olan yüksək dağlıq əraziləri zəngin rekreasiya potensialına malikdir. Regionun mürəkkəb dağlıq relyefi, iqlim müxtəlifliyi, zəngin flora və fauna ehtiyatları, eləcə də qədim tarixi-mədəni abidələri onun turizm əhəmiyyətini artırır. İlandağ, Gəmiqaya, Batabat və Qanlıgöl kimi təbii obyektlər həm elmi tədqiqat, həm də ekoturizm baxımından mühüm resurslardır. Lakin bu potensialdan tam istifadə olunması üçün infrastrukturun inkişafı, turizmin planlaşdırılması və elmi əsaslı qiymətləndirmə işlərinin genişləndirilməsi vacibdir. Məqalədə ekoloji baxımdan həssas ərazi olan yüksəkdağlıqda ətraf mühitlə uyğunlaşan, onun bərpasına, qorunmasına yönəlmiş turizmin inkişafı təşviq olunmuşdur.

Açar sözlər: *Naxçıvan, Araz çayı hövzəsi, rekreasiya potensialı, ekoturizm, geoturizm*

ABSTRACT

The high mountainous areas of the Nakhchivan Autonomous Republic, which are part of the Araz River basin, have a rich recreational potential. The region's complex mountainous terrain, climatic diversity, rich flora and fauna, as well as its ancient historical and cultural monuments, enhance its tourism potential. Natural sites such as Ilandag, Gemiqaya, Batabat, and Qanlıgöl are significant resources for both scientific research and ecotourism. However, to fully utilize this potential, it is essential to develop infrastructure, plan tourism, and expand scientific assessments. The article promoted the development of tourism in the highlands, an ecologically sensitive area, that is in harmony with the environment and is aimed at its restoration and protection.

Keywords: *Nakhchivan, Aras River basin, recreational potential, ecotourism, geotourism*

GİRİŞ

Turizm bu gün "dünyanın ən böyük sənayesi, ən böyük iqtisadi fəaliyyəti" kimi dəyərləndirilir. Digər tərəfdən, onun beynəlxalq miqyası nəzərə alındıqda, "ən böyük əhali hərəkəti (miqrasiya)" olduğu da şübhə doğurmur. Bütün bu xüsusiyyətlərə əlavə olaraq, turizmin "məkan istehlakından məsul olan əsas amil" olduğu faktı da nəzərə alınarsa, onun tərifində yer alan "münasibətlər və hadisələr bütünü" ifadəsi turizmin mahiyyətini qısa və dolğun şəkildə əks etdirir (Soykan, 1999, s. 10). Turizm insana xidmət edən və eyni zamanda insan əməyindən ən çox istifadə olunan iqtisadi sahələrdən biridir. Bu səbəbdən indiyədək əsas diqqət daha çox turizmin iqtisadi təsirlərinə yönəldilmişdir. Halbuki turizm müəyyən bir məkanda (təbii və ya mədəni mühitdə) yaranır və inkişaf edir; turistlərə xidmət həmin məkan üzərindən göstərilir, gəlir də buradan əldə olunur. Turizmin gələcəyi isə bu məkanın düzgün və davamlı istifadəsindən asılıdır. Turizmin əsasən rekreasiya yönümlü olması, bu məqsəd üçün ən əlverişli olan təbii məkanların daha intensiv istifadəsinə və təbiətə əsaslanan turizm növlərinin inkişafına səbəb olmuşdur. İnsanların artan tələbatı ilə yanaşı, ölkələrin turizmdən daha çox gəlir əldə etmək istəyi də bu prosesi sürətləndirmiş

və nəticədə ekoloji baxımdan həssas ərazilər belə turizmə cəlb edilmişdir. Lakin həddindən artıq, qeyri-düzgün, nəzarətsiz və plansız istifadə turizmin mənfi ekoloji təsirlərinin meydana çıxmasına səbəb olur. Buna görə də bu gün ətraf mühitlə uzlaşan və onun qorunmasına yönəlmiş turizm növlərinin inkişafı və təşviqi xüsusi əhəmiyyət kəsb edir. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində yerləşən muxtar dövlətdir və əlverişli coğrafi-siyasi mövqeyə malikdir. İran və Türkiyə ilə sərhəddə yerləşməsi, həmçinin Böyük İpək Yolu üzərində qərarlaşması regionun turizm və iqtisadi əhəmiyyətini artırır. Ərazinin 75%-dən çoxu 1000 metr mütləq hündürlükdən yuxarıda yerləşir və burada dağlıq relyef üstünlük təşkil edir. Relyef quruluşuna görə ərazi düzənlik, alçaq dağlıq, orta dağlıq və yüksək dağlıq zonalara bölünür. Xüsusilə yüksək dağlıq zona (2000–3900 m) rekreasiya ehtiyatları ilə zəngindir və regionun əsas turizm potensialını təşkil edir.

TƏHLİL VƏ MÜZAKİRƏ

Araz çayı hövzəsinin Naxçıvan Muxtar Respublikası daxilində rekreasiya potensialının akademik təhlili. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində xüsusi inzibati statusa malik olmaqla yanaşı, əlverişli geosiyasi və geocoğrafi mövqeyi ilə seçilir. Regionun İran İslam Respublikası və Türkiyə Respublikası ilə sərhəd olması, həmçinin qədim Böyük İpək Yolu üzərində yerləşməsi onun tarixi, iqtisadi və turizm əhəmiyyətini artıran əsas amillərdəndir. Bu mövqe Naxçıvanı həm tranzit, həm də regional turizm mərkəzi kimi formalaşdırmaq üçün mühüm potensial yaradır. Həmçinin turizmin bu ərazilərdə inkişafı kənd turizminin də inkişafına dəstək ola bilir. Kənd turizmi planlı şəkildə və müəyyən üstünlüklər nəzərə alınaraq həyata keçirilir. Deməli, onun yaranmasını (inkişafını) yalnız "turistin marağı" və ya "kəndin cəlbediciliyi" ilə izah etmək kifayət deyil. Kənd turizminin formalaşmasında aşağıdakı amillər də mühüm rol oynayır:

1. Yerli əhali üçün əsas və ya əlavə gəlir mənbəyi yaratması;
2. Daxili miqrasiyanın qarşısını almağa kömək etməsi;
3. Şəhər və kənd əhalisi arasında sosial və mədəni əlaqələri gücləndirməsi;
4. Tikililərin və ənənəvi mühiti qorunmasına şərait yaratmaq (Mespiler, 1993).

Kənd turizmində qalma müddətindən daha çox, gedilən məkanın uzaqlığı önəm daşıyır. Hətta 75 km-dən az məsafədə yerləşən yerlərə edilən səfərlər adətən kənd turizmi hesab olunmur (Greffe, 1994). Bu isə Naxçıvan Muxtar Respublikası üçün məlumdur ki, uyğun rəqəmdir.

Naxçıvan MR-in ərazisinin təxminən 75%-dən çoxu 1000 metrdən yüksəkdə yerləşir ki, bu da regionun əsasən dağlıq relyefə malik olduğunu göstərir. Relyefin bu cür yüksək hipsoqrafik quruluşu ərazidə təbii landşaftların şaquli zonallıq üzrə dəyişməsinə səbəb olur. Burada yarımsəhra və quru çöl landşaftlarından başlayaraq, dağ-meşə, alp və subalp çəmənliklərinə, hətta nival-buzlaq qurşağa qədər müxtəlif təbii komplekslər formalaşmışdır. Araz çayı hövzəsi daxilində yerləşən bu landşaft müxtəlifliyi, regionun rekreasiya və ekoturizm ehtiyatlarının formalaşmasında əsas rol oynayır. Xüsusilə yüksək dağlıq zonalarda müşahidə olunan təmiz atmosfer, zəngin hidroloji şəbəkə, mineral bulaqlar və estetik cəhətdən cazibədar relyef formaları turizm fəaliyyətləri üçün əlverişli təbii baza yaradır (İbrahimli, Ş. (2024)

Naxçıvan Muxtar Respublikası iqlim baxımından olduqca mürəkkəb və kontrastlı xüsusiyyətlərə malikdir. Dünyada mövcud olan 11 iqlim qurşağından 7-sinə burada rast gəlinməsi regionun mikroiqlim müxtəlifliyini göstərir. Bu amil həm bitki örtüyünün, həm də fauna aləminin zənginliyini şərtləndirir. Regionda 300-ə yaxın bitki növü, 373 heyvan növü və 226 quş növü qeydə alınmışdır. Bu göstəricilər Naxçıvanın Azərbaycanın ən zəngin bioçeşidlilik regionlarından biri olduğunu təsdiqləyir. Endemik və nadir növlərin mövcudluğu isə ərazinin beynəlxalq ekoloji

əhəmiyyətini artırır. Bu səbəbdən Naxçıvan ərazisi ekoturizm və təbiət əsaslı turizm növlərinin inkişafı üçün xüsusi potensiala malikdir (Musayeva, G. F. (2026).

Təbii komplekslərin qorunması məqsədilə regionda xüsusi mühafizə olunan ərazilər yaradılmışdır. Bunlara Ordubad, Arazboyu və Arpaçay Dövlət Təbiət yasaqlıqları, eləcə də Zəngəzur Milli Parkı daxildir. Xüsusilə Zəngəzur Milli Parkı (keçmiş Həsən Əliyev adına Ordubad Milli Parkı) genişləndirilərək Ordubad, Culfa və Şahbuz rayonlarının dağlıq hissələrini əhatə edir və regionun ən mühüm ekoloji zonalarından biri hesab olunur. Bu ərazilərin həm bioloji, həm də geoloji müxtəlifliyi onların elmi-tədqiqat və turizm baxımından dəyərini artırır. Bununla yanaşı, həmin zonalarda yerləşən tarixi-mədəni abidələr (Gəmiqaya, Əlincəqala, Babək qalası, Xanəgah kompleksi və s.) təbiət və mədəniyyət turizminin inteqrasiyasına imkan yaradır (Hasanzadə, Ü. (2024). Araz çayı hövzəsinin Naxçıvan hissəsində yüksək dağlıq zonalar (2000–3900 m) rekreasiya baxımından ən perspektivli sahələr hesab olunur. Bu ərazilərdə alp və subalp çəmənlikləri, dağ gölləri (Batabat, Qanlıgöl), mineral bulaqlar və nadir landşaft formaları mövcuddur. Eyni zamanda, İlandağ və Gəmiqaya kimi geoloji və geomorfoloji abidələr regionun turizm dəyərini daha da artırır (Əliyev, N. (2020). İlandağ lakkolit tipli intruziv geoloji quruluşu ilə elmi əhəmiyyət daşıyır və eyni zamanda tarixi müşahidə və müdafiə funksiyası ilə seçilir. Gəmiqaya isə qədim qayaüstü rəsmləri, buzlaq relyef formaları və arxeoloji izləri ilə təkcə yerli deyil, beynəlxalq elmi maraq doğuran abidədir. Bu tip obyektlər geoturizm və mədəni turizmin inkişafı üçün mühüm resurs hesab olunur.

Araz çayı hövzəsində yerləşən Batabatgöl və Qanlıgöl kimi su hövzələri həm ekoloji, həm də təsərrüfat baxımından mühüm rol oynayır. Bu göllər əsasən suvarma, içməli su təminatı və heyvandarlıq üçün istifadə olunsa da, eyni zamanda rekreasiya və turizm üçün də potensiala malikdir. Batabatgölün yüksək dağlıq zonada yerləşməsi, ətraf landşaftın estetikliyi və təmiz iqlim şəraiti onu yay turizmi və istirahət üçün əlverişli məkana çevirir. Qanlıgöl isə hidroloji tənzimləmə funksiyası ilə yanaşı, ekosistem balansının qorunmasında mühüm rol oynayır.

NƏTICƏ

Naxçıvan Muxtar Respublikası təbii komplekslərin rəngarəngliyi baxımından regionda xüsusi yer tutur. Burada səhradan tutmuş buzlaq-nival qurşağa qədər müxtəlif landşaft tipləri, eləcə də dağəmələgəlmənin bütün genetik formaları mövcuddur. Bu təbii müxtəliflik regionun turizm və rekreasiya potensialını əhəmiyyətli dərəcədə artırır. Ərazidə yerləşən təbiət abidələri bu potensialın əsas hissəsini təşkil etsə də, indiyədək aparılmış tədqiqatlar daha çox elmi xarakter daşımış, onların turizm-rekreasiya imkanları sistemli şəkildə qiymətləndirilməmişdir. Buna görə də mövcud təbii və mədəni ehtiyatlardan səmərəli istifadə etmək, turizmin müxtəlif növlərini – xüsusilə intruziv və dağlıq relyefə əsaslanan turizmi inkişaf etdirmək üçün kompleks tədbirlərin həyata keçirilməsi zəruri hesab olunur. Bu istiqamətdə aşağıdakı tədbirlərin görülməsi məqsədəuyğundur:

- ayrı-ayrı turizm obyektlərinin pasportlaşdırılması və onların sistemli qeydiyyatının aparılması;
- bu sahədə elmi-tədqiqat işlərinin genişləndirilməsi və dərinləşdirilməsi;
- reklam xarakterli kitabça, buklet, xəritə-sxem və foto-albomların hazırlanması;
- tanıdıcı qısametrajlı filmlərin çəkilməsi və Naxçıvan Televiziyasında turizmin təbliğinin genişləndirilməsi;
- turizm obyektlərində kompleks qiymətləndirmənin aparılması, uyğun marşrutların müəyyənləşdirilməsi və müxtəlif turizm növlərinin həmin marşrutlar üzrə təşkili;
- turizmin inkişafını təmin etmək üçün nəqliyyat, ərzaq təminatı və digər xidmət sahələri daxil olmaqla zəruri infrastrukturun yaradılması;
- Muxtar Respublikada ali təhsil müəssisələrində turizm ixtisasları və turizm potensialının öyrənilməsinə xüsusi yer verilməsi.

Ümumilikdə, bu tədbirlərin həyata keçirilməsi Naxçıvan Muxtar Respublikasının zəngin təbii və mədəni irsinin turizm dövriyyəsinə cəlb olunmasına, regionun sosial-iqtisadi inkişafına və beynəlxalq turizm məkanında tanınmasına mühüm töhfə verə bilər.

ƏDƏBİYYAT SİYAHISI

1. Əliyev, N. (2020). *Gəmiqaya qayaüstü rəsmləri.* Bakı: Azərbaycan Milli Elmlər Akademiyası.
2. Hasanzadə, Ü. (2024). Historical-cultural tourism in Nakhchivan: Keeping the heritage alive. *Nakhchivan State University Scientific Works*.
3. İbrahimli, Ş. (2024). Analysis and evaluation of tourism potential (The case of the Nakhchivan Autonomous Republic). *AEM Journal of Social Sciences*.
4. Musayeva, G. F. (2026). Cultural tourism in Nakhchivan: Heritage, sustainability and regional development. *Earth Sciences & Environment Journal*.
5. Sokan, F. (1999). Doğal Çevre ve Kırsal Kültürle Bütünleşen Bir Turizm Türü: Kırsal Turizm
6. Mesplier, A. (1982). Le Tourisme en France. Paris
7. Greffe, X. (1994). "Is tourism a lever for economic and social development ?" Jounıal of Susıiııable Tourism, 2 (1-2) pp. 22-40

YAŞIL TRANSFORMASİYA VƏ TURİZM BAZARLARINDA KAPİTALIN YENİDƏN BÖLGÜSÜ

Green Transformatıon and the Re-Allocatıon of Capıtal in Tourısm Markets

NƏRGİZ ƏBİLOVA
Nargiz Abilova
naraabilova19@gmail. com
https://orcid. org/0009000005103728
Bakı Dövlət Universiteti
Baki State University

XÜLASƏ

Bu məqalə yaşıl transformasiyanın turizm sektorunda kapitalın yenidən bölgüsü vasitəsilə necə formalaşdığını sistemli şəkildə təhlil edir. Yaşıl transformasiya iqtisadiyyatın yüksək karbon-intensiv və resurs-tutumlu modeldən aşağı karbonlu, resurs-səmərəli və ekoloji cəhətdən dayanıqlı modelə keçidini ifadə edir. Turizm sektoru bu prosesdə ikili rol oynayır: bir tərəfdən iqlim dəyişikliklərinin təsirlərinə yüksək həssasdır (ekstremal hava hadisələri, su qıtlığı, ekosistemlərin deqradasiyası), digər tərəfdən isə nəqliyyat, yerləşmə və təchizat zəncirləri vasitəsilə əhəmiyyətli karbon emissiyaları yaradır. Tədqiqatda "kapitalın yenidən bölgüsü" anlayışı maliyyə, real, insan və təbii kapitalın daha dayanıqlı fəaliyyət sahələrinə yönəldilməsi kimi izah olunur. Bu proses bazar mexanizmləri (risk və gəlirlilik), dövlət siyasəti (karbon qiymətlənməsi, subsidiyalar, standartlar) və davranış faktorları (istehlakçı seçimi və sosial normalar) vasitəsilə sürətlənir. Empirik nəticələr göstərir ki, qlobal səviyyədə təmiz enerji və dekarbonizasiya istiqamətində investisiyalar sürətlə artır və 2024-cü ildə enerji investisiyalarının böyük hissəsi bu sahəyə yönəlmişdir. Karbon qiymətləndirmə mexanizmləri fiskal gəlirləri artırmaqla yanaşı, investisiya qərarlarına təsir göstərir. Eyni zamanda dayanıqlı maliyyə alətləri bazarı genişlənir və turizm sektoru pandemiyadan sonra bərpa olunaraq yüksək gəlir göstəricilərinə çatır. Azərbaycan üzrə təhlil göstərir ki, turizm gəlirləri və otel sektorunun gəlirləri artmaqda davam edir, lakin pandemiyadan əvvəlki turist axını tam bərpa olunmamışdır. Bu, yaşıl transformasiyanın təsirlərini qiymətləndirərkən əlavə amillərin nəzərə alınmasını tələb edir. Nəticə olaraq, məqalə yaşıl transformasiyanın effektiv həyata keçirilməsi üçün fiskal təşviqlər, yaşıl maliyyə alətləri, aşağı karbonlu infrastruktur və şəffaf hesabatlılıq mexanizmlərinin inteqrasiyasını tövsiyə edir.

Açar sözlər: *yaşıl transformasiya; turizm iqtisadiyyatı; kapitalın yenidən bölgüsü; dayanıqlı inkişaf; iqlim siyasəti; yaşıl maliyyə.*

ABSTARCT

This article systematically analyzes how green transformation is shaped in the tourism sector through the redistribution of capital. Green transformation refers to the transition of the economy from a high-carbon, resource-intensive model to a low-carbon, resource-efficient, and environmentally sustainable model. The tourism sector plays a dual role in this process: on one hand, it is highly sensitive to the impacts of climate change (extreme weather events, water scarcity, ecosystem degradation), and on the other hand, it generates significant carbon emissions through transportation, accommodation, and supply chains. In the study, the concept of 'redistribution of capital' is explained as directing financial, real, human, and natural capital towards more sustainable areas of activity. This process is accelerated through market mechanisms (risk and profitability), government policy (carbon pricing, subsidies, standards), and behavioral factors (consumer choice and social norms). Empirical results show that globally, investments in clean energy and decarbonization are rapidly increasing, and in 2024, a large part of energy investments is directed to this area. Carbon pricing mechanisms affect investment decisions as well as increase fiscal revenues. At the same time, the sustainable finance instruments market is expanding, and the tourism sector is recovering after the pandemic, reaching high revenue indicators. Analysis for Azerbaijan shows that tourism revenues and hotel sector revenues continue to increase, but the pre-pandemic tourist flow has not been fully restored. This requires taking additional factors into account when assessing the effects of the green transformation. As a result, the article recommends integrating fiscal incentives, green financial instruments, low-carbon infrastructure, and transparent reporting mechanisms for the effective implementation of the green transformation.

Keywords: *green transformation; tourism economy; redistribution of capital; sustainable development; climate policy; green finance.*

GİRİŞ

Yaşıl transformasiya müasir iqtisadi inkişafın əsas istiqamətlərindən biri kimi yüksək karbon-intensiv və resurs-tutumlu fəaliyyətlərdən daha dayanıqlı, aşağı emissiyalı və resurs-səmərəli modellərə keçidi ifadə edir. Bu proses yalnız ekoloji siyasətin deyil, həm də investisiya axınlarının, istehsal strukturunun və bazar davranışlarının yenidən formalaşmasını şərtləndirir. Turizm sektoru bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Bir tərəfdən, turizm iqlim dəyişmələrinin fiziki təsirlərinə, su qıtlığına, biomüxtəlifliyin azalmasına və ekosistem deqradasiyasına həssasdır; digər tərəfdən isə nəqliyyat, yerləşmə, qida təchizatı və xidmətlər zənciri vasitəsilə əhəmiyyətli karbon izi yaradır.

Bu şəraitdə turizm bazarlarında kapitalın yenidən bölgüsü məsələsi aktuallaşır. Söhbət maliyyə kapitalının, real investisiyaların, insan kapitalının və təbii kapitala bağlı aktivlərin daha dayanıqlı və aşağı karbonlu istiqamətlərə yönəlməsindən gedir. Bu proses bazar siqnalları, dövlət tənzimlənməsi, yaşıl maliyyə alətləri və istehlakçı davranışları ilə sürətlənir. Nəticədə turizm sektorunda investisiya prioritetləri dəyişir, yüksək enerji sərfiyyatlı və karbon-intensiv fəaliyyətlər daha riskli olur, enerji səmərəliliyi, bərpa olunan enerji, aşağı karbonlu nəqliyyat və ekosistem əsaslı idarəetmə isə daha çox ön plana çıxır.

Turizm sektorunun iqtisadi inkişafda rolu və onun milli iqtisadiyyata təsiri Azərbaycan üzrə aparılan tədqiqatlarda da geniş şəkildə vurğulanır. Belə ki, turizmin iqtisadi artıma, məşğulluğa və xidmət sektorunun genişlənməsinə müsbət təsir göstərdiyi qeyd olunur (Məmmədov & Əliyev, 2021). Eyni zamanda, turizm sektorunun rəqabət qabiliyyətinin artırılması və beynəlxalq bazarlara inteqrasiyası iqtisadi siyasətin əsas istiqamətlərindən biri kimi qiymətləndirilir (Cəfərov, 2022).

Məqalənin məqsədi yaşıl transformasiyanın turizm bazarlarında kapitalın yenidən bölgüsünə təsirini nəzəri və empirik baxımdan təhlil etməkdir. Tədqiqatda qlobal tendensiyalar və seçilmiş beynəlxalq nümunələr fonunda Azərbaycan üzrə statistik göstəricilər nəzərdən keçirilir. Eyni zamanda, bu transformasiyanın sektor daxilində bölgü təsirləri, siyasət alətləri və praktik tətbiq imkanları qiymətləndirilir.

MATERİAL VƏ METODLAR

Bu məqalədə, yaşıl transformasiyanın turizm bazarlarında kapitalın yenidən bölgüsünə təsiri qarışıq metodoloji yanaşma əsasında təhlil edilmişdir. Tədqiqatın metodoloji bazasını müqayisəli təhlil, təsviri-statistik analiz, sənəd analizi və seçilmiş nümunələrin keyfiyyət əsaslı case-study yanaşması təşkil edir.

İlk mərhələdə yaşıl transformasiya, iqlim siyasəti, dayanıqlı maliyyə, karbon qiymətləndirməsi və turizm iqtisadiyyatı üzrə beynəlxalq təşkilatların hesabatları, normativ sənədlər və elmi məqalələr sistemləşdirilmişdir. Bu mərhələdə OECD, IEA, World Bank, UN Tourism, European Commission, TCFD və digər institutların sənədləri əsasında nəzəri çərçivə formalaşdırılmışdır.

İkinci mərhələdə qlobal səviyyədə kapitalın yenidən bölgüsünü xarakterizə edən əsas göstəricilər seçilmişdir. Bu göstəricilərə təmiz enerji investisiyalarının həcmi, karbon qiymətləndirməsindən daxilolmalar, dayanıqlı borc alətlərinin emissiyası, beynəlxalq turizm gəlirləri və turizmin karbon izi daxil edilmişdir. Həmin göstəricilər yaşıl transformasiyanın maliyyə və turizm bazarlarına təsirini dolayı şəkildə əks etdirən proksi dəyişənlər kimi istifadə olunmuşdur.

Üçüncü mərhələdə Azərbaycan üzrə rəsmi statistik məlumatlar təhlil edilmişdir. Bu məqsədlə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2019, 2023, 2024-cü illər üzrə statistik bülletenləri və 2025-ci il statistika məcmuəsinin 2019–2024 sıraları istifadə olunmuşdur. Təhlildə ölkəyə gələn turistlərin sayı, turizm məqsədli xərclər, otel gəlirləri və məşğulluq göstəriciləri müqayisə edilmişdir.

Tədqiqatın elmi yeniliyi:

Bu tədqiqatın elmi yeniliyi yaşıl transformasiya ilə turizm bazarlarında kapitalın yenidən bölgüsü arasındakı əlaqənin vahid analitik çərçivədə araşdırılmasından ibarətdir. Mövcud ədəbiyyatda yaşıl keçid, dayanıqlı maliyyə və turizm daha çox ayrı-ayrılıqda təhlil edildiyi halda, bu məqalədə onların qarşılıqlı təsiri bazar, siyasət və davranış kanalları üzrə sistemləşdirilmişdir.

Məqalənin digər elmi töhfəsi kapital anlayışının yalnız maliyyə kapitalı ilə məhdudlaşdırılmaması, həm də real kapital, insan kapitalı və təbii kapital komponentləri üzrə izah edilməsidir. Bu yanaşma turizm sektorunda yaşıl transformasiyanın daha kompleks və çoxsəviyyəli mahiyyətini göstərməyə imkan verir.

Azərbaycan kontekstində məqalənin yeniliyi ondan ibarətdir ki, 2019–2024-cü illər üzrə rəsmi statistik göstəricilər əsasında turizm xərcləri, otel gəlirləri və sektor dinamikası yaşıl transformasiya çərçivəsində şərh olunur və bu prosesə təsir edən qarışdırıcı amillər ayrıca vurğulanır. Bunun əsasında Azərbaycan üçün turizm sektorunda yaşıl maliyyə, enerji səmərəliliyi, aşağı karbonlu nəqliyyat və ədalətli keçid üzrə praktik siyasət tövsiyələri irəli sürülür.

NƏZƏRİ HİSSƏ

Kapitalın turizm bazarlarında yenidən bölgüsünü izah etmək üçün üç əsas kanal qrupunu ayırmaq analitik baxımdan səmərəlidir: bazar kanalı, siyasət kanalı və davranış kanalı. Bu kanallar praktikada bir-birinə qarışır, lakin ayrılıqda modelləşdirmə həm empirik tədqiqat, həm də siyasət dizaynı üçün daha şəffaf çərçivə yaradır.

Bazar kanalı (risk–gəlirlilik və kapitalın qiyməti). Klassik maliyyə nəzəriyyəsinə görə investorlar riskə görə kompensasiya tələb edir. Buna görə də, aktivlərin gözlənilən gəliri və kapitalın qiyməti onların risk profilinə həssasdır. İqlim keçidi "keçid riski" yaradır: karbon qiymətlərinin artması, texnologiyanın ucuzlaşması, tənzimləmə sərtləşməsi, reputasiya və məhkəmə risklərinin güclənməsi. Bu risklər karbon-intensiv aktivlərin dəyərini azalda, bəzilərini vaxtından əvvəl dəyərsizləşdirə bilər (Caldecott, 2017). Turizm sektorunda bu məntiq belə işləyir: yüksələn enerji qiyməti və karbon tənzimləməsi enerji-səmərəsiz otellərin əməliyyat xərcini artırır → pul axını zəifləyir → kredit risk premiyası yüksəlir → re-finans daha bahalı olur → yeni investisiya daha çox "yaşıl" layihələrə yönəlir.

Siyasət kanalı (nisbi qiymətlər və "Porter hipotezi"): Ətraf mühit siyasəti ənənəvi olaraq firmalara "əlavə xərc" kimi təsvir olunsa da, "Porter hipotezi" düzgün dizayn edilmiş tənzimləmənin innovasiyanı stimullaşdıraraq məhsuldarlıq artımı ilə xərcləri qismən və ya tam kompensasiya edə biləcəyini iddia edir (Porter & van der Linde, 1995).

Turizmdə tətbiqi: enerji auditləri, minimal enerji performansı standartları, sertifikatlaşdırma, tullantı normları kimi siyasətlər "xərc artımı" yaratsa da, səmərəlilik investisiyaları ilə uzunmüddətli OPEX (operational expenditure– müəssisənin gündəlik fəaliyyətindən yaranan əməliyyat xərcləri) azalması, brend üstünlüyü və premium qiymət strategiyası vasitəsilə gəlirliliyə müsbət təsir göstərə bilər. Bu, kapitalın yenidən bölgüsünü "cəzalandırma" ilə yanaşı "məhsuldarlıq imkanları" vasitəsilə də izah edir ().


Davranış kanalı (istehlakçı və investor davranışı): Turizm bazarında tələb elastikdir: səfər qərarlarında qiymət, reputasiya, "yaşıl imic", sosial normlar kimi davranış təsirləri rol oynaya bilər. Davranış iqtisadiyyatı baxımından (a) "status-quo" meyli investisiya qərarlarında gecikmə yarada, (b) "məlumatın asimmetriyası" investoru səhv istiqamətə yönəldə bilər. Buna görə standartlaşdırılmış etiketləmə və hesabatlılıq yenidən bölgünü sürətləndirə bilər (OECD, 2023). Turizm şirkətlərində isə davranış kanalı iki səviyyədə işləyir: (a) müştəri tərəfi (eko-etiketli hotelə üstünlük, karbon kompensasiyası seçimi), (b) əmək bazarı tərəfi.

Empirik sübutlar və seçilmiş nümunələr: Empirik ədəbiyyat "kapitalın yenidən bölgüsü"nü birbaşa ölçməkdə çətinlik çəkir, çünki turizmdə investisiya axınları çox vaxt daşınmaz əmlak, nəqliyyat və xidmət investisiyaları ilə qarışır. Buna baxmayaraq, bir neçə "proksi" göstərici istifadə olunur: (a) dayanıqlı maliyyə alətlərinin həcmi (yaşıl istiqrazlar, dayanıqlılıq bağlı istiqrazlar), (b) karbon qiymətləndirməsi və fiskal gəlirlər, (c) enerji keçidinə yönələn ümumi investisiya, (d) turizmin gəlirləri və xərclərinin strukturu, (e) sektor emissiyaları və dekarbonizasiya planları.

Qlobal göstəricilər: maliyyə və turizm konvergensiyası. Qlobal miqyasda 2024 turizm üçün bərpa ili olduğu kimi, maliyyə bazarları üçün də "yaşıl borc" və "iqlim maliyyəsi"nin genişləndiyi dövrdür. UN Tourism-in 2025 Yanvar Barometri 2024-cü ildə beynəlxalq turist səfərlərinin 1,4 mlrd. olduğunu, turizm gəlirlərinin 1,6 trln. ABŞ dollarına çatdığını və turizmdən ümumi ixrac gəlirlərinin (o cümlədən sərnişin nəqliyyatı) 1,9 trln. ABŞ dolları səviyyəsində qiymətləndirildiyini bildirir (UN Tourism, 2025). Eyni zamanda UN Tourism-in 2024 May Excerpt sənədi 2023-də turizmin "direct GDP"sinin təxminən 3,3 trln. ABŞ dollarına (qlobal ÜDM-in 3%-i) çatdığını qeyd edir (UN Tourism, 2024).

Turizmin karbon izi: niyə yenidən bölgü qaçılmazdır. 2009–2019 dövrünə dair Nature Communications tədqiqatı turizmin karbon izinin 3,7 Gt CO_2-e-dən 5,2 Gt CO_2-e-ə yüksəldiyini və sektorun dekarbonizasiyasının çətinliyini vurğulayır (Sun və b. , 2024). Aviasiya komponenti turizm üçün kritikdir: Avropa Komissiyasının iqlim səhifəsi 2022-də aviasiya emissiyalarının təxminən 800 Mt CO_2 səviyyəsində olduğunu və bunun pandemiya öncəsi səviyyənin 80%-inə yaxınlaşdığını bildirir (European Commission, 2024).

Seçilmiş nümunələr: Avropa, Sloveniya, Kosta Rika və Azərbaycan: Avropa turizm keçid yol xəritəsi. European Commission 2022-ci ildə turizm üçün "Transition Pathway" sənədini dərc edərək yaşıl və rəqəmsal keçid üçün tədbirlər, investisiya ehtiyacları və idarəetmə çərçivələrini sistemləşdirir (European Commission, 2022). Bu çərçivə "kapitalın yenidən bölgüsü" üçün iki praktik mexanizm yaradır: (a) ictimai maliyyə fondlarının (regional inkişaf, bərpa proqramları) prioritetləşdirilməsi, (b) bizneslərin modernizasiya layihələrini bankable etmək üçün texniki meyarların müəyyənləşməsi. Bu kanallar qarşılıqlı əlaqədə fəaliyyət göstərərək turizm bazarlarında kapitalın yenidən bölgüsü mexanizmini formalaşdırır (bax: Şəkil 1).



Şəkil 1. Turizm bazarında kapitalın yenidən bölgüsü mexanizmi
Mənbə: müəllif tərəfindən hazırlanmışdır

Sloveniya: sertifikatlaşdırma–brend mexanizmi. Sloveniya nümunəsində "Slovenia Green" milli sxemi destinasiyalar, yerləşmə obyektləri, parklar və xidmət təminatçılarını bir sertifikatlaşdırma çətiri altında birləşdirir. 2025 sonuna statistik olaraq 286 "Slovenia Green" etiket alıcısı, o cümlədən 58 destinasiyanın daxil olduğu qeyd edilir (Slovenia. info, 2026). Bu tip sxemlər kapitalın yenidən bölgüsünü iki yolla stimullaşdırır: (a) tələbdə premium seqment yaradır (yaşıl

etiketli obyektlərə üstünlük), (b) təklifdə investisiya prioritetlərini dəyişir (enerji, su, tullantı menecmenti və ictimai nəqliyyat bağlantıları).

Kosta Rika: təbiət kapitalının monetizasiyası. Kosta Rikanın "Payment for Ecosystem Services" (PES) proqramı 1990-lardan bəri ekosistem xidmətlərinə görə ödəniş mexanizmi kimi geniş müzakirə olunur. PES mexanizmləri çirkləndirənlərdən və büdcədən topladığı vəsaiti meşə mühafizəsi və bərpa tədbirlərinə yönəltməklə təbiət kapitalını "investisiya obyektinə" çevirir (DCED, 2017; IIED, 2013). Turizm burada həm maliyyə mənbəyidir (qorunan ərazilərin dəyərini artırır), həm də riskdir. UNDP/BIOFIN səhifəsində təbiət əsaslı turizmin ölkə üçün əhəmiyyətli iqtisadi paya malik olduğu qeyd edilir (BIOFIN, 2023). Nəticə: kapital yalnız "hotel və nəqliyyat"a deyil, ekosistem idarəçiliyinə də yönələndə turizmin uzunmüddətli bazar dəyəri qorunur.


Azərbaycan: strateji çərçivə və real axın göstəriciləri. Azərbaycan üçün yaşıl transformasiya "uzunmüddətli prioritet" kimi rəsmi sənədlərdə qeyd olunur. "Azerbaijan 2030" prioritetləri arasında "təmiz ətraf mühit və yaşıl artım ölkəsi" xətti təsdiqlənib (Azərbaycan Prezidenti sərəncamı, 2021). Ölkənin iqlim öhdəlikləri və tədbirləri NDC sənədlərində genişlənir (UNFCCC, 2023; 2025).

Turizm statistikası kapitalın yenidən bölgüsünü ölçmək üçün "xərclər strukturu" kimi çox əməli göstərici verir. State Statistical Committee of the Republic of Azerbaijan bülletenlərinə əsasən:

2019: ölkəyə gələn xarici və vətəndaşlığı olmayan şəxslər 3 170 373 nəfər, turizm məqsədli 2 863 531 nəfər; turizm məqsədli xərclər 2 971 443,3 min manat (2,97 mlrd.) (AzStat, 2019).

2023: gələnlər 2 085 790 nəfər, turizm məqsədli 1 402 600 nəfər; xərclər 2 439 201,5 min manat (2,44 mlrd.) (AzStat, 2023).

2024: gələnlər 2 626 679 nəfər, turizm məqsədli 1 855 113 nəfər; xərclər 3 403 529,4 min manat (3,40 mlrd.) (AzStat, 2024) (bax Şəkil 2).



Şəkil 2. Azərbaycan turizmində xərclərin strukturu (2024)

Mənbə: AzStat (2024) məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır

Bu rəqəmlər göstərir ki, turizm məqsədli gələnlərin sayı 2024-də 2019-dan aşağı qalsa da, xərclərin həcmi 2019-u üstələyib; nominal "adambaşına xərclər" daha yüksəkdir. Bu, turist səbətinin dəyişməsi, qiymət səviyyəsi, marşrut və qalma müddəti kimi faktorlarla izah oluna bilər; "yaşıl siyasət" təsirini təcrid etmək üçün əlavə ekonometrik dizayn tələb olunur.

Azərbaycanın turizm mərkəzi olan Bakı şəhərində fəaliyyət göstərən beynəlxalq otel şəbəkələri yaşıl transformasiya prinsiplərinin tətbiqi baxımından müəyyən ilkin təcrübəyə malikdir. Xüsusilə Fairmont Baku, Flame Towers, Hilton Baku və JW Marriott Absheron Baku kimi iri otel müəssisələri enerji və resurs idarəçiliyi sahəsində beynəlxalq standartlara uyğun yanaşmalar tətbiq edən obyektlər kimi seçilə bilər.

Bu tip otel komplekslərində enerji istehlakının əsas hissəsi istilik-soyutma sistemləri (HVAC), işıqlandırma və isti su təminatı ilə bağlıdır. Müasir idarəetmə sistemlərinin tətbiqi, o cümlədən avtomatlaşdırılmış enerji idarəetmə sistemləri (Building Management System – BMS), sensor əsaslı işıqlandırma və yüksək effektiv avadanlıqların istifadəsi enerji səmərəliliyinin artırılmasına xidmət edir. Bu tədbirlər ilkin mərhələdə kapital qoyuluşu (CAPEX) tələb etsə də, sonrakı dövrdə əməliyyat xərclərinin (OPEX) azalması ilə müşayiət olunur.

Aşağıdakı cədvəl 1-də turizm bazarı üçün əsas alətləri, təsir mexanizmlərini və mümkün bölgü təsirlərini müqayisə edir.

Cədvəl 1. Turizm bazarı üçün əsas alətlər, təsir mexanizmləri və mümkün bölgü təsirlərini müqayisəsi

Alət	Mexanizm	Turizm bazarına birbaşa təsir kanalı	Kapitalın yenidən bölgüsü effekti	Bölgü həssaslıqları	Tipik risklər / yan təsirlər
Karbon qiymətləndirməsi (vergi və ya ETS)	Karbon intensiv fəaliyyətin nisbi qiymətini artırır	Avia/yanacaq/elektrik xərci; səyahət qiyməti	Aşağı karbon texnologiyaya CAPEX; yüksək karbon aktivlərdən çıxış	Uzaq regionlar və aşağı gəlirli turistlər üçün qiymət yükü; KOB-lar üçün likvidlik riski	Karbon sızması, siyasi qəbul problemi; "kompensasiya"nın keyfiyyətsizliyi
Subsidiyalar və qrantlar (enerji səmərəliliyi, RES)	CAPEX baryerini azaldır	Otel modernizasiyası, istilik nasosları, izolyasiya	"Yaşıl" investisiyaya sürətli keçid; kredit riskini azaldır	Böyük müəssisələr daha asan yararlana bilər; regionlararası bərabərsizlik	Qrant asılılığı; yanlış hədəfləmə; fiskal yük
Vergi təşviqləri (accelerated depreciation, tax credit)	İnvestisiya gəlirlərini artırır	Yaşıl avadanlıq amortizasiyası; "green retrofit"	Özəl kapitalı cəlb edir, ROI-ni yüksəldir	Vergi bazası zəif regionlarda təsir məhdud	Sui-istifadə; əlavəlik (additionality) problemi
Yaşıl istiqrazlar / dayanıqlılıq alətləri	Kapital bazarından uzunmüddətli resurs	Dövlət və iri şirkət layihələri; DÖT	Böyük həcmli infrastruktur, şəbəkə, nəqliyyat	Kiçik turizm biznesi dolayı faydalanır	Yaşıl yuyulma; təsir ölçümü zəif
DÖT (PPP)	Riskin paylaşılması, layihə bankable olur	Aşağı karbon nəqliyyat, şəhər infrastrukturu	İnfrastruktur CAPEX-ni sürətləndirir	Müqavilə dizaynı zəifsə ictimai risk artır	Fiskal riskin gizlənməsi; tarif ədalətsizliyi
Standartlaşdırma və sertifikatlaşdırma	Minimum performans, reputasiya siqnalı	Enerji/su/tullantı standartları; "yaşıl etiket"	Səmərəlilik investisiyasını "məcburi" edir	Kiçik obyektlər üçün uyğunlaşma xərci	Formalizm; audit keyfiyyəti riski
Açıqlama və taksonomiya	Şəffaflıq, kapitalın qiyməti dəyişir	Kredit şərtləri, investor filterləri	Yaşıl layihələr üçün WACC (weighted average cost of capital– müəssisənin kapitalının orta çəkili dəyəri, yəni borc və öz vəsait üzrə maliyyələşmənin orta qiyməti) azalır	Məlumat toplama yükü KOB-lar üçün ağır	"Box-ticking"; məlumatın uyğunsuzluğu

Bu instrumentlərin qlobal kontekstdə təsir gücünü göstərən bir neçə "ölçülə bilən" dəlil var: karbon qiymətləndirməsindən gəlirlərin 2023-də 104 mlrd. ABŞ dollarına çatması və alətlərin sayının 75-ə yüksəlməsi (World Bank, 2024) ; 2024-də uyğunlaşdırılmış dayanıqlı borc emissiyasının 1,05 trln. ABŞ dollarına çıxması (CBI, 2025) ; enerji keçidinə təmiz enerji investisiyalarının 2 trln. ABŞ dollarına qədər genişlənməsi (IEA, 2024) .

Azərbaycan üçün tövsiyələr və yol xəritəsi: Azərbaycanın rəsmi strategiya sənədləri "yaşıl artım" istiqamətini prioritetləşdirir (Prezident sərəncamı, 2021) və NDC sənədlərində iqlim

tədbirlərinin genişləndirilməsi görünür (UNFCCC, 2023; 2025). Turizm isə həm gəlir mənbəyi, həm də iqlim riskinə həssas sektor kimi bu çərçivədə konkret əməli tədbirlər tələb edir. Burada "yol xəritəsi" həm dövlət, həm maliyyə sektoru, həm də turizm sənayesi üçün mərhələli, ölçülə bilən və sosial baxımdan ədalətli addımlardan ibarət olmalıdır.

Yol xəritəsi üçün təklif edilən "praktiki paket" dörd blokda cəmlənir:

Birinci blok: Turizmdə enerji və resurs məhsuldarlığı üçün investisiya mexanizmi. Azərbaycan statistikasına görə 2024-də turizm məqsədli xərclərdə ən böyük pay "transport" (1,54 mlrd. manat) və "yaşayış yeri" (0,70 mlrd. manat) kateqoriyalarındadır (AzStat, 2024). Bu struktur iki CAPEX prioriteti göstərir: (a) yerləşmə obyektlərində enerji səmərəliliyi və təmiz enerji, (b) aşağı karbonlu mobillik və səyahət logistikası.

İkinci blok: Kapitalın turizmə sağlam ötürülməsi üçün üç element vacibdir: (a) "yalnız etiket" yox, istifadə məqsədi və təsir KPI-ları; (b) üçüncü tərəf təsdiqi; (c) kredit portfelində iqlim riskinin inteqrasiyası (TCFD xətti).

Üçüncü blok: Destinasiya səviyyəsində planlama və təbiət kapitalının qorunması. Kosta Rika nümunəsi göstərir ki, təbiət kapitalını qoruyan maliyyə mexanizmləri (PES kimi) turizmin uzunmüddətli dəyərini qoruyur (DCED, 2017; IIED, 2013). Azərbaycan üçün bu, milli parklar, qoruqlar, dağ və sahil turizmi zonalarında "daşıma qabiliyyəti", tullantı və su idarəçiliyi, biodiversitet nəzarəti kimi tədbirlərin investisiya planına daxil edilməsi deməkdir. COP29 kontekstində turizmdə iqlim tədbirlərinin inteqrasiyası məsələsinin gündəmə gətirilməsi də bu yanaşmaya uyğun gəlir (COP29 "Enhanced Climate Action in Tourism" sənədləri).

Dördüncü blok: Ədalətli keçid və bacarıqlar. Yaşıl keçidin əmək bazarı təsirləri turizm sektorunda "texniki xidmət və əməliyyat" səviyyəsində daha sürətli üzə çıxır: enerji meneceri rolları, bina idarəetməsi, məlumat idarəetməsi nəzarəti. OECD yaşıl bacarıqların sistemli inkişafını əmək bazarı siyasətinin mərkəzinə çəkir (OECD, 2023–2025).

Azərbaycan üzrə aparılan tədqiqatlar da göstərir ki, turizm sektorunun inkişafı iqtisadi artım, məşğulluq və regional inkişaf baxımından mühüm rol oynayır və bu sektorun dayanıqlı əsasda inkişaf etdirilməsi üçün yaşıl iqtisadiyyat prinsiplərinin tətbiqi zəruridir (Həsənov, 2022; Məmmədov & Əliyev, 2021).

NƏTİCƏ

Araşdırma göstərir ki, yaşıl transformasiya turizm bazarlarında kapitalın yenidən bölgüsünü bazar, siyasət və davranış kanallarının qarşılıqlı təsiri vasitəsilə formalaşdırır. Bu proses yalnız ekoloji tələblərin sərtləşməsi ilə deyil, həm də risklərin yenidən qiymətləndirilməsi, kapitalın dəyərinin dəyişməsi, investor və istehlakçı davranışlarının transformasiyası ilə müşayiət olunur. Turizm sektorunun iqlim dəyişməsinə yüksək həssaslığı və eyni zamanda əhəmiyyətli karbon izi yaratması yaşıl keçidi bu sahə üçün strateji zərurətə çevirir.

Qlobal göstəricilər təmiz enerji investisiyalarının, karbon qiymətləndirməsinin və dayanıqlı maliyyə alətlərinin genişləndiyini göstərir. Bu tendensiya turizm sektorunda da enerji səmərəliliyi, aşağı karbonlu nəqliyyat, resurs qənaəti və ekosistem əsaslı idarəetməyə yönələn investisiyaların artmasını şərtləndirir. Azərbaycan nümunəsi isə göstərir ki, turizm göstəricilərində bərpa və gəlir artımı müşahidə olunsa da, bu dinamikanın yalnız yaşıl transformasiya ilə izah edilməsi mümkün deyildir; post-pandemiya bərpa, inflyasiya, nəqliyyat və enerji xərcləri kimi amillər də nəzərə alınmalıdır.

Beləliklə, turizm bazarlarında yaşıl transformasiya kapitalın sadəcə bir aktivdən digərinə keçməsi deyil, dəyərin yaradılması modelinin yenidən qurulmasıdır. Azərbaycan üçün əsas prioritet yaşıl maliyyə alətlərinin genişləndirilməsi, turizm obyektlərində enerji modernizasiyası,

aşağı karbonlu mobilliyin inkişafı, təbii kapitalın qorunması və ədalətli keçid siyasətlərinin vahid çərçivədə əlaqələndirilməsidir.

ƏDƏBİYYAT SİYAHISI

1. Azerbaijan Republic, State Statistical Committee. (2019). Inbound and outbound tourism, 2019 [Statistical bulletin].
2. Azerbaijan Republic, State Statistical Committee. (2023). Inbound tourism, 2023 [Statistical bulletin].
3. Azerbaijan Republic, State Statistical Committee. (2024). Inbound tourism, 2024 [Statistical bulletin].
4. Azerbaijan Republic, State Statistical Committee. (2025). Tourism in Azerbaijan, 2025 [Statistical yearbook].
5. Həsənov, Ə. (2022). Azərbaycan iqtisadiyyatında turizmin inkişaf istiqamətləri və iqtisadi təsirləri. Bakı Dövlət Universiteti Elmi əsərləri, (3), 45–58.
6. Məmmədov, R. , & Əliyev, K. (2021). Azərbaycanda turizm sektorunun inkişafı və onun iqtisadi artıma təsiri. Azərbaycan İqtisadiyyatı Jurnalı, 6(2), 112–125.
7. İsmayılov, T. (2020). Dayanıqlı inkişaf və yaşıl iqtisadiyyatın Azərbaycan modeli. Bakı: İqtisadiyyat Universiteti Nəşriyyatı.
8. Quliyev, E. (2023). Azərbaycanda yaşıl iqtisadiyyatın formalaşması və perspektivləri. UNEC Elmi Xəbərləri, 11(1), 77–89.
9. Cəfərov, N. (2022). Turizm sektorunda rəqabət qabiliyyətinin artırılması yolları: Azərbaycan nümunəsi. Turizm və Qonaqpərvərlik Araşdırmaları, 4(1), 23–35.
10. Baku Stock Exchange. (2025). SOCAR green bonds opening bell event held.
    BIOFIN. (2023). Costa Rica.
11. Caldecott, B. (2017). Introduction to special issue: Stranded assets and the environment. Journal of Sustainable Finance & Investment, 7(1), 1–13.
12. Climate Bonds Initiative. (2025). Sustainable debt global state of the market 2024.
13. European Commission. (2022). Transition pathway for tourism.
14. European Commission. (2024). Reducing emissions from aviation.
15. European Commission. (2025). EU taxonomy for sustainable activities.
16. International Energy Agency. (2024). World energy investment 2024.
17. International Energy Agency. (2024). Fossil-fuel subsidies.
18. International Finance Corporation. (2024). IFC issues Azerbaijani manat bond to support local businesses and green projects.
19. OECD. (2018). OECD tourism trends and policies 2018.
20. OECD. (2023). Better regulation for the green transition.
21. OECD. (2023). Assessing and anticipating skills for the green transition.
22. OECD. (2025). Governing for the green transition.
23. Porter, M. E. , & van der Linde, C. (1995). Toward a new conception of the environment-competitiveness relationship. Journal of Economic Perspectives, 9(4), 97–118.
24. President of the Republic of Azerbaijan. (2021). Azerbaijan 2030: National priorities for socio-economic development.
25. Slovenian Tourist Board. (2026). Green scheme in 2026: Digitalisation and data-driven decision-making.
26. Sun, Y. -Y. , Higham, J. , de Groot, J. , Font, X. , & others. (2024). Tourism's carbon emissions grow more rapidly than previously estimated. Nature Communications, 15, Article 10482.
27. Task Force on Climate-related Financial Disclosures. (2017). Recommendations of the Task Force on Climate-related Financial Disclosures.
28. UNFCCC. (2023). Second nationally determined contribution of the Republic of Azerbaijan.
29. UNFCCC. (2025). NDC 3. 0 report: Azerbaijan.

DAYANIQLI GƏLƏCƏK ÜÇÜN TƏHSİL: TƏLƏBƏLƏRİN QAVRAYIŞI VƏ TURİZM PERSPEKTİVİ

Education for a Sustainable Future: Students' Perception and Tourism Perspective

ƏŞRƏF ƏLƏKBƏROV
Ashraf Alakbarov
a. ashraf@ndu. edu. az
https://orcid. org/0009-0002-5141-9592
Naxçıvan Dövlət Universiteti
Nakhchivan State University

XÜLASƏ

Dayanıqlı inkişaf yalnız mövcud nəsillərin deyil, həm də gələcək nəsillərin maraqlarını təmin etməyə yönəlmiş kompleks inkişaf modelidir. Bu model çərçivəsində resurslardan səmərəli istifadə, sosial rifahın artırılması və ətraf mühitin qorunması əsas prioritetlər kimi çıxış edir. Turizm sektoru isə çoxşaxəli təsir imkanlarına malik olmaqla dayanıqlı inkişafın təmin edilməsində mühüm rol oynayır və həm fəaliyyət sahəsi, həm də elmi tədqiqat obyekti kimi kadr hazırlığı məsələləri burada aktuallıq kəsb edir.

Tədqiqatın məqsədi Naxçıvan Dövlət Universitetində (NDU) "İqtisadiyyat və idarəetmə" fakültəsində təhsil alan tələbələrin Dayanıqlı İnkişaf Məqsədlərini (DİM) qavrama səviyyəsini qiymətləndirməkdir. Bu məqsədlə tələbələrin məlumatlılıq səviyyəsi, münasibətləri və davranış meylləri araşdırılmışdır.

Araşdırma nəticələri ali təhsil müəssisələrində turizm təhsili proqramlarının təkmilləşdirilməsi, dayanıqlı inkişaf prinsiplərinin tədris prosesinə daha effektiv inteqrasiyası və gələcək turizm mütəxəssislərinin hazırlanması baxımından praktik əhəmiyyətə malikdir.

Açar sözlər: *dayanıqlı inkişaf məqsədləri, turizm təhsili, tələbələr, qavrama səviyyəsi, dayanıqlı turizm*

ABSTRACT

Sustainable development is a comprehensive development model aimed at meeting not only the needs of the present generation but also safeguarding the interests of future generations. Within this framework, the efficient use of resources, the enhancement of social welfare, and the protection of the environment emerge as key priorities. The tourism sector, due to its multifaceted impact potential, plays a significant role in ensuring sustainable development. In this regard, issues related to human capital development are becoming increasingly important both as a field of practice and as an area of scientific research. The main objective of this study is to assess the level of understanding of the Sustainable Development Goals (SDGs) among students studying at the Faculty of Economics and Management of Nakhchivan State University (NSU). For this purpose, students' levels of awareness, attitudes, and behavioral tendencies were examined. The findings of the study have practical significance in terms of improving tourism education programs in higher education institutions, more effectively integrating sustainable development principles into the educational process, and training future tourism professionals.

Keywords: *sustainable development goals, tourism education, students, perception level, sustainable tourism*

GİRİŞ

Təbii resursların tükəndiyi və böhranların artdığı müasir qlobal çağırışlar fonunda "Dayanıqlı inkişaf" konsepsiyası dünyada iqtisadi artım, sosial rifah və ekoloji tarazlığın uzlaşdırılmasını tələb edən fundamental inkişaf modeli kimi çıxış edir. Xüsusilə Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul edilən DİM çərçivəsində bu yanaşma ölkələrdəki dövlət siyasətinin və bu sahə üzrə mütəxəssisələrin hazırlandığı ali təhsil sektorunda prioritet istiqamətlərdən birinə çevrilmişdir.

"Dayanıqlı inkişaf" konsepsiyası daxilində turizm sektoru xüsusi əhəmiyyət daşıyır. Turizm həm regional inkişaf, ölkələrin iqtisadi gəlir mənbəyi, həm də xalqların sahib olduğu mədəni və təbii irsin qorunması vasitəsi kimi çıxış edir. Lakin düzgün idarə olunmayan turizm fəaliyyəti də öz növbəsində ekoloji fəlakətlərə, təbii resursların tükənməsi və sosial gərginlik kimi ciddi problemlərə səbəb ola bilər. Məhz buna görə "Dayanıqlı turizm" anlayışının öyrənilməsi, onun bir

məqsəd kimi tədqiqi turizmin uzunmüddətli və məsuliyyətli inkişafını təmin edən mühüm elmi problem kimi qarşıda dayanır.

Azərbaycan bir çox regionları, xüsusilə də Naxçıvan Muxtar Respublikası zəngin təbii-landşaft resursları, müalicəvi mineral suları, tarixi-mədəni abidələri və geostrateji mövqeyi ilə turizm potensialına malikdir. Son illərdə Naxçıvanda turizmin inkişafına yönəlmiş dövlət proqramları və infrastruktur layihələri artıq öz nəticəsini verməyə başlamışdır. Bu isə irəlidəki periodda turizm sektorunda fəaliyyət göstərəcək mütəxəssislərin yalnız iqtisadi deyil, həm də ekoloji və sosial məsuliyyət prinsiplərini mənimsəməsini zəruri edir. Bu mənada, Azərbaycandakı ali təhsil müəssisələrində, o cümlədən Naxçıvan Dövlət Universitetində hazırlanan kadrların "Dayanıqlı inkişaf" konsepsiyasını öyrənmələri, xüsusən də "İqtisadiyyat və idarəetmə" fakültəsində təhsil alan tələbələrin "dayanıqlı inkişaf" və "dayanıqlı turizm" anlayışlarını dərindən mənimsəməsini yalnız akademik bilik deyil, həm də praktik bacarıq kimi formalaşdırmaq baxımından mühüm vəzifə hesab etmək olar. Bu çərçivədə, mövcud təhsil proqramına əsasən Naxçıvan Dövlət Universitetində "İqtisadiyyat və idarəetmə" fakültəsində "Turizm işini təşkili" ixtisasında tədris olunan "Dayanıqlı turizm" fənninin öyrənilməsi üzrə tələbələrin göstərdiyi perfomans elmi araşdırma baxımından maraq doğurur.

Belə ki, tələbələrin bu anlayışları qavrama səviyyəsinin öyrənilməsi onların bilik boşluqlarını müəyyən etməyə, tədris proqramlarının təkmilləşdirilməsinə və daha effektiv təhsil strategiyalarının hazırlanmasına imkan verir. Bu isə uzunmüddətli perspektivdə regionda dayanıqlı turizmin inkişafına və iqtisadiyyatın şaxələndirilməsinə töhfə verə bilən elm nəticə ola bilər.

Mövcud elmi ədəbiyyatlarda istər "Dayanıqlı inkişaf" və istərsə də "Dayanıqlı turizm" anlayışları geniş şəkildə nəzəri və tətbiqi aspektlərdən tədqiq olunmaqdadır. Bu kontekstdə turizmin iqtisadi, ekoloji və sosial təsirləri müxtəlif ölkə və regionlar üzrə araşdırılmışdır. Bu araşdırmalarda turizmin dayanıqlı inkişaf kontekstində rolu, həyata keçirilən turizm siyasəti, resursların idarə olunması və ekoloji məsuliyyət məsələləri beynəlxalq səviyyədə geniş tədqiqat predmetinə çevrilmişdir.

Lakin aparılmış tədqiqatlara baxdıqda bunların əksəriyyətinin makro və ya sektoral səviyyədə cəmlənmiş olduğunu görürürk. Turizm təhsili alan və gələcəkdə turizm sahəsində fəaliyyət göstərəcək kadrların bu anlayışları hansı səviyyədə qavradıqları məsələsi kifayət qədər sistemli şəkildə öyrənilməmişdir. Xüsusilə, dayanıqlı inkişaf, yaşıl enerji və layiqli əmək sahəsində mühüm öhdəliklər götürmüş Azərbaycan Respublikasında bu istiqamətdə empirik tədqiqatlar məhduddur. Aparılan araşdırmalar daha çox ümumi ekoloji şüur və ya davamlı inkişaf barədə məlumatlılıq səviyyəsinin ölçülməsi ilə kifayətlənir.

Naxçıvan Dövlət Universitetində artıq 2004-cü ildən turizmçi kadrlar hazırlanır. Bununla yanaşı, Naxçıvan Muxtar Respublikası kimi spesifik regional şəraitə malik ərazilərdə turizmin inkişaf potensialı ilə bu sahədə kadr hazırlığının keyfiyyəti arasındakı əlaqəni qiymətləndirən tədqiqatlara rast gəlinmir. Halbuki regionun turizm imkanlarının effektiv və dayanıqlı şəkildə reallaşdırılması birbaşa olaraq bu sahədə hazırlanan mütəxəssislərin bilik və bacarıqlarından asılıdır.

Bu baxımdan, təqdim olunan bu məqalə mövcud elmi boşluğu doldurmağa yönələrək, Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat və idarəetmə fakültəsində təhsil alan tələbələrin "dayanıqlı inkişaf" və "dayanıqlı turizm" anlayışlarını qavrama səviyyəsini empirik olaraq qiymətləndirməyi və bu sahədə təhsil prosesinin təkmilləşdirilməsi üçün əsaslandırılmış nəticələr təqdim etməyi qarşıya məqsəd qoyur.

TƏDQİQATIN METODOLOGİYASI

Bu məqalədə "Dayanıqlı turizm" və "Dayanıqlı inkişaf" anlayışlarının tələbələr tərəfindən qavranma səviyyəsini müəyyən etmək məqsədilə kəmiyyət yanaşmaya əsaslanan sorğu metodu tətbiq edilmişdir. Tədqiqatın empirik bazasını Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat və idarəetmə fakültəsində təhsil alan tələbələr təşkil edir. Sorğu məqsədli seçmə üsulla həyata keçirilmiş və əsasən "Turizm işinin təşkili" ixtisası üzrə təhsil alan tələbələri əhatə etmişdir. Bu yanaşma tədqiqatın məqsədinə uyğun olaraq daha münasib nəticələrin əldə edilməsinə imkan verir.

NƏZƏRİ ÇƏRÇİVƏ

Bu problem üzrə Azərbaycan dilində akademik araşdırma olmasa da mövcud xarici elmi ədəbiyyatlarda "Dayanıqlı inkişaf" anlayışı kompleks və çoxölçülü fenomen kimi xarakterizə olunur. Blewitt (2015; 2018) dayanıqlı inkişafı müxtəlif sosial, iqtisadi və ekoloji sistemlərin qarşılıqlı əlaqəsi əsasında formalaşan və vahid interpretasiyaya malik olmayan "dəyərlər dialoqu" kimi izah edir. Bu yanaşma göstərir ki, "Dayanıqlı inkişaf" sabit və universal model deyil, müxtəlif maraqlar və baxışların kəsişməsində formalaşan dinamik bir konsepsiyadır. Eyni istiqamətdə Strange və Bayley (2008) "Dayanıqlı inkişaf"ın iqtisadi, sosial və ekoloji komponentlər arasında balans üzərində qurulduğunu və bu balansın pozulmasının uzunmüddətli böhranlara səbəb olduğunu vurğulayırlar. Bununla yanaşı, Baum (2021) qeyd edir ki, bu konsepsiyanın xüsusilə sosial ölçüsü qeyri-müəyyən qalmaqda davam edir ki, bu da onun praktik tətbiqini və qavranılmasını çətinləşdirir. Ümumilikdə, bu yanaşmalar göstərir ki, dayanıqlı inkişaf multidissiplinar, dəyərlərə əsaslanan və interpretativ xarakter daşıyan mürəkkəb bir anlayışdır və bu mürəkkəblik xüsusilə turizm kimi çoxşaxəli sahələrdə daha qabarıq şəkildə özünü göstərir.

Tələbələrin "Dayanıqlı inkişaf məqsədləri" və dayanıqlı turizm anlayışlarını qavrama səviyyəsi üzrə aparılmış tədqiqatlara gəldikdə isə aparılan ümumləşdimələr göstərir ki, bu proses yalnız biliklə deyil, daha geniş pedaqoji və institusional faktorlarla müəyyən olunur. Lund-Durlacher (2015) tələbələrin qavrayışının aktiv öyrənmə, dəyər yönümlü təhsil və institusional mühit vasitəsilə formalaşdığını qeyd etsə də, ənənəvi tədris modellərinin bu transformativ yanaşmanı təmin etmədiyini vurğulayır. Michael et al. (2020) göstərir ki, tələbələrin 40. 7 faizi Dayanıqlı İnkişaf Məqsədlərini anlamır və bilik ilə davranış arasında ciddi boşluq mövcuddur. Bununla yanaşı, təhsil müddəti artdıqca qavrayış səviyyəsi də yüksəlir ki, bu da təhsilin təsirli, lakin gec və qeyri-effektiv olduğunu göstərir. Gough və Scott (1999) isə bu problemin əsas səbəblərindən biri kimi konsepsiyanın özünün qeyri-müəyyən və mübahisəli xarakter daşımasını göstərir. Digər tədqiqatlar (Jati et al. , 2019; Campit et al. ; Selvam et al. , 2024) tələbələrin ümumilikdə "Dayanıqlı inkişaf məqsədləri" barədə orta səviyyədə məlumatlı olduqlarını, lakin biliklərin səthi xarakter daşıdığını və əsas təyinedici faktorun informasiya əlçatanlığı və təhsil mühitinin effektivliyi olduğunu ortaya qoyur. Eyni zamanda, Maoela et al. (2024) və Kurniawan & Khademi-Vidra (2024) göstərirlər ki, tələbələr "Dayanıqlı inkişaf məqsədləri"nin əhəmiyyətini qəbul etsələr də, onların praktiki tətbiqi və real fəaliyyətə inteqrasiyası zəif qalır. Bu isə ali təhsil sistemlərində dayanıqlı inkişafın daha erkən, sistemli və praktik yönümlü şəkildə inteqrasiya olunmasına ehtiyac olduğunu göstərir. Ümumilikdə, ədəbiyyatlara baxış nəticə etibarilə onu göstərir ki, tələbələrin dayanıqlı inkişaf və turizm üzrə qavrayışı konseptual mürəkkəblik, tədris metodları, informasiya əlçatanlığı və fərdi kognitiv xüsusiyyətlərin (insanın dünyanı dərk etməsi, məlumatı emal etməsi, yadda saxlaması və istifadə etməsi ilə bağlı fərdi-psixoloji xüsusiyyətlərinin məcmusu) qarşılıqlı təsiri nəticəsində formalaşır.

MÜZAKİRƏ

Tədqiqat göstərir ki, tələbələrin "Dayanıqlı inkişaf" və "Dayanıqlı turizm" barədə dövlət siyasəti, beynəlxalq təşkilatlar və turizm strategiyaları haqqında məlumatlılıq səviyyəsi orta xarakter daşıyır. Bu isə onların dayanıqlı turizmi yalnız lokal və nəzəri çərçivədə qavradığını, daha geniş institusional və qlobal konteksti isə yetərincə mənimsəmədiyini göstərir.

Bununla yanaşı, müsbət nəticələr də müşahidə olunur. Respondentlərin böyük əksəriyyəti gələcək fəaliyyətlərində dayanıqlılıq prinsiplərini tətbiq etməyə hazır olduqlarını bildirmişdir. Eyni zamanda, ekoturizm və mədəni turizm kimi dayanıqlı turizm növləri daha çox tanınır və müsbət qiymətləndirilir. Bu isə tələbələrdə müəyyən potensialın və müsbət yanaşmanın mövcud olduğunu göstərir.

Sorgu nəticələrinin dgər bir təhlili göstərir ki, respondentlərin böyük hissəsi 18 yaş ətrafında olmaqla əsasən təhsilin ilkin mərhələsində olan tələbələrdən ibarətdir. Bu fakt tələbələrin "dayanıqlı inkişaf" və "dayanıqlı turizm" anlayışlarını əsasən fragmentar şəkildə qavramasını qismən izah edir. Belə ki, təhsilin erkən mərhələsində olan tələbələr hələ ixtisaslaşma və analitik düşünmə mərhələsinə tam daxil olmadıqları üçün bu kimi kompleks və multidissiplinar anlayışları sistemli şəkildə mənimsəməkdə çətinlik çəkirlər.

Bu da göstərir ki, dayanıqlı inkişaf mövzularının yalnız müəyyən kurslarda tədris olunması kifayət etmir. Əksinə, bu anlayışların təhsil prosesinə erkən mərhələdən inteqrasiya olunması ilə yanaşı, onların daha yüksək kurslarda praktik və tətbiqi komponentlərlə davam etdirilməsi daha effektiv yanaşma kimi çıxış edə bilər. Bu isə dayanıqlı inkişaf təhsilinin mərhələli və inteqrativ model əsasında qurulmasının zəruriliyini göstərir.

Ümumilikdə, əldə olunan nəticələr göstərir ki, tələbələrdə dayanıqlı inkişaf və turizm üzrə ilkin anlayış formalaşmışdır, lakin bu biliklər dərin, sistemli və praktik yönümlü xarakter daşımalıdır. Bu isə ali təhsil sistemində dayanıqlı inkişafın daha erkən mərhələdə, inteqrativ və praktik yanaşmalar əsasında tədris olunmasının zəruriliyini ortaya qoyur.

SPSS analizi

Tədqiqat çərçivəsində əldə olunmuş məlumatlar SPSS proqramı vasitəsilə emal edilmiş və əsasən təsviri statistika (descriptive statistics), tezlik (frequency), orta göstərici (mean) və Likert şkalası üzrə qiymətləndirmələr əsasında təhlil olunmuşdur.

"Dayanıqlı inkişaf" anlayışı ilə tanışlıq səviyyəsi yüksək olsa da (75. 3%), anlayışın dərin qavranması açıq sualların təhlilində nisbətən zəif görünür.




Şəkil 1. Dayanıqlı inkişaf haqqında ümumi biliklər üzrə araşdırma nəticəsi

Likert şkalası üzrə aparılan təhlil aşağıdakı nəticələri ortaya qoyur:

- Dayanıqlı turizmin yerli iqtisadiyyata təsiri: **Mean = 4. 64**

- Mədəni irsin qorunmasına təsiri: **Mean = 4. 64**
- Ekoturizmin resursların qorunmasına təsiri: **Mean = 4. 35**
- Aqrar turizmin məşğulluğa təsiri: **Mean = 4. 34**
- Turizmin ətraf mühitə mənfi təsiri: **Mean = 2. 87**




Şəkil 2. Turizmin ətraf mühitə təsirinin araşdırılması nəticəsi

Bu göstəricilər tələbələrin dayanıqlı turizmin müsbət təsirlərini yüksək qiymətləndirdiyini, lakin mənfi təsirlərini kifayət qədər dərk etmədiyini göstərir.

Davranış dəyişənlərinin təhlili göstərir ki:

- 85. 7% respondent ekoloji davranışlara "bəzən" əməl edir
- 66. 2% tullantıların azaldılması istiqamətində fəaliyyət göstərir



Şəkil 3. Turizmin dayanıqlı inkişafa təsirinin araşdırma nəticəsi

Sadə müqayisə yanaşması baxımdan müşahidə olunur ki:

- Dayanıqlı inkişaf haqqında məlumatlılıq ilə ekoloji davranış arasında **zəif müsbət əlaqə** mövcuddur
- Təhsil səviyyəsi artdıqca anlayışın daha düzgün izah olunma ehtimalı yüksəlir

Bu isə təhsilin təsirini təsdiqləyir.

Əldə olunan nəticələrə görə verəcəyimiz hipotezlər

Tədqiqatın məqsədinə uyğun olaraq aşağıdakı əsas hipotezlər irəli sürülür və onların hər biri tələbələrin dayanıqlı inkişaf və turizm anlayışlarını qavrama səviyyəsinin müxtəlif aspektlərini qiymətləndirməyə yönəlmişdir:


H1: Tələbələrin "dayanıqlı inkişaf" haqqında ümumi məlumatlılıq səviyyəsi yüksəkdir, lakin bu biliklər əsasən nisbətən səthi xarakter daşıyır və konseptual, sistemli və analitik yanaşma səviyyəsində kifayət qədər formalaşmamışdır.

H2: Dayanıqlı inkişaf üzrə nəzəri biliklər ilə tələbələrin praktik ekoloji davranışları arasında statistik baxımdan əhəmiyyətli fərq mövcuddur.

Bu hipotez "bilik–davranış boşluğu"nun mövcudluğunu müəyyən etməyə yönəlmişdir və tələbələrin bildiklərini real həyat davranışlarına nə dərəcədə tətbiq etdiklərini qiymətləndirir.

H3: Universitet təhsili tələbələrin "dayanıqlı turizm" anlayışını formalaşdırmaqda mühüm rol oynayır, lakin bu təsir əsasən nəzəri səviyyədə qalır və praktik bacarıqların formalaşmasına yetərli təsir göstərmir.

Bu hipotez ali təhsil sisteminin effektivliyini və tədris modelinin balansını (nəzəri vs praktik) qiymətləndirməyə xidmət edir.



Şəkil 4. Turizmin dayanıqlı inkişafı üçün tədbirlərin effektivliyi araşdırması

H4: Tələbələrin dayanıqlı turizmə münasibəti ümumilikdə müsbətdir və onlar bu prinsipləri gələcək peşə fəaliyyətlərində tətbiq etməyə meyllidirlər.

Bu hipotez tələbələrin attitudinal (münasibət yönümlü) səviyyəsini ölçərək onların gələcək davranış potensialını müəyyən etməyə imkan verir.

H5: Tələbələrin dayanıqlı inkişaf üzrə məlumatlılıq səviyyəsi ilə turizmin iqtisadi, sosial və ekoloji müsbət təsirlərinin qiymətləndirilməsi arasında müsbət və birbaşa əlaqə mövcuddur. Bu hipotez biliyin qavrayış və qiymətləndirmə üzərində təsirini analiz etməyə imkan yaradır.

H6: Təhsil mərhələsi (kurs səviyyəsi) artdıqca tələbələrin "dayanıqlı inkişaf" və "dayanıqlı turizm" anlayışlarını qavrama səviyyəsi yüksəlir. Bu hipotez təhsil prosesinin zamanla təsirini və öyrənmənin dinamik xarakterini qiymətləndirir.

NƏTİCƏ VƏ TƏKLİFLƏR

Tədqiqat nəticələrinə əsasən aşağıdakı təkliflər irəli sürülür:

1. **Tədris proqramlarının təkmilləşdirilməsi**

Dayanıqlı inkişaf və turizm mövzuları yalnız bir fənn çərçivəsində deyil, bütün ixtisas üzrə inteqrativ şəkildə tədris olunmalıdır.

2. **Praktik yönümlü təhsilin gücləndirilməsi**

- Sahə ekskursiyaları
- Real turizm layihələri
- Case study və simulyasiyalar - genişləndirilməlidir.

3. **Erkən mərhələdə tədris**

Dayanıqlı inkişaf anlayışı artıq 1-ci kursdan başlayaraq mərhələli şəkildə öyrədilməlidir.

4. **Davranış yönümlü yanaşma**

Universitet daxilində:

- tullantıların idarə olunması
- yaşıl kampuslar
- ekoloji təşəbbüslər-tətbiq edilməlidir.

5. **İnformasiya mənbələrinin genişləndirilməsi**

Tələbələrin:

- elmi məqalələrə çıxışı
- beynəlxalq platformalar
- rəqəmsal resurslar - artırılmalıdır.

6. **Beynəlxalq təcrübənin inteqrasiyası**

Dayanıqlı turizm üzrə beynəlxalq təşkilatların standartları və real keyslər tədrisə daxil edilməlidir.

7. **Tələbə iştirakının artırılması**

Könüllü layihələr, startaplar və tədqiqat fəaliyyətləri vasitəsilə tələbələrin aktiv iştirakı təmin olunmalıdır.

ƏDƏBİYYAT SİYAHISI

1. Baum, R. (2021). Sustainable development – A modern understanding of the concept. *Annals of the Polish Association of Agricultural and Agribusiness Economists, 23*(2). https://doi. org/10. 5604/01. 3001. 0015. 0026
2. Blewitt, J. (2015). *Understanding sustainable development* (2nd ed.). Routledge.
3. Gough, S. , & Scott, W. (1999). Education and training for sustainable tourism: Problems, possibilities and cautious first steps. *Canadian Journal of Environmental Education, 4*, 193–212.
4. Jati, H. F. , Darsono, S. N. A. C. , Hermawan, D. T. , Yudhi, W. A. S. , & Rahman, F. F. (2019). Awareness and knowledge assessment of sustainable development goals among university students. *Jurnal Ekonomi & Studi Pembangunan, 20*(2), 163–175. https://doi. org/10. 18196/jesp. 20. 2. 5022
5. Kurniawan, T. , & Khademi-Vidra, A. (2024). *Understanding sustainable tourism trajectories in developing countries: Case study: ASEAN*. Journal of Sustainability Research, 6(3), e240060. https://doi. org/10. 20900/jsr20240060
6. Lund-Durlacher, D. (2015). Sustainable tourism education: An institutional approach. In P. Moscardo & G. Benckendorff (Eds.), *Education for sustainability in tourism: A handbook of processes, resources, and strategies* (pp. 93–100). Springer.
7. Maoela, M. A. , Chapungu, L. , & Nhamo, G. (2024). *Students' awareness, knowledge and attitudes towards the sustainable development goals at the University of South Africa*. International Journal of Sustainability in Higher Education, 25(9), 455–473. https://doi. org/10. 1108/IJSHE-11-2023-0518
8. Michael, F. L. , Sumilan, H. , Bandar, N. F. A. , Hamidi, H. , Jonathan, V. , & Md Nor, N. N. (2020). Sustainable development concept awareness among students in higher education: A preliminary study. *Journal of Sustainability Science and Management, 15*(7), 113–122. https://doi. org/10. 46754/jssm. 2020. 10. 011
9. Selvam, V. , Duraiswamy, A. , Puwanenthiren, P. , & Venkatesan, R. (2024). Assessment of students' awareness, knowledge, and accessibility of Sustainable Development Goals (SDGs). *Multidisciplinary Reviews, 7*, e2024122. https://doi. org/10. 31893/multirev. 2024122
10. Strange, T. , & Bayley, A. (2008). *Sustainable development: Linking economy, society, environment*. OECD Publishing. https://doi. org/10. 1787/9789264055742-en
11. Yuan, X. , Yu, L. , & Wu, H. (2021). *Awareness of Sustainable Development Goals among students from a Chinese senior high school*. Education Sciences, 11(9), 458. https://doi. org/10. 3390/educsci11090458

NAHÇIVAN ÖZERK CUMHURİYETİNİN TURİZM POTANSİYELİ

Tourism Potential of the Nakhchivan Autonomous Republic

ƏLİ NADİROV[1]
Ali Nadirov[1]
ali. nadirov@mdu. edu. az
https://orcid. org/ 0000-0002-1116-361X

CAFER TOPALOĞLU[2]
Cafer Topaloglu[2]
ctopaloglu@mu. edu. tr

[1]*Mingəçevir Dövlət Universiteti*
[2]*Muğla Sıtkı Koçman Üniversitesi*
[1]*Mingachevir State University*
[2]*Mugla Sitki Kochman University*

ÖZET

Nahçıvan Özerk Cumhuriyeti ülkenin ana kara parçasıyla doğrudan bağlantısı olmadığı için bu bölgende ekonomiye katkı açısından turizm sektörü ayrı bir önem taşımaktadır. Nahçıvan; Türkiye, İran ve Ermenistan ile kara bağlantısına sahip bir coğrafyada yerleşmektedir. Türkiye'yi Orta Asya'ya (Türkistan'a) bağlayan Nahçıvan zengin turizm potansiyeline sahiptir. Nahçıvan'da uluslararası havalimanı, demir ve karayolu ulaşımının olması bu bölgeye seyahat etmeyi kolaylaştırmaktadır. Nahçıvan'a yapılan yatırımlar, Ermenistan'la normalleşme süreci ve Zengezur Koridorunun açılmasıyla birlikte bölgenin turizm sektöründe canlanma yaşanacağı düşünülmektedir. Nahçıvan'ın turizm potansiyeli olarak; tarihi, kültürel miras, mağara, doğa ve etnik köken turizm olanakları olduğu görülmektedir. Çalışma kapsamında Nahçıvan Özerk Cumhuriyetinin turizm potansiyeli literatür taraması yapılarak incelenmektedir. Elde edilen bulgulardan hareketle Nahçıvan Özerk Cumhuriyetinde turizm sektörünün mevcut durumu ve gelecek hedefleri belirlenerek bölgenin nasıl cazibe merkezi olabileceği ile ilgili değerlendirmelerde bulunulmuştur.

Anahtar kelimeler: *Azerbaycan, Nahçıvan, Turizm, Zengezur Koridoru, Türk Dünyası*

ABSTRACT

Because the Nakhchivan Autonomous Republic lacks a direct connection to the mainland, the tourism sector holds particular importance in terms of its contribution to the economy. Nakhchivan is located in a geographical area with land connections to Turkey, Iran, and Armenia. Connecting Turkey to Central Asia (Turkestan), Nakhchivan possesses rich tourism potential. The presence of an international airport, rail, and road transportation in Nakhchivan facilitates travel to the region. It is believed that investments in Nakhchivan, the normalization process with Armenia, and the opening of the Zangezur Corridor will revitalize the region's tourism sector. Nakhchivan's tourism potential is projected to include historical and cultural heritage sites, caves, nature, and ethnic tourism opportunities. This study examines the tourism potential of Nakhchivan through a literature review. Based on the findings, the current state and future goals of tourism in Nakhchivan are determined, and assessments are made regarding how the region can become a center of attraction.

Key words: *Azerbaijan, Nakhchivan, Tourism, Zangezur Corridor, Turkic World*

GİRİŞ

Azerbaycan topraklarının birçok bölge ve yöresi turizm potansiyeli açısından çok önemli nitelikler taşımaktadır (Seferov ve Hesenov, 2006). Azerbaycan gibi gelişmekte olan bir ülkenin kalkınması adına turizmin sektörünün geliştirilmesi önem arz etmektedir. Turizmin Azerbaycan'da gelişimi ülkenin tarihini, kültürünü dünya tanıtma ve devletin ekonomisine katkı sağlayacağı öngörülmektedir (Ağakerimov, Yeganlı ve Babazade, 2020). Bu sebepledir ki Azerbaycan'da turizmin gelişimi için gerekli alt ve üst yapı projeleri hayata geçirilmektedir. Azerbaycan Cumhurbaşkanı sayın İlham Aliyev'in turizm alanında gerçekleştirdiği olumlu siyasetin bir sonucu olarak ülke ekonomisinde turizm sektörünün geliştiğini söylenebilir (Humbetov, 2024). Turizm alanında gerçekleştirilen reformlar; "Turizm hakkında" yeni kanun düzenlemesi, "Azerbaycan Devlet Turizm Ajansının kurulması", "2023-2026 Turizm Stratejisinin" hazırlanması, yeni havalimanları ve demir yollarının inşasını gösterebiliriz (Ağa-Kerimov ve Guliyev, 2024). Özellikle

Karabağ'ın işgalden kurtarılmasıyla eşsiz güzelliklere sahip Azerbaycan'ın turizmi için yeni rotaların oluşturulması fırsat doğmuştur. Bu fırsat Türkiye'yi Orta Asya Cumhuriyeti Devletlerine (Türkistan'a) bağlayacak olan Zengezur koridorudur (Jabbarov, Abbasova ve Tanrıverdi, 2022). Azerbaycan Cumhuriyeti devletinin illerinin ekonomik bölgesinde Nahçıvan Özerk devleti ve Doğu Zengezur bölgeleri Zengezur Koridorunu oluşturmaktadır. Özellikle yıllarca izole olarak kalmış Nahçıvan ekonomisinin ve turizm sektörünün gelişmesi adına Zengezur Koridoru önem arz etmektedir.

Bu çalışmada Zengezur Koridorunun en önemli kısımlarından biri olan Nahçıvan Özerk Cumhuriyetinin turizm potansiyeli literatürden yararlanarak değerlendirilmeye çalışılacaktır. Bu kapsamda Nahçıvan hakkında genel bilgiler verildikten sonra bölgenin turizm potansiyeli incelenecek ve sonuçta neler yapılabileceği ile ilgili öneriler sunulacaktır.

YÖNTEM

Nahçıvan şehrini turizm potansiyelini belirlemeyi amaçlayan çalışmada nitel analiz yöntemi kullanılmıştır. Nitel analiz yöntemi; "*gözlem, görüşme, doküman analizi, odak grup görüşmesi ve etnografik inceleme gibi veri toplama yöntemleri ile kişi, olay ve durumların doğal ortamda incelendiği araştırma türüdür"* (Akbaba, 2021). Çalışma kapsamında nitel analiz yöntemlerinden olan doküman analizi tercih edilmiştir. Doküman incelemesi, araştırılan olay veya olgu hakkında gerekli bilgileri içeren belgelerin analizin kapsamaktadır (Yıldırım ve Şimşek, 2021). Doküman olarak Nahçıvan şehrini konu eden makale, kitap ve internet kaynaklarından yararlanılmıştır. Bunlar; "Azerbaycan'ın Nahçıvan Eyaletinin Statüsünün Tarihi Gelişimi" ve "Nahçıvan Duzdağ Speleoterapi Ziyaretçilerinin Konaklama, Destinasyon Kalitesi ve Memnuniyet Algıları" konulu yüksek lisans tezleri (Babakişiyeva, 2019; Ağayev, 2001), "Nahçıvan'ın Jeopolitik ve Jeostratejik Önemi", "Nahçıvan duzdağin sağlik turizm potansiyeli" ve "Azerbaycan'ın turizm potansiyeli ve turizm etkinliklerinin değerlendirilmesi" konulu makaleler (Seferov ve Hesenov, 2006; Şimşek, 2010; Şimsek, 2020) ve Cumhurbaşkanlığı internet sitesi, Nahçıvan Valiliği internet sitesi, Devlet Turizm Bürosu internet sitesi ve UNESCO-nun resmi sitesi incelenmiştir (president. az, 2026; nakhchivan-ih. gov. az; www. tourismboard. az, 2026; economy. gov. az, 2026).

NAHÇIVAN ŞEHRİ COĞRAFİ KONUMU VE TARİHİ

Nahçıvan şehri başkent Bakü'ye 536 km uzaklıkta olup nüfusu ise 01. 01. 2026 verilerine göre 98. 073 bin kişidir (nakhchivan-ih. gov. az). Türkiye, İran ve Ermenistan ile sınırları bulunan Nahçıvan Özerk Cumhuriyetinin iklimi çok sert olup havasının ortalama sıcaklığı -31^0 C ile $+44^0$ C arasında değişmektedir. Küçük Kafkas dağlarının güneybatısında bulunan Nahçıvan dağlık bir alana sahiptir (Şimsek, 2020). *"Nahçıvan Özerk Cumhuriyeti başkenti Nahçıvan şehriden ve 7 idari ilçeden (rayon); Şerur, Babek, Ordubad, Culfa, Kengerli, Şahbuz, Sederek`ten ibarettir. Nahçıvan Özerk Cumhuriyeti`nin 5 şehri, 8 kasabası, 206 köyü (kendi) vardır. "* (Babakişiyeva, 2019).

Tarihi Nuh tufanına ile ilişkilendirilin Nahçıvan hakkında ilk yazılı bilgiler *"II. yüzyılda yaşamış Yunan coğrafyası olan Klavdi Ptolomey'in 'Coğrafya eserinde' geçmiştir. "* (Ağayev, 2001). Nahçıvan tarihi kadar yerleştiği jeopolitik konu itibariyle her zaman önemli cazibe merkezlerinden biri olmuştur (Şimşek, 2010). Nahçıvan Türkiye Cumhuriyeti ile Orta Asya'yı birleştirmektedir. Bu ilişkiyi kesmek için Sovyet döneminde Zengezur bölgesinin Ermenilere verilmiştir. Bununla da Nahçıvan Özerk Cumhuriyetinin Azerbaycan'ın ana kara parçasıyla olan bağlantısı kesilmiştir. Günümüzde Nahçıvan'a ulaşım Türkiye ve İran üzerinden yapılmaktadır. II. Karabağ zaferinden sonra Ermenistan ile ilişkilerin normalleşme süreci Zengezur konusunu yeniden gündeme getirmiştir. Zengezur Koridorunun açılması Nahçıvan'ın turizm potansiyeline olumlu etki etmesi beklenmektedir. Ayrıca İran ile Aras nehri üzerinde yeni köprülerin inşa edilmesi Nahçıvan'a

ulaşımı daha konforlu hale getireceğinden dolayı Nahçıvan'a Azerbaycan'dan ziyaret edecek yerli turistlerin sayında da artış olacağını ifade edebiliriz. Bu kapsamda Nahçıvan Özerk Cumhuriyetinden turizm potansiyeli yüksek olan yerlerin hangi alanlar olduğunu inceleyeceğiz.

NAHÇIVAN ÖZERK CUMHURİYETİNİN TURİZM POTANSİYELİ

Azerbaycan Cumhuriyeti Cumhurbaşkanı İlham Aliyev'in onayladığı 16 Mart 2016 tarihli ve 1897 sayılı "Milli ekonomi stratejik yol haritası" kararnamesinde turizm sektörü de bulunmaktadır. Kararnamede Azerbaycan'da turizm hizmetlerinin kalitesinin yükseltilerek ulusal ve uluslararası pazarlarda yüksek kaliteli ve rekabetçi turizm anlayışının oluşturulması hedeflenmektedir (president. az, 2026). Ülke ekonomisinde turizm pastasından payın arttırılması adına 2023-2026 Azerbaycan turizm stratejisi belirlenmiştir (www. tourismboard. az, 2026). Belirlenen strateji kapsamından Nahçıvan Özerk Cumhuriyetinin turizmin geliştirilmesi de ön görülmektedir (economy. gov. az, 2026). Turizm sektörünün geliştirilmesi Nahçıvan'da yeni iş olanakları açısından önem arz etmektedir. Nahçıvan'ın turizm potansiyeli incelediğimiz zaman;

Tarihi ve kültürel yapılar: Mümine Hatun Türbesi, Nuh Peygamber Türbesi, Elince Kalesi, Karabağlar Türbesi, Ordubad Tarihi Koruma Kültürel Alanı, Culfa Kervansarayı, Han Sarayı,

Mağara ve sağlık merkezleri: Tuzdağı Fizyoterapi Merkezi, Batabat Yaylası, Ashab-ı Kehf Mağarası.

Doğa alanaları: Nehacir Dağı, Kapıcık Zirvesi, Arpaçay Su Baraj, Şahbuz Devlet Koruma Alanlarının olduğunu görmekteyiz.

Nahçıvan'da uluslararası havalimanı, demiryolu ve karayolu bağlantılarının olması ulaşımı kolaylaştırmaktadır. Nahçıvan, Türk Dünyasını birleştirecek Zengezur Koridorunun en önemli bileşenlerinden biri olması buranın turizm potansiyelini oldukça yükseltmektedir. Nahçıvan'da bulunan Nahçıvan Türbeleri, Ordubad Tarihi Koruma Kültürel Alanı ve Gemikaya ve Göygöl Tarih-Kültür ve Doğa Alanı UNESCO Dünya Mirası Geçici Listesinde yer almaktadır (whc. unesco. org). Turizm sektörü Nahçıvan için yeni fırsatlar sunmakla birlikte turizmin doğası gereği bazı olumsuzluklara sebep olabilir. Bunu aşağıdaki tablodaki gibi değerlendire biliriz.

Tablo 1. SWOT Analizi

Güçlü Yönleri	**Zayıf Yönleri**
Doğal güzelliklerinin olması, UNESCO Dünya Kültürel Miras Geçici Listesinde Tarihi kültürel yapıların olması, İnanç turizmi açısından türbelerin olması ve Sağlık turizmi olanaklarının mevcudiyeti.	Turizmin henüz yeni gelişmesi, Ermenistan ile sınırların kapalı olması, Azerbaycan ile doğrudan kara bağlantısının olmaması.
Fırsatlar	**Tehditler**
Üç ülke ile sınırının olması turist çekmesi açısından avantaj olması, Zengezur Koridorunun esas bileşeninden biri olması, Bozulmamış doğal güzelliklere sahip olması.	Komşu ülkeler (İran ve Ermenistan'da) yaşanan siyasi ve askeri gelişmeler, Doğal alanların bozulması, Tarihi ve kültürel alanların tahrip olma ihtimali, Turizmin yerel halk ve kültür üzerinde oluşturabileceği muhtemel olumsuzluklar.

SONUÇ

Azerbaycan ekonomisinin petrole bağımlılığını azaltmak adına ülkede farklı yıllarda çeşitli stratejik planlar kabul edilmiştir. Bu planlarda turizm sektörü başlıca yer alan sektörler arasındadır. Azerbaycan'ın zengin tarihi kültürel alanları, bozulmamış doğası ve bulunduğu coğrafi konum turizm sektörünün geliştirilmesi adına fırsatlar sunmaktadır. Azerbaycan'ın siyasi ve kültürel önemli bölgelerin başında Nahçıvan Özerk Cumhuriyeti gelmektedir. Orta Asya bölgesine açılan Türk kapısı olan bu bölgenin turizm potansiyeli oldukça yüksek olmasına rağmen Ermenistan ile olan savaş durumu ve Azerbaycan ile ana kara parça bağlantısının olmaması turizm sektörünün önünde engel olarak karşımıza çıkmaktaydı. Ancak II. Karabağ zaferinden sonra bölgede yaşanan jeopolitik değişikliklerden sonra hem bölge ülkeleri hem de Nahçıvan için yeni fırsatlar sunmaktadır. Bu fırsatlar biri Türkiye'yi Orta Asya'ya bağlayacak olan Zengezur Koridorunun açılmasıdır. Bu koridorun açılması bölgede ticari ve turistik faaliyetlerin arttıracağı ön görülmektedir.

Nahçıvan'ın turizm potansiyelini araştırdığımız zaman şehrin tarihi kültürel alanların olması bölgede kültür turları için büyük fırsatlar sunmaktadır. Ayrıca şehirde mağara, doğa ve sağlık turizm potansiyelinin olduğunu da görülmektedir. Bölgenin turizm faaliyetlerinin tanıtılması ve Nahçıvan'ın turizm olanaklarının doğru tespit edilmesi için bölgede turizmle ilgili saha çalışmalarının yapılarak elde edilen bulgular ışığında turizm planlarının hazırlanması gerekmektedir.

KAYNAKÇA

1. Ağakərimov, M. M. , Yeganlı, S. T. və Babazadə, S. İ. (2020). *Ekskursiya və ekskursiya bələdçisi* (2. Nəşr). Bakı: Mütərcim nəşriyyatı.
2. Ağa-Kərimov, M. və Quliyev, R. (2024). *Turizm növləri* (1. Nəşr). Bakı: Müəllim nəşriyyat.
3. Ağayev, M. (2001). *Azerbaycan'ın Nahcivan Eyaletinin Statüsünün Tarihi Gelişimi.* (Yayımlanmamış Yüksek Lisans Tezi). İstanbul Üniversitesi Sosyal Bilimler Enstitüsü, İstanbul.
4. Akbaba, A. , Lorcu, F. , Erduran, G. Y. , Yazıcı, S. ve Akman, Y. (2021). *Bilimsel araştırma yöntemleri ve etik* (1. Baskı). Ankara: Detay Yayıncılı.
5. Babakişiyeva, T. (2019). *Nahçıvan Duzdağ Speleoterapi Ziyaretçilerinin Konaklama, Destinasyon Kalitesi ve Memnuniyet Algıları.* (Yayımlanmamış Yüksek Lisans Tezi). İzmir Kâtip Çelebi Üniversitesi Sosyal Bilimler Enstitüsü, İzmir.
6. Hümbətov, Y. (2024). *Turizm siyasəti və planlaşdırılması* (1. Nəşr). Bakı: Optimist MMC.
7. Jabbarov, A. , Abbasova, S. , & Tanrıverdi, H. (2022). Zəngəzur-Naxçivan-İstanbul marşrutu üzrə regional əməkdaşliq perspektivləri. *Uluslararası Turizm, Ekonomi ve İşletme Bilimleri Dergisi-IJTEBS*, *6*(1).
8. Seferov, R. ve Hesenov, T. (2006). Azerbaycan'ın turizm potansiyeli ve turizm etkinliklerinin değerlendirilmesi. *Selçuk Üniversitesi Türkiyat Araştırmaları Dergisi*, (20), 255-272.
9. Şimşek, O. (2010). Nahcivan'ın Jeopolitik ve Jeostratejik Önemi. *Kafkas Üniversitesi Sosyal Bilimler Enstitü Dergisi,* 1(6), 111-132.
10. Şimşek, O. (2020). Nahcivan duzdağin sağlik turizm potansiyeli. *Kafkas Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi*,(25), 21-38.
11. Yıldırım, A. ve Şimşek, H. (2021). *Sosyal bilimlerde nitel araştırma yöntemleri* (12. Baskı). Ankara: Seçkin Yayıcılık.

İNTERNET KAYNAKLARI

1.https://economy. gov. az/storage/files/files/9262/UfBFxAmZflklMrEOldDh8Xo7ZSD1l6PbIBP1VF99. pdf [Erişim Tarihi: 06. 05. 2026].
2.https://president. az/az/articles/view/22134 [Erişim Tarihi: 06. 05. 2026].
3.https://www. tourismboard. az/az/strategy [Erişim Tarihi: 06. 05. 2026].
4.https://whc. unesco. org/en/statesparties/az [Erişim Tarihi: 06. 05. 2026].
5.http://nakhchivan-ih. gov. az/sheherhaqqinda [Erişim Tarihi: 06. 05. 2026].

DİGİTAL TWIN TEXNOLOGİYASI İLƏ MƏDƏNİ İRS DESTİNASİYALARINDA DAYANIQLI VƏ ÇEVİK TURİZM İDARƏÇİLİYİ: SİMULYASİYA ƏSASLI MODEL

Sustainable and Agile Tourism Management in Cultural Heritage Destinations with Digital Twin Technology: A Simulation-Based Model

XƏLİL ƏLİYEV
Khalil Aliyev
xalil. aliyev@mdu. edu. az
https://orcid. org/ 0009-0000-3326-0552
Mingəçevir Dövlət Universiteti
Mingachevir State University

XÜLASƏ

Mədəni irs destinasiyaları kütləvi turizm, obyektlərin fiziki degradasiyası və iqlim dəyişikliyinin birgə təzyiqi altındadır. Ənənəvi idarəetmə yanaşmaları əsasən reaktiv xarakter daşıdığından bu çağırışlara vaxtında cavab vermək mümkün olmur. Bu məqalədə mədəni irs saytlarında dayanıqlı və çevik turizm idarəçiliyini dəstəkləyən simulyasiya əsaslı rəqəmsal əkiz modeli təklif edirik. Modelimiz üç ierarxik qatdan ibarətdir: fiziki saytdan real vaxt məlumatları toplayan Məlumat Əldə Etmə Qatı (IoT sensorlar, 3D lazer skanlaması, fotogrammetriya), ziyarətçi axını, struktural yük və iqlim ssenariləri üzrə simulyasiya aparan Simulyasiya Qatı, həmçinin proqnozlaşdırıcı analitikanı əməliyyat qərarlarına çevirən İdarəetmə Qatı. FAIR məlumat idarəçiliyi prinsipləri bütün arxitektura boyu tətbiq edilir. Modelimiz rəqəmsal əkizi passiv sənədləşdirmə alətindən aktiv idarəetmə platformasına çevirir: sayt menecerləri fövqəladə hallara hazırlıq ssenariləri yaza, ziyarətçi kapasitəsini optimize edə və risk müdaxilələrini öncədən planlaşdıra bilirlər. Artırılmış reallıq inteqrasiyası isə fərdiləşdirilmiş miras ziyarət təcrübəsini mümkün edir. Transferabel quruluşu sayəsində çərçivə muzeylər, arxeoloji saytlar, tarixi şəhər mərkəzləri və sənaye irası kimi müxtəlif tipologiyalara tətbiq oluna bilər. Gələcək tədqiqatlarda pilot tətbiq, xərc-fayda analizi və etik məlumat idarəçiliyi çərçivəsi üzərində işin aparılması vacib hesab olunur.

Açar sözlər: *rəqəmsal əkiz, mədəni irs, dayanıqlı turizm, simulyasiya modeli, ağıllı idarəetmə*

ABSTRACT

Cultural heritage destinations are under the combined pressure of mass tourism, physical degradation of sites, and climate change. Since traditional management approaches are mainly reactive, it is not possible to respond to these challenges in a timely manner. In this article, we propose a simulation-based digital twin model that supports sustainable and resilient tourism management at cultural heritage sites. Our model consists of three hierarchical layers: the Data Acquisition Layer, which collects real-time data from the physical site (IoT sensors, 3D laser scanning, photogrammetry); the Simulation Layer, which runs simulations on visitor flow, structural load, and climate scenarios; and the Management Layer, which converts predictive analytics into operational decisions. FAIR data management principles are applied throughout the entire architecture. Our model transforms a digital twin from a passive documentation tool into an active management platform: site managers can write emergency preparedness scenarios, optimize visitor capacity, and plan risk interventions in advance. Augmented reality integration enables a personalized heritage visiting experience. Thanks to its transferable structure, the framework can be applied to various typologies such as museums, archaeological sites, historic city centers, and industrial heritage. Future research should focus on pilot application, cost-benefit analysis, and the development of an ethical data management framework.

Keywords: *digital twin, cultural heritage, sustainable tourism, simulation model, smart management*

GİRİŞ

Dünya mədəni irs obyektlərinin qorunması və idarə edilməsi son illərdə getdikcə mürəkkəbləşən bir məsələyə çevrilmişdir. Turizm tələbinin sürətlə artması, iqlim dəyişikliyi, obyektlərin fiziki degradasiyası və ziyarətçi axınının effektiv idarə edilməsindəki çətinliklər bu mürəkkəbliyin əsas mənbələridir. Ənənəvi yanaşmalar çox zaman reaktiv xarakter daşıyır: problem aşkar edildikdən sonra müdaxilə başlanır. Oysa qloballaşan turizm mühiti artıq proaktiv, məlumat əsaslı idarəetmə strategiyalarını zəruri etməkdədir.

Rəqəmsal əkiz (digital twin) texnologiyası bu çağırışlara cavab verə biləcək perspektivli bir həll kimi sürətlə diqqəti cəlb edir. Fiziki obyektin real vaxt məlumatları əsasında idarə edilən dinamik virtual surətini yaradan bu texnologiya, mədəni irs saytlarının həm qorunması, həm də turizm idarəçiliyi üçün transformativ potensial daşıyır (Luther et al. , 2023). Rəqəmsal əkizlər artıq yalnız mühəndislik sahəsinin aləti deyil, mədəni irs məkanları, muzeylər, tarixi binalar və turistik destinasiyalar üçün hərtərəfli idarəetmə platformalarına çevrilmişdir.

Bu məqalədə mədəni irs destinasiyalarında dayanıqlı və çevik turizm idarəçiliyini dəstəkləyən simulyasiya əsaslı rəqəmsal əkiz modeli təklif edirik. Modelimiz üç əsas qat üzərində qurulmuşdur: məlumat əldə etmə qatı, simulyasiya qatı və idarəetmə qatı. Transferabel quruluşu sayəsində müxtəlif mədəni irs tipologiyalarına — arxeoloji saytlardan tutmuş tarixi şəhər mərkəzlərinə qədər — tətbiq edilə bilən bu çərçivənin sahəyə praktiki töhfə verəcəyini düşünürük.

ƏDƏBİYYAT İCMALI

Rəqəmsal əkiz texnologiyası mədəni irs sahəsinin idarəçilik problematikasına getdikcə daha dərin şəkildə nüfuz etməkdədir. Muzeylərdə və mədəni irs saytlarında aparılan araşdırmalar göstərir ki, IoT sensorlar, 3D skan və artırılmış reallıq kimi texnologiyaların inteqrasiyası həm qoruma, həm də ziyarətçi təcrübəsi üçün yeni imkanlar yaradır (Luther et al. , 2023). Sensor məlumatlarının real vaxt emalı saytların struktural sağlamlığının davamlı monitorinqi üçün əvəzsiz alətdir.

Rəqəmsal əkiz konsepsiyası bünyəvi miras qorunması üçün güclü potensial daşıyır; bununla belə, texnoloji imkanlarla operasional tələblər arasındakı boşluq hələ tam aradan qalxmamışdır (Vuoto et al. , 2024, s. 779). UNESCO Dünya İrs Saytlarındakı tətbiq nəticələri aydın ortaya qoyur ki, real vaxt monitorinq sistemləri iqlim dəyişikliyi risklərinin azaldılmasında mühüm rol oynayır (Dang et al. , 2023, s. 261).

Rəqəmsal əkizin idarəetmə modeli kimi konseptuallaşdırılması istiqamətində miras saytı idarəçiliyi üçün nəzəri bir model irəli sürülmüş, fiziki infrastruktur, rəqəmsal platforma və insan kapitalı arasındakı əlaqənin sistemli izahı verilmişdir (Hatami & Koramaz, 2024). Bunun yanında miras rəqəmsal əkizlərinin qiymətləndirilməsi metodologiyası inkişaf etdirilmiş, texnoloji yetkinlik, istifadəçi ehtiyacları və qoruma məqsədlərinin uyğunluğunu ölçmək üçün çoxölçülü bir çərçivə irəli sürülmüşdür (Sugiyama et al. , 2024). Bu metodoloji töhfə modelin pilot tətbiqlərinin effektivliyini qiymətləndirmək üçün zəruri bir alət rolunu oynayır.

Turizm kontekstindən baxıldıqda, rəqəmsal əkiz, böyük məlumat idarəçiliyi və dayanıqlı turizm arasındakı əlaqə etik-epistemoloji planda araşdırılmış; texnologiyanın istifadəsində məlumat suverenliyi və şəffaflıq prinsiplərinə riayətin vacibliyi ön plana çıxarılmışdır (Rahmadian et al. , 2023). Turizmdə rəqəmsal əkiz tətbiqlərinin sistemli icmalında bu sahənin sürətlə inkişaf etdiyi, lakin praktiki tətbiq boşluqlarının mövcudluğu qeyd edilmişdir (Almeida et al. , 2025). Rəqəmsal əkizin ziyarətçi axınının monitorinqi və destinasiya resurs idarəçiliyindəki rolu isə geniş turizm sektoru kontekstində araşdırılmışdır (Abdullah, 2025).

Miras və turizm kontekstlərindəki qabaqcıl texnologiyalar — süni intellekt, maşın öyrənməsi, artırılmış/virtual reallıq — sistematik şəkildə nəzərdən keçirilmiş, rəqəmsal əkizin bu texnologiyaların inteqrasiya platforması ola biləcəyi göstərilmişdir (Varol & Öksüz, 2024, s. 1893). Turizm təcrübəsi dizaynı ilə rəqəmsal əkiz inteqrasiyasının ziyarətçi məmnuniyyəti və yerli maraqlı tərəflərin faydalanmasına potensial töhfəsi analiz edilmişdir (Prabawati et al. , 2024, s. 27).

Mədəni irs rəqəmsal əkizlərinin sensor məlumatlarını standartlaşdırmaq üçün ontoloji bir model inkişaf etdirilmiş, CIDOC CRM bazalı yanaşmanın məlumat interoperabilliyi üçün kritik əhəmiyyəti göstərilmişdir (Niccolucci & Felicetti, 2024). Miras rəqəmsal əkizi üçün hərtərəfli

ontoloji çərçivə müzakirəyə açılmış, bu çərçivənin fərqli texnoloji platformalar arasında həm fiziki, həm də konseptual biliklərin ötürülməsini mümkün etdiyi vurğulanmışdır (Niccolucci et al. , 2023).

Miras rəqəmsal əkiz sistemlərindəki FAIR (Findable, Accessible, Interoperable, Reusable) məlumat idarəçiliyi prinsipləri araşdırılmış, açıq məlumat standartlarının uzunmüddətli rəqəmsal qoruma üçün zəruri olduğu müəyyən edilmişdir (Barzaghi et al. , 2024). Fotogrammetriyanın və lazer skanlamanın fiziki miras obyektlərinin yüksək dəqiqlikli rəqəmsal surətlərinin yaradılmasında əsas texnologiyalar olduğu ortaya qoyulmuşdur (Revista Gestão & Tecnologia, 2024). Miras qorunması və risk idarəçiliyinə uyğunlaşdırılmış xüsusi rəqəmsal əkiz modelləri işlənib hazırlanmış, bu modellərin fövqəladə hadisə planlamasındakı effektivliyi nümayiş etdirilmişdir (Cinquepalmi & Cumo, 2023).

METODOLOGİYA VƏ MODELİN QURULUŞU

Bu araşdırmada rəqəmsal əkiz texnologiyasının mövcud tətbiq təcrübəsini üç funksional qata birləşdirən konseptual bir model təklif edirik. Modelimiz mədəni irs saytlarında turizm idarəçiliyinin texnoloji, funksional və qərar dəstəyi tələblərini eyni çərçivə altında qarşılamaq üçün nəzərdə tutulmuşdur.

Təklif olunan model üç qatdan ibarət ierarxik bir quruluşa malikdir. Birinci — Məlumat Əldə Etmə Qatı — fiziki saytdan həm passiv, həm də aktiv üsullarla məlumat toplayan komponentləri əhatə edir: IoT sensorlar (temperatura, rütubət, titrəmə), nöqtə buludu yaradan 3D lazer skanlaması, fotogrammetrik görüntüləmə, artırılmış reallıq vasitəsilə ziyarətçi axını monitorinqi. FAIR prinsipləri bu qatdakı bütün məlumat hərəkəti üçün standart kimi qəbul edilmişdir (Barzaghi et al. , 2024).

İkinci qat olan Simulyasiya Qatı fiziki saytın real vaxt rəqəmsal əkizini saxlayır. Bu qatda həm statik struktural model, həm də dinamik axın modelləri mövcuddur. Ziyarətçi sıxlığı, sayt üzərindəki fiziki yük və iqlim stres ssenariləri bu qatda simulyasiya edilir. Qiymətləndirmə metodologiyası bu qatın performans ölçütlərini müəyyən etmək üçün əsas götürülmüşdür (Sugiyama et al. , 2024).

Üçüncü qat olan İdarəetmə Qatı simulyasiya çıxışlarını əməliyyat qərarlarına çevirir. Bu qata daxildir: sayt menecerlərini real vaxt xəbərdarlıqları ilə təmin edən qərar dəstəyi alətləri, ziyarətçi axınının yenidən yönləndirilməsi modülü, texniki xidmət planlaşdırması komponenti və fərdiləşdirilmiş miras ziyarət təcrübəsi platforması. Turizm təcrübəsi inteqrasiyası bu qatın əsas dizayn məntiqi kimi xidmət etmişdir (Prabawati et al. , 2024, s. 27; Abdullah, 2025).

Modelin üç əsas funksional komponenti mövcuddur. Real-Vaxt Monitorinq Altsistemi fiziki saytdan davamlı sensor axını alan, struktural deformasiyaları, ətraf mühit dəyişikliklərini və ziyarətçi yükünü eyni anda izləyən komponentdir (Luther et al. , 2023; Cinquepalmi & Cumo, 2023). Proqnozlaşdırıcı Analitika Mühərriki tarixi məlumatlar, mövsüm modellərindən əldə edilən dövriyyə proqnozları və struktural risk modelləri əsasında gələcək ssenariləri simulyasiya edir (Dang et al. , 2023, s. 261; Hatami & Koramaz, 2024). Ontologiya Əsaslı Məlumat Arxitekturası fərqli texnoloji platformalar arasında məlumat mübadiləsini mümkün edir (Niccolucci & Felicetti, 2024; Niccolucci et al. , 2023).

NƏTİCƏLƏR VƏ MÜZAKİRƏ

Təklif olunan simulyasiya əsaslı modelin ən mühüm töhfəsi reaktiv yanaşmadan proaktiv idarəetmə paradiqmasına keçişi texniki cəhətdən mümkün etməsidir. Ənənəvi miras idarəçiliyi zərər baş verdikdən sonra müdaxiləyə əsaslanır; oysa rəqəmsal əkiz əsaslı model proqnozlaşdırıcı analitika vasitəsilə potensial riskləri vaxtında aşkar etməyə imkan verir (Vuoto et al. , 2024, s. 779). Bu keçid miras saytlarının uzunmüddətli davamlılığı üçün prinsipial əhəmiyyət daşıyır.

Dayanıqlı turizm perspektivindən model iki kritik problemi eyni anda həll edir: ziyarətçi axınının optimal idarəsi və fiziki strukturun uzunmüddətli qorunması. Destinasiya kapasitə planlamasında rəqəmsal əkiz tətbiqlərinin əhəmiyyətli nəticələr verdiyi müşahidə edilmişdir (Almeida et al. , 2025). Böyük məlumat texnologiyalarının dayanıqlı turizmlə inteqrasiyasında etik ölçüyə — xüsusilə məlumat suverenliyinə — riayətin vacibliyi ön plana çəkilmişdir (Rahmadian et al. , 2023); bu, modelimizin FAIR prinsipləri üzərindəki vurğusunu daha da əsaslandırır.

Çeviklik aspektindən, sənaye 4. 0 texnologiyalarının miras idarəçiliyinə inteqrasiyasının saytların iqtisadi, ekoloji və sosial şoklara qarşı dözümlülüyünü artırdığı göstərilmişdir (Varol & Öksüz, 2024, s. 1893). Modelimizin simulyasiya qatı məhz bu çeviklik qabiliyyətini texnoloji olaraq reallaşdırır: fövqəladə hallarda sayt operatorları ssenarilər üzrə cavab strategiyalarını öncədən test edə bilirlər (Cinquepalmi & Cumo, 2023). Bu xüsusiyyət modeli statik sənədləşdirmə alətlərindən kəskin şəkildə fərqləndirir.

Rəqəmsal əkiz əsaslı artırılmış reallıq tətbiqləri miras məkanlarında immersiv, fərdiləşdirilmiş ziyarət təcrübəsi yaradır (Prabawati et al. , 2024, s. 27). Bu yalnız ziyarətçi məmnuniyyətini artırmır, həm də fiziki sayta olan yükü azaldır. 3D modellərin yüksək dəqiqliyi virtual ziyarət məhsullarının etibarlı bilik bazası kimi istifadə olunmasına şərait yaradır (Revista Gestão & Tecnologia, 2024).

Modelin əsas məhdudiyyətləri arasında ilkin infrastruktur xərclərinin yüksəkliyi, texniki işçi heyətinin hazırlığına ehtiyac və məlumat həcminin idarə edilməsi üçün güclü rəqəmsal infrastrukturun tələb olunması qeyd edilə bilər. FAIR uyğun altyapının yaradılmasındakı institusional mürəkkəblik bu siyahıya əlavə bir çağırış kimi daxil edilmişdir (Barzaghi et al. , 2024). Bu məhdudiyyətlər xüsusilə inkişaf yolunda olan ölkələrin miras saytları üçün ciddi əngəllər yaradır.

NƏTİCƏ

Bu məqalə mədəni irs destinasiyalarında dayanıqlı və çevik turizm idarəçiliyini dəstəkləyən simulyasiya əsaslı rəqəmsal əkiz modeli irəli sürmüşdür. Model üç ierarxik qatdan — məlumat əldə etmə, simulyasiya və idarəetmə — ibarət olub real vaxt monitorinq, proqnozlaşdırıcı analitika və ontologiya əsaslı məlumat arxitekturasını birləşdirir.

Rəqəmsal əkiz texnologiyası miras saytlarının sənədləşdirilməsi funksiyasından aktiv idarəetmə alətinə doğru dönüşüm yaşayır. Ziyarətçi axınının optimal idarəsi, fövqəladə hallara hazırlıq, struktural risk proqnozu və fərdiləşdirilmiş turizm təcrübəsi bu dönüşümün dörd əsas ölçüsünü təşkil edir. Modelimizin transferabel quruluşu onu muzeylər, arxeoloji saytlar, tarixi şəhər mərkəzləri və sənaye mirası kimi müxtəlif kontekstlərə tətbiq etməyə imkan verir.

Gələcək tədqiqatlar modelin real saytlarda pilot tətbiqinə, xərc-fayda analizinə, maraqlı tərəflərin koordinasiya mexanizmlərinə və etik məlumat idarəçiliyinin operasional çərçivəsinə diqqət yetirməlidir. Bundan əlavə, inkişaf yolunda olan ölkələrdəki miras saytlarında texnoloji qabiliyyət boşluğunun aradan qaldırılması üçün beynəlxalq əməkdaşlıq mexanizmlərinin araşdırılması aktual bir istiqamət olaraq qalır.

ƏDƏBİYYAT SİYAHISI

1. Abdullah, M. (2025). Digital twin applications in tourism: A systematic review. International Journal of Tourism Research.
2. Almeida, F. , Ferreira, M. , & Sousa, B. (2025). Digital twins in tourism: Systematic literature review. arXiv. https://doi. org/10. 48550/arXiv. 2502. 00002
3. Barzaghi, S. , Ferrante, C. , & Tansini, A. (2024). FAIR data management in heritage digital twin systems. arXiv. https://doi. org/10. 48550/arXiv. 2407. 02018

4. Cinquepalmi, F. , & Cumo, F. (2023). Digital twin models for heritage protection and risk management. SCIRES-IT – SCIentific RESearch and Information Technology, 13(2). https://doi. org/10. 6092/issn. 1973-9494/17364
5. Dang, H. V. , Tatipamula, M. , & Nguyen, H. B. (2023). Digital twin applications on cultural world heritage sites. Journal of Cultural Heritage, 64, 261–270. https://doi. org/10. 1016/j. culher. 2023. 10. 005
6. Hatami, N. , & Koramaz, T. K. (2024). Digital twin theoretical model for heritage site management. Journal of Urban and Environmental Engineering, 18(1). https://doi. org/10. 4090/juee. 2024. v18n1. 016031
7. Luther, W. , Baloian, N. , & Biella, D. (2023). Digital twins and enabling technologies in museums and cultural heritage. Sensors, 23(3), 1583. https://doi. org/10. 3390/s23031583
8. Niccolucci, F. , & Felicetti, A. (2024). Digital twin sensors in cultural heritage ontology. Sensors, 24(12), 3978. https://doi. org/10. 3390/s24123978
9. Niccolucci, F. , Felicetti, A. , & Hermon, S. (2023). Heritage digital twin ontology framework. arXiv. https://doi. org/10. 48550/arXiv. 2302. 07138
10. Prabawati, I. , Sari, R. , & Nugroho, L. E. (2024). Digital twin and tourism experience integration. In Advances in Information and Communication Technology (pp. 27–39). Springer. https://doi. org/10. 1007/978-3-031-63077-4_3
11. Rahmadian, F. , Berkhout, F. , & van den Hoven, J. (2023). Digital twins, big data governance, and sustainable tourism. Ethics and Information Technology, 25(3). https://doi. org/10. 1007/s10676-023-09730-w
12. Revista Gestão & Tecnologia. (2024). 3D modeling and digital twin for cultural heritage. Gestão & Tecnologia, 24(Special Issue). https://doi. org/10. 20397/2177-6652/2024. v24iSpecial. 2770
13. Sugiyama, K. , Ohashi, K. , & Fujiwara, N. (2024). Heritage digital twin assessment methodology. Digital Applications in Archaeology and Cultural Heritage, 34, e00390. https://doi. org/10. 1016/j. daach. 2024. e00390
14. Varol, C. , & Öksüz, A. (2024). Advanced technologies in cultural heritage and tourism. Current Issues in Tourism, 27(12), 1893–1910. https://doi. org/10. 1080/13683500. 2024. 2322693
15. Vuoto, A. , Funari, M. F. , & Lonetti, P. (2024). Digital twin concept for built cultural heritage conservation: A systematic literature review. International Journal of Architectural Heritage, 18(5), 779–801. https://doi. org/10. 1080/15583058. 2023. 2258084

TƏBIƏTIN QORUNMASINDA TURIZMIN ROLU

The Role of Tourism in Nature Conservation

FIDAN YƏHYAYEVA
Fidan Yahyayeva
fidanyehyayeva@ndu. edu. az
https://orcid. org/0009-0008-1821-7378
Naxçıvan Dövlət Universiteti
Nakhchivan State University

XÜLASƏ

Müasir dövrdə turizm sektoru dünya iqtisadiyyatının ən dinamik və sürətlə inkişaf edən sahələrindən biri kimi çıxış edir. Qloballaşma, nəqliyyat və kommunikasiya vasitələrinin inkişafı, insanların həyat səviyyəsinin yüksəlməsi və asudə vaxt imkanlarının artması nəticəsində turizmə maraq ildən-ilə artır. Bu artım isə təbii mühitə təsirin miqyasını genişləndirərək turizmin ekoloji aspektlərini daha da aктуal edir. Turizm fəaliyyəti təbii resurslardan geniş istifadə ilə xarakterizə olunur. Bu səbəbdən onun təbiətə təsiri həm müsbət, həm də mənfi istiqamətdə özünü göstərir. Bir tərəfdən turizm ekosistemlərə təzyiq göstərir, biomüxtəlifliyin azalmasına və təbii landşaftların dəyişməsinə səbəb olur, digər tərəfdən isə təbiətin qorunması üçün maliyyə mənbələri yaradır, ekoloji maarifləndirməni gücləndirir və mühafizə tədbirlərini stimullaşdırır. Bu tədqiqat işində turizmin təbiətin qorunmasında rolu geniş və çoxşaxəli şəkildə araşdırılır. Turizmin ətraf mühitə təsir mexanizmləri, ekoloji problemlərin yaranma səbəbləri, dayanıqlı turizm və ekoturizm yanaşmalarının mahiyyəti, həmçinin turizmin təbii resursların qorunmasına və biomüxtəlifliyin saxlanmasına təsiri ətraflı şəkildə təhlil edilir. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, turizmin təbiətə təsiri onun təşkil olunma və idarə olunma səviyyəsindən birbaşa asılıdır. Nəzarətsiz və plansız turizm fəaliyyəti ekosistemlərə ciddi ziyan vurduğu halda, elmi əsaslara söykənən və ekoloji prinsiplərə uyğun qurulan turizm modeli təbiətin qorunmasında mühüm rol oynaya bilər. Bu baxımdan dayanıqlı turizm konsepsiyası müasir dövrdə xüsusi əhəmiyyət kəsb edir və turizm fəaliyyətlərinin gələcək inkişaf istiqamətlərini müəyyən edən əsas yanaşmalardan biri hesab olunur.

Açar sözlər: *turizm, təbiətin qorunması, dayanıqlı turizm, ekoturizm, biomüxtəliflik, ətraf mühit, ekoloji tarazlıq, təbii resurslar, qoruqlar, milli parklar, iqlim dəyişiklikləri*

ABSTRACT

In the modern era, the tourism sector stands out as one of the most dynamic and rapidly developing fields of the global economy. As a result of globalization, the development of transportation and communication technologies, the improvement of living standards, and the increase in leisure opportunities, interest in tourism has been growing year by year. This growth, in turn, expands the scale of its impact on the natural environment and makes the ecological aspects of tourism increasingly relevant. Tourism activities are characterized by the extensive use of natural resources. Therefore, their impact on nature manifests itself in both positive and negative ways. On the one hand, tourism exerts pressure on ecosystems, leads to a decline in biodiversity, and causes changes in natural landscapes; on the other hand, it creates financial resources for nature conservation, strengthens environmental awareness, and stimulates conservation measures. This research comprehensively examines the role of tourism in nature conservation. It analyzes the mechanisms of tourism's impact on the environment, the causes of ecological problems, the essence of sustainable tourism and ecotourism approaches, as well as the influence of tourism on the protection of natural resources and the preservation of biodiversity. The findings of the study indicate that the impact of tourism on nature directly depends on the level of its organization and management. While uncontrolled and unplanned tourism activities cause serious damage to ecosystems, a tourism model based on scientific principles and aligned with ecological standards can play a significant role in nature conservation. In this regard, the concept of sustainable tourism is of particular importance today and is considered one of the key approaches determining the future directions of tourism development.

Keywords: *tourism, nature conservation, sustainable tourism, ecotourism, biodiversity, environment, ecological balance, natural resources, reserves, national parks, climate change*

GİRİŞ

XXI əsr bəşəriyyətin həm texnoloji, həm də sosial-iqtisadi baxımdan sürətli inkişaf dövrü olmaqla yanaşı, eyni zamanda qlobal ekoloji problemlərin daha da kəskinləşdiyi bir mərhələ kimi xarakterizə olunur. Elmi-texniki tərəqqi, sənayeləşmənin sürətlənməsi, urbanizasiya prosesinin genişlənməsi və əhali sayının artması nəticəsində təbii mühitə antropogen təsirlər əhəmiyyətli dərəcədə çoxalmışdır. Bu proseslər isə öz növbəsində planetin ekoloji tarazlığının pozulmasına, təbii ehtiyatların tükənməsinə və ekosistemlərin davamlılığının zəifləməsinə səbəb olmuşdur (Hall & Lew, 2009; Sharpley, 2000). Müasir dövrdə insan və təbiət münasibətləri yeni mərhələyə qədəm qoymuş, bu münasibətlərin daha rasional və davamlı əsaslarla tənzimlənməsi zərurəti meydana çıxmışdır (Saarinen, 2006). Hazırda qlobal miqyasda müşahidə olunan iqlim dəyişiklikləri, atmosferin çirklənməsi, su ehtiyatlarının azalması, torpaqların deqradasiyası, səhralaşma prosesinin sürətlənməsi və biomüxtəlifliyin azalması kimi problemlər bəşəriyyət üçün ciddi təhlükə mənbəyinə çevrilmişdir. Bu problemlər yalnız ekoloji deyil, eyni zamanda iqtisadi və sosial sahələrə də mənfi təsir göstərərək davamlı inkişafın təmin olunmasını çətinləşdirir (Gössling, Hall & Weaver, 2009). Xüsusilə biomüxtəlifliyin azalması ekosistemlərin sabitliyinə mənfi təsir edir və təbii tarazlığın pozulmasına gətirib çıxarır (Newsome, Moore & Dowling, 2013). Bu baxımdan, mövcud problemlərin aradan qaldırılması üçün kompleks və sistemli yanaşmaların tətbiqi zəruri hesab olunur. Qeyd etmək lazımdır ki, ekoloji problemlərin həlli yalnız sənaye və kənd təsərrüfatı sahələrində aparılan islahatlarla məhdudlaşmamalıdır. Müasir iqtisadiyyatın mühüm sahələrindən biri olan xidmət sektorunda, xüsusilə turizm sahəsində də ekoloji prinsiplərin tətbiqi xüsusi əhəmiyyət daşıyır. Turizm sektoru son onilliklər ərzində sürətlə inkişaf edərək dünya iqtisadiyyatının aparıcı istiqamətlərindən birinə çevrilmişdir və bu sahənin təsirləri həm iqtisadi, həm də ekoloji baxımdan geniş tədqiq olunur (Buckley, 2012). Turizm həm iqtisadi gəlir, həm də məşğulluq baxımından mühüm rol oynayır, lakin eyni zamanda təbii mühitlə sıx bağlı olduğu üçün ətraf mühitə təsiri də qaçılmazdır (Hall & Lew, 2009). Turizm müasir cəmiyyətin həyat tərzinin ayrılmaz tərkib hissəsi kimi formalaşmışdır. İnsanlar istirahət, sağlamlıq, mədəniyyət, təhsil və digər məqsədlərlə müxtəlif regionlara səyahət edir, bu isə turist axınlarının artmasına və turizm coğrafiyasının genişlənməsinə səbəb olur. Turizmin əsas resurs bazasını təbii landşaftlar təşkil edir ki, bu da təbiətin qorunmasını strateji əhəmiyyətli məsələ kimi ön plana çıxarır (Wearing & Neil, 2009). Lakin turizmin sürətli inkişafı ilə yanaşı, onun ətraf mühitə mənfi təsirləri də müşahidə olunur. Turizm infrastrukturlarının tikintisi, nəqliyyatın intensiv istifadəsi, enerji və su resurslarına tələbatın artması, tullantıların düzgün idarə olunmaması və təbii ərazilərin həddindən artıq istismarı ekosistemlərə ciddi zərər vurur (Newsome et al. , 2013). Bu proseslər nəticəsində landşaftların deqradasiyası, flora və faunanın məhv olması, su və torpaq ehtiyatlarının çirklənməsi kimi ekoloji problemlər yaranır. Xüsusilə nəzarətsiz turizm fəaliyyəti uzunmüddətli perspektivdə geri dönməz ekoloji fəsadlara səbəb ola bilər. Bununla belə, turizm yalnız mənfi təsir göstərən sahə kimi qiymətləndirilməməlidir. Düzgün planlaşdırıldığı və idarə olunduğu halda turizm təbiətin qorunması və bərpası üçün mühüm vasitəyə çevrilə bilər. Bu kontekstdə icma əsaslı turizm və əməkdaşlıq yanaşmaları xüsusi əhəmiyyət kəsb edir (Murphy, 1985; Jamal & Getz, 1995). Turizm fəaliyyətindən əldə olunan gəlirlər qoruqların saxlanılması, milli parkların qorunması və biomüxtəlifliyin mühafizəsi üçün istifadə oluna bilər. Müasir dövrdə dayanıqlı turizm konsepsiyası təbii resursların qorunmasını, ekoloji tarazlığın saxlanmasını və gələcək nəsillərin maraqlarının nəzərə alınmasını əsas prioritet kimi müəyyən edir (Saarinen, 2006; Gössling et al. , 2009). Bu yanaşma turizm fəaliyyətinin planlaşdırılması və idarə olunması zamanı ekoloji, iqtisadi və sosial amillərin qarşılıqlı şəkildə nəzərə alınmasını tələb edir. Ekoturizm isə bu konsepsiyanın mühüm istiqamətlərindən biri kimi təbiətin qorunmasına yönəlmiş fəaliyyət formasıdır (Wearing & Neil, 2009; Honey & Gilpin, 2009). Turizmin davamlı inkişafı üçün onun daşıma qabiliyyətinin (carrying capacity) düzgün müəyyən edilməsi xüsusi əhəmiyyət daşıyır (McCool & Lime, 2001). Bu yanaşma

turizm axınlarının ekosistemlərə həddindən artıq təzyiq göstərməsinin qarşısını almağa xidmət edir. Eyni zamanda turizmin ətraf mühitə təsir mexanizmlərinin öyrənilməsi, ekoloji problemlərin səbəblərinin müəyyən edilməsi və onların aradan qaldırılması yollarının işlənib hazırlanması müasir elmi tədqiqatların əsas istiqamətlərindən biri kimi çıxış edir.

ƏSAS HİSSƏ

Turizmin təbiətə təsiri çoxşaxəli və sistemli xarakter daşıyır. Bu təsirlər həm birbaşa, həm də dolayı yollarla baş verir və müxtəlif səviyyələrdə özünü göstərir. Turizmin təsir mexanizmlərini anlamaq üçün onun ekoloji, iqtisadi və sosial aspektlərini kompleks şəkildə nəzərdən keçirmək lazımdır (Hall & Lew, 2009; Buckley, 2012). Turizmin təbiətə birbaşa təsirləri əsasən turistlərin təbii mühitlə fiziki təması nəticəsində yaranır. Məsələn, turistlərin intensiv hərəkəti torpaq örtüyünün sıxlaşmasına, bitki örtüyünün zədələnməsinə və eroziyanın artmasına səbəb olur. Dağlıq ərazilərdə yürüşlər, meşələrdə düşərgə qurulması və digər fəaliyyətlər təbii mühitin strukturuna təsir edir (Newsome, Moore & Dowling, 2013). Dolayı təsirlər isə turizm infrastrukturu ilə bağlıdır. Otellərin, yolların, istirahət mərkəzlərinin tikilməsi təbii landşaftın dəyişdirilməsinə və ekosistemlərin parçalanmasına gətirib çıxarır. Bu isə heyvanların yaşayış mühitinin daralmasına və onların miqrasiyasının pozulmasına səbəb olur (Hall & Lew, 2009). Turizmin ən ciddi ekoloji problemlərindən biri biomüxtəlifliyin azalmasıdır. Turist fəaliyyətləri nəticəsində bir çox canlı növləri yaşayış mühitini itirir və məhv olmaq təhlükəsi ilə üzləşir. Xüsusilə nadir və qorunan növlər bu təsirlərə daha həssasdır (Newsome et al. , 2013). Su ehtiyatlarının istifadəsi də mühüm problemlərdən biridir. Turizm obyektlərində suyun intensiv istifadəsi yerli su ehtiyatlarının azalmasına səbəb olur ki, bu da regional ekoloji tarazlığa mənfi təsir göstərir. Tullantıların artması turizmin digər mühüm problemlərindən biridir. Turistlərin çox olduğu ərazilərdə tullantıların düzgün idarə olunmaması ətraf mühitin çirklənməsinə səbəb olur. Plastik tullantılar uzun müddət parçalanmadığı üçün ekosistemlərə ciddi ziyan vurur (Newsome et al. , 2013). Bununla yanaşı, turizmin müsbət təsirləri də mövcuddur. Turizm təbiətin qorunması üçün maliyyə resursları yaradır və bu vəsaitlər qoruqların və milli parkların saxlanılmasına yönəldilə bilər (Honey & Gilpin, 2009). Ekoturizm bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Ekoturizm təbiətin qorunmasına yönəlmiş turizm növüdür və onun əsas məqsədi ətraf mühitə minimal təsir göstərməkdir (Wearing & Neil, 2009). Bu turizm növü turistlərin ekoloji şüurunun formalaşmasına da müsbət təsir göstərir. Dayanıqlı turizm konsepsiyası isə turizmin uzunmüddətli inkişafını təmin etmək məqsədi daşıyır. Bu yanaşma iqtisadi, sosial və ekoloji balansın qorunmasını nəzərdə tutur və gələcək nəsillərin maraqlarını qorumağa yönəlmişdir (Saarinen, 2006; Gössling, Hall & Weaver, 2009).

ƏDƏBİYYATLARA BAXIŞ

Turizmin təbiətə təsiri ilə bağlı elmi ədəbiyyat kifayət qədər genişdir və bu sahədə müxtəlif yanaşmalar mövcuddur. Müasir tədqiqatlar göstərir ki, turizmin ətraf mühitə təsiri əsasən onun idarəetmə səviyyəsindən və planlaşdırılmasından asılıdır (Hall & Lew, 2009). Bir sıra tədqiqatçılar turizmin ekosistemlərə mənfi təsirini ön plana çəkərək qeyd edirlər ki, nəzarətsiz turizm fəaliyyəti təbii mühitin deqradasiyasına səbəb olur. Məsələn, Richard W. Butler turizm sahələrinin inkişaf mərhələlərini izah edərək göstərmişdir ki, nəzarətsiz inkişaf ekoloji problemlərin yaranmasına gətirib çıxarır. Eyni zamanda Stephen Williams qeyd edir ki, xüsusilə kütləvi turizm təbii resursların həddindən artıq istismarına və ətraf mühitin çirklənməsinə səbəb olur. Digər tədqiqatçılar isə turizmin müsbət tərəflərini vurğulayaraq onun təbiətin qorunmasında mühüm rol oynaya biləcəyini qeyd edirlər. David Weaver ekoturizmin inkişafını təbiətin mühafizəsi ilə əlaqələndirərək bildirir ki, düzgün idarə olunan turizm fəaliyyəti mühafizə tədbirlərinin maliyyələşdirilməsinə imkan yaradır. Həmçinin Martha Honey qeyd edir ki, turizm yalnız iqtisadi deyil, həm də maarifləndirici funksiya daşıyaraq insanların ətraf mühitə münasibətinin

formalaşmasına təsir göstərir. Beynəlxalq təşkilatların hesabatlarında da dayanıqlı turizmin əhəmiyyəti xüsusi vurğulanır. UNWTO tərəfindən yayımlanan sənədlərdə qeyd olunur ki, turizmin inkişafı ilə yanaşı ətraf mühitin qorunması təmin olunmalı və bu iki proses arasında balans yaradılmalıdır. Bu yanaşma dayanıqlı inkişaf prinsiplərinə əsaslanaraq turizmin uzunmüddətli perspektivdə həm iqtisadi, həm də ekoloji baxımdan səmərəli fəaliyyət göstərməsini nəzərdə tutur.

MATERİAL VƏ METODLAR

Bu tədqiqat işində turizmin təbiətin qorunmasında rolunun hərtərəfli öyrənilməsi məqsədilə kompleks elmi yanaşma tətbiq edilmişdir. Mövzunun çoxşaxəli xarakterini nəzərə alaraq həm nəzəri, həm də analitik metodlardan istifadə olunmuş, müxtəlif mənbələrdən əldə edilən məlumatlar sistemli şəkildə təhlil edilərək ümumiləşdirilmişdir (Hall & Lew, 2009; Saarinen, 2006). İlk növbədə, elmi ədəbiyyatların geniş təhlili aparılmışdır. Bu mərhələdə turizmin ekoloji təsirləri, dayanıqlı turizm prinsipləri və ekoturizm modelləri ilə bağlı yerli və xarici alimlərin əsərləri araşdırılmışdır. Ədəbiyyatların təhlili nəticəsində mövzu ilə bağlı əsas nəzəri yanaşmalar müəyyən edilmiş və onların müqayisəli qiymətləndirilməsi həyata keçirilmişdir (Buckley, 2012; Gössling, Hall & Weaver, 2009). Bu yanaşma turizmin təbiətə təsirinin müxtəlif aspektlərini daha dərindən anlamağa imkan vermişdir. Tədqiqat zamanı müqayisəli analiz metodundan da geniş istifadə olunmuşdur. Müxtəlif ölkələrdə və regionlarda turizmin inkişaf səviyyəsi, onun təbiətə təsiri və tətbiq olunan idarəetmə mexanizmləri müqayisə edilmişdir. Bu müqayisə nəticəsində müəyyən edilmişdir ki, turizmin ekoloji təsirləri əsasən onun təşkil olunma səviyyəsindən və tətbiq edilən idarəetmə strategiyalarından asılıdır (Hall & Lew, 2009). İnkişaf etmiş ölkələrdə tətbiq olunan dayanıqlı turizm modelləri ilə inkişaf etməkdə olan ölkələrdə müşahidə olunan turizm fəaliyyətləri arasında ciddi fərqlər aşkar edilmişdir (Saarinen, 2006). Analitik metod tədqiqatın əsas metodlarından biri olmuşdur. Bu metod vasitəsilə turizmin təbiətə təsirinin səbəb-nəticə əlaqələri müəyyən edilmişdir. Məsələn, turist axınının artması ilə tullantıların çoxalması, su ehtiyatlarının azalması və biomüxtəlifliyin pozulması arasında əlaqələr təhlil edilmişdir (Newsome, Moore & Dowling, 2013). Bu yanaşma problemlərin mahiyyətini daha aydın şəkildə müəyyən etməyə və onların həlli yollarını təklif etməyə imkan yaratmışdır. Bundan əlavə, sistemli yanaşma metodu tətbiq edilmişdir. Bu metod turizmin təbiətə təsirini ayrı-ayrı elementlər şəklində deyil, vahid sistem kimi nəzərdən keçirməyə imkan verir. Turizm fəaliyyəti, təbii resurslar, iqtisadi faktorlar və sosial amillər arasında qarşılıqlı əlaqələr sistemli şəkildə təhlil edilmişdir (Gössling et al. , 2009). Bu yanaşma turizmin ekoloji təsirlərinin kompleks xarakterini üzə çıxarmağa kömək etmişdir. Tədqiqat zamanı həmçinin statistik məlumatların təhlilindən də istifadə edilmişdir. Müxtəlif beynəlxalq və yerli mənbələrdən əldə edilən statistik göstəricilər əsasında turizmin inkişaf dinamikası və onun ətraf mühitə təsiri qiymətləndirilmişdir. Bu məlumatlar turizmin miqyasını və onun ekoloji nəticələrini daha obyektiv şəkildə təqdim etməyə imkan vermişdir (Buckley, 2012). Metodoloji baxımdan tədqiqatın əsas məqsədi turizmin təbiətin qorunmasında rolunu yalnız nəzəri deyil, həm də praktik aspektdə qiymətləndirmək olmuşdur. Bu məqsədlə müxtəlif yanaşmaların üstünlükləri və çatışmazlıqları müəyyən edilmiş, ən effektiv modellər ümumiləşdirilmişdir. Beləliklə, istifadə olunan metodlar tədqiqatın elmi əsaslı və obyektiv olmasını təmin etmiş, əldə edilən nəticələrin etibarlılığını artırmışdır.

MÜZAKİRƏ

Aparılmış tədqiqat və təhlillər göstərir ki, turizmin təbiətə təsiri çoxşaxəli və mürəkkəb xarakter daşıyır. Bu təsir yalnız ekoloji amillərlə məhdudlaşmır, həm də iqtisadi və sosial faktorlarla sıx bağlıdır (Hall & Lew, 2009). Turizmin təbiətə təsirinin qiymətləndirilməsi zamanı bu sahələrin qarşılıqlı əlaqəsi mütləq nəzərə alınmalıdır. Müzakirələr nəticəsində müəyyən edilmişdir ki, turizmin mənfi təsirləri əsasən onun plansız və nəzarətsiz inkişafı ilə bağlıdır. Xüsusilə kütləvi

turizm fəaliyyətləri təbii resursların həddindən artıq istifadəsinə, ətraf mühitin çirklənməsinə və ekosistemlərin pozulmasına səbəb olur (Newsome et al. , 2013). Turistlərin sıx olduğu ərazilərdə torpaq eroziyası, bitki örtüyünün məhv olması və heyvanların yaşayış mühitinin daralması kimi problemlər daha qabarıq şəkildə özünü göstərir. Digər tərəfdən, müzakirələr göstərir ki, turizm düzgün idarə olunduqda təbiətin qorunmasına mühüm töhfə verə bilər. Dayanıqlı turizm prinsiplərinin tətbiqi bu baxımdan xüsusi əhəmiyyət kəsb edir və ekoloji, iqtisadi və sosial balansın qorunmasını təmin edir (Saarinen, 2006; Gössling et al. , 2009). Ekoturizmin rolu da müzakirə zamanı xüsusi qeyd olunmalıdır. Ekoturizm yalnız istirahət məqsədi daşımır, eyni zamanda təbiətin qorunmasına yönəlmiş fəaliyyətləri də əhatə edir və turistlərdə ekoloji məsuliyyət hissinin formalaşmasına kömək edir (Wearing & Neil, 2009; Honey & Gilpin, 2009). Müzakirələr zamanı aydın olmuşdur ki, turizmin təbiətin qorunmasında rolu yalnız iqtisadi mexanizmlərlə məhdudlaşmır. Bu prosesdə sosial faktorlar da mühüm rol oynayır. Yerli icmalar turizmdən gəlir əldə etdikcə təbiətin qorunmasına daha çox maraq göstərirlər ki, bu da ekosistemlərin davamlılığına müsbət təsir edir (Murphy, 1985; Jamal & Getz, 1995). Bununla yanaşı, bəzi problemlər də müəyyən edilmişdir. Turizmin sürətli inkişafı bəzi hallarda ekoloji standartların pozulmasına səbəb olur. Bu isə uzunmüddətli perspektivdə təbii resursların tükənməsi ilə nəticələnə bilər. Bu baxımdan turizmin inkişafı zamanı ciddi nəzarət mexanizmlərinin tətbiqi zəruridir (McCool & Lime, 2001). Beləliklə, müzakirələr göstərir ki, turizmin təbiətə təsiri onun idarə olunma səviyyəsindən və tətbiq olunan yanaşmalardan birbaşa asılıdır.

NƏTİCƏ

Aparılan tədqiqat göstərir ki, turizm təbiətin qorunmasında mühüm rol oynaya bilən çoxşaxəli sahədir və onun təsiri əsasən idarə olunma səviyyəsindən asılıdır (Hall & Lew, 2009; Sharpley, 2000). Plansız və nəzarətsiz turizm fəaliyyəti biomüxtəlifliyin azalmasına, ekosistemlərin pozulmasına və təbii resursların tükənməsinə səbəb olur, xüsusilə kütləvi turizm bu baxımdan daha risklidir (Newsome, Moore & Dowling, 2013). Bununla yanaşı, dayanıqlı prinsiplərə əsaslanan turizm qoruqların və milli parkların qorunmasına, ekoloji layihələrin həyata keçirilməsinə və təbiətin mühafizəsinə mühüm töhfə verir (Buckley, 2012). Nəticə etibarilə, turizmin inkişafı ekoloji standartların tətbiqi, nəzarətin gücləndirilməsi, ekoloji maarifləndirmə və resurslardan səmərəli istifadə prinsipləri əsasında qurulmalıdır (Saarinen, 2006; Gössling, Hall & Weaver, 2009). Dövlət siyasəti və beynəlxalq təcrübənin tətbiqi də bu prosesdə mühüm əhəmiyyət kəsb edir, çünki effektiv idarəetmə mexanizmləri olmadan turizmin davamlı inkişafını təmin etmək mümkün deyil (McCool & Lime, 2001). Beləliklə, düzgün idarə olunan turizm həm iqtisadi inkişafı təmin edir, həm də təbiətin qorunmasına xidmət edir (Hall & Lew, 2009; Wearing & Neil, 2009).

ƏDƏBİYYAT SİYAHISI

1. Buckley, R. (2012). Sustainable tourism: Research and reality. Annals of Tourism Research, 39(2), 528–546. https://doi. org/10. 1016/j. annals. 2012. 02. 003
2. Gössling, S. , Hall, C. M. , & Weaver, D. B. (2009). Sustainable tourism futures: Perspectives on systems, restructuring and innovations. Routledge. https://doi. org/10. 4324/9780203876503
3. Hall, C. M. , & Lew, A. A. (2009). Understanding and managing tourism impacts: An integrated approach. Routledge. https://doi. org/10. 4324/9780203876329
4. Honey, M. , & Gilpin, R. (2009). Tourism in the developing world. United States Institute of Peace.
5. Jamal, T. , & Getz, D. (1995). Collaboration theory and community tourism planning. Annals of Tourism Research, 22(1), 186–204. https://doi. org/10. 1016/0160-7383(94)00067-3

6. McCool, S. F. , & Lime, D. W. (2001). Tourism carrying capacity. Journal of Sustainable Tourism, 9(5), 372–388. https://doi. org/10. 1080/09669580108667409
7. Murphy, P. E. (1985). Tourism: A community approach. Routledge. https://doi. org/10. 4324/9780203414408
8. Newsome, D. , Moore, S. A. , & Dowling, R. K. (2013). Natural area tourism: Ecology, impacts and management. Channel View Publications.
9. Saarinen, J. (2006). Traditions of sustainability in tourism studies. Annals of Tourism Research, 33(4), 1121–1140. https://doi. org/10. 1016/j. annals. 2006. 06. 007
10. Sharpley, R. (2000). Tourism and sustainable development. Tourism Management, 21(1), 1–9. https://doi. org/10. 1016/S0261-5177(99)00079-1
11. Wearing, S. , & Neil, J. (2009). Ecotourism: Impacts, potentials and possibilities. Butterworth-Heinemann.

EKOTURİZMİN ƏTRAF MÜHİTƏ TƏSİRİ

Environmental Impacts of Ecotourism

FİRƏDDİN QURBANLI
Firaddin Qurbanli
fireddingurbanli@ndu. edu. az
https://orcid. org/0009-0009-3857-5532
Naxçıvan Dövlət Universiteti
Nakhchivan State University

XÜLASƏ

Bu məqalədə ekoturizmin təbii mühitə təsirləri müasir elmi ədəbiyyatın analizi vasitəsilə geniş şəkildə araşdırılır. Ekoturizm, nəzəriyyədə təbiəti mühafizə edən bir model kimi qəbul edilsə də, praktiki fəaliyyətlərin ekosistemlərin biotik və abiotik komponentləri üzərində yaratdığı neqativ izlər diqqət mərkəzinə çəkilir. Məqalədə flora və faunanın davranış dəyişiklikləri, torpaq və su resurslarının deqradasiyası və sosial-ekoloji balansın qorunması məsələləri Dirk Gaul və digər tədqiqatçıların empirik tapıntıları əsasında təhlil edilir. Dirk Gaul-un tədqiqatlarına istinadən flora və faunanın davranış dəyişiklikləri, torpaq və su resurslarının deqradasiyası, habelə antropogen təzyiq nəticəsində yaranan sosial-ekoloji balansın pozulması məsələləri diqqət mərkəzinə çəkilir. İşdə ekoturizmin yalnız iqtisadi gəlir mənbəyi deyil, həm də gələcək nəsillərə ötürülməli olan miras kimi qorunması üçün elmi əsaslandırılmış təkliflər, o cümlədən Azərbaycanın milli parklar sistemində bu sahənin idarə olunması yolları təqdim olunur.

Açar sözlər: *ekoturizm, ətraf mühitə təsir, biomüxtəliflik, antropogen təzyiq, davamlı inkişaf, meşə ekosistemləri.*

ABSTRACT

This research paper extensively investigates the impacts of ecotourism on the natural environment through an analysis of modern scientific literature. While ecotourism is theoretically perceived as a model for nature conservation, the focus is placed on the negative imprints that practical activities leave on the biotic and abiotic components of ecosystems. The article analyzes issues such as behavioral changes in flora and fauna, degradation of soil and water resources, and the maintenance of socio-ecological balance based on the empirical findings of Dirk Gaul and other researchers. Referencing Dirk Gaul's studies, emphasis is placed on behavioral shifts in wildlife, the degradation of soil and water resources, as well as the disruption of socio-ecological balance resulting from anthropogenic pressure. The work presents scientifically grounded proposals to ensure ecotourism is treated not merely as a source of economic income but as a heritage to be preserved for future generations, including management strategies for this field within Azerbaijan's national park system.

Keywords: *ecotourism, environmental impact, biodiversity, anthropogenic pressure, sustainable development, forest ecosystems.*

GİRİŞ

Ekoturizm müasir dövrdə təbiəti mühafizə etmək və yerli icmaları dəstəkləmək üçün mühüm vasitələrdən biri hesab olunur. Beynəlxalq Ekoturizm Cəmiyyəti (TIES) bu fəaliyyəti ətraf mühiti qoruyan və yerli əhalinin rifahını təmin edən təbii ərazilərə məsuliyyətli səyahətkimi müəyyən edir. Son iyirmi ildə bu sahə meşə ərazilərində ağac kəsimi, yandırılma və brakonyerlik kimi dağıdıcı fəaliyyətlərə ekoloji və sosial cəhətdən əsaslandırılmış bir alternativ kimi əhəmiyyət qazanmışdır. Qida və Kənd Təsərrüfatı Təşkilatı (FAO) meşələri ekoturizm üçün ən cəlbedici mühit hesab edərək, onları ən azı %10 tac örtüyünə malik, təbii torpaq şəraiti və vəhşi flora-fauna ilə əlaqəli ekoloji sistemlər kimi xarakterizə edir. Lakin Dirk Gaul qeyd edir ki, bu fəaliyyətlər çox vaxt insan təsirinə qarşı olduqca həssas olan ilkin ərazilərdə baş verir və həm ətraf mühit, həm də yerli icmalar üçün ciddi mənfi nəticələr doğura bilər.

Beynəlxalq status və proqnozlar: Ümumdünya Turizm Təşkilatının (ÜTT) proqnozlarına görə, ekoturizm 2020-ci ilə qədər dövr üçün beş əsas strateji inkişaf istiqamətindən biri hesab olunmuşdur. 2002-ci ilin BMT tərəfindən "Beynəlxalq Ekoturizm İli" elan edilməsi bu sahənin qlobal sosial əhəmiyyətini və aktuallığını sübut edir. Anlayış və konsepsiya: Beynəlxalq Ekoturizm Cəmiyyəti (TIES) ekoturizmi təbii ərazilərə məsuliyyətli səyahət kimi xarakterizə edir ki, bu da həm təbiəti qoruyur, həm də yerli əhalinin həyat şəraitini yaxşılaşdırır. Bu, meşə ehtiyatlarının istismarı və brakonyerlik kimi dağıdıcı fəaliyyətlərə ekoloji və sosial cəhətdən əlverişli alternativdir.

Azərbaycanın potensialı: Ölkəmiz ekoturizm nöqteyi-nəzərindən ən perspektivli regionlardan biridir. Dünyadakı 11 iqlim tipindən 9-nun burada olması zəngin biomüxtəlifliyin formalaşmasına şərait yaratmışdır; belə ki, Azərbaycanda 4500 ali bitki növü yayılmışdır ki, bu da Qafqaz florasının 64%-ni təşkil edir. Problemin mahiyyəti: Lakin turizmin kütləviləşməsi təbiətə antropogen təzyiqi artırır. Məsələn, ABŞ-ın kanyonlarında avtomobil hərəkəti nəticəsində torpağın aşınma sürəti normadan 86 dəfə çox olmuşdur. Bu da tədqiqatın aktuallığını, yəni ekoloji təhlükəsizliklə iqtisadi gəlir arasında balansın tapılması zərurətini ortaya qoyur.

ƏSAS HİSSƏ

Ekoturizmin ətraf mühitə çoxtərəfli təsirləri

Heyvanlar Aləmi üzərindəki təzyiq ekoturizmin fauna üzərindəki təsiri ən mürəkkəb sahələrdən biridir. Tədqiqatlar göstərir ki, turistlərin müntəzəm iştirakı heyvanlarda xroniki stress yaradır və bu, onların qanındakı kortizol səviyyəsinin artması ilə sübut olunur. Məsələn:Xəstəliklərin transferi: Primatlarla (dağ qorillaları, şimpanzelər) yaxın təmas, insanlardan onlara respirator infeksiyaların keçməsinə səbəb olur ki, bu da bəzən bütün bir populyasiyanın məhvi ilə nəticələnir. Davranış dəyişikliyi: İndoneziyanın Qunung Leuser Milli Parkında aparılan araşdırmalar göstərir ki, bəzi heyvanlar insanlardan asılı vəziyyətə düşür , digərləri isə məsələn, kərgədanlar öz təbii sığınacaqlarını tərk edərək daha az məhsuldar ərazilərə miqrasiya edirlər. Flora və landşaftın deqradasiyası bitki örtüyü turizm infrastrukturunun birbaşa hədəfidir. Yeni cığırların çəkilməsi meşə örtüyünün parçalanmasına səbəb olur. Knight (2002) sübut etmişdir ki, qaya dırmanması fəaliyyəti zamanı qayalıq ekosistemlərindəki nadir endemik bitkilərin 50%-dən çoxu turistlərin mexaniki təsirindən məhv olur. Bundan əlavə, turistlərin geyim və ayaqqabılarında daşıdıqları yadnövlərin toxumları yerli biomüxtəlifliyi sıxışdırıb çıxarır.

Hidrosfer və litosferə təsirlər su resurslarının çirklənməsi xüsusilə motorlu su nəqliyyatından asılı olan ekoturizm bölgələrində qabarıq görünür. Yağ sızıntıları və təmizlənməmiş tullantı suları evtrofikasiya prosesini sürətləndirir. Torpaq qatında isə turistlərin tapdaması nəticəsində "sıxılma effekti" yaranır; bu, torpağın məsaməliliyini azaldır, bitkilərin kök sisteminin inkişafını dayandırır və yağış sularının udulmasını əngəlləyərək şiddətli eroziyaya zəmin hazırlayır.

Turizmin təbiət komplekslərinə birbaşa təsirləri

Təbiətə birbaşa təsirlər dərhal və müşahidə oluna bilən nəticələrdir:

Vəhşi təbiətin pozulması: Ovçuluq, balıqçılıq və bitkilərin toplanması nəticəsində bioloji növlərin birbaşa məhvi baş verir. Heyvanların süni qidalanması və onlara yaxınlaşma təbii davranışların pozulmasına, yuvaların dağıdılmasına və səs-küy nəticəsində stressə səbəb olur. Torpaq və su resurslarının korlanması: Turistlərin hərəkəti torpağın bərkiməsinə, eroziyaya və bitki örtüyünün məhvinə yol açır. Düşərgələrdən atılan tullantı suları isə yerüstü və yeraltı suların çirklənməsinə səbəb olur. İnfeksiya riski: İnsanların təbiətə gətirdiyi qida tullantıları (ekstrementlər və üzvi tullantılar) vəhşi heyvanlar arasında infeksiya və xəstəliklərin yayılmasına şərait yaradır.

Dolayı və qlobal təsirlər

Dolayı təsirlər zaman keçdikcə özünü göstərən daha geniş miqyaslı problemlərdir. Qida zəncirinin dəyişməsi: Turist fəaliyyəti təbii qida mühitini və zəncirlərini dəyişdirərək ekosistemin strukturuna təsir edir. Antropogen təsir sindromları: Dünyada "Kütləvi turizm sindromu" (rekreasiya nəticəsində təbiətin dağılması) və "Dampinq sindromu" (tullantıların nəzarətsiz basdırılması) kimi qlobal ekoloji standartların pozulması halları geniş yayılmışdır. Genetik müdaxilə: Heyvanların süni artırılması və ya genetik dəyişdirilmiş (mutant) növlərin yaradılması təbii mühit üçün tam öyrənilməmiş təhlükələr vəd edir.

Davamlı İnkişafın İdarəolunması Strategiyaları

Ekoturizmin mənfi təsirlərini idarə etmək üçün Agenda 21 prinsipləri tətbiq olunmalıdır:

Birbaşa idarəetmə (Güc siyasəti): Turist sayının məhdudlaşdırılması, ərazilərin zonalara bölünməsi (zonalaşdırma), tariflərin və cərimələrin tətbiqi, həmçinin ətraf mühiti çirkləndirməyən

texnologiyalardan istifadə bu qrupa daxildir. Dolayı idarəetmə (Maarifləndirmə): Turistlərə və yerli əhaliyə təbiətə humanist münasibətin aşılanması, ekoloji təhsilin artırılması və iqtisadi stimulların yaradılması əsas rol oynayır. İqtisadi və Sosial İnkişaf: Ekoturizm yerli icmaların iqtisadi imkanlarını genişləndirməli, onlara kompensasiya rolunu oynamalıdır. Azərbaycanın Naxçıvan bölgəsində İlandağ, Əshabülkəhf və Sirab kimi unikal relyef formaları bu növün inkişafı üçün böyük perspektivlərə malikdir.

ƏDƏBİYYATA BAXIŞ

Ekoturizmin təsirləri ilə bağlı elmi ədəbiyyat olduqca rəngarəngdir. Dirk Gaul öz icmalında müxtəlif müəlliflərin (Roe, Wunder, Dearden) yanaşmalarını sintez edərək göstərir ki, təsirlər yalnız fiziki deyil, həm də bioloji və sosial-mədəni xarakter daşıyır. Sven Wunder (1999) vurğulayır ki, ekoturizm yerli əhalini ağac kəsimindən uzaqlaşdıran bir stimul olsa da, bu "isti pul" axını ərazinin bioloji daşıma qabiliyyətini tez-tez üstələyir. Roe və digər tədqiqatçılar (1997) isə "yalnız ayaq izi burax" şüarının praktikada torpağın kipləşməsi və eroziya kimi ciddi fiziki fəsadlarla nəticələndiyini sübut etmişlər. Bu bölmədə aparılan təhlillər göstərir ki, elmi ədəbiyyatda ekoturizm artıq mütləq müsbət fenomen kimi deyil, ciddi idarəetmə tələb edən riskli fəaliyyət kimi dəyərləndirilir.

Qlobal inkişaf və konsepsiyalar

Ümumdünya Turizm Təşkilatının (ÜTT) proqnozlarına görə, ekoturizm XXI əsrdə turizm sənayesinin beş strateji istiqamətindən biridir. 1990-cı illərdən etibarən ekoturizm həm iqtisadi, həm də ekoloji baxımdan davamlı inkişafın "real aləti" kimi qəbul edilir. Dayanıqlı inkişafın hüquqi bazası: 1992-ci ildə Rio-de-Janeyroda qəbul edilmiş "Gündəlik 21" (Agenda 21) proqramı turizm sənayesi üçün əsas fəaliyyət planına çevrilmişdir. Bu sənəd turizmin təbiətlə harmoniya təşkil etməsini və ekosistemlərin bərpasında iştirakını tələb edir. Təsirlərin təsnifatı: Dirk Gaul və digər tədqiqatçılar (məs. Roe, Leader-Williams) ekoturizmin təsirlərini "birbaşa" (vəhşi təbiətin məhvi, səs-küy, xəstəliklərin yayılması) və "dolayı" (qida zəncirinin pozulması, qlobal iqlim dəyişikliyi) olmaqla iki qrupa bölürlər. Azərbaycan konteksti: Ə. Əsgərovun tədqiqatlarında qeyd olunur ki, Azərbaycanın 11 iqlim tipindən 9-na malik olması və Qafqaz florasının 64%-ni (4500 ali bitki növü) əhatə etməsi ölkəni ekoturizm üçün unikal regiona çevirir. Hazırda bu potensial milli parklar (şirvan, Hirkan, Göy-göl və s.) vasitəsilə idarə olunur.

MATERİALLAR VƏ METODLAR

Tədqiqatın metodoloji əsasını keyfiyyət analizi və müqayisəli ədəbiyyat icmalı təşkil edir. İş prosesində Dirk Gaul tərəfindən toplanmış 100-dən çox elmi mənbə, FAO-nun meşə resursları hesabatları və TIES-in illik statistik məlumatları material kimi istifadə edilmişdir. Metod olaraq, müxtəlif iqlim zonalarında (tropik meşələrdən yüksək dağlıq ərazilərə qədər) ekoturizmin flora, fauna və torpaq qatına təsirləri induktiv üsulla qruplaşdırılmışdır. Həmçinin, ekoturizmin yaratdığı antropogen stressin heyvanların reproduktiv davranışlarına təsiri ilə bağlı kəmiyyət göstəriciləri analiz edilmişdir.

Ədəbiyyat icmalı və müqayisəli analiz: Mövcud beynəlxalq hesabatların (FAO, TIES, ÜTT) və elmi nəşrlərin müqayisəli analizi aparılmışdır. Antropogen təzyiqin qiymətləndirilməsi: Turizm obyektlərindəki dəyişiklikləri ölçmək üçün "eyni bitki örtüyü və relyefi olan, lakin turizmin təsirinə məruz qalmayan" kontrol ərazilərlə müqayisə metodu tətbiq edilir. Məsələn, torpağın aşınma sürəti və flora növlərinin azalması bu metodla müəyyən edilir. Şifahi modelləşdirmə: E. N. İlin tərəfindən təklif olunmuş turistlərə xidmətin şifahi modeli istifadə edilir. Bura işçi heyətin hazırlığı, avadanlıq tələbləri və müvafiq nazirliklərlə (FHN, Ekologiya və Təbii Sərvətlər Nazirliyi) razılaşma prosesləri daxildir. Profilaktik təhlükəsizlik metodu: Xüsusilə dağlıq ekoloji turlarda təhlükələrin qarşısını almaq üçün marşrutun hazırlanması, iqlimə uyğunlaşma (akklimatizasiya) və turistlərin məlumatlandırılması metodları tətbiq olunur.

MÜZAKİRƏ

Məqalədə əldə edilən nəticələr göstərir ki, ekoturizmin reallığı ilə onun "marketinq imici" arasında ciddi uçurum var. Dirk Gaulun tapıntılarını müzakirə edərkən aydın olur ki, bir çox ərazilərdə "daşıma qabiliyyəti" limitləri iqtisadi maraqlar naminə gözardı edilir. Əgər bir əraziyə daxil olan turist sayı ekosistemin özünübərpa sürətindən çoxdursa, bu artıq ekoturizm deyil, sadəcə "yaşıl rəngə boyanmış" kütləvi turizmdir. Müzakirənin digər tərəfi odur ki, ekoturizm olmasa, həmin ərazilər bəlkə də tamamilə meşə qırıntısına və ya kənd təsərrüfatı sahəsinə çevrilərdi. Deməli, məsələ ekoturizmi qadağan etmək deyil, onun idarəetmə mexanizmini elmi əsaslarla tənzimləməkdir.

İqtisadi və ekoloji balans

Ekoturizm təkcə "təbiəti seyr etmək" deyil, həm də yerli əhalinin rifahını yüksəltməli olan bir fəaliyyətdir. Müzakirə olunur ki, iqtisadi gəlirlə ekoloji təhlükəsizlik arasındakı ziddiyyət yalnız "dayanıqlı idarəetmə" vasitəsilə həll edilə bilər. Kütləvi turizm sindromu: Əgər ekoturizm "acgöz və ağılsız adamların" əlinə keçərsə, o, kütləvi turizmdən daha çox zərər verə bilər, çünki əvvəllər toxunulmamış həssas ekosistemləri (məs. meşələri, mağaraları) antropogen təsirə açır. ABŞ-ın Balinqer kanyonunda torpağın aşınma sürətinin normal həddi 86 dəfə keçməsi bu təhlükənin bariz nümunəsidir. Psixoloji və etik yanaşma: Ekoturizmdə bələdçinin rolu sadəcə yolu göstərmək deyil, turistlərin "təbiət müəllimi" olmaqdır. Müzakirə edilir ki, ekoturistlər öz rahatlıqlarını təbiətin mühafizəsi xeyrinə qurban verməyə hazır olmalıdırlar. Azərbaycan üçün təkliflər: Ölkəmizdə ekoturizmin inkişafı üçün təkcə infrastruktur qurmaq kifayət deyil; eyni zamanda "ekoloji vergilər" ədalətli tətbiq olunmalı və toplanan vəsait birbaşa ətraf mühitin mühafizəsi proqramlarına yönəldilməlidir. Dağlıq rayonların sosial-iqtisadi inkişafında ekoturizmin rolu yerli icmaların bu prosesə cəlb olunmasından asılıdır.

NƏTİCƏ

Araşdırmanın yekunu olaraq qeyd etmək olar ki, ekoturizm ətraf mühit üçün həm bir xilas kəməri, həm də potensial bir təhlükədir. Mənfi təsirləri minimuma endirmək üçün aşağıdakı addımlar atılmalıdır:Hər bir ekoturizm obyekti üçün elmi əsaslarla "maksimum turist kvotası" müəyyən edilməlidir. İnfrastruktur tikintisində yalnız yerli və təbiətə zərər verməyən materiallardan istifadə olunmalıdır. Turistlər üçün davranış qaydaları sərtləşdirilməli və ərazilərdə davamlı bioloji monitorinq aparılmalıdır. Təbiət yalnız gəlir mənbəyi deyil, qorunmalı olan bir mirasdır və ekoturizm bu mirası gələcəyə ötürmək üçün ən məsuliyyətli vasitə olmalıdır.

ƏDƏBİYYAT SİYAHISI

1. Asia-Pacific Forestry Sector Outlook Study. (1997). Ecotourism and forestry in the Asia-Pacific region. Food and Agriculture Organization of the United Nations (FAO).
2. Dearden, P. (1997). Environmental aspects of ecotourism. In Ecotourism: A sustainable option? (pp. 56–72). Cambridge University Press.
3. Gaul, D. (n. d.). The influence of ecotourism on the environment: A review of publications. [Unpublished manuscript/Literature review].
4. Honey, M. (1999). Ecotourism and sustainable development: Who owns paradise? Island Press.
5. Knight, W. (2002). Rock climbers "damage" cliff ecosystems. New Scientist. https://www. newscientist. com
6. Roe, D. , Leader-Williams, N. , & Dalal-Clayton, B. (1997). Take only photographs, leave only footprints: The environmental impacts of wildlife tourism. International Institute for Environment and Development (IIED).
7. The International Ecotourism Society (TIES). (2015). Principles of ecotourism. https://ecotourism. org
8. Wunder, S. (1999). Promoting forest conservation through ecotourism income? A case study from the Ecuadorian Amazon. Center for International Forestry Research (CIFOR). https://doi. org/10. 17528/cifor/000551

İRƏVAN–ARAZDƏYƏN–NAXÇIVAN DƏMİR YOLU XƏTTİNİN BƏRPASI VƏ TRANSSƏRHƏD TURİZMİN ERMƏNİSTAN–AZƏRBAYCAN NORMALLAŞMASINA TÖHFƏ POTENSİALI

The potential of the restoration of the Yerevan–Arazdayan–Nakhchivan railway line and transborder tourism to contribute to Armenia–Azerbaijan normalization

TURAL HƏSƏNQARAYEV
Tural Hasangarayev
tural. hasanqarayev@mdu. edu. az
https://orcid. org/0000-0002-7742-3760
Mingəçevir Dövlət Universiteti
Mingachevir State University

XÜLASƏ

İrəvan–Arazdəyən–Naxçıvan dəmir yolu xətti 1941-ci ildə inşa edilmiş, 1990-cı illərin əvvəllərində baş verən münaqişə nəticəsində fəaliyyətini dayandırmışdır. 2020-ci il atəşkəs sazişinin 9-cu maddəsi bu xəttin bərpasını yenidən regional nəqliyyat gündəminə daxil etmişdir. Bu məqalədə sözügedən dəmir yolu xətti transsərhəd turizmin inkişafı baxımından təhlil edilir. Tədqiqat turizm–sülh əlaqəsinə dair nəzəri yanaşmalara, münaqişə sonrası turizmin transformasiyasını izah edən ədəbiyyata və dəmir yolu ilə turizm arasındakı əlaqəni araşdıran empirik tədqiqatlara əsaslanır. Təhlil göstərir ki, xəttin bərpası miras turizmi, əlaqə turizmi və iqtisadi qarşılıqlı asılılığın inkişafı üçün real imkanlar yarada bilər. 22 aprel 2026-cı ildə Ermənistanın Baş naziri Paşinyanın verdiyi açıqlamaya görə, elektrik ötürücü xətlərinin 2026-cı ildə istismara verilməsi, dəmir yolu hissəsinin tikintisinin isə təxminən bir il yarım müddətdə tamamlanması planlaşdırılır. Məqalədə Münaqişə Sonrası Turizm İmkanları Spektri (POCTOS) çərçivəsindən istifadə olunaraq belə nəticəyə gəlinir ki, bu xətt normallaşma prosesinin görünən indikatoruna çevrilə bilər. Bununla belə, bu potensialın reallaşması üçün cəmiyyət səviyyəsində məqsədyönlü proqramların həyata keçirilməsi zəruridir.

Açar sözlər: *transsərhəd turizm, normallaşma, münaqişə sonrası turizm, Arazdəyən, sülh turizmi.*

ABSTRACT

The Yerevan–Arazdeyen–Nakhchivan railway line was constructed in 1941 and ceased operations in the early 1990s as a result of armed conflict. Article 9 of the 2020 ceasefire agreement reintroduced the restoration of this line to the regional transportation agenda. This article examines the railway line from the perspective of cross-border tourism development. The study draws upon theoretical approaches to the tourism–peace nexus, the literature on post-conflict tourism transformation, and empirical studies investigating the relationship between railway infrastructure and tourism. The analysis suggests that the restoration of the line could create tangible opportunities for the development of heritage tourism, contact tourism, and economic interdependence. According to a statement made on 22 April 2026 by Armenian Prime Minister Pashinyan, power transmission infrastructure is expected to become operational in 2026, while the construction of the railway segment is projected to be completed within approximately one and a half years. Employing the Post-Conflict Tourism Opportunity Spectrum (POCTOS) framework, the article concludes that the railway line could serve as a visible indicator of the normalization process. However, the realization of this potential requires the implementation of targeted, community-level programs.

Keywords: *cross-border tourism, normalization, post-conflict tourism, Arazdeyen, peace tourism*

GİRİŞ

1941-ci ildə Sovet nəqliyyat planlamasının strateji ehtiyacları çərçivəsində tikilən İrəvan–Arazdəyən–Naxçıvan dəmir yolu xətti Cənubi Qafqazın tranzit memarlığının mühüm elementidir. Xətt İrəvandan Arazdəyən kəndi üzərindən Naxçıvana keçir, Culfa və Ordubadı ötüb Ermənistanın Meğri rayonuna daxil olur, oradan Horadiz vasitəsilə Azərbaycanın əsas dəmir yolu şəbəkəsinə qoşulur. Sovet dövrünün sonlarında xətt üzərindən ildə 2,69–2,37 milyon ton yük daşınırdı. Bu həcm İranın ümumi idxalatının 10 faizindən artığını təşkil edirdi (Kaleji, 2022, s. 104). Xətt eyni zamanda Moskvadan Tehrana uzanan beynəlxalq nəqliyyat dəhlizinin bir hissəsi kimi işləyirdi. 1989-cu ildə silahlı qarşıdurmaların başlaması xəttə son qoydu. Ermənistanın Meğri bölməsindəki dəmiryolu infrastrukturu sökülüb İrana satıldı. Bu fakt xəttin bərpasını mövcud infrastrukturun təmiri yox, sıfırdan yeni tikinti layihəsi kimi həyata keçirməyi zəruri etdi (Mirimanova, 2014, s. 37).

2020-ci il atəşkəs sazişinin 9-cu maddəsi regional nəqliyyat əlaqələrinin bərpasını açıq şəkildə müəyyən etdi. Bu müddəa Azərbaycana Naxçıvanla tranzit keçid hüququ tanıdı, qarşılıqlı olaraq Ermənistana isə Rusiya və İranla dəmir yolu bağlantısı imkanı yaratdı. 2021-ci ilin noyabrında Soçidə, dekabrında isə Brüsseldə keçirilən zirvə görüşlərindən sonra Ermənistan 2022-ci ilin martında Meğri bölməsindəki sahə işlərini başlatdı. 22 aprel 2026-cı ildə Ermənistan Baş Naziri Nikol Paşinyan elektrik ötürücü xətlərinin 2026-cı ildə istismara veriləcəyini, dəmir yolu bölməsinin tikintisinin isə bir il yarım çəkəcəyini açıqladı (ARKA News Agency, 2026). Bu açıqlama layihənin aktiv tətbiq fazasında olduğunu göstərdi. Turizm baxımından bu xətt akademik ədəbiyyatda lazımi dərəcədə araşdırılmamışdır. Lakin turizm–sülh ədəbiyyatının əsasını formalaşdıran tezislər sonrakı onilliklər boyunca münaqişə sonrası turizm transformasiyasını araşdıran bir çox empirik araşdırmaya zəmin hazırlamışdır. Məqalə bu çərçivəni İrəvan–Arazdəyən–Naxçıvan xəttinə tətbiq edərək həm potensialı, həm də maneələri müəyyənləşdirməyi hədəfləyir.

NƏZƏRİ ÇƏRÇİVƏ

Turizmin sülh prosesinə töhfəsi barəsindəki akademik mübahisənin kökü Lui Di Amorun "turizm dünya sülhü üçün həyati bir gücdür" tezisinə istinad edir. (D'Amore, 1988, s. 270). Bu tezisin nəzəri dayağı əlaqə nəzəriyyəsidir. Əlaqə nəzəriyyəsi müxtəlif qruplar arasındakı birbaşa əlaqənin müəyyən şərtlər altında düşmənçiliyi azalda biləcəyini irəli sürür. Alon Gelbman İsrail sərhəd zonalarındakı münaqişə irsi turizmini araşdıraraq bu potensialın mövcud olduğunu, lakin onun mexaniki deyil, şərtli olduğunu müəyyən etmişdir. Gelbman eyni qənaəti daha geniş nəzəri çərçivəyə yerləşdirərək turizmin uyğun institusional şərtlər qurulduqda sülhü dəstəkləyən bir mexanizm kimi işlədiyini vurğulamışdır (Gelbman, 2023, s. 2).

Yoel Mansfeld və Tali Korman İsrailin üç sərhəd zonasını araşdıraraq münaqişə irsi turizmini eyni məkanda həm qarşıdurma yaddaşını, həm də birgəyaşayış elementlərini əks etdirən hibrid turizm forması kimi xarakterizə etmişdir (Mansfeld və Korman, 2015, s. 457). Bu xarakterizasiya Arazdəyən kəndi üçün birbaşa tətbiq edilə bilər. Kənd Ermənistan–Naxçıvan quru sərhədinin bilavasitə yaxınlığında yerləşir və uzun illər davam etmiş münaqişənin tarixi yaddaşını özündə saxlayır. Seniya Cauşeviç və Pol Linç Bosniya və Herseqovinanın münaqişə sonrası konteksini araşdıraraq turizmin icmaların öz kimliyini yenidən qurmasına və sosial birliyi bərpa etməsinə xidmət etdiyini müəyyən etmişdir. (Causevic & Lynch, 2011,s. 780).

Stiven Boyd, Maharaj Reddib, Sandip Kulşreştac və Mirela Nika münaqişə sonrası turizm imkanları üçün POCTOS çərçivəsini inkişaf etdirmişdir (Boyd, Reddyb, Kulshreshthac, Nica, 2021, s. 134). Bu çərçivə münaqişə sonrası destinasiyaları turizm cəhətdən müxtəlif yetkinlik mərhələlərindən keçən dinamik sistemlər kimi analiz edir. Birinci növ fəaliyyət münaqişə irsinə dayalı qaranlıq turizmdir. İkinci növ fəaliyyət isə iqtisadi bərpa üçün münaqişədən əvvəlki turizm imkanlarının yenidən inkişaf etdirilməsidir. Bu ikinci növ İrəvan–Arazdəyən–Naxçıvan xəttinin uzunmüddətli turizm potensialına daha uyğundur. Freyya Hiqinz, Linda Blanşar və Yoko Urben sülh turizmi sahəsinin hələ yetərincə nəzəri əsaslandırılmadığını vurğulayaraq turizm, ədalət və davamlı inkişaf arasındakı kəsişmə nöqtəsinin daha dərinliklə araşdırılmasının zəruri olduğunu ortaya qoymuşdur (Higgins, Blanchard & Urbain, 2022, s. 336)

Dəmir yolu infrastrukturu ilə turizm axını arasındakı empirik əlaqə ayrıca araşdırılmışdır. Covanni Peyra, Andres Lo Cudice və Stefano Miralya 1986–2020-ci illər arasındakı ədəbiyyatı sistematik şəkildə təhlil edərək müəyyən etmişlər ki, dəmir yolu xətlərinin açılması regional turizmə əlçatanlığı artırır, lakin bu təsir yalnız birgə hazırlanmış inteqrasiya olunmuş turizm məhsulları mövcud olduqda tam şəkildə reallaşır (Peira, Giudice, & Miraglia, 2022,s. 2). Kuaynbin Sian, Veyçi Sin və Koumin Xuanq Çindəki məlumatlarına əsaslanaraq dəmiryolu nəqliyyat infrastrukturunun regional turizm iqtisadiyyatını inkişaf etdirdiyi qənaətinə varmışdır (Tian, Xing, & Huang, 2023, s. 228). Daniel Albalate və Xavyer Faqeda yüksəksürətli dəmir yolunun İspaniyada turizm

gecələmələrinin sayını əhəmiyyətli dərəcədə artırdığını empirik şəkildə müəyyən etmişdir. (Albalate & Fageda, 2016, s. 10).

Xətt boyunca transsərhəd turizm potensialı

İrəvan–Arazdəyən–Naxçıvan xətti turizm baxımından üç fərqli seqment üçün platforma rolunu oynaya bilər. Bu seqmentlər bir-birini istisna etmir və hər biri digərinin müştəri bazasının genişlənməsinə töhfə verir.

Birinci seqment miras turizmidir. Xətt İrəvan ətrafındakı Ararat vilayətinin çəyirdəkli meyvə ənənəsi ilə məşhurlaşmış ərazisindən keçir. Naxçıvandakı Culfa stansiyası keçmişdə İran–Sovet ticarətində mühüm keçid məntəqəsi kimi fəaliyyət göstərmişdir. Buradan təxminən 28 km məsafədə yerləşən Ordubad rayonu orta əsr memarlığı, xalçaçılıq ənənəsi ilə seçilir. Ermənistanın Ararat vilayətində yerləşən Xor Virap monastırı isə beynəlxalq irs statusuna malik dini-mədəni kompleksdir. Bu obyektlər vahid dəmir yolu marşrutu çərçivəsində birləşdirilərək miras turizmi paketi kimi həm regional, həm də beynəlxalq turistlər üçün cəlbedici ola bilər. Dallen Timoti qeyd edir ki, belə irs marşrutları müxtəlif qruplar arasında ortaq anlayışın formalaşmasına töhfə verə bilər, lakin bunun üçün marşrutun mübahisəli və ya "çətin irs" elementlərini müxtəlif interpretasiyalara açıq şəkildə təqdim edən planlaşdırma tələb olunur. (Timothy, 2023, s. 189-190).

İkinci seqment əlaqə turizmidir. Arazdəyən kəndi münaqişədən əvvəl erməni və azərbaycanlı ailələrin birlikdə üzüm, gilas, qarpız becərdiyi bir yaşayış məntəqəsi idi (RFE/RL, 2021). Bu kollektiv yaddaş əlaqə turizminin potensial əsasını formalaşdırır. Seniya Cauşeviç və Pol Linç münaqişə sonrası icmaların öz kimliyini yenidən qurmaq üçün turizm vasitəsindən istifadə etdiyini Bosniya kontekstindən empirik şəkildə göstərmişdir (Causevic & Lynch, 2011,s. 783).

Üçüncü seqment ekoloji turizmdir. Araz çayı vadisi hər iki ölkənin paylaşdığı coğrafi mühit olaraq xüsusi turizm məhsulunun yaradılmasına imkan verir. Kutay Aytuğ və Məhşid Mikaelinin apardığı tədqiqat göstərir ki, Culfa bölgəsi Avropa İttifaqı perspektivindən mədəni turizm potensialı kimi qiymətləndirilir (Mikaeli və Aytuğ, 2019, s. 116-118).

Üç seqmentin effektiv şəkildə birlikdə fəaliyyət göstərməsi üçün əsas şərt vahid turizm məhsulunun birgə planlaşdırılmasıdır. Dimitrios Yoannidis, Per Nilsen və Per Billing Botnik körfəzi kontekstini təhlil edərək göstərmişlər ki, transsərhəd turizm əməkdaşlığı çoxsəviyyəli idarəetmə çətinlikləri ilə üzləşir, lakin bu maneələrin aradan qaldırılması regional iqtisadi inteqrasiyanın təmin edilməsi baxımından həlledici əhəmiyyət daşıyır (Ioannidis, Nilsen & Billing, 2006, s. 122). Bu nəticə Arazdəyən xətti üçün birbaşa tətbiq ediləndir. Arne Stoffelen turizmin sərhəd proseslərinə, o cümlədən "sərhədsizləşdirmə" prosesinə təsirini araşdıraraq göstərmişdir ki, bu təsir əsasən infrastrukturdan deyil, sosial və ictimai səviyyədən qaynaqlanır, yəni turizm insanların sərhədləri aşmağı normal qəbul etməsi ilə formalaşır (Stoffelen, 2022, s. 20-22).

Maneələr və şərtlər

Birinci əsas maneə texniki və maliyyə xarakterlidir. Ermənistan tərəfinə aid Meğri bölməsi 43 km uzunluğundadır və bu hissənin tikinti xərci təxminən 200 milyon dollar, ümumilikdə isə Ermənistan üzrə layihənin dəyəri 1,2 milyard dollar olaraq qiymətləndirilmişdir. Azərbaycanın Horadiz–Ağbənd xətti isə 108 km uzunluğundadır və bu istiqamətdə yerləşən 12 stansiyanın infrastrukturunun tamamilə dağıldığı sənədləşdirilmişdir. (Mirimanova, 2014, s. 14). Azərbaycan tikintiyə 2021-ci ilin fevralında başlamışdır. Saymo Rovedder tranzit infrastruktur layihələrinin tranzit ölkələr üçün iqtisadi fayda gətirdiği, lakin yerli əhaliyə faydanın çatması üçün əlavə siyasət çərçivəsinin tələb olunduğunu vurğulamışdır (Rowedder, 2020, s. 152). Bu müşahidə Ermənistanın cənub rayonları üçün birbaşa tətbiq edilə bilən bir xəbərdarlıq kimi qiymətləndirilməlidir.

İkinci əsas maneə cəmiyyət səviyyəsində güvən çatışmazlığıdır. Arazdəyən kəndinin sakinləri xəttin bərpası xəbərini müxtəlif reaksiyalarla qarşılamışdır. Sakinlərdən biri "keçmişdə qardaş kimi yaşayırdıq, indi bu necə mümkündür" fikrini ifadə etmişdir (RFE/RL, 2021). Stiven Boyd və digər

müəlliflər göstərmişlər ki, destinasiyaların POCTOS çərçivəsində birinci mərhələdən ikinci mərhələyə, yəni iqtisadi bərpaya yönəlmiş turizm fazasına keçidi məqsədyönlü idarəetmə tələb edir (Boyd, Reddyb, Kulshreshthac, Nica, 2021, s. 136). Bu keçid olmadan turizm axını iqtisadi fayda yaratmaq əvəzinə icmalar arasında mövcud gərginliyi daha da dərinləşdirə bilər. Dominik Vaneste və Anna Mari Van Brek isə münaqişə sonrası turizmin sülh, ədalət və inkişaf prizmasından qiymətləndirilməsinin yalnız iqtisadi bərpanı deyil, həm də güc münasibətlərinin təhlilini zəruri etdiyini vurğulamışdır. (Vanneste, Van Broeck, 2021, s. 428).

Üçüncü maneə siyasi şərtlərlə bağlıdır. Ermənistanın konstitusiya islahatı məsələsi sülh müqaviləsinin ratifikasiyasına birbaşa təsir edən amil kimi çıxış edir (EVN Report, 2025). Dördüncü maneə isə regional geosiyasi mühitdir. İran öz şimal sərhədi yaxınlığında həyata keçirilən infrastruktur dəyişikliklərinə qarşı müəyyən narahatlıq nümayiş etdirir. Susanna Bekken və Fabritsio Karminyani turizm–sülh münasibətlərini statistik təhlil edərək belə nəticəyə gəlmişlər ki, turizm daha çox sülhün formalaşdırıcısı deyil, onun nəticəsi kimi çıxış edir (Becken & Carmignani, 2016, s. 63). Bununla belə, bu yanaşma turizmin normallaşma prosesinə töhfəsini inkar etmir, əksinə, həmin töhfənin yalnız münaqişə tərəflərinin ciddi siyasi öhdəliklər götürdüyü şəraitdə effektiv şəkildə reallaşa biləcəyini göstərir.

NƏTİCƏ

1941-ci ildən 1993-cü ilə qədər fəaliyyət göstərən İrəvan–Arazdəyən–Naxçıvan dəmir yolu xətti bağlandığı andan bəri bölgənin həm iqtisadi potensialını, həm də siyasi mürəkkəbliyini özündə cəmləşdirən bir simvola çevrilmişdir. 2020-ci il atəşkəs sazişi, 2021-ci il danışıqları, 2022-ci ildə başlanan sahə işləri və 2026-cı ilin aprelindəki son açıqlama bu xəttin yenidən aktiv siyasi gündəmə çıxdığını göstərir. Turizm perspektivindən xətt POCTOS çərçivəsinin ikinci növü üçün ciddi potensial daşıyır. Covanni Peyra, Andres Lo Cudice və Stefano Miralya dəmir yolunun turizm baxımından təkcə fiziki əlaqə yaratmadığını, həm də simvolik "açılma" funksiyası daşıdığını vurğulamışdır (Peira, Giudice, & Miraglia, 2022,s. 8). Yoel Mansfeld və Tali Korman isə bu cür açılmanın münaqişə zonalarında eyni məkanda həm ayrılıq, həm də qarşılıqlı təmas elementlərinin paralel mövcud olduğu hibrid turizm məkanı formalaşdırdığını göstərmişlər (Mansfeld və Korman, 2015, s. 456). Alon Gelbman bu hibrid məkanın yalnız uyğun institusional çərçivə formalaşdıqda sülhü dəstəkləyən funksional mexanizmə çevrildiyini qeyd etmişdir (Gelbman, 2023, s. 3) Bu üç tədqiqatçının yanaşması birlikdə Arazdəyən xətti üçün belə bir nəticə ortaya qoyur. Xətt bərpa olunsa belə, turizm potensialı avtomatik olaraq normallaşmaya töhfə vermir. Bunun reallaşması üçün birgə turizm planlaşdırılması, icma hazırlığı proqramları, ortaq irs interpretasiya çərçivəsi və Ermənistanın Meğri bölməsi üzrə yerli gəlir bölgüsü mexanizmlərinin tətbiqi zəruridir. Bu şərtlər yerinə yetirildiyi halda, İrəvan–Arazdəyən–Naxçıvan xətti ilə hərəkət edən hər qatar təkcə yük və sərnişin daşımayacaq, həm də normallaşma prosesinin ölçülə bilən göstəricisinə çevriləcəkdir.

ƏDƏBİYYAT SİYAHISI

1. Albalate, D. , & Fageda, X. (2016). *High speed rail and tourism: Empirical evidence from Spain*. Transportation Research Part A: Policy and Practice, *85*, 1–22. https://www. econstor. eu/bitstream/10419/124611/1/ERSA2015_00288. pdf
2. ARKA News Agency. (2022, March 3). Armenia starts field work for construction of 43-km long section of Yeraskh–Julfa–Ordubad–Meghri–Horadiz railway. https://arka. am/en/news/economy/electricity-supply-to-railways-under-tripp-project-to-begin-in-2026-says-pashinyan/
3. Becken, S. , & Carmignani, F. (2016). Does tourism lead to peace? *Annals of Tourism Research, 61*, 63–79. https://www. sciencedirect. com/science/article/abs/pii/S0160738316301220
4. Boyd, S. , Reddy, M. V. , Kulshreshtha, S. , & Nica, M. (2023). Post-conflict tourism opportunity spectrum (POCTOS): A framework for destinations recovering from conflict. *Journal of Sustainable Tourism, 31*(1), 131–148. https://doi. org/10. 1080/09669582. 2021. 1993866

5. Causevic, S. , & Lynch, P. (2011). Phoenix tourism: Post-conflict tourism role. *Annals of Tourism Research, 38*(3), 780–800. https://doi. org/10. 1016/j. annals. 2010. 12. 004
6. D'Amore, L. J. (1988). Tourism—a vital force for peace. *Annals of Tourism Research, 15*(2), 269–283.
7. https://www. academia. edu/9987495/Tourism_A_vital_force_for_peace
8. EVN Report. (2025, August 29). The unfinished peace deal: Armenia–Azerbaijan agreement initialed yet unsigned. EVN Report. https://evnreport. com/politics/the-unfinished-peace-deal-armenia-azerbaijan-agreement-initialed-yet-unsigned/
9. Higgins-Desbiolles, F. , Blanchard, L. A. , & Urbain, Y. (2022). Peace through tourism: Critical reflections on the intersections between peace, justice, sustainable development and tourism. *Journal of Sustainable Tourism, 30*(2–3), 335–351. https://www. tandfonline. com/doi/full/10. 1080/09669582. 2021. 1952420
10. Ioannides, D. , Nielsen, P. Å. , & Billing, P. (2006). Transboundary collaboration in tourism: The case of the Bothnian Arc. *Tourism Geographies, 8*(2), 122–142. https://doi. org/10. 1080/14616680600585217
11. Kaleji, V. (2022). Time to reconnect Iran and the South Caucasus. In D. J. Timothy & A. Gelbman (Eds.), *Baku Dialogues: Policy Perspectives on the Silk Road Region, 6*(1), 103–109. https://bakudialogues. ada. edu. az/media/2022/10/18/bd-v6-n1-fall-2022_kaleji. pdf
12. Mansfeld, Y. , & Korman, T. (2015). Between war and peace: Conflict heritage tourism along three Israeli border areas. *Tourism Geographies, 17*(3), 437–460. https://www. tandfonline. com/doi/abs/10. 1080/14616688. 2015. 1036916
13. Mikaeili, M. , & Aytug, H. K. (2019). Evaluation of Iran's cultural tourism potential from the European Union perspective: Jolfa region. *Cultural Sustainable Tourism, 3*(1), 115–130. https://www. semanticscholar. org/paper/Evaluation-of-Iran%E2%80%99s-Cultural-Tourism-Potential-the-Mikaeili-Aytu%C4%9F/61886416ba0b9ab8a527b335f676a5dfbb871573
14. Mirimanova, N. (Ed.). (2014). *Rehabilitation of the railways in the South Caucasus: Assessment of the potential economic benefits (Vol. 2: Kars–Gyumri–Nakhchivan–Meghri–Baku railway).* International Alert. https://www. international-alert. org/app/uploads/2021/08/Caucasus-Railways-Rehabilitation-Pt2-EN-2014. pdf
15. Peira, G. , Lo Giudice, A. , & Miraglia, S. (2022). Railway and tourism: A systematic literature review. *Tourism and Hospitality, 3*(1), 69–79. https://www. mdpi. com/2673-5768/3/1/5
16. RFE/RL. (2021, February 1). Armenia's other frontier: Plan to revive old Soviet railway to Azerbaijan's Nakhchivan brings potential, concerns. https://www. rferl. org/a/karabakh-naxcivan-railway-armenia-azerbaijan-potential-concerns/31077412. html
17. Rowedder, S. (2020). Railroading land-linked Laos: China's regional profits, Laos' domestic costs? *Eurasian Geography and Economics, 61*(2), 152–161. https://doi. org/10. 1080/15387216. 2019. 1704813
18. Stoffelen, A. (2022). Tourism and bordering, debordering and rebordering. *Annals of Tourism Research, 95*, 103434. https://www. sciencedirect. com/science/article/abs/pii/S0160738324000057
19. Tian, K. , Xing, W. , & Huang, K. (2023). Transportation infrastructure upgrading and high-quality development of tourism economy. *China Journal of Economics, 10*(4), 227–251. https://doi. org/10. 26599/CJE. 2023. 9300408
20. Timothy, D. J. (2023). *Conflict and stability: The potential of heritage tourism in promoting peace and reconciliation*. Springer. https://doi. org/10. 1007/978-3-031-44800-3_15
21. Vanneste, D. , & Van Broeck, A. M. (2021). Peacebuilding and post-conflict tourism: Addressing structural violence in Colombia. *Journal of Sustainable Tourism, 30*(2–3), 427–443. https://doi. org/10. 1080/09669582. 2020. 1869242

AZƏRBAYCANIN MILLI MƏDƏNI IRSININ QORUNMASI VƏ DAYANIQLI TURİZMİN TƏŞVİQİNDƏ HEYDƏR ƏLİYEV SİYASƏTİNİN ROLU

The Role of Heydar Alıyev's Policy in Preservıng the Natıonal Cultural Herıtage of Azerbaijan And Promoting Sustainable Tourism

İBRAHİM BABAYEV[1]
Ibrahim Babayev[1]
ibrahim.babayev@dia.edu.az
https://orcid.org/0009-0000-9370-977X

MƏTİN CABBARLI[2]
Matin Jabbarli[2]
cabbarli.matin.ali. 2024@unec.edu.az
https://orcid.org/0009-0005-5278-1501

Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyası
Azərbaycan Dövlət İqtisad Universiteti
The Academy of Public Administration under the President of the Republic of Azerbaijan
Azerbaijan State University of Economics (UNEC)

XÜLASƏ

Qloballaşmanın sürətləndiyi, geosiyasi rəqabətin kəskinləşdiyi və beynəlxalq münasibətlərin mürəkkəbləşdiyi müasir dövrdə milli mədəni irsin qorunması yalnız mədəni zərurət deyil, eyni zamanda dövlətlərin "yumşaq güc" potensialını artıran və dayanıqlı inkişaf məqsədlərinə xidmət edən strateji bir resurs kimi çıxış edir. Məqalənin məqsədi Azərbaycanda dövlətçilik ənənələri ilə mədəni irsin qorunması arasındakı qarşılıqlı əlaqəni turizm kontekstində təhlil etmək və bu sahədə Heydər Əliyev tərəfindən formalaşdırılmış siyasi kursun dayanıqlı turizmin inkişafına təsirini qiymətləndirməkdir. Tədqiqatda tarixi-xronoloji yanaşma tətbiq edilərək mədəni irs siyasətinin mərhələli inkişafı və onun turizm sektoruna inteqrasiyası ardıcıl şəkildə araşdırılır. Tədqiqatın nəticələri göstərir ki, Heydər Əliyev tərəfindən əsası qoyulan mədəni irs siyasəti yalnız milli-mənəvi dəyərlərin qorunmasını təmin etməmiş, eyni zamanda bu irsin dayanıqlı turizm modelinə inteqrasiyası üçün institusional və strateji baza yaratmışdır. Bu yanaşma Azərbaycanın beynəlxalq turizm bazarında rəqabət qabiliyyətinin artırılmasına, mədəni diplomatiyanın gücləndirilməsinə və uzunmüddətli dayanıqlı inkişafın təmin olunmasına mühüm töhfə vermişdir.

Açar sözlər: *Azərbaycan; Heydər Əliyev siyasəti; mədəni irsin qorunması; dayanıqlı turizm; turizm siyasə*

ABSTRACT

In the contemporary era, characterized by accelerating globalization, intensifying geopolitical competition, and increasingly complex international relations, the preservation of national cultural heritage is not merely a cultural necessity, but also acts as a strategic resource that enhances the "soft power" potential of states and serves sustainable development goals. The purpose of this article is to analyze the correlation between statehood traditions and the preservation of cultural heritage in Azerbaijan within the context of tourism, and to evaluate the impact of the political course shaped by Heydar Aliyev in this field on the development of sustainable tourism. Utilizing a historical-chronological approach, the study consistently examines the staged development of cultural heritage policy and its integration into the tourism sector The results of the research indicate that the cultural heritage policy founded by Heydar Aliyev not only ensured the preservation of national and spiritual values, but also established an institutional and strategic framework for the integration of this heritage into a sustainable tourism model. This approach has significantly contributed to enhancing Azerbaijan's competitiveness in the international tourism market, strengthening its cultural diplomacy, and ensuring long-term sustainable development.

Keywords: *Azerbaijan, Haydar Aliyev's policy, preservation of cultural heritage, sustanble tourism, tourism policy*

GİRİŞ

Qədim tarixi inkişaf yolu keçmiş və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmiş Azərbaycanda milli mədəni irsin qorunması və təbliği dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi formalaşmışdır. Bu siyasətin əsasları Heydər Əliyev tərəfindən müəyyən edilmiş və sistemli şəkildə həyata keçirilmişdir. Xüsusilə, mədəni irsin qorunması ilə yanaşı onun turizm dövriyyəsinə cəlb olunması istiqamətində atılan addımlar dayanıqlı turizmin inkişafına da mühüm təkan vermişdir. Bu baxımdan mədəni irs, xüsusilə turizm sektoru ilə qarşılıqlı əlaqədə, ölkələrin beynəlxalq imicinin formalaşmasında və iqtisadi diversifikasiyada mühüm rol oynayır.

Xalqların mövcudluğunun və onların ən böyük sərvəti hesab olunan milli dövlətçiliyin əsasını təşkil edən milli-mədəni irs tarixi yaddaşı, mənəvi dəyərləri və sosial identikliyi özündə birləşdirən kompleks sistem kimi çıxış edir (Ye, Qin & Wu, 2024). Minilliklər ərzində formalaşan və maddi, eləcə də qeyri-maddi elementlər vasitəsilə nəsildən-nəslə ötürülən bu irs nümunələri qorunduqca və ümumbəşəri sərvət kimi paylaşdıqca, qloballaşmanın mühüm istiqamətlərindən biri olan turizmin inkişafı üçün də əhəmiyyətli resursa çevrilir. Bu baxımdan, mədəni irs yalnız keçmişin mirası kimi deyil, həm də müasir dövrdə dayanıqlı inkişafın, xüsusilə dayanıqlı turizmin formalaşmasında əsas amillərdən biri kimi çıxış edir (Gaonkar & Sukthankar, 2025).

Bu kontekstdə, dünya mədəni irsinin qorunması və istifadəsi sahəsində aparıcı beynəlxalq təşkilat olan UNESCO tərəfindən irsin qorunması və davamlı istifadəsi dövlətlər, hökumətlər, yerli icmalar və vətəndaş cəmiyyəti üçün prioritet istiqamət kimi müəyyən edilmişdir (UNESCO, 2013). Bu yanaşma mədəni irsin turizm fəaliyyətinə inteqrasiyası zamanı iqtisadi faydalarla yanaşı, onun mənsubluğunun qorunması və gələcək nəsillərə ötürülməsi prinsipini də ön plana çıxarır. Beləliklə, mədəni irs və turizm arasındakı qarşılıqlı əlaqə dayanıqlı inkişaf konsepsiyasının mühüm tərkib hissəsinə çevrilmişdir.

Mədəni irsin qorunması və dayanıqlı istifadəsi ilə bağlı beynəlxalq səviyyədə formalaşmış yanaşmalar mövcud olsa da, Azərbaycan timsalında bu sahədə vəziyyət keçmiş sovet dövründə fərqli xarakter daşımışdır. Belə ki, sovet ideologiyasının tələbləri çərçivəsində ittifaqa daxil olan respublikalarda milli kimliklərin zəiflədilməsi və vahid sovet identikliyinin formalaşdırılmasına yönəlmiş siyasət həyata keçirilmişdir. Belə ki, Sovet İttifaqının süqutundan uzun müddət keçməsinə baxmayaraq, bəzi keçmiş respublikalarda bu siyasətin sosial və mədəni təsirləri müəyyən dərəcədə bu gün də müşahidə olunmaqdadır (Hirsch, 2005, p. 8).

Həmin dövrdəki repressiv təzyiqlər fonunda Azərbaycanda milli özünüdərk prosesində müəyyən geriləmələr qeydə alınsa da, bu dəyərlər xalqın kollektiv yaddaşında qorunub saxlanılmış və sonrakı dövrdə, xüsusilə Heydər Əliyev siyasəti çərçivəsində yenidən dirçəliş mərhələsinə qədəm qoymuşdur (Altstadt, 1992). Bu proses Azərbaycanın müstəqillik illərində daha da möhkəmlənmiş və mədəni irsin qorunması ilə yanaşı onun beynəlxalq səviyyədə tanıdılması, eləcə də turizm resursu kimi səmərəli istifadəsi dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevrilmişdir.

Buna görə də, bu tədqiqatın məqsədi XX əsrin əvvəlləri və sovet dövründə müxtəlif təzyiqlərə məruz qalmış Azərbaycanın maddi və qeyri-maddi mədəni irsinin qorunması prosesini araşdırmaqdan ibarətdir. Bu kontekstdə, xüsusilə Heydər Əliyev tərəfindən həyata keçirilən siyasi kursun milli-mədəni dəyərlərin qorunmasına və onların dayanıqlı turizm də daxil olmaqla müxtəlif sosial-iqtisadi və humanitar sahələrdə təsiri təhlil edilir.

ƏDƏBIYYAT XÜLASƏSI

Mövcud ədəbiyyatlarda Heydər Əliyev tərəfindən həyata keçirilən siyasi kursun milli-mədəni dəyərlərin qorunmasına və onların dayanıqlı turizm də daxil olmaqla müxtəlif sosial-iqtisadi və humanitar sahələrdə təsiri geniş təhlil edilir. Belə ki, Məmməd Əliyev (2023) Heydər Əliyevin dini tolerantlıq və multikulturalizm siyasətini milli-mədəni müxtəlifliyin qorunmasının əsas mexanizmi kimi qiymətləndirir. Hökmə Əliyeva (2023) və Aygün Şıxbabayeva (2023) onun Azərbaycan multikulturalizm modelinin siyasi əsasını qoyaraq bu sahəni dövlət siyasəti səviyyəsinə yüksəltdiyini vurğulayırlar. Elnarə Məmmədova (2023) isə milli azlıqların və dini icmaların hüquqlarını qoruyan normativ-hüquqi bazanın yaradılmasını xüsusi qeyd edir. Elvin Qarayev (2023) bu siyasətin nəticəsində milli-mədəni dəyərlərin qorunması və inkişafı üçün davamlı institusional mühitin formalaşdığını göstərir. Rəhibə Əliyeva (2023) qeyd edir ki, Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycanda milli-mədəni irsin qorunması dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmiş, bu sahədə mühüm hüquqi qərarlar və proqramlar qəbul edilmişdir. Müəllif göstərir ki,

tarixi abidələrin bərpası, məscidlərin yenidən qurulması və qoruqların yaradılması bu siyasətin praktik nəticələridir (s. 37-41). Eyni zamanda, bu fəaliyyətlər milli kimlik, tarixi yaddaş və mədəni dəyərlərə hörmətin ifadəsi kimi qiymətləndirilir. Nəticə etibarilə, Heydər Əliyevin siyasəti Azərbaycan mədəniyyətinin qorunması ilə yanaşı, onun beynəlxalq mədəni inteqrasiyasına da xidmət etmişdir.

Vüqar Kərimli (2023) göstərir ki, Heydər Əliyevin mədəni siyasəti milli-mənəvi dəyərlərin qorunması və inkişafı istiqamətində sistemli dövlət strategiyası kimi formalaşmışdır. Müəllif vurğulayır ki, tarixi abidələrin, muzeylərin yaradılması, milli bayramların bərpası və incəsənətin inkişafı bu siyasətin əsas istiqamətlərini təşkil etmişdir (s. 9-12). Eyni zamanda, mədəniyyətin dövlətçilik və milli kimliklə sıx bağlı olduğu əsaslandırılır. Nəticə olaraq, Heydər Əliyevin fəaliyyəti Azərbaycan mədəniyyətinin həm qorunmasına, həm də qlobal səviyyədə tanıdılmasına mühüm töhfə vermişdir. Cəfərova, (2023) göstərir ki, Heydər Əliyevin siyasəti Azərbaycan mədəniyyətinin ideoloji əsaslarının formalaşmasına və inkişafına mühüm təsir göstərmişdir. Müəllif vurğulayır ki, milli-mənəvi dəyərlərin qorunması, mədəni irsin təbliği və gənc nəslin milli ruhda formalaşdırılması bu siyasətin əsas istiqamətlərindəndir (s. 107-110). Eyni zamanda, bu siyasət Azərbaycanın beynəlxalq mədəni inteqrasiyasını gücləndirmiş və ölkənin mədəni imicinin formalaşmasına xidmət etmişdir. Nəticə etibarilə, Heydər Əliyevin mədəni siyasəti həm milli kimliyin möhkəmləndirilməsi, həm də qlobal mədəni əlaqələrin inkişafı baxımından strateji əhəmiyyət kəsb edir.

Bu sahədə Heydər Əliyev Fondunun fəaliyyəti barədə Mirzəxanlı G. (2025) göstərir ki, Azərbaycan mədəniyyətinin qorunması və beynəlxalq səviyyədə təbliği baxımından mühüm institusional mexanizm kimi çıxış edir. Müəllif vurğulayır ki, fondun ədəbiyyat və musiqi sahəsində həyata keçirdiyi layihələr, UNESCO ilə əməkdaşlıq və beynəlxalq festivallar milli mədəni irsin qlobal miqyasda tanıdılmasına xidmət edir (s. 30-34). Eyni zamanda, bu fəaliyyətlər mədəni diplomatiyanın mühüm aləti kimi çıxış edərək milli kimliyin möhkəmləndirilməsinə və xalqlar arasında qarşılıqlı anlaşmanın inkişafına töhfə verir. Nəticə olaraq, Heydər Əliyev Fondu Azərbaycan mədəniyyətinin həm qorunması, həm də beynəlxalq inteqrasiyası baxımından strateji rol oynayır.

Qarayeva, (2023) isə qeyd edir ki, Heydər Əliyevin dövlət idarəçiliyi strategiyası mədəniyyət siyasəti ilə, xüsusilə kitab və mütaliə mədəniyyətinin inkişafı ilə sıx bağlı olmuş və bu istiqamətdə sistemli tədbirlər həyata keçirilmişdir. Müəllif vurğulayır ki, kitabxanaların, nəşriyyatların və maarifləndirici layihələrin dəstəklənməsi milli kimliyin qorunmasına, cəmiyyətin intellektual inkişafına və dövlətçiliyin ideoloji əsaslarının möhkəmləndirilməsinə xidmət etmişdir.

Gajiyev, (2023) qeyd edir ki, Heydər Əliyev ədəbiyyat və mədəniyyətin milli kimliyin formalaşmasında əsas rolunu dərk edərək Azərbaycan ədəbi irsinin qorunması və inkişafı istiqamətində sistemli təşəbbüslər həyata keçirmişdir . Müəllif vurğulayır ki, onun siyasəti ədəbi mühitin inkişafına, yazıçıların dəstəklənməsinə və Azərbaycan mədəniyyətinin beynəlxalq səviyyədə tanıdılmasına mühüm töhfə vermişdir.

METODOLOGIYA

Məqalənin məqsədinə uyğun olaraq tədqiqatda keyfiyyət yanaşma əsas metodoloji istiqamət kimi seçilmişdir. Bu yanaşma milli-mədəni irs, identiklik və ideoloji təsirlər kimi mürəkkəb sosial-mədəni fenomenlərin mahiyyət, məzmun və tarixi-sosial kontekst əsasında təhlilinə imkan verir.

Tədqiqatın metodoloji əsasını keyfiyyət əsaslı tarixi-müqayisə metodu təşkil edir. Bu metod vasitəsilə sovet dövründə həyata keçirilən mədəni siyasət ilə Azərbaycanın müstəqillik dövründə formalaşan yanaşmalar müqayisəli şəkildə araşdırılmışdır. Eyni zamanda, sovet ideologiyasının milli kimlik və mədəni irs üzərində təsirləri, eləcə də müstəqillik dövründə bu dəyərlərin yenidən aktuallaşdırılması prosesi interpretativ yanaşma əsasında təhlil edilmişdir. Bu kontekstdə, xüsusilə

Heydər Əliyev tərəfindən həyata keçirilən siyasətin milli-mədəni irsin qorunması və təşviqində rolu qiymətləndirilmişdir.

Tədqiqat zamanı hadisələrin səbəb-nəticə əlaqələrinin müəyyənləşdirilməsi, mədəni irsin qorunması və təbliği sahəsində mövcud tendensiyaların aşkar edilməsi və ümumiləşdirilməsi həyata keçirilmişdir. Beləliklə, seçilmiş metodoloji yanaşma mövzunun həm nəzəri, həm də praktik aspektlərini kompleks şəkildə təhlil etməyə və Heydər Əliyevin milli-mədəni irs siyasətində rolunu elmi əsaslarla qiymətləndirməyə imkan verir. Eyni zamanda, tədqiqat "dayanıqlı turizm perspektivi" çərçivəsində aparılmışdır. Bu yanaşma mədəni irsin yalnız qorunma obyekti kimi deyil, həm də uzunmüddətli sosial-iqtisadi inkişafı təmin edən turizm resursu kimi qiymətləndirilməsini nəzərdə tutur. Bu kontekstdə mədəni irsin qorunması ilə onun turizm fəaliyyətində istifadəsi arasında balansın təmin olunması, davamlılıq prinsipləri əsasında təhlil edilmişdir.

DISKUSSIYA

Tarixi-mədəni irs hər bir xalqın, o cümldən Azərbaycan xalqının milli pasportudur. Onun daim olaraq yaşadılması tarixi dövr ərzində ciddi sınaqlarla üzləşmişdir. Belə ki, işğalçı dövlətlərin ekspansiya siyasəti, yaxud birbaşa olaraq dağıdıcı əməlləri qarşısında uzun əsrlər boyunca mədəni irs nümunələrinin qorunub saxlanlıması, bu mənada tarixi şəxsiyyətlər qarşısında da çətin vəzifələrdən biri olmuşdur. Belə ki, hələ Şah İsmayıl dövründə Azərbaycan dilinin dövlət dili səviyyəsində işlədilməsindən tutmuş (Balayev, 2002) keçən tarixi proseslərdə millilik məsələsi xalqımızın identikliyinin qorunmasına xidmət etmişdir. Bu mənada, XX əsrin ikinci yarsında keçmiş SSRİ-nin tərkib hissəsi olmuş Azərbaycan Respublikasında formalaşmış olan ictimai-siyasi mühit, rəsmi Moskvanın müttəfiq respublikalar, xüsusən də slavyan və xristian olmayan respublikalara qarşı təzyiqləri, rus dilinin totalitar ekspansiyası şəraitində istər Azərbaycan dilinin, istər Azərbaycanın irs nümunələrinin, istərsə də Azərbaycan xalqının milli düşüncəli ziyalı təbəqəsinin qarşılaşdığı təsirləri daha da artırırdı. Bu vəziyyət o dövrdə vüsət almış "kommunizm" ideologiyası, "sovet" tərbiyəsi, "sosializm" yarışı kimi totalitar düşüncəyə çevrilmiş olan indekslərlə göstərilərək, milli irsin qorunması və gələcək nəsillərə çatdırılması kimi məsələləri də təhlükəyə atırdı.

Məhz bu dövrdə, yəni, 1969-cu ildə Heydər Əliyevin Azərbaycan KP MK-nın I katibi vəzifəsinə seçilməsi ilə ölkənin ictimai-siyasi və mədəni həyatında keyfiyyətcə yeni mərhələ başladı. Özündən əvvəlki liderlərdən fərqli olaraq respublikanın yeni rəhbərinin milli məsələyə həssasılığı nəticəsində milli-mədəni irsin qorunması və inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi. Bu, Azərbaycan mədəniyyətində intibah proseslərinin başlaması və milli identikliyin gücləndirilməsi istiqamətindəki işlərin başlanğıcı oldu.

Ulu Öndərin müasir Azərbaycan tarixinə iz qoymuş bu fəaliyyətini dörd dövrə ayırmaq mümkündür:

- 1969-1982-ci illər;
- 1990-1993-cü illər (Naxçıvan dövrü);
- 1993-2003-cü illər;
- Prezident İlham Əliyev tərəfindən 2003-cü ildən başlayan və uğurla davam etdirilən ən yeni dövr.

1969-cu ildə Heydər Əliyevin Azərbaycan KP MK-nın I katibi vəzifəsinə gəldikdən sonra respublikada milli irsin qorunması və inkişafı istiqamətində sistemli tədbirlərin əsası qoyuldu. Artıq 1970-1980-ci illərdə mədəniyyət sahəsində kompleks dövlət proqramları həyata keçirildi və bu sahənin institusional bazası gücləndirildi. Teatr, muzey, kitabxana və digər mədəniyyət müəssisələrinin fəaliyyəti genişləndirildi və maddi-texniki təminatı yaxşılaşdırıldı. Bu dövr milli mədəniyyətin dövlət tərəfindən planlı və məqsədli şəkildə inkişaf etdirildiyi mərhələ kimi xarakterizə olunur.

Dil milli identikliyin ən mühüm daşıyıcısıdır. Bu baxımdan, 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit olunması dilin ictimai və inzibati sahələrdə istifadəsini genişləndirərək milli özünüdərkin güclənməsinə səbəb oldu ki,bu da milli özünütəsdiq istiqamətində atılan ən önəmli addımlardan idi. Həmçinin bu istiqamətdə milli kadrların hazırlanması və yerli mütəxəssislərin yetişdirilməsi mədəniyyət, elm və təhsil sahələrində gələcək dövr üçün etibarlı milli potensialın formalaşmasına da şərait yaratdı

Üzərindən yarım əsrdən artıq vaxt keçməsinə baxmayaraq, xüsusən, 1970-1980-ci illərdə yaradılmış teatr və kino əsərləri, ədəbiyyat sahələrində ciddi canlanma milli mövzulara marağı daha da artırdı Bu sahələrdə yaradılan əsərlər milli kimliyin və tarixi yaddaşın bərpasına xidmət etdi. Nəticədə mədəniyyət yalnız o dövrün ideoloji vasitə çərçivəsindən çıxıb, həm də milli özünüdərkin mühüm elementi kimi formalaşdı. Azərbaycan klassiklərinin irsinin qorunması, 1973-cü ildə İmadəddin Nəsiminin 600 illik yubileyi, 1976-cı ildə memar Əcəminin 850 illik yubileyi, 1981-ci ildə Nizami Gəncəvinin beynəlxalq səviyyədə 840 illik yubileyi, Məhəmməd Füzuli irsinin geniş şəkildə nəşri, Babəkin azadlıq ideyasının simvolu kimi təqdim olunaraq onun adına 1978-ci ildə rayon yaradılması, Koroğlu dastanının milli folklorumuzun nümunəsi kimi qorunması, 1982-ci ildə Şuşada Vaqifin məqbərəsinin ucaldılması kimi tədbirlər bu baxımdan Heydər Əliyevin SSRİ dövründə milli irsimizin qorunması sahəsindəki misilsiz xidmətlərindən idi.

Mədəni irsin yaşadılmasının mühüm mexanizmlərindən biri toponimik siyasətdir. Toponimika milli yaddaşın coğrafi forması kimi çıxış etməklə bu yolla yaşadılan adlar gündəlik həyatın və şəhər məkanının ayrılmaz hissəsinə çevrilmişdir. Hələ sovet dövründə Azərbaycanda rayonlara ("Nizami", "Füzuli", "Nəsimi") və şəhərlərə (Cəlilabad), Bakıda metro stansiyalarına ("Nizami", "Memar Əcəmi") və iri şəhərlərdə küçə və prospekt adlarına verilən milli adlar milli irsimizin yaşadılması üçün mühüm addımlardan idi. 1982-ci ildə Hüseyn Cavidin anadan olmasının 100 illiyində onun İrkutskdakı məzarının aşkar edilməsinə və cənazəsinin qalıqlarının oktyabrın 26-da Azərbaycana gətirilməsinə nail olması Heydər Əliyevin milli irsə olan hədsiz sevgisindən qaynaqlanırdı. Bu gün Naxçıvan şəhərindəki Hüseyn Cavid məqbərəsi mədəniyyətə həvəskarı olan turistlərin ən sevimli məkanlarından biridir.

Azərbaycan tarixən Türk dünyası ilə bir ailənin üzvü olub. Bu əlaqələr tarixi sınaq dövrlərində də qırılmamış, mədəniyyət və turizm əlaqələri ilə daim möhkəmlənmişdir. Tarixi-mədəni zənginlik və coğarfi olaraq Şərqlə Qərbin qovşağındakı Azərbaycan, bu mənada, Türk dünyasında mədəni və siyasi inteqrasiyanın aparıcı aktorlarından birinə də çevrilmişdir. Bu ilk olaraq milli tarix, dil və mədəniyyət üzərindən ortaq köklərin yenidən dərk olunmasına şərait yaratmış, və bununla da hazırda Azərbaycan Türk dünyasının ayrılmaz tərkib hissəsi kimi mövqeyini ortaya qoymuşdur. Bu istiqamətdə Heydər Əliyevin apardığı siyasət 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasında həyata keçirdiyi siyasi fəaliyyət çərçivəsidə daha da dərinləşərək Azərbaycan dövlətçiliyinin bərpası və milli-mədəni dəyərlərin qorunması baxımından mühüm mərhələnin başlanğıcı olmuşdur. Naxçıvandakı fəaliyyəti dövründə Azərbaycan Xalq Cumhuriyyətinin dövlət bayrağının Ali Məclisdə qaldırılması, qardaş Türkiyə ilə yaradılmış hərtərəfli iqtisadi-mədəni əlaqələr, 1992-ci ildə Türkiyə və Naxçıvan arasında inşa olunan Ümid körpüsü bu baxımdan Azərbaycan və Türkiyə arasındakı bugünkü strateji müttəfiqlik səviyyəsindəki əlaqələrin təməlini qoymuşdur. O dövrdə Türkiyənin Baş naziri olmuş Süleyman Dəmirəl arasında formalaşan şəxsi dostluq münasibətləri Azərbaycan-Türkiyə əlaqələrinin dərinləşməsində mühüm rol oynamış, bu gün bütün platformalarda dilə gətirilən və Azərbaycan-Türkiyə münasibətlərinin ideoloji əsasını təşkil edən "Bir millət-iki dövlət" konsepsiyasının əsasını qoymuşdur.

1993-cü ildən etibarən Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda milli dövlətçilik prinsiplərinə əsaslanan mədəni siyasət formalaşdırılmışdır. Bu dövrdə milli-mədəni irsin qorunması və onların turizm məqsədilə dünya mədəniyyətinə qazandırılması müstəqil dövlət strategiyasının əsas istiqamətlərindən birinə çevrilmişdir. Aparılan məqsədyönlü siyasət

nəticəsində mədəni irsin qorunması, bərpası və beynəlxalq səviyyədə tanıdılması istiqamətində sistemli irəliləyişlər əldə edilmişdir. 1993-2003-cü illərdə tarixi-memarlıq abidələrinin bərpası istiqamətində həyata keçirilmiş genişmiqyaslı layihələr təkcə onların fiziki qorunmasını deyil, həm də onların turizm və mədəni-tanışlıq dövriyyəsinə daxil edilməsini təmin etmişdir. Bundan sonra mədəni irsin qorunması sahəsində hüquqi tənzimləməni təmin edən qanunvericilik bazası formalaşdırılmış, "Turizm haqqında" Qanun qəbul edilmişdir. Bu çərçivədə qəbul edilən qanun və normativ aktlar mədəniyyət obyektlərinin mühafizəsini və istifadəsini sistemli şəkildə tənzimləmişdir. Nəticədə, mədəni irsin qorunması hüquqi baxımdan təmin olunmuş və institusional mexanizmlər gücləndirilmişdir.

Müstəqillik illərində tarixi-mədəni irsin qoruması üzrə ən böyük təşkilat olan UNESCO ilə Azərbaycanın əməkdaşlığı keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Milli-mədəni irsin beynəlxalq səviyyədə tanıdılması istiqamətində mühüm addımlar atılmış və bu vaxta qədər dörd Azərbaycan abidəsi UNESCO-nun Dünya Mədəni İrs siyahısına daxil edilmişdir. Belə ki, 2000-ci ildə qədim şəhərsalma mədəniyyətini yaşadan İçərişəhərin, 2007-ci ildə olduqca qədim arxeoloji irsin daşıyıcısı olan Qobustan Qayaüstü Rəsmlərinin, 2019-cu ildə memarlıq və ticarət mədəniyyəti nümunəsi olan Şəki şəhərinin tarixi mərkəzi və Xan sarayının, 2023-cü ildə mədəni landşaft və ənənəvi həyat tərzini özündə yaşadan Xınalıq və Köç Yolları Mədəni Landşaftının UNESCO-nun daimi Miras siyahısına daxil edilməsi Azərbaycanın qlobal mədəni inteqrasiyasını gücləndirmiş və ölkənin beynəlxalq imicinin formalaşmasına töhfə vermişdir. UNESCO çərçivəsində əldə olunan uğurlar Azərbaycanın mədəni diplomatiyasının effektivliyini və dövlət siyasətinin ardıcıllığını nümayiş etdirir.

2. Skandalis, A. , Banister, E. , & Byrom, J. (2024). Spatial authenticity and extraordinary experiences: Music festivals and the everyday nature of tourism destinations. Journal of Travel Research, 63(2), 357–370. https://doi. org/10. 1177/00472875231159054
3. Hinek, M. , & Papp-Váry, Á. F. (2024). Topic modelling of festival visitors' opinions: A case study of Sziget Festival. European Journal of Tourism Research, 37, 3703. https://doi. org/10. 54055/ejtr. v37i. 3037
4. Brown, M. (2022). Music festivals and cultural tourism: Economic and social impacts. Frontiers of Creative Media Industries and Cultural Studies, 4(2), 31. https://doi. org/10. 69610/j. fcmics. 20220822
5. Nunes, P. , & Birdsall, C. (2021). Curating the urban music festival: Festivalisation and digitally-shaped consumption. European Journal of Cultural Studies, 25(2). https://doi. org/10. 1177/13675494211008646
6. Kinnunen, M. , Luonila, M. , & Honkanen, A. (2018). Segmentation of music festival attendees. Scandinavian Journal of Hospitality and Tourism. https://doi. org/10. 1080/15022250. 2018. 1519459
7. Moisescu, O. I. , Gică, O. A. , Coros, M. M. , & Yallop, A. C. (2019). The UNTOLD story: Event tourism's negative impact on residents' well-being. Worldwide Hospitality and Tourism Themes, 11(5), 492–505. https://doi. org/10. 1108/WHATT-06-2019-0036
8. Chen, Y. , Zhang, H. , & Liu, Y. (2022). Exploring the driving factors of urban music festival tourism and service development strategies. Sustainability, 14(12), 7498. https://doi. org/10. 3390/su14127498
9. Bennett, A. , Taylor, J. , & Woodward, I. (2019). The festivalization of culture. Routledge.
10. Gibson, C. , & Connell, J. (2019). Music festivals and regional development. Routledge.

DEVELOPING SOCIAL COHESION AND MULTICULTURALISM THROUGH TOURISM: AN AZERBAIJANI PERSPECTIVE ON DEPOLARIZATION

Turizm vasitəsilə sosial həmrəylik və multikulturalizmin inkişaf etdirilməsi: depolyarlaşmaya dair Azərbaycan baxışı

MAYYA JAFARGULIYEVA
Mayya Cəfərquliyeva
jafarguliyeva. mayya@gmail. com
https://orcid. org/0000-0003-1905-6840
Bakı Slavyan Universiteti
Baku Slavic University

XÜLASƏ

Məqalədə mədəni turizmin müasir cəmiyyətlərdə sosial qütbləşmənin azaldılması və sosial həmrəyliyin gücləndirilməsi vasitəsi kimi rolu tədqiq edilir. Azərbaycanın multikulturalizm modeli və "azərbaycançılıq" ideologiyası çərçivəsində mədəni irsin dialoq və birgəyaşayış üçün platforma kimi çıxış etməsi təhlil olunur. Tədqiqatda beynəlxalq nəzəri yanaşmalar, o cümlədən "bridging" sosial kapitalı və " assimilyasiya olmadan inteqrasiya" düsturu yerli kontekstə uyğunlaşdırılmışdır. Nəticə olaraq, mədəni turizmin həm iqtisadi dividend, həm də "sosial bütövlük" yaratmaqla cəmiyyətin dayanıqlığını təmin etdiyi əsaslandırılır.

Açar sözlər: *multikulturalizm, sosial həmrəylik, depolyarizasiya, mədəni turizm, mədəniyyətlərarası dialoq, Azərbaycan.*

ABSTRACT

The article examines the role of cultural tourism as a tool for reducing social polarization and strengthening social cohesion in modern societies. Within the framework of Azerbaijan's multiculturalism model and the ideology of "Azerbaijanism," the study analyzes how cultural heritage serves as a platform for dialogue and co-exictence. The research adapts international theoretical approaches, such as "bridging" social capital and the "integration without assimilation" formula, to the local context. In conclusion, it is argued that cultural tourism ensures social resilience by generating economic dividends and creating "social integrity. "

Keywords: *Multiculturalism, social cohesion, depolarization, cultural tourism, intercultural dialogue, Azerbaijan.*

INTRODUCTION

The preservation of social cohesiveness has become a key component of national security and sustainable state development in the modern period of global change and growing ethno-cultural diversity. The Republic of Azerbaijan is a singular example in the world where multiculturalism is not only a theoretical idea but has been declared official state policy and represents the people's long-standing way of life. In the context of the "Strategy for Socio-Economic Development for 2023–2026" and the "Strategic Roadmap for the Development of the Specialized Tourism Industry," cultural tourism is seen as a vital component of the non-oil sector and as a potent tool for social integration and the creation of a cohesive civic identity. The notion that tourism operates as a "social glue," able to promote two fundamental types of interactions: "bonding" (connections inside one's own group) and "bridging" (creating bridges between various groups), is the foundation for the study's applicability. Azerbaijan's cultural tourism offers a special environment for the "bridging" mechanism to thrive. When locals and foreign tourists from different ethnic, religious, and geographical backgrounds gather at common historical sites, like the ancient temples of Caucasian Albania or the architectural masterpieces of the Ajami Nakhchivani school in Nakhchivan, they learn about shared historical meanings. By redefining cultural history as the common property of the entire country rather than the exclusive realm of a particular group, this approach eliminates emotional social disparities and is essential for depolarization. Additionally, by practicing inclusive hospitality, the Azerbaijani form of multiculturalism, which is defined by "integration without assimilation," enhances social trust. The state guarantees that various ethnic groups are active participants in the tourist business by actively involving them, such as the Udins in Nij or the Mountain Jews in

Guba. This inclusion improves the social integrity and structural honesty of the community by promoting the sense of mutual respect and predictability to both visitors and residents. The role of sustainable local tourism to the campaign against social exclusion is similarly significant. The development of tourism centered on Ajami Nakhchivani's legacy gives local populations in places like Nakhchivan a "voice" in the national narrative and an economic foundation. In the same way, the restoration of historical settlements like Basgal and Lahic as well as heritage sites in liberated regions helps to strengthen a common sense of belonging to the unified state by lessening the sense of isolation in remote locations. Thus, this article's goal is to examine cultural tourism as a tactical instrument for society's depolarization. The research is predicated on the idea that attaining sustained social cohesiveness requires preserving society's ethical and structural integrity through intercultural communication.

THEORETICAL FOUNDATIONS OF THE RESEARCH

An integration of sociology, tourism, and the Azerbaijani model of multiculturalism forms the theoretical foundation for examining the growth of social cohesion through the development of cultural tourism in Azerbaijan. Here, tourism is considered as a complex social phenomena including the interplay of many socio-cultural settings rather than only as an economic industry. In order to comprehend the nature and effects of tourist activities, theoretical study in this sector depends on "tourism"—a synergistic concept that combines economics, sociology, history, and culture. Within this perspective, tourism sociology investigates the processes of interaction between visitors and local populations as well as the host sociocultural milieu. Through direct touch with "the other," these interactions allow changes in worldviews and behaviors, which function as the main catalyst for depolarization.

The research is based on conceptual foundations of Azerbaijani state policy, which evaluates multiculturalism as a historical way of life as well as an ideology. Based on the idea of "integration without assimilation," this concept permits religious and ethnic minorities to maintain their own cultural norms while still being essential components of a cohesive national identity. In theory, this makes cultural variety an effective tool for social stability and national security (Hillary du Cros. , & B. McKercher, 2020, p. 127).

The difference between two forms of social capital is another key theoretical tenet. The first one is "bonding" where relationships within a particular ethnic or religious community that reinforce internal identity yet, if unbalanced, can result in isolation. The second one, "bridging" explains the idea of the "social glue" formed when several groups come together in common areas. Where monuments such as those of the Ajami Nakhchivani' school have shared historical values, cultural tourism serves as a platform for connecting social capital. The research distinguishes between physical (material) and intangible (spiritual) legacy based on the categorization of tourism-recreation resources. Architectural ensembles, archaeological sites, and "monumental memories" that offer a physical setting for intergroup gatherings are examples of tangible resources. Folklore, traditional crafts. and spiritual accomplishments that provide a "immersive tourism experience" are examples of intangible resources. By enabling guests to engage with the host community's way of life, this immersion promotes a higher degree of social trust (Mammadzadeh, 2021, p. 7).

Finally, social value and society-centric development approach highlights that GDP-driven growth is replaced by society-centric development in contemporary thought. "Social value"—the overall beneficial legacy left for the host society, including the decrease in social exclusion—is used to gauge how effective tourism is. The state preserves its social integrity by including local populations in the tourist value chain, guaranteeing that the advantages of globalization are distributed among all racial and socioeconomic groups.

HOW CULTURAL TOURISM IN AZERBAIJAN SERVES TO SOCIAL COHESION AND MULTICULTURALISM

Cultural tourism serves as a vital "social glue" in the Azerbaijani environment, promoting two main forms of social ties: "bridging" (creating connections between disparate groups) and "bonding" (internal group cohesiveness). Tourism promotes a depolarization process by establishing communal areas for social engagement at religious and historical sites. Visits to places like the ancient Christian temples of Caucasian Albania or the Momine Khatun Mausoleum in Nakhchivan reveal shared historical significance and a sense of national identity among residents from various areas or ethnic origins (Najafov, Aliyeva & Mursaguliyev, 2024, p. 70). By redefining varied history as the nation's communal property rather than the exclusive possession of a single group, this interaction reduces emotional social polarization.

The basis for "integration without assimilation" is provided by the Azerbaijani model of multiculturalism, which is described as both a governmental policy and a way of life (Najafov, 2018). Both local and foreign tourists can benefit from this mutually respectful and predictable experience through cultural tourism. This is accomplished through inclusive hospitality, in which racial and religious minorities are active participants in the business rather than just objects. For example, the Mountain Jews in Red Village (Guba) and the Udin community in Nij actively participate in the tourism industry, ensuring that they maintain their own cultural traditions while continuing to be essential components of the state's socioeconomic strategy (Rajabova, S, 2015, p. 2).

In the face of internal or external obstacles, this kind of inclusion strengthens social integrity and fosters institutional trust. Developing sustainable tourism in the area is a smart way to combat social isolation. The state gives rural inhabitants a cultural "voice" and an economic anchor by including local communities into the tourist value chain. Community-based tourism models that promote a sense of belonging to a single state have been developed as a result of the regeneration of Basqal and Lahic through the restoration of traditional crafts like coppersmithing and Kelaghayi manufacturing. Tourism focused on Ajami Nakhchivani's architectural history in areas like Nakhchivan helps local people to preserve the common past and promotes social cohesiveness.

A narrative of humanism and cultural synthesis is provided by the historical heritage of the Great Silk Road, which is still promoted by contemporary tourist itineraries. Cultural tourism prioritizes common values above ethnic differences by emphasizing how Azerbaijan has traditionally been a crossroads of cultures. By showing that Azerbaijan's strength resides in its diverse yet harmonious cultural legacy, which is a component of national security and internal civil harmony, this wide historical viewpoint works to unite the people. In this way, every encounter between visitors and locals turns into an act of cultural diplomacy that upholds the stability of the state's multicultural paradigm.

THE IMPACT OF COMMUNITY-BASED TOURISM IN DEPOLARIZATION

Community-based tourism serves as a catalyst for economic growth and a means of fostering social cohesion and depolarization in order to lessen social exclusion in local communities.

1. Local communities' economic integration: Community-based tourism keeps local residents from being excluded from economic advantages. In addition to providing locals with an extra source of income, efficient management of tourism flows at cultural heritage sites helps to address the issue of employment.
2. Working places creation and community-based business: The growth of rural and ecological tourism in particular sets the stage for resolving a number of social issues pertaining to unemployment in the areas. For instance, in Khinalig, former shepherds who work as mountain

guides convert the local community into active participants in the tourism chain, or in Lahij, dozens of locals rent their homes to visitors ("village houses").

3. Revival of craftsmanship: Dying artistic sectors are brought back to life by tourists. The well-being of the locals is improved by turning the tannery in Lahij and the kelaghay and khalva production in Basqal into tourism attractions.
4. The possibility of representation: The exclusion of communities from processes of self-expression and decision-making is a fundamental component of social exclusion. These communities have a "voice" to express their distinct identities thanks to community-based cultural tourism. Including Azerbaijan's many ethnic and religious groups—such as the Jewish heritage in Guba or the Udis in the village of Nij—in the tourism process makes them feel like equal players in the nation's overall development plan. The local community is financially motivated to maintain and promote its customs as a result of tourism.
5. Regulation of regional migration: The development of tourism infrastructure and service sectors in regions reduces the tendency of the population, especially young people, to move (migrate) to the capital or to foreign countries. Sources note that the development of tourism creates conditions for the regulation of problems such as urbanization, demography and labor migration in the country.
6. Social tourism and support for vulnerable groups: Social tourism, implemented within the framework of state policy, ensures the right to recreation for low-income families, the disabled and the elderly, preventing their isolation from society. This approach makes the use of recreational resources accessible to all segments of the population
7. Social trust and depolarization: Tourism plays a "bridging" role for communication between people from different regions and social classes. This interaction ncreases the level of tolerance of the population, causes positive changes in people's behavior and worldview. Ultimately, community-based tourism serves as a social glue through projects that meet the material and spiritual interests of local populations in regions.

CONCLUSION

In conclusion, the investigation into Azerbaijan's tourism sector demonstrates that cultural tourism is far more than a branch of the non-oil economy; it is a fundamental strategic instrument for fostering social cohesion and achieving depolarization. By transforming the nation's diverse cultural heritage into shared tourist experiences, Azerbaijan successfully promotes tourism as a "social glue" that facilitates both bonding within specific groups and, more importantly, bridging between different ethnic, religious, and regional communities. The Azerbaijani model of multiculturalism provides a unique framework for inclusive hospitality, where minorities are active subjects in the tourism narrative. This inclusivity translates the state's policy of "integration without assimilation" into a tangible social reality, thereby strengthening social trust and institutional credibility among both citizens and international visitors.

Furthermore, the development of community-based tourism in regions like Nakhchivan, Basqal, and Lahic serves as a vital mechanism to overcome social exclusion. By integrating local populations into the tourism value chain and restoring their traditional crafts and heritage, the state provides an economic anchor that reduces the feeling of isolation in remote areas and reinforces a unified sense of national identity (Azerbaijanism).

Ultimately, the synergy between Azerbaijan's multicultural lifestyle and its strategic tourism initiatives creates a cycle of social integrity. This process not only mitigates affective social polarization but also results in a sustainable and resilient social cohesion. By continuing to invest in "smart tourism" and the preservation of material and spiritual heritage, Azerbaijan ensures that its cultural

diversity remains a primary pillar of national stability and a potent factor of soft power on the global stage

RESOURCES

1. Hillary du Cros. , & B. McKercher (2020). *Cultural Tourism (3rd ed.).* Routledge, 257.
2. Najafov, E. (2018). *President Ilham Aliyev and the Azerbaijani Model of Multiculturalism*. Xalq Qazeti.
3. Najafov, Sh. N. , Aliyeva, S. B. , & Mursaguliyev, M. H. (2024). *Archaeological research in and around the Avey Albanian Temple in 2023*. An Ethnocultural Heritage of Caucasian Albania: Proceedings of the 11th International Conference on Caucasian Albania: Ethnoarchaeology, Written Sources and Historical Monuments, Baku, Azerbaijan, 68-76.
4. Mammadzadeh, I. (2021*). On the Question of Cultural-Historical Epistemology*. Scientific Works/Elmi Eserler, 2- 11.
5. Rajabova, S. (2015) *Multiculturalism lives and is strengthening in Azerbaijan*. AzerNEWS, № 53, 2.

MÖMİNƏ XATUN TÜRBƏSİNİN TURİZM BAXIMDAN ƏHƏMİYYƏTİ

The tourism importance of Momine Khatun Mausoleum

MƏSMƏ CABBAROVA
Masma Jabbarova
mesmecabbarova@ndu. edu. az
https://orcid. org/0009-0005-5777-3893
Naxçıvan Dövlət Universiteti
Nakhchivan State University

XÜLASƏ

Möminə Xatun Türbəsi Azərbaycanın orta əsr memarlıq irsinin ən qiymətli nümunələrindən biridir. XII əsrdə Əcəmi Naxçıvani tərəfindən inşa edilən bu abidə Atabəylər dövrünün siyasi və mədəni gücünü əks etdirir. Türbə Məhəmməd Cahan Pəhləvanın anası Möminə Xatunun xatirəsinə ucaldılmışdır. Məqalədə bu abidənin turizm baxımından əhəmiyyəti araşdırılaraq onun inkişaf perspektivləri, mövcud imkanları və qarşıda duran çətinliklər təhlil edilir. Eyni zamanda, mövzunun seçilməsinin əsas səbəbi Möminə Xatun türbəsinin turizm sektorunda daha effektiv şəkildə təbliğ olunmasına ehtiyacın olmasıdır. Bu cür araşdırmalar vasitəsilə həm yerli, həm də xarici turistlərin diqqətini cəlb etmək və bölgənin sosial-iqtisadi inkişafına dəstək vermək mümkündür.

Açar sözlər: *Möminə Xatun türbəsi, Əcəmi Naxçıvaninin yaradıcılığı, orta əsr Azərbaycan memarlığı, Naxçıvan memarlıq məktəbi, mədəni irs və turizm potensialı*

ABSTRACT

Momine Khatun Mausoleum is one of the most valuable examples of Azerbaijan's medieval architectural heritage. Built in the 12th century by Ajami Nakhchivani, this monument reflects the political and cultural power of the Atabegs period. The mausoleum was erected in memory of Momine Khatun, the mother of Muhammad Jahan Pahlavan. This article examines the tourism significance of the monument, analyzing its development prospects, existing opportunities, and current challenges. At the same time, the main reason for choosing this topic is the need for more effective promotion of the Momine Khatun Mausoleum within the tourism sector. Through such studies, it is possible to attract the attention of both local and foreign tourists and support the socio-economic development of the region.

Keywords: *Momine Khatun Mausoleum, works of Ajami Nakhchivani, medieval Azerbaijani architecture, Nakhchivan architectural school, cultural heritage and tourism potential*

GİRİŞ

Möminə Xatun Türbəsi orta əsr Azərbaycan memarlığının ən möhtəşəm nümunələrindən biri olmaqla yanaşı, həm də Əcəmi Naxçıvani yaradıcılıq dühasının zirvəsi hesab olunur. Bu monumental abidə yalnız memarlıq baxımından deyil, həm də fəlsəfi, dini və estetik xüsusiyyətləri ilə Türk-İslam mədəniyyətinin mühüm incilərindən biri kimi qiymətləndirilir. Türbə XII əsrdə Atabəylər dövlətinin siyasi və mədəni yüksəlişi dövründə inşa edilmiş və dövrün memarlıq ənənələrinin yüksək inkişaf səviyyəsini nümayiş etdirmişdir. Abidənin üzərində yerləşən kitabədən məlum olur ki, türbə 1186-cı ildə Atabəylər hökmdarı Məhəmməd Cahan Pəhləvan tərəfindən anası Möminə xatunun şərəfinə tikdirilmişdir. Bu fakt türbənin yalnız memarlıq abidəsi deyil, həm də siyasi hakimiyyətin və ailə nüfuzunun simvolu olduğunu göstərir (Salamzadə, 1976). Möminə Xatun türbəsi bürcvari türbə memarlığının ən mükəmməl nümunələrindən biri hesab edilir. Abidənin günümüzə qədər qorunub saxlanılmış hissəsinin hündürlüyü 26 metr təşkil etsə də, ilkin formasında xarici günbəz örtüyü ilə birlikdə təxminən 34 metr yüksəkliyə malik olduğu müəyyən edilmişdir. Bu isə türbənin öz dövrü üçün olduqca möhtəşəm mühəndislik nailiyyəti olduğunu sübut edir. Türbənin onbucaqlı plan quruluşu, şaquli kompozisiyası və həndəsi ritmə əsaslanan memarlıq sistemi Naxçıvan memarlıq məktəbinin formalaşdırdığı estetik harmoniyanın mühüm göstəricisidir. Abidənin fasadlarında istifadə olunan firuzəyi kaşı elementləri, həndəsi ornamentlər və kufi xətti ilə işlənmiş kitabələr memarlıqla dekorativ sənətin vəhdətini yaradır (Q. Əliyev, 2007). Türbənin ən diqqətçəkən xüsusiyyətlərindən biri onun epiqrafik yazılarıdır. Abidənin bütün səthinin kufi xətti ilə işlənmiş Quran ayələri ilə bəzədilməsi onu İslam memarlığının

nadir nümunələrindən birinə çevirmişdir. Tarixçi-etnoqraf və arxeoloq Əjdər Ələsgərzadə tərəfindən aparılmış tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, türbənin on üzünün hamısı Qurani-Kərimin 36-cı surəsi olan "Yasin" surəsinin mətnləri ilə haşiyələnmişdir. Surə iki dəfə təkrarlanmaqla abidənin bütün səthinə ritmik şəkildə yerləşdirilmişdir. Yazıların kompozisiya quruluşu xüsusi memarlıq məntiqinə əsaslanır: mətn aşağıdan yuxarı istiqamətlənir, daha sonra üfüqi davam edərək yenidən aşağı enir. Bu üsul abidəyə həm dinamiklik, həm də mənəvi dərinlik qazandırır (Ələsgərzadə, 1949). "Yasin" surəsinin seçilməsi məsələsi tədqiqatçılar arasında xüsusi maraq doğurmuşdur. Memarlıq üzrə fəlsəfə doktoru Qadir Əliyev bu məsələyə dair geniş izah vermişdir. Onun fikrincə, surənin seçilməsinin ilk səbəbi türbənin qəbirüstü abidə olması ilə bağlıdır. İslam dünyasında "Yasin" surəsi ölülərin ruhuna oxunan müqəddəs surələrdən biri hesab olunur və insanın faniliyi ilə əbədiyyət arasındakı əlaqəni simvolizə edir. Bu baxımdan surənin türbə üzərində həkk olunması Möminə xatunun xatirəsinin əbədiləşdirilməsi məqsədi daşıyır (Q. Əliyev, 2007). Tədqiqatçının qeyd etdiyi ikinci səbəb türbənin üzərində yerləşən məşhur fəlsəfi ifadə ilə bağlıdır: "Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar". Bu fikir insan həyatının keçiciliyini, lakin onun yaratdığı mənəvi və mədəni irsin əbədiliyini ifadə edir. Qadir Əliyevin fikrincə, bu ideya "Yasin" surəsinin 12-ci ayəsi ilə sıx bağlıdır. Həmin ayədə insanların etdikləri əməllərin və qoyduqları izlərin ilahi yaddaşda qorunub saxlanıldığı vurğulanır. Beləliklə, türbə yalnız bir məzar tikilisi deyil, həm də insanın yaratdığı əsərlərlə əbədiyyətə qovuşmasının simvoludur (Qurani-Kərim; Əliyev, 2007). Alimin üçüncü yanaşması isə türbənin memarlıq quruluşu ilə bağlıdır. O, abidənin kosmik harmoniya və kainat nizamını əks etdirən memarlıq sisteminə malik olduğunu bildirir və bunu "Yasin" surəsinin 33–36-cı ayələri ilə əlaqələndirir. Həmin ayələrdə təbiətin dirilməsi, kainatdakı nizam və yaradılış harmoniyası təsvir edilir. Möminə Xatun türbəsinin həndəsi quruluşu, ritmik ornamentləri və simmetrik kompozisiyası da məhz bu ilahi harmoniyanın memarlıq ifadəsi kimi çıxış edir. Bu xüsusiyyət türbəni yalnız memarlıq nümunəsi deyil, həm də fəlsəfi-dini düşüncənin daş üzərində təcəssümü səviyyəsinə yüksəldir (Q. Əliyev, 2015). Möminə Xatun Türbəsi bu gün də Azərbaycan xalqının milli-mədəni kimliyini əks etdirən ən mühüm abidələrdən biri hesab olunur. Abidə Naxçıvan memarlıq məktəbinin yüksək inkişaf səviyyəsini nümayiş etdirməklə yanaşı, Türk-İslam memarlıq irsinin dünya miqyasında tanınmasına mühüm töhfə vermişdir. Türbənin memarlıq xüsusiyyətləri, kitabələri və ideoloji məzmunu onun yalnız tarixi abidə deyil, həm də bəşəri mədəniyyətin qiymətli irs nümunəsi olduğunu sübut edir (Səfərli, 2017; Yazar, 2012).

ƏSAS HİSSƏ

Müasir dövrdə turizm sektorunda turistlərin seçimlərinə təsir edən əsas amillərdən biri vizual təsir gücü və estetik cazibədarlıqdır. Bu baxımdan Möminə Xatun Türbəsi yalnız tarixi-mədəni abidə kimi deyil, həm də vizual turizmin mühüm mərkəzlərindən biri kimi çıxış edir. Abidənin memarlıq quruluşu, ornament sistemi və rəng harmoniyası turistlərdə güclü emosional təsir yaradır. Xüsusilə türbənin onbucaqlı forması üzərində yerləşdirilmiş mürəkkəb həndəsi ornamentlər Şərq memarlığının ən incə sənət nümunələrindən hesab olunur. Hər bir səthin fərqli ritm və kompozisiyaya malik olması fotoqraflar, memarlar və sənətşünaslar üçün abidəni tükənməz vizual araşdırma mənbəyinə çevirir. Bu baxımdan türbə həm memarlıq turizmi, həm də vizual-mədəni turizm üçün mühüm potensiala malikdir (Salamzadə, 1976). Abidənin üzərində firuzəyi kaşılarla işlənmiş kufi xətti nümunələri isə onun estetik dəyərini daha da artırır. Əcəmi Naxçıvani tərəfindən tətbiq edilmiş xəttatlıq elementləri memarlıq və dini sənətin vəhdətini nümayiş etdirir. Kufi yazılarının həndəsi ornamentlərlə harmonik şəkildə birləşdirilməsi abidəyə mistik və monumental görünüş qazandırmışdır. Günəş işığının müxtəlif saatlarda kaşılar üzərində yaratdığı rəng keçidləri türbənin vizual təsirini daha da gücləndirir. Bu xüsusiyyətlər xüsusilə rəqəmsal turizm və sosial media dövründə abidənin beynəlxalq səviyyədə tanıdılması üçün mühüm rol oynayır. Müasir

turistlər üçün "instagrammable destination" anlayışı böyük əhəmiyyət daşıdığından, Möminə Xatun türbəsi Azərbaycanın ən güclü vizual turizm simvollarından biri hesab oluna bilər (Q. Əliyev, 2007). Türbənin mühəndislik xüsusiyyətləri də turizm baxımından xüsusi maraq doğurur. Səkkiz əsrdən artıq müddət keçməsinə baxmayaraq, abidənin əsas konstruksiyasının qorunub saxlanılması orta əsr Azərbaycan memarlarının yüksək mühəndislik biliyinə malik olduğunu sübut edir. Türbənin ağırlıq balansı, həndəsi dayanıqlıq sistemi və tikinti texnologiyası memarlıq turizmi ilə maraqlanan xarici tədqiqatçılar üçün diqqət mərkəzindədir. Bu xüsusiyyət abidəni yalnız tarixi deyil, həm də texniki irs nümunəsi kimi təqdim etməyə imkan verir. Müasir dövrdə "architectural tourism" anlayışının geniş yayılması fonunda Möminə Xatun türbəsi beynəlxalq elmi və mədəni marşrutlara daxil edilə biləcək potensiala malikdir (Yazar, 2012). Turizm sənayesində mühüm rol oynayan amillərdən biri də "storytelling", yəni hekayə üzərində qurulan təqdimat modelidir. Müasir turist artıq yalnız bir tikilini görmək deyil, onun arxasında dayanan tarixi, emosional və mədəni məzmunu öyrənmək istəyir. Möminə Xatun Türbəsi bu baxımdan olduqca güclü narrativ potensiala malikdir. Türbə Atabəylər dövlətinin siyasi qüdrətini, hökmdar ailəsinin nüfuzunu və bir oğulun anasına olan ehtiramını simvolizə edir. Eyni zamanda, bu abidə Əcəmi Naxçıvani dühasının və Şərq intibahı dövründə formalaşmış yüksək memarlıq mədəniyyətinin canlı nümunəsidir. Xarici turist üçün bu abidə sadəcə bir memarlıq nümunəsi deyil, həm də Azərbaycanın dövlətçilik tarixini, İslam mədəniyyətini və orta əsr Şərq sivilizasiyasını anlamağa imkan verən mədəni platformadır (Səfərli, 2017). Mədəni turizmin inkişafında beynəlxalq təşkilatların rolu da mühüm əhəmiyyət daşıyır. Möminə Xatun türbəsinin UNESCO Dünya İrsi siyahısına namizəd göstərilməsi onun beynəlxalq səviyyədə tanınması baxımından xüsusi strateji əhəmiyyətə malikdir. UNESCO statusu dünya turizm bazarında abidənin nüfuzunu artırmaqla yanaşı, onun qorunması və beynəlxalq səviyyədə təbliği üçün də geniş imkanlar yaradır. Tədqiqatçılar qeyd edirlər ki, UNESCO siyahısına daxil edilən mədəni irs obyektləri yerləşdiyi regiona turist axınının əhəmiyyətli dərəcədə artmasına səbəb olur. Bu baxımdan Möminə Xatun türbəsinin tam şəkildə UNESCO Dünya İrsi siyahısına daxil edilməsi Naxçıvan turizminin inkişafına ciddi töhfə verə bilər (Q. Əliyev, 2015). Abidənin Naxçıvanqala Tarix-Memarlıq Muzey Kompleksi ilə birlikdə təqdim olunması isə turistlər üçün vahid mədəni marşrut formalaşdırır. Bu inteqrasiya turistlərə həm Naxçıvanın qədim şəhərsalma tarixini, həm də orta əsr memarlıq irsini eyni məkanda öyrənmək imkanı yaradır. Kompleks yanaşma nəticəsində turistlər təkcə bir abidəni ziyarət etmir, bütöv bir tarixi-mədəni mühitlə tanış olurlar. Bu isə regionun turizm potensialının artırılması, mədəni irsin beynəlxalq səviyyədə tanıdılması və yerli iqtisadi inkişaf baxımından mühüm əhəmiyyət kəsb edir (Hacıfəxrəddin Səfərli, 2017; Əbdülvahab Salamzadə, 1976).

MÜZAKİRƏ

Möminə Xatun Türbəsi yalnız tarixi-mədəni irs nümunəsi kimi deyil, həm də regional iqtisadi inkişafın mühüm stimullaşdırıcı amillərindən biri kimi qiymətləndirilə bilər. Müasir dövrdə mədəni turizm iqtisadiyyatın ən sürətlə inkişaf edən sahələrindən biri hesab olunur və tarixi abidələrin turizm dövriyyəsinə daxil edilməsi yerli iqtisadi aktivliyin artmasına birbaşa təsir göstərir. Möminə Xatun türbəsinin turizm potensialının genişləndirilməsi Naxçıvan şəhərində xidmət sektorunun, kiçik sahibkarlığın və yaradıcı sənaye sahələrinin inkişafına mühüm töhfə verə bilər. Xüsusilə abidənin beynəlxalq səviyyədə tanıdılması regionun iqtisadi cəlbediciliyini artıraraq yerli əhalinin məşğulluq imkanlarını genişləndirir (Səfərli, 2017). Türbənin memarlıq ornamentləri və estetik xüsusiyyətləri suvenir sənayesinin inkişafı üçün də mühüm baza yaradır. Abidənin üzərindəki həndəsi naxışların və kufi yazılarının xalçaçılıq, keramika, misgərlik və toxuculuq sənətində tətbiqi milli dekorativ-tətbiqi sənətin yenidən canlandırılmasına şərait yarada bilər. Möminə Xatun türbəsinin motivlərini əks etdirən suvenirlər turistlər üçün həm mədəni xatirə vasitəsi, həm də Azərbaycanın milli irsini tanıdan məhsullar rolunu oynayır. Bu istiqamətdə istehsal

edilən xalçalar, ipək şərflər, keramika nümunələri və əl işləri yerli sənətkarların gəlirlərinin artmasına və ənənəvi sənətkarlığın qorunmasına xidmət edir. Beləliklə, abidə mədəni iqtisadiyyatın formalaşmasında mühüm resurs funksiyasını yerinə yetirir (Q. Əliyev, 2015). Turizmin inkişafı eyni zamanda şəhər infrastrukturu və yaşayış mühitinin yenilənməsinə də təsir göstərir. Möminə Xatun türbəsi ətrafında yerləşən qədim məhəllələrin bərpası və onların turizm marşrutlarına daxil edilməsi "etno-turizm" modelinin inkişafına imkan yarada bilər. Tarixi üslubda fəaliyyət göstərən hostel və kiçik otellərin yaradılması turistlərə yerli mədəni mühiti daha yaxından hiss etmək imkanı verir. Bu yanaşma həm tarixi şəhər mühitinin qorunmasına, həm də regionun turizm gəlirlərinin artmasına xidmət edir. Dünyanın bir çox tarixi şəhərlərində olduğu kimi, Naxçıvanda da qədim memarlıq mühitinin turizm iqtisadiyyatına inteqrasiyası davamlı inkişaf baxımından mühüm perspektivlər açır (Salamzadə, 1976). Möminə Xatun Türbəsi potensialı həmçinin United Nations tərəfindən müəyyən edilmiş Dayanıqlı İnkişaf Məqsədləri (SDG) ilə də sıx əlaqəlidir. İlk növbədə, bu abidənin turizm dövriyyəsində fəal şəkildə istifadəsi SDG 8 — "Layiqli iş və iqtisadi artım" məqsədinə uyğun gəlir. Turizm sektorunun genişlənməsi yeni iş yerlərinin yaranmasına, xidmət sahələrinin inkişafına və region iqtisadiyyatının güclənməsinə səbəb olur. Xüsusilə bələdçilik, otelçilik, nəqliyyat, ictimai iaşə və sənətkarlıq sahələrində məşğulluğun artması iqtisadi dayanıqlığın təmin edilməsində mühüm rol oynayır. Abidənin qorunması və davamlı istifadəsi SDG 11 — "Dayanıqlı şəhərlər və icmalar" məqsədi ilə də birbaşa əlaqəlidir. Tarixi-mədəni irsin mühafizəsi şəhərlərin tarixi kimliyinin qorunmasına və mədəni davamlılığın təmin edilməsinə xidmət edir. Möminə Xatun türbəsi Naxçıvanın memarlıq simvolu olmaqla yanaşı, regionun tarixi yaddaşını yaşadan əsas irs nümunələrindən biridir. Bu baxımdan onun bərpası, qorunması və beynəlxalq səviyyədə tanıdılması şəhərin davamlı inkişaf strategiyasının mühüm komponenti hesab oluna bilər (Ələsgərzadə, 1949). Turizmin düzgün idarə olunması və mədəni irsin məsuliyyətli istifadəsi isə SDG 12 — "Məsuliyyətli istehlak və istehsal" məqsədinə uyğun gəlir. Tarixi abidələrin həddindən artıq istismar edilmədən qorunması, turizm fəaliyyətlərinin ekoloji və mədəni balans əsasında həyata keçirilməsi mühüm əhəmiyyət daşıyır. Bu baxımdan Möminə Xatun türbəsinin turizm strategiyası davamlı idarəetmə prinsiplərinə əsaslanmalı, həm mədəni irsin qorunması, həm də iqtisadi faydanın əldə olunması arasında balans yaradılmalıdır. Abidənin elmi və tədris əhəmiyyəti isə SDG 4 — "Keyfiyyətli təhsil" məqsədi ilə sıx bağlıdır. Möminə Xatun Türbəsi tarix, memarlıq, incəsənət, epiqrafika və mədəniyyətşünaslıq sahələrində tədqiqat aparan alimlər üçün mühüm elmi mənbə rolunu oynayır. Universitet tələbələrinin, tədqiqatçıların və beynəlxalq mütəxəssislərin abidə üzərində apardıqları araşdırmalar Azərbaycanın orta əsr memarlıq məktəbinin dünya elminə inteqrasiyasına şərait yaradır. Bu baxımdan türbə yalnız turizm obyekti deyil, həm də elmi-mədəni təhsil platforması kimi xüsusi əhəmiyyət daşıyır (Hacıfəxrəddin Səfərli, 2017; Qadir Əliyev, 2007).

NƏTİCƏ

Möminə Xatun türbəsi turizm baxımından Azərbaycanın ən dəyərli və perspektivli mədəni irs obyektlərindən biri hesab olunur. Onun unikal memarlıq quruluşu, zəngin bədii ornamentləri və dərin tarixi məzmunu həm yerli, həm də xarici turistlər üçün güclü cəlbedicilik yaradır. Abidə yalnız vizual baxımdan deyil, həm də arxasında dayanan tarixi hekayə və mənəvi məna ilə turizmdə "storytelling" imkanlarını

genişləndirir. Bu türbə mədəni, tarixi və memarlıq turizminin inkişafına təkan verməklə yanaşı, regionda iqtisadi canlanmaya da səbəb olur. Turist axınının artması xidmət sektorunun, suvenir istehsalının və infrastrukturun inkişafına müsbət təsir göstərir. Eyni zamanda, beynəlxalq səviyyədə tanınma (xüsusilə UNESCO siyahısına daxil olma perspektivi) onun turizm əhəmiyyətini daha da artırır. Möminə Xatun türbəsi təkcə tarixi abidə deyil, həm də turizmin inkişafı üçün strateji resurs olub, Azərbaycanın mədəni irsinin dünyaya tanıdılmasında mühüm rol oynayır.

ƏDƏBİYYAT SİYAHISI

1. Əbdülvahab Salamzadə. Əcəmi Əbubəkr oğlu və Naxçıvan memarlıq abidələri. Bakı, İşıq, 1976
2. Əjdər Ələsgərzadə. Naxçıvan diyarının qədim memarlıq abidələrinin kitabələri. "Azərbaycan SSR Elmlər Akademiyasının xəbərləri", № 5, Bakı, 1949
3. Hacıfəxrəddin Səfərli. Naxçıvanın Türk-İslam mədəniyyəti abidələri. Naxçıvan, 2017
4. Qadir Əliyev. Başlanğıcların başlanğıcı: Naxçıvan-Marağa memarlıq formalarının mahiyyəti. İstanbul, Akademi Titiz Yayınları, 2015
5. Qadir Əliyev. Memar Əcəmi Naxçıvani yaradıcılığında ahəngdarlıq. Bakı, "Şərq-qərb", 2007
6. Qurani-Kərim
7. Turqay Yazar. Nahcivanda Türk mimarisi (Başlangıcından 19. yüzyılın sonuna kadar)
8. Vəli Baxşəliyev. Naxçıvanın orta əsr şəhərləri və memarlıq irsi. Naxçıvan, Əcəmi Nəşriyyatı, 2010.
9. Azərbaycan Milli Elmlər Akademiyası. Naxçıvan abidələri ensiklopediyası. Bakı, 2008.
10. İsmayıl Hacıyev. Naxçıvan tarixindən səhifələr. Bakı, Elm, 1999.
11. Oktay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti. Bakı, Şərq-Qərb, 2007.
12. Ernst Diez. Persian Art. London, 1964.
13. Godard, André. The Art of Iran. New York, 1965.

TURİZM MÜƏSSİSƏLƏRİNİN RƏQABƏTQABİLİYYƏTİNƏ TƏSİR EDƏN AMİLLƏR

Factors affecting the competitiveness of tourism enterprises

MƏTANƏT RƏSULOVA[1,2]
Matanat Rasulova[1,2]
matanatrasulova@bsu. edu. az
matanat. rasulova@naa. edu. az

NİHAD HÜSEYNOV[1]
Nihad Huseynov[1]
nihad. huseynov2004@mail. ru

[1]*Bakı Dövlət Universiteti*
[1]*Baku State University*
[2]*Milli Aviasiya Akademiyası*
[2]*National Aviation Academy*

XÜLASƏ

Turizm müəssisələrinin rəqabətqabiliyyətinə təsir edən amilləri ümumi şəkildə qiymətləndirdikdə görünür ki, bu qabiliyyət bir neçə əsas istiqamətin birgə təsiri nəticəsində formalaşır. Müəssisənin bazarda uğurlu mövqe tutması yalnız bir üstünlüyə deyil, xidmət, idarəetmə və bazar yanaşmalarının uyğun şəkildə qurulmasına bağlıdır. Ən önəmli amillərdən biri xidmət səviyyəsidir. Müştərinin əldə etdiyi ümumi təcrübə onun müəssisəyə münasibətini və gələcək seçimlərini müəyyən edir. Bununla yanaşı, qiymət yanaşması da mühüm rol oynayır, çünki qiymət həm alıcı davranışına təsir edir, həm də müəssisənin gəlirliliyini formalaşdırır. Digər tərəfdən, marketinq fəaliyyəti və brendin gücü müəssisənin bazarda tanınmasını təmin edir. Düzgün təqdimat və effektiv kommunikasiya nəticəsində müəssisə rəqiblərdən seçilə bilir və müştəri etibarını qazanır. Müasir şəraitdə texnologiyalardan istifadə də rəqabət üstünlüyü yaradan əsas amillərdən birinə çevrilmişdir, çünki bu, xidmətin daha sürətli və rahat təqdim olunmasına imkan verir. Bununla yanaşı, müəssisədaxili amillər – xüsusilə işçi heyətinin peşəkarlığı və idarəetmə səviyyəsi – bütün bu faktorların effektiv işləməsini təmin edir. Resursların düzgün bölüşdürülməsi və proseslərin səmərəli təşkili rəqabət qabiliyyətinin davamlı olmasına şərait yaradır.
Nəticə etibarilə, turizm müəssisələrinin rəqabətqabiliyyəti müxtəlif amillərin qarşılıqlı təsiri nəticəsində yaranan kompleks göstəricidir. Bu amillərin hər birinin balanslı və məqsədyönlü şəkildə idarə olunması müəssisəyə bazarda uzunmüddətli üstünlük qazandırır.

***Açar sözlər**: turizm, rəqabət qabiliyyəti, xidmət keyfiyyəti, qiymət strategiyası, texnologiya, insan resursları, müştəri məmnuniyyəti.*

ABSTRACT

When evaluating the factors influencing the competitiveness of tourism enterprises, it becomes evident that this capability is formed through the combined impact of several key areas. A company's success in the market depends not on a single advantage, but on the effective alignment of service, management, and market-oriented approaches. One of the most important factors is the level of service. The overall experience gained by the customer determines their perception of the enterprise and influences future choices. At the same time, pricing policy plays a significant role, as it affects both consumer behavior and the company's revenue generation. On the other hand, marketing activities and brand strength ensure the enterprise's visibility in the market. Through proper positioning and effective communication, a company can differentiate itself from competitors and gain customer trust. In modern conditions, the use of technology has also become a key factor in achieving competitive advantage, as it enables faster and more convenient service delivery. At the same time, internal factors — particularly the professionalism of staff and the level of management — ensure the effective functioning of all these elements. Efficient allocation of resources and proper organization of processes contribute to the sustainability of competitiveness. In conclusion, the competitiveness of tourism enterprises is a complex indicator formed through the interaction of multiple factors. The balanced and purposeful management of these factors provides the enterprise with long-term advantages in the market.

***Keywords**: tourism, competitiveness, service quality, pricing strategy, technology, human resources, customer satisfaction.*

GİRİŞ

Müasir iqtisadi sistemdə turizm sektoru dinamik inkişaf edən və yüksək rəqabət səviyyəsi ilə xarakterizə olunan sahələrdən biri kimi çıxış edir. Qloballaşma, texnoloji inkişaf və istehlakçı davranışlarının dəyişməsi turizm müəssisələrinin fəaliyyət prinsiplərinə birbaşa təsir göstərmişdir. Bu dəyişikliklər fonunda müəssisələr yalnız xidmət təqdim edən subyektlər deyil, eyni zamanda kompleks təcrübə yaradan təşkilatlar kimi formalaşmağa başlamışdır.

Ənənəvi yanaşmalarda rəqabət üstünlüyü əsasən qiymət faktoruna əsaslansa da, müasir dövrdə bu yanaşma kifayət etmir. Müştəri məmnuniyyəti, xidmətin fərdiləşdirilməsi və rəqəmsal həllərin tətbiqi daha önəmli amillər kimi çıxış edir. Bu isə turizm müəssisələrinin rəqabət qabiliyyətinə sistemli və çoxölçülü yanaşmanı zəruri edir.

Turizm müəssisələrinin rəqabətqabiliyyətinin mahiyyəti

Turizm müəssisələrinin rəqabətqabiliyyətinin mahiyyəti onların dəyişkən və yüksək rəqabətli bazar şəraitində davamlı şəkildə üstün mövqe qazanmaq və bu mövqeni qorumaq qabiliyyətini ifadə edir. Bu anlayış yalnız qiymət amili ilə məhdudlaşmır, daha çox müştəri üçün yaradılan ümumi dəyər və strateji idarəetmə yanaşması ilə bağlıdır (Porter, 1985; Hassan, 2000).

Turizm sahəsində məhsulun əsas xüsusiyyəti onun qeyri-maddi olmasıdır və bu səbəbdən müştəri faktiki olaraq xidmət deyil, təcrübə əldə edir. Bu kontekstdə rəqabətqabiliyyət müəssisənin müştəri gözləntilərini qarşılamaq və ya aşmaq bacarığı ilə ölçülür. Xidmət keyfiyyətinin sabitliyi və müştəri məmnuniyyəti burada əsas rol oynayır (Kotler et al. , 2017; Grönroos, 2007). Rəqabətqabiliyyətin mahiyyətində mühüm elementlərdən biri də fərqləndirmədir. Turizm müəssisəsi bazarda mövcud olan oxşar təkliflərdən seçilmək üçün unikal xidmətlər və ya konsepsiyalar təqdim etməlidir. Bu, həm məhsul dizaynında, həm də xidmət təqdimetmə üsullarında özünü göstərə bilər (Porter, 1985; Ritchie & Crouch, 2003). Bundan əlavə, daxili idarəetmə və resursların effektiv istifadəsi də rəqabət üstünlüyünün formalaşmasında əhəmiyyətlidir. İnsan resurslarının peşəkarlığı, əməliyyat proseslərinin optimallaşdırılması və texnologiyaların tətbiqi müəssisənin bazardakı mövqeyini gücləndirir (Barney, 1991; Buhalis & Law, 2008).

Müasir dövrdə rəqəmsallaşma və innovasiya turizm müəssisələrinin rəqabət qabiliyyətini müəyyən edən əsas amillərdən biridir. Onlayn platformalar, rezervasiya sistemləri və müştəri məlumatlarının analizi müəssisələrə daha çevik və effektiv fəaliyyət göstərmək imkanı yaradır (Buhalis & Law, 2008; Sigala, 2018). Eyni zamanda, brend imici və reputasiya turizm sektorunda kritik əhəmiyyət daşıyır. Müştərilər qərar qəbul edərkən digər istifadəçilərin rəylərinə və ümumi imicə əsaslandıqları üçün etibarlı brend uzunmüddətli rəqabət üstünlüyü təmin edir (Kotler et al. , 2017; Keller, 2013).

Nəticə etibarilə, turizm müəssisələrinin rəqabətqabiliyyətinin mahiyyəti müştəri yönümlü dəyər yaratmaq, xidmət keyfiyyətini təmin etmək, bazarda fərqlənmək, resursları səmərəli idarə etmək və innovativ yanaşmalar tətbiq etməklə davamlı üstünlük əldə etməkdən ibarətdir. Bu proses dinamik xarakter daşıyır və davamlı inkişaf tələb edir (Ritchie & Crouch, 2003; Hassan, 2000).

Xidmət keyfiyyəti və onun formalaşması

Xidmət keyfiyyəti turizm müəssisələrinin fəaliyyətində əsas göstəricilərdən biri kimi çıxış edir və müştərinin gözləntiləri ilə real xidmət təcrübəsi arasındakı uyğunluq səviyyəsini əks etdirir. Bu uyğunluq nə qədər yüksək olarsa, müştəri məmnuniyyəti də bir o qədər artır. Xidmətin qiymətləndirilməsi isə daha çox subyektiv xarakter daşıyır, çünki hər bir müştəri eyni xidməti fərqli şəkildə qəbul edə bilər və bu, onun əvvəlki təcrübəsi və gözləntiləri ilə bağlıdır (Parasuraman et al. , 1988; Zeithaml et al. , 2009).

Turizm sektorunda xidmət keyfiyyətinin formalaşmasına təsir edən əsas amillərdən biri xidmətin qeyri-maddi xarakteridir. Xidmət əvvəlcədən istehsal edilə və saxlanıla bilmədiyi üçün onun keyfiyyəti birbaşa təqdim olunduğu anda müəyyən olunur. Bu xüsusiyyət həm də xidmətin istehsalı və istehlakının eyni vaxtda baş verməsi ilə bağlıdır və nəticədə insan faktorunun rolu daha da artır (Grönroos, 2007). Xidmət keyfiyyəti bir neçə qarşılıqlı əlaqəli komponentlər əsasında formalaşır. Bunlara xidmətin etibarlı və səhvsiz göstərilməsi, müştəri sorğularına operativ reaksiya verilməsi, personalın peşəkarlığı və davranış mədəniyyəti, müştəriyə fərdi yanaşma və xidmət mühitinin ümumi vəziyyəti daxildir. Bu komponentlər ayrı-ayrılıqda deyil, vahid təcrübə kimi

qiymətləndirilir və onların hər hansı birində yaranan problem ümumi keyfiyyət səviyyəsinə mənfi təsir göstərə bilər (Kotler et al. , 2017).

Xidmət keyfiyyətinin formalaşması planlı və ardıcıl proses tələb edir. İlk mərhələdə müəssisə bazarı analiz etməli və hədəf müştəri qruplarının ehtiyaclarını müəyyənləşdirməlidir. Daha sonra bu ehtiyaclara uyğun xidmət standartları hazırlanır və əməliyyat prosesləri həmin standartlara uyğun qurulur. Bu mərhələdə işçi heyətinin düzgün seçilməsi və onların peşəkar bacarıqlarının inkişaf etdirilməsi xüsusi əhəmiyyət daşıyır (Grönroos, 2007; Kotler et al. , 2017). Sonrakı mərhələdə xidmətin icrası və keyfiyyətə nəzarət mexanizmləri ön plana çıxır. Müştəri rəylərinin toplanması, şikayətlərin sistemli şəkildə təhlili və xidmət proseslərinin davamlı olaraq təkmilləşdirilməsi müəssisənin keyfiyyət səviyyəsini yüksəltməyə imkan verir. Bu yanaşma xidmət keyfiyyətinin statik deyil, dinamik və inkişaf edən bir sistem olduğunu göstərir (Zeithaml et al. , 2009).

Müasir dövrdə texnologiyaların tətbiqi xidmət keyfiyyətinin formalaşmasında mühüm rol oynayır. Onlayn rezervasiya sistemləri, müştəri münasibətlərinin idarə olunması (CRM) və rəqəmsal xidmət kanalları həm xidmətin sürətini artırır, həm də insan səhvlərini minimuma endirir. Bu isə müştəri məmnuniyyətinə müsbət təsir göstərir və müəssisənin bazarda mövqeyini gücləndirir (Buhalis & Law, 2008).

Nəticə etibarilə, xidmət keyfiyyəti turizm müəssisəsində ayrı-ayrı əməliyyatların deyil, bütün idarəetmə sisteminin nəticəsi kimi formalaşır. Müştəri gözləntilərinin düzgün anlaşılması, xidmət standartlarının tətbiqi, insan resurslarının inkişafı və texnoloji həllərin inteqrasiyası bu prosesin əsas elementləridir. Bu amillərin effektiv şəkildə idarə olunması müəssisənin rəqabətqabiliyyətinin təmin edilməsində həlledici rol oynayır (Parasuraman et al. , 1988; Grönroos, 2007).

Qiymət siyasətinin iqtisadi mahiyyəti

Qiymət siyasəti müəssisənin iqtisadi fəaliyyətində əsas idarəetmə alətlərindən biri kimi çıxış edir və məhsul və ya xidmətin hansı səviyyədə qiymətlə bazara təqdim olunacağını müəyyən edir. Onun iqtisadi mahiyyəti müəssisənin xərclərinin ödənilməsi, mənfəətin formalaşdırılması və bazar mövqeyinin qorunması kimi məqsədlərin uzlaşdırılmasında ifadə olunur. Bu baxımdan qiymət yalnız rəqəm deyil, müəssisənin ümumi strategiyasının bir hissəsidir (Kotler et al. , 2017; Nagle & Müller, 2018).

Qiymət iqtisadi kateqoriya kimi tələb və təklif münasibətlərinin nəticəsi olaraq formalaşır. Müəssisə qiyməti müəyyən edərkən bazardakı alıcıların ödəmə qabiliyyətini, rəqiblərin davranışını və ümumi iqtisadi şəraiti nəzərə almalıdır. Qiymət səviyyəsi dəyişdikcə həm satış həcmi, həm də gəlir göstəriciləri dəyişir, bu isə onun bazar mexanizmində tənzimləyici rol oynadığını göstərir (Samuelson & Nordhaus, 2010). Qiymət siyasətinin iqtisadi mahiyyətində mühüm yer tutan elementlərdən biri də dəyər yanaşmasıdır. Müəssisə yalnız istehsal və xidmət xərclərinə əsaslanaraq deyil, müştərinin məhsula verdiyi fayda və qəbul etdiyi dəyər əsasında qiymət formalaşdırmalıdır. Bu yanaşma qiymətin bazar reallıqlarına daha uyğun olmasına və müştəri tərəfindən daha asan qəbul edilməsinə şərait yaradır (Kotler et al. , 2017).

Eyni zamanda qiymət siyasəti müəssisənin maliyyə dayanıqlığını təmin edən əsas mexanizmlərdən biridir. Qiymət elə səviyyədə müəyyən edilməlidir ki, həm cari xərclər qarşılanmalı, həm də müəssisə üçün kifayət qədər mənfəət yaransın. Bu, uzunmüddətli fəaliyyətin davamlılığı üçün vacib şərtdir (Nagle & Müller, 2018). Qiymət siyasəti rəqabət mühitində müəssisənin davranışını da müəyyən edir. Müəssisə ya aşağı qiymət strategiyası ilə daha geniş bazar payı qazanmağa çalışa bilər, ya da yüksək keyfiyyət və əlavə dəyər təqdim etməklə daha yüksək qiymət tətbiq edə bilər. Seçilən yanaşma müəssisənin bazardakı mövqeyinə və hədəf auditoriyasına uyğun olmalıdır (Porter, 1985).

Bununla yanaşı, qiymət siyasəti istehlakçı davranışına təsir edən mühüm vasitədir. Müxtəlif endirimlər, aksiyalar və çevik qiymət modelləri alıcıların qərarvermə prosesinə təsir göstərərək satışların artmasına səbəb ola bilər. Bu isə qiymətin yalnız iqtisadi deyil, həm də marketinq aləti

olduğunu göstərir (Kotler et al. , 2017). Nəticə etibarilə, qiymət siyasətinin iqtisadi mahiyyəti müəssisənin gəlir əldə etməsi, bazarda rəqabət aparması və müştəri davranışına təsir göstərməsi kimi funksiyaların vəhdətində özünü göstərir. Bu siyasətin düzgün qurulması müəssisənin maliyyə sabitliyini və uzunmüddətli inkişafını təmin edən əsas amillərdən biridir (Samuelson & Nordhaus, 2010; Nagle & Müller, 2018).

Marketinq və brend formalaşması

This study empirically analyzes the impact of climate change on cultural heritage sites and the implementation level of sustainable tourism strategies, focusing on the cases of Azerbaijan and Kazakhstan. Within the scope of the research, surveys were conducted among respondents in both countries, and the obtained data were evaluated using descriptive statistical methods. Concurrently, the empirical findings were enriched through qualitative interviews with experts representing the fields of cultural heritage, tourism, and geology. The results indicate that the impact of climate change on the cultural heritage and tourism sectors is widely recognized in both countries; however, the level of perception and management approaches differ. While a higher level of awareness and a more systematic approach are observed in Kazakhstan, the approach in Azerbaijan is more practical and observation-based. The findings of the study reaffirm the vital importance of integrating climate risks into the formulation of sustainable tourism strategies.

Keywords: *Climate change; cultural heritage; sustainable tourism; empirical analysis; Azerbaijan; Kazakhstan; climate risks.*

GİRİŞ

İqlim dəyişmələri müasir dövrdə yalnız ekoloji deyil, həm də iqtisadi və sosial sistemlərə təsir edən kompleks qlobal problem kimi çıxış edir. Bu proseslərin təsiri xüsusilə mədəni irs obyektləri və turizm sektoru üçün daha həssas hesab olunur, çünki bu sahələr birbaşa təbii mühit və iqlim şəraiti ilə bağlıdır. Temperatur artımı, yağıntı rejiminin dəyişməsi və ekstremal hava hadisələrinin intensivləşməsi nəticəsində mədəni irs obyektlərinin fiziki vəziyyətində aşınma, eroziya və struktur zəifləmələri müşahidə olunur [5; 6]. Eyni zamanda, bu dəyişikliklər turizm fəaliyyətinin mövsümi və coğrafi strukturuna da təsir göstərərək yeni adaptasiya ehtiyacları yaradır [10; 11]. Mövcud tədqiqatlar göstərir ki, iqlim dəyişmələri ilə bağlı risklərin turizm və mədəni irs idarəetmə strategiyalarına inteqrasiyası artıq zəruri istiqamətə çevrilmişdir. Lakin bir sıra hallarda nəzəri yanaşmalarla praktik tətbiqlər arasında uyğunsuzluq qalmaqdadır [4; 8]. Bu baxımdan, xüsusilə inkişaf etməkdə olan ölkələrdə empirik məlumatlara əsaslanan tədqiqatların aparılması aktualdır.

Azərbaycanda aparılan müşahidələr və ekspert rəyləri göstərir ki, iqlim dəyişmələrinin təsiri artıq konkret hallarda özünü büruzə verir. Məsələn, intensiv yağıntılar və temperatur dəyişiklikləri nəticəsində mədəni irs obyektlərində eroziya və struktur zədələnmələri artmışdır [5]. Bununla yanaşı, geoloji proseslərin güclənməsi və turizm axınının dəyişməsi kimi amillər bu təsirləri daha da mürəkkəbləşdirir [7; 12]. Qazaxıstan nümunəsində aparılan empirik tədqiqatlar isə oxşar tendensiyaların regionlararası xarakter daşıdığını göstərir [14]. Bu tədqiqatın məqsədi iqlim dəyişmələrinin mədəni irs obyektlərinə təsirini və bu çərçivədə dayanıqlı turizm strategiyalarının tətbiq səviyyəsini Azərbaycan və Qazaxıstan nümunəsində empirik əsaslarla təhlil etməkdir. Tədqiqat sorğu nəticələri və ekspert rəyləri əsasında aparılaraq mövcud vəziyyəti qiymətləndirməklə yanaşı, gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsini hədəfləyir.

MATERİAL VƏ METODLAR

Bu tədqiqat empirik yanaşma əsasında həyata keçirilmiş və iqlim dəyişmələrinin mədəni irs obyektlərinə təsiri ilə dayanıqlı turizm strategiyalarının tətbiq səviyyəsinin müqayisəli təhlilini əhatə etmişdir. Tədqiqatın metodoloji çərçivəsi kəmiyyət və keyfiyyət məlumatlarının inteqrasiyasına əsaslanmışdır [9; 14].

Tədqiqatda əsas məlumat mənbəyi kimi Azərbaycan və Qazaxıstan üzrə aparılmış sorğuların nəticələrindən istifadə edilmişdir. Azərbaycan üzrə sorğu müxtəlif sahələrdə fəaliyyət göstərən respondentlər arasında onlayn platforma vasitəsilə keçirilmişdir . Sorğuda iştirak edən respondentlər əsasən iqtisadiyyat, turizm, təhsil və ekologiya sahələrini təmsil etmiş, onların böyük hissəsini 0–3 il iş təcrübəsinə malik şəxslər təşkil etmişdir. Bu xüsusiyyət tədqiqatda gənc və əmək bazarına yeni daxil olan qrupun baxışlarının üstünlük təşkil etdiyini göstərir [9]. Qazaxıstan üzrə empirik məlumatlar isə Əl-Fərabi adına Qazax Milli Universitetində professor-müəllim heyəti, doktorantlar və müvafiq sahə üzrə mütəxəssislər arasında aparılmış sorğu nəticələrinə əsaslanır [14]. Bu yanaşma akademik mühitdə iqlim dəyişmələri və dayanıqlı turizm məsələlərinə münasibətin daha elmi əsaslarla qiymətləndirilməsinə imkan yaratmışdır. Sorğu anketləri iqlim dəyişmələri haqqında məlumatlılıq səviyyəsi, mədəni irs obyektlərinə təsir, turizm sektoruna təsir, risk faktorları və dayanıqlı turizm yanaşmaları kimi əsas istiqamətləri əhatə edən suallardan ibarət olmuşdur. Respondentlərdən alınan cavablar strukturlaşdırılmış formada toplanmış və sonradan statistik təhlil üçün emal edilmişdir [9; 14]. Məlumatların təhlilində deskriptiv statistik metodlardan istifadə olunmuşdur. Nəticələr faiz göstəriciləri əsasında qiymətləndirilmiş, əldə olunan göstəricilər cədvəl formasında təqdim olunmuşdur. Eyni zamanda Azərbaycan və Qazaxıstan üzrə nəticələr müqayisəli şəkildə təhlil edilərək oxşar və fərqli tendensiyalar müəyyən edilmişdir [8; 10]. Tədqiqat çərçivəsində əlavə olaraq ekspert yanaşmalarından da istifadə edilmişdir. Müxtəlif sahələri təmsil edən mütəxəssislərin təqdim etdiyi rəy və müşahidələr kontent analiz üsulu ilə təhlil edilmiş və empirik nəticələrin izahında istifadə olunmuşdur [5; 7; 12]. Bu yanaşma tədqiqatın nəticələrinin daha dərin və çoxşaxəli şərh olunmasına imkan vermişdir.

NƏTİCƏLƏR

Tədqiqat çərçivəsində Azərbaycan üzrə 61, Qazaxıstan üzrə isə 15 respondentdən ibarət **empirik məlumat bazası** təhlil edilmişdir və bu nəticələr əvvəlki empirik araşdırmaların nəticələri ilə müqayisəli şəkildə qiymətləndirilmişdir [2; 3]. Azərbaycan üzrə sorğu müxtəlif sahələrdə çalışan respondentlər arasında onlayn platforma vasitəsilə keçirilmişdir. Qazaxıstan üzrə sorğu isə Əl-Fərabi adına Qazax Milli Universitetində professor-müəllim heyəti, elmi işçilər, doktorantlar və turizm üzrə mütəxəssislər arasında aparılmışdır [9; 14].

Azərbaycan üzrə respondentlərin peşə bölgüsü göstərir ki, iştirakçıların 78,7%-i "digər" kateqoriyasında, 8,2%-i müəllim, 6,6%-i elmi işçi, 3,3%-i turizm mütəxəssisi, 3,3%-i isə doktorant


olmuşdur. İxtisas bölgüsündə iqtisadiyyat sahəsi 37,7% ilə seçilmiş, digər ixtisaslar isə 49,2% təşkil etmişdir. Respondentlərin 77,0%-nin 0–3 il iş təcrübəsinə malik olması gənc və əmək bazarına yeni daxil olan qrupun üstünlük təşkil etdiyini göstərir [9]. Qazaxıstan üzrə respondentlər daha balanslı və akademik yönümlü struktur nümayiş etdirmişdir. Belə ki, respondentlərin 20,0%-i müəllim, 20,0%-i elmi işçi, 20,0%-i turizm üzrə mütəxəssis, 13,3%-i doktorant, 26,7%-i isə digər sahələri təmsil etmişdir. İxtisas üzrə bölgüdə turizm 46,7%, ekologiya və dayanıqlı inkişaf 26,7% payla üstünlük təşkil etmişdir. İş təcrübəsinə görə respondentlərin 60,0%-i 0–3 il, 33,3%-i isə 10 ildən artıq təcrübəyə malik olmuşdur [14]. Bu nəticələr göstərir ki, Qazaxıstan nümunəsi həm gənc, həm də yüksək təcrübəli qrupların kombinasiyasını əhatə edir və daha strukturlaşdırılmış akademik yanaşmanı əks etdirir.

Azərbaycan üzrə respondentlərin 73,8%-i məlumatlılıq səviyyəsini "orta", 8,2%-i "yüksək", 6,6%-i isə "çox yüksək" kimi qiymətləndirmişdir. Beləliklə, yüksək və çox yüksək məlumatlı respondentlərin payı cəmi 14,8% təşkil etmişdir. Eyni zamanda aşağı və çox aşağı səviyyə bildirənlər 11,5% olmuşdur [9]. Bu göstəricilər göstərir ki, Azərbaycanda iqlim dəyişmələri haqqında ümumi məlumatlılıq mövcud olsa da, dərin və sistemli bilik səviyyəsi məhdud qalır və bu nəticə əvvəlki empirik tədqiqatlarla da uyğunluq təşkil edir [2]. Qazaxıstan üzrə isə fərqli mənzərə müşahidə olunur. Respondentlərin 53,3%-i məlumatlılığı "orta", 20,0%-i "yüksək", 26,7%-i isə "çox yüksək" kimi qiymətləndirmişdir. Beləliklə, yüksək və çox yüksək səviyyə 46,7%-ə çatmışdır [14]. Bu fərq akademik mühitdə iqlim dəyişmələri üzrə daha yüksək nəzəri hazırlığın olduğunu göstərir və Qazaxıstan üzrə aparılmış empirik tədqiqat nəticələri ilə də üst-üstə düşür [3].

Məlumatlılıq səviyyəsi	Azərbaycan, n	Azərbaycan, %	Qazaxıstan, n	Qazaxıstan, %
Çox yüksək	4	6,6	4	26,7
Yüksək	5	8,2	3	20,0
Orta	45	73,8	8	53,3
Aşağı / çox aşağı	7	11,5	0	0,0
Cəmi	**61**	**100,0**	**15**	**100,0**

Cədvəl 1. Respondentlərin iqlim dəyişmələri haqqında məlumatlılıq səviyyəsi

Cədvəldən göründüyü kimi, Qazaxıstan respondentləri arasında yüksək məlumatlılıq səviyyəsi Azərbaycanla müqayisədə təxminən üç dəfə çoxdur. Bu, bilik səviyyəsi ilə risk qavrayışı arasında əlaqənin mövcud ola biləcəyini göstərir. Bu fərq qrafik olaraq aydın şəkildə müşahidə olunur (Şəkil 1).



Şəkil 1. İqlim dəyişmələri üzrə məlumatlılıq səviyyəsinin müqayisəli təhlili (Azərbaycan və Qazaxıstan)

Azərbaycan üzrə respondentlərin 36,1%-i iqlim dəyişmələrinin mədəni irsə "güclü", 8,2%-i isə "çox güclü" təsir etdiyini bildirmişdir. Ümumilikdə bu istiqamətdə yüksək təsiri qəbul edənlərin payı 44,3% olmuşdur. Respondentlərin 41,0%-i təsiri "orta səviyyədə" qiymətləndirmişdir [9]. Bu nəticə göstərir ki, təsir geniş şəkildə qəbul olunsa da, onun intensivliyi barədə vahid fikir formalaşmamışdır. Qazaxıstan üzrə respondentlərin 60,0%-i iqlim dəyişmələrinin mədəni irsə güclü təsir etdiyini bildirmişdir [14]. Bu göstərici Azərbaycandan əhəmiyyətli dərəcədə yüksəkdir və daha yüksək risk qavrayışını əks etdirir. Beləliklə, Qazaxıstanda iqlim dəyişmələri daha ciddi təhlükə kimi qəbul edilir.

Azərbaycan üzrə əsas risk faktorları kimi sel və daşqınlar (55,7%), torpaq eroziyası (37,7%), yağıntı dəyişkənliyi (37,7%) və temperatur artımı (36,1%) göstərilmişdir [9]. Bu nəticələr hidrometeoroloji faktorların üstünlük təşkil etdiyini göstərir. Qazaxıstan üzrə isə torpaq eroziyası 86,7% ilə ən yüksək risk kimi qeyd olunmuşdur. Bundan sonra temperatur artımı (66,7%), daşqınlar (60,0%) və yağıntı dəyişməsi (60,0%) gəlir [14]. Bu fərq göstərir ki, Qazaxıstanda risklər daha çox geoloji və torpaq əsaslı aspektlər üzərindən dərk edilir.

Cədvəl 2. Mədəni irs obyektləri üçün əsas risk faktorları

Risk faktoru	Azərbaycan, %	Qazaxıstan, %
Güclü atmosfer yağıntıları nəticəsində baş verən sel və daşqın hadisələrinin mədəni irs obyektlərinə və turizm infrastrukturlarına göstərdiyi təsirlər	55,7	60,0
Torpaq qatının aşınması, eroziya proseslərinin intensivləşməsi və bunun nəticəsində mədəni irs obyektlərinin dayanıqlılığına mənfi təsir göstərməsi	37,7	86,7
Yağıntı rejimində baş verən dəyişikliklər, qeyri-sabit yağıntı paylanması və bunun təbii və mədəni mühitə təsiri	37,7	60,0
Orta illik temperaturun artması, istiləşmə prosesləri və bunun mədəni irs obyektləri ilə turizm fəaliyyətinə təsiri	36,1	66,7
Uzunmüddətli quraqlıq hallarının artması, su ehtiyatlarının azalması və bunun ekosistemlər və turizm resurslarına təsiri	21,3	46,7

Cədvəldən aydın olur ki, hər iki ölkədə oxşar risklər mövcuddur, lakin Qazaxıstanda onların intensivliyi və qavranılması daha yüksəkdir.

Azərbaycan üzrə respondentlərin 73,8%-i iqlim dəyişmələrinin turizmə təsir etdiyini, 21,3%-i qismən təsir etdiyini bildirmişdir. Bu, ümumilikdə 95,1% respondent tərəfindən təsirin qəbul edildiyini göstərir [9]. Qazaxıstan üzrə isə bu göstərici 100% olmuşdur, yəni bütün respondentlər iqlim dəyişmələrinin turizmə təsirini ya tam, ya da qismən qəbul etmişdir [14]. Bu nəticə turizm sektorunun iqlim risklərinə qarşı yüksək həssaslığını təsdiqləyir və əvvəlki empirik araşdırmalarda əldə olunan nəticələrlə uyğunluq təşkil edir [2; 3].

Azərbaycan üzrə əsas təsirlər turist sayının azalması (50,8%), mədəni irs obyektlərinin zədələnməsi (42,6%), mövsümi dəyişikliklər (37,7%) və xərclərin artması (37,7%) olmuşdur [9]. Qazaxıstan üzrə isə xərclərin artması, turist sayının azalması və mövsümi dəyişikliklər eyni səviyyədə (60,0%) əsas təsirlər kimi qeyd olunmuşdur [14]. Bu fərq göstərir ki, Qazaxıstanda iqlim dəyişmələrinin təsiri daha çox iqtisadi və idarəetmə aspektində qiymətləndirilir. Azərbaycan respondentlərinin 90,2%-i iqlim risklərinin turizm strategiyalarında nəzərə alınmasını vacib hesab etmişdir [9]. Qazaxıstan üzrə bu göstərici 93,3% olmuşdur [14]. Bu nəticə hər iki ölkədə strateji səviyyədə iqlim faktorunun artıq qəbul edildiyini göstərir. Azərbaycan üzrə respondentlərin 68,9%-i dayanıqlı turizm prinsiplərinin qismən tətbiq olunduğunu bildirmişdir. Strategiyaların effektivliyi əsasən "orta" səviyyədə qiymətləndirilmişdir [9]. Qazaxıstan üzrə isə bütün respondentlər bu prinsiplərin tətbiq olunduğunu

və ya qismən tətbiq edildiyini qeyd etmişdir [14]. Bu isə daha institusional yanaşmanın mövcudluğunu göstərir.

Sorğunun **açıq suallar hissəsi** respondentlərin iqlim dəyişmələrinin mədəni irs və turizm sektoruna təsiri ilə bağlı yanaşmalarını daha dərin səviyyədə təhlil etməyə imkan vermişdir. Cavablar kontent analiz üsulu ilə ümumiləşdirilmişdir. Azərbaycan üzrə respondentlər iqlim dəyişmələrinin təsirini əsasən fiziki zədələnmələr kontekstində izah etmişdir. Sel və daşqınlar, torpaq eroziyası və intensiv yağıntılar tarixi abidələr üçün əsas təhlükə kimi qeyd olunmuşdur. Eyni zamanda bəzi cavablarda qeyri-maddi mədəni irsə təsir, xüsusilə ənənəvi həyat tərzinin və mövsümi fəaliyyətlərin dəyişməsi vurğulanmışdır [9]. Qazaxıstan üzrə respondentlər isə daha sistemli yanaşma nümayiş etdirmişdir. Onlar iqlim dəyişmələrinin təsirini temperatur artımı, su ehtiyatlarının azalması, səhralaşma və torpaq deqradasiyası kimi proseslərlə əlaqələndirmişdir [14]. Bu, iqlim risklərinin daha geniş və struktur səviyyədə qavranıldığını göstərir. Turizm sektoruna təsirlərlə bağlı Azərbaycan respondentləri turist sayının azalması, mövsümi balansın pozulması və bəzi ərazilərin cəlbediciliyinin zəifləməsini ön plana çıxarmışdır. Qazaxıstan respondentləri isə xərclərin artması, resurs çatışmazlığı və turizm axınının qeyri-bərabər paylanması kimi daha çox idarəetmə və iqtisadi aspektləri vurğulamışdır [9; 14]. Dayanıqlı turizmin inkişafı ilə bağlı təkliflər hər iki ölkədə oxşar istiqamətlərdə cəmləşmişdir. Azərbaycan respondentləri maarifləndirmə, dövlət dəstəyi və infrastrukturun gücləndirilməsini vacib hesab etmişdir. Qazaxıstan respondentləri isə əlavə olaraq iqlim risklərinin planlaşdırmaya inteqrasiyası, rəqəmsal idarəetmə və turizm axınının tənzimlənməsi kimi daha sistemli yanaşmalar təklif etmişdir [9; 14].

Tədqiqat çərçivəsində mədəni irs, turizm və geologiya sahələrini təmsil edən mütəxəssislərlə aparılmış **müsahibələr** empirik nəticələrin izahı və dərinləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir. Ekspert rəyləri kontent analiz üsulu ilə təhlil edilərək həm oxşar, həm də fərqli yanaşmalar müəyyən edilmişdir:

- Mədəni irs sahəsi üzrə ekspert Fariz Hüseynli iqlim dəyişmələrinin mədəni irs obyektlərinə təsirinin artıq geniş şəkildə müşahidə olunduğunu vurğulayaraq əsas təhlükə mənbəyi kimi temperatur artımı və yağıntı rejiminin dəyişməsi nəticəsində güclənən eroziya proseslərini qeyd etmişdir [5]. Bu yanaşma empirik nəticələrdə respondentlərin əhəmiyyətli hissəsinin mədəni irsə təsiri yüksək səviyyədə qiymətləndirməsi ilə uyğunluq təşkil edir. Onun yanaşması daha çox fiziki və ekoloji təsirlərin intensivliyinə yönəlmişdir.
- Mədəni irsin qorunması və idarəetmə sahəsi üzrə ekspert Fariz Xəlilli isə iqlim risklərinin artıq strateji sənədlərdə nəzərə alındığını, lakin bu prosesin hələ tam sistemli və inteqrə olunmuş xarakter daşımadığını qeyd etmişdir [6]. Burada müəyyən yanaşma fərqi ortaya çıxır. Fariz Hüseynli təsirin intensivliyini vurğuladığı halda, Fariz Xəlilli daha çox idarəetmə mexanizmlərindəki boşluqlara diqqət yetirir. Bu ziddiyyət empirik nəticələrlə də uyğunluq təşkil edir, çünki respondentlər təsiri yüksək qiymətləndirsə də, qoruma səviyyəsini əsasən orta hesab etmişdir [9].
- Turizm sahəsi üzrə ekspert Heybət Vəliyev iqlim dəyişmələrinin təsirini turizm sisteminin funksional transformasiyası ilə əlaqələndirmişdir. O qeyd etmişdir ki, iqlim dəyişmələri turizm marşrutlarının mövsümi strukturunu dəyişdirir və bu proses bəzi ərazilərdə turist axınının azalmasına, digərlərində isə yenidən paylanmasına səbəb olur [12]. Bu yanaşma empirik nəticələrlə qismən uyğunluq göstərir. Belə ki, respondentlər əsasən turist sayının azalması və xidmət keyfiyyətinin pisləşməsi kimi nəticələri ön plana çıxarmışdır [9], lakin Heybət Vəliyev bu dəyişiklikləri yalnız mənfi deyil, həm də adaptiv proses kimi qiymətləndirir. Bu fərq turizm sahəsində iqlim dəyişmələrinin həm risk, həm də transformasiya amili kimi qəbul olunduğunu göstərir.
- Geologiya sahəsi üzrə ekspert İlham Kərimov iqlim dəyişmələrinin təsirini daha konkret və praktiki hadisələr üzərindən izah etmişdir. O, sürüşmə, eroziya və torpaq deqradasiyası kimi

proseslərin intensivləşdiyini və bunun artıq real hadisələrlə müşahidə olunduğunu vurğulamışdır [7]. Bu yanaşma empirik nəticələrdə torpaq eroziyası və sel hadisələrinin əsas risk faktorları kimi göstərilməsi ilə üst-üstə düşür. Lakin İlham Kərimovun yanaşması digər ekspertlərlə müqayisədə daha yüksək risk və təhlükə vurğusu ilə seçilir.

Müqayisəli təhlil göstərir ki, ekspertlər arasında əsas fərqlər yanaşma səviyyəsi ilə bağlıdır. Mədəni irs üzrə yanaşmalar daha çox qoruma və risklərin qiymətləndirilməsinə yönəlmişdir. Turizm sahəsində yanaşma dəyişikliklərin idarə olunması və adaptasiya üzərində qurulmuşdur. Geoloji yanaşma isə risklərin fiziki və praktiki nəticələrini ön plana çıxarmışdır. Bununla yanaşı, bütün ekspertlər iqlim dəyişmələrinin təsirinin real və artan xarakter daşıdığını qəbul edir. Ekspert rəyləri empirik nəticələri ümumilikdə təsdiqləsə də, bəzi hallarda fərqli və zidd yanaşmalar ortaya qoyur. Bu isə iqlim dəyişmələrinin mədəni irs və turizm sektoruna təsirinin çoxşaxəli və kompleks xarakter daşıdığını göstərir.

MÜZAKİRƏ

Empirik nəticələr və ekspert rəyləri birlikdə göstərir ki iqlim dəyişmələrinin təsiri hər iki ölkədə qəbul olunur və bu tendensiya əvvəlki empirik tədqiqatlarla da təsdiqlənir [2; 3]. Qazaxıstanda respondentlərin daha yüksək məlumatlılıq səviyyəsi risklərin daha sistemli və analitik şəkildə qiymətləndirilməsinə səbəb olmuşdur, Azərbaycanda isə yanaşma daha çox müşahidə və praktiki təcrübəyə əsaslanır [9; 14]. Mədəni irs obyektlərinə təsir baxımından empirik nəticələrdə yüksək risk qavrayışı müşahidə edilsə də, qoruma və idarəetmə səviyyəsi əsasən "orta" kimi qiymətləndirilmişdir [9]. Bu vəziyyət Fariz Hüseynlinin təsirin intensivliyi ilə bağlı fikirləri ilə uyğunluq təşkil etdiyi halda [5], Fariz Xəlillinin institusional yanaşmanın yetərli olmaması ilə bağlı mövqeyi ilə də uzlaşır [6]. Beləliklə, təsirin yüksək, idarəetmənin isə nisbətən zəif qiymətləndirilməsi arasında müəyyən uyğunsuzluq mövcuddur. Turizm sektoru üzrə nəticələr göstərir ki, iqlim dəyişmələrinin təsiri hər iki ölkədə geniş şəkildə qəbul edilir [9; 14]. Bununla belə, respondentlər əsasən mənfi nəticələri vurğuladığı halda, Heybət Vəliyev bu dəyişiklikləri turizm sisteminin adaptiv transformasiyası kimi qiymətləndirir [12]. Bu fərq iqlim dəyişmələrinin turizmə təsirinin həm risk, həm də struktur dəyişiklik amili olduğunu göstərir. Geoloji risklər üzrə empirik nəticələr və İlham Kərimovun yanaşması arasında uyğunluq müşahidə olunur. Torpaq eroziyası və sel hadisələri əsas risk faktorları kimi qeyd edilmiş və ekspert tərəfindən bu risklərin artıq real hadisələrlə təsdiqləndiyi vurğulanmışdır [7; 9; 14]. Bu isə iqlim dəyişmələrinin təsirinin nəzəri deyil, praktik xarakter daşıdığını göstərir.

Nəzəri ədəbiyyatla müqayisə də bu nəticələri dəstəkləyir. Tədqiqatlar göstərir ki, iqlim dəyişmələri turizm sektorunda həm risklər yaradır, həm də yeni adaptasiya imkanları formalaşdırır [10; 11]. Eyni zamanda, dayanıqlı turizm strategiyalarının effektivliyi iqlim risklərinin planlaşdırmaya inteqrasiyası ilə birbaşa bağlıdır [4; 8]. Ümumilikdə, nəticələr göstərir ki, iqlim dəyişmələrinin təsiri çoxşaxəli xarakter daşıyır və bu yanaşma əvvəlki empirik və nəzəri tədqiqatlarla da uyğunluq təşkil edir [2–3; 10]. Onun idarə olunması üçün kompleks yanaşma tələb olunur. Empirik və ekspert yanaşmaları ümumilikdə uyğun olsa da, bəzi hallarda fərqli baxışlar bu sahədə daha sistemli və inteqrə olunmuş strategiyalara ehtiyac olduğunu göstərir.

ƏDƏBIYYAT SIYAHISI

1. Becken, S. (2013). *A review of tourism and climate change as an evolving knowledge domain.* Tourism Management. https://doi. org/10. 1016/j. tmp. 2012. 11. 006
2. Dawson, J. , Scott, D. , McBoyle, G. (2011). *Climate change analogue analysis of ski tourism in the northeastern USA.* Tourism Management. https://doi. org/10. 3354/cr00793
3. Gómez-Baggethun, E. , et al. (2013). *Urban ecosystem services and climate change adaptation.* Current Opinion in Environmental Sustainability. https://doi. org/10. 1007/978-94-007-7088-1_11

4. Hall, C. M. (2019). *Constructing sustainable tourism development: The 2030 agenda and the managerial ecology of sustainable tourism.* Journal of Cleaner Production. https://doi. org/10. 1080/09669582. 2018. 1560456
5. Hüseynli, F. (2026). *Azərbaycanda iqlim dəyişmələrinin mədəni irs obyektlərinə təsiri və qorunma tədbirləri üzrə ekspert rəyi.* https://doi. org/10. 5281/zenodo. 19638823
6. IPCC. (2022). *Climate Change 2022: Impacts, Adaptation and Vulnerability.* https://www. ipcc. ch/report/ar6/wg2/
7. Kərimov, İ. (2026). *Azərbaycanda iqlim dəyişmələrinin geoloji proseslərə və turizm-mədəni irs obyektlərinə təsiri üzrə ekspert rəyi.* https://doi. org/10. 5281/zenodo. 19644623
8. Lew, A. A. (2014). *Scale, change and resilience in community tourism planning.* Tourism Management. https://doi. org/10. 1080/14616688. 2013. 864325
9. Qədimli, N. , Məmmədov, Ü. (2026). *İqlim dəyişmələrinin mədəni irs obyektlərinə təsiri və dayanıqlı turizm strategiyaları – Azərbaycan və Qazaxıstan nümunələri – empirik analiz edilməklə. Azərbaycanda empirik araşdırma.* https://doi. org/10. 5281/zenodo. 19638965
10. Scott, D. , Gössling, S. , Hall, C. M. (2012). *Tourism and Climate Change: Impacts, Adaptation and Mitigation.* https://doi. org/10. 4324/9780203127490
11. UNESCO. (2016). *World Heritage and Tourism in a Changing Climate.* https://whc. unesco. org/en/tourism-climate-change/
12. Vəliyev, H. (2026). *Azərbaycanda iqlim dəyişmələrinin turizm marşrutlarına və mədəni irs obyektlərinə təsiri və dayanıqlı turizm yanaşmaları üzrə ekspert rəyi.* https://doi. org/10. 5281/zenodo. 19644182
13. Xəlilli, F. (2026). *Azərbaycanda iqlim dəyişmələrinin mədəni irs obyektlərinə təsiri və qorunması üzrə ekspert rəyi.* https://zenodo. org/records/19648089
14. Гадимли, Н. , Мамедов, У. (2026). *Влияние изменения климата на объекты культурного наследия и стратегии устойчивого туризма: на примере Азербайджана и Казахстана (на основе эмпирического анализа). Эмпирическое исследование в Казахстане.* https://doi. org/10. 5281/zenodo. 19639044

MƏDƏNİ İRS VƏ TURİZM ƏRAZİLƏRİNDƏ EKOSİSTEM YANAŞMASI: MEHMANXANA SEKTORU VƏ İDARƏETMƏDƏ İNSTİTUSİONAL YANAŞMA

Ecosystem approach ın cultural herıtage and tourısm areas: the hotel sector and an ınstıtutıonal approach to management

ÜLVİYYƏ AŞUROVA
***Ulviyya* Ashurova**
ulviyya. ashurova@mdu. edu. az
https://orcid. org/0000-0000-0000-0000
Mingəçevir Dövlət Universiteti
Mingachevir State University

XÜLASƏ

Məqalədə turizm sahəsində ekosistem yanaşması ilə bağlı aparılan tədqiqatların nəticələri təqdim olunur. Tədqiqat çərçivəsində turizmdə ekosistem anlayışı, rəqəmsal ekosistemlərin formalaşması, həmçinin iqtisadiyyat və biznesdə rəqəmsal transformasiya və platformalaşma proseslərinin turizm ərazilərində ekosistemlərin yaranmasına təsiri araşdırılmışdır. Bundan əlavə, turizm ekosisteminin mühüm komponentlərindən biri kimi mehmanxana sənayesinin rolu və inkişaf meyilləri təhlil edilmişdir. Məqalədə informasiya-kommunikasiya texnologiyalarının, xüsusilə də rəqəmsal və mobil texnologiyaların turizm ekosistemində iştirak edən tərəflərin (steykholderlərin) inteqrasiyası və əməkdaşlığına göstərdiyi təsir də nəzərdən keçirilir. Tədqiqat zamanı elmi və biznes mühitində ekosistem yanaşmasının nəzəri və metodoloji əsasları öyrənilmiş, "ekosistem" anlayışının müxtəlif sahələrdə tətbiqi və rəqəmsal iqtisadiyyat şəraitində biznes ekosistemlərinin formalaşma xüsusiyyətləri təhlil edilmişdir. Həmçinin turizm və qonaqpərvərlik sektorunun turizm ərazilərində inkişafında ekosistem yanaşmasının tətbiqi imkanları araşdırılmışdır. Burada turizm ərazisində ekosistemin formalaşmasına təsir edən əsas amillər və turizmin inkişaf layihələri qiymətləndirilmişdir. Bunun əsasında ərazidə turizm və qonaqpərvərlik sahəsinin ekosistem yanaşması əsasında inkişafına dair metodiki tövsiyələr hazırlanmışdır. Həmçinin turizm ərazisinin ekosistem modeli və bu sistem daxilində maraqlı tərəflər (steykholderlər) arasında qarşılıqlı fəaliyyət mexanizmi irəli sürərək əsaslandırılmışdır. Əldə edilən nəticələr turizm ekosistemlərinin formalaşması, turizm sənayesində rəqəmsal transformasiya prosesləri, turizm ərazilərinin inkişafının layihələndirilməsi üzrə gələcək elmi tədqiqatların aparılması üçün nəzəri baza kimi istifadə oluna bilər. Eyni zamanda, bu nəticələr müxtəlif səviyyəli turizm idarəetmə qurumlarının, eləcə də turizm və qonaqpərvərlik sahəsində fəaliyyət göstərən təşkilatların praktiki fəaliyyətində tətbiq oluna bilər.

Açar sözlər: *ekosistem yanaşması; turizm ekosistemi; turizm ərazisinin ekosistemi; turizmin rəqəmsal ekosistemi; turizm ərazisi; turizm sənayesi; mehmanxana sənayesi.*

ABSTRACT

The article presents the results of research on the ecosystem approach in the tourism sector. Within the study, the concept of ecosystem in tourism, the formation of digital ecosystems, and the impact of digital transformation and platformization processes in the economy and business on the creation of tourism ecosystems in destinations were analyzed. In addition, the role and development trends of the hotel industry as a key component of the tourism ecosystem were examined. The study also considers the influence of information and communication technologies, particularly digital and mobile technologies, on the integration and collaboration of stakeholders within the tourism ecosystem. The research explored the theoretical and methodological foundations of the ecosystem approach in science and business, including the application of the "ecosystem" concept across different fields and the features of business ecosystem formation in the context of the digital economy. The study further analyzed the opportunities for applying the ecosystem approach in the development of tourism and hospitality within tourism destinations. Key factors influencing the formation of tourism ecosystems and the implementation of tourism development projects were assessed. Based on this analysis, methodological recommendations for the ecosystem-based development of tourism and hospitality in destinations were proposed. A model of the tourism ecosystem for destinations and a mechanism for interaction among stakeholders within this system were also developed and substantiated. The results obtained can serve as a theoretical basis for future research on the formation of tourism ecosystems, digital transformation in the tourism industry, and planning the development of tourism destinations. They can also be applied in the practical activities of tourism administration bodies at various levels, as well as organizations operating in the tourism and hospitality sectors.

Keywords: *ecosystem approach; tourism ecosystem; destination tourism ecosystem; digital tourism ecosystem; tourism destination; tourism industry; hotel industry.*

GİRİŞ

Müasir dövrdə qlobal çağırışların artması və xarici mühitin getdikcə daha qeyri-sabit xarakter alması iqtisadiyyatın, biznesin və cəmiyyətin inkişaf proseslərinə ciddi təsir göstərir. Geosiyasi, sosial-iqtisadi və texnoloji proseslərin mürəkkəbləşməsi, həmçinin bu sahələr arasındakı qarşılıqlı əlaqələrin dərinləşməsi nəticəsində ictimai, iqtisadi və siyasi həyatın müxtəlif sahələrində genişmiqyaslı dəyişikliklər baş verir. Bu şəraitdə iqtisadi strukturun yenilənməsi və rəqəmsal transformasiya proseslərinin güclənməsi fonunda bəşəriyyətin inkişafı üçün yeni bir paradiqma formalaşmaqdadır.

William F. Gibson-un qeyd etdiyi kimi: "Gələcək artıq gəlib, sadəcə o, hələ bərabər şəkildə paylanmayıb".

Turizm öz mahiyyətinə görə regionlararası, millətlərarası və beynəlxalq xarakter daşıyan, eyni zamanda multikultural və çoxsahəli bir fəaliyyət sahəsi kimi müxtəlif xarici təsirlərə həssasdır. Son illərdə bu sahə xüsusilə COVID-19 pandemiyasının nəticələri, dəyişən geosiyasi vəziyyət, istehlakçı davranışında baş verən transformasiyalar və sürətlə inkişaf edən texnoloji yeniliklər kimi amillərin təsiri altında ciddi təzyiqlərlə üzləşmişdir.

Turizm ekosisteminin formalaşmasında mehmanxana sənayesinin mühüm rol oynaması bu sahədə infrastruktur layihələrinin inkişafına dövlət səviyyəsində xüsusi diqqət ayrılması ilə izah olunur. Azərbaycanda turizm və qonaqpərvərlik sektorunun inkişafı dövlət proqramları və strateji sənədlər çərçivəsində prioritet istiqamətlərdən biri kimi müəyyən edilmişdir. Bu kontekstdə mehmanxana infrastrukturu və xidmət keyfiyyətinin yüksəldilməsi turizm sahəsinin ümumi inkişafı üçün əsas şərtlərdən biri hesab olunur.

Qonaqpərvərlik sənayesinin turizm sahəsi ilə sıx bağlı olmasına baxmayaraq, onun ayrıca istiqamət kimi vurğulanması mehmanxana sektorunun turizm fəaliyyətinin genişlənməsində və turizm ekosisteminin formalaşmasında mühüm rolunu göstərir. Buna görə də mehmanxana sənayesinin və müvafiq infrastrukturun inkişafı ölkədə turizmin davamlı və rəqabətqabiliyyətli inkişafının təmin edilməsində vacib amillərdən biri kimi çıxış edir.

Tədqiqatın məqsədi turizm və qonaqpərvərlik sektorunun inkişafına ekosistem yanaşmasının tətbiqinin elmi əsaslandırılması və mehmanxana sənayesinin turizm ərazisinin müasir ekosisteminin formalaşmasında mühüm faktor kimi rolunun araşdırılmasından ibarətdir.

Müəyyən edilmiş məqsədə çatmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

- elmi və biznes mühitində ekosistem yanaşmasının nəzəri və metodoloji əsaslarını, eləcə də "ekosistem" anlayışının müxtəlif sahələrdə tətbiqini araşdırmaq;
- yerli və xarici tədqiqatçıların əsərlərində turizm və qonaqpərvərlik sahəsinin inkişafında ekosistem yanaşmasının tətbiqini təhlil etmək;
- ekspert sorğuları əsasında turizm ərazisinin ekosisteminin formalaşmasına təsir edən amilləri və turizmin inkişaf layihələrini qiymətləndirmək;
- turizm ərazisinin ekosistemi anlayışını və maraqlı tərəflər (steykholderlər) arasında qarşılıqlı fəaliyyət mexanizmini irəli sürərək elmi əsaslandırmaq.

Tədqiqatın obyekti — turizm ərazisinin ekosistemidir.

Tədqiqatın predmeti — turizm ərazilərində turizmin ümumi inkişafı, həmçinin turizm sənayesinin mühüm tərkib hissəsi kimi mehmanxana sektorunun inkişafı ilə bağlı formalaşan sosial-iqtisadi, təşkilati və idarəetmə əlaqələri, tərəfdaşlıq münasibətləri və tətbiq olunan texnologiyalar sistemidir. Bu münasibətlər və qarşılıqlı təsir mexanizmləri ekosistem yanaşması çərçivəsində araşdırılır.

Tədqiqatın nəzəri və metodoloji əsasını turizm və rekreasiya iqtisadiyyatı, turizm ərazilərinin marketinqi, ekosistem yanaşması, sosial-iqtisadi və sahibkarlıq ekosistemləri, rəqəmsal ekosistemlər və turizmin rəqəmsal ekosistemi, rəqəmsal iqtisadiyyat və cəmiyyətin, eləcə də biznesin rəqəmsallaşması prosesləri üzrə yerli və xarici alimlərin elmi əsərləri təşkil edir. Bundan əlavə,

turizm və qonaqpərvərlik sahəsinin anlayış aparatı, mehmanxana fəaliyyəti, müxtəlif sahələrdə ekosistemlərin nəzəri və tətbiqi aspektləri, eləcə də turizm və qonaqpərvərlik sektorunun müasir inkişaf meyilləri ilə bağlı tədqiqatlar da nəzərə alınmışdır.

Tədqiqat prosesində iqtisadi təhlil və müqayisəli analiz, kontent-analiz, SWOT təhlili, sosioloji sorğu, təşkilati modelləşdirmə üsulları, maraqlı tərəflər nəzəriyyəsi (steykholder yanaşması) və turizm ərazilərində turizmin inkişafına yönəlmiş ekosistem yanaşması metodlarından istifadə edilmişdir.

Turizmin inkişafının planlaşdırılması zamanı ekosistem yanaşmasının tətbiqinin məqsədəuyğunluğu və turizm ekosisteminin inkişaf səviyyəsinin turizm və qonaqpərvərlik sahəsində layihələrin həyata keçirilməsinə təsiri ilə bağlı peşəkar ictimaiyyətin mövqeyini öyrənmək məqsədilə 2024-cü ilin dekabr ayında ekspert sorğusu təşkil edilmişdir. Sorğu anonim onlayn formatda həyata keçirilmişdir.

Sorğuda ümumilikdə 57 ekspert iştirak etmiş və onlar aşağıdakı fəaliyyət sahələrini təmsil etmişlər:

- tur operatorları;
- turizm agentlikləri;
- mehmanxana sektorunun nümayəndələri;
- sanatoriya və kurort müəssisələri;
- turizm obyektləri və ziyarət məkanları;
- turizm sahəsi üzrə peşə təhsili müəssisələri;
- elmi-tədqiqat qurumları;
- dövlət idarəetmə orqanları;
- regional və şəhər turizm idarələri;
- tur bələdçiləri.

Sorğunun nəticələrinin təqdim olunması üçün statistik təhlil metodlarından və məlumatların qrafik şəkildə vizuallaşdırılması üsullarından istifadə edilmişdir.

NƏTİCƏLƏR

Ekosistem nəzəriyyəsi və ekosistem yanaşmasının sosial-iqtisadi proseslərə tətbiqi ilə bağlı elmi yanaşmalar bir sıra tədqiqatçıların əsərlərində geniş şəkildə təhlil edilmişdir. Bu istiqamətdə aparılmış araşdırmalar göstərir ki, ekosistem yanaşması müxtəlif iqtisadi və idarəetmə proseslərinin qarşılıqlı əlaqədə və inteqrativ şəkildə öyrənilməsinə imkan yaradır.

Bu mövzu üzrə mühüm elmi yanaşmalar Ron Adner-in, Johann Füller-in, David J. Teece-in, Nadine Olbrich-in və Harald Pechlaner-in tədqiqatlarında öz əksini tapmışdır. Eyni zamanda ekosistemlərin iqtisadi sistemlərdə rolu və onların formalaşma mexanizmləri Michael G. Jacobides, Carmelo Cennamo və Annabelle Gawer tərəfindən də araşdırılmışdır.

Bununla yanaşı, postsovet məkanında aparılan elmi tədqiqatlarda da ekosistem yanaşmasının nəzəri və metodoloji aspektləri öyrənilmişdir. Bu sahədə Nadezhda V. Fadeikina və Svetlana S. Malina-nın, eləcə də Oksana V. Ryzhkova və Vera V. Borodkina-nın elmi işləri xüsusi əhəmiyyət kəsb edir.

"Sahibkarlıq ekosistemi" anlayışı ilk dəfə James F. Moore tərəfindən irəli sürülmüş və sonrakı dövrlərdə bu konsepsiya müxtəlif tədqiqatçılar tərəfindən inkişaf etdirilmişdir. Bu istiqamətdə aparılan araşdırmalarda Ron Adner, Nadezhda V. Fadeikina və Svetlana S. Malina kimi alimlərin elmi işləri xüsusi yer tutur.

Rəqəmsallaşma və platforma iqtisadiyyatının inkişafı ekosistem yanaşmasının daha da geniş tətbiqinə şərait yaratmışdır. Bu proses maraqlı tərəflərin (steykholderlərin) biznes proseslərinin rəqəmsal inteqrasiyası vasitəsilə onların resurslarının və fəaliyyətlərinin daha sürətli və effektiv koordinasiyasını mümkün edir. Buna görə də müasir elmi ədəbiyyatda sahibkarlıq ekosistemlərinin inkişafı tez-tez innovasiya və rəqəmsal ekosistemlər kontekstində, o cümlədən turizm sahəsində

araşdırılır. Bu istiqamətdə aparılan tədqiqatlar Ron Adner, Oksana V. Ryzhkova, Vera V. Borodkina və digər alimlərin elmi əsərlərində geniş şəkildə işıqlandırılmışdır.

Bununla yanaşı, "ağıllı turizm" və "ağıllı qonaqpərvərlik" (smart tourism və smart hospitality) konsepsiyalarına həsr olunmuş araşdırmalar da xüsusi əhəmiyyət kəsb edir. Bu istiqamətdə aparılan tədqiqatlarda Dimitrios Buhalis və Peter O'Connor kimi alimlərin işləri diqqətəlayiqdir. Eyni zamanda platforma iqtisadiyyatının inkişafı və onun biznes ekosistemlərinin formalaşmasına təsiri də müasir iqtisadi araşdırmaların mühüm mövzularından biri kimi çıxış edir.

Turizm və mehmanxana biznesi üçün əhəmiyyətli istiqamətlərdən biri də biznes strategiyalarının sahibkarlıq ekosistemlərində iştirak vasitəsilə formalaşdırılmasıdır. Bu yanaşma turizm və qonaqpərvərlik müəssisələrinin qarşılıqlı əməkdaşlıq və tərəfdaşlıq əsasında daha səmərəli fəaliyyət göstərməsinə imkan yaradır.

Ekosistem yanaşmasının tətbiqi ilə bağlı digər mühüm məsələ isə dövlət və biznes arasında qarşılıqlı əməkdaşlıq mexanizmləridir. Bu əməkdaşlıq xüsusilə dövlət-özəl tərəfdaşlığı və biznesin korporativ sosial məsuliyyəti kimi mexanizmlər vasitəsilə həyata keçirilir. Bu yanaşmalar turizm və qonaqpərvərlik sahəsində iri layihələrin həyata keçirilməsi və infrastrukturun inkişafı üçün mühüm əhəmiyyət daşıyır.

Aparılan tədqiqatlar göstərir ki, hazırda turizm ərazilərində turizmin inkişafına ekosistem yanaşmasının tətbiqi metodoloji və metodiki baxımdan hələ tam formalaşma mərhələsindədir. Bu sahədə vahid elmi yanaşmalar və terminoloji baza tam şəkildə müəyyən edilməmişdir. Buna görə də turizm ərazilərində turizm ekosisteminin formalaşdırılması və inkişafı üçün sistemli və strateji yanaşmanın tətbiqi zəruridir. Bu proses xüsusilə turizm və qonaqpərvərlik sahəsində rəqəmsallaşma və rəqəmsal transformasiya, platforma iqtisadiyyatının inkişafı və rəqəmsal ekosistemlərin genişlənməsi ilə sıx bağlıdır. Müasir şəraitdə rəqəmsallaşma və platformalaşma turizm ekosistemlərinin formalaşmasına təkan verən əsas amillərdən biri hesab olunur.

Tədqiqatın əsas hipotezi ondan ibarətdir ki, turizmin milli, regional və ya regionlararası səviyyədə ekosistem kimi nəzərdən keçirilməsi və ekosistem yanaşmasının tətbiqi idarəetmə qərarlarının qəbul edilməsinin effektivliyini əhəmiyyətli dərəcədə artırır. Bu yanaşma resursların məqsədyönlü şəkildə əlaqələndirilməsinə, maraqlı tərəflərin fəaliyyətinin koordinasiyasına və nəticədə sinerji effektinin əldə olunmasına imkan yaradır. Turizm ərazilərində turizmin inkişafının layihələndirilməsində isə əsas elementlərdən biri mehmanxana sənayesinin inkişafı, yerləşdirmə fondunun artırılması və turistlər üçün xidmət keyfiyyətinin yüksəldilməsi hesab olunur.

Tədqiqat hipotezinin yoxlanılması, həmçinin turizm ərazilərində turizm ekosisteminin formalaşmasına təsir edən əsas amillərin və xüsusiyyətlərin müəyyən edilməsi məqsədilə ekspert sorğusu keçirilmişdir. Sorğunun nəticələrinə əsasən turizm ekosisteminin inkişafı ilə bağlı bir sıra mühüm məlumatlar əldə olunmuşdur. Nəticələrin təqdim olunması zamanı məlumatların qrafik interpretasiyası metodundan istifadə edilmiş və göstəricilər diaqramlar vasitəsilə əks etdirilmişdir. Tədqiqat çərçivəsində təqdim edilən 1–5-ci cədvəllər və 1–5-ci şəkillər ekspert sorğusunun nəticələrinə əsasən müəllif tərəfindən hazırlanmışdır.

Sorğunun nəticələri göstərir ki, turizm ərazisinin turizm sistemində ən mühüm hesab olunan beş əsas element aşağıdakılardır:

1-ci yer – yerləşdirmə vasitələri və mehmanxanalar (respondentlərin 80,7 %-i);

2-ci yer – təbii turizm obyektləri (milli parklar, qoruqlar, təbii görməli məkanlar və s.) (63,2 %);

3-cü yer – iaşə və qida xidmətləri sektoru (49,1 %);

4-cü yer – ekskursiya şirkətləri, tur bələdçiləri və gid xidmətləri (43,9 %);

5-ci yer – təbii turizm obyektlərinin infrastrukturu (dağ kurortları, ekoloji turizm marşrutları və s.) (42,1 %).

Beləliklə, aparılmış sorğunun nəticələri turizm ekosistemində mehmanxana sənayesinin aparıcı rolunu təsdiq etmişdir. Bundan əlavə, mehmanxana sektoru ilə sıx əlaqəli olan iaşə və qida

xidməti sahəsi də turizm ərazisinin ekosisteminin əsas elementləri sırasında ilk beşliyə daxil olmuşdur (cədvəl 1).

Cədvəl 1. Turizm ərazisinin (destinasiya) sistem elementlərinin əhəmiyyət reytinqi (ekspert sorğusu nəticələrinə görə, çoxlu cavab verilə bilər)

Sual: Sizcə turizm ərazisinin (destinasiyanın) hansı elementləri ən vacibdir? (5-dən çox cavab seçmək olmaz).

Elementlər	Cavab sayı	Respondentlərin %-i	Cavabın tezliyi %-lə
Yerləşdirmə vasitələri, mehmanxanalar	46	80,7 %	16,1 %
Təbii obyektlər (milli parklar, qoruqlar, təbii görməli məkanlar və s.)	36	63,2 %	12,6 %
Qida və iaşə sektoru	28	49,1 %	9,8 %
Ekskursiya şirkətləri, tur bələdçiləri, gid xidmətl	25	43,9 %	8,8 %
Təbii obyektlərin infrastrukturu (dağ kurortları, ekoturlar və s.)	24	42,1%	8,4 %
Görməli obyektlər (tarixi abidələr, muzeylər, parklar, aqroturizm obyektləri və s.)	24	42,1 %	8,4 %
Turizmin rəqəmsal ekosistemi (veb-saytlar, mobil tətbiqlər, marşrut planlaşdırıcılar, GIS sistemləri və s.)	19	33,3 %	6,7 %
Nəqliyyat infrastrukturu	17	29,8%	6,0 %
Əyləncə sənayesi	14	24,6 %	4,9 %
Tur operatorları	12	21,1 %	4,2 %
Şəhər mühiti və infrastrukturu	9	15,8 %	3,2 %
Ümumi kurort və şəhər rekreasiya/kultural obyektləri	15	26,3 %	5,3 %
Xidmət sektoru müəssisələri (yerləşdirmə, qida, turizm-ekskursiya və nəqliyyat xidmətləri istisna olmaqla)	6	10,5%	2,1 %
Nəqliyyat şirkətləri	4	7,0 %	1,4 %
Turist-informasiya mərkəzləri (TİM	4	7,0 %	1,4 %
Turizm agentlikləri	2	3,5 %	0,7 %

Bu cədvəl ekspert sorğusu nəticələrinə əsaslanır və turizm ərazisinin ekosistemində ən vacib elementləri vizual olaraq təhlil etməyə imkan verir.

Ekosistem yanaşmasının nəzəri və metodoloji aspektləri, eləcə də iqtisadiyyat, sahibkarlıq və turizmin inkişafında ekosistemlərin rolu ilə bağlı aparılmış tədqiqat əsasında aşağıdakı nəticələr əldə edilmişdir:

1. Hazırda elmi ədəbiyyatda "turizm ekosistemi" və "turizm ərazisinin ekosistemi" anlayışları tam şəkildə formalaşmayıb. Bu, gələcək tədqiqatlar üçün perspektiv sahədir və turizm sahəsinin anlayış aparatının qlobal çağırışlar və transformasiyalar şəraitində formalaşdırılmasını tələb edir.
2. Turizm ekosistemi sahibkarlıq, innovasiya və sosial-iqtisadi ekosistemlərin xüsusiyyətlərini özündə birləşdirir, əsas ekosistem prinsipləri və funksionallığını əks etdirir.
3. Xarici elmi ədəbiyyatda turizm ekosistemi anlayışı ilə yanaşı "qonaqpərvərlik ekosistemi" termini də istifadə olunur və burada mərkəzdə mehmanxana və mehmanxana biznesinin sahibkarı yerləşir.

4. Sosial-iqtisadi ekosistemlər, o cümlədən turizm ekosistemləri, ölkə və regional sosial-iqtisadi mənzərənin mərkəzi elementi kimi çıxış edir. Bu, turizm ərazilərində layihələrin həyata keçirilməsində ekosistem yanaşmasının tətbiqinin vacibliyini izah edir.
5. Tədqiqat həmçinin göstərir ki, turizm ərazilərində ekosistemlərin formalaşdırılması və inkişafında ekosistem yanaşmasının tətbiqi bir sıra nəzəri və tətbiqi aspektləri özündə birləşdirir:
6. Turizm ərazilərinin inkişafında ekosistem yanaşması, ərazi idarəetməsində sistem yanaşmasının və turizmin inkişafında klaster yanaşmasının davamı və inkişafı hesab olunur. Turizm ekosisteminin təkamül prinsipi və eyni zamanda bu prosesin idarə edilməsi turizm ərazilərinin davamlı inkişafını təmin edir və qoyulmuş inkişaf məqsədlərinə çatmağa imkan yaradır.
7. Mehmanxana sənayesi turizm ərazisinin ekosistemində əsas elementdir, mehmanxanaların sahibləri və idarəediciləri isə aparıcı maraqlı tərəflər (steykholderlər) kimi çıxış edirlər.
8. Regional və interregional turizm məhsulunun yaradılması və təşviqi üzrə praktik nümunələr turizm ərazilərinin inkişafında ekosistem yanaşmasının məqsədəuyğunluğunu təsdiqləyir. Interregional səviyyədə isə bir neçə turizm ərazisinin maraqlı tərəfləri arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət nəticəsində sinergetik effekt əldə edilir.
9. Turizm ekosisteminin fəaliyyətində rəqəmsal platformalar mühüm alət rolunu oynayır. Bu platformalar vasitəsilə maraqlı tərəflər texnoloji qarşılıqlı təsir, bilik və məlumat mübadiləsini həyata keçirirlər. Rəqəmsal platformalar həm dövlət-özəl tərəfdaşlığı çərçivəsində, həm də kommersiya əsaslı birgə layihələrdə yaradıla və istifadə oluna bilər.
10. Turizm ekosisteminin inkişaf layihələrinin maliyyələşdirilməsi üçün müxtəlif mənbələrdən istifadə oluna bilər: qrantlar, investisiya vəsaitləri, maraqlı tərəflərin resursları, vençur kapital və kredit vəsaitləri.
11. Ekosistem çərçivəsində mehmanxana sənayesinin inkişafı planlı və məqsədyönlü şəkildə həyata keçirilir və bu inkişaf turizm növlərinə uyğun olaraq istiqamətləndirilir.

ƏDƏBİYYAT SİYAHISI

1. Adner, R. (2006). Match your innovation strategy to your innovation ecosystem. Harvard Business Review, (4), 98–107. https://www. researchgate. net/publication/7201007_Match_Your_Innovation_Strategy_To_Your_Innovation_Ecosystem
2. Philipp, J. , Thees, H. , Olbrich, N. , & Pechlaner, H. (2022). Towards an ecosystem of hospitality: The dynamic future of destinations. Sustainability, 14(2), 821. https://www. researchgate. net/publication/357783423_Towards_an_Ecosystem_of_Hospitality_The_Dynamic_Future_of_Destinations
3. Jacobides, M. , Cennamo, C. , & Gawer, A. (2018). Towards a theory of ecosystems. Strategic Management Journal, 39(8), 2255–2276. https://www. researchgate. net/publication/323916602_Towards_a_Theory_of_Ecosystems
4. Ryzhkova, O. V. , & Borodkina, V. V. (2017). Success of regional innovation ecosystems and their integration into the national innovation ecosystem. In A. V. Babkin (Ed.), Industrial policy in the digital economy: Problems and perspectives (pp. 302–310). https://elibrary. ru/download/elibrary_32394843_47295510. pdf
5. Fadeykina, N. V. , & Malina, S. S. (2021). Development of theoretical concepts of "ecosystem" and "innovation ecosystem. " Sibirskaia Finansovaia Shkola, 2(142), 103–111. https://elibrary. ru/download/elibrary_46366363_99546487. pdf

CULFA RAYONUNUN TARİXİ-MƏDƏNİ İRSİNİN FORMALAŞMASINDA TƏBİİ-COĞRAFİ AMİLLƏRİN ROLU

The Role of Natural-Geographical Factors in the Formation of the Historical-Cultural Heritage of Julfa Region

LƏTİFƏ NOVRUZOVA[1]
Latifa Novruzova[1]
letifenovruzova7@gmail. com
https://orcid. org/0009-0003-8688-4352

ÜLVİYYƏ İSGƏNDƏROVA[1]
Ulviyya Isgandarova[1]
uisgenderova86@gmail. com
https://orcid. org/0000-0001-9875-1176

NAİLƏ ƏLİYEVA[1]
Naila Aliyeva[1]
naileeliyeva280@gmail. com
https://orcid. org/0009-0006-5219-8727

[1]*Naxçıvan Dövlət Universiteti*
[1]*Nakhchivan State University*

XÜLASƏ

Məqalədə Culfa rayonunun zəngin tarixi-mədəni irsinin formalaşmasında təbii-coğrafi amillərin, o cümlədən relyef, iqlim, hidroqrafik şəbəkə və geoloji quruluşun həlledici rolu kompleks şəkildə tədqiq olunur. Tədqiqat işində Gülüstan türbəsi, Əlincəçay xanəgahı, Kırna türbəsi və Qazançı körpüsü kimi mühüm memarlıq abidələrinin landşaftla harmonik vəhdəti elmi əsaslarla təhlil edilir. Müəlliflər qeyd edirlər ki, bölgənin kəskin kontinental iqlimi və spesifik geomorfoloji xüsusiyyətləri orta əsr memarlarını orijinal mühəndislik həlləri tapmağa sövq etmişdir. Xüsusilə, sərdabələrin yerüstü hissəyə qaldırılması və piramidaşəkilli günbəz örtüklərindən istifadə edilməsi abidələrin ekoloji amillərdən qorunmasına xidmət etmişdir. Məqalədə həmçinin yerli tikinti materiallarının, xüsusən qırmızı qumdaşı və çapma daşların memarlıq üslubuna və abidələrin dayanıqlığına təsiri vurğulanır. Araz və Əlincəçay faktorlarının həm strateji müdafiə sistemlərinin, həm də mühüm ticarət-kommunikasiya qovşaqlarının formalaşmasındakı əhəmiyyəti arxeoloji və memarlıq nümunələri ilə əsaslandırılır. Tədqiqatın nəticələri bölgənin tarixi irsinin ekoloji standartlara uyğun bərpası və turizm potensialının artırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Açar sözlər: *Culfa, təbii-coğrafi amillər, Gülüstan türbəsi, Əlincəçay xanəgahı, landşaft, memarlıq irsi.*

ABSTRACT

The article comprehensively examines the decisive role of natural-geographic factors, including relief, climate, the hydrografic network, and geological structure, in the formation of the rich historical and cultural heritage of the Jolfā district. The study scientifically analyzes the harmonious unity with the landscape of important architectural monuments such as the Gülüstan Mausoleum, the Alinja River Khanaka, the Kirna Mausoleum, and the Gazançı Bridge. The authors note that the region's harsh continental climate and specific geomorphological features prompted medieval architects to find original engineering solutions. In particular, raising the crypts to the ground level and the use of pyramidal dome covers served to protect the monuments from ecological factors. The article also highlights the influence of local building materials, particularly red sandstone and cut stones, on the architectural style and the durability of the monuments. The role of the Aras and Alıncaçay rivers in the formation of both strategic defense systems and important trade and communication hubs is substantiated by archaeological and architectural examples. The results of the study are of significant importance for the restoration of the region's historical heritage in accordance with ecological standards and for enhancing its tourism potential.

Keywords: *Julfa, natural-geographical factors, Gülüstan Mausoleum, Alınca River Khanakah, landscape, architectural heritage.*

GİRİŞ

Naxçıvan Muxtar Respublikasının qədim yaşayış məskənlərindən biri olan Culfa rayonu özünəməxsus təbii-coğrafi mövqeyi və zəngin tarixi-mədəni irsi ilə seçilir. Bölgənin fiziki-coğrafi şəraiti, xüsusilə relyef quruluşu və torpaq-bitki örtüyü burada minilliklər boyu formalaşan mədəniyyətin xarakterini müəyyən etmişdir. Rayonun torpaq örtüyü əsasən dağ-çəmən, qəhvəyi dağ-meşə, dağ-şabalıd və boz-çəmən torpaqlardan ibarətdir. Bu torpaq müxtəlifliyi fonunda ərazidə səhra, yarımsəhra və subalp çəmənlikləri ilə yanaşı, palıd, fıstıq və vələsdən ibarət

enliyarpaqlı dağ meşələri də yayılmışdır. Zəngin fauna aləmi və əlverişli ekoloji mühit hələ qədim dövrlərdən insanların bu ərazidə məskunlaşmasına, əkinçilik, maldarlıq və ovçuluqla məşğul olmasına şərait yaratmışdır.

Müasir dövrdə qlobal urbanizasiya və ekoloji dəyişikliklər fonunda tarixi-mədəni abidələrin qorunması və onların təbii landşaftla vəhdətdə öyrənilməsi xüsusi aktuallıq kəsb edir. Culfa rayonu ərazisində yerləşən Gülüstan türbəsi, Əlincəçay xanəgahı və Qazançı körpüsü kimi abidələr yalnız memarlıq nümunəsi deyil, həm də bölgənin coğrafi resurslarından istifadə mədəniyyətinin göstəricisidir (Hacıyeva, 2009). Bu abidələrin yerləşdiyi landşaftın ekoloji-coğrafi xüsusiyyətlərinin tədqiqi, onların gələcək nəsillərə ötürülməsi və turizm potensialının artırılması (Bababayli, Zeynalov, Maharramova, & Isgenderova, 2026, s. 721). baxımından mühüm əhəmiyyətə malikdir.

Tədqiqat işinin əhəmiyyəti Culfa rayonunun təbii-coğrafi faktorlarının (relyef, çay şəbəkəsi, tikinti materialları üçün xammal bazası) maddi mədəniyyət irsinin formalaşmasındakı həlledici rolunu elmi əsaslarla ortaya qoymasındadır. Xüsusilə "Arazboyu" Dövlət Təbiət Yasaqlığı və akademik Həsən Əliyev adına Milli Park kimi mühafizə sahələrinin tarixi abidələrlə eyni arealda yerləşməsi, bölgədə ekoturizm və mədəni turizmin sintezi üçün geniş imkanlar açır. Bu istiqamətdə aparılan təhlillər bölgənin sosial-iqtisadi inkişaf strategiyalarının hazırlanmasında və tarixi irsin ekoloji standartlara uyğun bərpasında elmi mənbə rolunu oynaya bilər.

MATERİAL VƏ METODLAR

Tədqiqatın materiallarını Naxçıvan Muxtar Respublikasının Culfa rayonu ərazisində yerləşən Gülüstan türbəsi, Əlincəçay xanəgahı, Kırna türbəsi və Qazançı körpüsü kimi fundamental tarixi-memarlıq abidələri, habelə regionun fiziki-coğrafi xəritələri və geoloji quruluşuna dair elmi mənbələr təşkil edir. Təhlil prosesində rayonun relyef xüsusiyyətləri, hidroqrafik şəbəkəsi (xüsusilə Araz və Əlincəçay) və torpaq-bitki örtüyünə dair coğrafi məlumatlar əsas götürülmüşdür. Abidələrin inşasında istifadə olunan yerli tikinti materiallarının (qırmızı qumdaşı, çapma daşlar) xüsusiyyətləri və onların bölgənin təbii resursları ilə bağlılığı tədqiqatın maddi bazasının mühüm hissəsini formalaşdırır. Tədqiqatın metodologiyası fənlərarası yanaşmaya əsaslanaraq bir neçə elmi metodu əhatə edir. Sistemli təhlil metodu vasitəsilə maddi mədəniyyət nümunələrinin yerləşdiyi coğrafi landşaftla qarşılıqlı əlaqəsi araşdırılmış, kartoqrafik metodla abidələrin strateji mövqeyi və çay vadiləri boyunca paylanma qanunauyğunluqları müəyyən edilmişdir. Naxçıvan memarlıq məktəbinə aid mühəndislik həllərinin regionun kəskin kontinental iqlim şəraitinə (insolyasiya, yağıntılar) adaptasiya dərəcəsini üzə çıxarmaq üçün tarixi-müqayisəli metoddan istifadə olunmuşdur. Abidələrin dekorativ elementləri və konstruktiv detalları müşahidə və təsvir metodu ilə sənədləşdirilmişdir. Yekun mərhələdə ekoloji-landşaft yanaşması tətbiq edilərək, tarixi irsin qorunma vəziyyəti və ərazinin müasir turizm potensialı landşaft planlaması nöqteyi-nəzərindən qiymətləndirilmişdir.

TƏHLİL VƏ MÜZAKİRƏ

Culfa rayonu tarixi-mədəni abidələrin zənginliyi ilə yanaşı, bu abidələrin təbii landşaftla harmonik vəhdəti baxımından da xüsusi maraq doğurur. Rayonun ərazisində aparılan arxeoloji tədqiqatlar nəticəsində e. ə. III minilliyin ortalarından son orta əsrlərədək geniş bir dövrü əhatə edən çoxsaylı abidələr qeydə alınmışdır (Hacıyev, 2022). Arxeoloji tapıntılar sübut edir ki, bölgənin əlverişli ekoloji mühiti və münbit torpaq örtüyü qədim sakinlərin əkinçilik, maldarlıq və ovçuluqla intensiv məşğul olmasına zəmin yaratmışdır. E. ə. III-II minilliklərdə Ərəfsə, Bənəniyar və Göydərə kimi ərazilərdə boyalı qablar mədəniyyətinin, daha sonra isə Xocalı-Gədəbəy arxeoloji mədəniyyətinin yayılması bilavasitə bölgənin əlverişli coğrafi mövqeyi ilə bağlıdır. Bölgənin mürəkkəb dağlıq relyefi qədim dövrlərdə müdafiə sistemlərinin quruluşuna həlledici təsir

göstərmişdir. Bunun bariz nümunəsi kimi, əlçatmaz qayaların zirvələrində, təbii maneələrdən məharətlə istifadə edilərək inşa edilmiş Qazançı qalasını göstərmək olar. E. ə. III-I minilliklər boyu bu qala möhtəşəm divarları və strateji yüksəklikdə yerləşməsi sayəsində yadelli işğalçılara qarşı mühüm mübarizə meydanı olmuşdur. Həmçinin, Camaldın antik nekropolunda qəbirə balıqqulağı qoyulması adəti bölgənin qədim su hövzələri və çay vadiləri ilə olan sıx əlaqələrindən xəbər verir. Culfa memarlığında hidroqrafik şəbəkənin - xüsusilə Araz və Əlincəçay faktorunun rolu əvəzsizdir. Orta əsrlərə aid Gülüstan türbəsi və karvansarasının, habelə Araz çayı üzərindəki XIII əsr körpüsünün məhz çay vadiləri boyunca qərarlaşması, bu ərazilərin mühüm ticarət-kommunikasiya qovşağı olduğunu təsdiqləyir. Xanəgah kəndindəki Əlincəqala və Əlincəçay xanəgahı memarlıq komplekslərinin yerləşməsi də təbii qayalıqların və su mənbələrinin strateji və mənəvi vəhdətini nümayiş etdirir. Qazançı kəndindəki körpü, hamam və məscid kimi tikililərin inşasında yerli daş materiallarından istifadə olunması təbii resursların memarlıq üslubuna təsirinin nəticəsidir.

Culfa rayonunun Xanəgah kəndində, strateji əhəmiyyətli Əlincəçayın sahilində yerləşən Əlincəçay Xanəgahı, Azərbaycanın orta əsr memarlıq kompleksləri içərisində həm mənəvi, həm də landşaft xüsusiyyətlərinə görə xüsusi yer tutur. El arasında "Şeyx Xorasan" adlandırılan bu kompleks, bölgənin sərt dağlıq relyefi və su resurslarının memarlıq planlamasına təsirini aydın şəkildə nümayiş etdirir. Kompleksin birbaşa çay sahilində salınması, orta əsrlərdə sufi məskənlərinin həm məişət ehtiyaclarını ödəyən, həm də zikr üçün lazım olan hüzurlu mikroklimatı təmin edən hidroqrafik amillərlə bağlıdır. Kompleksə daxil olan əsas türbə, memar Xacə Cəmaləddin tərəfindən ulu alim Uluq Qutluq Lala bəyin əmri ilə inşa edilmişdir. Kitabəsinin bir hissəsi aşınsa da, tikilinin memarlıq-konstruktiv quruluşu onun XII-XIII əsrlərin möhkəm dağ memarlığı ənənələrinə uyğun gəldiyini göstərir. Yerli əhalinin inancına görə, hürufilik təliminin banisi Fəzullah Nəiminin 1394-cü ildə (hicri 796) Əlincədə faciəli şəkildə qətlə yetirilməsindən sonra cənazəsinin bura gətirilməsi, abidəni həm də sakral bir ziyarətgaha çevirmişdir. "Şeyx Xuras" (Günəşə oxşar şeyx) ləqəbi, bölgənin bol günəşli iqlimi və nuraniyyət fəlsəfəsi ilə simvolik bir vəhdət təşkil edir. Kompleksin cənub hissəsində yerləşən türbə-məscid isə 1495-96-cı illərdə Xond Bikə xatın tərəfindən sufi rəhbəri Şeyx Hacı Lələ Məliyin xatirəsinə ucaldılmışdır. Bu, bölgədəki ailəvi xanəgah ənənəsinin və məskunlaşma tipinin göstəricisidir. Ətrafda aparılan qazıntılar zamanı 1444-1493-cü illərə aid aşkar olunan çoxsaylı məzar kitabələri sübut edir ki, Culfanın tranzit yollar üzərindəki coğrafi mövqeyi bu dini-fəlsəfi mərkəzin əsrlər boyu (hətta XVIII əsrə qədər) aktiv qalmasına şərait yaratmışdır. Beləliklə, Əlincəçay Xanəgahı, Culfanın sıldırım qayalıqları və çay vadisi ilə vəhdət təşkil edərək, təbiətin və tarixin qovuşduğu nadir bir coğrafi məkanda öz varlığını qoruyub saxlamışdır.

Gülüstan türbəsi Naxçıvan Muxtar Respublikasının Culfa rayonu ərazisində, Araz çayının sol sahilində yerləşən, orta əsrlər Azərbaycan memarlığının ən nadir incilərindən biridir (Buran, Səfərli, 2018). Bu abidənin həm struktur formalaşmasında, həm də dövrümüzə qədər mühafizə olunmasında regionun spesifik geomorfoloji quruluşu və iqlim amilləri həlledici rol oynamışdır. XIII əsrin əvvəllərində Əcəmi Naxçıvani məktəbinin təsiri ilə inşa edilən bu qülləvari türbə, sərdabə qatının yerüstü hissəyə (kürsülük qatına) qaldırılması ilə Azərbaycanın digər türbələrindən fərqlənir. Bu özünəməxsus mühəndislik həlli, əslində ərazinin relyef şəraiti və çay vadisi landşaftı ilə birbaşa əlaqəlidir; belə ki, sərdabənin yuxarı qaldırılması abidəni qrunt sularının təsirindən və arid iqlimin yaratdığı fiziki aşınmalardan qorumaq məqsədi daşımışdır.

Abidənin inşasında istifadə olunan materiallar Culfa rayonunun zəngin geoloji bazasına əsaslanır. Türbənin 12 üzlü gövdəsinin qırmızı qumdaşından inşa edilməsi ərazidəki alt trias və tabaşir yaşlı süxurların mövcudluğu ilə bağlıdır. Qırmızı qumdaşı həm estetik-plastik işləmələr üçün əlverişlidir, həm də bölgənin kəskin kontinental iqliminə qarşı yüksək dözümlülük nümayiş etdirir. Kürsülük hissədə isə daha bərk, yonulmuş daşlardan istifadə olunması abidənin statik dayanıqlığını artırmışdır. Planda 6,6x6,6 metr ölçüyə malik olan kvadrat əsaslı kəsik piramida

formalı kürsülüyün yuxarıda onikibucaqlı qülləyə çevrilməsi, həm bədii-texniki həllin parlaq nümunəsi, həm də ətraf dağlıq landşaftla harmonik uyğunluğun təzahürüdür.

Memarlıq formaları arasındakı mütənasiblik, xüsusilə on iki üzdə ardıcıl təkrarlanan üç növ həndəsi naxış çeşidi və stalaktid şəkilli oymalar regionun yüksək insolyasiya (günəş radiasiyası) xüsusiyyətlərini nəzərə alır. Günəş şüalarının müxtəlif bucaqlar altında bu qabarıq tinlərə və naxışlara düşməsi abidəyə elastik və dinamik bir görkəm qazandırır. Gülüstan türbəsi faza quruluşuna görə Anadolu ərazisindəki memarlıq nümunələri ilə yaxınlıq təşkil edir ki, bu da Culfanın tarixən mühüm coğrafi-strateji keçid məntəqəsi və mədəniyyətlərin kəsişmə nöqtəsi olması ilə izah edilir. Beləliklə, Gülüstan türbəsi təbii material resurslarının, relyefin və iqlim amillərinin memarlıq dühası ilə birləşdiyi elmi-mühəndislik abidəsidir.

XIII əsrə aid edilən Kırna türbəsi, Naxçıvan memarlıq məktəbinin mərkəzi günbəz tipli binalar sahəsində yaratdığı mühüm kompozisiyalardan biridir. Abidənin planda kvadrat şəkilli olması və xaricdən 16 səthli piramidaşəkilli çadırvari günbəz ilə örtülməsi, ərazinin kəskin kontinental iqliminə qarşı düşünülmüş bir mühəndislik yanaşmasıdır. Piramidal örtük yağıntıların sürətlə kənarlaşdırılmasını təmin edir və günəş radiasiyasının birbaşa təsirini azaldaraq daxili temperaturun tənzimlənməsinə xidmət edir. Abidənin Əlincəçay Xanəgahındakı komplekslə struktur oxşarlığı, bölgədəki memarlıq üslubunun vahid coğrafi-mədəni arealda formalaşdığını sübut edir. Qərb fasadındakı stalaktit qurğuları isə yerli daşişləmə sənətinin təbii materiallarla vəhdətini nümayiş etdirir.

Əlincəçay üzərində yerləşən və XVI-XVII əsrlər memarlıq üslubunu əks etdirən Qazançı körpüsü ("Qozbeli körpü"), regionun hidroqrafik şəbəkəsinin nəqliyyat sistemindəki rolunu göstərir. Körpünün biraşırımlı və 8,8 metr hündürlüyündə inşası Əlincəçayın dar dərə quruluşu və mövsümi daşqın xarakteri ilə birbaşa əlaqəlidir. Tikintidə istifadə olunan azca yonulmuş çapma daşlar bilavasitə yaxınlıqdakı dağlıq ərazilərin geoloji süxurlarından əldə edilmişdir ki, bu da yerli resurslardan səmərəli istifadəni təsdiqləyir. Böyük İpək yoluna xidmət edən bu körpü, Ordubad istiqamətindəki əsas yola birləşən karvan yollarının relyefin imkan verdiyi ən strateji keçid nöqtəsində formalaşmasına kömək etmişdir.

Təhlillər göstərir ki, Culfa rayonunun tarixi-mədəni abidələri təbii landşaftla harmonik bir tamlıq təşkil edir. Qazançı körpüsünün Əlincəçay üzərindəki mövqeyi relyefin nəqliyyat qovşaqlarının formalaşmasındakı rolunu, Xanəgah kompleksinin və Kırna türbəsinin su mənbələrinə yaxın yerləşməsi isə orta əsrlərdə məskunlaşma seçimində təbii-coğrafi şəraitin mühüm əhəmiyyət kəsb etdiyini göstərir.

NƏTİCƏ

Culfa rayonunun tarixi-mədəni irsinin təhlili göstərir ki, bölgənin maddi mədəniyyət nümunələri yerli təbii-coğrafi amillərlə qırılmaz bir vəhdətdə formalaşmışdır. Rayonun mürəkkəb dağlıq relyefi hələ qədim dövrlərdən müdafiə sistemlərinin və yaşayış məskənlərinin yer seçimini birbaşa müəyyən etmiş, Qazançı qalası kimi abidələrin timsalında təbii maneələrin memarlıq mühəndisliyi ilə effektiv sintezini ortaya qoymuşdur. Eyni zamanda, Araz və Əlincəçay kimi hidroqrafik faktorlar həm mühüm ticarət-kommunikasiya qovşaqlarının (məsələn, Qazançı körpüsü) yaranmasında, həm də Əlincəçay Xanəgahı kimi dini-mənəvi mərkəzlərin mikroiqlim və məişət ehtiyaclarının ödənilməsində həlledici rol oynamışdır. Bölgənin kəskin kontinental iqlimi və yüksək günəş radiasiyası memarlıq formalarına da ciddi təsir göstərmişdir; Gülüstan və Kırna türbələrində tətbiq olunan piramidal örtüklər və qırmızı qumdaşı kimi yerli dözümlü materiallar bu mühitə adaptasiyanın nəticəsidir. Culfa abidələri sadəcə memarlıq obyekti deyil, həm də yerli geoloji resursların memarlıq dühası ilə birləşdiyi ekoloji-mühəndislik sistemləridir. Yekun olaraq qeyd etmək olar ki, bu abidələrin landşaftla harmonik şəkildə qorunması bölgənin tarixi kimliyinin

saxlanılması və ekoturizm potensialının elmi əsaslarla inkişaf etdirilməsi baxımından müstəsna əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi. (2012). Naxçıvan memarlıq məktəbi: Tarixi və inkişaf mərhələləri. Şərq-Qərb.
2. Bababayli, N. , Zeynalov, H. , Maharramova, K. , & Isgenderova, U. (2026). Assessment of the geographic and tourism potential of the mountainous areas of Nakhchivan in the context of landscape ecology. Journal of Geology, Geography and Geoecology, 34(4), 721-732. https://doi. org/10. 15421/112560
3. Buran, K. , & Səfərli, F. (2018). Orta əsr Azərbaycan memarlığında türbə tipləri: Gülüstan və Kırna nümunələri. Elm və Təhsil.
4. Culfa Rayon İcra Hakimiyyəti. (t. y.). Ümumi məlumat. https://culfa-ih. gov. az/rayon/umumi-melumat
5. Hacıyev, İ. (2022). Culfa rayonunun tarixi. "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi.
6. Hacıyeva, S. A. (2009). Naxçıvanın memarlıq abidələrinin landşaftla harmoniyası. Memarlıq və İnşaat Universiteti Nəşriyyatı.
7. Mədəniyyət dünyası. (2025). (XLVII buraxılış). Bakı.

MƏDƏNİ İRS VƏ MUSİQİNİN TURİZM SEKTORUNDA ROLU

The Role of Cultural Heritage and Music in the Tourism Sector

FAİQ YUSİFLİ
Faig Yusifli
faiq. yusifli@mdu. edu. az
https://orcid. org/0000-0003-3656-0993
Mingəçevir Dövlət Unviersiteti
Mingachevir State University

XÜLASƏ

Bu məqalədə mədəni irs və musiqinin turizm sektorunun inkişafındakı rolu geniş şəkildə təhlil olunur. Mədəni irs maddi və qeyri-maddi olmaqla iki əsas qrupa bölünür və hər iki istiqamət turistlərin maraq dairəsində xüsusi yer tutur. Musiqi isə qeyri-maddi irsin mühüm elementi kimi milli kimliyin formalaşmasında və ölkənin tanıdılmasında əhəmiyyətli rol oynayır. Məqalədə həmçinin mədəni turizmin xüsusiyyətləri, iqtisadi və sosial təsirləri, eləcə də bu sahədə mövcud problemlər araşdırılır. Azərbaycanın zəngin mədəni irsi və musiqi ənənələri nümunə kimi təqdim edilir. Araşdırma nəticəsində müəyyən edilir ki, mədəni irs və musiqi, turizmin davamlı inkişafı üçün strateji əhəmiyyət daşıyır.

Açar sözlər: *mədəni irs, turizm, musiqi, mədəni turizm, muğam, iqtisadi təsir.*

ABSTRACT

This article provides a comprehensive analysis of the role of cultural heritage and music in the development of the tourism sector. Cultural heritage is divided into two main categories: tangible and intangible, both of which hold a special place in the interests of tourists. Music, as an important element of intangible heritage, plays a significant role in shaping national identity and promoting the country internationally. The article also examines the characteristics of cultural tourism, its economic and social impacts, as well as the existing challenges in this field. Azerbaijan's rich cultural heritage and musical traditions are presented as a case study. The research concludes that cultural heritage and music are of strategic importance for the sustainable development of tourism.

Keywords: *cultural heritage, tourism, music, cultural tourism, mugham, economic impact.*

Müasir dövrdə turizm yalnız istirahət və səyahət vasitəsi kimi deyil, həm də xalqların mədəniyyətini tanımaq üçün mühüm platforma kimi çıxış edir. Bu baxımdan mədəni irs və musiqi turizmin ən cəlbedici və yadda qalan elementlərindən hesab olunur. Turistlər getdikləri ölkələrin yalnız təbiətini deyil, həm də onların tarixini, adət-ənənələrini və musiqisini yaxından hiss etmək istəyirlər.

Mədəni irs hər bir xalqın tarix boyu formalaşdırdığı və nəsildən-nəslə ötürdüyü dəyərlərin bütöv bir sistemidir. Bu anlayışa sadəcə keçmişdən qalan yadigar kimi baxmaq düzgün olmaz. Əslində, mədəni irs bu günümüzü formalaşdıran və gələcəyimizə istiqamət verən canlı bir prosesdir. O, insanın kimliyini, düşüncə tərzini və həyatını əks etdirən ən vacib amillərdən biridir. Maddi mədəni irs dedikdə, ilk növbədə gözlə görülən abidələr yada düşür. Qədim şəhər qalıqları, qalalar, saraylar, məscidlər və müxtəlif arxeoloji tapıntılar buna nümunədir. Bu abidələr təkcə memarlıq baxımından deyil, həm də tarixi hadisələrin izlərini yaşatdığı üçün qiymətlidir. Hər bir tikili, hər bir daş keçmişin bir parçasıdır və bizə insanların necə yaşadığını, nəyə inandığını göstərir. Muzeylər də bu baxımdan çox əhəmiyyətlidir, çünki onlar keçmişlə bu gün arasında bir körpü rolunu oynayır. Qeyri-maddi mədəni irs isə daha çox xalqın ruhunu əks etdirir. Buraya atalar sözləri, nağıllar, dastanlar, milli musiqi və rəqslər, eləcə də müxtəlif adət-ənənələr daxildir. Bu irs əsasən şifahi şəkildə nəsildən-nəslə ötürülür. Elə buna görə də onu qorumaq daha çətindir. Çünki burada əsas məsələ yalnız qorumaq deyil, həm də bu dəyərləri yaşatmaq, gündəlik həyatda istifadə etmək və gələcək nəsillərə ötürməkdir. Müasir dövrdə mədəni irsin qorunması daha da önəm qazanıb. Qloballaşma xalqları bir-birinə yaxınlaşdırsa da, milli xüsusiyyətlərin itməsi təhlükəsini

də artırır. Buna görə hər bir cəmiyyət öz mədəni dəyərlərinə sahib çıxmalı, onları qoruyub tanıtmalıdır. Bu işdə yalnız dövlət deyil, həm də ictimai təşkilatlar və hər bir vətəndaş fəal olmalıdır. Məktəblərdə bu mövzunun öyrədilməsi, festivalların və sərgilərin keçirilməsi bu sahədə mühüm rol oynayır. Mədəni irs turizmin inkişafına da böyük təsir göstərir. Tarixi abidələr və milli ənənələr xarici turistlərin marağına səbəb olur və ölkə iqtisadiyyatına töhfə verir. Amma bu proses düzgün idarə olunmasa, irsə zərər də vura bilər. Ona görə turizmlə mədəni irsin qorunması arasında düzgün balans yaratmaq vacibdir. (5)

Musiqi hər bir xalqın mənəvi dünyasını ən incə və eyni zamanda ən təsirli şəkildə ifadə edən sənət növlərindən biridir. O, sadəcə səs və ritmlərdən ibarət deyil, insanların hisslərini, düşüncələrini və həyat tərzini özündə əks etdirən canlı bir dildir. İnsanlar tarix boyu sevincini, kədərini və daxili dünyasını musiqi vasitəsilə ifadə ediblər. Bəzən sözlə demək çətin olan duyğular məhz melodiyalarda daha aydın hiss olunur. Bu səbəbdən musiqi mədəni irsin ayrılmaz bir hissəsi kimi böyük əhəmiyyət daşıyır. Musiqinin milli kimliyin formalaşmasında rolu da çox böyükdür. Hər bir xalqın özünəməxsus musiqi üslubu, ritmi və ifa tərzi var. Bu xüsusiyyətlər onu digər xalqlardan fərqləndirir. İnsan harada yaşamasından asılı olmayaraq, öz xalqının musiqisini eşidəndə daxilində xüsusi bir bağlılıq hiss edir. Bu hiss onun köklərinə və mədəniyyətinə olan sevgisini daha da gücləndirir. Bu baxımdan musiqi təkcə bir sənət növü deyil, həm də milli kimliyin qorunması vasitəsidir. Azərbaycan musiqisi isə öz zənginliyi və müxtəlifliyi ilə seçilir. Bu zənginliyin ən gözəl nümunələrindən biri muğamdır. Muğam yalnız bir musiqi janrı deyil, o, insanın daxili aləminə toxunan, dərin emosional məna daşıyan bir sənət formasıdır. Xanəndə muğam ifa edərkən sadəcə mahnı oxumur, o, bir hekayə danışır, dinləyicini duyğular dünyasına aparır. Muğamda improvizasiya mühüm rol oynayır və bu da hər ifanı fərqli və unikal edir. Musiqi ənənələrinin qorunması və gələcək nəsillərə ötürülməsi əsasən ustad-şagird münasibətləri vasitəsilə həyata keçirilir. Xüsusilə xalq və klassik musiqidə bu ənənə çox önəmlidir. Gənc ifaçılar ustadlardan yalnız ifa texnikasını deyil, həm də musiqinin ruhunu, incəliklərini öyrənirlər. Bu, sadəcə öyrənmə prosesi deyil, həm də mənəvi bir bağdır. Müasir dövrdə texnologiyanın inkişafı musiqinin yayılmasını xeyli asanlaşdırıb. Artıq milli musiqi nümunələri dünyanın müxtəlif yerlərində tanınır və dinlənilir. Bununla yanaşı, bəzi ənənəvi musiqi formalarının unudulmaq riski də mövcuddur. Buna görə də həm klassik, həm də xalq musiqisinin qorunması və təbliği xüsusi diqqət tələb edir. (Əliyev, 2024)

Turizmin inkişafında mədəni irs çox vacib rol oynayır və demək olar ki, bu sahənin əsas dayaqlarından biridir. Müasir dövrdə insanlar səyahət edərkən təkcə istirahət etməklə kifayətlənmirlər. Onlar getdikləri ölkənin tarixini, mədəniyyətini və insanların necə yaşadığını daha yaxından öyrənmək istəyirlər. Bu baxımdan mədəni irs turizmin ən cəlbedici tərəflərindən biri kimi çıxış edir və ölkələrin dünyada tanınmasına kömək edir. Turistlər səfər etdikləri yerlərdə daha çox tarixi abidələri görməyə maraq göstərirlər. Qədim qalalar, saraylar, məbədlər və digər memarlıq nümunələri keçmişin izlərini daşıdığı üçün xüsusi diqqət çəkir. Bu abidələr sayəsində turistlər yalnız tarix haqqında oxumurlar, eyni zamanda onu hiss edirlər. Muzeylər də bu sahədə mühüm rol oynayır, çünki onlar müxtəlif dövrlərə aid əşyaları bir araya gətirərək mədəni irsi daha aydın şəkildə təqdim edir. Mədəni turizmin inkişafında xüsusi marşrutların hazırlanması da böyük əhəmiyyət daşıyır. Bu marşrutlar turistlərə müəyyən mövzu üzrə səyahət etməyə imkan yaradır. Məsələn, tarixi şəhərləri əhatə edən turlar, memarlıq abidələri üzrə səfərlər və ya milli mədəniyyətə həsr olunmuş proqramlar turistlərin marağını daha da artırır. Bu zaman onlar, sadəcə ayrı-ayrı yerləri deyil, bütöv bir mədəniyyəti daha yaxşı anlayırlar. Bundan başqa, mədəni irs yalnız tarixi abidələrlə məhdudlaşmır. Qeyri-maddi irs də turizmdə mühüm yer tutur. Milli musiqi, rəqslər, yeməklər və adət-ənənələr turistlər üçün çox maraqlı olur. Onlar festivallarda iştirak etməyi, yerli yeməklərin dadına baxmağı və ənənəvi sənətlərlə tanış olmağı sevirlər. Bu cür təcrübələr onların səfərini daha maraqlı və yaddaqalan edir. Mədəni turizmin inkişafı iqtisadiyyata da müsbət təsir

göstərir. Turistlərin sayının artması yeni iş yerlərinin yaranmasına, xidmət sahəsinin genişlənməsinə və bölgələrin inkişafına səbəb olur. Ancaq bu proses düzgün idarə olunmazsa, mədəni irsə zərər də vura bilər. Buna görə də turizmlə mədəni irsin qorunması arasında düzgün balans yaradılmalıdır. Abidələrin qorunması, bərpası və düzgün təqdim olunması bu sahədə əsas məsələlərdən biridir. (UNESCO, 2021), (Hüseynov, 2020)

Musiqi ilə turizm arasında əlaqə müasir dövrdə daha da güclənib və bir-birinə təsir edən vacib sahələrə çevrilib. Musiqi yalnız mədəniyyətin bir hissəsi deyil, eyni zamanda turistləri cəlb edən önəmli amillərdən biridir. Bu gün insanlar səyahət planlaşdırarkən təkcə görməli yerləri deyil, həm də iştirak edə biləcəkləri tədbirləri nəzərə alırlar. Bu baxımdan musiqi turizmin inkişafına birbaşa təsir göstərir. Xüsusilə beynəlxalq musiqi festivalları ölkənin tanıdılmasında böyük rol oynayır. Məsələn, Qəbələ Beynəlxalq Musiqi Festivalı kimi tədbirlər hər il müxtəlif ölkələrdən musiqiçiləri və qonaqları bir araya gətirir. Belə festivallar yalnız konsertlərlə yadda qalmır, həm də mədəni mübadilə üçün geniş imkan yaradır. Xarici turistlər həm yerli musiqini tanıyır, həm də ölkənin ümumi mədəni mühitini daha yaxından hiss edirlər. Bu isə turizm axınının artmasına və ölkənin beynəlxalq imicinin güclənməsinə səbəb olur. Canlı musiqi proqramları da turistlərin təcrübəsini daha maraqlı edir. Restoranlarda, parklarda və açıq məkanlarda təşkil olunan musiqili axşamlar insanlara sadəcə istirahət yox, həm də yerli həyat tərzini hiss etmək imkanı verir. Musiqi burada bir növ ortaq dilə çevrilir – insanlar dil bilməsələr belə, eyni melodiya ətrafında birləşə bilirlər. Bu cür anlar turistlərin yaddaşında xüsusi iz buraxır. Küçə musiqisi isə şəhərlərin ruhunu əks etdirən vacib elementlərdən biridir. Açıq havada çıxış edən yerli ifaçılar şəhərə canlılıq qatır və daha səmimi bir atmosfer yaradır. Turistlər üçün bu, planlaşdırılmış tədbirlərdən fərqli olaraq daha təbii və real bir təcrübədir. Bəzən küçədə eşidilən sadə bir melodiya belə səfərin ən yaddaqalan hissəsinə çevrilir. Sonda demək olar ki, musiqi və turizm bir-birini tamamlayan iki mühüm sahədir. Musiqi turizmə emosional rəng qatır, turizm isə musiqinin daha geniş auditoriyaya çatmasına imkan yaradır. Bu əlaqə düzgün inkişaf etdirildikdə həm mədəniyyət qorunur, həm də ölkənin ümumi inkişafına böyük töhfə verilir. (Əliyev, 2024)

Turizmin sürətli inkişafı bir çox müsbət nəticələrlə yanaşı, müəyyən problemlər və çağırışlar da yaradır. Bu sahənin genişlənməsi bəzən mədəni dəyərlərin mahiyyətinə təsir edərək onların kommersiyalaşmasına gətirib çıxarır. Yəni mədəni irs turizm məqsədləri üçün təqdim olunarkən onun ilkin ruhu və orijinallığı müəyyən qədər dəyişə bilər. Bu da xüsusilə yerli ənənələrin sadələşdirilməsi və yalnız turistlərin maraqlarına uyğunlaşdırılması ilə nəticələnir. Digər mühüm problem mədəni irsin qorunması ilə bağlıdır. Tarixi abidələrin, muzeylərin və digər mədəni obyektlərin saxlanılması və bərpası böyük maliyyə və texniki resurslar tələb edir. Əgər bu sahəyə kifayət qədər diqqət yetirilməzsə, zaman keçdikcə bu dəyərlərin zədələnməsi və ya tamamilə itirilməsi riski artır. Buna görə də mədəni irsin qorunması yalnız dövlət qurumlarının deyil, bütün cəmiyyətin birgə məsuliyyəti kimi qəbul edilməlidir. Turist axınının həddindən artıq olması da ciddi problemlər yarada bilər. Kütləvi turizm nəticəsində tarixi abidələrə fiziki ziyan dəyməsi, ətraf mühitin çirklənməsi və infrastrukturun yüklənməsi kimi hallar baş verə bilər. Bu vəziyyət həm mədəni irsin davamlılığını, həm də turistlərin keyfiyyətli təcrübə əldə etməsini mənfi şəkildə təsir edir. Bəzi bölgələrdə turizmin sürətli artımı yerli həyat tərzinə də təsir göstərir. Əhalinin gündəlik həyatı turizm fəaliyyətinə uyğunlaşdıqca ənənəvi sosial struktur zəifləyə və mədəni balans pozula bilər. Bu isə uzunmüddətli perspektivdə mədəni kimliyin itirilməsi riskini yaradır. Bütün bu çağırışlar göstərir ki, turizmin inkişafı planlı və məsuliyyətli şəkildə həyata keçirilməlidir. Dayanıqlı turizm prinsipləri tətbiq olunmalı, mədəni irsin qorunması isə prioritet istiqamət kimi qəbul edilməlidir. Yalnız bu halda turizm həm iqtisadi fayda verə, həm də mədəni dəyərlərin qorunmasına xidmət edə bilər. (Smith, 2016)

Azərbaycan zəngin tarixi və mədəni irsi ilə seçilən ölkələrdən biridir və bu zənginlik ölkənin turizm potensialının əsas dayaqlarından hesab olunur. Burada müxtəlif dövrlərə aid memarlıq

nümunələri, qədim şəhərsalma mədəniyyəti və unikal sənət ənənələri qorunub saxlanılmışdır. Xüsusilə paytaxt Bakının qədim hissəsi olan İçərişəhər turistlərin ən çox ziyarət etdiyi məkanlardan biridir. Dar küçələr, qədim karvansaralar və Qız Qalası kimi tarixi abidələr burada keçmişlə bu günün harmoniyasını yaradır. Azərbaycanın bir çox mədəni irs nümunələrinin UNESCO-nun siyahısına daxil edilməsi onların beynəlxalq səviyyədə tanınmasına və qorunmasına böyük töhfə verir. Bu status həmin abidələrin yalnız milli deyil, həm də ümumbəşəri dəyərə malik olduğunu göstərir. Beləliklə, ölkəyə gələn turistlər təkcə bir coğrafiyanı deyil, həm də dünya əhəmiyyətli mədəniyyət nümunələrini görmək imkanı əldə edirlər. Bu isə Azərbaycanın mədəni turizm sahəsində mövqeyini daha da gücləndirir. Mədəni irsin turizmə təsir edən ən mühüm sahələrindən biri də musiqidir. Azərbaycan musiqisi özünəməxsusluğu və dərin kökləri ilə seçilir. Xüsusilə muğam sənəti milli mədəniyyətin ən parlaq nümunələrindən biridir. Muğam yalnız musiqi deyil, eyni zamanda emosional və fəlsəfi məzmun daşıyan bir sənət formasıdır və dinləyicidə dərin hisslər oyadır. Bundan əlavə, xalq musiqisi və milli ifaçılıq ənənələri də ölkənin turizm cəlbediciliyini artıran əsas amillər sırasındadır. Turistlər Azərbaycana səfər etdikdə yalnız tarixi yerlərlə deyil, həm də canlı musiqi ifaları, mədəni tədbirlər və festivallarla tanış olmaq imkanı əldə edirlər. Bu isə ölkənin mədəni kimliyini daha yaxından hiss etməyə şərait yaradır və səyahəti daha yaddaqalan edir. (Hüseynov, 2020)

NƏTİCƏ

Nəticə etibarilə, mədəni irs və musiqi turizm sektorunun inkişafında strateji əhəmiyyətə malik əsas amillərdən biridir. Bu sahələr təkcə iqtisadi gəlir mənbəyi kimi çıxış etmir, eyni zamanda ölkənin beynəlxalq səviyyədə tanıdılmasına, mədəni kimliyinin formalaşmasına və güclənməsinə mühüm töhfə verir. Turistlər üçün bir ölkənin tarixi, mədəniyyəti və musiqisi həmin məkanın ruhunu hiss etməyə imkan yaradır və bu da səyahəti daha dəyərli və yaddaqalan edir. Mədəni irs və musiqi həmçinin ölkənin "yumşaq güc" vasitələrindən biri kimi çıxış edir. Yəni bu dəyərlər vasitəsilə dövlətlər öz mədəni nüfuzunu artırır, beynəlxalq aləmdə daha müsbət imic formalaşdırır və digər xalqlarla mədəni əlaqələrini gücləndirir. Bu baxımdan mədəni və musiqi turizmi təkcə iqtisadi fəaliyyət deyil, həm də diplomatik və mədəni münasibətlərin inkişafına xidmət edən mühüm sahədir. Gələcəkdə bu potensialdan daha səmərəli istifadə etmək üçün bir sıra vacib addımların atılması zəruridir. İlk növbədə mədəni irsin qorunması və bərpası sistemli şəkildə həyata keçirilməli, tarixi abidələrin təhlükəsizliyi təmin olunmalıdır. Eyni zamanda musiqi ənənələrinin, xüsusilə xalq və klassik musiqi nümunələrinin yaşadılması və yeni nəsillərə ötürülməsi üçün təhsil və mədəni proqramlar genişləndirilməlidir. Bununla yanaşı, davamlı turizm siyasətinin tətbiqi də xüsusi əhəmiyyət daşıyır. Turizm fəaliyyəti planlı şəkildə idarə olunmalı, həm mədəni irsin qorunması, həm də iqtisadi inkişaf arasında balans saxlanılmalıdır. Yalnız bu halda turizm sektoru uzunmüddətli və dayanıqlı inkişaf əldə edə bilər. Ümumilikdə, mədəni irs və musiqi düzgün şəkildə qorunub inkişaf etdirildikdə, həm iqtisadi, həm də mədəni baxımdan ölkənin gələcəyinə mühüm töhfə verən strateji bir resursa çevrilir.

ƏDƏBIYYAT SİYAHISI

1. Əliyev, R. R. (2018). Azərbaycan mədəniyyəti və turizmin inkişafı. Bakı: Elm nəşriyyatı.
2. Hüseynov, T. A. (2020). Turizm iqtisadiyyatı. Bakı: İqtisad Universiteti nəşriyyatı.
3. Smith, M. K. (2016). Issues in Cultural Tourism Studies. London: Routledge.
4. UNESCO. (2021). Cultural Heritage and Tourism. https://whc. unesco. org
5. (2022) Azərbaycanda mədəni irs və mədəni turizm: Resurslar, Məhsullar, Təcrübələr

DAYANIQLI TURİZMDƏ TƏYİNAT YERLƏRİNİN PLANLAŞDIRILMASI VƏ NƏZARƏT MEXANİZMLƏRİ

Destination Planning and Control Mechanisms in Sustainable Tourism

HƏBİB ZEYNALOV
Habib Zeynalov
hebibzeynalov@ndu. edu. az
https://orcid. org/0009-0008-3481-2249
Naxçıvan Dövlət Universiteti
Nakhchivan State University

XÜLASƏ

Bu məqalədə dayanıqlı turizmdə təyinat yerlərinin planlaşdırılması və nəzarət mexanizmlərinin rolu kompleks şəkildə araşdırılır. Tədqiqatın əsas məqsədi turizm destinasiyalarının uzunmüddətli inkişafını təmin edən strateji planlaşdırma yanaşmalarını və bu prosesdə tətbiq olunan nəzarət alətlərini təhlil etməkdir. Məqalədə turizm resurslarının səmərəli istifadəsi, ətraf mühitin qorunması və regionların sosial-iqtisadi inkişafının təmin olunması kimi əsas prinsiplər ön plana çəkilir. Eyni zamanda, planlaşdırma prosesinin effektivliyinin artırılmasında monitorinq, qiymətləndirmə və idarəetmə mexanizmlərinin əhəmiyyəti əsaslandırılır. Nəzarət sistemləri vasitəsilə turizm fəaliyyətlərinin nəticələri izlənilir, risklər müəyyən edilir və zəruri korrektiv tədbirlər həyata keçirilir. Bu isə turizmin davamlı inkişafına və resursların balanslı idarə olunmasına imkan yaradır.

Açar sözlər: *Turizm siyasəti, turist destinasiyası, dayanıqlı turizm, davamlı inkişaf, destinasiyaların planlaşdırılması, nəzarət prosesləri.*

ABSTRACT

This article examines the role of planning and control mechanisms in sustainable tourism destinations. The main purpose of the research is to analyze strategic planning approaches that ensure the long-term development of tourism destinations and the control tools used in this process. The article highlights key principles such as efficient use of tourism resources, environmental protection, and ensuring the socio-economic development of regions. At the same time, the importance of monitoring, evaluation, and management mechanisms in increasing the effectiveness of the planning process is justified. Through control systems, the results of tourism activities are monitored, risks are identified, and necessary corrective measures are implemented. This contributes to the sustainable development of tourism and balanced management of resources.

Keywords:*Tourism policy, tourist destination, sustainable tourism, sustainable development, destination planning, control processes*

GİRİŞ

Müasir dövrdə turizm sektoru qlobal iqtisadiyyatın ən dinamik və sürətlə inkişaf edən sahələrindən biri kimi çıxış edir. Lakin turizmin sürətli inkişafı ilə yanaşı, ətraf mühitə təsirlər, yerli icmaların sosial-mədəni strukturunda dəyişikliklər və resursların qeyri-səmərəli istifadəsi kimi problemlər də aktuallaşmışdır. Bu baxımdan, dayanıqlı turizm konsepsiyası turizm fəaliyyətlərinin uzunmüddətli perspektivdə ekoloji, iqtisadi və sosial tarazlıq əsasında idarə olunmasını zəruri edir (UNWTO, 2018).

Dayanıqlı turizmdə təyinat yerlərinin (destinasiyaların) planlaşdırılması mühüm əhəmiyyət kəsb edir. Bu proses turizm resurslarının optimal istifadəsini, ətraf mühitin qorunmasını və yerli əhalinin rifahının yüksəldilməsini təmin etməyə yönəlmiş kompleks tədbirlər sistemidir (Hall, 2008, s. 45). Effektiv planlaşdırma yalnız strateji yanaşma ilə deyil, eyni zamanda davamlı nəzarət mexanizmlərinin tətbiqi ilə mümkündür. Nəzarət mexanizmləri vasitəsilə turizm fəaliyyətlərinin müəyyən edilmiş məqsədlərə uyğunluğu qiymətləndirilir, mümkün risklər əvvəlcədən müəyyən edilir və zəruri düzəlişlər həyata keçirilir.

Tədqiqatın əsas məqsədi dayanıqlı turizmdə təyinat yerlərinin planlaşdırılması prinsiplərini və bu prosesdə tətbiq olunan nəzarət mexanizmlərini araşdırmaqdır. Eyni zamanda, planlaşdırma və nəzarət sistemlərinin qarşılıqlı əlaqəsi və onların turizmin dayanıqlı inkişafına təsiri təhlil edilir.

Dayanıqlı turizmin planlanması prosesi

Turizm inkişaf strategiyalarında planlaşdırma mühüm və həlledici elementlərdən biri hesab olunur. Planlaşdırma təcrübələri xüsusilə İkinci Dünya Müharibəsindən sonra, 1950-ci illərdə turizmə olan tələbin sürətlə artması ilə formalaşmağa başlamışdır (Page, 2014, s. 67). Müharibədən sonrakı dövrdə iqtisadiyyatın bərpası, əhalinin gəlirlərinin artması və nəqliyyat imkanlarının genişlənməsi turizmin qlobal miqyasda sürətli inkişafına şərait yaratdı. Bu inkişaf nəticəsində dövlətlər turizmi yalnız istirahət sektoru kimi deyil, həm də iqtisadi artım, məşğulluğun artırılması və regional inkişaf vasitəsi kimi qiymətləndirməyə başladılar.

Bu mərhələdə turizmə investisiya qoyuluşları artmış, həm özəl sektor, həm də dövlət qurumları bu sahəyə maraq göstərmişdir. Nəticədə turizm fəaliyyəti yalnız otel və turoperatorların fəaliyyəti ilə məhdudlaşmayaraq, daha geniş iqtisadi və sosial sistemin tərkib hissəsinə çevrilmişdir. Beləliklə, turizm bazarının kompleks xarakteri ortaya çıxmış və planlaşdırmanın zəruriliyi daha da aydın olmuşdur.

Turizmdə planlaşdırmanın inkişaf mərhələləri:

1960-cı illərdə dövlətlərin turizm planlaşdırmasına yanaşması daha aktiv xarakter almağa başladı. Əvvəlki dövrlərdə əsas diqqət investisiyaların cəlb olunmasına yönəldilmişdisə, sonradan turizmin idarə olunması, infrastrukturun inkişafı və bazarın tənzimlənməsi prioritet oldu. Kütləvi turizmin genişlənməsi nəticəsində təyinat yerlərində həm iqtisadi, həm də sosial təzyiqlər artdı və bu da planlaşdırmanın vacibliyini daha da gücləndirdi.

1960-cı illərin sonlarında turizmin yalnız kütləvi deyil, həm də alternativ formalarının (ekoturizm, mədəni turizm və s.) inkişafı planlaşdırma yanaşmalarına yeni baxış gətirdi. Bu dövrdə artıq mütəxəssislərin rolu artdı və planlaşdırma prosesinə cəmiyyətin daxil edilməsi vacib faktor kimi qəbul edildi.

1980-ci illərdə turizmin mənfi sosial, iqtisadi və ekoloji təsirləri daha aydın şəkildə müşahidə olunmağa başladı. Bu səbəbdən inkişaf etməkdə olan ölkələrdə milli və regional səviyyədə turizm planlaşdırmasına xüsusi önəm verildi. Planlaşdırma artıq yalnız iqtisadi inkişaf vasitəsi deyil, həm də ekoloji tarazlığın qorunması və sosial rifahın təmin olunması üçün bir alət kimi qəbul edildi (UNEP & UNWTO, 2005, s. 12).

1990-cı illərdə isə destinasiya idarəetməsi anlayışı formalaşdı və turizmin strateji planlaşdırılması daha sistemli şəkildə həyata keçirilməyə başlandı. Bu mərhələdə turizmin davamlı inkişafı, rəqabət qabiliyyəti və marketinq strategiyaları ön plana çıxdı.

Turizm planlaşdırmasının mahiyyəti - Turizm planlaşdırması çox ölçülü və inteqrativ bir prosesdir. O, iqtisadi, sosial, siyasi, psixoloji, mədəni və texnoloji amilləri özündə birləşdirir. Planlaşdırmanın əsas məqsədi qısa və uzunmüddətli inkişaf məqsədlərini müəyyənləşdirmək, resurslardan səmərəli istifadə etmək və turizm fəaliyyətlərini sistemli şəkildə idarə etməkdir.

Turizm planlaşdırması həm təyinat yerlərinin, həm də turistlərin maraqlarını nəzərə alaraq iqtisadi, ekoloji və sosial-mədəni balansın təmin olunmasına xidmət edir. Eyni zamanda, turizm fəaliyyətlərinin mənfi təsirlərini minimuma endirmək və müsbət təsirləri maksimuma çatdırmaq əsas məqsədlərdən biridir.

Turizmin düzgün planlaşdırılması bir sıra üstünlüklər yaradır:

- İnkişaf məqsədlərinin daha sistemli şəkildə həyata keçirilməsinə imkan verir;
- Turizm məhsullarının müəyyənləşdirilməsi və inkişaf mərhələlərinin planlı şəkildə həyata keçirilməsini təmin edir;
- Yerli əhalinin həyat keyfiyyətini yüksəldir;
- Ətraf mühitin qorunmasına və resursların davamlı istifadəsinə şərait yaradır;

- İqtisadi inkişafla sosial rifah arasında tarazlıq yaradır.

Turizm planlaşdırma yanaşmaları - Turizm planlaşdırmasında müxtəlif yanaşmalar mövcuddur və bu yanaşmalar zamanla inkişaf etmişdir. Əsas yanaşmalar aşağıdakılardır:

1. İqtisadi yanaşma - bu yanaşma turizmi əsasən iqtisadi inkişaf vasitəsi kimi qiymətləndirir. Turizm gəlir yaratmaq, investisiya cəlb etmək və regional inkişafı sürətləndirmək üçün istifadə olunur. Lakin bu yanaşma sosial və ekoloji təsirləri tam əhatə etmir.
2. Fiziki-məkan yanaşması - bu yanaşma təyinat yerlərinin fiziki resurslarının düzgün idarə olunmasına əsaslanır. Torpaq istifadəsi, infrastruktur planlaşdırılması və ətraf mühitin qorunması əsas prioritetlərdir. Məqsəd turizm fəaliyyətlərinin məkan üzrə balanslı paylanmasını təmin etməkdir.
3. Cəmiyyət əsaslı yanaşma - 1970-ci illərdə formalaşan bu yanaşma yerli əhalinin turizm prosesinə aktiv şəkildə cəlb olunmasını nəzərdə tutur. Burada əsas məqsəd turizmin sosial faydalarının yerli icma arasında ədalətli bölüşdürülməsidir.
4. Strateji yanaşma - strateji yanaşma turizmin uzunmüddətli inkişafını təmin etməyə yönəlib. Bu yanaşmada rəqabət qabiliyyəti, marketinq strategiyaları və idarəetmə effektivliyi əsas rol oynayır (Hall, 2008, s. 88).
5. Davamlı turizm yanaşması - davamlı turizm yanaşması iqtisadi, sosial və ekoloji balansın qorunmasını hədəfləyir. Rio Zirvəsindən (1992) sonra bu yanaşma daha geniş şəkildə tətbiq olunmağa başlamışdır. Məqsəd gələcək nəsillərin ehtiyaclarını təhlükəyə atmadan turizmin inkişafını təmin etməkdir.

Turizm planlaşdırmasının səviyyələri:

Turizm planlaşdırması müxtəlif səviyyələrdə həyata keçirilir:

Beynəlxalq səviyyə **-** Bir neçə ölkəni əhatə edir və beynəlxalq əməkdaşlıq, ortaq marketinq və standartların müəyyənləşdirilməsini əhatə edir.

Milli səviyyə **-** Ölkə daxilində turizm siyasəti, investisiya planları, nəqliyyat infrastrukturu və marketinq fəaliyyətlərini əhatə edir.

Regional səviyyə **-** Bölgələr üzrə turizm resurslarının idarə olunması və infrastrukturun inkişafı ilə bağlıdır. Burada yerli xüsusiyyətlər nəzərə alınır.

Yerli səviyyə - Şəhər, kənd və konkret turizm məkanlarını əhatə edir. Bu səviyyədə icma iştirakı xüsusi əhəmiyyət daşıyır.

Turizm planlaşdırma prosesi mərhələli şəkildə həyata keçirilir:

1. *Hazırlıq mərhələsi* – planlaşdırmaya ehtiyacın müəyyən edilməsi və ilkin analizlərin aparılması.
2. *Məqsəd və hədəflərin müəyyənləşdirilməsi* – inkişaf istiqamətlərinin formalaşdırılması.
3. *Analiz mərhələsi* – mövcud vəziyyətin qiymətləndirilməsi və məlumatların toplanması.
4. *Planın hazırlanması* – alternativlərin yaradılması və strategiyanın formalaşdırılması.
5. *Qərarvermə mərhələsi* – ən uyğun variantın seçilməsi.
6. *İcra mərhələsi* – planın tətbiqi və həyata keçirilməsi.
7. *Nəzarət və qiymətləndirmə* – nəticələrin izlənməsi və düzəlişlərin edilməsi.

Destinasiya planlamasının əsas tərkib bölmləri **-** Turizm yerlərə yeni dizaynlar, rənglər və dəyişikliklər gətirir. Gediləcək yerlərə turistlərin dəyişən tələb və gözləntilərinə uyğun təcrübələr və məhsullar daxildir; Sosial, mədəni və estetik mühitlər təqdim edir. İstiqamətlərin bu xüsusiyyətləri turizmin davamlı inkişafının zəruriliyini ortaya qoyur. Turizmin inkişafının davamlılığı düzgün və effektiv planlaşdırma ilə mümkündür.

Planlaşdırmanın uğurlu olmasında əsas amillər təsirli olur. Bu elementlər bir bölgəyə

gələn turistlərdə təsirli olan və turizmin davamlılığını təmin edən əsas xüsusiyyətlərdir.

Yerlərin davamlılığına təsir göstərən amillər turizm bölgələrinin zəif və güclü tərəflərini müəyyənləşdirməyə və bu istiqamətdə planlaşdırma strategiyalarını həyata keçirməyə kömək edir.

Planlaşdırma təcrübələrində bu amilləri nəzərə alaraq; Xərclər, iqtisadi təsirlər və sakinlərin həyat keyfiyyəti bölgədə turizmin təsirini artırmaq üçün təsirli olur. Bu çərçivədə, təyinat planlamasında təsirli olan amillər aşağıda izah edilmişdir.

Qlobal iqtisadiyyatlardakı qarşılıqlı əlaqələrin artması nəticəsində bir çox istiqamət rəqabətə cəlbolunur. Rəqabət mühiti, istiqamətlərin ətraf mühit, infrastruktur və imkanlar baxımından eyni şəkildə planlaşdırılmasına səbəb ola bilər.

Hədəf yerlər, rəqiblərindən fərqli olmaq üçün planlaşdırma prosesində fərqli strategiyalar tətbiq etməlidirlər. Fərqli fərman strategiyalarının həyata keçirilmə üsullarından biri də bazar analizidir.

Bazar təhlili, təyinat yerlərində inkişafın və zəruri infrastrukturun inkişafına kömək edən tələbin qiymətləndirilməsinin nəticəsidir. Bazar analizində beynəlxalq və yerli turistlər də daxil olmaqla mövcud və potensial rəqabət edən yerlər təhlil olunur. Rəqabət qabiliyyəti konsepsiyasına yönəldilmiş analitik çərçivədə turizm istiqamətlərinin inkişafı və təbliği qurulmalıdır.

Bugünkü turizm bazarları kompleks bir quruluşa malikdir. Bu səbəbdən uçucu turistlərintələb meylləri nəzərə alınaraq hədəf bazar seçimi və bazar seqmentləşdirilməsi məqsədəuyğun olardı. Gedəcəyiniz yerlər, istehlak, qarışıq mədəniyyətlər, dəyərlər, gözləntilər və təcrübələrdən ibarətdir. Təyinat yerlərinin müvəffəqiyyəti və davamlılığı bölgənin mövcud ehtiyatlarının planlaşdırma prosesinə daxil edilməsindən asılıdır.

Mövcud mənbələr; ziyarətçi cazibə yerləri, mədəniyyət, işçi qüvvəsi, nəqliyyat, infrastruktur, üst quruluş, dəstək xidmətləri və yaşayış.

Ziyarətçi cazibə yerləri: İstiqamətlərin əsas cazibə yerləri təbii və süni sərvətlərdən, mədəni sərvətlərdən və xüsusi tədbirlərdən ibarətdir. Bununla birlikdə, turistlərin təyinat yerlərinə olan tələbinin intensivliyi, cazibə yerlərinin zamanla pisləşməsinə səbəb ola bilər.

Təyinat yerlərinin davamlılığı yalnız ziyarətçiləri cəlb etmək qabiliyyətindən deyil, həm dəcazibə yerlərini qoruyub saxlaya bilməsindən asılıdır. Buna görə planlayanlar təyinat planlaşdırma prosesinə cazibə yerlərini daxil etməlidirlər. Bundan əlavə, cazibə yerlərinin qorunması və qorunması üçün siyasətlər hazırlanmalıdır.

Mədəniyyət: Yerli ənənə, rəqs, yeməklər, əl işləri, mərasimlər, ənənəvi və misilsiz memarlıq kimi elementlərdən ibarətdir. Xüsusilə, turizm aktyorları (turizm planlaşdırmaçıları və potensial turistlər) tərəfindən bənzərsiz və ya qeyri-adi kimi qəbul edilən mədəniyyət, istiqamətlərdəki turizmin inkişafı ilə ticarət mənbəyinə çevrilir. Turizm sistemi ilə mədəniyyət arasındakı əlaqəni anlamaq mədəniyyətə mənfi təsirlərin qarşısını almağa və ya azaltmağa kömək edə bilər. Doğrudan da, yerli mədəniyyətin davamlılığı, mədəniyyət planlamasına mədəniyyət elementlərini daxil etməklə mümkündür.

İnfrastruktur və üst quruluş: İnfrastruktur və üst quruluş elementləri səyahət üçün təyinat yerlərinin seçilməsində mühüm rol oynaya bilər. Turizm sənayesindəki müəssisələr, turizmsisteminin səmərəli işləməsi və davam etməsi üçün alt quruluşdan və üst quruluşdan asılı vəziyyətdədirlər. İstiqamətlərdəki tikinti elementləri iki hissəyə bölünür. Birinci qrup ümumi infrastruktur kimi qəbul edilən obyektlər, sistemlər və xidmətlərdir. Bunlar bölgənin nəqliyyat sistemidir; Bura yollar, metrolar, hava limanları, sistemlər və qurğular, avtobus terminalları və xidmətləri, bərə və gəmilər, taksi və əlaqəli xidmətlər kimi sistemlər daxildir. İkincisi, infrastruktur hesab olunmayan, lakin bölgədə köməkçi xidmətlər göstərən

üstquruluş sistemləridir. Bu üst quruluş sistemləri; Otellər, kurortlar, restoranlar, ticarət mərkəzləri, hava limanı binaları, muzeylər və qida dükanları, avtodayanacaqlar, yanacaqdoldurma məntəqələri, apteklər, kitab mağazaları, bərbərlər, avtoyuma, velosiped və avtomobil kirayəsi müəssisələri, kimyəvi təmizləmə və çamaşırxanalar.

Nəqliyyat: İstənilən bölgədə turistik bir məhsuldan bəhs etmək üçün əlçatan olmalıdır. Əlçatan bir ritualda olmadıqca, turizm məhsulu potensial təklifdən kənara çıxa bilməz. Toplu nəqliyyat vasitələrinin və əlaqəli infrastrukturun mövcudluğu, təyinat yerlərinə çatma baxımından davamlı turizmin tətbiqinə və inkişafına müsbət təsir göstərir. Nəqliyyat infrastrukturu, hava limanı mərkəzlərinin olması, ölkədəki və xaricdəki digər istiqamətlərlə əlaqələrin olması turizmin inkişafı və davamlılığında təsirli olan əsas xüsusiyyətlərdir. Hava, su, dəmir yolu və magistral yollar kimi cari və potensial nəqliyyat ehtiyaclarının sərnişinlərin və malların daşınması üçün araşdırılması lazımdır. Bu cür məlumatlar hökumətə mümkün genişlənmə və ya marşrutların planlaşdırılmasında, terminallar və istiqamətlər arasındakı trafik qaydalarının qiymətləndirilməsində və sıxlığın əsas turistik yerlərə, tarixi yerlərə, parklara və çimərliklərə təsirinin ölçülməsində rəhbərlik edir.

Dəstək xidmətləri: Dəstək xidmətləri ziyarətçilər tərəfindən istifadə edilən nəqliyyat və turizm məlumat ofisləri kimi xidmətləri əhatə edir. Dəstək xidmətləri; turistik ərazi dəstək xidmətləri otellərə, restoranlara, hava limanlarına və turistik fəaliyyətlərə asanlıqla giriş təmin etməyi hədəfləyən regional rəhbərlikdən ibarətdir. Bunlar; avtodayanacaqlar, istiqamətləndirici nişanlar və bələdçilər, xəritələr, təmir və təmir müəssisələri, polis mühafizəsi, yanmadan qorunma, pərakəndə mağazalar, idman obyektləri, festivallar, apteklər, sənətkarlıq obyektləri, kitab mağazaları, mağazalar.

Bura turistik yerlərin əlçatanlığını asanlaşdıran sənət qalereyaları, muzeylər və digər xidmətlər daxildir. Bu xidmətlərdən biri mövcud deyilsə, soruşanlar görünəcəkdir. Planlaşdırma prosesindəbu xidmətlərin vurğulanması turizmin inkişafında vacibdir.

Yerləşdirmə: Turistlər ziyarət zamanı yaşayış yerləri, yemək və içki xidmətləri, alış-veriş, boş vaxt və turist xidmətləri kimi imkanlarından istifadə edirlər. Turistlərin ehtiyacları və xüsusiyyətləri nəzərə alınmaqla yaradılan yaşayış yerləri təyinat yerində təsirli ola bilər. Yerləşdirmə praktikası planlaşdırmada təyinatın xüsusiyyətləri və quruluşu nəzərə alınmaqla həyata keçirilməlidir. Bundan əlavə, turistlər üçün əlverişli yaşayış yerləri, restoranlar, turistik yerlər, mağazalar və temalı muzeylər kimi müəssisələr yaradılmalıdır.

Marketinq, imicin yaradılması və təyinat yerlərində "satış yerləri" haqqında. Marketinq məhsul axınını istehsalçıdan istehlakçıya istiqamətlərə istiqamətləndirir. Bununla yanaşı, turizm sənayesi ilə turistlər arasında daha səmərəli və səmərəli mübadilə və axınlar yaradır. Ənənəvi olaraq marketinq, təyinatdakı ziyarətçi sayının artırılmasına yönəldilir və turizmə xammal kimi yanaşır. İstiqamətlərin marketinq planlaşdırılması turizm təsirlərinin optimallaşdırılmasına və bölgənin üstünlüklərini maksimum dərəcədə artırmağa istiqamət verməlidir. Hedef marketinqdə turizm siyasətinin müvəffəqiyyəti planlaşdırma ilə əlaqələndirilməlidir.

Hədəf planlaşdırma hədəf bazarların xüsusiyyətlərinə uyğun olaraq yaradılmalıdır. Təyinat üstünlükləri turistlərin xüsusiyyətlərinə görə də fərqlənir. Buna görə bir turizm məhsulu hədəf auditoriyanın xüsusiyyətlərinə uyğun olaraq hazırlanmalı və plana daxil edilməlidir.

Planlaşdırma təcrübələri, hədəf auditoriyaya çatmaq üçün strategiyalar inkişaf etdirilməli və dahasonra yerləşdirmə strategiyaları müəyyənləşdirilməlidir.

İqtisadi və maliyyə təhlili; Texniki-iqtisadi araşdırmalar iqtisadi şərtlərin və nağd pul axını, cari kapital, faiz dərəcələri kimi maliyyə tələblərinin təhlilini əhatə edir. Bununla

yanaşı, beynəlxalq səviyyədə iqtisadi təhlillərə gələn və xaricə gələn turist axını da daxildir. İqtisadi inkişafın bir vasitəsi olaraq, turizm, turizm planlaması və siyasət məsələlərini formalaşdırmaqda və bilik yaratmaqda vacib bir amildir.

Davamlı planlaşdırmanın məqsədi; bölgənin təbii sərvətlərini yaxşılaşdırmaq və mümkün qədər ətraf mühitə zərər vermədən təbii gözəllikləri qorumaq. Buradakı ən vacib məqam, planlaşdırma zamanı təbii ehtiyatların az və daim tükəndiyini nəzərə almaqdır.

İstiqamətlərdə turizmin inkişafı kənd turizmində həyat tərzində dəyişikliklərə səbəb olur. Turizmin inkişafı ilə yerli cəmiyyətin sosial-mədəni xüsusiyyətlərində (vərdişlər, inanclar, dəyərlər, gündəlik həyat və ictimai həyat) dəyişiklik baş verir. Turizmin sosial xidmətlər, istirahət və mədəniyyət obyektləri təqdim etmək, torpaqların və mədəni fəaliyyətlərin təşviqi kimi müsbət xüsusiyyətləri var. Buna görə planlaşdırma təcrübələri turizmin müsbət və mənfi təsirləri nəzərə alınaraq həyata keçirilməlidir. Planlaşdırıcılar turizmin inkişafının yerli əhali üzərində təsirini düşünməlidirlər. Beləliklə, turizmin davamlılığı mümkün olacaqdır (Hüseynov, 2020, s. 102).

Təyinat elementlərində turizmin inkişafına nəzarətin təşkili

Turizmin inkişafı sayəsində təklif yaratmaq və tələbi ödəmək üçün bir çox istiqamətdə planlaşdırılmamış və sürətli bir inkişaf var. Bu sürətli dəyişikliklər təyinat yerinin iqtisadi, ekoloji və sosial-mədəni quruluşunda dəyişikliklərə səbəb ola bilər. Bu şəkildə, planlaşdırılmamış inkişaf təbii və mədəni sərvətlərin quruluşunu dəyişdirə bilər, hətta onları qalıcı şəkildə məhv edə bilər və turizm tələbinin itirilməsinə səbəb ola bilər. İstiqamətlərdə turizmin inkişafının bu nəticələri daşıma qabiliyyəti ilə əlaqədardır.

Turizm daşıma qabiliyyəti anlayışı, turizmin müəyyən bir bölgədə lokal sistemə geri dönməz zərər vermədən davamlı inkişaf edə bilməyəcəyi düşüncəsindən qaynaqlanır. ÜTT daşıma qabiliyyətini "bir bölgənin bir bölgənin təbii ehtiyatlarına, sosial quruluşuna və iqtisadiyyatına mənfi təsir göstərmədən və eyni zamanda turist məmnuniyyətini azaltmadanqəbul edə biləcəyi maksimum turist sayı" olaraq təyin edir (UNWTO, 2018).

Təyinat elementlərində turizmin inkişafına nəzarətin təşkili müasir turizm idarəetməsinin ən vacib istiqamətlərindən biridir. Turizm təyinatı yalnız təbii və mədəni resurslardan ibarət deyil, həm də infrastruktur, xidmət sektoru, yerli icma, dövlət qurumları və özəl sektorun qarşılıqlı fəaliyyətini əhatə edən kompleks sistemdir. Bu səbəbdən turizmin davamlı və balanslı inkişafını təmin etmək üçün effektiv nəzarət mexanizmlərinin qurulması zəruridir.

Turizmin inkişafına nəzarət – təyinat ərazisində turizm fəaliyyətlərinin planlaşdırılmış strategiyalara uyğun həyata keçirilməsini təmin edən, nəticələrin qiymətləndirilməsi və zəruri hallarda korrektəedici tədbirlərin görülməsi prosesidir. Nəzarətin əsas məqsədi turizmin iqtisadi faydalarını artırmaqla yanaşı, sosial və ekoloji təsirləri minimuma endirməkdir.

Bu proses aşağıdakı əsas məqsədlərə xidmət edir:

- Turizm inkişafının planlara uyğunluğunu təmin etmək;
- Təbii və mədəni resursların qorunmasını nəzarətdə saxlamaq;
- Yerli icmanın maraqlarını qorumaq;
- Turizm xidmətlərinin keyfiyyətini artırmaq;
- Mənfi təsirləri (ekoloji, sosial, mədəni) vaxtında aşkar edib aradan qaldırmaq.

Təyinat elementlərində nəzarət sistemi bir neçə əsas komponentdən ibarətdir:

1. Dövlət idarəetmə orqanları **-** Dövlət turizm siyasətini müəyyən edir, qanunvericilik bazasını formalaşdırır və ümumi nəzarəti həyata keçirir. Buraya lisenziyalaşdırma, standartların müəyyən edilməsi və monitorinq daxildir.

2. Yerli icra strukturları - Regional və yerli səviyyədə turizm fəaliyyətlərinin icrasına nəzarət edir. İnfrastrukturun vəziyyəti, xidmət keyfiyyəti və təyinatın idarə olunması bu səviyyədə tənzimlənir.

3. Özəl sektor **-** Otellər, turoperatorlar və digər turizm müəssisələri daxili keyfiyyət nəzarəti həyata keçirir. Bu, xidmət standartlarının qorunmasına xidmət edir.

4. Yerli sakinlər - Turizmin inkişafında birbaşa iştirak edən yerli əhali həm müşahidəçi, həm də nəzarətçi rolunu oynayır. Onların rəyləri və iştirakı sosial balansın qorunmasına kömək edir.

Turizm inkişafına nəzarət müxtəlif mexanizmlər vasitəsilə həyata keçirilir:

- Monitorinq sistemi – turist axını, resurs istifadəsi və xidmət keyfiyyətinin davamlı izlənməsi;
- Göstəricilər sistemi – turizmin iqtisadi, sosial və ekoloji təsirlərini ölçmək üçün indikatorlardan istifadə;
- Audit və yoxlamalar – turizm müəssisələrinin fəaliyyətinin standartlara uyğunluğunun qiymətləndirilməsi;
- Əks-əlaqə mexanizmi – turist və yerli əhali rəylərinin toplanması və təhlili;
- Rəqəmsal nəzarət sistemləri – ağıllı turizm texnologiyaları vasitəsilə real vaxt rejimində məlumatların idarə olunması.

Davamlı inkişaf baxımından nəzarət **-** Davamlı turizm konsepsiyası çərçivəsində nəzarət sistemi xüsusi əhəmiyyət daşıyır. Bu yanaşma iqtisadi inkişafla yanaşı, ekoloji mühitin qorunması və sosial ədalətin təmin edilməsini əsas götürür.

Nəzarət mexanizmləri vasitəsilə aşağıdakı balans qorunur:

- Turizm gəlirlərinin artımı;
- Təbiətə və mədəni irsə zərərin azaldılması;
- Yerli əhalinin rifahının yüksəldilməsi.

Planlaşdırma təcrübələri, təyinatlı yerlərdə turizm tələbi və tələbi ehtiyaclarının sistematik və davamlı şəkildə ödənilməsində vacibdir. Bununla birlikdə, turizmin davamlılığını təmin etmək üçün yerli regional səviyyədə planlaşdırma prosesinə inteqrasiya olunmuş bir proses izlənilməlidir. Turizmin yerli regional planlaşdırma prosesinə inteqrasiyası, təyinat yerinin iqtisadi, sosial və ekoloji davamlılığını təmin edəcəkdir. İstiqamətlərdə turizmin inkişafı ilə birlikdə planlaşdırma və nəzarət təcrübələri, dəyişiklik və inkişaf prosesinin sosial, iqtisadi və ekoloji aspektlərdə əlverişli bir şəkildə aparılması vacibdir.

NƏTİCƏ

Ümumilikdə, turizm planlaşdırması müasir dövrdə davamlı inkişafın əsas alətlərindən biri hesab olunur. Planlaşdırma olmadan turizmin iqtisadi faydaları ilə yanaşı sosial və ekoloji riskləri də artmış olur. Buna görə də sistemli, inteqrasiya olunmuş və davamlı yanaşmaya əsaslanan planlaşdırma turizm sektorunun uzunmüddətli inkişafını təmin edən əsas şərtlərdən biridir.

Aparılan təhlillər göstərir ki, dayanıqlı turizmin təmin olunması üçün təyinat yerlərinin düzgün və elmi əsaslara söykənən planlaşdırılması vacib şərtdir. Planlaşdırma prosesi yalnız turizm potensialının qiymətləndirilməsi ilə məhdudlaşmamalı, həm də ətraf mühitin qorunması, sosial balansın saxlanılması və iqtisadi səmərəliliyin təmin olunması kimi amilləri əhatə etməlidir.

Eyni zamanda, effektiv nəzarət mexanizmlərinin tətbiqi planlaşdırma prosesinin davamlılığını və nəticə yönümlülüyünü təmin edir. Monitorinq, qiymətləndirmə və geri əlaqə

sistemləri vasitəsilə turizm fəaliyyətlərinin dinamikası izlənilir və zəruri hallarda korrektiv tədbirlər görülür. Bu yanaşma risklərin minimuma endirilməsinə və resursların daha səmərəli idarə olunmasına imkan yaradır.

Nəticə etibarilə, təyinat yerlərinin planlaşdırılması və nəzarət mexanizmləri arasında sıx qarşılıqlı əlaqə mövcuddur və bu iki komponentin inteqrasiyası dayanıqlı turizmin əsas şərtlərindən biri kimi çıxış edir. Gələcəkdə bu sahədə innovativ idarəetmə yanaşmalarının və rəqəmsal texnologiyaların tətbiqi dayanıqlı turizmin inkişafına mühüm töhfə verə bilər.

ƏDƏBİYYAT SİYAHISI

1. Abbasov, F. (2017). Turizmin inkişaf istiqamətləri. Bakı: Elm.
2. Babayev, A. (2012). Turizm iqtisadiyyatı. Bakı: İqtisad Universiteti.
3. Butler, R. W. (1980). The concept of a tourist area cycle of evolution. Canadian Geographer, 24(1), 5–12.
4. Əlirzayev, Ə. (2010). Turizmin əsasları. Bakı: Elm.
5. Əlirzayev, Ə. (2015). Turizm siyasəti və inkişafı. Bakı: Elm.
6. Əliyev, V. (2019). Dayanıqlı turizm inkişafı. Bakı: Təhsil.
7. Hall, C. M. (2008). Tourism planning: Policies, processes and relationships. Harlow: Pearson.
8. Həsənov, R. (2014). Turizm menecmenti. Bakı: Təhsil.
9. Hüseynov, S. (2020). Turizm və ətraf mühit. Bakı: Elm.
10. Məmmədov, Z. (2016). Turizmdə strateji planlaşdırma. Bakı: Elm.
11. Nəbiyev, E. (2013). Turizm coğrafiyası. Bakı: Bakı Universiteti.
12. Page, S. J. (2014). Tourism management. London: Routledge.
13. Quliyev, T. (2018). Turizmin təşkili və idarə olunması. Bakı: İqtisad Universiteti.
14. UNEP, & UNWTO. (2005). Making tourism more sustainable: A guide for policy makers. Madrid: UNWTO.
15. UNWTO. (2018). Tourism for development. Madrid: World Tourism Organization.

QARABAĞ VƏ QƏBƏLƏ ZONALARINDA TURİZMİN İNKİŞAFI VƏ ƏHALİNİN SOSİAL RİFAH GÖSTƏRİCİLƏRİNƏ TƏSİRİ

Tourism Development in Karabakh and Gabala Regions and Its Impact on Social Welfare Indicators of the Population

ELÇİN ƏLİYEV
Elchin Aliyev
elchin. aliyev@mdu. edu. az
https://orcid. org/0000-0002-2144-1003
Mingəçevir Dövlət Universiteti
Mingechevir State University

XÜLASƏ

Bu tədqiqatda Azərbaycan Respublikasının Qarabağ və Qəbələ zonalarında turizmin inkişafının sosial-iqtisadi təsirləri elmi əsaslarla araşdırılmışdır. Analitik yanaşma çərçivəsində dövlət proqramları, strateji konsepsiyalar və rəsmi statistik göstəricilər təhlil edilmiş, hər iki ərazinin turizm inkişaf modelinin mərhələləri müqayisəli şəkildə qiymətləndirilmişdir. Qarabağ zonasında turizm post-bərpa mərhələsində fəaliyyət göstərir və iqtisadi canlanma, sosial reinteqrasiya və məşğulluğun artırılması funksiyasını yerinə yetirir. Qəbələ inzibati rayonunda isə turizm artıq yetkinləşmiş sektor kimi, bazar əsaslı idarəetmə mexanizmləri və innovativ məhsullar vasitəsilə iqtisadi sabitliyi və sosial rifahı təmin edir. Araşdırmanın nəticələri göstərir ki, regional turizm siyasətində diferensial yanaşma vacibdir; hər zonanın inkişaf mərhələsinə uyğun strateji tədbirlərin tətbiqi turizmin sosial-iqtisadi təsirini maksimuma çatdırır. Bu tədqiqat turizmin regional iqtisadiyyatın şaxələndirilməsi, əhalinin rifahının yüksəldilməsi və institusional sabitliyin gücləndirilməsində kompleks mexanizm rolunu təsdiqləyir.

Açar sözlər: *Qarabağ zonası, Qəbələ zonası, turizmin inkişaf modeli, regional iqtisadiyyat, sosial rifah, xidmət sektoru.*

ABSTRACT

In this study, the socio-economic impacts of tourism development in the Karabakh and Gabala regions of the Republic of Azerbaijan are examined on a scientific basis. Within the framework of an analytical approach, state programs, strategic concepts, and official statistical indicators were analyzed, and the stages of the tourism development model in both areas were comparatively evaluated. In the Karabakh region, tourism operates in the post-restoration phase, fulfilling functions of economic revitalization, social reintegration, and increased employment. In the Gabala administrative district, however, tourism has already matured as a sector, ensuring economic stability and social welfare through market-based management mechanisms and innovative products. The findings demonstrate that a differentiated approach in regional tourism policy is essential; implementing strategic measures tailored to each region's stage of development maximizes the socio-economic impact of tourism. This study confirms tourism's role as a complex mechanism in diversifying the regional economy, enhancing population welfare, and strengthening institutional stability.

Keywords: *Karabakh region, Gabala region, tourism development model, regional economy, social welfare, service sector*

GİRİŞ

Müasir qlobal iqtisadi sistemdə turizm sektoru regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsində strateji alətlərdən biri kimi çıxış edir. Xüsusilə post-münaqişə dövrünü yaşayan Qarabağ zonası üçün turizm yalnız iqtisadi fəaliyyət sahəsi deyil, həm də reinteqrasiya, sosial dirçəliş və regional balansın bərpası mexanizmi kimi qiymətləndirilir. İnfrastrukturun yenidən qurulması, mədəni irsin bərpası, ekoturizm və etnoturizm potensialının aktivləşdirilməsi bu ərazini Cənubi Qafqazın yeni turizm istiqamətlərindən birinə çevirmək imkanına gücləndirir. Bununla yanaşı, müasir turizm trendləri rəqəmsal rezervasiya sistemləri, dayanıqlı turizm prinsipləri, "smart destination" yanaşmaları və təcrübə əsaslı səyahət modelləri regionun inkişaf strategiyalarının əsas istiqamətlərini müəyyənləşdirir. Həm də, Qarabağda turizmin inkişafı müəyyən problemlərlə müşayiət

olunur: logistika şəbəkələrinin tam bərpa edilməməsi, kadr potensialının formalaşma mərhələsində olması, beynəlxalq turizm bazarında imicin yenidən qurulması və investisiya risklərinin qiymətləndirilməsi kimi məsələlər bu sahədə kompleks yanaşma tələb edir. Bu problemlərin effektiv idarə olunması isə turizmin sosial rifaha təsirini gücləndirərək məşğulluğun artmasına, gəlir səviyyəsinin yüksəlməsinə və regionda sosial sabitliyin möhkəmlənməsinə şərait yaradır.

Azərbaycanın turizm xəritəsində artıq formalaşmış mərkəzlərdən biri olan Qəbələ rayonu isə regional turizmin inkişaf modelinin uğurlu nümunəsi kimi çıxış edir. Burada mövcud olan dağ-meşə landşaftı, iqlim müxtəlifliyi, müasir istirahət kompleksləri və beynəlxalq tədbirlərin keçirilməsi imkanları regionu ilboyu turizm destinasiyasına çevirir. Son illərdə rəqəmsal marketinq, onlayn turizm platformaları və fərdiləşdirilmiş xidmət texnologiyalarının tətbiqi Qəbələnin turizm bazarında rəqabət qabiliyyətini artırmışdır. Lakin sürətli inkişaf fonunda ekoloji tarazlığın qorunması, mövsümi asılılığın azaldılması, yerli əhalinin turizm dəyər zəncirinə daha geniş inteqrasiyası və qiymət siyasətinin optimallaşdırılması kimi çağırışlar aktuallığını qoruyur. Bu problemlərin həlli sosial rifah göstəricilərinə birbaşa təsir göstərir: turizm gəlirləri regionda sahibkarlığın genişlənməsinə, yeni iş yerlərinin açılmasına, xidmət sektorunun inkişafına və yaşayış səviyyəsinin yüksəlməsinə səbəb olur. Regional turizmin inkişafı yalnız iqtisadi artım indikatoru deyil, həm də dövlətin uzunmüddətli sosial-iqtisadi strategiyalarının reallaşdırılmasının mühüm mexanizmi kimi qiymətləndirilir. Bu kontekstdə Qarabağ iqtisadi rayonu və Şərgi Zəngəzur iqtisadi rayonu Azərbaycanın milli inkişaf siyasətində prioritet ərazi kimi müəyyən edilmişdir. Xüsusilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", "2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" və "İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramı" kimi fundamental sənədlər Qarabağda dayanıqlı turizm modelinin formalaşdırılması üçün institusional və hüquqi baza yaratmışdır. Bu strateji sənədlər çərçivəsində həyata keçirilən kompleks tədbirlər ağıllı şəhər və kənd konsepsiyalarının tətbiqi, nəqliyyat və logistika dəhlizlərinin qurulması, rəqəmsal xidmət platformalarının yaradılması, startap ekosisteminin təşviqi və innovasiya idarəçiliyinin gücləndirilməsi regionun turizm potensialını yeni inkişaf mərhələsinə çıxarır. Xüsusilə 2025-ci ildə qəbul olunmuş Rəqəmsal İnkişaf Konsepsiyası, Süni İntellekt Strategiyası və rəqəmsallaşma sahəsində idarəetmənin təkmilləşdirilməsinə dair dövlət qərarları turizm sektorunda "smart tourism", böyük verilənlər analitikası və rəqəmsal rezervasiya ekosistemlərinin tətbiqini sürətləndirərək Qarabağı yüksək texnologiyalarla inteqrasiya olunmuş turizm məkanına çevirməyi hədəfləyir. Beləliklə, turizm bu regionda yalnız iqtisadi sektor kimi deyil, həm də sosial reinteqrasiya, məşğulluq artımı və əhalinin rifah səviyyəsinin yüksəldilməsi üçün strateji sosial institut rolunu oynayır.

Azərbaycanın regional turizm sistemində stabil və institusional inkişaf nümunəsi kimi çıxış edən Qəbələ rayonu dövlət proqramlarının praktik effektivliyini nümayiş etdirən əsas modellərdən biridir. Regionların inkişafına dair 2019-2023 Dövlət Proqramı, informasiya cəmiyyətinin inkişafı strategiyaları və rəqəmsal ödənişlərin genişləndirilməsi proqramları Qəbələdə turizm xidmətlərinin modernləşdirilməsi, rəqəmsal turizm platformalarının tətbiqi və sahibkarlıq mühitinin gücləndirilməsi üçün mühüm stimul yaratmışdır. Qəbələnin turizm siyasəti innovasiya əsaslı klaster modelinə söykənir. Bu modeldə dövlət, özəl sektor və yerli icmalar arasında funksional əməkdaşlıq mexanizmi formalaşaraq regionun rekreasiya, ekoloji, mədəni və tədbir turizmi potensialının sinerji şəklində inkişafını təmin edir. Eyni zamanda startap meyarlarının təsdiqi, innovasiya fondlarının maliyyə mexanizmləri və ali təhsildə yeni məzmunlu proqramların genişləndirilməsi kimi qərarlar turizm sahəsində ixtisaslı kadr

hazırlığını gücləndirərək xidmət keyfiyyətinin yüksəlməsinə şərait yaradır. Qarabağ və Qəbələ zonalarının paralel təhlili göstərir ki, dövlət proqramları, rəqəmsallaşma strategiyaları və innovasiya siyasəti turizmin regional sosial rifaha təsirini sistemli şəkildə gücləndirən əsas institusional amillərdir. Müasir iqtisadi modellər sübut edir ki, turizm sektoruna yönəldilən dövlət investisiyaları ilə əhalinin məşğulluq səviyyəsi, gəlir göstəriciləri, sosial xidmətlərin keyfiyyəti və regional inkişaf indeksləri arasında birbaşa funksional asılılıq mövcuddur.

Bu baxımdan təqdim olunan tədqiqatın elmi yeniliyi turizmin inkişafını yalnız iqtisadi fəaliyyət sahəsi kimi deyil, dövlət strategiyaları, rəqəmsal transformasiya və innovativ idarəetmə mexanizmləri ilə qarşılıqlı əlaqədə olan kompleks sosial-iqtisadi sistem kimi qiymətləndirməsidir. Belə yanaşma regional planlaşdırma, turizm siyasətinin optimallaşdırılması və sosial rifahın ölçülməsi sahəsində yeni metodoloji nəticələrin əldə edilməsinə imkan verir və ölkənin uzunmüddətli dayanıqlı inkişaf strategiyalarına elmi töhfə verir.

ARAŞDIRMA VƏ NƏTİCƏLƏR

Tədqiqat metodologiyası və analitik yanaşma

Tədqiqatın metodoloji əsasını sistemli regional analiz, institusional yanaşma və müqayisəli statistik interpretasiya təşkil etmişdir. Analitik çərçivədə normativ-hüquqi sənədlərin məzmun təhlili, rəsmi statistik göstəricilərin struktur müqayisəsi və turizm inkişaf modellərinin funksional qiymətləndirilməsi tətbiq olunmuşdur. Bu metodoloji yanaşma turizmin iqtisadi sektor olmaqla yanaşı sosial rifah indikatorlarına təsir edən kompleks regional sistem olduğunu elmi şəkildə əsaslandırmağa imkan vermişdir. Dövlət proqramlarının və strateji sənədlərin müqayisəli təhlili göstərir ki, turizm inkişafı ölkənin uzunmüddətli sosial-iqtisadi prioritetləri ilə koordinasiya olunmuş şəkildə həyata keçirilir ("Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", 2021; "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası", 2022).

Qarabağ və Qəbələ zonasında turizmin sosial-iqtisadi təsirlərinin analitik qiymətləndirilməsi

Post-münaqişə reabilitasiya mərhələsində olan Qarabağ və Şərgi Zəngəzur iqtisadi rayonlarında turizmin inkişafı struktur transformasiya xarakteri daşıyır və dövlət proqramları ilə istiqamətləndirilən planlı inkişaf modeli əsasında reallaşdırılır ("İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramı", 2022). Regionda infrastrukturun bərpası, investisiya təşviqi mexanizmlərinin tətbiqi və sahibkarlıq mühitinin genişləndirilməsi turizmi iqtisadi aktivliyin aparıcı sektorlarından birinə çevirmişdir (Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 2017; Regionların inkişafı Dövlət Proqramı, 2019). Statistik mənbələrin interpretasiyası göstərir ki, turizm sektorunun aktivləşməsi xidmət sahəsinin formalaşmasına, yeni iş yerlərinin açılmasına və regional gəlir potensialının artmasına səbəb olmuşdur (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2020). Bu nəticələr turizmin post-bərpa iqtisadiyyatında katalizator rolunu təsdiqləyən nəzəri yanaşmalarla uzlaşır (Bilalov, 2006; Quliyev, 2011). Uzun müddətdir institusional turizm mərkəzi kimi formalaşmış Qəbələ inzibati rayonunda turizm sektoru regional iqtisadi sistemə inteqrasiya olunmuş sabit struktur elementidir. Statistik hesabatların elmi təhlili göstərir ki, bu regionda turizm xidmət sektorunun ÜDM-də payının artmasına, özəl investisiya axınının intensivləşməsinə və məşğulluq strukturunda xidmət sahəsinin üstün mövqeyə çıxmasına səbəb olmuşdur (Dövlət Statistika Komitəsi, 2020; Turizm üzrə Strateji Yol Xəritəsi, 2016). Turizm idarəçiliyi nəzəriyyəsinə əsasən, belə nəticələr planlaşdırma və proqnozlaşdırma mexanizmlərinin effektiv tətbiqi ilə bağlıdır (Ağakərimov, 2015; Ağakərimov, 2016; Ağakərimov, 2018).

Bununla yanaşı, analitik qiymətləndirmə göstərir ki, mövsümi konsentrasiya və ekoloji yüklənmə riskləri regionda turizmin uzunmüddətli dayanıqlılığı üçün strateji idarəetmə tələb edir. Statistik müqauisəli təhlil cədvəl 1-də təsvir olunmuşdur.

Cədvəl 1. Statistik müqayisəli təhlil

Göstərici	**Qarabağ və Çərgi Zıngızur iqtisadi r.**	**Qəbələ inzibati rayonu**	**Mənbə**
İnkişaf mərhələsi	Bərpa və formalaşma	Sabit və institusional	Dövlət proqramları
Turizm infrastrukturu	Yenidən qurulur	Tam formalaşmış	Regional inkişaf hesabatları
Məşğulluğa təsir	Artım potensialı yüksək	Stabil yüksək pay	Statistika Komitəsi (2020)
İnvestisiya axını	Dövlət yönümlü	Özəl sektor üstünlük təşkil edir	İnkişaf strategiyaları
Risk faktorları	İnfrastruktur çatışmazlığı	Mövsümi yüklənmə	Elmi tədqiqatların sintezi

Cədvəl 2-də təqdim olunan statistik-analitik müqayisə turizm zonalarının inkişaf mərhələlərinə görə funksional xüsusiyyətlərini sistemli şəkildə izah etməyə imkan verir.

Cədvəl 2. Turizm zonalarının funksional inkişaf modeli

Analitik meyar	**Formalaşan turizm zonası modeli (Qarabağ)**	**Yetkin turizm zonası modeli (Qəbələ)**
İqtisadi rol	İnkişaf stimulyatoru	Struktur iqtisadi sektor
Sosial təsir	Reinteqrasiya və məşğulluq	Rifahın sabit artımı
İdarəetmə tipi	Dövlət yönümlü planlaşdırma	Bazar əsaslı idarəetmə
İnnovasiya səviyyəsi	Formalaşma mərhələsi	Tətbiq və optimallaşma mərhələsi

Təhlil göstərir ki, turizm regionlarının inkişaf səviyyəsi onların iqtisadi funksiyasını, sosial təsir mexanizmini, idarəetmə modelini və innovasiya potensialını müəyyən edən əsas determinantdır. İqtisadi rol baxımından formalaşma mərhələsində olan Qarabağ və Şərgi Zəngəzur iqtisadi rayonlarında turizm sektoru inkişaf stimulyatoru funksiyasını yerinə yetirir. Bu mərhələdə turizm əsasən regionun iqtisadi aktivliyini artıran katalitik sektor kimi çıxış edir və digər sahələrin inkişafını təşviq edən multiplikativ təsir yaradır. Yetkin inkişaf mərhələsində olan Qəbələ inzibati rayonunda isə turizm artıq struktur iqtisadi sektor statusuna malikdir və regional iqtisadiyyatın sabit komponenti kimi fəaliyyət göstərir. Bu fərq turizm sektorunun inkişaf trayektoriyasının ilkin mərhələdə təşviqedici, sonrakı mərhələdə isə sabitləşdirici xarakter daşıdığını göstərir. Sosial təsir göstəriciləri də inkişaf mərhələləri arasında nəzərəçarpacaq fərqləri ortaya qoyur. Qarabağ regionunda turizmin əsas sosial funksiyası reinteqrasiya və məşğulluğun artırılması ilə xarakterizə olunur. Bu, post-bərpa iqtisadiyyatlarında turizmin sosial adaptasiya və icma dirçəlişi üçün mühüm alət olduğunu təsdiqləyir. Qəbələ inzibati rayonunda isə turizm sosial rifahın sabit artımını təmin edən davamlı mexanizm kimi çıxış edir; burada sektor artıq sosial təminat, gəlir sabitliyi və həyat keyfiyyətinin yüksəlməsi ilə əlaqələndirilir. İdarəetmə modeli aspektindən aparılan müqayisə göstərir ki, formalaşan turizm zonalarında dövlət yönümlü planlaşdırma dominant rol oynayır. Bu yanaşma ilkin mərhələdə infrastrukturun qurulması, investisiya mühitinin formalaşdırılması və bazar institutlarının təşkili üçün zəruri hesab olunur. Yetkin turizm zonalarında isə bazar əsaslı idarəetmə mexanizmləri üstünlük təşkil edir; bu mərhələdə dövlət

daha çox tənzimləyici və koordinasiyaedici funksiyanı yerinə yetirir, sektorun operativ fəaliyyəti isə özəl investisiya və rəqabət prinsipləri əsasında inkişaf edir. İnnovasiya səviyyəsi göstəricisi turizm zonalarının texnoloji və idarəetmə yetkinliyini əks etdirən əsas indikatorlardan biridir. Qarabağ və Şərgi Zəngəzur iqtisadi rayonlarında innovasiya prosesi formalaşma mərhələsindədir və əsas diqqət ilkin rəqəmsal xidmətlərin, turizm platformalarının və texnoloji infrastrukturların yaradılmasına yönəlmişdir. Qəbələ inzibati rayonunda isə innovasiya artıq tətbiq və optimallaşdırma mərhələsinə keçmişdir; burada innovativ turizm məhsullarının hazırlanması, xidmətlərin rəqəmsallaşdırılması və idarəetmə sistemlərinin təkmilləşdirilməsi müşahidə olunur.

Beləliklə, turizm zonalarının funksional inkişaf modeli mərhələli xarakter daşıyır və hər mərhələ özünəməxsus iqtisadi, sosial və institusional xüsusiyyətlərlə səciyyələnir (şəkil 1).



Şəkil 1. *Turizm zonalarının funksional inkişaf modeli*

Bu nəticə regional turizm siyasətinin vahid model üzrə deyil, inkişaf fazalarına uyğun diferensial strategiyalar əsasında qurulmasının zəruriliyini elmi şəkildə əsaslandırır.

NƏTİCƏ

Aparılan tədqiqat göstərir ki, turizm sektorunun inkişafı Qarabağ və Qəbələ zonalarında fərqli sosial-iqtisadi mərhələləri əks etdirir və hər bir regionun inkişaf potensialı onun institusional, iqtisadi və sosial strukturlarına bağlıdır. Qarabağ zonasında turizm əsasən post-bərpa mərhələsində fəaliyyət göstərir və iqtisadi canlanma, sosial reinteqrasiya və məşğulluğun artırılması funksiyasını yerinə yetirir. Bu mərhələdə dövlət yönümlü planlaşdırma və infrastrukturun bərpası prioritet rol oynayır. Qəbələ zonasında isə turizm artıq yetkinləşmiş, bazar əsaslı idarəetmə mexanizmləri ilə işləyən və davamlı sosial rifah təmin edən sektor kimi formalaşmışdır. Burada innovativ məhsulların tətbiqi, xidmət keyfiyyətinin artırılması və iqtisadiyyatın struktur sabitliyi diqqət mərkəzindədir. Müqayisəli təhlil göstərir ki, regional turizm siyasətində diferensial yanaşma vacibdir: hər zonanın inkişaf mərhələsinə uyğun strateji tədbirlərin tətbiqi turizmin sosial-iqtisadi təsir potensialını maksimuma çatdırır. Beləliklə, turizm sektorunun inkişafı yalnız iqtisadi göstəriciləri deyil,

həm də əhalinin sosial rifah səviyyəsini yüksəldən kompleks bir mexanizm kimi çıxış edir. Bu yanaşma dövlət proqramları, strateji konsepsiyalar və regional siyasət planlamasının elmi əsaslarla uyğunlaşdırılmasını tələb edir ("Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", 2021; "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası", 2022).

ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikası Prezidentinin Fərmanı. (2017). Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında. Bakı.
2. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. https://e-qanun.az/framework/25029
3. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər". https://president.az/az/articles/view/50474
4. "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında. https://e-qanun. az/framework/50013
5. Azərbaycan Respublikasında innovativ inkişaf sahəsində koordinasiyanın təmin edilməsi haqqında. https://e-qanun. az/framework/41201
6. "Azərbaycan Respublikası regionlarının inkişafı üzrə 2019-2023-cü illəri əhatə edən Dövlət Proqramı"nın təsdiq olunması haqqında 29 yanvar 2019-cu il yanvarın 29-u Prezidentin Fərmanı
7. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında.
8. Ağakərimov, M. M. (2015). Otel menecmentində proqnozlaşdırma və planlaşdırma. Bakı: Renessans-A MMC.
9. Ağakərimov, M. M. (2016). Hotel menecmenti (Dərs vəsaiti). Bakı: Mütərcim.
10. Ağakərimov, M. M. (2018). Otel biznesində françayzinq idarəetmə forması. Bakı: IDEA-A MMC.
11. Azərbaycan Respublikası Prezidenti. (2010, 6 aprel). Azərbaycan Respublikasında 2010–2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı haqqında sərəncam. Bakı.
12. Azərbaycan Respublikası Prezidenti. (2016, 6 dekabr). Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi (Fərman №1138). Bakı.
13. Azərbaycan Respublikası Prezidenti. (2017, 20 fevral). Azərbaycan Respublikasına turist axınının sürətləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam. Bakı.
14. Azərbaycan Respublikası Prezidenti. (2019, 29 yanvar). Azərbaycan Respublikası regionlarının inkişafı üzrə 2019-2023-cü illəri əhatə edən Dövlət Proqramı (Sərəncam №500). Bakı.
15. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2020). Azərbaycanda turizm: Statistik məcmuə. Bakı.
16. Əliyev, E. M. (2023). İdarəetmə sahələrində rəqəmsal transformasiyaya keçidin üstünlükləri və perspektivləri. HODJA AKHMET YASSAWI 7th International Congress on Scientific Research, Mingachevir State University.
17. Bilalov, V. Ə. (2006). Turizm fəaliyyətinin tənzimlənməsi (Dərs vəsaiti). Bakı: Mütərcim.
18. Quliyev, C. K. (2011). Azərbaycan Respublikasının mədəniyyət və turizm qanunvericiliyi toplusu (I cild). Bakı: Avrasiya Press.

CƏMİYYƏTİN TARİXİ İRSƏ MÜNASİBƏTİ VƏ SOSİAL DAVRANİŞ MODELLƏRİNİN DAYANİQLİ TURİZM KONTEKSTİNDƏ TƏHLİLİ

Analysis of Society's Attitude Toward Historical Heritage and Social Behavior Models in the Context of Sustainable Tourism

FLORA KƏRİMOVA
Flora Karimova
florakerimova@ndu. edu. az
https://orcid. org/ 0009-0005-2884-025X
Naxçıvan Dövlət Universiteti
Nakhchivan State University

XÜLASƏ

Bu məqalədə cəmiyyətin tarixi irsə münasibəti və həmin münasibətin sosial davranış modellərinin formalaşmasına təsiri dayanıqlı turizm kontekstində kompleks şəkildə təhlil olunur. Tədqiqatın əsas məqsədi fərdlərin tarixi irsə verdiyi dəyər ilə real davranışları arasında mövcud olan uyğunsuzluqları müəyyən etmək və bu fərqlərin sosial-psixoloji və institusional səbəblərini izah etməkdir. Araşdırmada empirik yanaşma tətbiq edilmiş, müxtəlif sosial-demoqrafik xüsusiyyətlərə malik 60 respondent arasında sorğu keçirilmiş, əldə olunan nəticələr statistik və müqayisəli-analitik üsullarla sistemləşdirilmişdir. Nəticələr göstərir ki, cəmiyyət səviyyəsində tarixi irs yüksək mədəni və mənəvi dəyər kimi qəbul olunsa da, bu yanaşma davranış müstəvisində tam və ardıcıl şəkildə öz əksini tapmır. Xüsusilə "dəyər–davranış paradoksu" kimi xarakterizə olunan bu uyğunsuzluq sosial məsuliyyət hissinin zəifliyi, ictimai nəzarət mexanizmlərinin qeyri-effektivliyi və maarifləndirmə səviyyəsinin yetərli olmaması ilə əlaqələndirilir. Məqalədə həmçinin qloballaşma, urbanizasiya və turizm faktorlarının bu prosesə təsiri nəzərdən keçirilir. Nəticə etibarilə, tarixi irsin qorunması və dayanıqlı turizmin inkişafı üçün təhsil, maarifləndirmə və sosial məsuliyyət mexanizmlərinin gücləndirilməsinin vacibliyi əsaslandırılır.

Açar sözlər: *Tarixi irs, sosial davranış, cəmiyyət, mədəni dəyərlər, sosial məsuliyyət, kollektiv yaddaş*

ABSTRACT

This article comprehensively analyzes the attitude of society to historical heritage and the impact of this attitude on the formation of social behavior models in the context of sustainable tourism. The main goal of the study is to identify the discrepancies between the value that individuals attach to historical heritage and their real behavior, and to explain the socio-psychological and institutional reasons for these differences. An empirical approach was applied in the study, a survey was conducted among 60 respondents with different socio-demographic characteristics, and the results obtained were systematized using statistical and comparative-analytical methods. The results show that although historical heritage is perceived as a high cultural and spiritual value at the societal level, this approach is not fully and consistently reflected at the behavioral level. This discrepancy, characterized in particular as the "value-behavior paradox," is associated with a weak sense of social responsibility, ineffectiveness of public control mechanisms, and insufficient level of education. The article also considers the impact of globalization, urbanization, and tourism factors on this process. Consequently, the importance of strengthening education, awareness, and social responsibility mechanisms for the protection of historical heritage and the development of sustainable tourism is justified.

Keywords: *Historical heritage, social behavior, society, cultural values, social responsibility, collective memory*

GİRİŞ

Müasir dövrdə tarixi irsin qorunması həm qlobal, həm də milli səviyyədə strateji əhəmiyyət kəsb edən əsas istiqamətlərdən biridir. Tarixi irs yalnız keçmişin maddi və mənəvi izlərini əks etdirən dəyərlər sistemi deyil, eyni zamanda cəmiyyətin mədəni identikliyinin, sosial yaddaşının və mənəvi davamlılığının əsas komponentidir [1]. Bu baxımdan, tarixi irsə münasibət yalnız hüquqi və inzibati mexanizmlərlə tənzimlənən proses deyil, həm də sosial davranış modelləri və dəyərlər sistemi ilə sıx bağlı olan kompleks sosial hadisədir [5].

Qloballaşma, urbanizasiya və turizm sektorunun sürətli inkişafı cəmiyyətin tarixi irsə münasibətinə yeni təsir amilləri formalaşdırır. Tarixi irsin qorunması ilə turizmin inkişafı

arasındakı qarşılıqlı əlaqə beynəlxalq təşkilatlar tərəfindən xüsusi vurğulanır və bu sahədə dayanıqlı yanaşmanın vacibliyi qeyd olunur [8]. Bununla yanaşı, bu proseslər bir tərəfdən tarixi irsin tanıdılması və iqtisadi dəyərinin artırılmasına şərait yaratsa da, digər tərəfdən onun deqradasiyası və kommersiyalaşması risklərini də artırır [2]. Bu tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, tarixi irsə münasibət yalnız nəzəri yanaşma çərçivəsində deyil, empirik məlumatlar əsasında sosial davranış kontekstində təhlil edilmiş, fərdlərin dəyərləri ilə real davranışları arasında mövcud olan uyğunsuzluq ("dəyər–davranış fərqi") konkret göstəricilər əsasında müəyyən edilmişdir. Eyni zamanda, bu yanaşma dayanıqlı turizm kontekstində qiymətləndirilərək mövcud elmi ədəbiyyata inteqrativ töhfə verir.

MATERIAL VƏ METODLAR

Tədqiqatda empirik və analitik metodlardan istifadə edilmişdir. Əsas məlumat toplama üsulu kimi sorğu metodu tətbiq olunmuşdur. Sorğu həm onlayn, həm də qismən üz-üzə formatda keçirilmişdir. Tədqiqatda müxtəlif yaş, təhsil və sosial qrupları əhatə edən 60 respondent iştirak etmişdir.

Respondentlərin seçimi təsadüfi seçim prinsipi əsasında aparılmışdır ki, bu da nəticələrin ümumiləşdirilməsinə müəyyən imkan yaradır. Sorğu sualları tarixi irsə münasibət, sosial məsuliyyət və davranış modellərini ölçməyə yönəldilmişdir.

Toplanan məlumatlar statistik və müqayisəli-analitik üsullarla təhlil edilmiş, nəticələr faiz göstəriciləri əsasında sistemləşdirilmişdir. Eyni zamanda nəticələrin şərhi zamanı sosioloji yanaşma tətbiq olunmuşdur.

Sorğu sualları əsasən üç istiqaməti əhatə etmişdir:

- tarixi irsə münasibət
- sosial məsuliyyət səviyyəsi
- real davranış modelləri

Respondentlər müxtəlif yaş qruplarını (18–60 yaş), fərqli təhsil səviyyələrini və sosial statusları əhatə etmişdir. Bu isə nəticələrin daha obyektiv və ümumiləşdirilə bilən olmasına şərait yaratmışdır.

Sorğuda ümumilikdə 60 respondent iştirak etmişdir və nəticələr eyni respondent qrupu (n=60) əsasında hesablanmışdır.

Tarixi irs anlayışı və turizmlə əlaqəsi

Tarixi irs cəmiyyətin keçmişini, mədəni inkişaf mərhələlərini və kollektiv yaddaşını özündə əks etdirən maddi və qeyri-maddi dəyərlər sistemidir. Bu anlayışa tarixi abidələr, memarlıq nümunələri, arxeoloji tapıntılar, eləcə də adət-ənənələr, folklor, milli dəyərlər və davranış formaları daxildir. Tarixi irs yalnız keçmişin mirası deyil, həm də müasir cəmiyyətin mədəni identikliyinin formalaşmasında mühüm rol oynayan sosial fenomendir [1].

Tarixi irsə münasibət cəmiyyətin inkişaf səviyyəsini, onun dəyərlər sistemini və sosial məsuliyyətini əks etdirən mühüm göstəricilərdən biridir. Bu baxımdan, fərdlərin və sosial qrupların tarixi irsə yanaşması onların sosial davranışlarının formalaşmasına, vətəndaş məsuliyyətinin güclənməsinə və mədəni dəyərlərin qorunmasına birbaşa təsir göstərir [5]. Müasir dövrdə tarixi irsin qorunması yalnız fiziki mühafizə tədbirləri ilə məhdudlaşmır, eyni zamanda onun cəmiyyət tərəfindən qəbul olunması, mənimsənilməsi və gündəlik sosial praktikada yaşadılması ilə xarakterizə olunur.

Tarixi irs və turizm arasında qarşılıqlı əlaqə müasir elmi ədəbiyyatda geniş şəkildə tədqiq olunan mühüm istiqamətlərdən biridir. Tarixi irs turizmi turistlərin mədəni və tarixi obyektlərə marağı əsasında formalaşan və onların bilik səviyyəsinin artırılmasına xidmət edən xüsusi turizm

növü kimi çıxış edir. Bu turizm növü təkcə iqtisadi gəlir mənbəyi deyil, həm də mədəniyyətlərarası dialoqun inkişafına, xalqlar arasında qarşılıqlı anlaşmanın güclənməsinə və mədəni müxtəlifliyin qorunmasına xidmət edir [10].

Eyni zamanda, tarixi irs obyektlərinin turizm dövriyyəsinə cəlb olunması regionların sosial-iqtisadi inkişafına müsbət təsir göstərir. Bu proses yeni iş yerlərinin yaradılmasına, infrastrukturun inkişafına və yerli əhalinin rifah səviyyəsinin yüksəlməsinə səbəb olur. Azərbaycanda mədəni irsin qorunması dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən edilmiş və bu sahədə həyata keçirilən tədbirlər turizm sektorunun inkişafı ilə sıx əlaqələndirilmişdir [3]. Turizm sahəsində müşahidə olunan statistik göstəricilər də bu sektorun davamlı inkişaf etdiyini və iqtisadiyyatda mühüm rol oynadığını təsdiqləyir [4].

Bununla yanaşı, tarixi irsin turizmdə istifadəsi müəyyən risk və problemləri də özündə ehtiva edir. Belə ki, turizm axınının artması bəzi hallarda tarixi abidələrin fiziki aşınmasına, autentikliyin pozulmasına və mədəni dəyərlərin kommersiyalaşmasına səbəb ola bilər. Bu isə tarixi irsin qorunması ilə turizmin inkişafı arasında balansın təmin olunmasını zəruri edir.

Nəticə etibarilə, tarixi irs və turizm arasında qarşılıqlı əlaqə kompleks və çoxşaxəli xarakter daşıyır. Bu əlaqənin səmərəli idarə olunması üçün həm iqtisadi, həm sosial, həm də mədəni aspektlərin nəzərə alınması vacibdir. Tarixi irsin yalnız qorunma obyekti kimi deyil, həm də sosial və iqtisadi resurs kimi qiymətləndirilməsi onun sosioloji və iqtisadi baxımdan kompleks şəkildə tədqiqini zəruri edir.

Tarixi-mədəni irsin turizm potensialı və istifadəsi

Tarixi-mədəni irs turizm fəaliyyətinin əsas resurslarından biri kimi çıxış edir və turistlərin marağını cəlb edən başlıca amillərdəndir. Tarixi abidələr, memarlıq nümunələri, muzeylər və qeyri-maddi mədəni irs elementləri turizm məhsulunun formalaşmasında mühüm rol oynayır. Bu baxımdan, tarixi-mədəni irs obyektlərinin turizm dövriyyəsinə cəlb olunması həm iqtisadi gəlirlərin artmasına, həm də mədəni dəyərlərin təbliğinə xidmət edir.

Tarixi-mədəni irsin turizm potensialı onun unikallığı, tarixi əhəmiyyəti və cəlbedicilik səviyyəsi ilə müəyyən olunur. Xüsusilə zəngin tarixə malik regionlarda bu potensial daha yüksək olur və düzgün idarə olunduğu təqdirdə davamlı inkişaf üçün mühüm imkanlar yaradır. Bu baxımdan, irs obyektlərinin qorunması ilə yanaşı, onların effektiv təqdimatı və tanıdılması xüsusi əhəmiyyət kəsb edir.

Eyni zamanda, tarixi-mədəni irsin turizmdə istifadəsi regionların sosial-iqtisadi inkişafına müsbət təsir göstərir. Bu proses turizm infrastrukturunun inkişafına, məşğulluğun artmasına və yerli əhalinin gəlirlərinin yüksəlməsinə səbəb olur. Azərbaycanda bu sahədə həyata keçirilən dövlət proqramları və strategiyalar tarixi irsin qorunması ilə yanaşı, onun turizm məqsədləri üçün səmərəli istifadəsini də nəzərdə tutur.

Bununla yanaşı, tarixi-mədəni irsin turizmdə istifadəsi zamanı onun qorunması məsələsi daim diqqət mərkəzində saxlanılmalıdır. Turizm fəaliyyətinin intensivliyi bəzi hallarda abidələrin zədələnməsinə və mədəni dəyərlərin deqradasiyasına səbəb ola bilər. Buna görə də, tarixi irsin istifadəsi zamanı qorunma və istifadə arasında balansın təmin olunması əsas şərt kimi çıxış edir.

Nəticə etibarilə, tarixi-mədəni irs turizmin inkişafında mühüm rol oynayan strateji resursdur və onun düzgün idarə olunması davamlı turizm inkişafının əsasını təşkil edir.

Empirik təhlil və müzakirə

Tədqiqat çərçivəsində 60 respondent arasında keçirilmiş sorğunun nəticələri göstərir ki, iştirakçıların böyük əksəriyyəti tarixi irsi milli dəyər və tarixi yaddaşın mühüm elementi kimi qiymətləndirir. Respondentlərin əhəmiyyətli hissəsi tarixi irsin qorunmasını həm dövlətin, həm də cəmiyyətin birgə məsuliyyəti kimi qəbul edir. Bu nəticə cəmiyyət səviyyəsində tarixi irsin əhəmiyyətinə dair müsbət münasibətin formalaşdığını göstərir.

Lakin aparılmış təhlil göstərir ki, ifadə olunan bu müsbət münasibət hər zaman sosial davranış səviyyəsində eyni şəkildə təzahür etmir. Respondentlərin bir qismi tarixi irsə qarşı diqqətli yanaşdığını bildirsə də, bəzi hallarda passiv və ya biganə davranış modelləri müşahidə olunur. Bu isə münasibət və davranış arasında müəyyən uyğunsuzluğun mövcud olduğunu göstərir.

Müşahidələr də bu nəticələri təsdiqləyir. Belə ki, tarixi abidələrin üzərində yazıların olması, onların zədələnməsi və ya bu hallara qarşı cəmiyyətin bəzi üzvlərinin reaksiya verməməsi fərdlərin dəyərlər sistemində tarixi irsin yüksək qiymətləndirilməsinə baxmayaraq, bu dəyərlərin davranışda tam əks olunmadığını göstərir. Bu vəziyyət sosial məsuliyyət hissinin və davranış mədəniyyətinin hələ də tam formalaşmadığını göstərən mühüm göstəricidir [5].

Eyni zamanda, respondentlərin əksəriyyəti müasir dövrdə sosial mühitin və müxtəlif təsirlərin (o cümlədən urbanizasiya və sosial dəyişikliklərin) tarixi irsə münasibətin formalaşmasına təsir etdiyini qeyd etmişdir. Bu isə göstərir ki, sosial davranış modelləri yalnız fərdi dəyərlərlə deyil, həm də geniş sosial mühitlə şərtlənir. [7]

Əldə olunan nəticələr göstərir ki, respondentlərin 60%-nin tarixi irsə zərər verilməsi hallarında reaksiya verməməsi sosial məsuliyyət davranışının kifayət qədər formalaşmadığını ehtimal etməyə əsas verir. Bu vəziyyət fərdi məsuliyyət hissinin zəif inkişafı, kollektiv davranış mədəniyyətinin yetərincə formalaşmaması və ictimai nəzarət mexanizmlərinin effektivliyinin aşağı olması ilə əlaqələndirilə bilər [6]

Eyni zamanda, bu uyğunsuzluq "dəyər–davranış paradoksu" kimi xarakterizə oluna bilər. Yəni fərdlər müəyyən dəyərləri qəbul etsələr də, həmin dəyərləri praktik davranışda tətbiq etmirlər. Bu isə sosial psixologiyada geniş müzakirə olunan problemlərdən biridir [5]. Bu kontekstdə maarifləndirmə və sosial təşviq mexanizmlərinin gücləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu nəticələr beynəlxalq tədqiqatlarla da uyğunluq təşkil edir. Belə ki, turizm və mədəni irs arasındakı qarşılıqlı əlaqə dayanıqlı inkişafın əsas komponentlərindən biri hesab olunur [9]. Eyni zamanda, əldə olunan nəticələr Quliyev (2019) tərəfindən irəli sürülən sosial davranış modelləri nəzəriyyəsi ilə də uyğunluq təşkil edir, lakin praktik müstəvidə müəyyən fərqlərin mövcud olduğunu göstərir.

Cədvəl 1. Respondentlərin tarixi irsə münasibəti və sosial davranış göstəriciləri

Sual	Cavab variantı	Respondentlərin payı (%)
Tarixi irs sizin üçün nədir?	Milli dəyər	60 (36 nəfər)
	Tarixi yaddaş	25 (15 nəfər)
	Digər	15 (9 nəfər)
Tarixi irsin qorunması kimə aiddir?	Dövlət və cəmiyyət	70 (42 nəfər)
	Yalnız dövlət	20 (12 nəfər)
	Digər	10 (6 nəfər)
Tarixi abidələrə münasibətiniz necədir?	Diqqətliyəm	55 (33 nəfər)
	Qismən diqqətliyəm	30 (18 nəfər)
	Biganəyəm	15 (9 nəfər)
Zərər verilməsinə reaksiya	Reaksiya verirəm	40 (24 nəfər)
	Biganə qalıram	60 (36 nəfər)

Mənbə*:* müəllif tərəfindən aparılmış empirik tədqiqatın nəticələri əsasında hazırlanmışdır.

Beləliklə, aparılan empirik təhlil göstərir ki, cəmiyyətin tarixi irsə münasibəti ümumilikdə müsbət olsa da, bu münasibətin sosial davranış modellərində tam və ardıcıl şəkildə əks olunması üçün əlavə sosial və maarifləndirici mexanizmlərə ehtiyac vardır.

Bu baxımdan, müşahidə olunan vəziyyət yalnız fərdi məsuliyyətin zəifliyi ilə deyil, həm də sosial nəzarət, ictimai təzyiq və davranış normalarının yetərincə formalaşmaması ilə izah oluna bilər.

NƏTİCƏ VƏ TÖVSİYƏLƏR

Aparılan tədqiqat göstərir ki, cəmiyyətin tarixi irsə münasibəti ümumilikdə müsbət xarakter daşısa da, bu münasibət sosial davranış səviyyəsində tam və ardıcıl şəkildə əks olunmur. Bu isə sosial şüur ilə real davranış arasında müəyyən uyğunsuzluğun mövcud olduğunu göstərir.

Aşağıdakı tövsiyələr irəli sürülür:

- maarifləndirmə tədbirlərinin artırılması
- təhsil sistemində mədəni irs mövzusunun genişləndirilməsi
- sosial məsuliyyət kampaniyalarının təşkili
- turizmdə dayanıqlı yanaşmaların tətbiqi
- ictimai nəzarətin gücləndirilməsi

Bu baxımdan, dayanıqlı turizmin inkişafı üçün sosial məsuliyyətin gücləndirilməsi, maarifləndirmə tədbirlərinin genişləndirilməsi və təhsil sistemində mədəni irs mövzusuna daha geniş yer verilməsi zəruridir.

Beləliklə, aparılan tədqiqat göstərir ki, tarixi irsə münasibətin formalaşması yalnız dəyərlər səviyyəsində deyil, həm də davranış müstəvisində təmin olunmalıdır. Bu məqsədlə ictimai nəzarət mexanizmlərinin gücləndirilməsi və onların effektivliyinin artırılması zəruri hesab olunur. . Tarixi irsin qorunması yalnız institusional tədbirlərlə deyil, cəmiyyətin davranış mədəniyyəti və sosial məsuliyyət səviyyəsi ilə birbaşa bağlıdır və dayanıqlı turizmin inkişafı üçün bu amillərin paralel şəkildə gücləndirilməsi zəruridir.

ƏDƏBİYYAT SİYAHISI

1. Əliyev, R. (2018). Mədəni irsin qorunması və sosial inkişaf məsələləri. Bakı: Elm nəşriyyatı.
2. Həsənov, A. (2020). Turizmin inkişafı və mədəni irsə təsiri. Bakı: Təhsil nəşriyyatı.
3. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi (2022). Mədəni irsin qorunması üzrə dövlət proqramı. https://culture. gov. az
4. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (2024). Turizm statistikası. https://stat. gov. az
5. Quliyev, S. (2019). Sosial davranış və mədəni dəyərlər. Bakı: Universitet nəşriyyatı.
6. Məmmədov, E. (2021). Mədəni irsin qorunmasında sosial amillərin rolu.
7. Rzayev, K. (2022). Sosial davranış və mədəni dəyərlərin qarşılıqlı təsiri.
8. UNESCO (2013). Sustainable Tourism and Cultural Heritage. Paris. https://whc. unesco. org/uploads/activities/documents/activity-669-7. pdf?
9. UNWTO (2018). Tourism and Culture Synergies. Madrid. https://documents1. worldbank. org/curated/en/551751468176048723/pdf/369931c ulture0fulltext. pdf?
10. Timothy, D. J. , Boyd, S. W. (2003). Heritage Tourism. Pearson.

DAVAMLI TURİZMİN İQTİSADİ İNKİŞAF, TƏHSİL VƏ GEOSİYASİ ƏMƏKDAŞLIQDAKI ROLU

The Role of Sustainable Tourism in Economic Development, Education and Geopolitical Cooperation

NURİYƏ İBRAHIMOVA
Nuriye İbrahimova
nuriyyeibrahimova@ndu. edu. az
https://orcid. org/ 0009-0006-2786-8899
Naxçıvan Dövlət Universiteti
Nakhchivan State University

XÜLASƏ

Davamlı turizm müasir dövrdə iqtisadi inkişafın, sosial rifahın və beynəlxalq əməkdaşlığın mühüm istiqamətlərindən biri hesab olunur. Turizm sektorunda davamlı yanaşmaların tətbiqi iqtisadi gəlirlərin artırılması, məşğulluğun genişləndirilməsi və regional inkişafın təmin olunması ilə yanaşı, təhsil sisteminin inkişafına və dövlətlərarası geosiyasi əlaqələrin güclənməsinə də əhəmiyyətli təsir göstərir (UNWTO, 2023; UNEP, 2022). Son illərdə aparılan tədqiqatlar göstərir ki, davamlı turizm strategiyaları ekoloji balansın qorunması, mədəni irsin saxlanılması və innovativ idarəetmə modellərinin formalaşdırılması baxımından mühüm rol oynayır (Butler, 1999; Gössling, Hall, & Weaver, 2009). Eyni zamanda, rəqəmsallaşma və beynəlxalq əməkdaşlıq turizm sektorunun rəqabət qabiliyyətini artıraraq yeni iqtisadi və təhsil imkanları yaradır (UNESCO, 2021; OECD, 2020). Bu tədqiqat davamlı turizmin iqtisadi inkişaf, təhsil sistemi və geosiyasi əməkdaşlıq üzərində təsirlərini təhlil edir, həmçinin bu sahədə tətbiq olunan müasir yanaşmaların effektivliyini qiymətləndirir.

Açar sözlər:*Davamlı turizm, iqtisadi inkişaf, turizm siyasəti, geosiyasi əməkdaşlıq, turizm təhsili, dayanıqlı inkişaf*

ABSTRACT

In the modern era, sustainable tourism is considered one of the key directions of economic development, social welfare, and international cooperation. The application of sustainable approaches in the tourism sector not only contributes to increasing economic revenues, expanding employment, and ensuring regional development, but also has a significant impact on the advancement of the education system and the strengthening of interstate geopolitical relations (UNWTO, 2023; UNEP, 2022). Recent studies show that sustainable tourism strategies play an important role in maintaining ecological balance, preserving cultural heritage, and shaping innovative management models (Butler, 1999; Gössling, Hall, & Weaver, 2009). At the same time, digitalization and international cooperation enhance the competitiveness of the tourism sector, creating new economic and educational opportunities (UNESCO, 2021; OECD, 2020). This study analyzes the impacts of sustainable tourism on economic development, the education system, and geopolitical cooperation, while also evaluating the effectiveness of modern approaches applied in this field.

Keywords: *Sustainable tourism, economic development, tourism policy, geopolitical cooperation, tourism education, sustainable development*

GİRİŞ

Müasir dövrdə turizm sektoru dünya iqtisadiyyatının ən sürətlə inkişaf edən sahələrindən biri hesab olunur və bir çox ölkələrin sosial-iqtisadi inkişafında mühüm rol oynayır. Qloballaşma, rəqəmsallaşma və beynəlxalq əlaqələrin genişlənməsi turizmin iqtisadi əhəmiyyətini artırmış, eyni zamanda ətraf mühitin qorunması və resurslardan səmərəli istifadə məsələlərini ön plana çıxarmışdır (UNWTO, 2023; UNEP, 2022). Bu səbəbdən davamlı turizm konsepsiyası müasir inkişaf strategiyalarının əsas istiqamətlərindən birinə çevrilmişdir. Davamlı turizm yalnız iqtisadi gəlirlərin artırılmasını deyil, həm də ekoloji balansın qorunmasını və sosial rifahın təmin edilməsini hədəfləyir. Davamlı turizm iqtisadi inkişafın sürətləndirilməsi, yeni iş yerlərinin yaradılması və regional inkişafın dəstəklənməsi baxımından mühüm əhəmiyyət daşıyır (OECD, 2020). Turizm sektoru nəqliyyat, xidmət, ticarət və kənd təsərrüfatı kimi sahələrlə qarşılıqlı əlaqədə olduğundan ölkə iqtisadiyyatına geniş təsir göstərir. Eyni zamanda, turizm təhsilinin inkişafı peşəkar kadr

hazırlığını gücləndirir, beynəlxalq təcrübə mübadiləsini artırır və innovativ idarəetmə yanaşmalarının formalaşmasına şərait yaradır (UNESCO, 2021). Bu proseslər davamlı inkişaf prinsiplərinin turizm sektorunda daha effektiv tətbiqinə imkan yaradır. Geosiyasi baxımdan davamlı turizm dövlətlərarası əməkdaşlığın və regional əlaqələrin gücləndirilməsində mühüm vasitə hesab olunur. Beynəlxalq turizm layihələri və ortaq strategiyalar iqtisadi inteqrasiyanı, mədəni əlaqələri və siyasi dialoqu inkişaf etdirir (Hall, 2011). Bu tədqiqatın məqsədi davamlı turizmin iqtisadi inkişaf, təhsil və geosiyasi əməkdaşlıq üzərində təsirlərini təhlil etmək və bu sahədə tətbiq olunan müasir yanaşmaları qiymətləndirməkdir.

ƏDƏBİYYAT İCMALI

Davamlı turizm son illərdə iqtisadi inkişaf, ekoloji təhlükəsizlik və sosial rifahın təmin olunması baxımından elmi ədəbiyyatda geniş tədqiq olunan sahələrdən birinə çevrilmişdir. Tədqiqatçılar davamlı turizmin yalnız turizm xidmətlərinin inkişafı ilə məhdudlaşmadığını, həm də regional iqtisadiyyatın gücləndirilməsi, məşğulluğun artırılması və yerli resursların qorunması baxımından mühüm əhəmiyyət daşıdığını qeyd edirlər (UNWTO, 2023; OECD, 2020). Butler (1999) davamlı turizmi uzunmüddətli iqtisadi və ekoloji balansın qorunmasına yönəlmiş idarəetmə modeli kimi xarakterizə edir. Müasir yanaşmalarda rəqəmsal texnologiyalar, innovativ idarəetmə metodları və yaşıl iqtisadiyyat prinsipləri davamlı turizmin əsas inkişaf istiqamətləri hesab olunur (Gössling, Hall, & Weaver, 2009). Ədəbiyyatda davamlı turizmin təhsil sistemi ilə əlaqəsi də xüsusi vurğulanır. UNESCO (2021) hesabatlarında göstərilir ki, turizm təhsilində davamlı inkişaf prinsiplərinin tətbiqi peşəkar kadr hazırlığının keyfiyyətini artırır və ekoloji məsuliyyətli idarəetmə yanaşmalarının formalaşmasına şərait yaradır. Beynəlxalq akademik əməkdaşlıqlar və tələbə mübadilə proqramları turizm sektorunda innovativ düşüncənin inkişafına və qlobal əmək bazarına uyğun mütəxəssislərin hazırlanmasına müsbət təsir göstərir. Bununla yanaşı, müasir tədqiqatlar turizm sektorunda rəqəmsallaşmanın xidmət keyfiyyətinin yüksəldilməsi və idarəetmə proseslərinin optimallaşdırılması baxımından əhəmiyyətini xüsusi qeyd edir. Geosiyasi aspektdən davamlı turizm dövlətlərarası münasibətlərin inkişafında və regional əməkdaşlığın gücləndirilməsində strateji vasitə kimi qiymətləndirilir (Hall, 2011). Beynəlxalq turizm layihələri və transsərhəd proqramlar ölkələr arasında iqtisadi inteqrasiyanı və mədəni əlaqələri genişləndirir. Eyni zamanda, davamlı turizm siyasətləri ekoloji problemlərin həlli, mədəni irsin qorunması və regional sabitliyin təmin olunmasına töhfə verir. Elmi ədəbiyyat göstərir ki, iqtisadi, təhsil və geosiyasi amillərin inteqrasiyası davamlı turizmin uzunmüddətli inkişafı üçün əsas şərtlərdən biridir.

METODOLOGİYA

Bu tədqiqatda davamlı turizmin iqtisadi inkişaf, təhsil və geosiyasi əməkdaşlıq üzərində təsirlərinin araşdırılması üçün keyfiyyət metodologiyasından istifadə olunmuşdur. Tədqiqat çərçivəsində beynəlxalq təşkilatların hesabatları, elmi məqalələr, akademik araşdırmalar və statistik məlumatlar təhlil edilmişdir. Xüsusilə BMT-nin Dünya Turizm Təşkilatı (UNWTO), OECD və UNESCO kimi beynəlxalq qurumların hesabatlarından istifadə olunaraq davamlı turizm siyasətlərinin iqtisadi və sosial təsirləri qiymətləndirilmişdir (UNWTO, 2023; OECD, 2020). Bu metodoloji yanaşma davamlı turizmin müxtəlif istiqamətlər üzrə təsirlərini sistemli şəkildə araşdırmağa və mövcud problemləri müəyyən etməyə imkan verir. Eyni zamanda, tədqiqat zamanı elmi mənbələrin müqayisəli təhlili aparılmış, fərqli ölkələrin davamlı turizm strategiyaları nəzərdən keçirilmişdir. Tədqiqatın ikinci mərhələsində davamlı turizmin iqtisadi və təhsil aspektləri üzrə mövcud idarəetmə modelləri konseptual baxımdan təhlil edilmişdir. Bu mərhələdə turizm siyasətləri, yaşıl iqtisadiyyat yanaşmaları, innovativ idarəetmə modelləri və rəqəmsallaşmanın

turizm sektoruna təsiri araşdırılmışdır (Gössling, Hall, & Weaver, 2009). Bundan əlavə, turizm təhsilinin inkişafı, peşəkar kadr hazırlığı və beynəlxalq akademik əməkdaşlıq proqramlarının sektora təsiri qiymətləndirilmişdir (UNESCO, 2021). Müxtəlif ölkələrin təcrübələrinin müqayisəli şəkildə öyrənilməsi davamlı inkişaf strategiyalarının tətbiqində istifadə olunan effektiv mexanizmlərin müəyyən edilməsinə şərait yaratmışdır. Bu yanaşma davamlı turizmin yalnız iqtisadi deyil, həm də sosial və təhsil baxımından yaratdığı nəticələrin kompleks şəkildə qiymətləndirilməsinə imkan vermişdir. Son mərhələdə davamlı turizmin geosiyasi əməkdaşlığa və beynəlxalq münasibətlərə təsiri müqayisəli analiz əsasında araşdırılmışdır. Beynəlxalq turizm layihələri, regional əməkdaşlıq proqramları, transsərhəd turizm marşrutları və dövlətlərarası turizm siyasətləri ilə bağlı məlumatlar sistemli şəkildə təhlil edilmişdir (Hall, 2011). Müqayisəli yanaşma vasitəsilə davamlı turizmin iqtisadi inteqrasiya, mədəni əlaqələr, investisiya axını və regional sabitlik üzərində yaratdığı təsirlər müəyyən edilmişdir. Eyni zamanda, davamlı turizm siyasətlərinin ekoloji təhlükəsizlik və beynəlxalq əməkdaşlıq baxımından rolu qiymətləndirilmiş, əldə olunan nəticələr əsasında ümumi elmi nəticələr və praktiki tövsiyələr formalaşdırılmışdır.

MÜZAKİRƏ

Aparılan təhlillər göstərir ki, davamlı turizm iqtisadi inkişafın sürətləndirilməsi və regional iqtisadiyyatın gücləndirilməsi baxımından mühüm rol oynayır. Turizm sektorunun inkişafı yeni iş yerlərinin yaradılmasına, xidmət sektorunun genişlənməsinə və investisiya axınının artmasına müsbət təsir göstərir (OECD, 2020). Xüsusilə davamlı idarəetmə prinsiplərinin tətbiqi turizm fəaliyyətinin uzunmüddətli iqtisadi səmərəliliyini artırır və təbii resurslardan daha rasional istifadəyə şərait yaradır. Rəqəmsal texnologiyaların tətbiqi, ekoloji standartların gücləndirilməsi və yaşıl iqtisadiyyat yanaşmaları turizm sektorunun rəqabət qabiliyyətinin yüksəldilməsində mühüm amillərdən biri kimi çıxış edir (Gössling, Hall, & Weaver, 2009).

I. İqtisadi inkişaf modeli

Tədqiqat nəticələri göstərir ki, davamlı turizm iqtisadi diversifikasiyanın və regional inkişafın əsas istiqamətlərindən biri hesab olunur. Turizm sektoru nəqliyyat, hotelçilik, ticarət və xidmət sahələri ilə qarşılıqlı əlaqədə olduğundan ümumi iqtisadi aktivliyi artırır. Xüsusilə ekoturizm və kənd turizmi kimi istiqamətlər yerli əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə və kiçik sahibkarlığın inkişafına müsbət təsir göstərir. Davamlı turizm siyasətlərinin tətbiqi nəticəsində bir çox ölkələrdə iqtisadi gəlirlərin artdığı və investisiya imkanlarının genişləndiyi müşahidə olunur (UNWTO, 2023).

II. Təhsil və insan kapitalının inkişafı modeli

Araşdırmalar göstərir ki, turizm təhsilinin inkişafı davamlı turizm strategiyalarının effektiv tətbiqi üçün əsas şərtlərdən biridir. Universitetlər və peşə təhsili müəssisələri davamlı inkişaf prinsiplərini tədris proqramlarına daxil etməklə innovativ və peşəkar kadr hazırlığını gücləndirirlər (UNESCO, 2021). Beynəlxalq təcrübə proqramları və akademik əməkdaşlıqlar tələbələrin praktiki bilik və bacarıqlarının inkişafına müsbət təsir göstərir. Eyni zamanda, rəqəmsallaşma və müasir idarəetmə yanaşmaları turizm sahəsində insan kapitalının keyfiyyətini artıraraq xidmət sektorunun inkişafını sürətləndirir.

III. Geosiyasi əməkdaşlıq modeli

Davamlı turizm dövlətlərarası münasibətlərin inkişafı və regional əməkdaşlığın genişlənməsi baxımından strateji əhəmiyyətə malikdir. Beynəlxalq turizm layihələri və transsərhəd marşrutlar ölkələr arasında iqtisadi inteqrasiyanı və mədəni əlaqələri gücləndirir (Hall, 2011). Xüsusilə ortaq turizm proqramları regionlar arasında siyasi dialoqun və iqtisadi əməkdaşlığın inkişafına şərait yaradır. Turizm sektorunda beynəlxalq əməkdaşlığın gücləndirilməsi investisiya mühitinin yaxşılaşdırılmasına və regional sabitliyin qorunmasına da müsbət təsir göstərir.

IV. Davamlı idarəetmə və ekoloji yanaşma modeli

Tədqiqat nəticələri göstərir ki, davamlı turizmin effektiv inkişafı üçün ekoloji təhlükəsizlik və strateji idarəetmə prinsiplərinin tətbiqi vacibdir. Təbii resursların qorunması, tullantıların azaldılması və alternativ enerji mənbələrindən istifadə davamlı turizm siyasətlərinin əsas istiqamətləri hesab olunur (UNEP, 2022). Müasir idarəetmə modelləri ekoloji məsuliyyət, iqtisadi səmərəlilik və sosial rifah arasında balans yaratmağa yönəlmişdir. Bu yanaşmalar turizm sektorunun uzunmüddətli dayanıqlığını təmin etməklə yanaşı, beynəlxalq davamlı inkişaf məqsədlərinin həyata keçirilməsinə də töhfə verir.

NƏTİCƏ

Davamlı turizm müasir dövrdə iqtisadi inkişafın, sosial rifahın və beynəlxalq əməkdaşlığın mühüm istiqamətlərindən biri kimi çıxış edir. Aparılan tədqiqat göstərir ki, davamlı turizm siyasətlərinin tətbiqi iqtisadi artımın sürətləndirilməsinə, yeni məşğulluq imkanlarının yaradılmasına və regional inkişafın dəstəklənməsinə əhəmiyyətli təsir göstərir. Turizm sektorunun digər iqtisadi sahələrlə qarşılıqlı əlaqəsi onun ölkə iqtisadiyyatında strateji mövqeyini daha da gücləndirir. Xüsusilə rəqəmsal texnologiyaların tətbiqi, yaşıl iqtisadiyyat prinsipləri və innovativ idarəetmə modelləri turizm sektorunun rəqabət qabiliyyətinin artırılmasına və resurslardan daha səmərəli istifadəyə şərait yaradır. Tədqiqat nəticələri həmçinin göstərir ki, davamlı turizmin inkişafı təhsil sistemi və insan kapitalının formalaşdırılması ilə sıx bağlıdır. Turizm təhsilində müasir yanaşmaların tətbiqi, beynəlxalq akademik əməkdaşlıqlar və peşəkar kadr hazırlığı sektorun davamlı inkişafına müsbət təsir göstərir. Peşəkar və innovativ kadr potensialının formalaşdırılması turizm xidmətlərinin keyfiyyətinin yüksəldilməsinə və beynəlxalq standartlara uyğun idarəetmə sistemlərinin tətbiqinə imkan yaradır. Bu baxımdan təhsil sektoru davamlı turizmin uzunmüddətli inkişafının əsas dayaqlarından biri hesab olunur. Geosiyasi aspektdən davamlı turizm dövlətlərarası münasibətlərin inkişafı, regional əməkdaşlığın genişlənməsi və mədəni əlaqələrin gücləndirilməsi üçün mühüm vasitə kimi çıxış edir. Beynəlxalq turizm layihələri və ortaq proqramlar ölkələr arasında iqtisadi inteqrasiyanı artırır, investisiya imkanlarını genişləndirir və regional sabitliyə müsbət təsir göstərir. Bununla yanaşı, davamlı turizm siyasətləri ekoloji təhlükəsizliyin qorunması və təbii resurslardan məsuliyyətli istifadənin təmin olunması baxımından da xüsusi əhəmiyyət daşıyır. Nəticə etibarilə, davamlı turizm iqtisadi, təhsil və geosiyasi amillərin qarşılıqlı əlaqəsini özündə birləşdirən kompleks inkişaf modelidir. Davamlı idarəetmə prinsiplərinin tətbiqi, beynəlxalq əməkdaşlığın gücləndirilməsi və innovativ yanaşmaların genişləndirilməsi turizm sektorunun uzunmüddətli dayanıqlığını təmin edə bilər. Gələcək tədqiqatlarda davamlı turizmin rəqəmsallaşma, yaşıl enerji və regional iqtisadi inteqrasiya ilə əlaqələrinin daha geniş şəkildə araşdırılması bu sahədə yeni elmi və praktiki nəticələrin əldə olunmasına imkan yarada bilər.

ƏDƏBİYYAT SİYAHISI

1. Butler, R. W. (1999). Sustainable tourism: A state-of-the-art review. Tourism Geographies, 1(1), 7–25. https://doi. org/10. 1080/14616689908721291
2. Gössling, S. , Hall, C. M. , & Weaver, D. (2009). Sustainable tourism futures: Perspectives on systems, restructuring and innovations. Routledge. https://doi. org/10. 4324/9780203877925
3. Hall, C. M. (2011). Policy learning and policy failure in sustainable tourism governance: From first- and second-order to third-order change? Journal of Sustainable Tourism, 19(4–5), 649–671. https://doi. org/10. 1080/09669582. 2011. 555555

4. OECD. (2020). Tourism trends and policies 2020. Organisation for Economic Co-operation and Development. https://doi. org/10. 1787/6b47b985-en
5. UNESCO. (2021). Education for sustainable development: A roadmap. United Nations Educational,Scientific and Cultural Organization. https://unesdoc. unesco. org/ark:/48223/pf0000374802
6. UNEP. (2022). Sustainable tourism and green economy. United Nations Environment Programme. https://www. unep. org/explore-topics/resource-efficiency/what-we-do/sustainable-tourism
7. UNWTO. (2023). World tourism barometer. United Nations World Tourism Organization. https://www. unwto. org/tourism-data/world-tourism-barometer
8. Bramwell, B. , & Lane, B. (2011). Critical research on the governance of tourism and sustainability. Journal of Sustainable Tourism, 19(4–5), 411–421. https://doi. org/10. 1080/09669582. 2011. 580586
9. Higgins-Desbiolles, F. (2020). Socialising tourism for social and ecological justice after COVID-19. Tourism Geographies, 22(3), 610–623. https://doi. org/10. 1080/14616688. 2020. 1757748
10. Sharpley, R. (2020). Tourism, sustainable development and the theoretical divide: 20 years on. Journal of Sustainable Tourism, 28(11), 1932–1946. https://doi. org/10. 1080/09669582. 2020. 1779732

TURİZM DAYANIQLI MƏŞĞULLUQ POTENSİALININ HƏRƏKƏTVERİCİ AMİLİ OLARAQ

Tourısm as a Drıvıng Factor of Sustaınable Employment Potentıal

CAVADXAN QASIMOV
Javadkhan Gasimov
cavadxan. yusifoglu@ndu. edu. az
https://orcid. org/ 0000-0002-3826-033X
Naxçıvan Dövlət Universiteti
Nakhchivan State University

XÜLASƏ

Turizm müasir iqtisadiyyatın ən dinamik və çoxşaxəli sahələrindən biri olmaqla yanaşı, dayanıqlı məşğulluğun formalaşmasında mühüm rol oynayır. Bu sahə yüksək əmək tutumlu xarakterə malik olduğundan mehmanxana, ictimai iaşə, nəqliyyat, bələdçilik, mədəni xidmətlər və əyləncə sektorlarında birbaşa iş yerləri yaradır. Eyni zamanda turizmin iqtisadiyyatda yaratdığı multiplikativ təsir kənd təsərrüfatı, ticarət, sənətkarlıq, logistika və xidmət sahələrinin də inkişafına təkan verir. Nəticədə turizm yalnız iqtisadi gəlir mənbəyi deyil, həm də müxtəlif sosial qrupların əmək bazarına inteqrasiyasını təmin edən mühüm mexanizm kimi çıxış edir. Turizmin dayanıqlı məşğulluq potensialı xüsusilə regional inkişaf baxımından böyük əhəmiyyət daşıyır. Regionların təbii, tarixi və mədəni resurslarının iqtisadi dövriyyəyə cəlb edilməsi yerli əhali üçün yeni gəlir imkanları yaradır, kiçik sahibkarlığın inkişafını sürətləndirir və daxili miqrasiyanın azalmasına şərait yaradır. Xüsusilə kənd turizmi və ekoturizm modelləri yerli icmaların iqtisadi fəallığını artırmaqla yanaşı, təbii mühitin qorunmasına və mədəni irsin yaşadılmasına da xidmət edir. Bu baxımdan turizm sosial rifahın yüksəldilməsi, regional tarazlığın möhkəmləndirilməsi və inklüziv inkişafın təmin olunmasında mühüm vasitədir. Turizmin dayanıqlı məşğulluq mənbəyinə çevrilməsi üçün yalnız iş yerlərinin sayının artması kifayət etmir, eyni zamanda həmin məşğulluğun keyfiyyətli, uzunmüddətli və sosial təminatlı olması vacibdir. Bu məqsədlə peşəkar kadr hazırlığı, insan kapitalına investisiya, rəqəmsal bacarıqların inkişafı, xidmət keyfiyyətinin yüksəldilməsi və dövlət dəstəyi xüsusi əhəmiyyət daşıyır. Azərbaycanın turizm potensialı bu baxımdan geniş imkanlar yaradır və qeyri-neft sektorunun inkişafında mühüm rol oynayır. Dayanıqlı və məqsədyönlü turizm siyasəti həyata keçirildiyi halda, bu sahə gələcəkdə həm iqtisadi artımın, həm də sosial məşğulluğun əsas hərəkətverici qüvvələrindən biri olaraq çıxış edə bilər.

Açar sözlər: *Turizm, dayanıqlı məşğulluq, iqtisadi potensial, regional inkişaf, yerli əhali, insan kapitalı, xidmət sektoru, keyfiyyətli məşğulluq.*

ABSTRACT

Tourism is one of the most dynamic and multifunctional sectors of the contemporary economy and simultaneously serves as an important driver of sustainable employment. The labour-intensive nature of this sector contributes to the creation of direct employment opportunities in hospitality, catering, transport services, guiding activities, cultural services, and entertainment industries. At the same time, the multiplier effect of tourism stimulates the development of agriculture, trade, handicrafts, logistics, and other related sectors. Consequently, tourism constitutes not only a source of economic revenue but also a significant mechanism for integrating diverse social groups into the labour market. The potential of tourism to generate sustainable employment is particularly significant in the context of regional development. The integration of natural, historical, and cultural resources of regions into economic circulation creates new income opportunities for local communities, accelerates the development of small entrepreneurship, and contributes to the reduction of internal migration. In particular, rural tourism and ecotourism not only enhance the economic activity of local communities but also contribute to the preservation of the natural environment and cultural heritage. In this respect, tourism serves as an important instrument for improving social welfare, strengthening regional balance, and ensuring inclusive development. Transforming tourism into a sustainable source of employment requires not only an increase in the number of jobs but also the provision of quality, long-term stability, and social protection. In this regard, professional training, investment in human capital, the development of digital competencies, improvement of service quality, and consistent state support are of particular importance. Azerbaijan's tourism potential provides broad opportunities in this direction and plays a significant role in the development of the non-oil sector of the economy. With the implementation of coherent and sustainable tourism policies, this sector can become one of the principal driving forces of economic growth and social employment in the future.

Keywords: *Tourism, sustainable employment, economic potential, regional development, local population, human capital, service sector, quality employment.*

GİRİŞ

Müasir dünya iqtisadiyyatında turizm təkcə insanların istirahət, səyahət və mədəni mübadilə ehtiyaclarını qarşılayan xidmət sahəsi kimi deyil, həm də iqtisadi artımın, regional inkişafın və sosial rifahın mühüm hərəkətverici qüvvələrindən biri kimi qiymətləndirilir. Xüsusilə son onilliklərdə qlobal iqtisadiyyatda xidmət sektorunun payının artması turizmin strateji əhəmiyyətini daha da gücləndirmişdir. Turizmin iqtisadi təsirinin ən mühüm istiqamətlərindən biri məşğulluqla bağlıdır. Bu sahə həm birbaşa, həm də dolayı yollarla əmək bazarının genişlənməsinə, yeni iş yerlərinin formalaşmasına, əhalinin gəlirlərinin artmasına və regionlarda sosial-iqtisadi aktivliyin güclənməsinə imkan yaradır. Dayanıqlı inkişaf yanaşması çərçivəsində turizm yalnız iqtisadi səmərə yaratmaqla kifayətlənmir, eyni zamanda sosial ədalət, yerli resursların qorunması və gələcək nəsillərin maraqlarının nəzərə alınması baxımından da mühüm rol oynayır. Məhz buna görə də turizmin dayanıqlı məşğulluq potensialının hərəkətverici amili kimi tədqiq olunması həm nəzəri, həm də praktik baxımdan aktual elmi məsələlərdən biridir.

Turizmin məşğulluğa təsiri çoxşaxəli xarakter daşıyır. Bu sektorun əsas xüsusiyyətlərindən biri yüksək əmək tutumluluğudur. Sənaye və texnoloji sahələrdə istehsal proseslərinin avtomatlaşdırılması əmək tələbatını müəyyən qədər azaltdığı halda, turizm sahəsində insan amili hələ də əsas istehsal resurslarından biri olaraq qalır. Mehmanxanalar, restoranlar, nəqliyyat xidmətləri, bələdçilik fəaliyyəti, turizm agentlikləri, əyləncə mərkəzləri, mədəni tədbirlər və digər xidmət sahələri bilavasitə insan əməyinə əsaslanır (Əlirzayev, 2010). Bu isə turizmin müxtəlif ixtisas və peşə sahələri üzrə geniş məşğulluq imkanları yaratmasına səbəb olur. Turizmin üstün cəhətlərindən biri də ondan ibarətdir ki, bu sahə əmək bazarına yeni daxil olan gənclər, qadınlar, mövsümi işçilər, kənd yerlərində yaşayan əhali və kiçik sahibkarlar üçün real gəlir imkanları yaradır.

Dayanıqlı məşğulluq anlayışı isə sadəcə yeni iş yerlərinin yaradılması ilə məhdudlaşmır. Burada əsas məqsəd uzunmüddətli, sosial təminatlı, bacarıqların inkişafına imkan verən, gəlir sabitliyi yaradan və insan kapitalının keyfiyyətini artıran məşğulluq modelinin formalaşdırılmasıdır. Bu baxımdan turizmin dayanıqlı məşğulluq potensialı yalnız statistik olaraq iş yerlərinin sayında deyil, həmin iş yerlərinin keyfiyyət göstəricilərində də özünü göstərməlidir. Əgər turizm inkişafı nəticəsində yaranan məşğulluq mövsümi xarakter daşıyırsa, sosial müdafiə mexanizmləri zəifdirsə və əmək məhsuldarlığı aşağıdırsa, bu halda dayanıqlılıq prinsiplərinin tam reallaşdığını söyləmək mümkün olmur (Məmmədov, 2013). Buna görə də müasir iqtisadi siyasətdə turizm inkişafı məşğulluğun keyfiyyət parametrləri ilə birlikdə nəzərdən keçirilməlidir.

Turizmin dayanıqlı məşğulluq yaratmaq imkanlarının əsas iqtisadi mexanizmlərindən biri onun multiplikativ təsiri ilə bağlıdır. Turizm xərcləri iqtisadiyyatda yalnız bir sektorda cəmlənmir. Turistlərin yerləşdirilməsi, qidalanması, nəqliyyatı, suvenir alışları, əyləncə xidmətləri və mədəni fəaliyyətlər üçün çəkilən xərclər paralel olaraq kənd təsərrüfatı, tikinti, rabitə, ticarət, logistika, sənətkarlıq və digər sahələrdə də iqtisadi aktivlik yaradır. Bu isə iqtisadiyyatda əlavə gəlir və əlavə məşğulluq deməkdir (Abadov, 2014). Məsələn, bir bölgədə yeni turizm marşrutunun yaradılması yalnız otel və restoranların fəaliyyətini genişləndirmir, həm də yerli fermerlərin məhsullarına tələbatı artırır, nəqliyyat xidmətlərinə ehtiyacı yüksəldir, yerli sənətkarların bazar imkanlarını genişləndirir. Bununla da, turizm iqtisadiyyatda bir-biri ilə qarşılıqlı bağlı olan məşğulluq zəncirini formalaşdırır.

Turizm və regional məşğulluq perspektivlərinin əsaslandırılması sahəsindəki hədəflərin əlçatan olması

Regional inkişaf baxımından turizm xüsusilə mühüm əhəmiyyət daşıyır. Bir çox hallarda iqtisadi inkişaf iri şəhərlərdə cəmləşir, kənd və ucqar ərazilərdə isə iş imkanları məhdud qalır. Bu isə daxili miqrasiyanın güclənməsinə, sosial bərabərsizliyin artmasına və regionların iqtisadi

potensialının tam istifadə olunmamasına səbəb olur. Turizm regionların təbii, tarixi, mədəni və etnoqrafik resurslarını iqtisadi dəyərə çevirməklə bu problemi müəyyən dərəcədə aradan qaldırır. Yerli turizm infrastrukturu inkişaf etdikcə regionlarda xidmət sektoru genişlənir, ailə biznesləri yaranır, kiçik sahibkarlıq təşviq olunur və yerli əhali üçün dayanıqlı gəlir mənbələri formalaşır (Bilalov, 2006). Bu baxımdan turizm təkcə iqtisadi fəaliyyət deyil, həm də regional tarazlığın təmin olunmasının effektiv alətlərindən biri kimi çıxış edir.

Turizmin dayanıqlı məşğulluq potensialında insan kapitalının rolu xüsusi vurğulanmalıdır. Turizm sahəsi xidmət keyfiyyəti, kommunikasiya bacarığı, dil bilikləri, peşə hazırlığı və innovativ yanaşmalar tələb edən bir sektordur. Ona görə də bu sahədə dayanıqlı məşğulluğun təmin olunması peşə təhsili, kadr hazırlığı, ixtisasartırma proqramları və əmək bazarının tələblərinə uyğun bacarıqların inkişafı ilə sıx bağlıdır. Əmək məhsuldarlığının yüksəldilməsi, xidmət keyfiyyətinin artırılması və beynəlxalq rəqabət qabiliyyətinin gücləndirilməsi üçün insan kapitalına investisiyalar mühüm əhəmiyyət daşıyır. Xüsusilə gənclərin turizm menecmenti, hotelçilik, qonaqpərvərlik, ekoturizm, rəqəmsal marketinq və xidmət idarəçiliyi üzrə hazırlığı dayanıqlı məşğulluğun institusional əsaslarını möhkəmləndirir.

Turizm sahəsində qadın məşğulluğu da xüsusi sosial əhəmiyyət daşıyır. Beynəlxalq təcrübə göstərir ki, turizm sektoru qadınların əmək bazarında iştirak səviyyəsinin yüksəldilməsi üçün əlverişli imkanlar yaradır. Qonaqpərvərlik, xidmət, kiçik sahibkarlıq, yerli sənətkarlıq, kənd turizmi və ailə biznesləri qadınların iqtisadi fəallığının artmasına şərait yaradır. Qadınların gəlir əldə etməsi ailə rifahına, uşaqların təhsilinə, sosial müdafiəyə və ümumilikdə insan inkişafı göstəricilərinə müsbət təsir göstərir (Əliyev, 2008). Lakin burada vacib məsələlərdən biri qadın əməyinin aşağı ödənişli və qeyri-rəsmi sektorlarda cəmlənməsinin qarşısının alınmasıdır. Dayanıqlı turizm siyasəti gender bərabərliyi prinsiplərini nəzərə almalı, qadınların rəhbər və sahibkar kimi iştirakını təşviq etməlidir.

Gənclərin məşğulluğu baxımından da turizm mühüm potensiala malikdir. Əmək bazarına yeni daxil olan gənclər üçün turizm ilk peşə təcrübəsinin qazanılması baxımından əlverişli sahələrdən biridir. Bu sahədə kommunikasiya, təşkilatçılıq, idarəetmə, xidmət etikası və rəqəmsal bacarıqlar inkişaf edir. Turizm sektoru gənclərə sahibkarlıq təşəbbüsləri yaratmaq, innovativ xidmətlər təqdim etmək və yerli iqtisadiyyatla inteqrasiya olunmaq üçün imkan yaradır. Xüsusilə rəqəmsallaşma dövründə onlayn rezervasiya platformaları, turizm marketinqi, rəqəmsal bələdçilik, virtual tur məhsulları və sosial media üzərindən turizm təşviqi gənclərin yeni iqtisadi fəaliyyət sahələrinə daxil olmasına şərait yaradır.

Ekoturizm və kənd turizmi dayanıqlı məşğulluğun formalaşmasında ayrıca əhəmiyyət kəsb edir. Ənənəvi kütləvi turizm bəzən ətraf mühitə mənfi təsirlər yaratsa da, ekoturizm təbiətin qorunması ilə iqtisadi gəlirlərin uzlaşdırılmasına əsaslanır. Bu model çərçivəsində yerli icmalar təbii resursların mühafizəsində maraqlı olur, kənd əhalisi isə yeni gəlir imkanları əldə edir. Qonaq evləri, yerli mətbəx, kənd təsərrüfatı məhsullarının satışı, ekoloji marşrutlar və mədəni irsin təqdimatı kənd yerlərində məşğulluğun genişlənməsinə səbəb olur. Bunun nəticəsində kənd yerlərində işsizlik səviyyəsi azalır, daxili miqrasiya zəifləyir və yerli icmaların sosial-iqtisadi dayanıqlılığı güclənir.

Turizmin məşğulluq potensialının artırılmasında dovlət siyasətinin səmərəliləşdirici əhəmiyyəti

Turizmin dayanıqlı məşğulluq potensialının reallaşmasında dövlət siyasəti həlledici rol oynayır. İnfrastrukturun inkişafı, nəqliyyat əlçatanlığının yaxşılaşdırılması, hüquqi tənzimləmənin təkmilləşdirilməsi, investisiya təşviqləri, turizm təhsili və regional inkişaf proqramları bu sahənin dayanıqlı inkişafının əsas institusional dayaqlarıdır. Dövlətin məqsədyönlü siyasəti turizmin yalnız gəlir gətirən sahə kimi deyil, sosial məşğulluq siyasətinin tərkib hissəsi kimi formalaşmasına imkan

yaradır. Xüsusilə regionlarda turizm klasterlərinin yaradılması, kiçik sahibkarlığın dəstəklənməsi və yerli icmaların turizm layihələrinə cəlb olunması dayanıqlı məşğulluğun institusional əsaslarını möhkəmləndirir.

Azərbaycanın timsalında turizmin dayanıqlı məşğulluq baxımından potensialı olduqca genişdir. Ölkənin zəngin təbii-coğrafi müxtəlifliyi, tarixi abidələri, mədəni irsi, milli mətbəxi, dağ, dəniz, kənd və sağlamlıq turizmi imkanları bu sahənin inkişafı üçün əlverişli zəmin yaradır. Son illərdə turizm infrastrukturunun modernləşdirilməsi, regionlarda mehmanxana və xidmət obyektlərinin artması, beynəlxalq tədbirlərin təşkili və turizm marşrutlarının genişləndirilməsi bu istiqamətdə mühüm nəticələr vermişdir. Xüsusilə regionlarda turizmin inkişafı yerli məşğulluğun genişlənməsinə, ailə bizneslərinin yaranmasına və qeyri-neft sektorunun şaxələndirilməsinə mühüm töhfə verməkdədir. Bununla yanaşı, xidmət keyfiyyəti, peşəkar kadr hazırlığı, mövsümilik və beynəlxalq rəqabətlilik kimi məsələlər hələ də diqqət mərkəzində qalmalıdır.

Pandemiya dövrü turizmin dayanıqlı inkişaf konsepsiyasının vacibliyini bir daha ortaya qoydu. Qlobal məhdudiyyətlər nəticəsində turizm sektorunda ciddi geriləmə baş verdi, milyonlarla insan işini itirdi və xidmət zəncirində geniş iqtisadi itkilər yarandı. Bu proses göstərdi ki, dayanıqlı məşğulluq yalnız bazar artımına deyil, həm də risklərə davamlı institusional mexanizmlərə əsaslanmalıdır (Soltanova, 2015). Daxili turizmin inkişafı, rəqəmsal texnologiyaların tətbiqi, çevik biznes modelləri və insan kapitalına investisiyalar böhran dövrlərində sektorun dayanıqlığını artıran əsas amillərdən oldu. Bu təcrübə gələcək turizm siyasətində davamlılıq və adaptasiya qabiliyyətinin əsas prioritetlərdən biri olmalı olduğunu göstərdi.

Modern turizm təsisatlarının məşğulluq təminatında rəqəmsal transformasiyanın yeri və əhəmiyyəti

Müasir dövrdə rəqəmsal transformasiya turizmin məşğulluq potensialına yeni məzmun qazandırır. Onlayn rezervasiya sistemləri, rəqəmsal marketinq, süni intellekt əsaslı müştəri xidmətləri, məlumat analitikası və platforma iqtisadiyyatı turizmdə yeni peşələr və yeni əmək formaları yaradır. Bununla yanaşı, rəqəmsallaşma bəzi ənənəvi iş yerlərinin strukturunu dəyişdirir və əmək bazarında yeni bacarıqlara ehtiyac yaradır. Bu səbəbdən turizmdə dayanıqlı məşğulluğun gələcək modeli texnoloji adaptasiya, innovasiya yönümlü təlim və rəqəmsal bacarıqların inkişafı ilə birbaşa əlaqəlidir.

NƏTİCƏ

Nəticə etibarilə turizm dayanıqlı məşğulluq potensialının formalaşmasında mühüm iqtisadi və sosial hərəkətverici amildir. Onun əmək tutumlu xarakteri, multiplikativ iqtisadi təsiri, regional inkişaf imkanları, qadın və gənclərin məşğulluğuna verdiyi töhfə, yerli sahibkarlığın genişlənməsinə yaratdığı şərait və insan kapitalının inkişafına verdiyi stimul bu sahənin strateji əhəmiyyətini artırır (Bilalov, 2006). Lakin turizmin dayanıqlı məşğulluq mənbəyinə çevrilməsi yalnız turist axınının artması ilə deyil, eyni zamanda keyfiyyətli iş yerlərinin yaradılması, sosial müdafiənin gücləndirilməsi, peşə hazırlığının inkişaf etdirilməsi, ətraf mühitin qorunması və dövlət siyasətinin səmərəli koordinasiyası ilə mümkündür. Bu mənada turizm müasir iqtisadi inkişaf modelində təkcə gəlir gətirən sektor deyil, həm də sosial dayanıqlılığın, regional balansın və inklüziv inkişafın strateji dayaqlarından biri kimi çıxış edir.

ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikası Prezidenti. (2009). Azərbaycan Respublikası regionlarının 2009–2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Bakı, Azərbaycan.

2. Azərbaycan Respublikası Prezidenti. (2014). Azərbaycan Respublikası regionlarının 2014–2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Bakı, Azərbaycan.
3. Azərbaycan Respublikası Prezidenti. (2019). Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Bakı, Azərbaycan.
4. Abadov, M. (2014). Azərbaycan turizmi və onun inkişaf problemləri. Şərq-Qərb.
5. Azərbaycan Respublikasında sahibkarlığın inkişaf problemləri. (2003). Elmi-praktiki konfransın materialları. Bakı, Azərbaycan.
6. Bilalov, B. (2006). Turizm fəaliyyətinin tənzimlənməsi. Mütərcim.
7. Əliyev, Q. (2008). İnvestisiyanın maliyyələşdirilməsi və kreditləşdirilməsi. İqtisad Universiteti.
8. Əlirzayev, Ə. (2006). Turizmin inkişafının sosial-iqtisadi problemləri. Adiloğlu.
9. Əlirzayev, Ə. (2010). Turizmin iqtisadiyyatı və idarə olunması. İqtisad Universiteti.
10. Hüseynov, İ. , & Əfəndiyeva, N. (2007). Turizmin əsasları. Mars-Print.
11. İsayev, S. Z. (2011). İnvestisiya fəaliyyətinin hüquqi tənzimlənməsi. Bakı, Azərbaycan.
12. Qurbanov, F. İ. (2007). Azərbaycanda turizmin inkişaf problemləri. Adiloğlu.
13. Məmmədov, E.Q. (2013). Azərbaycanda turizm bazarının formalaşması və idarə olunmasının regional xüsusiyyətləri. Gənclik.
14. Soltanova, H. (2015). Azərbaycan Respublikasında turizm və onun inkişafı. AzTU.

NAXÇIVANDA VERGİ GÜZƏŞTLƏRİNİN SAHİBKARLIQ FƏALİYYƏTİ VƏ TURİZM SEKTORUNA TƏSİRİNİN KOMPLEKS İQTİSADİ TƏHLİLİ

A comprehensive economic analysis of the impact of tax incentives on entrepreneurial actıvıty and the tourısm sector ın Nakhchivan

İSMAYIL BAĞIROV
Ismail Bagirov
bagirovismayil@ndu. edu. az
https://orcid. org/0009-0006-8957-8678
Naxçıvan Dövlət Universiteti
Nakhchivan State University

XÜLASƏ

Azərbaycan Respublikasında həyata keçirilən vergi islahatları regionların sosial-iqtisadi inkişafının təmin edilməsində mühüm rol oynayır. Xüsusilə Naxçıvan Muxtar Respublikasında tətbiq edilən vergi güzəştləri sahibkarlıq fəaliyyətinin genişlənməsi, investisiya mühitinin yaxşılaşdırılması və turizm sektorunun inkişafı baxımından strateji əhəmiyyət daşıyır. Tədqiqatın məqsədi Vergi Məcəlləsinin XIX fəslində nəzərdə tutulmuş vergi azadolmalarının Naxçıvan Muxtar Respublikasında sahibkarlıq fəaliyyəti və turizm sektoruna təsirini kompleks iqtisadi baxımdan təhlil etməkdən ibarətdir. Araşdırmada iqtisadi-statistik analiz, müqayisəli yanaşma, sistemli təhlil və normativ-hüquqi sənədlərin elmi-praktik qiymətləndirilməsi metodlarından istifadə edilmişdir. Təhlillər göstərir ki, mənfəət, gəlir, torpaq, əmlak və sadələşdirilmiş vergilər üzrə tətbiq edilən azadolmalar sahibkarların maliyyə yükünü azaltmaqla investisiya qoyuluşlarının artmasına şərait yaradır. Eyni zamanda sənaye parkları, sənaye məhəllələri və investisiya təşviqi sənədi almış müəssisələr üçün texnika, avadanlıq və xammal idxalının ƏDV-dən azad olunması istehsal fəaliyyətinin genişlənməsinə və qeyri-neft sektorunun inkişafına müsbət təsir göstərir. Turizm sektorunda fəaliyyət göstərən müəssisələr üçün vergi güzəştləri xidmət keyfiyyətinin yüksəldilməsinə, yeni turizm obyektlərinin yaradılmasına və turist axınının artmasına səbəb olur. Araşdırma nəticəsində müəyyən edilmişdir ki, vergi siyasətinin düzgün təşkili regionun iqtisadi potensialının gücləndirilməsinə, məşğulluğun artırılmasına və sosial rifahın yüksəldilməsinə mühüm töhfə verir.

Açar sözlər: *vergi güzəştləri, sahibkarlıq fəaliyyəti, turizm sektoru, investisiya*

ABSTRACT

Tax reforms implemented in the Republic of Azerbaijan play an important role in ensuring the socio-economic development of regions. In particular, the tax incentives applied in the Nakhchivan Autonomous Republic have strategic significance in terms of expanding entrepreneurial activity, improving the investment environment, and developing the tourism sector. The purpose of the research is to comprehensively analyze from an economic perspective the impact of tax exemptions prescribed in Chapter XIX of the Tax Code on entrepreneurial activity and the tourism sector in the Nakhchivan Autonomous Republic. The study employed methods such as economic-statistical analysis, comparative approach, systematic analysis, and scientific-practical evaluation of normative-legal documents. The analyses show that exemptions applied to profit, income, land, property, and simplified taxes reduce the financial burden on entrepreneurs and create conditions for increasing investments. At the same time, exemption from VAT on the import of machinery, equipment, and raw materials for industrial parks, industrial zones, and enterprises that have received an investment promotion certificate positively affects the expansion of production activities and the development of the non-oil sector. Tax incentives for enterprises operating in the tourism sector lead to an improvement in service quality, the creation of new tourist facilities, and an increase in the flow of tourists. The research has determined that the proper organization of tax policy makes a significant contribution to strengthening the economic potential of the region, increasing employment, and improving social welfare.

Keywords: *tax incentives, entrepreneurial activity, tourism sector, investment*

GİRİŞ

Azərbaycan Respublikasında regional iqtisadi inkişafın təmin olunması dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biridir. Son illərdə həyata keçirilən iqtisadi islahatlar nəticəsində qeyri-neft sektorunun inkişafı, investisiya mühitinin yaxşılaşdırılması və sahibkarlığın təşviqi istiqamətində mühüm addımlar atılmışdır. Bu baxımdan vergi sistemi iqtisadiyyatın tənzimlənməsində və investisiya fəaliyyətinin stimullaşdırılmasında mühüm alət kimi çıxış edir [1].

Naxçıvan Muxtar Respublikası özünün strateji coğrafi mövqeyi, zəngin təbii ehtiyatları, əlverişli biznes mühiti və turizm potensialı ilə Azərbaycanın mühüm iqtisadi regionlarından biridir. Regionda sahibkarlığın inkişaf etdirilməsi və turizm sektorunun genişləndirilməsi məqsədilə müxtəlif dövlət proqramları və vergi güzəştləri tətbiq olunur. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin XIX fəslində "İşğaldan azad edilmiş ərazilərdə və Naxçıvan Muxtar Respublikasında tətbiq edilən vergitutmanın xüsusiyyətləri" müəyyən edilmişdir [2].

Vergi Məcəlləsinin 227. 1-ci maddəsinə əsasən Naxçıvan Muxtar Respublikasının rezidentləri 2026-cı il yanvarın 1-dən etibarən 10 il müddətində mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergidən azad edilirlər . Eyni zamanda sənaye parkları, sənaye məhəllələri və investisiya təşviqi sənədi almış müəssisələr üçün texnika, texnoloji avadanlıq və xammal idxalının ƏDV-dən azad olunması regionda investisiya qoyuluşlarının genişlənməsinə mühüm stimul yaradır [7].

Turizm sektorunun inkişafı Naxçıvan Muxtar Respublikasında qeyri-neft sektorunun aparıcı istiqamətlərindən biri hesab olunur. Regionun zəngin tarixi-mədəni irsi, müalicəvi mineral suları, dağ turizmi imkanları və müasir turizm infrastrukturu bu sahənin inkişafı üçün əlverişli şərait yaradır . Vergi güzəştlərinin tətbiqi mehmanxana, restoran və digər xidmət müəssisələrinin fəaliyyətinin genişlənməsinə və xidmət keyfiyyətinin yüksəlməsinə səbəb olur [8].

Tədqiqatın əsas məqsədi Naxçıvan Muxtar Respublikasında tətbiq edilən vergi güzəştlərinin sahibkarlıq fəaliyyəti və turizm sektoruna təsirinin kompleks iqtisadi təhlilini aparmaqdan ibarətdir.

MATERİAL VƏ METODLAR

Tədqiqat zamanı Azərbaycan Respublikasının Vergi Məcəlləsi, dövlət proqramları, statistik göstəricilər, elmi məqalələr və iqtisadi hesabatlardan istifadə edilmişdir [1;3]. Araşdırmada iqtisadi-statistik analiz, müqayisəli təhlil və sistemli yanaşma metodları tətbiq olunmuşdur.

Vergi Məcəlləsinin XIX fəslində nəzərdə tutulan vergi azadolmaları iqtisadi baxımdan qiymətləndirilmişdir [2]. Xüsusilə 226-228-ci maddələrdə müəyyən edilən güzəştlərin sahibkarlıq fəaliyyəti və turizm sektoruna təsiri araşdırılmışdır.

Tədqiqat çərçivəsində Naxçıvan Muxtar Respublikasında sahibkarlıq fəaliyyəti və turizm sektorunun inkişaf dinamikası statistik və müqayisəli iqtisadi təhlil metodları vasitəsilə araşdırılmışdır [8]. Təhlil zamanı region üzrə iqtisadi göstəricilər, sahibkarlıq subyektlərinin sayı, investisiya qoyuluşlarının həcmi, turizm müəssisələrinin fəaliyyəti, məşğulluq səviyyəsi və xidmət sektorunda baş verən dəyişikliklər qiymətləndirilmişdir. Müqayisəli yanaşma vasitəsilə vergi güzəştlərinin tətbiqindən əvvəlki və sonrakı dövr üzrə iqtisadi dəyişikliklər sistemli şəkildə təhlil edilmişdir [4].

Araşdırmalar göstərir ki, son illərdə Naxçıvan Muxtar Respublikasında sahibkarlıq subyektlərinin sayında davamlı artım müşahidə olunmuşdur [5]. Xüsusilə kiçik və orta sahibkarlıq fəaliyyəti ilə məşğul olan müəssisələrin sayı artmış, regionda yeni biznes subyektlərinin yaranması sürətlənmişdir. Bu artımın əsas səbəblərindən biri kimi vergi yükünün azaldılması, sadələşdirilmiş vergi rejiminin tətbiqi və sahibkarlar üçün nəzərdə tutulan fiskal güzəştlər çıxış edir [7].

Turizm sektoru üzrə aparılan statistik təhlillər də müsbət dinamikanı göstərir. Regionda fəaliyyət göstərən mehmanxanaların, istirahət mərkəzlərinin və ictimai iaşə obyektlərinin sayında

artım müşahidə edilmişdir. Vergi güzəştləri və ƏDV-nin qismən geri qaytarılması mexanizmi turizm xidmətlərinə tələbatın artmasına müsbət təsir göstərmişdir. Nəticədə Naxçıvan Muxtar Respublikasına gələn turistlərin sayı artmış, daxili turizm canlanmış və xidmət sektorunda dövriyyə genişlənmişdir.

Müqayisəli iqtisadi təhlil göstərir ki, vergi güzəştlərinin tətbiqindən sonra regionda məşğulluq səviyyəsində də artım baş vermişdir. Sahibkarlıq subyektlərinin və turizm müəssisələrinin fəaliyyət dairəsinin genişlənməsi yeni iş yerlərinin yaradılmasına səbəb olmuşdur. Bu isə əhalinin gəlirlərinin artmasına və sosial rifah səviyyəsinin yüksəlməsinə müsbət təsir göstərmişdir.

Aparılmış statistik və müqayisəli təhlillər nəticəsində müəyyən edilmişdir ki, Naxçıvan Muxtar Respublikasında tətbiq edilən vergi güzəştləri region iqtisadiyyatının inkişafına, investisiya mühitinin yaxşılaşdırılmasına və turizm sektorunun genişlənməsinə mühüm təsir göstərən əsas iqtisadi mexanizmlərdən biridir.

NƏTİCƏ

Aparılmış təhlillər göstərir ki, Naxçıvan Muxtar Respublikasında tətbiq edilən vergi güzəştləri region iqtisadiyyatının inkişafına mühüm müsbət təsir göstərir.

Sahibkarlıq fəaliyyətinə təsiri

Naxçıvan Muxtar Respublikasında tətbiq edilən vergi güzəştləri sahibkarlıq fəaliyyətinin inkişafına mühüm təsir göstərən əsas iqtisadi alətlərdən biri hesab olunur. Müasir bazar iqtisadiyyatı şəraitində sahibkarlığın inkişafı regionun sosial-iqtisadi tərəqqisinin əsas hərəkətverici qüvvələrindən biridir. Bu baxımdan dövlət tərəfindən tətbiq edilən fiskal stimullar və vergi azadolmaları sahibkarlıq subyektlərinin fəaliyyət imkanlarını genişləndirməklə yanaşı, investisiya mühitinin yaxşılaşdırılmasına və iqtisadi aktivliyin artmasına mühüm təsir göstərir [5].

Vergi Məcəlləsinin XIX fəslində nəzərdə tutulmuş güzəştlər Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən hüquqi və fiziki şəxslərin mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergilərdən müəyyən müddət ərzində azad olunmasını nəzərdə tutur. Bu güzəştlər sahibkarlıq subyektlərinin maliyyə yükünü əhəmiyyətli dərəcədə azaldaraq onların sərbəst maliyyə resurslarını artırır. Sahibkarlar əldə etdikləri əlavə maliyyə vəsaitlərini istehsalın genişləndirilməsinə, yeni texnologiyaların tətbiqinə və biznes fəaliyyətinin inkişafına yönəltmək imkanı əldə edirlər [2].

Vergi güzəştlərinin tətbiqi regionda yeni sahibkarlıq subyektlərinin yaranmasına da mühüm stimul verir. Xüsusilə kiçik və orta sahibkarlıq fəaliyyəti ilə məşğul olan müəssisələr üçün sadələşdirilmiş vergi rejiminin və digər fiskal güzəştlərin tətbiqi biznes fəaliyyətinə başlama prosesini asanlaşdırır. Bu isə regionda sahibkarlıq mühitinin daha da canlanmasına və rəqabət qabiliyyətinin yüksəlməsinə səbəb olur. Vergi yükünün azalması sahibkarların risklərini minimuma endirir və yeni investisiya layihələrinin həyata keçirilməsini stimullaşdırır. [9].

Sənaye parkları, sənaye məhəlləri və investisiya təşviqi sənədinə malik müəssisələr üçün tətbiq edilən ƏDV güzəştləri sahibkarlıq fəaliyyətinin inkişafında xüsusi əhəmiyyətə malikdir. Texnika, texnoloji avadanlıq və xammal idxalının ƏDV-dən azad olunması istehsal xərclərinin azalmasına və müəssisələrin maliyyə dayanıqlığının güclənməsinə şərait yaradır. Bu güzəştlər nəticəsində regionda innovativ istehsal fəaliyyətinin genişlənməsi, yeni sənaye müəssisələrinin yaradılması və müasir texnologiyaların tətbiqi sürətlənir. [7].

Vergi güzəştlərinin sahibkarlıq fəaliyyətinə təsiri yalnız iqtisadi göstəricilərlə məhdudlaşmır, eyni zamanda biznes mühitinin keyfiyyətinin yüksəlməsinə də müsbət təsir göstərir. Fiskal stimullar sahibkarların uzunmüddətli planlaşdırma imkanlarını artırır və investisiya risklərini azaldır. Nəticədə regionda sahibkarlıq fəaliyyətinin davamlı inkişafı üçün əlverişli iqtisadi mühit formalaşır.

Naxçıvan Muxtar Respublikasında tətbiq edilən vergi güzəştləri kənd təsərrüfatı, emal sənayesi, xidmət və ticarət sektorlarının inkişafına da müsbət təsir göstərmişdir. Sahibkarların

fəaliyyət imkanlarının genişlənməsi yerli istehsalın artmasına, məhsul çeşidlərinin genişlənməsinə və daxili bazarın inkişafına şərait yaratmışdır. Xüsusilə kənd təsərrüfatı məhsullarının emalı sahəsində fəaliyyət göstərən müəssisələrin sayında artım müşahidə edilmişdir ki, bu da regionda əlavə dəyər yaradan istehsal sahələrinin formalaşmasına səbəb olmuşdur.

Vergi güzəştlərinin tətbiqi regionda xarici və daxili investisiyaların artmasına da mühüm təsir göstərir. Əlverişli vergi mühiti investorların regiona marağını artırır və kapital qoyuluşlarının genişlənməsinə şərait yaradır. Müqayisəli təhlillər göstərir ki, vergi güzəştlərinin tətbiq olunduğu iqtisadi sahələrdə investisiya aktivliyi digər sahələrlə müqayisədə daha yüksək olmuşdur. Bu isə region iqtisadiyyatının diversifikasiyasına və qeyri-neft sektorunun inkişafına müsbət təsir etmişdir. [11].

Sahibkarlıq fəaliyyətinin inkişafı nəticəsində regionda məşğulluq səviyyəsi də yüksəlmişdir. Yeni müəssisələrin yaradılması və biznes fəaliyyətinin genişlənməsi yeni iş yerlərinin açılmasına səbəb olmuşdur. Bu isə əhalinin gəlirlərinin artmasına və sosial rifah səviyyəsinin yüksəlməsinə müsbət təsir göstərmişdir. Sahibkarlığın inkişafı regionda iqtisadi fəallığın artmasına, vergi daxilolmalarının strukturunun yaxşılaşmasına və sosial-iqtisadi sabitliyin möhkəmlənməsinə şərait yaratmışdır.

Aparılmış iqtisadi təhlillər göstərir ki, Naxçıvan Muxtar Respublikasında tətbiq olunan vergi güzəştləri sahibkarlıq fəaliyyətinin genişlənməsində, investisiya mühitinin yaxşılaşdırılmasında və region iqtisadiyyatının dayanıqlı inkişafında mühüm rol oynayır. Vergi siyasətinin davamlı təkmilləşdirilməsi və fiskal stimulların daha effektiv tətbiqi gələcək dövrdə regionun iqtisadi potensialının daha da gücləndirilməsinə imkan yarada bilər.

Turizm sektoruna təsiri

Naxçıvan Muxtar Respublikasında tətbiq edilən vergi güzəştləri turizm sektorunun inkişafına mühüm təsir göstərən əsas iqtisadi mexanizmlərdən biri hesab olunur. Regionun zəngin tarixi-mədəni irsi, əlverişli coğrafi mövqeyi, mineral su ehtiyatları, dağ və sağlamlıq turizmi potensialı turizm sektorunun inkişafı üçün geniş imkanlar yaradır. Dövlət tərəfindən həyata keçirilən vergi siyasəti və fiskal güzəştlər bu potensialın daha səmərəli istifadəsinə şərait yaratmışdır[3].

Vergi Məcəlləsinin XIX fəslində nəzərdə tutulmuş güzəştlər, xüsusilə sahibkarlıq subyektlərinin mənfəət, gəlir, torpaq və əmlak vergilərindən azad olunması turizm sahəsində fəaliyyət göstərən müəssisələrin maliyyə dayanıqlığını artırır. Mehmanxana, restoran, istirahət mərkəzləri və digər xidmət obyektlərinin vergi yükünün azalması onların investisiya imkanlarını genişləndirir və yeni turizm layihələrinin həyata keçirilməsinə stimul verir. Bu güzəştlər nəticəsində regionda müasir mehmanxanaların, istirahət komplekslərinin və turizm xidmətləri göstərən obyektlərin sayında artım müşahidə olunur.

Turizm sektoruna tətbiq edilən fiskal güzəştlər xidmət keyfiyyətinin yüksəlməsinə də müsbət təsir göstərir. Müəssisələrin maliyyə xərclərinin azalması əldə olunan vəsaitlərin xidmət infrastrukturunun yenilənməsinə, yeni texnologiyaların tətbiqinə və xidmət səviyyəsinin yüksəldilməsinə yönəldilməsinə imkan yaradır. Bu isə regionun turizm rəqabət qabiliyyətinin güclənməsinə və turist məmnuniyyətinin artmasına səbəb olur [12].

Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən turizm müəssisələri üçün tətbiq olunan vergi güzəştləri investisiya mühitinin yaxşılaşdırılmasına da mühüm təsir göstərir. Vergi yükünün azalması yerli və xarici investorların regiona marağını artırır. Xüsusilə turizm infrastrukturu sahəsində investisiya qoyuluşlarının artması yeni turizm marşrutlarının formalaşmasına, nəqliyyat və xidmət infrastrukturunun inkişafına şərait yaradır. Bunun nəticəsində regionun turizm potensialından istifadə səviyyəsi yüksəlir.

Turizm sektorunda tətbiq edilən ƏDV güzəştləri və geri qaytarma mexanizmləri də iqtisadi aktivliyin genişlənməsinə müsbət təsir göstərir. Mehmanxanalarda gecələmə və qalma xidmətləri

üzrə ƏDV-nin müəyyən hissəsinin geri qaytarılması turistlərin xərclərinin azalmasına səbəb olur və daxili turizmin inkişafını stimullaşdırır. Bu mexanizm xüsusilə regiona gələn yerli turistlərin sayının artmasına və turizm xidmətlərinə tələbatın yüksəlməsinə şərait yaradır [15].

Statistik göstəricilər göstərir ki, son illərdə Naxçıvan Muxtar Respublikasında turist axınında və turizm müəssisələrinin sayında artım müşahidə edilmişdir. Turizm sektorunun inkişafı regionda məşğulluğun artmasına da mühüm təsir göstərmişdir. Yeni mehmanxana, restoran və turizm obyektlərinin yaradılması xidmət sektorunda əlavə iş yerlərinin açılmasına səbəb olmuşdur. Bu isə əhalinin gəlirlərinin artmasına və sosial rifahın yüksəlməsinə müsbət təsir etmişdir.

Turizm sektorunun inkişafı digər iqtisadi sahələrin də canlanmasına şərait yaradır. Turizmin genişlənməsi nəqliyyat, kənd təsərrüfatı, ticarət, iaşə və xidmət sektorlarında iqtisadi aktivliyi artırır. Bu baxımdan turizm sektorunda tətbiq edilən vergi güzəştləri multiplikativ iqtisadi effekt formalaşdıraraq region iqtisadiyyatının ümumi inkişafına mühüm töhfə verir [13].

Aparılmış təhlillər göstərir ki, Naxçıvan Muxtar Respublikasında tətbiq olunan vergi güzəştləri turizm sektorunun dayanıqlı inkişafının təmin edilməsində, investisiya qoyuluşlarının artırılmasında və regionun beynəlxalq turizm bazarında rəqabət qabiliyyətinin gücləndirilməsində mühüm rol oynayır. Gələcək dövrdə bu sahədə tətbiq edilən fiskal stimulların daha da genişləndirilməsi regionun turizm potensialının daha effektiv istifadəsinə imkan yarada bilər.

Sosial-iqtisadi nəticələr

Naxçıvan Muxtar Respublikasında tətbiq edilən vergi güzəştləri regionun sosial-iqtisadi inkişafına mühüm təsir göstərən əsas iqtisadi mexanizmlərdən biri kimi çıxış edir [9]. Vergi yükünün azaldılması sahibkarlıq fəaliyyətinin genişlənməsinə, investisiya qoyuluşlarının artmasına və iqtisadi aktivliyin yüksəlməsinə səbəb olur [4].

Vergi güzəştlərinin əsas sosial-iqtisadi nəticələrindən biri məşğulluq səviyyəsinin yüksəlməsidir. Sahibkarlıq subyektlərinin fəaliyyət imkanlarının genişlənməsi yeni müəssisələrin və istehsal sahələrinin yaranmasına şərait yaratmışdır [5]. Bu isə işsizlik səviyyəsinin azalmasına və əmək bazarında iqtisadi fəallığın artmasına müsbət təsir etmişdir [14].

Turizm sektorunda müşahidə olunan inkişaf regionun sosial-iqtisadi vəziyyətinə xüsusi təsir göstərmişdir. Mehmanxana, restoran, nəqliyyat və turizm xidmətləri sahəsində fəaliyyət göstərən müəssisələrin genişlənməsi yerli əhalinin məşğulluğunu artırmış və regionda xidmət sektorunun inkişafını sürətləndirmişdir [8].

Vergi güzəştləri nəticəsində regionda investisiya mühitinin yaxşılaşması iqtisadi sabitliyin güclənməsinə də səbəb olmuşdur [11]. Sahibkarların fəaliyyət risklərinin azalması uzunmüddətli investisiya layihələrinin həyata keçirilməsinə şərait yaratmışdır [10].

TƏKLIFLƏR

1. Rəqəmsal İqtisadiyyatın Dəstəklənməsi

Rəqəmsal texnologiyalar tətbiq edən sahibkarlıq subyektləri üçün əlavə fiskal stimulların nəzərdən keçirilməsi regionun rəqabət qabiliyyətini artıracaq.

2. İnnovativ Sahibkarlığın Təşviqi

Yeni məhsul və xidmətlər yaradan, innovativ fəaliyyət göstərən müəssisələr üçün xüsusi vergi güzəştlərinin tətbiqi qeyri-neft sektorunun inkişafını sürətləndirəcək.

3. Turizm Güzəştlərinin Genişləndirilməsi.

Turizm sektorunda tətbiq edilən fiskal stimulların daha da genişləndirilməsi regionun beynəlxalq turizm bazarında mövqeyini gücləndirib turist axınını artıracaq.

4. Yeni Fiskal Mexanizmlər

Regionun coğrafi xüsusiyyətləri və iqtisadi potensialı nəzərə alınmaqla yeni fiskal mexanizmlərin tətbiqi iqtisadi inkişaf tempini daha da sürətləndirə bilər.

MÜZAKİRƏ

Aparılmış tədqiqat göstərir ki, vergi güzəştləri regional iqtisadi inkişafın sürətləndirilməsində mühüm iqtisadi alət kimi çıxış edir. Vergi yükünün azaldılması sahibkarlıq subyektlərinin fəaliyyət imkanlarını genişləndirir və investisiya qoyuluşlarını artırır. Bu nəticələr Azərbaycan Respublikasında aparılan vergi islahatlarının iqtisadi effektivliyini bir daha təsdiq edir [4].

Naxçıvan Muxtar Respublikasında tətbiq olunan ƏDV güzəştləri və vergi azadolmaları xüsusilə sənaye və turizm sektorlarında müsbət nəticələr formalaşdırır. Turizm sahəsində tətbiq edilən fiskal stimullar regionun turizm potensialının daha səmərəli istifadəsinə şərait yaradır.

Bununla yanaşı, gələcək dövrdə vergi siyasətinin daha da təkmilləşdirilməsi, rəqəmsal iqtisadiyyatın inkişafı, innovativ sahibkarlığın təşviqi və investisiya mühitinin daha da yaxşılaşdırılması məqsədəuyğun hesab edilir. Regionun coğrafi xüsusiyyətləri və iqtisadi potensialı nəzərə alınmaqla yeni fiskal mexanizmlərin tətbiqi Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişaf tempini daha da sürətləndirə bilər.

ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı, 2026.
2. Azərbaycan Respublikasının Vergi Məcəlləsi, XIX fəsil: "İşğaldan azad edilmiş ərazilərdə və Naxçıvan Muxtar Respublikasında tətbiq edilən vergitutmanın xüsusiyyətləri".
3. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişaf proqramları. Naxçıvan, 2026.
4. Bağırov İ. İnvestisiyaların stimullaşdırılmasında vergi sisteminin rolu. Naxçıvan Dövlət Universiteti, 2024.
5. Məmmədov Z. Regional iqtisadiyyat və sahibkarlığın inkişafı. Bakı: İqtisad Universiteti Nəşriyyatı, 2020.
6. Abbasov F. Turizm iqtisadiyyatı və regional inkişaf məsələləri. Bakı: Təhsil Nəşriyyatı, 2019.
7. Əliyev A. Vergi siyasəti və qeyri-neft sektorunun inkişafı. Bakı, 2021.
8. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi. Turizm statistikası və inkişaf göstəriciləri. Bakı, 2024.
9. Hüseynov R. Fiskal siyasət və investisiya mühiti. Bakı: Elm və Təhsil, 2022.
10. OECD. Tax Policy Reforms in Emerging Economies. Paris, 2021.
11. World Bank. Regional Economic Development and Investment Climate Report. Washington DC, 2022.
12. IMF. Fiscal Policy and Sustainable Economic Growth. Washington DC, 2021.
13. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi. İnvestisiya təşviqi mexanizmləri və regional inkişaf hesabatı. Bakı, 2023.
14. Sadıqov R. Azərbaycanda sahibkarlığın inkişafında vergi güzəştlərinin rolu. Bakı, 2022.
15. United Nations World Tourism Organization (UNWTO). Tourism and Economic Development Report. Madrid, 2023.

TURİZM EKONOMİSİ VE YEREL HALKIN DIŞLANMASI

Tourism Economy and the Exclusion of Local People

CEM YEŞİLYURT
Cem Yeşilyurt
cyesilyurt@adiyaman. edu. tr
https://orcid. org/0000-0003-2193-5406
Adıyaman Üniversitedi
Adıyaman University

XÜLASƏ

Bu çalışma, turizmin bölgesel kalkınmadaki rolünü ve sahil erişiminde yaşanan sosyo-ekonomik eşitsizlikleri incelemektedir. Büyük oteller ve işletmelerin sahilleri kapatması veya yüksek ücretli şezlong kiralama zorunluluğu, orta ve alt gelir gruplarının denize erişimini kısıtlamaktadır. Katılımcılar, sahillerin en güzel noktalarında denize girememenin ekonomik engellerden kaynaklandığını belirtmiş, bu durumun çözümü için devlet müdahalesi gerektiğini vurgulamıştır. Yunanistan'da başlayan ve Türkiye'ye yayılan "Havlu Hareketi" gibi toplumsal tepkiler, halkın bilinçlenerek sahillerin kamusal kullanımını talep ettiğini göstermektedir. Araştırma, Adıyaman Üniversitesi'nde orta gelir grubundaki akademik ve idari personelle yapılan yarı-yapılandırılmış görüşmelere dayanmaktadır. Bulgular, vatandaşların sahilleri ücretsiz kullanma hakkını savunduğunu ve kamu kurumlarından çözüm beklediğini ortaya koymaktadır. Sonuç olarak, turizm gelirleri kadar halkın erişim hakkı da kalkınma politikalarında dikkate alınmalıdır.

Açar sözlər: Turizm,*Turizm Ekonomisi, Tatil, Kumsallar, Yerel Halk*

ABSTRACT

This study examines the role of tourism in regional development and the socio-economic inequalities experienced in coastal access. The closure of beaches by large hotels and businesses, or the obligation to rent sunbeds at high prices, restricts access to the sea for middle- and lower-income groups. Participants stated that the inability to swim at the most beautiful points of the coast stems from economic barriers, emphasizing the need for state intervention to resolve this issue. Social reactions such as the "Towel Movement," which started in Greece and spread to Turkey, show that the public has become aware and demands the public use of beaches. The research is based on semi-structured interviews conducted with academic and administrative staff from the middle-income group at Adıyaman University. Findings reveal that citizens defend their right to use beaches free of charge and expect solutions from public institutions. In conclusion, alongside tourism revenues, the right of public access must also be considered in development policies.

Keywords: *Tourism, Tourism Economy, Holidays, Beaches, Local People*

Turizmin bölgesel kalkınma üzerine etkisine odaklanan birçok çalışma bulunmaktadır [1]; [2]; [3]. Turizm kalkınma için ihtiyaç duyulan döviz girdisini sağladığı destinasyonlar için önemli bir gelir kaynağıdır [4]; [5]. Destinasyonlar sürekli Turizm odaklı büyüme üzerine ilgi göstermektedirler [6]. Peki turizmden elde edilen gelir düşnülürken yerel halkın imkanlarını doğal turistik alanlara ulaşımını sınırlandırmak ne kadar doğrudur? Tam da bu noktada bu çalışmanın amacı sahillere kurulan büyük oteller nedeniyle yaşadığı şehirdeki sahile ulaşamayan veya işletmelerin sezonluk kiralama yolu ile kiraladığı sahil alanlarındaki şezlongları yüksek fiyatları nedeniyle kiralayamayan orta gelir grubunun bakış açısını incelemektir.

Çoğumuz kıyı bölgelerini seviyoruz ve bu bölgelere serbestçe ulaşmak istiyoruz [7]. Ancak maddi durum her zaman bu isteğimizi gerçekleştirmemize izin vermez. Kumsalların kullanımında iki farklı insan tipinden bahsedebiliriz. Yüksek plaj erişim ücretlerini ödeyebilen veya yüksek fiyatlı otellerde konaklayabilen sosyo-ekonomik gruplar ile bunu karşılayamayanlar [8]. Yasalar incelendiğinde, otel mülkiyeti plaja erişiminizi engelleyemez şeklindedir. Plajlar otel mülkiyetine dahil değildir, ancak özellikle tatil köyleri ve beş yıldızlı otelleri geniş arazileri nedeniyle kumsala geçişi zorlaştırmaktadır. Otelde kalıyorsanız, plaja doğrudan veya kestirme yoldan ulaşabilirsiniz. Aksi takdirde, bir tekne aracılığıyla veya bir koy şeklinde değilse kıyı şeridinden yürüyerek plaja

ulaşabilir siniz. Fakat engelli kişiler için uzun olan sahil yolundan geçerek kumsala ulaşmak imkansız olacaktır. İşletmelerin kiralayarak işlettiği kumsallarda ise durum dahada farklı bir hal almaktadır. Kumsalın neredeyse tamamına şezlonglar koyulduğu için denize girebilmek için tek yol işletmenin şezlonglarını kiralamaktır. Sadece şezlong kiralamak ile de sahili kullanamıyorsunuz ayrıca o işletmenin belirlemiş olduğu günlük harcama limitine de uymak zorundasınız. Otellerin ve işletmelerin denizin ve kumsalın en güzel olduğu alanlarda bulunduklarını düşündüğümüzde orta ve alt gelir gurubundaki ailelerin denizin ve kumsalın en güzel olduğu noktalarda denize girmesi imkansız hale gelmektedir.

Peki bu durumda halk her zaman sessiz mi kalmıştır? Bilinç seviyesi artan halk artık bu duruma tepki göstermeye başlamıştır. Yunanistan'da işletmelerin plajlara koyduğu şezlongların kaldırılmasına yönelik yerli halkın geçekleştirmiş olduğu "Havlu Hareketi" eylemi 2023 yılında Türkiye'ye sıçrayarak önemli turistik bölgeler olan Çeşme, Datça, Ayvalık gibi destinasyonlarda gerçekleşmiş, hatta bazı yerel haber siteleri kendi turistik destinasyonlarında da bu tarz eylemlerin yapılarak sahillerin halka açılmasına ön ayak olmaya çalışmışlardır.

Yapılan çalışmada veri toplama tekniği olarak nitel araştırma yöntemlerinden görüşme tekniğinin seçilmesinde esnek bir gözlem tekniği ile daha derinlemesine bilgilerin alınması göz önünde tutulmuştur [9]. Görüşmeler sırasında katılımcılara yöneltilen soruların bulunduğu yarı-yapılandırılmış mülakat formu, benzer bir konuda daha önce araştırma yapmış olan [7]; Ernst (2021)'in [8] Çalışmalarından yararlanılarak hazırlanılmıştır. Araştırma evreni Adıyaman Üniversitesinde çalışan orta gelir sınıfında bulunan tatile çıkabilecek akademik ve idari personelden oluşmaktadır. Veri toplama sürecinde amaçlı örnekleme yöntemlerinden kar-topu örnekleme yöntemi kullanılmıştır. Veri analizi, Strauss ve Corbin'in önerdiği 4 aşamalı betimsel nitel analiz süreci ile gerçekleştirilmiştir [9]. Katılımcıların tamamı, Türkiye'nin en güzel denizi ve kumsallarına sahip alanlarda denize girmek istemisiniz? Evet bu alanlarda denize girmek isteriz yanıtını verdiler. Peki maddi durumunuzu göze aldığınızda bu alanlarda denize girebileceğinizi düşünüyor musunuz? diye sorulduğunda katılımcıların tamamı maddi güçlerinin yetmeyeceği cevabını verdiler. Özellikle bir aile olarak 4-5 kişi gidildiğinde maaşlarının bunu karşılayamayacağını ilettiler. Katılımcılara bu alanlarda ücret vermeden deniz girmenizin hakkınız olduğunu düşünüyor musunuz? sorusu sorulduğunda katılımcıların tamamı "bu ülkenin vatandaşı olarak bu güzelliklerden faydalanmak hakkımız" yanıtı verilmiştir. Katılımcılara kumsalları halkın ücfretsiz kullanabilmesi için neler yapılması gereklidir? Sorusu sorulduğunda bu duruma ancak devletin gücünün yeteceğini, bu durumun düzeltilebilmesi için devletin halkının da bu güzelliklerden faydalanabilmesi için çözüm yolları üretmesi gerektiğini söylemişlerdir. Yapılan çalışma sonucunda halkın kendi ülkesindeki en güzel sahillerde denize girebilmeyi istediği ve bu durumun çözümü için kamu kurum ve kuruluşlarından çözüm beklediği görülmüştür.

ƏDƏBİYYAT SİYAHISI

1. Bakalo, N. , Makhovka, V. , Krekoten, I. , Glebova, A. , & Kulakova, S. (2025). Local tourism as financial and economic development driver of the community: Management aspect. World Development Perspectives, 38, 100693.
2. Khater, M. , Ibrahim, O. , Sayed, M. N. E. , & Faik, M. (2025). Legal frameworks for sustainable tourism: Balancing environmental conservation and economic development. Current Issues in Tourism, 28(22), 3693-3714.
3. Shieh, H. S. , & Chang, P. (2026). The Dual Impact of Sustainable Tourism Development on Local Economies and Ecosystems: A Mixed-Method
4. Seraj, M. , Ike, O. C. , & Ozdeser, H. (2025). The contribution of tourism on GDP growth and sustainable tourism development in Africa. Future Business Journal, 11(1), 115.

5. Ijatuyi, E. J. , Yessoufou, K. , & Patrick, H. O. (2025). Sustainable tourism and green space: exploring how green spaces and natural attractions contribute to local tourism economies and revenue generation in Gauteng province. Discover sustainability, 6(1), 236.
6. Mikulić, J. , Vizek, M. , Stojčić, N. , Payne, J. E. , Časni, A. Č. , & Barbić, T. (2021). The effect of tourism activity on housing affordability. Annals of tourism research, 90, 103264.
7. Alterman, R. ; Pellach, C. Beach Access, Property Rights, and Social-Distributive Questions: A Cross-National Legal Perspective of Fifteen Countries. Sustainability 2022, 14, 4237.
8. Ernst, H. R. (2021). Parking access, beach usage, and race: a study of the relationship between parking access and racial inequality at public beaches in Palm Beach County, Florida. Environmental justice, 14(1), 70-75.
9. Şimşek, H. & Yıldırım, A. (2011). Sosyal Bilimlerde Nitel Araştırma Yöntemleri. Seçkin Yayıncılık, Ankara.

İQLİM DƏYİŞİKLİYİNİN TURİZM FƏALİYYƏTİNƏ TƏSİRLƏRİ

The Impacts of Climate Change on Tourism Activities

İLHAM MƏMMƏDOV
İlham Mammadov
ilham. mammadov2@mdu. edu. az
https://orcid. org/0009-0008-0856-3883
Mingəçevir Dövlət Universiteti
Mingachevir State University

XÜLASƏ

Məqalə turizm sektorunun iqlim dəyişikliyi ilə qarşılıqlı təsirini sistemli şəkildə araşdırır. İqlim dəyişikliyi qlobal temperatur artımı, yağıntı rejiminin dəyişməsi və ekstremal hava hadisələrinin intensivləşməsi ilə turizmə birbaşa və dolayı təsir göstərir. Turizmin iqlimə təsiri əsasən nəqliyyat, xüsusilə aviasiya, otellərin enerji sərfiyyatı və təbii resursların intensiv istifadəsi ilə bağlıdır. Araşdırmalar göstərir ki, turizm fəaliyyəti qlobal karbon emissiyalarının 8–10%-ni təşkil edir. Digər tərəfdən, iqlim dəyişikliyi turizm resurslarının keyfiyyətini azaldır, mövsümlərin qısalmasına, turist axınlarının yönəlməsinə və iqtisadi itkilərə səbəb olur. Sahil turizmi dəniz səviyyəsinin yüksəlməsi, qış turizmi isə qar örtüyünün azalması ilə risk altındadır. Ekstremal hava hadisələri turizm infrastrukturunu zədələyir və turist davranışlarını dəyişdirir. İqtisadi nəticələrə gəlirlərin azalması, məşğulluğun zəifləməsi və regional inkişafın ləngiməsi daxildir. Çıxış yolu kimi davamlı turizm modelləri, adaptasiya tədbirləri və maarifləndirmə strategiyaları təklif olunur. Azərbaycan kontekstində Xəzər sahilində eroziya, dağ turizmində mövsümi dəyişikliklər sektorun davamlı inkişafına mane olur. Nəticə olaraq, davamlı turizm və uyğunlaşma strategiyalarının gücləndirilməsi iqlim risklərinin azaldılması üçün həlledici əhəmiyyət daşıyır.

Açar sözlər: *İqlim dəyişikliyi, turizm, davamlı inkişaf, ekoturizm, uyğunlaşma strategiyaları*

ABSTRACT

The article systematically explores the interaction between tourism and climate change. Climate change, characterized by rising global temperatures, altered precipitation patterns, and intensified extreme weather events, affects tourism both directly and indirectly. Tourism's impact on climate is mainly linked to transportation—particularly aviation—hotel energy consumption, and intensive use of natural resources. Studies indicate that tourism activities account for 8–10% of global carbon emissions. Conversely, climate change reduces the quality of tourism resources, shortens seasons, redirects tourist flows, and causes economic losses. Coastal tourism is threatened by sea-level rise, while winter tourism suffers from declining snow cover. Extreme weather events damage tourism infrastructure and alter tourist behavior. Economic consequences include reduced revenues, weakened employment, and slowed regional development. Proposed solutions involve sustainable tourism models, adaptation measures, and awareness strategies. In Azerbaijan, coastal erosion along the Caspian Sea and seasonal changes in mountain tourism hinder sustainable growth. Overall, tourism is both a contributor to and a victim of climate change. Strengthening sustainable tourism practices and adaptation strategies is crucial to mitigating risks and ensuring resilience in the sector.

Keywords: *Climate change, tourism, sustainable development, ecotourism, adaptation strategies*

GİRİŞ

Turizm sektoru qlobal iqtisadiyyatın mühüm komponentlərindən biri olmaqla yanaşı, ətraf mühitə, xüsusilə iqlim sisteminə əhəmiyyətli təsir göstərir. İqlim dəyişikliyi qlobal temperatur artımı, yağıntı rejiminin dəyişməsi və ekstremal hava hadisələrinin intensivləşməsi ilə xarakterizə olunur. Bu dəyişikliklər turizm sektoruna həm birbaşa (iqlim şəraiti), həm də dolayı (infrastruktur, ekosistemlər) təsir göstərir. Turizm sektoru dünya üzrə məşğulluğun və ÜDM-in əhəmiyyətli hissəsini təşkil etdiyindən, onun iqlim risklərinə həssaslığı xüsusi aktuallıq kəsb edir.

İqlim dəyişikliyi və turizm sektoru arasında qarşılıqlı əlaqə

Turizm və iqlim dəyişiklikləri arasında iki istiqamətli əlaqə mövcuddur:

- turizmin iqlimə təsiri
- iqlimin turizmə təsiri

Turizmin iqlimə təsir mexanizmləri. Tədqiqat göstərir ki, nəqliyyat, yerləşdirmə və turizm fəaliyyətləri istixana qazlarının artmasına səbəb olaraq iqlim dəyişikliyini sürətləndirir. Eyni zamanda, dayanıqlı turizm strategiyalarının tətbiqi bu təsirlərin azaldılmasında mühüm rol oynaya bilər

Turizm fəaliyyəti istixana qazı emissiyalarının mühüm mənbələrindən biridir. Xüsusilə aşağıda göstərilənlər bu sahədə əsas amillər kimi çıxış edir:

- Aviasiya və nəqliyyat sektorunda yanacaq istifadəsi. Turizmin iqlimə təsirində ən böyük pay nəqliyyat sektoruna aiddir. Xüsusilə aviasiya daşımaları yüksək karbon emissiyası ilə seçilir. Araşdırmalar göstərir ki, turizmlə bağlı CO_2 emissiyalarının təxminən 40-50%-i hava nəqliyyatının payına düşür.

- Hotellərin və turizm infrastrukturlarının yüksək enerji sərfiyyatı: Otellər və digər yerləşdirmə obyektləri enerji istehlakı baxımından intensiv sahələrdir. İstilik, soyutma, işıqlandırma və xidmət fəaliyyətləri böyük həcmdə enerji tələb edir ki, bu da dolayısı ilə istixana qazlarının emissiyasına səbəb olur.

- Tullantıların artması və təbii resursların intensiv istifadəsi: Turist fəaliyyətləri (xizək turizmi, kruizlər, safari və s.) təbii resursların intensiv istifadəsinə səbəb olur. Bu isə ekosistemlərin deqradasiyasına və karbon balansının pozulmasına gətirib çıxarır.

Bundan əlavə turizm fəaliyyətləri bir sıra nəticələr doğurur:

- ***Su və enerji resurslarının həddindən artıq istifadəsi.*** Turizm mərkəzlərində su və enerji tələbatının artması yerli resurslara təzyiq yaradır və iqlim dəyişikliklərinin təsirini gücləndirir;
- ***İstixana qazlarının artması.*** Turizm fəaliyyəti nəticəsində yaranan karbon emissiyaları qlobal istiləşmənin əsas səbəblərindən biridir. Bu emissiyalar iqlim sistemində qeyri-sabitlik yaradır;
- ***Tullantıların artması;***
- ***Biomüxtəlifliyə mənfi təsirlər.*** Kütləvi turizm təbii ərazilərin deqradasiyasına, biomüxtəlifliyin azalmasına və torpaq eroziyasına səbəb olur. [1]

Beynəlxalq tədqiqatlar turizmin biomüxtəliflik risklərini artırdığını və bunun regional ekosistemlərə uzunmüddətli təsir göstərdiyini vurğulayır.

Araşdırmalara görə, turizm sektoru qlobal karbon emissiyalarının təxminən 8-10%-ni təşkil edir

İqlim dəyişikliyinin turizmə təsiri

İqlim dəyişiklikləri turizm sektoruna birbaşa və dolayı təsirlər göstərən əsas qlobal problemlərdən biridir. İqlim dəyişiklikləri turizm fəaliyyətinə birbaşa təsir göstərərək turistik resursların keyfiyyətini və əlçatanlığını dəyişir, turistlərin seçimlərinə birbaşa təsir edir. Temperatur və iqlim komfort səviyyəsində dəyişikliklər turizm axınlarının istiqamətini və intensivliyini dəyişdirir.

Aparılan tədqiqatlar göstərir ki, iqlim komfortunun dəyişməsi turist sayının azalmasına və ya yeni regionlara yönəlməsinə səbəb olur

İqlim dəyişikliyinin turizm fəaliyyətinə əsas təsirlərinə aşağıdakıları göstərmək olar:

- Temperatur dəyişiklikləri. Temperaturun artması turizm istiqamətlərinin cəlbediciliyinə birbaşa təsir edir. Məsələn, isti iqlim zonalarında yay turizmi üçün əlverişsiz şərait yarana bilər, halbuki daha sərin regionlar yeni turizm mərkəzlərinə çevrilə bilər.

- Ekstremal hava hadisələri. Qasırğalar, daşqınlar, quraqlıqlar və meşə yanğınları kimi hadisələrin artması turizm infrastrukturu və təhlükəsizliyinə ciddi risk yaradır. Bu hadisələr turist axınının azalmasına və iqtisadi itkilərə səbəb olur.

- Dəniz səviyyəsinin yüksəlməsi. Sahil turizmi ilə məşhur olan bölgələrdə dəniz səviyyəsinin yüksəlməsi çimərliklərin və turizm obyektlərinin zərər görməsinə səbəb olur.

- Ekosistem dəyişiklikləri. Mərcan riflərinin məhv olması, buzlaqların əriməsi və biomüxtəlifliyin azalması turizm resurslarının keyfiyyətini aşağı salır. [1]

Bütün bu yuxarıda göstərilənlər turizm resurslarının keyfiyyətinə və davamlılığına təsir göstərərək turizm sektoruna aşağıdakı mənfi nəticələrə səbəb olur:

- Mövsümi dəyişikliklər. İqlim dəyişiklikləri turizm mövsümlərinin uzanmasına və ya qısalmasına səbəb olur. Bu isə turizm planlaşdırılmasına və gəlirlərə təsir edir.
- Turizm axınlarının yenidən istiqamətlənməsi. Turistlər daha əlverişli iqlim şəraitinə malik regionlara yönəlir, bu isə bəzi ölkələr üçün turizm gəlirlərinin azalmasına gətirib çıxarır.
- İqtisadi itkilər. İqlim riskləri nəticəsində turizm sektorunda investisiyaların azalması və infrastrukturun zədələnməsi müşahidə olunur.

İqlim dəyişikliyi və turizm sektorunun transformasiyası

İqlim dəyişikliyi turizm sektorunda mühüm dəyişikliklərə səbəb olur. Hava şəraitinin kəskin dəyişməsi, mövsümi dövrlərin dəyişməsinə, turizm infrastrukturunun zədələnməsinə və turist davranışlarının dəyişilməsinə gətirib çıxarır.

Turizm mövsümlərinin dəyişməsi: İqlim dəyişikliyi bəzi bölgələrdə turizm mövsümünü uzadırsa, digər bölgələrdə qısaldır və ya müəyyən bir çərçivəyə salınır.

Sahil turizminin təhlükə altında qalması: Dəniz səviyyəsinin yüksəlməsi və sahil eroziyası çimərlik turizmini ciddi təhlükə altında qoyur. Bu proses nəticəsində turizm infrastrukturuna zərər yetirə bilər, hətta tamamilə sıradan çıxmasına səbəb ola bilər.

Qış turizminin zəifləməsi: Qlobal istiləşmə nəticəsində qar örtüyünün azalması dağ və xizək turizmini məhdudlaşdırır. Bu durum, xüsusən də dağlıq regionlarda yerləşən turizm mərkəzlərinə öz mənfi təsirini göstərir.

Ekstremal hava şəraitinin kəskin dəyişmələri: Fırtına, sel, quraqlıq və istilik dalğaları kimi ekstremal hava hadisələrinin artması turizm mövsümünün qısaldılmasına, turist təhlükəsizliyinin azalmasına, sığorta və xidmət xərclərinin artdımına gətirib çıxarır.

Turist davranışlarının dəyişməsi. İqlim dəyişikliyi turistlərin seçimlərinə də təsir edir:

- daha sərin regionlara yönəlmə,
- ekoloji məsuliyyətli səyahətə marağın artması,
- mövsümi dəyişikliklər turizm bazarında yeni tendensiyalar yaradır. [2]

İqlim dəyişikliyinin iqtisadi və sosial nəticələri

İqlim dəyişikliyi, turizm sektorunun iqtisadi sabitliyinə ciddi təsir göstərən bir faktor kimi ortaya çıxır. İqlim hadisələrinin artması (sel, quraqlıq və isti hava dalğaları və s.) turist axınının azalmasına səbəb olur. Bu da öz növbəsində aşağıdakı nəticələrə gətirib çıxarır:

- Gəlirlərin azalması: Turizm sektorundan əldə olunan gəlirlərin azalması, yerli iqtisadiyyatın zəifləməsinə yol açır.

- Meşğulluğun zəifləməsi: Turizm sahəsində işləyən insan sayının azalması, işsizlik səviyyəsini artıra bilər.

- Regional inkişafın ləngiməsi: Turizm gəlirləri tez-tez yerli infrastrukturun inkişafına və sosial xidmətlərə sərmayə yatırması üçün vacibdir. Turist axınının azalması bu inkişaf prosesini ləngidir. [3]

İqlim dəyişikliyinin digər sektorlarla əlaqəsi: Turizm sektorunun iqlim dəyişikliyinə qarşı həssaslığı, su təchizatı, kənd təsərrüfatı və infrastruktur kimi digər sektorlarla olan sıx əlaqəsindən dolayı daha da artır.

Turizm sektorunun zəifləməsi yerli icmaların sosial rifahına və həyat səviyyəsinə mənfi təsir göstərir. Bu da, kənd əhalisinin gəlirinin azalması, işsizlik probleminin daha da yüksəlməsi və yerli xidmətlərin keyfiyyətinin aşağı düşməsi kimi nəticələrə yol açа bilər.

Davamlı turizm və uyğunlaşma strategiyaları

İqlim dəyişikliyinin təsirlərini azaltmaq üçün davamlı turizm və uyğunlaşma strategiyaları həlledici əhəmiyyət kəsb edir. Bu istiqamətlər aşağıdakı üç aspektə malikdir:

1. Davamlı turizm modelləri: Bu modellər karbon emissiyalarının azaldılmasına yönəlmişdir. Bunun üçün ekoloji nəqliyyat vasitələrinin tətbiqi, enerji səmərəli turizm infrastrukturunun yaradılması və digər davamlı praktikalar ön plana çıxarılır.
2. Adaptasiya tədbirləri: İqlimə davamlı turizm planlaşdırılması, mövsümi turizm məhsullarının diversifikasiyası və risk idarəetmə sistemlərinin yaradılması, turizm sektorunun iqlim dəyişiklikləri ilə uyğunlamasına kömək edəcəkdir.
3. Maarifləndirmə və idarəetmə: Beynəlxalq və milli səviyyədə keçirilən konfranslar və təşəbbüslər turizm sektorunun iqlim siyasətinə inteqrasiyasının vacibliyini vurğulayır ki, bu da, davamlı turizmin yayılması üçün çox vacibdir. [4]

Turizmdə ekoloji məsuliyyətin artırılması, həm turistlər, həm də sahibkarlar arasında davamlı turizm inkişafı üçün əsas şərtlərdən biridir.

Azərbaycan Respublikası turizm sektorunun iqlim dəyişikliklərinin təsirinə dair qiymətləndirilmə:

Azərbaycanın turizm sahəsi iqlim dəyişikliklərindən ciddi dərəcədə təsir alır. Bu proses həm müəyyən risklər, həm də yeni imkanlar yaradır.

Xüsusən Xəzər dənizi sahil zolağında eroziya prosesləri, su ehtiyatlarının azalması kimi problemlər yerli turizm sektorunun davamlı inkişafının təmin edilməsində bir sıra çətinliklər yaradır.

Dağ turizmi sahəsində mövsümi dəyişikliklər də turizm infrastrukturunun fəaliyyət dövrünün qısalmasına, müvəqqəti maliyyə itkilərinə yol açır. [5]

NƏTİCƏ

Turizm sektoru, iqlim dəyişikliyinə həm təsir göstərən, həm də ondan ciddi şəkildə təsirlənən çoxşaxəli bir sistemdir. İqlim dəyişikliyi turizm fəaliyyətinə çoxşaxəli təsir göstərən kompleks problemdir. Bu təsirlər həm təbii resursların azalması, həm də iqtisadi və sosial dəyişikliklər vasitəsilə özünü göstərir. Davamlı turizm strategiyalarının tətbiqi və iqlimə uyğunlaşma tədbirlərinin gücləndirilməsi bu təsirlərin azaldılması baxımından mühüm əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT SİYAHISI

1. RayHaber (2024). İqlim dəyişikliyinin turizm üzərində təsirləri və davamlı təcrübələr
2. Jurnal universal elmi-tədqiqat (2024). *Иклим Озгарыши* turizm
3. Scribd (PDF). İqlim dəyişikliyi və turizm
4. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi. İqlim dəyişmələri
5. Qebulol. az (2025 il). İqlim dəyişikliyi: sektorlara təsiri

TURİZM SƏNAYESİNDƏ RƏQƏMSAL İNNOVASİYALARIN İQTİSADİ SƏMƏRƏLİLİYİ

Economic Efficiency of Digital Innovations in the Tourism Industry

HƏVVA ADIGÖZƏLOVA
Havva Adigozalova
hevvaadigozelova@ndu. edu. az
Naxçıvan Dövlət Universiteti
Nakhchıvan State Unıversıty

XÜLASƏ

Son illərdə turizm sənayesində rəqəmsal innovasiyaların tətbiqi iqtisadi səmərəliliyin artırılmasında getdikcə daha mühüm rol oynamaqdadır. Bu məqalədə turizm sektorunda rəqəmsallaşmanın əsas istiqamətləri, onun iqtisadi göstəricilərə təsiri və xidmət keyfiyyətinin yüksəldilməsinə verdiyi töhfələr təhlil edilir. Xüsusilə, onlayn rezervasiya sistemləri, rəqəmsal marketinq alətləri, süni intellektə əsaslanan xidmətlər və mobil texnologiyalar turizm müəssisələrinin fəaliyyətini əhəmiyyətli dərəcədə dəyişdirmişdir. Statistik məlumatlara əsasən, Azərbaycanda turist axınının və xidmət dövriyyəsinin artımı araşdırılır. Bundan əlavə, rəqəmsal texnologiyalar vasitəsilə Naxçıvan Muxtar Respublikasının turizm potensialının inkişafı təhlil olunur. Tədqiqatın nəticələri göstərir ki, rəqəmsal innovasiyalar turizm sektorunun rəqabət qabiliyyətini artırır, əməliyyat xərclərini azaldır və müştəri məmnuniyyətini yüksəldir. Gələcəkdə rəqəmsal transformasiyanın daha da genişlənməsinin turizm sənayesinin davamlı inkişafına töhfə verəcəyi gözlənilir.

Açar sözlər: *rəqəmsal innovasiyalar, turizm sənayesi, iqtisadi səmərəlilik, ağıllı turizm, qonaqpərvərlik idarəçiliyi, rəqəmsallaşma, Naxçıvan.*

ABSTRACT

The application of digital innovations in the tourism industry has played an increasingly important role in improving economic efficiency in recent years. This article analyzes the main directions of digitalization in the tourism sector, its impact on economic indicators, and its contribution to service quality improvement. In particular, online booking systems, digital marketing tools, artificial intelligence-based services, and mobile technologies have significantly transformed the operations of tourism enterprises. Based on statistical data, the growth of tourist flows and service turnover in Azerbaijan is examined. Additionally, the development of tourism potential in the Nakhchivan Autonomous Republic through digital technologies is analyzed. The research findings indicate that digital innovations enhance the competitiveness of the tourism sector, reduce operational costs, and increase customer satisfaction. The expansion of digital transformation in the future is expected to contribute to the sustainable development of the tourism industry.

Keywords: *digital innovations, tourism industry, economic efficiency, smart tourism, hospitality management, digitalization, Nakhchivan.*

GİRİŞ

Müasir qlobal iqtisadiyyatda turizm ən sürətlə inkişaf edən xidmət sahələrindən biri hesab olunur. İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı turizm sənayesində yeni idarəetmə modellərinin və innovativ xidmətlərin formalaşmasına səbəb olmuşdur. Turizm sektorunda rəqəmsal innovasiyalar iqtisadi səmərəliliyin artırılmasında mühüm rol oynayır (Həsənov, 2022, s. 45). Rəqəmsal innovasiyalar turistlərin davranışına, xidmətlərin təşkili mexanizmlərinə və turizm müəssisələrinin iqtisadi fəaliyyətinə ciddi təsir göstərir.

Hazırda onlayn rezervasiya sistemləri, mobil tətbiqlər, süni intellekt əsaslı xidmətlər, elektron ödəniş sistemləri və rəqəmsal marketinq alətləri turizm sektorunun əsas inkişaf istiqamətlərindən birinə çevrilmişdir. Bu texnologiyalar xidmət keyfiyyətini artırmaqla yanaşı, əməliyyat xərclərinin azalmasına və gəlirlərin yüksəlməsinə şərait yaradır.

OECD məlumatına əsasən, pandemiyadan əvvəl turizm sektoru OECD ölkələrində orta hesabla ÜDM-in 4,4%-ni və məşğulluğun 6,9%-ni təşkil etmişdir.

1. Turizm sənayesində rəqəmsal innovasiyaların rolu

Rəqəmsal innovasiyalar turizm sektorunda xidmətlərin daha operativ və səmərəli təşkilinə imkan yaradır. Müasir dövrdə turistlər səyahət qərarlarını əsasən internet platformaları, sosial

şəbəkələr və mobil tətbiqlər vasitəsilə formalaşdırırlar. Bu isə turizm müəssisələrinin rəqəmsal transformasiyasını zəruri edir.

Turizm sənayesində istifadə olunan əsas rəqəmsal innovasiyalar aşağıdakılardır:

- onlayn bronlaşdırma sistemləri;
- elektron ödəniş texnologiyaları;
- süni intellekt əsaslı müştəri xidmətləri;
- virtual və artırılmış reallıq texnologiyaları;
- rəqəmsal marketinq platformaları;
- ağıllı hotel idarəetmə sistemləri.

Rəqəmsallaşmanın əsas üstünlüklərindən biri əməliyyat xərclərinin azalmasıdır. Məsələn, elektron rezervasiya sistemləri vasitəçi xərclərini minimuma endirir və xidmətlərin daha sürətli təşkilinə imkan yaradır. Eyni zamanda rəqəmsal marketinq vasitələri ənənəvi reklam üsulları ilə müqayisədə daha az maliyyə vəsaiti tələb edir.

2024-cü ildə Azərbaycanda internet istifadəçilərinin sayı 9,19 milyon nəfər olmuş və internet istifadə səviyyəsi əhalinin 88%-ni təşkil etmişdir. Mobil bağlantıların sayı isə əhalinin sayından artıq olmuşdur. Bu göstəricilər turizm sektorunda rəqəmsal xidmətlərin inkişafı üçün əlverişli şərait formalaşdırır.

2. Rəqəmsal innovasiyaların iqtisadi səmərəliliyinin təhlili

Turizm sektorunda rəqəmsal innovasiyaların tətbiqi iqtisadi göstəricilərin yaxşılaşmasına səbəb olur. Xüsusilə xidmət sürətinin artması, müştəri məmnuniyyətinin yüksəlməsi və bazar genişlənməsi iqtisadi səmərəliliyin əsas amilləri hesab edilir (Həsənov, 2022, s. 45).

Azərbaycan üzrə statistik göstəricilər bunu təsdiq edir. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü ilin yanvar-noyabr aylarında Azərbaycana gələn xarici vətəndaşların sayı 2,4 milyon nəfərə çatmış və əvvəlki illə müqayisədə 27,4% artmışdır (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2024).

2024-cü ildə ölkəyə gələn turistlərin ümumi sayı 2,6 milyon nəfəri keçmişdir ki, bu da əvvəlki illə müqayisədə 26% çoxdur (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2024).

Turizm xidmətlərinin dövriyyəsində də ciddi artım müşahidə olunmuşdur. 2024-cü ilin ilk doqquz ayında Azərbaycanın turizm xidmətləri dövriyyəsi 2,8 milyard ABŞ dollarına çatmış və illik müqayisədə 42,7% artmışdır. Turizm ixracı isə 1,6 milyard dollar olmuşdur (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2024).

Aşağıdakı cədvəl rəqəmsal inkişaf və turizm göstəriciləri arasındakı əlaqəni göstərir.

Cədvəl 1.

Rəqəmsal inkişaf və turizm göstəricilərinin müqayisəli təhlili

Göstəricilər	2023	2024
Xarici turistlərin sayı	2,08 milyon	2,63 milyon
Artım tempi	—	26%
Turizm xidmətləri dövriyyəsi	1,96 mlrd. dollar	2,8 mlrd. dollar
İnternet istifadə səviyyəsi	81%	88%
Mobil bağlantılar	10,9 milyon	11,81 milyon

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Dövlət Turizm Agentliyinin və DataReportal platformasının məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Məlumatlardan görünür ki, rəqəmsallaşma səviyyəsinin yüksəlməsi turizm sektorunun iqtisadi göstəricilərinə müsbət təsir göstərmişdir.

2. 1. Naxçıvanda rəqəmsal turizm xidmətlərinin inkişaf xüsusiyyətləri

Naxçıvan Muxtar Respublikası zəngin təbii, tarixi və sağlamlıq turizmi potensialına malik regionlardan biridir. Son illərdə regionda turizm infrastrukturunun inkişafı ilə yanaşı rəqəmsal texnologiyaların tətbiqi də genişlənmişdir. Xüsusilə hotel, istirahət mərkəzləri və turizm obyektlərinin sosial media platformalarında fəaliyyətinin artması regionun turizm imkanlarının daha geniş auditoriyaya çatdırılmasına şərait yaratmışdır.

Naxçıvanda fəaliyyət göstərən bir sıra hotel və turizm obyektləri artıq onlayn rezervasiya sistemlərindən istifadə edir. Bu isə xidmətlərin əlçatanlığını artırmaqla yanaşı turist məmnuniyyətinə də müsbət təsir göstərir. Duzdağ Fizioterapiya Mərkəzi, Batabat yaylağı, Əshabi-Kəhf ziyarətgahı və Mömінə Xatun türbəsi kimi turizm məkanlarının rəqəmsal platformalarda tanıdılması regionun turizm cəlbediciliyini artırır.

Sosial media marketinqinin inkişafı Naxçıvanın daxili turizm bazarında tanınmasına mühüm təsir göstərmişdir. Xüsusilə Instagram, Facebook və turizm platformaları vasitəsilə aparılan reklam və tanıtım fəaliyyəti turist axınının artmasına səbəb olmuşdur. Rəqəmsal innovasiyaların tətbiqi nəticəsində xidmətlərin operativliyi yüksəlmiş, reklam xərcləri azalmış və turizm müəssisələrinin gəlirliliyində artım müşahidə edilmişdir.

Bununla yanaşı regionda müəyyən problemlər də mövcuddur. Bəzi turizm obyektlərində rəqəmsal xidmətlərin məhdudluğu, innovativ texnologiyaların tam tətbiq olunmaması və rəqəmsal kadr çatışmazlığı gələcək inkişafı məhdudlaşdıran amillər kimi çıxış edir.

3. Azərbaycanda rəqəmsal turizmin inkişaf perspektivləri

Azərbaycanda son illərdə turizm sahəsində rəqəmsal transformasiya prosesləri sürətlənmişdir. Elektron viza sistemi, onlayn hotel rezervasiyası, rəqəmsal turizm platformaları və elektron ödəniş sistemləri bu inkişafın əsas elementləridir.

Xüsusilə ASAN Visa sisteminin tətbiqi ölkəyə gələn turistlərin sayının artmasına müsbət təsir göstərmişdir. Bununla yanaşı, sosial media marketinqi və rəqəmsal reklam alətləri Azərbaycanın beynəlxalq turizm bazarında tanıdılmasına imkan yaradır.

Bununla yanaşı, Azərbaycanda və regionlarda rəqəmsal turizm sistemlərinin inkişafı bir sıra çətinliklərlə müşayiət olunur. Xüsusilə paytaxt və regionlar arasında rəqəmsal infrastruktur baxımından fərqlər turizm xidmətlərinin keyfiyyətinə təsir göstərir. Böyük şəhərlərdə onlayn rezervasiya, elektron ödəniş və rəqəmsal marketinq imkanları daha geniş tətbiq olunsa da, bəzi regional turizm obyektlərində bu texnologiyaların istifadəsi məhdud səviyyədə qalır. Bu vəziyyət xidmətlərin beynəlxalq rəqabət qabiliyyətini zəiflədir və turist məmnuniyyətinə mənfi təsir göstərə bilir.

Digər mühüm problemlərdən biri rəqəmsal bacarıqlara malik kadr potensialının kifayət qədər formalaşmamasıdır. Turizm sektorunda çalışan işçilərin bir hissəsinin müasir rəqəmsal platformalar və innovativ idarəetmə sistemlərindən istifadə bacarıqlarının məhdud olması xidmətlərin effektiv təşkilinə maneə yaradır. Eyni zamanda rəqəmsal texnologiyaların geniş tətbiqi kibertəhlükəsizlik risklərini də artırır. Müştəri məlumatlarının qorunması və elektron ödəniş təhlükəsizliyi turizm müəssisələri üçün prioritet məsələlərdən birinə çevrilmişdir.

Gələcəkdə ağıllı turizm texnologiyalarının tətbiqi, süni intellekt əsaslı xidmətlərin genişləndirilməsi və rəqəmsal marketinq strategiyalarının inkişafı turizm sektorunun iqtisadi səmərəliliyini daha da artıracaqdır.

NƏTİCƏ

Araşdırma göstərir ki, rəqəmsal innovasiyalar turizm sənayesinin inkişafında mühüm iqtisadi amilə çevrilmişdir. Rəqəmsal texnologiyaların tətbiqi xidmət keyfiyyətini yüksəldir, xərcləri azaldır və turist axınının artmasına şərait yaradır. Azərbaycanda da rəqəmsallaşma turizm sektorunun inkişafına müsbət təsir göstərmiş, turist sayında və turizm gəlirlərində əhəmiyyətli artım müşahidə olunmuşdur.

Məqalədə aparılan təhlillər göstərir ki, gələcəkdə rəqəmsal innovasiyaların daha geniş tətbiqi turizm sənayesinin rəqabət qabiliyyətini artıracaq və qeyri-neft sektorunun inkişafına mühüm töhfə verəcəkdir.

ƏDƏBIYYAT SIYAHISI

1. Abbasov A. Regionlarda turizm potensialının iqtisadi inkişafda rolu. Bakı, 2022.
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. "Azərbaycanda turizm" statistik məcmuəsi. Bakı, 2024.
3. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi. Turizm statistikası və analitik hesabatlar. Bakı, 2024.
4. Cəfərov R. İnnovativ texnologiyalar və xidmət sektorunda rəqabət qabiliyyəti. Bakı, 2021.
5. Əlirzayev Ə. Turizmin iqtisadiyyatı və idarə olunması. Bakı: İqtisad Universiteti nəşriyyatı, 2021.
6. Əliyev İ. Müasir şəraitdə turizm xidmətlərinin idarə olunması problemləri. Bakı, 2021.
7. Həsənov R. Rəqəmsal iqtisadiyyat və innovativ inkişaf istiqamətləri. Bakı: Elm və Təhsil, 2022.
8. Hüseynova S. Azərbaycanda rəqəmsal transformasiya və xidmət sektorunun inkişafı. Bakı, 2023.
9. Məmmədov Z. Azərbaycanda turizm sektorunun inkişaf xüsusiyyətləri. Bakı, 2020.
10. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi. Naxçıvan MR-in sosial-iqtisadi göstəriciləri. Naxçıvan, 2024.
11. Naxçıvan Muxtar Respublikası Turizm Departamenti. Regionda turizm fəaliyyətinin əsas istiqamətləri üzrə hesabat. Naxçıvan, 2024.
12. Quliyev T. Azərbaycanda qeyri-neft sektorunun inkişafında turizmin rolu. Bakı, 2020.

TURİZM SEKTORUNDA SÜNİ İNTELLEKT TƏTBİQLƏRİ VƏ QONAQPƏRVƏRLİK İDARƏÇİLİYİ

Artificial Intelligence Applications in the Tourism Sector and Hospitality Management

ELGİZ MAHMUDOV
Elgiz Mahmudov
elgiz. mahmudov@mdu. edu. az
https://orcid. org/0009-0007-5818-4577
Mingəçevir Dövlət Universiteti
Mingachevir State University

XÜLASƏ

Məqalədə turizm sektorunda süni intellekt (Sİ) texnologiyalarının tətbiqi və qonaqpərvərlik idarəçiliyinə təsiri tədqiq olunur. Rəqəmsal transformasiya fonunda turizm sənayesində məlumatların analizi, fərdiləşdirilmiş xidmətlərin göstərilməsi, əməliyyatların optimallaşdırılması və müştəri məmnuniyyətinin artırılması məqsədilə süni intellekt əsaslı sistemlərin rolu artmaqdadır. Tədqiqat çərçivəsində maşın öyrənməsi, çatbotlar, proqnozlaşdırıcı analitika, dinamik qiymət formalaşdırılması və ağıllı idarəetmə sistemləri təhlil edilmişdir. Nəticələr göstərir ki, süni intellekt tətbiqləri turizm müəssisələrində resursların səmərəli istifadəsinə, xidmət keyfiyyətinin yüksəldilməsinə və rəqabət üstünlüyünün formalaşmasına şərait yaradır. Eyni zamanda, məlumat təhlükəsizliyi və etik məsələlər diqqət mərkəzində saxlanılmalıdır.

Açar sözlər: *Süni intellekt, turizm, qonaqpərvərlik idarəçiliyi, rəqəmsal transformasiya, maşın öyrənməsiş*

ABSTRACT

The article examines the application of artificial intelligence (AI) technologies in the tourism sector and their impact on hospitality management. Against the backdrop of digital transformation, the role of AI-based systems in the tourism industry is increasing, particularly in data analysis, the provision of personalized services, the optimization of operations, and the enhancement of customer satisfaction. Within the scope of the study, machine learning, chatbots, predictive analytics, dynamic pricing, and smart management systems were analyzed. The results show that AI applications facilitate the efficient use of resources in tourism enterprises, improve service quality, and contribute to the formation of competitive advantage. At the same time, data security and ethical issues must remain in focus.

Keywords: *Artificial intelligence, tourism, hospitality management, digital transformation, machine learning*

GİRİŞ

XXI əsrdə rəqəmsal texnologiyaların sürətli inkişafı turizm sektorunun struktur və idarəetmə mexanizmlərində köklü dəyişikliklərə səbəb olmuşdur. Xüsusilə süni intellekt konsepsiyası ilk dəfə 1956-cı ildə John McCarthy tərəfindən elmi dövriyyəyə daxil edilsə də, son onillikdə praktik tətbiqləri geniş yayılmışdır.

Turizm sənayesi informasiya intensiv sahə olduğundan böyük həcmli məlumatların (Big Data) emalı və analizi xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan Google, Booking. com və Airbnb kimi beynəlxalq platformalar süni intellekt alqoritmlərindən istifadə etməklə müştəri davranışlarını təhlil edir və fərdiləşdirilmiş təkliflər təqdim edir.

Qonaqpərvərlik idarəçiliyində Sİ əsaslı sistemlər rezervasiya, müştəri münasibətlərinin idarə olunması, gəlir menecmenti və xidmət keyfiyyətinin monitorinqində geniş tətbiq olunur. Bu məqalənin məqsədi turizm sektorunda süni intellekt tətbiqlərinin əsas istiqamətlərini müəyyənləşdirmək və onların idarəetmə səmərəliliyinə təsirini qiymətləndirməkdir.

MATERİAL VƏ METODLAR

Tədqiqat zamanı aşağıdakı metodlardan istifadə olunmuşdur:

- Elmi ədəbiyyatın sistemli təhlili
- Müqayisəli və statistik analiz
- Analitik-sintetik yanaşma
- Keys təhlil metodu

Məlumat mənbələri kimi beynəlxalq təşkilatların hesabatları, elmi jurnallar, turizm şirkətlərinin illik hesabatları və rəqəmsal platformaların analitik göstəricilərindən istifadə edilmişdir. Süni intellekt tətbiqlərinin effektivliyi xidmət keyfiyyəti, gəlir artımı və müştəri məmnuniyyəti indikatorları əsasında qiymətləndirilmişdir.

MÜZAKİRƏ

Süni intellekt texnologiyalarının tətbiqi turizm sektorunda innovativ idarəetmə modelinin formalaşmasına səbəb olmuşdur. Xüsusilə ağıllı otel konsepsiyası qonaqların fərdi ehtiyaclarına uyğunlaşdırılmış xidmətlərin göstərilməsinə imkan verir.

Bununla yanaşı, bir sıra problemlər də mövcuddur:

- Məlumatların məxfiliyi və kibertəhlükəsizlik riskləri
- Yüksək texnoloji investisiya xərcləri
- Kadrların rəqəmsal bacarıqlarının yetərli olmaması

Bu problemlərin aradan qaldırılması üçün rəqəmsal savadlılığın artırılması, normativ-hüquqi bazanın gücləndirilməsi və texnoloji innovasiyalara investisiyaların artırılması vacibdir.

NƏTİCƏ

Aparılan təhlil nəticəsində aşağıdakı əsas istiqamətlər müəyyən edilmişdir:

1. Fərdiləşdirilmiş xidmət modelləri

Maşın öyrənməsi alqoritmləri vasitəsilə müştərilərin əvvəlki seçimləri analiz edilir və uyğun təkliflər formalaşdırılır. Bu yanaşma müştəri loyallığını artırır.

2. Çatbot və virtual assistentlər

Süni intellekt əsaslı çatbotlar 24/7 rejimində müştəri sorğularını cavablandırır, rezervasiya prosesini asanlaşdırır və əməliyyat xərclərini azaldır.

3. Dinamik qiymət strategiyaları

Proqnozlaşdırıcı analitika tələb və təklif balansını təhlil edərək optimal qiymətlərin müəyyənləşdirilməsinə imkan verir. Bu isə gəlirlərin artmasına səbəb olur.

4. Əməliyyatların optimallaşdırılması

Sİ sistemləri enerji istifadəsi, otaq doluluğu və personal planlaşdırılmasını optimallaşdırır.

Nəticələr göstərir ki, süni intellekt tətbiqləri müəssisələrin gəlir göstəricilərini artırmaqla yanaşı, xidmət keyfiyyətinin yüksəlməsinə də müsbət təsir edir.

Tədqiqat göstərir ki, süni intellekt turizm sektorunun rəqəmsal transformasiyasında əsas hərəkətverici qüvvələrdən biridir. Qonaqpərvərlik idarəçiliyində Sİ tətbiqləri əməliyyat səmərəliliyini artırır, müştəri məmnuniyyətini yüksəldir və rəqabət qabiliyyətini gücləndirir.

Gələcək perspektivdə ağıllı turizm ekosisteminin formalaşması üçün dövlət siyasəti, innovasiya mühiti və beynəlxalq əməkdaşlıq mühüm rol oynayacaqdır.

ƏDƏBİYYAT SİYAHISI

1. McCarthy, J. (1956). Artificial Intelligence research proposal.
2. World Tourism Organization (UNWTO). (2023). Digital Transformation in Tourism Report.
3. Davenport, T. , & Ronanki, R. (2018). Artificial Intelligence for the Real World. Harvard Business Review.
4. Ivanov, S. , & Webster, C. (2019). Robots in Tourism and Hospitality.
5. OECD. (2022). Tourism Trends and Policies Report.
6. Booking. com Annual Report. (2023).
7. World Economic Forum. (2023). Future of Travel and Tourism Report.

AĞILLI TURİZM VƏ QONAQPƏRVƏRLİK İDARƏÇİLİYİNDƏ RƏQƏMSAL TRANSFORMASİYA VƏ İNNOVATİV TEXNOLOGİYALARIN TƏTBİQİ

Applıcatıon of Dıgıtal Transformatıon and Innovatıve Technologıes in Smart Tourısm and Hospıtalıty Management

LEYLA İSMAYILZADƏ[1]
Leyla Ismayilzade[1]
leyla. ismayilzada@mdu. edu. az
https://orcid. org/0000-0003-0629-070X

GÜNEL BAXŞİYEVA[1]
Gunel Baxshiyeva[1]
gunel. baxshiyeva@mdu. edu. az
https://orcid. org/0000-0002-2122-7859

VALİDƏ NURİYEVA[1]
Valide Nuriyeva[1]
valida. nuriyeva@mdu. edu. az
https://orcid. org/0000-0002-7966-3688

[1]*Mingəçevir Dövlət Universiteti*
[1]*Mingachevir State University*

XÜLASƏ

Ağıllı turizm və qonaqpərvərlik idarəçiliyi müasir dövrdə informasiya texnologiyalarının sürətli inkişafı ilə sıx bağlıdır. Bu yanaşma turizm xidmətlərinin daha effektiv təşkili, müştəri məmnunluğunun artırılması və resursların səmərəli idarə olunmasını təmin edir. Süni intellekt, böyük verilənlər (Big Data), Əşyaların İnterneti (IoT) və bulud texnologiyaları kimi innovativ həllər turizm və qonaqpərvərlik sektorunda geniş tətbiq olunaraq xidmət keyfiyyətinin yüksəldilməsinə şərait yaradır. Azərbaycan bu sahədə müəyyən irəliləyişlər əldə etmişdir. Xüsusilə ASAN xidmət tərəfindən təqdim olunan elektron viza sistemi ölkəyə turist axınının artmasına müsbət təsir göstərmişdir. Bununla yanaşı, Bakı şəhərində tətbiq olunan rəqəmsal turizm xidmətləri və Şahdağ Turizm Kompleksi kimi müasir turizm mərkəzlərində istifadə edilən innovativ texnologiyalar ağıllı turizmin inkişafına nümunədir. Bununla belə, texnoloji infrastrukturun inkişafı, kibertəhlükəsizlik və maliyyə resurslarının məhdudluğu kimi problemlər mövcuddur. Nəticə olaraq, innovativ informasiya texnologiyalarının davamlı tətbiqi Azərbaycanın turizm sektorunun rəqabət qabiliyyətini artıraraq onun beynəlxalq səviyyədə mövqeyini daha da gücləndirəcəkdir.

Açar sözlər: *Ağıllı turizm, süni intellekt, Big Data, Əşyaların İnterneti (IoT), rəqəmsallaşma.*

ABSTRACT

Smart tourism and hospitality management is closely related to the rapid development of information technologies in modern times. This approach ensures more effective organization of tourism services, increased customer satisfaction and efficient management of resources. Innovative solutions such as artificial intelligence, big data (Big Data), Internet of Things (IoT) and cloud technologies are widely applied in the tourism and hospitality sector, creating conditions for improving the quality of service. Azerbaijan has made certain progress in this area. In particular, the electronic visa system provided by ASAN service has had a positive impact on the increase in the flow of tourists to the country. In addition, digital tourism services implemented in Baku and innovative technologies used in modern tourism centers such as Shahdag Tourism Complex are examples of the development of smart tourism. However, there are problems such as the development of technological infrastructure, cybersecurity and limited financial resources. As a result, the continuous application of innovative information technologies will increase the competitiveness of Azerbaijan's tourism sector and further strengthen its position at the international level.

Keywords: *Smart tourism, artificial intelligence, Big Data, Internet of Things (IoT), digitalization.*

GİRİŞ

XXI əsrdə qlobal iqtisadiyyatın aparıcı sahələrindən biri kimi turizm və qonaqpərvərlik sektoru sürətli transformasiya mərhələsinə qədəm qoymuşdur. Rəqəmsallaşma, innovasiya və informasiya texnologiyalarının inkişafı bu sahənin strukturunu köklü şəkildə dəyişərək daha çevik, effektiv və müştəriyönümlü xidmət modelinin formalaşmasına səbəb olmuşdur. Bu kontekstdə "ağıllı turizm" anlayışı turizm sənayesində yeni inkişaf mərhələsi kimi çıxış edir və informasiya-

kommunikasiya texnologiyalarının geniş tətbiqini özündə birləşdirir.

Ağıllı Turizm Konsepsiyası

Ağıllı turizm konsepsiyası turistlərin səyahət təcrübəsinin optimallaşdırılması, xidmətlərin fərdiləşdirilməsi və resursların səmərəli idarə olunmasını təmin edən texnoloji həllərin inteqrasiyasına əsaslanır. Bu model çərçivəsində mobil tətbiqlər, rəqəmsal platformalar, bulud texnologiyaları və real vaxt məlumat sistemləri turistlərə səyahət planlaşdırılmasından başlayaraq səyahətin bütün mərhələlərində rahatlıq və operativlik təqdim edir.

Qonaqpərvərlikdə İnformasiya Texnologiyaları

Qonaqpərvərlik idarəçiliyində innovativ informasiya texnologiyalarının tətbiqi xidmət keyfiyyətinin yüksəldilməsi baxımından mühüm rol oynayır. Süni intellekt (AI) əsaslı sistemlər müştəri davranışlarını analiz edərək onların fərdi ehtiyaclarına uyğun xidmətlər təqdim etməyə imkan yaradır. Məsələn, hotellərdə istifadə olunan chatbotlar müştərilərlə fasiləsiz ünsiyyət quraraq rezervasiya, məlumatlandırma və problemlərin həlli proseslərini avtomatlaşdırır. Bu isə həm əməliyyat xərclərinin azalmasına, həm də xidmət sürətinin artmasına səbəb olur.

Böyük Verilənlər və IoT Texnologiyaları

Böyük verilənlər (Big Data) texnologiyalarının tətbiqi turizm müəssisələrinə geniş məlumat bazalarının təhlili əsasında daha düzgün qərarlar qəbul etməyə imkan verir. Müştəri davranışları, səyahət tendensiyaları və bazar dəyişikliklərinin analiz edilməsi marketinq strategiyalarının optimallaşdırılmasına və xidmətlərin təkmilləşdirilməsinə şərait yaradır.

Əşyaların İnterneti (IoT) texnologiyası ağıllı turizmin əsas elementlərindən biridir. Ağıllı otel otaqları, sensor əsaslı enerji idarəetmə sistemləri və avtomatlaşdırılmış təhlükəsizlik həlləri həm müştəri komfortunu artırır, həm də resurslardan səmərəli istifadəni təmin edir.

Ağıllı Şəhər və Turizm İnfrastrukturu

Ağıllı turizmin inkişafı "ağıllı şəhər" konsepsiyası ilə sıx bağlıdır. Şəhərlərdə rəqəmsal nəqliyyat sistemlərinin tətbiqi, interaktiv turizm xəritələrinin yaradılması və real vaxt məlumat xidmətlərinin təqdim edilməsi turistlərin hərəkətini asanlaşdırır və onların ümumi təcrübəsini zənginləşdirir.

Azərbaycanda Ağıllı Turizmin İnkişafı

Azərbaycan bu istiqamətdə müəyyən uğurlar əldə etmiş ölkələrdən biridir. ASAN xidmət çərçivəsində elektron viza sistemi turistlərin ölkəyə girişini asanlaşdırmışdır. Bakı şəhərində rəqəmsal turizm xidmətləri, mobil tətbiqlər və elektron bələdçi sistemləri tətbiq olunur.

Regionlarda, xüsusilə Qəbələ və Şahdağ turizm zonalarında müasir rezervasiya sistemləri və rəqəmsal idarəetmə texnologiyaları istifadə edilir. Şahdağ Turizm Kompleksi bu baxımdan innovativ nümunədir.

Mövcud Problemlər

Bu sahədə texnoloji infrastrukturun tam inkişaf etməməsi, yüksək maliyyə xərcləri və kibertəhlükəsizlik problemləri əsas çətinliklərdir. Bu səbəbdən dövlət və özəl sektor əməkdaşlığı vacibdir.

Gələcək Perspektivlər

Gələcəkdə süni intellekt, blokçeyn və virtual reallıq (VR) texnologiyalarının tətbiqi daha da genişlənəcəkdir. Bu yeniliklər turizm sektorunda daha interaktiv və fərdiləşdirilmiş xidmətlərin yaranmasına səbəb olacaqdır.

NƏTİCƏ

Ağıllı turizm və qonaqpərvərlik idarəçiliyində innovativ informasiya texnologiyalarının tətbiqi Azərbaycanın turizm sektorunun beynəlxalq rəqabət qabiliyyətinin artırılmasında mühüm rol oynayır. Mövcud imkanlardan səmərəli istifadə və yeni texnologiyaların davamlı tətbiqi ölkənin turizm sahəsində daha yüksək nailiyyətlər əldə etməsinə və regionun aparıcı turizm mərkəzlərindən birinə çevrilməsinə şərait yaradacaqdır.

ƏDƏBİYYAT SİYAHISI

1. Əliyev, R. (2019). Azərbaycanda turizmin inkişafında innovativ texnologiyaların rolu. Turizm və Qonaqpərvərlik Tədqiqatları Jurnalı, 5(2), 45–52.
2. Məmmədov, A. (2020). Qonaqpərvərlik sənayesində informasiya texnologiyalarının tətbiqi perspektivləri. Bakı: İqtisad Universiteti nəşriyyatı.
3. Həsənov, Z. (2018). Turizm sektorunda rəqəmsallaşma və onun iqtisadi təsirləri. Azərbaycan İqtisadiyyatı Jurnalı, 3(1), 60–68.
4. Azərbaycan Turizm Bürosu. (2021). Azərbaycan turizm bazarının illik hesabatı. Bakı.
5. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi. (2020). Turizm fəaliyyətinə dair statistik və analitik məlumatlar. Bakı.
6. Quliyev, T. (2022). Ağıllı turizm konsepsiyasının Azərbaycanda tətbiqi imkanları. İdarəetmə və İnnovasiya Jurnalı, 7(1), 88–95.

DAVAMLI URBANİZASİYA KONTEKSTİNDƏ YAŞIL ŞƏHƏR VƏ AĞILLI ŞƏHƏR YANAŞMALARININ QİYMƏTLƏNDİRİLMƏSİ

Evaluation of Green City and Smart City Approaches in the Context of Sustainable Urbanization

AYTAC İBRAHİMOVA
Aytac Ibrahimova
ecoibrahimova@gmail.com
https://orcid.org/0009-0000-9375-276X
Xəzər Universiteti
Khazar University

XÜLASƏ

Tədqiqat işində müasir şəhər ekosistemlərində davamlı urbanizasiya, yaşıl şəhər konsepsiyası, ekoloji memarlıq və ağıllı şəhər yanaşmaları araşdırılır. İşdə davamlı şəhərin yalnız texnoloji inkişafla deyil, eyni zamanda ekoloji tarazlıq, sosial rifah, resurs qənaəti və effektiv idarəetmə ilə bağlı olduğu göstərilir. Ədəbiyyat icmalında biofil şəhər, ekoloji şəhər və dayanıqlı şəhər modelləri nəzərdən keçirilir, Azərbaycanın yaşıl enerji siyasəti və Qarabağ bölgəsinin bərpa olunan enerji potensialı xüsusi olaraq vurğulanır. Metodologiya hissəsində ənənəvi şəhər, ağıllı şəhər və yaşıl/ağıllı şəhər modelləri enerji səmərəliliyi, tullantı idarəçiliyi, su ehtiyatlarından istifadə, rəqəmsal idarəetmə və sosial əlçatanlıq meyarları üzrə müqayisə olunur. Təklif edilən Şəhər Ekosisteminin Dayanıqlılıq İndeksi şəhər modellərinin daha sistemli qiymətləndirilməsinə imkan yaradır. Nəticələr göstərir ki, yaşıl/ağıllı şəhər modeli rəqəmsal texnologiyaları ekoloji dayanıqlılıqla birləşdirdiyi üçün daha yüksək səmərəlilik, resurs qənaəti və uzunmüddətli inkişaf potensialına malikdir. Bu yanaşma Azərbaycan şəhərlərində, xüsusilə Qarabağda həyata keçirilən ağıllı şəhər və ağıllı kənd layihələrinin yalnız infrastruktur yenilənməsi deyil, həm də ekoloji və sosial baxımdan dayanıqlı inkişaf modeli kimi qiymətləndirilməsinə əsas verir.

Açar sözlər: *Yaşıl şəhər, ağıllı şəhər, ekoloji memarlıq, rəqəmsal transformasiya, enerji səmərəliliyi.*

ABSTRACT

The research paper examines sustainable urbanization, green city concept, ecological architecture and smart city approaches in modern urban ecosystems. The paper shows that a sustainable city is not only related to technological development, but also to ecological balance, social well-being, resource conservation and effective management. The literature review reviews biophilic city, ecological city and sustainable city models, with a special emphasis on the green energy policy of Azerbaijan and the renewable energy potential of the Karabakh region. The methodology section compares traditional city, smart city and green/smart city models on the criteria of energy efficiency, waste management, water resource use, digital governance and social accessibility. The proposed Urban Ecosystem Sustainability Index allows for a more systematic assessment of urban models. The results show that the green/smart city model has higher efficiency, resource conservation and long-term development potential as it combines digital technologies with ecological sustainability. This approach provides the basis for evaluating the smart city and smart village projects implemented in Azerbaijani cities, especially in Karabakh, not only as infrastructure renewal, but also as a model of sustainable development from an ecological and social perspective.

Keywords: *Green city, smart city, ecological architecture, digital transformation, energy efficiency*

GİRİŞ

Davamlı şəhər, karbon emissiyalarını azaltmaq və hava keyfiyyətini yaxşılaşdırmaq üçün şəhər mühitinə yaşıllıq təklif edə bilən, təbii sərvətləri qorumaq və artırmaq üçün bərpa olunan

Davamlı bir şəhər sağlam, dinamik və ardıcıl iqtisadi quruluşa malikdir, vətəndaşların sosial bir şəhər təbii və insan tərəfindən törədilən fəlakətlərə və bioloji fəlakətlərə davamlıdır [3].

Ekoloji şəhər anlayışını ilk dəfə istifadə edən Richard Register, eko-şəhəri ekoloji cəhətdən sağlam bir şəhər kimi təyin edir. O, eko-şəhərin tam olaraq mövcud olmadığını, lakin bir məqsəd, bir ideal olduğunu və tarixi Avropa şəhər və qəsəbələrinin buna yaxın olan yaşayış məntəqələri olduğunu iddia edir. Keçmişdə bina tikintisində yerli materiallardan istifadə edən, əsrlər boyu funksiyası üzərində qurulmuş insan məskənidir. Eko-şəhər sakinlərinə istehsal etdiyindən daha çox
ə
ə
ə
ə
ə

Davamlı urbanizasiya müasir şəhərsalma düşüncəsində yalnız əhalinin şəhərlərə doğru cəmlənməsi prosesi kimi deyil, iqtisadi inkişaf, sosial rifah, ekoloji təhlükəsizlik və idarəetmə keyfiyyətinin bir-biri ilə əlaqələndirildiyi kompleks transformasiya mərhələsi kimi qiymətləndirilir. Bu baxımdan şəhər artıq sadəcə yaşayış, istehsal və xidmət məkanı deyil, resursların istehlakı, tullantıların idarə olunması, enerji istifadəsi, nəqliyyat hərəkətliliyi və ictimai iştirakın eyni sistem daxilində formalaşdığı dinamik ekosistemdir. Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərində şəhərlərin inklüziv, təhlükəsiz, dayanıqlı və davamlı olması xüsusi məqsəd kimi müəyyən edilir ki, bu da urbanizasiya prosesinin yalnız fiziki infrastrukturla deyil, həm də sosial bərabərlik, ekoloji məsuliyyət və iştirakçı idarəetmə ilə bağlı olduğunu göstərir [7].

Hazırda şəhərlərin inkişafında qarşıya çıxan əsas problem texnoloji yenilənmə ilə ekoloji dayanıqlılığın bəzən ayrı-ayrı istiqamətlər kimi təqdim edilməsidir. Halbuki davamlı şəhər yanaşması göstərir ki, rəqəmsal texnologiyalar yalnız idarəetməni sürətləndirdiyi zaman deyil, həm də enerji qənaətinə, tullantıların azaldılmasına, su ehtiyatlarının qorunmasına, vətəndaş xidmətlərinə bərabər çıxışa və şəhər mühitinin ekoloji keyfiyyətinin yüksəldilməsinə xidmət etdiyi zaman real inkişaf vasitəsinə çevrilir. Bu səbəbdən yaşıl şəhər və ağıllı şəhər anlayışlarının birgə təhlili daha məqsədəuyğundur. Çünki yaşıl şəhər daha çox ekoloji tarazlıq və resurs səmərəliliyi üzərində dayanır, ağıllı şəhər isə informasiya-kommunikasiya texnologiyaları, rəqəmsal idarəetmə və məlumat əsaslı qərarvermə mexanizmlərini ön plana çıxarır.

Registerin eko-şəhər yanaşması bu baxımdan mühüm nəzəri əsas yaradır. Müəllif eko-şəhəri təbii ekosistemlərin özünü tənzimləmə və davamlılıq prinsiplərinə uyğun qurulan insan məskəni kimi izah edir. Onun yanaşmasına görə şəhər təbiətdən ayrı fəaliyyət göstərən süni məkan deyil, əksinə, təbii sistemlərlə uyğunlaşmalı olan sosial-ekoloji quruluşdur [8]. Bu fikir davamlı urbanizasiya kontekstində xüsusilə əhəmiyyətlidir, çünki şəhərlərin dayanıqlılığı yalnız tikinti sıxlığı, texniki infrastruktur və iqtisadi aktivliklə deyil, həm də həmin şəhərin ətraf mühitə vurduğu yük, istehlak etdiyi resurslar və yaratdığı tullantıların idarə olunması ilə ölçülməlidir.

Bu tədqiqatın aktuallığı ondan ibarətdir ki, Azərbaycan şəhərlərində, xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan bərpa və yenidənqurma prosesləri şəhər inkişafının yeni model üzərində qurulması üçün imkan yaradır. Bu bölgələrdə ağıllı şəhər və ağıllı kənd layihələrinin həyata keçirilməsi yalnız texnoloji infrastrukturun tətbiqi kimi deyil, həm də enerji səmərəliliyi, yaşıl enerji, ekoloji bərpa, rəqəmsal xidmətlər və sosial əlçatanlıq prinsiplərinin birləşdirilməsi baxımından qiymətləndirilməlidir. Buna görə də məqalədə yaşıl şəhər və ağıllı şəhər yanaşmalarının müqayisəli şəkildə araşdırılması şəhər ekosistemlərinin gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi üçün həm nəzəri, həm də praktiki əhəmiyyət daşıyır.

ƏDƏBİYYAT İCMALI

Biofil şəhər təbiətlə və təbiətdəki digər canlılarla (ağaclar, yaşıllıqlar, heyvanlar, bağlar) əlaqə

a görə, biosevər şəhər konsepsiyası müxtəlif oxşar hərəkatların və baxışların nəzəriyyəsinə, tarixinə şəhərlər və son zamanlarda dayanıqlı şəhərlər yaratmaq səyləri daxildir. Biosevər şəhər yanaşması daha çox şəhərlərin və şəhər ərazilərinin şəraitinə və müsbət təbii keyfiyyətlərinə yönəlməyə meylli olsa da, tamamlayıcı təbiətə də malikdir.

Ədəbiyyatda davamlı şəhər anlayışı müxtəlif nəzəri istiqamətlər üzrə izah edilir. Registerin yanaşmasına görə eko-şəhər sadəcə yaşıllıq sahələrinin artırıldığı şəhər modeli deyil, təbii ekosistemlərin fəaliyyət məntiqinə uyğunlaşdırılmış yaşayış sistemidir. Müəllifin fikrincə, şəhərin ekoloji baxımdan sağlam hesab edilməsi üçün onun istehlak etdiyi resurslar, yaratdığı tullantılar və ətraf ekosistemlərə təsiri arasında tarazlıq olmalıdır. Bu yanaşma şəhərsalma prosesində "təbiətə uyğunlaşma" prinsipini əsas götürür və şəhəri müstəqil texniki mexanizm kimi deyil, canlı ekoloji sistemin tərkib hissəsi kimi təqdim edir [8].

Beatley isə biofil şəhər konsepsiyasını inkişaf etdirərək şəhər və təbiət münasibətlərinə daha insanmərkəzli yanaşma gətirmişdir. Müəllifin fikrincə, biofil şəhər yalnız biomüxtəlifliyin qorunduğu məkan deyil, həm də insanların gündəlik həyatında təbiətlə emosional, estetik və funksional əlaqə qura bildiyi şəhər mühitidir. Beatley bu yanaşmada parkların, ağacların, su hövzələrinin və yaşıl zonaların yalnız dekorativ element kimi deyil, şəhər sakinlərinin sağlamlığı, sosial davranışları və həyat keyfiyyəti ilə bağlı mühüm amil kimi nəzərdən keçirilməsini təklif edir [9]. Bu fikir yaşıl şəhər konsepsiyasını daha geniş izah etməyə imkan verir, çünki burada ekoloji mühit yalnız qorunan resurs deyil, həm də şəhər həyatının keyfiyyətini formalaşdıran sosial dəyər kimi çıxış edir.

Ağıllı şəhər nəzəriyyəsində Caragliu, Del Bo və Nijkampın yanaşması xüsusi yer tutur. Müəlliflər qeyd edirlər ki, şəhərin ağıllı hesab olunması yalnız informasiya texnologiyalarının tətbiqi ilə məhdudlaşdırıla bilməz. Onların fikrincə, ağıllı şəhər insan kapitalına, sosial kapitala, ənənəvi və müasir kommunikasiya infrastrukturuna investisiya qoymaqla davamlı iqtisadi inkişafı və yüksək həyat keyfiyyətini təmin edən şəhərdir [10]. Bu yanaşma ağıllı şəhər anlayışını daha geniş çərçivəyə çıxarır və göstərir ki, texnologiya özlüyündə məqsəd deyil, şəhər idarəçiliyini, vətəndaş iştirakını, resurslardan səmərəli istifadəni və sosial rifahı gücləndirən vasitədir.

Ahvenniemi və həmmüəllifləri ağıllı şəhər və davamlı şəhər göstəricilərini müqayisə edərək bu iki anlayış arasında mühüm fərqlərin olduğunu vurğulamışdır. Onların tədqiqatında göstərilir ki, ağıllı şəhər göstəriciləri çox vaxt texnologiya, idarəetmə və iqtisadi səmərəlilik üzərində cəmlənir, davamlı şəhər yanaşması isə daha çox ekoloji balans, resurs qənaəti və uzunmüddətli sosial-ekoloji nəticələrə diqqət yetirir [11]. Bu fikir məqalənin əsas məntiqini gücləndirir, çünki burada yalnız ağıllı

şəhər və ya yalnız yaşıl şəhər modeli deyil, onların inteqrasiya olunmuş forması daha dayanıqlı inkişaf modeli kimi əsaslandırılır.

Şahin və Yılmazın ağıllı şəhər tətbiqləri ilə bağlı yanaşması göstərir ki, şəhər idarəçiliyində rəqəmsal texnologiyaların tətbiqi xidmətlərin əlçatanlığını, nəqliyyatın idarə edilməsini, enerji istifadəsinin izlənilməsini və ictimai xidmətlərin səmərəliliyini artıra bilər. Lakin bu yanaşma yalnız texniki modernləşmə kimi qəbul edildikdə onun ekoloji və sosial təsiri məhdud qalır. Buna görə də ağıllı şəhər layihələri yaşıl infrastruktur, tullantıların təkrar emalı, su ehtiyatlarının qorunması və vətəndaş iştirakçılığı ilə əlaqələndirildikdə daha yüksək dayanıqlılıq səviyyəsi formalaşdırır [5].

Şekerin davamlılıq və rəqəmsallaşma ilə bağlı yanaşması da bu istiqamətdə mühüm nəzəri əsas verir. Müəllif rəqəmsallaşmanı yalnız texniki yenilik kimi deyil, iqtisadi və sosial proseslərin yenidən təşkili vasitəsi kimi qiymətləndirir. Bu baxımdan şəhər idarəçiliyində rəqəmsal sistemlərin tətbiqi məlumatların toplanması, emalı və qərarvermə prosesinin sürətləndirilməsi ilə yanaşı, resursların daha səmərəli bölgüsünə və ekoloji risklərin daha erkən müəyyən edilməsinə şərait yaradır [6]. Bu fikir ağıllı şəhər modelinin yaşıl şəhər konsepsiyası ilə tamamlanmasının zəruriliyini əsaslandırır.

Aziiza və Susanto ağıllı kənd modelini araşdırarkən rəqəmsal texnologiyaların yalnız iri şəhərlər üçün deyil, kənd və regional inkişaf üçün də mühüm əhəmiyyət daşıdığını qeyd etmişlər. Müəlliflərin yanaşmasına görə ağıllı yaşayış modeli yerli ehtiyaclara uyğunlaşdırıldıqda sosial xidmətlərə çıxışı genişləndirir, idarəetmənin çevikliyini artırır və əhalinin həyat keyfiyyətinə müsbət təsir göstərir [1]. Bu fikir Azərbaycan kontekstində, xüsusilə Qarabağda həyata keçirilən ağıllı kənd və ağıllı şəhər layihələrinin nəzəri əsaslandırılması baxımından əhəmiyyətlidir. Çünki həmin layihələr yalnız texniki infrastrukturun bərpası deyil, həm də məskunlaşma, sosial xidmət, enerji təminatı və ekoloji dayanıqlılıq modelinin formalaşdırılması kimi qiymətləndirilə bilər.

Aziz və Jahanın bərpa olunan enerji investisiyaları ilə bağlı tədqiqatı göstərir ki, inkişaf etməkdə olan ölkələrdə yaşıl enerji sektorunun inkişafı yalnız ekoloji məqsəd daşımır, həm də enerji təhlükəsizliyi, investisiya cəlbediciliyi və uzunmüddətli iqtisadi sabitlik baxımından mühüm rol oynayır [2]. Bu yanaşma Azərbaycan üçün də aktualdır, çünki ölkənin yaşıl enerji siyasəti, xüsusilə Qarabağın yaşıl enerji zonası kimi inkişaf etdirilməsi, şəhər və regional planlaşdırmanın davamlılıq prinsipləri əsasında qurulmasına imkan yaradır. Beləliklə, yaşıl şəhər modeli enerji səmərəliliyi və bərpa olunan enerji mənbələri ilə əlaqələndirildikdə daha real və tətbiq edilə bilən inkişaf mexanizminə çevrilir.

Hazırda bir çox dövlət yaşıl enerji sektorunun inkişaf etdirilməsi zərurəti səbəbindən enerji Əliyev tərəfindən təsdiq edilmiş "Gələcək üçün Azərbaycan 2020 Vizyonu" konsepsiyası iqlim istehlakında 9,7%-dən 20%-ə qədər artırılması nəzərdə tutulur. Yanvar ayında orta temperatur Qarabağın düzənlik və dağətəyi ərazilərində 2-0,5 dərəcə Selsi, yüksək dağlıq ərazilərdə isə -4 su elektrik stansiyası mövcuddur. Onlardan biri olan Tərtər su elektrik stansiyası 1976-cı ildə Tərtər çayı üzərində Sərsəng bəndi ilə birlikdə inşa edilmişdir [5].

ərbaycanın Cəbrayıl rayonunun Xudafərin kəndindən 1 km şimal-qərbdə yerləşən Xudafərin su elektrik stansiyası layihəsi 1992-ci ildə Cəbrayıl rayonunun işğalından sonra Ermənistanın nəzarəti altında qalmışdır. Ermənistan tərəfi bu layihənin həyata keçirilməsini İranla birlikdə davam etdirmişdir.
əmçinin vurğulanmışdır ki, Qarabağın dağlıq bölgələrində külək enerjisi potensialı 500 MVt-dan ərazilərdə külək enerjisi istehsalının hazırda mümkün olmadığı vurğulanmışdır. Eynilə, görüş zamanı Azərbaycanın yerli su ehtiyatlarının 25%-nin Qarabağda istehsal olunduğu nəzərə alınmaqla, Tərtər, Bazarçay və Həkəri kimi əsas çayların elektrik enerjisi istehsalı potensialı aydın olduğu kimi, Qarabağ bölgəsinin yaşıl enerji bölgəsinə çevrilmək üçün bütün potensialı var.

ə də, Azərbaycan hökuməti bir çox beynəlxalq şirkətlərlə məsləhətləşmələr apararaq bölgədə yaşıl enerji ehtiyatlarından istifadə etmək üçün pilot layihələrin həyata keçirilməsi strategiyası hazırlayıb. Xanlıq kəndinin, Laçın rayonunun cənub hissəsinin və ərazidəki digər infrastruktur layihələrinin stansiyalarının tikintisi üçün təxmini gücü 7214 MVt və 2120 MVt olan ərazilər müəyyən edilib və işlərin ən qısa müddətdə başlanması gözlənilir. Bu konkret addımlarla paralel olaraq, Səudiyyə Ərəbistanı ACWA və Birləşmiş Ərəb Əmirliklərinin Masdar şirkəti ilə imzalanmış son investisiya üçün atdığı əhəmiyyətli addımları təmsil edir. Bu çərçivədə Masdar 200 MVt gücündə günəş elektrik stansiyası tikmək layihəsini həyata keçirəcək, Acwa Power isə 240 MVt gücündə külək elektrik Enerji Zonası" adlı ətraflı konsepsiya hazırlanmışdır [1].

METODOLOGİYA

Müasir şəhər ekosistemlərinin təhlili yalnız nəzəri təsvirlə məhdudlaşdıqda, müxtəlif şəhər və ya şəhər modellərinin dayanıqlılıq baxımından üstün və zəif tərəflərini müəyyən etmək çətinləşir. Bu səbəbdən tədqiqatda şəhər ekosistemlərinin qiymətləndirilməsi üçün müqayisəli yanaşmadan istifadə olunması məqsədəuyğun hesab edilir. Müqayisəli yanaşma ağıllı şəhər, yaşıl şəhər və ənənəvi şəhər modellərinin eyni meyarlar üzrə təhlilinə imkan verir. Bu yanaşma həm şəhər idarəçiliyində rəqəmsal texnologiyaların rolunu, həm də ekoloji dayanıqlılıq, enerji səmərəliliyi, qiymətləndirməyə şərait yaradır [4].

Bu məqsədlə tədqiqatda "Şəhər ekosisteminin kontekstual dayanıqlılıq modeli" təklif olunur. Modelin əsas məntiqi ondan ibarətdir ki, şəhər dayanıqlılığı yalnız texnologiyanın mövcudluğu ilə deyil, həmin texnologiyanın yerli ekoloji, iqtisadi və sosial ehtiyaclara uyğunluğu ilə ölçülməlidir. Başqa sözlə, ağıllı şəhər yanaşması yalnız rəqəmsal infrastrukturun tətbiqi kimi deyil, enerji, su,

nəqliyyat, tullantı və idarəetmə sahələrində real səmərəlilik yaradan kompleks sistem kimi qiymətləndirilməlidir.

Modelin qurulmasında beş əsas qiymətləndirmə istiqaməti seçilmişdir: enerji səmərəliliyi, tullantıların idarə olunması və dövri iqtisadiyyat, su və təbii resurslardan istifadə, rəqəmsal idarəetmə və ağıllı infrastruktur, sosial əlçatanlıq və tətbiq imkanları. Bu göstəricilər şəhər ekosisteminin həm ekoloji, həm də sosial-iqtisadi baxımdan dayanıqlılıq səviyyəsini müəyyən etməyə imkan verir.

Cədvəl 1. Şəhər ekosistemlərinin müqayisəli qiymətləndirilməsi

Qiymətləndirmə meyarı	Ənənəvi şəhər modeli	Ağıllı şəhər modeli	Yaşıl/ağıllı şəhər modeli
Enerji səmərəliliyi	Enerji istehlakı yüksəkdir, qənaət mexanizmləri zəifdir	Ağıllı sayğaclar və avtomatlaşdırılmış idarəetmə tətbiq olunur	Bərpa olunan enerji və enerji qənaəti birlikdə tətbiq edilir
Tullantı idarəçiliyi	Toplama və utilizasiya əsasən mexaniki formada aparılır	Sensorlu zibil qutuları və optimallaşdırılmış toplama sistemləri istifadə olunur	Təkrar emal, tullantıdan enerji və dövri iqtisadiyyat prinsipləri tətbiq edilir
Su ehtiyatlarından istifadə	Su itkisi və nəzarətsiz istifadə riski yüksəkdir	Ağıllı su sayğacları və monitorinq sistemləri tətbiq olunur	Yağış sularından istifadə və suyun təkrar dövriyyəsi prioritet sayılır
Nəqliyyat və mobillik	Şəxsi avtomobildən asılılıq yüksəkdir	Ağıllı nəqliyyat idarəetməsi və elektron ödəniş sistemləri mövcuddur	İctimai nəqliyyat, piyada və velosiped infrastrukturu ekoloji məqsədlərlə əlaqələndirilir
Rəqəmsal idarəetmə	Xidmətlər əsasən ənənəvi inzibati formada göstərilir	Elektron hökumət, mobil tətbiqlər və məlumat sistemləri geniş istifadə olunur	Rəqəmsal xidmətlər ekoloji monitorinq və vətəndaş iştirakçılığı ilə birləşdirilir
Sosial əlçatanlıq	Xidmətlərə çıxış bərabər olmaya bilər	Rəqəmsal xidmətlər əlçatanlığı artırır	Texnologiya sosial inklüzivlik və həyat keyfiyyətinin yüksəldilməsi ilə əlaqələndirilir
Tətbiq xərci	Nisbətən aşağıdır, lakin səmərəlilik zəifdir	Orta və yüksək investisiya tələb edir	İlkin xərc yüksək ola bilər, lakin uzunmüddətli qənaət və ekoloji fayda yaradır
Ümumi dayanıqlılıq səviyyəsi	Aşağı	Orta-yüksək	Yüksək

Mənbə: Müəllif tərəfindən hazırlanmışdır.

Şəhər ekosisteminin dayanıqlılıq səviyyəsini daha sistemli qiymətləndirmək üçün aşağıdakı

$$SEDI = (E_s \times 0.25) + (T_i \times 0.20) + (S_r \times 0.20) + (R_i \times 0.20) + (S_a \times 0.15)$$

— Şəhər Ekosisteminin Dayanıqlılıq İndeksi,
E_s

— enerji səmərəliliyi göstəricisi,
T_i

— tullantıların idarə olunması və dövri iqtisadiyyat göstəricisi,
S_r

— su və resurslardan səmərəli istifadə göstəricisi,
R_i

— rəqəmsal infrastruktur və ağıllı idarəetmə göstəricisi,
S_a

— sosial əlçatanlıq və tətbiq imkanları göstəricisidir [5].

Bu modeldə hər bir göstərici 1-dən 5-ə qədər balla qiymətləndirilir. 1 bal çox zəif, 2 bal zəif, 3 bal orta, 4 bal yaxşı, 5 bal isə yüksək inkişaf səviyyəsini göstərir. Çəki əmsallarının fərqli verilməsi şəhər ekosistemlərində enerji, tullantı, su və rəqəmsal idarəetmə amillərinin daha mühüm rol oynaması ilə izah olunur.

Cədvəl 2. Şəhər ekosistemi modellərinin indeks üzrə qiymətləndirilməsi

Model	**Enerji səmərəliliyi 0.25**	**Tullantı idarəçiliyi 0.20**	**Su/resurs səmərəliliyi 0.20**	**Rəqəmsal idarəetmə 0.20**	**Sosial əlçatanlıq 0.15**	**Ümumi indeks**
Ənənəvi şəhər modeli	2	2	2	1	2	1.80
Ağıllı şəhər modeli	4	3	3	5	4	3.80
Yaşıl/ağıllı şəhər modeli	5	5	4	4	4	4.45

Mənbə: Müəllif tərəfindən hazırlanmışdır.

Cədvəl 2-dən göründüyü kimi, ənənəvi şəhər modeli dayanıqlılıq baxımından ən aşağı nəticəyə malikdir. Bu modeldə enerji istehlakının yüksək olması, tullantıların idarə olunmasında rəqəmsal mexanizmlərin zəifliyi və su ehtiyatlarından istifadədə səmərəliliyin aşağı olması ümumi indeksin aşağı formalaşmasına səbəb olur. Ağıllı şəhər modeli isə xüsusilə rəqəmsal idarəetmə, elektron xidmətlər, ağıllı nəqliyyat və avtomatlaşdırılmış infrastruktur baxımından daha yüksək nəticə göstərir. Lakin bu modeldə ekoloji komponentlər rəqəmsal komponentlər qədər güclü inkişaf etmədikdə, dayanıqlılıq səviyyəsi tam maksimuma çatmır.

Yaşıl şəhər modeli isə ən yüksək nəticəni göstərir. Bunun əsas səbəbi bu modeldə rəqəmsallaşma ilə ekoloji dayanıqlılığın birlikdə tətbiq edilməsidir. Enerji səmərəliliyi, bərpa olunan enerji mənbələrindən istifadə, tullantıların təkrar emalı, su ehtiyatlarının qorunması və

vətəndaşların rəqəmsal xidmətlərə çıxışı bir-biri ilə əlaqəli şəkildə formalaşdıqda şəhər ekosisteminin ümumi dayanıqlılıq səviyyəsi yüksəlir. Bu baxımdan, Azərbaycan şəhərlərində və xüsusilə Qarabağda həyata keçirilən ağıllı şəhər və ağıllı kənd layihələrinin yalnız texnoloji infrastruktur kimi deyil, həm də ekoloji və sosial dayanıqlılıq modeli kimi qiymətləndirilməsi daha məqsədəuyğundur [4].

Təklif olunan modelin üstünlüyü ondan ibarətdir ki, o, şəhər ekosistemlərinin qiymətləndirilməsini yalnız təsviri səviyyədə saxlamır, müxtəlif şəhər modellərini konkret meyarlar üzrə müqayisə etməyə imkan verir. Beləliklə, tədqiqatda nəzəri yanaşma ilə yanaşı, sadə analitik qiymətləndirmə mexanizmi də formalaşır. Bu isə işin elmi-praktiki əhəmiyyətini artırır və şəhər ekosistemlərinin dayanıqlılıq səviyyəsinin ölçülməsi üçün tətbiq oluna bilən metodoloji baza yaradır.

NƏTİCƏLƏR VƏ MÜZAKİRƏ

Yuxarıda göstərilən məlumatlara əsasən deyə bilərik ki, şəhərin resurs axınlarını və istehlak strukturunu qiymətləndirən göstəriciləri və şəhər dayanıqlılığı göstəriciləri şəhər dayanıqlılığı göstəricilərinin ölçülməsində alternativ vasitələrdir. Hazırda dünyada müxtəlif dayanıqlı şəhər göstərici sistemləri mövcuddur. Qeyd etmək lazımdır ki, dayanıqlılıq göstəricilərinin ölçülməsi prosesində şəhərlərin spesifik iqtisadi, sosial və ekoloji ehtiyaclarına uyğunlaşdırılmış göstərici sistemlərindən istifadə dəqiq, qənaətbəxş, inkişaf və rasional nəticələr əldə etməkdə təsirli ola bilər. Bu gün şəhərlər iqtisadi inkişaf, sosial, ekoloji və insan tərəqqisi üçün katalizator rolunu oynayan yaşayış məkanlarıdır. Lakin sürətli urbanizasiya və infrastruktur investisiyalarının olmamasından irəli gələn sosial, ekoloji və ekoloji problemlər şəhər həyatını təhdid etməyə başlayıb. Davamlı urbanizasiya yanaşması şəhərlərin iqtisadi inkişafına sosial və ekoloji məsuliyyət və ehtiyaclarla inteqrasiya olunmuş şəkildə nail olmağı hədəfləyir. Davamlı şəhərlərin yaradılması kontekstində zəruri dəyişikliklərin və transformasiyaların idarə olunmasında şəhərlərdə yaşayan insan icmalarına ən yaxın inzibati vahidlər olan və iştirakı təşviq edən yerli hökumətlər mühüm rol oynayırlar. Şəhərlər həm yerli, həm də qlobal mühitlərə və ekologiyaya əhəmiyyətli təsir göstərir. Davamlı şəhər yanaşması şəhərlərin ekosistemlərə mənfi təsirlərini minimuma endirməyi və icma rifahı, sağlam ətraf mühit, sosial ədalət, həyat keyfiyyəti və şəhərlər daxilində bərabər yaşayış sahələri kimi komponentləri effektiv şəkildə təşviq etməyi hədəfləyir. Bu çərçivədə fəaliyyət göstərən yerli hökumətlər yalnız siyasət hazırlamaqdan deyil, həm də bu siyasətlərin uğur səviyyəsini müəyyən etmək üçün şəhər dayanıqlılığı göstəricilərini kəmiyyətcə və rasional şəkildə ölçməkdən məsuldurlar.

NƏTİCƏ

Davamlılıq göstəricilərinin ölçülməsi şəhərlərə uyğun göstəricilər vasitəsilə həyata keçirilir. Fəaliyyət göstəriciləri yerli hökumətlərə idarə etdikləri şəhərlərin mövcud vəziyyətini müəyyən etmək, problemli sahələri müəyyən etmək, onları həll etmək üçün siyasətlər hazırlamaq, hazırlanmış siyasətlərin uğur səviyyəsini ölçmək, ətraf mühit, sosial və iqtisadi problemlərlə əlaqəli müdaxilələrin uğurunu və ya uğursuzluğunu müəyyən etmək və ətraf mühit strategiyalarını nəzərdən keçirmək kimi imtiyazlar verir. Bununla belə, qeyd etmək lazımdır ki, şəhərlərin sosial, ekoloji və iqtisadi strukturlarına xas olan və dayanıqlılıq tələblərinə uyğunlaşdırılmış göstəricilərdən istifadə rasional nəticələr əldə etmək üçün vacibdir.

ƏDƏBİYYAT SİYAHISI

, 1–10.

, 215–230. https://doi.org/10.1016/j.esd.2023.04.008

ahin, A., & Yılmaz, H. F. (2019). Akıllı kent uygulamaları: Stockholm ve Bursa üzerinden b
eker, A. (2021). Sürdürülebilirlik ve dijitalleşme. In İ. Erdoğan Tarakçı & B. Göktaş (Eds.), *Dijital gelecek dijital dönüşüm* (pp. 365–384). Efe Akademi Yayınevi.

d
e
ğ
(
4
3
)
,

2
8
9
7
–

H
Y
P
E
R
L
I
N
K

"
h
t
t
p
s
:
/
/
d
x
.
d
o
i
.

TURİZM MARŞRUTLARININ TƏŞKİLİNDƏ TƏHLÜKƏSIZLIK MƏSƏLƏLƏRİ

Safety Issues in Organization of Tourist Routes

ADİL YUSUBOV
Adil Yusubov
adil. yusubov. ynm24@mdu. edu. az
https://orcid. org/0009-0003-4021-1937
Mingəçevir Dövlət Universiteti

Mingachevir State University

XÜLASƏ

Bu tezisdə turizm marşrutlarının təşkili prosesində təhlükəsizlik məsələləri geniş şəkildə araşdırılır və bu sahənin təhlükəli yüklərin daşınması ilə əlaqəsi izah edilir. Müasir nəqliyyat infrastrukturunda turizm məqsədli daşımalarla sənaye və logistika yönümlü daşımaların eyni marşrutlar üzrə həyata keçirilməsi risklərin artmasına gətirib çıxarır. Xüsusilə təhlükəli yüklərin daşınması zamanı baş verə biləcək qəzalar və fövqəladə hallar turizm obyektləri, turistlərin həyat və sağlamlığı, eləcə də ətraf mühit üçün ciddi təhlükə yaradır. Tezisdə risklərin qiymətləndirilməsi, marşrutların düzgün planlaşdırılması, zonalaşdırma, vaxt məhdudiyyətlərinin tətbiqi, normativ-hüquqi tənzimləmə və institusional koordinasiya məsələləri ətraflı şəkildə izah olunur.

Açar sözlər: *Turizm marşrutları, təhlükəsizlik, nəqliyyat infrastrukturu, təhlükəli yüklər, risklərin idarə edilməsi, fövqəladə hallar*

ABSTRACT

This thesis extensively examines safety issues in the process of organizing tourist routes and explains the connection of this area with the transportation of dangerous goods. In modern transport infrastructure, the implementation of tourism-oriented transportation with industrial and logistics-oriented transportation on the same routes leads to increased risks. Accidents and emergencies that may occur, especially during the transportation of dangerous goods, pose a serious threat to tourism facilities, the life and health of tourists, as well as the environment. The thesis explains in detail the issues of risk assessment, proper planning of routes, zoning, application of time restrictions, regulatory and legal regulation and institutional coordination.

Keywords: *Tourism routes, security, transport infrastructure, dangerous goods, risk management, emergencies*

GİRİŞ

Turizm sənayesi dünyada ən sürətlə inkişaf edən sahələrdən biri kimi ölkələrin iqtisadiyyatına, məşğulluğun artırılmasına və regionların sosial inkişafına mühüm təsir göstərir. Bu sahənin davamlı inkişafında turizm marşrutlarının düzgün planlaşdırılması əsas rol oynayır. Marşrutların hazırlanması zamanı coğrafi, iqtisadi, ekoloji və sosial amillərlə yanaşı, təhlükəsizlik məsələləri də xüsusi diqqət tələb edir. [2]

Müasir nəqliyyat sistemlərinin çoxşaxəli fəaliyyəti turizm marşrutlarının sənaye və logistika daşımaları ilə eyni yollar üzərində kəsişməsinə səbəb olur. Xüsusilə təhlükəli yüklərin daşınması bu vəziyyətdə risklərin artmasına gətirib çıxarır və turizm təhlükəsizliyinə birbaşa təsir edir. Buna görə də turizm marşrutlarının təşkili təhlükəli yüklərin daşınması ilə bağlı amillər nəzərə alınmaqla daha kompleks yanaşma tələb edir. [3]

MATERİAL VƏ METODLAR

Turizm marşrutlarının təhlükəsizliyi turistlərin həyat və sağlamlığının qorunması, əmlakın mühafizəsi, ətraf mühitin balansının saxlanılması və fövqəladə hallara hazırlıq səviyyəsinin təmin olunması ilə bağlıdır. Bu anlayış bir neçə əsas istiqaməti əhatə edir:[1]

- nəqliyyat təhlükəsizliyi;
- texniki və texnoloji təhlükəsizlik;
- ekoloji təhlükəsizlik;
- informasiya təhlükəsizliyi;
- fövqəladə hallara operativ reaksiya mexanizmləri.

Bu istiqamətlərin hər biri turizm marşrutlarının həm planlaşdırılması, həm də istifadəsi zamanı nəzərə alınmalıdır. Onların içində nəqliyyat təhlükəsizliyi xüsusilə vacibdir, çünki marşrutların fasiləsiz və təhlükəsiz işləməsi birbaşa ondan asılıdır. [5]

Təhlükəli yüklərin daşınmasının xüsusiyyətləri və təsir dairəsi

Təhlükəli yüklər insan sağlamlığına, ətraf mühitə və maddi dəyərlərə zərər verə bilən fiziki, kimyəvi və ya bioloji xüsusiyyətlərə malik maddələrdir. Bu kateqoriyaya yanıcı, partlayıcı, zəhərli, korroziyaedici və radioaktiv materiallar daxildir. [8]

Belə yüklərin daşınması zamanı baş verə biləcək qəzalar müxtəlif ağır nəticələrə səbəb ola bilər. Bunlara turistlər arasında xəsarət və itkilər, turizm obyektlərinin fəaliyyətinin dayanması, təbii mühitin çirklənməsi, nəqliyyat infrastrukturunun zədələnməsi və regionun turizm imicinin zərbə alması daxildir.

Bu cür risklər daha çox turizm marşrutları təhlükəli yüklərin intensiv daşındığı magistral yollarla üst-üstə düşdükdə artır və nəticələr daha ciddi ola bilir. [10]

Turizm marşrutları ilə təhlükəli yüklərin daşınmasının kəsişməsi

Turizm marşrutları ilə təhlükəli yüklərin daşınması bir sıra əsas sahələrdə üst-üstə düşür. Bu kəsişmələr daha çox aşağıdakı yerlərdə müşahidə olunur:

- beynəlxalq və respublika əhəmiyyətli avtomobil yollarında;
- dəmir yolu xətlərinin yaxınlığında yerləşən turizm zonalarında;
- liman və hava limanı ətrafında yerləşən turizm obyektlərində;
- sənaye və logistika mərkəzlərinə yaxın rekreasiya ərazilərində.

Belə ərazilərdə risklərin düzgün qiymətləndirilməməsi fövqəladə hadisələrin baş vermə ehtimalını artırır. Buna görə də turizm marşrutlarının planlaşdırılması zamanı həmin yollar üzrə təhlükəli yüklərin daşınma sıxlığı mühüm amil kimi nəzərə alınmalıdır. [7]

Risklərin qiymətləndirilməsi və idarə olunması

Turizm marşrutlarının təhlükəsiz təşkili üçün risklərin sistemli şəkildə qiymətləndirilməsi vacibdir. Risklərin idarə olunması aşağıdakı mərhələləri əhatə edir:

a. potensial təhlükə mənbələrinin müəyyənləşdirilməsi;
b. risklərin ehtimal və nəticə baxımından qiymətləndirilməsi;
c. risklərin azaldılması üzrə tədbirlərin planlaşdırılması;
d. monitorinq və nəzarət mexanizmlərinin tətbiqi.
